BƏXTİYAR VAHABZADƏ

ƏSƏRLƏRİ

XII

BƏXTİYAR VAHABZADƏ

ƏSƏRLƏRİ

(Publisistika)

On iki cilddə

XII *cild*

Bakı - 2009
"ELM" nəşriyyatı

Tərtibçi, ön söz müəllifi və redaktoru
Ramazan Qafarlı

Bəxtiyar Vahabzadə. Əsərləri. ***On iki cilddə. XII cild (Publisistika)***. - Bakı, "Elm" nəşriyyatı, 2009. - 848 s.

İSBN 5-86874-037-8

4702060000
V ——————— Qrifli nəşr
055 (12) - 2009

© B.Vahabzadə - 2009

MÜƏLLİFDƏN*

Həmişə yaradıcılıqla məşğul olduğumdan əsərlərimi külliyyat halında toplayıb mövzular üzrə tərtib etməyə imkanım olmayıb. Amma gənclik illərimdən bu günə qədər həmişə bu vacib məsələ barədə düşünmüş, gerçəkləşdirə bilməmişəm.

Bu arzumu gerçəkləşdirməyi qələm dostum Ramazan Qafarlıya bildirmiş, ondan bu məsələni gerçəkləşdirməyin yolunu tapmağı xahiş etmişdim.

Nəhayət, bu arzumu könül dostum, həmyerlim Ramazan Qafarlı və iş adamı Cavanşir Feyziyev gerçəkləşdirməyə söz verdilər. 2007-ci ildən başlayaraq onlar külliyatımın nəşrinə başladılar.

Bu iki xeyirxahıma – Cavansir Feyziyevə və Ramazan Qafarlıya təşəkkürlərimi bildirirəm.

08.12.2008

Bəxtiyar Vahabzadə

*B.Vahabzadə "Müəllifdən" başlıqlı yazısını külliyatının son cildində çap olunmaq üçün ölümünə təxminən iki ay qalmış yazmışdı. Yeni il qabağı mənə zəng edib dedi ki, yeni yazılarım var, gəl onları sənə verim, ürəyim rahat olsun. Şairlə görüşdüm, axır çağlarda iki xatirə, bir neçə şeir parçası qələmə almışdı. "Son yazılarımdır - dedi, - daha əllərim qələm tutmur, lazım bilsən, külliyatıma daxil edərsən". Sonra qovluqları açıb-tökdü, nəsə axtarmağa, bərk narahatlıq keçirməyə çaşladı. Bildirdi ki, sonuncu cild üçün yazdığım müəllif sözünü axtarıram... Çox əlləşdi, ancaq yazdığı vərəq tapılmadı. Nahar edib ayrılanda onun qanının qaraldığı hələ də üzündən silinməmişdi. Həmin gün saat 18 radələrində şair yenidən mənə zəng etdi. Dedi ki, "Yazını tapmışam, incimə, gəl götür, sonra yenə qoyduğum yeri unudacağam..." Bu son yazısında Cavanşir müəllimlə mənə təşəkkürünü ifadə etdiyini gördüm. "Bəxtiyar müəllim, - dedim, - vallah, buna ehtiyac yox idi. Sizin bu qədər narahat olmağınıza dəyməz". Dedi: "Söz ver ki, bu yazımı olduğu kimi son cildə qoyacaqsan..." Söz verdiyimdən 12-ci cildi şairin "Müəllifdən" başlıqlı yazısı ilə başlayıram *(Tərtibçi-redaktordan)*.*

Müəllifdən

Həmişə yaradıcılıqla məşğul olduğumdan əsərlərimi külliyyat halında toplayıb nəşrə hazırlamaq, tərtib etmək imkanım olmayıb. Amma şəxsi kitabxanamda bəzən qələmə aldığım hekayələrimi, gəzərkən yazdığım bəzən də dəftərimə, gəzərkən yazmağı qərara aldığım Bu azarımı Qafqazlıya bildirmiş, onun da dostum Ramazan masalarını gəzərkən yazmağın yolunu tapmağı xahiş etmişdim.

Nəhayət, bu arzum könül dostum, həmyerlim Ramazan Qafqazlı və işadamı Cavanşir Feyziyev gerçəkləşdirməyə söz verdiyinə görə, 2008-ci ildən başlayaraq onların külliyatımın nəşrini başladılar.

Bu iki xeyirxahım - Cavanşir Feyziyev və Ramazan Qafqazlıya təşəkkürümü bildirirəm.


02.12.2008.

B. Vahabzadə





ÇIXIŞLAR, RƏYLƏR, MƏKTUBLAR



Həyatın elə qanunları var ki, insan ona qarşı dura bilməz. Əgər dursa, özü pis vəziyyətdə qalar. Ölkə bir yana, adicə bir ailəni götürək. Oğlunu evləndirəndən 3 gün sonra əlində böyütdüyü uşağın dili çıxır. Deyir, daha sənlə bir yerdə yaşamaq istəmirəm...

B. Vahabzadə



PARLAMENT KOMİSSİYASININ YARADILMASI LABÜDDÜR

Hörmətli millət vəkilləri!

Bu gün hər yerdə və hamı respublikamızın müstəqilliyindən və suverenliyindən danışır. Beləliklə də, müstəqillik tələb və fikirlərimizin mübtədasına çevrilib. Bu, sözsüz, yaxşı haldır. Lakin burda bir mühüm mətləbdən vaz keçə bilmərik. Bu da ondan ibarətdir ki, müstəqil olmaq, bizim indiki haqqımız deyil, bunun 73 illik tarixi var. Biz bu gün müstəqilliyi almaq məsələsini deyil, bərpa eləmək məsələsini qaldırırıq. Bunun üçün tariximizə baş vurmalıyıq:

1918-ci il, 28 may istiqlalı milli varlığımızın pozulmaz alın yazısıdır. Bu istiqlal yaddaşı, bu müstəqil dövlət varlığımızın iki illik təcrübəsi silinməz bir rəmzə çevriləcək, bu gün də xalqımızın müstəqil, suveren dövlət qurmaq yoluna işıq saçmaqdadır.

Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazda hərbisiyasi vəziyyətin çox kəskin olduğu bir dövrdə yarandı. Ziddiyyətlər genişlənir, milli mənafelər daha sərt şəkildə toqquşurdu. Bu dövrdə Azərbaycanın türk yurdu kimi qalıb-qalmaması məsələsi həll olunurdu; Azərbaycan öz tarixinin faciəli çağlarını yaşayırdı.

Mövcud siyasi vəziyyət təxirə salınmadan xalqı ağır vəziyyətdən çıxarmaq, milli dövlət qurumlarının yaradılmasını tələb edirdi. Belə bir şəraitdə Azərbaycan müstəqil və suveren bir dövlət kimi bütün dünyada

elan edildi. Şərqdə ilk dəfə hüquqi dövlət prinsipləri tətbiq edildi, müasir, yeni tipli cəmiyyətin əsası qoyuldu.

Paris sülh konfransının Ali Şurası 1920-ci il, 11 yanvar tarixli qərarı ilə bir səslə Azərbaycanın istiqlaliyyətini rəsmən tanıdı. Bu vaxt Azərbaycan Respublikasının Gürcüstan, Ermənistan, İran və Türkiyənin paytaxtlarında səfirlikləri, Təbriz, Ənzəli, Pəşt, Əhər, Xoy, Məşhəd, Batum, Aşqabad və b. şəhərlərdə müxtəlif səviyyədə diplomatik nümayəndələri var idi. Bakıda isə Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İsveç, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiyanın rəsmi nümayəndəlikləri yerləşirdi. Fevralın 7-də general Denikin rəsmi olaraq Azərbaycanın istiqlaliyyətini tanıdı, bir az sonra Yaponiya Azərbaycanla diplomatik əlaqələr yaratmaq istədiyini bildirdi.

Əlimərdan bəy Topçubaşov Parisdə, Mahmud bəy Əfəndiyev Acarıstanda, Adilxan Ziyadxan İranda, A.Sadıqov Türküstanda, M.Təkinski Ermənistanda, Zəfər bəy Rüstəmbəyli Kubanda, Yusif bəy Vəzirov Türkiyədə Azərbaycanın rəsmi elçiləri idi. Qərbi Avropa və Amerikada Azərbaycan Xalq Cümhuriyyətinin səfirliklərinin yaradılması haqqında qərar qəbul edilmiş, Polşa, İngiltərə, Fransa, İsveçrə, İtaliya və ABŞ-da Azərbaycan səfirliklərinin müvəqqəti ştatı və smetası təsdiq edilmişdi.

Lakin Azərbaycanın şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Sovet Rusiyası, Qərb və qonşu Asiya ölkələrindən fərqli olaraq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyini tanımaqdan inadla boyun qaçırır, hər vasitə ilə onun daxili işlərinə qarışmağa cəhd edirdi. RSFSR hökuməti Azərbaycan milli dövlətini tanımaqdan boyun qaçırdığı bir şəraitdə, onun qarşısında siyasi, hərbi və diplomatiya baxımından yerinə yetirilməz ultimatum tələbləri qoyurdu. Belə ki, özü Azərbaycanı tanımadığı bir halda Azərbaycan Cümhuriyyətindən, onu milli dövlət kimi tanımış general Denikinə müharibə elan etməyi tələb edirdi. Bu baxımdan RSFSR xarici işlər komissarı Çiçerinin Azərbaycan Cümhuriyyətinə verdiyi notalar səciyyəvidir. Azərbaycan hökuməti respublikanın müstəqilliyinin tanınması haqda danışıqlara başlanmasını təklif edir və müsbət cavab ala bilmirdi.

Sovet Rusiyası hökumətinin Azərbaycan haqqındakı əsl niyyətini V.İ.Leninin İ.T.Smilqaya və Q.K.Orconikidzeyə hələ 17 mart 1920-ci ildə vurduğu aşağıdakı teleqramdan aydın görmək olar: "Bakını almaq bizə olduqca və olduqca zərurudir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır".

1920-ci il aprelin ortalarında artıq XI Qızıl Ordu Azərbaycanın dövlət sərhəddinə yaxınlaşmışdı. Qafqaz Diyar Komitəsi, Azərbaycan R(b)P MK-sı və XI Qızıl Ordunun komandanlığı V.İ.Leninin və RK(b) P MK-nın göstərişlərinə əsasən, birgə yürüş planı işləyib hazırladılar. Bu planda nəzərdə tutulurdu ki, Bakıda "zəhmətkeşlərin" silahlı üsyanı keçiriləcək və bununla bağlı olaraq, XI Ordunun 20, 28, 32-ci atıcı diviziyaları və iki atlı korpusu Petrovski dəmiryolu boyunca Azərbaycanın paytaxtına gözlənilmədən zərbə endirəcək.

Çox maraqlıdır ki, son günlərə qədər XI Ordunun əməliyyat planında, Leninin yuxarıda gətirilən direktivinə uyğun olaraq, yalnız Bakı quberniyasının ələ keçməsi nəzərdə tutulurdu. Çünki Sovet Rusiyası Bakı nefti olmadan yaşaya bilmirdi. Yalnız aprelin 23-də, yəni XI Ordunun hücumundan cəmi 4 gün qabaq Qafqaz cəbhəsinin komandanı Tuxaçevskinin əmri ilə bu orduya təkcə Bakı quberniyasını deyil, Azərbaycan Xalq Cümhuriyyətinin bütün ərazisini tutmaq tapşırıldı.

Bakı bolşevikləri ilə XI Ordunun hərbi-inqilab şurasının razılaşdırılmış planına əsasən bu ordu Azərbaycan ərazisinə Bakıda üsyan başladıqdan bir-iki gün sonra daxil olmalı idi. Lakin gözlədikləri olmadı. Bakıda üsyan baş vermədi. Buna görə də artıq aprelin 27-də gündüz Azərbaycan sərhədini keçdilər. Bu, suveren bir dövlətin heç nə ilə əsaslandırılmayan işğalı idi. Eyni zamanda, həmin gün saat 12-də Azərbaycan Parlamentinə Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Azərbaycan K(b)P MK adından hakimiyyəti təhvil vermək barədə ultimatum verildi. Parlament dinc əhali arasında tələfata və qan tökülməsinə yol verməmək üçün axşam saat 11-də hakimiyyəti aşağıdakı şərtlərlə azərbaycanlı kommunistlərə təhvil vermək barədə qərar qəbul etdi:

1 - Rus Ordusu Bakıya daxil olmadan Türkiyəyə köməyə dəmiryolu

ilə gedəcək,

2 - Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü hər cür irticaçı hərəkətdən və qəsbkarlıqdan etibarlı şəkildə qorunacaq;

3 - Azərbaycan ordusu saxlanılacaq;

4 - Azərbaycanda siyasi partiyaların tam fəaliyyət azadlığı təmin ediləcək;

5 - Keçmiş dövlət xadimləri, hökumət və parlament üzvləri təqib olunmayacaq, hökumət idarələrində məsul vəzifələrdə olanlardan başqa, qalan bütün qulluqçular öz iş yerlərində saxlanılacaq;

6 - Azərbaycanın idarəetmə forması, qəti olaraq, Azərbaycanın ali qanunverici orqanında müəyyən olunacaq.

Ertəsi gün, gündüz saat 2-də Azərbaycan inqilab komitəsi - Azrevkom - Sovet hökumətinə rəsmi surətdə müraciətlə "Qızıl Ordu dəstələrini göndərməklə təcili real kömək etməyi" xahiş etdi. Ancaq, əslində, belə "çağırışa" heç bir ehtiyac yox idi, çünki XI Qızıl Ordu artıq ikinci gün idi ki, Azərbaycan ərazisində idi. (Məqsəd, gələcəkdə müstəqil Azərbaycan hökumətini azərbaycanlıların özləri tərəfindən devrildiyini göstərmək idi).

Bakıdan sonra XI Ordu hissələri Quba, Şamaxı, Kürdəmir, Zaqatala, Gəncə, Lənkəran, Astara və b. yaşayış məntəqələrini zəbt etdilər, Gəncə, Zaqatala, Lənkəran qəzasında, Qarabağın dağlıq hissəsində, o sıradan Şuşada xalq çıxışlarını amansızlıqla yatırdılar.

Tezliklə Rusiya ilə Azərbaycan Sovet Respublikası arasında təsərrüfat orqanlarını, yol, nəqliyyat, maliyyə, xarici ticarət, poçt və teleqraf, hərbi qüvvələri birləşdirməyi nəzərdə tutan iqtisadi və hərbi "ittifaq" barədə müqavilə imzalandı. Beləliklə, Azərbaycan "müstəqil respublika" formasını və adını formal olaraq saxlasa da, əslində, qısa

müddət ərzində Sovet Rusiyası tərəfindən işğal edildi.

Bütün deyilənləri nəzərə alaraq, bu gün Azərbaycan Respublikasının bu yüksək parlament kürsüsündən siz hörmətli millət vəkillərini təkzib olunmaz bu tarixi faktlarla hesablaşmağa çağırıram. Yüksək respublika Parlamentinə isə milli Dövlətimiz olan Azərbaycan Xalq Cümhuriyyətinin xarici hərbi müdaxilə və güc işlətmək siyasəti ilə

işğal edilib, qeyri-qanuni bir təcavüz aktı kimi qiymətləndirilməsini təklif edirəm.

Təklif edirəm ki, bu məsələnin bütün aspektlərinin öyrənilib üzə çıxarılması üçün ayrıca parlament komissiyası yaradılsın.

1991.

"Yanan da mən, yaman da mən", Bakı, 1995.



DEMOKRATİYA, YOXSA TOTALİTARİZM?

Hörmətli millət vəkilləri!

Yenidənqurma xalqa aşkarlığın, demokratiyanın verilməsi ilə başladı. Ən böyük səhv isə elə bu idi. Ona görə ki, köhnə sistemi saxlamaqla, bu sistemə daban-dabana zidd olan demokratiyaya meydan vermək düz deyildi. Çünki demokratiya ilə totalitar sosializm bir yerə sığan məfhumlar deyil. Çünki demokratiya zorakılıq sistemini mütləq dağıtmalıdır. Əgər gecə ilə gündüz, xeyirlə şər, ağla qara, matəmlə toy bir yerə sığa bilərsə, totalitar sistemlə demokratiya və aşkarlıq da bir yerdə yaşaya bilər.

Bu isə mümkün olan iş deyil.

İndi sistemi saxlamaqla 70 il ağzı bağlanmış xalqa demokratiya verilib. Buna görə də 70 il düz sözə, həqiqəti deməyə həsrət qalan xalqın gözü və dili açılıb, hərənin ağzından bir avaz gəlir. Bundan sonra mərkəz bu avazları yığışdırmaq fikrinə düşüb. Uzun müddət ota həsrət qalan qoyun-quzunun ağzını indi Mərkəz boza verməyə çalışır. Lakin bu, artıq mümkün deyil.

Hələ min il bundan əvvəl böyük İran şairi Firdovsi, "Şahnamə" epopeyasında belə bir əfsanə danışır: Zülmkar, qəddar, despot Zöhhakın çiyinlərindən 3 ilan peyda olur. Bu ilanların qidası insan beyni imiş. Onlar insan beyni yeməsə yaşaya bilməzmiş. Burdan çıxan nəticə

nədir? Despotizmin, zorakılığın yaşaması üçün məzlum insanların beyni yeyilməlidir. Yəni, despotizmin yaşaması üçün beyinlər, düşüncədən məhrum edilməlidir. Çünki insan beyni düşünərsə, o, mütləq zorakılığa, despotizmə qarşı çıxmalıdır. İnsan beyni zorakılıqla yola gələ bilməz. Bu pozulmaz qanun dünyanın bütün totalitar sistemlərində tətbiq olunmuş, bu şəraitdə yaşayan zavallıların beyninə qıfıl, dilinə qadaq vurulmuşdur. İndi beyinlərdən qıfılı, dillərdən qadağı götürüblərsə və insanlar istədiyini deyə bilirsə, burda günah kimdədir? Məgər Stalin rejimində, durğunluq dövründə düşüncəsiz və dilsiz yaşamırdıq? Bizim beynimizdə qıfılı, dilimizdən qadağı Mərkəzin özü götürmədimi? İndi həm düşünürük, həm də danışırıq! Əgər belə isə, indi Mərkəz bizdən nə istəyir? Deyir, indi də o düşündüyü kimi düşünək? Axı, olmur...

Durğunluq illərində beynimizi gəmirən fikirləri açıq yaza bilmir, hadisəni başqa ölkələrə keçirib sözümü deyirdim. 1968-ci ildə Asiya və Afrika yazıçılarının Daşkənd müşavirəsində iştirak edirdim. Öz fikrimi bir afrikalı yazıçının dili ilə belə ifadə eləmişdim: Guya afrikalı yazıçı imperiya dövlətlərinə müraciətlə belə deyir:

Sizin kimi bir insanıq,
Biz nə daşıq, nə dəmirik.
Yetər, artıq biz heç kəsə
Yamaq olmaq istəmirik.
Yaman dərddir,
Özgəsinə yamaq olmaq,
Yaman dərddir
Azadlığın həsrətinə damaq olmaq.
Yaman dərddir
Gözün ola,
amma görə bilməyəsən.
Yaman dərddir
Əlin ola,
Evindəki zir-zibili
Sən süpürə bilməyəsən.

Yaman dərddir
Dilin ola,
Nə danışıb, nə dinəsən.
Yaman dərddir
Ağlın ola,
Özgəsinin ağlı ilə düşünəsən.

Bəli, artıq özgəsinin ağlı ilə düşünmək dövrü keçdi.

Həyatın elə qanunları var ki, insan ona qarşı dura bilməz. Əgər dursa, özü pis vəziyyətdə qalar. Ölkə bir yana, adicə bir ailəni götürək. Oğlunu evləndirəndən 3 gün sonra əlində böyütdüyü uşağın dili çıxır. Deyir, daha sənlə bir yerdə yaşamaq istəmirəm.

Müstəqil və azad yaşamaq insanın təbiətindədir. Bu təbiəti zorlamaq olmaz. Əgər zorlasan, özün hörmətdən düşərsən. Müstəqil yaşamaq istəyi, gəlirini-çıxarını, xeyrini-şərini bilmək məgər günahdır?

1991.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



HAQQIN QƏLƏBƏSİ LABÜDDÜR

(Baltik xalqlarının Stokholmda keçirilən müstəqillik uğrunda mübarizə mitinqindəki nitq)

Əziz dostlar, çox şadam ki, bu gün burada Azərbaycan xalqı adından Baltik xalqlarının müstəqillik uğrundakı mübarizəsi ilə həmrəy olduğumu bildirmək üçün mənə imkan verilib.

Mən Baltik xalqlarını ürəkdən salamlayır və onlara haqq işlərində uğur arzulayıram.

Bu gün Azərbaycan xalqı da azadlığı uğrunda mübarizə aparır və bu mübarizədə qurbanlar verir.

1990-cı ilin yanvar ayını bizim xalqımız "Qara yanvar" adlandırır. Çünki həmin ayın 19-dan 20-ə keçən gecə güllələrə hədəf olmuş, tankların altında qalmış günahsız insanların faciəsi bütün Azərbaycan xalqının, əslində isə bütün tərəqqipərvər bəşəriyyətin faciəsi idi.

Həlak olmuş bu insanların arasında azərbaycanlı qadın və uşaqlarla bərabər ruslar da, yəhudilər də var idi. Və bu cəhət azadlıq mübarizəsinin beynəlmiləl mahiyyətini bir daha sübut edir.

90-cı illərin qara yanvarından 1 il sonra Vilnüs faciəsi baş verdi və Azərbaycan xalqı Litva xalqının faciəsini öz faciəsi kimi qəbul etdi. Bu hadisə bir daha göstərir ki, azadlıq mübarizəsində xalqlar bir-birləri ilə həmrəy olmalıdır. Çünki yalnız həmrəylik bizi gələcək faciələrdən xilas

edə bilər.

Mən bizim Stokholmdakı toplantımızı da məhz həmrəylik mənasında əhəmiyyətli hadisə hesab edirəm. Mən çox arzu edirəm ki, İsveçdə yaşayan azərbaycanlı mühacirlərlə Baltik xalqlarının mühacirləri məhz belə bir həmrəylik əsasında dostluqlarını inkişaf etdirsinlər.

Baltik Xəzər dənizindən uzaqlardadır. Lakin Azərbaycan xalqının simasında Xəzər sahillərində Baltik xalqlarının böyük dostu və xeyirxahı var. İstərdim ki, bu həqiqəti Baltik yanı ölkələrin xalqları bilsin.

Bizim işimiz haqq işidir. Haqqın qələbəsi isə labüddür.

1991.

"Yanan da mən, yaman da mən", Bakı,1995.



TÜRK XALQLARININ BİRLİYİ

(1993-cü il, 21-25 martda Antalya şəhərində keçirilən "Türk Dövlət və Topluluqları, dostluq, qardaşlıq və iş birliyi" qurultayında nümayəndələr adından deyilən son söz)

Hörmətli xanımlar, bəylər!

Bu gün bu çadırın altında dünyanın üç qitəsindən gəlmiş, dünyanın üç dininə mənsub olan bütün türk qardaşlarımı salamlamaqla özümü həqiqətən bəxtiyar hesab edirəm. Biz bu gün Türkiyəmizə - bu dədə yurduna, bu ata ocağına xoş gəlmişik.

Bu gün bizim bu qurultayımızın məhz Türkiyədə keçirilməsi təsadüfi deyil. Çünki əksər dünya türklərinin əsir olduğu zamanlar Türkiyə yeganə müstəqil Türk Dövləti olaraq öz bayrağında ayulduzumuzu qoruyub saxlamış və başqa türklərin də istiqlal haqqını dünya ictimaiyyətinə çatdıran təkcə Dövlət idi. İstiqlal uğrunda mübarizə aparan dünya türklərinin böyük liderini bolşeviklərin əli ilə öz ölkələrindən didərgin düşəndə Türkiyə onlara ana qucağını açmış, onların mühacir Dövlətini və bayrağını qoruyub saxlamışdır. Biz bunu heç zaman unutmarıq. Buna görə də bu gün qurultayımızı keçirdiyimiz ana Türkiyəmizi dünya türklüyünün mərkəzi bilir, paytaxtı sanırıq.

Öz qurultaylarını həmişə çadırda keçirən əcdadlarımızın ruhu indi yəqin ki, bizim bu çadırın ətrafına dolanır və bu gün bizim bu birliyimizə şad olur.

Sovet imperiyası illərində biz bugünkü birliyi yalnız röyalarımızda görə bilərdik. Şükür Allaha, bu gün bizim röyalarımız həqiqətə çevrilmişdir.

Keçən əsrin sonlarında böyük Krım türkü İsmayıl Qaspralı "Dildə bilirik, fikirdə birlik, işdə birik" - deyə dünya türklərini birliyə çağırmış və hələ o zaman bugünkü və sabahkı birliyimizin bünövrə daşını qoymuşdu. Bu böyük işdə mən iki adamın xidmətlərini xüsusi vurğu ilə qeyd etmək istəyirəm.

Bir zaman Sovet imperiyasının darmadağın olunacağını və onun xarabaları üzərində Türk dövlətləri yaranacağını deyəndə çoxları Alparslan Türkeşə gülür və bu fikrin boş bir xəyal və ya röya olduğunu iddia edirdilər. Amma zaman göstərdi ki, o öz uzaqgörənliyi ilə vaxtı qabaqlamışdı. Ona görə də bu gün türk xalqlarının toplaşdığı bu çadırda mən ilk növbədə A.Türkeş bəyi təbrik edir və deyirəm: Bugünkü bu qələbə sənin qələbəndir!

Türk birliyinin həyata keçirilməsində çox böyük xidmətləri olan ikinci adam professor Turan bəy Yazqandır. O, müstəqil türk dövlətləri yaranan kimi, canı, qanı və bütün imkanları bahasına keçmiş Sovet respublikalarında müxtəlif ixtisaslar üzrə kurslar, məktəblər açdı və bu ideyanın reallaşması yolunda əlindən gələni əsirgəmədi.

Mən bu yüksək kürsüdən bütün türk xalqlarının nəzərini qədim türk torpağı olan Qarabağın arxalı köpək timsallı erməni işğalına yönəltmək istəyirəm. Bu gün ermənilər dünyanın iki super dövləti olan Rusiya və Fransa ilə hərbi ittifaqa girmiş, bizi təkləmişlər. İndi təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində türk qanı axıdılır. Bu qanın qarşısın isə yalnız bizim birliyimiz ala bilər. Sözümün sonunda türk xalqlarının qurultayını bu səviyyədə təşkil edən ev sahiblərinə - yəni baba ocağının sahiblərinə bütün nümayəndələr adından təşəkkürümüzü bildirirəm.

Mart 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ƏZİZİM
GƏRAY BƏY!

Salam!

Təsadüfən "Hikmət" qəzetinin 13 iyul tarixli nömrəsi əlimə keçdi. Sənin "Məslək, əqidə zirvələri və... labirintləri" məqaləni böyük məmnuniyyətlə oxudum. Məqalə ürəyimdən tikan çıxartdı. Bütün fikirlərinlə razıyam. Bircəsindən başqa, bizim ədəbi nəsil, yəni yaşıdlarımız (eləcə də sən və mən) o qədər cahil və nadan deyilik ki, hələ o zaman "Stalin ovsununa" (sənin ifadəndir) düşəydik. Yox, əziz dost, biz hələ o zaman da içində yaşadığımız totalitar sistemin dəhşətlərini görür və bu dəhşətlərə müxtəlif ədəbi yollarla etirazımızı bildirirdik. O dövrdə yazdıqlarımıza (həm də öz yazdıqlarına) nəzər sal. Sən özün də mənim yaradıcılığıma həsr etdiyin məqalədə bu barədə yazmısan.

Sənin müəllimin Camal Musayev və onun yaşıdlarına gəlincə, burada bir qədər başqa cürdür. Bu adamların əsas qismi məlumatlarının azlığından, dünyagörüşlərinin dayazlığından ümumi axına, küyə düşüb, marksist təbliğatın qurbanı olublar. Mən ona da əminəm ki, müəyyən savad sahibi olan müəlliminiz öz daxili dünyası ilə söhbətdə başqa cür düşünürmüş... Ən yaxın adamları ilə söhbətdə Cavidlərin, Abbas Mirzələrin faciəsinə acıyır və bu faciələrin törənmə səbəbini axtarırmış.

Əziz dost, Sənə də məlumdur ki, bu quruluş hamını şikəst eləyir. Biz uzun illər boyu bir cür düşünüb, ayrı cür danışmışıq. Ailə içərisində

bir cür, iclaslarda isə başqa cür danışmışıq. Məncə, sənin müəllimin qəzetinizə yazdığı məktubda inersiya ilə getmiş, köhnə şablonları təkrar etmişdir.

Bununla bərabər, dünyagörüşünün məhdudluğu üzündən köhnə havaya oynayan, köhnə bayatını çağıranlar, az da olsa, indi də var. Bu mənada sənin məqalən çox vaxtında yazılıb və son dərəcə lazımdır. Qoy, köhnə bayatıları çağıranlar ayılsınlar!

Mən də sənin kimi Camal müəllimin bir fikri ilə şərikəm. Nəinki şərik, bütün yazılarımda təbliğ etdiyim əsas fikir ondan ibarətdir ki, bizə indi boş hay-küy deyil, bilik, bilik, yenə də bilik lazımdır!

Çox gözəl deyirsən: "Müasir böhranlı günlərimizin də taleyi bilikdən, insana verilən ulu ağıl nemətindən asılıdır". Elədir, qardaş, əgər ağlımız və müasir biliyimiz olsa, bundan sonra heç kəs ümumi axına düşməz, öz ağlı və dərrakəsi ilə düşünər və aldanmaz!

"Hikmət" qəzeti, 20 avqust, 1991.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



OZUMUZƏ QAYIDIŞ

15-20 il bundan əvvəl - totalitar rejimin ən qızğın çağında radioda "Bulaq" verilişi peyda oldu. "Bulaq" xalqa özünü, öz mənliyini göstərən bir güzgü idi. Bu veriliş xalqa özünü tanıtmaq, özünü şərəfli keçmişlə qürrələnmək imkanı verdi. Ən mühümü də bu idi ki, ana dilimizin rəsmi dairələrdən qovulduğu zamanlar "Bulaq" xalqla sürtülmüş rəsmi dillə deyil, xalqın öz dili, öz şivəsi ilə danışır və bu dilin gözəlliyini, dadını, duzunu ona çatdırırdı. Bu, o zaman üçün çox böyük hadisə idi.

"Bulaq"ın yaradıcısı və əsas müəllifi mənim sabiq tələbəm, sonra isə sevimli yazıçımız Mövlud Süleymanlı idi. İndi Mövlud "Bulaq"ın gözəl ənənəsini sənət dostu rejissor Almuradla birlikdə televiziyada təşkil etdiyi "Yurd" verilişində davam etdirir.

Hörmətli televiziya tamaşaçıları yəqin ki, bu il sentyabrın 27-də "Yurd" verilişinə baxmışlar. Bu veriliş əvvəldən sona qədər öz təbiiliyi və səmimi səhnələri ilə məni valeh elədi. Bu veriliş bizi özümüzə, öz ilkinliyimizə qaytardı. Canlı səhnələr, şirin-şəkər ləhcələri eşitdikcə qədim söz abidəmizdəki bir müdrik kəlam qulaqlarımda səsləndi: "Ey türk, özünə qayıt, sən özün olanda böyüksən".

Başqasını yamsılamaq milləti yamsıladığı millətin ruhuna qovuşdurmaz, əksinə, onu özündən, öz mənliyindən ayırar və bu da onu kiçildər. El burda deyib: "Ayaqqabılarımı geyə bilərsən, amma yerişimi yeriyə bilməzsən".

Beləliklə də hər millət özü olanda, özlüyündə qalanda böyükdür, güclüdür və başqa millətlər üçün də maraqlıdır. Çox təəssüf ki, biz uzun illər bu həqiqəti bilməmiş, böyüklüyümüzü başqa millətləri yamsılamaqda axtarmışıq.

"Yurd" verilişi məni ona görə valeh elədi ki, mən ekranda ilkinliyimizi, yəni özümü, öz mənliyimi, dədə-baba mənəviyyatımı gördüm, dilimi, onun şirəsini, gözəlliyini daddım, bir sözlə, özümə qayıtdım. Çobanın dediyi "Satıram demə, malın eşidər, köçürəm demə, yurdun eşidər" atalar sözündəki hikmət də məni sehrlədi. Yenə çobanın canavarın günün hansı vədəsində hansı hiylələrlə ova gəlməsinin müşahidədən doğan incəliklərini açıqlaması bizim üçün nə qədər yeni və maraqlı idi.

Qoyunçuluğa məxsus olan "arxac" sözünü mən 40-50 il idi ki, eşitmirdim. Niyə biz bu sözü unutmuşuq? Axı, bu söz bizim köçəri babalarımızın ruhu, mənəvi dünyası ilə bağlıdır. Demək, bu cür sözləri unutmaqla biz özümüzdən, ilkimizdən, dədə-babalarımızdan ayrı düşmüşük.

Mən bu yazımla bizi özümüzə qaytaran, bizi ruhumuzla, mənəviyyatımızla barışdıran, salamlaşdıran "Yurd" verilişinin yaradıcılarına təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm.

Sağ olun, əziz dostlar, sağ olun ki, bizə özümüzü tanıdıb, bizi özümüzə qaytarırsınız.

"Səhər" qəzeti, 2 oktyabr, 1992.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ABŞ-IN DÖVLƏT KATİBİ CƏNAB CEYMS BEYKERƏ AÇIQ MƏKTUB*

Çox hörmətli cənab Beyker!

Bir ay ərzində Sizi ikinci dəfə narahat etməyi özümüzə rəva bildik. Sizin Gürcüstanla yanaşı, Azərbaycan Respublikasına da yardım göstərilməməsinə dair bəyanatınızla bağlı birinci məktubumuz Sizin Moskvadan Bişkekə uçuşunuz ərəfəsində teleqrafla ABŞ-ın yüksək səfirliyi vasitəsilə adınıza göndərilmişdi.

Həmin teleqramı Moskvada alacağınıza ümidimiz olmadığından bəzi mətləblərimizi açıq məktub şəklində şərh etmək qərarına gəldik.

İnformasiya mənbələrinin məlumatına görə, bu gəlişinizin proqramına Ermənistan Respublikasının paytaxtı Yerevana səfər də daxildir. Biz Sizin missiyanızı ABŞ Dövlət Departamentinin SSRİ xarabalıqları üzərində yaranmış müstəqil respublikaların problemlərinə münasibəti tarazlaşdırmaq niyyəti ilə bağlı olan müsbət xarakterli gerçəklik kimi qəbul edirik.

Lakin Sizin proqramınızda üçüncü əllərdən verilən informasiya çərçivəsindən kənara çıxmağa imkan yaradan Azərbaycana səfər, təəssüf ki, nəzərdə tutulmamışdır. ABŞ kimi böyük ölkənin siyasətinin qərəzçilik hissindən hələ tamamilə azad olmaması barəsində fikirləşmək istəməzdik. Yeri gəlmişkən, bizim fikrimizcə, burada söhbət dünya

*Məktub rus dilində professor S.Əliyarlı ilə birgə yazılmışdır. İngiliscəyə çevrilib Beykerə göndərilmişdir.

siyasətindən gedir. Bizim regionun problemləri ilə maraqlanan hər kəs bilir ki, Qafqaz evimiz dağıdıcı xəstəliyə mübtəla olmuşdur, elə bir xəstəliyə ki, onun köklərini xalqları səthi olaraq "pis" və "yaxşı"lara, "Vicdanlı xristian"lara və "ekstremist müsəlman"lara ayırmaq deyil, SSRİ-nin cinayətkar kommunist rəhbərliyinin, ondan öncə isə üçüncü şöbəsi başda olmaqla çar monarxiyasının illərlə yeritdiyi "parçala və hökmranlıq et" siyasətində axtarmaq lazımdır.

Cənab dövlət katibi, xatırlatmaq istərdik ki, ABŞ-ın Qafqaz siyətinin təcrübəsi bizim hamımız üçün peşə məşğuliyyətimizdən asılı olmayaraq, ibrətamizliyinə görə xüsusən maraqlıdır. 1919-cu ildə Paris *(Versal)* sülh konfransı başlayarkən böyük dövlətlər Avropada və Amerikada formalaşmış ermənipərəst hərəkatla və Qərb sosial-demokratiyasının Gürcüstanı müdafiə etməsi ilə hesablaşmağa məcbur oldular. Hər iki respublika tezliklə konfransa buraxıldı. Qərbin az tanıdığı Azərbaycan nümayəndə heyətinə müxtəlif bəhanələrlə Fransaya daxil olmaq üçün viza verilmədi və onlar İstanbulda xeyli vaxt itirməli oldular.

Böyük diplomatiya sahəsində qeyri-adi görünən şüursuzcasına qəbul etməmək tərzi o zaman Azərbaycan haqqında ABŞ prezidenti V.Vilsonda öncədən yaradılmış mənfi rəyə baxmayaraq, Azərbaycana qarşı yönəldilmiş bu qərəzli və ehtikar münasibət onun tərəfindən dəf edildi. Gənc Azərbaycan Respublikasının nümayəndə heyəti heç bir qeyd-şərtsiz tam tərkibdə ABŞ prezidentinin adından Parisə dəvət olundu. 1919-cu ilin mayın 28-də Respublika Memorandumu məhz ona təqdim olunmuşdu. Azərbaycan nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşov qəbul üçün ABŞ prezidentinə təşəkkürünü bildirərək demişdir: "Cənab prezident, Sizə Möhtəşəm Amerika dövlətinin nümayəndəsi kimi müraciət və rica edirik ki, bizim ölkəmiz və xalqımız haqqında informasiyanı bizim öz dilimizdən eşidəsiniz. Zira biz çox hallarda Avropa və Amerika mətbuatında Azərbaycan haqqında həqiqətə daban-dabana zidd, yanlış, təhrif olunmuş, real gerçəklikdən çox uzaq məlumatlara rast gəlirik". Nümayəndələrimiz V.Vilsona çağdaş günlərimizin durumunu canlı əks etdirən təkliflər də vermişdilər. Həmin təkliflərin mahiyyəti Azərbaycanın müstəqilliyinin tanınma-

sından və Vilson prinsiplərinin Azərbaycana da şamil edilməsindən, onun yaradılmaqda olan Millətlər Cəmiyyətinə qəbulundan, ABŞ və Azərbaycan arasında diplomatik əlaqələr yaradılmasından ibarət idi.

Nəticədə, ağıl və zəka amilləri zəfər çaldı. De fakto olaraq Dövlətlərin Ali İttifaq Şurası Azərbaycanı müstəqil dövlət kimi tanıdı. Üstəlik ABŞ-ın Qafqazdakı missiyalarının yardımı ilə 1919-cu il, noyabr ayının 13-də Ermənistanla Azərbaycan missiyasının rəhbəri V.Haskel Azərbaycana gəldikdən sonra, "Erməni xalqına əsla qənim kəsilməyən" "əməksevər Azərbaycan xalqı" haqqında yüksək fikirlər söylədi. Parisdə aşağıdakı bəyanatı verdi: "...indiyədək amerikanlar ermənilər az qala Qafqazın yeganə cəfakeş, zavallı xalqı kimi tanıyırdılar. Çünki amerikalı ermənilər bunu həmişə belə qələmə verirdilər. Amerika missiyasının Türkiyəyə və Qafqaza səfərləri amerikalıların əksəriyyəti üçün çox faydalı oldu. İndi biz belə bir möhkəm əqidəyə gəlmişik ki, bütün ermənilər bizim düşündüyümüz kimi yaxşı, eləcə də bütün türklər bizə təlqin edildiyi kimi pis deyilmişlər". Digər ABŞ briqada generalı C.Harbordun rəhbərlik etdiyi başqa bir Amerika missiyasının gəldiyi qənaət analoji surətdə yuxarıdakının eyni olmuşdur *(həmin sənədlər Azərbaycan Respublikasının Dövlət Arxivində saxlanılır - fond 970)*.

Cənab Beyker, sitatlar üçün üzr istəyirik, lakin həmin sitatlarda Amerika siyasətçilərinin Qafqazı dərk etməsinin böyük tarixi təcrübəsinin inikası öz əksini tapmışdır. Bizim universitetdəki müəllimlərimiz bizi latın müdrikliyi ruhun da tərbiyə etmişlər: Tarix elmin müəllimidir.

Biz ABŞ prezidenti cənab Buşun Azərbaycanın müstəqilliyini tanıması haqqındakı məktubunu böyük məmnuniyyət hissi ilə qarşıladıq. Diplomatik əlaqələr yaradılmasına gəlincə, təəssüf ki, qeyd-şərtlər mövcuddur.

Cənab dövlət katibi! Siz öz siyasətinizdə Ermənistan respublikasına qeyd-şərtsiz üstünlüklər verirsiniz. Bizim yalnız həmin mövqeyi nəzərə almaqdan başqa bir çarəmiz qalmır. Lakin bu münaqişəni birtərəfli və birmənalı həll etməyin mümkünlüyünə ona görə yol vermək olmaz ki, bu yolda artıq bəs qədər qanlar axıdılmışdır. Stalin "İttifaqı" artıq can

verir, tarixin səhnəsinə güc üsulunu qüvvətləndirməklə, yol vermək tərəflərdən birinin mənafelərini ayaqlar altına atmaqla, digər tərəfin "ədavət arzularını" sübuta yetirmək üçün dəridən-qabıqdan çıxan adamlar peyda olur. Qafqazın böyük bəlası ondadır ki, belə təfəkkür tərzi qırmızı imperiya dövründən sonra yaradılmış "Birlikdə" də bolboldur. Bu mənada, yaxınlarda "məsum" Yelena Bonnerin mərkəzi radioda səslənmiş Yeltsinə Birləşmiş Ştatların İraqa verdiyi dərsin eynisi ilə Azərbaycana qulaqburması verməsinə dair" təklifi nə deməkdir? Həqiqətən, Hegelin lakonik təbirincə desək, idrakın düşkünlüyü yaxınlaşır. Belə bir təqdirdə, əgər Rusiya əyninə keçmiş əyyamlarda geydiyi jandarm paltarını taxıb, Qafqaz evində "sülh" yaratmağa cəhd göstərsə, kimsə nəsə qazana bilərmi? Allah eləməsin ki, hər hansı bir böyük dövlət belə bir yolun yolçusu olmaq azarına tutulsun. "Kiçik" dövlətlərə gəldikdə, Serbiyanın Xorvatiyadakı serbləri "müdafiə" eksperimenti özü çox gözəl həqiqətləri açıqlayır. Bizim fikrimizcə, hadisələrin fəci gedişini başqa axara çevrilməsi üçün platforma mövcuddur. Bu isə mövcud sərhədlərin şəksiz bütövlüyünü və toxunulmazlığını etiraf etmək və burada yaşayan bütün adamların və millətlərin konstitusiya hüquqlarının təmin edilməsi əsasında bütün hərbi qarşı durumları dərhal qurtarmaq olar. Biz bu əqidədəyik ki, Qarabağ probleminin siyasi yolla həllindən başqa yol yoxdur. Torpaqların başqa bir dövlət tərəfindən ilhaq edilməsi ilə bu məsələni həll etmək qeyri-mümkündür. Bu mənada, biz Belarus Respublikasının başçısı Mistislav Şuşkeviçin "Komsomolskaya pravda" qəzetinin 1992-ci il yanvar ayının 9-da şərh etdiyi mövqeyinə şərik çıxırıq: "Mənim əqidəmcə, biz Moldovanı tanımaqda düzgün hərəkət etdik. Moldovanın Konstitusiya hüquqlarının tərəfdarıyıq. Bəsdir, bu köhnə, yıpranmış zarafatlar, guya Rusiya özünün Moldovada yaşayan ruslarını müdafiə etməyə borcludur. Yox! Moldova Respublikası orada yaşayan rusların mənafeyini müdafiə edəcəkdir". Burada millətlərarası münaqişələrin həlli məsələsinin konseptual qoyuluşu təklif olunmuşdur. İndi yanlış rəyə əsaslanmayan hər bir adama aydındır ki, Qarabağ münaqişəsinin əsasını qonşu respublikanın Azərbaycanda ermənilərin maraqlarını silah gücünə "müdafiə etmək" təşkil edir, bu məqsədlə də

onlar qonşu dövlətin ərazisində müharibəyə başlamışlar. Cənab Dövlət Katibi, münaqişə edən tərəflərdən birinin, indiki halda Azərbaycanın diplomatik maraq orbitindən kənarda qalması geosiyasi baxımından qəbuledilməzdir. Müəyyən dini quruluşu ilə bərabər, Azərbaycan 1918-1920-ci illərdə olduğu kimi, özünü beynəlxalq cəmiyyətlə birlikdə dünyəvi dövlət şəklində görür. Bu baxımdan müharibədən sonrakı dövrdə ABŞ-la ittifaqı dəfələrlə sınaqdan çıxan və etnik cəhətdən bizə yaxın olan Türkiyə Respublikası örnəkdir. Bu mövzuda dərinə varmağa lüzum görmürük. Bu tarixi amilə məhəl qoymadan hər hansı bir demarşa - diplomatik və siyasi tədbirə yol vermək olmaz. Çünki belə yanaşma yaxın və uzaq məqsədlərə baxmayaraq, bu və ya digər dərəcədə "dünyəvi" yolla inkişafa pəl vura, islam faktorunun ehtiyat qüvvələrini yarada bilər.

Cənab Dövlət Katibi, biz çətin problemlərimizi Sizinlə bölüşməyi, diqqətinizi təkzibolunmaz tarixi-etik amillərə yönəltməyi özümüzə rəva gördük. Biz əminik ki, onlar dünya xəritəsindəki qaynar nöqtələrdə gərginliyin ləğv edilməsində xidməti bütün ölkələrdə qeyd olunan ABŞ xarici siyasət idarəsi rəhbərinin diqqətini cəlb edəcəkdir.

Açıq məktubun rusca mətni 31 yanvar 1992-ci il tarixli "Azərbaycan" qəzetində dərc olunmuşdur.

"Yanan da mən, yaman da mən", Bakı,1995.



HÖRMƏTLİ CƏNAB SƏFİR
RİÇARD KOZLARİÇ!

Mən siyasətçi deyiləm, adicə şairəm və bütün ömrüm boyu dünyaya və dünyada cərəyan edən hadisələrə şair gözü ilə baxmışam.

Uşaqlıqdan ən çox nifrət etdiyim və qorxduğum şey - ədalətsizlik olmuş və ömrüm boyu haqsızlığa, ədalətsizliyə qarşı üsyan etmişəm. Paradoksa baxın: mən bu təbiətlə Sovet adlanan faşist rejimində yaşamalı oldum və ömrüm boyu "Amerikadakı sərbəstliyə, fikir azadlığına və demokratiyaya həsədlə baxdım,

Amma...

Mayın 19-da kütləvi informasiya vasitələri nümayəndələri üçün keçirdiyiniz mətbuat konfransında Siz dediniz ki, "Azərbaycan umur ki, biz günahkarı barmaqla göstərək. Amma bu, münaqişənin həllinə kömək edə bilməz. Biz Yaxın Şərqdə bunun şahidi olduq".

Doğrusu, bu mühakimənizi heç başa düşə bilmədim.

ABŞ fövqəldövlət kimi əgər ədalətin və həqiqətin müdafiəçisi missiyasını boynuna götürübsə, niyə günahkarı barmaqla göstərib yerində oturtmur? Məgər Sizə məlum deyil ki, artıq altı ildir müharibə Azərbaycan torapağında gedir? Məgər siz bilmirsiniz ki, erməni qoşunları Rusiyanın köməyi ilə Azərbaycan torpaqlarının 20 faizini işğal edib? Məgər Siz bilmirsiniz ki, bu işğalda Rusiyanın da mənafeyi var? Məgər Siz bilmirsiniz ki, torpaqlarımızın işğalı ilə Rusiya bizi diz çökdürmək,

bu vasitə ilə rus qoşunlarını müşahidəçi adı ilə sərhədlərimizə soxmaq istəyir?

Üç gün əvvəl Rusiyanın müdafiə naziri Qraçov "Vesti" verilişində bizi açıq-aydın hədələyib dedi: "Ya rus qoşunlarının müşahidəçi adı ilə Qarabağ sərhədlərinə gəlməsinə izn verin, yaxud da məhv olacaqsınız.

Məgər ABŞ bunu bilmir? Siz bilmirsiniz ki, bütün bunlar Rusiyanın bizə qurduğu tələdir? Bunu bilə-bilə Siz bizim torpaqların işğal olunub-olunmadığını da şübhə altına alırsınız.

Bəs işğal necə olur?

Torpaqlarımızın işğal olunduğunu sübut etmək üçün bizdən fakt tələb edirsiniz. Belə çıxır ki, göydəki Günəşin varlığına da sübut lazımmış...

Bəli, biz kiçik bir ölkə olmaqla fövqəldövlət olan ABŞ-dan umuruq ki, günahkarı barmağı ilə göstərsin. Çünki o, özünü bütün dünyada insan haqlarının müdafiəçisi, haqq və ədalət bayraqdarı kimi tanıdır. Amma, nədənsə, bizim haqqımızı müdafiədən çəkinir. Bəli, nə qədər ki, ABŞ aqressoru öz barmağı ilə göstərib, ona günahkar və işğalçı olduğunu açıq-açığına demir, işğalçı ilə işğala məruz qalanı eyni gözlə görür, Ermənistan Rusiyanın köməyi ilə istədiyini edəcək.

Siz isə bizi işğalçı adlandıraraq, bizə göstəriləcək humanitar yardıma veto qoydunuz.

Prezidentiniz bizim prezidentə göndərdiyi məktubunda Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən danışmır. Guya heç belə şey yoxdur. Amma bizdən tələb edir ki, Ermənistanı blokadadan azad edək. Gülməli deyilmi?

Sizcə, budurmu ədalət?

Çıxışınızda dediniz ki, günahkarı barmaqla göstərmək bu, münaqişənin həllinə kömək etməz və buna Yaxın Şərqdəki münaqişəni misal çəkdiniz.

Mən deyirəm, əksinə. Siz Yaxın Şərqdəki münaqişədə də günahkarı məhz barmağınızla göstərmədiyinizə görə münaqişə bu qədər uzandı. Siz eyni şeyi bizim də başımıza gətirmək istəyirsiniz. Əgər ərəblər İsrail torpağını işğal etsəydi, Siz onları dərhal barmağınızla göstərib

yerində oturdardınız. Necə ki, Küveytdə mənafeyiniz olduğu üçün İraqa müqəssir olduğunu nəinki barmağınızla göstərdiniz, göydən və yerdən tökdüyünüz bombalarla İraqı darmadağın etdiniz. Və bununla da ədaləti bərpa etdiyinizi bildirdiniz.

Doğrusunu deyim ki, ömrüm boyu ədalət və həqiqət ölkəsi kimi tanıdığım, Yer kürəsinin ağsaqqalı bildiyim ABŞ-ın bizim başımıza gətirilən bu müsibətlərə biganəliyini görəndən sonra Yer üzündə ədalət və həqiqətin olmadığına inanmışam.

Ona görə də bu gün mən Amerikanın ədalət, azadlıq və demokratiya ölkəsi deyil, həqiqəti və ədaləti öz mənafeyində görən bir dövlət adlandırardım.

"Aydınlıq" qəzeti, 27 may, 1994.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



EYNİ DƏRD,
EYNİ DÜŞÜNCƏLƏR

Polşa kimi elm və mədəniyyət ocağı olan Avropa məmləkətində Azərbaycan həqiqətlərini yayan, elm və mədəniyyətimizi təbliğ edən bir dərginin çap olunması bir vətəndaş kimi məni çox sevindirdi. Bu dərginin təsisçisi, imtiyaz sahibi, Polşada yaşayan Elman Mustafazadə və baş redaktoru Vaqif Sultanlının bu gözəl təşəbbüsünü alqışlayır və onların övladı olan "Xudafərin" dərgisinə uğurlar arzulayıram. Vətənimizdən kənarda yaşayan Azərbaycan türkləri ilə müxtəlif Avropa ölkələrində çox görüşlərim olmuş, təəssüflər olsun ki, bunların içərisində qürbətdə yaşayıb Vətən havası ilə nəfəs alan vətəndaşlarımıza az rast gəlmişəm. Hətta bir dəfə Almaniyada yaşayan bir türk gəncinin harda qarnım tox isə, ora vətəndir mənə" - deməsi məni sarsıtmış və onun bu fikrinə qarşı "Çörək-Vətən" şeirini yazmışdım.

Bu mənada Vətəndən uzaq, qürbət bir məmləkətdə Vətənin taleyini düşünmək, onun havası ilə nəfəs almaq, onun dərdlərini yaşadığın məmləkətin vətəndaşlarına çatdırmaq, Azərbaycanı onlara tanıtmaq indiki zamanda çox böyük kişilik və namus, qeyrət işidir. Halal olsun Vətənin bu cür övladlarına!

Onu da deyim ki, dərginin adı da çox gözəl seçilmişdir. Xudafərin əsrlər boyu iki yerə parçalanmış bədbəxt bir ölkənin birlik rəmzi olmuşdur. Çünki Xudafərin bu taydan o taya, o taydan bu taya keçid körpüsüdür. İndi başqa şey əlimizdən gəlməsə də və bu gün körpü, müvəqqəti

olaraq, əlimizdən çıxsa da, mənəvi körpüləri Allah əlimizdən almasın!

Mən dərginin imtiyaz sahibi Elman Mustafazadənin "Millətimin bu günü və gələcəyi ilə bağlı düşüncələr" adlı məqaləsini

diqqətlə, yanıqlı cümlələrin altından xətt çəkə-çəkə, ürək ağrısı ilə oxudum və gördüm ki, bu vətən oğlunun ağrılı düşüncələri son 7-8 ildə mənim düşündüklərimin eynidir. Əlbəttə, eyni dərdi, eyni ağrı-acını çəkənlər mütləq eyni cür düşünməlidir. Ancaq dərd bundadır ki, bu gün bizi narahat edən bu dərdlər yalnız bu günün dərdləri deyil, köhnə, boyat dərdlərdir. Bu dərdlər XIX yüz ilin ikinci yarısından baş alıb bu günə qədər davam edir. M.F.Axundzadədən H.Zərdabiyə, M.Cəlilə, Sabirə və gün yazıb-yaradan əqidə sahiblərinə qədər bir neçə nəsil qələm sahiblərini, yandırıb-tökən həmin eyni dərdlər deyilmi?

Demək, adamlar təzə, dərdlərsə köhnə...

Vaxtilə Avropa və Rusiya şəhərlərində təhsil alıb Vətənə dönən o vaxtkı ziyalılarımız millətdə hansı qüsurları görüb hansı dərdlərlə alışıb yanırdılarsa, bu gün də düşünən ziyalılarımız eyni qüsurları görür, eyni dərdlərlə alışıb yanırlar.

Bu gün Polşada yaşayan eloğlumuz E.Mustafazadə haqlı olaraq yazır ki, bu saat bizim üçün ən vacib məsələ Avropa məmləkətlərində Azərbaycan lobbisini yaratmaqdır. Haqlıdır, amma çox təəssüflər olsun ki, indi Avropa ölkələrində yüz minlərlə Azərbaycan türkü yaşasa da, həmin ölkələrdə məskən salan erməni və yəhudi lobbilərinin gördüyü işlərin mində birini görə bilmirlər. Əksinə, onların bir çoxu türk xalqlarının yüksək mədəniyyətini, dünyadakı tarixi rolunu yaşadıqları ölkədə nümayiş etdirmək əvəzinə, özümüzü də narahat edən, ağrıdan mənfi tərəflərimizi, nöqsanlarımızı, nümayiş etdirirlər.

Müəllif hamımızı incidən bu məsələni yalnız göstərməklə kifayətlənmir, səbəblərini izah etməyə çalışır. O, çox doğru qeyd edir ki, "Ayrı-ayrılıqda hər birimiz özümüzü qəhrəman sayırıq, ancaq üçümüz bir yerə yığışanda bir iş görə bilmirik. Çünki başçı seçmək barədə mübahisələr başlayır. Xaricdə lobbimizin olmamasına bir səbəb də, bəlkə, bu çəkişmələrdir? Əslində isə, Vətənin qəhrəmanı yox, onun vətəndaşı olmaq kifayətdir".

Tamamilə doğrudur. Mən bu fikri "Köhnə mərəz" adlı şeirimdə belə ifadə eləmişəm:

Biri-birimizə uyuşan deyil,
Biri-birimizə tərs düşən olduq.
Biz Vətən uğrunda döyüşən deyil,
Vəzifə uğrunda döyüşən olduq.

Bax, elə bu səbəbdən də Qarabağı düşmənə təslim etdik.

Mən sənə yad oldum, sən mənə düşmən
Vətənin dərdinə olmadıq ortaq.
Nifrəti düşmənə çevirməliykən
Bir-birimizə çevirdik ancaq.

Baha başa gəldi bu nifrət bizə
Bizi niyə tutmur şəhidin qanı?
Qarabağ torpağı bir-birimizə
Həsədin, nifrətin oldu qurbanı.

Müəllif sözünə davam edərək yazır ki, "Bizə çox vaxt sadə qəlbli, təmiz, mehriban, qonaqpərvər millət kimi baxıblar".

Bəli, doğrudan da belədir: biz qonaqpərvərliyimizin ucbatından "buyur" deyə-deyə qonağı evimizin sahibi eləmişik:

Heç kəs inciməsin dedik, qoy, bizdən,
Yandıq yad evində bir çıraq kimi.
"Buyur" deyə-deyə hörmətimizdən
Qonağı elədik evin sahibi.

Və nəticədə Mustafazadənin dediyi kimi "Getdikcə mürəkkəbləşən dünya siyasət meydanında yenə də sadə qəlbli olaraq qalmışıq".

Bu sadəqəlbliliyin isə sonda bizi əliboş qoyacağına təəssüflənirəm.

Bu sadəqəlbliliyimizin nəticəsində erməni zoru bizim haqq işimizə qələbə çalır. Bu gün işğala məruz qaldığımızı, torpaqlarımızın 20%nin erməni tapdağı altında qaldığını, bir sözlə, bizim haqlı, ermənininsə haqsız olduğunu dünyaya sübut edə bilmirik. Dünya bizə deyir ki, Siz həqiqətən təcavüzkar olmadığınızı, əksinə, ermənin təcavüzkar olduğunu bizə sübut edin. Bundan belə çıxır ki, Göydə Günəşin varlığına da sübut gərəkmiş. Haqqa bel bağlayıb oturmağın nəticəsi, bax, budur:

De, bizə nə verdi türkəsayalıq?
Əvvəl nə idiksə, yenə oyuq biz.
Haqqa bel bağlamaq yetməzmi artıq
Bunu birdəfəlik qanmalıyıq biz.

Haqsıza döndərdi bu gün haqq, bizi.
Zora nə qanun var, nə haqq, nə yasaq.
Vaxt öz qanımızda boğacaq bizi
Bu "bic əyyamına" uyğunlaşmasaq.

Bəli, biz zamanın öz tələblərinə uyğunlaşıb müasirləşə bilməsək, yəni xarakterimizdəki sadəqəlbliliyimizdən əl çəkməsək, öz qanımızda boğulacağıq.

Müəllif çox doğru deyir: "Bütün dünya zorakılığı, terroru pisləyir, demokratiyadan danışır. Amma öz millətinə lazım gələndə hətta terrordan da istifadə edirlər".

Bir neçə il bundan əvvəl cücə sandığımız Ermənistanın terrorçuları dünyanın müxtəlif ölkələrində qırxa qədər türk diplomatını qətlə yetirmişlər. Buna bir Avropa məmləkəti öz etirazını bildirdimi? Yox! Elə bu nöqtədə xoruzun quyruğu görünür. Amma neyləyəsən ki, biz bu xoruzun quyruğunu dünyaya göstərmək qüdrətində deyilik. Çünki müəllifin dediyi istilahla desək, içimizdəki "kreslo manyaklığı" bizi Vətənimizin düşmənlərinə qarşı birləşməyə qoymur. Bu vəzifə hərisliyi, bu "kreslo manyaklığı" nədir? Niyə bizdə "mən" "bizdən" irəlidir? Niyə biz öz şəxsi xeyrimizi vətənin və ümumxalqın xeyrindən üstün tutur,

öz mənafeyimizi xalq mənafeyinin içərisində əridə bilmirik? Niyə biz özümüz özümüzə bu qədər soyuqqanlıyıq? (Sabir demişkən: "Bizdə bu soyuq qanları neylərdin, ilahi?") Bütün bu qüsurlara malik olan millət isə hələ millət deyil, əhalidir.

Çox acı olsa da, bu, həqiqətdir. Vəzifə düşgünləri, kürsü hərisləri iqtidardakını hörmətdən salıb yıxmaq üçün bir-birinin ardınca şəhərlərimizi düşmənə təslim etdi. Amma bu müxalifət nəyi nəyə dəyişdiklərini unutdu. O zaman yazmışdım:

Kürsübazlar ilə dolub sol-sağın,
Dünən müxalifdin, hakimsən bu gün.
Torpaq satılıbsa, hansı torpağın
Üstündə duracaq vəzifə kürsün?

Bu nöqtədə istər-istəməz ürəyimizdən bir sual qopur: Axı, niyə biz beləyik? Hardan gəldiyini bilməyən hara gedəcəyini bilməz. Odur ki, gəlin, biz əvvəlcə tariximizə - keçib gəldiyimiz yollara baş vuraq, bu yollardan içimizə düşən qara izləri arayıb axtaraq. Yalnız o zaman biz niyə belə olduğumuzun səbəbini taparıq.

Buna görə də mən istərdim ki, dərginin bütün yazarları E.Mustafazadənin toxunduğu və mənim şərh etməyə çalışdığım məsələləri əməlli-başlı götür-qoy etsinlər, əvvəlcə xəstəliyimizin diaqnozu qoyulsun, sonra müalicə asandır.

Bu yolda "Xudafərin"ə uğurlar diləyirəm.

"Xudafərin" dərgisi, 1996.
"Zaman və mən", Bakı, 1999.



DƏYƏRLİ KİTAB

Qafqaz Universitetinin rektoru, hörmətli dostumuz İbrahim Cananın Tuqra nəşriyyatı tərəfindən nəşr edilən "Peyğəmbərimizin sünnətində tərbiyə" kitabını böyük maraq və məmnuniyyətlə oxudum. Əvvəla, onu deyim ki, biz Azərbaycan türkləri məlum səbəb üzündən 70 il islamdan, onun mahiyyətindən, sünnətindən, qayda və qanunlarından xəbərsiz olmuş və buna görə də müsəlman əxlaqını və tərbiyəsini lazımi səviyyədə övladlarımıza aşılaya bilməmişik. Bu mənada İ.Cananın adını çəkdiyim kitabı bizim üçün daha qiymətlidir.

Kitabda mənim nəzərimi cəlb edən əsas mətləblər hansılardır?

1. Mən bu kitabdan peyğəmbərimizin irəli sürdüyü təlim-tərbiyə məsələlərinin bir çox mühüm mətləblərini öyrəndim: yeni nəslin tərbiyəsi hələ doğumdan əvvəl, yəni evliliyə verilən qərardan asılıdır.

2. Tərbiyə insanın yalnız cocuqluq dövrünü deyil, ömrünün sonuna qədər bütün dövrləri əhatə etməlidir. Burada peyğəmbərimizin məşhur "Elm Çində də olsa, onun arxasınca getməlisən" kəlamını xatırlamamaq olmaz.

3. Cocuğa verilən tərbiyə onun ictimai mühitilə bağlı olmalıdır.

Kitabdan çıxarılan nəticə budur ki, tərbiyə mədəniyyətlə bağlıdır. Bir millətin mədəni səviyyəsi nə qədər yüksəkdirsə, cocuqlara verilən tərbiyə də bir o qədər yüksək olur.

Kitabda məni ən çox ilgiləndirən məsələlərdən biri də budur ki, müəllif insan ömrünün mühüm dövrlərini gözlərimiz qarşısında sərgilədikdən sonra tərbiyə üçün ən çox əhəmiyyətli olan həddi-büluğa qədərki cocuqluq dövrünün üzərində daha çox dayanıb, tərbiyə işində bu dövrün çətinliklərini incələyir. Burda islam təlimindəki mühüm və maraqlı bir nöqtə bizim üçün çox qiymətlidir. Belə ki, sünnətin görüşünə görə təməl egitimi 18 yaşında tamamlanmalıdır. Çünki büluğ həddinə çatan uşaq artıq uşaq deyildir. Buna görə də 18 yaşlı gənc artıq bir sənət sahibi də olmalıdır. Amma Qərb görüşünə görə bu dövr 22 yaşına qədər uzadılır.

Quranın öyrənilməsi təməl egitiminin əsasıdır. Namaz, oruc və həcc də bura daxildir. Həzrət Peyğəmbərin ən çox əhəmiyyət verdiyi cəhət uşaqların cəmiyyətdəki müxtəlif ictimai halqalarla təmasıdır. Ailədən kənarda böyüklərlə təmas, onlara hörmət uşağın ictimailəşməsinə təkan verən amillərdəndir.

Müəllif tutarlı dəlillərlə sübut edir ki, İslam təlimində müstəbidlik, zorakılıq tərbiyə üsulu deyil, əksinə, valideynlərin öz övladlarına münasibətində əsas prinsip, qarşılıqlı anlaşma, səmimiyyət və mehribançılıqdır. “Cocuqlara şəfqət”, “Cocuqlarla bərabər cocuqlaşmaq”, onların pis hərəkətlərini üzə vurmamaq, pis söz deməmək, onlarla mehriban davranmaq vacibdir.

Bədən tərbiyəsi və uşaq oyunlarının əhəmiyyətli məsələsi də kitabda öz əksini tapmışdır. Sünnətə görə, oyunun, sadəcə, vaxt keçirmə deyil, həyatı, ətraf mühiti öyrənmə vasitəsi olduğu inandırıcı dəlillərlə göstərilir.

Kitabın ən dəyərli fəsillərindən biri də sünnətdə cinsi münasibətlər haqqında irəli sürülən fikirlərdir. Qız və oğlan uşaqlarının tərbiyəsindəki fərqi və oxşar cəhətlərin izahı çox maraqlı olmaqla mən cəsarətlə deyərdim ki, müasir səslənir. Sünnətdə cinsi gücün insan üzərindəki hakimiyyəti səmimiyyətlə etiraf edilir və bu məsələ əxlaq baxımından tənzimlənir.

Kişi və qadın hüququnun bərabərliyi müəllif tərəfindən tutarlı faktlarla incələnir. Qız cocuqlarına savad verilməsi haqqında bəzi kitablara

dürtülmüş fikirləri müəllif tənqid edir və bunun sünnətə aid olmadığını göstərir. Bu və buna bənzər faktlar İslamın üzərindən xurafat pərdəsini götürür, onu bizə olduğu kimi təqdim edir.

Bir sözlə, İ.Cananın kitabını oxuyan hər kəs dinimizin elmi əsasları üzərində qurulduğunu, cəhalət və xurafatdan azad olduğunu, əxlaqa, təmizliyə, yüksəkliyə, aliliyə söykəndiyini görər.

Kitabın dilinə gəlincə, bu dil yapmaçılıqdan, saxtakarlıqdan, sünilikdən uzaq, bülbül cəh-cəhinə bənzər əsl, gözəl türk dilidir. Mən azəri türküyəm, lakin Türkiyə türkcəsi ilə yazılmış bu kitabda mənim anlamadığım bir mətləb, bir söz tapmadım.

Bu gözəl və lazımlı kitabı yazıb bizə çatdırdığına görən qan, can və din qardaşım İbrahim bəyə dərin təşəkkürlərimi bildirirəm.

1996.
"Zaman və mən", Bakı, 1999.



MƏNİM RƏYİM

Azərbaycan ədəbiyyatının iyirminci yüzillikdəki parlaq ulduzlarından biri olan Şəhriyar təkcə mənsub olduğu xalqa deyil, bütövlükdə, türk-islam dünyasına, Şərq mədəniyyətinə şöhrət gətirmişdir. Şərqin 2 məşhur dilində - türkcə və farsca kamil poetik örnəklər yaradan bu böyük sənətkarın ədəbi irsi çoxsaylı və çoxyönlü filoloji araşdırmalara mövzu olmağa layiqdir. Yaxşı haldır ki, artıq bu istiqamətdə xeyli iş görülmüş və görülməkdədir.

Başqa hansı dillərdə yazıb-yaratmasından asılı olmayaraq, hər bir sənətkarın istedad gücü özünün tam, bütöv halını, nəfəs genişliyini yalnız onun öz ana dilindəki yaradıcılığında tapa bilir. Şairin yalnız doğma dilində olan sənət dünyası təpədən-dırnağa qədər təbii görünər, bütün digər hallarda onun yaradıcılığında müəyyən bir boyanın - yabançı rəngin olması qaçılmazdır. Bu mənada şairin sənət dünyasını bütün incəliklərinə qədər görmək, duymaq, onun təbiətindən, Tanrı vergisindən gələn gerçək halını bilmək üçün ana dilindəki yaradıcılığına baş vurub axtarışlar aparmaq ən düzgün yoldur. Şəhriyarın həyatı və sənəti mövzusunda dissertasiya işi yazarkən Yusif Gədikli də məhz bu yolu seçmiş və böyük şairin ana dilindəki əsərləri toplusunu - "Türkcə divan"ını araşdırmağı qarşısına məqsəd qoymuşdur.

Şəhriyarın doğulub boya-başa çatdığı mühiti, təhsil illərini, ömür yolundakı əsas hadisələri, bədii yaradıcılığın folklor və klassik poeziya

qaynaqlarını, əbədi fəaliyyətindəki başlıca mərhələləri, mövzu və janr əhatəsini, poetik-üslubi biçimlərini müəyyənləşdirməyi qərarlaşdıran Y.Gədikli çətin və maraqlı bir araşdırma yolu tutmuşdur. O, indiyə qədər ortaya çıxarılmış ədəbi faktları və müxtəlif mövqeli elmi-nəzəri mülahizələri vahid bir axarda sistemləşdirməli, daha sonra isə öz elmi qənaətlərini irəli sürməli olmuşdur.

Tədqiqatın birinci fəslində Şəhriyarın ömür və sənət yolu işıqlandırılır. Şairin doğulduğu və tərbiyə aldığı mühit, uşaqlıq, gənclik illərini keçirdiyi tarixi-coğrafi şərait, bədii yaradıcılığa başlayarkən əhatələndiyi ədəbi-mədəni çevrə mövcud bilgilər əsasında, mövzunun tələbinə uyğun istiqamətdə dəyərləndirilir. Burada Şəhriyarın ömür yoluna dair filoloji fikirdə mövcud olan bəzi yanlışlıqlar dürüstləşdirilir, mübahisəli məsələlərə aydınlıq gətirilir. Daha sonra fəsildə Şəhriyarın ədəbi fəaliyyətinə ümumi bir nəzər yetirilir və diqqət onun türkcə əsərlərinin yazılma səbəbləri, tarixi, Azərbaycan, İran və Türkiyədəki müxtəlif nəşrləri, həmin nəşrlərin uğur və qüsurları üzərinə yönəldilir. Bu fəsildə şairin şeir-sənət haqqındakı görüşləri, Şərq poeziyasının böyük ədəbi simalarına münasibəti, onların yaradıcılığına dair mülahizələri də geniş şəkildə araşdırılır. Şəhriyar və çağdaşları probleminə də burada müəyyən yer ayrılmışdır.

Dissertasiyanın ikinci fəsli Şəhriyarın türkcə şeirlərində dil, üslub, şəkil və poetika məsələlərinin öyrənilməsinə həsr olunmuşdur. Klassik poeziya ənənələrinin və xalq şeiri tərzinin bənzərsiz sintezi Şəhriyar poeziyasında özünəməxsus poetik tutum yaratdığından tədqiqat zamanı dissertant həmin mənzərənin genetik əsaslarını, struktur və üslubi şəbəkəsini qarşılıqlı təsir və nüfuzetmə aspektində aydınlaşdırmışdır. Tədqiqatçı Şəhriyarın türkcə şeirlərinin əksəriyyətini şəkil-biçim baxımından araşdırmış, onların qafiyə, rədif sistemini, bədii təsvir vasitələrini, üslub maneralarını, milli koloriti əks etdirən poetik detal və ünsürlərini müasir elmi-nəzəri ölçülərlə dəyərləndirmişdir. Heca və əruzdakı şeirlərin fərdi əzəllikləri ilə yanaşı, bir-birinə təsir dərəcəsi də dissertant tərəfindən diqqətlə üzə çıxarılmışdır. Şəhriyar şeirinin xalq deyimləri ilə, milli-etnoqrafik cizgilərlə, Təbriz ləhcəsindən gələn

koloritlə zənginliyi barədə də tədqiqat işində maraqlı mülahizələr vardır. Yusif Gədikli haqlı olaraq belə bir elmi qənaətin üstündə möhkəm dayanır ki, Şəhriyarın ana dilində olan şeirlərində milli ruhun farsdilli şeirlərinə nisbətən daha güclü olmasına səbəb elə həmin şeirlərin dilidir: çünki dil milli ruhun müqayisəolunmaz daşıyıcısıdır! Xalq ruhunu, qan yaddaşını, millimənəvi koloritli ədəbiyyata, xüsusən də poeziyaya ana dili qədər heç bir qüvvə daşıyıb gətirə bilməz. Şəhriyar şeirindəki ana dili sevgisi, türkçülük duyğusu dissertasiyada bu baxımdan çox gözəl təhlil olunmuşdur.

Şairin yaradıcılığı mövzu, janr əhatəsi baxımından da ətraflı tədqiq edilmişdir. Mövzu rəngarəngliyinin, janr çeşidlərinin Şəhriyar poeziyasındakı çoxsaylılığını dissertant sənətkarın geniş dünyagörüşə, əhatəli bilik dairəsinə, zəngin ədəbi təsəvvür və təcrübəyə malik olması ilə bağlayır.

Dissertasiyanın üçüncü fəsli Şəhriyarın şah əsəri olan "Heydərbabaya salam"ın tədqiqini əhatə edir. Fəslin əvvəlində əsərin yazılma səbəbi və tarixi-siyasi şərait, az bir müddət ərzində yayıldığı irimiqyaslı coğrafi genişlik, görkəmli ədəbiyyatşünas, türkoloq və şərqşünasların, habelə məşhur ictimai-siyasi xadimlərin ona münasibəti məsələsini müəyyənləşdirən Y.Gədikli daha sonra poemanın mövzu dairəsini, bədii-üslubi xüsusiyyətlərini geniş təhlilə cəlb etmişdir. Dissertant "Heydərbabaya salam" haqqında indiyə qədər deyilənləri təkrar etməmiş, öz sözünü deməyə nail olmuşdur. Xüsusən poetik düşüncənin obrazlılığı barədəki mülahizələrin elmiliyini və orijinallığını ayrıca qeyd etmək lazımdır. Şəhriyardan sonra "Heydərbaba" ənənəsinin yaranması və geniş yayılması səbəbləri ilə bağlı irəli sürülən nəzəri müddəalar da çox maraqlıdır.

Dissertasiyadan görünür ki, Yusif Gədikli Şəhriyar yaradıcılığına dərindən bələddir. O, böyük sənətkarın ana dilindəki poetik irsinin Türkiyədəki ən yaxşı naşiri və tədqiqatçısıdır. Yeri gəlmişkən orasını da qeyd etməyi vacib bilirəm ki, Y.Gədikli təkcə Şəhriyar irsinin deyil, çağdaş Azərbaycan ədəbiyyatının yorulmaz naşiridir. Onun Azərbaycan ədəbiyyatı örnəklərindən ibarət iki cildlik şeir və nəsr antologiyası ha-

zırlanması və İstanbulda nəşr etdir məsi böyük xidmətdir.

Y.Gədiklinin Şəhriyarın türkcə divanının araşdırılmasına həsr olunmuş bu tədqiqat işi namizədlik dissertasiyasının elmi-nəzəri tələblərinə tam cavab verir. Dissertasiya əsasında hazırlanmış avtoreferat tədqiq olunan mövzunun əsas məzmununu əhatə edir.

Bununla belə, işə aid bəzi qeydlərimi deməliyəm:

1. Şəhriyar yaradıcılığına dair son tədqiqatların bir qismi araşdırmadan kənarda qalmışdır. Bakıda keçirilən Şəhriyar konqresinin *(1993)* materialları bu qəbildəndir.

2. Ə. Fərdinin hazırladığı "Türkcə divan"ın qüsurları ümumi şəkildə göstərilir. Halbuki həmin nəşrin təfərrüatı ilə izah olunması vacib idi.

3. Tədqiqatda Füzuli və Şəhriyar xəttinin geniş ədəbi aspektdə açılışı verilməmişdir. Halbuki bu məsələ böyük ədəbi-estetik əhəmiyyətə malikdir.

Göstərilən nöqsanlar tədqiqat işinin müsbət məziyyətlərinə qətiyyən xələl gətirmir. Dissertasiya Ali Attestasiya Komissiyasının tələblərinə uyğundur. Onun müəllifi Yusif Mustafa oğlu Gədikli filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tamamilə layiqdir.

1995.
"Zaman və mən", Bakı, 1999.



BEŞİK DƏFTƏRİ

İsmayıl Vəliyevin redaktorluğu ilə "Azərbaycan Ensiklopediyası"nın buraxdığı "Beşik dəftəri" kitabı uşaqlarımız üçün "Əlifba kitabı" qədər lazımlı və qiymətlidir. Uşağa adqoyma mərasimindən tutmuş, müxtəlif yaş dövrlərində onun tərbiyəsi, yetişdirilməsi, qidalanması, müalicəsi və sağlamlığı kimi mühüm məsələlərdə gənc analara tövsiyələri ilə zəngin olan bu kitab, bizim pedaqogika tariximizdə demək olar ki, ilk nümunədir. Bu kitabda pediatriya ilə pedaqogika çiyin-çiyinədir. Ən gözəl cəhət ondan ibarətdir ki, kitabda uşağın sağlamlığı və tərbiyəsində elmlə bərabər xalqın təcrübəsindən doğan müdriklik yanaşı götürülmüşdür.

"Beşik dəftəri" dünyaya gələn hər bir azəri-türk cocuğunun ilk günlərindən tutmuş həyatının ən əsas dövrlərini tarixə çevirmək məqsədi daşıyır. Belə ki, kitabın "Əziz körpə, xoş gəlmisən bu dünyaya" başlığı altında verilən ilk səhifəsində uşağın hansı doğum evində doğulması, çəkisi, boyu, saçlarının və gözlərinin rəngi, həmin gün havanın necə olması, hansı həkim tərəfindən tutulması, ailədə və ölkədə baş verən mühüm hadisələr haqqında suallara cavab verilir. Bu sorğulara cavabların, zaman keçəndən sonra yetkinlik yaşına dolacaq həmin uşaq üçün nə qədər maraqlı olacağı şübhəsizdir.

Bundan sonrakı səhifədə isə valideynlərə qız və oğlan adları, uşağın aldığı ilk hədiyyələr və təbriklərin yazılması təklif olunur.

Kitabın 96-cı səhifəsində “Uşaqlar ataları haqında nə düşünürlər?” sualına verilən cavablar son dərəcə müdrik və düşündürücüdür. Burada altı yaşından altmış yaşına qədər insanın öz atası haqqında düşüncələrində yumor qarışıq bir müdriklik var.

Məsələn, 6 yaşında uşaq “Atam hər şeyi bilir”, 10 yaşında “Atam çox şeyi bilir”, 15 yaşında yeniyetmə “Mən də atam qədər bilirəm”, 20 yaşında cavan “Atamın çox şeylər haqqında məlumatı yoxdur”, 30 yaşında adam “Atamın da fikrini öyrənsəm pis olmaz”, 40 yaşında yetkin adam “Atam bəzi şeyləri məndən yaxşı bilir”, 50 yaşlı ahıl “Atam hər şeyi bilir”, 60 yaşlı qoca “Ah ata, kaş, sağ olaydın, mənə bir məsləhət verəydin” deyir.

Yaşın müəyyən dövrlərinə xas olan bu hikmətli nəticələrdə ömrün ilk çağı ilə son çağı, ağacın bir ucu ilə o biri ucu birləşir. Beləliklə, insan altmış yaşına dolduğu zaman 6 yaşındakı fikrinə qayıdır. Nə qədər doğru, nə qədər hikmətli və müdrik nəticə!

“Uşaq yıxıla-yıxıla böyüyər”, “uşaq gördüyünü götürər”, “uşaq olan evdə qeybət olmaz”, “uşağı yemək böyütməz, fərəh böyüdər” kimi atalar sözlərinin,

Balam, balam bal dadır,
Balam adam aldadır.
Şirini şirin olur
Acısı da bal dadır. -

Kimi oxşamaların:

Balama qurban alçalar
Balam nə vaxt əl çalar? -

Yaxud:

Balama qurban inəklər
Balam nə vaxt iməklər? -

Kimi bəsləmələrin:

Kəhərə yəhəri yəhərlədim
Yəhəri kəhərə yəhərlədim
Mindim yəhəri
Çapdım kəhəri -

kimi yanıltmacların verilməsini kitabın ən böyük uğuru saymaq olar. Ona görə ki, bizim gənc analarımızın əksəriyyəti (xüsusən şəhərli analar) uşağın böyüməsində, yetişməsində, tərbiyəsində, dil açmasında mühüm rol oynayan bu zəngin folklor materiallarından xəbərsizdir. Tərtibçilərin kitaba saldığı atalar sözləri, laylalar, bayatılar, bəsləmələr, oxşamalar, yanıltmaclar böyüməkdə olan uşağı öz milli kökünə, əcdadına bağlayır. Axı, bizlər belə böyümüşdük! Kitabda əsərlərindən misallar gətirilən Nizami, Nəsirəddin Tusi, Üzeyir bəy, Hüseyn Cavid, Səməd Vurğun, Rəsul Rza kimi böyüklərimiz məhz bu milli ruhun yetirmələridir. Biz bir şeyi bilməliyik ki, laylalar uşağı yalnız yatırmaqdan ötrü deyil, həm də onların mənəvi tərbiyəsi, duyğularının cilalanması, ətraf mühiti dərk etmələri üçündür. Muğam üstündə deyilən laylaların ahəngi uşağı min illərdən süzülüb gələn doğma ruha - milli varlığımıza, bir sözlə, özümüzə bağlayır. Məhz bu mühüm məsələdən bəhs edən "Beşik" şeirində vaxtilə demişdim:

Laylanın hər xalı bir ümid, güman,
Onun ahənginə qaynadı qanım.
Anamın yanıqlı laylalarından
Süzüldü ruhuma Azərbaycanım.

Bəli, Vətən və millət sevgisi bizim ruhumuza analarımızın yanıqlı laylalarından, bayatılarından, nənələrimizin nağılların dan süzülür. Bu böyük xəzinədən məhrum olan - layla, bayatı eşitməyən, milli nağıllarımızı dinləməyən, yad "bayubayuları", nəğmələri və özgə nağılları ilə tərbiyələnən uşaq bizim millətin övladı ola bilməz. Əgər balalarımızı

öz millətimizə qulluq edəcək namuslu bir vətəndaş kimi yetişdirmək istəyiriksə, gəlin, onları "Beşik dəftəri"ndə toplanan bu böyük xəzinənin ruhu ilə tərbiyə edək.

Yazıqlar olsun ki, tərbiyə ilə məşğul olan bizim mütəxəssislərimiz məlum səbəblər dolayısı ilə 70 il milli folklorumuz kimi zəngin tərbiyə xəzinəsindən istifadə etməmiş və yetişən nəsil öz milli ruhundan məhrum olmuşdur.

Mən hər il yay aylarında nəvələrimlə bərabər Şəkidə oluram. Çox qəribədir, uşaq ikən mənim oynadığım "dirədöymə", "yalağa salma", "çiling-ağac", "ənzəli", "top aldı qaç" kimi oyunları indi rayon və kənd uşaqları daha oynamır. Demək olar ki, bu oyunlar tamam unudulub. İndi uşaqlar səhərdən axşama qədər televizorun qabağında oturub ya futbola baxır, ya da ədəbdən kənar xarici teleseriallara.

Nəvələrim bağçadakı ağacların, otların, çiçəklərin, böcəklərin, quşların heç birinin adını bilmir. Öyrədirəm, amma hiss edirəm ki, buna maraq göstərmirlər. Ən təəccüblüsü də budur ki, bədii kitab oxumaq həvəsində də deyillər. Çünki ürəkləri televizorun ekranına köklənib. Məlumdur ki, insan torpaqdan, ana təbiətdən uşaqlaşdıqca süniləşir, saxtalaşır.

"Beşik dəftəri" kitabında Nəsirəddin Tusidən tərbiyə haqqında verilən məqalə çox ibrətamizdir. Alim tərbiyənin erkən yaşlardan başlanmasını tövsiyə etməklə, ilk növbədə, uşağa utanmaq və abır, həya hisslərinin aşılanmasını əsas götürür. Alim haqlıdır. Çünki, abır-həya gözləməyən, utanmağı bacarmayan adamdan dünyanın bütün pisliklərini gözləmək olar.

Uşağın necə qidalanmasından bəhs edən Tusi yazır: "Uşağa başa salmaq lazımdır ki, yeməkdə məqsəd səhhətdir, ləzzət deyildir. Çünki qida yaşamaq və sağlam qalmaq üçündür... Dərmanı dad almaq üçün atmadıqları kimi, təamı da ləzzət çəkmək üçün yeməzlər".

Demək, böyük filosof yeməyi yalnız maddi tələbata bağlamaqla mənəvi ləzzəti ondan ayırır. İnsanın insanlığını mənəvi ləzzətdə, yəni ruhun qidalanmasında görür.

Bir qədər sonra Tusi yazır: "Uşağı mehribanlıq və məhəbbət doğu-

ran kəramətlərlə tərbiyə etmək lazımdır. Xüsusilə ağıla, şüura, idraka təsir edən, başasalma yoluyla. Pul vermək, şirnikləndirmək kimi yollarla yox".

Uşağa pul verməyin, onu şirnikləndirməyin sonrakı bəlasını o belə izah edir: "Qızıl və gümüşü, pulgirliyi uşağın gözündən salmaq lazımdır. Sərvətin gətirdiyi bəlanı heç əfi ilan zəhəri də gətirə bilməz".

Bu sözlər bu gün üçün nə qədər müasir səslənir. Valideynlərdən pul alıb şirnikləndirmək yoluyla "Tərbiyələndirilən" uşağın böyüyəndən sonra ən tərbiyəsiz adam olacağı labüddür.

Uşaqlıqdan şirnikləndirməyə adətkərdə olanların böyüyəndən sonra "uf" demədən millətin qanını soran rüşvətxorlara çevriləcəkləri təbiidir.

"Beşik dəftəri" kitabının mən deyə bilmədiyim daha başqa məziyyətləri də var. Sözümün sonunda bu kitabı tərtib edənlərə, onu müasir poliqrafiya səviyyəsində üzə çıxaranlara mən bir vətəndaş kimi təşəkkürümü bildirir və üzümü gənc valideynlərə tutub deyirəm: Siz əgər balalarımızı namuslu bir vətəndaş, xeyirxah bir insan kimi yetişdirmək istəyirsinizsə bu kitab sizə ən yaxşı məsləhətçi və rəhbər ola bilər. Onu oxuyun, hər tövsiyəsinə əməl edin. Balalarımızı bu kitabın göstərdiyi haqq yoluyla tərbiyələndirin.

"Respublika" qəzeti, 14 avqust, 1998.
"Zaman və mən", Bakı, 1999.



EY QOCAMAN TÜRKİYƏ!

Fikir və əməl qardaşım Namiq Kamal bəy, "Türk olmaq" kitabınızı həvəslə, təqdir edə-edə oxudum. Sizin bu kitabınız mənim Azərbaycanda apardığım 50 illik mücadilənin eynidir. Fikirlərimizin, qayğı və dərdlərimizin nə qədər yaxın olduğuna həm heyrətləndim, həm də yox.

Ona görə heyrətlənmədim ki, mən sizi çoxdan tanıyır, eyni dərdlərlə yaşadığımızı bilirdim. Heyrətlənməyimin səbəbini isə sizin kitabınızın 69-cu səhifəsində mənim adımı çəkmədən "azərbaycanlı bir dəgərli şair" - deyə mənim heyrətimin səbəbini yazmısınız: - "Azərbaycanlı bir dəgərli şair bana şöylə demişdi: "Bizi ruslar zorladı, dilimizə rusca sözlər doldurdular, dilimizi unutdurub ruscayı üstə çıxarmaya çalışdılar. Pəki, sizi kim zorladı? Biz sizi örnək almaq istiyoruz. Siz nədən kəndinizə örnək olmuyorsunuz? Dilimizin bayrağını yüksəklərə qaldırmaq sizin görəviniz deyilmidir?" Bəli, dostum, bir neçə il bundan əvvəl mən sizə bu sualı vermişdim. Biz iki yüz il rus boyunduruğunda yaşadıq. Buna görə də ana dilimiz özümüz kimi əsarətdə oldu. Bu illər ərzində biz ana dilimizin təbii haqqını qorumağa çalışdıq.

Mən hələ 1954-cü ildə yazdığım "Ana dili" şeirində demişdim:

Ey öz doğma dilində danışmağı ar bilən
Fasonlu ədabazlar.

Könlünüzü oxşamaz qoşmalar, telli sazlar.
Qoy, bunlar mənim olsun.
Ancaq Vətən çörəyi sizlərə qənim olsun.

Əlbəttə, o zamanlar bu şeir yuxarı dairələrin xoşuna gəlmədi və bunun üstündə başım çox bəlalar çəkdi. Mən başıma gələn bu bəlaları çox təbii sayırdım. Çünki mən rusun köləsi idim. Amma Allaha min dəfə şükürlər olsun ki, Anadolu türkləri tarixin heç bir dönəmində heç bir xalqın köləsi olmamışdı. Əgər bu həqiqətdirsə, bəs nə üçün böyük imperatorluqlar qurmuş Anadolu türkləri bu gün özləri öz milli varlıqlarına düşmən kəsilib, bülbül cəh-cəhinə bənzər türk dilinin bəkarətini pozur, onu zorlayır? Türk dilində cahanşümul əsərlər yaradan Nəsimi, Nəvai, Yunus, Füzuli, Məxtumqulu, Sabir, M.Akiflərə bu dil yaradı, indi bizə yaramır? Özümüzdən sözlər uydururuq? Kim bizə bu haqqı vermişdir? Axı, hər bir dilin müəllifi tək-tək adamlar deyil, millətdir.

Müstəqil türk cümhuriyyəti yaranandan sonra, bir tərəfdən, tədricən vahid ortaq dilə getmək barədə düşünürük, o biri tərəfdən siz Türkiyə türkləri, hamımız üçün ortaq olan çox-çox sözləri dilimizdən qovur, uydurma sözlər yaradır, aramıza uçurum salırsınız. Bunu biz necə anlayaq? Bax, mənim heyrətimin səbəbi budur. Siz yazdığınız kimi, mən Ankaranın, İstanbulun küçələrindən keçdiyim zaman bu şəhərlərin Londonmu, Nyu-Yorkmu, ya İstanbulmu olduğunu anlaya bilmirəm. Reklamlar, dükanların və bəzi idarələrin adları, hətta təyyarələrin üstündə "Türk hava yolları" "Turkish Airlines" yazılır. Türk hava yollarının dərgisinin də adı "Skylife" dir. Bax, mən buna heyrət edirəm.

Burdan çıxaraq, Türkiyədə təhsilin ingilisləşməsi məni ağrıdır. Sizin isnad etdiyiniz böyük alim Oktay Sinanoğlunun Türkiyədə ingilis təhsilinə qarşı yazdığı bir neçə məqalə ilə tanışam. 1996-cı ilin aralıq ayında mən Türkiyədə tədavi olduğum zaman "Aydınlıq" qazetinin 8 aralıq, 1996-cı il sayında O.Sinanoğlunun "Bir ölkəni kölələşdirmək istəsəniz təhsilini yabançılaşdırın" məqaləsini və bu il "Türk ədəbiyyatı" dərgisinin 293-cü sayında "Ekitimmi, eritimmi? məqalələrini oxuyub bu böyük şəxsiyyətin qəlbən mənə, mənim fikirlərimə nə qədər yaxın

olduğuna heyrətləndim.

O.Sinanoğlu əcnəbi dildə təhsilin türk milləti üçün nə qədər böyük faciə olduğunu çox gözəl anlamış və bizi ayıltmaq üçün, sözün həqiqi mənasında, həyəcan təbili çalmışdır.

Siz kitabınızda türk olmanın nə böyük şərəf olduğunu şeir qədər hiss-həyəcanla dolu cümlələrinizdə çox gözəl açıqlayırsınız: "Türk demək hunlar, göytürklər, sakalar, avarlar, Qarahanlılar, Səlcuklular, Osmanlılar, Timurlular, Baburlular deməkdir. Nəhayət, Türkiyə Cümhuriyyəti deməkdir. Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan cümhuriyyətləri deməkdir.

"Türk" demək minlərcə ildən bəri dalğalanan bayraq deməkdir, "Türk" demək tarix boyunca başı dik olmaq deməkdir. "Türk" demək on milyon kilometr torpağa yayılmış rəngarəng dil deməkdir.

"...Türk" demək insanlığın dilim və ədəbiyyat tarixinə Kutadqu Biliki, Divani lüğət-it-türkü, Divani Hikməti, İbn Sinayi, Fərabiyi, Biruniyi, Əl-Xarəzmiyi, Uluq beyi, Əli Kuşçuyu... Oktay Sinanoğluyu, Çingiz Aytmatovu, Çingiz Dağçıyı hədiyyə etmiş bir böyük dünya deməkdir".

Nəhayət, sonda bu nəticəyə gəlirsiniz ki, "Bizi türk yaratdığı üçün Allaha şükürlər olsun"... "Nə mutlu türküm deyənə".

Bütün bunları bizim yadımıza salmaqda, böyük şəxsiyyətlərimizi bizə tanıtmaqda Sizin ali məqsədiniz ikinci Göytürk səltənətinin yaradıcısı böyük atamız Bilgə xaqanın dediyi məşhur sözlərlə bizi özümüz haqqında düşünməyə çağırırsınız. Hələ 1400 il bundan öncə Bilgə xaqan demişdi: Ey Türk bəyləri, millət, eşidin. Yuxarıda mavi göy çökmədikcə, aşağıda qara torpaq yarılmadıqca sənin elini, sənin törəni kim poza bilər? Ey türk milləti, titrə və özünə dön. Sən özünə dönəndə böyük olursan".

Demək, özündən qaçma, özünü bəyənməmək, başqasını böyük, özünü kiçik görmək bəlası hələ o zamanda da varmış! Demək, Mete, Bumın, Bilgə, İstemi, İlteriş xaqanlar, böyük Osmanlı imperatorları və yuxarıda adlarını saydığımız böyük bilim adamlarımız olmasaydı, biz tarixin dolaylarında çoxdan itib batmışdıq.

Bununla bərabər, çox keçmişlərdən, bizim damarlarımızan axıb bu

günə qədər davam edən özünə, öz milli varlığına biganəlik, özünü kiçik, başqasını böyük görmək bəlası nə deməkdir? Niyə biz bu mərəzə mübtəlayıq? Bizim böyük bilginlərimiz psixoloqlar, tarixçilər, filoloqlar, filosoflar bu bəlanın səbəblərini və köklərini araşdırmalı, buna qarşı müharibə elan edilməli, içimizdə yaşayan özünə, öz milli varlığına laqeydlik xəstəliyindən bizi xilas etməlidirlər.

Əlbəttə, nə siz, nə Sinanoğlu, nə də mən yabançı dilləri öyrənməyin əleyhinə deyilik. Amma əcnəbi dillər yalnız ana dilinin vasitəsilə öyrədilməlidir.

Mənim bu yazıda məqsədim ürəyinizin qanı ilə yazdığınız "Türk olmaq" kitabınızı təhlil etmək, onu incələmək deyil. Çünki bu kitab mənim ürəyimin əks-sədası, eynən mənim düşüncələrimdir. Mən bu yazımla sizinlə əl-ələ verib mübtəla olduğumuz bu bəlalardan xilas olmağın yollarını, bir sözlə, dərdin əlacını aramaq istəyirəm.

Mən anlaya bilmirəm, necə ola bilər ki, ömrünün uzun illərini uzaq Amerikada yaşayan Sinanoğlu düşdüyümüz bu bəlanı görə bilir, ona əlac axtarır, amma Türkiyədə və Azərbaycanda, eləcə də başqa türk cümhuriyyətlərində bu bəlanın içində yaşayanların əksəriyyəti heç bu barədə düşünmür də...

Sizin yazdığınız Yalçın Pekşenlər bizdə də var. Ancaq bunlar bizim təbii mühitdə yetişən Pekşenlərdir.

Sovet imperiyası dövründə Azərbaycan və eləcə də rus əsarətində olan başqa türk cümhuriyyətlərində dövlət işləri, yazışmalar, toplantılar yalnız rus dilində aparıldığından rus dilini mükəmməl bilməyənlər yüksək məqamlara qaldırılmır. Onlara iş verilmirdi. Buna görə də valideynlər övladlarını anadilli məktəblərə deyil, rus məktəblərinə verirdilər. Nəticədə, bu respublikalarda ana-dilli məktəblərin sayı ildənilə azalırdı. Rus məktəblərində təhsil alan uşaqlar isə rus tarixini, rus ədəbiyyatını, rus adət-ənənəsini, bir sözlə, rus mənəviyyatını bilir, o məktəblərdən tam rus olub çıxır, özünü, öz tarixini, öz ədəbiyyatını və mənəviyyatını bilməməzlikdən, öz millətinə düşmən kəsilir, özünü kiçik, rusu böyük görürdü.

Bu yaxınlarda rus təhsili görmüş rus qafalılar rus dilində Bakıda

“Monitor” adlı dərgi buraxmağa başladılar. Və həmin dərgidə yazdılar ki, biz millət deyil, qəbiləyik. Bildiyimiz kimi, biz istiqlalımız uğrunda mübarizə apardığımız zaman ermənilər Ermənistanda yaşayan azəri türklərini qovanda, biz də Azərbaycanda yaşayan yarım milyonluq ermənini Azərbaycandan çıxartdıq. Bunu görən rusların bir qismi də Bakıdan yavaş-yavaş getməyə başladılar. Gedənlərin yerinə Qarabağdan və Ermənistandan qovulan azəri türkləri, əsasən, Bakıda yerləşdi.

Yuxarıda bəhs etdiyim “Monitor” dərgisinin ətrafında toplaşan həmin rus qafalı gənclər rusların və ermənilərin Bakıdan getmələrinə təəssüflənib, bunu bizim üçün fəlakət sanırlar. Onların əqidəsinə görə, vaxtilə Bakıda yaşayan rus və ermənilər bizi mədəniləşdirirmiş. Amma Qarabağ və Ermənistan köylərindən Bakıya köçürülən azəri türkləri indi bizi geriyə aparır, başqalarından qazandığımız mədəniyyətimizi korlayırlar.

Ən dəhşətlisi də budur ki, onların fikrincə, biz heç zaman türk olmamışıq. Erməni əhatəsində yaşayan azərbaycanlıları ermənilər “türk” adlandırmış, buna görə də onlar özlərini türk hesab edir və Bakıya köçəndən sonra da yerli azərbaycanlılara onlar bizim türk olduğumuzu demişlər. Yalnız bundan sonra biz azərbaycanlılar da özümüzü türk adlandırmağa başlamışıq. Cəhalətin dərəcəsini görürsünüzmü? Əslində, mən onları qınamıram. Çünki onlar anadilli məktəblərdə təhsil alsaydılar, bizim klassiklərimizi - Füzulini, Nəsimini, M.F.Axundzadəni, Cəlil Məmmədquluzadəni, Sabiri oxusaydılar, bilərdilər ki, bu dahilər türk olduqlarını dönə-dönə yazmış və türk olduqları ilə fəxr etmişlər. Eləcə də, rus əsarətində olduqlarından rus dilində təhsil alan özbək, türkmən, qazax, qırğız, tatar gəncləri türk olduqlarına tam mənasında inanmır və burdan da bizim fəlakətimiz başlanır.

Moskva ruslaşdırma toxumunu elə səpib ki, həmin rus qafalılar

bu gün bizim istiqlalımıza qarşı çıxır, gözünü Moskvaya dikib yenidən onlara birləşməyimizə çalışırlar.

Bunlar mənə aydındır. Amma dəfələrlə Sizə və başqa türkiyəli qardaşlarıma dediyim kimi, bizim fəlakətimizin səbəbləri aydındır. Bəs Sizə - tarix boyu əsarət görməyən (Allah heç zaman göstərməsin) Türkiyə

türklərinə nə oldu ki, öz kökünüzdən, milli varlığınızdan bu qədər ayrı düşdünüz? Siz buna heç bir səbəblə haqq qazandıra bilməzsiniz. Çünki günah özünüzdədir. Bunu siz də etiraf edirsiniz: "Öz mədəniyyəti ilə barışmayan bir toplumuz. Hələ kəndi-kəndi ilə savaşmayı bitirmədiz".

İndi siz bu gün yabançı dildə təhsilin bir milləti necə rəzil etdiyini bizim simamızda görüb bizdən dərs götürməli, yabançı təhsilə qarşı mübarizə elan etməlisiniz. Burda böyük Atatürkün məşhur kəlamını xatırlatmaq yerinə düşər: "Milli mənliyini bulamayan millətlər başqa millətlərə yem olurlar."

Bu yerdə siz haqlı olaraq: "Çağdaş degişimi uyğulamanın kurumsal yolunu... mümkün olduğunca kəndi keçmişinə yönəlmədə" görürsünüz. Çünki irəliləmək üçün geriyə baxmaq gərəkdir". Çox doğru olaraq göstərirsiniz ki, "Yaponlar kəndi milli kulturlarına dayalı olaraq kalkındılar və milli kulturlarını kalkınmalarının mühərrik gücü olaraq dəgərləndirdilər."

Bəli, yaponlar kompüteri hazır olaraq Qərb ölkələrindən almadılar, özləri öz kompüterlərini yaratdılar. Yaponların minik avtomobillərinə diqqətlə baxsanız, görərsiniz ki, insan gözlərinə bənzər qarşıda yanan faralarından tutmuş, zahiri görkəminə qədər cansız avtomobil onların özlərinə bənzəyir. Mənim bugünkü Türkiyədən istədiyim budur: Qoy, Türkiyə özünəbənzər öz kompüterlərini, öz avtomobilini, öz füzesini yaratsın. Qərbin texnikasını olduğu kimi götürməsin. Bu, böyük bir milləti təqlidçiliyə aparır.

Yenidən dönək təhsilin yabançılaşdırılmasına.

Yenə siz çox doğru vurğulayırsınız ki, "Bilim və texniki yöntəmləri evrenseldir ... Türkiyənin də kəndi bilim və texniki gəlişdirməsi, kəndi amac və qayələrindən sapmaması gərəkməkdədir. Egitimini başqa dildə yapdıran, gənclərinin düşünmə qabiliyyətlərini hər gün böyləcə kirlətən, hər gün onlara somurgə evladı ruhu, agentə kafalılıq və aşağılıq duyğusu aşılayan bir ölkə bunu yapamaz. Gərəkən yabançı dillər, hər yerdə olduğu kimi, ayrıca öyrənilə bilər. Amma kəndi dilini qaldırıb atmaq qəflətlərin ən böyüyüdür".

Mənim əsərlərimi rus dilinə çevirən moskvalı şair arkadaşım Rim-

ma Kazakova bir gün məndən sordu: “Siz ana dili mövzusunda niyə bu qədər çox yazırsınız?” Mən ona ana dilimizin əriyib yox olma təhlükəsi qarşısında olduğunu dediyim zaman o, məni başa düşdü və bu bəlanın səbəbini əcnəbi dildə təhsildə olduğunu deyib əlavə etdi ki, keçən əsrdə bu bəlaya bizim ziyalılarımız da tutulmuş, L.Tolstoy və K.D.Uşinski kimi yazarlarımız və alimlərimiz bu axına qarşı çıxmışlar. Ertəsi günü o, mənə məşhur rus pedaqoqu Uşinskinin “Ana dili” kitabını gətirdi. Mən bütün gecəni o kitabı oxuyub bir millətin varlığı üçün ana dilinin nə qədər böyük önəmə malik olduğunu bir daha anladım. Mənə aydın oldu ki, keçən əsrdə Sizin kimi batılaşmaq siyasətinə uyan rus ziyalıları Rusiyada fransız və alman məktəbləri açır və övladlarını yabançı məktəblərinə verməyi özlərinə şərəf bilirlər. O zaman bu məsələnin millət üçün təhlükə olduğunu bilən böyük pedaqoq Uşinski yazır: “Ana dilində bütün millət, onun varlığı, mənəvi dünyası təzahür edir. Vətənin səması, iqlimi, havası, çölləri, dağ və düzənlikləri, meşə və çayları, fırtına və tufanları, xalq ruhunun bütün yaradıcılıq qüvvəsi ilə ana dilində fikirlərə, şəkillərə və səslərə çevrilir... Xalqın əlindən hər şeyini alsanız o, onların hamısını qaytara bilər. Lakin onun əlindən ana dilini alsanız, o heç vaxt onu bir daha yarada bilməz. Xalq hətta özünə yeni Vətən də yarada bilər. Amma ana dili yoxsa, millət də yoxdur, Vətən də...”.

Bundan sonra alim, yabançı məktəblərdə təhsil alan uşaqları “mənəvi şikəst” adlandırır və belələrinin Vətən və millət üçün əsl oğul ola bilməyəcəyini, xalqı anlamayacağını, hansı dildə təhsil alıbsa, o xalqın xarakterini kəsb edəcəyini bildirir. Sonra əlavə edir ki, bu “mənəvi şikəstlər” hər hansı bir idarədə işlədikləri zaman “üzlərinə nə qədər vətən pərvərlik maskası taxsalar da yenə də Vətənsiz, yazıq adam olaraq qalacaqlar.”

Bu, bir millət üçün fəlakət deyilmi? Bunun böyük fəlakət olduğunu bilən Ermənistan parlamenti 1996-cı ildə erməni uşaqlarının rusdilli məktəblərdə təhsilini yasaq etdi.

Sizin kitabınızdan da öyrəndim ki, bu məsələ ilə əlaqədar Fransa parlamenti “Fransız dilinin kullanımına ilişkin 4 avqust 1994-cü il tarixli bir yasa” qəbul etmişdir.

Mən bu yasanı bütün türk cümhuriyyətlərindən, o cümlədən Türkiyə və Azərbaycan parlamentlərindən də gözləyirəm.

Mənim çox sevdiyim professor Faruk Kadri Timurtaşın ana dili haqqında dediyi sözləri Sizə xatırlatmaq istəyirəm: "Dil məsələsi bir milli müdafiə məsələsidir. Dilimizi qorumaq Vətəni qorumaqla birdir. Çünki dil də Vətən qədər, tarix qədər əzizdir. Dil də bayraq kimi, ailə kimi müqəddəsdir. Bəlkə, hepsının ifadəsi olduğu üçün hepsindən öndədir". Dil olmayınca millət olmaz Milli kulturun baş ünsürü dildir".

Əziz qardaşım N.Kamal bəy, Sizin kitabınızı oxuyub bitirəndən sonra kitabınızın son səhifəsinə bu sözləri yazdım: "Türk doğulmaq asandır. Amma bizim zəmanədə sözün gerçək mənasında türk olmaq, əcdadlarımızın şərəfli adlarına layiq yaşamaq çox çətindir!"

Sözümün sonunda üzümü böyük Türkiyəyə tutub deyirəm:

Ey şanlı tarixə malik olan böyük və qocaman Türkiyə! Unutma ki, biz səni özümüz üçün örnək bilirik. Buna görə də sınırlarından kənarda yaşayan böyük türk dünyasını pərişan etməyə, sənə dikilən gözləri qapatmağa, sənə bəslənən ümidləri puç etməyə sənin haqqın yoxdur. Ortaq atamız Bilgə Xaqanın sözlərini qulaqlarında sırğa elə: Ey türk, silkin və kəndinə dön!"

"525ci qəzet", 23 aprel, 1998.
"Ortadoğu" qəzeti, 29 nisan, 1988.
"Zaman və mən", Bakı, 1999.



”ELİSAM” MÜKAFATI

(Mükafatın təqdim mərasimində çıxış)

Əziz qardaşlarım!

Dünyanı az-çox dərk edəndən bu günə qədər ömrüm boyu türk ruhu ilə yaşamış, türk havası ilə nəfəs almışam. Əlbəttə, bu, ailə tərbiyəsinin və müəllimlərimin təsirinin nəticəsi idi. Mən hələ uşaq ikən atam, əmilərim Anadolu türklərinin qəhrəmanlığından, mərdliyindən ağız-dolusu danışardılar. Bu söhbətlər hələ uşaqlıqdan mənim qəlbimin dərinliyində türkə məhəbbət toxumu saldı. Və bu toxum məni əsl türk kimi yetişdirdi. Məktəbdə isə vaxtilə Türkiyədə təhsil almış ədəbiyyat müəllimim İbrahim Cəfər bu toxumu cücərtdi. O, məni öz kökümün, soyumun üstündə əsl türk olaraq yetişdirdi.

Siz əsirliyin nə olduğunu bilməzsiniz. Allah bunu heç bir millətə, ilk növbədə Sizə və bir daha bizə göstərməsin.

Evimizdə hər zaman radionun mili Ankaranın üstündə olardı. Ankaranın dinlər və diktorun hər sözünü su kimi içərdik. Qəzetləri oxuyar, Türkiyədən xoş xəbərlər gözlərdik. Amma sovet mətbuatı hər zaman Türkiyədən pis xəbərlər yazar, Türkiyəni qınardı. Məsələn, “Türkiyədə aclıqdır”, “Türkiyə geri qalmış məmləkətdir”, “Türkiyənin sənayesi yox, ziraəti bərbad” və s.. Amma biz onu da bilirdik ki, sovet mətbuatında yazılanları tərsinə anlamaq lazımdır. Yəni “Türkiyədə aclıqdır” yazırsa,

bunu “toxluq” kimi, “geri qalmış” yazırsa, “irəli getmiş” kimi anlardıq.

Türkiyə hər zaman bizim arxamızda dağ kimi dayanmışdır. 1918-ci ildə Rusiyanın fitvası ilə ermənilər Bakını və bir sıra bölgələrimizi işğal etdi. O zaman özünün yardıma ehtiyacı olduğu halda Türkiyə ordusu bizim yardımımıza gəldi. Dədəm deyərdi ki, 1918-ci ildə türk ordusu gəlməsəydi, erməni bizim millətin kökünü kəsəcəkdi. 1918-ci ildə M.Ə.Rəsulzadənin öndərliyi ilə qurduğumuz Azərbaycan Cümhuriyyətini 1920-ci ildə bolşevik imperiyası yıxandan sonra, Türkiyə bizim M.Ə.Rəsulzadələrə qucağını açdı və mühacir dövlətimizi burada qoruyub saxladı. Türkiyə bütün türk ölkələrin Zəki Vəli Toqan, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Sədri Maksudi Arsal kimi dəyərli şəxsiyyətlərinə qucağında yer verdi.

Bunları unutmaq olarmı?

İndi Allaha min dəfə şükür olsun ki, istiqlalımızı aldıq. Lakin bu istiqlal bizə sevinc gətirmədi. Yenə Moskvanın fitvası və yardımı ilə ermənilər torpaqlarımızın bir qismini işğal etdilər. Bu gün də bütün bu dünyada bizim arxamızda duran, fəryadımızı dünyaya çatdıran yeganə dövlət Türkiyədir. Başqa cür də ola bilməz. Çünki biz qardaş deyil, ətlə dırnaq kimi vahidik. İki cümhur başqanımız Süleyman Dəmirəl və Heydər Əliyevin dediyi kimi, biz iki dövlət, bir millətik. Füzuli, Nəsimi, Yunus İmrə sizinmi, yoxsa, bizimmi? Bunları ayırmaq mümkünsə, Türkiyə türkünü də Azərbaycan türkündən ayırmaq mümkündür.

Mən hər dəfə “Türkiyə” sözünü tələffüz edəndə dilim şəkərlənir, könlüm həyəcanlanır. Çünki Türkiyə mənim arzularımın, diləklərimin məmləkətidir. Çünki Türkiyə dünyadakı bütün türk xalqlarının gözünü dikdiyi, ümid bəslədiyi, arxa bildiyi bir səcdəgahdır. Türkiyə ömrüm boyu həsrətilə yaşadığım, uğurlarına sevinib, uğursuzluqlarına kədərləndiyim, adını çəkdiyim zaman qoluma qüvvət, ürəyimə taqət, gözlərimə işıq verən bir məmləkətdir. Ümidgahım, qibləgahım, zorla mənim əlimdən almış adımı qoruyub saxlayan, demək namusumun, izzət və şərəfimin qoruyucusu, görən gözüm, vuran qolum, düşünən beynim, çarpan ürəyim, ana dilim, tarixim, bayrağımdır Türkiyə.

Yalnız mənim deyil, bütün türk dünyasının Amerikasıdır Türkiyə.

Bu gün diləklərimizin məmləkəti olan Türkiyə iki Azərbaycan şairinə ödül verir. Mən və şair dostum Nəbi Xəzri sovetlər birliyinin çox böyük ödüllərini və medallarını almışıq. Bunların içərisində ən mühümü isə Sovetlər Birliyinin Dövlət mükafatı laureatıdır ki, biz buna da sahibik. Biz bu ödülü alanda da şübhəsiz, sevinmişik. Lakin bu gün Türkiyənin "Elisam" qurumunun bizə verdiyi ödül bir ananın öz övladına "sağ ol" və "əhsən" deməsinə bənzər. Bir övladın öz anasından eşitdiyi "sağ ol", başqalarının ona dediyi "sağ ol"a bənzəməz. Bu "sağ ol" ana sağoludur. Buna görə də aldığımız bu ödülə görə biz birinci növbədə Türkiyə Cümhuriyyətinə, bu cümhuriyyətin başında duranlara, başda Yəhya bəy Akengin olmaqla "Elisam" qurumunun üzvlərinə, bu gün bu məclisdə toplaşanlara və bütün Türkiyə vətəndaşlarına dərin təşəkkürümüzü bildiririk.

Ankara, 1994.
"Zaman və mən", Bakı,1999.



SONA XANIMA
MƏKTUB

Bakı Dövlət Universitetinin dosenti Çərkəz müəllimin qəfil ölümü onun həyat yoldaşı Sona xanımı sarsıtmış və o, ərinin xatirəsinə "Çərkəzli, Çərkəzsiz günlərim" adlı yanıqlı bir kitab həsr etmişdir. Həmin kitabı oxuyan xalq şairi B.Vahabzadə kitab haqqında təəssüratını müəllifə açıq məktub şəklində yazmış və redaksiyamıza təqdim etmişdir.

HÖRMƏTLİ
SONA XANIM!

Sevimli ərinizin vəfatından dolayı çəkdiyiniz iztirabları dilə gətirən kitabınızı oxudum və ağrı-acınıza ortaq oldum. Kitabınızın başlıca uğuru ondadır ki, Siz şəxsi dərdinizi və bu dərddən doğan ürək ağrınızı oxucunun da qəlbinə köçürə bilmisiniz. Yaradıcılıq işində bu, əsas şərtdir. Kitabçanı oxuyub qurtarandan sonra mən özüm-özümə belə bir sual verdim ki, dünənə qədər qələm əhli kimi tanınmayan bir xanımın yazısındakı bu odun, bu atəşin, nəhayət, ürəklərə yol tapıb, özü qədər

də başqalarını yandırıb-yaxmasının sirri nədədir? Bu suala bir bayatıyla cavab tapdım:

Əzizinəm, gül oldum,
Dərd yandırdı, kül oldum,
Bir dərd bilməz quş idim,
Oxudum, bülbül oldum.

Bəli, ömründə dərd bilməyən quş da dərd əlindən oxusa, bülbül olar. Əslində əsl şairi də, əsl bəstəkarı da sənətin zirvəsinə yalnız dərd qaldıra bilir. Ən böyük sənət korifeylərimiz olan Füzuli və Sabir dərdin, qəmin, bəşəri kədərin bülbülləri deyilmi? Sizi də dilləndirib bu kitabı yazmağa məcbur edən həmin dərd, həmin qəmdir.

Qəm fikrin açarı, ağlın ustadı,
İdrak qəm daşına dəydi, parladı.
Çəkdiyi əzabdan qəm dərən ağıl
İlləri yaşayır bircə anda da.
Qəmin damcısında közərən ağıl
Közərməz şadlığın ümmanında da.

Bəli, Son xanım, şadlıqda, sevincdə düşüncə yoxdur. Bizi düşündürən ürəyimizə sığmayan dərdimiz, qəmimizdir. Dərd bizi idrakımızın zirvəsinə qaldırır, böyüdür.

Sevinc isə bizi idrakımızın üst qatında yelləndirib kiçildir. Əlli illik yaradıcılıq tərcüməmdən deyə bilərəm ki, ən tutarlu, ən uğurlu yazılarımı mənə dərdim yazdırıb. Ona görə də bu misraları gəlişi-gözəl söz kimi deyil, gəldiyim qənaət kimi demişəm:

Dərdim olmasaydı, dərd tutmaq üçün,
Dərdin dəryasına tilov atardım.
Sevinci qaşıyıb, vallah, mən hər gün
Sevincdən özümə dərd yaradardım.

Əgər olmasaydı dəryaca dərdim,
Dərdin yoxluğunu mən dərd edərdim.

Bununla belə ədəbiyyatda əsas məsələ dərdin özündə deyil, dərdin ifadəsindədir. Siz bunu da tapa bilmisiniz: "Dağlardan duman çəkilər, fəsillər dəyişər, gün batar, ay doğar, yenə ağaclar çiçəkləyər, amma Çərkəz dönməz bu vəfasız dünyaya..." yaxud: "Mənim taleyimin sənlə keçən bir anı, bir bayramı, bir günü 100 illik sənsiz ömrümə dəyər". Yaxud: "Sənin yoxluğuna inanmadığım halda, Sənin yoxluğundan yazmağa başladım..." və s.

Misal gətirdiyim bu cümlələr Sizin imzanız deyil, dərdin imzasıdır. Eyni hissləri mən sevimli şairimiz N.Həsənzadənin dünyadan vaxtsız getmiş xanımına həsr etdiyi şeirlərdə də görmüşəm.

Mən uzun illər universitetdə işləsəm də, fakültənin dəhlizlərində hərdən Çərkəzi görsəm də, onunla heç vaxt ünsiyyətdə olmamış və hətta onun hansı fənndən dərs dediyini də bilməmişəm. Lakin Sizin yazınız mənə onu tanıtdı və məni onun vaxtsız ölümünə acıtdı. Sizin bir uğurunuz da budur! Yazınızın qəhrəmanını mənə və mənim kimi çoxlarına bu tanıtma qüdrəti isə itkinizdən doğan dərdiniz deyil, Sizin ona olan böyük məhəbbətiniz və sədaqətinizdir.

Mən onu Sizin bu böyük sevginizdən süzülən hisslərdən keçərək tanıdım. Burda isə onun deyil, məhz Sizin obrazınızı gördüm və siz burda mənim nəzərimdə kitabın müəllifi deyil, qəhrəmanı kimi canlandınız. Kitabın ən böyük uğuru isə budur!

Sona xanım, ay mənim millətimin müasir Burla Xatunu, Banu Çiçəyi, Həcəri, Siz bu yazınızla məhəbbət və sədaqət rəmzinə çevrilib öz kitabınızın qəhrəmanı oldunuz. Axı, əsl türk xatunu ömür-gün yoldaşına bəslədiyi böyük sevgisində və ona olan sonsuz sədaqətində həmişə qəhrəman səviyyəsinə yüksəlmişdir.

Ölənin dalınca ölmək olmaz. Bununla belə, ərinizin ölümündən illər keçsə də, hələ Sizin əyninizdən matəm paltarını çıxartmamağınız, bütün bayramlarınızı qara bayram kimi keçirməyiniz, həyatın bütün nemətlərinə göz yumub yalnız ömür-gün yoldaşınızın xatirəsi ilə yaşamağınız bütün gözəl milli dəyərlərimizin unudulduğu indiki zamanda

ən böyük fədakarlıq və qəhrəmanlıqdır.

Siz indiki ağır şəraitdə onun yazılarını çap etdirməklə öz ömrünüzü deyil, onun ömrünü yaşayıb onu yaşatmaq üçün yaşayırsınız. Nə qədər əzablı olsa da, bu cür ikili ömrü yaşamağa dəyər.

Ona rəhmət, Sizə isə böyük səbr və dözüm diləyirəm.

"Şəki" qəzeti, 9 avqust, 1995.
"Zaman və mən", Bakı, 1999.



MƏNƏVİYYAT BAYRAĞI

(1994-cü il, 1 noyabrda Türkiyənin Bilkənd Universitetində keçirilən Füzulinin 500 illik yubiley gecəsindəki çıxış)

Mən ömrüm boyu böyüklər böyüyü, dahilər dahisi Füzulini öyrənməyə çalışmış, lakin acizliyimi hiss edib bu fikirdən vaz keçmişəm. Mən neyləyə bilərdim ki, bu ucsuz-bucaqsız dəryanın yalnız bircə damlasında batırdım. Həmişə məchul və naməlum şeylər insanda böyük maraq doğurur. Əslində, insan oğlu məchulları məluma, naməlumları aydınlığa çıxarmaq yolunda təkmilləşmiş və ucalmışdır.

Bu gün insan və kainat qarşı-qarşıya dayandığı kimi, Füzuli şeirinin sirri və ecazkarlığı da əsrlər boyu öyrənilməsinə baxmayaraq bizim qarşımızda bir sual kimi dayanmışdır. Biz bu gün "Seyr eylə Məkanı-Laməkanı" deyən Füzulini elmin bugünkü səviyyəsində yenidən öyrənməliyik.

Bilmək gərək onu kim cəvahir
Nə Kənçi-nihandan oldu zahir?
Nə dairədir bu dövri-əflak,
Nə cazibədir bu mərkəzi-xak?
Hər xilqətə gərçi bir səbəb var,
Aya, səbəbi kim etdi izhar?

Böyük şairin XVI yüzildə verdiyi bu sualların cavabı XX yüzildə hələ tamamilə dərk olunmamışdır.

İnsanlığı tanrıya, sevgini dinə çevirən Füzulinin səsi bütün zamanları gəlib keçir, bizi həqiqətə, sədaqətə, ədalətə, böyüklüyə, ülviliyə və yüksəkliyə səsləyir. O, bizimlə bərabər yaşayır.

Bir sözlə, Füzuli sözlərində nəfəs alan, fikirlərində yaşayan duyğularında fəryad çəkən insanlar insanı, şairlər şairi, ariflər arifidir.

Şairlər var ki, biz onları bəyənirik. Şairlər var ki, biz onları sevirik, şairlər də var ki, biz onların sənəti qarşısında sükut edir, onun tilsiminə düşürük. Füzulinin özü demişkən: "Sürəti-halim görən surət xəyal eylər məni". Beləliklə, Füzuli şeirinə, Füzuli xatirəsinə ən böyük hörmət, bizim heyrətimiz və bu heyrətdən doğan sükutumuzdur.

Füzuli tədqiqatçılarından hər biri onun böyüklüyünü bir cəhətində görmüşlər. Mən isə onun böyüklüyünü ilk növbədə dilinin sehri ilə dünyadakı bütün türk xalqlarını birləşdirməsində, bir çırağın ətrafında toplaya bilməsində görürəm. Kim iddia edə bilər Füzuli yalnız Azəri türklərinin şairidir?! Yox! O, həm azəri, həm türkmən, həm kərkük, həm özbək və həm də Türkiyə türklərinin dahisidir. Bir sözlə, Füzuli türk xalqlarının kökü, biz isə onun qolları, budaqlarıyıq.

Mən hələ 1959-cu ildə yazdığım "Şəbi-hicran" poemasında bu məsələyə belə toxunmuşdum:

Arzusunu, eşqini o tapmadı həyatda,
Həyata güldüyündən ağlatdı zülüm-zülüm,
Füzulini həyat da.
Burda böyük dərdimiz yadıma düşdü mənim,
Hələ birlik görməmiş mənim böyük Vətənim,
Qəsbkarlar əlində didildi, parçalandı,
Ancaq sərvəti deyil, ürəyi də talandı.
Sərvət getsə qəm deyil, sərvət gələr yenə də,
Bu qəmdir ki, millətin qəlbinə, eşqinə də
Dilinə, ruhuna da qəsb edələr... Ay aman,
Ələmlərin, dərdlərin hamısından bu, yaman!

Bax, belə bir zamanda
Günəş kimi parlayıb qalxdı göyə Füzuli.
Saldı şəfəqlərini hər ölkəyə Füzuli.
Ürəklərdə qıvrılıb qövr elədi acılar,
Hərəsi bir diyarda qalan qardaş-bacılar,
Füzulinin şeirilə tanıdı bir-birini,
O çatdırdı qardaşa, qardaşın əllərini,
Könüllərə bir ümid, nəşə verdi Füzuli,
Parçalanmış milləti birləşdirdi Füzuli.

Çünki o, öz dühası ilə elə bir zirvəyə yüksəlmişdi ki, o zirvədən o, bütün türk xalqlarına görünür, müştərək dili ilə onları bir-birinə doğmalaşdırırdı.

Şəbi-hicran yanar canım, tökər qan çeşmi giryanım,
Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı,
...Degildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil, səni görcək utanmazmı.
Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun, kim bu nə sevdadır, bu sevdadan usanmazmı?

Ana laylasına bənzər bu misralardakı dilin sehrilə dünyanın o başında yaşayan bir türklə bu başında yaşayan türk eyni kökə qayıdıb bir-birini tapır. Budur Füzuli şeirinin tilsimi, böyüklüyü və qüdrəti!

Bu gün bu salonda iki türk dövlətinin başqanları Süleyman Dəmirəli və Heydər Əliyevi yanaşı oturdan da Füzuli sənətinin qüdrəti, Füzuli şeirinin dilidir.

Bu gün dünyada mövcud olan altı türk dövlətinin hər birinin öz bayrağı var. Bizi birimizdən fərqləndirən yalnız o bayraqdır. Lakin Füzuli elə bir bayraqdır ki, biz o bayrağın kölgəsində bir-birimizdən ayrılmır, əksinə, birləşirik". Beləliklə, Füzuli bizim mənəviyyat bayrağımızdır.

Son zamanlar türk dövlətləri bir-biri ilə dostluq və qardaşlıq müqavilələri bağlayır. Bunlar hamımızı sevindirir. Lakin Füzuli olan

yerdə bizə heç bir dostluq və qardaşlıq müqaviləsi lazım deyil. Mən arzu edirəm ki, türk dövlətlərinin diplomatları bir yerə toplaşanda bayraqların yerinə masa üstünə Füzulinin kiçik heykəlini qoysunlar. Çünki bayraq fərqləndirir, Füzuli isə birləşdirir.

Kölgəndə yaşadıq şair, beş yüz il.
Yenilməz heç zaman sənət bayrağın.
Milyon il keçsə də saralan deyil,
Sənin söz gülşənin, sənin söz bağın.

Ömrünü ahlarla vermədin bada,
Arzu dəryasında bir yelkən oldun,
Zaman başqasını yandıranda da,
Alışan o oldu, yanan sən oldun.

Ağladın, yayıldı səsin hər yana
Bülbül bağçalarda ötdü dedilər,
Gələndə Məhəmməd gəldin cahana,
Gedəndə, Füzuli getdi, dedilər.

"Ədəbiyyat" qəzeti, 17 fevral, 1995.
"Zaman və mən", Bakı, 1999.



HÖRMƏTLİ
ƏHMƏD KABAKLI BƏY!

"Türk ədəbiyyatı" dərgisinin bu ilki mayıs ayında Sizin "Alperen egitimi (təhsil) ədəbiyyata qarşı üçüncü kültür ihtilalı" məqalənizi oxuyub çox təəssüfləndim.

Demək, Türkiyədə özünü inkar, öz milli varlığına düşmənçilik peyda olmuşdur.

Mən məqalənizdə qaldırdığınız bu mühüm məsələdə Sizin fikirlərinizə tam ortaq çıxır və səsimi səsinizə qoşmaq istəyirəm.

Əziz qardaşım, xarici düşmənlə savaşmaq asandır. Çünki onun mövqeyi də bəllidir, hədəfi də. Daxili düşmənlə savaşmaq həmişə çətin olmuşdur. Qurd ağacı içindən yediyi kimi, biz türkləri də sadəqəlbliliyimizdən düşmən həmişə içəridən dağıtmağa çalışmışdır.

Bir milləti məhv etmək üçün onun başına atom bombası yağdırmaq daha lazım deyil, mənəvi dəyərlərini - yəni dilini, ədəbiyyatını və tarixini zədələmək, hafizəsindən silmək kifayətdir. Bu iş isə Türkiyədə dil kurumunun başına Akop Dilaçarı gətirməkdən başladı və Akop da türk millətinin dilini "açmaq" şüarı ilə onun mənəviyyatını zədələdi.

Mən heç cür anlaya bilmirəm, bir millət öz dilinə, öz milli varlığına, öz tarix və ədəbiyyatına, bir sözlə, öz-özünə necə düşmən ola bilərmiş?

180 il rus boyunduruğunda, başqa xalqın yumruğu altında yaşama-

ğımıza baxmayaraq biz məhz milli varlığımızı - yəni ana dili və ana ədəbiyyatımızı qoruyub saxlaya bildiyimizə görə bir millət kimi yaşayıb, assimilə olunmadıq. Əsarət də olduğumuz zamanlar Dədə Qorqud və Koroğlu kimi dastanlarımız, bayatı və məsəllərimiz, ata sözlərimiz, Füzuli, Nəsimi, Sabir, Vaqif, S.Vurğun kimi şairlərimiz hansı millətin övladı olduğumuzu qulaqlarımıza pıçıldayıb bizi bir millət kimi qoruyub saxladılar. Bəli, bu gün biz bir millət kimi varıqsa, bu varlığa görə ədəbiyyatımıza və bu ədəbiyyatın memarı olan dilimizə borcluyuq. Bu, heç bir sübuta ehtiyacı olmayan bir aksiomdur. Milləti millət kimi şəkilləndirən, kamilləşdirən onun şifahi və yazılı ədəbiyyatı, varlığının təsdiqi isə ana dilidir.

Öz tarixini, dilini, ədəbiyyatını, milli mədəniyyətini bilməyən, ona hörmət etməyən adam o millətin övladı ola bilməz. Çünki riyaziyyat, fizika, kimya kimi dəqiq elmlər beynəlmiləl, humanitar elmlər isə millidir. Buna görə də əgər orta və ali məktəblərimizdə öz vətənini və millətini sevən, onun yolunda ölümə belə getməyə hazır olan həqiqi vətən daşlar yetirmək istəyiriksə, dil və ədəbiyyat dərslərini nəinki azaltmaq, daha da artırmaq lazımdır. Yox əgər millətini bəyənməyən, başqa millətləri öz millətindən üstün sayan, bir sözlə öz millətinə və öz Vətəninə düşmənlər yetişdirmək istəyiriksə məktəblərdən dil və ədəbiyyat dərslərini tamam götürün. Çünki milli xarakter milli ədəbiyyat və ana dili ilə formalaşır.

Beşin beşə vurulmasının hasilinin 25 olduğunu, suyun H2O düsturu ilə yazıldığını bilmək bilikdir, mənəviyyat deyil.

Amma "Altaylara bağlar məni alnımdakı nurum" hardan gəldiyimizi, "torpaq, əgər uğrunda ölən varsa, vətəndir" misrası isə vətən qarşısındakı borcumuzu xatırlatmaqla gənc nəsli bu millətin övladı kimi yetişdirir.

M.Akifin milli marşı oxunurkən altmış beş milyonluq türk millətinin bir nəfər kimi birləşdiyinin, yumruğa döndüyünün dəfələrlə şahidi olmuşam. Bu birliyi, bu vəhdəti yalnız ədəbiyyatın, sənətin qüdrəti yarada bilər. İkinci başqa bir qüvvə tanımıram. Bu qüdrətdən əl çəkmək ən azı Vətənə və millətə xəyanətdir.

XIX əsrin sonunda Rusiyada milli məktəblərlə yanaşı, alman, in-

gilis və fransız məktəbləri də açılmışdı. O zaman rus zadəganları öz övladlarını milli məktəblərdə deyil, əcnəbi məktəblərində oxutmağa başladı. Bunun gələcəkdə millət üçün böyük xəta olacağını düşünən rus pedaqoq alimləri və yazıçıları, o cümlədən böyük L.Tolstoy bu meylə qarşı çıxdılar. Böyük pedaqoq K.D.Uşinski o zaman yazdı ki, anadilli məktəblərdə deyil, əcnəbi məktəblərdə təhsil alan rus cocukları böyüyəndən sonra üzünə nə qədər vətənpərvərlik maskası taxsa da, öz millətinə deyil, əcnəbi millətlərə xidmət göstərəcəklər.

Tarixi boyu müstəqil yaşayan, öz milli bayrağı, öz milli marşı olan Türkiyədə çox təəssüflər olsun ki, bu gün mən elə hadisələrlə qarşılaşıram ki, doğrusu, Türkiyənin müstəqilliyinə məndə şübhə oyanır. Düşünürəm: İlahi, Türkiyənin öz içində bu türk düşmənçiliyi hardan qaynaqlanır?

"Türk ədəbiyyatı" dərgisi, 1996.
"Zaman və mən", Bakı, 1999.



SİYASƏT VƏ ƏDƏBİYYAT, YAXUD XORUZ OĞLUNUN PİTİSİ

Əzizim Rafiq Tağı, "Yeni Müsavat" qəzetinin 26-28 noyabr 1996-cı il tarixli sayında "Siyasət və ədəbiyyat" adlı məqaləndə yürütdüyün fikirləri sənin özünəməxsus qayəni əks etdirən hekayələrinlə tutuşdurdum. Gördüm, hekayələrində bir adamsan, məqaləndə başqa adam. Sənin fikirsiz, əqidəsiz (yəni siyasətsiz) bir dənə də hekayən yoxdursa, məqaləndə fikri, əqidəni, mövqeyi – yəni siyasəti niyə inkar edirsən? Axı, unutmaq olmaz ki, əqidə, qayə siyasətin deyil, siyasət əqidənin, mövqeyin övladıdır. Bir də aydınlaşdırmaq lazımdır ki, sən hansı siyasəti nəzərdə tutursan? Xalqları qul halına salan kommunist ideolojisi siyasətdir, ona qarşı çıxan milli azadlıq ideyası da. Sonuncunu ədəbiyyatda bu və ya digər şəkildə əks etdirən siyasi mövzuda yazılmış əsərlərə etirazınmı var? Əgər belədirsə, demək sən Soljenitsinin, sovet ölüm düşərgələrini əks etdirən əsərlərini sırf siyasət kimi qəbul edir, bədii əsər saymırsan?

Mən səni başa düşürəm. Sovet dönəmində qələm sahiblərini yalnız bir ideologiyaya tabe etdirən sosializm realizmi deyilən əjdahadan elə qorxmusan ki, indi də bütün ideologiyaları, qayələri inkara qalxışırsan. Sovet dövründə yazılan əsərlərin bir qisminin plakat ədəbiyyatı olduğunu hamımız bilirik. Lakin o dövrün özündə də müxtəlif yol və üsullarla dövrə qarşı çıxan əsərlər yazılmamışmı?

Ədəbiyyata məqaləndəki ölçü ilə yanaşsaq, gərək M.F.Axundzadəni,

Mirzə Cəlili, Sabiri və Hadini inkar edək. "İmzasını atmış millət övraqi həyata, Yox millətimin xətti bu imzalar içində" beyti o dövrdə millətin milli varlığını müdafiə edən ən yaxşı siyasi lirika nümunəsi deyildimi?

Sözündən belə çıxır ki, biz bu gün "sənət xalq üçün" şüarından əl çəkməli, "sənət sənət üçündür" şüarı ilə yazıb yaratmalıyıq? Biz bu gün ədəbiyyatın əxlaqi-tərbiyəvi rolunu inkarmı etməliyik?

1937-ci ilin qurbanlarından olan böyük Cavid bir yandan "Şairin mövqeyi uca dağ başında" - deyib "sənət sənət üçün" şüarını bayraq edirdisə, o biri yandan türkçülük ideyasını təbliğ edən "Səyavuş"u yaradıb "sənət xalq üçündür" cəbhəsində dayanırdı.

Dünyanın ən böyük qələm sahibləri ən böyük əqidə və fikir adamları olmuşlar. Son məqaləndə Puşkini kosmopolit adlandırırsan. Yox, əzizim, Puşkin Rusiyanın ən böyük millətçi şairidir. Rus generalı Yermolovun qoşunları Qafqaza daxil olanda "Əy başını Qafqaz dağları, Yermolovun ordusu gəlir" - deyə o, Rusiyanın işğalçılıq siyasətini alqışlamamışdımı? Yaxud nəyə görə böyük humanist L.Tolstoy Qafqazda milli azadlıq hərəkatının başında duran Şeyx Şamili deyil, o, hərəkata xəyanət edən Hacı Muradı əsərinə qəhrəman seçmişdi? Dünya ədəbiyyatının korifeylərindən Firdovsi vətənini işğal etdiyinə görə dünyada yeni bir din yaradan ərəb millətini "həşarat yeyən vəhşi" adlandırmadımı? Görünür, ən böyük dahilər də tərəfsiz ola bilmirlər?

Qardaşım, elm kosmopolit, sənətsə millidir. Hər millətin öz rəngi, öz sifəti, öz dili var. Puşkinə "niyə sən türk dilində deyil, rus dilində yazmısan" - demək mümkün olmadığı kimi, "Niyə sən millətinin mövqeyindən çıxış edirsən" də deyə bilmərik.

Şəkidə Xoruz oğlu adında bir aşpaz var idi. O, piti bişirməyin ustası idi. Bütün Azərbaycanda "Xoruz oğlunun pitisi" məşhur idi. Əsrimizin əvvəllərində Şəkidə bolşevik hərəkatına rəhbərlik edənlərdən birisi hər gün günorta Xoruz oğlunun aşpazxanasında nahar edər və aşpazın haqqını da artıqlaması ilə ödəyərmiş. Azərbaycan sovetləşəndən sonra həmin bolşeviki Bakıya böyük vəzifəyə aparırlar. Xoruz oğlunun pitisinin dadı damağında qalan bolşevik 10-15 ildən sonra məhz piti eşqinə Şəkiyə gəlir, görür ki, Xoruz oğlunun pitixanası bağlanıb. Soraqlaşa-

soraqlaşa gəlib onu bir hökumət restoranında tapır. Ona piti sifariş verir. Yeyir, amma heç xoşuna gəlmir və Xoruz oğlundan soruşur:

- Xoruz oğlu, bu pitidir?

Xoruz oğlu kefini pozmadan:

Mən daha Xoruz oğlu deyiləm, Toyuq oğluyam.

- Necə yəni Toyuq oğlu?

- Siz bolşeviklər gələndən sonra xoruzlar toyuğa dönüb.

- Ə ağzının sözünü bil! Bəs piti niyə bu kökə düşüb?

Xoruz oğlu:

- Siz gəlməmişdən əvvəl balaca bir dükanım vardı, öz əlim, öz başım idi. Siz gəlib norma qoydunuz. Pitiyə filan qram ət, filan qram noxud, filan qram quyruq - göstərilən normadan bir qram da o yan, bu yan ola bilməz. Beləliklə də, qram pitinin içinə oturdu. O qaydanı ki, siz qoymusunuz, yediyin piti elə ondan artıq olmaz.

Sosializm realizm əsasında yazılan bir çox əsərlər mənə Xoruz oğlunun sovetləşmədən sonrakı pitisini xatırladır. Beləliklə də, ədəbiyyat Xoruz oğlunun pitisi deyil, Toyuq oğlunun pitisi oldu.

Qardaşım Rafiq, amma mən də sənin kimi, Toyuq oğlunun deyil, Xoruz oğlunun pitisinin tərəfdarıyam. Ədəbiyyatın sinfiliyinə və partiyalılığına mən də yoxam. Bununla belə, mövqesiz, əqidəsiz, qayəsiz ədəbiyyatı ədəbiyyat saymıram.

“Yeni Müsavat” qəzeti, 3-5 dekabr, 1996.
“Zaman və mən”, Bakı, 1999.



AŞIQ SAKİT
KÖÇƏRİYƏ MƏKTUB

Məktubunu və "Dərbənd" qəzetinin nüsxələrini aldım və diqqətlə oxudum. Sənlə görüşə bilməməyimə çox təəssüfləndim. Sənin ilə hər görüşün mənim üçün nə qədər xoş olduğunu bilməmiş deyilsən. Keçən yay Şəkidə mən səni axtardım. Dedilər Şəkidən köçmüsən. Çox təəssüf! Şəkililərin sənə lazımi şərait yaratmamasına üzüldüm.

Əziz həmkar, sənin gücün, qüdrətin Azərbaycan türkcəsinin bütün incəliklərinə, şəhd-şirəsinə, dərinliklərinə sahib olmağındadır. Sən sahib olduğun bu qüdrəti, istedadın bütün imkanlarını yalnız bu dildə ifadə edə bilərsən. Dağıstan isə sənin dillə bağlı istedadının bütün imkanlarını və qüdrətini nümayiş etdirməyinə çətin olmayacaqmı? Buna görə də sənin bu mühitdən ayrılmağın məni ağrıdır.

Keçən yay Şəkidə Dərbənddəki "Narın qala" ədəbi birlik üzvlərinin bir toplusunu oxudum. Həddindən artıq xoşuma gəldi. Toplunu mənə həmin ədəbi birliyin üzvlərindən biri vermişdi. (Yaddaşımın kütlüyündən şeirlərini çox sevdiyim o şairin adını unutmuşam). Toplu haqqında yazmaq fikrinə düşmüşdüm. Kitab Şəkidə qaldığından şairlərin və şeirlərin adı yadımda qalmayıb. Amma təsiri və istisi hələ də ürəyimdədir. Buna görə də sənin "Narın qala" mühitinə düşməyin mənə ümid verir ki, sən o hava içində pərvazlana bilərsən.

Mənə gətirdiyin "Dərbənd" qəzetinin bir neçə nüsxəsi ilə tanış oldum. "Körpü" rubrikası ilə buraxdığınız yazılarda qaldırdığınız məsələlər

ürəyimcədir. Qəzetin bütün əməkdaşlarına mənim təşəkkürlərimi yetir. Dağıstan-Azərbaycan ilişgilərinin tarixi həqiqətən çox qədimdir. Bu əlaqələrin davamı bu gün bizə daha çox lazımdır.

Bu vacib məsələdə hamımızın, o cümlədən mənim də günahım böyükdür. Biz Azərbaycandan kənarda yaşayan qardaşlarımız haqqında az düşünürük. Sağlıq olsun, vaxt tapıb Sizə baş çəkməyi özümə borc bilirəm. Dağıstanda yaşayan soydaşlarımız, o cümlədən ruhən və qəlbən bizə yaxın olan ləzgi, avar, kumık, lak, dərgin və s... millətlərlə ədəbi ilişgilərin vacibliyi bu günün tələbidir.

Mənim "Böl görüm" şeirinə təxmisin çox xoşuma gəldi. Xüsusən şeirin sonuncu bəndi yekun kimi çox qüvvətlidir:

Aşıq Sakit, ürək olub döyündün.
Elin ağrı-acısıyla deyindin.
Bəsdir, Qorqud dədələrlə öyündün,
Hünərin var, özün Qorqud ol, görüm.

Afərin! Çox tutarlı və dəqiq deyilmiş bənddir.

Şeirlərimi çap etdiyinizə görə çox sağ olun. O ki qaldı Hacıbala Sənsizin şeirlərindəki qüsur və ədəbi plagiata, bu barədə qəzetinizdə çıxan məqalə kifayətdir. Bunu böyütmək, şişirtmək məncə, lazım deyil, çünki tarixdə belə hadisələr çox olmuş, lakin "ondan xəta səndən əta" atalar sözünü xatırlayıb məsələni şişirtməməyinizi məsləhət bilirəm. Mənə gəlincə, mən bu adamı tanımır və yazılarını da birinci dəfə göndərdiyiniz kitabçadan oxudum.

Sizə işlərinizdə uğurlar diləyirəm.

22 fevral, 1996.
"Zaman və mən", Bakı, 1999.



ZAMAN VAR,
TARİX VAR

"Azərbaycan Kültür Dərnəyi"nin (Türkiyə) başqanı T.Məhəmməd bəy Kəngərliyə məktub

R e d a k s i y a d a n

Ötən ilin martaprel aylarında dərc olunmuş sayında Türkiyədə nəşr edilən "Azərbaycan" dərgisi Vaşinqtonda yaşayan Əhməd Əli Arslan adlı birisinin "Moskvanın Bakıdan eşidilən ayaq səsləri" başlıqlı yazısına öz səhifələrində yer ayırmışdır. Yazını tam səmimiyyətlə "sayıqlamalar" adlandırmaq mümkündür. Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin gedişatından tamamilə xəbərsiz olan müəllif öz xəstə təxəyyülünün "qüdrətinə" sığınaraq, xaricdə yaşayan həmvətənlərimizi nəinki nəzəri mülahizələri ilə, həm də faktların açıq-aşkar təhrif edilməsi ilə aldatmağa cürət edir. Ə.Ə.Arslan yazısını "Azərbaycanda Heydər Əliyev hakimiyyəti də ömrünü bitirmək üzrədir" - deyə başlayaraq, yazının hər yerində təkrarladığı bu fikri sübuta yetirməkdən ötrü bildiklərini, bilmədiklərini, bir sözlə, hər şeyi bir-birinə qatıb-qarışdırır, yetənə yetir, yetməyənə də bir daş atır. Guya Bakıda "Demokratik Konqres"in bir qurultayı keçirilir. Guya ölkəmiz faktiki olaraq, beş yerə bölünür: talışlar, tatlar, avarlar, ləzgilər də erməni daşnaklarının ardınca gedərək, federal cümhuriyyət tələbi ilə çıxış edirlər. Guya Milli

Məclisin sədri R. Quliyev "Nə yapalım biz də ləzgi və talışları orqanizə edərik" - deyə bildirir. Guya... Nə isə Ə.Ə.Arslanın uydurduğu yalanların üstündən bir il keçəndən sonra da dilə gətirmək adamdan böyük səbr və hövsələ istəyir. Yalanlarsa bir deyil, iki deyil. Bu müəllif kiminsə buyruğu ilə qələmə aldığı yazını hazırlarkən, görünür, Kələkidəki ağası ilə də məsləhətləşməyib, belə olsaydı, heç olmasa, ötən hökumət tərəfindən Ə.Elçibəylə danışıqlar aparmaq üçün Naxçıvana göndərilmiş nümayəndələrin siyahısınısa doğru-dürüst öyrənə bilərdi.

Oxucu sual edə bilər ki, düz bir il bundan qabaq dərc olunmuş bu yazıya indi diqqət yetirməmizin səbəbi nədir? Onsuz da Ə.Ə.Arslanın dedikləri bu bir ildə həqiqət olmamış, beləliklə, o, öz proqnozları ilə öz-özünü pis vəziyyətdə qoymuşdur. Əgər xalq şairimiz Bəxtiyar Vahabzadənin yazıdakı bir neçə fikrə münasibət bildirən açıq məktubu olmasaydı, yəqin ki, bu qısa şərhə ehtiyac qalmazdı. İş burasındadır ki, həmin müəllif bir ağacda oturub, min budaq silkələrkən, hörmətli şairimizin fəaliyyətinə uyğun gəlməyən yalanlar da uydurmuşdur. Bununla əlaqədar Bəxtiyar müəllim Türkiyədə fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyinin başqanı Məhməd Kəngərliyə üz tutmağa və bəzi məsələlərə açıqlıq gətirməyi lazım bilmişdir. ("Azərbaycan" dərgisi Kültür Dərnəyinin nəzdində dərc olunur.) Bəxtiyar Vahabzadə yazır:

HÖRMƏTLİ
MƏHMƏD BƏY!

Əhməd bəy Qaracanın redaktorluğu ilə nəşr edilən "Azərbaycan" dərgisinin keçən ilki mart-nisan sayında gedən "Moskvanın Bakıdan eşidilən ayaq səsləri" məqaləsinin boş bir cəfəngiyat olduğunu Sizə telefonla dedim. Məqalədə irəli sürülən bir çox cəfəng şeylər haqqında yazmaq fikrində deyiləm. Lakin mənimlə əlaqədar məsələyə münasibətimi bildirməmək mümkün deyil. Çünki bu fikirlərin heç bir faktiki əsası yoxdur.

Ə.Ə.Arslan yazır: "Şimdiyə qədər Heydər Əliyevin əmrində səsi çıxmadan çalışan V.Vahabzadə də artıq Heydər Əliyevin vaxtının ta-

mam olduğuna inanmış bulunuyor. B.Vahabzadə sadiq dostlardan Nurəddin Rzayevin əlinə sıxışdırdığı bir "aman" məktubu ilə onu İstanbula - "Türklük dünyasının dərgahına "üz sürtməyə göndərdi".

Bu, təpədən dırnağa böhtandır.

Əvvəla, o, bu sözləri keçən il mart ayında yazmış və indi, o vaxtdan 2 ay keçməsinə baxmayaraq onun verdiyi proqnozun düz çıxmadığı göz önündədir.

İkincisi, mənim "Türk dünyası dərgahına" göndərdiyim o məktub hardadır? Əgər belə bir məktub varsa, xahiş edirəm, onu tapın və dərginizdə çap edin. Onda bu, boş söz olmaz, fakt olar.

Üçüncüsü, müəllif "Türklük dünyasının dərgahı" deyərkən harani nəzərdə tutur? Mən İstanbulda Türk Dünyası Araşdırmaları Vakfı olduğunu bilirəm. Onun da başında türk dünyasına böyük xidmətlər göstərmiş dostumuz Turan Yazqan durur. Əgər mən "aman" məktubunu Turan bəyə göndərmişəmsə, Allaha şükür, o, sağ-salamatdır, məktubu ondan alıb çap edə bilərsiniz. Əgər müəllif "Türk dünyasının dərgahı" deyəndə Turan bəyin ofisini nəzərdə tutursa, anlaya bilmirəm, mən nədən ötrü Turan bəydən aman diləməli idim?

Əvvəla, bu amana mənim heç bir ehtiyacım yoxdur. İkinci tərəfdən, Turan bəy məni çox tanıyır və o, mənim hansı əqidəyə qulluq etdiyimi çox yaxşı bilir.

Sonra məqalə müəllifi yazır: "B.Vahabzadə bir addım daha irəli gedərək H.Əliyevin "Özəl məşvərətçisi" ünvanı ilə "yüksək məqamlara" görəvləndirildi".

Mən nə zaman H.Əliyevin "özəl məşvərətçisi" olmuşam? Mən ömrümdə heç zaman heç bir vəzifə tutmamış, ən böyük vəzifəm universitet professoru olmağımdır. İndi də 6 ildir təqaüddəyəm. Axı, bu böhtançı nəyə əsasən bu boyda yalan uydurur? O yazdı, bəs bu cəfəngiyatı çap edən hansı sübuta əsasən çap edir?

Onu da deyim ki, kiminsə məşvərətçi olmağı mən özümə heç vaxt şərəf bilmərəm. Məşvərətçi olmaq Əhməd Əli kimilər üçün böyük məqamdır, mənim üçün yox.

Arzu etsəydim, mənim ən böyük vəzifələrə çatmaq imkanım var idi.

Amma mən özümü həmişə bütün vəzifələrin fövqündə hesab etmişəm. Mən istənilən vəzifəni tutsaydım, indikindən çox-çox kiçilmiş olardım. Mən ömrüm boyu vəzifə naminə deyil, Vətən və millət naminə qələm çalmışam. Bu, sizə də çox yaxşı bəllidir. Azərbaycanda çox şahlar at oynadıb. Tariximizdə qalan isə Şah İsmayıldır. Amma o da Şah İsmayıl kimi deyil, həm də Şah Xətai kimi qalıb (əsasən, şairliyinə görə).

O ki qaldı mənimlə Elçibəy münasibətinə, xahiş edirəm, bu məsələyə Əhməd Əli kimilər qarışmasın. Ona görə ki, bu, tarixdir. Amerikada oturub Azərbaycanda baş verən olaylar haqqında yazan şəxsə deyərlər: kommunist iqtidarının cövlan etdiyi bir dövrdə, 50-60cı illərdə bu rejimin əleyhinə "Gülüstan", "Ana dili", "Ağlar-güləyən", "Yollar-oğullar" və onlarla bu məzmunda əsərlər yazan bir qələm sahibini əqidəsizlikdə günahlandırmaq ən azı bilgisizlikdir.

Əhməd Əlinin yazdığı kimi, mənim Elçibəyə rəğbətim, Şəki-Zaqatala bölgəsində onun prezident seçilməsi üçün əlimdən gələni etməklə məhdud deyil. Bu, çox kiçik məsələdir. Biz Ə.Elçibəylə fikir yoldaşı olmuşuq. Lakin Xalq Cəbhəsi hakimiyyətə keçəndən sonra onlar, özlərinin də etiraf etdiyi kimi, bəzi xatalara yol verdilər. Buna görə də mən Elçibəy hakimiyyətinin dördüncü ayı öz ərizəmlə Milli Məclisin üzvlüyündən istefa verdim. Bunu siz - Məhməd bəy və Əhməd Qaraca hamıdan yaxşı bilirsiniz. Hələ o zamanlar siz mənim Milli Məclisdən çıxmağıma təəssüfləndiniz və yenidən Milli Məclisə qayıtmağımı məndən dönə-dönə xahiş etdiniz.

Beləliklə, mən, Əhməd Əli Arslanın yazdığı kimi, Elçibəy iqtidarından sonra deyil, Elçibəyin iqtidarda olduğu zaman onlardan üz dönərmişdim.

Vətəndən kənarda oturub Vətən və Millətin taleyi barədə fikir söyləmək çox asandır. Bizim burda bir gündə çəkdiyimiz iztirabları, ağrı və acıları Siz orda illərlə çəkə bilməzsiniz. Niyə, hansı haqla siz bizim 40-50 ildə elədiklərimizi bir məqalədə yerə vurursunuz? Bəs ayıb deyil? Axı, zaman var, tarix var. Sizin ustadınız və bizim mehrabımız Məhməd Əmin bəyi də bir zamanlar bax beləcə yerə vuranlar var idi. Nəticəsi nə oldu?

Güman edirik artıq şərhə ehtiyac yoxdur. Ürək bulandıran budur ki, əlindən heç bir iş gəlməyənlər, ömrünü Vətən və Xalq üçün əridənlərə böhtan atmaqla bir iş gördüklərini zənn edir, bununla da tarixə düşmək istəyirlər. Lakin bu, mümkün olan iş deyil. Təbiət qartalı geniş asimanlar, uca zirvələr üçün, əqrəbi isə onu-bunu sancmaq üçün yaradıb.

"Azərbaycan" qəzeti, 1 mart, 1996.

P.S. Ə.Ə.Arslan yuxarıda adını çəkdiyim iftira dolu məqaləsindən düz bir il sonra Bakıya gəlir. Bir il əvvəl Azərbaycan rəhbərliyinə layiq bilmədiyi prezident Heydər Əliyevlə görüşmək və ondan nəsə qoparmaq məqsədilə "Xalq qəzeti"ndə "Azərbaycan bizim Leylamızdır" adlı bir məqalə çap etdirir. Həmin məqalədən bir parçanı misal gətirirəm:

"Mən hörmətli prezident Heydər Əliyevin fəaliyyətini böyük Atatürklə yan-yana qoyuram və görürəm ki, bir çox məqamlar üst-üstə düşür" *("Xalq qəzeti", 23 may, 1996)*.

İndi bu adamın kim olduğunu qoy oxucu özü təyin etsin.

"Zaman və mən", Bakı, 1999.



ƏZİZİM FUAD!

"Azadlıq" qəzetinin 13 iyun tarixli sayında sənin müsahibəni oxuyub, çox təəssüfləndim. Sənin milli teatrımızdan getməyin hələ o zaman sənin qədrini bilən və sənin gözəl sənətini dəyərləndirməyi bacaran bir tamaşaçı kimi, məni çox ağrıtdı. Bunu hələ o zaman sənə böyük ürək ağrısı ilə demişdim. Yəqin yadındadı.

Müsahibən çox xoşuma gəldi. Əslində, "xoşuma gəldi" ifadəsi yerinə düşmür. Çünki müsahibədə deyirsən ki, rus teatrında özünü qürbətdəki kimi hiss eləyirsən. Bu sözlər mənim xoşuma necə gələ bilər? Axı, gözəl bir sənətçinin qürbətə düşməsi o sənəti qiymətləndirən qələm sahibinin xoşuna gələ bilərmi? Mən səni bir dramaturq-aktyor qarşılıqlı əlaqəsindən başqa, bir övlad kimi sevdiyimi də, yəqin ki, unutmamısan.

Bəs belə isə mənim xoşuma gələn nədi? Hər şeydən əvvəl müsahibədən boylanan şəxsiyyətin, qürurun və ən ümdəsi isə səviyyən! Məncə, geniş izahata ehtiyac yoxdur. Sən sənətində xırdalanmadığın kimi, adi söhbətində də öz səviyyəndə durub fitrətindəki böyüklüyü göstərirsən.

Bu yaxınlarda uzaq keçmişimizdən bəhs edən "Özümüzü kəsən qılınc" (Göytürklər barədə) adlı tarixi pyesimin nöqtəsini qoydum. Bu pyes indi Ağakişi Kazımovdadır. Pyesi Şəkidə çox sevdiyim qələm dostum Teymur Xəlilova oxudum. Onun birinci sualı bu oldu:

- Əsərin baş qəhrəmanı Gürşad obrazının ifasında kimi nəzərdə tutmusunuz?

Cavab vermədim. Birinci ona görə ki, teatrımızın vəziyyəti ha-

mıya məlumdu. İkinci ona görə ki, nəzərdə tutduğum sənətkar indi "qürbətdədi".

Bununla bərabər mən bu pyesi hələ fikrimdə qururkən gözlərimin önündə dolanan Fuadın eyhamlı baxışlarından, vüqarlı duruşundan, təkcə cümlələr yox, kəlmələr arasında uzun sükutundan doğan ifadəli, məhz ifadəli çöhrəsi olmuşdur... Amma nə edəsən ki, müsahibəndə dediyin kimi, təkcə maddi məhdudiyyətimiz deyil, mənəvi məhdudiyyətlər də arzumuzu gözümüzdə qoyur. İndi nə edəsən ki, nə teatrımız var, nə də onun Fuadı!.. Mən bununla heç də indi sağ olan başqa sənətçilərimizin istedadına kölgə salmaq istəmirəm. Allaha min dəfə şükür olsun ki,bir ucdan Səməndər və Hamlet kimi qüdrətli sənətkarlarımızı itirsək də, istedad çeşmələrimiz qurumayıb.

Mən prezidentimizə bu barədə iki dəfə demişəm. Sonuncu söhbətimiz aprel ayında oldu. O, Lüksemburqa getməyə hazırlaşırdı. Mənə dedi ki, bu səfərdən qayıdan kimi, mənim yadıma sal, birlikdə teatra gedək, elə oradaca təmir məsələsini həll edək. O, səfərdən qayıdan kimi köməkçisi Tariyelə zəng vurub yadına saldım. Təəssüf ki, bir şey çıxmadı. Mən Şəkiyə gəldim. Avqustun sonuna qədər buradayam. Yolun Şəkiyə düşsə, məni gör. Telefon nömrəsi 4-35-35-dir.

Allah bizi arzumuza qovuşdursun. Əzizim Fuad, səni yaxşı başa düşürəm. Kişi öz kişiliyindən keçməz, yazdığın kimi maddi dolanışıq naminə şəxsiyyətini alçaltmaz. Lakin... Vətənin, millətin naminə, bu xalqın sənəti naminə, sənət məbədimiz olan yeganə teatrımızın naminə... "qürbətə" sığınmaq düzgün deyil. Öz səviyyəni saxlamaq, şəxsiyyətinə ləkə gətirməmək şərtilə doğma məbədinə qayıtmalısan. Bu barədə düşünməyini xahiş edirəm. Mən sənin qarşındakı maneəni də, teatrdan getməyinin səbəbini də bilirəm. Amma sabah nə olacağını heç kəs bilmir. Bir daha düşünməyini ərklə xahiş edirəm. Səni öpürəm!

15 iyun, Şəki, 1996.
"Zaman və mən", Bakı 1999.



MƏNİM FİKRİM TƏHRİF ETMİŞLƏR

Bu il mən Şəkidə istirahətdə olduğum zaman çoxdan tanıdığım Güney Azərbaycanın şairi Ə. Fərdiyə müsahibə vermişəm. Bu gün mənə "Geyhani-həvayi" qəzetinin 1995-ci il, 1 noyabr sayında dərc olunmuş müsahibəmi göstərdilər. Yazıda dediklərimin bir qismi olduğu kimidir, bir qismi isə yox.

Məsələn, müxbirin mənim dilimdən ABŞ haqqında dediyi sözlər və müqəddəs kitabımız "Qurani-Kərim"ə hücum edən S.Rüşdü haqqında yazdıqları təhrif olunmamışdır. Lakin qələm yoldaşım Ə.Fərdi bəzi fikirlərimi təhrif etmiş, mənim adımdan əqidəmə zidd fikirlər söyləmişdir. Məsələn, guya mən belə fikir söyləmişəm: "Bəziləri deyir ki, İran bizim qardaşımız, Türkiyə əmioğlumuzdur. Amma mənim fikrimcə, İran biz özümüzük". Bu, təhrifdir. Əslində, mən belə demişəm: "Bəziləri deyir Güney azərbaycanlıları bizim qardaşlarımız, Türkiyə türkləri əmioğlumuzdur. Mən isə deyirəm: "Güney azərbaycanlıları bizim özümüz, Türkiyə türkləri isə qardaşlarımızdır".

Göründüyü kimi, müxbir "Güney azərbaycanlıları" sözünü "İran" sözü ilə əvəz etmiş və bununla da əsas mətləb təhrif olunmuşdur. Çünki İranda Güney azərbaycanlıları ilə bərabər farslar da var. Güney azərbaycanlıları biz özümüzük, yəni, eyni millətdənik, amma farslarla biz eyni millətdən deyilik, onlar bizim yalnız din qardaşlarımızdır. Müxbir "Güney Azərbaycanı" sözünü "İran" sözü ilə əvəz etməklə baş-

qa mətləblərə işarə vurur və davam edərək yazır:

"Mənim "Gülüstan" poemam Azərbaycanın İrandan ayrıldığı tarixə işarə olunduğu illərdə onun nəşri qadağan olundu".

Müxbirin sözlərindən belə çıxır ki, mən Quzey Azərbaycanın İrandan ayrılmasına təəssüflənir və Qüzey Azərbaycanın yenidən İranla birləşməsini arzulayıram. Bu iddianın təpədən-dırnağa qədər mənim fikrimə zidd olduğunu sübut etmək üçün elə, "Gülüstan"ın özünə müraciət etmək kifayətdir:

Neçə vaxt səngərdə hey ulaşdılar.
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
ayrılın deyə.
Bir deyən olmadı durun, ağalar,
Axı bu ölkənin öz sahibi var.
Siz nə edirsiniz bayaqdan bəri?
Bəs hanı bu yurdun öz sahibləri?
Necə ayırdınız dırnağı ətdən?
Ürəyi bədəndən, canı cəsəddən?
Axı, kim bu haqqı vermişdi sizə?
Sizi kim çağırmış Vətənimizə?

Göründüyü kimi, burada Azərbaycanı ikiyə parçalayan Rusiya və İran eyni dərəcədə ittiham olunur.

İndi soruşuram, mən nə zaman "Gülüstan" poemasının müəllifliyindən əl çəkmişəm ki, əqidəmə zidd olan bu fikri ayağıma yazır?

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver" dedi.
Lap yaxşı eləyib doğrudan bizə
Biri "baran" dedi, biri "xər" dedi.
Bizi həm yedilər, həm də mindilər.
Amma arxamızca gileyləndilər.

Bəli, işğaldan sonra iki qəsbkarın pəncəsində inləyən azəri türklərini ruslar "baran" (qoyun), farslar "xər" (eşşək) adlandırdı. Bu misralar mənim hər iki qəsbkara eyni dərəcədə nifrət və etirazımı bildirmirmi?

Həmən fikrimi davam etdirən müxbir mənim adımdan belə yazır: "Bizi İrandan necə ayıra bilərlər?"

Doğrusu, mən bu fikri başa düşə bilmədim. Çünki biz İrandan çoxdan ayrılmışıq. Və İrana birləşmək haqqında heç düşünmürük də. Burada da, "Güney Azərbaycanı" sözü "İran"la əvəz edilib. Müxbirin fikrini əslində belə oxumaq lazımdır. "Bizi Güney Azərbaycanından necə ayıra bilərlər?" Müxbir yenə öz qərəzini davam etdirərək yazır ki, guya mən demişəm: "Əgər mənə desələr sən Azərbaycan Respublikasının şairisən, bu mənə təhqir olar". Xeyir, qardaşım, bu mənə təhqir deyil, bu mənə şərəfdir. Amma bundan sonra yazdığım "Mən necə Sabiri öz şairim, Şəhriyarı isə özümünkü bilməyim? fikri mənə aiddir. Sabir də mənimdir, Şəhriyar da. Möcüz də, Seyid Əzim də. Həmçinin Güney azərbaycanlıları üçün. Amma Sədi, Hafiz mənimki deyil. İstərdim ki, müxbir Azərbaycanla İranı qarışıq salmasın. Bunlar başqa-başqa ölkələrdir.

Müxbir yazır: "O, (yəni, B. V.) öz müsahibəsinin sonunda azəri və İstanbul dilinin fərqləri haqqında deyir ki, bunların arasında böyük fərqlər və uyuşmazlıqlar var. Gərək lüzumsuz İstanbul sözlərinin azəri dilinə hücumunun qarşısı alınsın".

Burada da fikrim təhrif olunub. Daha doğrusu, mən bu şəkildə deməmişəm. Dediyim belədir: "Son illər Türkiyədə dil qurumu adlanan bir təşkilatın türk dilini təmizləmək şüarı altında apardığı dil inqilabının əleyhinəyəm.

Mən bu fikrimi Türkiyə və Azərbaycan mətbuatında dəfələrlə bildirmişəm. Dil qurumunun üzvləri çoxdan dilimizdə vətəndaşlıq hüququ qazanmış bəzi ərəb-fars sözlərinin əvəzində süni və uydurma sözlər yaradırlar ki, bu da dili saxtalaşdırır.

Məsələn, ərəb dilindən aldığımız "məktəb", "müəllim", "tələbə", "kitab", "təbii", "fövqəladə" və sairə kimi bizimkiləşmiş sözləri "okul", "öyrətmən", "yapıt", "doğal", "olağan üstü" kimi saxta sözlərlə

əvəz olunmasının əleyhinəyəm. Bu cür süni sözlərin türk dilinə zorla gətirilməsi nəticəsində Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi arasında fərqlər yaranır ki, mən buna qarşıyam. Amma mən heç zaman Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsinin ayrı dillər olduğunu deməmişəm. Çünki ləhcə fərqi dil fərqi deyil.

O ki, qaldı Güney Azərbaycanı türkcəsinə, burada məsələ bir az dəyişilir. İranda anadilli məktəblərin və mətbuatın olmamasından türk dili fars dilinin təsirinə daha çox məruz qalmış və eybəcər hala düşmüşdür. Bu Güney Azərbaycanın da farsca düşünüb türkcə danışdıqlarından ana dilimizin qrammatikası da pozulub. Məsələn, "Mən sizə təşəkkür edirəm" demək əvəzinə "Mən sizdən təşəkkür edirəm" deyir. Burada o, "Əz şoma" tərkibini eyni ilə tərcümə edir. Beləliklə də, türk dilinin ruhu dəyişib farslaşır.

Sonra müxbir yazır ki, guya mən Türkiyədə dinin dövlətdən ayrı olmasını bəyənmir və bunu onlar üçün nöqsan sayıram.

Mən dinə və Allaha inanıram. Amma dinin dövlətdən ayrı olmasını zəruri hesab edir və Türkiyənin indiki dövlət quruluşunu alqışlayıram.

Sözümün sonunda ulu Şəhriyarın şagirdi, cavan qələm yoldaşıma bir tövsiyəm var: Siyasətə deyil, millətinə qulluq elə. Çünki siyasət tez-tez dəyişir, amma millətini dəyişə bilməzsən.

"Zaman", 25 noyabr, 1995.
"Ləyaqət", Bakı, 1998.



ƏXLAQ VƏ MƏNƏVİYYAT

Mən Əhməd Aydın Bolakı, onun fikir, mənəvi dünyasını həftənin müəyyən günlərində televiziya ilə çıxışlarından tanıdım və sevdim. Bu yaxın günlərdə mən onun 4 kitabı ilə tanış oldum. Bu kitablar içərisində ilk oxuduğum - "Söhbətlər"* adlı kitabıdır. Bu kitab onun televiziyadakı 10 dəqiqəlik çıxışlarının toplusudur. Mən bu kitab haqqında mülahizələrimi bildirməyi özümə borc və şərəf bildim.

Hər bir insan öz fikir və duyğularını başqa birisində görürsə, o, ilk növbədə, buna sevinir. Ona görə sevinir ki, özü kimi düşünən bir insanı bulur və düşünür: Demək, mən tək deyiləm və öz fikir və düşüncələrimdə haqlıyam.

"Söhbətlər"i oxuduqca, kitabın səhifələrində öz ürək döyüntülərimi görür və Aydın Bolakın fikir və düşüncələrində özümü təsdiq edirdim. Müəllifin mülahizələrində məni valeh edən, məni qanadlandıran birinci amil onun Vətən, millət, dövlət, dil, törə haqqındakı fikirləridir. Ən ümdəsi də odur ki, o, bu çıxışlarında üzünü 65 milyonluq türk millətinə tutsa da, fikirləri, əsasən, türk gəncliyinə tuşlanmışdır. Burda hədəf gənclərdir.

Bu pirani, nurani, ruhani insan türk gənclərinə nə demək istəyir, əsas məqsədi nədir? Bu suala cavab vermək üçün çıxışlarının mövzu-

*İstanbul, 1994.

larına ötəri nəzər salsaq, onun məqsədi və qayəsi bizə gün kimi aydın olar: “ailə”, “sevgisayqı”, “gənclərimiz”, “sağlığımız”, “çevrəni qorumaq”, “arzu və hirs”, “haqlarımız, vəzifələrimiz”, “gələnəklərimiz - görənəklərimiz”, “keçmişin gələcəyə təsiri”, “gənclik”, “dostluq və salamlaşmaq” və s...

“Haqlarımız - vəzifələrimiz” yarısında müəllifin aforizm kimi səslənən “Vəzifələr yapılmadan haqlar doğulmaz” fikrinin üstündə durmaq, bu fikri öz baxışımla açıqlamaq istəyirəm.

Çox qəribədir, hamımız, ilk növbədə, öz haqqımızı bilir və onu, öncə, başqalarından, sonra da dövlətdən tələb edirik. Amma haqqımızı tələb edirkən vəzifələrimizi, daha dəqiq desək, borcumuzu ödəyib-ödəmədiyimiz barəsində düşünmürük. Unuduruq ki, borcunu ödəməyənin haqqını tələb etməyə haqqı yoxdur.

Bu kiçik yazı ilə müəllif haqqını tələb etmədən öncə vəzifəni - borcunu ödəməlisən fikrini təlqin edir. Çünki “Vəzifələr yapılmadan haqlar doğulmaz!”

Hər bir vətəndaşın ilk vəzifəsi və ilk borcu doğulduğu və qoynunda yaşadığı ana vətəndir.

Vətən nədir? O torpaqlardakı dağlar, dərələr, çaylar, dənizlər, meşələr, göllərmi? Bir sözlə, onun coğrafiyasımı? Qətiyyən! Vətən yalnız onun gözlə görünən, əllə tutulan maddi nemətləri deyil, Vətən, öncə, onun mənəvi dəyərləri - o torpaqlarda yaşayan insanların tarixi, dili, dini, ədəbiyyatı, musiqisi, memarlığı, adəti, ənənəsi, törəsi, bir sözlə, ruhani dünyası, mənəviyyatıdır.

Vaxtilə Türkiyədə təksəsli türk musiqisini inkar edib çox-səsli Batı musiqisini təbliğ edənlərin özləri dərdli anlarında inzivaya çəkilib təksəsli neyi dinləməklə dərdlərini ovutmuşlar. Bax, elə burda həmən inkarçının içindən dinlədiyi ney səsi ilə bərabər, qocaman Türkiyə, ana vətən, onun mənəvi dünyası boylanır və onu danlayır. Bəli, adi bir taxta neyin iniltisində Vətən bütün gözəllikləri ilə özünü göstərə bilər.

Aydın Bolak da kitabdakı yazılarında Vətən sevgisinin mənəvi dəyərlərə söykənərək dərk olunmasını gənclərimizə tövsiyə edir. Çünki Vətən sevgisi, hər şeydən öncə, mənəviyyatdan keçir.

Burda bir Azərbaycan misalını xatırlatmadan keçə bilmərəm: zülmkar bir padşahın müdrik vəziri onu zülmlərdən daşındırmağa çalışır. Padşah vəzirini eşitmir. Vəzir inciyib uzaq bir məmləkətdə qürbətə çəkilir. Zaman keçir, ölkə çox pis bir duruma düşür. Ölkəni bu vəziyyətdən xilas etmək üçün padşah qürbətdəki vəziri ölkəyə dəvət edir. Vəzir gəlmir. Padşah ona ənam göndərir, yenə dəvət edir. Vəzir yenə dəvəti qəbul etmir. Padşah car çəkib kim vəziri vətənə qaytara bilsə, ona ənam verəcəyini bildirir. Vəzirin qohum-əqrəbası onun yanına gedir, vətənə dönməsini xahiş edirlər. Vəzir dönmür. Amma bir gün vəzirin uşaqlıq yoldaşı olan bir çoban ona çöllərdə bitən bir yonca göndərir. Vəzir yoncanı qoxlayınca uşaqlıqda gəzdiyi çöllər, yamaclar, dağlar, dərələr yadına düşür, qəhərlənir və adicə bir yoncanın ətri onu Vətənə dönməyə məcbur edir.

Sonuc: demək, insan doğulduğu məkana, ana yurduna onun nazneməti, maddi gözəllikləri, aldığı ənamlar və mövqelərlə deyil, məhz mənəvi gözəllikləri - o torpaqlarda keçirdiyi ağrılı-acılı, fərəhli-fərəhsiz günləri, bunlardan doğan şirin xatirələri ilə bağlıdır. Buna görə də vəzir adi bir yoncanın qoxusunda üstündə doğulub boy atdığı vətəni görür. Naz-nemətlər, ənamlar, şirin vədlər deyil, Vətənin çöllərində bitən bir yonca onu Vətənə qaytarır.

Vətənin maddi nemətlərinə deyil, məhz mənəvi gözəlliklərinə bağlı olan, onunla yaşayan, onunla öyünən insan bu Vətənin yolunda ölümə hazır olur və ona məhz mənəvi güc gəlir.

Çanaqqala müharibəsində topun asansor sistemi dağıldığına görə 250 kq-lıq mərmiləri lüləyə yerləşdirən əsgərin bu gücü hardan aldığını sorduqda, o, özü, də bu suala cavab tapa bilmir.

Aydın Bolak əsgərin bu gücünü Atatürkün dili ilə belə izah edir: "Çanaqqala müharibəsini qazandıran bu yüksək ruhdur".

Tamamilə doğrudur. Bəs 250 kq-lıq mərmini qaldırmaq üçün əsgərə verilən o gücün, o ruhun qaynağı nədir? Vəziri qürbətdən Vətənə qaytaran, vətən torpaqlarında bitən adi bir yoncanın qoxusu, o qoxudan doğan mənəvi dəyərlər və ilahi qüdrət! Bu yerdə artıq maddi, əzələ gücü aradan çıxır. Çünki böyük M.Akifin dediyi kimi, "Bir hilal uğrunda

günəşlər batmağa hazırdır". Bunu başqa şəkildə Dədə Yunus da təsdiq etməkdədir:

Beni bendə degil, bendə arama,
Bendə bir ben də var bendən içəri.

Məndən içəridə olan o mən, dədəbabalarımızın cəngavərlik ruhundan süzülüb gələn ruhdur, qan hafizəsidir. 250 kq-lıq mərmini topun lüləsinə qoyub düşməni tar-mar edən türk əsgəri özünə də məlum olmayan bu ilahi güclə yalnız Vətən torpaqlarını, onun coğrafiyasını deyil, yüz illər boyu bu torpaqlarda yaranmış mənəvi dəyərləri, mədəniyyəti, tarixi, mənsub olduğu dini, danışdığı dili, bu dildə yaranmış "Dədə Qorqud"u, Yunus İmrəni, Qaracaoğlanı, M.Akif ruhunu, "Mənim sadiq yarım qara torpaqdır" deyən Veysəl şeirini qoruyur.

Hər biri bir, ya iki səhifə olan bu yazılarda mənim fikir qardaşım Aydın Bolak bəy çağdaş türk gəncliyinə bu ilahi duyğuları aşılayır. Müəllifin "Kayb etdiklərimizdə dəyərini anladıqlarımız", "Gələnəklərimiz və görənəklərimiz", "Ramazan sofraları", "Ramazan adətləri" və s. məqalələrində itirdiyimiz adətlər və törələrdən ürək ağrısı ilə söhbət açılır. Mən də bu barədə çox yazmış, radio və televiziyadakı çıxışlarımda xalqımı gözəl adət və ənənələrimizi unutmamağa çağırmışam. "Ömürdən səhifələr" adlı irihəcmli bir yazımda cocuqluqda gördüyüm, sonralar görə bilmədiyim gözəl adət və törələrimizi itirdiyimizə görə təəssüfümü bildirmişəm. Onu da deyim ki, 200 il müstəmləkə şəraitində yaşayan millətimizin əxlaqa dayanan adət və ənənələrinin itirilməsi, bəlkə də, təbiidir. Boyunduruq altında yaşayan, dinsiz-imansız bolşevizm ideologiyası ilə tərbiyələnən bir millət öz milli xüsusiyyətlərini, milli mənəvi dəyərlərini necə qoruya bilərdi? Cocuqlarımızı sünnət elətdirməkdən tutmuş namaza, oruca qədər, dini nikahdan tutmuş dini bayramlarımıza və matəm mərasimlərinə qədər hər şeyin yasaq olduğu bir məmləkətin vətəndaşları adətənənəsindən tutmuş törələrinə qədər hamısını unutmalı idi. Buna rəğmən, biz sovet imperiyasının istədiyi qədər öz milli kökümüzdən qopmadıq.

Dini və milli törələrimizi gizli şəkildə müəyyən qədər qoruyub saxlaya bildik. Məsələn, cocuqlarımızı açıq mərasim şəklində deyil, ucqar kəndlərimizdə, yaxın əqrəbalarımızın iştirakı ilə sünnət elətdirirdik. Bu gün Azərbaycanda sünnət olunmamış bir nəfər belə yoxdur.

Mən və mənim yaşıdlarım gözümüzü açandan ata və babalarımızdan Türkiyə və Anadolu türkləri haqqında gözəl rəvayətlər eşidər və bu rəvayətlər qəlbimizdə Türkiyəyə sevgi məşəli yandırardı. Zaman keçdi. Mən Türkiyəyə gəldim. "Gəldim" çox kiçik sözdür, mən gəlmirdim, quş kimi qanad açmışdım.

Hər gəlişimdə Türkiyəni və burda yaşayan qardaşlarımın psixologiyasını, ruhunu öyrəndikcə, etiraf edim ki, xəyal kırıqlığına uğramağa başladım. Bu məmləkətdə ata və babalarımdan eşitdiyim türklük ruhunu və bu məmləkətə məxsus olan dəyərləri görə bilmədim. Onda istər-istəməz qəlbimdə bir sual doğdu: Mən başqa bir imperiyanın boyunduruğu altında olmağıma baxmayaraq, öz milli dəyərlərimi, azçox, qoruyub saxlaya bildim. Bəs tarixi boyu heç zaman heç bir başqa dövlətin boyunduruğunu görməyən (Allah göstərməsin) türk qardaşlarım niyə öz milli mənəviyyatını bəyənməyib, "Batıbatı" deyə-deyə başqasının quyruğunda sürünməyi özünə rəva və şərəf bilir?

Aydın Bolak bəy indi türk aydınlarının Batı qarşısındakı pərəstişini və milli kültürümüzə sayqısızlığı, haqlı olaraq, "aşınma", "kültür erazyonu" adlandırır və öz cocuqluq illərinin xatirələrinə qayıdır. O, hələ cocuq ikən öz ailəsində gördüyü adət-ənənələrin bu gün itirildiyinə təəssüflənib yazır: "Bilmiyorum, istərsəniz, "bir yaşlının hasreti" deyə qəbul ediniz, istərsəniz "törələrinə çox bağlı bir insan mühafizəkarlığı" deyə düşününüz, amma könlüm yenə o kiçik türk ailəsində də bütün türk adətlərinin yer almasını və türk törə və annesinin, türk kültürünün mühafizə edilməsi surətilə, türk millətinin gücünün davam etdirilməsini diliyor".

Bu sözləri deyərkən, elə bil, Aydın bəy nədənsə çəkinir, ürək sözlərini istərsiniz bunu "yaşlı bir adamın hasreti", istərsiniz "törəsinə bağlı bir adamın mühafizəkarlığı" deyərək özünə haqq qazandırmağa çalışır. Siz haqlısınız, Aydın bəy, sizin dediklərıniz yaşlı bir adamın həsrəti, yaxud

mühafizəkarlığı deyil, sizin dediklәriniz millətini öz canı qədər sevən böyük bir türk aydınının fəryadıdır. Qoy, bu sözləri mühafizəkarlıq kimi anlayanlar özləri utansın. Mən anlaya bilmirəm, millətinin dədə-babadan gələn, əxlaqa söykənən, əxlaqı qoruyan, mənəvi dəyərlərini qoruyan, törələrimizdən, ənənələrimizdən nə üçün imtina etməliyik? Yenini o zaman qəbul etmək olar ki, o, bizim əxlaqımızı, mənəviyyatımızı dağıtmasın. Qızlarımız lüt-üryan səhnədə keçi kimi tullanıbdüşürsə, min illərin süzgəcindən keçib gələn əxlaq normalarımızı dağıdırsa, belə yenilik bizə lazım deyil. Bu gün əgər biz bunları qəbul ediriksə, at belində Orta Asiyadan gəlib Avropanın mərkəzinə bayraq sancan və Avropaya əxlaq dərsi verən, böyük mədəniyyət aparan atalarımızın ruhu bizi qarğamazmı?

Mən anlaya bilmirəm, mühafizəkarlıq pis şeydirsə, müasir elm və texnikaya yiyələnmiş dünyanın ən qüdrətli dövlətlərindən birini yaratmış ingilislərə, 5 min il bundan əvvəl yaratdığı heroqlifindən bu gün də əl çəkməyən yaponlara mühafizəkarlıq mane olmadığı halda, bizə niyə mane olmalıdır?

Bütün ingilis ailələrində şəcərə kitablarının olması vacibdir. Doğulan uşaq bu ailə şəcərəsini mütləq öyrənməli və 10-15, bəzən 20-30 nəsl o yana ulu babalarının adlarını, sənətini, qısaca təcrümeyi-halını mütləq bilməlidir. Bu, çox gözəl adətdir. Çünki hardan gəldiyini bilməyən hara gedəcəyini bilməz. Əslini bilməyən özünü bilməz.

Mədəni ingilislər bir yana, Afrikada yaşayan yarımvəhşi Tod qəbiləsinin üzvləri də mütləq ən azı 10 arxa o yana babalarının adlarını bilirlər. Təsadüfən bu qəbiləyə düşən bir rus qadını yazır ki, qəbilənin üzvlərindən biri məndən ulu babalarımın adını soruşdu. Mən yalnız üçüncü arxamın adını deyə bildim. O, çox təəccübləndi. Sonra mən başa düşdüm ki, onlar məni ağıldan kəm hesab edir və mənə yazıqları gəlir.

Tod qəbiləsi tamamilə haqlıdır. Kökünü, əslini, nəslini bilməyənlərə, bilib də bəyənməyənlərə, həqiqətən, acımaq lazımdır.

Kitabda çox məsələlərə toxunulur. Kiçik bir məqalədə onların hamısı haqqında söz demək, təhlil etmək mümkünsüzdür. Amma yekun olaraq

onu deyə bilərəm ki, bu kitab başdan-ayağa qədər türk mənəviyyatının, əxlaqının təbliğinə həsr olunmuşdur.

Kitabın səhifələri arasında bir İstanbul əfəndisinin nurani çöhrəsini görür, onun böyük fikirlərinin və alışan ürəyinin atəşinə qızınırıq.

2000.
"Ədəbi düşüncələr", Bakı, 2000.



İZTİRABLI QƏLBİN FƏRYADI

Şairlər susmağı bacarmırlar, çünki onlar həyatda hər şey üçün cavabdehlik hissi ilə yaşayırlar. Qazax şairi Muxtar Şahanovun "Sivilizasiyanın aşınması" *("Dövrün dəbləri haqqında saqa")* epik poeması buna bir daha sübutdur.

Yeni janrda, özü də birnəfəsə yazılmış bu fenomenal əsər şairin - planet vətəndaşının üçüncü minilliyin astanasında ucalan səsidir.

Qəlbi mənəvi sıxıntılar içində çırpınan, yerin cazibə qüvvəsindən kənarda - "tələtümlər orbitində" qərar tutan şair, həyacan təbili vuraraq haray salır, bəşəriyyətə ünvanlanmış sözünü dinləyib, anlamağa səsləyir. Və bu gün hər kəs həmin səsi dinləyib dərk etməyə borcludur. Çünki, sabah artıq gec ola bilər.

Özünün yüksək müşahidə qabiliyyəti ilə kosmosdan baxırmış kimi Yer kürəsini ovcunun içi qədər aydın görən şair dünyada cərəyan edən "xeyir və şər", "gözəllik və eybəcərlik", "insanlığın qələbəsi və məğlubiyyəti" kimi hadisələrin gerçək mənzərəsini yarada bilmişdir.

Müəllifin heç də az əhəmiyyət kəsb etməyən məsələlərə - kütləvi mədəniyyətin təzyiqlərə məruz qalaraq məngənəyə salınması, ictimai-mənəvi köklərin əhəmiyyətinin azalması, irsiyyət varisliyi üzərində məhvedici, eksperiment sınaqların aparılması, acgözlük və sadizm, hakimiyyət hərisliyi və eqosentrizm kimi qorxunc, cəmiyyətin bətnində

dəhşətli yaralar salmış bəşəri problemlərə toxunması təqdirəlayiqdir. Qarşısına qoyduğu belə mürəkkəb vəzifənin öhdəsindən böyük bacarıqla gələn Şahanov bütün ictimaiyyətin diqqətini bu problemlərə cəlb etməyə çalışaraq, ürək ağrısı ilə hamını bu bəlalar dan xilas olmaq üçün mənəvi axtarışlara və müdrikliyə səsləyir. Bununla da o, bəşəriyyətin elçisi missiyasını çox cəsarətlə öz üzərinə götürür.

Bu şərəfli missiyanın kökündə isə şairin bir çağırışı – ata-babalarımızın yolu ilə getmək, onların bizə əmanət qoyub getdikləri dörd qiymətli mənəvi sərvətə, vəsiyyət etdikləri dörd müqəddəs varlığa - Doğma torpağa, Ana dilinə, Mənəvi sərvət və adət-ənənələrə, Doğma tarixə tapınmaq və onları göz bəbəyi kimi qorumaq çağırışı durur.

Təfəkkürün çata biləcəyi ən ali, üçüncü-dördüncü kosmik dərketmə fəzasına yüksələn müəllifə Yerdə cərəyan edən hadisələrin dəyərli və dəyərsiz tərəfləri daha yaxşı görünür, cəmiyyət üçün bir təhlükəyə çevrilmiş, artıq itirilməkdə olan və təəssüf ki, geri qaytarılması mümkün olmayan proseslər daha da aydınlaşır. Odur ki, Şahanovun cəmiyyətin taleyinə acıyaraq, narahatlıq hissləri keçirməsi təbiidir. O, bəşəriyyəti gələcəkdə gözləyən ciddi təhlükə - sivilizasiyanın aşınmasından doğacaq fəlakət barədə həyəcan təbili çalır, cəmiyyətin diqqətini tarixi hadisələrin inkişafında buraxılmış səhvlərə yönəldir.

Fikrimcə, cəmiyyətin bütün təbəqələri bu əsərlə, onun dəyərli məzmunu ilə mümkün qədər tez tanış olmalıdırlar. Yoxsa, qeyd etdiyim kimi, sabah artıq gec ola bilər.

İnsan özünün yaratdığı istehlakçı cəmiyyətdə yaşaya-yaşaya, əslində, mənəvi-etik normalardan uzaq düşmüş və faktiki olaraq öz gələcəyini unutmuş, daim öz-özünü tapdalayıb irəli keçməyə can atmışdır.

Cənab T.Okeyev, haqlı olaraq, yazır: "Mədəniyyətsiz və mənəviyyatsız insanlıq Yer üzündə artıq bir maskadır". Ona görə də mən "İki qorxu" poemamda:

Qorxuram dünyada bir zaman gələ,
İnsanlar yaşaya, insanlıq ölə...

- deyərkən yanılmamışam. Bundan əlavə həmin mövzu mənim "Hara gedir bu dünya" pyesimdə də başqa şəkildə qələmə alınmışdır.

Həqiqətən də, bu gün insanların mənəvi-əxlaqi səviyyəsi çox aşağı düşmüşdür. Bu, hər hansı bir sağlam düşüncəli adamı narahat etməyə bilməz. Çünki bu hal gələcəkdə hökmən azğınlığa, şəxsiyyətin məhvinə gətirib çıxaracaq. Dünyəvi cəmiyyət isə məhz sağlam düşüncəli şəxsiyyətlərdən ibarətdir və bu gün o "özünüməhvetmə" kimi dəhşətli bir fakt qarşısındadır. Bu problemin həllinə gecikmədən, bu gün, lap bu an başlamaq vacibdir.

Bu baxımdan, kitabda təsvir edilmiş hökmdarla müdrik filosof Əl-Fərabi arasındakı söhbət çox önəmlidir. Həmin epizodun sonunda Əl-Fərabi hökmdardan Türk Xaqanlığının süqutunun səbəbini soruşur və öz sualına özü cavab verir.

"O, düşmən qarşısına özünün çoxminli ordusu ilə çıxa bilərdi. Bəli, bilərdi. Lakin düşmənə qarşı özünün yüksək mədəniyyətini qoya bilmədi. Çünki, ölkədə hakimliyi o, alverçilərə vermiş, Xalqın taleyini də onlara etibar etmişdi. Alverçilər isə, əsasən, simasız olurlar. Onların milliyyəti, müqəddəs inancları və əqidələri olmur. Alverçi çox pul verənə hər şeyi satar. Öz mənəvi mədəniyyətini yaratmayan ölkə, istəsə də, istəməsə də əvvəl-axır daha güclü ölkənin əsarətinə düçar olub, quluna çevriləcək".

Ümumiyyətlə, dövründən, millətindən asılı olmayaraq, pul düşkünlərinin, alverçilərin hakim olduğu bir məmləkətdə heç bir sağlam cəmiyyətdən, mənəvi təmizlikdən söhbət gedə bilməz. Çünki pula, maddi qazanca boyun əyib, səcdə edən alverçi üçün mənəviyyat deyilən məfhum yoxdur. Əslində isə, mədəniyyətin və mənəviyyatın rolu hər bir fərdin, eləcə də millətin, ümumilikdə, bəşəriyyətin həyatında son dərəcə qiymətlidir. Bu zəmindəki mühakimələrin ən dəhşətlisi isə "mənəviyyatsız elmin və bizi vəhşiliklərə aparan sivilizasiyanın" artıq bir fakt kimi etiraf edilməsidir. Bu, fəlakətdir! Bəşəriyyətin üzləşdiyi faciənin kökü də, bax, bundadır. Və bu mənada, mən bu kitabı əlifba dərsliyi hesab edirəm.

Yekunda demək istəyirəm ki, YUNESKO-nun qərarı ilə, onun

Parisdə yerləşən iqamətgahında bu poemanın təqdimat mərasiminin keçirilməsi elə bu əsərə verilən ən layiqli qiymətdir və onun qlobal əhəmiyyətini vurğulayır.

Mən öz mənəvi məsləkdaşım və qələm yoldaşım Muxtar Şahanovun böyük uğuruna sevinərək, zəmanəmizin bu fenomenal əsəri ilə fəxr edir və fikrimi XX əsrin böyük ustadı, dostum Çingiz Aytmatovun sözləri ilə tamamlayıram: "Muxtar Şahanov bizim Asiyada mənəvi minarədən ucalan səsimizdir".

Həqiqətən də, bu belədir!

1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ƏSRİN ÖLÜM SİYAHISI

20-41-ci illərdə totalitar rejimin qurbanlarının siyahısı qarşımdadır. Adamı dəhşət bürüyür, inanmaq istəmirsən. İlahi, görən, həqiqətən də bir belə günahsız adamı güllələyiblər? Görəsən, o illərdə insan niyə bu qədər ucuz olub? Görən, dövlət niyə belə insan ovuna çıxıb? Bu suallara birmənalı cavab vermək çox çətindir. Amma bütün bunlar bir həqiqəti tam təsdiqləyir ki, Azərbaycan xadlqı öz azadlığı, müstəqilliyi uğrunda daim mübarizə aparmış və Azərbaycan Xalq Cümhuriyyətini istər gizli şəkildə təşkilatlanaraq, istərsə də açıq üsyanlar vasitəsilə bərpa etməyə çalışmış, təəssüf ki, nəticədə haqq işi uğrunda mübarizə aparanlar amansızcasına məhv edilmişdir.

Təqdim olunan siyahı bir xalqın ağrı yaddaşıdır. Bir gecədə 2-3 yüz adamın güllələnməsindən dəhşətli nə ola bilər. Belə çıxır ki, 37-38-ci illərdə Azərbaycan xalqı 1990-cı ilin 20 yanvar gecəsini hər gün yaşayıb. Həm də, 90-cı ilin yanvarından fərqli olaraq, imperiyanın törətdiyi bu faciələri sakitcə, sükutla, heç kəsə bir kəlmə demədən, içinə qapılaraq lənətləyib. Ən dəhşətlisi budur ki, güllələnənlər içərisində yüz nəfərə qədəri 90 yaşını ötmüş qocalardır. Bu rəzalət faşizmdən də o yanadır.

Göründüyü kimi, repressiyalar zamanı Azərbaycan xalqının millimənəvi sərvətlərinə, adət-ənənələrinə, dilinə, dininə çox ciddi zərbələr vurulmuş, xalqın düşünən başları bolşevik gülləsinə hədəf seçilmiş,

bir çoxu isə vətəndən didərgin salınmış və sürgün edilmişdir. Bu gün həmin zədələri Milli Təhlükəsizlik Nazirliyi yorulmadan bərpa edir. Geniş oxucu kütləsinə təqdim edilən bu siyahı görülən işlərin ən bariz nümunələrindən biridir. Bu siyahıya yalnız statistik rəqəm kimi yanaşmaq doğru deyil, bu, bir rejimin mahiyyətini açmağa, onun mələk qiyafəsini soyundurub iblis simasını görməyə və çox dərindən düşünməyə əsas verir.

Bu siyahı bir daha göstərir ki, müstəqillikdən böyük nemət yoxdur və əgər biz 1920-ci ildə müstəqilliyimizi qoruyub saxlaya bilsəydik, bu qədər böyük dəhşətlərlə üzləşməzdik. Qoy, hələ də Günəşin şimaldan doğacağı ümidi ilə yaşayanlar, Moskvanı dəstəkləyənlər bu siyahıya diqqətlə baxsınlar. Bəlkə, onda dərk edələr ki, təbiət səhv etmir, Şimaldan doğan Günəşin istisinə qızınmaq yox, kül olmaq olar. Bəlkə, onda dərk edələr ki, Şimaldan doğan Günəş Azərbaycan xalqının genofondunu zədələmiş, onun ziyalısını, milli-mənəvi sərvətlərini məhv etmişdir.

Bir müddət kütləvi informasiya vasitələrində "arxivlər açılmalıdır" şüarı ümumişlək sözə çevrilmişdi. Arxivlər açılanda isə ona yaxın düşən, millətin gen yaddaşına dəyən ağrıları açıqlayan, böyük zəhmətə qatlaşan adamlar, demək olar ki, yoxa çıxdı. Əməli iş zamanı, böyük Sabir demişkən: "Asta qaçıb dürtülürük xəlvətə". Arxivdə işləmək üçün boş-boş hay-küy qoparan, siyasi məqsəd güdənlər yox, millətimizin o zamankı faciəsinə bu millətin övladı kimi ürəyi ağrıyan, əməli iş görən zəhmətkeş vətənpərvərlər lazımdır. Mən inanıram ki, arxivlərin açımlasını tələb edənlərin böyük əksəriyyəti bir dəfə də olsun, hələ kənarları demirəm, respublikanın arxivlərində olmamışdır. Belələrinin arxivlərdə nə axtardığı da hamıya məlumdur. Məncə, arxivlər milləti bir-birinə qarşı qoymaq niyyəti ilə deyil, millətin ondan gizlədilən tarixi yaşantılarını açmağa, real tarixi həqiqətləri üzə çıxarmağa və xalqa, eləcə də bəşəriyyətə çatdırmağa xidmət etməlidir.

Ədalət naminə demək lazımdır ki, tarixi həqiqətlərin üzə çıxmasında Respublika Prezidenti H.Əliyevin xidmətləri danılmazdır. Milli Təhlükəsizlik Nazirliyi də Respublika Prezidentinin bu kursunu dəqiq tutmuş və bu istiqamətdə xeyli işlər görmüşdür. Həqiqətən də, heç

nə xalqdan gizlədilməməli, o, öz dostunu və düşmənini tanımalıdır. Adlı sihayhının təqdimi bir daha göstərir ki, indiyə qədər bizə hər şey birtərəfli, təhriflərlə öyrədilmiş, əsl həqiqətlərin isə üzərinə "məxfi" və ya "tam məxfi" yarlığı vuraraq xalqdan, millətdən gizlədilmişdir.

Mən bu gün Milli Təhlükəsizlik Nazirliyini, onun sədri Namiq müəllimi və bu işdə əməyi olanların hamısını belə bir vacib sənədi arxiv künclərindən üzə çıxardıqlarına və xalqa çatdırdıqlarına görə alqışlayır və "çox sağ olun" deyirəm. Siz, həqiqətən də, böyük işlər görürsünüz. Namiq müəllimin vətən və xalq qarşısındakı xidmətlərinə bütövlükdə qiymət verməyə mən bir qədər çətinlik çəkirəm. Çünki onun işinin xüsusiyyəti elədir ki, onlarlra geniş ictimaiyyətin tanış olmaq imkanı olmur. Lakin onun gördüyü bu qədrşünaslıq işi imkan verir deyəm ki, Namiq müəllim bir ziyalı kimi, milli təfəkkürə və milli düşüncəyə malik olan bir insandır. O, bu siyahıların, eləcə də digər sənədlərin xalqa çatdırılmasına təşəbbüs göstərməklə bir daha sübüt etdi ki, Namiq müəllim Sumbatov, Rayev olmadığı kimi, onun rəhbərlik etdiyi təşkilat da NKVD və KQB deyil, məhz öz müllətimizin Təhlükəsizlik Nazirliyidir. Digər tərəfdən, bu təşkilat imperiyaya yox, Azərbaycan dövlətinə və xalqına xidmət edir.

Məndə Cəlal Qasımovun MTN-nin arxiv materialları əsasında yazdığı bir neçə kitab var. Bu kitablarda repressiyalara məruz qalanların taleyi, eləcə də repressiv aksiyaların keçirilmə səbəbləri, xalqın tarixinə və taleyinə vurduğu zədələr və zərbələr faktik materiallar əsasında geniş təhlil edilir və elmi dövriyyəyə buraxılır. Uzun illər yasaqlanmış belə fakt və sənədlərin ictimaiyyətə, eləcə də elm adamlarına çatdırılması böyük zəhmət tələb edir və mənə elə gəlir ki, repressiya qurbanları əsl bəraəti də məhz bu zaman, yəni arxiv materialları istər məqalə, istər kitab, istərsə də xüsusi buraxılış şəklində xalqa çatdırılanda alır. Cəlal Qasımovun tərtib etdiyi bu siyahıya gəldikdə isə deməliyəm ki, bu, olduqca vacib və xeyirxah bir işdir. Minlərlə qovluqlara, sənədlərə müraciət edərək, onların arasından üzə çıxardığı bu işi ilə o, sözün həqiqi mənasında, yaddaşımızı bərpa edir. Onun son illərdə gördüyü işləri (istər kəmiyyət, istərsə də keyfiyyət göstəricilərinə görə) bir insti-

tutun gördüyü işlə müqayisə etmək olar.

Mən bu istiqamətdə araşdırmalar aparan milli qeyrət və milli təfəkkür sahiblərinin hamısına təşəkkürlərimi birdirir və bu işin davam etdirilməsində onlara uğurlar diləyirəm.

“Yaddaşın bərpası”, 2000.
“Sərhəd” qəzetinin xüsusi buraxılışı.
“Ədəbi düşüncələr”, Bakı, 2000.



DÜNYANIN SULTANI ELMDİR

Mənim universitet həmkarım professor Şamil Qurbanov səksəninci illərdə böyük zəhmətlə XX əsrin ilk çərəyində çap olunan çoxsaylı qəzet və dərgilərdən böyük publisist Ö.F.Nemanzadənin məqalələrini toplayıb kitab halında nəşr etdirdi. Mən bu məqalələri oxuyub Ömər Faiqin vətən və millət sevgisi qarşısında heyrətə gəldim. Və bu toplu barədə "Yanar ürək" adlı bir məqalə yazdım. O məqalə bu sözlərlə bitirdi: "Bütün varlığı ilə millətə bağlı olan, xalqın ciyərləri ilə nəfəs alan Ö.Faiqin vətən və millət sevgisini sevginin ən yüksək qatı hesab etsək yanılmarıq. O, öz vətən sevgisindən doğulan bir mücahiddir, bir qəhrəmandır. Və bu sevgi bütün nəsillər üçün bir nümunədir. Mən Ömər Faiqin vətən və millət sevgisindən o yana bir sevgi tanımıram".

Məqalənin sonunda isə Ö.Faiqin dərdlərindən, ürək ağrılarından süzülən bu yazıları bizə çatdırdığına görə həmkarım Şamil Qurbanova təşəkkürlərimi bildirmişdim. Bu günlərdə isə yenə Ş.Qurbanovun böyük panislamist, dahi mütəfəkkir, Şərq xalqlarının müştərək alimi Şeyx Cəmalləddin Əfqani haqqında yazdığı "C.Əfqani və türk dünyası" kitabını və C.Əfqaninin "Seçilmiş əsərləri" toplusunu oxuyub yenə heyrətləndim. Bütün həyatını müsəlman xalqlarının xurafat və cəhalət buxovlarından azad olmasına, Avropa xalqları səviyyəsinə yüksəlməsinə, bir sözlə, sözün həqiqi mənasında tərəqqisinə həsr etmiş bu böyük şəxsiyyəti bizə tanıtdığına görə mən ikinci dəfə həmkarıma

təşəkkürümü bildirir və bu böyük zəhmətə qatlaşdığına görə ona "sağ ol" deyirəm.

Mən bu vaxta qədər millətindən gizli saxlanımş, əsərləri yasaq edilmiş Əhməd Ağaoğlu, M.Ə.Rəsulzadə və Əlibəy Hüseynzadə kimi böyüklərimizin çap olunmuş bir neçə əsəri ilə professor Şirməmməd Hüseynovun zəhməti sayəsində yalnız son zamanlar tanış ola bildim. Əsərlərini yenicə oxuduğum bu böyük vətən mücahidlərinin yazılarına hopmuş od-alov mənim üzümü qarsıtdı, ürəyimi eyni atəşlə yandırdı. İstər-istəməz dodaqlarımdan bu nida yüksəldi: İlahi, biz nə qədər avam, sadəlövh olmuş, özümüzü tanımamış, necə böyük zəkalara sahib olduğumuzu bilməmiş, indi bizə daha çox lazım olan ürək yanğısından, könül hıçqırtısından məhrum olmuşuq.

Heç demə, Sovet imperiyası düşünərəkdən nəsillər arasındakı bağları qırmış, adlarını saydığım o böyük şəxsiyyətlərin yazdıqlarını onlardan sonra gələn nəsillərdən gizlətməklə tarixi yaddaşımızı manqurtlaşdırmışdır.

Şamil müəllimin xidməti sayəsində mən bildim ki, bizim Əhməd Ağaoğlumuz, Ə.Hüseynzadəmiz, M.Ə.Rəsulzadəmiz Cəmaləddin Əfqaninin fikir çeşməsindən su içib onun varisi və yeni şəraitdə davamçıları olmuşlar. Daha doğrusu, bu böyük şəxsiyyətlər bir-birini tamamlayan fikir və əqidə bahadırları imiş.

Sovet dövründə yetişən, əsrimizin 20ci ilindən sonra qələm çalan yeni nəsil isə M.F.Axundzadədən başlanan, XIX əsrin sonlarından böyük vüsət alan, milli özünüdərk ədəbiyyatından xəbərsiz olmuş, onların özləri isə bizim üçün senzuranın və yasaqların qurbanına çevrilmişlər. Milli şüuru formalaşdıran, ona yeni şəraitə uyğun şəkil verən, ictimai dərdlərimizi diqqət mərkəzinə gətirən ədəbiyyatımıza sosializm realizminin gəlməsilə özündən əvvəlki nəsillə yeni nəsil arasında bağların qırılması ictimai fikrimizi nə qədər yoxsullaşdırmışdır.

Şamil müəllimə birinci ona görə minnətdarıq ki, o, Ə.Ağaoğluna, M.Ə.Rəsulzadəyə və Amerika alimi Nikki Keddiyə istinad edərək, C.Əfqaninin Azərbaycan türkü olduğunu bizə çatdırmışdır. İkinci, "Sultani-aləm elmdir" deyən bu böyük islam aliminin yalnız ruhani -

dini və humanitar elmlər deyil, dəqiq elmlərin də bizim üçün vacibliyini, elmlə sənətin eyni məqsədə qulluqetmə zərurətini faktlarla açıqlayıb son dərəcə doğru bir nəticəyə gəlir ki, bu gün C.Əfqani və onun zəngin yaradıcılığı bizim ali məktəblərimizin humanitar, ələlxüsus ilahiyyat fakültələrində tədris edilməlidir.

İslam dininə mənsub olan xalqları mövhumat və cəhalət girdabından xilas etmək məqsədilə qələm çalan bu böyük islahatçının tutduğu yolda nə qədər böyük əzablara, məhrumiyyətlərə məruz qaldığını oxuduqca adam dəhşətə gəlir. Qəribə burasıdır ki, heç yerdə onu başa düşməmiş, düşüncələrini həyata keçirmək üçün heç kəs onun qolundan tutmamışdır. Şamil müəllim elmə söykənən müqəddəs kitabımız Quranın müasir dünya ilə səsləşən cəhətlərini, bu böyük təlimin elmlə əlaqəsini var səsi ilə car çəkən bu islam aliminin fəryadını çox böyük ustalıqla bugünkü oxucuya çatdırmışdır. Onun C.Əfqanidən gətirdiyi bircə misal bu böyük mütəfəkkirin hansı fikir və duyğularla yaşadığını bildirməyə yetərlidir.

"Onu təəccübləndirən bir də o idi ki, bu alimlər (cahil din xadimləri nəzərdə tutulur) qabaqlarına bir lampa qoyub gecələr səhərə qədər "Şəmsül-bariə" kitabını oxuyurlar, amma bir dəfə də ağıllarına gəlmir ki, nə üçün lampanın şüşəsini götürəndə his edir, şüşəni yerinə qoyanda his kəsilir".

Millətin tərəqqisi və müasirləşməsi üçün elmin zəruriliyini bundan tutarlı, bundan dəqiq, bundan da əyani deməyi təsəvvürə gətirmək çətindir. Mən bu məqaləmdə C.Əfqaninin "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı məqaləsi üzərində xüsusilə dayanmaq istəyirəm.

C.Əfqani dil birliyini millətin ruh, əqidə, milli şüur birliyinin əsas amili kimi götürür. O yazır:

"İnsanları bir-birinə bağlayan qüvvə iki vacib şeyi tələb edir. Bunlar olmasa, birlik də olmaz. Bunlardan biri məhz dil birliyidir. Buna milli vəhdət də deyirlər". Bundan sonra din birliyinin zəruriliyindən danışan müəllif millətin vəhdəti üçün dil birliyini din birliyindən vacib sayaraq yazır: "Heç şübhə yoxdur ki, dil birliyi, yəni milli birlik dini birlikdən

daha möhkəm və sabitdir". Bunun səbəbini isə o belə izah edir: "Çünki dil az müddət ərzində dəyişməyi və ya başqası ilə əvəz olunmağı qəbul etmir. Din isə belə deyil. Tarix göstərir ki, eyni bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir. Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür".

Mənim hələ sovet dövrünün 50-ci illərindən başlayan 50 illik mübarizəm, əsasən, ana dilimizin dövlət idarələrindən qovulmasına qarşı olmuş, bu barədə onlarla şeir və məqalələrim dərc olunmuşdur. C.Əfqaninin haqqında danışdığım məqaləsi bu mənada, elə bil, mənim yaramın üstünə məlhəm qoydu. Mən sovet dövründə ana dilinin milli tərbiyədə və xalqın bir millət olaraq yaşamasındakı rolunu sübut etmək üçün rus ədiblərinə və xüsusən böyük pedaqoq Uşinskinin "Ana dili" adlı məqaləsinə isnad edərdim. Cəmaləddin Əfqaninin təhsilin yalnız ana dilində aparılmasının zərurəti haqqında dediyi danılmaz həqiqətlər və gətirdiyi sübutlar Uşinskinin dediyi fikir və nəticələrlə üst-üstə düşür. Çox qəribədir. Təxminən eyni dövrdə, başqa-başqa ölkələrdə və mühitdə yaşayan bu iki alimin fikirlərinin eyniyyəti bu fikrin nə qədər böyük bir həqiqət olduğunu bir daha sübut edir.

Uşinski yazır ki, təhsil və tərbiyədə uşağın ana dilini başqa, yad dillə əvəz etdikdə "o, öz vətəninin içində öz vətəninə yad bir adam olaraq yetişəcək... Beləliəri heç bir vaxt öz xalqını anlaya bilməyəcək, xalqın faydasız bir üzünə çevriləcək. Və üzünə nə qədər vətənpərvərlik maskası taxsa da, o, öz ölkəsinin həqiqi vətəndaşı ola bilməyəcək".

C.Əfqani də eyni fikri təsdiqləyərək yazır ki, təhsil, təlim, tədris millətin öz dilində olmalıdır... Elmlər, maarif bütün sənət növləri hər millətin öz dilində tədris olunarsa, həmin millətin əsasları daha möhkəm, daha sabit olur...

O öz fikrini daha da dərinləşdirərək, yad dildə təhsilin fərdi faciədən milli faciəyə çevrildiyini elmi əsaslarla sübut edərək yazır: "Əksinə, əgər elmlər və fənlər yad dildə tədris olunarsa, o xalqın dili

az bir zaman ərzində dəyişib başqası ilə əvəz olunar, cüzi bir təbəddülat nəticəsində bütünlüklə millətin özü məhv olub sıradan çıxar".

Tamamilə doğrudur. Çünki hər xalqın milli varlığı onun ana dilinin varlığından asılıdır. Bu məsələdə Faruq Qədri Teymurtaş adlı türk alimindən də bir misal gətirmək yerinə düşər: "Dil məsələsi bir milli müdafiə məsələsidir. Dilimizi qorumaq vətən və milləti qorumaqla birdir. Çünki dil vətən qədər, tarix qədər gələnək və törə qədər əzizdir. Dil də bayraq kimi, ailə kimi müqəddəsatdandır, bəlkə, həpsinin ifadəsi, əksi onda olduğu üçün həpsindən öndədir. Dil olmayanca millət olmaz, milliyyət olmaz. Milli kültürün baş ünsürü dildir".

Bu üç böyük alimdən gətirdiyimiz misallar böyük və danılmaz həqiqətdir ki, bu həqiqətin isbata heç bir ehtiyacı yoxdur. Cəmaləddin Əfqani ana dilinə başqa dillərdən ayrı-ayrı sözlərin keçməsinə çox təbii baxır. Lakin şərt qoyur: "Bir şərtlə ki, alınmış sözlər ana dilinin libasına geydirilsin. Və onların xarici söz olduğu bilinməsin".

Bu şərt çox böyük bir hikmətdən soraq verir: yad sözü götürə bilərsən, amma onu öz dilinin ahənginə, ruhuna elə uyğunlaşdırmalısan ki, ana dilinin qanunları, musiqisi və təbiətinə xələl gəlməsin.

Vətənpərvərlikdən doğan bu böyük hikmətin, bu böyük şərtin və tələbin qarşısında səcdəyə gəlməmək mümkün deyil.

Sözümün sonunda millətimizin tərəqqisi naminə özünü şam kimi yandıran böyük şəxsiyyətlərimizi bu günün oxucusuna çatdıran Ş.Hüseynov, Ş.Qurbanov kimi nəsillər arasında körpü yaradan qələm dostlarıma dönə-dönə təşəkkür və minnətdarlığımı bildirirəm.

"Ədəbiyyat qəzeti", 7 may, 1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



“TƏNQİD YARPAQLARI” HAQQINDA QEYDLƏR

Vaxtilə universitetdə mənim tələbəm olmuş Vaqif Yusiflinin yenicə çapdan çıxmış “Tənqid yarpaqları” kitabını ikicə gecəyə böyük məmnuniyyət hissilə oxudum. Bu kitabçada məni dilləndirən əsas cəhət odur ki, tənqidçi əsərlərindən söz açdığı qələm sahiblərinin yaradıcılığındakı əsas damarı (mən onu şah damarı adlandırardım) və bu damardan axan qanın təhlilini verməyi bacarır. Vaqif ayrı-ayrı şair və ədiblərin ayrı-ayrı əsərlərini elə ustalıqla təhlildən keçirir ki, təhlil olunan əsəri oxumayan və ümumiyyətlə, həmin müəlliflə tanış olmayan oxucu onun ədəbiyyatımızdakı mövqeyini təyin edə bilər. Vaqifdəki bu bacarıq, məncə, onun təhlil üsulunda - bədii əsərə hansı bucaqdan yanaşma prinsipindədir. Məzmunun formadan üstün tutulduğu sosializm realizminin, marksist metodologiyanın hakim olduğu dövrlərdə belə onun yazdığı ilk tədqiqat işi Azərbaycan nəsrinin sənətkarlıq xüsusiyyətlərindən bəhs edirdi. Əlbəttə, bu, təsadüfi deyildi. Çünki hələ gənc ikən o, bədii əsər üçün bədiiliyi, sənətkarlığı əsas şərt sayırdı. Bu işıqla yaradıcılıq yoluna düşən tədqiqatçı sonralar bu prinsipi daha da dərinləşdirdiyindən onun yazıları, həqiqətən, təhlil və təşxis nümunələrinə çevrildi.

Vaqifin haqqında söz açdığımız kitabında nəsrimizin uzun illər böyük cəfakeşi olmuş S.Rəhimlidən tutmuş, gənc, istedadlı nümayəndəsi

olan Afaqa qədər bir neçə nümayəndəsindən böyük məhəbbət və qayğıyla söhbət açır. Kitabda bu yazıçıların hamısına onun sevgisini görürük. Amma bu sevgi ümumi, şablon sözlərlə deyil, hər birinin özünəməxsus cəhətinin açılması, göstərilməsi üzərində köklənib. Məsələn, ədəbiyyatımızın korifeylərindən S.Rəhimli haqqında Vaqifin bircə cümləsi bu böyük sənətkarın 60 illik yaradıcılıq xəzinəsinin açılmasına ən etibarlı açardır: "S.Rəhimli yaradıcılığı bütünlüklə xalq fenomenindən ayrılmazdır".

Tənqidçi tamamilə haqlıdır. Çünki S.Rəhimlinin yaradıcılığı xalq ruhu, xalq psixologiyası və xalq yaradıcılığından maya tutmuşdur. Bu, onun yaradıcılıq xüsusiyyətidir.

Yaxud onun M.Hüseyn haqqında dediyi aşağıdakı sözlərə diqqət yetirək: "M.Hüseynin xarakterini, şəxsiyyətini müəyyənləşdirən yığcam sözlük tərtib eləsək, burada üç sözün üzərində daha çox dayanmalı olarıq. Birinci - cəsarət, ikinci - ləyaqət, üçüncü - qayğı"...

Burda maraqlı cəhət orasıdır ki, M.Hüseyn haqqında Vaqifin "Cəsarət simvolu" adlandırdığı məqalənin birinci cümləsi belədir: "Mən Mehdi Hüseyni görməmişəm".

M.Hüseyni görməyən, onunla şəxsi ünsiyyətdə olmayan bir tədqiqatçı ədib haqqında yuxarıdakı tərifi yalnız onun əsərlərinin dərin təhlilindən çıxaraq verə bilərdi. Göründüyü kimi, tədqiqatçının verdiyi tərif yazıçının yaradıcılığına deyil, məhz onun xarakterinə, şəxsiyyətinə aiddir və mən M.Hüseyni şəxsən tanıyan, onunla çox yaxından ünsiyyətdə olan bir adam kimi deyə bilərəm ki, onun ədib haqqında verdiyi bu tərif tamamilə doğrudur. Demək, tədqiqatçı yazıçının əsərlərinin dərinliyinə, ən incə nöqtələrinə baş vura bilməsəydi, bu əsərləri yaradan adamın xarakterini və şəxsiyyətini də bu qədər dəqiqliyi ilə təyin edə bilməzdi.

M.Hüseyn Azərbaycan ədəbiyyatı ilə yanaşı, Qərb və rus ədəbiyyatını da mükəmməl bilən çox savadlı, dərin mütaliəli bir yazıçı olduğu əsərlərindən məlum idi. Onu da deyim ki, elmi dərəcəsi olmamasına baxmayaraq, o, biliyinə görə müstəsna hal kimi mənim S.Vurğunun yaradıcılıq yolu mövzusunda müdafiə etdiyim doktorluq dissertasiyamın opponentlərindən biri olmuşdur. Vaqif Yusifli

M.Hüseynin ədəbiyyatşünaslıq sahəsindəki dərin biliyini oxucusuna çatdırmaq üçün onun Mirzə Cəlil haqqında yazdığı məqaləsindən belə bir misal gətirir: "Mənə qalsa, "Poçt qutusu"nu qalın cildli bir romana, "Kamança"nı beşpərdəli bir faciəyə dəyişmərəm. Qərbi Avropa sentimental nəsrinin və ya dramının zahiri gözəlliklərinə aludə olmuş nərmə-nazik bir ədəbiyyat həvəskarı Molla Nəsrəddini çətin anlar".

Mirzə Cəlilin iki kiçik həcmli əsərinin qiyməti haqqında M.Hüseyndən gətirilən bu misal onun, ümumən, ədəbiyyata yanaşma, onu hansı ölçülərlə dəyərləndirmə prinsipini əyani olaraq göstərir. Biz burda həm M.Hüseynin, həm də onun barəsində yazan Vaqif Yusiflinin tənqidçilik məharətini görürük.

Vaqifin bu kitabında gözəl şairimiz Ə.Kərim və onun haqqında yazan R.Rzanın orijinal fikirləri ilə də tanış olur və tədqiqatçının qiymət ölçülərinə heyranlığımızı bildiririk.

Kitabda mənim ən çox xoşuma gələn cəhətlərdən biri də tədqiqatçının ədəbi nəsillər arasındakı bağlılığa münasibətidir. Müasir ədəbiyyatımızın bəzi tədqiqatçıları bir-birinin arxasınca gələn nəsilləri bir-birinin inkarı kimi təqdim etməyə çalışır. Bu, təpədən dırnağa səhv fikirdir. Əslində, nəsillər bir-birini inkar deyil, tamamlayır. Bu cəhətdən ustad şairimiz R.Rzanın Ə.Kərimə, S.Rəhimlinin Afaqa münasibətlərindən gətirilən misallar çox təqdirəlayiqdir. Vaqifin yaşlı nəsildən gətirdiyi misallar yaşlıların gənclərə olan böyük sevgisinin və qayğısının gözəl nümunələridir. Bu, başqa cürə də ola bilməzdi. Çünki Afaq S.Rəhimlilərin, Ə.Vəliyevlərin, Ə.Kərim isə S.Vurğun və R.Rzaların davamı və ardıcıllarıdır.

Bununla belə, Vaqif yeni yetişən gənc, ədəbi nəslin onlardan əvvəlki nəsillərdən fərqli cəhətlərini, ədəbiyyata gətirdiyi yenilikləri də göstərməyi unutmur.

Vaqifin teatr sənəti və onun yaradıcıları haqqındakı məqalələri də maraqlıdır. Səhnəmizin Nəsibə Zeynalova, Vəfa Fətullayeva, Hamlet Xanızadə, Hamlet Qurbanov və xüsusən, xanım-xatın adlandırdığı Laləzar Mustafayeva haqqındakı məqalələri də maraqla oxunur. Burda da Vaqifin uğuru, ilk növbədə, ordadır ki, haqqında danışdığı

sənətkarların hər birinin özünəməxsus cəhətlərini, səhnəyə gətirdiyi yeniliyi sənətşünaslıq baxımından inandırıcı faktlar və detallarla göstərə bilmişdir.

Vaqif Yusiflinin "Tənqid yarpaqları" kitabını mən müasir ədəbi prosesi izləyən, onu obyektiv şəkildə təhlildən keçirən məqalələr toplusu kimi ədəbiyyatşünaslıq elmimizə qiymətli töhfə hesab edirəm.

"Xalq qəzeti", 22 dekabr, 1998.
"Ədəbi düşüncələr", Bakı, 2000.



BU PƏRİŞAN GÜNLƏRİN SONU OLACAQ

Əziz qələm yoldaşım, məsləkdaşım Famil Mehdi!

Vətənimizin ağır günlərində özünə yubiley keçirməyi rəva bilməsən də, dostların, əqidəşlərin, qələm yoldaşların sənin keçdiyin şərəfli, namuslu ömür yolunu qiymətləndirməyi və sənə öz ürək sözlərini çatdırmağı özlərinə borc bilirlər. Mən də bu məqsədlə sənə müraciət etməyi lazım bildim, əziz dost! Daha doğrusu, bu mənim ürəyimin tələbi idi.

İtirilmiş torpaqlarımızın dərdi və vətənimizin bugünkü durumu həm bir vətəndaş, həm də bir qələm əhli kimi səni o qədər sarsıdıb ki, son zamanlar həm yazılarında, həm də ovqatında olan pərişanlığa görə səni təbrik etməyi gözlədiyimiz xoş günlərə saxlayır, sənin polad iradəni və ləyaqətli şəxsiyyətini öpüb bağrıma basıram.

Xatırındadırsa, 50 illik ürək dostum, könül sirdaşım Şirməmməd müəllimin bu yaxınlarda qəzetlərdə qeyd olunan 75 illiyi münasibətilə onun haqqında yazdığım yazıda da mən onun şəxsiyyətinin bütövlüyü, mərdliyi, kişiliyi barədə qeydlərimlə kifayətlənmiş, amma ad günü münasibətilə onu təbrik etməmişdim. Çünki o da sən yandığın atəş ilə yanan əqidə yoldaşımızdır və mən təbriki nə onun şəxsiyyətinə, nə də böyük əqidəsinə rəva bilməmişdim.

Bu günlər sənin son zamanlar ürək qanı ilə yazdığın "Dilən, professor", "Mənim Qarabağım mənim deyilsə", "Müstəqillik", "Böyük oğ-

rular, kiçik oğrular", "Allah, bu necə dövrandır" və s. şeirlərini bir daha oxuyub kövrəldim. Oxuduqca, mənə elə gəlirdi ki, xalqın könül ağrısı olan bu şeirləri səninlə müştərək yazmışıq. Çünki bu şeirlər mənim də fəryadım, mənim də könül hıçqırıqlarımdır. Çünki bu şeirlər bu günümüzün aynasıdır.

Yalnız son zamanlar yazdığın və adlarını çəkdiyim bu şeirlər deyil, sənin ömrün boyu yazdıqların - istər şeir və poemalarının, istərsə də publisistikanın baş mövzusu həmişə Vətən, torpaq sevgisi, xalq və onun taleyindən narahatlıq olub. Məhz elə budur səni bizə həm şair, həm də vətəndaş kimi sevdirən.

Əziz dost, hər şeyin sonu olduğu kimi, səni və hamımızı pərişan edən günlərin də sonu olacaq. Sənin birlikdə Ağdamda və Xudumuzun ruhunu şad etmək üçün onun doğma kəndi Mərzilidə qarşı-qarşıya oturacağımıza, günlərin acısını sevincimizlə əvəz edəcəyimizə əminəm.

"525ci qəzet", 11 yanvar, 2000.
"Ədəbi düşüncələr", Bakı, 2000.



“TÜRKİYƏ ARXAMIZDA OLMASAYDI, BAŞIMIZA ÇOX BƏLALAR GƏLƏRDİ”

Hörmətli V.Nəsib!

“525-ci qəzet”in builki 10 dekabr sayında “Havada bulud yox” məqalənizdə toxunduğunuz məsələ məni də lap çoxdan narahat edir. Hələ 1993-cü ildə “Aydınlıq” qəzetində nəşr etdirdiyim “Bizim kimimiz var?” adlı məqaləmdə yazmışdım: “Arada-bərədə eşidirik: türklər filan fabrikimizi, filan zavodumuzu, filan otelimizi aldılar”, yaxud “türklər sərvətimizi daşıyır”. Bu cahilanə söhbətlərə adam məəttəl qalır. Əgər biz öz mülkiyyətimizin və sərvətimizin qədrini, doğrudan da, bu qədər bilən idiksə, 5-10 il əvvəl nəinki sərvətimizə, milli varlığımıza, dinimizə, dilimizə, imanımıza, namusumuza, bütün mənəviyyatımıza müftəcə sahib çıxan Sovet imperiyasının talançılığına qarşı niyə çıxmır, köləliyimizə şükr edib otururduq?”

Həqiqətən, bu, çox maraqlıdır. Mən də, sizin kimi, kimlərinsə tərəfindən ortaya atılan bu türk düşmənçiliyinə heyrət edirəm. Türkiyə türklərinin bizə hər işdə, hər məsələdə arxa olduqlarını, sizin də yazdığınız kimi, minlərlə tələbələrimizi universitetlərdə, hərbi akademiyalarda xüsusi təqaüdlə oxutduqları, buna baxmayaraq, neftimizin ən az faizinə sahib olduqları halda, biz niyə öz qardaşımızın bizə elədiyi yaxşılıq lara bu qədər biganəyik?

Sizin yazdıqlarınızı mən də eşitmişəm. Bizim bəzi qansız

məmurlarımız Azərbaycana böyük yatırımlar qoyan türk iş adamlarını incidir, onların şirkətlərinə tez-tez yoxlamalar göndərirlər. Mən Əli Turanlının "Yetmiş il axan göz yaşları və bitməyən iztirablar" kitabını böyük ürək ağrısı ilə oxudum. O, haqlı olaraq yazır: "Biz, elə bil, öz ölkəmiz üçün yaradıb qururuq və tikdiklərimizin heç birini belimizə alıb Türkiyəyə aparmayacayıq. Bu qədər yoxlamamı olar?".

Çox maraqlıdır ki, bizim məmurlar başqa xarici firma və şirkətlərin qarşısında qul kimi əyilir, amma öz türk qardaşlarını cürbəcür bəhanələrlə soymağa çalışırlar.

Sözümü sizin bir fikrinizlə bitirmək istəyirəm: Türkiyə iş adamlarını incidənlər bilməlidirlər ki, "Türkiyə arxamızda olmasaydı, başımıza çox bəlalar gələrdi".

"525ci qəzet", 17 dekabr, 1998.
"Ədəbi düşüncələr", Bakı, 2000.



“ƏRƏN” QƏZETİNİN BAŞ REDAKTORU
RAMAZAN QAFARLIYA

Hörmətli baş redaktor!

Bir aydan çoxdur Şəkidə guya istirahətdəyəm. Amma indiki zamanda ölkənin bu durumunda xalqın şair oğlu hansı istirahətdən dəm vura bilər. İstirahət ona halal ola bilərmi?

Bu gün təsadüfən Sizin qəzetinizin 16-23 iyul tarixli sayı əlimə keçdi. İlk gözümə dəyən məqalə Natiqə Yusifqızının “Bu dil bizim dilimizdirmi?” məqaləsi oldu. Ürək ağrısı ilə oxudum. Şəkiyə gəlməmişdən bir-iki gün əvvəl Milli Məclisdə ana dilimizə ögey münasibət barədə çıxışım bəzi qəzetlərdə də işıqlandırıldı. O çıxışda mən 2 il əvvəl yazdığım şeirimdən bir bəndi də oxudum:

Bir vaxt rusca idi bütün reklamlar,
İndi ingiliscə dürtülür gözə.
İtin də dilinə hörmətimiz var,
Təkcə öz dilimiz yaramır bizə.

Parlamentdə mənim bu çıxışıma, təəssüf ki, əhəmiyyət vermədilər. Mən əsəbiləşdim və Rəyasət Heyətində əyləşən məqam sahiblərinə hücum çəkib dedim ki, sizin ana dilimizin qorunması haqqında olan bu çıxışıma əhəmiyyət verməməyinizin səbəbi odur ki, hamınız uşaqlarınızı

rus və ya ingilis dilində oxudursunuz.

Yəqin ki, mənim bu çıxışımdan xəbərdarsınız.

Hörmətli redaktor, mənim 50 illik mütəvaze yaradıcılığımda əsas qayəm vətənimizin istiqlalı və ana dili uğrunda mübarizə olmuşdur. Yəqin ki, bu Sizə məlumdur. Buna görə də N.Yusifqızının məqaləsi səsimə səs verdiyinə görə məni çox sevindirdi. "Zəncirlənmiş ziyalılar" məqaləsi isə yaramın üstünə duz səpdi.

"Ağdamın harayı" və yuxarıda adlarını çəkdiyim məqalələrdə qaldırılan problemlərdən qəzetinizin fikir istiqaməti və qayəsi mənə məlum oldu. Bu qayəni alqışlayır və qəzetinizə böyük uğurlar diləyirəm. Arzum budur ki, getdiyiniz bu şərəfli yolda büdrəməyəsiniz.

Mənim yenicə çapdan çıxan "Zaman və mən" məqalələr toplum haqqında verdiyiniz məqaləyə görə Sizə dərin təşəkkürlərimi bildirirəm. Məqalənin müəllifi Tərlan Novruzova da mənim minnətdarlığımı çatdırmağınızı xahiş edirəm.

Şəki, 22 iyul,1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



“YAĞMUR” DƏRGİSİNƏ

Əziz dostlar, yeni yayınlanmağa başlayan “Yağmur” dərgisini məmnuniyyətlə oxudum. Əvvəla, Sizi təbrik edir, daha böyük başarılar diləyirəm.

Dərgidə gedən yazılar içərisində Atilla İlhan bəylə apardığınız müsahibə çox xoşuma gəldi. Atilla bəy çox haqlı olaraq göstərir ki, “indi şeir oxunmur” - deyənlər çox səhv edir. Gözəl şeir oxunur, yalnız pis şeirlər oxunmur. Yalnız Türkiyədə deyil, başqa türk cümhuriyyətlərində, o cümlədən də Azərbaycanda gözəl şeir oxunur və əzbərlənir. 7 milyonluq Azərbaycanda şeir kitabları 20-30 min tirajla basılır və bir neçə ay ərzində satılıb qurtarır. Azərbaycanda bütün toy məclisləri musiqi ilə bərabər, şeirlə müşayiət olunur. Toyun aparıcısı dediyi bütün sağlıqları şeirlə tamamlayır. Azərbaycanda Füzulini..., Yunus İmrəni, Qaracaoğlanı, böyük mizah şairimiz Sabiri, S.Vurğunu əzbər bilməyən adam çətin tapılar.

Türk xalqlarının şeirə olan bu sevgisini Atilla bəy ənənəmizdən gələn səslə əlaqələndirir. Mən bu fikrə qəlbən qatılıram. Çünki türk doğulduğu andan bu səsin musiqisinin içində böyüyür. Analarımızın beşik başında bizə dediyi ninnilər, cocuqluqda oynadığımız oyunlar, dinlədiyimiz əzanlar, yaslarda oxunan Quran səsi körpəlikdən bizim ruhumuza hopur, bizi bu səslə böyüdür.

Atilla bəy çox haqlı olaraq göstərir ki, bu səsdən məhrum olan bir havada yazılmış şeirlər yabançı dildən çevrilmiş, ruhumuza yad olan tərcümə əsərlərinə bənzəyir. Belə şeirləri isə xalq qəbul etmir.

Yəhya Kamalın, Behcət Çağların, M.Akifin, Nəcib Fazilin şeirlərində isə Atilla bəyin dediyi ənənədən gələn o səs, o musiqi bizim türk ruhumuzla unison (harmoni) olduğundan biz onları sevir və əzbərləyirik. Nəcib Fazilin "Otel odaları"nı sevməmək mümkünmü? Bu şeirdəki səs otel odalarında yalqız qalmış bir qəribin ah-naləsidir.

Bununla belə, etiraf etməliyik ki, çağdaş Türkiyə şairlərinin bir çoxunun şeirləri divan və xalq şeirindən gələn bu səsdən, bu musiqidən məhrumdur.

Türkiyədə çağdaş Orta Asiya və Azərbaycan şairlərinin böyük bir qisminin şeir kitabları yayınlanmışdır. Buna rəğmən, Türkiyə ədəbiyyat və sənət dərğilərində türk şeiri haqqında yazılmış məqalələrdə yalnız Türkiyə türklərinin şeiri təhlil olunur. Unudurlar ki, türk şeiri yalnız Türkiyə türklərinin şeirindən ibarət deyil, 150 milyonluq böyük bir millətin şeiri deməkdir. Füzuli azəri, Nəvai özbək-cığatay, Məxtumqulu türkmən, Abdulla Tukay tatar ləhcələrində yazsalar da, bu, ümumtürk ədəbiyyatıdır. Əgər siz bu həqiqəti qəbul edirsinizsə, çağdaş türk şeirindən bəhs edərkən neçin bizləri unudursunuz? Məgər biz bu gün hamımız birlikdə ümumtürk ədəbiyyatını yaratmırıqmı?

Əvət, Atilla İlhan bəyin dediyi o gözəl səs, o musiqi bizim hamımızı birləşdirən kökümüzün, soyumuzun səsidir. Bizim bu səsə biganə olmağa haqqımız yoxdur.

Bu məktubumla Sizə bir neçə şeir göndərdim. Çap etsəniz, məmnun olaram.

6 noyabr, 1998.
"Ədəbi düşüncələr", Bakı, 2000.



“EGİTİM-BİLİM” DƏRGİSİNƏ

Mən hər il mayın sonundan sentyabra qədər Şəkidə olduğuma görə Sizin dərginizin mayıs sayı bu günlərdə əlimə keçmişdir. Buna görə də dərginiz haqqında fikrimi və Sizə təşəkkürlərimi gec yazmağımı əfv etmənizi xahiş edirəm. Əvvəla, mənimlə olan “Asrın Reportajı”nı dərc etdiyinizə görə Sizə dərin təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm. Amma bu məktubu yazmaqda məqsədim yalnız təşəkkürlərimi Sizə çatdırmaq deyil. Əsas məqsədim dərginiz haqqında öz təəssüratımı Sizə bildirməkdir.

Əziz həmkarlarım, dərginizin səviyyəsi həddindən artıq xoşuma gəldi. Bizim barışmadığımız Sovet dönəmində Rusiyada çox yüksək səviyyəli dərgilər çap edilərdi. Mən və mənim yazıçı dostlarım bu dərgiləri böyük məmnuniyyətlə oxuyardıq və bizim də yazılarımız həmin dərgilərdə çap olunardı. Bu dərgilər içərisində “Oqonyok” (“Qığılçım”) dərgisi öz yüksək səviyyəsi ilə başqalarından seçilərdi. Sizin “Egitim-bilim” dərginiz mənə “Oqonyok” dərgisini xatırlatdı.

Mən “Egitim-bilim” dərgisi çox “xoşuma gəldi” yazdım. Lakin Sizin dərginiz haqqında yalnız “xoşuma gəldi” demək çox azdır. Belə ki, dərginiz “Egitim-bilim” adını tamamilə doğruldur. Hələ bir qədər də adından kənara çıxır. Burda, ümumən, sənət və şeir sənəti haqqında fikirlərlə yanaşı, gözəl şeir nümunələri təqdirəlayiqdir.

Dinimizin böyüklüyü, xristian böyüklərinin də islam və onun peyğəmbəri haqqındakı mülahizələri mənim üçün tamamilə yeni mülahizələrdir. İbrahim Koçun İslam aləminin böyük fizika alimi İbn Heysem haqqında, Vehbi Vakkasoğlunun "Mum dibinə işıq verirmi?", mikrobu kəşf edən osmanlı alimi, "Bilim və texnolojidə ən son gəlişmələr" məqalələri, "Beytlərdə şakıyan türkcə" sərlövhəsi altında Füzuli, Zati, Nabi, Ali Heydar beydən gətirdiyiniz beytlərin izahı oxucu üçün çox qiymətli məlumatlardır.

Əbdülqadir Akkündüzüm divan ədəbiyyatının gözəl nümunələrini bu günün çağdaş türk oxucularına böyük ustalıqla açması, izah etməsi çox gərəkli işdir.

Təəssüf ki, bugünkü oxucular, xüsusən gənclər bu böyük xəzinəyə baş vurub bu sənət incilərini anlamaq və dəyərləndirmək səviyyəsində deyil. Mən rica edirəm, Siz bu gözəl işinizi davam etdirin. Çünki divan ədəbiyyatını türk ədəbiyyatından çıxartsaq, biz mədəniyyətimizi qısırlaşdırmış olarıq. 1972-ci ildə Türkiyədə basılan "Varlıq" dərgisində İsmət Zəki Eyyuboğlu adlı bir ələndiricinin "Ölü ədəbiyyat" adlı məqaləsini oxuyub ona "Yel qayadan nə aparır" adlı cavab yazmışdım. Çünki Eyyuboğlu bizim divan ədəbiyyatımızı "ölü ədəbiyyat" adlandırmışdı. Bu gün Siz dərginizdə divan ədəbiyyatından gətirdiyiniz gözəl beytlərlə İ.Z.Eyyuboğluların yanlış düşüncədə olduğunu bir daha göstərdiniz. Buna görə Sizə minnətdaram.

Əziz dostlar, bir azəri ata sözünü sizə xatırlatmaq istəyirəm: "Keçmişinə güllə atanın gələcəyinə top atarlar".

Bu gün bizim keçmişimizlə öyünməyə haqqımız var. Çünki biz böyük dövlətlər qurmuş, böyük tarix yaratmış millətik. Təəssüf ki, öz qılıncımız özümüzü kəsir. Mən bu adda bir oyun əsəri də yazmışam.

Vehbi Vakkasoğlu adını çəkdiyim məqaləsində haqlı olaraq yazır: "Son dönəm içində yaşadığımız kültür şoku, hərf devrimi, keçmişdən qopukluq babalarımızı gələnəkdən büsbütün qoparmış və hər şeyi yenidən və sıfırdan kəşf edər hala gətirmişdir. Əsgisi ilə heç bir ilgisi, bağlantısı qalmamış bir həyat, dədə ilə torun arasında canlı və güclü heç bir bağ burakmamışdır.

Böyləsinə boşluqda qalan nəsillər, önlərində bulduqları həyatı bənimsəyə bilmək için keçmişə sırtlarını dönmək məcburiyyətində qaldılar".

Müəllif tamam haqlıdır. Maləsəf, biz türklər keçmişimizi bəyənmədik, ona alay etdik. Batını təqlid etməyə başladıq. Hələ 1450 il bundan öncə göytürklər zamanında da bizim atalarımız çinliləri təqlid edərdi. O zaman Bilgə xaqan üzünü türk millətinə tutaraq dedi: "Ey türk, titrə və kəndinə dön. Sən kəndinə dönənədə böyük olursan!".

Maləsəf, bu bəla bu gün də biz türklərin ruhunda yaşamaqdadır. Biz yenə də kimlərisə təqlid etməklə məşğuluq.

Biz Azəri türklərinin 1918ci ildə yaratdığı ilk cümhuriyyətin banisi milli bayrağımızı 3 rəngli yaratdı. Birinci göy rəng - türkləşmə, ikinci qırmızı rəng - çağdaşlaşma, üçüncü yaşıl rəng - islamlaşma.

Çağdaşlaşma şüarı Atatürkün yaratdığı cümhuriyyətdə də əsasdır. Lakin çağdaş türklər çağdaşlaşmanı batılaşma kimi qələmə verir. Bu, kökündən yanlışdır. Atatürk "batılaşma" deməmiş, "çağdaşlaşma" demiş. Əgər "çağdaşlaşma"nı "batılaşma" kimi anlasaq, onda bir sual doğur: Yaponiya batı məmləkəti deyil. Lakin çağdaş elm və texnoloji ilə silahlanmış çağdaş məmləkətdir.

Mən keçən il "Ortadoğu" qəzetində dərc etdirdiyim "Ey qocaman Türkiyə" məqaləmdə yazmışdım: "Hər zaman güvəndiyim, kəndimə dayaq bildiyim, ey qocaman Türkiyəm! Sən bu gün "batı", "batı" deməklə kəndini batırdın".

Lakin biz Azəri türkləri sovet dönəmində müstəmləkə olsaq da, kəndimizdən qopmadıq. Müstəqil olandan sonra qan, can və din qardaşımız Türkiyənin təsiri ilə Sizi və Batını təqlidə başladıq. Öz ənənəsinə, tarixinə, dilinə, milli ruhuna, milli varlığına sırt çevirən millətin gec-tez məhv olacağı labüddür. Allah bizi o fəlakətdən qorusun.

Dərginizdə Ege universitetinin professoru Metin Çolakın "Günəş pilləri kullanılarak elektrik ürətimi" barəsində verilən məlumata çox sevindim. Demək, mənim millətim hər şeyə qadirdir. Millətimin övladları çağdaş dünyayla ayaqlaşa bilir, dünyəvi kəşflər etməyi bacarır. Demək, biz yalnız keçmişimizlə deyil, bugünümüzlə də fəxr edə bilərik.

Dərginiz bu gün Türkün yetişdirdiyi böyük elm və sənət adamları haqqında məlumat verməklə bizim çağdaş millət olduğumuzu bildirir. Bununla da türk gəncliyində özünə, öz millətinə inam hissi aşılayırsınız.

Əziz dostlar, Sizə daha böyük uğurlar, başarılar diləyir və arzu edirəm ki, dərginizin bundan sonra çıxacaq saylarını mənə göndərəsiniz.

Çox məmnun olaram.

30 sentyabr, 1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ƏXLAQ NORMALARI

Hörmətli redaksiya!

Qəzetinizin 10 dekabr, 1998-ci il tarixli sayında dərc olunan "Namus məsələsi" məqaləsində qaldırılan məsələyə mən də öz münasibətimi bildirməyi özümə borc bildim. "Gözəllik müsabiqəsində əxlaqa zidd heç nə yoxdur" deyən "Ceyla xanım" dərgisinin baş redaktoru hörmətli A.Orduxanovaya üç sualım var:

1. Hər millətin özünəməxsus abırhəya, ismət və əxlaq normaları var, ya yox?

2. Kişilərin qarşısında soyunub bədəninin əzalarını nümayiş etdirməyi şəxsən o özü abır, həya və ismət hesab edirmi?

3. Abır-həya və ismətini qorumağı qadın jurnalının redaktoru qadın üçün yaxşı cəhət hesab edir, yoxsa, pis cəhət?

Mən bu məsələdə hörmətli Hacı Müzəffər Cəbrayılzadənin və Rövşən Əhədoğlunun fikirlərilə tamamilə şərikəm. Onların dediyi kimi, mən də gözəllik müsabiqəsinin bizdə keçirilməsinə razıyam. Lakin həmin müsabiqələrin türk-müsəlman əxlaq normalarını pozmadan zahiri gözəllikdən daxili gözəlliyin nümayişi əsasında keçirilməsinin tərəfdarıyam. Çünki zahiri gözəllik keçici, daxili gözəllik isə hər kəsin ömrü qədərdir. Qızlarımız, gəlinlərimiz arasında mərifətin, qanacağın, elmin, savadın, həssaslığın, mütaliənin, tərbiyənin, vətənsevərliyin,

sədaqətin, əxlaqın, abır-həyanın və ismətin
müsabiqəsinin keçirilməsini arzu edirəm.

Padşahların saraylarında nə qədər gözəl kənizlər yaşayıb. Onlardan bu gün xatırlananı varmı? Lakin Şah İsmayılın tərbiyəsində və yetişməsində böyük əmək sərf edən Aləmşahbəyim tariximizdə gözəl analıq simvolu kimi xatırlanmaqdadır.

Deyilənə görə, Məhsəti və Natəvan zahirən çox gözəl olmuşlar. Lakin bu gün onlar zahiri gözəlliklərinə görə deyil, ağıl və istedadlarına görə anılır və sevilir. Onu da vurğulamağı vacib sayıram ki, bu gün bizdə mövcud olan əxlaq, abır, ismət normalarını yalnız islamiyyətlə bağlamaq düz deyil. Hələ islamı qəbul etməmişdən çox-çox əvvəllər Göy Tanrıya sitayiş etdiyimiz zamanlarda da bizdə həmən əxlaq-ismət normaları mövcud idi. Bu normalar islam normaları ilə üst-üstə düşdüyünə görə də, biz sonralar bu dini məmnuniyyətlə qəbul etdik.

Mən belə hesab edirəm ki, bu gün Qərbin özü mənəviyyatsızlığa sürükləndiklərindən şikayət etdikləri və buna əlac axtardıqları bir zamanda, biz onların bütün adət-ənənələrini, ruh və psixologiyalarını eynilə öz mühitimizə tətbiq etməli deyilik. Sözümün sonunda "Hürriyyət" qəzetinin 12 dekabr sayında mənim çox hörmət etdiyim Nazim İmanov, Əli Kərimov, Fəzail Ağamalı kimi ağıllı və ciddi siyasətçilərin bu müsabiqəyə rəğbətlə yanaşdıqlarını oxuyub, çox təəccübləndiyimi bildirmək istəyirəm.

"525-ci qəzet", 15 dekabr, 1998.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ƏZİZ
MUXTAR BƏY!

Dərhal Sizə məktub yazıram. Hisslərim coşubdaşır. Çünki kitabınız məndə böyük təəssürat doğurmuşdur. İstedadınızın sayəsində mühiti, dünyanı dərindən duyduğunuz və dərk etdiyinizə görə sağ olun! Kitabınız bəşəriyyətin mənəvi həyatında nadir hadisədir. Zənnimcə, onun başqa dünya dillərinə tərcüməsi zəmanəmizin zərurətidir. Və bu, belə də olacaqdır. Mənim təəssüratıma gəlincə, mən onları Sizə göndərdiyim ayrıca rəydə ifadə etmişəm. Mən onu kitab haqqında ilk emosional təəssüratım əsasında yazmışam. Oradakı qüsurlara görə məni qınamayın.

Çox təəssüf edirəm ki, nasaz olduğuma görə (hipertoniya) Türkiyədə çox qala bilmədim.

Siz məndən kitabınıza ön söz yazmağı xahiş etmişdiniz. Mən bunu xahişsiz də böyük məmnuniyyətlə edərdim. Çünki mən ürəklərimizin bir-birinə ruhən yaxın olduğunu görürəm. Mən mənəvi doğmalığımızı bir çox şeylərə baxışımızın, hadisələrə münasibətimizin eyniliyində görürəm və poemanızı oxuyandan sonra bu bağlılığı daha dərindən anladım.

Siz poemanızda Türk xaqanlarından bəhs edirsiniz. Bu mövzu mənə çox yaxındır. İndi bizim Dövlət Dram Teatrında mənim "Özümüzü kəsən qılınc" ("Göy türklər") pyesim oynanılır. Bununla əlaqədar tarixi qəhrəmanlar olan Gürşad, Bilgə Xaqan, Güntəkin barəsində

külli miqdarda materialı nəzərdən keçirmişəm. Hazırda pyes rejissor Rəhimbəy Seyitmetov tərəfindən Türküstan şəhərindəki Xoca Əhməd Yəsəvi adına Qazax-Türk Universitetində Qazax dilində tamaşaya hazırlanır. Şübhəsiz, onun Qazax səhnəsindəki taleyində mənim böyük dostum və poeziya sərrafı Namiq Kamal Zeybəkin mühüm rolu var. Allah qoysa tamaşanın premyerasında görüşərik. Lap bu yaxınlarda bizim səhnəmizdə Sizin Çingiz Aytmatovla birgə yazdığınız "Sokrat haqqında xatirələr gecəsi" pyesinin ilk tamaşası olacaqdır.

Çingiz bəylə Sizi Azərbaycan torpağında səbirsizliklə gözləyirik. Zəmanəmizin iki nurlu şəxsiyyəti ilə görüşməkdən çox məmnun olacağam.

Rus dilində kitabımı Sizə göndərirəm. Qoy, yaradıcılığımız hələlik göz-gözə görüşümüzü əvəz etsin.

26 oktyabr, 1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



SİZİNLƏ DƏRDLƏŞMƏK İSTƏYİRƏM

Əziz qardaşım Əhməd bəy!

Yeni ilimizi təbrik faksınızı aldım. Mənim cavab faksını alıbalmadığınızı bilmədim. Bir daha sizi yeni il, yeni əsr və yeni minilliklə təbrik edir, dünyamız üçün Allah-təaladan əmin-amanlıq arzulayıram.

T.Yazqan bəyin "Tarix" dərgisinin 154-cü *(Ekim, 1999)* sayında Sizin Tuva yazarı və şairi Qalsan Çinaq haqqındakı məqalənizi böyük ürək ağrısı ilə oxudum. Məqalədən belə anladım ki, Tuva xalqının bu böyük oğlu indi Almaniyada yaşayır və alman dilində nəsli kəsilməkdə olan millətinin dərdini, faciəsini dilə gətirir. Kökü etibarilə türk olan tuvalılar şaman dininə mənsubdurlar. Çox maraqlıdır, islamı qəbul etməyən türk xalqları - karaimlər, qaqauzlar, sakalar, tuvalar və başqa altaylılar hamısı məhvə məhkum oldu. İslamı qəbul edən türk xalqları - Anadolu türkləri, özbək, qazax, qırğız, azəri, tatar, başqırd və s. türklər isə tarixin bütün dönəmlərindən keçib bu günə qədər gəlib çıxdılar.

Ancaq mən belə güman edirəm ki, əgər Sovet imperiyası bundan sonra 100 il də yaşasaydı, bizlər də əriyən, məhv olan türk xalqlarının gününə düşəcəkdik. Sizin yadınızdadırsa, mən helə o zamanlar bu qorxunu yaşayır, "Latın dili", "Dan yeri", "Qarağac", "Qoruq" və s. şeirlərimdə və xüsusən 1964-cü ildə yazdığım "Yollar - oğullar" poemamda millətlərin, dillərin məhvolma qorxusunu yazılarıma köçürmüş

və buna görə başım çox bəlalar çəkmişdi.

Rus imperiyasının işğal etdiyi ölkələrdə yürütdüyü ən dəhşətli siyasət yerli xalqın dilini, dinini, törəsini, adət-ənənəsini yox etmək, onun milli şüurunu öldürməkdən ibarət idi. Bunu siz hələ 60-cı illərdə mənimlə olan söhbətlərinizdən çox yaxşı bilirsiniz. Azərbaycanda ildən-ilə milli məktəblərin sayı azalır, rus məktəblərini bitirən azəri türkləri nə öz dilini, nə törəsini, nə ədəbiyyatını, nə də milli adət-ənənəsini bilirdi. Bir sözlə, azəri cocuqları rus məktəblərindən rus olaraq çıxırdılar.

Ruslar bu siyasəti eynilə bütün türkdilli xalqlara, o cümlədən də Altay xalqlarına - Tuvaya tətbiq etdiyinə görə indiki kökü etibarilə türk xalqına mənsub olan tuvalıların əksəriyyəti öz dilini bilmir. Nə əslini tanıyır, nə də nəslini. Çoxu rus qızları ilə evlənir və onlardan törəyənlər ruhən və təbiətən rus olur, beləliklə də, millət ruslaşır.

Yalnız bircə fakt deyim: 1937-ci ildən sonra Moskvanın göstərişi ilə yalnız türk xalqlarının - özbək, qırğız, qazax, tatar, başqırd, azəri, Altay xalqlarının əlifbası latından kiril əlifbasına keçirildi. Bu, türkləri bir millət kimi əritmə siyasətinin ən bariz təzahürü idi.

60-cı illərin əvvəllərində bütün dünyada, o cümlədən, Azərbaycanda Qarağac deyilən ağaclar qurumağa, məhv olmağa başladı. Bu fakt mənə imkan verdi ki, millətlərin məhv olması qorxusunu dilə gətirim. O zaman "Qarağac" şeirini yazdım:

Alimlər düşündü: "nədir bu bəla?
Dünyada hər şeyə səbəb gərəkdir".
Dedilər: - Bu ildən, bəlkə, dünyada
Qarağacın nəsli kəsiləcəkdir.

Nəslin kəsilməsi! Dərdə bax, könül,
Bu dərdin oduna gəl yanaq, könül.
Yaxşı bax quruyan bu ağaclara.
Onun minmin illik tarixi vardır.
Tarixdən danışma, sən axtar, ara,
Onu məhv eləyən hansı "azardır?"

Bundan sonra mən vaxtilə gettolar içində məhv edilən xalqlardan danışır, senzorların fikrini əsas mətləbdən yayındırmaq üçün bu mətləbi xarici ölkələrə keçirir və şeiri belə bitirirdim:

Quruyur meşədə qarağacımız.
Düşündük: Bu dərdə bir əlac varmı?
Ağacın məhvini dərd edirik biz,
Xalqların məhvinə dözmək olarmı?

Bu şeir 1965-ci ildə çap olundu. Millət nə demək istədiyimi dərhal anladı. Amma yuxarıda oturan kütbeyinlər çox gec - yəni 70-ci illərdə anladılar. Bununla belə, nəyə işarə vurduğumu mənə sübut edə bilmədilər.

Qəribə burasıdır ki, elə bil, Allah mənim naləmi eşitdi. Bir neçə ildən sonra qarağac yenidən göyərməyə başladı və bizim başımız üstündən rus-sovet yumruğu götürüldü.

Mən gətirdiyim bu misalla Sizin ürək ağrısı ilə qələmə aldığınız məqalədən Qalsan Çinağın hansı dərdlərlə yaşadığını dərk etdim. Bu gözəl məqalə - poemaya görə çox sağ olun. "Tarix" dərgisini Azərbaycanda qələm əhli alır və Sizin məqalənizə görə mənə təşəkkürlərini bildirir və xahiş edirlər ki, onların minnətdarlıqlarını Sizə çatdırım.

Öz milli kökünə bağlı olmayan, "Batı" deməkdən yorulmayan bəzi qərbpərəst Türkiyə ziyalıları haqqında çox gözəl demisiniz: "Özəlliklə bu noktada küçük tuva xalqının böyük oğlunun ingilis, rus, alman dillərinə bayqınlıklarını gizləməyən bəzi türk kökənli yazarlardan fərqli olduğu seçilir. Qalsan Çinağın dünyayahaykırışını bən şöylə alqıladım: "Bənim xalqım tarix səhnəsindən silinmək, "şanlı" modern dünya yaşamına qurban getmək üzərə ola bilir. Bu qurumda, dünya mədəniyyətinin o uğrayacağı kaybı ortaya qoymaq benim görevim olsun. Aləm bilsin ki, benim Tuva xalqım minlərcə sənəlik törələrin daşıyıcısıdır".

Əhsən, bu hisslərlə və bu əqidə ilə yaşayan böyük insan, böyük millətçi, böyük yazar Qalsan Çinağa və onun fikirlərini dünya türklərinə çatdıran böyük dostum, böyük türkçü Əhməd bəy Şmideyə!

Siz onu da əlavə edirsiniz ki, "Hiç Batı hayranı olmadığını apaçıq ortaya qoymasına karşın, batılı okurlar onu qəbul etmişlərdir".

Əziz dost, çağdaş mədəniyyətin beşiyi olan, dünyaya Motsartlar, Bethovenlər, Hötelər, Bayronlar, Şekspirlər, Hüqolar, Balzaklar verən Avropa Asiya xalqlarının da özünəməxsus mədəniyyətinə, tarixinə və törələrinə hörmət etməzmi?

Əziz qardaşım, Siz əgər Qalsan Çinaq bəylə şəxsən tanışsınızsa, mənim salamlarımı və təşəkkürlərimi ona yetirməyinizi rica edirəm. Mən çox arzu edərdim ki, onun Siz məsləhət bildiyiniz mühüm əsərlərinin türkcə, yaxud rusca tərcüməsi varsa, mənə göndərəsiniz.

Əziz dost, Sizin üçün çox darıxmışam. Düşünün, əgər səhhətiniz imkan verirsə, Bakıya gəlin. Sizinlə ürək söhbəti etmək və dərdləşmək istəyirəm. Qan təzyiqindən (tansion) çox əziyyət çəkdiyimə görə təyyarəyə minə bilmirəm. Yoxsa, mən Sizin görüşünüzə gələrdim. Mənim "İkinci səs" pyesimi Düsseldorfda yaşayan türklər tamaşaya qoymuşlar. Amma onların da dəvətini qəbul edə bilmədim.

Sizə bu gün bir məqalələr kitabımı poçta ilə göndərdim. O kitabın mündəricatında işarə (V) qoyduğum məqalələri oxumağınızı rica edirəm. Xüsusilə, "Ey qocaman Türkiyə" məqaləsinə diqqət yetirin. Bu məqalə Türkiyədəki Batı heyranlarına cavabdır.

Sizə kitabımın içində göndərdiyim "Qoruq" şeirini Qalsan Çinağın dərdi ilə səsləşdiyinə görə göndərdim. 1972-ci ildə Almaniyada Sizin qonağınız olduğum zaman yazdığım "Könül qapıları" şeirimi də göndərdim. Bu şeirin də mənası Sizə məlumdur.

Aişə xanıma, Həsənə, Hüseynə Dilarə xanımın, mənim və nənələrimin salamlarını yetirin. İsfəndiyarın oğlu balaca Bəxtiyar indi mənim yanımdadır. Bakı Dövlət Universitetinin tələbəsidir.

"Zaman" qəzeti, 15-17 yanvar, 2000.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ƏSARƏTİMİZ, İSTİQLALIMIZ VƏ TÜRKİYƏ*

Əziz dostlar!

Rus imperiyasının əsarəti altında yaşayan xalqlar içərisində bu əsarətin zülmünə ən çox türk xalqları məruz qalmışdı. Əlbəttə, bunun birinci səbəbi o idi ki, əsarətdə olan xalqlar içərisində sayca ruslardan sonra ən çox olanı türklər idi. İkinci səbəbi isə türklərin kənarda Türkiyə kimi qüdrətli bir dövləti var idi. Bu iki amil rus imperiyasını hər zaman qorxutmuş və buna görə də türk xalqlarının əridilməsi, fiziki və mənəvi məhvi onun daxili siyasətinə çevrilmişdi.

Təsadüfi deyil ki, rus imperiyası Şimali Qafqazda yaşayan türksoylu qaraçayları, balkarları, çeçenləri, Krım tatarlarını, Mehseti türklərini uzaq Sibirya çöllərinə sürgün etməklə onların kökünü kəsməyə çalışırdı. Bu xalqların əksəriyyəti Sibiryanın 40o-lik şaxtasına dözə bilməyib məhv oldu.

30-cu illərdə Azərbaycan və Türküstan türkləri dəfələrlə repressiyalara məruz qaldı. Yüz minlərlə türk ziyalısı - yəni düşünən beyinlər, yanan ürəklər - alimlər, yazarlar, sənətçilər ya öldürüldü, ya da uzaq Sibiryaya sürgün edildi.

İstiqlalımızı qazanandan sonra KQB arxivləri açıldı. Son 3-4 il içərisində Azərbaycan ziyalılarının soyqırımı barədə neçə-neçə kitab-

*Türkiyə Yazarlar Birliyində çıxış.

lar yazıldı. 1998-ci ildə Cəlal Qasım adlı bir tarixçi-alim "Repressiyadan deportasiyaya doğru" adlı bir kitab çap etdirdi. Bu günlərdə mən həmən kitabda millətimizin başına gətirilən dəxşətli müsibətləri oxuyub hönkür-hönkür ağladım. Əlbəttə, bu kitaba qədər də mən ümumi şəkildə bu müsibətlərdən xəbərdar idim. Amma bu kitab KQB arxivində saxlanılan sənədlər və faktlar əsasında yazıldığından çox şeylərdən agah oldum. 20-30cu illərdə Gəncədə, Şamaxıda, və Şəkidə imperiya zülmünə dözməyib üsyan qaldıran xalqın fədakar oğullarına ermənilərin əli ilə necə divan tutulduğunu oxumaq üçün ürək daş olmalıdır. Maraqlı burasıdır ki, 1937-ci ildə həbs olunan Azərbaycan ziyalılarının istintaqını ruslar və ermənilər aparmışdır.

Kim idi bu ziyalılar? 20-dən artıq dram əsərinin, yüzlərlə şeirlərin müəllifi, Türkiyədə təhsil almış ixtiyar yazıçı Hüseyn Cavid, 1918-ci ildə Şərqdə yaranmış ilk cümhuriyyətin milli marşını yazan Əhməd Cavad, 28 yaşında güllələnmiş qüdrətli şair Mikayıl Müşfiq, böyük folklorçu alim Salman Mümtaz, cildlərlə elmi kitabların müəllifi, dilçi-alim Bəkir Çobanzadə, milli teatrımızın yaradıcılarından böyük aktyorlarımız Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Dövlət xadimi Dadaş Bünyadzadə, filosof-alim Heydər Hüseynov və s...

...Maraqlı burasıdır ki, bu böyük şəxsiyyətlərin hamısını "xalq düşməni" adı ilə həbs etmiş və güllələmişlər. Paradoksa baxın: xalqın dərdini çəkən, xalqın sevdiyi, xalqın dostu olan bu böyük insanlar xalq düşməni damğası ilə məhv edilmişlər.

Özbəkistan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan və Azərbaycan kimi cümhuriyyət adı verilmiş ölkələrin xalqlarını küll halında, bütövlükdə sürgün etmək mümkün olmadığına görə, bu xalqların yalnız ziyalılarını, düşünən beyinlərini məhv etməklə kifayətlənən rus siyasəti bu xalqların, birinci növbədə dilini və dinini məhv etmək qərarına gəlmişdi. Bu bir həqiqətdir ki, bir xalqın dilini məhv etməklə, onun ruhunu və milli varlığını əlindən almaq mümkündür. O illərdə bizi yaşadan milli ədəbiyyatımız və milli musiqimiz oldu. Çünki xalqın ədəbiyyatı və musiqisi o xalqın mənəviyyatı və ruhudur. Cismi öldürmək olar, ruhu öldürmək isə mümkün deyil. Buna görə də o zamanın rus

siyasəti milli dillərin tədricən məhv edilməsinə yönəlmişdi. Bu illərdə ana dili dövlət idarələrindən qovulmuş, rəsmi yazışmalar və toplantılar ancaq rus dilində aparılırdı. Rus dilini mükkəmməl bilməyən adamlar dövlət idarələrində çalışa bilməzdi. Ona görə də valideynlər övladlarını rus məktəblərinə verir, ildən-ilə Azərbaycan məktəbləri azalırdı. Rus məktəblərini bitirən azəri gəncləri isə o məktəblərdən tam rus olaraq çıxırdılar. Bu gənclər ana dilimizi bilmədiklərindən milli ədəbiyyatımızı və milli musiqimizi də sevmir, öz tarixini bilmir, öz millətinə yuxarıdan aşağı baxırdı. Bu isə bir millət üçün çox böyük faciə idi.

İlk müstəqil cümhuriyyətimizin banisi M.Ə.Rəsulzadə hələ 1915-ci ildə *("Dirilik" dərgisi, 1 yanvar, 1915)* yazırdı: "Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilmişidir. Tarix yazanlar türklərə məğlub olan millətlərin nümayəndələri olduğuna görə türkün şücaətini və qəhrəmanlığını vəhşilik, özlərinin vəhşiliyini isə qəhrəmanlıq kimi qələmə almışlar".

Bu isə biz türklərin dünyada müsbət tərəfdən tanınmasına bu gün də əngəl törədir.

O zaman Azərbaycan təhsili görmüş açıqgözlü, öz millətinə, tarixinə və ədəbiyyatına bağlı bizim kimi ziyalılar üzümüzü Türkiyəyə tutar, ümidimizi ona bağlar, ana dilimiz ayaqlar altında tapdansa da, bu dildə danışan böyük Türkiyyənin varlığı ilə öyünər, dilimizin ölməyəcəyinə inanardıq. O zaman yazıb arxivimdə saxladığım "Türkiyəm mənim" adlı şeirimdə Türkiyəyə müraciətən yazmışdım:

Dilim ayaqlarda toz olan zaman,
Ali məclislərdən qovulan zaman
Rahatsız deyildim ana dilimdən.
Sənə güvənirdim,
Bilirdim ki, mən
Dilimdə danışan bir türk yurdu var,
Öz dilim yaşarsa, millətim yaşar.
Durur ürəyimdə iki dağ kimi
Ana vətənimlə ata vətənim.

Sənin dırnağına bir daş dəydimi
Bakıda ürəyim qanayar mənim.

Bir faktı da demək istəyirəm: on beş respublikadan ibarət olan Sovetlər Birliyində yalnız türk xalqlarının əlifbasını latından kirilə keçirdilər. Bunlar hamısı türk xalqlarının mənən, ruhən məhv edilməsinə və ruslaşdırılmasına xidmət edirdi.

İndi Allaha min dəfə şükürlər olsun ki, istiqlalımızı qazandıq. Mənəvi dəyərlərimizin, dinimizin və dilimizin sahibi olduq.

Sovet hakimiyyəti illərində "türk" və "Türkiyə" sözlərini yaxşı mənada işlədənin dilini kəsərdilər. Amma Sovetlər Birliyinin tərkibində olan başqa türk cümhuriyyətlərilə sıx əlaqələrimiz var idi. Belə ki, bir-birimizin əsərlərini tərcümə edər, böyük yazarlarımızın yubileylərini birlikdə keçirər, tez-tez görüşər, ədəbiyyat və sənət barədə fikir mübadiləsi edərdik *(şübhəsiz, rus dili vasitəsilə)*. Sovet imperiyası dağılandan sonra isə bir-birimizə daha da yaxınlaşmaq əvəzinə, bir-birimizdən uzaqlaşdıq. Bunun səbəbini heç anlaya bilmirəm.

Türkiyə ilə əlaqələrimizə gəlincə, bu, başqa türk cümhuriyyətləri ilə müqayisədə nisbətən yaxşı durumdadır. Lakin bu əlaqələri də mən kafi saymıram. Çünki arzudan arzu doğur. Əgər əvvəllər yalnız istiqlalımızı qazanmaq arzumuz var idisə, bu arzu həqiqət olandan sonra ondan daha başqa arzular göyərdi. İndi biz dünyada baş verən hadisələri, böyük dövlətlərin apardığı mənəvi imperializm siyasətini, xalqlara ayrı-seçkilik münasibətlərini təhlil etdikcə bir böyük həqiqəti anlamalıyıq ki, istiqlalını yeni qazanmış beş Türk dövləti Türkiyə başda olmaqla həm iqtisadi, həm siyasi və həm də mədəni sahələrdə əl-ələ, çiyin-çiyinə verməsə, Qərb dövlətlərinə çata bilməyəcək, başqa şəkildə əriməyə məruz qalacaq, istiqlalımızı istədiyimiz şəkildə möhkəmlədə bilməyəcək. Bu gün əgər dünyada "Avropa birliyi" varsa və bu birliyə dünyanın inkişaf etmiş on beş dövlətindən biri olan böyük və qüdrətli Türkiyəni qəbul etmək istəmirlərsə, niyə biz türk dövlətlərinin birliyini yaratmayaq?

Bəlkə bu, türkçü bir şairin xəyalından və arzularından doğan bir

illüziyadır?

Nə olar? Hər şeyin əvvəli məgər arzudan və xəyaldan başlamırmı?

Amma çox təəssüf ki, bu gün bizim gözümüzü dikdiyimiz Türkiyə üzünü öz doğmalarından çox, ona ögey olan Batıya tutmaqdan bezmir. Mən bunu bir neçə məqaləmdə ürək ağrısı ilə yazmış, amma Türkiyədən əks-sədasını eşitməmişəm. Ona görə də bu məqaləmdə də yenə üzümü böyük və qocaman Türkiyəyə tutub təkrarən deyirəm: Batıdan bizə lazım olan elmi-texnolojini mənimsəyək. Amma soy kökümüzə xəyanət etməyək, mənəvi dəyərlərimizi qoruyub saxlayaq, heç kəsi yamsılamayaq, yeddi yüz illik dövlətçilik ənənəsi olan, böyük imperatorluqlar qurmuş atalarımızın əməlləri ilə öyünək, onların xatirəsini əziz tutaq, bizə elədikləri nəsihətləri unutmayaq. İkinci Göytürk imperatoru Bilgə xaqanın sözlərini qulaqlarımıza sırğa edək:

"Ey türk, titrə və özünə dön. Sən özünə dönəndə böyük olursan".

1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



20 YANVAR*

Cənab Prezident!

Əziz bacı və qardaşlarım!

Bu gün bizi buraya toplayan milli dərdimizdir. XX yüzillikdə Azərbaycanımızın sinəsinə çəkilən dağlar içərisində 20 Yanvar dağı yaxın və uzaq tariximizin köksündə daim qövr eləyən sağalmaz yaralardan biridir. Niyə bu yaraya sağalmaz deyirəm?

1941-1945-ci il İkinci cahan müharibəsində sovetlər uğrunda canlarını qurban verən üç yüz minə qədər Azərbaycan oğullarının övlad və nəvələrini qətlə yetirən sovet tanklarının nərəsi, o günü sanki bizə deyirdi:

Belədir qayda:
Əvəz ödəməkdə ər oğlu ərəm.
Atan şəhid oldu mənim yolumda,
Mən sənin özünü şəhid eylərəm.

Bax, açıb-ağarda bilmədiyimiz dərd, aldığımız sağalmaz yaranın göynərtisi budur!

"Perestroyka" adı ilə köhnə imperiyanı təzələmək istəyən leninçi Mişa Qorbaçov ilk dəfə Heydər Əlirza oğlunu qondarma bəhanələrlə

*19 yanvar, 2000-ci ildə Respublika Sarayında keçirilən yığıncaqda nitq.

siyasi hakimiyyətdən uzaqlaşdırdı, Qarabağı Azərbaycandan qoparmaq üçün ermənilərə həyan durdu, sonra isə yazovları üstümüzə qısqırdaraq, balalarımızı tırtılların altında əzdi.

20 Yanvarın ertəsi günü o zaman xəstəlikdən təzəcə çıxmış və təhlükəsizlik orqanlarının daim nəzarəti altında olan Heydər Əlirza oğlu Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək cəsarətlə qanlı hadisəyə münasibətini bildirdi, rejimin haqsızlığına nifrətini açıq-aşkar bəyan etdi. Bu hadisə xalqımızın ürəyindən tikan çıxartdı.

Yanvarın 21-də biz, deputatlar indicə ekranda gördüyünüz kimi Ali Sovetin xüsusi sessiyasına toplaşdıq. Bu gün də o anları həyəcansız xatırlaya bilmirəm. Mən yaxşı başa düşürdüm ki, bu sessiyanı çağırarkən tək özümün yox, bütün oraya gələnlərin həyatını təhlükə altına qoyurdum. Bakı tankların, beteerlərin, pulemyotların hakimiyyəti altında idi. İşə bax ki, Bakıya hərbi komendant təyin olunmuş şəxsin soyadı da Dubinyak, yəni "Dəyənək" idi. Təhlükəyə baxmayaraq, həmin sessiyanı keçirməyi özümüzə borc bildik.

O tarixi sessiyanın təşəbbüskarı və iştirakçısı olduğumla fəxr edirəm. Həmin sessiyanın qəbul etdiyi qərar və müraciətlər öz məzmununa görə sovet zamanı və makanı üçün olduqca sərt və cəsarətli sənədlər idi. Əfsuslar olsun ki, bu qərarlar gerçəkləşməyərək kağız üzərində qaldı. Əfsuslar olsun ki, Azərbaycanın o dövrdəki siyasi rəhbərliyi elə bir mövqe tutmuşdu ki, bu qərarların üstündən bir xətt çəkərək onları xalqa unutdurmağa çalışdı. Əfsuslar olsun ki, ikili standartların bu gün də hökm sürdüyü dünyamızda ictimai fikri lazımi məcraya yönəldən bu sənədlər yox, Qorbaçovun Azərbaycanda dırnaqarası özbaşınalığa və terrorizmə qarşı mübarizə haqqındakı bəyanatları qəbul olundu. Bu çəxri-fələk yenə tərsinə dövran etdi. Həmin faciəni törədənlər əslində Azərbaycan xalqına qarşı kütləvi terror aktları həyata keçirdikləri halda, öz konstitusion haqlarını tələb edən dinc əhaliyə "terrorist" damğası vurdular.

Müəyyən mənada 20 Yanvar bizə qarşı törədilən mənəvi təcavüzün məntiqi nəticəsi idi. Bizim mədəniyyətimizə, tariximizə, milli mənliyimizə toxunan yazılara yaşıl işıq yandıranlar, sözsüz ki, Qa-

rabağla bağlı xalqın belə ayağa qalxmasını gözləmirdilər. Gülüstan müqaviləsindən bəri iki yerə parçalanan xalqım öz tarixi torpaqlarını itirə-itirə gəlir. Qarabağ uğrunda gedən siyasi oyunların ilk qurbanları 20 Yanvar şəhidləri oldu.

Biz on ildir ki, Yanvar faciəsini yad edirik. Yad etmək təkcə faciəni yada salmaq, hüznə batmaq, kədərə batmaq deyil, milli qeyrət, cəsarət və rəşadət sahiblərini, günahsız qurbanları - şəhidləri hörmət və məhəbbətlə xatırlamaqla yanaşı, bunlardan nəticə çıxartmağı, gələcəkdə belə faciələrin qarşısının alınması yollarını və vasitələrini aramalı və tapmalıyıq.

Etiraf edək ki, biz tarixi faciələrimizdən, ata-babalarımızın milli varlığımıza, ərazi bütövlüyümüzə əsaslı surətdə xələl gəlmədən necə ağıl və zəka, qüdrət və qüvvətlə çıxardıqlarını lazımınca öyrənə bilməmişik.

Yaşadığımız dünyada tarixini milli faciəsiz, təcavüzsüz keçirən bir xalqa, millətə rast gəlmək mümkün deyil. Əsl məsələ təcavüzlərdən, faciələrdən çıxış yolunu tapmaq, onları önləmək, millətin maddi-mədəni, mənəvi potensial gücünü birləşdirib, müqavimət qüdrətini artırıb sülh və rifah şəraitində yaşamasını, zamanla ayaqlaşmasını təmin etməkdir. Hadisələrin faciəyə aparan məcrasını görmək və dəyişmək ümummilli borcdur, məsuliyyətdir, müqəddəs vəzifədir.

Burada iqtidar - müxalifət savaşına, qüvvələrin parçalan masına, şəxsi ambisiyalara yol vermək olmaz. Xəstə ananın başı üstündə övladlarının didişməsi ən azı günahdır. Mübahisə və müzakirələr zamanın və taleyin qarşımıza çıxardığı məşəqqətləri dəf etmək, iqtisadi, milli və mənəvi qüdrət və gücümüzü artırmaq yollarını aramaq üstün də getməlidir.

1918-ci ilin mart qırğınındavn sonra ziyalılarımız birləşib Azərbaycanın müstəqilliyini elan etdilər. Dövlətçiliyimiz demokratik əsaslar üzərində cümhuriyyət şəklində bərpa edildi.

1990-cı ilin yanvar qırğınından sonra da biz istiqlal əldə etdik. Tarix bir əsrdə bizə iki dəfə müstəqil dövlətçilik şansı verib. Bu dövləti daim möhkəmlətmək, onu xalqın inam və inanc qalasına çevirmək, tor-

paqlarımızı azad etmək üçün bütün kənar iddiaları bir tərəfə qoyub ələlə vermək, gecəli-gündüzlü çalışmaq, düşdüyümüz məşəqqətləri dəf etmək vaxtı deyilmi?

20 Yanvar faciəsini düşündükcə yoxdan var oluruq.

Bir yandan sarsılsaq da, o biri yandan qəlbimizi sonsuz qürur hissi bürüyür. Sarsılırıq ki, bizim oğullarımızın qəbahəti, günahı nə idi ki, havayı qurban getdilər. İftixar hissi keçiririk ki, şəhidlərimiz sabaha, gələcəyə olan ümidimizə çıraq tutdular. Bizim inam qalamızda əbədi məşəl yandırdılar.

Bizim qədim ənənəmizdə şəhidlik ölümün ən yüksək mərtəbəsi hesab edilir. Türkiyə dövlətinin himninin müəllifi böyük şair Mehmet Akif "Çannaqqala şəhidlərinə" adlı şeirində yazır:

Ey şəhid oğlu şəhid, istəmə məndən məqbər,
Sənə ağuşunu açmış duruyor Peyğəmbər.

Beytin açıqlaması belədir: Ey şəhid, sən məndən özünə qəbir istəmə, çünki sənin qəbrin Peyğəmbərin açılmış qucağıdır.

Ona görə ki:

Sənə dar gəlməyəcək məqbəri kimlər qazsın?
Kömələm, gəl, səni tarixə desəm, sığmazsın.

Şair deyir: Səni mən hansı qəbirdə dəfn edim ki, o qədər sənə dar gəlməsin? Əgər mən səni tarixə dəfn eləsəm, sən ora da sığmazsan. Çünki sən tarixin özünü də yaradan olduğun üçün, tarixdən də böyüksən.

Sözümü 20 Yanvar şahidlərinə həsr etdiyim poemanın son misraları ilə bitirmək istəyirəm:

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir-şəriylə.
Torpağın bağrına cəsədləriylə
Azadlıq toxumu əkdi şəhidlər.

2000.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ATATÜRK KÜLTÜR MƏRKƏZİNƏ TƏŞƏKKÜR*

Əziz qardaşlarım! Dünyanı dərk edəndən bu günə qədər ömrüm boyu türk ruhu ilə yaşamış, Türkiyə havası ilə nəfəs almışam. Mən hələ cocuq ikən atam, əmilərim, dədəm Anadolu türklərinin qəhrəmanlığından, igidliyindən ağızdolusu danışar, hər zaman bizim xilaskarlarımız olduğunu mənə təlqin edərdilər.

1918-ci ildə M.Ə.Rəsulzadənin öndərliyi ilə qurduğumuz Azərbaycan Cümhuriyyətini 1920-ci ildə bolşevik imperiyası dağıdandan sonra Türkiyə bizim Rəsulzadələrə qucağını açdı və mühacir dövlətimizi burda qoruyub saxladı. Türkiyə bütün türk ölkələrinin Zəki Vəli Toqan, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Sədri Maqsudi Arsal kimi dəyərli oğullarına qucağında yer verdi.

Mən bura gəlməmişdən 4-5 gün öncə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyində iştirak etdim. Yubiley şənliklərində Türkiyənin Diyanət vakfı tərəfindən Naxçıvanda inşa edilmiş Caminin açılışının şahidi oldum. Camiyə 1918-ci ildə Naxçıvanı erməni işğalından xilas etmiş böyük türk generalı Kazım Qara Bəkir paşanın adını verdilər. Buna bütün Naxçıvan əhli sevinirdi.

Bunları unutmaq olarmı? Mən hər dəfə "Türkiyə" sözünü tələffüz edəndə ağzım şəkərlənir, könlüm qanadlanır. Çünki Türkiyə dünyadakı bütün türk xalqlarının gözünü dikdiyi, ümid bəslədiyi, arxa bildiyi bir məmləkətdir. Türkiyə ömrüm boyu həsrətilə yaşadığım, başarıla-

*19 oktyabr 1999-cu ildə Ankarada Türkiyə Cümhuriyyətinin cümhur başqanı S.Dəmirəl tərəfindən Atatürk Kültür mərkəzinin üzvlük baratı verilən zaman təşəkkür nitqi.

rına sevinib, dərdinə ortaq olduğum, adını çəkdiyim zaman qollarıma qüvvət, ürəyimə taqət, gözlərimə işıq verən doğma məmləkətimdir. Ümidgahım, qibləgahım, zorla əlimdən alınmış adımı qoruyub saxlayan, demək, namusumun, izzət və şərəfimin qoruyucusu, görən gözüm, vuran qolum, düşünən beynim, çarpan ürəyim, ana dilim, tarixim, bayrağımdır Türkiyə!

Avqust ayının 17-də Türkiyədə baş verən zəlzələ azəri türklərini sarsıtdı. Mən o zaman doğulduğum Şəki ilçəsində idim. Dərhal Bakıya gəldim. Xalqa qəzet vasitəsilə müraciət etdik. "Azər-Türkbank"a adamların axın-axın gəldiyinin şahidi oldum. Hər kəs öz imkanı daxilində Türkiyəyə yardım üçün bankın qarşısında növbəyə düzülmüşdü. 80-85 yaşlarında təqaüdçü bir ixtiyar 20 dollarlıq təqaüdünün 5 dollarını yardıma gətirmişdi. Onun yanında duran bir gənc ixtiyara dedi ki, "əmi, sən beş dollarını saxla, mən sənin yerinə 50 dollar verərəm". İxtiyar əsəbiləşdi və dedi ki, onsuz da bilirəm ki, 5 dollarlıq yardım zəlzələdən zərər çəkmiş böyük Türkiyə üçün heç bir şeydir. Lakin mən bu az para ilə Türkiyəyə sevgimi gətirmişəm. Bu sevgimi mənim əlimdən alma. Sonra mən Türkiyədə baş verən zəlzələ ilə ilgili "Keçmiş olsun" adlı şeir yazdım və bu şeiri məşhur bəstəçimiz Faiq Sücaəddinə təqdim etdim. Və o mənim şeirimə gözəl bir musiqi bəstələdi. Bu rekviyem yalnız mənim və bəstəçinin deyil, Azərbaycan dövlətinin və millətinin Türkiyə türklərinə "keçmiş olsun" mesajıdır. Bu gün bu məclisdə diləklərimizin məmləkəti olan Türkiyəmizin Atatürk Kültür Mərkəzi başqanının təklifi və bilim kurulunun qərarı ilə məni Atatürk Kültür Mərkəzi şərəf üzvlüyünə layiq bildilər. Bu şərəf üzvlüyünə görə mən Türkiyə Cümhuriyyətinə, bu Cümhuriyyətin başında duran sayın Süleyman Dəmirəl cənablarına, başda professor Sadıq Tural bəy olmaqla, Atatürk Kültür Mərkəzinin bütün üzvlərinə və bütün Türkiyə xalqına dərin-dərin təşəkkürlərimi bildirirəm.

Ankara, 19 oktyabr, 1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ƏZİZİM
MƏMMƏD ARAZ!

12 oktyabr *(2001)* tarixli "Ədəbiyyat qəzeti"ndə bir silsilə yeni şeirlərini oxudum. Şükürlər olsun ki, Allahın sənə bəxş etdiyi böyük istedad zamanın səni dücar etdiyi xəstəliyin kürəyini yerə vurur və sən 20-30 il əvvəlki qüdrətlə yaradıcılığını davam etdirirsən. Məni sevindirən bir də o oldu ki, həmişəki kimi, bu gün də bizim mübarizə hədəfimiz, əksər hallarda, üst-üstə düşür. Oxuduğum bu şeirləri mən məhz bu günün təzahürü, bu günün sözü adlandırardım.

Beləcə, qulaqlar doldu yalanla
Yerini dəyişdi satan alanla,
Yerini dəyişdi alan satanla.
...Ağızdan, kağızdan göyərir yalan
...Daha öz-özünə hönkürür yalan.
Kimdi yalanları əkib biçənlər?

Dərin müşahidədən doğan bu şeirlər bizi özümüz və içində yaşadığımız mühit haqqında düşünməyə, həm də dərindən düşünməyə vadar edir. Nədir şahidi olduğumuz bu təzadlar? Və biz bu təzadlar içində hara gedirik? Hər bir namuslu adam indi bu haqda düşünür.

Əziz dost, sən ədəbiyyata gəldiyin gündən mən səni sevmiş və həmişə izləmişəm. Bu müddət ərzində sən özün açdığın yolunla get-

miş, tutuquşu kimi ağızdan söz qapmamış, yalnız öz ürəyinin sözünü demisən. Odur ki, "Avtobioqrafiyama əlavə" şeirin sənin öz həqiqi xarakterinin bu mühüm cizgisinin təsdiqidir:

Xəyanət nə, badalaq nə - tanımadım,
Qibtələr nə, həsədlər nə - uzaq-uzaq.
Paxır nədi, paxıllar nə - heç görmədim
Və bunların hamısına qoşul deyən
Tərifərə yem olmadım.

Haqlısan, əziz dost! Elə buna görə də biz səni çox sevirik.

"Ədəbiyyat qəzeti"



“AZERROS” QƏZETİNİN ƏMƏKDAŞLARINA VƏ MÜƏLLİFLƏRİNƏ

Hörmətli bəstəkarımız Xəyyam Mirzəzadə bu günlərdə Sizin qəzetinizin oktyabr, 2000-ci il tarixli sayını mənə verdi. Bəstəkar Asya Sultanovanın Üzeyir bəy haqqında, yazıçı Ə.Hüseynovun M.Ə.Rəsulzadə haqqında, Vüqarın “Qeroi olimpiadı”, gözəl şairimiz Osman Sarıvəllinin oğlu, filosof alim Rafiq Qurbanovun məqalələrini oxuyub çox şad oldum. Demək, Rusiyada yaşayan həmvətənlərimin sinəsində vətən qəlbi döyünür. Buna görə də çox sağ olun.

Keçən il eşitmişdim ki, Rusiyanın bir çox böyük şəhərlərində yaşayan azərbaycanlılar ana dilində məktəblər açıblar ki, övladları ana dilimizi bilsinlər. Bu, məni həddindən artıq sevindirmişdi. Qəzetinizi də oxuyub ikiqat sevindim.

Əziz həmvətənlərim, “Niyə qürbətdə yaşayırsınız?”, “Nədən ötrü buna məcbur olmusunuz?” suallarının cavabı Sizə aydın olduğu qədər, mənə də aydındır. Ona görə də mən ürək ağrıdan bu məsələdən ötüb, təsəllimi Sizə bildirmək istəyirəm: Çox şükürlər olsun ki, Avropada yaşayan azərbaycanlılardan fərqli olaraq, Rusiyada yaşayan

həmvətənlərim olan sizlərdə milli təəssüb hissi qat-qat güclüdür.

Bununla belə, hər birimizə gün kimi aydındır ki, milli özünüdərk məsələsində qonşularımızla müqayisədə biz çox geriyik. Erməni dünyanın harasında olur olsun, erməni olaraq qalır. Nə dilini dəyişir, nə milli sifətini. Amma bizim kilər dərhal düşdüyü mühitin rənginə boya-

nır və böyük bir qismi milli xüsusiyyətlərini, ən əsas da milli varlığını itirir və dərhal öz millətinə yuxarıdan aşağı baxır, bir qədərdən sonra dilini də unudur... R.Qurbanov da məqaləsində bu məsələyə, ötəri də olsa, toxunur.

Mən dünyanı az-çox dərk edəndən bu günə qədər həmişə bunun səbəbini axtarmışam. Nəhayət, bu qənaətə gəlmişəm ki, ən qədim dövrlərdən bu günə qədər müsəlmanların dini mərkəzi olan məscid yalnız dini ocaq olmuş, erməni kilsəsi isə dini ocaqla bərabər, həm də milli ocaq-milli mərkəz olmuşdur. Nə vaxt və hansı din xadimimiz, mollamız "hümmət" sözü ilə bərabər "millət" sözünü də dilinə gətirib? Heç vaxt! Bizim məscidlərimiz ta qədim zamanlardan yalnız dinin təbliğatı ilə məşğul olmuş, xalqa vətən və millət sevgisi aşılamamışdır.

Mən molla tərbiyəsi və təbliğatı ilə böyüyən babamdan, nənəmdən, atamdan və anamdan bir dəfə də millət sözünü eşitməmişəm. Məktəbdə isə Lenin, Stalin, partiya və komsomol sözlərini eşitmişəm. Belə olduqda, mən və mənim yaşıdlarım vətənpərvər kimi necə yetişə bilərdik? Əgər məndə az-çox vətən və milli təəssübkeşlik hissi varsa, bunu yalnız Allahın mənə bəxş etdiyi istedadda axtarmaq lazımdır (qeyri-təvazökarlığımı bağışlayın), istedadı isə Allah hamıya vermir ki...

Bir də İslamda hümmət hər şeydən üstün hesab olunur. Millət o qədər inkar edilir ki, "müsəlmanam" sözü milli mənsubiyyəti də əvəz edir. Amma hansı millətdən olduğunu unudur. Bu isə, bir növ, kommunistlərin xırda xalqları assimilyasiya siyasətini doğruldan beynəlmiləlçilik deməkdir. Bunun, əlbəttə, daha başqa səbəbləri də var. Ancaq bunlar bir məktuba sığmaz.

Mənim oğlum İsveçrədə Azərbaycanın səfiri vəzifəsində çalışır. O mənə deyir ki, orda 2 minə yaxın erməni yaşayır. Hamısı varlıdır. İsveçrədəki Ermənistan səfirliyinin bütün xərclərini yerli ermənilər ödəyir. Lakin orda yaşayan azərbaycanlılar Azərbaycan səfirliyinin qapısını da tanımır.

Bu gün Ermənistan dövlətinin dünya siyasətini ABŞ-da, Fransada və qeyri Avropa məmləkətlərində yaşayan erməni diasporu idarə edir.

Bizim isə hələ Avropa ölkələrində lobbimiz yoxdur. Çünki milli şüur olmadığından onlar bir qayə ətrafında birləşə bilmirlər.

Bütün bu dediklərimdən sonra Rusiyada yaşayan həmvətənlərimin

birliyinə, qardaşlığına niyə görə sevinməyimin səbəbi yəqin ki, Sizə aydın oldu.

Əziz bacı və qardaşlarım! Bu gün Rusiyada Sizin qəzet buraxmağınız orda vətəninizi təbliğ etməyiniz, dilinizə, adət-ənənənizə sayğınız məni necə sevindirməsin? Sizdən tək bir ricam budur: İki doğma qardaş arasında da xırda söhbətlər və incikliklər ola bilər. Vətən və millət mənafeyi olan yerdə bu xırda söhbətlərə yer qalmaz. Əməlləriniz məni sevindirdi. Məni daha çox sevindirmək istəyirsinizsə, daha sıx birləşin. Vətən mənafeyini məbədinizə, ehramınıza döndərsəniz, bu məbəddə daha sıx birləşəcək, xırdalıqlara enməyəcək, bir-birinizə arxa olacaqsınız.

Qəzetinizdə mənim haqqımda məqalə dərc etdirən Sənubər xanıma da təşəkkürlərimi çatdırmağınızı rica edirəm.

Sizə tutduğunuz amal və qayə yolunda uğurlar diləyir, hamınızı bağrıma basıb öpürəm.

Redaksiyadan: Xalqımızın tale yüklü məsələlərinə, ümummilli problemlərinə heç vaxt biganə qalmayan, ən çətin günlərdə xalqın içində olan, onun dərd və qayğıları ilə bölüşən və şeirində birliyin işıq rəmzi, ixtilafın, ayrılığın isə qaranlığa çağırış olduğunu bizə dönə-dönə xatırladan el ağsaqqalımızın bu gün də xaricdə yaşayan həmvətənlərimizi Vətən mənafeyi naminə birlik məbədi ətrafında birləşməyə səsləməsi heç də təsadüfi deyildir. Artıq problem xarakteri daşıyan bu məsələ, məlum olduğu kimi, çox çətin, ağrılı gedir. "Azerros-Rusiya Azərbaycanlıları" qəzeti məhz bu problemi həll etməyi qarşısına məqsəd qoymuş və Rusiyada Azərbaycan diasporunun qəzeti olmağa çalışır.

Redaksiya heyəti hörmətli xalq şairimiz Bəxtiyar müəllimə səmimi məktubuna və xeyir-dualarına görə dərin minnətdarlığını bildirir və arzu edir ki, qəzetimizdə çıxışları, yeni şeirləri ilə bizi həmişə sevindirsin.

"Azerros" qəzeti, № 6, iyun, 2001.



BU MƏKTUBU ÜRƏK AĞRISI VƏ GÖZ YAŞLARIMLA YAZDIM

"Qarabağ" qəzetinin 10 illiyi münasibətilə bütün Qarabağ əhlinin və o cümlədən min əziyyətlə bu qəzeti ərsəyə çatdıran əməkdaşlarını, başda Çingiz Tofiqoğlu və redaktor müavini Əli Mahmud olmaqla, hamını təbrik edirəm və ulu Tanrıdan diləyim budur ki, bu qəzet Qarabağımızın özündə çap edilsin və Qarabağ əhli bu qəzeti öz torpağında oxusun.

Mən bu qəzetin ilk saylarını nəşrə başlayan günlərdən oxumuş və rəyimi bildirmişdim. Başdan ayağa qədər Qarabağ dərdini dilə gətirən bu qəzet millətimizin ürək ağrılarının ifadəsinə çevrilmişdir. Buna görə də bu qəzeti Qarabağ tarixinin son onillik salnaməsi adlandırmaq olar.

Bu günlərdə qəzetin son bir neçə sayı əlimə keçdi. Oxudum və üstü qaysaq tutmuş yaram yenidən sızıldadı. Hər birimiz bu ölkənin vətəndaşı kimi etiraf etməliyik ki, biz hər gün, hər saat Qarabağ ağrısı ilə yaşamaq əvəzinə, gündəlik qayğılarımız, çox hallarda isə mənasız didişmələrimizlə Qarabağı unuduruq. Unutqanlıq isə bu boyda milləti manqurtluğa aparır. Ürəyində Qarabağ yarası olmayan bu ölkənin övladına vətəndaş demək olarmı? Qəzetin son sayları məni məndən aldı, bir daha özümü mənə qaytardı.

Mən onu da bilirəm ki, qəzetin əməkdaşları bu qəzeti çox böyük çətinliklərlə çap edə bilirlər. Bu qəzetin əməkdaşlarını bu fədakarlığa görə təqdir etməli və hər birimiz ona yardım əlimizi uzatmalıyıq. Qəzetdə Qarabağın tarixi taleyindən bəhs edən jurnalist-etnoqraf Ənvər

Çingizoğlunun "32 eli", Vasif Quliyevin ulu tariximizin bir səhifəsini bizə təqdim edən "İsgəndərbəy Rüstəmbəyov" adlı məqalələrinin dərc olunması çox yaxşı haldır. Mənə elə gəlir ki, bu silsiləni davam etdirmək, Qarabağ tarixini üzə çıxaran "Qarabağnamələri" məşhur şair və alim Nəvvabın musiqi traktatlarını və ümumən, Qarabağın tarixindən bəhs edən əsərləri bugünkü oxucuya çatdırmaq lazımdır. Qoy, çadırda böyüyüb Qarabağın ululuğunu bilməyən balalarımız bu torpaqda yetişən böyük şəxsiyyətlərin fikir və duyğuları ilə tanış olsun və onlar torpaqla bərabər kimləri və nələri itirdiyimizi dərk etsinlər və quşları da muğam üstündə oxuyan Qarabağ böyük dərdimiz kimi hamımızın qulaqlarında gecə-gündüz səslənsin.

Alay komandiri Şirin Mirzəyevi mən çox yaxşı tanıyırdım. Müharibənin qızğın vaxtında mən Ağdama – onun görüşünə getmişdim. O da yadımdadır ki, atamdan mənə yadigar qalan bir binoklu ona hədiyyə aparmış və demişdim: "Bu binoklla düşməni uzaq məsafədən görüb gülləni onun təpəsinə çaxmağı səndən xahiş edirəm. O da binoklu öpüb gözünün üstünə qoydu. Ondan bir neçə ay sonra eşitdim ki, Şirin həlak olub. Qəzetdə onun haqqında yazılan məqalə də lazımlı yazılardandır.

Qələminə böyük hörmət bəslədiyim keçmiş tələbəm, indi həmkarım Aqil Abbasın kiçik təbrik məktubu da çox mənalıdır. O, bu yazısında ciddi məsələyə toxunur: "Mirzə Cəlil deyir ki, sözünü o kəslərə de ki, onlar səni eşitmir. Yəni, Mirzə Cəlil ömrünün sonuna kimi sözünü onu eşitməyənlərə dedi. Amma yorulmadı. "Qarabağ" da sözünü o kəslərə deyir ki, onlar onu eşitmir. Və arzulayıram ki, "Qarabağ" yorulmasın. Əvvəl-axır eşidəcəklər".

Ürəkdən gələn bu sözə heç nə əlavə etmək istəməzdim. Çünki hər şey aydın deyilib. Mən bura bircə şeyi əlavə eləmək istəyirəm: Qoy, qəzet öz sözünü desin. Eşitməyənlərin qulağından pambığı çıxartmaq isə bizim borcumuz olsun.

Həsən Sarıyevin "Qayıdışa inamım olmasa, bir gün də yaşaya bilmərəm!" Elçin Mehrəliyevin "Qarabağsız "Qarabağ", Famil Mehdinin "Xarici banklardakı pullar Qarabağın qanıdır" məqalələri

biganəliyin hədəfinə dəyən, bizi düşünməyə vadar edən, arzularımızı burnumuzun ucunda göynədib bizi tərpədən dəhşətli yazılardır. Familin məqaləyə epiqraf gətirdiyi iki misrası isə bir dastana bərabərdir:

Millətim bədbəxtsə, Tanrım,
Sən məni xoşbəxt eləmə.

Bəli, qardaş, sən milləti xoşbəxt olmayan vətəndaşın xoşbəxtliyinə haqlı olaraq tüpürürsən. Amma min dəfələrlə təəssüf olsun ki, rüşvətxor məmurlarımız Bakının bir neçə yerində özünə villalar tikdirən harınlarımız yalnız öz xoşbəxtliyini düşünür. Millətin bədbəxtliyi isə onun eyninə də gəlmir. Millətsiz xoşbəxtliyi qəbul etməyənlər isə bizim kimi tək-tüklərdir.

Qəzetdə çap olunan yazılar içərisində məni ən çox sarsıdan Əli Mahmudun Aqil Abbasın "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" povestini oxuduqdan sonra" adlı şeiri oldu. Bu, şeir deyil, bu, millətin bugünkü halına mərsiyədir, rekviyemdir.

Qoşa qafiyəli beytlərin hər biri müxtəlif bucaqlardan çadır şəhərciyinin şəklini çəkir. Bu təsvirlərdə köçkünlərin doğma yurdu Qarabağın özünə məxsus gözəlliklərinin yoxluğu, əvəzində ilan mələyən bu səhrayi-kəbirin ürək bulan dıran mənzərəsi canlandırılır:

Çadırın döyməyə qapısı olmur,
İnəyi, buzovu, çatısı olmur.

Qalxmır ağaclara üzüm tağları,
Yarpaqsız, çiçəksiz alma bağları.

Nişanlı qızların qəddi bükülü,
Tanıyan tanımır Xarıbülbülü.

...Çadırda yaşayır sinə dağlılar,
Çadır sakinləri - qarabağlılar.

Şeirin ikinci hissəsində isə könül bulandıran bu çadır şəhər ciyində yaşamağın aqibəti, nəticəsi son dərəcədə incə detallarla, ürək parçalayan misralarla dilə gətirilir. Düşünməli olursan: Qarabağın dağ havasından çıxıb, İmişli düzünün çöl havasına, yamyaşıl Kəlbəcərin dağ mənzərəsindən çıxıb Beyləqanın, Haramı düzünün otsuz-ələfsiz, bomboz düzəngahına, yayın cırhacırında pencəkdə gəzdiyi Şuşanın sərinliyindən çıxıb Ucarın, Kürdəmirin bürküsündə qovrulan ömür-gün sürmüş ağbirçəklərə, ağsaqqallara sən bu zülmü, bu cəzanı necə qıydın, İlahi?

“Cıdırda Üzeyir doğulmayacaq”,
Qardaş, bəlamız da bu deyil ancaq.

Çadırda tankçı da doğulmayacaq,
Suçu, bostançı da doğulmayacaq.

...Çadırda Xan qızı su çəkməyəcək,
Heç kim qala tikib, gül əkməyəcək.

Çadırda Soltan bəy göz açmayacaq,
Zakir Qarabağdan söz açmayacaq.

Bunlar hamısı həqiqətdir, acı həqiqət! Azacıq vicdanı olanın, Vətən və Millət qeyrəti çəkənin ürək ağrısıdır.

Əzizim Əli Mahmud, mən sənin ürək göynədən şeirinə yalnız bir şey əlavə edərdim:

Çadırda əsgər də yetişməyəcək.

Ona görə ki, çadırda doğulub, doğma Qarabağını görməyən, Daşaltı çayının, İsa bulağının zümzüməsinə qulaq asmayan, çeşmələrindən su içməyən, Qarabağın ab-havası ilə tənəffüs etməyən, Cıdır düzündə çilingağac oynamayan, at çapmayan çadır balası sabah çadırdan əsgər

gedərsə, o, nəyi və nəyin naminə müdafiə eləməlidir? O, doğulub böyüdüyü çıraq çadırınımı müdafiə edəcək? Axı, o, həmin çadırda bir saat belə xoş gün görməyib. Qışın fırtınasında həmin çadırda onun kürəklərini sərt rüzgar qamçılayıb, yayın istisində o, həmin çadırda havasızlıqdan boğulub, indi o, yaşadığı bu acı günlərimi müdafiə etməlidir? Bəli, "Çadırda əsgər də doğulmayacaq".

Əziz həmkarım, indi ki, biz bunları bilirik, sizli-bizli imkanımız daxilində, gəlin, çadır körpələrinə Qarabağımızı tanıdaq. Onlar bilsinlər ki, onların cənnətə bənzər yurd-yuvaları var. Biz onlara Qarabağ ruhunu aşılayaq. Mən burada "ruh" sözünü elə-belə işlətmirəm. Mən o ruhdan danışıram ki, Üzeyir bəyi, Bülbülü, Xudunu, Nəvvabı, Natəvanı, Cabbar Qaryağdıoğlunu, Soltan bəyi və bu gün susan Qədiri yaradıb. Əgər biz boynumuza düşən bu borcu yerinə yetirməsək Üzeyir bəylərin, Bülbüllərin, Cabbarların, Nəvvabların məzarlarında sümükləri gizildəyər və bizə lənət oxuyar.

Bu məktubu ürək ağrısı və göz yaşlarımla yazdım. Arzum budur ki, Allah bizə bir daha belə ağrılı məqalələr yazmağı nəsib eləməsin.

"Qarabağ" qəzeti, 15-21 sentyabr 2001.



HÖRMƏTLİ
ALLA XANIM DUDAYEVA!

Hörmətli Alla xanım Dudayeva!

Son zamanlar sizin Cövhər Dudayev haqqında yazdığınız kitab və bizim mətbuatda dərc olunan məqalə və müsahibələrinizi oxudum. Bu yazılarda siz Rusiyanın soyqırıma məruz qoyduğu çeçen xalqını və bu xalqın haqlı mücadiləsini müdafiə edirsiniz. Məncə, sizin bu hərəkətinizi bir qadının öz mərhum ərinə sədaqəti kimi anlamaq azdır. Bu hərəkət ərinizə sədaqətlə yanaşı, mənəviyyatınızın zənginliyinə, duyğu və düşüncələrinizin genişliyinə, nəhayət, özü kiçik, əməli böyük olan bir milli azadlıq hərəkatına məhəbbətinizin təzahürüdür.

Sizin yazılarınızı oxuduğum zaman bir vaxt Sibirə sürgün olunun ərlərinin dalınca gedən dekabrist xanımları yadıma düşdü. Mən bir zaman bu xanımların şücaətini ərlərinin gözləri qarşısında Stalinin göstərişi ilə həbs edilən Molotov, Kalinin və Kaqanoviçin xanımları ilə müqayisə edərək, bir şeirimdə yazmışdım ki, xanımları həbs olunarkən Kremlin rəhbərləri susdular və onların azad edilməsini Stalindən xahiş etməyə belə cəsarətləri çatmadı. Dekabristlərin xanımları isə ərlərinin dalınca Sibirə getdilər. Ərlərinin sürgün həyatına ortaq oldular. Şeir bu sözlərlə bitirdi: "İndi anlaya bilmirəm: kişi kimdir, qadın kim?"

Sizi isə mən dekabristlərin xanımlarından da üstün hesab edir, sizin fədakarlığınız önündə baş əyirəm. Çünki sizin qəhrəmanlığınız

məzmununa görə dekabrist xanımların qəhrəmanlığından ucada durur. Dekabristlərin xanımları yalnız öz ərlərinə sədaqətlərini göstərdilər, siz isə ər-arvad sədaqətindən başqa, həm də özgə bir xalqın qızı olmağınıza baxmayaraq, ərinizin mənsub olduğu xalqın qeyrətini çəkir, onun haqq uğrunda apardığı mübarizəni dəstəkləyirsiniz. Bu nöqtədə siz, məhdud milli düşüncənin fövqündə ucalıb ərinizin ölümündən sonra da onun tutduğu yolu davam etdirirsiniz. Sizin sədaqətinizin böyüklüyü bu nöqtədədir.

Hörmətli xanım Dudayeva, sizin mənsub olduğunuz xalqın çarları və rəhbərlərinin əksəriyyəti tarix boyu öz hakimiyyətlərini qorumaq üçün öz millətlərinə qənim kəsilib. Fransız klassiki Markiz-de-Kusdin 150 il bundan əvvəl bu məsələyə toxunaraq yazıb: "Rusiyanın rəhbəri üçün rusun həyatı bir quruşa dəyməz".

Moskvanın teatr mərkəzində baş verən faciə bu fikrin ən gözəl təsdiqidir. Rusiyanın rəhbərləri hakimiyyətlərini qorumaq naminə çeçenlərlə bərabər iki yüzə qədər rusun da ölümünə bais oldular və utanmaz-utanmaz bunu qələbə adlandırdılar. Başa düşmək olmur ki, öz millətinin iki yüz nəfər övladının ölümünə səbəb olan bir əməliyyatı necə qələbə adlandırmaq olar? Bəs qırılanlar bu millətin övladları deyildimi? Əslində, terrorçuları məhv etmək adı ilə öz vətəndaşlarını qıran bu əməliyyatın özü terrorizm idi.

1990-cı ildə, biz hələ Sovet imperiyasının tərkibində olduğumuz zaman rus ordusu, "uf" demədən bizi qırdı. Yəqin ki, siz Şəhidlər Xiyabanında bizim şəhidlərin məzarını ziyarət etmisiniz. Eyni hadisəni gürcülərin də başına gətirdilər. İndi rus mətbuatı utanmadan "Çeçnyaeto Rossiya" deyə bağırır.

Soruşuruq bəs, başqa dilə, başqa dinə və başqa həyat tərzinə malik olan çeçen xalqı kimdir, onlar Çeçenistan adlanan bu torpağa hardan gəlib və onların vətəni haradır? Kreml rəhbərləri bu boyda yalan və ağlasığmaz dərəcədə zorakılıqla dünyanı aldatmaqmı istəyirlər? Axı, bu yalan Puşkinlər, Tolstoylar, Dostoyevskilər, Çaykovskilər yetirən xalqa ləkə gətirir!

Avropanın yetkin xalqlarından biri olan ingilislər müstəmləkələrindən

əl çəkib, öz ərazilərinə çəkiləndən sonra yüksəlişləri başladı.

Təəssüf ki, Sovet imperiyası dağılandan sonra da Rusiyanın başında duranların beynindən imperiya havası çıxmır, yenə həmin hava ilə yaşayır və anlamaq istəmirlər ki, başqa xalqı əsir edən xalqın özü də əsirdir.

Dekabristlər, Puşkinlər, Çaykovskilər Rusiyanın əsl qızı olmaq etibarilə Sizin böyük fədakarlığınızı alqışlayır və mən sizin ədalətə, həqiqətə uzanan əlinizdən öpürəm.

Dərin hörmətlə,

Bəxtiyar Vahabzadə

"Açıq söz", 12 dekabr 2002.



EGİTİM BAKANINA CAVAB

"Türk ədəbiyyatı" və "Egitim bilim" dərgilərinin son saylarında Türkiyə Cümhuriyyətinin Egitim bakanı M.Bostançı oğlunun məktəblərdə divan ədəbiyyatının okutulmayacağı barəsindəki mülahizəsini və "cümhuriyyət milat qəbul ediləcək" kəşfini oxuyub çox sarsıldım.

Mən bakanı qınamıram. Çünki mülahizələrindən aydın olur ki, ədəbiyyatın mahiyyətini bilmir. Adam bilmədiyinin düşməni olar.

200 ilə yaxın uzun bir müddətdə rus boyunduruğu altında yaşayan Türküstan və Azərbaycan məktəblərində hər zaman klassik ədəbiyyata böyük önəm verilmiş, şəhərlərimizdə Nəsimi, Füzuli, Xaqani, Əlişir Nəvai, Nizami, Maxtumqulu kimi dahilərin heykəlləri ucaldıldığı halda, böyük Osmanlı imperiyasını yaratmış, dünyanın bir çox ölkələrinə mədəniyyət aparmış və tarixi boyunca həmişə müstəqil olmuş Türkiyədə milli ədəbiyyata bu cür düşmənçiliyi anlamaq çox çətindir.

Hələ 70-ci illərdə "Varlıq" dərgisində İsmət Zəki Eyyub oğlu adlı birisi "Ölü ədəbiyyat" adlı məqaləsində klassik türk ədəbiyyatını inkara qalxmışdı. Mən o zaman ona "Yel qayadan nə aparır" adlı məqaləmdə cavab vermişdim. İndi isə Türkiyədə təhsilin başında duran, ona rəhbərlik edən bir adamın ədəbiyyat öyrətimində "Milat cümhuriyyət olacaq" dediyi məsuliyyətsiz sözünü qızdırmalı bir adamın sayıqlaması kimi qəbul edirəm.

"Egitim-bilim" dərgisində Asim Yenihaber bəy Egitim bakanına

verdiyi cavabda çox gözəl deyir: “hadi, tarihi cümhuriyyetle başlatın! Cümhuriyyet hanki temeller üzerine kuruldu? Bu devetin “halk ünsuru” cümhuriyyetden önce de vardı. Peki cümhuriyyet bize yeni bir vatanmı kazandırdı?... Turkiye cumhuriyyetle birlikdemi ortaya çıktı?”

Türkiyədə türk dilinin başına min oyun açdılar. Ana dilini süniləşdirdilər, qısırlaşdırdılar. Bunu şüurlu olaraq yapdılar ki, nəsillər bir-birini anlamasın, millət öz kökündən ayrılsın, Türkiyə türkləri ilə dış türklər arasındakı dil bağı qırılsın.

Buna nail oldular. Amma bu da onlara kafi olmadığından təhsili əcnəbiləşdirdilər. İngilis təhsili türk cocuqlarını öz kökündən ayırdı. Məqalələrini böyük məmnuniyyətlə oxuduğum böyük bilgin Oktay Sinan oğlu buna qarşı çıxdı. Amma onu eşitmədilər.

Unutdular ki, dilini itirən millətini də, dinini də itirər.

Bizdə keçmişi inkar olmasa da, təhsilimiz hakim millətin dilinin basqısına məruz qaldı. Rus məktəbləri milli məktəbləri sıxışdırdı. Müstəmləkəçlikdən bizə miras qalan rus dilinin hakimiyyəti bu gün də davam etməkdədir. İstiqlaldan sonra da məmurlar və ruslaşmış ziyalılar övladlarını rus məktəblərinə verir və ailədə rus dilində danışırlar. Buna etiraz olaraq yazdığım “Mənim ana dilim” şeirimdə deyirəm:

Hansını söyleyim, mismi, demirmi?*
*Yalnız öz dilinde cingildemirmi**?*
Mis sesi benzemez altın sesine
Onların dilidir onların sesi.
Benzemez bülbülün şakımasına
Karqa qarıltısı, keklik nağmesi.

Ne yaprak, ne rüzgar, ne metal, ne kuş
Seslenmir, ötmüyor, özge dilinde
Peki, bilmiyorum sana ne olmuş
*Yad dilde ötürsen öz menzilinde?****

*Mis - Bakır.
**Cingildemirmi - cınlamıyormu?
***Kendi evinde yabancı dilde konuşmaq.

Yahud başqa bir şeirimde yazıyorum:

Kapılar ardında kaldı dilimiz
Verdik könlümüzü yabancı dile.
Arabca konuşduk ölülerle biz
Rusca kırıldatdık diriler ile.

Dəqiq elmlər uşağa bilik verər. Humanitar elmlər - xüsusən də tarix və ədəbiyyat vətəndaş yetişdirər. Mən bununla dəqiq elmlərin önəmini kiçiltmək istəmirəm. Amma bu gün bizə kimya və fizika kimi dəqiq elmlərdə dünya şöhrəti qazanmış Oktay Sinan oğlu kimi vətənini, millətini və ana dilini bütün varlığı ilə sevən və onun müdafiəsinə qalxan vətəndaşlar daha çox lazımdır.

Tarixmillətin hafizəsidir. Öz hafizəsini - yəni tarixini unudan, ona biganə olan millətin manqurtlaşması mühəqqəqdir.

Atalarının keçib gəldiyi yolları bilməyən, onların yaratdığı tarixdən xəbərsiz olan, bir sözlə, atasını tanımayana bic deyərlər. Bizə isə bic lazım deyil. Böyük tarix yaratmış ataların fütuhatları ilə öyünən, onlara bənzəməyə çalışan halal oğullar lazımdır.

"Türk ədəbiyyatı" dərgisində ürək ağrısı ilə oxudum ki, türk litseylərində tarix və ədəbiyyat dərsləri ildən-ilə azaldılır.

Keçən il rəhmətlik Ahmet Kabaklı "Türk ədəbiyyatı" dərgisində gənc nəsli öz kökündən, öz milli ruhundan qoparmaq məqsədi güdən bu məsələyə qarşı tutarlı bir cavab yazmışdı. O zaman mən yazdığım bir məqalədə rəhmətlik Alperenin səsinə səs vermiş, onu dəstəkləmişdim. İndi bu məsələnin yenidən ortaya atılması məni bir türk oğlu kimi çox narahat etdi. Çünki litseylərdə ədəbiyyat və tarix dərslərinin sıxışdırılmasını şüurlu olaraq millətin milli varlığına və ruhuna qəsd hesab edirəm. İlahi, insan da öz milli kimliyinə bu dərəcədə düşmən olarmı?

Batı qarşısında əyilən, özünü kiçik, Batını böyük sanan və dilindən "Batı" kəlməsi düşməyən solçu türk aydınlarına üzümü tutub soruram: İndi ki, siz Batını bu qədər sevir və onu təqlid etməyi özünüzə üstün-

lük hesab edirsiniz, bəs onda niyə öz milli dəyərlərinə qiymət verən, klassik ədəbiyyatlarını göz bəbəyi kimi qoruyan, şəhərlərində böyük sənətkarlarının heykəllərini ucaldan, yubileylərini keçirdən Batıdan öz milli varlığına, öz kökünə və milli ruhuna dərin hörmət bəsləməyi öyrənmirsiniz?

Məni bir şey düşündürür: Batı kəlməsi dilində şəkər olan bu aydınlar öz milli kimliyinə düşmənçiliyi hardan və kimdən öyrəniblər?

Dünyanın ən gəlişmiş xalqlarından biri olan yaponlar klassiklərini sevməklə, onlarla öyünməklə bərabər, tədrisi 4-5 ilə başa gəlməsinə baxmayaraq, 4 min il bundan əvvəl yaratdıqları ilan-qurbağa heroqliflərindən əl çəkmirlər. Əsl millət belə olar. Milləti millət kimi qoruyub saxlayan bu cür mühafizəkarlığa eşq olsun! Biz isə son əsrdə əlifbamızı dörd dəfə dəyişmişik - əsrin əvvəlində ərəb, 1923-cü ildən latın, 1929-cu ildən kiril, 1992-ci ildən isə yenidən latın əlifbasını qəbul etmişik. Belə olduğu halda, bu millətdən hansı tərəqqini ummaq olar? Amma sizə baxanda, yenə bizə şükür! Çünki biz əlifbamızı tez-tez dəyişsək də sizin kimi dilimizi dəyişməmişik. Ona görə də böyük Yunus İmrə sizdən çox, bizə yaxındır.

Əlbəttə, bir millətin təhsili M.Bostançı oğlu kimi tarix və ədəbiyyatını bilməyən, ona hörmət etməyən bir adama tapşırılanda belə olmalı idi.

Yəqin, Egitim bakanı çağdaşlığı milləti keçmişinə bağlayan bütün temel deyerlərə qarşı çıxmaqda görür.

Egitim bakanı M.Bostançı oğluna mənim bir tövsiyəm var: yaxşı olar ki, o, bilmədiyi egitimlə deyil, dədəsindən ona miras qalmış bostançılıqla məşğul olsun.



HÖRMƏTLİ
PƏRVİZ ƏLİYEV!

"Ədalət" qəzetinin 17 oktyabr sayında çap etdirdiyiniz "Nobel mükafatı kimlərə verilir" məqalənizdəki fikirlərin əksəriyyəti ilə şərikəm. Məqalənizdə göstərdiyiniz statistik məlumata diqqət yetirsək, dünyada Nobel mükafatı alanların tam əksəriyyətinin ingilis dilli əsərlərə verildiyi anlaşılır. Biz heç, bəs, görəsən, fransız, ispan, holland, Norveç, portuqal, italyan və s. Avropa dillərində yaranan ədəbiyyat birlikdə ingilis dilli ədəbiyyatdan aşağıdırmı?

Demək, burda əsas amil kimi ingilis dili götürülür. Tərcümə isə heç zaman orjinalı tam əvəz edə bilməz.

İkinci mühüm amil isə din məsələsidir. Dünyada 1 milyarddan artıq müsəlman xalqları var (ərəb, fars, türk, Pakistan, İndoneziya və s.) Yəni, bu bir milyardlıq xalqların içində Nobel mükafatına layiq üç-beş əsər tapılmadı?

YUNESKO-nun hesablamasına görə, XX əsrin ikinci yarısında ən çox oxunan iki yazıçı olmuşdur. Biri Kolumbiya yazıçısı Markes, ikincisi Çingiz Aytmatov. Bununla belə, Markesə Nobel mükafatı verildi, Ç.Aytmatova yox.

Nobel mükafatı laureatı ingilis alimi Con Bernal bizim Xudu Məmmədovun quruluş nəzəriyyəsinə heyran olduğunu dəfələrlə yazdı. Hətta İngiltərədən onun görüşünə gəldiyi barədə "Sovetskiy Soyuz" jurnalı da xüsusi məqalə həsr etmişdi. Nə oldu? O, Nobel mükafatına

yaradı, Xudu Məmmədov yox?

Üçüncü amil isə məqsədlilik amilidir. Sovet dövründə K.Simonov və A.Tvardovski həm məzmun, həm də sənətkarlıq baxımından zirvədə dururdu. Lakin Nobel mükafatı onlara deyil, Brodskiyə və Soljenitsına verildi. Çünki Brodski və Soljenitsın Sovet ideologiyasından uzaq idilər. Brodskiyə Sovet İttifaqından qaçandan sonra o mükafatı verdilər. Mən onu çox yaxşı tanıyırdım. Hətta mənim 2 şeirimi rus dilinə çevirmişdi. Ancaq mən bəyənməyib, eyni şeirləri yenidən R.Kazakovaya tərcümə etdirmişdim.

Beləliklə, Qərbin "demokratikliyi"nin, "həqiqətpərəstliyi" nin, hər yerdə olduğu kimi, elm, mədəniyyət sahəsində də özünü göstərdiyi bizə yaxşı məlumdur.

"Ailə planlaşdırılması" adı altında müsəlman dünyasındakı artımı (çoxuşaqlılığı) azaltmaq, "qloballaşdırma" adı altında Sovet imperiyasından qalma özlərinə sərfəli şəkildə beynəlmiləlçiliyi bizə sırımaq istəyirlər. Çox təəssüf ki, müsəlman dünyası hələ bu çirkin siyasətin arxasında duran əsl məqsədi görə bilmir və buna uyur.



“QAFQAZ” JURNALININ TƏSİSÇİSİ CAVANŞIR FEYZİYEVƏ

Hörmətli və əziz Cavanşir müəllim!

Mən “Qafqaz” jurnalının daimi oxucusuyam. İyul ayından bu jurnalın müntəzəm işıq üzü görməsinə sevindim və sizin nə qədər vətənpərvər, millətsevər ziyalı olduğunuzu anladım. Dəhnə kəndində yeni məktəb binası tikdirməyinizdən, müharibə veteranlarına, Qarabağ döyüşçülərinə, qocaman müəllimlərə, ehtiyaclılara yardım etdiyinizdən də xəbərim var. Əlinə bu jurnalın yeddi buraxılışını alan adamların bəziləri deyə bilərlər ki, burada qeyri-adi nə var? İlk baxışda “Qafqaz” jurnalı respublikamızda dərc olunan mindən çox mətbuat orqanından biri kimi adi qarşılana bilər. Lakin bu jurnal başqa jurnallardan fərqli olaraq qərəzsiz və tərəfkeşsizdir. O ancaq müstəqil Azərbaycan dövlətçiliyinin və Azərbaycan xalqının mövqeyində durur. “Molla Nəsrəddin” jurnalının da əhəmiyyətini ötən əsrin əvvəllərində yaxşı dərk etmirdilər. Bu gün onun yaradıcılarına heykəllər qoyurlar. Siz hər ay qarşılığını gözləmədən 10 min manata yaxın pul xərcləyib bu jurnalı ərsəyə gətirirsiniz. Allah sizin kimi ziyalıları yaratmasaydı, mədəniyyətimizin və tariximizin sirlərini açanların yolunu tikanlar basardı. Bəli, mən “Qafqaz” jurnalını oxuyanda qürurlanıram. İtirilən, unudulan keçmişimizə ayna tutulduğunu görürəm. Jurnaldakı şəkillərə baxanda və yazıları oxuyanda insan həqiqi mənada xalqımızın keçmişi

ilə qürur duyur və istəyir ki, dədə-babalarının dünyanı heyrətə gətirən işlərini davam etdirsin. Azərbaycanın hər qarışının göz oxşadığını, bütün bölgələrdə yaşayan insanların fədakar, qurub-yaradan, süfrəsi açıq, xeyirxah olduqlarını jurnal vasitəsi ilə öyrəndikcə hər bir oxucuda iftixar hissi oyanacaq. "Qafqaz" jurnalı hamımızı silkələyib ayıldır, sanki "Baxın, - deyir, - biz bu ulu və haqqa tapınan millətin övladlarıyıq". Rəhmətlik Heydər Əliyev belə məsələlərin qədr-qiymətini yaxşı bilirdi, mədəniyyətimizin və tariximizin təbliğinə onun qədər can yandıran olmayıb. "Qafqaz" jurnalı onun da arzu və istəklərini gerçəkləşdirir. Sizə işlərinizdə böyük uğurlar diləyirəm. Mənə bu jurnalla ən gərəkli dərmanı verdiyinə görə jurnalın baş redaktoru Ramazan Qafarlıya və bütün yaradıcı heyətə təşəkkürümü bildirirəm.

Hörmətlə

Bəxtiyar Vahabzadə

"Qafqaz" jurnalı, noyabr, 2007, № 008


MÜSAHİBƏLƏR



Mən bir çox Avropa və Afrika ölkələrində olmuşam. Əgər siz soruşsaydınız ki, məsələn, İngiltərə Sizin əsərlərinizdə öz əksini necə tapmışdır? - Mən buna çox asanlıqla cavab verə bilərdim. Lakin doğma Vətənimin mənim əsərlərimdə necə əks olunduğunu demək çətindir. Çünki mənim əsərlərim başdan-başa Vətənimin bu günü və keçmişinin sevinci və ağrı-acılarının ifadəsindən ibarətdir.

B. Vəhabzadə



SUALLAR-
CAVABLAR

(Tənqidçi M.Aydınla müsahibə)

- Bugünkü vətəndaşla bügünkü şairin uğur və uğursuzluqlarını nədə görürsünüz?

- Ümumiyyətlə, şair, ilk növbədə, vətəndaş, sonra şairdir. Daha doğrusu, indi şairin şairliyi onun vətəndaşlığı ilə müəyyən edilməlidir. İctimai problemlərə toxunmayan, vətənin və xalqın taleyindən kənarda qalan bədii əsərləri indiki şəraitdə məqbul saymaq olmaz. Ancaq bədii əsərin ictimailiyi onun yalnız mövzusundan asılı deyil. Daha doğrusu, əsərin ictimai dəyərini yalnız mövzu müəyyən etmir. Əsas məsələ müəllifin mövqeyində, cərəyan edən hadisələrə münasibətində, bədii sözün qüdrətilə cəmiyyətə təsir göstərmək arzusundadır. Bu cəhətdən son illərdə ümumsovet ədəbiyyatında yaranan əsərlər içərisində Ç.Aytmatovun "Əsrdən uzun gün" və Abdullinin "13-cü sədr" əsərləri mənim ürəyimcədir. Siz bayaq "Zaman və şeir" ifadəsini işlətdiniz. Bu təsadüfi ifadə deyil, çünki zaman şeirdə, şeir də zamanda özünü tapır. Əgər şeirdə zaman yaşamırsa, şeirin təqtilərində zamanın nəbzi vurmursa, o, günün şeiri deyil. Böyük filosoflardan biri çox gözəl deyib: "İnsanların çismani ağrıları həkimlərin, mənəvi ağrıları isə şairlərin, yazıçıların ürəyindən gəlib keçir". Mən bu günlərdə əsrimizin əvvələrində yaşayıb yaratmış Ömər Faiq Nemanzadənin yenicə çapdan çıxmış kitabını oxudum. Bu adam zamanla deyil, günlə, anla yaşamış, vətənin və xalqın dərdlərinə çıraq kimi alışıb yanmışdır. Buna görə də üstündən

70-80 il keçməsinə baxmayaraq, bu publisist yazılar bu gün üçün də qiymətlidir. C.Məmmədquluzadə və Sabir də onun kimi...

- Bu günün vətənpərvərliyi müharibə dövrünün vətən pərvərliyindən nə ilə seçilir?

- Bu günün vətənpərvərliyi müharibə illərinin vətənpərvərliyindən çox incə mətləblərlə seçilir. Müharibə illərində biz faşizmə qarşı vuruşurduq. Düşmən də bəlli idi, məqsəd də. İndi isə... Hədəflər çox və mürəkkəbdir. Əlbəttə, ideologiya mübarizəsi həmişə olub və olacaq. İdeologiya müharibəsində bəzən düşmən üzünə maska taxır, öz mənfur məqsədini gözəl sözlər arxasında gizlətməyi bacarır. Burada qaranı ağdan, haqqı nahaqdan, əyrini düzdən seçmək üçün dərin ağıl və mahiyyəti görə bilən göz lazımdır. Müasir imperializm və yeni müstəmləkəçilik başqa bir xalqın istiqlaliyyətinə qəsd edərkən son dərəcədə incə üsullardan istifadə edir, işğalını gözəl sözlər arxasında gizlədir. İndi imperialist dövlətlər "işğal" sözünü "xilas" və "qardaşlıq köməyi" sözləri ilə əvəz ediblər. Qrenadanın işğalı bunun ən yaxşı nümunəsidir. Bu yerdə ideologiyanın ən kəsərli silahı olan ədəbiyyat xalqın köməyinə gəlməli, həqiqətin üzündən boyanı açmalıdır.

- Sizin "Neo" şeiriniz buna misal ola bilər.

- Bu, məsələnin bir tərəfidir. Vətənpərvərliyin ikinci tərəfi isə cəmiyyətin içindəki yaramazlıqlara qarşı mübarizədir.

Müharibə illərindən fərqli olaraq, sülh illərində bizi geri çəkən, inkişafımıza əngəl olan, içimizdəki ətalətə, durğunluğa, nadanlığa, soyuqqanlığa, laqeydliyə qarşı mübarizə də vətənpərvərliyin bir ifadə formasıdır. Mən ali məktəb müəllimi kimi deyə bilərəm ki, indiki halda bizim ən böyük düşmənimiz bəzi hallarda özünü göstərən ətalətdir. Çırpıntının olmaması, elmə təşnəsizliyin, öyrənmək eşqinin zəifliyidir. Tələbəyə yalnız dərsliyi belə çətin oxuda bilirik. Halbuki ali məktəb tələbəsi yalnız dərslik ilə kifayətlənməməli, dərslikdə adı çəkilən, misal gətirilən elmi qaynaqlarla bilavasitə özü tanış olmalıdır. Yalnız o zaman tələbə mühazirə və kitab müəllifinin səviyyəsinə yüksələ bilər. Ali məktəblərin məqsədi də budur. Yunan filosoflarından birinin gözəl bir sözü var: "Müəllim öz fənninin bütün incəliklərini tələbəyə çatdır-

maq iqtidarında deyil. Müəllim tələbənin qəlbində o elmə məhəbbət yaratmalı, tələbənin qəlbində məşəl yandırmalıdır". İndi burada günahkar ya müəllimlərdir, ya da tələbələr. 90 dəqiqəlik mühazirəni müəllim dəqiqələri saya-saya, ağzından söz tökülə-tökülə, o elmin atəşinə yanmaya-yanmaya deyirsə, təbiidir ki, tələbələrin qəlbində o məşəli yandıra bilməyəcək. Tələbə də qarşısında yanan müəllimin atəşinə müəllimin özü kimi yanmırsa, mühazirəni candərdi dinləyirsə, hansı məşəldən söz gedə bilər? Vətənpərvərlik quru ideya deyil. Vətənin eşqinə yanmaq, vətənə layiqli vətəndaş olmağın özül daşıdır. Bu bir həqiqətdir ki, quru əllə, boş başla, yanğısız ürəklə vətənə vətəndaş olmaq olmaz. İndiki dövrdə yaxşı vətəndaş olmaq üçün baş biliklə, ürək atəşlə dolu olmalıdır.

- Haqlısınız. Diplom xatirinə ali məktəbə girənlər, elmə can yandırmır, diploma sahib olmaqla işini bitmiş hesab edir. Qəribədir ki, məqsədinə nail olandan sonra isə özünü ziyalı sayır. Mərkəzi mətbuatda bu barədə böyük mübahisələr gedir. Ümumiyyətlə, ziyalı kimdir? Yeri gəlmişkən, deyin görək, Siz ziyalı kimə deyirsiniz?

- Mənə bu sualı çox yerdə verirlər. Şübhəsiz, yaxşı mütəxəssis olmaq, dünya mədəniyyətindən xəbərdar olmaq, bir neçə dil bilmək, zövqlə geyinmək və s... ziyalılığın şərtlərindəndir. Lakin yalnız bunlarla tam ziyalı olmaq mümkün deyil. Müasir rus yazıçılarından Belov deyir ki, adam tanıyıram, dünyanın yarısını gəzib, yaxşı mütəxəssisdir, bəşər mədəniyyətindən az-çox xəbəri var, lakin doğmaca kəndinin və xalqının tarixini bilmir. Beləsinə ziyalı demək olarmı? - Yox!

Bir dəfə sənaye institutunun bir professoru ilə mübahisəm oldu. Bu professor öz sahəsini yaxşı bilən bir alimdir. Lakin doğma xalqının tarixini bilmirdi. Mən bunu ona irad tutanda, o da mənə "Bir kimya düsturunu açа bilərsənmi?" - sualını verdi. Mən bu alimin cəhalətinə və nadanlığına təəccüb etdim. Çünki ədəbiyyatçı olmağım etibarilə kimya elminin məqsəd və vəzifəsini bilməyim mənə kifayətdir. Lakin bir kimyaçının, bir riyaziyyatçının, ya bir bioloqun doğma xalqının tarixini bilməməsi, ən ümdəsi, bunu özünə nöqsan tutmaması onun cəhalətinin ən gözəl sübutudur. Hardan gəldiyini bilməyən hara gedəcəyini bilməz.

Bu isə özünə laqeydliyin, soyuqqanlılığın ən gözəl nümunəsidir. Bizdə indi istənilən qədər diplomlu cahillər var.

Bu cahillər mədəniyyəti zahiri geyimində, otaqlarının müasir bəzəkdüzəyində, söhbətlərini xarici istilahlarla bəzəməkdə görür. Əlbəttə, gözəl geyinmək, mənzili müasir üslübda, zövqlə bəzəmək nöqsan deyil. Lakin məsələ o geyimin, o bəzək-düzəyin arxasında gizlənməmək, qəlbən və fikrən müasir olmaqdadır. "Nauka i reliqiya" jurnalının 1983-cü il 1 nömrəsində RSFSR xalq artisti Oleq Tabakovla bir müsahibə verilmişdir. Həmin müsahibədə aktyor dramaturq Rozovun "Sevinc axtarışı" pyesindən bir epizodu xatırladır...

Savinlər ailəsinin böyük oğlu Fyodor Lena adlı meşşan bir qızla evlənir. Fyodor böyük ideallarla yaşayır. Müasir əşyalar eşqilə yaşayan Lena ərinin ideallarına mane olur, onu məişət xırdalıqlarına çəkir. Nəhayət, evin kiçik oğlu atasının şaşkası ilə par-par parıldayan mebeli vurub qırır.

Oleq Tabakov sözünə davam edərək yazır: "Bu pyes 25 il əvvəl yazılmışdır. İndi həmən şaşka ilə yapon tranzistorunu və dublyonkaları vurub dağıtmaq lazımdır".

Əlbəttə, bununla aktyor öz mənəvi çürüklüyünü yapon tranzistorları və dublyonkalar arxasında gizlədənlərə, mədəniyyəti zahiri tərəfindən anlayanlara qarşı çıxır. Belələri mədəniyyəti oynayır. Əgər həmən adam evindəki yapon tranzistorunu və əynindəki dublyonkanı halal zəhmətilə qazanmış olsaydı, bu əşyalara malik olana qədər çəkdiyi zəhmət onu yalnız zahirən deyil, daxilən də təkmilləşdirərdi. Lakin bu əşyalar əyri yolla qazanılırsa, onlar cansız əşya olaraq qalır, sahibinin mənəvi dünyasına təsir göstərə bilmir və həyat ona yüngül bir oyuncaq kimi gəlir, həyatın mürəkkəbliyini və mahiyyətini dərk etmir. Ona elə gəlir ki, malik olduğu tranzistorun milini istədiyi zaman istədiyi ölkənin üstünə gətirib o ölkənin mahnısını dinləyə bildiyi kimi, həyatda da istədiyi zaman istədiyini edə bilər. Bir sözlə, həyatın sevinci və səadəti ona çox asan başa gəlir və belələri həyatın əsl mahiyyətini və məqsədini anlamır. Məqsədsiz, amalsız yaşayaraq ömrü boyu nadan olaraq qalır.

- Sizin "Yaxın uzaq oldu" şeirinizdəki kimi...

- Bu günlərdə "Bakı" televiziyasının təşkil etdiyi "Aygün" verilişində deyildi ki, qərəzsiz və böyük məhəbbətə inanmayan bir cavan redaksiyaya yazır ki, "Mənim kifayət qədər maddi imkanım var. Buna görə də hansı qıza evlənmək təklif etsəm, mənə gələr".

Özündən razı bu cavan oğlanı bu cür danışdıran, heç şübhəsiz, "papasının" yüngül və asan yolla əldə etdiyi sərvətdir. O, bu sərvətə hazır sahib olub. Əgər bu oğlan həmin sərvəti özü alın təri və əlinin qabarı ilə qazanmış olsaydı, çəkdiyi zəhmət və tökdüyü tər onu daxilən təkmilləşdirər və yalnız o zaman bilərdi ki, məhəbbəti pulla almırlar, məhəbbəti də təmiz və ləyaqətli əməllərlə qazanırlar. Burada bir sözə diqqət yetirin. "Əldə etmək"lə "qazanmaq" başqa-başqa şeirlərdir. Gəliri əyri yolla əldə edərlər, amma zəhmətlə qazanarlar.

Bu yelbeyin oğlanın atası övladına miras qoyduğu sərvətlə öz övladını mənəvi cəhətdən şikəst etmişdir. İndiki zəmanədə pulla, daş-qaşla öyünmək ən azı mənəvi pozğunluqdur.

- Mənəvi təmizlik məsələsi Sizin poema və pyeslərinizin əsas mövzusudur. Xüsusilə "Etiraf", "Atılmışlar", "Qiymət" poemalarınız, "İkinci səs" və "Yollara iz düşür" pyeslərinizdə... Mənəvi pozğunluğun və əxlaqi natəmizliyin səbəbini siz nədə görürsünüz?

- Mənəvi saflığı və əxlaqi təmizliyi mən, ilk növbədə, yenə vətəndaşlıq hissində, içindəki "eqonu" öldürməkdə, öz şəxsi mənafeyini ümumin mənafeyindən üstün tutmamaqda, böyük ideallarla yaşamaqda görürəm. Böyük ideallarla yaşayan adamlarda şəxsi mənafe ümumin mənafeyi içində əriyir və buradan da mənəvi təmizlik, əxlaqi gözəllik yaranır. Öz ağlına, öz qabiliyyətinə həddindən artıq vurulan, özünü hamıdan üstün tutan adamlar hər işdə, hər yerdə özünü haqlı bilir, özlərini cəmiyyətə qarşı qoyurlar. Özünü hər işdə, hər yerdə haqlı bilməyin özü ən böyük haqsızlıq və mənəvi boşluqdur. Həmişə özünü haqlı hesab etmək özünü kənardan görə bilməməyin, özünə idrak gözü ilə baxmamağın nəticəsidir.

İnsan gündüzlər elədiklərinin hesabatını gecələr öz-özünə verməlidir. Hamı səhv edə bilər. Lakin bu səhvi sonradan başa düşməmək, onun ağrısını çəkməmək vicdan güzgüsündə özünə baxıb utanmamaq, eqo-

istlik və nadanlıqdır. İnsanın həyatda elədiyi səhv sonradan onun üçün ağrıya çevriləndə o adam həqiqi vətəndaş olur. Mən vətəndaşlığı da, insanlığı da, ilk növbədə, bunda görürəm. Düşünmədən deyilən bir söz, ya hərəkət əgər başqasına toxunursa, sən bunu bilərək susursansa, öz əməlindən peşman olub incitdiyin adamdan üzr istəmirsənsə, sənin insanlıqdan və vətəndaşlıqdan danışmağa haqqın yoxdur. İnsan öz şəxsi mənafeyini unudub başqasının dərdinə şərik olanda, dara düşənə əl uzadanda insandır. Öz xeyrindən ötrü başqasını tapdayan, yalnız özünü, öz xeyrini düşünən, "az aşım, ağrımaz başım", "daş məndən ötdü, qardaşıma dəydi, elə bildim daşa dəydi" fəlsəfəsi ilə yaşayan adamcığazlardan bu vətənə vətəndaş ola bilərmi?

Belələrinin hiss və duyğuları mənzilinin dörd divarına sığışır, belələri yalnız 3 otağını dörd, dörd otağını beş görmək istəyənlərdir, bağ və maşın eşqilə yaşayan, vətəninin və xalqının taleyini ömründə bir dəfə də olsa düşünməyən, yalnız sormaq hissilə yaşayan tüfeylilərdir.

Mən 1958-ci ildə Füzuli haqqında yazdığım "Şəbi-hicran" poemasında belələri haqda demişdim:

Heyhat! Hələ çoxdur evini vətən,
Qohum-qardaşını millət sayanlar.

"Dərin qatlara işıq", Bakı, 1986.



“ULDUZ” JURNALININ SUALLARINA CAVAB:

1. Qələm sahibi üçün xalq şairi, xalq yazıçısı adından yüksək ad ola bilməz. “Xalq şairi” adı nə deməkdir? Xalqın istək və arzularını, kədər və sevincini, şəxsi istək və arzular, şəxsi kədər və sevinc kimi yaşamaq! Bu böyük adın mənə verildiyini eşidəndə özüm özümə verdiyim ilk sual belə oldu: Bu ada, doğrudan da, layiqəmmi?

Ata-ana övladına Qorxmaz, İradə, Rəşad, Zərifə, Lətafət, Dəyanət, Babək, Qüdrət, Sədaqət və s. kimi adlar verir. Bu gözəl adları doğrultmaq isə övladdan asılıdır. Mən xalq şairi adını Vətənimin və xalqımın, bir sözlə, anamın mənə verdiyi ad kimi qəbul edirəm. Bu adı doğrultmaq isə mənim vəzifəmdir. Bu mənada boynuma düşən borcun, vəzifənin və məsuliyyətin böyüklüyünü dərk edir, bundan sonra edəcəklərimi düşünürəm. Demək, edəcəklərim etdiklərimdən daha dəyərli və daha böyük olmalıdır. Çünki bu vaxta qədər elədiklərimə görə yalnız şair idim, edəcəklərimdə isə xalqın da imzası var. Bunun nə demək olduğunu isə hörmətli oxucular bizdən yaxşı bilir.

2. Ədəbiyyatımızın dünəni bizdən asılı deyildi. Sələflərimiz bizim üçün böyük ənənə qoyub gediblər. Onların elədiklərinə baxanda adamı vahimə götürür. Bizdən asılı olan ədəbiyyatımızın bu günü və sabahıdır. Bu gün mənim nəslimə mənsub olan qələm sahibləri bacardığını edir. Ədəbiyyatımızın sabahı isə bizdən sonra gələn ədəbi gəncliyə bizim münasibətimizdən və qayğımızdan asılıdır. Müasir ədəbi gənclikdə

gördüyüm xoşa gələn cəhət odur ki, onlar bizi yamsılamır, öz yolları ilə gedirlər. İstədiyim odur ki, daha böyük, daha ictimai mövzulara əl atsınlar, dairəni genişləndirsinlər, xırda mövzular ətrafında dönüb dolaşmasınlar. Böyük ədəbiyyat, böyük sənət onların qayəsi olsun. Burdan da sualınızın ikinci tərəfi - ədəbiyyatımızın qarşısında həllini gözləyən vacib problemlər məsələsi meydana çıxır. Nədir bu vacib problemlər? Əsrlə nəfəs almaq, xalqın arzuları ilə yaşamaq, dünyanı düşündürən sosioloji problemlərin ifadəsinə çalışmaq! Sələflərimizin qaldırdığı böyük problemləri bu günün havası və nəfəsi ilə təzələmək! Forma yeniliyindən çox, məzmun yeniliyinə, mövzu aktuallığına və bunların sənətkarlıqla ifadəsinə çalışmaq! Dünya ədəbiyyatının orkestrində Azərbaycan notunun səsini seçiləcək dərəcədə ucaltmaq!

3. Yaradıcılıq planlarından danışmaq istəmirəm. Çünki vəd verib əməl etməməkdən qorxuram. Vəzifəm yazmaqdır. Keçən illərdə olduğu kimi, bekar dayanmayacağam.

“Dərin qatlara işıq”, Bakı, 1986.

“RODONSKİ USTREM” (BOLQARISTAN) QƏZETİNİN ƏMƏKDAŞI QEORGİ QRİVNEVLƏ MÜSAHİBƏ

S u a l: İlk ədəbi addımlarınızı harda və nə zaman atmısınız?

- Orta məktəbdə oxuduğum zamandan yazmağa başlamışam. Amma ilk şeirim 18 yaşımda çap olunmuşdur.

S u a l: Sizcə, müasir yazıçının əsas vəzifəsi nədən ibarətdir?

- İndi yazıçının cəmiyyətdəki mövqeyi və vəzifəsi ötən əsrlərdən daha vacib və daha məsuliyyətlidir. Yazıçı mənsub olduğu xalqın vicdanı və danışan dilidir. Bu vəzifəni boynuna götürə bilməyən yazıçının istedadına və yazdıqlarına inanmıram. Daha doğrusu, qəlbinin səsini yazıya köçürməyən yazıçı, yazıçı deyil. Bir ölkənin, bir xalqın deyil, bütöv planetin taleyi təhlükə qarşısında durduğu bu zamanədə yazıçı sözü atom və hidrogen bombalarından qüdrətli və kəsərli olmalıdır. 1984-cü il SSRİ Dövlət mükafatına layiq görülən “Bir gəminin yolçusuyuq” kitabımda toplanan şeirlər, əsasən, bu məsələdən danışır.

S u a l: Əsərləriniz haqqında oxucuların fikrini üstün tutursunuz, yoxsa, tənqidlərin?

- Bəzən ağıllı oxucu professional tənqidçi səviyyəsində, bəzən də professional tənqidçi ən geri qalmış oxucu səviyyəsində fikir söyləyir. Bunun əksi də olur. Odur ki, bunu ümumiləşdirmək olmaz. İstər tənqidi

fikir, istər tərif, istər professional tənqidçi, istərsə də adi oxucunun fikri, hər ikisinin ağıllısı və yazıçını inandıranı mənim üçün qiymətlidir.

S u a l: Sizin yaradıcılığınızda doğma Vətəniniz öz əksini necə tapmışdır?

- Mən bir çox Avropa və Afrika ölkələrində olmuşam. Əgər siz soruşsaydınız ki, məsələn, İngiltərə Sizin əsərlərinizdə öz əksini necə tapmışdır? - Mən buna çox asanlıqla cavab verə bilərdim. Lakin doğma Vətənimin mənim əsərlərimdə necə əks olunduğunu demək çətindir. Çünki mənim əsərlərim başdan-başa Vətənimin bu günü və keçmişinin sevinci və ağrı-acılarının ifadəsindən ibarətdir.

S u a l: İstedad və zəhmət! Hər bir yazıçı üçün yalnız bunlarmı əsas amildir?

- İstedad - başqalarının görə bilmədiyini görə bilmək qabiliyyətidir. Zəhmət isə bu qabiliyyəti cilalayan amildir. Əgər yaradıcılıq prosesini yalnız zəhmət kimi qəbul etsək, bura üçüncü amili də əlavə edərdim: Dərin bilik!

S u a l: Bütün ömrü boyu bir yazıçı yalnız bir həyat kitabı yazmırmı?

- Əlbəttə, ədəbiyyat - həyatın aynasıdır. Bir sözlə, yazıçı öz qəlbində hansı hissə, hansı fikrə, hansı amala köklənibsə, həyatda da onu axtarır və onu görür. Bu mənada hər yazıçının öz sevimli mövzuları olur. Çox zaman həmin mövzunun və qəlbindəki amalın ətrafında dönüb dolaşır.

Məsələn, mən ən çox insanın öz-özü ilə daxili söhbəti, özünü dərketmə yollarındakı iztirablarını əks etdirməyi çox sevirəm. Xüsusilə, poema və pyeslərimdə müxtəlif situasiyalara düşən insanın daxili iztirablarını və bu iztirab yollarında özünü dərk edib qüsurlarını görməsi prosesini əks etdirməyə çalışıram.

S u a l: Yəqin ki, siz çox oxuyursunuz. Hansı yazıçının əsərlərinə dönə-dönə qayıdırsınız və nə üçün?

- Çox oxuyuram. Amma Tolstoydan aldığım qidanı heç bir müasir yazıçıdan ala bilmirəm. Müasirlərdən ən çox sevdiyim Ç.Aytmatovdur. Tolstoya və Azərbaycan klassiki Füzuliyə tez-tez qayıdıram. Çünki bu nəhənglər insan qəlbinin ən dərin qatlarına nüfuz etməyi bacarırlar. Bu nəhəngləri hər dəfə oxuyanda onlarda əvvəllər görmədiyim duyğuları görürəm.

S u a l: Sizin nəslinizə *(kökünüzə)* xas ən maraqlı cəhət nədən ibarətdir? Yadınızda ən çox qalan cəhət?

- Nənəmin danışdığı nağıllar... Babamın zəhmətsevərliyi.

S u a l: Hansı suala cavab verə bilmirsiniz?

- Dünyanın əvvəli nədir və sonu hara gedir? Həyatın əvvəli nədir, sonu nədir? Biz insanlar hardan gəldik və hara gedirik? - sualının cavabı müşküldür.

"Dərin qatlara işıq", Bakı, 1986.



RADİONUN ƏMƏKDAŞI E.BAXIŞLA MÜSAHİBƏ

S u a l:

- Ədəbiyyat haqqında saysız-hesabsız fikirlər var: Ədəbiyyat obrazlı düşüncədir. Ədəbiyyat söz sənətidir. Ədəbiyyat hakim siniflər əlində silahdır və s. Ədəbiyyata bir sirr və möcüzə kimi baxanlar da var. Bu sirr nədir?

Həsənoğlu təkcə bir qəzəli ilə əsrləri adlaya bildiyi halda, bəzən cildlərlə şeir yazanlar bu gündən sabaha adlaya bilmir.

Sənətdə yaşarılığın səbəbi nədir?

C a v a b:

- Çox çətin sualdır. Ona görə ki, sənətin yaşarılılığını təmin edən amil bir deyil, iki deyil, beş deyil. Bunun şərtləri çoxdur. Buna görə də dünyanın neçə-neçə psixoloq, filosof və ədəbiyyatşünasları yaradıcılığın sirlərini öyrənməyə, sənətin möcüzələrini açmağa çalışıblarsa da buna tam mənada nail ola bilməmişlər. Sənətkarların özlərinə gəlincə, onlar yalnız yarada bilir, yaradıcılığın sirri və möcüzəsi onların özləri üçün də sirr olaraq qalır. Bir şair kimi mənim özümə xoş gələn, bəyən diyim şeirim bəzən oxucuda əks-səda oyatmır, bəzən də əksinə olur, çox da bəyənmədiyim şeirim oxucu dilinin əzbərinə çevrilir. Bir sözlə, bu sirdən baş açmaq çətindir.

Amma bu məsələdə bir həqiqəti unutmaq olmaz: bir duyğunu, hissi, adi bir insan kimi yaşayıb, o hissin, duyğunun şair kimi ifadəçisinə çevriləndə, misralar bulaq kimi sinədən tökülür, od kimi səni yandı-

rır, sözlər predmetləşir. Sən kağız üzərində hərfləri deyil, predmetləşən hissləri, duyğuları aydınlığıyla görürsən. Demək, şair qələmə aldığı mövzunun müşahidəçisi deyil, bilavasitə iştirakçısı olanda, o, özündən heç nə uydurmur, yalnız duyduğunu yazır. Şair duyduğunu yazanda isə səmimi olur. Məncə, əsl sənətin birinci sirri həmin bu səmimiyyətdir. Səmimiyyət isə ürəyin qapılarını açan ən etibarlı açardır. Səmimiyyət açarını itirən sənətkar öz qəlbinin qapılarını açа bilmədiyindən, o ürəkdən gələn səslər oxucu qəlbinin qapılarını da açа bilməz.

Səmimiyyətlə deyilən söz başqa ürəklərə yol tapır, o ürəkləri titrədir. Sənətdə etalon sayılan Füzuli şeirinin yaşarılığını şərtləndirən ilk amili mən onun səmimiliyində görürəm. Məcnunun gileyli məktubuna Leylinin cavabına diqqət yetirək:

Gəhi-şövqi-vüsalü, gəh bəlayi-hicr ilə zarəm,
Özüm həm bilməzəm dərdim nədir, mən necə bimarəm,
Qəmi - eşq içrə bir dərmanı yox dərdə giriftarəm,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm.

Ürəkdən gələn bu səmimiyyətin oduna necə alışmamaq olar? Qınağa baxın: "Mən bu qədər dərd çəkirkən, dərmanı yox bir dərdə giriftar ikən, bütün bunlar sənə bəs deyilmi ki, dərdimə üstəlik bir dərd də artırırsan?"

Hamının işlətdiyi adi sözlər şair qəlbindən keçib necə şeirləşmiş, necə qeyri adiləşmiş.

Məncə, sənətdə yaşarılığın ilk amili bu səmimiyyətdir.

Bunun, şübhəsiz, başqa amilləri də var.

S u a l:

- Şairin şeirini onun tərcümeyi-halı hesab edənlər var. Bunu Sizin yaradıcılığınız haqqında da demək olarmı? Məncə, Sizin yaradıcılığınızda şəxsi tərcümeyi-halınızdan çox, xalqın tərcümeyi-halı yaşayır. Siz buna necə baxırsınız?

C a v a b:

- Şeirini şairin tərcümeyi-halı hesab edənlər haqlıdır. Çünki şair

dediyin kəsin tərcümeyi-halı onun mənsub olduğu xalqın tərcümeyi-halının bir parçasıdır. Çünki şair əsl şairdirsə, onun şəxsi duyğusu həm də ictimai duyğudur. Şairin qəlbindən Vətənin və həm də dünyanın dərdi keçmirsə o, şair deyil. Vətən bədbəxtdirsə, şair necə xoşbəxt ola bilər? Axı, şair xalq taleyinin müşahidəçisi deyil, bilavasitə iştirakçısıdır. Şair bu taleyin iştirakçısıdır. Şair bu taleyin iştirakçısı kimi yazanda öz fərdi duyğularından çıxaraq, xalqın taleyindən danışır, beləliklə də, fərdi hisslər xalqın istək və arzuları ilə qaynayıb qarışır, fərd ümumiləşir, xalq fərdiləşir.

Götürək Sabiri. Bu böyük şairin şeirində onun fərdi duyğularını, şəxsi arzularını xalq taleyindən necə ayıra bilərsən? Onun şeirləri həm özünün şəxsi tərcümeyi-halıdır, həm də xalqının. Sabirin amalı, istəyi, arzusu nə idi? Xalqını düşdüyü vəziyyətdən xilas etmək! Buna yol axtarmaq! Bu uğurda yazıb yaradan şairin amalını, tərcümeyihalını, ürək yanğısını xalqının tərcümeyi-halından və taleyindən ayırmaq mümkündürmü? Onun "Fəxriyyə" şeiri həqiqətən böyük bir yol keçmiş xalqın tarixi və tərcümeyi-halının bədii ifadəsidir. Şair özünü fərdi olaraq bu tarixin, bu taleyin, bu tərcümeyi-halın pillələrindən keçirir, xalqın taleyinə göz yaşları tökür, özünü bu taleyin içində əridir, özünü xalq taleyi içərisində əridən şairin tərcümeyihalı xalqın tərcümeyi-halının bir hissəsinə çevrilir.

S u a l:

- Yüz il sonranı təsəvvür edin. 2084-cü ildə bugünkü şeirimizin hansı meylləri yaşarı olub, bu illərdən o illərə qala bilər?

C a v a b:

- Gəlin, yüz il sonraya baxmazdan əvvəl yüz il əvvələ baxaq. Yüz il əvvəlki şeirimizdəki hansı meyllər bu gün bizimlə bərabər yaşayırsa, yüz il sonra da həmən meyllər yaşayacaq.

Şeiri, sənəti kitablar deyil, xalq yaşadır. Xalq isə ötəri fərdi hissləri deyil, öz taleyi və öz amalı ilə bağlı hisslərin, arzuların ifadəsi olan əsərləri yaşadır.

S u a l:

- Şeir vaxta, dövrə yaxın olmalıdır, ya insana? Şeir bütün dövrlər

üçün yazılmalı deyilmi?

C a v a b:

- Bulaq başında bir çinarı xatırlayın. Bulaq çinarı yaşadır, çinar bulağı. Dövr və bu dövrün insanı. Bunlar biri digərini tamamlayır. Əsrimizin əvvəlində Sabir nadan atanın dili ilə "oxutmuram, əl çəkin" deyirdi. İndi hansı ata övladını oxutmaq istəməz?.. Demək, bu gün artıq bu məsələ problem deyil. Bəs Sabirin "Oxutmuram, əl çəkin" şeiri bu gün üçün ölüdürmü? Yox! Sabah üçün də ölməyəcək. Niyə? Ona görə ki, burda məsələ mövzuda deyil, şairin yanğısındadır. Demək, yaşayan mövzu və problem deyil, şairin ürək yanğısıdır. Bu günün problemində də bu günün şairi Sabir kimi yana bilirsə, şeiri həm bu günün şeiridir, həm də sabahın.

Qorki demişkən, ədəbiyyat insanşünaslıqdır. Sənət insan duyğularının tərcümanına çevrilərsə, o, bütün dövrlər üçün yaşarı olur.

S u a l:

- Oxucu-şair münasibətlərindən nə deyə bilərsiniz?

C a v a b:

- Bu, çox mühüm problemdir. Çünki oxucunun şairə ehtiyacı olduğu kimi, şairin də oxucuya çox böyük ehtiyacı var. Hər gün həm evin ünvanına, həm də universitet və Yazıçılar İttifaqının ünvanına 10-15 məktub alıram.

Əlbəttə, bunların hamısına cavab verməyə fiziki imkanım olmur. Efirdən istifadə edib, cavab yaza bilmədiyim oxuculardan xahiş edirəm, məni bağışlasınlar. İş çox, vaxt azdır, çatdırmaq olmur.

Aldığım məktubların böyük bir hissəsi şeir olur. Hamı istəyir ki, ona cavab yazım, məsləhət verim. Məktubla məsləhət vermək, bugünkü şeirin tələblərini şərh etmək mümkün deyil. Redaksiyalara bilavasitə müraciət etmək daha düz olar. Bununla belə, bu məktubların içində ürəyəyatan, layiqli şeirlər də olur. Belələri haqqında dərhal, "uğurlu yol" yazır, ya da şeirlərini çap etdirirəm. Bunlardan birini misal gətirmək istəyirəm. Masallı rayonunun Boradigah qəsəbəsində yaşayan Nurməmməd Ağayevdən aldığım şeirlər çox xoşuma gəldi. Onun "Nə lazım" şeirindən bir parça oxumaq istəyirəm:

Şəbi-yeldasa da saçı gözəlin,
Gözəllik taxtının tacı gözəlin,
Dili həsrəti tək acı gözəlin
Olsun dodaqları qaymaq... nə lazım.

Könlüm götürməyir əzəldən bəri,
Boğazdan yuxarı saxta sözləri.
Qəlbi tamahından xırda kəsləri,
Anlamaq nə lazım, duymaq nə lazım.

Nəfəsi məsləkindən baş alanlara,
Başı qəlbi kimi boş olanlara,
Sağ ikən ürəyi daş olanlara,
Öləndə başdaşı qoymaq nə lazım.

Gözəl deyilib: Sağ ikən, ürəyi daş olanlara, öləndə başdaşı qoymaq lazım deyil. Çünki, beləsinin adı, ünvanı özü kimi itməlidir. Mən arzu edirəm ki, oxucular xalqımızı düşündürən böyük məsələlər barədə yazıçılarla fikir mübadiləsi etsinlər, amma belə məktublardan çox az alırıq: Mingəçevir rayonundan Xəlilov adlı bir nəfər yazır ki, televizora çıxanda niyə camaata salam vermirsiniz? İkinci, gərək siz filan şeirinizi deyil, "Qiymət" poemasından oxuyaydınız. Oxucu bilməlidir ki, şair televizorda hər dəfə yeni şeirləri ilə çıxış edir. Oxucu isə istədiyi şeiri özü oxumalıdır. Həmin oxucu yazır ki, Sizin "Bəlkə" şeirinizdə vəzn düz deyil. 11-lik vəzninə adət edən oxucu unudur ki, bu şeir 11-liklə deyil, başdan-ayağa 12-lik vəznlə 3 + 3 + 3 + 3 bölgüsü ilə yazılmışdır.

Əlbəttə, oxucu şairin yazılarında hiss etdiyi qüsuru mütləq ona bildirməlidir. Bu bizim xeyrimizə olar. Amma elə olmalıdır ki, şair oxucunun məlumatsızlığına hayıfsılanmasın. Mən bu məsələdən danışmağı ona görə lazım bildim ki, biz yaradıcılar, oxucularımızdan çox şey umur, çox şey arzu edirik.



II MÜSAHİBƏ

S u a l:

- Bəxtiyar müəllim, yazdığınız ilk şeiri tez-tez xatırlayırsınızmı? Mən yazdığınız deyirəm ona görə ki, yazılan şeirəcən o qədər yazılmayan - düşünülən, fikirləşilən şeir olur ki... O şeirlər fikir kimi, düşüncə kimi doğulur, elə fikir kimi, düşüncə kimi də yox olub gedir. Hətta bəzən yazılmayan şeirlər yazılan şeirlərdən çox olur. Bu da, görünür, onunla bağlıdır ki, hər şeyi yazmaq olmur, hər fikri, düşüncəni sözə çevirmək mümkün deyil. Hər sözə də fikirdən, düşüncədən don biçmək çətindir. Fikirdən sözə, sözdən fikrə gedən yol yolların, bəlkə də, ən uzunudur, ən mürəkkəbidir.

"Yazılmayan şeirlərimi yaza bilsəydim, daha böyük şair olardım", "Yaza bilmədiyim şeirləri ona görə yaza bilmirəm ki, məndən sonra gələn şairlər yazsınlar".

Bunlar ayrı-ayrı şairlərin fikirləridir.
Siz necə baxırsınız bu məsələlərə?

C a v a b:

- İlk şeirimi yalnız bu barədə söhbət düşəndə xatırlayıram. Sualınızın ikinci tərəfinə gəlincə, dünyada bütün yaradıcılar elə güman edir ki, ən gözəl əsərini hələ sonra yaradacaq. Bütün sənətkarlar ən gözəl əsərini nə zamansa yaradacağını düşünməsə, yaradıcılıq dayanar. Çünki sənətkar heç zaman yaratdıqlarından razı qalmır. Mən də elə güman

edirəm ki, yazacaqlarım yazdıqlarımdan daha gözəl olacaq. Bu hiss gözəldir, yaradıcılığın barıtıdır, hərəkətverici qüvvəsidir.

S u a l:

- Şairin həyatı yüz yerə, min yerə sərf olunur. O cümlədən ev işlərinə, idarə işlərinə, iclaslara... Amma şairin həyatı, hər şeydən əvvəl, şeirin həyatıdır. Bu həyatın sevinci var, əzabı var. Yaradıcılıq sevinci deyirlər buna, yaradıcılıq əzabı deyirlər buna...

Bu barədə fikriniz?

C a v a b:

- Əlbəttə, şair də hər şeydən əvvəl, ilk növbədə insandır. Onun da həyat qayğıları çoxdur. Vaxtımızın hamısı şeirə çevrilmir. Bu mümkün də deyil. Həmişə və hər yerdə yazmaq mümkün deyil. Lakin şair ömrünün ən fərəhli anları masa arxasında ilham pərisi ilə görüşdüyü anlardır. Şair həyatda deyil, yalnız bu anlarda şairdir.

S u a l:

- Şairlik - vergidir.

Şairlik - sənətdir, özü də xüsusi bir sənətdir, hər adama qismət olan sənət deyil. Bu, adi həqiqətləri niyə deyirəm? Ona görə ki, bir də görürsən ayrı-ayrı qəzetlərdə, jurnallarda heç kimə məlum olmayan imzalar gedir və bu qəribə imzaların altında yazırlar: bənna şair, fəhlə şair (guya bənna fəhlə deyil), milisioner şair, mühəndis şair, müəllim şair və sair və ilaxır. Ən qəribəsi də budur ki, bu cür dırnaqarası şairlər sonralar nəşriyyatlara ayaq açır və bəzən onlar şairlik haqqı olanlardan çox kitab çap elətdirirlər. Özləri haqqında şairlik haqqı olanlardan çox resenziya yazdırırlar, məhz yazdırırlar... Belə resenziyalar hətta əvvəlcədən hazırlanır.

Bunu nə ilə izah edərdiniz? Bəlkə, əsl ədəbiyyatın təəssübkeşlərinin azlığı ilə? Təəssübkeşlik hər şeydən əvvəl ədəbiyyatda lazımdı, axı.

C a v a b:

- Bu, bütün dövrlərdə belə olub. Çünki şeir sənəti çox cazibədar sənətdir. Şeir hamını ovsunlayır. Oxucu şeiri oxuyub orda öz hisslərini görəndə şeir sənəti ona çox asan görünür. Öz-özünə deyir, bu hissi mən də yaşamışam. Bundan sonra elə güman edir ki, o da şeir yaza bilər.

Həmin hissləri yazır, özü də şeir sənətinin bütün zahiri qayda və qanunlarına əməl də edir. Amma yazdıqları hiss şəklində deyil, düstur şəklində meydana çıxır. Çox zaman həmin yazıları təsiri altında yazdığı sənətkara göndərir. Sənətkar ona yazdığının şeir olmadığını deyəndə o, təəccüblənir. Və soruşur: Nəyi çatmır? Qafiyə var, vəzn var. İndi sən, gəl, bu həvəskara başa sal ki, məsələ qafiyədə, vəzndə deyil. Bəs nədədir? Bax, bunu başa salmaq çox çətindir. Sənətkar şeiri nəzmdən seçir. Bir misrasından bilir ki, bu şeirdir, amma bu şeir deyil... Lakin şeir nədir? - sualına həvəskarı inandıracaq dərəcədə cavab vermək çox çətin məsələdir. Odur ki, belə həvəskarlar çox zaman sənətkarın yanından incik gedirlər.

Bütün bunlarla bərabər, mən uzun illik təcrübəmdən onu bilirəm ki, başqa peşə sahiblərinin şeir yazmaq həvəsinin, bu axının qarşısını almaq da olmaz. Daha doğrusu, mümkünsüzdür.

S u a l:

- Bəxtiyar müəllim, sizə kiçik bir hadisə danışmaq istəyirəm. Bu yaxınlarda redaksiyamıza bir oğlan gəlmişdi. Şeir gətirmişdi. Elə şeir ki, hər misrasına, hər bəndinə sizin şeirlərin havası hopmuşdu. Bu şeirlərin hamısı sizin şeirlərin torpağından bitmişdi, suyundan içmişdi, iqlimindən keçmişdi. Biz bunu oğlana deyəndə, dedi:

- Mən ikinci Bəxtiyar Vahabzadə olacağam.

Dedik:

- Dövlətlərin tarixində belə hadisələr olub. Məsələn, I Ramzes, II Ramzes. Yaxud I Karl, II Karl, III Karl. Bizdə də var: I Təhmasib, II Təhmasib.

Amma ədəbiyyatların tarixində belə hadisə görünməyib. Nizami Nizami olub, Füzuli Füzuli olub. İkinci, Üçüncü Nizami, İkinci, Üçüncü Füzuli olmayıb.

Kainatda Günəş, bir də Günəşin başına fırlanan səyyarələr var.

Ədəbiyyat tarixi də, təxminən belədir, Nizami, Füzuli deyilən günəşlər var. Bir də bu günəşlərin başına hərlənən səyyarələr: bayaqkı sözlə desək, ikincilər, üçüncülər, dördüncülər, yüzüncülər, mininciler.

Elə, bax, bu yüzüncülər, mininciler işi gətirib o yerə çıxardılar ki,

məsələn, Mirzə Fətəli Axundzadə kimi böyük sənətkar məcbur olub, Füzulini inkar elədi. Nəyin xatirinə? Ancaq onun xatirinə ki, ədəbiyyatı yeni cığıra, yeni yola, yeni üfüqə yönəltsin. Bu mənada ikinci, üçüncü, dördüncü, yüzüncü, mininci Bəxtiyar Vahabzadə olmaq istəyənlərə sözünüz?

C a v a b:

- Dediyiniz kimi, Nizami və Füzulidən sonra onları təqlid edən yüzlərlə nizamilər və füzulilər olub. Amma tarix bir Nizami və bir Füzuli tanıyır. Epiqon ədəbiyyatın yaşamaq haqqı yoxdur. Məni təqlid edən cavana gəlincə, hələ ona toxunmaq olmaz. Çünki bu gün tanınan, xalq şairi kimi yüksək ada layiq olan N.Xəzri də, mən də gəncliyimizdə S.Vurğuna bənzəməyə çalışmamışıqmı? Bu təbiidir. Əgər bir qədərdən sonra həmən gənc öz yolunu tapmasa, ömrü boyu mənə bənzəməyə çalışsa, vay onun halına! Çünki biz S.Vurğun sənətini sevə-sevə dərhal özümüz olmağa, öz yolumuzu tapmağa çalışdıq. Çünki S.Vurğun var ikən ikinci və üçüncü S.Vurğuna nə ehtiyac?! Bu mənada həmin gəncin "Mən ikinci B.Vahabzadə olacağam" sözü onun faciəsidir. O, Bəxtiyar təsirindən nə qədər tez uzaqlaşa bilsə, o qədər qazanar. Şübhəsiz, əgər istedadı varsa və bu istedadı cilalamaq üçün zəhmətə qatlaşmağı bacaracaqsa.

S u a l:

- Hərdən yaşlı, ağsaqqal şairlərimiz gileylənirlər ki, bəzi cavanlar bizi bəyənmir, bizi oxumurlar. Hətta bu, bəzən əsəbi söz-söhbətlərə də səbəb olur. Bu söz-söhbətlər nə dərəcədə düzdür, nə dərəcədə düz deyil, burası məlumdur. Amma burası da məlumdur ki, bəzi yaşlı, ağsaqqal şairlərimizin özləri də cavanlarla az maraqlanır, yaxud heç maraqlanmırlar.

Deyir palıddan soruşublar:

- Günəş yuxarıdan çıxdığına görə sən kölgəni aşağı salırsan, Günəş aşağıdan çıxsaydı, kölgəni hara salardın?

Palıd deyib:

- Yenə aşağı.

Soruşublar:

- Niyə?

Deyib:

- Çünki aşağıda mənim pöhrəm var, gələcəyim var.

Yaşlı ədəbiyyatla cavan ədəbiyyat, bax, bu əsas üzərində dayanmalıdır. Elə deyilmi, Bəxtiyar müəllim?

C a v a b:

- Mən cavan şairlərin yaşlı şairləri bəyənməmələrinə təbii baxıram. Çünki belə olmasa, yeni söz, yeni deyim tərzi yaranmaz. Mən ona da əminəm ki, bugünkü yaşlı ədəbi nəsli bəyənməyən cavanları da sabahkı ədəbi nəsil bəyənməyəcək. Lakin burda bir incə mətləb var: yeni ədəbi nəsil yaşlı nəsil kimi yazmamaqda, onları təqlid etməməkdə haqlıdır. Onlar kimi yazmamaq başqadır, inkar başqa! Yeni nəsil özündən əvvəlki ədəbi nəslin tarixi rolunu inkar etməməli, onlara hörmətlə yanaşmalıdır. Çünki bugünkü yaşlı nəsil özündən əvvəlki ədəbi nəslin üzərində boy atdığı kimi, bugünkü gənc nəsil də yaşlı nəslin üzərində boy atdığını, dünyaya onların çiyinləri üstündən baxdığını və buna görə də uzaqları görə bildiklərini unutmamalıdırlar.

Yaşlı nəsil də, öz növbəsində, cavan nəslə hörmət və qayğı ilə yanaşmalı, onların əllərindən tutub qaldırmalıdır.

Mənim nəslimdən olan H.Arif, N.Xəzri, Qabil, o cümlədən mən yaxşı xatırlayıram ki, S.Rüstəm, S.Vurğun, R.Rza, O.Sarıvəlli kimi o zamanın yaşlı nəsli bizim əlimizdən tutmuş və bizi sənətin sirli yollarından keçirmişlər. İndi bizim də borcumuz sənət atalarımızın bizə göstərdiyi qayğını bizdən sonra gələnlərə qaytarmaqdır. Mən cəsarətlə deyə bilərəm ki, indiki yaşlı nəsil çox böyük məmnuniyyətlə öz varislərinə həmən qayğını göstərir. Yəqin ki, bu, mətbuatdan sizə tanışdır. Mənim yaşıdlarım neçə-neçə cavan şairə uğurlu yol və ilk kitablarına ön söz yazmışlar. Biz bu vacib işi görür və görəcəyik. Çünki bu, bizim vətən və xalq qarşısındakı borclarımızdan biridir.

“Dərin qatlara işıq”, Bakı, 1986.



“ULDUZ” JURNALININ ƏMƏKDAŞI T.HƏMİDLƏ MÜSAHİBƏ

Qaynar şəhərə gəldiyim ilk günlər idi. Və bu qaynarlıq, şəhər sıxlığı içində məni, hər şeydən əvvəl, ekranda gördüyüm, kitablarını, yazılarını oxuduğum adamlar maraqlandırırdı.

İndi, Bəxtiyar Vahabzadə ilə söhbətə hazırlaşarkən o günləri, o çağları yaşadım.

Şairin iş otağındayam. Küçədən ötən adamların addım səsləri, maşınların odlu nəfəsləri açıq pəncərədən içəri dolur. Və mənə elə gəlir ki, dünyanın ən ucqar nöqtəsi də, ən yaxın yeri də bu otaqdan, bu pəncərədən aydınca görünür, uzaq-yaxın nə varsa seçilir, əsərlərə çevrilir...

Bu sətirlərin müəllifi, Azərbaycanın xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, respublika Elmlər Akademiyasının müxbir üzvü, qırxıncı illərdə “Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay” şeirilə böyük şairimiz Səməd Vurğunun diqqətini cəlb elədi və həmin illərdə də Yazıçılar İttifaqının üzvlüyünə qəbul edildi.

Onda şairin mətbuatda cəmisi on iki şeiri çap edilmişdi. Və iyirmi beş yaşı heç tamam olmamışdı. Bu gün isə doğma dilimizdə və başqa dillərdə nəşr edilmiş altmışa yaxın kitabın müəllifidir. Altmış yaşı tamam olur.

S u a l: - Bəxtiyar müəllim, ömür ən uzun və ən qısa yoldur. Bu yola baxanda nələri görürsünüz?

C a v a b: - Bu yaxınlarda ikicildliyimi çapa hazırlayırdım. Nəyim vardısa, qabağıma töküb saf-çürük eləyirdim. Qəfildən bir ağrı keçirdim. Gördüm ki, şeirlərimin bəziləri ölüb, nə bu günün malıdı, nə də sabahın. Onlar haçansa da ani hisslərdən yaranıb, ani də yaşayıblar.

Mənə elə gəlir ki, insan nöqsanları üzərində ucalır. Nöqsanımızı görməsək, uğurlara çatmarıq. Orta məktəbdə bütün fənlərdən yaxşı oxuyurdum. Təkcə riyaziyyatdan pis qiymətlər alırdım. Bir yalan da uydurmuşdum ki, riyaziyyat müəllimi mənimlə düşübdür. Və çox qəribədir ki, özümü də bu yalana inandırmışdım, elə bilirdim ki, həqiqətdə də belədir.

Bir gün həmin müəllim məni cağırıb dedi ki, bala, sən niyə bütün fənlərdən yaxşı oxuyursan, riyaziyyatdan pis, axşamlar, çəkinmə, bizə gəl, sənin lə əlavə məşğul olacağam. O müəllim indi dünyada yoxdur. Amma mən o müəllimdən hələ də utanıram. Elə bilirəm ki, zəif şeirlərim də mənim haçansa uydurduğum yalandır. Yaxşı elə yaxşıdı də...

S u a l: - Bir şair kimi Sizi bu illərdə ən çox nə sevindirib dir, nəyə təəssüflənmisiniz?

C a v a b: - "Ədəbiyyat və incəsənət" qəzetində ilk şeirim çap olunmuşdu. Yadımdadı, həmin nüsxədən iyirmi, otuzunu almışdım. Qəzetlər də qoltuğumda o günü bütün şəhəri dolanıb çayxanaya gəldim. Qəzetləri stolun üstünə qoyub çay içirdim. Yanımda yaşlı bir kişi də əyləşmişdi. Mən tez-tez ona baxırdım ki, ay Allah, görən, bu kişi məni niyə tanımır...

Bax, həmin gün nə qədər sevinmişdimsə, o sevincin dadı hələ də damağımdadı...

Ömrü boyu da bircə şeyə heyifsilənirəm ki, niyə mən çoxlu dil bilmirəm?

S u a l: - Ötən dövr sosial-mənəvi mahiyyətinə görə çox mürəkkəb dövr olub. Təkcə bunu demək bəs edər ki, Siz ədəbiyyata gələndə Böyük Vətən müharibəsinin topları təzəcə susmuşdu. İstər odlu, alovlu illər, istərsə də dinc quruculuq zamanında başlanan dircəliş Sizin nəslin gözləri önündə baş verirdi. Və bu, izsiz qalmırdı. Poeziyada da, nəsrdə də özünü çox qabarıq göstərirdi. İndi necə?

C a v a b: - Müharibə ölüm gətirdi, aclıq gətirdi, fəlakət gətirdi və ilaxır. Müharibə həm də bütün münasibətlərdə bir çat əmələ gətirdi. İnsanın psixologiyası dəyişdi. Açığını deyim ki, Böyük Vətən müharibəsi mövzusu ədəbiyyatımızda pis əks olunmayıbdır. Amma bəzən elə sönük, mətləbdən uzaq əsərlər yaranır ki, müharibə elə təsvir və təhrif edilir ki, adam müharibənin nə demək olduğunu az qala unudur.

Bu mövzu əbədi mövzudu. Müxtəlif nəsillər ona qayıdır və qayıdacaq. Həm də son dərəcə mürəkkəb mövzudu, ona baş vurmaq üçün gərək o dövrün psixologiyasını və müharibənin zaman-zaman yaşayan ağrısını duyub, sonra yazasan.

Qəzet və jurnal səhifələrində bu mövzuda sönük yazıya rast gələndə qəzəbimi gizlədə bilmirəm.

Bəzi yazıçılar və şairlər var ki, bu sahədə professionallaşıblar. Belələrinin imzasını görəndə mətləb aydın olur, "atam getdi, yurdumuz boş qaldı", "anam mənim üstümdə qocaldı", "qapımız ağladı, bacamız ağladı" və sair buna oxşar soyuq, cılız misralar, əsərlər...

Biz həm də müharibə mövzusunu, ümumiyyətlə, ədəbiyyatımızın təbliğini bacarmırıq. Mən televiziyanı nəzərdə tuturam. Televiziyanın öz dili, öz imkanları var. Və o, bizim məişətimizə elə daxil olub ki, hər gün min-min adam evdə, işdə, hətta avtomaşında oturub mavi ekrana tamaşa edir.

Poeziyanın da öz ahəngi, öz dünyası, öz dili var. Bizim poeziyanı televiziya dilinə, televiziya imkanlarına uyğunlaşdıra biləcək usta rejissorlarımız, operatorlarımız olsa, mənə elə gəlir ki, həmin o çoxminli tamaşaçının heç birinin barmağı düymələrdə qalıb, başqa proqramlarda maraqlı bir şey axtarmaz.

Çox vaxt televiziyada bizim şeirləri aktyorlar oxuyurlar. Bizim özümüz də - mən şairləri nəzərdə tuturam - açığını deyim ki, bəzən televiziyada şeir oxuyanda şit oxuyuruq, aktyora daha çox oxşamaq meylimiz olduğundan nəinki aktyor olmuruq, heç həmin anda şair də olmuruq...

Nə isə, aktyor məsələsi üzərinə qayıdım. Aydındır ki, hər hansı aktyorun böyüklüyü ondadır ki, o, özünəməxsus rol seçə bilir. Bir sözlə, elə rollar da var ki, onu əksər aktyorlar oynaya bilmir. Elə şeirlər də

var ki, onu bütün aktyorlar oxuya bilməz. Bax, bu ölçü pozulanda şeir tanınmaz olur, şair tanınmaz olur.

Mən bu cəhətdən istedadlı aktyorumuz Mikayıl Mirzəyevin əməyini xüsusi qeyd eləmək istərdim. Mikayıl elə şeirləri oxuyur ki, o şeirlər artıq həm də onun özünün olur. Özünün olduğu üçün onun qüsurları da təbii görünür, inandırıcı olur.

S u a l: - Əsrimiz texniki tərəqqi əsridir. Bu da, çox şübhəsiz, insanın şüurunda, davranışında özünü əsaslı göstərir. İnsan bir ictimai varlıq kimi sizin yaradıcılığınızda...

C a v a b: - Hələ də oxuduğum bir kitabın təsirindən uzaqlaşa bilmirəm. Onun müəllifi Hindistanın keçmiş baş naziri İndira Qandidir və burada Hindistanın problemlərindən söhbət açılır.

İ.Qandi yazır ki, bu gün, əsrin böyük bir sürətlə inkişaf etdiyi zamanda məni bir məsələ daha ciddi düşündürür. Biz bütün qüvvəmizi proqresə - tərəqqiyəmi verək, yoxsa, bir xalq kimi öz milli keçmişimizin qorunmasınamı yönəldək?

Çox təbii sualdır. Aydın məsələdir ki, texniki tərəqqisiz inkişaf yoxdur. Tarixi kökdən uzaqlaşmaq isə fəlakətdir. Əgər bu belədirsə, insan özü də bilmədən öz varlığında bir boşluq yaradacaq.

"Komsomolskaya pravda" qəzetində oxuduğum məqaləni isə kəsib saxlamışam. Onu da deyim ki, məndə belə adət yoxdu. Lakin son dərəcə ciddi və hamı üçün vacib bir problemə toxunduğundan bu yazının üstündən soyuqqanlı ötə bilmədim. Məqalədə nədən danışılır? Lyudmila Şapoşnikova adlı qadın yeddi il Hindistanın Tod qəbiləsində yaşayıb və Taysunpuf adlı bir qadınla dostluq edibdir.

L.Şapoşnikova yazır ki, Taysunpuf bir gün məndən xəbər aldı ki, mən yeddi arxa dönənlərimdən kimləri tanıyıram? Və etiraf edir ki, iki arxa dönənimi güclə xatırladım. Taysunpuf isə yeddi arxa dönənini adad sayırdı. Aramızda olan bu söhbətdən sonra Taysunpuf mənə daha çox qayğı və diqqət göstərməyə başladı. Sən demə, Tod qəbiləsində mənim kimilərini ağıldan şikəst sayırlarmış. Mən indi-indi bilirəm ki, Taysunpufun mənə yazığı gəlirmiş...

Xeyr, Lyudmila nə ruhi xəstədi, nə də onda bir fiziki çatışmazlıq var.

Sadəcə olaraq, o da bizim əsrin adamıdır; savadlıdır, son dərəcə müasirdir. Görürsünüzmü, müasir olduğu qədər də hindli qadının nəzərində yazıq və cılızdır. Bəli, biz özümüz də bilmədən bir yandan qazanırıq, bir yandan da qazandığımız qədər itiririk.

S u a l: - Burda Sizin bir bənd şeirinizi xatırlayıram:

Hara gedir bu sürət?
Hara gedir bu gərdiş?
Bizim yaratdığımız,
Bizə qənim kəsilmiş?

C a v a b: - Bəli, hər bir şeyimizin olduğu bir zamanda biz özümüzün - insanın qorunmasının qeydinə qalmalıyıq. Onun min illər boyu qazandığı milli və mənəvi keyfiyyətləri yaşatmalıyıq. Mən qorxuram ki, elə bir vaxt, vədə yetişə ki, insan ola, amma İnsanlıq yox.

Bir neçə il bundan qabaq gözəl şairimiz Osman Sarıvəlli, Məmməd Rahim, Yusif Səmədoğlu və mən Aralıq dənizilə səyahətə çıxmışdıq. Türkiyədə "Qapalı çarşı" deyilən bir yerə getdik. Burada dünya sənayesinin yaratmış olduğu bir çox şeylər satılırdı. Bir də gördük ki, Osman müəllim yanımızda yoxdu. Onu çox axtardıq, çünki avtobusumuz gedirdi. Gördük ki, Osman müəllim toxunma xurcunlar satılan yerdədi. Və bizi görən kimi sevincini gizlədə bilməyib dedi ki, ayə, bir buna bax, ayə! Bir vaxt bunlardan bizim Şıxlıda da toxuyardılar...

Açığını deyim ki, onda mən Osman müəllimə gülmüşdüm. İndi isə bu sözlərdəki yanğını dərk edirəm və deyirəm, sağ ol, Osman müəllim! Onu da deyim ki, mən bir şair kimi də, bir vətəndaş kimi də Osman müəllimdən çox şey öyrənmişəm.

Sən demə, yüz illər boyu rəngdən-rəngə, ilmədən-ilməyə zənginləşən, gözəlləşən toxumalarımızın, naxışlarımızın itə bilmək qorxusu Osman Sarıvəllini hələ onda düşündürürmüş. Bəli, elə bir vaxt gəlib ki, biz keçmişimizə daha böyük möcüzə kimi baxırıq, nəinki bu günümüzə.

Bu problemi mən bütöv bir kitabda qoymaq fikrinə düşmüşəm. Ar-

tıq bir neçə aydır ki, onun üzərində işləyirəm. Gördüyün bu qovluqlar da onun ilkin materiallarıdır.

S u a l: - Bəxtiyar müəllim, kitabın adı barədə fikirləşməmisiniz ki, əgər fikirləşmisinizsə oxucularımıza bəri başdan demək istəməzdiniz?

C a v a b: - Bu kitab publisistik kitab olacaq. Adını da "El bilir ki, sən mənimsən" qoyacağam.

S u a l: - Söz ki, insandan, onun böyüklüyündən düşdü, Sizin bu il Akademik Dram Teatrında tamaşaya qoyulan "Fəryad" pyesinizi xatırladım. Mümkündürsə, bu barədə bir az geniş danışaq. Məncə, pyes tarixi dram olsa da, yuxarıda toxunduğunuz problemin izləri həmin əsərdə də görünür.

C a v a b: - Tamamilə doğrudur. Mən bu əsərdə, hər şeydən əvvəl, insanın daxilini açmağa çalışmışam. Pyes böyük Azərbaycan şairi Nəsimidən bəhs edir. Tarixdən məlumdur ki, Nəsimi adı ilə bir neçə şəxs asılıbdır. Onlar Nəsimi deyildilər, Nəsiminin hədsiz pərəstişkarları idilər. Nəsimini Allah bildiklərindən "Ənəlhəqq! Mən həqiqətəm! Mənəm Nəsimi!" - deyib dar ağacına doğru gedirdilər.

Niyə? Çünki Nəsimi kimi düşünürdülər. Nəsimi kimi düşünmək isə cəmiyyət üçün çox qorxulu idi. Ona görə ki, insan düşünsə, təzələnə bilər, dəyişə bilər. Dəyişmək, təzələnmək isə tarixən qorxu olub. Mən bu əsərdə düşünə bilməyin, düşünməyin faciəsini açmaq istəmişəm.

Açа bilmişəmmi? Qoy, bunu tamaşaçılar desinlər. Bunu isə mən hələ də onlardan gözləyirəm.

S u a l: - Bir dramaturq kimi, Siz teatrla sıx əməkdaşlıq edirsiniz. Rejissorla, aktyorla, tamaşaçı ilə üz-üzə gəlirsiniz. Teatrımızın bu günü barədə nə deyə bilərsiniz?

C a v a b: - Mən bir çox şəhərlərdə - Berlində, Parisdə, Londonda, Romada, Moskvada teatr tamaşalarına baxmışam. Açığını deyim ki, Moskva teatrlarından aldığım ləzzəti heç bir teatrdan almamışam. Xarici teatrlarda, mən dil bilməsəm də, aktyor məharətinə, rejissor ustalığına diqqət yetirmişəm. Moskva teatrı güclüdür... Əlbəttə, bu, ilk növbədə, rejissordan asılıdır. Bu teatrın Gerasimov, Efros, Yefremov, Tovstonoqov kimi hər birinin öz dəst-xətti olan, son dərəcə milli rejis-

sorları var. Biz bu güclü məktəbdən öyrənməliyik. Özü də tam yaradıcı şəkildə.

Bizim teatrın tarixi yüz il bundan əvvəldən başlayır. Amma bu teatrın kökü çox-çox dərinlərdən xalq tamaşalarından, "Qodu-qodu" kimi milli oyunlarımızdan gəlir. Bu cəhətdən Elçin Aslanovun "El-oba oyunu - xalq tamaşası" kitabı bizə güclü bir söykənəcək, dayaq verir. Müəllif çox haqlı qeyd edir ki, biz heç kəsi təqlid etməməliyik, öz milli Azərbaycan teatrımızı yaratmalıyıq.

Bizim gözəl rejissorumuz Tofiq Kazımov bu yola yeni-yeni düşürdü. Ölümə nə deyim mən... Yadımdadı, mənim "Yağışdan sonra" əsərim teatrda oynanırdı. O, səhnədə nə göy gurultusu, nə də leysan yağışları yağdırmağa ehtiyac duydu. Bu işi aktyorun özünə tapşırdı, gözəl aktrisamız Şəfiqə Məmmədova səhnəyə elə çıxdı ki, elə təbii oynadı ki, tamaşaçıya elə gəldi ki, doğrudan da onu yağış-leysan qovur və indicə bu yağış salonu da ağzına alacaq. Bax, bu cür yol həm də aktyoru müti eləmir, o, müəllifin, rejissorların quluna çevrilmir, vəziyyəti oynayır. Nə isə, bircə onu bilirəm ki, teatr rejissordan başlayır, biz onu tapmalıyıq ki, öz teatrımızı tapa bilək.

Yenə də Moskva teatrına qayıtmaq istəyirəm. Orada yaşı səksəni ötmüş aktyorlar çoxdur. Bizim gözəl aktyorumuz Əli Zeylanov isə hələ qocalmamışdan səhnədən getdi.

Həsən Turabov, Həsən Məmmədov kimi istedadlı aktyorlarımızın isə təkcə kinoya bağlanmaları, teatrdan uzaqlaşmaları teatrımızın ümumi səviyyəsinə ciddi zərbə vurur. Halbuki kino aktyor yaradıcılığını məhdudlaşdırır. O, kinoda bir rolu bir dəfə, teatrda yüz dəfə yaradır. Aktyor bir obraz kimi teatrda bir neçə dəfə doğulur. Şəfiqə Məmmədova kimi aktrisadan isə imtina etməyi heç kəsə bağışlamıram.

Tamaşaçımızın da səviyyəsi zəifləyib. İndi onlar daha çox hırıltı axtarır, gülmək, əylənmək axtarırlar. Ciddi olan bir şey onlara ləzzət vermir. Görünür, bunun da sosial kökləri var. Və bu ciddi problem barədə düşünməyin vaxtı çoxdan çatıb.

S u a l: - Bəxtiyar müəllim, Siz həm də ədəbiyyatşünas alimsiniz. Müasir Azərbaycan ədəbiyyatının ümumi mənzərəsi barədə fikriniz?

C a v a b: - Son illər nəsrimizdəki irəliləyiş məni sevindirir, tənqidin vəziyyəti isə ciddi düşündürür.

S u a l: - Ədəbi proses daim inkişafdadır. Ədəbiyyata yeni-yeni nəsillər, təzə səslər, nəfəslər gəlir...

C a v a b: - Ədəbiyyata bu gün gələni dünən gələndən ayırmaq olmaz. Bu, ümumi ədəbiyyatın xeyrinə deyil. Yazıblar, yazırıq, yazacaqlar... İndi heç kəs nə H.Cavid, nə də S.Vurğun kimi yazmır. Amma onlar böyük oldular, ədəbiyyatımızın ölməz simalarına çevrildilər. Çünki Cavid Füzuliyə, S.Vurğun Sabirə oxşamağa can atmadı. Öz səslərini, öz sözlərini dedilər, özləri kimi yaratdılar.

İndi ədəbiyyata bir axın var. Bu, həmişə belə olub, bizim vaxtımızda da belə idi. Kim bu axının içində öz qayğını öz avarı ilə sürürsə, o da uzaq gedəcək...

Mən onun da əleyhinəyəm ki, kimsə, kimdənsə onun kimi yazmağı, ona oxşamağı tələb edir. Bu, doğru deyil. Amma hamının yaxşı yazmağı, gözəl yazmağı mənim də arzumdu.

S u a l: - Söhbət ədəbiyyatımızın sabahından getdiyindən bu gün ədəbi gəncliyə ciddi qayğı göstərməyin də vacib olduğunu unutmaq olmaz.

C a v a b: - Mən demək olar ki, hamını oxuyuram, uğurlara sevinirəm, uğursuzluqlara təəssüflənirəm. Onu da deyim ki, mənə elə gəlir, bizim vaxtımızda ədəbiyyata gələnlərə daha çox qayğı göstərərdilər.

Təkcə onu demək kifayətdir ki, vaxtilə bizim ilk "Almanax"ı Səməd Vurğun tərtib eləmişdi. Mehdi Hüseyn də ön söz yazmışdı. İndi biz hansımız qabağa düşüb, yeni yazmağa başlayanların yazılarını toplayıb çap etdiririk, ona görə də bizim qayğımız S.Vurğun, M.Hüseyn, S.Rüstəm, R.Rza, Ə.Vəliyev qayğısına oxşamır. Düzdür, mən və mənim bəzi qələm yoldaşlarım bir neçə kitaba ön söz və məqalə yazmışıq. Amma mən hələlik bunları qayğı saymıram. Bir halda ki, söhbət ədəbiyyatımızın sabahından gedir, biz nə eləmişiksə, azdır.

S u a l: - Dediyiniz "Almanax"da çap olunanlardan bu gün kimləri xatırlayırsınız?

C a v a b: - Nasirlərdən İsmayıl Şıxlını, şairlərdən Nəbi Xəzrini,

Hüseyn Arifi və Qabili.

S u a l: - Əsərlərinizin rus dilinə tərcüməsinin səviyyəsi ürəyinizcədirmi?

C a v a b: - Əsla yox. Mənim rus dilinə çox əsərlərim tərcümə olunub. O əsərlər yadımdadır ki, onları Y.Moris, Y.Yevtuşenko, R.Kazakova tərcümə ediblər.

"Dərin qatlara işıq", Bakı, 1986.

AZƏRBAYCAN TELEVİZİYASININ ƏMƏKDAŞI İLƏ MÜSAHİBƏ

S u a l: Bəxtiyar müəllim, "Sizin istəyinizlə" verilişində xoş gördük! Sizinlə görüşüb, sizi eşitmək istəyən tamaşaçılarımızın çoxsaylı məktublarını nəzərə alıb, sizi studiyamıza dəvət etmişik. Söhbətimizə öz misralarınızla başlamaq istəyirəm:

Ömrümü şeir oduna
Əritdim gilə-gilə.
Bu yolda qara saçı
Dəyişdim ağ saç ilə.

Bu, iftixardır, yoxsa, təəssüf? Təsəvvür edək ki, bir möcüzə baş verdi, illər geri döndü, bu ağ saçlar qaraldı, siz gənclik çağlarınıza qayıtdınız - ilk şeirinizi yazdığınız çağlara...

C a v a b : İnsanın təbiəti belədir ki, o uşaqlıqda tez yaşlaşmaq, qocaldıqda isə gəncləşmək istəyir. Bu, sadəcə arzudur. Lakin mümkünmü? Bir şey ki, mümkün deyil, o barədə düşünməyə dəyməz. Əlbəttə, ilk şeirlərimi yazdığım vaxta qayıda bilsəydim, yaradıcılığıma başqa cür başlar və yazdığım bəzi şeirlərdən imtina edər, bugünkü ədəbi gəncliyin yolunu tutardım. Çünki ədəbiyyata yeni gələn gənclər ilk addımlarını atanda özündən əvvəlki ustad şairlərdən öyrənir, yaşlaşandan sonra isə özündən sonra gələn gənclərdən öyrənməlidir.

S u a l : Sizin musiqiyə, bu sənətlə bağlı olan sənətkarlara həsr olunmuş neçə-neçə şeir və poemalarınız var. Bethovenə, Üzeyir Hacıbəyova, Fikrət Əmirova, Qara Qarayevə, Habilə həsr etdiyiniz şeirlər, "Muğam" poemanız, habelə bir sıra başqa şeirləriniz, məqalələriniz bu qəbildəndir. Həm də, sizi bir nəğməkar şair kimi tanıyırıq. Bu, poeziyanın musiqi ilə qohumluğudur, yoxsa, başqa bir hissdir sizi musiqinin ecazına bağlayan?

C a v a b : Məni musiqiyə bağlayan musiqinin öz ecazıdır. Mənə görə, incəsənətin ən füsunkar və ən cəlbedici sahəsi musiqidir. Mən sevdiyim musiqini sakit, həyəcansız dinləyə bilmirəm. Musiqi məni qanadları üstünə götürüb uçurur. Gözlərimdə hər şey gözəlləşir. Buna görə də mən, əlbəttə, bir musiqiçi kimi deyil, bir dinləyici kimi bəstəkarlar və müğənnilər haqqında fikrimi deyə bilirəm. O ki, qaldı

"Muğam" poeması, bu mənim uzun illərdən bəri xalqımızın zəngin musiqi folkloru haqqında düşüncələrimin məhsuludur. Yeri gəlmişkən, burada bir məsələyə toxunmadan ötə bilmərəm. Nədənsə, son zamanlar muğamlara bir biganəlik hiss edirəm. Bunun bir səbəbi muğam ifaçılarının bu zəngin və mürəkkəb musiqini təhrif etmələridir. Xanəndələrin muğam sənətinin incəliklərini başa düşməmələrinin, onu lazımi səviyyədə duya bilməmələrinin nəticəsində muğam xəzinəmizi inləyicinin gözündən salıblar. Dünya konservatoriyalarında klassik bir operadan bir ariyanı düzgün oxumaq üçün müğənnilər illərlə çalışdıqları halda, bir dəstgahına onlarca ariya sığışan muğamı isə bizim xanəndələr mütaliə etmədən, ifa qaydalarını mükəmməl mənimsəmədən oxumağa cəsarət edirlər. Məncə, bu işə artıq son qoymaq lazımdır. Muğamı hər təsadüfi oxuyana tapşırmaq xalq sənətinə hörmətsizlikdir. Dərin musiqi təhsili olmayan, savadsız və təsadüfi adamları az-çox səsi olduğuna görə ekrana çıxartmaq, filarmoniya səhnəsinə buraxmaq xalqa, onun minillik zəngin folklor irsinə xəyanətdir. Keçmişdə aşıqlar və xanəndələr ustad aşıqların və ustad xanəndələrin yanında illərlə şagirdlik edib musiqi təlimi keçməmiş onları toya və el məclislərinə buraxmazdılar. Bu böyük ənənəni niyə unutduğumuzu mən başa düşə bilmirəm. Muğam sənətinin gözdən düşməsinin ikinci səbəbi restoranlardan tutmuş,

ən hörmətli konsert salonlarına qədər hər yerdə estrada sənətinə boy verilməsidir. Mən estradanın əleyhinə deyiləm. Orada da gözəl sənət nümunələri var. Lakin çox zaman estrada adına həm oxuyanın, həm də dinləyənin hissini, zövqünü dayazlaşdıran, düşük mahnılara da təsadüf edirik. Bu cür bəsit mahnılar tez qavranır, tez də unudulur. Simfonik əsərləri və muğam kimi dərin əsərləri başa düşmək üçünsə, müəyyən hazırlıq və zövqün tərbiyəsi lazımdır. Görünür, yeni nəsil bu çətinliyə qatlaşmaq istəmir.

S u a l : Ustad Şəhriyarın Arazı adlayıb gələn məktublarının birində çox kövrək misralar oxumuşuq:

Səmədimin sözündən öp,
Bəxtiyarın üzündən öp.

Bəxtiyar müəllim, səhv eləmədik ki?

C a v a b : Bu misralar Şəhriyarın S.Rüstəmə şeirlə yazdığı məktubundandır.

S u a l : Bilirik ki, siz Təbrizə zəng edib Şəhriyarla danışmısınız. Bu görüşün təəssüratını "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirmisiniz. Şəhriyar poeziyasının həzinliyi, musiqisi, onun misralarında ürək kimi çırpınan həsrət, unudulmaz müğənnimiz Rübabə Muradovanın səsində Araz yanğısına çevrilir, bu yanğı ilə ürəklərə od salırdı. Şəhriyarın misralarını Rübabənin səsində eşidəndə ürəyinizi hansı duyğular bürüyür, qəlbinizdə hansı xatirələr baş qaldırır?

C a v a b : Rübabə çox sevdiyim müğənnilərdən biridir. Onun səsindəki nisgil Cənub nisgili idi və bu nisgil bizim hamımızı yandırır.

S u a l : Çingiz Aytmatov sizin yaradıcılığınızdan, poeziyanızdan həmişə qardaş məhəbbətilə, qürur və iftixar duyğusu ilə söz açır. O, sizin "Bir gəminin yolçusuyuq" kitabınızı oxuyandan sonra yazırdı: "Bizi əhatə edən aləmdə nə varsa Vahabzadəni dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindəndir. Mütəfəkkir sənətkarın, ustad şairin

başlıca qayəsi, uğuru da bundadır".

Bəxtiyar müəllim, doğrudan da, ürəkdən gələn sözlərdir. Belə sözləri çox genişqəlbli böyük sənətkar deyə bilər. İndi belə bir sual: Çingiz Aytmatovla sizi bağlayan tellər? Onun sənəti, şəxsiyyəti barədə fikriniz, düşüncələriniz? XX əsr dünya ədəbiyyatında Çingiz Aytmatovun yeri, mövqeyi?

C a v a b : Məni Çingiz Aytmatovla bağlayan tellərin bir qismi gözlə görünür, bir qismi isə mənim içimdədir. O, həm böyük sənətkar, həm böyük vətəndaş, həm də böyük insandır. Bütün sənətkarlar böyük insan və böyük vətəndaş ola bilmir. Mən Aytmatovun böyüklüyünü və şəxsiyyətinin bütövlüyünü, ilk növbədə, onun vətəninə, xalqına bağlılığında və cəsarətində görürəm. Bir dəfə "Oqonyok" jurnalında onun müsahibəsini oxudum. O, burada ekoloji problemlərdən danışır.

Aralın, İssıkkulun və çayların qurumasından söhbət açır və bunu böyük fəlakət sayır. Elə oradaca çayların və göllərin qurumasından daha dəhşətli olan bir məsələdən - milli dillərin tədricən yox olması təhlükəsindən danışır və göstərir ki, son zamanlar öz doğma dilini bilməyən və ən qəribəsi budur ki, dilini bilməməklə öyünən milli nihilistlər meydana gəlmişlər. Yazıçı göstərir ki, bu təhlükə millətçilik təhlükəsindən daha qorxuludur. Yazıçı haqlıdır. Belə milli nihilistlər bizdə də var və mən vaxtilə "Ana dili" adlı şeirimdə yazmışdım:

Siz ey doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən,
Fasonlu ədəbazlar,
Ruhunuzu oxşamır qoşmalar, telli sazlar.
Bunlar, qoy, mənim olsun,
Ancaq Vətən çörəyi, qoy, sizə qənim olsun.

Məni Ç.Aytmatovla bağlayan tellərdən biri budur. Ç.Aytmatovun XX əsr dünya ədəbiyyatında yerinə gəlincə, o, birincilər sırasındadır.

S u a l : Sizin belə misralarınız var:

Torpaq üstə səpdiyimiz
Tum da fikir,
Dən də fikir,
Sən də fikir,
Mən də fikir,
Yer, göy fikir,
Hər şey fikir.

Bəzən sizə "fikir şairi" deyirlər. Ancaq bizə elə gəlir ki, sizin poeziyanın bir qanadı hissdir, bir qanadı fikir. Siz özünüz buna necə baxırsınız?

C a v a b : Hiss olmasa, ondan fikir doğmaz. Çünki fikrin əvvəli hissdir. Bir şeydən həyəcanlanıb, sonra müəyyən fikrə gəlirik. Şair də həyəcanlanıb hissini, həyəcanını yazır. Oxucular və tənqidçilər isə şairin qələmə aldığı hissdən, həyəcandan fikir çıxarır. Buna görə də siz haqlısınız.

S u a l : Ədəbiyyatı, haqlı olaraq, insanşünaslıq adlandırırlar. Sizin şeir və poemalarınızda, pyeslərinizdə, hekayə və publisistik yazılarınızda insan taleyi ön planda durur. Bu cəhətdən "Atılmışlar" və "Ləyaqət" poemalarınızı xüsusi qeyd etmək istərdim. Hər iki əsər televiziya ekranında göstərilib. "Atılmışlar" əsasında "Vicdanla üz-üzə" adlı tamaşa hazırlanıb, "Ləyaqət"i isə özünüz oxumusunuz. Bu əsərlə bağlı tamaşaçılarımızdan yüzlərlə məktub almışıq. Görünür, poemaların dramatik süjeti, faciəli, insanı sarsıdan talelər, ürəkləri riqqətə gətirən səhnələr tamaşaçıları sarsıdıb. Yəqin ki, bu əsərlərlə bağlı siz özünüz də çoxlu məktub almısınız. Sizin toxunduğunuz bu mövzular mətbuatda da son vaxtlar özünə geniş yer tapıb. Bu əsərlər hansı hisslərlə, hansı təəssüratlarla yazılıb?

C a v a b : Mən, həqiqətən, "Atılmışlar" və "Ləyaqət" barədə oxuculardan xeyli məktub almışam. Bu mənim üçün "uydurma süjet və mövzularla oxucunun qəlbinə yol tapmaq olmaz" fikrini bir daha dərinləşdirdi. Hər iki poemanın əsasında məhz həyatda olmuş hadisələr dayanır. Mənim, təsadüfən, qocalar evində olmağım "Atılmışlar"ın ya-

ranmasına səbəb oldu. Çox təəssüf ki, qocalar evlərinə sığınan qocaların əksəriyyəti övladları tərəfindən atılmışlardır. Hamımıza məlumdur ki, bizdə qocalara həmişə hörmət olmuşdur. Qoca gələndə ayağa qalxmaq, ona yer göstərmək, onun qulluğunda durmaq, bizdə əsrlərin ənənəsidir. "Yol böyüyün, su kiçiyindir"... atalar sözü də fikrimizi təsdiq edir. Bu belə isə, bəs indi bizə nə olub ki, ata-analarımızı qocalar evinə, balalarımızı isə körpələr evinə atırıq? Bəs, minillik ənənəmizə birdən-birə nə oldu? İndi yenidənqurma dövründə bu ciddi məsələlərə də yenidən baxmalı, bu sahədəki ənənələrimizi özümüzə qaytarmalıyıq. "Atılmışlar" poeması bu fikrin təbliğinə həsr olunmuşdur.

"Ləyaqət" poeması da olmuş bir əhvalat əsasında yazılmışdır. Bu barədə "Komsomolskaya pravda" qəzetinin 1986-cı il 10 sentyabr tarixli nömrəsində jurnalist İnna Rudenkonun məqaləsini oxudum. Jurnalist 13 yaşlı Saşa Loqvinovun başına gələn faciəni nəql edir. Saşa ona atılan böhtana dözə bilmir, özünü öldürür. Poemanın əsasına qoyulan bu əhvalat mənə haqsızlıqlar və insan ləyaqətinin, şəxsiyyətinin qorunması haqqında sözümü deməyə bir vasitə oldu. Buna görə də poemanın adını "Ləyaqət" qoydum.

S u a l : Sizi həyatda və sənətdə özünə ideal sayan gənclərimiz çoxdur. Buna siz necə baxırsınız? Sizin özünüzün həyatda və sənətdə idealınız?

C a v a b : Məni özünə ideal sayan gənclərə minnətdaram. Bu, mənim qələmimə hörmət əlamətidir. Şəxsən mənə gəlincə, mən özümü ideal hesab eləmirəm. Mənim üçün ideal öz fikrini və hissini heç bir şeydən çəkinmədən açıqcasına deyə bilən və əqidəsi yolunda hər bir məhrumiyyətə hazır olan, ölümü belə mərdliklə qarşılayan qorxmaz adamlardır. Bizim tariximizdə Nəsimi belələrindəndir.

S u a l : Sizcə, poeziya nədir? Bəs, harda, ilin hansı çağında, günün hansı vaxtında işləməyi xoşlayırsınız? Şeirli, şeirsiz günləriniz?

C a v a b : Bu suala cavab vermək çətindir. Hər hansı bir şeirin ilk misrasından onun şeir olub-olmadığını dərhal deyə bilərəm. Amma şeirin elmi tərifini və onun şərtlərini deməkdə acizlik çəkirəm. Sualın ikinci tərəfi, yəni ilin, günün hansı çağında yazıram sualının cava-

bı belədir: ilin bütün çağlarında, xoş ilham əhvalında yazıram. Günə gəlincə, məqalələrimi, əsasən, səhərlər, şeir və pyeslərimi isə gecə 11-dən sonra, bəzən səhərə qədər, gecənin sakitliyində yazmaq mənə xoşdur.

S u a l : İndi masanızın üstündə hansı yarımçıq, davamını gözləyən yazılarınız var? Qarşıda oxucularımızla, tamaşaçılarımızla sizi hansı görüşlər gözləyir?

C a v a b : Hazırda teatrımız üçün müasir mövzuda bir pyes üzərində işləyirəm. Elə güman edirəm ki, bu əsəri oktyabrın əvvəllərində teatra təqdim edə biləcəyəm.

A p a r ı c ı : Bəxtiyar müəllim, maraqlı söhbət üçün təşəkkürümüzü bildirməklə, sizə möhkəm cansağlığı, həmişəki kimi yenə də sənətkar rahatlığı və yaradıcılıq uğurları arzulayırıq.

"Gəlin, açıq danışaq", Bakı, 1989.

GƏNCLƏRƏ HƏQİQƏTİ DEMƏK LAZIMDIR

"Azərbaycan gəncləri" qəzetinin müxbiri Müsəllim Həsənovla müsahibə

- Bəxtiyar müəllim, ölkəmizdə genişlənən yenidənqurma prosesi sovet cəmiyyətinin həyatında ciddi dəyişiklikləri zəruri etmişdir. Bu mənada demokratiyanın genişləndirilməsi və aşkarlıq siyasəti yenidənqurmanın mühüm amilidir, - desək, məncə yanılmarıq. Lakin təəssüflə etiraf edək ki, yenidənqurma, bununla birgə isə əsl demokratiya, əsl aşkarlıq bizim respublikada bir qədər ləngimişdir. Nəticədə, xalqı düşündürən, narahat edən problemin həlli gecikmişdir və bütün bunlar respublika zəhmətkeşlərini, xüsusən də dərhal dəyişiklikləri, dərhal yeniləşmə gözləyən gəncliyi daha çox narahat edir. Onlar bir çox suallara konkret cavab axtarırlar. Redaksiyaya daxil olmuş oxucu məktubları təsdiq edir ki, gənclik narahatdır. Bu narahatlıqla əlaqədar gənclərə sözünüz, arzunuz...

- Doğrudur, bizdə yenidənqurma ləng gedir. Bu ləngimənin özündən doğan narahatlığı da mən təbii sayıram. Gənclik yenə də suallar qarşısında qalıb. Niyə? Nə üçün? - sualları qarşısında. Mən sizi inandırım ki, Qorbaçov yoldaşın dediyi yenidənqurma, inqilabi yenidənqurma, yeni təfəkkür hələ gəlib bizə çatmayıb. "Yenidənqurma" sözünə "inqilabi" sözü elə-belə epitet kimi əlavə olunmur. Burada dərin məna var. İn-

qilabi, yəni kökündən dəyişmə, əsaslı surətdə yeniləşmə mənası var. Təəssüf ki, bizdə bu, hələlik tam anlaşılmayıb. Yenidənqurmanın 3 ili keçir. Amma bizdə hələ köhnə stereotiplər, köhnə düşüncə tərzi yaşayır. Hələ biz yeniləşə, dəyişə bilməmişik.

Bütün inqilablar zamanı xalqı düzgün yola aparan, düzgün istiqamətləndirənlər də olub, cığırdaşlar, ucuz "xalq qəhrəmanı" olmaq istəyənlər də. Və qəribədir ki, bütün dövrlərdə ikincilərin mövqeyi, "tribuna boşboğazlığı" inqilab işinə ziyan vurub. İnqilabi yenidənqurma prosesi də belə vəziyyət yaradıb. Elə vəziyyət yaranıb ki, inqilab dalğası hər kəsi hadisələrin mərkəzinə ata bilər. Bax, burada adamların özünü necə aparacağından çox şey asılıdır. Bax, bu vəziyyət hər kəsdən ciddi məsuliyyət tələb edir. Deyilən hər sözün, atılan hər addımın sonrasını düşünməyi zəruri edir. Gənclik bu məsuliyyəti anlamalıdır.

Bu son günlərdə xalqı narahat edən məsələlərlə əlaqədar bir neçə dəfə respublika partiya təşkilatının yeni rəhbərliyi ilə görüşüb söhbət etmişəm. Xalqımızı - yaşlıları da, cavanları da narahat edən məsələlər ətrafında geniş fikir mübadiləsi etmişik. Bu söhbətlər zamanı adamları düşündürən, həll edilməsi vacib olan məsələləri iki qrupa bölmüşük. Təxirəsalınmaz məsələlər və səbrlə, təmkinlə həll edilməli məsələlər.

İndi aşkarlıq və demokratiyanı genişləndirmək, yenidən qurmanı sürətləndirmək, bütünlükdə son illər respublikada hökm sürmüş ətaləti aradan qaldırmaq vacib məsələlərdir. Bunsuz digər problemləri də həll etmək asan deyil.

Bir sözlə, bütün respublika zəhmətkeşlərini düşündürən bütün məsələlər barəsində Mərkəzi Komitəyə, onun rəhbərliyinə məlumat vermişik. Yeni rəhbərlik bu məlumatları, ziyalılarımızın təkliflərini həssaslıqla, qayğı ilə dinləyib, problemləri çətinliklə aradan qaldırmaq üçün konkret tədbirlər görməyə başlamışdır. İndi hər birimiz yaşından, vəzifəsindən asılı olmayaraq, hamı səbrlə, təmkinlə bu tədbirlərin həyata keçirilməsinə kömək etsə, məncə, problemlərin həlli asan olar.

- Şübhəsiz, bütün bu məsələlərin həllində, adamları səfərbərliyə almaqda mətbuatımızın, kütləvi informasiya vasitələrinin üzərinə

həmişəkindən qat-qat çox məsuliyyət düşür. Adamlarla açıq söhbət, canlı dialoq bu günlər daha da zəruri olmuşdur. Amma açığını deyək ki, oxucular hələ də mətbuatımızdan gileylənirlər.

- Oxucuların giley-güzarı haqlıdır. Bu mənada respublika mətbuatı xalqa çox borcludur. Çünki qəzetlərimiz hələ köhnə orbitdən, təriflər orbitindən, əhəmiyyətsiz məsələlər dairəsindən çıxa bilməyib. Mətbuatımızda yenidənqurma sözü gen-bol işlənir, amma onun özü yoxdur. Necə olur ki, mərkəzi qəzetlərin az qala hər nömrəsi əl-əl gəzir, bizim qəzetlər isə köhnə ənənə ilə işlədiyindən oxucunu təmin etmir? Məgər bizdə istedadlı jurnalistlər azdır? İnanmıram. Sadəcə olaraq, köhnə stereotiplərlə, "bəlkə də qaytardılar" arzusu ilə yaşayan redaktorlarımız var. Beləliəri isə təbii olaraq açıq söhbətdən, xalqı narahat edən problemlərdən qaçır və nəticədə nəinki yenidənqurmaya kömək etmir, əksinə, bu böyük prosesə mane olur.

- Görünür, hələ bizə tam aşkarlığın özü də gəlib çatmayıb...

- Tamamilə doğrudur. Biz hələ aşkarlıq siyasətinin bəhrəsini dadmamışıq. Axı, bizim yaralarımız, dərdlərimiz az deyil. Bütün bunlar barədə niyə susmalıyıq? Nə vaxta qədər susmalıyıq? Elə susa-susa bu vəziyyətə düşməmişikmi?

- Dörd aydan bəri adamları bir məsələnin - Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrin daha çox narahat etdiyini də gizlətmək olmaz. Bu məsələ ilə əlaqədar Siz, eləcə də digər ziyalılarımız, habelə partiya və dövlət rəhbərləri respublika zəhmətkeşlərini səbrli olmağa, ağılla, təmkinlə hərəkət etməyə çağırırsınız. Bu çağırışların yaranmış gərginliyi aradan qaldırmaq, bunun milli ədavətə çevrilməməsi üçün edildiyi hamıya bəllidir. Və hamı da bu çağırışları təbii hesab edərək Sizə, ziyalılarımıza inanırlar, respublikada ictimai asayişin pozulması üçün əllərindən gələni əsirgəmirlər.

Bu günlər DQMV-nin və Ermənistan SSR-in kütləvi informasiya vasitələrində isə əksinə, ikibaşlı araqızışdırıcı, bəzən də millətçi çağırışlar verilir. Bu yaxınlaradək bütün bu cür halların bir qrup ekstremis-

tin işi olduğunu, Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsi barədə fikri də onların yaydığını söyləyirdik.

Bəs bu günlərdə Ermənistan SSR Ali Soveti sessiyasının da bu fikrə şərik olmasına və Dağlıq Qarabağın Ermənistana verilməsi barədə bizim respublika Ali Sovetinə müraciət etməsinə nə ad verək?

- Dağlıq Qarabağ ətrafında baş verən hadisələr nəinki respublika zəhmətkeşlərini, hətta milliyyətindən asılı olmayaraq ittifaqımızda yaşayan bütün xalqları narahat edir. Bu vəziyyətin yaranmasına gətirib çıxaranlar ölkəmizdə illərdən bəri müqəddəs saydığımız xalqlar dostluğuna xəyanət etdilər. Belələri mütləq cəzalandırılmalı, bu barədə xalqa məlumat verilməlidir.

Bu məsələlərlə əlaqədar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 13 iyun 1988-ci il tarixli qərarı ilə artıq tanış olmuşsunuz. Qərardan bir cümləni xatırlatmaq istəyirəm: "Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSRdən Ermənistan SSR-in tərkibinə verilməsi haqqında DQMV Xalq Deputatları Soveti deputatlarının xahişini hərtərəfli nəzərdən keçirərək, həmin xahişi məqbul hesab etmir, ona görə ki, bu xahişin yerinə yetirilməsi respublikanın azərbaycanlı və erməni əhalisinin mənafelərinə zidd olardı, ölkəmizin bütün xalqlarının dostluğunu möhkəmləndirmək vəzifələrinə cavab verməzdi".

Bizim yekdil fikrimiz belədir. Lakin Ermənistan SSR Ali Soveti sessiyasının bu məsələyə birtərəfli münasibəti, heç bir əsası olmayan qərar qəbul etməsi nə deməkdir? Bu məsələ nə dərəcədə ağlabatandır?

Məlum olduğu kimi, bizim respublika Ali Sovetinin də sessiyası keçirilmiş, Ermənistan SSR Ali Soveti sessiyasının müraciəti hərtərəfli müzakirə edilərək, qəti şəkildə rədd edilmişdir. Bu barədə qərar mətbuatda dərc olunmuşdur.

Axı, dəfələrlə deyilib ki, məsələnin bu cür həlli – Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən ayrılıb Ermənistan SSR-in tərkibinə verilməsi mümkün olan iş deyil. Bu, Azərbaycan SSR-in suverenliyinə, burada yaşayan xalqların mənafeyinə ziddir. Bu, bütün Sovet xalqları birliyinə, beynəlmiləlçilik prinsiplərinə daban-dabana

ziddir!

Mən bir deputat kimi, vətəndaş kimi Sov. İKP MK Siyasi Bürosunun, SSRİ Ali Soveti Rəyasət Heyətinin bu işə konkret əncam çəkməsini, xalqlar arasında nifaq toxumu səpənləri ciddi cəzalandırmasını xahiş və tələb edirəm. Axı, bu məsələlərin həllinin yubadılması xalqlar arasında ədavətə səbəb olur.

Ermənistan SSR-də yaşayan azərbaycanlıların dincliyinin qorunmaması, onların doğma yurddan uzaqlaşdırılmasının qarşısının alınmaması da bu gün hamını narahat edir. Bu günlərdə mətbuatda xəbər verilmişdir ki, iyunun 14-dək Ermənistan SSR-dən Azərbaycana 4 min nəfərdən çox adam gəlmişdir. Niyə? Axı, adamları öz doğma yurd-yuvasından qovanlar, buna imkan verənlər niyə cəzalandırılmır? Dağlıq Qarabağın özündə tətillər, azərbaycanlıların kütləvi şəkildə işdən qovulması sovet qanunları ilə bir araya sığmır. Bununla əlaqədar daha qəti tədbirlər görülməsə, adamların narahatlığına son qoyulmayacaq.

Dağlıq Qarabağda da, Ermənistanda da yaşayanlar irdəfəlik bilməlidirlər: torpaqdan pay olmaz!

Ali Sovetin sessiyası Millətlərarası münasibətlər və beynəlmiləl tərbiyə daimi komissiyası da yaratdı. Mən də o komissiyanın üzvüyəm. İtirdiklərimizi bərpa etmək üçün, beynəlmiləl tərbiyəni gücləndirmək üçün görüləcək iş çoxdur. Bircə şərtlə. Dağlıq Qarabağla əlaqədar məsələ yüksək səviyyədə həll edilib qurtarsın. Torpaq iddialarına konkret cavab verilsin.

- Son vaxtlar oxucular, xüsusən gənclər xalqımızın milli mənşəyi, tarixi barədə daha çox məlumat almaq, daha çox öyrənmək istəyirlər...

- Bəli, bu, həqiqətdir. Mən istərdim bir az uzaqdan başlayım. Bir el misalı var, dədəsini tanımayan, özünü də tanımaz. Nədənsə, uzun müddət, xüsusən Stalin dövründə bizim dədəmizi bizdən gizlədiblər. Bu tendensiya, təəssüf ki, bu günə qədər davam edir. Gənclərin milli mənşəyimizi, tariximizi öyrənmək istəyini alqışlayıram. Bu, tamamilə təbii arzudur. Bir xalq ki, öz mənşəyini, keçmişini bilməyə, haradan gəlib hara getdiyini öyrənməyə, onun axırı necə olar? Biz öz

keçmişimizə, öz əcdadımıza hörmət etmiriksə, gələcəyimizdən nə gözləyək? Ç.Aytmatovun "Əsrdən uzun gün" əsərində bu məsələ çox qlobal şəkildə qaldırılır. Bir xalqı məhv etmək üçün onun tarixini məhv etmək kifayətdir. Belə xalq ölümə məhkumdur. Ona görə də tariximizi öyrənmək, keçmişimizi araşdırmaq bizim təxirəsalınmaz vəzifəmizdir. Bunsuz gələcək nəsillər bizi daş-qalaq edər.

- Bir halda ki, söhbət tariximizdən düşdü, xatırladaq ki, ali və orta məktəblərimizdə Azərbaycan tarixinin tədrisi işinin pis təşkili də adamları ciddi narahat edir. Bir müəllim kimi bu məsələyə sizin münasibətiniz?

- Məsələ belədir ki, bizim tariximiz özü düzgün işıqlandırılmayıb. Bu vəziyyət dözülməzdir. Xalqın tarixi düzgün yazılmalıdır. Bizim xalqa heç bir torpaq iddiası, heç bir mənəmlik, "ən qədimlik", "ən mədənilik" iddiası gərək deyil. Tariximiz necə var, elə də yazılmalıdır. Bizim keçmişimiz necə olubsa, o kifayətdir. Bu tarixdə fəxr etməli, öyünməli səhifələr az deyil. Di gəl, onu dəqiq araşdırıb, sanballı kitab şəklində oxucuya verə bilməmişik.

Yəhya Zəka adlı bir İran alimi yazır ki, "azərbaycanlı" adında xalq yoxdur. Onlar farsın tör-töküntüləridir. Bu şovinist alimə mən öz münasibətimi şeirlə bildirmişəm. Amma təəssüf ki, belə saxta fikirlərin yaranmasına çox vaxt özümüz imkan veririk, tariximizi pis öyrənməklə, pis öyrətməklə. Bu, ən böyük faciədir.

Belə olan halda, Azərbaycan tarixinin pis tədris olunmasından gileylənmək azdır. Gərək əvvəl kamil dərsliyimiz olsun, sonra onun tədrisi. Respublika Elmlər Akademiyası doqquz cilddən ibarət "Azərbaycan tarixi" kitabı hazırlayır. Bu işi sürətləndirmək günün vacib məsələsidir.

- Bəxtiyar müəllim, bizə elə gəlir ki, eramızdan əvvəl III əsrdən eramızın VIII əsrinə qədər olan dövrü əhatə edən "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" kimi sanballı kitab yazmış Fəridə Məmmədovanın tədqiqatı bu sahədə ilk qaranquşdur...

- Mən F.Məmmədovanın kitabı haqqında məqalələrimdən birində söhbət açmışam. Bu kişi qeyrətli qadın alimimizin əsəri gərək hər bir azərbaycanlının stolüstü kitabı olsun. Amma nə fayda, bu cür lazımlı kitab az tirajla, həm də yalnız rus dilində buraxılıb, halbuki bu kitabın Azərbaycan dilində kütləvi tirajla nəşrinə ehtiyac var.

Onu elmi ictimaiyyət müzakirə edib, haqqında konkret söz deməlidir. Unutmaq olmaz ki, tarix dövri mətbuat deyil, burda hər sözün, hər fikrin üzərində əsmək lazımdır. Biz tarixə nəzər salarkən milli məhdudiyyətə yol verə bilmərik. Mən "Elm" nəşriyyatının lap bu yaxınlarda nəşr etdiyi "Azərbaycanın tarixi coğrafiyası" (rus dilində) kitabının da adını çəkmək istəyirəm. Ayrı-ayrı alimlərin yazdığı bu məqalələr toplusu eramızdan əvvəl III əsrdən eramızın XVIII əsrinə qədər olan dövr barədə çox maraqlı təsəvvür yaradır.

- Ana dilinə münasibət, bir çox idarə və təşkilatlarımızda dövlət dilimizdən - Azərbaycan dilindən yarıtmaz istifadə olunduğu, bəzi nazirlik və idarələrdə, ümumiyyətlə, Azərbaycan dilinin unudulduğu barədə Siz dəfələrlə ürək ağrısı ilə söhbət açmısınız. Dilimizə biganəlik hamımızı narahat edir. Bu narahatlığımız barədə indiki aşkarlıq dövründə "həyəcan təbili" çalmaq vaxtı deyilmi?

- Mən qırx ilə yaxındır ki, bu barədə deyirəm, danışıram. Hər xalqın öz dili var, o dili yaşatmaq da onun müqəddəs borcudur. Axı, qardaş, həyatda sərçə sərçə kimi cikkildəyir, qarğa da qarğa kimi qarıldayır. Təbiətdə heç kim bu səsləri bir-biri ilə qarışdırmır. Xalqın da dili belədir. Xalq dili ilə yaşayır, dili ilə xalqdır.

Amma unutmaq olmaz ki, bizdə təşviş yaradan heç də ana dilimizin öz kəsərini itirməsi, geniş miqyasda, tətbiq edilməməsi deyil. Bu mənada dilimiz zəngindir, hamımıza əzizdir. O, dövlət dilimizdir. Bizim Ali Sovetin sessiyaları bu dildə aparılır. İdarə və təşkilatlarda bu dilin işlənməsinə mane olan heç bir sənəd, göstəriş yoxdur. Amma təəssüf ki, ayrı-ayrı nazirliklərdə, idarə və təşkilatlarda bu dilə biganəlik göstərən, onu urvatdan salan vəzifəli şəxslər az deyil. Ən dəhşətlisi isə budur ki, Azərbaycan mühitində, azərbaycanlı ailəsində böyüyüb tərbiyə almış bir çox eloğullarımız anasının dilini bilmir, ya da alayarımçıq bilir.

Buna nə ad vermək olar? Belələri dövlət idarələrində necə işləyirlər? Bu cür adamlar öz doğma anasının dilinə biganədir, özləri bilər, amma Azərbaycan dövlət idarələrində oturub Dövlət dilini bilməmək nadanlıqdır. Mən başqa söz tapa bilmirəm. Çox dil bilmək xoşbəxtlikdir. Lakin ana dilini öyrənəndən sonra. Bunun üçün yuxarıdan heç bir fərman, göstəriş lazım deyil. Bu qeyrət işidir. Xalqına hörmət edən hər kəsin borcudur.

- Bəxtiyar müəllim, yadınızdadırsa, ötən ilin yayında Baltikyanı respublikalarda millətçi nümayişlər, mitinqlər keçirilmişdir. "Pravda" qəzeti bu hadisələri təhlil edərkən çox ibrətamiz bir nəticəyə gəlirdi. Vilnüsdə yaşayan bir nəfər rus müxbirə şikayətlənirdi ki, neçə illərdir burada yaşayıram, rus dilində "salam"ı da almırlar. "Pravda" belələrinə cavab verirdi ki, günah sizin özünüzdədir. Xalqın içərisində yaşayıb, o xalqın dilini bilməmək, həmin xalqa hörmətsizlikdir.

- Bəli, yaxşı yadımdadır. "Pravda"nın bu mövqeyi, açığı, məni də çox sevindirdi.

Ötən il opera teatrımızın təmirdən sonra açılışı oldu. Bununla əlaqədar gecə keçirildi. Həmin gecədə dörd nəfər çıxış etdi və heç biri də ana dilində danışmadı. Mən bu barədə etirazımı vəzifəli yoldaşlardan birinə bildirdim. O, mənə nə desə yaxşıdır: biz beynəlmiləlçiyik! Deyirəm, ay əmioğlu, bu tədbir iki dildə olsaydı, olardı beynəlmiləlçilik. Bir dildə keçirildikdə olur millətçilik. "Beynəlmiləl" sözü elə "millətlər birliyi" demək deyilmi?

Müharibə və əmək veteranı Rəmzi Yüzbaşovdan aldığım məktubdan bir misal gətirmək istəyirəm. O, Bakı şəhərində küçə adlarının tərcümə edilib bir dildə yazıldığı haqqında etirazımı Bakı Şəhər Soveti İcraiyyə Komitəsinə göndərib və bildirib ki, küçə adı tərcümə olunmaz, iki dildə yazılar. Bakı Sovetindən ona verilən cavabda deyilir ki, Bakı beynəlmiləl şəhər olduğundan, küçə adları adətən bir dildə yazılır. Axı, niyə? Elə məhz Bakının beynəlmiləl şəhər, çoxmillətli şəhər olduğunu nəzərə alıb küçə adlarını iki dildə yazmaq lazımdır də!

- Oxucuları tarixi abidələrimizə, küçə və yer adlarına biganə münasibətimiz də ciddi narahat edir. Xüsusilə, Araz çayı üzərində

dəryaça tikilməsi ilə əlaqədar Xudafərin körpülərinin su altında qalması təhlükəsi, xalqına, bu xalqın keçmişinə hörmət edən hər kəsi düşündürür...

- Xudafərin körpülərinin taleyi ilə əlaqədar bu yaxınlarda mən Akademiyanın hesabat iclasında da danışmışam. XII-XIII əsrlərdə tikilmiş 11 və 15 tağlı Xudafərin körpüləri xalqımızın ən nadir abidələrindəndir. Bu körpülər, nəinki Zaqafqaziyada, hətta Ön Asiyada sənət nöqteyi-nəzərindən misilsiz memarlıq nümunəsidir. Bu abidələrə xəyanəti tarix bizə bağışlamaz.

Digər tərəfdən, axı, bu körpülər bizi Cənubi Azərbaycanla, qardaşlarımızla bağlayan yeganə tellərdir. Bu telləri kəssək, vay bizim halımıza!

İndira Qandinin bir fikrini xatırladım. O yazır ki, biz qabaqcıl ölkə olmaq üçün texniki imkanlarımızı artırmalıyıq. Amma vəsaitimizi ən əvvəl tarixi abidələrimizi qorumağamı sərf edək, yoxsa, bu vəsaitlə texniki nailiyyətlər qazanaq? Sonra deyir ki, texniki nailiyyətlərimizi tədricən artıra bilərik, amma tarixi abidələrimizi qorumasaq, biz biz olmarıq, hind xalqı məhv olar.

Nə gözəl sözlərdir...

Küçə və yer adlarına gəlincə, deyim ki, burada da qüsurlarımız çoxdur. Elə Bakının özündə elə eybəcər, anlaşılmaz küçə adları var ki, nə adamın dili tutur, nə də anlamaq olur.

Mətbuatda xəbər verildiyi kimi, bu işdə yol verilmiş nöqsanları aradan qaldırmaq məqsədilə Bakı Şəhər Soveti İcraiyyə Komitəsi yanında xüsusi komissiya yaradılmışdır.

Bu komissiya artıq bir sıra küçə və meydanlarımıza layiqli adlar vermişdir. Küçələrimizə Babəkin, Xətainin, ilk "Azərbaycan dili" dərsliyi tərtib etmiş Çernyayevskinin, Aşıq Ələsgərin, Sadıqcanın, general Şıxlinskinin, general Mehmandarovun, İsrafil Məmmədovun adlarının verilməsi hamının ürəyindən olmuşdur. Respublika qəzetlərinin çap olunluğu "Kommunist" nəşriyyatı yerləşən küçəni Mətbuat prospekti adlandırmaq hamımızın çoxdankı arzusu idi. Komissiya bu sahədə işi davam etdirir. Adamlar maraqlı təkliflərlə hər gün komissiyaya müraciət edirlər. Amma təəssüflə qeyd edim ki, bəziləri düşünmədən, götür-

qoy etmədən qəribə təkliflər yazırlar. Məsələn, bir qrup vətəndaşdan aldığımız məktubda İçərişəhərdə, Böyük Qala, Kiçik Qala, Qəsr və s. kimi küçə adlarının dəyişdirilməsi təklif edilir. Sual olunur: niyə? Axı, biz küçə və yer adlarımızı elə-belə, kiminsə xoşuna gəlmək üçün dəyişmirik. Dəyişirik, küçələrə ad veririk ki, tariximiz yaşasın, tarixi şəxsiyyətlərimiz unudulmasın. Belə olan halda Böyük Qala, Kiçik Qala, Qəsr kimi adların nəyi pisdir? Axı, bu adlar İçərişəhərin gözəlliyidir, bizim tariximizdir. Onsuz da dilimizdə az işlənən bu adları küçələrdən də götürsək, nə qazanarıq? Tariximizdən, İçərişəhərimizin qədimliyindən uzaqlaşmarıqmı?

Bir sözlə, arzu edərdim ki, komissiyaya məktub göndərən yoldaşlar keçmişimizə sədaqət borcunu unutmasınlar. Gələcək nəsillər qarşısında borcu!

- Bəxtiyar müəllim, oxucular tarixi abidələrimizin qorunması və bərpası ilə, xalqımızın milli qəhrəmanlarına abidə qoyulması ilə əlaqədar konkret təkliflər verirlər. Onlar Bakıda Koroğluya, Babəkə, Qaçaq Nəbiyə və başqalarına heykəl qoyulması üçün vəsait keçirməyə də hazır olduqlarını bildirirlər. Təki, bu işdə irəliləyiş olsun, qolunu çırmayıb irəli çıxan olsun...

- Doğrudan da, bu vaxta qədər biz paytaxtımızda Koroğluya, digər el qəhrəmanlarına layiqli abidələr qoymamaqda xəcalətliyik. Bu sahədə artıq ilk addım atılıb. Bu yaxınlarda Naxçıvanda Koroğluya qoyulmuş abidənin açılışı olub. Koroğlu kimi bir abidəsi olan xalqın öyünməyə haqqı var! Nəbi kimi qəhrəman oğul yetirən torpaq göz üstə tutulmalıdır. Amma təəssüf ki, belə heykəllərin qoyulması xeyli ləngidilib. Gürcü xalqı Ana dilinə abidə qoyub. Hər il sentyabrın 1-də birinci sinfə gedən uşaqlar bu abidə üzərində and içirlər. Dilə sədaqət andı!

Dədə Qorqud niyə bizim müdriklik abidəmiz olmasın?!

- Xeyriyyə fondu yaratmaq haqqında təşəbbüs də respublika ictimaiyyətinin ürəyindən olmuşdur. Bu sahədə nə kimi işlər görülür?

- Doğrudur, belə bir fond yaratmaq sahəsində konkret işlər görülür. Onu da deyim ki, müəyyən məsləhət-məşvərətdən sonra bu fondun adı-

nı “Qayğı” qoymaq qərarına gəldik. Məsələn, deyək ki, bir abidə uçub, onu təmir etdirmək, qəzaya düşənlərə, ehtiyacı olanlara kömək etmək və s. “Qayğı” fondunun əsas işi olacaq.

- Son vaxtlar gənclərin zövqü, mənəvi dünyası barədə giley-güzar çoxalır. Müsahibənin məhz gənclər qəzetində dərc olunacağını nəzərə alıb bu haqda ətraflı danışmağınızı xahiş edirik.

- Bilirsinizmi, biz informasiya əsrində yaşayırıq. İnformasiya axınının isə yaxşı cəhətləri ilə yanaşı, pis cəhətləri də var. Məsələn, bəzən bizim gənclər bu informasiya axınında klassik ədəbiyyatımızdan, klassik musiqimizdən uzaqlaşır. Qərbin bizim təbiətimizə yad meyllərinə uyurlar. Mən bununla xarici musiqini də, xarici ölkələrin mədəniyyətini də inkar etmək fikrində deyiləm. Amma hər şeyin əndazəsi var. Mən bəzi cavanlarımızın Afrika xalqlarına məxsus ritmik musiqiyə aludəçiliyini anlaya bilmirəm. Beləliəri təbii ki, nə muğamlarımızı bəyənir, nə “Segah”a qulaq asır, nə də “Kərəmi” oduna “yanır”. Halbuki öz xalqının ruhunu, öz xalqının musiqisini, ədəbiyyatını biləndən, öyrənəndən sonra başqalarını öyrənmək lazımdır. Məsəl var, öt kökü üstə bitər. Torpaqdan ayrılanın, ayağını torpağına möhkəm dayamayanın nə zövqü, nə də mənəvi dünyası kamil ola bilər.

Əvvəllər televiziyada bir rəqs klubu var idi, məktəblilərə rəqs öyrədirdilər. Bəs, bu rəqslər niyə milli rəqsimiz olmasın? Niyə biz gənclərimizə “Vağzalı”, “Tərəkəmə” və s. Kimi doğma rəqslərimizi yox, deyək ki, Afrika xalqlarına məxsus atılıb-düşmək öyrədək? Bax, bütün belə səhvlərimiz indi bizi giley-güzara məcbur edir. Bu işdə, məncə, gənclər təşkilatlarının üzərinə mühüm vəzifələr düşür. Gənc nəslin mənəvi aləmi, onların düzgün həyat mövqeyindən yayınması hamımızı narahat etməlidir.

- Bəxtiyar müəllim, burada, şübhəsiz, ölkəmizin həyatında son onilliklərdə baş vermiş bir sıra mənfi hadisələr, lap elə durğunluq dövrünün mənfi təsiri az olmamışdır. Axı, gəncləri uca kürsülərdən sağlam həyat tərzinə çağıranların çoxu qeyrisağlam yaşayış tərzi

seçdiklərindən bu çağırışlar təsirsiz, havadan asılı qalmışdır. Təsirsiz qalmaq bir yana, belə ikiüzlülük, ikili mövqe biz cavanlarda inamsızlıq yaratmışdır. Gənclərdə əvvəlki inamı, əqidəni bərpa etmək üçün siz yazıçıların üzərinə çox ciddi məsuliyyət düşdüyünü gizlətmək olmaz. Sizcə, bunun üçün ən əvvəl nə etmək, nədən başlamaq lazımdır?

- Tamamilə haqlısınız ki, gənclərin inamını öldürmüşük. Yalanlarla "urralarla", "alqışlarla". O qədər yalan deyilib ki, doğru sözə də inanan olmayıb. Hamı əl çalıb, amma hamı ürəyində başqa cür düşünüb. Bax, bu, bəladır, faciədir. Ona görə də adamlarda inamı bərpa etmək lazımdır. Elə yenidən qurma da bunu tələb edir. Lakin bu işdə yazıçıların məsuliyyəti, təkcə onların fəaliyyəti kifayət deyil. Hər şeydən əvvəl, həqiqət olmalıdır. Həqiqət deyilməlidir. Yalnız həqiqəti deməklə biz cavanları inandıra bilərik. Başqa yol yoxdur. Yoxsa, yüz mənim kimi yazıçı nə qədər danışsın, düzlüyə çağırsın, faydası olmayacaq. Gənclərə həqiqət gərəkdir. Qoy, acı olsun, sərt olsun, amma həqiqət olsun! Əgər biz yenə deyəcəyiksə ki, bir milyon ton pambıq, bir o qədər üzüm veririk, yenə yalan danışacağıq. Onda da nə inamı bərpa edə biləcəyik, nə də gənclərin etibarını.

Bir sözlə, haqqında danışdığımız durğunluq dövrünün neqativ hallarını aradan qaldırmadan, "urralardan" həyatımızın həqiqətinə enmədən irəliləyişdən danışmaq olmaz. Gəlin, bu məsələni unutmayaq.

- Nəhayət, sonuncu sual. Bir neçə gündən sonra XIX Ümumittifaq partiya konfransı öz işinə başlayacaqdır. Siz də konfrans nümayəndələri sırasında olacaq, onun işində bilavasitə iştirak edəcəksiniz. Bu konfransdan nə gözləyirsiniz? Sizcə, hansı məsələlərin müzakirəsi daha vacibdir?

- Konfrans ölkəmizdə inqilabi yenidənqurmanı daha da dərinləşdirməyə, demokratiya və aşkarlıq prinsiplərini daha da genişləndirməyə kömək etməlidir. Çünki təcrübə göstərir ki, yenidənqurmanın addımları çox yerdə ləngidilir, bəzən demokratiya, aşkarlıq şüarları altında anarxiya, başıpozuqluq halları baş verir. Elə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr belə başıpozuqluğa misal deyilmi?

Konfrans üçün Sov. İKP MK-nın tezislərində deyilir: "... Həyat göstərir ki, millətlərarası münasibətlərə aid məsələlərə, hər bir millətin və xalqın inkişafına daim diqqət yetirmək tələb olunur. Bütün millətlərin mənafelərinin ödənilməsini onların yaxınlaşması və qarşılıqlı yardımı ilə əlaqələndirən siyasi xətt, millətçilik və şovinizm ilə bir araya sığmayan beynəlmiləlçilik ideologiyası belə məsələlərin həlli üçün əsasdır".

Mənə elə gəlir ki, konfransda bu fikir daha da genişləndirilməli, konkret olaraq Dağlıq Qarabağla bağlı hadisələrin təhlili əsasında bütün ölkə miqyasında beynəlmiləlçiliklə bir araya sığmayan bütün problemlər həll edilməlidir.

İyun, 1988.
"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.

İNSAN İNAM ÖVLADIDIR

"Azərbaycan məktəbi" jurnalının redaktoru Z.Əliyeva ilə müsahibə

Z.Əliyeva: - İlk sualımız belədir: Hazırda, elmi-texniki tərəqqi əsasında ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi vəzifələrinin həyata keçirildiyi bir vaxtda cəmiyyətin həyatında insan amili getdikcə daha böyük əhəmiyyət kəsb edir.

İnsanın ideya-mənəvi inkişafında, vətəndaşlıq yetkinliyində, həyata və əməyə şüurlu, yaradıcı münasibətində ədəbiyyat və incəsənət təsirli vasitədir.

Minlər və milyonların rəğbətini qazanmış, onların şüuruna və qəlbinə nüfuz etmiş bir sənətkar kimi insan amilinin fəallaşmasında, yeni insan tərbiyəsində ədəbiyyatın rolunu, yazıçının vətəndaşlıq mövqeyini necə qiymətləndirirsiniz?

B.Vahabzadə: Mən bir çox yazılarımda, məqalələrimdə bu məsələyə toxunmuşam. İnsanlığın birinci şərti, başlıca sifəti onun vətəndaşlığıdır.

Vətənini, xalqını sevməyən başqa xalqı və başqa ölkəni də sevə bilməz. Mənim möhkəm əqidəmə görə, bütün dünyanın dəyərli adamı olmaq üçün ilk növbədə öz Vətəninin vətəndaşı olmalısan.

Z.Əliyeva: Yəqin ki, şairin Vətən üçün çırpınan qəlbindən süzülüb gələn aşağıdakı misralar da öz mənbəyini məhz bu əqidədən

alıb:

Vətəndaş!
Nə gözəl səslənir bu söz!
Yəni - bir iqlimdə böyümüşük biz
Səni də
Məni də böyüdən Vətən,
Sənə də anadır,
Mənə də ana.
Sən də cavabdehsən,
Mən də hər zaman
Vahid anamızın
xoşbəxtliyinə.

B.Vahabzadə: Hər kəs, sənətindən asılı olmayaraq, öz sahəsində Vətənə övladlıq borcunu verməli, Vətənin qüdrəti üçün səyini əsirgəməməlidir. Böyüyən nəsil də bu ruhda tərbiyə edilməlidir. Gənc oğlan və qızlar dünyanı vətəndaş gözü ilə görməyi, vətəndaşlıq düşüncələri və hissləri, vətəndaşlıq həyəcanı və narahatlıqları ilə yaşamağı bacarmalıdırlar. Biz yazıçılar, müəllim və valideynlər, bütün ictimaiyyət ümumi qüvvə ilə ona nail olmalıyıq ki, gənc nəsil doğma Vətəninə, bəşəri ideyalara, ata-babalarımızın vətənpərvərlik ənənələrinə hədsiz sədaqət ruhunda böyüsün. Şair və yazıçının kitabı, müəllimin canlı sözü uşaq və yeniyetmələrin qəlbində yüksək vətənpərvərlik hissləri oyatmağa yönəlməlidir. Gənclərimiz dərk etməlidirlər ki, onlar, hər şeydən əvvəl, vətəndaşdırlar. Öz vətəninin övladlarıdırlar; Vətənin şərəfi hər kəsin şəxsi şərəfidir, insanın ən ulu, müqəddəs borcu Vətən borcudur.

Biz, sadəcə, vətəndaş yox, fəal vətəndaş tərbiyə etməliyik, elə vətəndaş ki, xeyri-ədaləti, şərəfi qızğın müdafiə etsin, şərə, laqeydliyə, ikiüzlülüyə, şərəfsizliyə, ideya düşmənlərimizə qarşı barışmaz olsun.

Z.Əliyeva: Sizin qeyd etdiyiniz məsələ - fəal vətəndaş tərbiyəsi dövrümüzün çox mühüm pedaqoji problemidir. Şəxsiyyəti ən

çox yüksəldən onun həyatda fəal mövqe tutmasıdır, ictimai borca şüurlu münasibət bəsləməsidir. Mənəvi tərbiyənin vəzifəsi məhz belə bir mövqe tərbiyə etməkdən ibarətdir. Dərin əqidə, məslək olmadan fəal həyat mövqeyinin formalaşması mümkün deyildir.

B.Vahabzadə: Tamamilə doğrudur. Əsl insanı, vətəndaşı səciyyələndirən başlıca cəhət onun məsləki, inamıdır. Bunsuz dolğun, mənalı həyat, həqiqi əmək, Vətənə və xalqa namusla xidmət etmək mümkün deyil. Mən bu düşüncələri "Leninlə söhbət" poemamda ifadə etməyə çalışmışam. Şeirin dili yığcam və aydın olduğu üçün oxuculara fikrimi bu dillə çatdırmaq istərdim:

Məslək! Amal!
Əsl insanın yol yoldaşı!
Ömür üzük,
Məslək isə üzük qaşı.
Hər üzüyün qaşındadır öz
dəyəri...
Məslək varsa, mərddir demək,
Öz yolundan dönməyəcək...
Məslək varsa,
O bilir ki, yaşamağın mənası nə.
Məslək yoxsa,
O bir yükdür həm dünyaya,
həm özünə...

Bu misraları davam etdirmək də olar. Lakin ümumiləşdirsək, deyə bilərik ki, insan inamı, əqidəsi ilə qiymətləndirilir. İnam, əqidə, məslək həm də şəxsiyyətin vətəndaşlıq yetkinliyinin mühüm göstəricisidir: məsləkli adam qorxmaz və cürətlidir, fədakar və işgüzardır; məsləksiz isə, əksinə, qorxaq və yaltaqdır, söyüd ağacı kimi tez-tez o tərəf-bu tərəfə əyilir; belə adamın öz əqidəsi, öz sözü yoxdur, sevgisi də, nifrəti də bəlli olmur, öz varlığını bir "sağ ol"a satmağa, yeri gələndə duman kimi əyilməyə, insanlıq şərəfini bir qarına dəyişdirməyə hazırdır.

Belələrinə yüksək vətəndaşlıq duyğuları və əməlləri yaddır, bir sözlə, insani hisslər yaddır. İnsan - inam deməkdir; o inamın övladıdır.

Z.Əliyeva: Sizin "Mən insanam" şeirinizdə bu fikir çox yaxşı ifadə edilmişdir. Bu bir həqiqətdir ki, insan inamla yaşayır, inamla da gələcəyə addımlayır. İnam cəmiyyətimizin hər bir üzvü üçün, o cümlədən böyüyən nəsil üçün də yol göstərən bir mayakdır, həyat kompasıdır. Belə bir inamın formalaşdırılması tərbiyə işimizin mühüm hissəsini təşkil edir.

B.Vahabzadə: Bu belə də olmalıdır. İnam, əqidə tərbiyəsi yetkin şəxsiyyətin formalaşdırılmasının əsasını təşkil edir. Əqidəsi cilalanmamış, möhkəmlənməmiş gənc əsl şəxsiyyət vətəndaş ola bilməz. Əqidə, inam insan həyatına rəhbərlik edir, ona istiqamət verir. İnsanın ideya-siyasi və əxlaqi ideyalara möhkəm inanması, əqidə bağlaması onun həmin istiqamətdə düzgün hərəkət etməsinə, çətin anlarda özünü itirməməsinə, mərd və mübariz olmasına kömək göstərir. İdeya həyatı, yüksək mənəvi həyat insan fəaliyyətinin daxili enerjisini təşkil edir. Bəzi adamlarda, o cümlədən yeniyetmə və gənclərdə müşahidə olunan əxlaqımıza zidd hərəkətlərin köklərini məhz burada - zəngin ideya həyatının olmamasında, hər şeyə laqeydlikdə, arzu və amalların bəsitliyində, eqoist hisslərlə yaşamaqda - ancaq özü üçün, öz şəxsi tələbatlarını ödəmək üçün yaşamaq meylində axtarmaq lazımdır. Əgər belə həyata baxışı, əqidəsi, mənəvi idealları möhkəmlənməmiş tək-tək yeniyetmə və gənclər həyata şəxsi meyllər eynəyi ilə baxırsa, yemək-içmək, dəbdəbəli həyat sürmək onların həyat idealına çevrilərsə, bu, tərbiyənin əks fəlakəti olardı. Məktəb, ailə, ədəbiyyat və incəsənət, bütün ictimaiyyət gənc nəsli yüksək ideallarla, bəşəri hisslərlə, vətəndaşlıq duyğuları ilə yaşamağa hazırlamalıdır. İdeya-mənəvi tərbiyənin əsas vəzifəsini mən bunda görürəm.

Hazırda, coşqun elmi-texniki tərəqqi dövründə bu vəzifənin əhəmiyyəti azalmır, əksinə, qat-qat artır. Deyirlər ki, XXI əsr robotlar əsri olacaq. Mən buna inanıram. Çünki artıq indidən istehsal prosesi getdikcə daha çox avtomatlaşır, robotlaşır. Bu iş intensiv şəkildə davam edir. Lakin texnika nə qədər inkişaf etsə də, onu yaradan, idarə edən

insandır. Ən mükəmməl texnika belə hazırlıqsız adamın əlində lazımi səmərə verə bilməz, tez sıradan çıxar. Odur ki, istehsal prosesində, ümumiyyətlə, cəmiyyət həyatında insan amili mühüm rol oynayır. Partiya bu amili fəallaşdırmağa xüsusi əhəmiyyət verir. Bu sahədə ədəbiyyatın rolu böyükdür. Ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir: o, insanın dünyagörüşünün, həyat ideallarının, mənəvi aləminin formalaşmasında, bir vətəndaş kimi yetişməsində, geniş imkanlara malikdir. Təsadüfi deyil ki, ədəbiyyatı "həyat dərsliyi", "insanşünaslıq elmi" adlandırırlar. Müəllim də tərbiyə edir, yazıçı da. Lakin onların hər biri özünəməxsus vasitələrdən istifadə edir: müəllim sözü vasitəsilə uşaq şüuruna təsir edirsə, bədii ədəbiyyat öz canlı obrazları ilə daha çox qəlbə nüfuz edir, onun vasitəsilə isə şüura təsir göstərir. Ətraf aləmi, siyasi və mənəvi ideyaları ağılla və ürəklə dərk etmək isə tərbiyə işində çox mühüm şərtdir: hiss və ağıl birləşəndə ideyalar daha yaxşı dərk olunur, daha tez inama və əqidəyə çevrilir. Odur ki, həm müəllim, həm də yazıçı insanın qəlbinə və ağlına qida verməlidir; onu düşündürməyi, həm də həyəcanlandırmağı bacarmalıdır. Əlbəttə, burada söhbət bəsit hisslərdən yox, ümdə, ən güclü hisslərdən - vətəndaşlıq qüruru, sevinci, məsuliyyəti, vətəndaşlıq borcu, ləyaqəti, şərəfi və vüqarı hisslərindən gedir. Yüksək əxlaqi və siyasi ideyaları şüura çatdırmaq insanı vətəndaşlıq həyatı aləminə daxil etmək deməkdir. Belə nəcib hisslərlə, ideallarla tərbiyə edilənlər elmi-texniki tərəqqinin tələblərini daha yaxşı yerinə yetirər, cəmiyyətə daha çox fayda verər, özü də xoşbəxt olarlar.

Böyük tərbiyəvi əhəmiyyətə malik olan yüksək ideyalı bədii əsərlər yaratmaq üçün sənətkarın özünün vətəndaşlıq mövqeyi, xalqla bağlılığı, öz xalqının tarixindən, ənənələrindən qidalanması az rol oynamır. Sənətkar nə qədər öz xalqının tarixinə, ruhuna kök atarsa, bir o qədər ucalar. Təbiətin qanunu da belədir: kökü torpağın dərin qatlarına gedən ağac daha çox boy atır. Puşkin öz dayəsinin tərbiyəsindən, onun danışdığı rus xalq nağıllarından yetişmişdir. Amma vaxtilə Rusiya ailələrində və məktəblərində tərbiyəçilik edən on minlərlə fransız və alman dayəsi Rusiyada bir Puşkin yetişdirə bilmədi.

Müasirlərimizdən dünyaca tanınmış qırğız yazıçısı Çingiz Ayt-

matovu götürək. O da əsl xalq qaynağından çıxmışdır; körpəliyi xalq içərisində, çobanlar arasında keçmişdir. Manasdan tərbiyə almışdır. Təpədən-dırnağa qırğızdır. O, dünya şöhrəti qazanmış əsərlərində də xalq ruhunu, xalq psixologiyasını və ənənələrini əks etdirir.

Lui Pasterin sözüdür, deyir ki, elmin vətəni yoxdur, amma alimin vətəni var. Alim bilməlidir ki, hansı xalqa, ölkəyə qulluq edir. Bu sözləri eyni ilə sənətkarlara da, yazıçı və şairlərə də, müəllimlərə də şamil etmək mümkündür: vətəndaş olmayan şəxs nə əsl mənada yazıçı, nə müəllim, nə də mühəndis ola bilər.

Z.Əliyeva: Bəxtiyar müəllim, bildiyiniz kimi, bugünkü məktəblilər gələn əsrin əməkçiləri olacaqlar, əsrin əzəmətli vəzifələrini onlar yerinə yetirəcəklər. Gənc nəslin həyata və əməyə hazırlanması, hərtərəfli və ahəngdar inkişafı özlərinə şüurlu surətdə əmək və ya tədris müəssisəsi seçmələri indi həmişəkindən daha çox aktuallıq kəsb edir. Bir xalq elçisi - deputat kimi sizin bu məsələlərin həllinə münasibətiniz jurnalımızın oxucuları üçün çox maraqlı olar.

B.Vahabzadə: Mən Azərbaycan SSR Ali Sovetinin deputatı kimi gənclərin tərbiyəsi üzrə daimi deputat komissiyasının üzvüyəm. Odur ki, bu məsələ elə mənim xalq elçisi kimi birbaşa vəzifəmə daxildir. Gəncliyin bir xüsusiyyəti ondan ibarətdir ki, onlar həmişə təsirdə olurlar, daha doğrusu, gənclik özünü həmişə kiməsə oxşatmağa çalışır. Lap elə götürək bizim ədəbi gəncliyi, mənim gənclik vaxtımı. Ədəbiyyata gəldiyimiz zaman özümüzü Səməd Vurğuna oxşatmağa çalışırdıq. Tək ədəbiyyatda yox, həyatda da ondan öyrənirdik, hətta hərəkətlərini də təqlid edirdik. Orta məktəbdə oxuduğum illərdə müəllimim İbrahim Cəfəri təqlid edirdim. Onun danışıq tərzi, ədəbiyyata olan məhəbbəti, çılğınlığı bizi maqnit kimi özünə çəkirdi.

Bu misalları ona görə çəkirəm ki, gənclik dövrümüzdə təqlid etdiyimiz belə adamlar var idi. Vay o gənclərin halına ki, onun təqlid edəcəyi adamlar olmasın. Buna görə də gəncliyi ləyaqətli görmək istəyiriksə, gərək biz özümüz ləyaqətli olaq. Burda K.Marksın bir sözü yadıma düşür: "Tərbiyə edənin özünü də tərbiyə etmək lazımdır". Əgər evdə ata-ana, məktəbdə müəllim, ictimai yerlərdə yaşlılar özlərini təqlidə layiq

apara bilməsə, ağılda, davranışda, əməyə münasibətdə, ideya-mənəvi baxışlarında yüksək səviyyədə durmasa, bizim gənclikdən ləyaqət ummağımız yersizdir. Tərbiyəsizdən nə tərbiyə gözləmək olar? Ona görə də mən tərbiyə məsələsində birinci növbədə böyüklərin ləyaqətli olmasını, peşəsindən asılı olmayaraq hər bir yaşlı adamın tərbiyəçi olduğunu duymasını vacib hesab edirəm.

Gənc nəslin həyata və əməyə daha yaxşı hazırlanması məsələsinə gəlincə, qeyd etmək lazımdır ki, bu məsələ təkcə məktəbi və ailəni yox, hamını ciddi düşündürür. Ölkəmizdə həyata keçirilən məktəb islahatının da başlıca ideyası məhz uşaq və yeniyetmələrin əmək tərbiyəsini və peşə hazırlığını kökündən yaxşılaşdırmaqdan ibarətdir.

Gizli deyildir ki, məktəbi bitirən oğlan və qızların bir qismi özlərinə əmək sahəsi, həyat yolu seçməkdə səhvlərə yol verir. Bəzən təsadüfi peşə seçmək halları, gənclərin maraq və qabiliyyətlərinə zidd olaraq kortəbii şəkildə ali məktəblərə axını müşahidə olunur. Peşə seçmə işində belə təsadüflər, səhvlər həm gənclər üçün, həm də cəmiyyət üçün zərərlidir. Gənclərimizdə sadə zəhmət peşələrinə maraq oyatmaq, onlara öz meyl və qabiliyyətlərini, habelə cəmiyyətin tələbatını nəzərə almaqla şüurlu həyat yolu seçməkdə kömək göstərmək lazımdır. Əlbəttə, bu mühüm məsələni təkcə məktəbin üzərinə atmaq olmaz. Bu işdə baza müəssisələrinin əmək kollektivləri, ictimaiyyət, elm, mədəniyyət və yaradıcılıq təşkilatları yaxından iştirak etməlidirlər. Gənclərin nəzərində sadə zəhmət peşələrinin nüfuzunu yüksəltməkdə yazıçı və şairlərimiz çox iş görə bilərlər. Cəmiyyətimizdə sadə zəhmət adamının rolu, əmək və əməkçi əzəməti məktəbin tərbiyə işində də, bədii əsərlərdə də özünə layiqli yer tutmalıdır. Mən vaxtilə "Sadə adamlar" poemamda bu məsələdən bəhs etmişəm:

Yoxdur vəzifənin, işin, sənətin
Böyüyü-kiçiyi zəmanəmizdə.

Həqiqətdə də, çoban olub ən ali mərtəbəyə yüksəlmək mümkündür. Alim adını alıb rəzil kökə düşmək də olar. Hər şey peşənin düzgün

seçilməsindən, insanın əməyə münasibətindən, zəhmətsevərliyindən asılıdır. Pis həkim olmaqdansa bacarıqlı fəhlə olmaq min dəfə yaxşıdır. Halal əməyi ilə yaşayıb-yaradan zəhmət adamlarımız öz fənnini bilməyən savadsız müəllimdən və şərəfsiz alimdən qat-qat üstündürlər.

Gənclərlə peşəyönümü işini elmi əsasda və ciddi sistemdə qurmaq lazımdır. Gəncləri həyata, əməyə həm zehni və fiziki cəhətdən, həm də mənəvi-psixoloji cəhətdən hazırlamaq vacibdir. Məktəbi bitirən hər bir gənc bilməlidir ki, o, hansı əmək üçün yararlıdır, hansı sahədə Vətənə, xalqa daha yaxşı xidmət edə bilər və daha çox fayda verə bilər.

Məktəbdə bütün təlim-tərbiyə işi şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafını təmin etməyə, hər bir gəncə öz qüvvə və qabiliyyətinə uyğun sevimli peşə növü tapmaqda kömək göstərməyə, əməyin vətəndaşlıq başlanğıcını dərk etdirməyə yönəldilməlidir. Burada müəllimin hazırlığından, onun şəxsiyyətindən çox şey asılıdır.

Z.Əliyeva: Yeri gəlmişkən bir məsələyə toxunmaq pis olmaz. Bildiyiniz kimi, cəmiyyətin həyatında, hər bir insanın formalaşmasında müəllim əvəzsiz rol oynayır: əmək bahadırlarını da, alimi də, yazıçını da müəllim yetişdirir. Sizin inkişafınızda məktəbin, müəllimin nə kimi xidməti olmuşdur? Bir ziyalı kimi, respublikamızın görkəmli elm ocağında - Bakı universitetinin geniş auditoriyalarında uzun illər səmərəli əmək sərf edən alim-müəllim kimi siz müəllimlərimizdə hansı keyfiyyətləri görmək istərdiniz?

B.Vahabzadə: Müəllim peşəsi çox şərəfli, nəcib bir peşədir. O həm də olduqca məsuliyyətlidir: axı, müəllim dünyada ən qiymətli kapital olan insanla işləyir, onun taleyini həll edir. Bu böyük məsuliyyət müəllim qarşısında yüksək də tələblər qoyur.

Müəllim, ilk növbədə, mənəvi təmizlik timsalı olmalıdır. Məktəbin əsas vəzifəsi tərbiyə vəzifəsidir. Deməli, müəllim, hər şeydən əvvəl tərbiyəçidir: o yetişdirmələrinin ağlını, qəlbini, xarakterini, dünyagörüşünü tərbiyə etməlidir, onlardan ləyaqətli vətəndaşlar yetişdirməlidir. Bunun üçün müəllimin böyük vətəndaş ürəyi olmalıdır. Vətəni, onun tarixini, mədəniyyətini, dilini, ədəbiyyatını bilməyən, sevməyən, daha doğrusu, özü birinci növbədə vətəndaş olmayan müəllim necə

vətəndaşlar yetişdirə bilər? Hər bir müəllim, tədris etdiyi fəndən asılı olmayaraq, uşaq və yeniyetmələri Vətənə namuslu xidmət etməyə hazırlamalıdır. Hər şey buradan başlayır. Elm, bilik sonrakı məsələdir. Mən inanmıram ki, bir adam yaxşı vətəndaş ola, amma eyni zamanda savadsız ola; vətən sevgisi mütləq onu öz biliyini artırmağa gətirib çıxaracaqdır.

Mən bununla müəllimin öyrətmə vəzifəsini məhdudlaşdırmaq istəmirəm. Biliksiz müəllim işıqsız lampa, quruyan bulaq kimidir. Savadsız müəllim olmaq ən böyük cinayətdir: o, neçə-neçə uşaq nəslini şikəst edə bilər, cəmiyyətə nə qədər zay "məhsul" verər. Odur ki, müəllim kadrlarının hazırlanmasına çox böyük diqqət və məsuliyyətlə yanaşmaq lazım gəlir.

Müəllim üçün vacib keyfiyyətlərdən biri öz sənətinə, fənninə və uşaqlara məhəbbətin olmasıdır. Belə məhəbbətdən məhrum olan şəxslərdən (onlar nə qədər hazırlıqlı olsalar da!) yaxşı müəllim çıxmaz. Əsl müəllim öz fənninin vurğunu olmalı, bu sevgini, vurğunluğu yetirmələrinə də aşılamağı bacarmalıdır. Yaxşı deyiblər ki, özü alışmayan başqasını da yandıra bilməz.

Z.Əliyeva: Sizin görkəmli alim Yusif Məmmədəliyevə həsr etdiyiniz "Ömür" şeirindəki aşağıdakı misralar eynilə müəllimin fəaliyyətinə də aiddir:

Yaşamaq - yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı - yanmağındadır.

B.Vahabzadə: Doğru qeyd etdiniz. Müəllim şagirdlər qarşısında çıraq kimi yanmalıdır; yana-yana onları da "yandırmalıdır". Fənnə, elmə məhəbbət ancaq bu yolla yarana bilər.

Məktəbdə oxuduğum illəri xatırlayıram. Ədəbiyyat müəllimimiz İbrahim Cəfər ədəbi simalardan, bədii əsərlərdən hissiz, həyəcansız danışa bilməzdi. Heç yadımdan çıxmaz. Bir dəfə dərs Məhəmməd Hadidən

idi. Müəllim ürək ağrısı ilə onun həyatından epizodlar danışırdı. Deyirdi ki, böyük şair elə vəziyyətə düşüb ki, özü öz əli ilə şeirlərini satmalı olub. Ölüb, lakin indi də məzarını tapa bilmirik (Sonralar Məhəmməd Hadinin məzarı tapılmışdır: şair Gəncədə dəfn edilmişdir - red.). Bunu deyib üzünü o tərəfə çevirdi. Gördük çiyinləri atılır. Bildik ki, müəllim ağlayır. Çox çəkmədi ki, o, dərsin ortasında sinfi tərk etdi. Mən də onun dalınca çıxdım. Gördüm, pəncərədən baxıb, gözünün yaşını silir. Mən müəllimə yaxınlaşıb ağlamağının səbəbini soruşdum. O, mənə baxmadan dedi: "Get burdan. Sən nə anlayırsan, axı. Sənə nə deyim?". Məndə bir şübhə yarandı: görəsən, Hadidə nə hikmət var ki, müəllim mənə demədi. Gecə-gündüz Hadini mütaliə etməyə başladım. Həmin anlarda müəllimim mənim ürəyimdə Hadi toxumu, vətəndaşlıq toxumu səpdi...

Sevimli müəllimim İbrahim Cəfəri heç zaman unutmuram.

Mənim yaddaşımda, qəlbimdə həkk olunan müəllimlərimdən biri də Səidə İmanzadədir. Həqiqi mənada müəllim olan bu nəcib qadın nur çeşməsi kimi, təmizlik, büllurluq timsalı kimi bizim qəlbimizdə özünə əbədi heykəl ucaldıb. Mən indi də sevimli müəllimlərimə oxşamağa, həyatda, tələbələrimlə münasibətdə onlar kimi olmağa çalışıram.

Z.Əliyeva: Bəxtiyar müəllim, söhbət üçün sizə dərin minnətdarlığımızı bildiririk. Ümid edirik ki, burada qaldırılan məsələlər, irəli sürdüyünüz qiymətli mülahizələr xalq maarifi işçiləri və pedaqoji kollektivlər üçün faydalı olacaq, qarşımızda duran əzəmətli vəzifələrin həllində onlara istiqamət verəcəkdir.

"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.

ALLAH BİZİ DƏRDDƏN, BƏLADAN XİLAS ELƏSİN!

- Bəxtiyar müəllim, bütün yaradıcılığınız boyu milli özünüdərkin, milli şüurun oyanmasına çalışmısınız. Yaşınızın zirvəsindən geriyə baxanda son hadisələr barədə nə deyə bilərsiniz?

- 40 illik şairlik, müəllimlik fəaliyyətimdə yalnız bir məqsəd uğrunda mübarizə aparmışam - xalqımın milli şüurunu oyatmaq, onu öz soykökünə qaytarmaq! Tale millətin oyanışını görmək xoşbəxtliyini mənə nəsib elədi! Xalqım kütlə vəziyyətindən çıxıb, millət səviyyəsinə qalxdı, özünə qayıtdı, öz haqqını dərk etdi. Yadımdadır, 1988-ci ildə ilk dəfə mitinq olanda mən də meydanda idim. Bizim balalarımız məni çiyinlərinə götürüb tirbunaya qaldırdılar. Tribunadan qarşımdakı insan dənizini görəndə özümü saxlaya bilməyib ağladım. Dedim ki, "xudaya, sənə min şükür, ölmədim, bu günü də gördüm".

- Tale qismətinizə millətin ağrıacılarının şairi olmağı yazıb. Taledən narazı deyilsiniz ki?

- Mənim çox sevdiyim Bethovenin məşhur beşinci simfoniyası haqqında R.Rollan yazır ki, bu səslər taleyin ömür qapısını döyməsidir. Mən tale deyilən şeyə inanıram. Hər kəsin öz taleyi olur, bundan qaçmaq mümkün deyil. Amma taleyi bəzən mübarizəylə, vuruşla özümüz qazanmalıyıq.

O ki, qaldı millətimin dərdindən, faciələrindən yazmağıma, bu belə də olmalı idi, başqa cür edə bilməzdim. Ümumiyyətlə, qəm-kədər tək

yaradıcılığımın yox, həm də həyatımın yol yoldaşıdır. Hələ ki, bütün dünyada türklərin nəsibi dərddir. kədərdir. Allah millətimizi bu dərdi-bəladan qurtarsın. Amin!

“Aydınlıq” qəzeti, 8 fevral, 1991.
“Yanan da mən, yaman da mən”, Bakı, 1995.



SÖZÜ CAVANLARA VERİN

Mən xalqımızın hörmətli şairi Bəxtiyar Vahabzadə ilə görüşə vədələşəndə əlimin altında hazır suallarım yox idi. Şairin yaradıcılığı ilə hərtərəfli tanışlığım, həm də şəxsiyyətinə azçox bələdliyim mənə zəmanət verirdi ki, nə yaradıcılığı, nə də şəxsiyyəti heç bir qəlibə sığışmayan Bəxtiyar Vahabzadə ilə söhbətləşməyə hazır-reseptlə getmək dənsə, söhbəti sövqi-təbii aparmaq daha çox məqsədəuyğun olar.

Şairin yaşadığımız günlərin mürəkkəb hadisələrindən doğan gündəlik ağrı-acılarındanmı, yaradıcılıq əziyyətlərin dənmi qayğılı sifəti durulaşdı. Şeirlərinin hərarətini, ab-havasının təmizliyini xatırladan mənzilində miz arxasında üz-üzə əyləşdik.

- Ay oğul, hansı qəzetdən gəlmisən? - deyə ilk sualı şairin özü verdi.

- Azərbaycan Dövlətnəşrkomunun yeni nəşrə başlayan orqanı "Yeni Fikir" qəzetindən, - dedim. - Əsas söhbətimiz kitab mədəniyyətmizlə, kitablarımızın nəşri tarixi ilə, naşirlərimizin kitab taleyi ilə bağlı olacaq.

- Çox yaxşı. Belə bir qəzetin nəşrə başlaması məni sevindirir. Bəri başdan deyim ki, uğurlar olsun. "Yeni fikir" adlı qəzet əvvəllər də nəşr edilib. S.Vurğunun ilk mətbu şeiri də həmin qəzetdə dərc olunub. Adı da çox yaxşı düşünülüb: "Yeni Fikir". Bir də onu deyim ki, yeni fikir həmişə ən çox cavanlara məxsus olub. Cavanlara geniş meydan verin,

onlara tez-tez müraciət edin. İndi sözün həqiqi mənasında çox cəsarətli, mərd, zəkalı, özü də əsl yenilikçi gənclik yetişmişdir. İndi meydan onların olmalıdır. Öz ənənəsinə, özülünə söykənib gəlmiş gəncliyin! Bax, əsl yenilikdi bu cür gəliş. Mayasında öz kökü dayanan gəncliyin gəlişi. Mən bundan kənarda həqiqət görmürəm. Tarixdə bic həqiqət olmur. Mən indinin özündə də çox oxuyur, cavanlardan öyrənirəm. Çox təəssüf ki, heç kimlə hesablaşmayan, özü haqda çox yüksək fikirdə olan üzdəniraq ziyalılar, şairlər, yazıçılar indi çoxdur. Bax, elə buradaca uduzuruq. Mənim fikrimcə, ən dəhşətli təhlükə özünə vurulmaqdır. Burdan da əsl faciə başlayır. Özü də deyərdim ki, milli faciə! Dəfələrlə müsahibələrimdə, şeirlərim də demişəm ki, mən özümdən narazıyam, bir şair kimi də, bir alim kimi də, bir vətəndaş kimi də, bir azərbaycanlı kimi də, lap bir valideyn kimi də. Qoy, bu sözlərim hardasa bir şüar kimi səslənməsin, qeyri-təvazökar görünməsin: Təfəkkürümdə yaratdığım əsl Bəxtiyar Vahabzadəni xalqıma tam verə bilmədiyim üçün özümdən narazıyam.

- Bəxtiyar müəllim, bir sirr deyil ki, kitab mağazalarında üstünü toz basmış, oxucu barmaqlarına həsrət qalmış çoxlu kitablarla hər gün rastlaşırıq. Kitab sadəcə olaraq alınmır. Belə kitabın müəllifləri necə, özlərindən narazıdırlarmı görəsən? Bəzən də lap istedadlı müəlliflərin yığılıb qalmış kitablarına rast gəlirik.

- Əvvəla, onu deyim ki, "istedadlı müəlliflərin də kitabları satılmır" qənaətinizlə həmfikir ola bilmirəm. Yaxşı kitab alınar, istedadlı müəlliflərin kitabları alınır.Xalqın dərdi-səri ilə səsləşən kitablar heç vaxt piştaxta arxasında qala bilməz. Xalqın təfəkkürü çox güclü, zəkası çox itidir. Gözü əsl tərəzidir, o, yaxşını pisdən seçə bilir.

Ancaq bir məsələ də var ki, bizdə kitab təbliği mədəniyyəti demək olar ki, yoxdur. Yaxşı və layiqli kitablar layiqincə təbliğ olunmur. Kitabların paylanmasında da bir pərakəndəlik, plansızlıq hiss olunur. Bəzən çox lazımlı kitab lazım olmayan yerlərə göndərilir. "Üstünü toz basmış kitablara" gəldikdə isə fikrim belədir: Kim çox oxunur, kimə ehtiyac hiss olunur, onu da çap eləmək lazımdır. Adından, titulundan, mövqeyindən asılı olmayaraq. Bayağı fikrin astar üzü nə, avand üzü nə? Yuxarıda de-

diyim kimi, cavanlara geniş meydan vermək lazımdır. Onu da deyim ki, nəşriyyatlarda qəribə bir monopoliya hökm sürməkdədir. Çox vaxt istedadlı gənc qüvvələr bu monopoliyanı qıra bilmir, qıraqda qalır. Ancaq ədalət naminə demək lazımdır ki, son zamanlar gənclərə qayğı artıb, onların kitabları müntəzəm nəşr edilir. 20-25 il əvvəl belə bir təklif irəli sürdülər ki, tanınmış yazıçılarımız nəşriyyatda çap ediləcək əsərlərinin bir qisminin nəşrindən gənclərin xeyrinə imtina etsinlər (bu şərəfli addımı ilk dəfə çox hörmətli yazıçımız M.Hüseyn atıb). Çox təəssüf ki, bu çağırış hamı tərəfindən yaxşı qarşılanmadı. Odur ki, təkrartəkrar, həm də bəzən yüksək tirajla nəşr olunan zəif kitablar satılmadı.

- Zəif kitablar. Hətta adlı-sanlı şair və yazıçılarımızın təqdimatı ilə, rəyi ilə verilmiş belə kitablar alınmır. Daha doğrusu, səxavətlə yazılmış təqdimatlar da onları "həlqədən" çıxara bilmir.

- Tamamilə haqlısınız. Alınmayan lazımsız kitabların yaranmasına bir səbəb də elə budur. Bu sahədə mən də özümü günahkar sayıram. Bəzən "üz-üzdən utanır" prinsipi ilə zəif əsərlərə candərdi rəy, təqdimat və yaxud ön söz yazmışam. Böyük günahdır. müqəddəs sənətə xəyanətdir.

Bəzən də elə olur ki, istedadına inandığım, sənətə gəlişinə sevindiyin bir gəncə xeyir-dua verməli olursan. Amma bu etimad özünü doğrultmur, gənc müəllif böyük sənətə qovuşa bilmir, tövşüyür, yarı yolda qalır. Sənin də yaxan qalır tələbkar oxucunun əlində. Bununla belə, yaradıcılıqları haqda xoş sözlər yazdığım gənclərin çoxu bu gün ədəbiyyatda da öz yerini tutub. Bunlar məni bir şair kimi sevindirir. Çox təəssüf ki, ümidlərimi doğrultmayanlar da olub.

- Kitablarınızın nəşri, tiraj məsələsi, nəhayət, əsərlərinizin tərcümələri sizi qane edirmi?

- Yaxşı kitab xalqın əvəzsiz sərvətidir. Kitablarımın nəşrindən, tirajından narazı deyiləm. Keyfiyyət məsələsinə gəldikdə isə nə deyim, söz xalqımındır. Xüsusilə gənc oxucularıma minnətdaram. Onlardan öyrənə-öyrənə yazıram. Tələbkarlıqlarına söz ola bilməz, zövqlərinə inanıram. "Gəlin, açıq danışaq" publisist kitabım son zamanlarda nəşr edilib. Hamısı da satılıb desəm düz olmaz. Çünki rus oxucusu arasında

mənim 40 min oxucum yoxdur, belə tərcümə kitablarımın tirajının azaldılmasını söz yox ki, məqsədəuyğun sayıram.

Tərcümə əsərin ikinci həyatıdır, ikinci ömrüdür. Bu ömrə isə, əlbəttə, həyat vermək çox çətin məsələdir. Tərcümə ağır sənətdir! Bu baxımdan əsərlərimin tərcümələri məni tam qane etmir. Ü.Yevtuşenkonun, Y.Moretsin, R.Kazakovanın tərcümələri mənə daha çox doğmadır, yaxındır.

- Bəxtiyar müəllim: klassiklərimizin bugünkü nəşri, təbliği haqqında nə demək olar? Bu sahədə üstünlüklərimiz, qüsurlarımız nədən ibarətdir?

- Mirzə Ələkbər Sabir! Dərdi də özü kimi böyük olan xalqın təfəkküründəki zəlzələ! Mən bu qənaətdəyəm ki, Sabiri ən azı iki ildən bir nəşr eləmək lazımdır. O, həm də Şərqin təfəkküründəki zəlzələdir. Onu olduğu kimi təbliğ edə bilirikmi?

Böyük Nizami dünya miqyasında tanınan şair və mütəfəkkirdir. Ancaq mən bu gün tam məsuliyyətlə demək istəyirəm ki, Nizaminin əsərlərinin dilimizdəki tərcümələri zəifdir. Böyük mütəfəkkirin əsərlərinin tərcüməsi orijinal səviyyəsindən dəfələrlə aşağıdır. Bu baxımdan onun əsərlərinin başqa dillərə edilən tərcümələri daha zəifdir. Bu gün Nizami əsərlərinin layiqli tərcümələri lazımdır. Özü də bu tərcümələri cavanlar etməlidirlər, istedadlı cavanlar. Bax, bu haqda düşünməyə dəyər. Söz yox ki, Nizaminin əsərlərini dilimizdə olduğu kimi dilləndirmək bizim borc işimizdir. Böyük şairin anadan olmasının 840 illiyi münasibəti ilə "Qoslitizdat"ın rus dilində çapdan buraxılmış beş cildliyi köhnə tərcümələrdə çox zəif səsləndi. Mən bu nəşrlərin tam əleyhinə oldum. Biz tərcümələrlə Nizaminin rus və dünya oxucusuna olduğu kimi tanıda bilmirik. Bu günah işdir. Odur ki, gələcək nəşrlərin tərtibi üçün yeni tərcümələrin qeydinə qalmaq vacib məsələlərdən biri olmalıdır. Əlbəttə, hələ görüləsi işlərimiz çoxdur. Sirr deyil ki, şəxsiyyət və istedad böyük yaradıcının iki əsas komponentidir, yaradıcılıqda bu tərəflərin hər biri ayrı-ayrılıqda bir-birini itiləyir, tənzimləyir, böyük sənətə gedən yola çıxarır.

- İstedad və şəxsiyyət uyarlığı sizin tanıdığınız hansı Azərbaycan

yazıçısında özünü daha qabarıq göstərib.

- Fikrinizlə tamamilə şərikəm. Quş qoşa qanadla uçar. İstedad və şəxsiyyət qoşalaşanda böyük sənət yaranır. Əks halda heç vaxt böyük sənətin sehirli qapıları laybalay heç kimin üzünə açıla bilməz. İstedad şəxsiyyətli adamda əzəmətli olur. Mən həyat və sənət təcrübəmə əsasən deyə bilərəm ki, gördüklərim, tanıdıqlarım yazıçılar, şairlər arasında Səməd Vurğunun və Rəsul Rzanın şəxsiyyəti və istedadı bir-biri ilə tarazlıqda olub, daha doğrusu, istedadları şəxsiyyətlərini tamamlayıb, şəxsiyyətləri istedadlarını itiləyib. Hər iki böyük şair haqqında ayrıca xatirələrim, istedad və şəxsiyyətləri haqqında qənaətlərim var.

S.Vurğun təbiətindəki xeyirxahlıq əvəzsiz idi. O, gördüklərim, tanıdıqlarım arasında düşmənini də bağışlaya bilən yeganə bir adam idi. S.Vurğunun şəxsiyyəti "Yamanlığa yaxşılıq nər kişinin işidir" misalının canlı təcəssümü idi. Yaxşı yadımdadır, 1954-cü ildə tənqidçi alimimiz C.Cəfərovun S.Vurğun haqqında yazdığı neqativ yazılarına görə Yazıçılar İttifaqının üzvlüyündən çıxarılması məsələsinə baxılırdı. Mən də Rəyasət Heyətinin üzvlərindən biri idim. İclas gedirdi. Hamı öz növbəsində C.Cəfərovu "ittiham" edirdi. Elə bu vaxt S.Vurğun ovçu paltarında içəri girdi. Məsələdən agah olduqda bizi danladı, kişi-kişini çörəklə imtahana çəkməz" deyərək iclasdan getdi. O, mənim gözlərimdə böyüklük, xeyirxahlıq heykəlinə çevrildi.

Rəsul Rza qorxmaz adam idi. Bütövlük və prinsipiallıq xarakterinin bünövrəsini təşkil edirdi. R.Rza kimi öz mövqeyindən, platformasından dönməyən ikinci bir Azərbaycan şairi tanımıram. Tez-tez çoxlu dönük adamlara rast gəlirsən. İstedadlı və şəxsiyyətli adam öz yolunda, öz mübarizəsində dönməz olur. Rəsul Rza dönməzlik heykəli idi.

- Bu gün şair və xalq problemi...

- Bu xalq şairə inanan xalqdır. Buna görə də mən özümü xalqımın qarşısında xəcalətli hesab edirəm. Bütün tarixi dövrlər də belə olub. Xalq öz ağır günündə şairinə üz tutub, ona arxalanıb. Ancaq xalqın müdrikliyinə inanarkən öz gücsüzlüyün də haradasa səni düşünməyə qoymur. Bir də əlindən bir iş gəlməsə də xalqa olan səadət qələm sahibini yaşadır, dönməzləşdirir, onu yaratmağa səsləyir.

- Təyin olunmuş deputatlar kəlməsi də indi tez-tez eşidilir.

- Əgər deputat xalqın mənafeyini müdafiə edə bilmirsə, elə təyin olunmuş deputat olur. Xalqın dediyi yanlış ola bilməz.

Mənə qalsa, bu gün xalq deputatları sırasında Z.Bünyadovu, N.Nəcəfovu, N.Rzayevi, Ş.Hüseynovu, S.Əliyarlını, İ.Şıxlını görmək istərdim.

Tez-tez zənglər gəlir, söhbətimiz qırılır. Şair oxucuların, dostların, tanışların bəzi narahat suallarına da cavab verir, ürəkli olmağı məsləhət bilir. Şairlə sağollaşmalı oluram.

- Allah amanında, ay oğul.

Söhbəti yazdı: T.Talıblı

1988.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ELƏ AHLAR BÖYÜTDÜK Kİ...

"İndi də xəbərləri veririk:

- Dünən İran Azərbaycanında 40-45 min Allah bəndəsi torpağa kömüldü zəlzələdən.

- Yenə dünən sərhəddə eyni anda neçəneçə adam düşmən gülləsinə hədəf oldu, Qazaxda, Laçında, Naxçıvanda..."

Bizi yandıran əlacsızlığımız ucundan əsəblərimizi korlayan bu xəbərlərin içində elə ahlar böyütdük ki, indi bu ahlardan qopan ruzigarın qarşısında min-min illər qanımızla suvardığımız, budaqları dar ağaclıq çinar səbrimiz daha davam gətirmir.

Hər gün sərhədlərimizdən kədər və niskil dolu qara xəbərlər gəlir. Bu qara xəbərlərdən cana doymuş oxucularımız "Azərbaycan" qəzetinə işıq kimi, ümid kimi üz tutub, adamı adamlıqdan çıxaran, heyrətləndirən suallara cavab axtarırlar. Sual çətin, cavab müşkül. Bu ağrılı suallara cavab verəcək növbəti müsahibimiz sevimli xalq şairi Bəxtiyar Vahabzadədir.

- Bəxtiyar müəllim, bu gün xalqımız, məmləkətimiz real təhlükə qarşısındadır. Respublika və mərkəzi mətbuatdan bəllidir ki, Ermənistan respublikasında öz tərkibində 140-150 min döyüşçü - "fədai"ni birləşdirən "milli ordu" yaradılıb. Bu barədə fikriniz.

- Biz hələ götür-qoy eləyirik. Keçən sessiyada mən ordu yaradılmasını təklif elədim, daha doğrusu, çağırışçıların Azərbaycanda saxlanıl-

masına, respublikanın sərhədlərinin bu hesaba qorunmasına çağırdım. General Bərşadlı mənə hücum çəkib, bunun qətiyyən lazım və mümkün olmadığını dedi. O vaxt məni heç kim müdafiə eləmədi. Ancaq Ali Sovetin axırıncı sessiyasında elə həmin general ordu yaratmağın çox vacib olduğunu bildirdi. Bu çox müəmmalı və həm də çox qəribədir! Görəsən, nə məqsədlə?!

Biz millətik, ordu da yarada bilərik, özümüzü müdafiə eləyə də bilərik. Lakin üzüqara "böyüklərimizin" ucbatından çox gecikmişik. Bu ordunu yaratmağa indi bizim maddi imkanımız da yoxdur. Biz mərkəzi hökumət qarşısında axırıncı dəfə məsələ qaldırmalıyıq: - qoy, bizi müdafiə eləsin. Çünki bizim boyunduruğa girən vaxtdan boyunduruq sahibi ilə müqaviləmiz var: - biz ordu saxlamırıq və o bizi müdafiə eləməyə borcludur. Əks təqdirdə biz bu boyunduruqdan çıxıb öz taleyimizi özümüz həll etməliyik.

Mənim eşitdiyimə görə, bizim prezident son hadisələrdən sonra bu məsələni ciddi şəkildə mərkəzi hökumətin qarşısında qoyub.

- Yalansa da, qoy doğru olsun. Çünki daha xalq cana doyub.

- Bir şeyi də əlavə eləmək istəyirəm. Hər kəsin öz əli, öz başı olmalıdır. Rəhbərlik hadisələrə mərkəzin gözü ilə baxmamalıdır.

- Bəxtiyar müəllim, indiki mürəkkəb vəziyyətdə rəhbərliyin tutduğu mövqe Sizi qane edirmi?

- Bu, bir az çətin sualdır. Ermənistanın rəhbərliyi ilə müqayisədə yəqin ki, yox! Çünki Ermənistanda xalq nə cür düşünürsə, rəhbərlik də elə düşünür. Daha doğrusu, rəhbərlər xalqın arxasınca gedib xalqa rəhbərlik edirlər. Bizdə isə, əksinə, rəhbərliyə keçən kimi xalqa düşmən kəsilirlər. Bu gün bütün dünya bilir ki, (gecə də olsa) biz hücuma məruz qalmışıq. Əzilən də bizik, təklənən də, günahkar da! Əslində hücum eləyən tərəfdə fövqəladə vəziyyət elan olunmalıdır. Amma fövqəladə vəziyyət bizim tərəfdə elan olunur. Respublika prezidenti oturub verdiyi qərara Moskvadakı prezidentin nə cür reaksiya verəcəyini gözləyir. Yıxdı bizim evimizi buyruq qulu olmaq!

- Biz gözləyirik... bir il, iki il gözlədik. Ancaq nə mərkəzi hökumət, nə də Ermənistan hökuməti heç bir tədbir görmür.

- Bu, görünür, mərkəzi hökumətə nə üçünsə sərfəlidir. Ermənistan rəhbərliyi də başa düşür ki, müəyyən bir tədbir görsə, tutaq ki, respublikada fövqəladə vəziyyət elan eləsə, yaraqlıların cilovu yığılar, asayiş yaranar. Ermənistan hökuməti isə bunu istəmir.

- Bizsə elə etiraz eləyirik.Gah partiya biletlərimizi (hərdən də dözməyəndə özümüzü) tankların altına atırıq, gah aclıq elan eləyirik, gah da özümüzü öldürürük. (Ağabəy kimi Allah ona rəhmət eləsin). Mərkəzin isə qulaqları kar, gözləri kordur.

- Bunu yaxşı yadıma saldın. İndi bizim mətbuatda partiyanın nüfuzunu qaldırmaqdan tez-tez söhbət gedir. Əgər partiya öz əməlləri ilə özü öz nüfuzunu itiribsə, onu necə qaldırmaq olar?

Bu gün, "yanvar hadisələrində" partiya biletini atanlar mətbuatda təhqir olunur. Onlara təzyiq göstərilir. Bu, yaxşı hal deyil. Yanvar hadisələrinə - millətimizin təhqir olunmasına baxıb dözənlərin şəxsiyyətinə də mən şübhə edirəm.

- Redaksiyaya zəng vurub tez-tez soruşurlar ki, Bəxtiyar müəllim partiya biletini geri götürübmü?

- Yox! Qətiyyən yox! Mən, göstərişi ilə bütöv bir xalqı qan içində boğan partiyanın nə cür üzvü ola bilərəm?

- Bəxtiyar müəllim, bu gün yerindən duran bir proqram-nizamnamə yazıb üz tutur "Azərbaycan"ın redaksiyasına ki, mən partiya yaratmışam. Mənim proqram və nizamnaməmi dərc edin. Siz Azərbaycandakı bu çoxpartiyalılığa nə cür baxırsınız?

- Mən indiki halda çoxpartiyalılığın qəti əleyhinəyəm. Çünki bu gün hərəni bir yana çəkmək vaxtı deyil. Biz faciə qarşısında, "olum-ölüm" sualı qarşısındayıq. Bu gün qorunmaq, müdafiə olunmaq zoru qarşısındayıq. Biz "mənəm"liyi bir tərəfə atıb bir sırada birləşməliyik. Yenə vaxt gələr, yığışıb partiyalar da yaradarıq, fikir mübadiləsi də apararıq. İndi isə bunun heç vaxtı deyil.

- Bəxtiyar müəllim, biz bilirik ki, prezident vətəndaşlarının təhlükəsizliyini, hüquqlarını qorumağa borcludur. Azərbaycandakı həbsxanalar bu gün ağzınadək günahsız adamlarla doludur. Şüvəlan həbsxanasında tanış olduğum müstəntiq etiraf elədi ki, burada yatan-

ların əksəriyyəti günahsızdır və tutulub saxlanmış adamların bu cür kameralarda saxlanması qanuna müvafiq deyil.

- Cavab verməyə çətinlik çəkirəm. Çünki bu, prezidentin səlahiyyətinə aiddir... Ancaq onu deyə bilərəm ki, bizim qeyrətli oğullarımızın (Xəlil Rzanın və b.) həbsxanada yatması bizim üçün təhqirdir. Açıqca mətbuatda çıxış eləyib "biz torpağı alıb, Ermənistanla DQMV-ni birləşdirəcəyik" deyən Z.Balayan, Azərbaycan xalqının milyonlarının dalına keçən, o milyonların bahasına alınmış silahlarla millətimizin günahsız qocasına, qadınına, uşağına qarşı qırğınlar təşkil eləyən Manuçarov daha çox günahkardır, yoxsa, şair Xəlil Rza?! Mənə elə gəlir ki, prezident bu sualı özünə də verməlidir. Qorbaçova da.

- Bəxtiyar müəllim, filosoflardan hansısa deyib ki, kim nəyə malikdirsə, ona da layiqdir, kim nəyə layiqdirsə, ona da malikdir. AXC ilə bağlı olaraq xatırladım bunu. İndi Xalq Cəbhəsi ilə bağlı o qədər söhbət gedir ki, bu söz-söhbətə dözmək çətindir. Axı, burada qəribə bir şey yoxdur ki! Xalqın səviyyəsinə uyğun da Xalq Cəbhəmiz var. Özü də nə yaxşı ki, var! Xalq Cəbhəsi ideyası heç olmasa, xalqın ruhunu qoruyub saxlayır. Bugünkü Azərbaycanın taleyi AXC-nin taleyi ilə sıx bağlıdır.

- Mən AXC təzə-təzə yarananda onu alqışlayanlardanam. Və yenə də o fikirdəyəm. AXC bizim müstəqilliyimizə keçiddir. Bu keçid isə körpüdür, daha doğrusu, Xalq Cəbhəsini damğalamaq, onun ətrafında şayiələr yaymaq, üzvlərinin hamısına ləkə yaxmaq səhvdir. Şübhəsiz ki, onların içində də, hər yerdə olduğu kimi, ləyaqətsiz, xalq hərəkatından sui-istifadə edən (Səttarxan hərəkatında olduğu kimi) adamlar var. Lakin ümumi halda AXC-ni ləkələmək, ona düşmən mövqe tutmaq cinayətdir. Ola bilsin ki, AXC-nin rəhbərliyində, Məclisində təsadüfi adamlar var. Onlar təmizlənəcək. Xalq gözü tərəzidir. Düşürəcək xalq onları o layiq olmadıqları ucalıqdan. Azərbaycan xalqının nicatı xalqın öz cəbhəsinin ruhunda və gücündədir.

- Divin canı şüşədə olan kimi, bizim də canımız dilimizdədir. Gündə bir qərar verilir dil haqda. O qərarı verən kəslər öz qərarlarına əməl eləmədi. Dilimiz böyük kürsülərdən eşidilmədi, salonlara vara bilmədi.

Dil komissiyasının sədri kimi deyə bilərsinizmi ki, onun taleyi sabah nələrə tuşdur?

- MK-nın dil haqda növbəti qərarından sonra MK və Nazirlər Soveti bizim layihəmizi istədi. Yazıb verdik, it-bata düşdü. Nəhayət, mənim çox böyük təkidimdən sonra bu layihəni əlavələrlə mənə qaytardılar. Əlavə bundan ibarət idi ki, Azərbaycanda rus dilinin inkişafına xüsusi qayğı göstərilsin! Mən də bu əlavəni qəbul etmədim. Dedim ki, rus dilinin öz sahibi var. Qoy onun qayğısına onların özləri qalsınlar. İki aydır ki, cavab gözləyirik. Azərbaycanda yüzlərlə kooperativin, komitələrin möhürü, işçiləri və daha nə bilim, nələri var, təkcə dil komissiyasından başqa. Biz rəsmi surətdə tanınmamışıq. Bizim hüquqi gücümüz yoxdur. Bir halda ki, "yüksək səviyyəli" rəsmi iclaslar, - qurultaylar, plenumlar yenə də rus dilində aparılır, əlində heç bir ixtiyar olmayan şair nə edə bilər? Balıq başdan iylənər. Nə qədər ki, MK öz plenumlarını, büro iclaslarını ana dilində aparmır, dilimizin dövlət dili olmasından danışmaq yersizdir.

Uzağa getmək lazım deyil. Hələ mən qurultayları, plenumları demirəm. V.İ.Leninin 120 illik yubileyi keçiriləndə bir nəfər də Azərbaycan dilində danışan olmadı. Mən dözməyib Bakı Şəhər Partiya Komitəsinin birinci katibi R.Ağayevə zəng vurub etirazımı bildirdim. O, mənim etirazımla razılaşdı. Amma nə olsun? Köhnə hamam, köhnə tas. Çünki mənim sədr olduğum komissiyanın hüquqi gücü yoxdur. Rəsmi dairələr məni hüquqi şəxs kimi tanımırlar. Mən ancaq şair-vətəndaş kimi zəng vura bilərəm. Bu komissiyanın rəhbəri olduğumdan, məndən inciyib, mətbuatda əleyhimə yazılar da yazırlar.

- Bəxtiyar müəllim, bilirsiniz ki, "Azərbaycan" qəzeti öz səhifələrində ilk dəfə olaraq yeni əlifbaya (latın qrafikinə) keçidlə bağlı böyük müzakirə açıb. Münasibətiniz?

- Mən latın qrafikasına keçməyin ikiəlli tərəfdarıyam. Bu barədə mən üç ay əvvəl rəsmi tanınmayan komissiyamızın adından Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə məktub göndərmişəm. Elə bil quyuya daş atılıb. Kiril əlifbası bizim faciəmizdir. Dünyamızdan ayrı düşmüşük. Bir vaxt özbəyə, qazağa, türkmənə - hərəyə bir əlifba verib ayır-

dılar bizi bir-birimizdən. Əlifba məsələsi ən vacib məsələlərdən biridir. Bu məsələni nə qədər tez həll eləsək, əl-qolumuz o qədər tez açılar.

- Bəxtiyar müəllim, yenə əvvəlki söhbətimizə qayıdıb səbri tükənmiş, sakit-sakit oturub qarşı tərəfdən gələn tufana kirimişcə baxan, gözləri görə-görə qəbri qazılan xalqımıza cavab axtara-axtara soruşuram: Əgər bədnam erməni milli ordusu hücum edib əliyalın Azərbaycan xalqını beşikdəki körpəsinədək qırsa, məsuliyyət kimin üstünə düşür?

- Bizə "səbr edin" - deyə, xalqı laylalarla uyudan hakimiyyət orqanlarının.

- Bir xalq, bir məmləkət var. Azadlığı naminə ölümə "xoş gəldin" deyən, "dar ağacına salam" verən bir xalq, bir məmləkət. Son söz həmin xalqındır!

Müsahibəni apardı: Rüstəm Behrudi

"Azadlıq" qəzeti, 20 iyul, 1990.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ÜZÜNÜZÜ XALQA TUTUN

X a l i q : Bəxtiyar müəllim, üç il bundan qabaqkı Bəxtiyar Vahabzadə ilə indiki Bəxtiyar Vahabzadə arasında şair, vətəndaş kimi hansı fərqlər görürsünüz?

B . V a h a b z a d ə : Mən elə həmin adamam. Az-çox dünyanı başa düşəndən bu günə qədər eyni fikrə, eyni əqidəyə qulluq eləmişəm. Stalin dövründə də, durğunluq dövründə də, indi də. Mən həmişə çalışmışam ki, xalqa həqiqəti deyəm. Əlbəttə, indiki kimi açıq-aşkar deyə bilməmişəm. Müxtəlif yollardan, üsullardan istifadə edərək sözümü deməyə çalışmışam. Əhvalatı bəzən tarixə, bəzən də başqa ölkələrə keçirməklə fikrimi demişəm. Məsələn, durğunluq illərində ana dilimizin şüurlu surətdə məhv edildiyinə qarşı "Latın dili" şeirini yazdım. Bizdəki vəziyyəti Mərakeşə keçirməklə. Ümumiyyətlə, mənim "Səyahət dəftəri" başlığı altında yazdığım şeirlərin əksəriyyəti, "Qızım, sənə deyirəm, gəlinim, sən eşit" prinsipi əsasında yazılmışdır.

Yaxud götürək İsa Hüseynovu. Kim deyə bilər ki, ağrılı dərdlərimizdən bəhs edən əsərləri o, yalnız indi yazır? İsa Hüseynovun durğunluq illərində yazdıqları dövrün həqiqətlərini dilə gətirirdi.

Bütün bunlarla yanaşı, biz bir çox məsələləri vaxtilə fəhmlə başa düşürdüksə, indi gözümüzlə görürük. Bizə aydın oldu ki, yer üzündə tək qalmışıq. Buna görə də biz addımbaşı təhqir olunur, həqiqəti üzə çıxara bilmirik. Bir neçə gün bundan əvvəl Mərkəzi qəzetdə oxuyuram:

Lənkəran şəhərində otuz yaşlı bir kişi üç yaşında qız uşağının üzünü açıb.

Əslində isə bu, Lənkəranda deyil, Leninakanda olubmuş. İndi, gəl, bu haqsızlığa və bu təhqirə döz! Biz tamamilə haqlı olduğumuz halda, bütün dünya ermənilərı müdafiə edir, onların yanlışına da naxış deyirlər. Təsəvvür edin, iki günlüyə Moskvaya rəsmi görüşə gəlmiş Tetçer iki saatlığa Yerevana getməyi də lazım bilir. Görəsən, nə üçün? Mən belə başa düşürəm ki, başda Roma papası olmaqla, vaxtilə Ərəb dünyasına qarşı İsraili yaratdıqları kimi. Türk dünyasına qarşı Ermənistanı irəli veriblər. İndi Ermənistana hər cür yardım göstərir,onu qüvvətləndirirlər. Allah bizi gələcək bəlalardan qorusun!

X a l i q : Bizim bəlalarımızın bir çoxu rəhbərlərimizin etinasızlığından gəlmirmi?

B . V a h a b z a d ə : Dediyinizdə həqiqət var. Bizim kinomuzun başında həmişə xalqını tanımayanlar, onun dilini bilməyənlər dayanmışdır. Buna görə də bizim kinomuzda sənətdən başqa nə desən var. Yaxşı yadımdadır, qüdrətli kinorejissor və aktyor Matveyev bizim "Ədəbiyyat və incəsənət" qəzetinə verdiyi müsahibədə deyirdi ki, siz Moskvaya kino sənətini öyrənməyə rus dilini bilən nazir və müdir balalarını göndərirsiniz. Siz bizə rus dilini bilənləri göndərməyin, biz onlara burda rus dilini öyrədirik. Amma xalqın dilini, xalqın ruhunu, psixologiyasını öyrədə bilmirik. Mənsub olduğu xalqın dilini və ruhunu bilməyən adamlardan isə həmin xalqın rejissorunu və aktyorunu yetişdirmək olmaz. Çox təəssüf ki, bizim kino işçilərimiz hələ də bu həqiqəti başa düşməyiblər.

O ki qaldı hökumət rəhbərlərimizə, onların bir çoxu millətin düşünən başlarına düşmən kəsildilər. Mərkəz türk calaqlarına qarşı daha mənfur və daha amansız olmuşdur. Soruşulur, bu 70 ildə hansı xalqı doğma yurdundan. yuvasından ayırıb sürgün ediblər? Ancaq türkdilli xalqları – Krım tatarlarını, Ahısqa türklərini, Qaraçayları, Balkarları və s. Bəs kimin əlifbası dəyişdirilib? Yenə də türkdilli xalqların. Orta Asiyanın və bizim. Mən "İki qorxu" poemamda bu məsələyə toxunaraq deyirəm: əgər əlifbanı dəyişmək xalqın xeyrinə idisə, Stalin və Mikoyan nəyə

görə gürcü və erməni əlifbasını dəyişmədilər? Görün, bizim Bağırov nə qədər kor və anlamaz idi ki, yuxarının bu siyasətini başa düşmədi. Bəlkə də başa düşürdü, amma onda vəzifə hərisliyi o qədər güclü idi ki, tutduğu mövqeyə nəinki millətini, doğmaca dədəsini də satardı. Necə ki, addımbaşı xalqını satırdı.

Yenə bu günlərə şükürlər! Heç olmasa mətbuatda ürəyimizdən keçənləri deyə bilirik. Heç olmasa "Şəhidlər"i yazdım və millətimin qırılmasına qarşı etiraz səsimi ucalda bildim.

X a l i q : İyirminci illərdə yazılmış, hələ heç yerdə çap olunmamış bir yazı var. O yazıya əsasən erməni silahlı hissələri ilə birləşmiş XI ordu 1920-ci ilin aprelindən, 1921-ci ilin avqustunadək 48 min azərbaycanlı qırmışdır. O vaxtkı işğalla indiki işğal arasında maraqlı paralellər görünür. Bu paralellərdən biri - o vaxt da, indi də eyni qüvvələrin birləşib bizi qırmasıdır. "Şit təşkilatı Qanlı yanvar faciələri ilə bağlı bir material yayıb. "Moskovski novosti", sonra da Azərbaycan kommunistlərinin qəzetində çıxan variantı demirəm, bu hərbi ekspertlərin Bakıda apardıqları araşdırmaların nəticəsi kimi, özünün obyektivliyinə görə çox dəyərli və orijinal bir materialdır. Müəlliflərin imzası, təşkilatın möhürü ilə yayılmış bu materialın bir surəti üç aydan artıqdır ki, Bakıda yatıb qalır. Kimlərsə onun yayılmasını istəmir. Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasında yaradılmış deputat komissiyası o vaxtdan az qala bir il keçməsinə baxmayaraq hələ də ortaya bir şey çıxarda bilmir. Bu məsələ barəsində bir deputat kimi nə deyə bilərsiniz?

B . V a h a b z a d ə : Söylədiyiniz faktı mən bilmirəm. Amma komissiyanın işi hələ də üzə çıxmır.

X a l i q : Tarixi faktlardan məlumdur ki, Şah İsmayıl yüksək savadlı ("ali" yox) yüksək mədəniyyətli şəxsiyyət olmuşdur. Buna görə də o, düşünən başları, ağıllı və ləyaqətli adamları öz ətrafında toplayardı. Bu ənənəni indi də davam etdirmək olmazmı?

B . V a h a b z a d ə : O asılıdır rəhbərin düşüncəsindən. Özünün dərin biliyi, yüksək mədəniyyəti olmayan rəhbər həmişə ağıllı başlardan qorxmuşdur. Beləliklə həmişə onu bu vəzifəyə qoyan hakim xalqa yaltaqlıq eləməklə öz vəzifəsini möhkəmləndirməyə məcburdur. Əlbəttə,

ağlı olan rəhbər mütləq xalqına xidmət göstərər. Çünki onun ölüsü də bu xalqın içindədir, dirisi də. O elə işləməlidir ki, onu vəzifəyə qoyan hakim xalq onu o vəzifədən götürəndə öz xalqının üzünə baxmağa üzü olsun. Axı, biz bu dünyanı görə-görə gəlmişik.

X a l i q : Qaçqınlar barədə nə deyə bilərsiniz?

B . V a h a b z a d ə : Qaçqınlar sözünü dilimə gətirə bilmirəm, dilim yanır. Mən onların güzəranı ilə az-çox tanışam. Qardaş və bacılarımızın öz doğma yurd-yuvalarından didərgin düşməsi və bir çoxunun acınacaqlı vəziyyəti, evsiz-eşiksiz qalmaları, bizim hamımızın şəxsi dərdi olmalıdır. Təəssüf ki, iki ildən artıq vaxt keçməsinə baxmayaraq bu barədə hələ əməlli-başlı bir iş görməmişik. Qaçqınların bir çoxu ev üçün, iş üçün mənə müraciət edir. Mənim əlimdən elə bir iş gəlmir. Yuxarılara zəng çalıram, mənə elə cavab verirlər ki, zəngimdən utanıram. Mənə yalnız ürək ağrısı qalır. "Yeni fikir" (12 sentyabr, 1990) qəzetində oxuyuram: ABŞ hökuməti erməni qaçqınlarına yardım üçün on milyon dollar ayırmışdır. Həmin məqsədlə prezident Buşun fondundan daha beş milyon dollar vermək nəzərdə tutulur.

Burdan belə çıxır ki, insan hüquqlarından hər yerdə ağız dolusu danışan prezidentlər ermənilər insan sayır, amma bizi yox. Onlara demək lazımdır, əgər qaçqın hər yerdə qaçqındırsa bəs siz bu səxavəti doğma yurd-yuvasından qovulmuş azərbaycanlılara niyə eləmirsiniz? Vallah, billah, addımbaşı xoruzun quyruğu görünür. Bu ayrı-seçkiliyin qarşısında bəs varlı müsəlman ölkələri niyə susur, bəs niyə onlar bizim qaçqınlara əl uzatmır? Nə vaxta qədər biz özümüz özümüzə biganə qalacağıq?

X a l i q : Siz Azərbaycan dili komissiyasının sədri kimi, ana dili barədə nə deyə bilərsiniz?

B . V a h a b z a d ə : Göründüyü kimi, yenə köhnə hamam, köhnə tas. Balıq başdan iylənər. Nə qədər ki, hökumət və dövlət başçılarımız yuxarılarda iclasları və rəsmi yığıncaqları rus dilində aparırlar, aşağıdakılar da onları təkrar etməyə məcburdurlar.

X a l i q : Qonşu respublikalarda qəribə proseslər gedir. Ermənistanda Ter-Petrosyanı - üç ildə tökülən qanların, saysız faciələrin

başlıca səbəbkarlarından birini hakimiyyət başına gətirdilər. Amma bizdə dinc demokratik hərəkatın, xalq hərəkatının liderlərini...

B. Vahabzadə: Həbs etdilər...

Xaliq: Bu məsələylə bağlı sizin fikriniz?

B. Vahabzadə: Nə deyim? Görəsən, Zori Balayanın, Ayvazyanın, S.Kaputikyanın elədiyinin yüzdə birini mənim balalarım eləmişdilərmi? Axı, dünya... gör-götür dünyasıdır. Gör gürcü, erməni rəhbərləri özlərinin milli qəhrəmanlarını necə sevirlər, necə qoruyub saxlayırlar? Bu dərdi kimə deyəsən?

Xaliq: Bəxtiyar müəllim, seçkilərlə bağlı nə bilirsiniz?

B. Vahabzadə: Namizədlərin siyahısını oxuyanda gözlərimə inanmadım. Özünü namizəd irəli sürən adam papağını qabağına qoyub, bir anlıq fikirləşməzmi ki, əgər mən deputat olsam, parlamentə neyləyəcəyəm? Xüsusilə respublikamızın bu dar günündə parlamentə elə adamlar seçilməlidir ki, onlar yüksək kürsüdən xalqın mənafeyini qoruya bilsin. Öz tərcümeyi-halını danışa bilməyən, dünyadan xəbərsiz, varlanmaq ehtirasından başqa bir diləyi olmayan adamcığazlar bu gün deputat olmaq və bununla da toxunulmazlığını təmin etmək istəyir. Vətənin indiki ağır günlərində gərək hər kəs öz şəxsi xeyrini kənara qoyub, ümumxalq mənafeyini müdafiə etməyi bacaran adamların seçilməsinə kömək edə. İkinci tərəfdən, vacibdirmi ki, rayon birinci katiblərinin hamısı mütləq deputat olsun? Özü də bunların çoxu qeydiyyata alternativsiz salınıb, bir qismi də yalandan özünə ikinci alternativ seçib, yəqin ki, seçki ərəfəsində həmin adamlar öz namizədliklərini geri götürəcəklər.

Xaliq: Öz namizədliyiniz barədə nə deyə bilərsiniz?

B. Vahabzadə: Mənim deputat seçilməyimə əngəl törədirlər. Məni Zaqatala rayonunun elə kəndlərinə salmışdılar ki, əhalisinin yarısından çoxu avar, saxurdur. Bu millətlərin də öz namizədləri var. Bu, təbii haldır. Mən onları qınamıram. Buna görə də o kəndlərdən seçilmək istəməyib geri qayıtdım. Mingəçevirdən, Göyçaydan, Şəkidən Xalq Cəbhəsinin üzvləri mənim namizədliyimi irəli sürmək istədiklərini bildirdilər. Mən Mingəçeviri qəbul etdim. Mingəçevirin katibi qəti

surətdə etiraz edib bildirdi ki, bizim namizədimiz Mərkəzi Komitənin şöbə müdiridir. Buna görə də mən Mingəçevirdən geri qayıtmalı oldum. Məndən sonra həqiqətən Mərkəzi Komitənin şöbə müdiri Mingəçevirə gəlir. Namizədliyimin irəli sürüldüyü iclasda camaat yerlərdən qışqırır ki, bizim namizədimiz Bəxtiyar Vahabzadədir. Burda da katib camaatı susdurmaq üçün sinəsini irəli verib deyir ki, arxayın olun, siz dediyiniz adamı Zaqataladan seçəcəklər. Bütün bu dediklərim barədə "Oqni Minqeçaura" qəzetinin 5 avqust tarixli nömrəsində ətraflı yazılmışdır. Demək, Mingəçevir məsələsi də baş tutmadı. Sonra məni Göyçaya çağırdılar. Getdim. Dörd-beş yüz adamın qabağında açıq havada görüş oldu, protokol bağlandı, imzalar atıldı. Mən gəldim. Bir neçə gündən sonra eşidirəm ki, Göyçayda raykom katibi iki ayağını bir başmağa dirəyib, mənim namizədliyimə etiraz edir. Xalq olur bir tərəfdə, katib olur başqa tərəfdə. İki-üç nəfər aclıq elan edir, lakin faydası olmur. Bu çək-çevir iki aya qədər davam elədi. Balaca padşah sözündən dönmədi ki, dönmədi. Nəhayət, 5 nəfər alternativlə Yevlax rayonundan namizəd göstərildim. Başıma gələn bütün bu hadisələrdən sonra A.Mütəllibov müsahibələrinin birində deyir ki, "lap son zamanlara qədər xalq arasında böyük nüfuza malik olan adamlar seçki ərəfəsində qorxuya düşürlər".

İndi buna nə deyəsən? Nüfuzlu adam başına haranın külünü töksün ki, hər yerdə qarşısına kötük itələyirlər.

Xaliq: Bəxtiyar müəllim, yazıçılar barədə bizim qəzetimizdə çıxan məqaləyə münasibətiniz necədir?

B.Vahabzadə: O məqalə faktı olduğu kimi göstərən bir məqalə idi. Orda yazılır ki, bəzi yazıçılar əvvəlcə partiya biletlərini atdılar, sonra da geri götürdülər. Əlbəttə, hər kəs öz işini özü bilər. Partiyada qalmaq da olar, çıxmaq da. Bu şəxsi məsələdir. Lakin əvvəl partiya biletini atmaq, sonra da geri götürmək yaxşı hal deyil. Məsələnin bu tərəfi də onların öz işidir, lakin qəzetə yersiz hücumlarını başa düşmədim. Onlar yazırlar ki, "Azadlıq" qəzetində çıxan məqalədə guya müəllif onları təhqir etmişdir. Halbuki müəllif olanı yazmışdır. Daha doğrusu, faktı yazmışdır. Əgər olan hadisə - yəni bileti atıb, sonra geri götürmək yaxşı iş deyildisə niyə eləmişdiniz? Yox, yaxşı iş idisə, daha bunu niyə

təhqir hesab edirsiniz? Axı, müəllif olan əhvalatdan başqa ayrı söz yazmamışdır. Yalnız olanın yazılması xalqda qəzəb oyadıbsa, demək, siz həqiqətən yaxşı iş tutmamısınız. Onda heç kəsdən deyil, özünüzdən, öz hərəkətinizdən inciyin.

X a l i q : Yanvarın 21-də Siz radio ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyasını çağırdınız. Amma əməyiniz quru yerdə qaldı. Orda deyildi ki, Bakıda fövqəladə vəziyyət qoyulması, Bakıya qoşun yeridilməsi qanundan tamamilə kənardır. Sessiyanın qərarı beladi: qoşunlar dərhal Bakıdan çıxarılsın. Sonralar dəfələrlə sessiya olub, bu məsələyə qayıdılmayıb. Niyə?

B . V a h a b z a d ə : Əlbəttə, mən də təəccüb eləyirəm. Yarımçıq qaldı o sessiya. Heç onun üstünü vuran olmadı. Heç elə bil bu qədər qurbanı biz verməmişik. Maraqlı burasıdır ki, prezident də, Ali Sovetin sədri də çıxışlarında deyiblər ki, qoşunlar bura qanunsuz girib. Əgər belədirsə, sessiya niyə yarımçıq qalmalıdır? Başa düşə bilmirəm. Heç, elə bil, o sessiya çağırılmamışdı.

X a l i q : Bəxtiyar müəllim, yanvarda yaradılmış Milli Müdafiə Şurasına münasibətiniz?

B . V a h a b z a d ə : Mən o vaxt da o işi düzgün saymışam, indi də düzgün sayıram. Biz o işi yarımçıq qoymamalı, davam etdirməliyik. Düşmən silahlanıbsa, özünü, torpağını qorumaq üçün sən də silahlanmalısan.

X a l i q : Bəxtiyar müəllim, sizə deputatlığa gedən bu dolanbac yollarda uğurlar diləyir, maraqlı söhbət üçün "sağ olun" deyirik.

"Azadlıq" qəzeti, 1 noyabr, 1990.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



BƏXTİN VARMI, BƏXTİYAR?!

Bəxtiyar Vahabzadə - Azərbaycanın ürəyi. Yəqin ki, bu sözlər heç kimə təəccüblü gəlməz. Çünki Bəxtiyar Vahabzadə zamanın bütün ağır və çətin sınaqlarında öz mərdliyi, cəsarəti və milli qeyrəti ilə təsdiqlədi ki, o, həqiqətən, xalqımızın ağrılı, acılı, dərdli, niskilli ürəyidir Haqqımızın yad əllərdə didildiyi bu günlərdə yaxşı ki, güvəndiyimiz, inandığımız, sözündə-söhbətindən təsəlli tapdığımız Bəxtiyarımız var.

Uşaqlıq çağlarının bütün xatiratını Zəngəzurda qoyub gəldiyim illərin bir başında universitetə qəbul imtahanını məndən Bəxtiyar müəllim götürürdü. Onun suallarına titrək və sıxılasıxıla cavablar verərdim. İndi o günlərdən illər ötüb. Bu gün öz müəllimimə sualları mən verirəm. Nə bu "imtahan" o imtahana bənzəyir, nə də... Bu "sual-cavab oyunu"nda ikimiz də eyni dərdliyik, eyni həyəcan və əsəbi vəziyyətdəyik. Bir üzlü həqiqətin sözünü deyən yox, min üzlü yalanınsa havadarı çox! Hər şey axır, hər şey dəyişir. 70 il boyuna təriflər biçdiyimiz bir quruluş, əslində, yalançı vədlərdən ibarət imiş...

Bəli, istəkli oxucular. Dərdlərimizin, ağrılarımızın, bu günümüzün, sabahımızın üstündə köklədik söhbətimizi. Ürəyimizdən keçənlərin hamısını soruşa bilmədimsə, dövrana, vəziyyətə... başımızın üstündən asılan... nələrə görəsə, bəri başdan bağışlayın.

- Bəxtiyar müəllim, seçkilərin birinci mərhələsində (əgər belə demək mümkünsə) siz öz namizədliyinizi geri götürmüşdünüz. Doğrudur, si-

zin etirazınızın səbəbi çoxumuza aydındır. Amma istərdik ki, özünüz bu barədə bir-iki kəlmə deyəsiniz...

- Mən incidim. Gördüm ki, rəsmi dairələr mənim parlament üzvü olmağımı istəmir.

- İstər ötən seçkidə, istərsə də yeni namizədlərin siyahısında elə adamların adlarını oxuyursan ki... Elə bil əməyə görə mükafat paylanır. Hamı deputat olmaq yarışındadır.

- Təəssüf ki, elədir. Ötən dəfə mən Yevlaxdan namizəd verilmişdim. Beş alternativim var idi. Hamısı da maddi cəhətdən imkanlı, mənəviyyatca boş adamlar. Mən onlara xəbər göndərdim ki, canımı 40 il bu yolda qoymuşam. Ya onlar geri dursun, ya da mən. Cavabları bu oldu ki, biz namizədliyimizi geri götürməyəcəyik.

- Sizə elə gəlmirmi ki, bütün namizədlərin az qala platformaları da eynidir. Ömründə Şəhidlər xiyabanında olmayan şəxs də yanvar hadisələrinə siyasi qiymətdən danışır...

- Bəla da orasındadır.

- "Bu qan yerdə qalmayacaq" harayında qovrula-qovrula gəlib ilin axırına yetişmişik. Günahkarlar cəzalarına yetmədilər.

- Geci-tezi var, qızım. Millət o qanlı hadisələrin günahkarlarını adbaad tanıyır. Cəzalarını alacaqlar. Mən buna arxayınam.

- Ermənistan deyilən yerdə indi bir nəfər də bizdən qalmayıb. 300 mindən artıq didərginin faciəsi dözülməzdir. Hələ də onlara qaçqınlıq statusu verilməyib.

- Qaçqınların adı çəkiləndə, mənim ürəyim ağrıyır. İmkanımız səviyyəsində onlara kömək eləmədik. Bəziləri onları qınayırlar ki, özlərini yaxşı aparmılar, əsəbidirlər... A başına dönüm, görəsən, biz bir həqiqəti niyə dərk etmirik ki, ev-eşiyi, yurdu-yuvası əlindən zorla alınan adam necə əsəbi, hirsli olmasın? Mən istəyərdim ki, bir adam başqa bir adamı günahlandıranda, əvvəlcə özünü onun yerinə qoysun. Biz əgər Ermənistandan və Özbəkistandan qovulan qardaş-bacılarımızın dərdini çox yox, beş dəqiqəlik boynumuza götürsəydik, bilərdik ki, onlar nə çəkib? Bu gün hər bir azərbaycanlının əsas vəzifəsi qaçqınlara

kömək əli uzatmaqdan ibarət olmalıdır. Əgər namusumuz varsa, biz öz doğmalarımızın acınacaqlı taleyinə biganə qalmamalıyıq.

- Azərbaycan yas meydanına çevrilib. Hər gün erməni quldurları tərəfindən qətllər olur, evlər yandırılır... Bu müharibənin sonu görünmür.

- Bu fəlakətdə birinci günahkar özümüzük. Çünki biz üç ildir ki, pis müdafiədəyik. Əslində, heç müdafiəni də bacarmırıq. Ən böyük müdafiə hücumdur. Əgər hadisələr təzə-təzə cücərəndə biz onlara əməllibaşlı təpinsəydik, heç belə də olmazdı. İlan ulduz görməsə ölməz. Bu işdə birinci səhvimiz ondan ibarət oldu ki, guya Dağlıq Qarabağda ermənilər yaşayan ərazi iqtisadi cəhətdən bizdən geridir. Guya biz onlara zülm eləmişik. İkinci səhvimiz ondan ibarətdir ki, Ermənistandan qovulan qaçqınları gərək Dağlıq Qarabağda yerləşdirəydik. Kişilik lazım idi buna. Amma bizimkilər bütün məsələlər də Moskvanın üzünə baxırlar. Bu üç ildə Moskva isə bir dəfə də olsun bizim nə üzümüzə baxdı, nə də sözümüzə əhəmiyyət verir.

- Siz həm də M.Ə.Rəsulzadə adına BDU-nun müəllimisiniz. Bugünkü ali məktəblərin ab-havası sizi qane edirmi? Doğrudan da, "bilik əsas meyardır"mı?

- Yox! Bilikdən çox, başqa şeylər əsas meyardır. Bu da bizim faciəmizdir. Yenidənqurmanı ən əvvəl orta və ali məktəblərdən başlamaq lazım idi.

- Bir ədəbiyyatçı alim kimi dərsliklərimiz barədə nə deyərdiz?

- Yaralı yerimə toxundunuz. Dərsliklərimiz yaman gündədir. Mən onları vərəqləyəndə dəhşətə gəlirəm. Bu barədə dəfələrlə yazmışam. Ədəbiyyat dərsliklərində elə şeirlər var ki, vallah, adam az qalır dəli ola. Fikir verin:

Neftdən olur qaz, benzin,
Neftdən olur kerosin.

Nə vaxtacan balalarımıza bu cür mənasız məlumat verən şeirlər

öyrədəcəyik? Bir vaxt mən təklif etdim ki, ibtidai siniflər üçün dərsliklərə A.Səhhət, A.Şaiq, M.Ə.Sabir, Ə.Cəmil kimi uşaq ruhunu və uşaq psixologiyasını bilən sənətkarlar salınsın. Bu şairlərin şeirləri o qədər gözəl və sadədir ki, uşaqlar bircə dəfə oxuyan kimi yadlarında qalır. Əhməd Cəmilin "Kənddə bahar axşamı" adlı olduqca gözəl bir şeiri var. Son misraları belədir:

Suya gedən qızlar dönür,
Yalqız qalır bulaqlar.

Bu gözəllikdə şeir hələ indiyə kimi dərsliyə salınmayıb. Dərsliklərə uşaqlarda bədii-estetik duyğular oyadan şeirlər salmaq lazımdır. Böyük dahilər nahaq yerə deməyiblər ki, dünyanı gözəllik xilas edəcək. Əlifba kitabını da mütləq yeniləşdirmək lazımdır.

Mən rus dilinin, ümumiyyətlə, heç bir dilin öyrədilməsinin əleyhinə deyiləm. Amma birinci sinifin şagirdinə rus dili fənni keçməzlər. Uşağa əvvəlcə gərək Ana dilini mükəmməl öyrədəsən. Rus dilini ən tezi üçüncü sinifdən keçmək lazımdır.

- Yeri gəlmişkən, deyim ki, son vaxtlar dəbə düşüb. Tez-tez "dilimiz-qeyrətimiz" sözlərini işlədirik. Siz "Azərbaycan dilinin dövlət dili" komissiyasının sədrisiniz. Dilimizin real vəziyyəti sizi təmin edirmi? Özümüz özümüzə yalvarırıq ki, gəlin, Azərbaycan dilində danışaq.

- Mənə bu sualı tez-tez verirlər. Biz heç nə eləyə bilmirik. Komissiyanı yaradıblar, amma səlahiyyətsiz. Nə qədər ki, bizim rəhbərlərimiz rəsmi iclasları, təntənəli gecələri rus dilində aparırlar, biz heç nə eləyə bilmərik. Nə qədər ki, başçılarımız öz ailəsində balası ilə özgə dildə danışır, bu iş baş tutmayacaq. Mən dövlət rəhbərlərini ana dilinə çağırıram...

- Bəxtiyar müəllim, küçə və yer adlarının dəyişdirilməsi ilə bağlı nə deyərdiniz?

- Biz fəaliyyətə başlayanda Bakıda cəmi 22 küçənin adı doğma idi. İndi cüzi faizi qeyrisinin adınadır. İşimiz bir az ləng gedir. Amma ça-

lışırıq. Yavaş-yavaş istəyimizi göyərdirik. Çox məktəbin, qəsəbənin, müəssisənin adı dəyişilməlidir.

- 70 illik qadağandan sonra din azad şəkildə həyatımıza daxil olub. Məscidlər bərpa edilir. Bakıda mədrəsə açıldı, adamlara icazə verildi ki, öz dini etiqadları ilə məşğul olsunlar. Orta məktəblərdə necə, şəriət dərsləri keçmək olarmı?

- Nəinki olar, bu, çox vacibdir. Uşaq orta məktəbdən bilməlidir ki, hansı dinə mənsubdur; Onlara dinin əsasları keçilməlidir. Hər bir orta məktəbi bitirən şəxs şəriətin ilkin qaydalarını bilməlidir. Ali məktəblərdə isə bütün fakültələr də dinin fəlsəfəsi keçilməlidir. Amma fanatik olmamaq şərtilə. Fanatizmə getmək təhlükəlidir. Dində fanatizm dəhşətdir. İstanbulda nəşr olunmuş "İslam elmihalı" adlı bir kitabda oxumuşam: Xristian alimləri deyirlər ki, ən elmi din islamdır. Yeganə dindir ki, daha çox elmə əsaslanır. Bütün dinlər gözəldir, lakin islam dininin üstün cəhətləri çoxdur. Həmin kitabda deyilir ki, Allah əzəli və əbədidir. İnsanın ağlı isə sonradan qazanmadır. Hiss də əzəlidir. Ona görə də insan əzəli olan Allahı sonradan qazanılan ağılla dərk edə bilməz. Bura mütləq hiss əlavə olunmalıdır. İnsan Allahı ağıl və hissin birgə vəhdətilə dərk edə bilər. Din əxlaqdır, təmizlikdir, ülviyyətə uçuşdur. Dini olanın mərhəməti də olar. Nə bəla gəlsə mərhəmətsizlikdən, vicdansızlıqdan, allahsızlıqdan törəyər.

- Şeirimizin Bəxtiyarı həyatda necə, bəxtiyardımı?

- Bilirsinizmi, mən naşükür adam deyiləm. Əslində, bizim hamımız xoşbəxtik. Bunu ancaq pis günlər üstümüzü alanda anlayırıq. Bu barədə Əli Kərim gözəl deyib:

Nə xoşbəxtmişəm
bir zaman, Allah.
Xəbərim olmayıb
bu səadətdən.
Nə xoşbəxt imişəm,
nə xoşbəxt, xoşbəxt,

Bu gün eşitmişəm
bunu həsrətdən.

Səadət nədir? Bütün bədbəxtliklərin sona yetdiyi nöqtə. Geniş ürəkli nənələrimiz ən ağır dəqiqələrdə belə Allaha asi olmayıblar. "Şükür məsləhətinə" deyiblər. Yuxarı yox, aşağıdakılara baxıb həmişə şükür eləmək lazımdır. Əslində, ideal xoşbəxtlik yoxdur. Dünya ona görə gözəldir ki, onun göyərçini də var, ilanı da. Yoxsa, həyatın bəxtiyarlığını duya bilməzdik.

- Bəlkə "Azərbaycan müəllimi" qəzetinin oxucularına başqa sözünüz var?

- Xahiş edirəm ki, mənim incikliyimi bizim müəllimlərə yetirəsiniz. Bir çoxları müstəqil deyillər. Görürsən məktəbdə bir şair, yaxud bir yazıçı ilə görüş keçirirlər. Müəllim başlayır kitabda, dərslikdə yazılanları həmin adamın üzünə oxumağa. Məgər o müəllim həmin yazıçı haqqında özü iki kəlmə sərbəst fikrini söyləyə bilməz? Bu səbəbdən də uşaqlar dərsi robot kimi danışırlar. Özbərçilik məktəblərdə baş alıb gedib. Hələ bağçalarda vəziyyət lap dözülməzdir. Allah, Allah, bu körpələrə niyə bu qədər sünilik öyrədilir.

Bakıda tərifli bir bağça var. Müdirəsi də, müəllimi də tez-tez televiziya ekranında çıxış edirlər. Görün, onların öz danışıqları necə qüsurludur. "Uşaqlar" sözünü yazıl dığı kimi də ifadə edir. Canım-gözüm, axı, sən "uşaxlar" deməlisən. Və yaxud da "istəyirəm" yazılır, "istiyirəm" deyilir. Müəllimlərimizin mütaliəsindən də çox narazıyam. Eşitdim ki, məktəbdə balacalara "Sovet ordusu sülh ordusu" mövzusunda dərs keçirlər. Deyirəm, ay müəllim, axı, bu yazıq uşaq öz gözləri ilə sovet ordusunun "cəlladlığını" görüb. Cavabı budur ki, proqram belədir. Bəs sənin vicdanın, özün?.. İnsan nə vaxta kimi quru kağızın əsiri olacaq? Siz Allah, övladlarımızı süniliyə alışdırmayın, onlara həqiqi mənada bilik və elm verin.

- Bəxtiyar müəllim, maraqlı və məzmunlu söhbət üçün sizə təşəkkür edirik.

Redaksiyadan: M.Ə.Rəsulzadə adına BDUnun professoru, şair Bəxtiyar Vahabzadə Bakının Xətai rayonundakı 83 nömrəli seçki dairəsindən xalq deputatlığına namizəd verilib. B.Vahabzadənin platforması özü, sözü və əsərləridir. 5

Sizi xalqımızın bu qeyrətli, cəsarətli və təpərli oğluna səs verməyə çağırırıq!

"Azərbaycan müəllimi" qəzeti, 12 dekabr, 1990.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



“GÜNAHSIZ MÜQƏSSİRLƏR”

- Bəxtiyar müəllim, hamımıza yaxşı məlumdur ki, “yenilməz” Sovet Ordusu öz azadlığı uğrunda mübarizə aparan əfqan torpağına 1979-cu il dekabr ayının 27-də daxil oldu. Bir ziyalı kimi o vaxt Sov.İKP MK-nın Baş katibi Brejnevin bu “beynəlmiləlçi” siyasətinə qarşı hansı mövqedə dayandığınızı daha qabarıq şəkildə oxucularımıza çatdırmağınızı xahiş edirik.

- Əvvəla, indi deyil, 30-40 il əvvəl də mən Reyqanın “Şər imperiyası” adlandırdığı bu imperiyanın əleyhinə olmuşam. Əlbəttə, bildiyimiz səbəblərə görə bunu heç bir yazımda açıq ifadə edə bilməzdim. Lakin universitetdəki mühazirələrim də fikirlərimi dolayısı yolla tələbələrimə çatdırardım. Yəni, ümumiyyətlə, dünya imperializmindən danışarkən bu imperializmin insanlara göstərdiyi zülmün, müstəmləkəçilik siyasətinin amansızlığını izah edərdim və gətirdiyim misallarla tələbələrimə “Qızım, sənə deyirəm, gəlinim, sən eşit” atalar sözünə istinad edərək başa salırdım ki, imperializmi kənarda deyil, öz vəziyyətimizdə axtarın. Eyni zamanda, əsərlərimdə sovet siyasətinin dəhşətlərini digər ölkələrə keçirər, guya hadisənin haradasa xaricdə baş verdiyini yazardım. Bunun ən gözəl nümunəsi “Yollar və oğullar” poemamdır. Burada mən Əlcəzair ərəblərinin fransız imperializminə qarşı apardıqları səkkiz illik mübarizəni qələmə almışam. Amma əhvalatı oxuyan ən zəif oxucu belə dərhal başa düşür ki, əsərdə söhbət bizim özümüzdən gedir. O vaxtlar bu poemadan ötrü məni çox incitdilər. Sonralar əsər mərhum Mehdi

Hüseynin köməkliyilə çap olundu.

O ki, qaldı Əfqanıstan məsələsinə, mən bu işin əvvəldən qəti əleyhinə olmuşam. Adama ağır gələn odur ki, bir milləti öz yurdunda məhv etməyə çalışıb, adını da "beynəlmiləlçilik borcu" qoymuşlar. Tezliklə, "Sandıqdan səslər" başlığı altında çap olunacaq kitabıma bu haqda həmin dövrdə yazdığım bütün şeirlərimi daxil etmişəm.

Şərqşünaslıq fakültəsini bitirmiş oğlum İsfəndiyarı da tərcüməçi kimi 1980-ci ildə Əfqanıstana apardılar. Mən onun getməsinə razı deyildim. İstəmirdim oğlum belə ədalətsiz müharibənin iştirakçısı olsun. Görürsünüzmü, ömrü boyu ədalətdən, həqiqətdən yazan bir şairin övladını nə günə qoydular, müqəssir elədilər. Bu işdə oğlumla birgə elə mən özümü də günahkar hesab edirəm.

- Bəxtiyar müəllim, dediklərinizdən belə çıxır ki, əfqan torpağında vuruşanların hamısı günahkardır.

- Əfqanıstanda vuruşanların adını mən "günahsız müqəssirlər" qoymuşam. Azərbaycan balaları əfqan xalqı qarşısında özləri istəmədən günahkardırlar. Bu tək onların yox, millətimizin faciəsidir. Əgər o uşaqlar demokratik, azad bir məmləkətin övladları olsa idilər, belə də olmazdı. Çünki tarix boyu bizim millət heç kəsin toyuğuna "kiş" deməyib. Bəxtiyar müəllim, tez-tez şəhərimizin küçələrində sinəsinə əfqan müharibəsində aldığı orden və medalları taxıb gəzən cavanlara rast gəlirik. Çoxları bunu müxtəlif cür qiymətləndirirlər. Bir ağsaqqal kimi bu məsələ barəsində nə deyərdiz?

- Həmin medalı taxan bədbəxt bilirmi, o nəyin bahasıdı. Axı, birdəfəlik dərk etməyin vaxtı çoxdan çatıb ki, sinələrdə bərq vuran o cür alınmış ordenlərin parıltısı haqq uğrunda mübarizə aparanların qanının parıltısıdır.

Yəqin ki, "Medallı dilənçi" şeirim yadınızdadır. Həmin şeirimdə də bu barədə öz fikirlərimi yazmışam. Demək istəyirəm ki, yad imperiyanın hökmüylə özgə torpağımda günahsız insanların qanını tökməklə "qəhrəmanlıq" göstərib orden, medal almağın axırı yaxşı olmaz:

Vətən torpağını qoruyan əsgər
Şərəf abidəsi, şan heykəlidir.

Özgə torpağında can qoyan əsgər
Döşdə yad medalı dilənməlidir.

- Bəxtiyar müəllim, Siz küçələrin adlarını dəyişən komissiyanın üzvüsünüz. Yəqin ki, Əfqanıstanda həlak olanların adlarını əbədiləşdirməkdən ötrü komissiyaya müraciət edilir.

- Əlbəttə, Əfqanıstanda "qəhrəmanlıqla" həlak olan balalarımızın xüsusilə anaları onların adına küçə istəyirlər. Ancaq qoy bizdən inciməsinlər, mən onların adına küçə veril məsi məsələsinə baxa bilmirəm. Axı, bu uşaqlar nəyin naminə qəhrəman olublar? Qoy elə yad torpaqda nakam ölən cavanlarımızın ruhu da məni bağışlasın. Axı, mən heç 41-45 müharibəsin də ölənlərimizi də qəhrəman hesab eləmirəm...

- Bəxtiyar müəllim, əlbəttə, bütün bunların hamısı acınacaqlı olsa da, bu gün müharibə içərisində olan Azərbaycan torpağının müdafiəsində "əfqan"ların yeri, əməyi əvəzsizdir. Onlar, sözün əsl mənasında, Qarabağda kişilik cəsarəti,qəhrəmanlıq göstərirlər.

Mən "əfqan"lar haqqında qəribə xəbərlər eşidirəm. Bu ün onlar doğma torpaqları uğrunda mübarizə aparırlar. Deməli, haqq-ədalət uğrunda döyüşürlər. Şükür ki, "əfqan"övladlarımız dünən zorakılıq əsgərləri idisə, artıq indi ədalət əsgərləridirlər. Bu yaxınlarda qəhrəmancasına həlak olan "əfqan" döyüşçülərindən Firdovsi Məmmədovun, İlham Əliyevin, Arif Ələsgərovun xatirəsi Azərbaycan xalqının qəlbindən heç vaxt silinməyəcək. Sözümü yekunlaşdırıb bir də onu demək istəyirəm ki, bu gün Qarabağda torpaqlarımızın bütövlüyü uğrunda döyüşən bütün "əfqan" oğullarımızın hamısını bağrıma basıb, ürəkdən öpürəm.

- Çox sağ olun.

"Mübarizə" qəzeti, 27 dekabr, 1991.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ÇAĞIRIR
MİLLƏTİ İMDADA VƏTƏN!

Nə satılmaz, nə verilməz binədən yada Vətən!

- Bəxtiyar müəllim, qəzetimizin 9-cu sayında "hər söz də bir süngüdür" məqaləsində indiki müharibədə sözdən bir süngü kimi istifadə olunmadığından, ədəbiyyat və mədəniyyət xadimlərimizin döyüşçülərimizin qələbələrə ruhlandıracaq əsərlər yazmadığından söhbət açılmışdır. Yəqin ki, həmin yazı ilə siz də tanışsınız...

- Əvvəla, qəzetinizə uğurlar arzulayıram. Bu qəzetin çap olunması çox zəruridir. Ordu qəzetləri vaxtilə ordunun təşkilində, ordunun qəhrəmanlığında çox böyük işlər görürdülər. Sizin qəzetin hər nömrəsini oxuyuram. Yəni öz rolu, öz sifəti, özünəməxsus mövzuları var qəzetinizin. Bunlar da çox üstün cəhətlərdir. Sizin qəzetinizdə "hər söz bir süngüdür" adlı məqalədə belə bir cümləyə rast gəldim. Qəzetdə yazılır ki, Daşaltı əməliyyatından sonra Şuşada olarkən yanımda əyləşmiş əsgərlər televiziya ekranından bir qrup yazıçı yaradıcı və yaradıcı ziyalılarımızın Türkiyə səfərindən qayıtmasını acı bir istehza ilə qarşıladılar. Mən bunu tamamilə qanuni hesab edirəm.

O çıxış edən yazıçılardan, ziyalılardan biri də mən idim. Və mən o əsgərin yerinə olsaydım, Şuşada əlimdə silah televiziyaya tamaşa etsəydim və görsəydim ki, bir dəstə ziyalı Türkiyə səfərindən iştahla danışır, mən o ekrana tüpürərdim. Və ona görə də o əsgərin bizi istehza ilə qarşılamasını düz hesab edirəm. Yaxşı eləyib ki, bizə istehza eləyib.

Amma burda bir məsələ də var ki, o ziyalılar bir az artıq-əskik danışdılar. Prezidentimizi başladılar tərifləməyə. Hətta biri belə bir cümlə işlədərək dedi ki, prezidentimiz özünü çox yaxşı apardı orada. Adamı gülmək tutur. Prezident orada nə etməliydi? Bu nə sözdü. Buna görə də əgər yadınızdan çıxmayıbsa, iki dəfə mən dedim, "yekunlaşdıraq bu söhbəti".

Bilirsinizmi, güllə dəyən adam bir müddət ağrını hiss eləmir. Biz güllənin ağrısını sonra hiss edəcəyik.

Millət bu ağır kədərin qarşısında, elə bil ki, keyləşib. Hələ özünə gələ bilməyib. Hələ ağrını sonra hiss edəcək. Buna görə sənətkarlarımız da bu ağrını, bu acını vaxtında qələmə ala bilməyiblər. İndi-indi başlayıblar yazmağa, indi-indi millət ona dəyən yaranın ağrısını hiss eləyir.

- Sizcə, ədəbiyyat və mədəniyyət xadimlərimizin son zamanlara kimi cəbhədə baş verənlərə tamamilə laqeyd qalması bütünlükdə müharibə dövründə onların üstünə düşən vəzifələrə laqeydlikdən doğurdu, yoxsa onlar da bunu bəzi dövlət rəhbərlərimiz kimi özlərinin yox, kimlərinsə işi sayırdılar? Və ya işləməkdənsə sözçülüyü, mitinqçiliyi üstün tuturdular?

- Zaman bizi indi birdənbirə o durğunluq dövrünün durğunluğundan müharibə şəraitinə gətirib çıxarıb. Bu şəraitə uyğunlaşmaq lazımdır. Heç kəs dərhal uyğunlaşa bilmir, çətindir. Mən bunu yazıçıların öz millətinə biganəliyi ilə izah eləyə bilmirəm. Qətiyyən. Əksinə, yazıçı həmişə avanqard olub, həmişə qarşıda gedib. Məgər bu mitinq eləyənlər özbaşınamı eləyib? Həmin mitinq edənlər o adamlardır ki, dünən həmin o yazıçıların əsərlərini oxuyaraq həqiqəti başa düşüblər, dərk eləyiblər. Elə məni götürün, mən "Latın dili", "Ana dili" şeirləri ilə, "Gülüstan" poeması ilə, "Yollar, oğullar" poeması ilə həqiqəti bu millətə aşılamağa çalışmırdımmı?

1988-ci ildə mitinqlərin birində mənə zəng elədilər ki, camaat səni istəyir. Bunu eşidib gəldim meydana, xəstə idim. Millət məni qucağına alıb tribunaya gətirdi. Mən ağladım, onda yanımda olan bir adam mənə dedi ki, ağlama bu gün sənin gülən günündür. Bax, burada dayanan 500 minə qədər adam sənin əkdiyin toxumlardır ki, cücərib. Sən bu gün gülməlisən. Həmin toxumlardan indi meşə yaranıb.

Mən tək özümü demirəm. Eləcə də başqa yazıçı yoldaşlarımı deyirəm. Biz zamanın ağrılarına cavab verə biləcək yazıçılar idik. Amma birdənbirə o durğunluq dövründən belə bir müharibəyə düşdük və özümüzü uyğunlaşdıra bilmədik. İndi yavaş-yavaş dirçəliş yaranır.

Bütün bunlarla bərabər, məgər dərhal cavab verən əsərlər yaranmadımı? Bunu inkar etmək olmaz. İnsaf dinin yarısıdır. 19 yanvarda yüzlərlə soydaşımızı öldürdülər, qırdılar. Onun ertəsi günü "Şəhidlər ağısı" yarandı. Bir ay sonra isə "Şəhidlər" poeması yarandı. Bunlar olub və onu inkar etmək olmaz.

- Yaşlı nəsil şair və yazıçılarımızın bədii yaradıcılığında İkinci Dünya müharibəsi ilə bağlı çoxlu əsərlərə təsadüf etmək olar. Onlardan biz bu gün məhsuldar addımlar gözləyirik, cavanlara nümunə olacaqlarına inanırdıq. Düzü, belə fəallıqdan indi danışmaq olmaz.

- Bu da çox uzun məsələdir. Bu saat gərək yaşlı nəsil cavan nəslə nümunə olsun. O zaman, 1941-ci ildə biz öz torpaqlarımızı müdafiə eləmirdik, rus torpaqlarını müdafiə eləyirdik. Amma ona baxmayaraq, S.Vurğun, S.Rüstəm, M.Rahim dərhal qələmə sarıldılar:

Bilsin Ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən. -yarandı.

İndi bu yaranmır. Bunun sirri nədədir, mən bunu açа bilmirəm, izah edə bilmirəm. O ağrını, rus torpaqlarına faşistlərin daxil olma ağrısını biz öz torpağımızda hiss eləmirdik. Təhtəlşüur (şüuraltı) hesabına bilirdik ki, bu, bizim torpaqlarımızda getmir, amma buna baxmayaraq, möhkəm partiya rejimi var idi.

- Müharibə getdiyini Bakı şəhərində duymaq olmur. Deyəsən, heç sizin üzvü olduğunuz parlamentdə də bu, özünü büruzə vermir. Sizcə, bu niyə belədir?

Bizim millətimizin həmişə liderə ehtiyacı olub. Təşkilat çılıq yoxdur. Bu gün biz ədəbiyyatımızı qoyaq bir tərəfə, müharibəyə səfərbər olmaq məsələsinə gələk. Xalqımızın hamısı müharibəyə səfərbər ola bilirmi? Yox. Çünki güclü yumruq yoxdur. Mən yumruğu müdafiə etmirəm. Mən demirəm ki, yumruq-despotizm olmalıdır. Amma bir təşkilatçı olmalı-

dır. Başçı olmalıdır. Çox təəssüf ki, köhnə partiya liderliyi, onun təşkil etmək qabiliyyəti bu saat bizim respublikada yoxdur. Yəni, başda oturan milləti təşkil eləyə bilmir. Bax, o təşkilatsızlıq bəlasından müdafiəmiz də zəifdir. Müdafiəmizi əks elətdirən ədəbiyyatımız da zəifdir. Ona görə də ədəbiyyatımız hadisələrə dərhal cavab verə bilmir. Bu mənada mən sizin dediyinizlə şərikəm.

Görünür ki, biz ağrını hələ lazımi səviyyədə dərk eləyə bilmirik. Ağrıdan keyləşmişik. Şillə bizə birdən dəyib. Özümüzü itirmişik. Bu biganəlik deyil. Qədim filosoflardan biri deyib ki, millət-kütlə sıfırdır. Onun qarşısında bir olanda, sıfır dönür qüvvəyə.

Yenə də deyirəm, başda duran bizi təşkil eləməlidir. Elə millət var ki, onun liderə o qədər də ehtiyacı yoxdur. Bizim millətin liderə böyük ehtiyacı var. Erməni yazıçılarından biri demişdir: "Bəzən deyirlər ki, ermənilərdə millətçilik var, milli birlik var. Amma bizim qonşularımız olan Azərbaycan türklərində isə o yoxdur. Bu, səhv sözdür. Azərbaycan türklərində də milli hiss var. Amma bizdə işi təşkil etmək var, onlarda isə bu yoxdur". Yəni təşkil ola bilmirlər. Millətin başı bir yerə yığıla bilmir.

Parlamentdə özümü pis hiss elədim, qan təzyiqim artdı və bununla əlaqədar olaraq məni evə gətirdilər. Parlamentin ikinci iclasına mən televiziya vasitəsilə tamaşa etdim. Xəcalət çəkdim,utandım. Əgər bizim parlamentimiz, yəni millətin vəkilləri bu kökdədirsə, vay bu millətin halına. Birinin sözü o birinin sözü ilə düz gəlmir. Oyunmu gedir, nədir, başa düşmək olmur?

Mən deməzdim oyun gedir. Bəlkə də bu, təşkilatsızlıqdan əmələ gəlir, milli birliyin olmaması faciədir. Ona görə də bizə mütləq bir lider lazımdır.

- Respublikamızın bu keşməkeşli vaxtında şair və yazıçılarımızın çoxu daha çox mitinqçiliklə, siyasətlə məşğul olurlar. Sizcə, onların yalnız öz işləri ilə dərindən və professional surətdə məşğul olmaları daha yaxşı olmazmı? Axı, mənəviyyatımızı siyasətə qurban vermək olmaz.

- Yazıçılar mitinqçiliklə məşğul deyillər. Hansı yazıçımız mitinqdə çıxış edir. Əvvəllər mən çıxış edərdim, İsmayıl çıxış edərdi. Amma indi biz mitinqə getmirik. Mintinqçilik yoxdur.

Amma ədəbiyyat da yaranmır.

Məsələn, məni götürək. Mən özüm bu sualı özümə verirəm. Mən niyə qələm işlətmirəm? Publisistik məqalələrlə kifayətlənirəm, şeir yazmıram. Bədii yaradıcılıq üçün sakit mühit lazımdır. Bədii yaradıcılıq qəlbə çökmək, hisslərə çökmək, duyğulara çökməkdir. Ona indi bizim imkanımız yoxdur. Mən özüm indi şeir yazmaq üçün əlimə qələm alanda əlim titrəyir. Mən görürəm ki, şeir yazmaq əhvalında deyiləm. Onda mənə sual verə bilərsiniz: Bəs necə olur ki, "Şəhidlər"i yazdın bir aya, niyə yarandı bu? Mən özüm də bunu başa düşə bilmirəm.

- Qarabağda gedən döyüşlərlə bağlı yaradıcılıq planlarınız varmı?

- Ən məşhur filosoflardan soruşublar ki, bədii yaradıcılıq nədir? O demişdir: "Dünyanın heç bir psixoloqu, heç bir filosofu bədii yaradıcılıq prosesinin nədən ibarət olduğu sualına cavab verə bilməyib".

Mən özüm də bilmirəm ki, necə olur, mən yazıram. Məni yazmağa çəkən qüvvə nədir? Ona görə də mən sizin sualınıza cavab verə bilmirəm. Düşünürəm: nəyə görə mən məqalələr yazıram, amma şeir yaza bilmirəm. Çünki məqalədə olan şeyi yazırıq, olan əhvalatı yazırıq, bu beləydi, amma belə olmalı deyildi. Bədii yaradıcılıq təhlildir, yəni daxili aləmə varmaqdır. İç dünyasına baş vurmadır.

Görünür, bu elə prosesdir ki, bundan sonra ədəbiyyat yaranacaq, bu bir mərhələdir. Məqalələr yazırıq, parlamentdə çıxışlar edirik. Amma sonra lap bunların hamısı bizi bədii yaradıcılığa gətirəcək.

Mən burda nə özümə, nə də başqa qələm yoldaşlarıma haqq qazandırmaq istəmirəm. Yaradıcılıq sirri məlum olmayan bir prosesdir. Bəstəkar Cavanşir Quliyev getdi cəbhəyə, hissələrdə oldu, əsgər ona şeir verdi və o şeir əsasında gözəl bir marş yarandı. İnanıram, o marş hamını səfərbər edəcək. Yalnız millətimizi deyil, yazıçıları, şairləri də səfərbər edəcək.

Maraqlıdır, həmin marş çalınandan bir saat sonra E.Sabitoğlu mənə telefon açdı. Dedi, mənə söz ver, mahnılar yaradaq, marşlar yaradaq. Qəribə burasıdır ki, o gecə mən yatmayıb bir marş və Vətən haqqında bir şeir yazdım. Bizdən asılı olmayan bir təkandır bu. Bizə təkan lazımdır. Mən bununla haqq vermək istəmirəm bizim susmağımıza. Biz

susmalı deyilik. Biz yazmalıyıq...

Çağırır indi bütün milləti imdada Vətən,
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.
Bizə meydan oxuyan bilməlidir birdəfəlik
Nə satılmaz, nə verilməz binədən yada Vətən.
Sinə altında gərək qəlb kimi hər an döyünə
Yana ulduz kimi hər sözdə, həm imzada, Vətən.
Vətən eşqindən ucalsın bütün istəklərimiz
Yaşasın arzuda, məqsəddə, təmənnada Vətən.
Ulular uymadı var-dövlətə, yalnız dedilər:
Ən böyük bəxşişimiz bizdən hər övlada, Vətən.

Mənə danışdılar ki, bir kişi evinə gələndə görür ki, onun 15 yaşlı qızını ermənilər darta-darta aparırlar. Ata görür, amma kömək edə bilmir ona. O, dözə bilmir, tüfəngi götürərək qızını öldürür ki, ermənilər qızının namusuna toxunmasınlar. Fikir verin, ata öz qızını öldürür. Bunu ancaq mənim millətim eləyər! Balasından keçər, namusundan keçməz. Bu, böyük bir epopeyanın, romanın materialıdır. Belə hadisələrdən çoxlarını danışıblar mənə. Bunlar hamısı qeyd olunub, hamısı gələcəkdə yaranacaq.

İndi xırda-xırda şeirlər yazıram, amma onlarla kifayətlənmirəm. Xırda şeirlərdə bu dərdimizi, faciəmizi göstərmək olmaz. Pyeslər, romanlar yaranmalıdır. Və mütləq yaranacaq. Mümkün deyil ki, bizim yazıçılarımız bu barədə yazmasınlar...

“Xalq ordusu” qəzeti, 7 aprel, 1992.
“Yanan da mən, yaman da mən”, Bakı, 1995.



DEMOKRATİYANIN QƏLƏBƏSİ QORUNMALIDIR

Həmin sessiyadan bir gün əvvəl bildim ki, Ayaz Mütəllibovu yenidən prezident vəzifəsinə gətirmək istəyirlər. Elə həmin gün, yəni mayın 14-də bu barədə Xalq Cəbhəsinə məlumat verdim. Belə qərara gəldik ki, sessiyasının işində iştirak etməyək. Çünki bunun arxasında duran fəlakət yaxşı görünürdü. Bu, o demək idi ki, azadlıq və müstəqillik uğrunda illərdən bəri mübarizə aparan, bu yolda neçə şəhid qurban verən xalqımız yenidən rus imperiyasının əsarəti altına düşəcək, başı üstə yenicə açan azadlıq günəşinin işığından məhrum olacaq. Belə düşünməyə əsasımız var idi. Yaxşı bilirik ki, Ayaz Mütəllibov həmişə Moskvanın göstərişi ilə işləyib və bu cür iş üsulundan da əl çəkmək istəmir.

- Bəxtiyar müəllim, o zaman çox adam elə düşünürdü ki, Ali Sovetin qabağında çadır quran Hacı Əbdül "yenidənqurmanın" başlıca memarıdır. Bir qrup adamın onu necə atıb-tutduqlarını da yaxşı xatırlayırıq.

- Bunlar hamısı oyun idi. Özü də heç kimin sümüyünə düşməyən hava altında çalınan oyun idi. Hacı Əbdül vasitə idi. Onun arxasında başqa qüvvələr durmuşdu. Keçmiş milli təhlükəsizlik naziri İlhüseyn Hüseynovun çıxışından sonra bunun hansı qüvvələr olduğu daha da aydınlaşdı.

Sessiyadan bir gün sonra, yəni mayın 15-də AXC qərargahına gəldim. Qərargahın qabağına çoxlu adam toplaşmışdı. Hamı nigaran və həyəcan içində idi. Orada mən də çıxış etdim və açıq dedim ki, Mütəllibovun yenidən hakimiyyətə gəlməsi qeyri-qanunidir, konstitu-

siyaya ziddir.

Mütəllibov elə ilk çıxışındaca bütün xalqa hədə-qorxu gəldi. Lazım gəlsə diktatura yaradacağını bildirdi. Bu, demokratiyanın, özü də yenicə cücərən, boy atan demokratiyanın boğulması demək idi. Deməli, onun xalqa zidd hərəkətləri, xalq iradəsinin əleyhinə olduğu elə ilk çıxışındaca bilindi. Əlbəttə, belə olan tərzdə xalq onu müdafiə edə bilməzdi. Elə ona görə də əvvəldən axıradək AXC-nin mövqeyini müdafiə etdim, bu gün də edirəm və düşünürəm ki, Xalq Cəbhəsi xalqın cəbhəsidir.

- Bu gün torpaqlarımız işğal edilir, Qarabağın dağlıq hissəsi erməni işğalçıları tərəfindən zəbt edilib, sərhəd rayonlarımızda qan tökülür. Bəs Xalqın etimad göstərdiyi, inandığı AXC xalqı bu bəladan qurtara biləcəkmi?

- Torpaqlarımızın əldən çıxdığı, respublika daxilində ictimai-siyasi hadisələrin kəskinləşdiyi bir vaxtda yeni hökumətin təşkil edilməsi və hakimiyyətin tamamilə Xalq Cəbhəsinin əlinə keçməsi zəruridir. Bu çətin anda, bu ağır məqamda xalqa gün ağlayacaq, işlərimizi nizama salacaq yeganə qüvvə Xalq Cəbhəsidir. Hakimiyyətə gələn Xalq Cəbhəsinin öz proqramını həyata keçirməsi üçün birinci növbədə indiki parlament buraxılmalıdır. Bu parlamentin necə seçildiyi, seçki zamanı necə oyunlar oynandığı hamıya məlumdur. Ona görə də bu parlamentə xalq tərəfindən seçilən parlament demək düzgün deyil. Elə ona görə də o, xalqa qulluq etmir, parlamentin üzvlərinə qulluq etmək məqsədini güdür.

Bütün bunlar qalsın bir tərəfdə. Başqa məsələdən danışmaq istəyirəm. Adam təəccüb edir: həmin parlament Ayaz Mütəllibovu alqışlarla prezident stoluna çıxartdı. AXC-nin təsiri ilə və bu təsirin güclü olduğunu bilən həmin parlament onu demək olar ki, bir səslə hakimiyyətdən saldı. Bir qədər keçmiş yenə onu alqışlarla bir günlük hakimiyyətə gətirdi. Bu bir günlük hakimiyyətdən sonra həmin parlament üzvləri A.Mütəllibovu prezidentlik taxtından saldılar. İndi bunların hansı sözünə inanasan? Bu parlament oyunu kimə lazımdır? Millət vəkilləri olan bu adamlar sözlərini, fikirlərini bu qədər tez-tez dəyişirlərsə, onlara xalq inanarmı? Ona görə elə düşünürəm ki, bu parlamentin fəaliyyət göstərməyə mənəvi haqqı yoxdur.

Bəs nə üçün parlament üzvləri A.Mütəllibovu hakimiyyətə gətirmək

istəyirdilər. Hər şeydən əvvəl ona görə ki, onlar xalqı yox, ən əvvəl özlərini düşünürdülər. Yəni bilirdilər ki, A.Mütəllibov hakimiyyətə gəlsə onlar stollarını, vəzifələrini qoruyacaqlar, xalqın səsi - yox, onların səsi eşidiləcək.

- Bəxtiyar müəllim, mənə elə gəlir ki, Yaqub Məmmədovun Ali Sovetin sessiyasındakı çıxışı özünün açıqlığı, cəsarəti ilə ən yaddaqalan çıxış oldu. O, bizim bilmədiyimiz, lakin hiss etdiyimiz bir çox qaranlıq məqamları açıqladı. Yana-yana deyilən bu sözlərin arxasında hansı fəlakətin, xalqın hansı faciəsinin dayandığını gördük. Bu çıxışa münasibətinizi bilmək istərdim.

- Hər şeydən əvvəl, onu deyim ki, doğrudan da, bu çıxışda böyük cəsarət var idi. Yaqub Məmmədov sanki bütün kartı açdı. Yaxşı dedi ki, biz bu oyunun kiçik iştirakçılarıyıq, şahmat taxtasında adicə piyadalarıq. Doğrudan da indiyədək Azərbaycanın taleyi özündə yox, başqa yerlərdə - yuxarılarda, imperiya idarələrində həll olunub. Onun üçün də bu vəziyyətə gəlib çıxmışıq. Biz hərəkət etmirik, bizi oyuncaq kuklalar kimi hərəkət etdirirlər. Yadınızdadırmı, Yaqub Məmmədov da dedi ki, Xocalı, Şuşa, Ağdaban faciələrinin əsl səbəbkarları da tapılmayacaq, onun kiçik oyunçuları üzə çıxacaq, arxasında duran qara qüvvələr isə naməlum qalacaq.

Yaqub Məmmədovun bu cür açıq və cəsarətli çıxışı həqiqətin üzə çıxmasında, çox qaranlıq məsələlərin aşkarlanmasında həlledici rol oynadı.

Bir məsələ barədə də danışmaq istəyirəm. Mayın 15-də Azərbaycan Xalq Cəbhəsinin qərargahı önündən Ali Sovetin qabağına gedəndə bu millətin böyüklüyünü, əyilməzliyini duydum. Bu, haqq-ədalət uğrunda, qanunun bərpası uğrunda böyük bir millətin hayqıran səsi idi. Ancaq sonra da fikirləşdim ki, axı, parlament üzvləri də bu xalqın oğludurlar. Bəs bu təzad haradandır? Mən bir millətin bu qədər yüksək və bu qədər aşağı insanlarını görəndə təəccüblənirəm.

- Bəxtiyar müəllim, hazırda demokratik qüvvələr hakimiyyətə gəlib. Xalq onlardan çox şey gözləyir. Əlbəttə, illərlə yığılıb qalmış siyasi və iqtisadi böhrandan çıxmaq o qədər də asan məsələ deyil. Bəs çıxış yolunu nədə görürsünüz?

- Hər şeydən əvvəl hansı yolla olursa-olsun vətənimizdə gedən qan-

lı müharibəyə son qoyulmalıdır. İlk şərt isə zəbt edilən bütün torpaqlar bir qarışına kimi ermənilərdən azad edilməlidir. Buna söz ola bilməz. Bu işdə, heç şübhəsiz, qonşu dövlətlər, o cümlədən Rusiya da böyük rol oynamalıdır. Mən ilk gündən dedim ki, Ayaz Mütəllibovun hakimiyyətə gəlməsi Rusiyada baş verən dövlət çevrilişinə bənzəyir. Rusiyada xalq demokratiya uğrunda necə mübarizəyə qalxdısa, Azərbaycanda da elə oldu. Ona görə bunu Boris Yeltsinə izah etmək lazımdır. Demokratiyanı və demokratik bir qüvvənin hakimiyyətə gəldiyi ölkənin torpağının bütövlüyünü qorumaq hər bir demokratik hakimiyyətin borcudur. Bu barədə Yeltsinlə xüsusi danışıqlar aparılmalıdır.

Bir də biz respublikamızda yaşayan rusdilli əhaliyə müraciət etməliyik. Onlar özlərini öz evlərindəki kimi hiss etməlidirlər. Hər cür təxribatın qarşısı vaxtında alınmalıdır. Belə təxribatlar çox ağır nəticələr verə bilər.

Daha bir məsələ: Biz özümüzün möhkəm müdafiəmizi yaratmalıyıq. Ölkəni isə nizami ordu müdafiə edə bilər. Hələ iki il əvvəl mən parlamentdə Milli Ordu yaradılması təklifini irəli sürdüm. Onda buna qarşı çıxışlar çox oldu. Demək, biz iki il gecikdik. Lakin ruhdan düşmək olmaz.

Millət öz torpağını qorumaq üçün ayağa qalxmalıdır. Hər kəs öz sahsində ordumuzun güclənməsinə kömək etməlidir. Belə olmasa, biz itirilən torpağımızı geri qaytara bilmərik. Bu saat "Hər şey cəbhə üçün, hər şey Vətənin müdafiəsi üçün" şüarı ilə çıxış etməliyik. Mən inanıram ki, biz qalib gələcəyik. "Haqq nazilər, üzülməz" deyiblər. Bir halda ki, haqq bizimlədir, qələbə bizim olacaq!

Müsahibəni apardı: Aslan Kəmərli

"Həyat" qəzeti, 28 may, 1992.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



HAQQIN, ƏDALƏTİN SƏSİYLƏ YAZIRAM

Şəhərdə nə baş verib? Bu suala heç kim dəqiq cavab verə bilmirdi. Elə bu vaxt radioda ürəkləri göynədən, fəryad dolu bir səs eşidildi. Bu, xalqımızın görkəmli şairi, millət vəkili Bəxtiyar Vahabzadənin səsi idi. O, deputatları təcili növbədənkənar sessiyaya çağırırdı.

Bu səs adamların ürəyində bir qığılcım idi. Bu səs ətrafı bürüyən zülmətin içində közərən bir işıq idi. Bu səsin arxasında duran fəryadı, qanunu, haqqı tapdanan bir xalqın qeyrətli oğlunun həyəcanını, faciəsini hiss etməmək mümkün deyildi.

Aradan iki ildən çox vaxt keçsə də, bu səs yenə qulaqlardadır, şəhid məzarlarının üstündə bir ruh kimi dolaşır.

Qulağımda bu səs, gözlərim önündə beli, qəddi bükülən, millətin faciəsi fonunda öz faciəsini görən və bu faciənin bütün ağrıları, əzabları üzünə hopan bir şairin görüşünə yollandım. Gözlərim önündə iki Bəxtiyar canlandı və fikirləşdim ki, onların hansı biri ilə söhbət edim: xalqımızın görkəmli şair oğlu ilə, yoxsa lap gəncliyindən azadlığımız, müstəqilliyimiz uğrunda mübarizə aparan, hələ 1959-cu ildə "Gülüstan" poemasını yazan və bunun üstündə 1962-ci ildə Azərbaycan Dövlət Universitetindən işdən çıxarılan, iki il işsiz qalan, min əzabəziyyət çəkən, 1966-cı ildə yazdığı "Torpaqdan pay olmaz" adlı şeirində ermənilərin bugünkü naxələfliyini peyğəmbərcəsinə görən, xəbərdarlıq edən mübariz vətəndaşla?

Bu sualların cavablarını dəqiqləşdirmədən görüşdüm və öyrəndim ki, Bəxtiyar müəllim cəbhə xəttindən Ağdam rayonunun Xaçınçay qəsəbəsindən yenicə qayıdıb. Elə bununla da özü söhbətinin istiqamətini müəyyənləşdirdi. Elə indi də hiss etdim ki, millətin ağrısı-acısı, zamanın bizə "bəxş" etdiyi faciə şairin əsas işindən ön plana keçib və düşündüm ki, elə belə də olmalıdır, çünki xalqın faciəsini duymadan, hiss etmədən onun şairi də olmaq mümkün deyil. Elə söhbətimizə də bununla başladıq.

- Bəxtiyar müəllim, cəbhə xəttinə getmək, döyüşən əsgərlərimizlə görüşmək, əlbəttə, sadəcə maraq hissindən doğmur, bu günümüzdə, həyatımızda baş verən faciələrə yaxından baxmaq və bundan nəticələr çıxarmaq məqsədi güdür. Bu mənada sizin təəssüratınızı bilmək istərdik.

- Hər şeydən əvvəl onu deyim ki, cəbhə xəttinə Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Tacəddin İbrahim Xəlilov, "Bakinski raboçi" qəzetinin Şəki bölgəsi üzrə xüsusi müxbiri Teymur Xəlilov və Fransanın milli qəhrəmanı, oğlu Qarabağ torpağında şəhid olan Əhmədiyyə Cəbrayılovla birgə getmişdik. Cəbhədə döyüşən əsgərlərimizə xeyli pul yardımı, dava-dərman, siqaret və ərzaq aparmışdıq.

Biz Ağdam rayonunun Xaçınçay qəsəbəsində, Əlimədətli kəndində olduq. Azərbaycan Milli Ordusunun ilk bölmələrinin döyüşçüləriylə görüşdük. Mən tam əmin oldum və inandım ki, haqq və ədalət davası bizim qələbəmizlə başa çatacaq. Bir nəfər kimi ayağa qalxan, Vətəni, torpağı uğrunda, xalqın namusu, qeyrəti yolunda canından keçməyə hazır olan igid-mərd oğullarımızı, qəhrəman qızlarımızı bu yoldan döndərmək mümkün deyil. Bilsəniz, nə qədər könüllü ilə qarşılaşdıq? Hamısı da Milli Orduya yazılmaq istəyən gənclər idi, hərəsi respublikamızın bir guşəsindən gəlmişdi... Təəssüf ki, orduya hamısını götürmək mümkün deyil...

Məni sevindirən, ürəyimi dağa döndərən cəhətlərdən biri də bu oldu ki, istər alayda qulluq edən, döyüşən, istərsə də Milli Orduya yazılma-

ğa gələn gənclərin arasında çoxlu qız var. Yenə de deyirəm, heç biri hərbi komissarlıq tərəfindən çağırılmayıb, hamısı könüllü gəliblər. Bu alayın tərkibində Vətənin qeyrətini qoruyan Nüşabə Şirinova, Cəmilə Atakişiyeva, Vəfa İsgəndərova, Xavər Ocaqova və başqaları kimi mərd qızlarımız var.

Mən onlardan biri Cəmilə Atakişiyeva barədə xüsusi danışmaq istəyirəm. O, siyəzənlidir. Oradakı broyler quşçuluq fabrikinin işçisi olub. Alayda ondan çox məhəbbətlə danışırlar. "Nə cür oldu ki, hərbi xidmətə bu odun-alovun içinə gəldin?" deyə Cəmilədən soruşdum. "Vətənimizdə qan tökülür, evlər, kəndlər dağıdılır, adamlar əsir götürülür, işgəncələr verilir. İnsanlıq simasını itirmiş erməni faşistləri dinc sakinlərə olmazın əzab verir, əzəli torpaqlarımızı zəbt etmək istəyirlər. Damarından azərbaycanlı qanı axan hansı oğul-qız buna dözər? Doğrusu, atam da məni buraxmaq istəmirdi. Bu sözləri ona da dedim. Dedim ki, ata, vaxt daha o vaxt deyil. İndi hər birimiz silaha sarılmalıyıq. Vətən dara düşəndə onu oğlan da qorumalıdır, qız da" cavabını verdi. Cəmilə xahiş etdi ki, ondan yox, Rey Qasımov, Həsən Mehdiyev, Rafiq Hüseynov, Rövşən İsmayılov və onlarca digər igid oğullarımız barədə söz açım, yazım.

İnanın, mən Cəmilə ilə, digər gənclərlə söhbət etdikcə, onların fikirləri, amalları ilə tanış olduqca bu millətin böyüklüyünə. əyilməzliyinə bir daha inandım. Bəs nə cür oldu ki, bu millət son illərdə bu qədər əyildi, tapdandı, torpaqları zəbt edildi? Bunların heç birində millətin günahı yoxdur. Bu dahi xalqın, bu əyilməz millətin başçısı, doğru yol göstərən olmayıb. Ona görə ayaqlar altında qalmışıq, ona görə Xocalı faciəsi baş verdi, ona görə rus tanklarının tırtılları, rus əsgərlərinin çəkmələri altında inlədi mənim bu əyilməz xalqım.

Mən bir daha inandım: Komandirdə qələbəyə inam varsa, bu qələbə mütləq qazanılacaq. Mən alayın komandiri, yaşlı podpolkovnik Şirin Mirzəyevdə bu inamı gördüm və hiss və hiss etdim ki, bu inam onun əsgərlərinə də sirayət edib. Bax, bu böyük işdir, bu əyilməzliyə, qələbəyə gedən yolun başlanğıcıdır.

Şirin bəydən soruşdum ki, Qarabağ problemi hərbi yolla həll

edilməlidir, yoxsa siyasi yolla? O, hərbiçilərə məxsus qısaca dedi: "İstərdim siyasi yolla həll edilsin, qan axıdılmasın. Lakin siyasətçilər dil tapa bilməyəndə silahlar danışır. Erməni tərəfi hər dəfə danışıqları pozur. Bir də müdafiəmiz yüksək səviyyədə olmasa, siyasi danışıq da baş tutmaz. Onlar yalnız gücləhərbi potensialın gücü ilə hesablaşırlar. Bunu unutmaq olmaz".

Şirin bəyin sözündə böyük həqiqət var. Qarşı tərəfin gücü olmasa, sözü də keçməz. Ona görə bütün imkanlardan istifadə edib Milli Ordumuzu gücləndirmək və müasir ordu üçün lazım olan təchizatla təmin etmək lazımdır.

Bir məsələni qeyd etmək istəyirəm. Müharibə edən ölkə müharibə qanunları ilə yaşamalıdır. Hər şeydə nizamintizam olmalıdır. Adi bir misal: respublikada yüzlərlə qəzet çıxır. Hər qəzet də cəbhədən müxtəlif fonda, müxtəlif xəbərlər verir. Radio və televiziyanı da bunun üstünə gəlsək, nə qədr qarmaqarışıqlıq yarandığı aydın olar. Bir də görürsən ki, televiziyada sərhəd kəndlərindən birini göstərirlər. Kamera qarşısında çıxış edən milis işçisi və ya könüllü müdafiə dəstəsinin üzvü deyir ki, köməyimiz, silahımız yoxdur, kəndi cəmi 3-5 nəfər qoruyuruq. Bunu da ermənilər eşidir və səhəri ora hücum edirlər. Belə yaramaz.

Mən ömrüm boyu senzuranın əleyhinə olmuşam, bir şair kimi fikrimi, demək istədiyimi açıq deməyi arzulmışam. Lakin indi müharibədir, hər şey ona xidmət etməlidir. Ona görə bu informasiyalar müəyyən yerdə cəmləşməli, qəzetlərdə senzura yaradılmalıdır. Bunu düşdüyümüz vəziyyət tələb edir.

- Bəxtiyar müəllim, düşdüyümüz vəziyyət, doğrudan da ağırdır. Üstəlik də prezident seçkiləri. Bir baxın, namizədlərin sayı nə qədərdir? Sizcə, bu qarşıdurma yaratmayacaqmı? Seçkilər nə qədər demokratik şəraitdə keçsə də, aydındır ki, bir nəfər qalib gəlməlidir. Məni qorxudan odur ki, məğlub olan tərəflər küçəyə çıxacaq. Seçkilərin düzgün keçirilmədiyini deyəcəklər. Bu da respublikada gərginliyi daha da artıracaq. Bunun isə nə demək olduğu məlumdur.

- Açığını deyim ki, mən indiki şəraitdə prezident seçkiləri keçirməyin tərəfdarı olmamışam. Bir halda ki, Ali Sovet qərar çıxartdı, deməli,

keçirmək lazımdır. Ancaq gəlin fikirləşək. Elə adamın namizədliyi irəli sürülüb ki, onu heç mən tanımıram, bu millət haradan tanısın? Axı, nə olar demokratiya olanda? Bu o demək deyil ki, hamıdan prezident ola bilər, hamı xalqı bu düşdüyü bəladan, bu böhrandan çıxara bilər. Adam gərək özü-özünə hesabat verə. Şəxsən mən özümlə baş-başa qalanda nə bir ata, nə bir müəllim, nə bir vətəndaş, nə də bir şair kimi özümdən razı deyiləm.

Yeri gəlmişkən, bir misal çəkim. Atam Mahmud kişi savadsız adam idi. Savadsız deyəndə ki, yazı-pozu bilmirdi. Hər axşam yatağa girəndə yorğanın altında özü ilə danışırdı. Bir gün dözə bilməyib səbəbini soruşdum. Mehribanlıqla dedi: "Bilirsən, oğul, mən iclas keçirirəm. Özü də mənim iclasım sizinkilərə bənzəmir. Mən hər axşam özüm özümə hesabat verirəm, fikirləşirəm ki, bu gün nə etməliydim və nə etmişəm. Bəlkə bilməmişəm, qayğılı olmuşam, kiminsə xatirinə dəymişəm, sabah ondan üzr istəyim. Bir sözlə, bu "iclas" özümün özümə hesabatımdır".

Bəs görəsən bu namizədlər gecə yatanda özlərinə hesabat verirlərmi? Bəs düşünürlərmi ki, prezidentlik xalqın taleyinə, millətin sabahına cavabdehlikdir? Bu ağır yükün altında yeriməyə səndə güc varmı, çiyinlərin bu yükün altında tab gətirəcəkmi?

300 milyonluq ABŞ-da prezidentliyə namizəd, adətən, iki partiyanın nümayəndələrindən olur, hərəsindən də bir nəfər. Ancaq bizdə 7 milyon əhalisi olan respublikada gör neçə namizəd var. Təzə partiyalar yaranıb adı var, ancaq hərəsini 30-40 nəfər də üzvü yoxdur. Di gəl, hərəsindən bir namizəd irəli sürülüb. Dövlətin daxili və xarici siyasətini həll etmək, ölkəni inkişaf etmiş dövlətlər sırasına qaldırmaq, deyəsən, çoxlarına asan gəlir.

- O ki, söhbət siyasətdən düşdü, bir sual da vermək istəyirəm. Bir halda ki, müstəqil dövlətik, demək onun müstəqil də siyasəti olmalıdır. Bəs bu sahədə işlərimiz neçədir?

- Doğru deyirsən ki, müstəqil dövlətin müstəqil də siyasəti olmalıdır. Uzun illər bizim sözümüz başqasının dilindən deyilib, özü də öz istədikləri kimi deyiblər.

Hər dövlətin özünün milli konsepsiyası olmalıdır: həm daxili, həm də xarici siyasətə dair. Ölkənin hərtərəfli inkişafı bu konsepsiyanın kamilliyindən asılıdır.

Gəlin, əvvəlcə daxili siyasətimizə baxaq. Müharibə şəraitində Qarabağ məsələsini hansı yolla həll edirik? Bu barədə bizim ayrıca konsepsiyamız olmalıdır. Təəssüf ki, yoxdur. İndiyədək bütün rəhbərlərə bu sualı vermişəm, Lakin heç kim konkret cavab verməyib. Hər dəfə də deyiblər ki, gəlin yığışaq, bu məsələni həll edək, yəni Qarabağ düyününün açılması yolların tapaq. Ancaq nə yığışırıq, nə də bu düyünü açırıq.

Yadınızdadırsa, Ali Sovetin ilk sessiyasının iclaslarının birində Heydər Əliyev dedi ki, mənim Qarabağ üzrə konsepsiyam var və bu problemin həlli yollarını göstərmək istəyirəm. Elə bu sözü demişdi ki, deputatların bəziləri düşdülər onun üstünə. Məsələnin müzakirəsi, millətin faciəsi, kədəri qaldı bir tərəfdə, başladılar öz şəxsi ədavətlərinə. Həmin sessiyadakı çıxışımın elə ilk cümləsindəcə dedim ki, axı o nə deyir? Deyir ki, problemin həlli yollarını göstərən konsepsiyam var. Məgər bunun üstündə adamı tənqid edərlər?

Bu saat elə bir vaxtdır ki, millətin elə ağır anıdır ki, kimliyindən, nəçiliyindən asılı olmayaraq deyilən hər ağıllı sözə qulaq asmaq lazımdır. Şəxsi ədavət hissi, əlinə imkan düşən də kimdənsə heyif almaq adəti tərk edilməlidir.

Daxili siyasətdən danışanda bir məsələni də qeyd etməyə bilmirəm. Bu da özəlləşdirmə məsələsidir. Hamı deyir ki, torpağı kəndliyə vermək, ziyanla işləyən kolxozları və sovxozları ləğv etmək lazımdır. Çox yaxşı, mən də buna razı. Ancaq gəlin görək, bu kolxozları ləğv edib, pisyaxşı qurulmuş işlək mexanizmi uçurub yerində nə qururuq? Axı təzə bir şey tapmadan köhnəni uçurmaq olmaz. O ki, qaldı torpağı kəndliyə vermək məsələsinə, bu, belə də olmalıdır, yəni torpağın sahibi onu əkibbecərən olmalıdır. Ancaq bununla iş bitmir. Torpağı verəndə gərək onu becərməyə mexanizm də, toxum da verəsən, kübrə ilə də, su ilə də təmin edəsən. Bunlar isə verilmir. Bəs yazıq kəndli neyləsin?

Bu barədə bir təklif irəli sürdüm. Dedim ki, Türkiyə balaca traktorlar buraxır, 10-15 hektarlıq yer üçün. Gəlin ondan min dənə alaq, paylayaq kəndliyə. O da üç-dörd ilə bu xərci ödəyəcək. Baxan olmadı.

Ancaq görün, xalqın pulu ilə nə aldılar: "Mersedes", "Volvo" maşınları, videokameralar... Bunlar kimə lazımdır? Yəqin ki, cavab aydındır. Mən onu bilirəm ki, iqtisadi böhrandan çıxmaq üçün bizim heç olmasa üçillik planımızkonsepsiyamız olmalıdır. Təəssüf ki, yoxdur. Bunların hamısı daxili siyasətdir və çox ciddi məsələdir.

Qaldı xarici siyasətimizə bu, bir dövlətin sifətidir, onun dünya miqyasında necə tanınmasını göstərən barometrdir. Bu sahədə də işlərimiz o qədər yaxşı deyil. Bu işi nizama salmaq üçün müasir dünyanın siyasətində baş çıxaran, Azərbaycanı adına layiq təmsil edən, işlədiyi ölkənin dilini, mədəniyyətini, ədəbiyyatını, o xalqın xarakterini və tarixini dərindən bilən kadrlar lazımdır. Bu sahədə bəzən elə iş tuturuq ki, özümüzü pis vəziyyətdə qoyuruq. Adicə bir misal çəkim. 1983-cü ildə Kipr Türk Respublikası adlı müstəqil dövlət yaranıb. Onu hələlik təkcə Türkiyə tanıyıb. Bu günlərdə eşitdik ki, Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi Zaur Rüstəmzadə heç kim tərəfindən səlahiyyət almadan Kipr Respublikası ilə diplomatik münasibətlər yaratmaq haqqında sənədi imzalayıb. Düzdür, onun bu hərəkəti Milli Şura tərəfindən pisləndi və qərar ləğv edildi. Ancaq, gəlin, hadisənin mahiyyətinə varaq. Əgər Azərbaycanı müstəqil bir dövləti Rusiyada təmsil edən bir siyasətçi atdığı addımın nə demək olduğunu, bunun arxasında hansı təxribat durduğunu bilmirsə, ona bu vəzifəni necə etibar etmək olar? Biz türk Kiprini müstəqil dövlət kimi tanısaq, bizə yağı kəsilən bir çox dövlətlər sabah uydurma "Dağlıq Qarabağ Respublikası"nı tanımayacaqlarmı? Əlbəttə, bunun bizə vurduğu ziyan barədə çox danışmaq olar. Biz bu gündən dünyanın bir çox ölkələrində açılacaq nümayəndəliklərimiz üçün ixtisaslı və vətənpərvər kadrlar hazırlamalıyıq.

- Bəxtiyar müəllim, Siz müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsisiniz. Sizinlə üzüzə oturduğumuz bu otaqda ədəbiyyat

tariximizdə əbədi qalacaq çox əsərlər yaranıb. Bəs indi necə işləyirsiniz? Cəbhə xəttinə getmək, döyüşən əsgərlərimizlə görüşmək, xalqın bu ağrısınıacısını görmək sizə yeni mövzular verirmi?

- Qarabağ ədəbiyyatımız üçün əbədi material mənbəyi olacaq. Heç şübhəsiz, bu tarix ədəbiyyata gələcək, ancaq bunun üçün vaxt lazımdır. Bu döyüşdə, xalqın bu ağır anında elə həyati detallar olur ki, böyük bir əsərin materialı, mövzusu ola bilər. Bu səfərdə mənə bir hadisə danışdılar. Döyüş edən sərhəd kəndlərinin birində ata görür ki, qızını üç erməni tutub aparır. Atışma başlayır, Ata ermənilərdən birini yaralayır. Lakin inanır ki, qızı qurtara bilməyəcək, artıq onu maşına mindirirlər. Axırıncı güllə ilə sərrast nişan alıb qızını vurur. Vurur ki, ermənilərin əlinə düşməsin. Bunu ancaq damarlarından türk qanı axan adam eləyə bilər. Bəs bu, ədəbiyyat üçün ən böyük material deyimi? Bu, xalqımızın namus, qeyrət yolun da öz balasından keçməyə, onu öz əlləri ilə öldürməyə hazır olduğunu göstərmirmi? Hansı millət bunu edə bilər?

Hələ müşahidələr gedir. Necə deyərlər, şillə dəyib, ancaq hələ ayılmamışıq. Bütün bunlara görə hələ iri həcmli əsər yaza bilmirəm. Şeirlər üzərində işləyirəm. Yuxarıda adını çəkdiyim Cəmilə Atakişiyeva haqqında nəğmə yazmışam. Bəstəkar Adil Bəbirov ona musiqi bəstələyib. Bundan başqa, "Azərbaycan əskəri" adlı marş yazmışam, musiqisi Emin Sabitoğlunundur. "Nağıl-həyat" adlı kitabım yenicə çapdan çıxıb...

Bilirsinizmi, mənim içimdə ikinci bir səs var haqqın, ədalətin səsidi o. Mən əsərlərimi həmişə bu səsin diqtəsi ilə yazmışam. Məni bu yoldan haqq və ədalət yolundan döndərmək mümkün deyil.

- Sizinlə görüşüb, əliboş getmək Allaha da xoş getməz, bəndəyə də. Yeni yazdığınız şeirlərdən birini verin, bu yazının son abzası olsun.

- Elə isə, "Vətən olmaz" qəzəlini götürün...
Cənnət ola qürbət, yenə, vallah, Vətən olmaz,
Qürbətdə şah olsan da, bir arzun bitən olmaz.
Əcdadımızın türbəsi torpaq kökümüzdür,
Torpaqsız açan buğda dənindən də dən olmaz.
Kökdən aralandınsa, işin düşdü qəzaya,

İmdadına, fəryadına bir dəm yetən olmaz.
Elçin çəkilən hər bir əzab min çiçək açmış,
Yurdunda elin çəkdiyi zəhmətə tən olmaz.
Yurd eşqi bütün sevgilərin tacıdır, əlbət,
Haqdan doğulan qibləyə heç vaxt çatan olmaz.

Söhbəti yazdı: Aslan Kəmərli

"Həyat", qəzeti, 4 may, 1992.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



QARŞIDURMAYA QARŞIYAM

Yəqin ki, oxucularımızın yadındadır: "Şimali Azərbaycan" dünyaya Bəxtiyarla göz açıb. Birinci sayımızı xatırlayırsınızmı? İkiyə bölünmüş Azərbaycanımızın iki şair oğlu Şəhriyar və Bəxtiyar birbirinə necə həsrətlə baxırlar?!

Bu həsrəti şimallı şair vaxtilə belə ifadə edib,
Dayanıb Arazın bu tayında mən,
"Can qardaş" deyirəm, o da "can" deyir.
Ey zaman, sorğuma cavab ver, nədən
Səsim yetən yerə əlim yetməyir...

Bu günlərdə əməkdaşımız B.Vahabzadə ilə görüşüb ondan müsahibə almışdır. İlk sual, təbiidir ki, həmin qəzəbli misralara filosof şairimizin bugünkü münasibəti barədə olub...

- Cənub mövzusu məni həmişə dərindən düşündürən məsələ olub. 1959-cu ildə yazdığım və üstündə çox başağrısı çəkdiyim "Gülüstan" poemasından bəri ən ümdə arzum Azərbaycanın birliyi, vahidliyidir. Lakin gəlin real danışaq:

Şimali Azərbaycanda bu addımı atmaq üçün müəyyən qüvvə yaranıb, kütlənin səviyyəsi artıq o məfhumun reallığı, zəruriliyi ilə tarazlanıb. Cənubda isə bir qədər əksinədir. Mən İranda iki dəfə olmuşam. Sizi

inandırıram ki, Şimalda birlik alovu yolunda parlamaqda olan qığılcımlar cənublu qardaşlarımıza nağıl kimi görünür. İrana səfərim zamanı Təbrizdə bir neçə ailədə oldum, birində milli hiss duyammadım hamısı deyir ki, biz "Əhli İranıq". Allah rəhmət eləsin Xudu Məmmədova, mən ermənilər haqqında qəzəblə danışanda o, deyərdi ki, ermənilər, heç olmasa, bizim adımızı düz deyirlər: "Türk". Millətimizi xatırladırlar bizə.

"Gülüstan"da belə bir yer var:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə ver, dedi.
Lap yaxşı eləyib, doğrudan, bizə,
Biri "baran" dedi, biri "xər" dedi.

Cənubda 22 milyon azərbaycanlı var. Onun təxminən 7-8 milyonu Cənubi Azərbaycandadır, qalanı Tehrana və sair bölgələrə səpələnib. Bunları cəmləmək çox çətindi. Əsas da odur ki, onlarda milli şüur hələ lazımi səviyyədə yetişməyib. Bir misal çəkim: dostum Nurəddinin İranda olan qohumları ilə rastlaşdıq. Sizi inandırım ki, iki xalaoğlu bir-biri ilə ingiliscə danışdı.*

De, hara sığışar, hara, ey zaman,
Bu boyda təhqirə xalqın dözməsi.
Dədə Qorqud kimi dədəsi olan,
Millətin özünə dədə gəzməsi?

Ustad Bəxtiyar bu sözlərlə iki il əvvəl nə demək istəyirdi? Bu gün də həmin vəziyyət davam etmirmi? Çünki 70 il "böyük qardaş", "ata" deyib rusu ətəkləmişik. Bu gün də dədə axtarışı aydın nəzərə çarpır.

- Mən sizinlə şərik. Bu fikri həmişə demişəm və bu gün də deyirəm: Bizim dədəyə, böyük qardaşa ehtiyacımız yoxdur.

Biz müstəqil dövlətimizi yaratmalıyıq. Dünyada 150 milyon ərəbin 21 dövləti var. Olmazmı ki, 200 milyonluq türkün də 1520 dövləti ola,

müstəqil dövlətlər olaq, gedəkgələk. Amma müstəqilliyimizi, özlüyümüzü, ağalığımızı əldən verməyək. Respublikamızda yeni demokratik bir dövlət yaranır. Gərək belə bir məqamda heç səhvə yol verməyək. Biz hazırda bıçaq tiyəsinin üstündə gəzirik. Bir balaca səhvimiz bizi fəlakətə apara bilər. İncə siyasət məsələlərinə azacıq yandan baxmağımız bizi ötən acı günlərimizi bir daha yaşamağa məcbur edə bilər. Ayıq olmalıyıq, yatmamalıyıq.

Görün, sapı özümüzdən olanlar nə oyunlar açır bu biçarə xalqın başına: dövlətin sərvətini, varını, qiymətli xammalını xaricə dəyərdəyməzə ötürür və əvəzində xarici banklarda kapital-mülk ələ keçirir, kapital yığır. Nə qiymət vermək olar bunlara? Hansı ki, həmin pula dirçəliş üçün xeyli iş görə bilərdik.

Əlifba dəyişdi, buna öyündük,
Bilmədik, rişəsiz budağa döndük.
Qabağı görmədik öz yaşımızdan,
Nəsillər arası qırıldı bağlar.

- Siz bu misralarla ərəb qrafikasından latına keçilməsinə işarə edirsiniz. Bu gün də əlifba dəyişir. Bu səfər kirildən latına keçirik. Deməli, indi də "kiril"li ömrümüz gələcək nəsillərə yarıqaranlıq qalacaq. Xalq elçisi kimi əlifbanın dəyişdirilməsinə münasibətiniz?

- Mənim fikrimcə, gərək o vaxt əlifba dəyişilməyəydi. Çünki əski əlifbanın çox böyük üstünlükləri vardı. O bütün türk xalqlarını birləşdirir. "Gl" yazılır, mən oxuyuram "gəl", türk oxuyur "gel", tatar oxuyur "gil" və s. Bu, bizi yaxınlaşdırır, birləşdirirdi. Bu, o dövrə aid idi. İndi isə mütləq latına keçməliyik, M.Ə. Rəsulzadənin qarşımıza qoyduğu müasirləşmə mərasimini yerinə yetirmək üçün bu gün bizə latın əlifbası lazımdır. Lakin milli xüsusiyyətimizi saxlamaq şərtilə. Götürək "X" səsini. Bu səs bizə lazımdır. Çünki biz "hala" demirik, "xala" deyirik. Bizim bu gün işlətdiyimiz "x" hərfi isə əslində "iks"dir. Bu hərfi "h" hərfinin quyruğunu qatlamaqla ala bilərik, yəni "h".

- Bəxtiyar müəllim, iqtidar və müxalifət haqqında nə deyə

bilərsiniz?

- Müxalifət iqtidarın güzgüsüdür. Müxalifət dövlətin nə səviyyədə olduğunu, onun hansı nöqsanlara yol verdiyini xalq qarşısında açıqlayır. Amma müxalifət ədavət səviyyəsinə qalxmamalıdır. İndiki müharibə şəraitində nə qədər ki, erməni saqqallılarını susdurmamışıq, qarşıdurmanın əleyhinəyəm. Məlum Kipr hadisəsində Türkiyədə 12 partiya vardı. O zaman bütün partiyalar birləşib "Kipr" məsələsini həll etdilər və sonra başladılar özlərinin iqtidar və müxalifətlərinə.

Ümumiyyətlə, müharibə gedən ölkələrdə partiyalar öz fəaliyyətini dayandırmalı, diqqət yalnız cəbhəyə qələbəyə yönəlməlidir. Bizdə isə əksinə olub. Müharibənin bu qızğın çağında bütün siyasi partiyaların diqqəti cəbhədəki qələbəmizə yönəlməli ikən, gündə bir partiya yaradırıq. Mən indiki şəraitdə bunun əksinəyəm. Qələbəmizi təmin etməmiş yaradılan bu partiyalar və siyasi çəkişmələr millətə lazım deyil. İndi biz bütün qüvvələrimizi ümumi məsələyə erməni işğalına qarşı səfərbər etməliyik.

3 aydan çox bir müddətdə hakimiyyətdə olan iqtidar bəzi səhvlər də buraxır. Misal üçün: bu il kadr məsələsini düzgün həll etməsək, biz dövlətimizi yarada bilməyəcəyik. Hazırkı şəraitdə bütün qüvvələr iqtidarın ətrafında birləşməlidir. Yaddaş çıxarmaq olmaz ki, iqtidarda olanlar hansı çətinliklərdən keçib gəliblər. Xüsusilə, Əbülfəz bəyin fəaliyyətini danmaq göydə günəşi danmaq deməkdir.

- Birlik qüvvət gətirər, deyiblər.

- Bu addım mütləq vacibdir, zəruridir. Bu addım atılmasa, biz uçuruma yuvarlana bilərik. Birlik, birlik: ancaq birlik! Mənim bugünkü amalın yalnız və yalnız budur.

- Ustad, "Şimali Azərbaycan" qəzetini oxuyursunuzmu? Onu necə görmək istərdiniz?

- İlk sayından oxuyuram. Birinci növbədə, gərək məhz bu qəzet "Şimali Azərbaycan" araqarışdırıcı, qərəzçilik fikirli yazılarla çıxış etməsin. Yuxarı səviyyədə, millətimiz səviyyəsində, yüksək intellektual səviyyədə dayansın. Mən istərdim ki, sizin qəzet ikiyə parçalanmış bir xalqın arasında körpü rolu oynasın, onları birbirinə yaxınlaşdırsın.

Bir sözlə, vahidliyin ideoloji baxımdan təməlini bu qəzetdə görmək istərdim. İkinci, millətin özlüyünü saxlamasına kömək edən elmi məqalələrə yer verin.

- Sizin tövsiyələrinizə mütləq əməl edəcəyik. Ancaq razılaşın ki, kiçik bir redaksiya kollektivi bu qədər məsul vəzifələrin öhdəsindən gələ bilməz. Ziyalılarımızın köməyinə böyük ehtiyacımız var...

Şairlə söhbətləşdi: Bəxtiyar Əzizli.

"Şimali Azərbaycan" qəzeti,
24 sentyabr, 1992.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



MƏN İQTİDARI DA, MÜXALİFƏTİ DƏ AYIQ OLMAĞA ÇAĞIRIRAM

Nedim Yalçın: Bəxtiyar müəllim, Azərbaycanın azadlığının elanına qədər siz meydanlarda, kürsülərdə tez-tez görünürdünüz, lakin son vaxtlar görünmürsünüz. Bu günlərdə nələrlə məşğul olursunuz?

Bəxtiyar Vahabzadə: Hər şeydən əvvəl daha çox düşünməklə məşğulam. Son dördbeş ildə başımıza gətirilən müsibətləri təhlil edirəm. Onları dəyərləndirirəm. "Neyçün" suallarına cavab arayıram. Son zamanlarda azaz görünməyimin bir səbəbi də budur ki, doğrusu, siyasi mübarizələrdən yorulmuşam. Həm də səhhətim imkan vermir. Özümə çəkilmişəm. Buna görə də Milli Məclisdən öz ərizəmlə çıxdım. Bunun bir səbəbi də budur ki, əski parlament ilə indiki parlament eyni deyil. Onon beş il bundan öncəki parlament seçkilərinə seçki demək olmazdı. Onun əsl adı seçim deyil, təyindir. O zaman SSRİ dövründə hər sənət sahiblərindən bir neçə adam siyahıya düşərdi. Mən də yazıçı kimi millət vəkilliyi siyahısına daxil olardım. Amma indi seçilən millət vəkili öz məqsəd və qayəsini bilməlidir. O bilməlidir ki, parlamentdə nə iş görəcək və ən mühümü odur ki, özünü seçimə təqdim edən adam parlamentdə daha çox fayda verə bilər, yoxsa öz işi ilə, öz sənəti ilə məşğul olsa? Bunları çox düşündüm və belə qərara gəldim ki, mən Milli Məclisdə müzakirə olunan məsələlərin hüquqi həllini siyasətçi səviyyəsində bilmirəm. Allah məni şair yaradıb. Qələmimlə daha çox iş görə biləcəyimi anladığımdan, son zamanlar yenə də əvvəldə olduğu

kimi qələmə sarılmışam. Buna görə də siyasət meydanından çəkilmiş, yazmaqla, mütaliə etməklə məşğulam.

AZADLIĞIN İSTİQBALI

N.Y.: Azərbaycanın əldə etdiyi azadlığın gələcəyini necə görürsünüz? Azərbaycan bu azadlığı başa çatdıra biləcəkmi?

B.V.: Biz istiqlalımızı aldıq, lakin bu istiqlalı istəməyən düşmənlərimiz çoxdur. Ona görə də biz qazandığımız istiqlalımızı qoruyub saxlamağı da bacarmalıyıq. Mən indi anlayıram ki, saxlamaq almaqdan çətin imiş. Hələ biz dövlətimizi yarada bilməmişik, 93-cü ili biz dövlət quruculuğu elan etdik. Demək biz hələ bu il dövlətimizi quracağıq. Bir halda ki, dövlətimiz hələ çocuqluq dövrünü yaşayır, daha dəqiq desək, hələ imәkləyir. Demək, onun yıxılmaq qorxusu var. Buna görə də mən dəfələrlə yazmışam və çıxışlarımda demişəm: "Müharibə gedən ölkədə hamı bir olmalıdır". Azərbaycanda qeydə alınmış 27 partiya var, 7 milyonluq bir xalq üçün bu qədər partiyaya ehtiyac varmı? Mən belə güman edirəm ki, müharibə aparan ölkənin bir partiyası, yəni bir məqsədi, bir cəbhəsi olmalıdır: O da torpaqlarımıza göz dikən düşməni məğlub etmək, torpaqlarımızdan qovmaq! Buna nail olmadan meydana çıxan hər bir fikir ayrılığının əleyhinəyəm. Mən bununla müxalif partiyaların olmasını inkar etmək istəmirəm. Müxalif partiya nəinki lazımdır, hətta vacibdir. Lakin xarici düşməni məhv edəndən sonra, daxildəki fikir ayrılığı ilə məşğul olmaq olar. Nə qədər ki, rus imperiyası ermәniləri bizim üstümüzə qısqırdır, istiqbalımızın təhlükədə olduğunu anlamalıyıq. Gələk ordumuza; bizə gün kimi aydındır ki, ordu yalnız ölkənin müdafiəsi ilə məşğul olmalıdır. Amma biz nə etdik? Biz ordunu da siyasətə qarışdırdıq. Bizim cəbhədəki məğlubiyyətlərimizin əsas səbəbi, bax, budur.

N.Y.: Sizin söylədiyinizdən belə çıxır ki, hələ də rus imperiyası öz barmağını buradan çəkməmişdir. Sizin illərlə mübarizə apardığınızı bilirik. Yəni bilmək istəyirik, yenidən keçmişə dönmək mümkündürmü?

B.V.: İndi Rusiya parlamentində Yeltsinə qarşı çoxlu müxalifət qüvvələri yaranmışdır. Hətta kommunistlər də baş qaldırıb. Bu gün eşitdiyimə görə, ABŞ prezidenti Klinton dünyanın yeddi ən qüvvətli dövlətini çağırmış və demiş ki, biz Rusiyaya yardım etməsək, orada demokratiya məhv ola bilər. Yenidən diktatura yarana bilər. Bəli, bu ehtimal var. Bircə şeyi unutmaq olmaz ki, Rusiyadakı hadisələri bizdə də dəstəkləyənlər tapıla bilər. Mən bundan qorxuram, indi hadisələr o qədər sürətlə inkişaf edir, o qədər dəyişir ki, bu dəyişikənliyi tutmaq və təhvil etmək çox çətindir.

Buna görə də nəinki sabah, hətta bir saat sonra nə olacağın bilmək çətinləşir. Təəssüf ki, milləti təşkil edən yeddi milyonun hamısı eyni səviyyədə deyil. Millətin bir qismi ağlı ilə deyil, mədəsi ilə, daha çox şəxsi mənafe hissi ilə düşünür. Bu isə bizi fəlakətə apara bilər. İndi bizim millətimiz, demək olar ki, şok vəziyyətindədir. Bir tərəfdən müharibə, övladlarımızın qırılması, evlərdən gələn matəm səsi, digər tərəfdən qıtıq, üçüncü tərəfdən 100 minlərlə evsizeşiksiz qaçqınlarımızın faciəsi. Bunları düşündükcə adamı dəhşət götürür. Yüz yetmiş il bundan əvvəl rus işğalına məruz qalan bu millət heç bir zaman susmamışdır. O həmişə müxtəlif şəkillərdə öz etirazını bildirmişdir. On doqquzuncu əsrin ikinci rübündən sonra müəyyən fasilələrlə xalq üsyanları olmuş, millət dözməmiş, çar boyunduruğundan xilas olmaq istəmişdir. Son yetmiş ildə də xalq bir neçə dəfə ayağa qalxmışdır. Bunun çox nümunələri var, Mən burada bir-bir saymaq istəmirəm. Bir şeyi etiraf etmək lazımdır ki, millət son iki yüz ildə indiki qədər qıtlığa, qidasızlığa və qaçqınlığa məruz qalmamışdıq. Bu mənada camaatın güzəranı ilə də hesablaşmaq lazımdır. Bütün bunlarla yanaşı dözmək, gələcəyimizə ümidlə baxmalıyıq.

AZƏRBAYCANDAKI SİYASİ VƏZİYYƏT

N.Y.: Son vaxtları nəzərə alaraq Azərbaycandakı siyasi vəziyyət barədə nə deyə bilərsiniz?

B.V.: Son dərəcə mürəkkəb. O dərəcədə mürəkkəbdir ki, mən də

anlaya bilmirəm.

N.Y.: Bunu bir qədər də açа bilərsinizmi?

B.V.: Mən iqtidarı da, müxalifəti də ayıq olmağa çağırıram. Qüvvələr birləşməlidir, Məsələn, mən keçmiş katib H.Əliyevin ağlından, təcrübəsindən istifadə etməyi bu gün üçün çox zəruri sayıram. Bu fikri Ə.Elçibəy də televiziya ilə dedi. Amma istifadə etmədilər.

N.Y.: Azərbaycan azadlıq elan etdi. Lakin bir sıra talesizliklərə düçar oldu. Bunların da ən böyüyü rus imperiyasının ortaya atdığı Qarabağ müharibəsidir. Onun nə zaman qurtaracağı məlum deyil. Sizin fikrinizcə, bunun axırı necə olacaq?

B.V.: Son günlər deyirlər ki, masa arxasına keçmək, danışmaq lazımdır. Cəbhədə məğlubiyyətdən sonra masa arxasına keçməyin bizim üçün faydalı olacağına inanmıram. Siyasi danışıq hərbi qələbədən sonra mümkün ola bilər. İndiki halda masa arxası danışıq erməni tərəfi üçün faydalı nəticə verə bilər, bizim üçün yox.

N.Y.: Siyasətdən çox danışdıq, bir az da mədəniyyət məsələlərinə toxunaq. Azərbaycanda mədəni tərəqqini bir mədəniyyət xadimi kimi siz necə qiymətləndirirsiniz?

B.V.: Gərək, hər şeyi olduğu kimi, rəngsiz, boyasız qiymətləndirəsən. Etiraf etməliyəm ki, biz rus mədəniyyətindən və onun vasitəsi ilə Qərb mədəniyyətindən çox şey əxz eləmişik. Son 70 ildə bizim elmimiz və mədəniyyətimiz çox inkişaf etmişdir. Elmin hər sahəsində qüdrətli alimlər nəsli yetişdirmişik. Xüsusilə neft kimyası sahəsində. Eləcə də ədəbiyyat və incəsənət sahəsində. Üzeyir Hacıbəyli, Q.Qarayev, F.Əmirov, Niyazi kimi bəstəçilər müasir dünyanın ən qüdrətli sənətkarlarından sayılır. Rəssamlardan T.Nərimanbəyov, T.Salahov, S.Bəhlulzadə kimi fırça ustaları dünya səviyyəli sənətkarlardır. Eləcə də ədəbiyyat sahəsində, C.Cabbarlı, S.Vurğun və R.Rza kimi qələm sahibləri nadir sənətkarlardır.

Bir şeyi də etiraf etməliyik ki, ədəbiyyat söz sənəti olduğundan totalitar sistemin damğası ədəbiyyatda daha çox hiss olunur. Lakin ədəbiyyat sahəsində də rejimə qarşı etiraz səsləri yüksəlmişdir. Bunu danmaq olmaz.

Totalitar rejimin xalqın ruhunu, mənəviyyatını, dilini əritmək, yox etmək siyasətinə baxmayaraq bizim sənət və ədəbiyyatımız öz kökü üzərində inkişaf etdi.

TÜRKÜN MƏDƏNİYYƏTİ

N.Y.: Keçmiş Sovet imperiyası dağıldıqdan sonra 5 müstəqil türk cümhuriyyəti meydana gəldi. Yəni, türk kimliyi yenidən dünyanın nəzərini cəlb etdi. Türkün mədəniyyətini əks etdirən ünsürlər, sizcə, nələrdir?

B.V.: Bu ünsürləri dəqiqliyi ilə üzə çıxartmaq üçün milli psixologiyamız öyrənilmədir. Sivilizasiyalı millətlər bu işi çoxdan həll ediblər. Mən bu barədə respublikanın bir çox rəhbər işçiləri ilə söhbət etmişəm. Təəssüf ki, biz hələ bu məsələyə başlamamışıq. Məncə, milli xarakter öyrənilmədən milli ünsürləri müəyyən etmək çətindir. Bununla belə tövsiyəm nədir? Birinci növbədə, əsrlər boyu formalaşmış bir çox adətənənə və vərdişləri bərpa etmək. Əski türk yazılarını Mahmud Kaşğariləri, Orxon Yenisey yazılarını, Oğuznamələri dərindən öyrənmək!

Eyni zamanda, türkü İslamdan ayırmaq olmaz. Nə vaxtsa bir kitabda oxumuşdum. "İslamı ərəblər yaratdı, türklər qoruyub saxladı". Bu, doğru fikirdir. Əgər türk olmasaydı, İslam çoxdan dağılmış, peyğəmbərimizin müqəddəs məzarı yerləyeksan edilmişdi. Axı, 10 əsr İslama bayraqdarlıq edən türk olmuşdur.

Bir sözlə, türk mədəniyyətini ümumislam mədəniyyətindən ayırmaq olmaz. Ümumislam mədəniyyətinin içində türkün çox böyük payı var.

N.Y.: Azərbaycan xalqı Anadolu türklərini uzun müddət böyük həsrətlə gözlədi. Əgər əvvəllər bura qonaq gələn türklər böyük məhəbbətlə qarşılanırdılarsa, indi sərhədlər açıldıqdan sonra bu mehribançılıq o qədər də hiss olunmur. Sizcə, buna səbəb nədir?

B.V.: Hər şey qeyri-adilikdən çıxıb adiləşəndə qiymətini itirir. 5-10 il əvvəl bir azərbaycanlının təsadüfən bir Türkiyə türkü ilə rastlaş-



ması onun üçün möcüzə idi, qeyri-adi idi. Amma indi hər gün küçədə hər azərbaycanlı onlarla türklə rastlaşır, beləliklə də qeyri-adilik adiləşir və öz dəyərini itirir. Bununla belə, hər bir şüurlu azərbaycanlının qəlbində Türkiyə türklərinə bir məhəbbət heykəli var. Başqa cür də ola bilməz. Osmanlı türkləri dar məqamlarda həmişə bizə kömək əllərini uzadıb, bizə arxa olmuşlar.

Qeyri-adilik adiləşəndən sonra, yəni gedişgəliş artandan sonra bazar söhbətləri meydana gəldi. Yəni bir azərbaycanlı "Qapalı çarşı"da almaq istədiyi bir şeyi istədiyi qiymətə türk tacirindən ala bilmirsə, onu "xəsis" və başqa pis sözlərlə damğalamağa başladı. Əlbəttə, bu aşağı səviyyəli adamların aşağı səviyyəli düşüncəsidir. Belə söhbətləri dilə gətirmək və bu xırda incikliyi Türkiyədəki türk xalqına şamil etmək qəbahətdir.

Bir səbəb də Türkiyədən bura gələn alicənab, xeyirxah iş adamları ilə yanaşı öz xeyrini güdən xırda alverçilər də var. Onların bəzisi burda yaxşı işlərlə məşğul olmadılar. Əxlaqsız hərəkətlərə yol verdilər, Bütün bunları tək-tək adamlara deyil, bütün türk xalqına şamil edən səviyyəsiz adamlar dedi-qoduya başladılar.

Bir səbəb də Türkiyə hökumətinin son zamanlar siyasət xatirinə Ermənistana əl uzatmasıdır. Türkiyənin bu hərəkəti Azərbaycan xalqını incitdi...

N.Y.: Bəxtiyar müəllim, Türkiyə və Azərbaycanın siyasimədəni münasibətləri barədə nə deyə bilərsiniz?

B.V.: Siyasət məsələlərində biz də ehtiyatlı olmalıyıq, siz də. Hər şeyi açıbağartmaq lazım deyil. Mədəni əlaqələrə gəlincə, bizdə güclü olanları siz bizdən, sizdə güclü olanları biz sizdən götürməliyik. 200 illik ayrılığımız nəticəsində sizdə və bizdə yeni adətlər, vərdişlər əmələ gəlmişdir. İndi isə xüsusilə mədəniyyət sahəsində türk birliyinə doğru getməliyik.

N.Y.: Bu yaxınlarda Azərbaycanda yeni qanun qəbul edildi: "Azərbaycanın dövlət dili türk dilidir". Bu bizi sevindirdi, lakin üzüntüverici dartışmaları təkrar başlatdı. Biz ikinci bir böyük qardaş istəmirik" sözlərinə tez-tez rast gəlirik. Əslində Türkiyənin belə bir siyasəti də

yoxdur. Bu barədə nə deyə bilərsiniz?

B.V.: Bu məsələ barədə mübahisə etmək cəhalətdir. Biz türkük, dilimiz də türk dilidir. Lakin bu mübahisələrə son qoysaq və daha dəqiq ifadə etmək üçün belə deməliyik: Biz Azərbaycan türküyük, dilimiz də Azərbaycan türkcəsidir.

N.Y.: Burda deyirlər ki, azərbaycanlı mütəxəssislər Türkiyəyə gedirlər və bundan bəzi dairələr Türkiyə əleyhinə rəy yaratmaq üçün istifadə edirlər. Bu barədə nə deyə bilərsiniz?

B.V.: Elə sahələr var ki, orada bizim mütəxəssislərə sizdə və ya sizin mütəxəssislərə bizdə ehtiyac var. Burada mən heç bir qəbahət görmürəm. Xüsusilə mənim qələm dostum Anarın 4 aylığa Türkiyəyə getməsi, orada Azərbaycan ədəbiyyatından mühazirə oxumasına mən pis hal kimi baxmıram. O başqa söhbətdir ki, məsələn Amerikadan gəlib Türkiyənin gözəl riyaziyyatçısı İhsan bəyi, onun beynini apardılar. O da getdi Amerikada qulluq elədi. 20 il bundan əvvəl "beyin axını" deyən bir söhbət yaranmışdı. Əlbəttə, bu pis haldır. Amma əgər məni beynim İstanbula gedirsə və ya əksinə, buna beyin axını demək olmaz. Çünki hər iki ölkə mənə də, ona da vətəndir. Əgər bir Azərbaycan türkü Eynşteyn kimi böyük bir ixtira eləsə, ona sən məndən çox öyünəcəksən. Pakistanda Nobel mükafatını alan bir alim var Abdissalam. Mən onunla fəxr edirəm. Necə olur, özümlə fəxr etməyim?

ORTA ASİYA İLƏ MÜNASİBƏT

N.Y.: Ustadım, bir şair və ziyalı kimi Orta Asiya respublikaları ilə münasibətləriniz varmı?

B.V.: Hər zaman olmuşdur, indi yoxdur. Məsələn, Özbəkistanda mənim bir neçə kitabım basılmışdır. Biz qarşılıqlı surətdə birbirimizin əsərlərini öz dilimizə çevirmişik. Son zamanlar isə, sözün doğusu, mən onlardan küsmüşəm. O şairlər və yazarlarla ki, mənim əlaqəm var idi, özbək, türkmən, qazax olsun, fərqi yoxdur, onlar bizi bu məsələdə dəstəkləmədilər. Mən onlardan incidim. Məsələn, Çingiz Aytmatova telefon açdım. Amma səsimizə səs vermədi. Bu məsələdə gərək bizim

sözümüz bir olaydı. Gərək, onlar bizi dəstəkləyəydilər. Amma Orta Asiya bizi dəstəkləmir.

N.Y.: Millətimizin istiqbalı xatirinə siz onların bu qüsurlarına baxmayaraq, bir təşəbbüsdə oldunuzmu?

B.V.: Olduq və olacağıq. Onların bir qismi ilə Türkiyədə, yazarlar birliyinin qurultayında görüşdük, dərdləşdik.

N.Y.: Bəxtiyar müəllim, müsahibəmizin sonunda xalqa, Azərbaycan və Türkiyədəki oxucularımıza demək istədiyiniz sözünüz var?

B.V.: Mən həm öz qardaşlarıma, həm də qanı bir, canı bir türkiyəli qardaşlarıma üz tutub deyirəm ki, bazar söhbətlərini ictimai səviyyəyə qaldırmasınlar. Alçaq adamlar hər yerdə ola bilər. Bu 60 milyonluq Türkiyə xalqına və ya 7 milyonluq Azərbaycan xalqına aid deyil. Xırda bazar söhbətlərini gəlin mətbuata çıxarmayaq. Bizdə də bu saat belə xəyal qırıqlığı əmələ gəlmiş, sizdə də. Bu bizim bəzi səviyyəsiz adamlarımızın səviyyəsiz söhbətləridir. O ki, qaldı mənə... Mənim canım qurban olsun millətimə. 68 yaşım var. Dünyanı anlayandan bu günə qədər mən Türkiyə demişəm. Türkiyə havası ilə yaşamışam. Mənim atam da, babam da belə olmuşdur. Şükür Allaha ki, biz arzumuza qovuşduq, əlimiz əlinizə çatdı. Bundan sonra xırda söhbətləri böyütməyək, şişirtməyək.

"Zaman" qəzeti, 20 mart, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



İCAZƏLİ QƏHRƏMANLIĞA NƏ VAR Kİ...

Müxbir: Ərazimizin böyük bir hissəsi düşmən əlindədir. Cəbhədəki uğursuzluqlarımızın səbəbini nədə görürsünüz?

B.V.: Bu, hamımızın dərdidir. Üzeyirlər, Bülbüllər diyarı Şuşamızın indi erməni tapdağı altında olması, "İstiqlal marşı"nın müəllifi M.Akifin dililə desək, müqəddəs minarələrimizə naməhrəm əlinin toxunması hamımıza xəcalət gətirir. "Bu niyə belə oldu?" sualını hamı birbirinə verir. Və qəribə burasıdır ki, hamı da bunun əsas səbəbini görür və bilir. Bununla belə, hamı bu sualı həm özünə, həm də müsahibinə verir. Bu sualı siz də mənə verəndə məgər bilmirsiniz ki, bunun əsas səbəbi daxili çəkişmələrimizdir?

Müxbir: Haqlısınız.

B.V.: Müharibə gedən ölkələrin vətəndaşları öz daxili ziddiyyətlərini, çəkişmələrini kənara qoymalı, xarici düşməni əzmək, Vətənin müdafiəsi ilə məşğul olmaq! Bizim düşmənə qarşı yumruq kimi birləşməlidirlər. Hanı? Bizdə bu varmı? İkinci tərəfdən bütün sivilizasiyalı ölkələrdə hərbçilər heç bir partiyanın üzvü olmurlar. Hərbçilər siyasətin fövqündə dururlar. Biz isə siyasətə hərbçiləri də qarışdırdıq. Əsgərin bir vəzifəsi olmalıdır: xarici düşməni əzmək, Vətənin müdafiəsi ilə məşğul olmaq! Bizim hərbçilərsə bu əsas vəzifədən çox, siyasətlə məşğul oldular. Nəticəsi də göz qabağında!

Müxbir: Son zamanlar ziyalılarımızın ölkədən getməsinə necə

baxırsınız?

B.V.: Vaxtilə Amerika başqa ölkələrdə olan istedadlı adamları yüksək maaşla ölkəsinə dəvət etmək və onların elmi potensialından bəhrələnməklə ABŞ-ı dünyanın ən qüdrətli dövləti səviyyəsinə qaldırdı. Hər xalqın istedadlı ziyalısı onun milli sərvətidir. Bu mənada, ümumiyyətlə beyin axınını mənfi hal sayıram. Konkret olaraq, millətimizin istedadlı oğullarından Anarın 4 aylığa kontraktla Türkiyəyə getməsində heç bir pis şey görmürəm. Əksinə, onun orada Azərbaycan ədəbiyyatından mühazirələr oxuması yaxşı haldır.

Müxbir: Deyilənə görə, o, iqtidardan inciyib?

B.V.: İnciyibincimədiyini bilmirəm. Amma onu deyə bilərəm ki, son 23 ildə mətbuatımızda Anara haqsız hücumlar oldu. Sovet totalitar sisteminin zenitdə olduğu vaxtlar Anarın yazdığı, "Adamın adamı", "Yaxşı padşahın nağılı", "Anlamaq dərdi" kimi qiymətli əsərlərini xatırlayaraq. O, bu əsərlərlə sovet rejiminin kökünə balta çalırdı. Biz bunları nə tez unudub, onu sovet rejiminin tərənnümçüsü saydıq? Millətimin dərdsərini yazan, onun taleyini öz taleyi ilə birləşdirən yazıçının dünənki əməllərini bu gün yerə vuranda biz vicdanı və ədalət hissimizi unutmuruqmu? İcazəli qəhrəmanlığa nə var ki? Kitabların mikroskopla oxunduğu, beşaltı senzuradan keçdiyi dövrlərdə elə əsərlər yaranıb ki, bunları inkar etmək, yaxud qəsdən görməmək ən azı insafsızlıqdır.

Müxbir: Siz Milli Məclisin üzvü idiniz. Amma sonradan orada işləməkdən imtina etdiniz. Səbəbi nə idi?

B.V.: Mən Milli Məclisdə siyasi hadisələrin məntiqinə, dərinliyinə vara bilmədiyimi dərhal anladım. Gərək, hər kəs öz yerini və harda daha yaxşı və daha faydalı ola biləcəyini başa düşsün. Mən bunu vaxtında dərk etdim və öz xahişimlə Milli Məclisdən çıxdım. Çünki 350 millət vəkilindən ibarət parlament bir şeydir, 50 adamlıq MM tamam başqa şey.

Müxbir: Məlum həqiqətdir ki, Sizin üçün xalq, Vətən və onun mənafeyi hər şeydən əziz olub. Yaradıcı ziyalıların bəziləri deyirlər ki, içində yaşadığımız qarışıq cəmiyyətdən, əzabını çəkdiyimiz hadisələrdən indi yazmaq mümkün deyil. Lakin Sizin yaradıcılığınız-

da bu düşgünlük hiss olunmur. Maraqlıdır, bu qədər dərdin əhatəsində necə yazırsınız?

B.V.: Əvvəla, son 23 ildə ilə mühüm şey yaza bilməmişəm. Bu mənada özümdən narazıyam. Buna baxmayaraq, dediyiniz kimi, yenə yazıram. İkincisi, indi hər gün, hər saat sürətlə dəyişən hadisələrin məntiqini tutmaq, fəlsəfi mənasını qavramaq çox çətindir. Çünki hər şeyə uzaqdan baxmaq onu tam halda görməyə imkan verir. Yaxından baxmaq tam görmək deyil. Buna görə də mən belə başa düşürəm ki, bugünün siyasiictimai hadisələri yalnız gələcəkdə böyük ədəbiyyatın materialına çevriləcək.

Müxbir: Bu barədə konkret hansısa bədii əsər barədə düşünür sünüzmü?

B.V.: Şübhəsiz, Azərbaycanda istiqlal mübarizəsi bu günün işi deyil. Vətənimizin rus imperiyası tərəfindən işğalından indiyə qədər bu mübarizə ardıcıl olaraq davam etmişdir. XIX yüz ilin ikinci çərəyi müəyyən fasilələrlə kəndli üsyanları dövrü deyilmi? Maarifçilik hərəkatı, xüsusən "Əkinçi"nin fəaliyyəti etiraz səsləri deyildimi? Əsrimizin əvvəllərində Sabir, Mirzə Cəlil, Hadi, Ə.Hüseynzadə, H.Cavid, Əhməd Cavad, Əhməd bəy Ağaoğlunun yazıları təpədən dırnağa qədər mövcud sistemlərə (əvvəl çar üsulidarəsinə, sonra sovet totalitar sisteminə) qarşı üsyan deyildimi? M.Ə.Rəsulzadənin yaratdığı "Müsavat" partiyası əvvəlcə rus çarizminə, sonra isə mühacirətdə sovet rejiminə qarşı 1912-ci ildən bu gün qədər mübarizə aparmadımı?

1930-1931-ci ildə Şəki və Gəncədə baş verən üsyanlar yatırdılandan sonra uzun müddət davam edən qaçaqçılıq hərəkatı mübarizə tariximizin şanlı səhifələridir.

1937-ci ilin qurbanlarını xatırlayaq. Bizə gün kimi aydın deyilmi ki, H.Cavid, Ə.Cavad, Y.V.Çəmənzəminli və s. Kimi mütəfəkkir sənətkarlar həqiqətən sovet rejimi ilə barışa bilməz və: Əyil, Kürüm, əyil keç, Dövran sənin deyil, keç deyə haykırmalıydılar. Onları "Xalq düşməni" adlandırmışdılar. Əslində isə, onlar xalqın dostu, quruluşun, həqiqətən, düşmənləri idilər. Biz bəzən üzdə olanları görürük. 1947-ci ildə Gülhüseyn Hüseynoğlu, İsmixan Rəhimov, Azər Ələskərov,

H.Hacıyev və s. kimi bir dəstə gənc tələbənin hərəkatını və onların 25 il cəza ilə Sibirə sürgün olunmasını bu gün unutmamalıyıq. Nəhayət, R.Rza, X.Rza, İ.Hüseynov, Anar, Fərman Kərimzadə, Sabir Əhmədov kimi yazıçıların sovet rejiminin eybəcərliklərini böyük ustalıqla ifşa edən əsərlərini yada salaq.

Bütün bunlar istiqlal mübarizəsinin müxtəlif şəkilli təzahürləri idi. Buna görə də istiqlal mübarizəmizin tarixini Xalq Cəbhəsinin fəaliyyəti ilə məhdudlaşdırmaq mübarizəni cılız laşdırmaq onu kökdən məhrum etməkdir. Son zamanlar bu məsələlər barəsində çox düşünürəm...

Müxbir: Bəxtiyar müəllim, Sizinlə Novruz bayramı ərəfəsində görüşürük. Ürəyinizdən hansı hisslər keçir?

B.V.: Millətimi bayram münasibətilə təbrik edirəm. Bu ildə Novruzu müharibə şəraitində, qurbanlar verə-verə qarşılayırıq. Arzum odur ki, gələcək bayramımıza qədər müharibə qurtarsın, Xocalı, Laçın, Şuşa, cəmi Qarabağ camaatı bayramı öz yurdunda keçirsin.

"Hürriyyət" qəzeti, 19 mart, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ÖLMƏDİM,
BU GÜNÜ GÖRDÜM

Müxbir: Bəxtiyar müəllim,şairin siyasətə qoşulmasına necə baxırsınız? Sizə elə gəlmir ki, "sənət sənət üçündür"? Ümumiyyətlə, yaradıcılığı siyasi fəaliyyətə qurban verməyə sənətkarın haqqı varmı?

B.V.: Yaxşı sualdır, vaxtı ilə "sənət sənət üçündür" şüarının tərəfdarları iddia edirdilər ki, şairin, sənətkarın mövqeyi uca dağ başındadır. O, siyasətə qoşulmamalı, yalnız sənətlə məşğul olmalıdır. Mən bu fikrin tərəfdarı deyiləm. Sənətkar hər şeydən əvvəl öz zəmanəsinin oğludur. Zamanda baş verən, xalqın taleyi ilə bağlı hadisələrə öz münasibətini bildirməlidir. Bu mənada mən, xüsusilə son illərdə baş verən ciddi ictimai-siyasi hadisələrin mərkəzində olmuş, həm qələmimlə, həm də millət vəkili kimi ictimai fəaliyyətimlə baş verən hadisələrə öz münasibətimi bildirmişəm və buna təəs süflənmirəm. Buna isə məni vətəndaşlıq vicdanım təhrik etmişdir. Əgər mənim siyasi hadisələrə qoşulmağım, bir çoxlarında olduğu kimi, şəxsi mənafe məqsədi daşısaydı, yəni mən də başqaları kimi iqtidardan vəzifə kürsüsü umsaydım, bunu mənə nə xalqım bağışlayardı, nə də özüm.

Bütün bunlarla yanaşı hər halda hadisələr burulğanında olmaq və qızlardan qiymətli vaxtı bu işə həsr etmək, həqiqətən, adamı bədii yaradıcılıqdan soyudur. Demək olar ki, son illər mən ciddi bir şey yazmamışam. Bununla belə mən bu sualı verən müxbirlərdən soruşuram, 90-cı il yanvar faciəsindən sonra millətimizin başına gətirilən bu müsibəti əks etdirən "Şəhidlər" poemasını yazmaya bilərdimmi? Əgər yazma-

saydım, millət bunu mənə bağışlayardımı?

Müxbir: Yaradıcılığındakı kəskin siyasi motivlərə görə çoxu sizi "dissident" şair adlandırır. Sizcə belə demək düzgün olardımı?

B.V.: Mən belə başa düşürəm ki, Saxarov və Soljenitsin səviyyəsində "dissident" bizdə olmayıb. Amma Azərbaycanda totalitar sistemi dövründə güclü etiraz ədəbiyyatı yaranmışdı. Məsələn, hələ 50-60-cı illərdə İsa Hüseynovun povestləri mövcud quruluşa etiraz əsərləri idi. Rəsul Rzanın, Sabir Əhmədovun, Fərman Kərimzadənin, Xəlil Rzanın, Anarın bir sıra əsərləri dissident ədəbiyyat idi. Mən 1954-ci ildə "Bakı" şeirində yazanda ki,

O daşlar bu gün də dayanmış mətin,
Əcdadın şərəfi bizə əzizdir.
Ağaran o daşlar yadellilərin
Üstünə qıcanan dişlərimizdir.

Yaxud: "Şəbihicran" poemasında:

Sərvət getsə qəm deyil,
Sərvət gələr yenə də.
Bu qəmdir ki, bir xalqın,
Dilinə, eşqinə də
Qəsd edələr... ay aman!
Əməllərin, dərdlərin
Hamısından bu yaman.
Bunun üstündə mənə təzyiq edirdilər.

İlk yazılarımda başımıza gətirilən müsibətləri görür və bunlara qarşı müxtəlif üsullardan istifadə edib, etirazımı bildirirdim. Burada mən totalitar rejimin millətimizə olan zülmünü ya xarici ölkələrə keçirirdim, ya da tarixə. Mən "qızım, sənə deyirəm, gəlinim, sən eşit" prinsipindən istifadə edirdim.

Mənimçün maraqlı cəhət burası idi ki, millət sətiraltı mənaları dərk

edir və bunu təqdir edirdi. Aldığım yüzlərlə məktub və telefon zəngləri mənim doğru yol tutduğumu təsdiq edirdi. Bu məni daha da qanadlandırırdı. Ona görə də məni Vəli Axundov, İmam Mustafayev Mərkəzi Komitəyə çağırtdırıb bu yoldan daşınmağa çağırırdılar.

Baxa da bilmirəm, lap zəhləm gedir
Mənim inkubator cücələrindən.
Hamısı bir rəngdə, bir biçimdədir,
Seçə də bilmirəm biribirindən.

Qəzetkitabdan da gəlmişik cana,
Eynidir cümlə də, eynidir söz də.
Eyniyyət içində ürək bir yana,
Vallahi, yoruldu gözlərimiz də.

Yaxud:

Azadlıq naminə qan tökən də biz,
Bu gün azadlığa sədd çəkən də biz.
Bu gün azadlığa qılınc çəkibdir
Azadlıq heykəli ucaldan ölkə.

"Təzadlar" poemasında Lao Şenin dili ilə verdiyim bu sözlər o vaxt mənim Sovet İttifaqı haqqındakı fikirlərim idi. Bu şeirlərimə görə məni universitetdən çıxartdılar, ifşa etdilər.

İstərdim ki, alimlərimiz yeni ədəbiyyat tarixi yaradanda bu dissident ədəbiyyatını tədqiq etsinlər.

Müxbir: Türk dilinin dövlət dili elan olunmasına münasibətiniz?

B.V.: Mən dilimizin türk dili, millətimizin də türk olduğunu təsdiq edirəm. Yəni, bu elə bir həqiqətdir ki, onun heç bir sübuta ehtiyacı yoxdur. Daha doğrusu, Ali Sovetin qərarına ədalətin tarixi bərpası kimi baxıram. Bununla bağlı mənə xeyli zənglər olur. Nədənsə, xalqın bir qismi

bu qərarı düzgün hesab etmir. Doğrusu, mən bunu təsəvvür etmirdim. Elə güman edirdim ki, millət bu qərarı məmnuniyyət hissi ilə qarşılayacaq. Zənnimdə yanıldım. Çünki xalqı da qınaya bilmirəm. Millətimiz azərbaycanlı adlandırıldığı 38-ci ildən sonra dünyamıza yeni nəsillər gəlmişdir. Onlar gözlərini açandan özlərini azərbaycanlı kimi tanıyırlar. Onların həqiqətdən xəbəri olmayıb. Elə hesab edirəm ki, xalqı buna hazırlamaq lazım idi.

Müxbir: Şair Bəxtiyar, alim Bəxtiyar və deputat Bəxtiyar. Sizcə, bunların hansı daha xoşbəxt adamdır?

B.V.: Siyasi aləmdən çəkilmək istəyirəm. Amma bu Bəxtiyarın heç birini fərqləndirmirəm. Mən bütün ömrüm boyu bircə şey arzulamışam Vətənimi azad görmək, müstəqil görmək. Millətimizin boyunduruqdan xilas olmasını ömrüm boyu arzulamışam. Allahımdan çox razıyam. Nəhayət, ölmədim, bu günü gördüm. Yalnız buna görə özümü dünyanın xoşbəxti hesab edirəm. İlk dəfə "Azadlıq" meydanında üçrəngli bayraq yüksələndə mən dedim ki, "Xoşbəxtəm ki, böyük atamız M.Ə.Rəsulzadənin qaldırdığı bayrağın altında çıxış edirəm. Ölmədim, bu günü gördüm".

Müxbir: Xalqımız həmişə sizin məsləhətinizə ehtiyac hiss edib, prezidentindən daha çox sizə inanıb. Xalqın bu ağır günündə onlara nə arzuladınız? AXC hakimiyyətə gəlsə də, vəziyyət yenə də ağırdır.

B.V.: İndi Xalq Cəbhəsi hakimiyyətə gəlib. Mən bunu tamamilə qanuni hesab edirəm. Çünki iqtidar onların haqqıdır. Bununla belə, son 6-7 ayda *(AXC hakimiyyətə gələndən sonra)* bizə aydın oldu ki, iqtidardakıların hamısı Vətənə eyni düşüncə ilə bağlı deyillər. Bunların bir qismi özlərini Vətəndən və millətdən çox istəyirlər. Buna görə də tez-tez səhvlərlə qarşılaşırıq. Mən bu səhvləri də təbii hesab edirəm, çünki hamı eyni cür ola bilməz.

İndi müharibə aparırıq, belə bir məqamda bütün millətin yumruq kimi birləşməsi zəruridir. Belə bir məqamda müxtəlif siyasi təşkilat və partiyaların birbirinə diş qıcırtması və çirkaba atmasını düzgün hesab etmirəm. Son 3-4 ayda mən bütün çıxış və yazılarımda bunu demiş və deyirəm. Bütün millətlərin tarixindən məlumdur ki, müharibə aparan

xalqın parçalanmağa, ayrıayrı fərdlərin birbiri ilə ədavət aparmağa haqqı yoxdur.

Nə çox imiş bu torpağa göz dikən,
Baxa-baxa gözümüzə mil çəkən.
Düşmənimiz dostumuzdan çox ikən,
Türkün türklə ədavətə haqqı yox.
Sinəsini yarımaylıq zülmətin,
Bu məqsədə getdiyimiz yol çətin.
Hər gün neçə şəhid verən millətin
Birbiriylə ədavətə haqqı yox.
Müxbir: Müsahibəyə görə sağ olun.

"Azad Azərbaycan" qəzeti, 13 yanvar, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



AXI, BİZ HÜQUQİ DÖVLƏT YARATMAQ İDDİASINDAYIQ

Müxbir: Bəxtiyar müəllim, fövqəladə sessiya çağırmaq istəyən kommunist deputatların siyahısında Sizin də imzanız var, Bununla əlaqədar nə deyə bilərsiniz?

B.V.: Əvvəla, həmin siyahını yalnız kommunistlərə şamil etmək düz deyil. İmza atan deputatların içində, bəlkə də, qəlbən kommunist ideologiyasına sədaqətli olanlar var. Xahiş edirəm məni o cərgəyə salmayasınız. Ona görə ki, mənim bütün fəaliyyətim və arzum Azərbaycanı Müstəqil Dövlət kimi görmək idi. Şükür olsun, buna nail olduq. Lakin son bir ildə, yəni AXC hakimiyyətə gələndən sonra iqtidarın buraxdığı nöqsanlar, bu quruluşun yaranmasında müəyyən fəaliyyəti olan bir vətəndaş kimi, məni çox narahat edir. Axı, indi köhnə quruluşu yaratmaq arzusu ilə marıqda duranlar var. Onlar iqtidarın buraxdığı nöqsanlardan istifadə etməklə köhnə rejimi geri qaytarmağa çalışırlar. Mən bir deputat kimi Milli Məclisin bizim hüquqlarımızı tamamilə əlimizdən almasına etiraz edirəm. Axı, hər millət vəkilinin arxasında 20 min seçici dayanır. Bəs bizi seçən seçicilər deməz mi ki, mənim seçdiyim deputat indi nə ilə məşğuldur? Niyə mənim haqqımın keşiyində durmur? Bax buna görə də mən həmin müraciətə qol çəkmişəm.

Müxbir: 15 May sessiyasında Ali Sovet öz səlahiyyətlərini Milli Məclisə verib və bu, millət vəkillərinin səs çoxluğu ilə qəbul edilib. Səs verənlərdən biri də axı Siz olmusunuz.

B.V.: Mən nəinki səs vermişəm, Milli Məclisin yaranması uğrunda o sessiyadan əvvəl də mübarizə aparmışam. Milli Məclisi biz operativ qərarlar çıxartmaq üçün işçi orqan kimi seçmişik. Bildiyiniz kimi, bu, 25 partokrat, 25 demokratlardan təşkil olunmuşdu. Mən də oraya daxil olan demokratlardan idim. Lakin sonda özüm ərizə verib çıxdım. Bu, başqa məsələdir. Həmin sessiyada qəbul olunmuş sənəddə qərara alınmışdı ki, altı aydan bir sessiya çağırılsın. Axı, bəlkə mənim də deməyə sözüm var. Bəs yerdə qalan 290 deputatın konstitusiya hüququ niyə əlindən alınıb? Bu ədalətdir, ya zorakılıq? Axı, biz hüquqi dövlət yaratmaq iddiasındayıq.

İndi bunun harası hüquqi dövlət oldu?

Müxbir: Milli Məclisdə, televiziyada, qəzetlərdə Bəxtiyar müəllim həmişə öz sözünü deyib və indi də deyə bilər. Moskvada kommunistlərin fəallaşdığı vaxtda, respublikada kommunist deputatların fövqəladə sessiya çağırmaq niyyətlərinin arxasında nələr gizləndiyi isə müəyyən qədər aydındır.

B.V.: Yenə də deyirəm, imza atanların hamısının kommunist olduqlarını iddia etmək düz deyil. Mənə acıq gələn odur ki, bəzi qəzetlərdə məni də kommunistlərin cərgəsinə salırlar. Bunu yazanlar ya mənim yaradıcılığımdan və ictimai fəaliyyətimdən xəbərsizdirlər, yaxud da qəsdən yazırlar. Amma mənim fəaliyyətimdən xəbərsiz olduqlarına inanmıram. Çünki görünən dağa bələdçi lazım deyil. Məncə, bunu qəsdən edirlər. Ali Sovetin keçən il keçirilən son sessiyası, bəzi qəzetlərin yazdığı kimi, parlamentin bütün səlahiyyətini heç də Milli Məclisə vermək haqqında qərar qəbul etməyib. Milli Məclisə seçilən 50 deputatla yanaşı, yerdə qalan deputatlar öz deputat, mandatına uyğun olaraq, səlahiyyətini saxlamağa səs verib. Axı, hansı deputat könüllü olaraq öz səlahiyyətindən tamamilə əl çəkməyə səs verər? Buna kim inanar? Əgər bu da şübhə doğurursa, zəhmət çəksinlər həmin sessiyanın çıxardığı qərarı qaldırıb oxusunlar.

İndi gəlin görək Milli Məclis üzvlərinin hamısımı qəlbən demokrat deputatlardır? 25 nəfər köhnə partokrat deputat indi nə tez cildini

dəyişib demokrat oldu? Dərd burasıdır ki, cildini dəyişən həmin partokrat deputatlar indi bizi demokratiyanı pozmaqda günahlandırırlar. Burada deyiblər: "Ay dünənki loxəbər, indi sən hardan oldun belə gülməşəkər?" Həmən partokrat deputatların arasında ona yaxın köhnə KQB agentinin olduğunu kim bilmir? Bax, həmin köhnə agentlər bu gün Milli Məclisdə oturub KQB arxivlərinin açılması əleyhinə səs verir. Çünki özlərinin ifşasından qorxurlar.

Müxbir: Onlar kimlərdir elə?

B.V.: Onları hamı yaxşı tanıyır. Mənə təəccüblü gələn odur ki, Milli Məclisdə komblokdan olan 25 deputat nə tez kommunist olduğunu unudub, indi bizə dərs verməkdən belə utanmır? Ömrü boyu yazıları ilə köhnə quruluşa qarşı mübarizə apardığından min cür məhrumiyyətlərə qatlaşan B.Vahabzadə indi kommunist olub?

Müxbir: O siyahıya imza atmaq üçün Sizə müraciət edənlərin adlarını deyə bilərsinizmi?

B.V.: Yox! Sessiya çağırmaq barədə mənim fikrimi öyrəndilər, mən də razılaşdım. Vəssalam! Çağırılacaq sessiyada mənim həm kommunistlərə, həm də iqtidarda olanlara sözün var idi. Oradan kommunistlərə deyəcəydim ki, daha bəsdirin, əlqol açmayın. Allah göstərməsin ki, o rejim qayıtsın, gedin oturun yerinizdə. Mənim sessiyanı çağırmaq istəyim qurduğumuz quruluşu, özümüzü müdafiə etməyimlə əlaqədardır. Son 9-10 ayda bütün yazılarımda mən xalqımızı və siyasi partiyaları yeni yaranmış dövlətimizin ətrafında birləşməyə çağırmışam. Bununla yanaşı, dövlətimizin ayaq üstə durması üçün mənim də təkliflərim var. Bu quruluşa qarşı nə isə qəzetlərdə materiallar olanda cavab da yazıram. O dəfə Türkiyənin Azərbaycanın sərvətlərini taladığı barədə yazıya cavab yazdım, dərc olundu. Əvvəla, türk gəlib zor ilə bunu səndən almır, ikinci, dünya standartları səviyyəsində istehsalat müəssisələri açır və bunu dünya bazarına çıxarır.Belə olduğu halda sual edirəm, ay yoldaş kommunistlər, Rusiya heç soruşmadan sərvətlərimizi talayıb aparanda dinmirdiniz, indi belə sərfəli işlərə niyə ağız büzürsünüz? Bu yaxınlarda keçmiş müdafiə nazirinin müavininin evindən külli

miqdarda pul müsadirə edildiyi barəsində yazmışdılar.Görün bu qədər vəsait tək öz evindən çıxır, atası, qardaşbacısının, qohumlarının evində nə qədər saxlayıb Allah bilir. Bəs onda müavindən yuxarı vəzifə tutanlar nə qədər vəsait mənimsəyiblər? Bu barədə də "Səhər"də məqaləm çıxdı.

İkinci tərəfdən, sessiya çağırılmasını ona görə tələb etdim ki, o ali kürsüdən iqtidara da deməli sözüm var idi. İndi görürəm ki, mənim xeyirxah niyyətim tərsinə yozulur. Hətta məktuba imza atanları həbslə hədələyirlər. İndi mən onlara demək istəyirəm: Builki sərçə bildirki sərçəyə cibcib öyrətməsin. Mən öz qələmimlə imperiyaya meydan oxuyanda indi meydan oxuyanlar analarının qarnında deyil dilər. İmperiya yıxılandan sonra onun dalınca danışmaq icazəli qəhrəmanlıqdır. Bunu isə hamı bacarar. Hələ dünən mənim döşümdəki üç rəngli bayraq nişanına "Bu julik bayrağını döşünə taxmaq sənə yaraşmaz" deyən dünənki vəzifə sahibinin bu gün həmən bayrağı vəzifə masasının üstünə qoyub, yenə həmən hökmlə mənə meydan oxumasına dözə bilmirəm.

Üçüncü tərəfdən gündə bir vəzifə dəyişikliyi aparmaqla ölkəni düşdüyü bataqlıqdan xilas etmək olmaz. Burada istəristəməz Krılovun "Çolaq ayı, çəp keçi" təmsili yada düşür. Yerləri dəyişməklə mahnı çalmaq istəyən bu binəvaların düşdüyü vəziyyətdən niyə dərs götürməyək?

Şəhriyar da gözəl deyib,
Bizdən irəlidir avropalılar,
İşi iş bilənə tapşırır onlar.

Bəs biz neyləyirik? Adamları səviyyəsinə, biliyinə, təcrübəsinə, səriştəsinə görə deyil, yalnız siyasi görüşünə görə (onu da Allah bilir) yüksək vəzifələrə gətiririk. Bu isə açıqaşkar adamlara bolşevik ölçüsü ilə yanaşmaqdır.

Raykom katiblərini yalnız cibindəki partbiletə və partiya məktəbini bitirdiyinə görə təyin edərdilər, o da iş başına gələn kimi, kəndliyə torpağı becərmə qaydalarından, memara ev tikmə, dəlləyə ülgücü bülövləmək

üsulundan, şairə qafiyə çəkməkdən, alimə tədqiqat məsələlərindən dərs deyərdi. Biz yenə də bu üsula qayıdırıq? Amma atalar başqa söz deyir: "Çörəyi ver çörəkçiyə, birini də üstəlik".

Mən bunları parlamentin müzakirəsinə vermək üçün Ali Sovetin sessiyasını tələb etmişəm. O məktuba başqalarının nə məqsədlə imza atdıqlarını isə özləri bilərlər.

Müxbir: Son vaxtlar Sizi Heydər Əliyevin adı ilə daha çox bağlayırlar.

B.V.: Mən Heydər Əliyevi həmişə müdafiə etmişəm və eləyəcəyəm.

Heydər Əliyevin biliyindən, bacarığından istifadə etmək lazımdır. Bir var, Yeltsinin qabağına uşaq göndərəsən, bir də var bu sahədə böyük sərişẗəsi olan Heydər Əliyevi.

Müxbir: Siz Rusiya imperiyasına, kommunist partiyasına nifrət edən siyasi motivli şeirlər yazmısınız. Vaxtilə Sizi və poeziyanızı zərbələr altına salan bir quruluşun sabiq liderinə bu qədər inamınızı nə ilə bağlayırsınız?

B.V.: Ayaz Mütəllibovun vaxtında da qəbuluna gedib dedim ki, Heydər Əliyevdən istifadə elə. Belə bir vaxtda sənin elə təcrübən yoxdur ki, xalqı çətin vəziyyətdən çıxardasan. O isə stolun siyirtməsini çəkib vaxtilə Heydər Əliyevin Moskvaya mənim haqqımda yazdığı "on nasionalist, nado yeqo izolirovat" səpgili materialları göstərdi. Dedim ki, nə olar, onda o, ora xidmət edirdi. İndi zaman dəyişir. Hər şeyə yeni gözlə baxmaq lazımdır. Bütün istedadlı adamların qabiliyyətindən istifadə edilməlidir.

Müxbir: "Azərbaycanın siyasət gəmisi Rusiyaya doğru yönəlməlidir". deyən Heydər Əliyevi bu kontekstdə necə qiymətləndirmək olar?

B.V.: O sözlərin Heydər Əliyev tərəfindən deyildiyinə inanmıram. Rusiya onun hakimiyyətə gəlməsindən qorxur. Buna görə də onun adından belə uydurmalar yazırlar ki, biz onu iqtidara yaxın buraxmayaq.

Müxbir: Qorxsaydı, Rusiya qəzetləri birinci səhifədə onu mədh

etməzdilər.

B.V.: Ay oğul, bunun hamısı siyasətdir. Siyasət isə əxlaqsız qadından da əxlaqsızdır.

"Müsahibəni apardı: Akif Aşırlı

"Müxalifət" qəzeti, 13 may, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



DÜNYA BEŞ GÜNMÜ?

- Bəxtiyar müəllim, ulularımızdan bizə yadigar qalan belə bir zərb-məsəl var: dünya beş gündür, beşi də qara. Deyin görək, bu zərb-məsəlin arxasında hansı çalarları, hansı fəlsəfəni görürsünüz?

- "Dünya beş gündür, beşi də qara" zərb-məsələnin arxasında duran fikir məlumdur: insan ömrü qısadır və əzablıdır. Bununla belə, bu fikrin başqa çalarları da var.

Ümumiyyətlə, mən atalar sözlərini, müdrik zərb-məsəlləri, min illərdən süzülüb gələn adət və ənənələri təftiş etməyin əleyhinəyəm. Amma zamana, mühitə və şəraitə görə bu müdrik sözlərə yeni çalarlar və mənalar vermək vacibdir. Məsələn, belə bir atalar sözünü götürək: "ayağını yorğanına görə uzat". Bu məşhur kəlama görkəmli yazıçımız İlyas Əfəndiyev bir dram əsərində belə bir məna vermişdi: "nə vaxta qədər ayağımızı yorğanımıza qədər uzadacayıq? Gəlin ayağımıza görə yorğan axtaraq".

"Dünya beş gündür" məsəli ilə xalq demək istəmiş ki, insan əbədi deyil, ölümə məhkumdur. Bu, həqiqətdir. Amma unutmamalıyıq ki, cismani həyatla yanaşı, mənəvi, ruhani bir həyat da var. Vaxtilə yazdığım şeirlərimin birində demişdim ki, "ömür ömürdən sonra yaşamağın təməlidir". Bizim dinimiz də də buna yaxın bir fikir var: "Cəhənnəmdə yanan odunu burdan apar". Yəni biz bu dünyada o dünyamızı qazanırıq. O dünya isə cənnət də ola bilər, cəhənnəm də.

Üzeyir bəyin cismani ömrü 63 il olmuşdur. Mənəvi ömrü isə

əbədidir. Hər dəfə "Koroğlu"nun üvertürasına qulaq asanda və bu musiqi dalğası bizi yerimizdən oynadanda, məgəri Üzeyir bəy bizim yanımızda olmurmu? Eləcə də Füzulinin hər hansı qəzəli oxunanda məgər biz onu öz yanımızda hiss etmirik mi? Bizə mənəvi qida verən, bizi ruhani dünyaya aparan bu böyük şəxsiyyətlərin ömrünə "beş günlük" demək olarmı?

Məsəlin ikinci tərəfinə gəlincə, bu daha mürəkkəbdir: "beşi də qara". Adlarını çəkdiyim böyük şəxsiyyətlərin ömrü, həqiqətən dünya əzablarına qatlaşmaqda, yaradıcılıq əzablarını çəkməkdə keçmişdir. Onların bu dünyası məşəqqət olmuşdur. Avropa ədəbiyyatında "dünyəvi kədər" deyilən bir məfhum var. Avropasentrizmə əsaslanan fikrə görə, dünya kədəri böyük ingilis şairi Bayronla başlayır. Bu fikri, deyənlər Şərq ədəbiyyatından, xüsusilə Füzuli dünyasından xəbərsizdirlər. Məcnun dünya kədərinin simvoludur. Məcnunun dərdini, kədərini yalnız Leyliyə olan sevgisiylə bağlamaq, onu anlamamaqdır. Bu əsərdə Leyli insan arzularının simvoludur. İnsan böyük arzularına çatmayanda dərdlə qarşılaşır. Beləliklə, böyük Füzuli insanın arzular yolundakı çırpıntılarını, həsrətini Leyli timsalında ümumiləşdirərək insanın təkliyini və bədbəxtliyini dilə gətirmişdir. Bax, budur dünya kədəri! Təəssüf ki, bu dünyada dünyanın dərdini anlamamaq, onu ürəyə yaxın qoymamaq, ömrünü hırıltılarla başa vurmaq istəyənlər də var. Var yox, çoxdur, əksəriyyətdir. Buna görə də vaxtilə yazmışdım:

Dedin ki, dünyanın dərdini çəkmək
Mənəmi qalıbdır, nəyimə gərək.
Bu dünya tərsinə dönsə də, vallah,
Sənin nə vecinə, ay bərəkallah!

İnsanın özündən fikri böyükdür.
Eyləsə, fikirlə yorma beynini.
Düşüncə dediyin çox ağır yükdür,
O yükün altına vermə çiynini.

Düşünmək nəyinə gərəkdir, oğlan.
Beləcə, hırılda, dönüm gözünə,
Bir azca düşünüb, qaşını çatsan,
Gündüzün görünər qaranlıq sənə.

"Dünyanın qaranlıq tərəfi" düşünənlər üçündür. İnsan düşünən də, həm də dərindən düşünəndə həqiqətən gündüz ona qaranlıq görünər.

Şeir davam edir:

Elə hırılda ki, iftira, yalan
Dönüb gözlərinə gerçək görünsün.
Elə hırılda ki. qarşına çıxan
Çalalar, çuxurlar güzgüyə dönsün.

Sən əsrin meyvəsi, günün oğlusan,
Düşünmə, düşünmək nəyinə gərək.
Düşünsən, dərini görərsən, dayan!
Yaman xatalıdır dərini görmək.

Böyük dahilər gördüklərinin mahiyyətini, yəni üzdəkini deyil, dərindəkini görmək üçün öz həyatlarını istirabın, dərdin qucağına atmış və bu müvəqqəti dünyada əbədi olan o dünyalarını qazanmışlar.

- Bizim xalqın dünya məsələsinə münasibəti həm pessimist, həm də optimist münasibətdir. Fikir verin, əgər bir vaxt "dünya beş gündür, beşi də qara" deyilibsə, sonralar bunun ardınca təskinlik üçün: "Dünya beş günlük deyil" söyləyiblər. Sizcə, bu paradokslara səbəb nədir? Və ümumiyyətlə, bu deyim sizə nə söyləyir?

- Mən birinci sualınızın cavabında ikinci sualınızın da cavabını qismən verdim.

"Dünya beş gündür, beşi də qara" zərb-məsəli ilə yanaşı "dünya beş günlük deyil" məsəlinin də yaranmasını paradoks hesab etməzdim. Çünki hər ikisi həqiqətdir! Amma baxır adamına! Bu, həm də o deyən sözdür ki, dünyada ədalət də var. Ümumiyyətlə, dünya həmin qoca dün-

yadır. Biz insanlar hər birimiz bu qoca dünyaya öz gözümüzlə baxır və hər birimiz qoca dünyada öz içimizdəkini görürük.

- Bu dünya elə qurulub ki, insan müxtəlif çətinliklərlə üzləşməli olur. Hətta elə bir məqama çatır ki, Allah, Tanrını köməyə çağırır. Şair həyatı narahatlıqlarla, çətinliklərlə dolu bir həyatdır. Elə bir məqam olubmu ki, hər şeydən bezib usanmısınız, başladığınız işi yarımçıq qoyub, Allah kərimdir demisiniz? Sizcə, adamların Allaha, Tanrıya tapınmasına səbəb nədir?

- Atom bombasının kəşfindən sonra dünya filosofları belə bir qənaətə gəldilər ki, Allah "olmuşdur". (Allah günahımızdan keçsin). O zamanlar rus mətbuatında "Boq umer" başlığı altında məqalələr çap olunurdu. Bu proses 5-10 il davam etdi. Sonra yazdılar "Boq vozvraşaetsa" "Allah qayıdır".

Bu proses isə getdikcə güclənir. Son zamanlar Sovet imperiyasının məhvi marksist-materialist fəlsəfənin ölümünə gətirib çıxartdı. Bu proses bizim gözümüzün qarşısında başlandı və davam edir. İndi bütün dünya və xüsusilə köhnə Sovetlər İttifaqında Allaha sığınma, bütün dərdlərin əlacını Allaha tapınmaqda görmə prosesi gedir. Bunun əsas səbəbi əlimizin bütün başqa ideologiyalardan üzülməsidir. Mən 1988-ci ildə yazdığım "Hara gedir bu dünya" pyesində bu məsələyə toxunmuşam.

- Çoxları bilməsə də mən bilirəm ki, sizin bir çox əsərləriniz xüsusilə "Gülüstan" poemanız və "Latın dili" şeiriniz böyük maneələrlə üzləşib. Və bunun ucbatından sizin başınız xeyli bəlalar çəkib. Yəqin ki, həmin məqamlarda sabaha ümidinizi itirməmisiniz. Dünya beş günlük deyil fikri, fəlsəfəsi ilə yaşamısınız?

- Tamamilə doğrudur. Ona görə ki, mən hələ o zamanlarda da zülm üzərində qurulan totalitar sistemin məhvinin labüd olduğunu bilirdim. Ona görə də keçirdiyim məhrumiyyətlə mənə verilən ittihamlara içiniçin gülür və sınmırdım. Çünki müstəqil olacağınıza, bu haqsız quruluşun dağılacağına bütün varlığımla inanırdım. Dünya beş günlük olmadığı kimi, mənə verilən əzabların da sona çatacağını bilirdim.

- Siz şair olmaqla yanaşı, həm də musiqi xiridarısınız. Şeirlərinizə

çoxlu musiqi bəstələnib. Bəstəkarlarla, müğənnilərlə sıx ünsiyyətdəsiniz. Hətta musiqiçilərlə, müğənnilərlə oturub dura-dura "Muğam" poemasını yazmısınız. Deyin görək, bu qarmaqarışıq dünyamızda musiqi sizin üçün nədir? Və musiqi prizmasından dünya sizə necə görünür;

- Bütün ömrüm boyu musiqi ilə yaşamışam. Musiqi mənim həyatımın müşayiətçisi olmuşdur. Musiqidən aldığım ləzzəti heç nədən almamışam. Musiqi həyatı gözəlləşdirmə vasitəsidir. Amma son beş-altı ildə nəğmə dinləməyi də özmə haram bilirəm.

Dünya ilə əlaqədar şairlər müxtəlif ovqatlı şeirlər yazıblar. Şairlərdən biri deyib:

Biz gəldi gedərik, sən yaşa, dünya
Başqa birisi isə müdrikcəsinə etiraf edib:
Dünya mənim, dünya sənin, dünya heç kimin...

- Bəs bir şair kimi siz bu deyilənlərə nə əlavə etmək istərsiniz?

- Mənim dünya mövzusunda 5-6 şeirim var. Birini oxumaq istəyirəm:

Baş çıxarmaq həm çətindir, həm asan
İblisindən, mələyindən dünyanın
Adəm satdı bir buğdaya cənnəti,
Tora düşdü kələyindən dünyanın.

Nə gözəldir, ürək geniş, söz açıq,
Yaşamadım bir sevdamı yarımçıq.
Əzab adlı dəyirmandan narın çıx,
Keçəcəksən ələyindən dünyanın.

Arzum üçün bir mələyən cüyürdüm,
O təpədən bu təpəyə yüyürdüm.
Niyə qorxum kəfənimdən? Nə gördüm
Beşiyindən, bələyindən dünyanın.

Ey Bəxtiyar, zaman ömrü əridər,
O dünyaya getməm işdən çürüdər.
Arxasınca palaz kimi sürüdər
Bərk yapışsan ətəyindən dünyanın.

- Deyirlər bu dünyada itirdiklərimiz qazandıqlarımızdan çox olur. Bu baxımdan 1990-cı ilin 20 Yanvarı müqayisə edilməzdir. Həmin gün elə bil bütün xalqın içi termosun içi kimi sınıb içinə tökülmüşdür. Hamı dünyaya nifrətlə, hiddətlə baxırdı. Həmin məqamda siz bir şair kimi hansı duyğularla yaşayırdınız və dünya sizə necə görünürdü?

- Mən yuxarıda dedim ki, sovet imperiyası dövründə əsərlərimə görə çəkdiyim əzablar məni sındırmadı, sarsıtmadı. Lakin 20 Yanvar qırğını və xüsusən son aylarda cəbhə uğursuzluqlarına, Gəncə və Lənkəran hadisələrinə dözmək çox çətindir. Doğrusu, mən bunları heç gözləmirdim. Ağlımıza gəlməyənlər başımıza gəldi.

- Mən yaradıcı adamın siyasətə qoşulmasının əleyhinəyəm. Amma neyləmək olar, dünyamız günbəgün, anbaan dəyişir və özümüzdən asılı olmayaraq bizi siyasət meydanına çəkir. Mən sizi son beş-altı ildə meydanda tez-tez görürəm, Milli Məclisdə, sessiyada gah alovlu-alovlu çıxış edirsiniz, gah da susursunuz. Sizin bu siyasi gedişlərinizi adamların hamısı birmənalı qəbul etmir. Bir şair kimi bu məsələyə siz özünüz necə baxırsınız?

- Ümumiyyətlə, siyasət çox mürəkkəb və çətin işdir. Mənim kimi hadisələrə birrəngli baxan, sözü birmənalı başa düşən adam üçün siyasətlə məşğul olmaq çox çətindir. Buna görə də bəzən hadisələrin arxasında duran əsas məqsədi görə bilmir və səhvə yol verirdim. Əslində gərək hər kəs öz işi ilə məşğul ola. Amma millət vəkili kimi mən sessiyalarda toxunulan məsələlərə öz münasibətimi bildirməliydim. Son zamanlar hadisələr o qədər sürətlə inkişaf edir, elə tez-tez dəyişir ki, məntiqi axarı tuta bilmir və səhv etməkdən qorxub susmalı oluram.

- Son illər ədəbiyyatımızda, incəsənətimizdə, mədəniyyətimiz də nəzərə çarpacaq tənəzzül prosesi gedir. Siz buna necə baxırsınız?

- Bir neçə gün əvvəl, Moskva televiziyasında bəstəkar Tixon Xrennikovla jurnalist Karaylovun müsahibəsinə baxırdım. Həmin müsahibədə Karaylov sizin mənə verdiyiniz sualı Xrennikova verdi. Xrennikov dedi ki, bəyənmədiyimiz sosializm cəmiyyətində Şostakoviç, Prokofyev, Qara Qarayev kimi böyük sənətkarlar yetişdi. Ona görə ki, o zamanlar sənətkarlara, alimlərə, hansı məqsədlə olurolsun, hər halda, böyük dövlət qayğısı var idi. İndi sponsorların və metsenatların qayğısı ilə böyük elmi kəşflər və böyük sənət yaratmaq mümkün deyil. Bu gün də elmə və sənətə dövlət qayğısı lazımdır. Belə olmasa, Qara Qarayevlər, Fikrət Əmirovlar yetişməyəcək?

- Bu dünya elə qurulub ki, həmişə kimsə kiməsə borclu qalır. Siz mənən özünüzü kiməsə borclu bilirsinizmi? Əgər bilirsinizsə, nə etmək fikrindəsiniz?

- İnsan dünyaya gələndən iki məfhum qarşısında dayanır. Haqq və Borc! Müəyyən yaşa çatana qədər insanın haqqı borcundan irəlidir. Valideynlərin borcu dünyaya gətirdikləri uşaqların haqqını ödəməkdir! Uşaq yetkinlik yaşına çatandan sonra isə haqla borc öz yerini dəyişir. Bu dəfə valideyinin borcunu qaytarmalı olur, övladın valideyin qarşısındakı borcu ön plana keçir. Əsl insan odur ki, həmişə borcunu haqqından qabaqda görsün. Vətən qarşısında hər bir vətəndaşın borcu haqqından öndə durmalıdır. Mən də elə.

- İndi dünyamız çox narahatdır. Torpaqlarımızda elan olunmamış müharibə gedir. Adamlar öz yurdyuvalarından didərgin düşüblər. Həm iqtisadi, həm mənəvi böhran hökm sürür. Adətən belə məqamlarda söz gücsüz olur. Amma xalqımız söz xiridarı olduğu üçün ağsaqqal sözünə, şair sözünə ehtiyac duyurlar. Siz belə gərgin məqamda xalqa ululardan bizə miras qalan hansı qədim deyimli müraciət etmək istərdiniz?

- Düşdüyümüz vəziyyət çox acınacaqlıdır. Bir milyona yaxın qaçqını, torpaqlarının 20 faizdən çoxu işğal altında olan bir ölkənin ağsaqqalı millətinə hansı müdrik sözlə təsəlli verə bilər? Mən yalnız onu deyə bilərəm ki, sınmamalıyıq, hələ dünyanın axırı deyil. Bir atalar sözü mənə təsəllidir: "Buynuzsuz qoçun hayıfı buynuzlu qoçda qalmaz".

Bəlkə də başımıza gətirilən bu müsibətlər ayılmağımız üçün, dostla düşməni birbirindən ayırmaq üçün bizə lazım imiş. Bəlkə də zamanın bu dəhşətli yollarından keçmək bizim xeyrimizə olacaq? Allah bilən məsləhətdir!

Söhbəti apardı: Azərbaycan Teleradiosunun əməkdaşı Möhbəddin Səməd

Sentyabr, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.

SAMSUN UNIVERSITETININ ASISTANI HÜSNİYYƏ MAYADAĞIN SUALLARINA CAVAB

1. "Şənbə gecəsinə gedən yol" kitabınızda gedən həyat hekayənizə əlavəniz varmı?

- Hələlik heç bir əlavəm yoxdur.

2. İlk şeiriniz barədə nə deyə bilərsiniz?

- Çoçuqluğumda yazdığım ilk şeir toyuq çolpalarını qorxudan çalağan haqqında idi. Ona şeir demək olmazdı. Çalağana etiraz nidası idi. Ürəkdən gələn bu nida haqsızın haqlıya, güclünün gücsüzə hakim olmaq ehtirasına bir uşaq üsyanı idi.

3. Millət vəkilliyiniz sənətinizə mane deyilmi?

- Mənim sənətimlə millət vəkilliyim eyni əqidəyə, eyni məqsədə xidmət edir. Yəni, yazdıqlarımı millət vəkili kimi parlamentoda müdafiə edirəm. Mənim fikrimcə, sənət cəmiyyətdən, cəmiyyəti idarə edən siyasətdən ayrı olmamalıdır. Bir sözlə, mən "sənət sənət üçündür" şüarını qəbul etmirəm. Mənim fikrimcə, sənət xalq üçün, vətən üçündür. Bu mənada böyük Sabir və Mehmet Akif mənim üçün örnəkdir. Bu mənada böyük Sabir və Mehmet Akif mənim üçün örnəkdir.

4. ...

5. Yaradıcılıqdan başqa bir alışqanlığınız (hobbiniz), şakəriniz varmı?

- Yaradıcılıqdan və oxumaqdan başqa ayrı alışqanlığım yoxdur. Yazarkən özümü zorlamıram. Yalnız gecələr çalışıram. Gündüzlər isə oxumağı sevirəm. Bir gün oxumasam, elə bil, nəsə itirmişəm. Daha çox

nəsr əsərləri oxuyuram.

6-7. Şeir nədir? Sizcə, şeirin məqsədi, qayəsi nədir?

- Məncə, şeir qayə deməkdir. Qayəsiz, fikirsiz şeiri şeir hesab etmirəm. Bu mənada Nəcib Fazilin "Cəmiyyətin röyasını ayrı bir röya üslubuyla anladan bir təbirnamə" fikri ilə razılaşıram. Cəmiyyətsiz şeiri, şeirsiz cəmiyyəti qəbul etmirəm. Daha doğrusu, şeir cəmiyyətin özünə məxsus aynasıdır.

8. Şeir yazmağa nə zamandan başladınız?

- Orta məktəbdən. Şeirlərimi əbədiyyat müəlliminə göstərdim. Bəyəndi və məni bu işə həvəsləndirdi.

9. Yenilik həvəsdi! Bu elə qəm ki,
Könül duyduğundan əl götürməyə,
Elə bir tələtüm istəyirəm ki,
Dünya silkələnə, təzə don geyə. -

misralarınız içində yaşadığınız cəmiyyətin dağılmasını, onun yenisi ilə əvəz olunmasını arzulamaq deyilmi? Şeirin yazıldığı 1979-cu ildə bu fikri necə deyə bilmisiniz? Bəs o zaman senzura yox idimi?

- Misal gətirdiyiniz misralar "Təzəlik" adlı şeirimdəndir. Bu şeirin əsas qayəsini Siz yaxşı anlamısınız. Bu şeirdə ilk baxışda guya mən şeirdə, sənətdə inqilab, yenilik istədiyimi yazıram.

Əslində isə, bu şeirdə 70 illik sovet istibdadından xilas olmaq arzumu bildirmişəm. Onu da deyim ki, şeirin əsas məzmununu təşkil edən rus boyunduruğundan xilas olmaq arzumu o zaman millət çox gözəl anlayırdı. "Dünya silkələnə, təzə don geyə" misrasında mən bu arzumu açıq bildirmişdim.

"Təzə don" ifadəsində cəmiyyətin əski donunun məhv olub yenisi ilə əvəz olunmasını yəni, bağımsız bir dövlət olmaq arzumuzu ifadə edirdim. O zaman bu misra senzorun nəzərindən qaçmış, kitab basılandan sonra anlamışdılar və bunun ağrısını sonralar çəkdim.

10. Çıxmaq istəyirəm bu qalıblardan,
Görürəm, şeir də başqa cür qalıb. -

beytinizdə şeirdə forma məhdudluğunun əleyhinə olduğunuzumu demək istəyirsiniz?

- Bu misralardan belə məlum olur ki, guya mən şeir qalıblarından söz açıram. Əslində isə, mən bizi məhdud edən cəmiyyət qalıbllarından, əlqolumuzu bağlayan imperiya qanunlarından, senzuradan və s... danışıram. Amma, burda sizə elə gəlmiş ki, mən vəzn və qafiyə məhdudluğundan söz açmışam. Misraya diqqət yetirin: "Görürəm, şeir də başqa cür qalıb" "şeir" sözünün yanındakı "də" onu göstərir ki, başqa cür qalıblar da var. Demək, burda mən şeir qalıblarından başqa, cəmiyyətdə mövcud olan qalıblardan şikayətlənirəm.

Buradan çıxaraq, "Sizcə, şeir nasıl olmalı?" sorğunuza cavab verirəm: Cəmiyyətdə insanın insanlığını əlindən alan, insan haqlarını tapdayan qalıblara qarşıyam. Amma şeirdə, sənətdə qalıbların, qaydaların olmasını vacib sayıram. Nə üçün? Ona görə ki, şeir hər şeydən öncə musiqidir. Vəzn və qafiyə isə şeirin musiqisini, ahəngini təmin edən əsas şərtdir. Buna görə də mən vəznsiz və qifiyəsiz şeiri qəbul edə bilmirəm.

11. Müasir ədəbiyyatın inkişafı üçün nəyi vacib hesab edirsiniz?

- Müasir ədəbiyyatın inkişafı üçün, hər şeydən öncə, kökə qayıtmağın, ənənədən uzaqlaşmamağın, dədəbaba irsinə hörmət etməyin zəruri olduğunu düşünürəm.

Təəssüf ki, son zamanlar türk sənətçiləri və ədəbiyyatçıları dədəbaba ənənəsinə arxa çevirmiş, öz köklərindən uzaq düşmüşlər. Məncə, adi daşın da, qayanın da öz tarixi, öz keçmişi və öz kökü var. Müasir dünyamızda ənənəsi olmayan tək bir şey var: o da inkubator cücələridir. Buna görə də inkubator toyuqlarının dadı, tamı olmur. Mən "Nərəyə gediyor bu dünya?" pyesində kökə qayıdışın zəruriliyi məsələsini qoymuşam. Bu pyes Türkiyədə basılmışdır. Rica edirəm onu diqqətlə oxuyasınız.

Azərbaycan türk ədəbiyyatının bugünkü halı nasıldır? - sualınıza gəlincə, deməliyəm ki, Azərbaycan türk ədəbiyyatı uzun illər sovet imperiyasının senzura baskısında qalmasına baxmayaraq, öz minillik ənənəsindən ayrılmamış, öz kökü üzərində boy atmışdır. Son 5 ildə isə

müharibə ilə bağlı olaraq, ədəbiyyat nisbətən zəifləmiş, indi yazıçılar bədii əsərdən çox, publisistika ilə məşğuldurlar. Bu isə müharibənin tələbidir.

12. Şeirdə şəkil axtarınlarına necə baxırsınız?

- Şeirdə şəkil və qalib məsələsinə münasibətimi öncəki suallarınıza cavablarımla bildirmişəm.

13-14. Azərbaycan şeirində ana dili mövzusunun mühüm yer tutduğunu nə ilə izah edərsiniz?

- Siz düz hiss etmisiniz: Azərbaycan şeirində ana dili mövzusu mühüm yer tutur. Bunun səbəbi Sizə bəlli olmalıdır, 70 illik sovet iperatorluğu dövründə Azərbaycanda bütün dövlət işləri, rəsmi yazışmalar və toplantılar yalnız rus dilində aparılır, ana dilimiz sıxışdırılırdı. Buna etiraz olaraq, əksər şairlərimiz ana dili mövzusunda şeirlər yazdılar. Mən "Ana dili" şeirimi 1953-cü ildə yazmışdım. Çap etmədilər. Bu şeirim üstündə başım çox bəlalar çəkdi. Bunu eşidən mənim ustadım böyük şair Səməd Vurğun məni yanına çağırdı və şeirdə Lenindən bir epiqraf verməyimi istədi. Epiqrafı mənə özü verdi. Lenin vaxtı ilə demiş: "Hər kəs öz vətənini və ana dilini sevməlidir". Bu sözləri şeirə epiqraf verib xilas oldum. Lakin bir neçə il sonra yazdığım "Latın dili" şeirində də ana dilimizin taleyi məsələsinə toxunduğumdan yenidən təqiblərə məruz qaldım.

15. Bu da qismətmiş taledən yəqin,
Nə etmək? Buna da dözərəm yenə.
Xalqın məhəbbəti rəqiblərimin
Döndü nifrətinə, xəyanətinə -

misralarının nə münasibətlə yazdığını açıqlaya bilərsiniz mi?

- "Nağıl - həyat" kitabımdan gətirdiyiniz misal həyatda olmuş bir hadisədən doğmuşdur. Təvazödən kənar olsa da, sual verdiyinizə görə açıqlamalıyam: Mənim qələm yoldaşlarım, yəni məsləkdaşlarım xalqın mənə olan böyük sevgisinə qısqanır və hətta xəyanətə də əl atırdılar. Bu şeir açıqlamaq istəmədiyim bir xəyanətin nəticəsində yaranmışdır.

16. Bir şeirinizdə "Bic, zinakar balaları" "kağız üstdə söz olmamış" boğduğunuzu yazırsınız. Rica edirəm bunu açıqlayasınız.

- Sovet imperializmi dövründə bu quruluşa qarşı olan nifrətimi açıqcasına yaza bilmədiyimdən o duyğuları, o fikirləri "kağız üstdə söz olmamış boğurdum" yəni yaza bilmirdim. Bununla yanaşı, sovet imperializminə nifrətimi gizlətmək, özümü maskalamaq üçün bəzən Lenin haqqında şeir yazır, məqalələrimdə Lenindən misallar gətirirdim: "Məsələn, "Ana dili" şeirimdə, Lenindən ana dilli haqqında dediyi sözləri şeirimə epiqraf gətirməsəydim, bu şeir çap oluna bilməzdi. Bu cür yazılarımı, misal gətirdiyiniz həmin şeirdə dediyim kimi, "bic, zinakar balalar" adlandırmışam.

17. ...

18. Bir şeirinizdə "Dəyişməzdir əqidəm" deyirsiniz. Əqidənizin nədən ibarət olduğunu deyə bilərsinizmi?

- "Axı, dünya fırlanır" şeirimdə dediyim "Dəyişməz əqidəmin" nədən ibarət olduğunu soruşursunuz. Dünyanı və özümü az-çox dərk edəndən bu günə qədər mənim yalnız bir əqidəm olmuşdur: Vətən, millət və onun taleyi! Mənim üçün bundan başqa əqidə yoxdur.

19. Sizin yaradıcılığınızdakı "Özündən narazı olmaq" və "Səhvləri etiraf etmək" amilini necə izah edərsiniz?

-"Özündən narazı olmaq", "Hər zaman narahat olmaq", "Səhv atılan addımları" düşünüb özünü "qınamaq", yanlışlıqları "etiraf" etmək mənim bütün yaradıcılığımdan qırmızı xətt kimi keçir. Mən hər zaman özümdən narazı olmuşam. Çünki özümə kənardan baxıb öz nöqsanlarımı, öz qüsurlarımı görməyi bacarmışam. Böyük Yunus İmrə deyir ki, "Bəndə bir bən də var bəndən içəri". Bu çox böyük fikirdir. Dünyada hamı ikidir. Mən bir şeirimdə yazıram:

İnsan göydə ay kimidir,
Görünməyən tərəfi var.

Bizim hamımızın görünməyən tərəfimiz var. Əsl insan odur ki, özünün görünməyən tərəfini görə bilsin. Görünməyən tərəfimiz əsasən qü-

surlarımızdır. Biz bu qüsurları gizlətməyə çalışır, adamlara yalnız yaxşı tərəfimizi göstəririk. Rica edirəm mənim "İkinci səs" pyesimi diqqətlə oxuyasınız. Həmin pyesdəki "İkinci səs" vicdanımızın səsidir. "Nərəyə gediyor bu dünya" pyesindəki ulu əcdad obrazı da vicdanın səsidir. Bunu bilmədən mənim pyeslərimi açıqlamaq mümkün deyil.

Mən bir şeirimdə yazıram:

Başqasının gözünü taxaydım öz gözümə,
Başqasının gözüylə baxaydım öz-özümə.
Onda ayıblarıma özüm düşmən olardım.
Onda mən, mən olardım!

Mən hər zaman özümə kənardan, başqasının gözü ilə baxmağı, öz qüsurlarımı görməyi və qüsurlarımla savaşmağı sevirəm. Və bunu oxucularıma təbliğ edirəm. Mənim pyeslərimin əsas obrazları da belədir.

20. Göründüyü kimi gördüm dünyanı,
Çox vaxt görəmmədim olduğu kimi,

misralarını açıqlaya bilərsinizmi?

- Misal gətirdiyiniz misralarda Sizin hiss etdiyiniz kimi, mən dünyaya və adamlara öz qəlbimin pəncərəsindən baxdım və elə zənn etdim ki, dünya və insanlar göründüyü kimidir. Amma belə deyilmiş. Dünya və insanlar göründüyü kimi olmur. Bu fikir Cəlaləddin Ruminin "Göründüyü kimi ola bilmirsənsə, olduğun kimi görün" kəlamı ilə səsləşir.

21. Hissim dərin, sözüm solğun,
Qəlbim geniş, sinəm dar -

misralarının arxasında duran mənanı açа biləşrsinizmi.

- Bu misralarda qəlbimdəki duyğuların ifadəsini tapa bilmədiyimdən şikayətlənirəm. Çünki ən böyük şair belə qəlbindəki duyğuları, hissləri tam dəqiqliyi ilə ifadə edə bilməz. Çünki sözlər çox zaman birrəngli

olur, hiss, həyəcan isə birrəngli sözün qalıbına sığa bilmir, həm də ona görə ki, duyğuların, hisslərin yaşı bizim yazımızdan çoxdur. Bəzi duyğular irsən dədələrimizdən keçir. Bunun üçün də deyirəm:

Məndən əvvəl doğulubdur
Sinəmdəki duyğular.

22. N.Fazilin "Şair... məchullar aləminin dərbədər səyyahıdır" fikrinə necə baxırsınız?

- Nəcib Fazilin misal gətirdiyiniz fikrinə ortaq çıxıram. Şair ömrü boyu arayır, nəyi aradığını konkret olaraq bilmir. Bilməyəbilməyə arayır. O, hər zaman məlumdan məchula, işıqdan qaranlığa körpü salır: Bəzən məchulda, qaranlıqda özünü itirir. Dolaşır, amma bu yoldan çəkilmir.

Son zamanlar yazdığım, Sizə göndərdiyim "Ədəbiyyat qəzeti"ndə (15 yanvar 1993) çap olunan "Qəmşadlıq" şeirində Nəcib Fazilin dediyi "Məchullar aləminə səyahət" məsələsinə mən də toxunmuşam:

Kədər düşüncədir, qəm düşüncədir,
Qəmin pəncəsində düşünürük biz.
Fikirlər fikrimdə qönçə-qönçədir,
Məchula bir yoldur hər düşüncəmiz.

Şair yarada-yarada özünü də yaradır. Özünü idraka doğru gedir. Özünü idrak isə Allah idrakıdır. Özünü tapan Allahını tapır. Mənim Allahı dərk etmə yolundakı düşüncələrimi açıqlamaq istəsəniz yenə də Türkiyədə çap olunmuş "Pyeslər" kitabında gedən "Fəryad" pyesimdə Nəsimi adı ilə zindana salınan iki Nəsiminin dialoqunu diqqətlə oxuyun.

Mən mənsub olduğumuz İslam dininin əsaslarını dərindən oxumamışam. Bu barədə elmi məlumatım azdır. Bunun da günahı məndə deyil. Bildiyiniz kimi, kommunist rejimində dinimiz tam yasaq edildiyindən mənim dini təhsilim olmamışdır. Namaz qılmağı da bilmirəm. (Allah

günahımızdan keçsin). Bununla belə, dinimiz irsən ruhumuzda və qanımızda yaşamışdır. Mənim islami duyğularım şeirlərimə bilgidən deyil, qanımdan, ruhumdan süzülmüşdür.

23. Qərb və rus ədəbiyyatına münasibətiniz?

- Qərb və rus ədəbiyyatını və sənətini çox sevirəm. Onu da deyim ki, yalnız mən yox, bütün Azərbaycan yazarları, rəssamları və bəstəçiləri Batı ədəbiyyatından və sənətindən çox faydalanmışlar. Bunsuz mümkün deyil. Şekspiri, Şilleri, Balzakı, V.Hüqonu, S.Sveyqi, Tolstoyu, Dostoyevskini, Çexovu, Puşkini, Lermontovu necə sevməmək olar.

Mən Bethovenin, Baxın, Motsartın, Şopenin, Vaqnerin, Çaykovskinin əsərlərini məmnuniyyətlə dinləyir və onlardan böyük zövq alıram.

Rus baleti, rus teatrosu dünyada tanınır. Biz bunlardan öyrənmiş və öyrənirik. Bununla yanaşı, öz muğamımız və böyük bəstəçimiz Üzeyir Hacıbəylinin əsərləri mənim üçün anamın laylasıdır.

24. Azərbaycanın birləşəcəyinə inanırsınızmı?

-"Gülüstan" müqaviləsilə ikiyə bölünmüş Azərbaycanın bir gün birləşəcəyinə inanıram. 1959-cu ildə yazdığım və başıma çox bəlalar açan "Gülüstan" poemasında mən bu məsələyə toxunmuşam. Bə əsər "Nağıl-həyat" kitabımda var.

25. Ziya Göyalpın "Turan" ideyasına necə?

- Ruhuna səcdə qıldığım Ziya Göyalpın "Turan" ideyası mənim də əqidəmdir. Bu ideyanın doğrulması üçün "Türk, kəndinə don" şüarını əlimizdə bayraq etməli, ilk növbədə, özümüzü idraka çalışmalıyıq.

26. Azərbaycanın indiki istiqlalına münasibətiniz?

- Azərbaycan istiqlalına qovuşmadan öncə həsrətini çəkdiyim ən böyük arzu Azərbaycanın istiqlalı idi. Bu arzuma qovuşdum. Lakin qəlbən sevinə bilmədik. Bunun səbəb ləri çoxdur, hamısını açıqlamaq mümkün deyil. Yalnız birisini deyim ki, ermənilərlə müharibə sevincimizi yaraladı,

27. Bugünkü Azərbaycan gəncliyi haqqında fikriniz?

Bugünkü Azərbaycan gəncliyində gözə çarpan ən mühüm keyfiyyət onlardakı vətənpərvərlik hissidir. Əgər vətənpərvərlik varsa başqa kiçik qüsurları onlara bağışlamaq olar.

28. İndiki bağımsızlığınızdan tam razısınızmı?

- Biz hələlik istiqlalımızla tam qovuşa bilməmişik. Hələ dövlətimizi indi yaradırıq.

29. Bugünkü Türkiyə dövlətinin Azərbaycana münasibətindən razısınızmı?

- Türkiyə dövlətinin bizim dövlətə münasibətinin səmimi olub-olmaması barədə bir söz deyə bilmərəm. Çünki diplomatiya olan yerdə səmimiyyətdən söz açmağa dəyməz. Amma Türkiyə türklərinin Azərbaycan türklərinə səmimi münasibətinə şübhəm yoxdur. Bu başqa cür ola bilməz. Bizim sizləri sevdiyimiz qədər, Sizin də bizi sevdiyinizə zərrə qədər şübhə etmirəm. Axı, biz bir atanın belindən gəlmiş doğma qardaşlarıq.

Yanvar, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



ZİYALI SÖZÜ

- Bəxtiyar müəllim, təhsilimizin indiki vəziyyətini necə qiymətləndirərdiniz?

- Narazı olmaq asandır, amma "necə olsun" sualına cavab vermək çətindir. Təhsilimizin indiki vəziyyəti qənaətbəxş deyil. Bunun bir çox səbəbləri var, mən onları sadalamaq istəmirəm, çünki hamıya məlumdur. Amma hər şeyimiz pisdir və təhsilimiz də pis vəziyyətdədir demək də düz deyil. Mən bir çox xarici ölkələrdə olmuş və imkan tapdıqca onların təhsil sistemi ilə maraqlanmışam. Azərbaycanda orta təhsil alanlar ilə xarici ölkələrdə təhsil alanları müqayisə etsək, bir çox cəhətdən bizim üstün olduğumuz görünər.

Bilirsinizmi, bizim təhsil sistemimizdə naqis cəhətlərdən olan əzbərçilik metodu var. Bu da müəllimlərin zərərli iş üsullarından biri sayılır. Həmin müəllimlər bilməlidirlər ki, əzbərçiliklə şagirdlərdə müstəqil düşüncəni öldürürlər. Şagird oxuduğu kitab haqqında müstəqil fikir yürüdə bilmir. Bu da ondan irəli gəlir ki, bir çox müəllimlərimizin özləri müstəqil düşünməyi bacarmırlar. Bu, faciədir!

Məktəblərdə müstəqil düşüncənin aşılanmasına əsas səbəb, vaxtilə, yəni sovet totalitarizmi dövründə, yalnız bircə ideologiyaya xidmət göstərməyimiz olmuşdur.Müəllimlər bir ideologiyanı marksizm ideologiyasını təbliğ etməli, bundan kənara çıxmamalı idilər. Bu isə təhsilə standartlıq, şablon və stereotip gətirdi. İndi, Allaha şükür, ölkəmizdə azad düşüncəyə, hər kəsin öz sözünü deməyə imkanı var. Bu sahədə fəallıq, əsasən, müəllimlərin üzərinə düşməlidir. Onlar uşaqlarımıza mil-

li mənliklərini dərk etdirməli, körpə balalarımıza müstəqil düşünməyi öyrətməyi bacarmalıdırlar.

- Müəllimlərin son on illərdəki intellektual səviyyəsi, şəxsi keyfiyyətləri sizi qane edirmi?

- Təəssüf ki, müəllimlərimizin əksəriyyətinin intellektual səviyyəsi çox aşağıdır. Onlar, demək olar ki, mütaliə ilə məşğul olmur, öz üzərlərində çalışmırlar. Mən bunu çıxışlarımda, yazılarımda dəfələrlə demişəm.

Sizə bir hadisəni danışmaq istəyirəm. Bir neçə ilə bundan qabaq tanınmış bir orta məktəbdə görüşdə iştirak edirdim. Ədəbiyyat müəllimi mənim yaradıcılığım haqqında məruzə elədi. Gördüm ki, müəllimin məruzəsində bir kəlmə də olsun, öz fikri yoxdur. Həmin müəllim orta məktəbin VII sinif dərsliyində mənim haqqımda yazılanları üzümə oxudu. O zaman mən bərk əsəbiləşdim və müəllim haqqında respublika qəzetlərinin birində məqalə ilə çıxış etdim. Məqalədə yazırdım ki, haqqımda məruzə edən müəllim kitablarımdan birini belə oxumamışdı. Amma mütaliəli, müstəqil düşünən, sərbəst mühakimə yürüdən müəllimlərimiz də var. Onlardan birini misal göstərmək istəyirəm. Masallı rayonunun Çaxırlı kəndində Rahid Ulusel adlı bir orta məktəb müəllimi dərs deyir. Rahid müəllimin müxtəlif qəzetlərdə tez-tez dərc edilən məqalələri məni valeh edir. Onun bu yaxınlarda mənə göndərdiyi "Doğ, ey zəkaye-Vətən" məqaləsində qaldırılan problemlər son dərəcə maraqlıdır. Məqaləni oxuyanda müəllimin qabiliyyətinə, savadına valeh oldum. Deyərdim ki, o nəinki öz işinin professoru, hətta akademiki olmağa layiqdir. Fikirləşirəm, yaxşı ki, xalqımız bu cür savadlı müəllimlərdən xali deyil. Çox təəssüf ki, belə müəllimləri barmaqla saymaq olar.

- Müəllim-şagird, müəllimtələbə münasibətini necə görmək istərdiniz?

- Mənim fikrimcə, bu münasibətlər qarşılıqlı olmalıdır. Yəni, müəllimşagird, şagirdmüəllim sevgisi əsasdır. Müəllim şagirdi ilə qarşılıqlı ünsiyyətdə olmalıdır. Onlar bir-birlərini başa düşməlidirlər. Müəllim öz səmimiyyəti ilə şagird qəlbinə nüfuz etməyi bacarmalı-

dır. Vaxtilə biz tələbə olarkən 132 saylı orta məktəbdə təcrübəməşğələ keçmişik. Burada Bilqeyis xanım Məmmədova adlı bir ədəbiyyat müəlliməsi dərs deyirdi. Mən şagirdlərin onun dərsini necə maraqla dinlədiklərinin şahidi olmuşam. Bilqeyis müəllimə səmimiyyəti, zəkası və nuraniliyi ilə şagirdlərin qəlbində öz heykəlini ucaltmışdı.

- Qeyri-dövlət təhsil müəssisələrinə münasibətiniz?

- Mənim fikrimi bilmək istəyirsinizsə, buna münasibətim çox pisdir. Təhsil bilavasitə dövlət işidir. Onu dövlət himayə etməli və qayğı göstərməlidir. Qeyridövlət müəssisələri isə pulludur və oraya kimin imkanı varsa, o daxil ola bilər. Siz özünüz fikirləşin, burada hansı istedaddan, bilikdən, savaddan söhbət gedə bilər? Bunları fikirləşəndə millətə yazığım gəlir. Təhsillə alver etmək olmaz!

- Qızların oğlanlardan ayrı təhsil almalarına necə baxırsınız?

- Buna təbii baxıram. Bizim vaxtilə qız, oğlan məktəblərimiz olub. O dövrün maarifpərvər ziyalıları, xanımları məhz həmin məktəblərin yetişdirmələri olmuşdur. Məncə, qızlar oğlanlardan ayrı təhsil alsalar, daha məqsədəuyğun olar.

- Dini-mənəvi dəyərlərimizə qayıdış bizə nə verə bilər?

- Məktəblərimizdə şəriət dərsi keçirilməlidir. Bu, bizə təmiz əxlaq, saf mənəviyyat verə bilər. Uşaqlarımız bilməlidirlər ki, hansı dinə, hansı xalqa mənsubdurlar. Dini-mənəvi dəyərlərimizə qayıdış insanlara həyatdakı əzabəziyyətləri unutmaq imkanı verər. Din gənclərin əxlaqını da düz, doğru istiqamətdə formalaşdırar, onları əyri yoldan, tüfeyli həyatdan çəkindirər, xeyirxahlığa, özünü dərk etməyə kömək edə bilər.

- Gənc nəslin tərbiyəsində ailə, məktəb və mühitin rolunu nədə görürsünüz və bunlardan hansını başlıca hesab edirsiniz?

- Bu sualda mühit sözünü əsas götürmək istəyirəm. Dünyada elə müqəddəs şeylər var ki, onlar mühitlə, dar məhdud şəraitlə əlaqələndirilə bilməz. Bunlardan ən birincisi ana dilidir, hər bir millətin övladı orta təhsilini ana dilində almalıdır. Ana dilini mükəmməl bilmədən başqa dili yaxşı qavramaq çətindir. Çünki ana dilini yaxşı bilən uşaq öyrənmək istədiyi ikinci dili ana dilinin qanunları ilə müqayisədə əyani olaraq dərk edə bilər.

Bir zamanlar Rusiyada zadəganlar öz dilini bəyənmir, övladlarını əcnəbi məktəblərə verirdilər. Böyük rus pedaqoqu K. D. Uşinski bunu böyük səhv və qəbahət hesab edərək "Ana dili" məqaləsində sübut edirdi ki, doğma dilində dil açmayan, ana dilində təhsil almayan uşaqlar mənən şikəst olur, köksüzsoysuz böyüyür, iki ruh arasında avara qalır. O yazırdı: "Xaricdən dayələr, tərbiyəçilər və hətta ev xidmətçiləri gətirirlər. Ata və ana övladı ilə doğma dildə bir kəlmə də danışmır. Bunun nəticəsi nə olar? Xalq öz qiymətli mənəvi irsindən, onun vətən üçün oğul edə biləcək hissindən həmişəlik əl çəkməli olar".

İndi bizim də vəziyyətimiz bu cürdür.

1981-ci il "Oqonyok" jurnalının ikinci sayında bir məqalə dərc edilmişdi. Məqalədə Parisdə yaşayan ermənilərin öz balalarını orada açdıqları erməni məktəblərində oxutmalarından bəhs edilirdi. Onlar istəyirlər ki, yeni yetişən nəsil öz kökü üstündə böyüsün və milli mənliyini dərk etsin. O zaman mən məqaləni oxuyanda gündəliyimə bu sözləri yazmışdım: "Paradoksa baxın! Erməni Parisdə balasını erməni məktəbində, azərbaycanlı isə Bakıda öz övladını rus məktəbində oxudur!"

Dilimiz həqiqi mənada dövlət dili elan olunandan sonra, bir sıra vəzifəli adamlar öz uşaqlarını, nəvələrini rus məktəblərindən çıxarıb, Azərbaycan məktəblərinə verdilər. Onların məqsədi başqa şey idi. Gələcəkdə övladlarına yüksək vəzifələr qapdırmaq üçün belə edirdilər. Burada heç bir milli oyanışdan, şüurdan söhbət belə gedə bilməz. Halhazırda isə vəziyyəti başqa cür təsəvvür edək, həmin "ayıqlar" təzədən öz uşaqlarını, nəvələrini Azərbaycan məktəblərindən çıxarıb, rus məktəblərinə verirlər! Bu, buqələmunluqdur, simasızlıqdır!

Ana dili namusdur. Namus isə paltar deyil ki, onu havaya və fəslə görə dəyişəsən!

- *Tələbə gənclərin fəal siyasətlə məşğul olmaları düzgündürmü?*

- Hər bir gənc siyasətbazlıqla yox, siyasətlə məşğul ola bilər.

- *Övladlarımızın tərbiyəsində əsas nəyə fikir verirsiniz? Onlara hansı dəyərlərin aşılanmasını tövsiyə edərsiniz?*

- Birinci növbədə onlarda vətən sevgisi oyanmalıdır. Gənclərimizə milli şüur aşılanmalıdır. Onlar adət-ənənələrimizə sədaqət, böyükkiçik

yeri bilmək ruhunda tərbiyə edilməlidirlər.

- Müasir dövrümüzdə varlı adamların təhsilə qayğı sahəsindəki biganəliyini nə ilə izah edərdiniz?

- Bayaq dediyim kimi, təhsilə qayğı ancaq dövlət tərəfindən olmalıdır. Elmə, sənətə himayəni sponsorların ümidinə buraxmaq olmaz. İstedadlı gənclərin də qayğısını dövlət çəkməlidir. Qaldı ki, varlı adamların təhsilə biganəliyi, bunu siz onların özündən soruşsanız daha düzgün olardı. Hər halda millətini sevən onun təhsilinə, inkişafına öz köməyini əsirgəməməlidir. Bu, ən müqəddəs xidmətlərdən biridir.

- Bəxtiyar müəllimin demək istədiyi son söz?

- Arzum budur ki, xalqımızın başına gətirilən dəhşətli faciələrə son qoyulsun. Gənclərimiz daha ağılla, səbrlə hərəkət etsinlər. Bizim buraxdığımız səhvləri gələcəkdə onlar təkrarlamasınlar, tarixin bugünkü ibrət dərslərindən nəticə çıxarsınlar.

- Maraqlı söhbət üçün çox sağ olun.

Müsahibəni apardı: Samirə Kərimova

"Azərbaycan müəllimi" qəzeti, 19 mart, 1994.
"Zaman və mən", Bakı, 1999.



QIRĞIN ƏVVƏLCƏDƏN HAZIRLANMIŞDI

Əməkdaşlarımız xalq şairi, millət vəkili Bəxtiyar Vahabzadə ilə onun öz mənzilində görüşmüş, o, 1990-cı ilin həmin faciəli günlərini belə xatırlamışdır:

- Əvvəla, onu deyim ki, 20 Yanvar hadisəsinə qədər biz nəsə xoşagəlməz bir hadisə baş verəcəyini hiss edirdik. Hadisədən 23 gün əvvəl şəhərdə bir tələtüm var idi. Xalq cəbhəsinin uşaqları şəhərin giriş və çıxış yerlərində yük və minik maşınlarını yanyana düzür, barrikadalar qururdular.

Buna görə də o vaxtkı MK-nın ideoloji işlər üzrə katibi H.Həsənov, şeyximiz A.Paşazadə, İ.Şıxlı, professor N.Rzayev və mən belə qərara gəldik ki, bu barədə Ə.Vəzirovla danışaq. Bizi narahat edən o idi ki, eşitdiyimizə görə Moskva Bakıya qoşun yeritmək istəyir.

Biz Vəzirovun kabinetində o zaman bu münasibətlə Bakıya gəlmiş Girenko və Primakovla rastlaşdıq. Gəlişimizin məqsədini bildirən kimi, Vəzirov bizi sakitləşdirməyə çalışıb dedi ki, "narahat olmağa dəyməz, Bakıya qoşun girməyəcək". Bu zaman Primakov söhbətə qarışıb Vəzirovun dediklərini təsdiqlədi. Onda mən dözməyib Primakova dedim: Əgər belədirsə, bəs siz buraya niyə gəlmisiniz? Nəhayət, bizdən nə istəyirsiniz?

Çöldə MK binasının ətrafında toplanıb "İstefa!", "İstefa!" - deyə qışqıranları pəncərədən Primakova göstərib dedim: "Millət Vəzirovdan

istefa tələb edir. Siz onu müdafiəyəmi gəlmisiniz?

Məni sakitləşdirdilər. Söhbətə Girenko da müdaxilə etdi. Və burdakı 1520 dəqiqəlik söhbət bizi təhlükənin olmayacağı qənaətinə gətirmədi. Kabinetdən çıxdığımız zaman Şeyx dedi ki, "bunlara inanmaq olmaz, gəlin, AXC-nin qərargahına gedək. Görək, onlar nə bilir".

Bu məqsədlə qərargaha gəldik. Qərargahda bizim tanımadığımız bir neçə cavanla bərabər İsa Qəmbərovla və N.Nəcəfovla rastlaşdıq. Bizi görən kimi İsa çölə çıxdı. Nəcəflə danışdıq. Ona MK-da Vəzirovla söhbətimizi və bu söhbətdən konkret bir şey anlamadığımızı dedik. Nəcəf bizi inandırdı ki, Tbilisidəki qırğından sonra Moskva Bakıda qırğın törədə bilməz.

Yanvarın 19-da gecə məlum hadisə baş verdi. Gecəni yata bilmədik. Səhər bir neçə deputat mənə zəng vurub təcili Ali Sovetin fövqəladə sessiyasını çağırmağın vacib olduğunu dedilər. Beynimə batdı. Ali Sovetə zəng vurdum və belə qərara gəldik ki, mən televiziya ilə çıxış edib deputatları sabaha sessiyaya çağırıram.

Mən MK-ya gəlib gördüm ki, binanın qarşısında minlərlə adam dayanıb dünənki qırğına etirazlarını bildirir. Mən də çıxış edib, kommunist partiyasının üzvlüyündən çıxdığımı elan etdim.

Telestudiyaya gəldim. Dedilər ki, studiyanın enerji blokunu rus əsgərləri dağıdıb. Çıxış etmək mümkün deyil.

Studiyanın həyətində rus generalı, ətrafında isə televiziyanın bir neçə işçisini, o cümlədən, şair Qabili və rejissor Nazim Abbasovu gördüm. Mən əsəbi vəziyyətdə generala yanaşıb onu dünənki qırğına, törətdiyi faciəyə görə yağlı sözlərlə təhqir edib üzünə tüpürdüm.

Sonralar, eşitdiyimə görə, o, tapançaya əl atmış, məni vurmaq istəmiş, telestudiyanın işçiləri, xüsusən, N. Abbasov ona mane olmuşdur *(N. Abbasov bu barədə televiziya ilə çıxış edərək ətraflı danışmışdır).* Mən radio ilə çıxış etməli oldum.

Evə gəlib "Azadlıq" radiosunun əməkdaşı Mirzə Xəzərə zəng vurdum və ondan xahiş etdim ki, o da sabaha çağırılmış sessiyanı elan etsin. Həqiqətən, o, bir gündə bir neçə dəfə həmin elanı oxudu.

Beləliklə, ertəsi gün Ali Sovetin sessiyası başladı. Sessiyanı mənimlə İ.Şıxlı apardıq. Ayın 21-də səhər saat 10-dan başlanan sessiya ayın 22-də səhər saat 8-ə qədər davam etdi. Səhər elə ordan birbaşa meydana şəhidlərin dəfninə yollandıq. Həmin sessiyada dövlət adamlarından H.Həsənovdan başqa heç kəs iştirak etmədi. Amma sessiyanın qərarı ürəyimizcə oldu. Qərarda rus ordusunun Bakıya basqınının qeyri-qanuni olduğunu və qoşunların təcili olaraq Bakıdan çıxarılmasını tələb edirdik. Əgər bu tələblər yerinə yetməzsə, sessiyanın öz işini davam etdirməsi nəzərdə tutulurdu.

Təəssüf ki, hökumət sessiyanın bu qərarına əhəmiyyət vermədi. O zamankı baş prokuror isə bu sessiyanın qanunsuz çağırıldığını və qərarının da əhəmiyyətsiz olduğunu bildirdi. Beləliklə, həqiqətin üzə çıxmasına imkan vermədilər.

Üstündən iki il keçəndən sonra, yəni 1992-ci ildə yanvar qırğınının törəmə səbəblərini araşdırmaq üçün bir komissiya yaratdılar. Bu komissiyada ləyaqətli və namuslu deputatlar da var idi. Lakin nədənsə, bu komissiya da həqiqəti üzə çıxara bilmədi. Mən belə güman edirəm ki, yeni yaradılan komissiya öz işini 21 yanvar sessiyasının qərarı üzərində qurmalı idi. Bu olmadı.

Bu il yanvarın 5-də prezident H.Əliyev 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə bir fərman vermişdir. Bu fərmanın 2-ci bəndində deyilir ki, 20 Yanvar faciəsinə siyasi qiymət verilməlidir. Mən bununla tamamilə şərikəm. Əgər bu gün biz, bu qanlı terrora siyasi qiymət verməsək, gələcək nəsillərin qarşısında günahkar olarıq.

Bir neçə gün bundan əvvəl fərmanla əlaqədar prezidentin iştirakı ilə keçirilən yığıncaqda milli təhlükəsizlik naziri bizə çox maraqlı bir məlumat verdi. Onun məlumatından aydın oldu ki, 20 Yanvar hadisəsindən əvvəl bu barədə respublika rəhbərliyi ilə Moskva arasında rəsmi yazışmalar olmuş və sonradan bu yazışmalar qovluğu kimlərinsə tərəfindən itirilmişdir.

Əslində, hər şey aydındır. Amma bütün bunlar rəsmən sənədləşdirilməli, günahkarlar üzə çıxarılmalı, millət öz düşmənlərini

tanımalıdır.

Mənim boynuma düşən borc isə, 20 Yanvar faciəsinin dəhşətlərini qələmə almaq və gələcək nəsillərə çatdırmaq idi. Mən bunu pisyaxşı elədim, "Şənbə gecəsinə yol" adlı iri həcmli məqaləmi və "Şəhidlər" poemasını yazdım. Həmin poemadan bir parçanı "Vətəndaş" qəzetinin oxucularına təqdim edirəm:

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Zalım öyünməsin zülmləriylə
Min bir böhtanıyla, min bir şəriylə
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb biləyimizdə
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb kölәliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər
Axı, el qeyrəti çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə
Millət millət olur xeyri, şəriylə..
Torpağın bağrına cəsədləriylə
Azadlıq tumunu əkdi şəhidlər.

Söhbəti yazdı: Müşfiq Novruzlu

"Vətəndaş" qəzeti, 20 yanvar, 1994.
"Zaman və mən", Bakı, 1999.



SULAR DURULDU, GÖRDÜK DİBİNDƏKİ DAŞLARI...

- Bəxtiyar müəllim, Tanrı özgəsinin ayağına yazılmalı olan əyərəskiyi bizim alnımıza həkk eləyibdir. Və hər dəfə də bu başayaq yazı üzərində bir balaca "redaktə" aparmaq istəyimiz saysız-hesabsız əngəllərlə üzləşir. Qeyri millətlər əbədi mənafeləri naminə çalışıb vuruşduqları halda, biz də öz ədəbi faciəmizin ağrılıəzablı anlarını yaşayırıq. Hazıda bizə yenidən milli varlığımızı dərk edib özümüzə gün ağlamaq üçün tarixi şans verilib. Anaq bu girəvədən də lazımınca faydalana bilmirik. Vaxt isə gözləmir...

- Tariximizə nəzər yetirsək, görərik ki, tez-tez belə sınaqlara məruz qalmışıq. Təəssüf ki, bu imtahanların əksəriyyətindən uğurla çıxıb nəyə qadir olduğumuzu sübut edə, özümüzü təsdiqləyib dünya ictimaiyyətinə tanıda bilməmişik. Nə üçün belə alınıb? Məqsədimizə, istəyimizə nəyə görə sona qədər çata bilməmişik? İtirəitirə gəlmişik. Bir millət kimi varlığımızı qoruyub saxlamaq, milli dövlətimizi qurub yaşaya bilmək üçün hansı keyfiyyətlərimiz çatışmır? Bütün bunlar təzə suallar deyil. Bizdən əvvəlki nəsillər də bu problemlərlə qarşılaşıblar. Bu suallar onları da dərindən düşündürüb. İşıqlı adamlarımız müxtəlif yollar arayıblar, hətta milləti ağ günə çıxarmaq ehtirası, vətən sevgisi o qədər güclü olub ki, fikirlər, baxışlar haçalanıb. Azərbaycan bədiifəlsəfi fikrinin nəhəng simalarından olan Cəlil Məmmədquluzadənin və Əli bəy Hüseynzadənin tutduqları yol, apardıqları mübarizə üsulları arasındakı fərq dediklərimizə əyani dəlil ola bilər. Əli bəy Hüseynzadə millətin

nicat yolunu türk xalqlarının qardaşlığı, birliyi ideyasında görürdü. C. Məmmədquluzadə hər şeydən əvvəl içimizdəki xıltı təmizləməyə, yaxşını pisdən, düzü əyridən ayırd etməyə çalışırdı; bir sözlə, əvvəl "evin içi, sonra bayırı" prinsipinə söykənirdi. Müqayisədə məqsədim bu iki şəxsiyyətdən hansı birinəsə üstünlük vermək deyil. Hər ikisi bizim üçün doğmadır, əzizdir. Hər ikisi böyük məktəb yaradıbdır. Onu demək istəyirəm ki, dərdimiz elə köhnə dərddir. Ən acınacaqlısı da budur ki, o dövrdən xeyli vaxt keçib. Baxırsan ki, heç dəyişib eləməmişik: yenə də köhnə düşüncə tərzi, köhnə axtarışlar.

Bu yaxınlarda Ömər Faiqin bir yazısı əlimə keçdi. Məqalə birinci cahan savaşı zamanı qələmə alınıb. Oxudum, məni bərk tutdu. Elə bil bu saat istiisti yazılıb. Müəllif vətəndaşlıq yanğısıyla yazır ki, bu müharibədə erməni və gürcü milləti öz varlığını bir daha təsdiq edə bildi, amma bizim millətimiz bu imtahan qarşısında aciz qaldı, bu gedişlə də "türklük qanı xarab olmuş, müsəlmanlıq ruhu, imanı sönüb bitmişdir".

Bu gün tarix bir daha təkrarlanır, bir millət kimi ölümqalım məsələmiz həll olunur. Etiraf etməliyik ki, belə çətinliyə düşməyimizdə daha çox özümüz günahkarıq. Əbədi mənafelərini güdən millətlərdən fərqli olaraq, əbədi faciəyə düçar olmağımızın əsas səbəbi də budadır: heç vaxt fikirləşməmişik ki, necə edək, necə davranaq ki, yenidən büdrəməyək. Hər şey əldən çıxır, vaxt keçir, başlayırıq ki, necə edək, çıxış yolunu harda tapaq, kimə sığınaq? Ona görə də başqaları yaranmış şəraitdən asanlıqla bəhrələndiyi halda, biz hər şeyi təzədən, sıfırdan başlamaq məcburiyyətində qalırıq. Gerçək dünyayla, reallıqla ayaqlaşa bilmirik. Hər kəsə öz gözümüzlə, öz qəlbimizlə, öz səmimiyyətimizlə baxırıq. Bunun da səbəbi aydındır: Axı, biz şərqliyik; təbiətən romantik xalqıq. Əlbəttə, romantik olmağımız qəbahət deyil. Ancaq realist ola bilməməyimiz faciəmizdir. Gerçəklik, yeni əlaqələrin, yeni münasibətlərin qurulmasını tələb edir, yeri düşəndə ermənini bəyənmirik: yaltaqdır, hiyləgərdir, satqındır deyirik. Fakt budur ki, o, bizi üstələyir, torpaqlarımızın işğalı hesabına ərazisini genişləndirir, millətinin yaşaması üçün imkan yaradır. Erməni bütün bunları satqın-

lığı da, yaltaqlığıda millətin mənafeyi naminə edir. Hər sifətə düşür, bu yolla da məqsədlərinin çoxuna çatır. Biz axtarışlarımızla ifrat idealizmə meyllənir, ideallarımza daha çox ideal üsullarla qovuşmağı üstün tuturuq.

Hazırkı strategiyamız düzgün seçilib və əksəriyyət tərəfindən yekdilliklə bəyənilir. Tarixi təcrübə də göstərir ki, dövlətin strateji xətti yalnız diplomatik fəallıqla müşayiət olunanda uğur qazana bilər. Biz isə hələlik diplomat olmağı bacarmırıq, çünki bu bizim xalqın təbiətinə yaddır. Bıçaq sümüyə dirənib, ancaq biz məsələni "kişi kimi" həll etmək inadından əl çəkmirik. Düzdür, milli özəlliklərimizdən sayılan səmimilik, haqqa tapınmaq, mərdlik, əliaçıqlıq gözəl keyfiyyətlərdir. Ancaq türkəsayalığımız indiyə kimi bizə nə verib? Qazancımız nə olub? Başımıza gələnlərdən ibrət dərsi götürüb vaxtın tələblərinə uyğun addım atmalı, bu "bic əyyamının" fəndlərindən baş çıxarmalıyıq. Özgə çarə yoxdur:

De, bizə nə verdi türkəsayalıq?
Əvvəl nə idiksə, yenə oyuq biz,
Haqqa bel bağlamaq yetməzmi artıq?
Bunu birdəfəlik qanmalıyıq biz.

Haqsıza döndərdi bu gün haqq bizi,
Zora nə qanun var, nə haqq, nə yasaq.
Vaxt öz qanımızda boğacaq bizi,
Bu "bic əyyamına" uyğunlaşmasaq.

- Bütün dövrlərdə, bütün səviyyələrdə ipəsapa yatmayan çılğınlıq nümayiş etdirdiniz. Ən qorxulu vaxtlarda belə sözün düzünü deməkdən çəkinməyibsiniz. Yeri gəldikdə zövqsüz, duyğusuz adamların səviyyəsinə enməyə məcbur olubsunuz. Əslində isə Siz bütün xırdaçılıqlardan çox-çox uzaq, poetik təfəkkür mədəniyyəti ilə nəfəs alan bir adamsınız, şairsiniz. Bəzən Sizə elə gəlmir ki, özünüzü həddindən artıq bir israfçılıqla xərcləyirsiniz?

- Həm xalq şairi, həm də xalq deputatı kimi bu xalqın oğluyam. Həmişə xalqımın azadlığı naminə mübarizə aparmışam. Hələ imperiyanın meydan suladığı dövrdə azadlıq ideyasıyla suvarılan fikirlərimi, düşüncələrimi gizlətmirdim. O vaxt səsküyə səbəb olan "Ağlar güləyən", "Yollaroğullar", "Gülüstan", "Torpaqdan pay olmaz" kimi əsərlərim mövcud quruluşa qarşı etiraz ruhu üstündə köklənmişdi.Bəli, hərdən mən fikirləşirəm ki, kaş imkan olaydı, oturub şeirlərimi yazmaqla kifayətlənəydim.

Bu, mənim ürəyimcə olardı, rahatlanardım. Ancaq neyləyəsən, elə bir zəmanədə yaşayırıq ki, yaxanı kənara çəkib sırf yaradıcılıqla məşğul olmağa şərait, psixoloji ovqat yoxdur. Həmişə belə olub; Xalqın hamıdan əli üzüləndə, üzünü şairinə tutur, ona inanır. Mən də çalışmışam ki, bu inamı bacardığım dərəcədə doğrulda bilim. Ona xələl gətirməyim.

Bəzən Ali Sovetin sessiyalarında elə alınıb ki, adi bir həqiqəti yerinə çatdırmaq üçün dəridənqabıqdan çıxmışam. Xalq elçisi adını daşımağa mənəvi haqqı olmayan "deputatlarla" üzüzə gəlmişəm. Haqqıədaləti inadkarlıqla müdafiə etdiyimə görə də dəfələrlə təhqir olunmuşam. Amma məni heç nə qorxutmayıb, geri çəkilməmişəm. Bu mənada ilk günlərdən hadisələrin iştirakçısına çevrildiyim üçün özümə heyfim gəlmir. Burada qeyri-adi heç nə yoxdur. Əsl vətəndaş ömrü vətənin ağrısına, dərdinə xərclənməlidir. Az-çox nə edə bilmişəmsə, nəyə nail olmuşamsa, sadəcə olaraq vətəndaşlıq borcumu yerinə yetirmişəm. İctimai-siyasi proseslərin axarına atılmaqda heç bir siyasi məqsəd güdməmişəm. Heç kimdən də umacağım olmayıb.

- Siyasi fəaliyyətiniz, ayrıayrı məqamlarda tutduğunuz mövqe heç də birmənalı qarşılanmır, hadisələrə, adamlara münasibətdə səhv etdiyiniz, yanıldığınız olubmu?

- Səhvsiz insan yoxdur. Mənim də müəyyən səhvlərim olub. Amma bu səhvlərin bir çoxu dövrün mürəkkəbliyindən yaranan xaosla birbaşa əlaqəlidir. Bu günün özündə də məni vaxtilə Yaqub Məmmədovun, İsa Qəmbərin Ali Sovetin sədri seçilməsinə xeyirdua verdiyimə görə qınayanlar var. Çoxu məsələnin mahiyyətindən xəbərsizdir. Bir balaca açıqlıq gətirmək istəyirəm. Bir gün eşitdik ki, Ali Sovetin sədri El-

mira Qafarova istefaya gedir və onun yerinə BDU-nun rektoru Ayaz Mütəllibovun adamı Mirabbas Qasımovu gətirmək istəyirlər. Deputatlardan İsmayıl Şıxlı, Tofiq Bağırov və bir də mən yığışıb məsləhətləşdik. Qərara gəldik ki, sabahkı iclasda buna imkan verməyək. Səhər iclas başlayarkən məlum oldu ki, vəziyyət başqadır, Ayaz Mütəllibov başa düşüb ki, Mirabbas Qasımovun namizədliyi deputatlar tərəfindən yaxşı qarşılanmayacaq və istənilən nəticə əldə olunmayacaq. Ona görə də Yaqub Məmmədovun namizədliyi irəli sürüldü. Yenidən hərtərəfli götürqoy etdik. Yaqub Məmmədov daha real namizəd idi. Ona görə də onu müdafiə etdim. İsa Qəmbərə və xalq cəbhəsinin digər liderlərinə münasibətə gəldikdə deyim ki, bu adamları mən həmişə Əbülfəz Elçibəyin ətrafında görmüşəm. Mən həmişə Ə. Elçibəyə hörmət etmiş və onlara inanmışam. Ancaq hakimiyyət əllərinə keçən kimi onların bəziləri hər şeyi alt-üst elədilər. Çoxunun paxırı açıldı. "Axı, dünya fırlanır" şeirimdə yazdığım kimi: "Sular duruldu, gördük dibindəki daşları".

Məlum oldu ki, onlara təkcə vəzifə lazımmış. Rus tanklarına baş əyməyən bəzi bəylər, iqtidara çatandan sonra pula və ucuz şöhrətə qul oldular. Çünki onlar bu yüksək vəzifəyə yavaş-yavaş deyil, birdən nail olmuşdular. Ona görə də vəzifənin verdiyi böyük imkanları həzm edə bilmədilər. Vəzifə zirvəsində başları gicəlləndi. Onların yaşı qədər milli azadlıq mübarizəsində stajı olan ağsaqqalları nəinki tanımaq istəmədilər, hətta onların haqqını da inkar etdilər.

Yadıma bir hadisə düşür. Fransaya səfər zamanı Heydər Əliyev bizi təyyarədə qəbul etdi. Elə orada bugünkü durum, dünya siyasətindəki yerimiz, ermənilərin fitnəkarlığı, erməni lobbisinin xaricdə hansı gücə malik olması barədə ətraflı söhbət etdi. Onda o dönədönə vurğuladı ki, Vətən üçün qışqırmaq yox, vətən üçün iş görmək lazımdır.

- Maraqlıdır, Fransada yaşayan həmyerlilərimiz bu ümumi dərdimizi necə bölüşürlər?

- Fransadakı azərbaycanlı icması haqqında söhbət açmazdan əvvəl yazıçı Elçin Əfəndiyevlə İsveçə və Danimarkaya səfərimizdən bir neçə kəlmə danışmaq istəyirəm. Səfərdən məqsəd orada yaşayan

azərbaycanlıları bir ideya ətrafında birləşdirmək idi. Bu iki ölkədə 40 mindən çox azərbaycanlı yaşayır. Əksəriyyəti Güney Azərbaycandan gələn həmyerlilərimiz özlərini "Əhli İran" kimi təqdim edirdilər. Müşahidə etdiyim bir faktı da qeyd edim. Türkiyə türklərinə qarşı onlarda soyuq bir münasibət var. Ayrı-ayrılıqda söhbət edərkən hiss edirsən ki, milli ruh, milli hissiyyat ölüb getməyib. Ancaq bir-birlərilə əlaqələri zəifdir. Öz aralarında dil tapa bilmirlər. Bu şəraitdə biz onları bir qurum ətrafında birləşdirə bilmədik. Təəssüf ki, bu halı Fransada azərbaycanlı icmasında da gördük. Məni daha çox kövrəldən bir hadisə oldu. Azərbaycanlı bir qız nağıl edirdi ki, Üzeyir Hacıbəylinin qardaşı Ceyhun bəyin oğlu Temurçin üç ay bundan əvvəl rəhmətə getdi. Onu dəfn etməyə vur-tut beş-altı azərbaycanlı toplaşmışdı. Amma bir qız həmin gün səhərə kimi yatmayıb, Azərbaycanın milli bayrağını tikib.

Tabut götürüləndə üstünü xaçla bəzəyiblərmiş. O qız bayrağı tabutun üstünə sərib ki, xaç görünməsin. Hər halda bu, sevindirici hadisədir. Ümumiyyətlə, bizim xaricdə yaşayan azərbaycanlılar çox passivdirlər. Bu gün erməni hərbi birləşmələrinin tərkibində bizə qarşı Suriyadan, Fransadan, İrandan gəlmiş ermənilər də vuruşur. Amma biz?!

Deyirik ki, Fransada erməni lobbisi çox güclüdür. Boş yerdən heç nə yaranır. Hələ 1980ci ildən "Oqonyok" jurnalında oxumuşdum ki, Çiçinyan adlı bir erməni Fransada erməni məktəbi açmışdır. İndi Fransada 400 mindən çox erməni var. Baş nazir və bir neçə məsul vəzifəni ermənilər tutur. Bir neçə erməni kilsəsi fəaliyyət göstərir. Həmin kilsələrdə, məktəblərdə erməni uşaqlarına erməni dili, erməni tarixi öyrədilir. Onlara milli varlıqlarını dərk edib göz bəbəyi kimi qorumaq, lazım gələrsə millət yolunda ölməyi bacarmaq dərsi keçilir. Bu, yalnız Fransada deyil, ermənilərin səpələndiyi bütün xarici ölkələrdə belədir. Ancaq fransızların çoxu heç Azərbaycanın hansı coğrafi ərazidə olduğunu da bilmir.

- Həlledici tarixi məqamlarda tarixi şəxsiyyətlərin rolu böyükdür. Bu gün Azərbaycan müqəddəratının həll edildiyi tarixi günlərinin təzadlarla dolu ərəfəsini yaşayır. Respublikamızda otuzdan çox siyasi partiya və ictimai-siyasi təşkilat fəa liyyət göstərir. Xalqın adından

danışanların sayı sürətlə artıb çoxalır. Və ən qəribəsi də budur ki, bu liderlər birbirlərinə qısqanclıqla yanaşır, tarixi təşəbbüsü daşıya bilməyəcəklərini yaxşı başa düşdükləri halda belə onu etibarlı əllərdən dartıb qoparmağa çalışırlar.

Bu əndazəsizlikdir, anormal haldır. Ancaq onu unutmamalıyıq ki, biz keçid dövründə yaşayırıq. Ortaya çıxan bu anormal təzahürləri də təbii qəbul etməliyik.

Müsahibəni yazdı: Alqış Həsənoğlu

"Yeni Azərbaycan" qəzeti, 2 fevral, 1994.
"Zaman və mən", Bakı, 1999.

HAQQ İŞİMİZƏ GÖZ YUMURLAR

- Bəxtiyar müəllim, son vaxtlar Rusiyanın Qarabağ müharibəsini dayandırmaq haqqında təklif və artıq imzalanmış Bişkek protokolu haqqında müxtəlif fikirlər irəli sürülür. Bu barədə də Sizin fikrinizi bilmək istəyirik.

- Mən bu barədəki fikrimi 10-15 gün əvvəl televiziyadakı çıxışımda dedim.

Mənim fikrim belədir ki, Qarabağ məsələsi beynəlxalq qüvvələrin birgə səyi ilə aradan qaldırmalıdır. Münaqişə zonasına ATƏM çərçivəsində beynəlxalq müşahidəçi və qüvvələr gətirilməlidir. Təkcə rus qoşunlarının Azərbaycana gəlməsini düzgün hesab etmirəm.

- Bişkek protokolunda Dağlıq Qarabağın tərəf kimi iştirakına Siz bir ziyalı kimi necə baxırsınız?

- Mən, ümumiyyətlə, Bişkek protokolunun mahiyyətini bütün incəlikləri ilə tam dərk edə bilməmişəm. Çünki mən siyasət adamı deyiləm, fikir adamıyam. Elə Milli Məclisin üzvlüyündən könüllü olaraq çıxmağımın da səbəbi bu idi. Mənə elə gəlir ki, bu protokol iqtidar tərəfindən atılan məcburi taktiki addımdır.

Bununla bərabər onu deyə bilərəm ki, Qarabağın erməni icması danışıqlarda iştirak edərsə, mütləq Azərbaycan icması da onunla eyni hüquqda iştirak etməlidir.

Mən Amerikanın Azərbaycandakı səfiri Riçard Kozlariçə məktubla müraciət etmişəm, faciələrə göz yumduqları üçün ürəyimdən keçən ağ-

rıları səfirə çatdırmaq istəmişəm. R. Kozlariç mətbuat konfransında dedi ki, Azərbaycan təqsirkarı barmaqla göstərməyimizi istəyir. Mən həmin məktubumda bildirirəm ki, bəli, təqsirkar barmaqla göstərilməlidir. Amerika məgər bilmir ki, Azərbaycanın başına gətirilən bəlalarda Moskvanın barmağı var?

- *Bəxtiyar müəllim, Amerikanın, Qərbin dəstəyini qazanmaq istəməyənlər, daxili və xarici siyasətini Rusiya-İran müstəvisində quranlar hakimiyyətdə təmsil olunanlar deyilmi?*

- Mən bu fikirlə razı deyiləm ki, iqtidar Qərbin və Amerikanın dəstəyini qazanmaq istəmir. Əksinə, mayın 21-də H. Əliyev açıqaydın bəyan etdi ki, "ErmənistanAzərbaycan münaqişəsi bölgəsinə Rusiya qoşunları yeridilməyəcək. Bu məsələ ATƏM çərçivəsində həll ediləcək". (Bax: "Azadlıq" qəzeti, 24 may, 1994). Bu bir. İkincisi, bəs iqtidarın Fransa, İngiltərə və Belçika kimi Qərb ölkələrinə səfərləri məgər onların dəstəyini qazanmaq üçün deyildimi? İndi biz nə edək ki, Qərb ölkələri və ABŞ bizim haqq işimizə göz yumurlar. ABŞ prezidenti bizim prezidentə yazdığı cavab məktubunda, torpaqlarımızın işğalı məsələsindən yan keçib, Ermənistanın bizim tərəfimizdən blokadaya alınmasına isə etirazını bildirir.

Amma o fikrinizlə razıyam ki, Azərbaycan məsələsində İranla Rusiyanın siyasəti üstüstə düşür. Bu necə məsələdir ki, Ermənistan İran sərhədinə qoşun yeridir, İran dövləti buna etirazını bildirmir? Burda xoruzun quyruğu görünür.

- *Bəxtiyar müəllim, respublikamızın bu ağır şəraitində iqtidarla müxalifət qüvvələrinin bir istiqamətə yönəlməsi mümkündürmü?*

- Dünyanın bütün sivilizasiyalı ölkələrində bu, elə belə də olur. Qarabağ hadisələri başlayandan bu günə qədər hər çıxışımda, hər yazımda mən bu iki qüvvəni yumruq kimi birləşməyə çağırmışam. Məni nə müxalifət eşidib, nə də dörd dəfə dəyişən iqtidar. Hətta bəstəkar Cavanşir Quliyevlə "Haqqı yox" adlı bir mahnı da yazdıq:

Sinəsini yarmalıyıq zülmətin
Bu məqsədə getdiyimiz yol çətin.

Hər gün neçə şəhid verən millətin
Birbirilə ədavətə haqqı yox.

İndi onlarla partiya yaranandan sonra gördüm ki, bu partiyaların məqsədi vətənin istiqbalı deyil, iqtidara çatmaq arzusudur. Mən belə düşünürəm ki, iqtidara yetişmək məqsəd deyil, böyük fikirləri həyata keçirmək üçün yalnız vasitə olmalıdır. Mənim ən böyük fikrim və əqidəm Vətənimi müstəqil görməkdir. Buna görə də bu əqidə, bu fikir bütün partiyaların fövqündə durur. İqtidarla müxalifət arasında gedən çəkiş mələrə mən indi bu səviyyədən baxıram.

- Siz M.Rəsulzadənin 110 illiyini təşkil edən komisiyanın üzvü olubsunuz. Yubiley ərəfəsində Rəsulzadəyə qarşı müxtəlif söhbətlər gedirdi. Bu, rəsmi dövlət qəzeti "Azərbaycan"da da öz əksini tapdı. Sizcə, Məhəmməd Əmin şəxsiyyətinə kölgə salmaq nə ilə bağlı idi?

- Mən "Azərbaycan" qəzetindəki həmin yazıya əqidə qardaşım professor Ş.Hüseynov və C.Həsənovla birgə "Aydınlıq" qəzetində cavab vermişəm. E.Əfəndiyevin yubiley məruzəsini çap edən qəzet, elə həmin sayının digər səhifəsində onun əleyhinə yönəldilmiş yazı dərc etmişdi. Bu barədə iqtidar nümayəndələrinə də etirazımı bildirmişdim. Rəsulzadə böyük şəxsiyyətdir, ilk müstəqil demokratik respublikamızın banisidir. Hələ 1977ci ildə Türkiyəyə gedən zaman orada M.Kəngərlini tapdım. O vaxtlar zirzəmidə yerləşən Azərbaycan kültür dərnəyində oldum, xahiş etdim ki, Rəsulzadənin XI Qızıl Ordu Bakıya girəndə parlamentin üstündən götürərək belinə dolayıb Lahıca apardığı, Polşanı, Almaniyanı dolaşıb, Türkiyəyə gətirdiyi üçrəngli bayrağı mənə göstərsinlər. O zaman diz üstə çöküb həmin bayrağı öpdüm (Bəxtiyar müəllim bunları söylədiyi zaman gözləri doldu, qonşu otağa keçdi.) Mən həmişə demişəm, yenə də deyirəm, istiqlalımızın banisinə heç bir ləkə yapışmaz.

- Ə.Elçibəylə birgə mübarizə apardığınızı, dost olduğunuzu bilirik. Onun şəxsiyyətinə qarşı deyilən ləyaqətsiz ifadələr qəlbinizə toxunmur ki?

- Əbülfəz Elçibəy xalqını, millətini sevən, dünya nemətlərində gözü

olmayan təmiz bir adamdır.

İqtidarda olanda onun xarakterindəki yumşaqlıqdan doğan müəyyən səhvləri olmuşdur. Biz yalnız bu barədə danışa bilərik. Amma onu təhqir etmək, ləyaqətini alçaltmaq olmaz. Mən, ümumiyyətlə, hər cür zorakılığın, təhqirin əleyhinəyəm. İndi də qəzetlərdə parlamentin sədri Rəsul Quliyevin ünvanına "vətən xaini" demək hüquqi dövlət yaratmaq istəyən bir məmləkətin vətəndaşlarına yaraşarmı?

- *Müsahibəyə görə sağ olun.*

Müsahibəni apardı: Akif

"Müxalifət" qəzeti, 28 may, 1994.
"Zaman və mən", Bakı, 1999.



“HƏR GECƏ KƏLMEYİ-ŞƏHADƏTİMİ DEYİRƏM”

“Şəhriyar” qəzetinin əməkdaşı Rasim Nəbioğlu bu günlərdə xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşmüş və qəzetimiz üçün müsahibə almışdır. Aşağıda həmin müsahibəni dərc edirik.

Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşmək üçün təyin olunan vaxtda özümü ona çatdırmağa tələsirəm. Suallar əsasən dinimiz, mənəviyyatımız və ədəbiyyatımız barədədir. Tələsirəm və eyni zamanda şairin ilk cəhətdən yadıma düşən misraların pıçıldayıram:

Həyat, sən nə şirinsən,
Səndən kim doydu getdi?
Gedənlər bu dünyada
Qəlbini qoydu getdi...

...Dəfn edin siz məni
Zabul segahın mayəsinə
Deyirəm, bəlkə, məni
Bir gün oyandırdı muğam.

...Ömürqəlbin, zəkanın
Min eşqi, min əməli,
Ömür - ömürdən sonra
Yaşamağın təməli.

Bütün bunlar elə dinifəlsəfi poeziyanın, irfani ədəbiyyatın nümunələri deyilmi? İslami nöqteyinəzərdən ruhun ölməzliyinə, axirət dünyasının mövcudluğuna, məhşər və qiyamətin labüdlüyünə, Həzrət İsrafilin bəlkə də "Zabul" segah üstə şur çalması ilə əsl imtahan başlanmasına, Qurani Kərimin ecazkar qiraətindən yaranmış bir musiqinin təlqin gücünə inam ("Haqqa düşmən olanı, haqqa tapındırdı muğam"), Tanrının insana bəxş etdiyi acılışirinli həyatın mənası, Allah nurundan od alıb alışan ömrün dəyəri ("Yaşamaq yanmaqdır, yanasan gərək") barədə düşüncələr, İlahidən millətinə ata olunmuş azadlıq hüquqları naminə yaşayan daxili tələtümlər, qəlb çırpıntıları ("ürək sinəmizdən asıldığından, həmişə narahat, həmişə giryan") bax, bütün bunlar B.Vahabzadə yaradıcılığının əsas mövzusu və problematikasına aid edilə bilər. Şairin əsərlərindəki məzmun dərinliyi, ictimai kəsərlilik, xəlqilik, ümumbəşərilik məhz Allah vergisi olduğuna görədir ki, onun sənətkar amalı din və iman baxımından təhtəlşüur şəkildə öz ifadəsini tapa bilir.

- Salaməleyküm!

- Əleykümsalam! Buyurun, keçin əyləşin.

Yer göstərir. Sıxılıram. Fəqət onun mehriban, sadə, qonaqpərvər münasibəti gərginliyi aradan qaldırır, özümü sərbəst hiss edirəm.

- Bəxtiyar müəllim, din sizin şəxsi həyatınızda hansı mövqedədir. Allahtaalaya inam sizin üçün nə deməkdir?

- Mən dindar bir ailədə dünyaya göz açmışam. Ağlım kəsəndən evimizdə "Bismillah", "Allahü Əkbər" sözlərini eşitmişəm. Allah ölənlərinizə rəhmət eləsin, atam, anam savadsız olsalar da, həmişə namaz qılar, oruc tutardılar. Atam hər gün yatanda dua edərdi. Soruşardım ki, kiminləsən, ay ata? Rəhmətlik deyərdi ki, öz-özümlə iclas edirəm, Allahıma hesabat verirəm. Bir müsəlman kimi çox rəhmdil, insaflı kişi idi. Deyərdi ki, "insaf dinin yarısıdır", "insanın ürəyinə toxundun və ya quş yuvasını dağıtdın fərqi yoxdur, eyni şeydir". Mən belə tərbiyə almışam, odur ki, hər gecə yatağa girəndə kəlmeyişəhadətimi deyirəm, gün ərzində gördüyüm işlərin haqqhesabını çəkirəm, özümü sorğusuala tuturam, hər bir insanın prokuroru elə onun öz içində olmalıdır.

Həyatımda, yaradıcılığım da həmişə özünü təhlil və özünütənqid ilə müşayiət olunub:

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

- Siz özünütəhlildən keçib özünüdərkə doğru gedirsiniz. Özünüdərk də həqiqətin, Allahın dərkinə aparan yoldur. Bu mənada bir çox şeirləriniz, "İkinci səs", "Fəryad" pyeslәriniz səciyyəvidir.

İslamın əzəməti onun məhz idrakı: elmi, fəlsəfəsi əsasındadır. Peyğəmbər salavatüllahın sözüdür ki, "Elm Çində olsa da, dalınca get", "Alimin mürəkkəbi, şəhidin qanından da müqəddəsdir." Məişət çərçivəsində qapanıb qalan bəsit şüur ilə dünyanın gərdişini, həyatın mənasını, Allah-təalanın qüdrətini anlamaq olmaz, insan dünyaya nə üçün gəlir, hara gedir, nə istəyir, mənşəyimiz nədir, son dönüşümüz hardadır bu kimi suallara cavab axtararkən elmə, idraka, fəlsəfəyə arxalanmadan keçinmək olmaz. Düzdür, deyə bilərsən ki, Qurani Kərimdə əvvəlimiz torpaqdan Allahın yaratdığı Adəm və axırımız uca Tanrıya dönüş açıqaydın göstərilir. Yaxşı, əvvəlaxır olan məlumdur, bəs bu əvvəlaxırın konkret məzmunu, bəşəri mənası, tarixi tutumu nədir, necədir? Bütün bunları insan Allahın köməkliyi, elmin gücü ilə özü araşdırıb dərk etməli, həyat yolunu seçməli, gələcəyinə çıraq tutmalıdır. Birinci növbədə əslimizi, kökümüzü bilməliyik. Mənim aləmim də ikinci səs də məhz içimizdəki vicdanın, həqiqətin,

Allahın səsidir ki, ona qulaq asmalıyıq, yoxsa nə keçmişimizi başa düşəcək, nə bu günümüzü layiqincə yaşayacayıq, nə də gələcəyə boylana biləcəyik. Uzun müddət heç millətimizin adını əməllibaşlı deyə bilməmişik. Gah midiyalı, gah albaniyalı olmuşuq... Əsl adımız olan Türkdən başqa. İndiindi təzədən türklüyümüzü dilə gətiririk. Axı, qardaş, biz azəri türkləriyik, dinimiz İslamdır...

Doğrusu, Bəxtiyar müəllimin səmimi, ehtiraslı, bir az da əsəbi, da-

nışığını kəsib sual verməyə ehtiyac qalmırdı.

Bununla belə bəzən özü məni söhbətə qoşur və canlı mükalimə yaradırdı. Ən təəccüblüsü mənim üçün o idi ki, çox vaxt bu evdə ilk dəfə qonaq olduğumu, adlısanlı bir sənətkarla, ictimai xadimlə üzbə-surət əyləşdiyimi unudur, özümü əziz bir insanla, bəlkə də yaxın bir sirdaş, doğma bir qardaşla ünsiyyətdə duyurdum.

Aramızdakı 28 illik yaş fərqi də bu mənada unudulmuşdu... Bu yaxınlığın, doğmalığın səbəblərini arayanda xəyalım lap keçmişlərə altmışıncı illərin əvvəllərinə getdi... İlk dəfə onun adını rəhmətlik Solmazın böyük bacımın dilindən eşitmişdim. Özü də şeir yazan və sonralar universitetdə Bəxtiyar müəllimin tələbəsi olan filoloq bacımın əlindən almışdım onun kitabını. Solmaz saatlarla şair haqqında danışsaydı yorulmazdı... Siyəzəndə keçirilən görüş, Xarici Dillər İnstitutunda yaradıcılıq gecəsi, müxtəlif tədbirlərdə çıxışları, televiziyada şeir oxuması, sonralar Ali Sovetdə ağsaqqal sözü, mərdanə nitqi, haqqı nahaqqa verməyən üsyankar səsi yadıma düşür.

"Gülüstan" poemasından "Muğam"a qədər, "ŞəbiHicran"dan "Bir salama dəymədi"yə qədər hər bir əsərini ələl gəzdirib oxuduğumuz həmin sənətkarın belə bir doğmalıq mühiti, qardaşlıq ünsiyyəti yaratması təbii deyilmi?

"Şəhidlər" kimi əsəri məhz bütün xalqın əzizi, doğması, qardaşı olmağa hünəri və qüdrəti çatan sənətkar yaza bilər.

- Dinə, tarixə dair ədəbiyyatı mütaliə etməyə necə vaxt tapa bilirsinizmi? (O, zəngin kitabxanasından bir qucaq kitabı gətirib mizin üstünə qoyur.)

- Yayda oxuduğum kitablardır. İslamın mahiyyətini, Peyğəmbərin (s) həyatını, keçmişi bilmək hər birimizin borcudur. İslam bütün təriqətlərin məzhəb və partiyaların fövqündə durur. Mən vahid Allaha, QuraniKərimə, Peyğəmbərə (s), onun şəriətinə inanıram və islamı da məhz belə oxuyub öyrənirəm.

Kitablara baxıram: İmam Qəzali, "Ehyayülulumiddin" dini elmlərin dirçəldilməsi, İnstanbul çapı, Əli Himmət Bərqi və Osman Kəskioğlu, "Həzrət Mühəmməd və həyatı", Rəfiq Özbək "Türkün altun kitabı",

Adilə Ayda xanım "Etrusklar" və s.

- Hal-hazırda Bədiüz-zaman Səid Nursinin "Məktubat"ını oxuyuram. Yeri gəlmişkən, bizdə hələlik çox da tanınmayan Səid Nursi (1876-1960) böyük üləma və Quranın təfsirçisi olub. Onun dini əsərlər külliyyatı "Risaleyinur" adı ilə İslam aləmində geniş yayılıb. Şairin bu cür müəlliflərə müraciət etməsi göstərir ki, o, dini ədəbiyyatla ciddi məşğuldur.

İstanbulda idim. 1977-ci ilin Ramazan ayında. Sübh tezdən azan səsinə oyandım. Ürəyim doldu, ağladım. Elə ağlaya-ağlaya da "Allahü-Əkbər" şeirini yazdım. Son şeirlərimdən "Peyğəmbərimiz", "Amin, İlahi, amin" sırf dini...

- *...Və milli mövzudadır.*

- Doğrudur, milli və dini anlayışlar mənim üçün ayrılmaz vəhdətdir. Bütöv torpağı, azad vətəni, müstəqil dövləti olan bir millətin, xalqın, dini, mənəviyyatı, mədəniyyəti də ölməzdir. İstedadlı bəstəkar Əkbər Tahir bir musiqi yazıb "İlahi" şeirinə, qulaq as!

- *Məmnuniyyətlə.*

Bəxtiyar müəllim maqnitofonu işə salır. İnsan ruhunu pərvazlandıran, xəyalını intəhasız ənginliklərə aparan bir İlahi nəğmənin sədaları eşdilir:

Ulu Tanrım, adına
Açılıb əllərimiz,
Sevərək könlümzü
Sənə verdik, sənə biz.

Sənə hey şükr eyləsin
Açılan dillərimiz.
Bizə rəhm et, ərisin.
Acı müşküllərimiz.
Amin, ilahi, Amin.

Həqiqətən şeirin mətninə layiq musiqi bəstələnib. Söz ilə təranə

İlahi vəhdətdədir bu nəğmədə.

"İlahi"nin cazibəsindən qurtarmaq mümkün deyil.

Şairlə xudahafizləşirəm. Dalğın halda pilləkənləri düşürəm və gecikmiş olsa da, ürəyimdə təzə bir sual baş qaldırır:

- Görəsən, biz hamımız bir yerdə və bir səslə "İlahi" nəğməsini oxuya bilərikmi?!

"Şəhriyar" qəzeti, 17 noyabr 1994.
"Zaman və mən", Bakı, 1999.



AYDIN SABAHIN
ÜMİDİ İLƏ...

Bəxtiyar müəllimlə görüşüb müsahibə almaq üçün Şəkidəki evinə zəng etdim. Telefonla səsimi tanıdı və məmnuniyyətlə razılıq verdi.

- Bəxtiyar müəllim, Siz Şəkidə istirahət edirsiniz, yoxsa, yaradıcılıqla məşğulsunuz?

- Mən buraya hər il istirahətə yox, yaradıcılıqla məşğul olmağa gəlirəm. 3 ay burada gördüyüm işi Bakıda 9 ayda görə bilmirəm. Vaxtımın çoxunu mütaliəyə və yazmağa sərf edirəm. Qohum-qardaş, el-oba hamısı burdadır.

Onlarla birlikdə olanda istirahət edirəm.

- Bəxtiyar müəllim, maraqlıdır, hansı kitabları mütaliə edirsiniz?

- Hər millətin varlığının iki əsası var: birincisi, onun milli tarixi, mənşəyi və qaynağı, ikincisi, mənsub olduğu din. Bu iki cəhət birləşəndə MİLLƏT yaranır. Millətin kökü və mənsubiyyəti, bir də onun ruhani dünyası.

Buna görə də millətimi yaxşı tanımaq üçün onun tarixini, soykökünü, bir də millətin mənsub olduğu dini bilməliyik. Bir insan olaraq bunları bilmirəmsə, mənim insani keyfiyyətim, mahiyyətim, ən başlıcası vətəndaşlığım yoxdur. O zaman mən kimə xidmət edəcəyimi də bilmərəm.

Türkiyədən gətirdiyim tariximizə və dinimizin mahiyyətinə dair kitablar oxuyuram. Və oxuduqca məni narahat edən sullara cavab axtarıram:

Mənim köküm kimdir, hansı millətə mənsubam, dədə-babalarım hansı yollardan keçib gəliblər? İslamı qəbul edənə qədər mənim millətimin inancı, inamı nə olub? Nəyə səcdə edib, nəyə tapınıb?

Hansı millətlərlə üzləşib, hansından təsirlənib?

Hansı millətlərə təsir göstərib? Hansı millətlərlə qaynayıb-qarışıb?

Millətimin dostu kimdir, düşməni kimdir?

Məlumdur ki, sovet diktaturası dövründə biz əsl tariximizi bilməmişik. Daha doğrusu, öz əsl adımızdan başqa bizə bir çox adlar veriblər. Bizi müxtəlif millətlərin quyruğuna calayıblar. Beləliklə, millətə Türk olduğunu unutdurublar.

Əlbəttə, bunların heç birisi ilə barışmamışam. Bir şəxsiyyət olaraq, mən Türk olduğumu uşaqlıqdan bilirəm. Lakin bunun elmi əsaslarını son illər Türkiyədən gətirdiyim böyük yazıçı və alim Nihal Atsızın "Bozqurdların ölməsi və Bozqurdların dirilməsi", Mustafa Necati Səbətçioğlunun "Türk dastanları", "Sonsuzluğa uyuyan daşlar", Adilə Aydanın "Etrusklar", Rəfiq Özbəkin "Türkün altun kitabı", Əli Himmət Bərqi və Osman Kəskioğlunun "Həzrəti Mühəmməd və həyatı", İbrahim Qəfəsoğlunun "Türk bozqır kültürü", Bahəddin Ögəlin "Böyük Hun imperatorluğu" eləcə də İmam Qəzailinin, Nursinin, Öztunanın dini və tarixi əsərlərini oxuduqdan sonra bildim.

Onu da qeyd edim ki, sadaladığım bu kitablarla yanaşı OrxanYenisey yazılarına dair bir çox kitabları oxudum. Həmçinin namaz və orucun İslamda yeri, mövqeyi və zərurətini araşdırmağa çalışdım. İslam dini haqqında Qərb və Avropa alimlərinin fikirlərini müxtəlif mənbələrdən öyrəndim. Bu sahədə rus alimi Lev Qumilyovun "Əski türklər" kitabı mənə çox yardımçı oldu. Bir sözlə, millətimi, onun tarixini öyrənir, bununla da özümü xoşbəxt sanıram.

- Hansı qəzetləri daha çox oxuyursunuz? Ümumiyyətlə, müasir

mətbuatımızdan razısınızmı?

- Sovet dövründə bizdə jurnalistika "ölmüşdü". Çünki jurnalistikamız şablon idi. Ona görə də öz səsi, öz üslubu ilə fərqlənən jurnalistikamız yox dərəcəsində idi. İndi isə fikir azadlığından sonra bizim gənc jurnalistikamız yaranmışdır. Məsələn "Meydan" qəzetində Bəxtiyar Tuncayın, "Aydınlıq" qəzetində Mahal İsmayıloğlunun "Azadlıq" qəzetində X.Bahadurun məqalələrini sevəsevə oxuyuram. Təəssüf ki, hamısının adını xatırlamıram. Başqa qəzetlərdə də ağıllı yazılara rast gəlirəm.

- Bu yaxınlarda Türkiyədə iki kitabınız çıxdı. "Nil yayın evi" kassetlərinizi yaydı. Maraqlıdır, Türkiyədən məktub alırsınızmı?

- Əlbəttə, alıram. İstanbuldan, İzmirdən, Ərzurumdan, Qarsdan, İqdırdan adi oxuculardan onlarca məktub alıram.

- Bəxtiyar müəllim, ailəniz haqqında nə deyə bilərsiniz?

- Övladlarımdan heç biri mənim sənətimi seçmədi.

- Nəvələriniz necə?

- Altı nəvəm var: dördü qız, ikisi oğlandır. Oğlanlardan birinə atamın adını Mahmudağa, o birisinə isə öz adımı vermişəm.

- Ustad, istərdinizmi onlardan hansısa Sizin yolunuzu davam etdirsin?

- Yox, istəmirəm. Öz yolları ilə getsinlər, amma bilmək olmaz, bəlkə, elə günlərin bir günü...

Oxucular bir şeyi unutmamalıdırlar. Biz iki dövlətdə yaşayan bir millət olsaq da, köklərimiz bir olsa da, 300 ilə yaxın bir müddətdir ki, başqabaşqa rejimlərdə yaşamış, başqa-başqa təsirlər altında olmuşuq. Buna görə də eyni olan bu millətlərin arasında müəyyən zövq və fikir fərqləri yaranmışdır. Azərbaycanla Türkiyənin birbirinə qaynayıb-qarışması məni sevindirir. Çoxdankı arzumu sizə də açıqlamaq

istəyirəm. Özümü təkcə Azərbaycanın deyil, ümumtürk dünyasının şairi kimi görmək istəyirəm.

Azərbaycanla Türkiyə birbirlərinə bütün sahələrdə səmimi olmalı, hiss etdikləri qüsurları birbirlərinə bağışlamağı bacarmalıdırlar. Dövlətlərimiz Şərqdə və Avropada dil və mənəviyyat birliyi ilə tanınmalıdır.

- Bəxtiyar müəllim, müsahibə üçün çox sağ olun.

R. Hacıislamsoy

"Aydın sabah" qəzeti, 1 avqust, 1994.
"Zaman və mən", Bakı, 1999.



BU DA BİR ALIN YAZISIYDI

- Mən şeirlərimdən birində demişəm ki, "Axı, dünya fırlanır". Və biz daim irəliyə doğru fırlanan dünyada geriyə yalnız xatirələrin işığında dönə bilərik, hər gün də nəyisə tapır, nəyisə də xatirələrimizdə qeyb edirik. Son dövrlərdə ictimai həyatımızda baş verən hadisələr xatirələrin iziylə məni bir daha geri dönməyə vadar etdi. Onda mənim 10-11 yaşım ancaq olardı və tez-tez dəyirmançı işləyən əmimin yanına qaçardım. Əmim savadsız idi, lakin o dövr üçün çox qiymətli sayılan bir radiosu, bir də uzun müştüyü vardı. Əmim həmin radio vasitəsilə tez-tez Ankaranı dinləyər, dinlədikcə də müştüyün içi neçə dəfə dolub, boşalardı. Mən ondan soruşardım: Nə üçün tez-tez Ankaraya qulaq asırsan? O, cavabında: "Orası bizim ana vətənimizdir. Biz türkük" deyərdi. Anam da tez-tez belə söhbətlərlə mənim qəlbimdə türklük eşqi, məhəbbəti, odu qalamışdı. Anadan olduğum doğma Şəkidə tərbiyə aldığım ailədə türklük hissi çox güclü idi. Ona görə də sümükdən iliyə qədər işləyən sovet təbliğatına qarşı məndə güclü bir qürur, əks arqument vardı. Bəli, mən türkəm və mənim millətimin Türkiyə kimi bir müstəqil dövləti var. Bu baxımdan anadan qeyri-qanuni doğulan əski rejimə qarşı qəlbimdə etiraz vardı. Heç yadımdan çıxmaz, orta məktəbdə oxuduğum zaman dedilər ki, sizin soy adlarınız dəyişməli, (o günə kimi bizim soyadlarımızın sonunda oğlu və ya qızı, ya da Əlibəyli, Məmmədli və s. işlənirdi) "ov", "yev"lə bitməlidir. O vaxt mənim soyadım "zadə" ilə bitirdi. Ha-

mınınkını dəyişdirdilər, ancaq mən buna razı olmadım. Düzdür, "zadə" də bizimki deyil, ancaq hər halda "ov"dan yaxşı idi. Tənəffüsdə İstanbulda təhsil almış və bizə ədəbiyyatdan dərs deyən Cəfər İbrahim adlı müəllimimiz mənə yaxınlaşdı, dedi ki, oğlum, belə etmə, dədəni işə salarsan. Lakin o da məni inadımdan döndərə bilmədi. Ali məktəbdə oxuyarkən mövcud quruluşa qarşı olan etirazlarım qəlbimdən barmaqlarıma axmağa başladı. Yavaş-yavaş bu sahədə təkmilləşməyə, fikrimi daha dəqiq ifadə etməyə başladım. Ən yaralı yerim ana dilimizlə bağlıydı. Siz bilirsiniz ki, onda heç bir dövlət idarəsində ana dilimiz işləmir, bütün yazışmalar rus dilində aparılırdı, toplantılarda yalnız rusca danışılırdı və rus dilini yaxşı bilmək vəzifəpərəst manqurtlar üçün bir alilik əlamətinə çevrilmişdi. Məhz bunun təsiri altında o dövrdə yazmışam:

Ey öz doğma dilinə danışmağı ar bilən
Fasonlu ədabazlar,
Ruhunuzu oxşamaz qoşmalar, telli sazlar.
Bunlar, qoy, mənim olsun,
Ancaq Vətən çörəyi sizlərə qənim olsun.

- Bəxtiyar müəllim, bəs şeiri dərc etdirmək sizin üçün çətin olmadımı?

- İş burasındadır ki, mən adı çəkilən şeiri bir müddət dərc etdirə bilmədim. 51 və ya 52ci il idi. Mərhum şairimiz S. Vurğunun oğlu Yusifin Moskvada ad günü keçirilirdi. Ziyafət zamanı Yusif atasına dedi ki, Bəxtiyar bir şeir yazıb, ancaq dərc etdirə bilmir. Şeiri oxudum və S. Vurğunun çox xoşuna gəldi. O, şeirə "Ana ürəyi" sözünü də əlavə etdi, dedi ki, Bakıya qayıdanda yanıma gələrsən. Belə də etdim. S. Vurğun kitabların arasından V. İ. Leninin bir əsərini götürdü. Onun yazdığı "Biz öz dilimizi və vətənimizi sevirik" sözünü şeirimin üstünə epiqraf kimi yazdı və dərc elətdirdi. Ulu ustadın bu təcrübəsi sonralar çox karıma gəldi və neçəneçə şeirimin həyata vəsiqə almasında böyük rol oynadı.

Dillə bağlı bir hadisəni də nəzərinizə çatdırım.

50-ci illərin sonunda Mərakeşə getmişdim. Gördüm ki, ana

dillərində deyil, fransızca danışırlar. Bu, mənə çox pis təsir etdi və yaralarımın közünü qopartdı... Geri qayıtdıqdan sonra "Latın dili" adlı bir şeir yazdım. Orada göstərdim ki, latın xalqı yoxdur, amma dili yaşayır. Yer üzündə elə xalqlar var ki, özləri yaşayırlar, dillərini öldürüblər. Bununla əlaqədar məni bir neçə dəfə MKya təbliğat şöbəsinə çağırdılar, sorğu-suala tutdular. Cavabında dedim ki, şeir Mərakeşə həsr edilib. Dedilər ki, bizim vəziyyətə bənzəyir. Mən də: "Bunu siz dediniz, mən yox..." söylədim. Bu metodla 40 il universitetdə tələbələrə dərs dedim, mühazirələr oxudum, onlara anlatdım ki, biz hansı millətin övladlarıyıq və rejim bizi hansı uçuruma sürükləyir.

- Ustad, bu müddət ərzində digər cəzalara, təzyiqlərə məruz qaldınızmı?

- Bəli, 1962-ci ildə məni millətçilik ideyalarının təbliğatçısı kimi günahlandıraraq universitetdən xaric etdilər.

İki il işsiz qaldım, çox ağır vəziyyətdə yaşadım, ancaq bütün bunlar iradəmi qıra bilmədi. 1964cü ildə yenidən əvvəlki iş yerimə bərpa oluna bildim.

- Ustad, dünən də, bu gün də bizim ən yaralı yerimiz...

- Anladım, oğul, (burada o, dərindən köks ötürdü) bu millətin ən yaralı yeri onun dili, mənşəyi ilə bağlı bəzi qüvvələr tərəfindən ortaya atılan söhbətlərdir.

Yeri gəlmişkən, onu da deyim ki, İranda dərc olunan "Keyhan" qəzetinin son sayında mənimlə iranlı müxbirin müsahibəsi çap olunub. Onun sözlərindən belə çıxır ki, guya mən Azərbaycan türkcəsini Türkiyə türkcəsindən xeyli fərqli bilir və Azərbaycan türkcəsinin müstəqil dil olduğunu iddia edirəm. Bu, qətiyyən belə deyil. Mən heç vaxt Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsini ayrı dil hesab etməmişəm. Əlbəttə, müəyyən ləhcə fərqləri mövcuddur. Lakin bu fikir o demək deyil ki, dillərimiz ayrıdır. Bütün bunlar müəllifin uydurması, öz arzularını həqiqət kimi qələmə verməsinin nəticəsidir. Adı çəkilən yazıda müəllif mənim Türkiyənin indiki dövlət quruculuğundakı dinin dövlətdən ayrılmasının əleyhinə çıxdığım və eyni zamanda, İranın dinidövlət rejimini bəyəndiyimi yazıb. Lakin bu da ağ yalandır. Mən bir daha təkrar

edirəm: mən Türkiyənin dünyəvi dövlət quruculuğu sisteminin qızğın tərəfdarıyam və dinin dövlətdə hakim rolunu qəbul etmirəm.

Həmin yazıda mənim sözlərimi təhrif edən digər fikirlər də var və növbəti yazımda buna müfəssəl cavab verəcəyəm. Müstəmləkə zənciri boğazımıza dolanan gündən bizi türklükdən, kökümüzdən qoparmaq üçün gah tatar, gah fars, gah midiyalı, gah alban, nə bilim daha nə adla adlandırdılar. 1918-ci ildə istiqlaliyyətimizi əldə etdik və öndər M. Ə. Rəsulzadə tərəfindən tarixi həqiqət bərpa olundu, türklük adımız özümüzə qaytarıldı, özgə möhürü üstümüzdən götürüldü. Lakin 30-cu illərin sonlarında Stalin, Mikoyan rejimi yenidən türklüyümüzə, adımıza, mənşəyimizə əl atdı, bizi kökümüzdən qoparmaq üçün türk adına yasaq qoyuldu. Millətə qondarma "azərbaycanlı" möhürü vurdular. Bilirsinizmi, heyvan əyilib çeşmədən su içər, ancaq bilməz ki, onun mənbəyi hardadır. O millət ki, çeşmədən su içir, onun qaynağını bilmir, o millət millət deyil. Tarix boyu bu millətə heç bir qüvvə türklüyünü unutdura bilməyib, bilməyəcəkdə... Sizin, bir yazıçınız var: Nihal Adsız! O, "Göytürklərin ölümü və dirilməsi" barədə yazdığı əsərdə tarixin o dönəmində mənşəyimizi olduğu kimi əks etdirə bilir. Allah ona rəhmət eləsin. Bəli, biz türklər Orta Asiyadan çıxmışıq, Şərqə, Qərbə, Avropaya, Amerikaya, bir sözlə, dünyanın hər yerinə yayılmışıq. Ancaq bu, nə dünən olub, nə də o biri gün. Bu, min illər bundan əvvəlin söhbətidir. Və onda nə indiki millətlər vardı, nə də onların dünənki qondarma konsepsiyaları. Bizlər azəri türkləri, qaqauzlar, türkmənlər bugünkü Türkiyə türkləri dünyaya hökm edən macarhun tayfalarının varisləri oğuzların nəvənəticələri, kötücələriyik. Hunların digər varisləri isə qıpçaq, qazax, tatar, cığatay, qırğız, qaraçay, qarakalpaqlar və s. oldular. Bax, budur bizim əslimiz, kökümüz. Bu adi şeyi bilməmək cəhalətdir.

- Ustad, milli mənşəyə laqeydliyin səbəbini təkcə savad sızlıqlamı izah etmək olar?

- Xeyr, faciənin səbəbi daha dərinlərdədir. Adicə bir misal çəkim. Son bir neçə ildə itirdiklərimizin hamısının bir səbəbi var. O da millətin arasına it arısı kimi daraşan vəzifəpərəstlik, kürsüsevərlik, hakimiyyət ehtiraslarıdır. Xarici qüvvələr bundan məharətlə istifadə ediblər və

dünən istiqlaliyyət uğrunda canından keçməyə hazır olanlar sabah dönüb vəzifə hərislərinə, anasına güllə atan manqurtlara çevrilirlər. Və bu hakimiyyət davasında siyasi qüvvələrin heç biri xalqa güvənmir, köməyi xaricdən axtarırlar. Nəticədə, dədə-baba torpaqlarımız, vəzifə uğrunda gedən mübarizələrdə vətən dəllalları tərəfindən hərraca qoyulur. Buna yazıq xalq neyləsin? Bu günə qədər itirdiklərimizin hamısının da səbəbini məhz yuxarıda söylədiklərimdə axtarmaq lazımdır. Yoxsa, sadə xalq döyüşən xalqdır, qeyrətkeş, təəssübkeş, vətən üçün canından keçməyi bacaran xalqdır. Ancaq xalqı döyüşməyə, öz gücünü göstərməyə qoymurlar. Bax, bütün faciələrimizin kökü də bundadır.

(Söhbətin burasında şair susdu və bir müddət danışa bilmədi...) Gecdən-gec bununla əlaqədar bir şeir yazmışam.

Biri-birimizə uyuşan deyil,
Biri-birimizə tərs düşən olduq.
Biz Vətən uğrunda döyüşən deyil,
İqtidar uğrunda döyüşən olduq.

Söhbəti yazdı: Əziz Mustafa

P.S. *O gün türkün sağ ikən ululaşan şairi ilə çox problemlərdən danışdıq və yəqin ki, görüş yaddaşlarımıza əbədi həkk olunacaq. Görünür, bu görüş özü də alın yazısıdır...*

“Zaman” qəzeti, 22 noyabr, 1995.
“Zaman və mən”, Bakı, 1999.

LAP YAXŞI ELƏYİB, DOĞRUDAN, BİZƏ BİRİ "BARAN" DEDİ, BİRİ "XƏR" DEDİ

Fars və ingilis dillərində İranın sərhədlərindən kənarda da yayılan "Keyhanihəvayi" qəzetinin 1 noyabr 1995-ci il tarixli (1154) sayında xalq şairi Bəxtiyar Vahabzadə ilə bir müsahibə çap olunub. "Gülüstan" kimi bir poemanın müəllifinin buradakı fikirləri olduqca təəccüblüdür. Yaxın tanışlarımdan birinin tərcüməsi ilə müsahibə qoltuğumda Bəxtiyar müəllimin qapısını döydüm. O bildirdi ki, həqiqətən, bu ilin yayında Şəkidə istirahətdə olarkən çoxdan tanış olduğu güneyli şair Əsgər Fərdi belə bir müsahibə götürüb. Ancaq burada fikirlərimin bəzilərini olduğu kimi versə də, əksəriyyətini təhrif edib. Onun sözlərinə görə, müxbir, söhbətlərindəki bütün "Cənubi Azərbaycan" kəlmələrini "İran" sözüylə əvəzləyib.

Buyurun, həmin müsahibə və Bəxtiyar müəllimin mənə dedikləri kiçik ixtisarlarla.

"...Azərbaycanın tanınmış şairi Bəxtiyar Vahabzadə deyib ki, mən də imam Xomeyninin S.Rüşdinin ölümünə verdiyi fitvanın tərəfdarlarındanam. Bundan əvvəl Türkiyənin siyasətini və Qərbin fikirlərini himayə edən B. Vahabzadə bir saatlıq müsahibəsində Amerikanı zülm və ədalətsizliyin bayraqdarı adlandıraraq bildirib ki, mən Amerikanın Azərbaycandakı səfirinə yazdığım məktubda qeyd etmişdim ki, əgər Amerika Qarabağ savaşına qarışmağı başqa dövlətin da-

xili işinə müdaxilə hesab edirsə, bəs niyə neft müharibəsində İraqla Küveytə müdaxilə etdi?

B. Vahabzadə: Keçən il ABŞın Azərbaycandakı səfiri R. Kozlariç müxbirlərlə görüşündə demişdi ki, Siz istəyirsiniz ki, biz amerikalılar Qarabağ münaqişəsində günahkarı barmağımızla göstərək. O zaman mən "Aydınlıq" qəzetində səfirə ünvanlanmış məktubumda yazmışdım ki, Siz Yaxın Şərqdəki münaqişədə də günahkarı məhz barmağınızla göstərmədiyinizə görə o, bu qədər uzandı. Eyni bir şeyi indi də bizim başımıza gətirmək istəyirsiniz. Əgər ərəblər İsrail torpaqlarını işğal etsəydilər, siz onları dərhal barmağınızla göstərib yerində oturdardınız. Necə ki, Küveytdə mənafeyiniz olduğu üçün İraqın müqəssir olduğunu nəinki barmağınızla göstərdiniz, göydən və yerdən tökdüyünüz bombalarla onu darmadağın etdiniz. Bu və S. Rüşdiyə aid olan fikirlərim təhrif olunmayıb.

Müsahibənin başqa bir yerində şair B. Vahabzadə guya istilaçı rus dövlətinin bu bölgənin müsəlman xalqına qarşı siyasətinə belə bir münasibət bildirib.

"Mənim "Gülüstan" poemamda Azərbaycanın İrandan ayrıldığı tarixə işarə olunduğundan onun nəşri illərlə qadağan olundu. Buna görə də hətta məni vəzifədən də götürdülər, bir müddət öz evimdə nəzarət altında saxladılar."

Müsahibənin başqa bir yerində: "Bu, inkaredilməz həqiqətdir ki, dünənə kimi İranın tərkibində olmuşuq və gərək ədəbimədəni əlaqələrlə bu maneəni aradan götürək. Bizi İrandan necə ayıra bilərlər?"

B. Vahabzadə: "Müxbirin sözündən belə çıxır ki, mən şimali Azərbaycanın İrandan ayrılmasına təəssüflənir və onun yenidən İranla birləşməsini arzulayıram. Bu iddianın təpədən dırnağa qədər fikrimə zidd olduğunu sübut etmək üçün elə "Gülüstan" poemasına müraciət etmək kifayətdir. Burada Azərbaycanı ikiyə parçalayan Rusiya və İran ikisi də eyni dərəcədə ittiham olunur. Soruşuram: Mən nə zaman "Gülüstan" poemasının müəllifliyindən əl çəkmişəm ki, müxbir əqidəmə zidd olan bu fikri mənim ayağıma yazır?

"Bizi İrandan necə ayıra bilərlər?" cümləsində ifadə olunan fikri

başa düşə bilmədim. Biz İrandan çoxdan ayrılmışıq və İrana birləşmək haqqında heç düşünmürük. Burada da "Cənubi Azərbaycan" sözü "İran" sözü ilə əvəz edilib. Müxbirin fikrini belə oxumaq lazımdır: "Bizi Cənubi Azərbaycandan necə ayıra bilərlər?"

Müxbirin mənim adıma yazdığı başqa fikir belədir: Əgər mənə desələr ki, Azərbaycan Respublikasının şairisən, bu, məni təhqirdən başqa heç nə deyil. Mən necə Sabiri öz şairim bilib, Şəhriyarı özümünkü bilməyim?

Bəziləri deyir İran bizim qardaşımız, Türkiyə əmioğlumuzdur. Amma mən deyirəm: "İran biz özümüzük".

B. Vahabzadə: "Xeyr, qardaşım, bu, mənə təhqir deyil, fəxrdir. Amma orasıyla razıyam ki, Sabir də mənimdir, Şəhriyar da, Möcüz də, Seyid Əzim də. Amma Sədi, Hafiz mənimki deyil." İkinci fikri isə mən belə demişəm: "Bəziləri deyir Cənubi azərbaycanlılar bizim qardaşlarımız, Türkiyə türkləri əmioğlanlarımızdır. Mən isə deyirəm: "Cənubi Azərbaycan bizim özümüz, Türkiyə türkləri isə bizim doğmaca qardaşlarımızdır". Müxbir isə Cənubi Azərbaycanı İranla əvəz edərək, başqa mətləbə işarə vurur.

"O *(B. Vahabzadən)*" öz müsahibəsinin ardında azəri və İstanbul dillərinin fərqləri haqqında deyib ki, bunların arasında böyük fərqlər və uyuşmazlıqlar var. Gərək, lüzumsuz İstanbul sözlərinin azəri dilinə hücumunun qarşısı alınsın."

B. Vahabzadə: "Burda fikrim tamam təhrif olunub, mən bu şəkildə demişəm:" Son illər Türkiyədə "dil qurumu" adlanan bir təşkilatın türk dilini təmizləmək şüarı altında apardığı dil inqilabının əleyhinəyəm. Onlar dilimizdə çoxdan vətəndaşlıq hüququ qazanmış bəzi ərəbfars sözlərinin əvəzinə süni sözlər yaradırlar ki, bu da həm dili saxtalaşdırır, həm də Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi arasında fərqlər yaradır. Mən bunu lüzumsuz hesab edirəm. Amma mən heç zaman Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsinin ayrı dil olduğunu deməmişəm. Çünki ləhcə fərqi dil fərqi deyil.

P.S. ***Bəxtiyar müəllim bildirdi ki, müsahibənin maqnitofon***

lentinə yazılmış variantı onda yoxdur və cənab Ə. Fərdidən tələb edir ki, onu olduğu kimi radio və ya televiziya vasitəsi ilə efirə versin.

Öyrəndiyimizə görə, Ə.Fərdi özü tez-tez Bakıya gəlib-gedir. Ondan da məsələyə münasibətini öyrənməyə çalışacağıq.

"PressFakt" qəzeti, 2430 noyabr, 1995.
"Zaman və mən", Bakı, 1999.



İSTİQLAL NAMİNƏ

("Zamanın dolaylarında")

- Bəxtiyar müəllim, ötən il Türkiyədən bir şad xəbər eşitdim. Siz N.Xəzri ilə qardaş ölkədə yüksək ədəbi mükafata layiq görülmüşdünüz...

- Layiq görüldüyümüz yüksək mükafatın adı "Elisam"dır. Yəni elm və sənət mükafatı. Təxminən 7-8 il bundan əvvəl təsis olunub. Bu mükafat 2-3 ildən bir verilir. Mükafata ilk dəfə Ç. Aytmatov layiq görülüb. Bundan sonra "Elisam" mükafatını N. Xəzri ilə mən aldım. Mükafat Türkiyədə böyük ixtiralara, elmi kəşflərə və yüksək sənət əsərlərinə görə verilir.

- Bəxtiyar müəllim, biz sizi şair, həm də alim kimi tanıyırıq. İki fəxri adı daşımaq ədəbi və elmi fəaliyyətinizə necə təsir göstərir?

- Mən özümü alim hesab etmirəm. Doğrudur, elmi əsərlər yazmışam. Lakin bu, hələ alim olmaq demək deyil. Amma onu deyə bilərəm ki, pis müəllim olmamışam. Daha doğrusu, müəllimliyimdən də fikirlərimin gənc nəslə çatması üçün bir tribuna kimi istifadə etmişəm. Bunu mənim tələblərim çox yaxşı bilərlər. Bu mənada mənim müəllimliyim heç vaxt şairliyimə mane olmayıb. Əksinə, tələbə həyatından, gəncliyinfikir və duyğularını əks etdirən bir neçə əsər yazmışam...

- Bu gün bütün şair və yazıçılar çap olunmaq çətinliklərindən

şikayətlənirlər. Bu çətinliyi Siz də hiss edirsinizmi?

- Əlbəttə, Yazıçılar Birliyinin vaxtilə müntəzəm çıxan dörd orqanı var idi. "Azərbaycan", "Ulduz", "Literaturnıy Azerbaycan" dərgiləri və "Ədəbiyyat qəzeti". İndi bunların bəziləri maddi çətinlik üzündən çıxmır. O ki, qaldı kitaba, kitab çap elətdirmək isə daha çətindir. Çünki bunun üçün mütləq varlı adamlar sponsorluq etməlidirlər. Bu isə qələm sahibini alçaldır. Şəxsiyyəti olan yazıçı və şair kitabının nəşri üçün imkan sahibinin qapısını döyməkdə və yardım istəməkdən çəkinir. Belə olduqda böyük ədəbiyyatın yaranması imkansızlaşır. Bütün bunları müqayisə edəndən sonra mən bu qənaətə gəlmişəm ki, yeni ədəbi nəslin pərvazlanması məsələsi müşkülləşir.

Biz köhnə nəsil bu vaxta qədər bacardığımızı elədik. İndi biz gələcək ədəbi nəsil barəsində düşünməliyik. Axı, onlar bizim varislərimizdir. Mən belə başa düşürəm ki, elm, sənət və ədəbiyyat dövlətin inhisarında olmamalı, amma dövlətin qayğısını görməlidir. Belə olmasa, böyük elmi kəşflərin və sənət əsərlərinin yaranması mümkün olmayacaq.

- Şair və siyasət. Bu barədə sizin fikrinizi bilmək istərdik.

- Bu çox mühüm məsələdir. Ümumiyyətlə, şairin siyasətlə məşğul olması mənə görə düz deyil. Birinci, ona görə ki, şair ağıldan çox hisslə düşünür. Buna görə şair tez aldana bilər. İkinci, ona görə ki, siyasətlə siyasəti bilən adamlar məşğul olsa daha yaxşıdır. Təşbehi özümdən götürürəm. Mən millət vəkili kimi mütləq parlamentdə müzakirə olunan məsələlər barədə öz fikrimi bildirməli idim. Və bildirirdim. Amma üstündən bir qədər keçmiş taleyi həll olunan adam haqqında səhv etdiyimi anlayır və bunun əzabını çəkirdim. Buna görə də mən öz ərizəmlə Milli Məclisin üzvlüyündən çıxdım. Son iki ildə, demək olar ki, siyasətlə məşğul olmuram. Və yalnız yazılarımla kifayətlənirəm. Bununla yanaşı, şairin cəmiyyət hadisələrindən kənarda durması və baş verən hadisələr haqqında öz fikrini bildirməməsi mümkün deyil. Məncə, sənət sənət üçündür fikri doğru deyil.

Sənət xalq üçün, vətən üçün olmalıdır. Yeri gəlmişkən, burada bir məsələyə toxunmaq istəyirəm: əqidə məsələsinə. İnsanın əqidəsi heç vaxt dəyişməməlidir, ancaq cərəyan edən hadisələrə və müxtəlif

adamlarla münasibət dəyişə bilər. Bu isə əqidənin dəyişilməsi demək deyil. Bütün oxucularıma məlumdur ki, mən hələ 50-ci illərdən başlayaraq Azərbaycanın müstəqilliyi və ana dilimizin qorunması uğrunda əlimdən gələni eləmişəm. Buna baxmayaraq, bəzi qəzetlərdə məsələnin mahiyyətini dərindən bilməyən adamlar məni əqidəmi dəyişməkdə günahlandırırlar. Məsələn, "Hürriyyət" qəzetində bir tələbə mənim şeirimdən:

"Çərxi fələk istəyir lap dolana tərsinə
Əqidəmi heç nəyə dəyişmərəm mən yenə" -

misralarını misal gətirir və bundan sonra sübut etməyə çalışır ki, mən əqidəmi dəyişmişəm. Yuxarıda dediyim kimi, mənim əqidəm Azərbaycanın müstəqilliyidir. Hakimiyyətdə kim olursa-olsun, hansı partiyaya mənsub olunmasından asılı olmayaraq, əgər mənim müstəqillik ideyama xidmət edirsə, mən onun qulu olmağa hazıram. Yaxşı olar ki, adamlara olan münasibəti, əqidəyə olan münasibətlə qarışdırmasınlar. İndi mən həmin adamlardan soruşuram: Mən Azərbaycanın müstəqillik ideyasına, ümumiyyətlə, Vətən və Qarabağ dərdimizə, millətimizin mənafeyinə, ana dilimizin qorunmasına və s. harada, hansı çıxışımda, hansı yazımda və hansı hərəkətim də xəyanət etmişəm?

O ki, qaldı iqtidarda olanlara, bir ağsaqqal kimi, mənim onlara heç bir ehtiyacım olmayıb. Əksinə, onların mənə ehtiyacı olub. Əgər iqtidarda olanlar müəyyən bir məsələnin həllindən ötrü mənimlə məsləhətləşmək istəyirlərsə, mən bundan necə imtina edə bilərəm?

- Sirr deyilsə, yaradıcılıq planlarınız barədə. Hazırda nə üzərində işləyirsiniz?

- Ümumiyyətlə, fərdi və ictimai duyğu problemi məni çox düşündürür. İctimai duyğunun fərdi duyğudan, fərdi arzudan üstün olması fikri əsasında bir pyes yazmaq fikrindəyəm.

- Xalqımızın həmişə ağsaqqal, ziyalı sözünə böyük ehtiyacı olub. Xalqa sözünüz.

- Atalar deyib ki, "Yaman günün ömrü az olar". Dözməkdən baş-

qa çarəmiz yoxdur. İndiyə qədər bütün ağrılara, əzablara dözmüşük. Gərək bir az dözək. Bu gün hamımızın vəziyyəti ağırdır bəstəkarların da, alimlərin də, şair və yazıçıların da, fəhlələrin də. Hamımız eyni kökdəyik. Mənim xalqım, mənim millətim rəzalətə, cəbhədəki uğursuzluqlara, bu uğursuzluqdan doğan rüsvayçılığa layiq millət deyil. Bu xalq hər şeyə qadirdir. Bu gün dövlət ətrafında birləşmək və şəxsi ambisiyalardan əl çəkmək lazımdır. Bizim xalqın ən böyük qüsuru ondadır ki, bizdə fərdi şüur ictimai şüurdan yüksəkdir. Buna görə də biz hamımız şəxsi arzumuzu ictimai idealdan və ictimai amaldan üstün tutmamalıyıq.

- Müsahibə üçün çox sağ olun!

Müsahibəni apardı: Müşfiq Mirzə

P.S. Müxbirimiz Bəxtiyar müəllimlə görüşdükdən iki gün sonra xoş xəbər eşitdik.

- Azərbaycan Respublikasının prezidenti H. Əliyevin fərmanı ilə ünlü şairimiz Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

"Vətəndaş" qəzeti, 28 aprel, 1995.
"Zaman və mən", Bakı, 1999.
"Ləyaqət" Bakı, 2000.



“MƏNİ SİYASƏTDƏ DEYİL, ŞEİRLƏRİMDƏ AXTARIN”

Həmişə şeirlərinə, məsləhətlərinə, böyük mənəvi ehtiyac duyduğumuz sevimli şairimiz B. Vahabzadə son vaxtlar mətbuatda, televizor ekranlarında az görünür. Doğrusu, şair üçün çox qəribsəmişdik.

Bu yaxında fürsət tapıb onunla görüşdük. Və bəzi suallarımıza cavab verməyini xahiş etdik.

- Bəxtiyar müəllim, dünyanın tanıdığı Ç. Aytmatov Sizi “əsrin şairi” adlandırıb. Əsr başa çatır. Yeni yüzillik ərəfəsində əsrin şairi nələr düşünür dünyaya necə baxır?

- Qarşımıza gələn yeni əsr məni çox qorxudur. Yeni əsrdə xalqımızın malik olduğu bir çox mənəvi dəyərlərini tamam itirməsindən qorxuram.

- Tarixini bilməyən həddini də bilməz deyiblər. Tariximizə yenə də birtərəfli münasibət, onu cari siyasətə uyğunlaşdırmaq meylləri Sizi tarixi mövzuda qiymətli əsərlər müəllifini narahat edirmi?

- Tariximizə həmin dövrün öz tələbləri, öz gerçəkləri baxımından, onu bu günün ölçüləri ilə ölçüb, bu günün tələbləri ilə qiymətləndirməyin əleyhinəyəm. Bu, tarixi şəxsiyyətlərimizi inkara gətirib çıxarır. Biz onları öz zəmanələrinin fonunda dəyərləndirməyə çalışmalıyıq. Elm də, sənət də siyasətə deyil, həqiqətə xidmət edəndə böyüyür və zirvələr fəth edir.

- Hamımız bilirik ki, istiqlalın, müstəqillik və dövlətçiliyin yolu keşməkeşli, cəfalı, əzabəziyyətli olacaq. Lakin ümid edirik ki, çətinliklər vətənin həqiqi övladlarının səyi ilə dəf olunacaq, məsuliyyət və cəfa yükü xalqın bütün təbəqələri arasında ədalətli bölünəcək. İstiqlalımızın beş illiyi tamam oldu. Vəziyyəti necə görürsünüz?

-Mən bu suala yenicə yazdığım şeirdən bir parça ilə cavab vermək istəyirəm.

Əsarət odunda bişdi nəslimiz,
Azadlıq eşqinə yandıq, yaxıldıq.
Çatıb azadlığa, bu məbəddə biz
Şükür namazını qibləsiz qıldıq.
...İndi biz azadıq, bizi bir zaman
Şeytandan qoruyan abırhəyadan,
Azadıq düşmənə qəzəbdən, kindən
Millət hədəf olub öz nifrətinə.
Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.
İndi azadlığım mənə qənimdir
Bu gizli oyundan baş açmır fələk.
Məni kor quyudan çıxardan kəndir
İndi boğazıma keçib halqatək.

- Şair Bəxtiyarın poeziyadan, həqiqət yolundan, inamından və inancından sapdığını görmək çətindir. Lakin aktual siyasi məqamlarda bəzən bunu görmək olmur. Bunu nə ilə izah edərsiniz?

- Millətin sözünü deyə bilən siyasətçilərimizin azlıq təşkil etdiyi 1988-1992ci illərdə millət vəkili kimi uca kürsülərdən danışır, demokratiyanın, milli istiqlalımızın qoruyucusu kimi çıxış edərdim. Amma mən peşəkar siyasətçi olmadığıma görə sadəlövhlüyümdən bəzən aldanır və sonra bunun əzabını çəkirdim. Buna görə də hələ Elçibəy hakimiyyəti dövründə, dəqiq desək 1992-ci ilin payızında mən Milli Məclisin üzvlüyündən istefa verib, kürsülərdən masa arxasına keçdim.

Mən başa düşdüm ki, siyasətdə səhv edə bilərəm, amma sənətdə yox. Bu müddətdə bir pyes və xeyli şeir yazmışam. Ona görə də sizdən xahiş edirəm, məni siyasətdə deyil, şeirlərimdə axtarın...

- Bəxtiyar müəllim, maraqlı müsahibə üçün Sizə "Liberal Press" qəzetinin oxucuları adından təşəkkür edir, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzu edirik.

"LiberalPress" qəzeti, 10 oktyabr, 1996.
"Zaman və mən", Bakı, 1999.



HAKİMİYYƏT DAVASI

- Bəxtiyar müəllim, tarixi mövzuya müraciət sizdə hansı tələbatdan irəli gəlir?

- Müasirliyə dair fikrimi birbaşa deyə bilməyəndə tarixə üz tuturam...

-Axundovsayağı metod.

-Bəli, bəli. Hadisələri zamanca bir neçə əsr geri atır, ya da başqa məkana köçürürəm. Mən bu metoddan hələ sovet dövründə yazdığım bir neçə poemada istifadə etmişəm. Məsələn, əsərin mövzusunu Əlcəzair həyatından götürür, əsas hədəf kimi isə sovet quruluşunu seçirdim.

- Məhz göytürk tarixinə müraciətiniz də yəqin ki, təsadüfi deyil.

- Yadımdadır, 5-6 yaşım olanda Şəkidə kolxoz quruluşu əleyhinə üsyan oldu. On minə qədər adamı buna görə güllələdilər. Salamat qalmış bir neçə yüz nəfər dağlara çəkilib qaçaqlığa başladı. Onlara igid, qorxmaz bir adam olan Qaçaq Abbas başçılıq edirdi. Qaçaqları 5-6 ailə saxlayırdı. Onlar növbə ilə yemək hazırlayıb küpələrdə həyətə qoyur, qapını açıq saxlayırdılar. Gecə yarısı qaçaqlar gəlib yeməyi aparandan sonra ev sahibi həyət qapısını bağlayırdı. Qaçaqlara kömək edənlərdən biri də bizim ailə idi. İri cüssəli, zəhmli bir kişi olan babam sovet hökumətinə nifrət edirdi, 1946-cı ildə dünyasını dəyişəndə də onun son sözü "türk" oldu. Bəxtimdən orta məktəb müəllimim İbrahim Cəfər də İstanbulda təhsil almışdı. O, məşhur əruzşünas Əkrəm Cəfərin qardaşı idi. O, babamın gördüyü işin davamçısı oldu. Mənim türk dili, ədəbiyyatı və

tarixinə marağım bir az da dərinləşdi. Yadımdadır, bir dəfə Hadidən danışan İbrahim müəllim həyəcandan qızardı və kövrəldiyini şagirdlər görməsin deyə sinifdən çıxdı. Mən sevimli şagirdi kimi müəlimimin ardınca getdim və onun üzünü pəncərəyə tutub çiyni atılaatıla hıçqırdığını gördüm. Mən ona nə olduğunu soruşanda İbrahim müəllim gözləri yaşlı "Sən nə anlayırsan, nə deyim sənə, get burdan" dedi. O andan ürəyimə bir toxum düşdü Hadi haqqında əsər yazmaq! "Nakam" adlandırdığım həmin əsəri 1960-cı ildə yazdım. Əsər dram müsabiqəsində ikinci yer tutdu və Adil İskəndərov onu səhnəyə qoymaq istəyirdi. Lakin Mərkəzi Komitənin ideoloji işlər üzrə katibi, məktəb yoldaşım olmuş Nazim Hacıyev pyesin səhnələşdirilməsinə icazə vermədi. Dedi ki, əsər başdanbaşa türkçülük ideyasıyla aşılanıb, onu səhnəyə qoysan, başın ağrıyar.

İndi hamı türkçü olub, mənim adımı isə "sovet şairi" qoyub lar. Məhz Göytürk tarixinə müraciətimin səbəbi isə o vaxt baş verən hadisələrin indi ətrafımızda cərəyən edən proseslərlə heyrətamiz oxşarlığındadır.

- Pyesi yazmaqda sizə impuls verən nə olub və hansı tarixi mənbələrə əsaslanmısınız?

- Mən 6-7 ildir göytürklərin tarixinə dair xeyli kitab oxumuşam. Oxuduqca tarixin necə də təkrar olunduğuna heyrət etdim. Mənə impuls verən isə M. Səbətçioğlunun "Tarixə uyanan daşlar" kitabı oldu, bir də Nihal Adsızın "Bozqurdlar" əsəri...

- Göytürk tarixi kimi dramatik tarixi hadisələrlə son dərəcə zəngin, müəllifə öz dramaturji istedadını hərtərəfli şəkildə reabilitə etməyə imkan verən bu əsəri yazarkən üzləşdiyimiz və dəf etdiyimiz əsas problem.

- Göytürk tarixi dramaturji əsər üçün o qədər zəngin material verir ki, istəristəməz dramaturqun qarşısında nəyi qabartmaq problemi doğurur. Bu zaman tarixi hadisələrin müasirliklə uzlaşma dərəcəsini mən əsas meyar kimi götürmüşəm və bu işin öhdəsindən necə gəldiyimi yəqin ki, tamaşaçılar deyəcəklər.

- Gələcəkdə Göytürk tarixinə dair kinossenari yazmaq fikriniz yoxdur ki?

- Göytürklərin tarixi doğrudan da drama sığmır, ekran tələb edir.

Lakin belə bir film çəkmək indi külli miqdarda vəsait tələb edir. Bir də ki, mən ekranın dilini bilmirəm. Heç ömrün vəfa edəcəyinə də əmin deyiləm. "Göytürklər" bəlkə də, "qu quşunun son nəğməsidir".

- Sizə cansağlığı diləyirik və arzu edirik ki, "Göytürklər" yaradıcılığımızdakı yeni mərhələni başlamaq üçün ancaq və ancaq aldığımız "ikinci nəfəs" olsun.

- Sağ olun. Minnətdaram.

Müsahibəni götürdü: Əsəd Cahangiroğlu

"Ekspres" qəzeti, № 5, 11-17 sentyabr, 1997.
"Zaman və mən", Bakı, 1999.



ZAMAN VƏ MƏN

- Ədəbiyyatımızın bugünkü vəziyyəti barədə nə deyərdiniz?

- Mətbuatda bu mövzuda tez-tez yazılar verilir. Çoxları, xüsusilə də ədəbiyyatçıların özləri ədəbiyyatımızın bugünkü vəziyyəti ilə bağlı gileyli sözlər deyir, onun durğunluq keçirdiyini zənn edirlər. Mən belə düşünmürəm. Və görürəm ki, istedadlı gənc şairlərimiz yetişmişdir. Bu, məni sevindirir. Deməli, ədəbiyyat yaranır. Bu xalqın minillik ədəbi ənənəsi var. Mənə elə gəlir ki, ədəbiyyatdan naümid olmağa dəyməz.

- Daha əsl yazıçıların kitabı təsadüfi hallarda çıxır, ehtimal ki, oxucular da təsadüfi hallarda mütaliəyə vaxt tapırlar, axır zamanlarda kimin əsərini oxumusunuz və oxuduqlarınız sizi qane edirmi?

- Hazırda səhhətimlə bağlı olaraq irihəcmli əsərlər oxuya bilmirəm. Amma bütün qəzetləri və dərgiləri diqqətlə izləyirəm. Ümumiyyətlə, götürdükdə isə mən mütaliəni çox sevirəm. Ömrüm boyu bir gözümlə yazıb, bir gözümlə oxumuşam. Sabir Əhmədlinin, İsi Məlikzadənin, R. Tağının, Əlibala Hacızadənin, İsa Hüseynovun, Anarın, Elçinin bir sözlə, bu vaxta qədər demək olar ki, bütün yazıçılarımızın əsərlərini mütaliə eləmişəm.

- On il əvvəl ədəbiyyatımızın mövzusu barədə söz salmaq, bəlkə də yersiz görünərdi, çünki həmin mövzular dilimizin əzbəri idi: ictimai həyatın tərənnümü, əmək xarüqələri, yaşadığımız cəmiyyətin "üstünlükləri" "işıqlıdır lampaları kolxozun" və s. Bütün bu mövzuların heçliyə qovuşduğu indiki şəraitdə ədəbiyyatın əsl vəzifəsini nədə

görürsünüz?

- On il əvvəlki ədəbiyyat, əsasən, ölü ədəbiyyat idi. Lakin bunların hamısına sovet ədəbiyyatı deyib, küllüyə atmaq da olmaz. Belə ki, o dövrdə protest səciyyəli əsərlər də yaranırdı. Onları yenidən araşdırmaq lazımdır. C.Cabbarlının, H.Cavidin əsərlərini diqqətlə izləsəniz, sovet rejiminin, quruluşunun əleyhinə nə qədər desəniz detal tapmaq olar. Mən elə bilirəm ki, bu əsərlər yenidən tədqiq edilməlidir. Bu, öz yerində. O ki qaldı ədəbiyyatın indiki vəzifəsinə, indi məsələlər tamam başqa cür qoyulmalıdır. Biz birdənbirə bu vəziyyətə düşmüşük. Mühit dəyişən kimi ədəbiyyatın da dərhal ona uyğun olaraq dəyişəcəyini gözləmək olmaz. Bir qədər zaman keçməlidir. Yazıçının baş vermiş hadisələri ümumiləşdirməsi üçün vaxt tələb olunur. Dövrün fəlsəfəsi yetişməlidir. Düşdüyümüz dərdlərin, başımıza gətirilən oyunların köklərini araşdırmalıyıq. Bizdə milli mənlik hissi çox zəifdir. Çəkdiyimiz müsibətlər bundan irəli gəlmirmi? Səhvimiz nədədir? Niyələri, səbəbləri araşdırmaq! Budur bugünkü ədəbiyyatın vəzifəsi.

- Nə yazırsınız, son kitabınız, nə vaxt çıxmış və yenisinin işıq üzü görməsinə güman varmı?

- Sonuncu kitabım 70 illiyimlə əlaqədar işıq üzü görüb. Bu yaxınlarda ABŞ-da bir kitabım çap olunub. Kitabda əsasən köhnə əsərlərimin tərcümələri toplanıb.

Hazırda 96-97-ci illərdə yazdığım şeirlərdən, təxminən 2500 sətirdən ibarət kitab tərtib etmişəm. Bir əsər üzərində də işləyirəm. Lakin nə gizlədim, çap elətdirməyə imkanım yoxdur. Sponsor tapmaq lazımdır. Məncə, heç kimə ağız aça bilmərəm. Yenicə tamamladığım "Özümüzü kəsən qılınc" *("Göytürklər")* pyesinin isə Azərbaycan Milli Dram Teatrında məşqləri başlanmışdır.

- Mənəvi sıxıntı və maddi çətinliklər dövründə necə yaşayırsınız?

- Maddi çətinlik dedikdə, qeyd edim ki, 90-cı ildən təqaüdə çıxmışam. Əvvəllər vəziyyətim yaxşı deyildi. Amma son beş ayda təqaüdün artırılması səbəbindən maddi vəziyyətim bir qədər düzəlib. Övladlarım böyüyüb, hərəsinin öz evi, öz ailəsi var. Gəlirim həyat yoldaşımla məni, demək olar ki, təmin edir.

Mənəvi sıxıntıya gəldikdə isə, deməliyəm ki, bu, çox mürəkkəb məsələdir. Ən böyük dərd orasındadır ki, get-gedə mənəvi dəyərlərimizi itiririk. Hər gün evimə tanımadığım adamlar dərdini deməyə gəlir, kömək istəyirlər. Onların hamısına, təbii ki, kömək edə bilmirəm. Bu, adi vətəndaş üçün nə qədər ağırdır, o ki qaldı şair ola.

- Poeziyadan bu gün də həzz ala bilirsinizmi?

- Başqa cür ola da bilməz. Poeziyasız yaşamaq mümkün deyil. İndi Anna Axmatovanın şeirlərini oxuyuram. Elə nəsr əsərləri də var ki, onlar başdanayağa lirika, şeiriyyətdir. Onlardan da həzz alıram. Bir məsələni xüsusi qeyd etmək istəyirəm. Bizim musiqimiz çox zəngindir. Ona görə yox ki, mən, azərbaycanlıyam. Bu, həqiqətən belədir. Mənim yeganə təsəllim poeziya və musiqidir.

- Həyatda addımbaşı rast gəldiyimiz dəyişikliklərə münasibətiniz?

- Dəyişiklikləri normal qarşılayıram. Bu, zəruridir. Həyat bir yerdə dayanmır, axır. Artıq cavan şairlər bizim kimi yazmırlar. Qəribə səslənsə də, deməliyəm ki, çox əcəb eləyirlər. Xoşbəxtlik orasındadır ki, onlar özlərindən əvvəlkiləri təkrar eləmirlər. Tamamilə yeni yolla gedirlər. İlk baxışda qavramaq çətindir. Əllamələk eləmədən öz cığırları, yolları ilə getsələr, çox gözəl alınar. Mən ədəbiyyatda bu dəyişikliyi müsbət qarşılayıram. Sənətdə mühafizəkarlıq bədbəxtlikdir. Mən özümdən əvvəlki sənətkarlardan çox şey öyrənmişəm, indi isə cavanlardan öyrənməliyik. Bu, təbii haldır. İndi cavan şairlərlə ayaqlaşmağa çalışıram. Mən görürəm ki, artıq üslubum da dəyişib. Əvvəllər bu cür yazmazdım. İyirmiotuz il qabaq yazdığım şeirlərin bir qismini indi bəyənmirəm. Hər şey axır, hər şey dəyişir. Bu, dialektikadır. Yazıçı isə öz dövrünün aynası olmalıdır.

"Şəhriyar" qəzeti, 25 sentyabr, 1997.
"Zaman və mən", Bakı, 1999.



GƏLƏCƏYİMİZƏ İNANIRAM

M ü x b i r : - Bəxtiyar müəllim, bu günlərdə Akademik Milli Dram Teatrında Sizin "Hara gedir bu dünya" əsərinizin premyerasında ölkə prezidenti də iştirak edirdi. Bu məsələ ilə əlaqədar təəssüratınızı oxucularla bölüşmənizi xahiş edirəm.

B . V . - Ogünkü tamaşa premyera deyildi. Bu əsər 1991-ci ildə tamaşaya qoyulmuş, sonra teatr təmirə dayandığından tamaşa göstərilməmişdir. Həmin il bu tamaşa Türkiyədə və Kiprdə göstərildi. Bu il tamaşa yenidən bərpa edildi. Prezident tamaşaya baxdı və haqlı olaraq göstərdi ki, bu, mürəkkəb fəlsəfi əsərdir, bunun öz intellektual tamaşaçısı olmalıdır. Bu əsər hafizənin başqasına köçürülməsi problemi üzərində qurulmuşdur. Bu, insanlıq üçün çox təhlükəli kəşfdir. Elmitexniki tərəqqi vacibdir. Lakin insanlığa qarşı çevrilmiş tərəqqi bəşəriyyəti fəlakətə aparır. Mən hələ bu pyesi yazmamışdan əvvəl "Baş", "Elməxlaq" şeirimdə bu cür "tərəqqiyə" qarşı etirazımı bildirmişdim. "Baş" şeirimdə deyirdim:

İnsanın adına, şərəf-şanına
Deyirəm, gəlməzmi bundan bir ləkə?
Bir nadan güvənib öz imkanına
Dahinin başına göz dikdi bəlkə...

Mən bu şeiri yazandan bir qədər sonra Birləşmiş Millətlər Təşkilatı

biologiya sahəsindəki bu kəşflərin dayandırılması barədə xüsusi qərar çıxardı. Bu qərar mənə bu barədəki düşüncələrimi dərinləşdirməyə imkan verdi və mən "Hara gedir bu dünya" pyesimi yazdım. Bu pyesdə dramatik konflikt insanlıqla insanlığa qarşı çevrilmiş kəşflər arasında qurulmuşdur. Bu mənada mən prezidentin o fikri ilə şərikəm ki, bu əsərin öz intellektual tamaşaçısı olmalıdır. Təəssüf ki, son 5-6 ildə teatrımız təmirə durduğu üçün dediyimiz tamaşaçını itirmişdir.

Müxbir: - Azərbaycan yazıçılarının X qurultayı barədə fikirlərinizi bilmək maraqlı olardı.

B. V.: - Ümumiyyətlə, müsbətdir. Prezidentin geniş məruzəsi çox şeyləri öz yerinə qoydu və bəzi qaranlıq məsələlərə aydınlıq gətirdi.

Müxbir: - Qurultayda çıxış edənlərin çoxu çap olunmaq çətinliklərindən şikayətləndilər. Bu çətinliyi Siz hiss edirsinizmi?

B. V.: - Əlbəttə, haqlı şikayətdir. Mən də çətinlik çəkirəm... İndi, gör, cavan qələm sahibləri nə çəkir. Çeşidli qəzetlərdə gənclərin şeir və hekayələrini oxuyur və çox sevinirəm. Gənclər ədəbiyyata təzə hava gətirirlər. Lakin kitabları nəşr olunmur. Buna görə də gələcək ədəbiyyatın taleyi məni çox düşündürür.

Müxbir: - Ədəbiyyatımızın bu günü Sizi qane edirmi?

B. V.: - Ədəbiyyat həmişə yaranıb və yaranır. Yuxarıda dediyim kimi, qəzet və dərgilərdə çox sanballı yazılar oxuyuram. İnsanın təbiəti belədir ki, bu günü ilə heç vaxt qane olmur, daha başqa uçuşlar arzulayır. Bu da təbiidir ki, Mirzə Cəlil, Sabir kimi klassiklərimiz dahiyanə əsərlərini yaratdığı illərdə mətbuata baxsanız, görərsiniz ki, onların yaratdığını bədii əsər saymamış, keçmiş ədəbiyyatı onlara nümunə göstərmişlər. Zaman keçdi, Sabirlərin, Hadi və Mirzə Cəlillərin qiyməti bilindi. Bugünkü ədəbiyyatın da əsl qiyməti sabah veriləcək.

Müxbir: - Şair və siyasətə Sizin münasibətiniz?

B. V.: - Şairin siyasətlə məşğul olmasını rəva bilmirəm. Bunu mən öz təcrübəmdən deyirəm. Parlamentdə demokratik qüvvələr az olanda millətin mənafeyi və istiqlalımızı qazanmaq naminə meydan hərəkatından parlament kürsüsünə qədər bir neçə il siyasətlə məşğul

olmalı oldum. Lakin anladım ki, mən siyasət adamı deyiləm. Odur ki, siyasətdən ayrıldım.

Allaha şükür, indi yaxşı siyasətçilərimiz və siyasi mövzuda yazan kamil jurnalistlərimiz yetişib. Adlarını çəksəm, uzun bir siyahı alınır. Ancaq birinin adını çəkmək istəyirəm: Hacı Zaminin məqalələrindəki ümumiləşdirmə və yumorik eyhamlar çox xoşuma gəlir. Mən indi bu ahıl çağımda Rusiya və Avropa səviyyəsində yetişən cavan icmalçılarımız və siyasət çilərimizlə öyünürəm.

Ədəbiyyata gəlincə, çılpaq siyasət bədii təfəkkürü yeyən əjdahadır. Bununla yanaşı yazıçı öz zəmanəsinin hadisələrinə də biganə olmamalıdır. "Ədəbiyyat həyatın aynasıdır" kəlamı təsadüfi deyilməyib. Buna görə də mən "Sənət sənət üçündür" şüarını qəbul etmirəm. Sənət xalq üçün, vətən üçündür.

Müxbir: - Bəxtiyar müəllim, Siz Milli Məclisin üzvü, şair, həm də alimsiniz. Bu üç amil yaradıcılığınıza mane olmur ki?

B. V.: - Xəstəliyim səbəbli son zamanlar Milli Məclisin iclaslarına çox az hallarda gedə bilirəm. Bu da bəzən narazılığa səbəb olur. Amma nə etmək? 1015 ildir ki, elmlə məşğul deyiləm. Əsasən bədii yaradıcılqla məşğulam.

Müxbir: - Xalqımızın ağsaqqal ziyalı sözünə böyük ehtiyacı var. Xalqa sözünüz?

B. V.: - Respublika əhalisinin maddi vəziyyəti sözsüz ki, acınacaqlıdır. Əhalinin əksəriyyəti bu vəziyyətdədir. Mən bir vətəndaş kimi bunun ağrısını çəkirəm. Bu gün istehsalın olmaması işsizliyə səbəb olur. Məsələn, Şəkidə ipək kombinatının altı min işçisi var. İndi bu kombinat dayanıb. Və altı min fəhlə çölə tökülüb. Bu rəqəmin arxasında 3540 min adam durur.

Eləcə də Sumqayıtda bizim vaxtilə fəxr etdiyimiz zavod ların çoxu dayanıb. Mən bu misalları ona görə çəkirəm ki, istehsal olmayan yerdə millətin maddi vəziyyəti şübhəsiz, ağır olmalıdır. Bəs istehsal niyə yoxdur? Ona görə ki, bizim fabrik və zavodlarımız dünya standartları səviyyəsində deyil. Buna görə məhsulumuz dünya bazarında satılmır.

Deməli, bazarımızı itirmişik.

Millətə tövsiyəm odur ki, dözmüşük, dözək. Təkcə müstəqil liyimiz əlimizdən getməsin. Müstəqilliyimizi mədəmizin tələbinə qurban verməyək. Biz müstəqilliyimizi qorusaq, yaxın zamanlarda hər şeyin qaydasına düşəcəyinə inanıram.

Müsahibəni apardı: Müşfiq Mirzə

"Panorama" qəzeti, 17 dekabr, 1997.
"Zaman və mən", Bakı, 1999.



“HARA GEDİR BU DÜNYA?”

Bu, Bəxtiyar Vahabzadənin yeni dram əsərinin adıdır. Və həm də xalq şairini daim düşündürən, narahat edən, özünü dərk etdiyi gündən cavabını axtarmağı ağrılı-acılı əbədi bir sualdır. Hara gedir, bu dünya? Bu gedişi ilə bizi hara aparır? Soyumuzdan, kökümüzdən uzaqlaşdırıb, mənəviyyatımızdan, əxlaqi dəyərlərimizdən ayrımı salır? Yoxsa, əksinə idrakın, zəkanın qələbəsinə, insan təkamülünün zirvəsinə yüksəldir? Görəsən, elə adında da narahat bir sual olan pyes şairin hansı nigarançılığından, ağrısından doğub? Elə bu sualla da Bəxtiyar müəllimə müraciət edirik:

- Mənim dram əsərlərimin qəhrəmanları, bir qayda olaraq, xarici mühitdən çox, özləri öz daxili “mən”ləri ilə mübarizə aparırlar. Çünki mənim fikrimcə, insan çox mürəkkəb məxluqdur. Otello da, Yaqo da, mütləq mənada Yaxşı da, Pis də, Mələk də, Şeytan da bizim öz içimizdədir.

Özümüzə kənardan baxa bilsək, biz bunu aydın görərik. Bir şeirimdə yazdığım kimi:

Başqasının gözünü taxaydım öz gözümə.
Başqasının gözüylə baxaydım öz-özümə
Onda ayıblarıma özüm düşmən olardım,
Onda mən, mən olardım.

“Hara gedir bu dünya” pyesinin baş qəhrəmanı da beləcə özünə kənardan baxıb qiymət verir, öz-özü ilə mübarizə aparır.

Onu da deyim ki, bu pyesdə qoyduğum məsələyə mən hələ çox əvvəllər “Baş” şeirimdə toxunmuşdum. Ümumiyyətlə, bir qayda olaraq dramaturgiyaya mən şeirdən gəlirəm. Yəni şeirdə ötəri toxunduğum bir məsələ məni rahat qoymur və mən həmin mövzunu pyeslərimdə davam etdirirəm, genişləndirirəm. Şeirdə məşhur Amerika alimi Uaytın kəşfindən söhbət gedirdi. Uayt yaddaşı köçürməklə şəxsiyyəti dəyişmək üzərində işləyirdi. Sonra başqa bir ingilis alimi irsiyyəti dəyişməklə irsi xəstəlikləri yox etmək istədi. Əslində xeyirxah bir kəşfin necə dəhşətli nəticələri olacağını anlayıb bu kəşfdən imtina etmişdi. Mən “Baş” şeirimdə yazmışdım:

Ey həkim, gücünə inansan da sən,
Bu yükü boynuna heç götürmə, gəl.
Ayırıb insanı öz aləmindən
Ana təbiətlə bəhsə girmə, gəl.
Həkim, təbiəti, gəl, hakim sayaq,
Hifz edək bir səsin yüz ahəngini.
Gücümüz çatsa da, gərək pozmayaq
Bəzən təbiətin öz ahəngini.

Sonralar, 1990-cı ildə BMT xüsusi qərar da qəbul etdi. Bu qərara görə bioloji sahədə aparılan bu tipli - yəni irsiyyəti dəyişmək üzrə aparılan təcrübələr qadağan olundu. Mən bu hadisələri Azərbaycana köçürmüşəm. Azərbaycanlı alim Laçın irsiyyətin dəyişdirilməsi üzrə böyük kəşf edib dünya şöhrəti qazanıb. Lakin sonra bu kəşfin necə böyük təhlükə yaratdığını anlayaraq ondan imtina etmək istəyir. Və daxilində bir tərəfdən şəxsi mənafe, şöhrət hissi, o biri tərəfdən isə bəşəriyyətin gələcəyi üçün narahatlıq hissi bir-biri ilə mübarizə aparır. Bu tərəddüdlü, təbəddülatlı anında qan yaddaşı - Ulu Əcdad köməyinə gəlir. Və qəhrəmanı kəşfindən əl çəkib ilkin dəyərlərə, mənəviyyata,

qan yaddaşına qayıtmağa dəvət edir. Pyesin sonunda alim öz kəşfindən imtina edir, özü də məhv olur...

- Bəxtiyar müəllim, pyesinizin tamaşasında iştirak edən möhtərəm prezidentimiz onu çox yüksək qiymətləndirdi. Dramı fəlsəfi, psixoloji əsər adlandırdı. Eyni zamanda, prezident göstərdi ki, "...bu əsərdə bir qədər ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır. İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar". Tamaşadan aldığım təəssürata əsaslanıb deyə bilərəm ki, doğrudan da pyesdə belə nüans var. Necə bilirsiniz, bu ümidsizlik nədən irəli gəlir?

- Həyatın, cəmiyyətin inkişaf qanunlarının özündən. Bəşəriyyət mövcud olduğu gündən Xeyrlə Şər, Yaxşılıqla Pislik arasında mübarizə gedir. Düzdür, Pisliyin, Şər qüvvələrin yaxşılığı, düzlüyü, həqiqəti yer üzündən silib atmağa qüvvəsi çatmır. Ancaq o da var ki, düzlük, yaxşılıq da pisi, əyrini yer üzündən birdəfəlik silə bilməyib. Deməli, bu iki əks qüvvə üz-üzə, qarşı-qarşıya dayansalar da həmişə birlikdə mövcud olublar. Bax, elə ümidsizliyimiz də nikbinliyimiz də bundan irəli gəlir.

- Bəxtiyar müəllim, pyeslərinizin əksəriyyətində müraciət etdiyiniz priyom-şəxsiyyətlərin ikiləşərək mübarizə aparması təkcə yuxarıda dediyimiz kimi, Otellonun da, Yaqonun da Yaxşının da, Pisin də, bir şəxsin daxilində yerləşməsindən irəli gəlirmi? Yoxsa, bu, daha çox "Bircə ondan razıyam ki, Özümdən narazıyam" - deyən şairin öz keyfiyyətlərindən, daxili "mübarizə"lərindən xəbər verir?

- Mən özüm də təsvir etdiyim insanlardan biriyəm və təbii

ki, öz daxilimdəki həmin ikiləşməni, mübarizəni mən yaşayıram. Özü də yaradıcı adamlarda, düşünən şəxsiyyətlərdə bu mübarizə daha güclü olur. İnsan kamilliyə can atsa da nöqsansız deyil. Odur ki, yalnız özünü dərk etməyən adam özündən tam razı ola bilər. Səmimi sözümdür, mən nə müəllim, nə publisist, nə dramaturq, nə də şair kimi özümdən razı deyiləm. Bu yaşımda mikrofondan qorxuram. Qorxuram ki, səhv edərəm, nəyisə düz demərəm. Bu hiss böyük məsuliyyət hissindən do-

ğur. Biz hər birimiz hər gün səhv edirik. Sadəcə olaraq bəziləri bunu etiraf edə bilmir, bayaq dediyim kimi özlərinə kənardan baxmağı bacarmırlar. Fikrimcə, hər düşünən insan öz hərəkətlərinə düzgün qiymət versə, yanlışdan, səhvindən nəticə çıxarsa, yer üzündə bu qədər polisə, məhkəməyə ehtiyac qalmaz. Mənim atam savadsız, həm də dindar kişi idi. Bir az da qaraqabaq adamdı. Çox danışmağı sevməzdi. Ancaq elə ki, yatağına girdi, yorğanı başına çəkib özü-özü ilə danışardı. Bir dəfə soruşdum ki, ay ata, nə danışırsan? Dedi, özözümlə iclas edirəm. Gördüm bu gün hansı günah işi görmüşəm, hansı savabı eləmişəm. Yuxum ərşə çəkilib, yata bilmirəm. Süpürgəçimizin könlünə dəymişəm, sabah gərək ondan üzr istəyəm könlünü alam. Onda mənim 14-15 yaşım olardı. Bax, elə o vaxtdan mən də "özüm özümlə iclas edirəm".

- Bəxtiyar müəllim, şeiri planlaşdırmaq çətindir. Yəqin ki, o, şair qəlbinə təsir edən hansı bir hissdən, kövrək bir duyğudan, ya da nə isə bir hadisədən doğur. Dram əsəri isə əvvəldən planlaşdırılır, müəyyən hazırlıq mərhələsi keçir. Planınızda yeni bir səhnə əsəri yazmaq varmı?

- İndi belə bir pyesim hazırlanır: "Göytürklər" adlanır. Bu da tarixi pyesdir. 1450 il bundan əvvəl əcdadlarımız - göytürklər Çin sərhəddində məskunlaşıblar. Onların həyatını öyrənmişəm. 7-8 il bu işlə məşğul olmuşam. Məqsəd nədir? Bilirsiniz, şeirə bütün mətləbləri gətirmək mümkün deyil. Odur ki, keçmişimizi, soykökümüzü araşdırmaq, haradan gəlib haraya getdiyimizi aydınlaşdırmaq üçün yenidən dramaturgiyaya müraciət etdim. Babalarımızın "törələrində" və daşlara yazılmış Orxon-Yenisey abidələrində milləti yad təsirlərdən qorumaq üçün necə müdrik qanunlar qəbul ediblər! Hər bir şəxs üçün ən böyük məhəbbət Vətən məhəbbətidir, Vətənin mənafeyidir. O vaxtın Ana yasasına görə orduda müxtəlif millətlər qulluq edə bilərdilər. Ancaq onbaşı, yüzbaşı, minbaşı, tümənbaşı (tümən - diviziya deməkdi) ancaq türk olmalı idi. Xaqanın yanında yeddi nəfər divan üzvü və yüksək səviyyədə qurultay olarmış. Xaqana, Divanın və qurultayın qərarı ilə yad millətdən qız almağa icazə verilərmiş. Özü də o zaman ki, ölkədə vəziyyət ağır olan-

da, hücum gözlənildikdə. Bu izdivac siyasi məqsəd güdərmiş. Həm də Xaqanın ancaq türk qızından olan övladı vəliəhdlik hüququna malik imiş. Yad qızdan olan övlad yalnız şahzadə sayılar, taxt-tac iddiasına düşə bilməzdi. Görürsünüz, milləti saxlamaq, qorumaq əcdadlarımız üçün necə mühüm əhəmiyyət kəsb edib. Uşaq hansı dildə dil açırsa, o millətə qulluq edir. Bunu mən demirəm, L.Tolstoy deyir, Uşinski deyir, alman dilçisi Yakob deyir. Çünki dil ruhdur, psixologi yadır. Həyatda hər şey mənəviyyatdan başlanır. Millətin tənəzzülü də, tərəqqisi də mənəviyyata bağlıdır.

Bax, yeni pyesim bu mətləblərdən söz açacaq. Ulu babalarımızın mənəviyyatı, əxlaq normaları ən yüksək tələblərə uyğun gəlir. Özü də Göy Tenqriyə - Dan yerinə sitayiş edən ulu babalarımızın müqəddəs kitabları yox idi. Ancaq əxlaq, qayda-qanun çox müqəddəs tutulur, sözsüz əməl olunurdu. Deyilənə görə eramızın V əsrində Vizantiyadan gəlmiş xristian elçisi göytürklərə öz etiqadlarını təklif ediblər. Xaqan bu dinin mahiyyətini öyrənmək istəyib. Müqəddəs Üçlük haqqındakı söhbət onu inandırmayıb və o, xristianlığı qəbul etməkdən imtina edib. VII əsrin sonlarında başqa bir Xaqana müraciət edərək, islamı qəbul etməyi təklif ediblər. Xaqan islamın mahiyyətini - təkallahlığı məqbul sayıb. Bundan başqa islamın əxlaq anlayışının, şəriət qanunlarının onların qanunlarına uyğun gəldiyini gördüyündən bu dini qəbul etməyə razı olub.

- Xalq şairi Bəxtiyar Vahabzadə ömrünün və yaradıcılığının zirvəsini yaşayır. Bu zirvədən həm keçilən, həm də qarşıdan gələn yol daha aydın görünür. Necə bilirsiniz, "Hara gedir bu dünya?" Ümumiyyətlə, dünyanın getdiyi bu yol Sizi qane edirmi?

- Çox qlobal sual qoyursunuz. Təəssüf ki, dünya bizimlə hesablaşmır. O, öz qanunlarına uyğun olaraq, öz yolu ilə inkişaf edir. "Hara gedir bu dünya?" tamaşasından sonra möhtərəm prezidentimiz dedi ki, yer üzündə neçə yüz min illərdir ki, insan yaşayır və insan cəmiyyəti mövcuddur. Həyatın prosesləri çox mürəkkəbdir. Ancaq o da təbiidir ki, insan cəmiyyətində eybəcərliklər əsrlərdən-əsrlərə keçərək daha da çox artır. Vəzifə nədir? Bunu qəbul etmək, onunla razı olmaq, yaxud da ki,

mübarizə aparmaq lazımdır?

Biz yazıçılar da bu eybəcərliklərlə özümüz bacardığımız kimi - qələmimizlə mübarizə aparırıq. O ki, qaldı dünyanın hara "getməyinə", hər halda bu qədər illərdən sonra müstəqillik əldə etməyimiz çox böyük nailiyyətdir. Və elə təkcə buna görə dünyanın "gərdişindən" razı qalmaq olar.

- *Maraqlı müsahibə üçün çox sağ olun.*

Müsahibəni apardı: Fəridə Səfiyeva

"Respublika" qəzeti, 19 dekabr, 1997.
"Zaman və mən", Bakı, 1999.



“BİLMİRƏM, BU MİLLƏTƏ VƏKİL ETDİ KİM MƏNİ?!”

Bəxtiyar Vahabzadə: Türkün nə uşağına, nə qocasına, nə rusa, nə farsa, azadlıq möhtaclarına və hətta qolumuzu qandallayanlara tanıtmaq ehtiyacı olmayan söz adamı. Hiss və duyğularının toplusu olan yüzə yaxın kitabının 50-si Bakıda, 20-si Moskvada, 15-i isə qardaş Türkiyədə işıq üzü görüb. Rus, ingilis, alman dillərində də dəfələrlə çap olunub. Ömrün 73-cü payızında özgürlüyümüzdən bəhs edən “Özümüzü kəsən qılınc” (Göytürklər) pyesini tamamlayıb. Savaş qurtarmayıb. B.Vahabzadə yenidən sözünü qılınc tək belinə qurşayıb.

- Əsl söz adamı səsdən iti təyyarə kimi sözündən öndə getməli, həyatını görk eləməlidir. Sizi də tanıyanlar xatırlayır ki, özünün “Gülüstan”ın önündə addımlamış, totalitar rejimin kəshakəs dövründə belə tələbələrinizə proqram dərsi deməmiş, vətənçilik, millətçilik dərsi keçmişsiniz. Və bu dərslər bütöv bir nəslin özgürlük oyanışında sosial baza rolu oynayıb. Bununla belə, Bəxtiyar Vahabzadənin “Gülüstan”ına rejimin “sifarişli dissidentliyi” kimi yanaşanlar da var.

- Mən 40 il universitetdə dərs demişəm. Və düzgün qeyd etdiniz kimi, heç zaman proqram dərsi deməmiş, tələbələrimə yaxşı mənada millətçilik, özünəqayıdaş dərsi keçmişəm.

Yaradıcılığıma gəldikdə isə, o qədər açıq-aydın yazırdım ki, bu, “37-nin” xofu qanından-canından getməmiş adamlara dəhşətli görünürdü. Ancaq o açıqlıq “sifarişli dissidentlik” deyildi. Əgər sifarişlə ya-

zırdımsa, onda 1962-ci ildə məni niyə universitetdən xaric etdilər, niyə partiya töhməti verdilər? İstilaçılığı ittiham edən, "min ləkə vurdular şərəfimizə" deyə açıq - aydın rejimə qarşı çıxan bir əsəri rejim özü necə sifariş edə bilərdi? Vallah, belə iftiraya bişmiş toyuğun da gülməyi tutar. Bu yay Milli Təhlükəsizlik Nazirliyi işçilərinin bayramında H.Əliyev, altmışıncı illərdə B.Vahabzadənin həbsinə imza atılmışdı, mən mane oldum" demədimi? Əgər mən sifarişli idimsə, bəs niyə həbsimə imza atılırdı?

Bəs məni nə xilas etdi?

Hər şeydən öncə, gəncliyin qorxu-hürkü bilməzliyindən ahıllıq ehtiyatlılığına qədəm qoymağım. "Dərsimi" yaxşıca aldıqdan sonra açıq-saçıq yazmadım, sətiraltı yönəltmənliyə keçdim. "Leninlə söhbət" poemam da məhz bu məqsədə xidmət edir. Leninin özündən yeddi sitat götürüb hallandırmağa başladım. Məsələn, rüşvət olan bir məmləkətdə ədalət olmaz, yaxşı adam odur ki, məsləki, əqidəsi olsun və s. Və həmin sitatları üzümə qalxan edərək bir ucunu gətirib bağlayırdım çağdaş dövrə. Sonra getdim Mərakəşə, gördüm Mərakeş xalqı ana dilində yox, fransızca danışır. Gəldim "Latın dili" şeirini yazdım. Orda qeyd elədim ki, latın xalqı yer üzündən silinsə də, dili yaşayır. Ancaq dünyada elə xalqlar var ki, özü yazsa da, dilini öldürüblər: MK-dan Cəfər Cəfərov məni yanına çağıraraq soruşdu ki, nə demək istəyirsən?! Dedim ki, görürsünüz, əsər Kasablankada yazılıb. O dedi: "Axı, sən yazdığın bizə bənzəyir. Mən dərhal dedim ki, bunu mən yox, siz dediniz. Bir də ki, əgər "bu bizik"sə, onda gəlin özümüzü düzəldək. Bax, sonralar antisovet ruhda yazdığım əsərləri beləcə "sığortalayır, mövzusunu gah tarixə keçirir, gah da məkanı dəyişirdim". Ancaq "Gülüstan"ı yazanda *(1959-cu il)* çox cavan idim. Sözümü birbaşa demişdim:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver" dedi.
Lap yaxşı eləyib doğrudan bizə,
Biri "baran" dedi, biri "xər" dedi

Bizi həm yedilər, həm də mindilər,
Amma arxamızca gileyləndilər...

Bu poemanın üstündə başım müsibətlər çəksə də, o vaxtkı fədakarlığı indi "sifarişli dissidentlik" adlandırırlar. Çox qəribədir.

- Yaradıcılığınız həmişə siyasi ab-havaya nüfuz göstərib. Son dövrlərdə isə şahid və iştirakçı kimi bilavasitə siyasi proseslərə də qatılmısınız. Və xalq da şairindən radikal addımlar gözləyib. Fəqət, şeirləri ilə qan-qan deyən Bəxtiyar Vahabzadə siyasət olaylarında qanı su ilə yumağa meylləndi. Nədən?

- Haqlısınız. Ancaq məsələ bundadır ki, mən sovet rejimində də siyasi mübarizə aparmamış, şeirlərimlə - "Yollar, oğullar", "Amerika gözəlinə", "Mərziyə", "Ləyaqət", "Bağışlayın, səhv olub" və s. kimi əsərlərimlə döyüşmüşəm. Siyasi mübarizəyə isə 1988-ci ildən sonra gəldim. O zamanki parlamentdə ikicə nəfərdən başqa demokratik qüvvə yox idi - bir mən idim, bir də rəhmətlik İsmayıl Şıxlı. Ona görə də mən siyasi mübarizəyə qoşulmaya bilməzdim. Vətənin mənafeyi bunu tələb edirdi. 5-6 il əlbəyaxa vuruşdum "onlarla". İndi yaddan çıxsa da, məqamında radikal addımlar atmışam. Yadınıza gəlmirmi 90-cı ildə - "Bizə ordu lazım deyil", - deyən müdafiə naziri Bərşadlı ilə parlamentdə döyüşməyim, onu "dəftərxana generalı" adlandıraraq, Milli Ordu yaradılması üçün haray qoparmağım? Mütəllibovun vaxtında da haqq sözü deməkdən çəkinməmiş, demokratik qüvvələrin hakimiyyətə gəlməsində də bütün qüvvəmi sərf etmişəm. Mən Elçibəyin vəkili idim. İnanırdım ki, demokratik qüvvələr xalqı böhrandan, müharibədən xilas edə bilər... Son dövrlərdə isə səhhətim, əsəblərim çox korlandığına görə, demək olar ki, siyasi səhnədən çəkilmiş, yenidən yazı masama pənahlanmışam. Məndən radikal addım gözləyənlərin çoxusu son illər yazdığım əsərlərin heç birini oxumayıb. Oxusaydılar, görərdilər ki, Bəxtiyar Vahabzadə vətəndaş şair mövqeyindən çəkilməyib, çəkiləsi də deyil.

- Tez-tez belə gileylər eşidilir: Söz qiymətdən düşüb. Şərəfsiz yaşamaqdansa, şərəflə ölməyi təlqin edən söz adamlarının çoxu özləri

dedikləri ömrü yaşamırlarsa, sözün kəsərdən düşməyinə kənarda səbəb axtarmağa dəyərmi?

- Ümumiyyətlə, insan heç zaman malik olduğunun qədrini bilmir. Bəşərin xisləti belədir. Və biz də itirdikdən sonra qədir bilənlərdənik. Sabirin vaxtında onu bəyənmirdilər ki, yazdıqları şeir deyil, hanı bizim Füzulimiz? Eləcə də Mirzə Cəlilin dilini bəsit adlandırdılar. Amma müəyyən zaman kəsiyində onlardan uzaqlaşandan sonra Sabirin də, Mirzə Cəlilin də dahiliyi ayan oldu. Əlbəttə, qələm əhli bir-birinə və başqa ziyalılara böhtan atanda düzlə əyri seçilmir və söz kəsərdən düşür. Amma həqiqəti deyən söz öz qüvvəsindədir. Həqiqi söz heç vaxt kəsərdən düşməyib. Düşübsə, onda "Müsavat", "525-ci qəzet", "Müxalifət", "Təzadlar", "Yeni Azərbaycan" və digər onlarca mətbuatın kəsəri hardandır? Sizin qəzetdə dərc olunan "Moşu" əhvalatı kəsərsiz şeydirmi? Nə qədər böyük ironiya var o yazılarda? Nə qədər budaqları silkələyir? Hətta istəmişəm ki, "Moşu"ya Şəki ləhcəsi ilə bir məktub da yazım. Bundan əlavə, qəzetinizdə onlarca yazı oxumuşam və sarsılmışam. Eləcə də, götürək ədəbiyyatı. Son iki ildə "525-ci qəzet"də gənclərin elə şeirlərini oxumuşam ki, valeh olmuşam. Özü də onlar bizim kimi yox, tamam başqa stildə yazır və ürəkləri birnəfəsə fəth edirlər. S.Rüstəmxanlının Z.Balayanların üzünə şillə çəkən "Ömür kitabı"nı unutduqmu? Qabil, M.Araz yaddan çıxdımı? Şahmar Əkbərzadənin, Ramiz Rövşənin, Əlisəmidin, Rüstəm Behrudinin şeirlərini görmürükmü? Sabir Əhmədlinin, Anarın, R.Tağının, İ.Məlikzadənin, Elçinin, Eldəniz Quliyevin elə məni bəyənməyən Əkrəmin yazdıqları balacamı şeylərdir? Öz içimizdən çıxır deyə böyüklüyünü görə bilmirik. Binanın bütün gözəlliyini görmək üçün ona kənardan baxmaq lazımdır. Bugünkü ədəbiyyatın da böyüklüyü 30-40 ildən sonra görünəcək.

- Həzrəti Mövlana deyirdi ki, "Səbr qurtuluşun açarıdır". Və bu səbr son dövr olaylarında dilimizi də, özümüzü də döyənək eləsə də, qurtulmaq istədiyimizi də, özümüzü də döyənək eləsə də, qurtulmaq istəyimizdən qurtula bilməmişik. Sizə elə gəlmirmi ki, səbr ancaq məqama qədər qurtuluşa açardır. Həddi keçəndə isə fərsizlik, səbatsızlıq, şərəfini qoruya bilməməkdir. Və dövlətin, xalqın səbrini

siyasi motivlərlə bağlasaq da, ədəbiyyatımızın səbrini başa düşmək olmur. Səbrlə gözləmə mövqeyi ilə o nədən qurtulmağa ümid edir? Bəs, böyük, tələtümlü bir dövrün ədəbiyyat şərəfini kim qoruyacaq?

- Mən bu fikri qəbul etmirəm. Zəngin ədəbiyyatımız olub, var və sabah da olacaq. Bu yaxınlarda N.Hacızadənin "Qisas qiyamətə qalmaz" və Vidadi Babanlının "Ana intiqamı" adlı pyeslərinə baxdım. Əminəm ki, "Müxalifət" qəzetində bir adam, eləcə də ədəbiyyatda boşluq "görən" digər kəslər o pyeslərə baxmayıb. N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü"nə baxmısınızmı? Böyük alim, böyük insan Xudu Məmmədovun dünyanın monumental əsərləri sırasına daxil olan "Qoşa qanad" əsəri, Elçinin "Ah, Paris, Paris" pyesləri, eləcə də digər yazarlarımızın dövrün nəbzi ilə bir vuran onlarca əsəri var. Çoxusu da maliyyə çətinliyindən işıq üzü görə bilmir. Şəxsən mənim yeni yazdığım 3 kitabım da "sandıqda" yatır. Bax, siz bu məsələdən - ədəbiyyatımızın, incəsənətimizin üzləşdiyi fəci durumdan danışın. Min cür məhrumiyyətlər hesabına yaranan ədəbiyyata yuxarıdan baxmaq ədalətsizlikdir. O ki qaldı xalqın, dövlətin səbrinə, bütün məqamlarda susmaq yox, yeri gələndə bir yumruq kimi ayağa qalxmaq lazımdır.

- Üstündən keçib gəldiyimiz və Sizin də yaşayıb-yaratdığınız dövrdəmi ədəbiyyat havası çox idi, yoxsa, indimi?

- Sovet dövründə ədəbiyyat havası indikindən çox yüksək idi. İndi ədəbiyyat havası yoxdur. Çünki şillə dəyib bizə, ancaq isti-isti olduğundan ağrısını hiss edə bilmirik, key kimiyik; ikinci səbəb isə odur ki, həmişə Yazıçılar İttifaqına - Birliyə yığışardıq, disputlar, müzakirələr keçirərdik, kitablarımızı çap edərdilər, qonorar verərdilər. İndi isə kitab çap etdirmək üçün özümüz pul verməliyik. Bax, şəxsən mən əlimdəki bu kitabımı ("Körpü çaydan uzaq düşüb") bir imkanlı adamın himayəsi ilə çap etdirmişəm. O, yaş yetirmiş bir ağsaqqala hörmət eləyib, əl uzadıb. Baş yetişməkdə olan gənc qələm sahiblərimiz neyləsin? Ədəbiyyatımızın gələcəyini istəyiriksə, bunu düşünməliyik. Dövlət himayəsi deməzdim - çünki dövlət himayə etsə, deyəcək ki, mən deyəni yaz "Sosializm realizmi"nin dadını hələ unutmamışıq. Ancaq bu və ya digər şəkildə ədəbiyyata müntəzəm qayğı lazımdır.

- Yeri gəlmişkən, Yazıçılar Birliyinin sonuncu qurultayı ərəfəsində ölkə başçısı Sizə yeni mənzilin orderini təqdim etdi, son günlərdə imzaladığı Fərmanla isə fərdi təqaüd təyin edildi.

- Elə o mənzilə görə də mətbuat adımı çox hallandırır: Bəxtiyarın mənzili yox idimi, təzəsi onun nəyinə lazımdır və s. Gördüyünüz kimi, mən liftsiz binanın beşinci mərtəbəsində yaşayıram. Birinci mərtəbədən mənim mənziliməcən 96 pilləkən var. Bir yerə gedib-qayıdanda əvvəlcədən evə zəng çalıram, mənim üçün kürsü düşürürlər və hər mərtəbənin meydançasında əyləşib nəfəs dərdikdən sonra özümə gəlirəm. İndi özünüz deyin o mənzil mənə lazımdır, ya yox? 50 illik yaradıcılığı olan bir şairə bu çoxdurmu? Mənə yeni mənzili irad tutanlar Badamdarda, şəhərin başqa yerlərində qurulmuş imarət və villaları görmürlərmi?

- Yeni nəsildəki xalq ruhuna, idrakına yadlıq, kor-koranə Qərbi yamsılamaq, kökündən, tarixindən ayrılmaq, gələcəyini özgürlüyündən uzaqlarda axtarmaq Vətənsizlik milli faciəsinə aparır. Yolumuza aydınlıq saçmalı olan ziyalılığı isə, dərin böhran yaxalayıb. Bu böhran nədən yaranır və ondan çıxmaq mümkündürmü?

- Kapitalizmə keçidlə əlaqədar bizdə çox böyük özündən uzaqdüşmə əmələ gəlib. Birinci növbədə, milli əxlaqımızdan, islam əxlaqından ayrılıq. Vətənsizlik, manqurtluq isə məhz buradan başlanır. Və nə qədər özgürlüyümüzdən uzaqlaşıb Avropanı yamsılayırıqsa, bir o qədər bədbəxt olacağıq. Bununla belə, lazım olan şeyləri öyrənməyin əleyhinə deyiləm. Ancaq hər şeyə milli əxlaq, mentalitet kontekstindən yanaşılmalıdır. Tamamilə doğru qeyd etdiniz ki, gəncliyin yad səmtə yön almasında başlıca səbəb ziyalılarımızın başlarının öz küylərinə qarışmasıdır. Böhrandan çıxmaq üçünsə, dəqiq resept vermək mümkün deyil. Ən yaxşısı odur ki, hər kəs özlüyünə çəkilib düşünsün, öz vicdanı ilə üz-üzə dayansın. Axı, nə qədər çəkişmək, didişmək olar?

- "Mən gəlmədim dava üçün,
mənim işim sevgi üçün

Dostun evi könüllərdir,
könüllər qurmağa gəldim".

- Ruh adamı kimi həyata Yunis İmrə baxışını Siz də təsdiqləyir, etiraf edirsiniz ki, siyasət adamı deyilsiniz. Elə isə umuküsülərə, qınaqlara səbəb olan siyasətdən, "Duma" oyunlarından imtina etmək mümkünsüzmü?

- Doğrudan da, mən siyasət adamı deyiləm. O qədər sadəqəlbəm ki, nə deyirdilər, inanırdım. Ancaq, sən demə, siyasət çox incə şeymiş. Siyasət demək istədiyini yox, məqamında lazım olanı demək imiş. Onu da mənim kimi sadəlövh şair haradan bilsin?! Ümumiyyətlə, bu qənaətə gəldim ki, söz adamı siyasətlə məşğul olmamalıdır. Ancaq bu o demək deyil ki, zamanın hadisələrindən kənarda qalasan, sözünü deməyəsən. Buna görə də mən bu qənaətə gəldim ki, sözümü kürsülərdən deyil, bədii yaradıcılıqla deyim. Ona görə də indi demək olar ki, siyasi səhnədən çəkilmişəm. Milli Məclisə də nadir hallarda gedirəm. Həm səhhətim pisləşib, həm də yaşım o yaş deyil. Çünki anam məni siyasətçi kimi yox, şair kimi, ruh adamı kimi doğub. Ona görə də Bəxtiyarı siyasətdə yox, şeirlərində axtarın. Və şeirlərimdə millətə lazım olanı görməsəniz, onda enimə də vurum, uzunuma da.

- Oxucu yazır: "Mətbuata verdiyiniz müsahibələrdə çoxumuzun aşkar bildiyi məsələlərin üstündən 70-ci illərin ehtiyatlılığı ilə adlayırsız. Axı, Siz də kömülməmizin səbəblərini ad-baad deməyəcəksizsə, bəs kim deməlidir?"

- Mən nə müsahibələrimdə, nə parlamentdə, nə də meydanlarda dövlət, xalq əhəmiyyətli məsələlərin üstündən ehtiyatla keçməmişəm. O oxucu dilimizin və millətimizin adı məsələsi müzakirəyə qoyulanda mövqeyimi birbaşa ölkə başçısına açıq bildirməyimi, bu barədə "Ədəbiyyat qəzeti"ndə böyük məqalə ilə çıxış etməyimi, Vətən uğrunda döyüşə bilmədiyimiz haqqında haraylarımı nə tez unudub?

Biri-birimizə uyuşan deyil,
Biri-birimizə tərs düşən olduq.

Biz Vətən uğrunda döyüşən deyil,
Vəzifə uğrunda döyüşən olduq.

Məgər bu, içində yaşadığımız günün ağrısı deyilmi? Bu, ehtiyatlılıqdırmı?

- Ömür dedikləri bir ilğımlı yolda sözünüzlə azadlıq carçısı oldunuz. Bəs azadlıqda nə yazırsınız? "Şəbi-hicran"dan, "Şəbi-aris"ə - Vəsl gecəsinə qovuşa bildinizmi?

- Bu sualınıza ancaq şeirlə cavab verəcəyəm.

"O zaman yazmışdım:

Azadlıq-səhər,
Bu səhər arzusu ölə bilərmi?
Məhkum xalqlar üçün azadlıq qədər
Böyük bir səadət ola bilərmi?..."

İndi yazıram:

Azadlıq! Nəhayət, qovuşduq sənə,
Amma deyəmmədik: "Şükür Allaha!"
...Elə bir gündəyik qollarımızda
Qandala çevrilib azadlığımız...
Vəzifə eşqinə, mənsəb eşqinə
Qardaş qardaşına güllə atırsa,
Düşmən əsgərinə, yad əsgərinə
Halal torpağını əgər satırsa,
Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən!

Deyəsən, "Şəbi-aris"in yolu çox uzundur. Amma, dözməli, qanla qazandığımız istiqlalın qədrini bilməli, qorumalıyıq. Gec-tez azadlığın bəhrələrini dərəcəyik.

- Yeni ilin astanasında məmləkətimizin və millətimizin gələcəyinə

qəlb adamı Bəxtiyar Vahabzadənin gözləri ilə baxmaq istərdik.

- Həmişə arzulayırdım ki, millətim rusun tapdağından xilas olsun. Allaha min şükür, xilas olduq. Yaxın gələcəkdə isə ən imkanlı bir ölkəyə çevriləcəyik. Millətimizin müəyyən qüsurları olsa da, işlək millətdir. Ailəcanlıdır. Və ailə dağılmasa, cəmiyyət də dağılmaz. Gələcəyimizi yaxşı görürəm, ümidsiz deyiləm. Müstəqilliyimizi mədəmizə qurban verməsək, uğurlarımızın olacağına şübhə etmirəm.

Söhbətləşdi: Bəsti Əlibəyli

"Müxalifət" qəzeti, 31 dekabr, 1997.
"Zaman və mən", Bakı, 1999.



KÜLƏKLİ GÜNDƏ MÜSAHİBƏ

Çöldə külək getdikcə güclənir, qar gətirəcəyini xəbər verirdi. Xalq şairi Bəxtiyar Vahabzadənin bu gün bir çoxumuzu narahat edən məsələlərə dair düşüncələri isə onun Hüsü Hacıyev küçəsindəki mənzilində mənəvi yellər kimi əsirdi.

1998-ci il fevralın 7-si idi...

DİLİMİZ

- Düzü, telefonun dəstəyini götürüb, Sizə niyə zəng elədim və niyə görüşmək istədim, - bunu izah edə bilməyəcəyəm. Yəni bu, sadəcə olaraq, Sizdən bir müsahibə götürmək istəyi deyil...

- Başa düşdüm səni. Belə şeylər olur. Ürək narahat olanda olur. Belə vaxtlarda kiminləsə dərdləşmək, suallarına cavab almaq istəyirsən, yoxsa, ürək dözməz. Hamımız beləyik. Yaxşı eləyib gəlmisən. Mən də səhərdən keçmiş tələbələrimin biri haqqında bir məqalə üzərində işləyirdim, amma tamam unutmuşdum ki, o, mənim tələbəm olub. Bir az bundan qabaq Bəkir zəng etmişdi (akademik Bəkir Nəbiyev - Ə.Ş.), o yadıma saldı. Yaxşı, Şəki paxlavası ilə aran necədir?

- Çox şirin olur.

- Onda bu almanın dadına bax. Bazardan gəlməyib, Şəkidəki bağımdandır. Hesab elə ki, o bağ da mənim əsərimdir. Amma o "əsəri"

yaradanda yaxşı məsləhətçilərim olub. Şəkidə torpağın, ağacların dilini, ağzının dadını yaxşı bilən bağbanlar çoxdur. Və o bağı salmağa başlayanda bir daha əmin oldum ki, torpaq üzərində əsər yaratmaq kağız üzərində əsər yaratmaqdan asan deyil. Hətta bəlkə də çətindir. Yəni bu, bir günün, bir ayın, bir ilin işi deyil. Özü də bağ, heç vaxt bitməyən, heç vaxt tamamlanmayan bir "əsərdir". Onun üzərində ömrün boyu işləyirsən, təkmilləşdirirsən, günbəgün, aybaay, ilbəil onun yeni "misralarını", yeni "fəsillərini" yazırsan və qəribədir ki, heç vaxt yorulmursan. Ona görə də mən torpağa toxum səpən, ağac əkən, məhsul yetişdirən adamı - əkinçini, bağbanı ən böyük sənətkar hesab edirəm. Xülasə, bu, uzun işdir, böyük fəlsəfədir. İmkanın olsa, bu il yayda gələrsən Şəkiyə, bağda gəzə-gəzə bu fəlsəfəni özümüz üçün yavaş-yavaş xırdalayarıq. Hər il düz üç ay mən o bağdan qıraға çıxmıram.

- Dəvət üçün sağ olun. O tərəflərdə çoxdan olmamışam, heyf ki, yaya da hələ çox var... Bayaq siz "dil" dediniz və mən bir görüşdən aldığım təəssüratı Sizinlə bölüşmək istəyirəm. Fevralın 6-da məni çox gözəl bir tədbirə dəvət etmişdilər. R.Behbudov adına Mahnı Teatrında yazıçı və jurnalist Mehriban xanım Vəzirin "Məhbusun arzuları" hekayələr kitabının təqdimatı idi. Necə gözəl adamlar gəlmişdilər o mərasimə! Necə də qəlb oxşayan bir axşam idi o axşam!...

- Televiziyada işləyən Mehribanı deyirsən, eləmi? Yaxşı tanıyıram, bir neçə hekayəsini də oxumuşam, iki-üç dəfə də televiziyada məndən müsahibə alıb. İstedadlı, ağıllı qızdır. O məclisə məni də dəvət etmişdi. Təəssüf ki, səhhətim gündəlik işlərimdə, planlarımda hərdən düzəlişlər edir. Həmin gün qan təzyiqi qoymadı ki, gedib onu təbrik edim.

- Mərasimi azəri-türk qadınları Cəmiyyəti təşkil etmişdi. Çıxışları dinləyirdim, zala göz gəzdirdim. Bilirsiz, orada bu gün müəyyən qədər yaxşı yaşayan, güzəran qayğılarının divara dirəmədiyi adamlar da vardı, çörəklə imtahana çəkilənlər də, rəhbərliyin siyasətini ürəkdən bəyənənlər də var idi, mətbuatda bu siyasəti tənqid edənlər də, qocalar da vardı, cavanlar da və bütövlükdə bu, ölkəmizin, xalqımızın özü idi. Görəydiniz, bu adamlar necə səmimi, necə mehriban, necə

böyük hörmət və məhəbbətlə danışırdılar. Xalqımız, mədəniyyət və incəsənətimiz, xüsusən də ədəbiyyatımız haqqında necə dəyərli fikirlər söyləyirdilər! Kim həyatda, sənətdə necədirsə, səhnədə də o cür idi. Sabir Rüstəmxanlı, Ələviyyə Babayeva, Qabil, professor Tofiq Hacıyev, professor Nizami Cəfərov... Dilimiz nəğməyə dönmüşdü. Orada boğazdan yuxarı, süni bir pafosla deyilmiş bircə kəlmə də eşitmədim. Çox məhrəmanə bir söhbət gedirdi. Həm də duran-duran zaldakılara bərk-bərk tapşırırdı: Gənclərdən, gənc ədəbi qüvvələrdən muğayat olun! Və mən bütün bu söhbətləri dinlədikcə düşünürdüm: Nə üçün biz bir-birimizlə həmişə belə danışmırıq? Həmişə bu cür səmimi deyilik. Axı, Azərbaycan dili şər, böhtan dili deyil, ülvi bir səmimiyyət dilidir. O vaxt ki kimsə bu dildə yalan danışır, böhtan söyləyir, həqiqəti örtbasdır etmək istəyir, onda bu dil daha Azərbaycan dili olmur, dönüb başqa bir dil olur.

- Bu, mənim də ürəyimi ağrıdır ki, nəyə görə son zamanlarda iqtidara, müxalifətə ayrılandan sonra bizim ziyalılarımız arasında didişmə olsun, çəkişmə olsun? Niyə biz bir-birimizi anlamayaq, bir-birimizlə düşmən münasibətində olaq? Hamımız bir Vətənin, bir ananın, bir millətin övladıyıq. Heç olmasa bu mədəniyyət məsələlərində gərək birləşək, əl-ələ verək. Dərdlərimiz ümumidir, arzularımız ümumidir, bizi birləşdirən şeylər daha çoxdur, nəinki bizi bir-birimizdən ayıran cəhətdir. Ayıran cəhətlər çox zaman şəxsi maraqdan gəlir. Məsələn, mən belə güman edirəm ki, çox zaman bu vəzifə davasıdır. Vəzifə davasına görə, iqtidara çatmaq üçün didişmələr, çəkişmələr... Bunlar mənim ürəyimi ağrıdır və hətta bu barədə bir şeir də yazmışam. İkincisi də gələk dilimiz haqqında dediklərinizə. Mənim, sizin bu dilə vurğunluğumuz təkcə azərbaycanlı olduğumuza görə deyil, ümumiyyətlə, bizim dilimiz, imkanlı və zəngindir. Bir misal çəkmək istəyirəm. Bizə düşmən kəsilən həmin o Silva Kaputikyanın kitablarından birini - adı yadımdan çıxıb, onun ruscasını oxumuşam ("Karvan hələ yoldadır" - Ə.Ş.) – bu sözlərlə başlayır: Mən bu kitabı yazmağa başlamaq üçün yaradıcılıq evinə gəldim. Yorğun idim, çamadanımı yerə qoydum və istirahət

etməyə başladım. Radionu açdım, gördüm ki, uşaqlar üçün türk dilində veriliş gedir. Radio belə deyirdi: "Biri varmış, biri yoxmuş, Allahdan başqa kimsə yoxmuş". Bu sözləri Kaputikyan Azərbaycan dilində səsləndiyi kimi yazır və deyir: Öz-özümə düşündüm ki, İlahi, bu nə gözəl dildir! Bu bülbül cəhcəhidir, bu, dil deyil, bu, - nəğmədir! Sonra isə Kaputikyan yenə sayıqlamağa başlayır ki, bu gözəl dildə danışan millət niyə belə vəhşi olub, soyqırımı törədib və ilaxır. Yəni, Kaputikyan həmişəki kimi böhtan toru toxumasa, Kaputikyan olmaz... Amma bu, bir həqiqətdir ki, başqa millətlərin övladları dilimizə məftun olduqlarını dəfələrlə söyləyiblər. Bu cür adamlara mən çox rast gəlmişəm və həmişə də ürəyim qürurla döyünüb ki, dilimiz başqalarını da valeh edəcək dərəcədə gözəldir. Mən bir misal da gətirmək istəyirəm. Yevgeni Yevtuşenko ilə bizim dostluğumuz uzun müddətdir ki, davam edir və Rimma Kazakova ilə də həmçinin. Bunlar mənim əsərlərimi rus dilinə tərcümə edirdilər. Bildiyiniz kimi, adətən əvvəlcə şeirlərin sətri tərcüməsi gedir və şeirlər bu sətri tərcümə əsasında rus dilinə tərcümə olunur. Biz isə onların şeirlərini alırıq və birbaşa öz dilimizə çeviririk. Və hər iki şairdə mən bunu görmüşəm: sətri tərcümələri oxuyandan sonra həm Yevtuşenko, həm də Kazakova deyir ki, "indi bu şeiri mənim üçün Azərbaycan dilində oxu". Şeiri oxuyuram. Mən oxuduqca, onlar şeirin melodiyasını götürür, ritmini tuturlar. Ona uyğun da, rus şeiri vəznində takt seçirlər. Digər tərəfdən də, hər dəfə mən şeiri oxuyandan sonra Yevtuşenko da, Kazakova da hayıl-mayıl olub deyirlər ki, İlahi, bu nə gözəl dildir!

Məlumdur ki, bizim dilimiz türk dilləri qrupuna aiddir. Amma mən deyərdim ki, Azərbaycan dili həmin qrupa daxil olan dillərin içində ən imkanlı dildir. Bunun da bir əsas səbəbi var. Türkiyə türkləri son zamanlarda dil inqilabı elədilər. Yəni ərəb və fars dillərindən keçmiş sözləri uydurma və süni sözlərlə əvəz etdilər. Məsələn, "fövqəladə" kimi sözün əvəzinə "olağanüstü", "təbiət" kimi sözün əvəzində "doğal" yazdılar, əsərə, kitaba "yapıt" deməyə başladılar. Başqalarını deyə bilmərəm, amma düzəltmə sözlər mənə çox süni görünür. Çünki uydurma sözlərdir

və mən Türkiyədə bu barədə bir məqalə də çap etdirmişəm. Bizim ləhcəmizdə dəqiqlik və ilkinlik qorunub saxlanıb. Məsələn, Türkiyə telekanallarına baxanda hərdən eşidirəm ki, filan yerdə "trafik kaza olmuş, üç kişi hayatını kayb etmişdir". "Hayatını kayb etmişdir" nədir? Bu üç sözdənsə, bircə kəlmə, "ölüb" demək daha yaxşı deyilmi?

- Bunlar öz yerində. Amma mən demək istəyirəm ki, Azərbaycan dilinin özü bizi, yəni bu dildə danışanları səmimiyyətə dəvət edir. Səmimilik bu dilin, əgər belə desək, canında, qanındadır. Başqa sözlə, bu dildə danışan adam qeyri-səmimidirsə, riyakardırsa, mənim üçün o, daha Azərbaycan dilində deyil, hansısa başqa bir dildə danışır.

- Nə gözəl, nə gözəl! Tamamilə haqlısan, bilirsinizmi səbəbi nədir? Çox düşünmüşəm bu barədə. Çünki tərcümə ilə də məşğul olmuşam. Məsələn, bəzən olur ki, rus dilində bir sözün qarşılığını Azərbaycan dilində dəqiqliyi ilə tapa bilmirəm. Niyə tapa bilmirəm? Ona görə yox ki, o sözü mən rusca bilmirəm, yaxud onu duymuram, hiss etmirəm. Yox, məsələ bunda deyil. Səbəbi ondadır ki, bizim dilimiz çox emosional dildir, səmimi dildir, ürək dilidir, gönül dilidir, sənət dilidir və ən doğrusu, sentimental dildir. Ona görə də bu dil ünsiyyət yaratmağa ən çox imkanı olan bir dildir və bu dildə ən səmimi, ən incə duyğuları, ən incə mətləbləri, ən incə nəzakəti ifadə etmək daha asandır. Amma dilimizdə rəsmi protokol və dəftərxana məsələlərinə aid deyim tərzinin dəqiq ifadəsini tapmaq nisbətən çətindir.

- İndi təsəvvür edin: həmin o Mahnı teatrında, yaşının bu çağında öz dilinin sehrinə təzədən düşmüş bir şəxs - yəni mən, durub çıxır eşiyə və nə görür? Hər tərəfdə reklamlar par-par alışıb yanır, amma bu reklamların, demək olar ki, hamısı əcnəbi dillərdədir və bu adam öz dilində çox az sözə rast gəlir. Onun halını təsəvvür etmək, zənnimcə, çətin deyil. Yəni bu küçələrdə, bu meydanlarda, evlərin üstündə mənim dilimin elə bir nişanəsi qalmayıb.

- Haqlısan. Bu, çox yaralı məsələdir. Bir zaman Bakıda küçələrimizin adları belə yazılırdı: bir tərəfdə Azərbaycan dilində, bir tərəfdə rus dilində. İndi isə yeni lövhələr, reklamlar peyda olub və bunlar çox zaman yalnız əcnəbi dillərdə yazılır. Məsələn, dükanın üstündə "şop" ya-

zılıb. Heç o dükanların özü bilmir ki, şop nə sozdür.

- Yazılarımın birində mən də kinayə ilə "dükançı"-nı, "dükandarı" - "şopçu", şoplar adlandırmışam.

- Neyləyəsən?! Ona görə bu məsələ mənə də çox toxunur. Təxminən bir il bundan qabaq bir şeir yazmışdım. Həmin şeirdə belə misralar var:

Bir vaxt rusca idi reklam-işıqlar.
İndi ingiliscə dürtülür gözə.
İtin də dilinə hörmətimiz var,
Təkcə öz dilimiz yaramır bizə.

Çox qəribədir ki, nəsə biz başqasının kölgəsini çox sevirik. Biz qəribə millətik, başqasının kölgəsi üstümüzdə olmasa, elə bil ki, yaşaya bilmirik. Mən bunu görəndə əsəbiləşirəm. Nəyə görə reklamlarımız başqa dillərdə olsun və nəyə görə mən Bakının küçələrindən keçəndə hiss etməyəm ki, bu, Azərbaycan şəhəridir, bu, Azərbaycanın paytaxtıdır, bura Azərbaycandır. Axı, belə olmaz!

Yazıçıların qurultayında professor Tofiq Hacıyev də bütün bu məsələlərə çox gözəl toxundu və mənə belə gəlir ki, prezident də onun dediklərinə müsbət yanaşdı. Bu, çox mühüm məsələdir və xahiş edirəm ki, qəzetinizdə bu barədə yazasınız. Bildirəsiniz ki, dilimizin heysiyyətinə bu şəkildə toxunmaq günahdır, hətta deyərdim ki, cinayətdir.

MƏN BU İŞƏ MATAM

- Məni bir məsələ də düşündürür: hər hansı bir istedadlı yazıçı haqqında söhbət gedəndə, onun yaradıcılığının məziyyətlərindən danışanda belə bir cəhəti xüsusi qeyd edirlər ki, o, adiliyi görə bilir, adiliyin xarakteristikasını verə bilir. Mənə belə gəlir ki, adilik həm də təbiilikdir, təbii olan şeylərdir. Yəni Günəşin çıxması, qürub çağı, Ayın batması, qışda

qarın yağması təbii olduğu qədər də bizim üçün adilikdir. Müharibə isə qeyritəbiidir. Ruslar "zanimayetsya zarya" deyirlər, amma heç vaxt deməzlər ki, "zanimayetsya voyna". Çünki müharibə günəş deyil ki, özü çıxa, başlana. O, öz-özünə başlanmır, onu törədirlər, alovlandırırlar... Söhbəti ona gətirirəm ki, yazıçı, publisist, bir sözlə qələm əhli bu gün adiliyi - təbiiliyi gördüyü qədər də qeyri-adiliyi – xırda uşaqların əllərinə əski götürüb yolların qırağında durmalarını, maşınlar dayanan kimi yüyürüb onların şüşələrini silmələrini və əksinə, başqa bir vətəndaşın qısa bir vaxt ərzində sərvət, mal-mülk sahibinə çevrilməsini də görməli və belə qeyri-təbii gerçəkliyin anatomiyasını da bilməlidir.

- Yazıçılığın, jurnalistliyin birinci şərti hamının görmədiyini görə bilmək bacarığıdır. Adiliyi görüb ümumiləşdirmək isə artıq sənətkarlıqdır. Sözünüzün üstünə gəlirəm: bu gün halal maaşla imarət ucaltmaq mümkün deyil, hətta nə qədər mükafat da alsan, mümkün deyil. Özünün sahibkarlıq fəaliyyətində halallığı uca tutan, qəpiyi qəpiyin üstünə qoyub az-çox vəsait toplayan bəzi iş adamları üçün də bu, asan iş deyil. Gəlin, görək, əslində nələr baş verir. Məscid, məktəb, xəstəxana tikdirmək, sözsüz ki, xeyirxah işdir. Amma bu yaxınlarda bir nəfər televiziya ilə çıxış edib dedi ki, "mən ailəmin büdcəsi hesabına məscid tikdirmişəm", soruşmaq ayıb olmasın, bu ailənin büdcəsi nə imiş görəsən və bu büdcə hansı gəlirlər hesabına formalaşır? Həm də məscid, axı, hallalıq ocağı, paklıq məbədi, Allah evidir! Haram pul ilə məscid tikdirmək nadürüst əməldir. Nə təhər olur ki, mən - əlli il bədii və elmi yaradıcılıqla məşğul olan, ana dilində əlliyə qədər kitabın və onun yarısı qədər də xarici dillərdə buraxılmış kitabın müəllifi olan bir şəxs heç bir hin də tikdirə bilmirəm, amma sən ailə "büdcəsinin" hesabına məscid tikdirirsən? 40 ildən çoxdur ki, mən bu evdə, bax, bu beşinci mərtəbədə yaşayıram. Və 40 ildən çoxdur ki, istəyirəm, bu evdən çıxım, çünki lifti yoxdur, mən bu beşinci mərtəbəyə çətinliklə qalxıram, amma bunu edə bilmirəm. İmkanım olsaydı istəməzdimmi ki, özümə iki, üçgözlü ayrıca bir ev tikdirim? Mən bunu bacarmadım. Bilirsiniz, mənim çox yaralı yerimə toxundunuz. Bu yaxınlarında prezidentin göstərişi ilə mənə liftli binada mənzil verdilər. Bunu bütün respublika bildi, televiziya ilə deyildi,

qəzetlər də bunu xəbər verdilər. Amma bəzi qəzetlərdə bunu nə cür yazırlar? Bax belə: Məgər Bəxtiyar Vahabzadənin evi yox idi ki, ev alır? Mən də həmin o mətbuat orqanlarından soruşmaq istəyərdim: qardaş, bəs sən o tikilən imarətləri görmürsən? Necə olur ki, sən o 4-5 mərtəbəli imarətləri görmədin, amma mənə dörd gözdən ibarət bir mənzil verdilər, onu gördün? Sənin şairin, yəni buna layiq deyildi?

Bəxtiyar Vahabzadəyə mənzil verilir və o saat bu, suallar doğurur. Amma bir bank müdiri ona inananların, yəni camaatın 48 milyon dollarını götürüb aradan çıxırsa, bu, o qədər də böyük söz-söhbətə səbəb olmur. Qəribə deyilmi? Yaxud dedilər ki, qaçqınlar üçün göndərilən humanitar yardımın neçə milyon dollarını vəzifəli şəxslərdən biri mənimsəyib. Həmin vəzifəli şəxsdən soruşmaq istərdim: Əgər sən belə bir iş tutmamısansa, səni mətbuatda ittiham edən adamı nə üçün məhkəməyə vermirsən?

Mən bunu anlamıram. Rəhmətlik professor Mirzə Feyzullanın (Feyzulla Qasımzadə - Ə.Ş.) bir sözü vardı: "Atam-atam, mən bu işə matam!" Mən də mat qalmışam ki, qaçqınlarımız qışın soyuğunda çadırlarda yaşayır, amma bir nəfər 48 milyon oğurlayır. Artıq bu - korrupsiyadır. Məgər bizim hamımız bir Vətənin, bir millətin övladı deyilikmi? Bəs bu niyə belə olur? Bəs həmin adamın vicdanı, insafı, milli hissi hardadır?

ONLARI UNUTMAMALIYIQ

- Bura gəlib Sizin bu beşinci mərtəbəyə çatanda qapınızın ağzında dayanıb nəfəsimi dərdim. Sonra başımı qaldırıb üzbəüz qapıya baxdım və onun üstündəki lövhədə oxudum: Əliağa Kürçaylı. Və mənə belə gəldi ki, Əliağa Kürçaylı sağdır, indi yaxınlaşıb zəngin düyməsini basacağam və qapını onun özü açacaq. Çox qəribədir: gözəl şairin xatirəsini kiçicik bir lövhə də yaşadarmış...

- Mən də hər dəfə bu qapıdan çıxanda o lövhəni görürəm, Əliağa Kürçaylı gəlir durur gözlərimin qabağında. Neçə il qapıbir qonşu olmu-

şuq. Mən bu qapıdan çıxmışam, o da o qapıdan, pilləkənin başında görüşmüşük... Dünyadır da! Bizim heç vaxt unudulmayacaq sənətkarlarımız, qiymətli adamlarımız çoxdur. Onlardan biri də Əliağa Kürçaylıdır. Bəs Əhməd Cəmil? Əhməd müəllim qonşu blokda yaşayırdı. Onları, Osman Sarıvəllini unutmaqmı olar?! Heç vaxt! İnan ki, mən ədəbiyyata gələndə Əhməd Cəmildən, Osman Sarıvəllidən öyrənmişəm. Onları özümə ustad hesab etmişəm. Son vaxtlarda televiziyaya bir iki dəfə də zəng etmişəm. Xahiş etmişəm ki, Osman Sarıvəlli, Əhməd Cəmil, Rəsul Rza, Zeynal Xəlil, İsi Məlikzadə, Əliağa Kürçaylı haqqında, aramızdan vaxtsız gedən başqa şair və yazıçılarımız haqqında verilişlər hazırlasınlar. Əminəm ki, biz o verilişləri görəcəyik.

- Və yenə bu misraları eşidəcəyik:

Can nənə, bir nağıl de...

- Bah, sənin də yadındadır? Klassikadır bu! Mənim nəvəm dünən gəlib dedi ki, baba, səndə Əhməd Cəmilin kitabı var? Gətirdim verdim, soruşdum ki, qızım, nəyi axtarırsan bu kitabda? Dedi ki, müəllimimiz bizə Əhməd Cəmilin "Can nənə, bir nağıl de" şeirini əzbərləməyi tapşırıb.

- Eşq olsun həmin müəllimə!

- Sağ olsun! Müəllim görüb ki, bu şeir dərslikdə yoxdur, ona görə də uşaqlara bu şeiri əzbərləməyi əlavə tapşırıq verib.

Mən dəfələrlə Təhsil Nazirliyinə zəng etmişəm, demişəm ki, bu cür şeirləri dərsliklərə salın, uşaqları bu şeirlərdən məhrum etməyin.

- Can nənə, bir nağıl de!
- Ömrüm-günüm yat daha.
Hamısını indi desəm,
Nağıl qalmaz sabaha...

Nə qədər şirindir, nə qədər gözəldir!

Məni narahat edən bir məsələ də var: xaricdə çəkilmiş zorakılıq filmləri, "ujas" filmləri. Bunlar bizim uşaqlarımızın, yeniyetmələrimizin, gənclərimizin əxlaqına elə balta çalır ki, heç deməli deyil. Kim nə de-

yir, desin, amma mən inanmıram ki, Amerikada çəkilmiş bu filmləri Amerikanın özündə göstərələr. Çünki bu, cavanların psixologiyasını korlayır, uşaqlara zorakılıq hissini aşılayır, sadizmi, despotizmi təbliğ edir. Nə qədər ev yandırmaq olar, nə qədər qan tökülər, namusa nə qədər təcavüz edilər - hamısı bu filmlərdədir. Adam öz arvad-uşağı ilə oturub televizora baxa bilmir, xəcalət çəkir. Nə qədər eybəcərlik olar? Mətbuatımız bunları da görməlidir, susmamalıdır, cəmiyyətimizin əxlaqını pozan belə üzdəniraq "incəsənət" nümunələrinə dözümsüzlük şəraitinin yaranmasına kömək etməlidir. Bu cür "şirpotrebin" ölkəmizə idxalına qətiyyən yol vermək olmaz. Çünki bu, açıq-aşkar təxribatdır, əxlaqımızı pozmaqdır.

Mənəviyyatımızın, əxlaqımızın dayaqlarını, zəngin tarixi keçmişimizin misilsiz yadigarlarını isə dağıdıb alt-üst edirlər. Bu yaxın vaxtlarda İçərişəhərdə olmusanmı? Elə günü sabah get, bir tamaşa elə. Gör ki, nə biabırçılıqdır. Sökürlər, tikirlər, bir Allah bilir ki, nə qayırırlar. İçərişəhərin əski arxitekturasını qoruyub saxlamaq lazımdır. Yoxsa o pullar ki, var ey, onun qabağında Qala divarları da davam gətirməz. Gərək mətbuatımız İçərişəhər qarşısında özünü sipərə çevirə. Axı, İçərişəhər hələ sovet dönəmində qoruq elan olunub.

- Bu da çox maraqlıdır: Azərbaycana, Bakıya kimlər gəldi, kimlər getdi, İçərişəhərə dəyib toxunmadı. İranlı gəldi, dağıtmadı, rus gəldi, dağıtmadı, 1918-ci ildə ingilis gəldi dağıtmadı, sovet hökuməti gəldi dağıtmadı, hətta qərar çıxartdı ki, tarixi abidələri, keçmişin mədəniyyət abidələrini qorumaq lazımdır və İçərişəhəri də Dövlət memarlıq qoruğu kimi gözünün üstündə saxladı. İndi bizim özümüz - müstəqilliyini əldə etmiş bir ölkənin vətəndaşları - bunu niyə dağıdırıq? Düzü, heç nə başa düşmürəm.

- Mən isə, ümumiyyətlə, belə şeyləri başa düşməkdən yorulmuşam. Çünki bu, mənəviyyatsızlıqdır. Hər şeyin təhri var, hər şeyi pula qurban vermək olmaz. Elə buna görə də mən kazinoların bağlanmasını ürəkdən alqışlayıram. Bunlar mənəviyyatsızlıq, əxlaqsızlıq yuvalarıdır. Bilirsən, hərdən mənə də elə gəlir ki, bu xarici dövlətlərin məqsədi bizi öz kökümüzdən qoparmaqdır, bizi dəyişdirib başqa şəkillərə salmaqdır

və bu işdə onlar özümüzünkülərdən icraçı kimi istifadə edirlər.

"MƏN EHTİYATLI NİKBİNLƏRDƏNƏM"

- Bütün bunları nəzərə alanda, sizin dediklərinizi də eşidəndə aydın görürsən ki, cəmiyyətin ovqatı birmənalı deyil, bu ovqatın iki qolu var: nikbinlik və bədbinlik qolu. Siz hansı qoldansınız?

- Düzünü bilmək istəsən, mən ehtiyatlı nikbinlərdənəm. Onu əsas götürürəm ki, hər şey axır, hər şey dəyişir, bu dialektikadır. Çünki yaman günün də sonu olmalıdır. Belə davam edə bilməz. İnanıram ki, bir neçə ildən sonra millətimiz indikindən qat-qat yaxşı yaşayacaq. Mən buna inanıram. Bəlkə də özümü inandırmaq istəyirəm. Əgər millət bir yumruq kimi birləşsə, əlbir olsaq, bir-birimizə arxa olsaq, bir-birimizlə səmimi olsaq...

- Gəldik söhbətimizin əvvəlinə - səmimiyyətdən başlamışdıq...

- ...Bəli, səmimi olsaq, torpağımızı onu bizə vəsiyyət edənlər qədər sevsək, istədiyimizə nail olacağıq. Xalqımız zəhmətkeş, səmimi, istiqanlı və ailəcanlıdır. Ailəcanlıdır - deməli, öz övladlarının, öz ölkəsinin gələcəyini düşünür.

Amma mən "əgər" dedim, mənim ehtiyatlı nikbin olmağım da bu sözlə bağlıdır. Söhbətimizi buradaca bitirək. İndi isə... Şəki paxlavası qaldı ha! Özün bax, sonra peşman olarsan. Qoy deyim, adama bir stəkan çay gətirsinlər...

Bayırda soyuq külək əsirdi...

Müsahibəni apardı: Ələkbər Şəhrili

"Günay" qəzeti, 12 fevral, 1998.
"Zaman və mən", Bakı, 1999.



“SESSİYA ÇAĞIRMAQ ŞƏXSİ TƏŞƏBBÜSÜM İDİ”

“Respublika” qəzetinin əməkdaşı Alxan Bayramoğlu “Şənbə gecəsinə gedən yol” kitabının müəllifi, xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşüb ondan 1990-cı ilin sarsıntılı yanvar günlərində Bakıda olan ictimai-siyasi durum barədə öz fikrini söyləməyi xahiş etmişdir. Həmin söhbəti oxuculara təqdim edirik.

- Bəxtiyar müəllim, necə bilirsiniz, 1990-cı ilin “şənbə gecəsi” zəruri idimi?

- Mən o barədə bir kitab da yazmışam: “Şənbə gecəsinə gedən yol”. Əslinə baxsan, mən siyasətçi deyiləm. Düzdür, Xalq Cəbhəsi fəaliyyətdə idi, milli azadlıq hərəkatı var idi, milli azadlıq duyğuları yetişmiş, cavanlarımız milli şüura yiyələnmişdilər, amma bütün bunlar “Şənbə gecəsi”ni zəruri hesab etməyə əsas vermirdi.

- Bəs hadisələrin içində olan adam kimi, şənbə gecəsinin törənməsinin obyektiv və subyektiv səbəbləri barədə nə deyə bilərsiniz?

Mən hiss eləyirdim ki, cavanların hərəkətləri - yolları avtobus, trolleybus, hətta “Moskviç” maşınları ilə kəsərək “barrikadalar” qurmağa çalışmaları yaxşı nəticə verməyəcək. Onlar bu əməlləri ilə rus qoşununun və ya tankların qabağını kəsmək əvəzinə imperiyanın əlilə üstümüzə qoşun yeritmək üçün dəstəvüz verirdi. Bu barədə həmin günlərdə Aeroport yolunun bəri başında, dördyolun yaxınlığında yola

“Moskviç”, avtobus qoyan cavanlara da dedim. Cavab verdilər ki, müəllim, bunlar sənlik deyil, öz yolunla get... Odur ki, qoşun yeridilə biləcəyini hiss edirdik. O günlərdə ermənilər silahlandırılırdı. Amma bizdəki ov tüfəngləri də yığışdırılırdı. Mən hələ o vaxt – 90-cı il, yanvarın 10-15-i arası gördüklərimin təsiri altında yazdığım şeirin bir yerində deyirdim:

Mərkəz dəyişdirir gündə rəngini,
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini
Amma ermənin topunu görmür.

Bütün bunlar bizə əsas verirdi ki, imperiyanın Azərbaycana qarşı məkrli bir plan hazırlaması qənaətinə gələk. Amma yuxarıda dediyim hərəkətlərlə imperiyanın əlinə biz də bəhanə verdik ki, Bakıya qoşun yeritsin. Etirazımızı başqa şəkildə də bildirə bilərdik, amma belə oldu...

Təhlükə hiss elədiyimizə görə bir qrup ziyalı - rəhmətlik İsmayıl Şıxlı, mən, Nurəddin Rzayev, Şeyx Allahşükür Paşazadə və Həsən Həsənov yanvarın 17-də Ə.Vəzirovun yanına getdik. Kabinetə girəndə Primakovla Girenkovu da orada gördük. Mən dərhal Primakovun üstünə hücum çəkdim ki, bizdən nə istəyirsiz, niyə əl çəkmirsiz? Sizə nə pisliyimiz keçib?

Bunu görən Vəzirov məni qucaqlayıb sakitləşdirməyə çalışdı. Bu zaman şeyx məndən də kəskin şəkildə Primakova hücum çəkdi. Onda Primakov qayıtdı ki, axı, biz dost idik. İki ay bundan əvvəl evində məni qonaq etmişdin. İndi sənindəmi üzün döndü? Şeyx cavabında dedi ki, onda qonaq kimi gəlmişdin, amma indi hiss edirəm ki, xoş niyyətlə gəlməmisən. Xalqıma qarşı təhlükə olan yerdə mən heç kəsi tanımıram. Düzünü de, görüm, qırğın olacaq, ya yox? Onlar bizi sakitləşdirməyə çalışdılar ki, qırğın olmayacaq. Ancaq Vəzirov deyəndə ki, mənim xəbərim yoxdu, yalan deyirdi. Primakovgil bir həftə əvvəl Bakıya gəlmişdilər. Vəzirov da bilirdi ki, şəhərə hücum olacaq. Bunu biz də hiss etdiyimiz üçün kabinetdən çıxanda H.Həsənov dedi ki, qırğın ola-

caq. Şeyx də o fikirdə olduğunu bildirdi.

Odur ki, oradan, Həsəndən başqa, biz dörd nəfər Xalq Cəbhəsinin qərargahına getdik. Orada Nəcəf Nəcəfovu tapıb gəlişimizin səbəbini, qırğın təhlükəsindən qorxduğumuzu söylədik. Nəcəf bizi arxayın etdi ki, qırğın olmayacaq. Çölə çıxanda mənim qoluma girib dedi, Bəxtiyar müəllim, 9 aprel, Tiflis qırğınından sonra rusların başı daşa bərk dəyib. Onlar bu hadisənin qorxusundan Bakıya qoşun yeridə bilməzlər. Düzü, Nəcəfin bu məntiqi mənim də beynimə batdı.

- Bəxtiyar müəllim, o zaman qırğın törədilib-törədilməyəcəyi barədə camaat da təşviş və narahatlıq keçirir, hökumətə bu sualla çoxsaylı müraciətlər olurdu. Onda Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi Əfrand Daşdəmirov radio və televiziya ilə xalqa bildirdi ki, heç bir qırğın olmayacaq. Belə çıxır ki, o zamankı yerli hakimlər imperiya qüvvələri ilə əlbir olub camaatın başının altına yastıq qoyub, onlar üçün qırğın hazırlayırmışlar.

- Bu işlər hakimiyyətdə olanların əli ilə olub. Hər birinin nə qədər günahı varsa, onu bir Allah bilir.

- Yanvarın 13-də Xalq Cəbhəsi tərəfindən Milli Müdafiə Komitəsi yaradılmasını nə dərəcədə məqsədəuyğun hesab edirsiniz? Orada Nemət Pənahov çıxışında bildirdi ki, lazım gəlsə, döyüşmək üçün silahımız da var. O, silah götürəcəkləri mənbələri də sadaladı. Mənə məlumdur ki, bu çıxışdan sonra polis orqanlarında, həbsxanalarda, hərbi hissələrdə, hərbi komissarlıqlarda çalışan azərbaycanlıların hamısını tərk-silah edib bütün işlərdən kənarlaşdırmışdılar. Bu işlərin səbəbini onlar "şənbə gecəsi"ndən sonra bildilər. Onu da deyim ki, MMK yaradılması xəbərindən sonra bildilər. Onu da deyim ki, MMK yaradılması xəbərindən və N.Pənahovun çıxışından sonra sanki meydandakı camaatın üstünə su ələndi. Hamı sükuta daldı və pıçıltı ilə bir-birlərinə dedilər ki, qırğın olacaq. Necə bilirsiniz, N.Pənahovun o çıxışı düşünülmüş çıxış idi, yoxsa, emosiyadan irəli gəlirdi?

- Məncə, bu, arının yuvasına çöp uzatmaq idi. Lazım deyildi. O meydanda olan çıxışların bir qismi artıq idi. Mən emosiyalı çıxışları nəzərdə tuturam. Mənim özüm də emosional adamam. Ancaq siyasət emosiyanı

sevmir. Siyasətdə ağıl gərəkdir. Bilirsən, düşmən çox hiyləgərdir. Ona görə siyasətdə eyforiya olmaz...

Şənbə gecəsinin səhərisi indiki Prezident Aparatı binasının qabağındakı mitinqdə çıxış edib partbiletimi atdım. Həmin anlarda içimdə sanki soyuq külək əsirdi.

Ordan telestudiyaya gəldim. İstədim deputatları yığıb sessiya çağıram. Pilləkənləri çıxanda dedilər ki, televiziyanın enerji blokunu partlatdılar. Gedib oranı görəndə "şənbə gecəsi"ndəki qırğının şahidi olarkən, gecə evdə ağladığım kimi hönkürdüm. Çölə çıxanda həyətdə bir neçə adamın əhatəsində bir rus generalı gördüm.

- General Dubinyakımı?

- Kim idisə, bilmədim. Şığıyıb onun üzünə tüpürdüm ki, bu xalqdan nə istəyirsiniz? Niyə başımıza bu cür müsibətlər açırsınız? Siz faşistsiniz. O, əvvəl duruxdu, sonra əlini tapançasına aparıb məni vurmaq istədi. Rejissor Nazim Abbasov onun əlini tutub mənim kimliyimi ona söyləndi...

Məni maşına oturdub radioya gətirdilər. Oradan deputatlara müraciət edib sessiya çağırdım.

- Sessiya çağırmaq şəxsi təşəbbüsünüz idi, yoxsa, bu haqda kimlərləsə məsləhətləşmişdiniz?

- Heç kəslə məsləhətləşməmişdim. Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi. Oradan evə gəlib "Azadlıq" radiostan siyasına - Mirzə Xəzərə zəng edib əhvalatı danışıb, bu hadisəni dünyaya yaymasını xahiş etdim. Sağ olsun, o vaxt Mirzə Xərər səsimizin dünyaya çatmasında bizə çox kömək etdi.

- Mirzə Xəzər tək sizin yox, ona zəng vurub qırğınla bağlı müəyyən məlumat verən çox adamın səsini dünyaya yayırdı.

- Bəli, səhəri gün deputatlar gəldilər. Saat 10-da sessiya başlandı. Elmira Qafarova dedi ki, mən sessiyanı apara bilmərəm. Onun imzası ilə o zaman dəhşətli bir etiraz notası yaymışdıq.

Bu etiraz tez-tez radioda səslənirdi. O, çox qorxurdu. Dedim, onda çəkil kənara. Sessiyanı özüm apardım. Sonra gördüm, bu işdə təcrübəm yoxdu, rəhmətlik İsmayıl Şıxlını köməyə çağırdım. O, sessiyanı

axıradək idarə etdi. Yaxşı da qərarlar qəbul etdik...

Həmin gecə saat 2-də E. Qafarovanın kabinetindən zəng edib Çingiz Aytmatov və Oljas Süleymenovla danışdım. Əhvalatı bildirdim və onları Bakıya çağırdım. Oljas dedi ki, xəstə olsam da gələcəyəm. Doğrudan da gəldi. Xəstə idi. İki gün Bakıda yatandan sonra qırğın yerlərinə və Şəhidlər Xiyabanına baş çəkdi... O zaman Oljasın bizə çox köməyi dəydi.

- Bəxtiyar müəllim, sizcə o zaman Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, bu qırğın törəyərdimi?

- Məncə, yox. Bilirsən ay oğul, milli qanı olan adam, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı.

Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycanda rəhbər olsaydı, bu qırğın olmazdı. Heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisədən xəbərim yox idi. Bu barədə Süleyman Dəmirəldən soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, necə bir çeviklik və cəsarətlə diplomatik gedişlər edərək 52 dövlətin dəstəyini almağa necə nail olmasından danışıb dedi ki, Heydər Əliyevin qədrini bilin.

- Xalq hərəkatının ilk dövründə meydanda İsmayıl Şıxlı, Siz, Anar, Yusif Səmədoğlu və başqaları kimi sözükeçən, xalq tərəfindən qəbul edilən ictimai xadimlər çıxış edirdilər. Onda tribunaya yaxınlaşıb söz demək çoxlarının ürəyindən keçsə də, hamı sərhəd gözləyirdi. Ancaq 1989-cu ilin noyabrında olan mitinqlərin birində N.Pənahov bəyan etdi ki, heç kəs tribunaya çıxmasın. Hamı aşağıda dayansın. Ordan camaat kimi məsləhət görsə, ona da söz veriləcək. Ondan sonra ziyalılar müşahidəçi mövqeyinə keçdi. Xalq Cəbhəsinin üzvləri də sonralar ziyalıları qınayırdılar ki, onlar xalqın taleyinə biganədirlər... Bu, əlbəttə, belə deyildi. Bir də ki, məncə, siz ağsaqqallar o zaman özümüzünkülərin əli ilə hərəkatdan uzaqlaşdırılmasaydınız, yəqin ki, hadisələr bu yöndə

inkişaf etməzdi. Çünki, ziyalılar çəkiləndən sonra hadisələr bir növ "piyadaların əli ilə" idarə edilə bilməyib, öz axarını dəyişdi.

- Bilirsən, ay oğul, o zaman bizi incitdilər. Pisikdirəndən sonra da qınadılar ki, kənarda dursunuz. O zaman mənim 63 yaşım vardı. Mən kimisə itələyəsi deyildim ki, mənə söz ver.

Əslində, N.Pənahov mənə və mənim yaradıcılığımdakı milli təəssübkeşliyə həmişə hörmət eləyib. İndi də hörmət eləyir. Bununla bərabər, o zaman biz ziyalılar onu da hiss edirdik ki, bizim meydanda, tez-tez görünməyimiz çoxlarını narahat edirdi.

O zaman İ.Şıxlı da, mən də Xalq Cəbhəsinin Ağsaqqallar Şurasının üzvü idik. Cəbhənin tədbirlərində fəal iştirak edirdik. Ancaq hiss edirdik ki, üzümüzə açıq deməsələr də, bizim oraya gəlməyimizi çoxları istəmir. Bir dəfə iclasda bir neçəsi nalayiq söyüşlərlə dalaşdı. Biz hər ikimiz müəllimik, belə şeyləri götürə bilməzdik. İsmayıl da ağır adamdı. Dedi, Bəxtiyar, bura bizim yerimiz deyil. Dur gedək. Biz çıxanda dalımızca dedilər, hara gedirsiniz? Sonra da rişxənd etdilər ki, hə, gedin, gedin. İsmayıl qayıtdı ki, a bala, bir utanın, ağsaqqal var, qarasaqqal var, ayıbdı, axı. Bu nə hərəkətdi? Biz belə yerdə otura bilmərik.

Ancaq yenə də deyirəm, ziyalılar heç vaxt xalq hərəkatından kənarda qalmayıb.

"Respublika" qəzeti, 18 yanvar, 1997.
"Ləyaqət", Bakı, 1998.



“YARADIBDIR İNAM MƏNİ...”

- Bəxtiyar müəllim, necəsiniz?

- Səhhətimdən o qədər də narazı deyiləm. O ki qaldı... 70 illik yubileyimdə dediyim bir məqamı xatırlatmaq istəyirəm: indi mən Tanrıdan ömür yox, möhlət istəyirəm ki, istiqlala qovuşmuş Azərbaycanımızın ərazi bütövlüyünün, dərdsərsiz günlərinin də şahidi olum. Buna da mən inanıram. Çünki bu inam üçün kifayət qədər əsas vardır. Dövlətimizin başçısı Heydər Əliyev və xalqımız buna təminat verir.

- Yeri gəlmişkən, Bəxtiyar müəllim, belə qayğılı günlərinizdə möhtərəm prezidentimizin televiziyada səslənən şeirlərinizlə bağlı sizə zəng etməsi biz oxucuları da sevindirdi.

- İndi ki, söhbət həmin şeirlərimdən düşdü, mən bir məsələni qeyd etməyi özümə borc hesab edirəm. Verilişdən dərhal sonra möhtərəm prezidentimizin mənə zəng vurub şeirlər haqqında öz fikirlərini söyləməsi, mənə təşəkkür etməsi məni çox kövrəltdi. Ancaq mən həmin anda öz minnətdarlığımı ona çatdıra bilmədim. Bu cür diqqətə, sənətə, ədəbiyyata, mədəniyyətə qayğısına görə səhərisi ona məktub yazıb təşəkkürümü bildirdim. Həmin məktub mətbuatda dərc olundu.

- Bu yaxınlarda möhtərəm prezidentimizin işıq üzü görmüş çoxcildliyinin I-II cildləri və “Qayıdış” kitabı haqqında fikirlərinizi bilmək maraqlı olardı. Televiziyada gedən təqdimat mərasimində sizin iştirakınıza böyük ehtiyac hiss olunurdu.

- Bu kitablar, ilk növbədə, dörd illik tariximizin aynasıdır. Kitab-

larda son dörd ildə keçdiyimiz yol, bu yolda qarşılaşdığımız çətinliklər, qazandığımız uğurlar geniş əks olunmuşdur. Təkcə elə bu cəhətinə görə kitablar çox qiymətlidir. Kitablarda məni ən çox tutan məsələ istiqlalımızla bağlıdır. İstiqlal amili kimi cildlərdə "İstiqlalımız əbədidir, onu göz bəbəyi kimi qorumalıyıq" fikrinin qırmızı xətt kimi keçməsi məni çox məmnun etdi. Mən faktlarla danışmaq istəyirəm. Kitabda 1920-ci il aprelin 28-də Azərbaycanın işğal olunması göstərilir. Bu, çox mühüm məsələdir. Biz bu gün cavanlarımızın beyninə yeritməliyik ki, 20-ci il inqilab yox, işğal idi. Və Heydər Əliyevin "Qayıdış" kitabındakı fikri bu işğalı elmi surətdə işləyib sübut etmək üçün bizə material verir. Bu fikri olduğu kimi nəzərinizə çatdırmaq istəyirəm: "Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm. 28 apreldə Azərbaycan işğal olunub, Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub".

Daha sonra ermənilərin Qarabağ məsələsinə çoxdan hazırlaşmaları, bizim necə bic və hiyləgər düşmənlə qarşılaşdığımız kitabda öz əksini tapıb. Yəni, bu kitab millətin başının altına yastıq qoymur, əksinə, bizi ayıq-sayıq olmağa çağırır. Ümumiyyətlə, diqqətlə fikir versək, görərik ki, ermənilər Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra fəaliyyətə başladılar. Zori Balayan Ermənistanda çıxan bir kitabda yazır: "Əliyev getdi, bəs indi biz nəyi gözləyirik?" Nə qədər ki, Heydər Əliyev Bakıda hakimiyyətdə idi, daha sonra Siyasi Büronun üzvü idi, düşmənlərimiz açıq hücuma keçə bilmirdilər. Və çox təəssüf ki, biz o zaman Heydər Əliyevin vəzifədə qalması üçün heç bir iş görə bilmədik. Bəlkə də, onun vəzifədən getməsinin günahkarlarından biri biz özümüzük.

Ermənistanda çıxan qatı antitürk jurnallardan birinin redaktoru olan Aramays Saakyan oxucularla görüşündə Qarabağla bağlı suala belə cavab vermişdi: "Qarabağ məsələsinə başlamazdan əvvəl, yuxarıdakı türk paşasının məsələsini həll etmək lazımdır". Və etdilər də... Heydər Əliyev Moskvada Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra burada həmin məsələlər başlandı. Bəs biz niyə bunları görmürük, qiymətləndirmirik? Bu tarixdir, axı...

- Bəxtiyar müəllim, siz kitabın çox maraqlı, incə məqamları üzərində dayandınız. Fikrimizcə, sizin də ürəyinizdən olan bir məsələyə toxunaq. Kitabdakı bizim mənşəyimizlə bağlı fikirlərə münasibətiniz necədir?

- Elə mən özüm də bu məsələyə gəlib çıxacaqdım. Kitabda mənim ürəyimdən xəbər verən məqamlardan biri də bizim mənşəyimiz, türklüyümüz haqqında fikirlərin dönə-dönə vurğulanmasıdır. Mən burada Heydər Əliyevin çox məşhur kəlamını xatırlamaq istərdim: "Biz bir millət, iki dövlətik". Və mən bu kəlamdan ruhlanıb bir şeir də yazmışdım ki, sonra Türkiyədə Hikmət Şimşək buna mahnı bəstələmişdir.

Bir ananın iki oğlu,
Bir ananın iki qolu,
O da ulu, bu da ulu:
Azərbaycan - Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir:
Azərbaycan - Türkiyə.

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət.
Hər ikisi cümhuriyyət
Azərbaycan - Türkiyə.

Birdir bizim hər halımız,
Diləyimiz, xəyalımız.
Bayraqlarda hilalımız:
Azərbaycan - Türkiyə.

Yeri gəlmişkən, Heydər Əliyev İzmirdə Bakı parkının açılışındakı nitqində bu birliyi obrazlı şəkildə belə ifadə etdi: "Biz böyük bir çinar ağacının budaqlarıyıq. Kökümüz birdir və o qədər möhtəşəm çinardır

ki, əsrlər boyu onu nə qədər silkələsələr də, yıxmaq istəsələr də, bizi bir-birimizdən ayırmaq istəsələr də, bacarmadılar". Gözəl fikirdi, elə deyilmi?

- Bəxtiyar müəllim, siz bir şeirinizdə yazırsınız: "Yaradıbdı inam məni, mən inamın övladıyam". Bəs bu gün necə, bu inam yaşayırmı?

- Bilirsiniz, mən həmişə inamla yaşamışam. Mən hələ o qırmızı imperiya dövründə istiqlalımıza qovuşacağımıza inanırdım. Başqa cür ola bilməzdi. Burada yenə də Heydər Əliyevi xatırlamaya bilmirəm. Bir dəfə İrana gedirdik, onda H.Əliyev Naxçıvanda bacısının evində yaşayırdı. Elə oldu ki, gecəni Naxçıvanda qalmalı olduq. Mən dedim ki, gedirəm Heydər Əliyevin yanına. Heç kəs mənimlə getmədi. Düz 4 saat oturub söhbətləşdik. Mən onda bir sual verdim, dedim ki, Heydər müəllim, siz o zaman zirvədə olanda sovet hökumətinin puç olduğunu bilmirdiniz? O isə cavab verdi ki, qoy səmimi deyim: Yox. Mən inanırdım ki, millətimin inkişaf və tərəqqisi yalnız bu yoldadır. Mən yenə də soruşdum ki, necə ola bilər ki, bu ağlın, bu zəkanın, bu siyasətin sahibi sovet hakimiyyətinin boşluğunu bilməsin, duymasın? Bu zaman isə Heydər Əliyev mənim sualıma sualla cavab verdi. Dedi ki, sənin o vaxt millətçi, sovet quruluşuna düşmən olduğunu mən bilirdim, ya yox? Dedim, bilirdiniz. Dedi ki, bəs onda mən səni niyə o zaman həbs etdirmir, əksinə, fitnələrdən qoruyurdum? Daha sonra Heydər Əliyev məndən soruşdu ki, deputat seçilərkən sənə dediyim söz yadındadırmı? Heç cür yadıma sala bilmədim. Heydər Əliyev həmin sözü mənim yadıma saldı. Sonra gündəliyimə baxanda həmin sözə rast gəldim. O zaman Heydər Əliyev mənə demişdi ki, "sənə orden verib, deputat edirəm ki, ayağının altı möhkəm olsun, sən işini gör". Daha adama nə deyərlər?..

Müsahibəni apardı: Səfail Musayev

"Yeni Azərbaycan" qəzeti, 2 iyul, 1997.
"Ləyaqət", Bakı, 1998.



SEVƏN DOXSANINDA HƏLƏ CAVANDIR

Görəsən, Bəxtiyar Vahabzadəni dəlicəsinə sevən çoxdur, yoxsa, elə-belə oxuyan? Məncə, şairi elə-belə oxuyanlar Bəxtiyar poeziyasının vurğunlarının kölgəsində itib-batırlar. Onun yaradıcılığına vurğunluqla bağlananlar şairin söhbətlərindəki müdriklik, fəlsəfi ümumiləşdirmə bacarığı və vətəndaşlıq yanğısı ilə baş-başa qalanlardır. Bəxtiyar müəllimlə həmsöhbət olarkən də məhz vətən və vətəndaşlıq hisslərinin fəlsəfi duyumlarla sıx qovuşduğundan danışdıq, insan və onun cəmiyyətdəki mövqeyindən, həmçinin xalqımızın dözüm və əzablarından söz açdıq. Oxuculara təqdim etdiyimiz bu söhbət isə Bəxtiyar müəllimin ürəyindəki poeziya işığından süzülüb gələn bir parçadır.

- Belə deyirlər ki, dahilərin doğum günləri bəlli olsa da, ölüm günləri bəlli olmur. Bu baxımdan siz özünüzü dahi hesab edirsinizmi?

- Qətiyyən! Mən adi bir şairəm. Dahilik tamamilə başqa şeydir. Bizim kimi adi şairlər isə Nizami, Füzuli, Şekspir, Balzak, Tolstoy, Puşkin, Sabir kimi dahilərdən həmişə öyrənir və ömrünün sonunadək öyrənməlidir.

- Sizin belə misralarınız var:

Yüz-yüz itən olsun,
Min-min də bitən var.

Şükür eyləyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var.

Bu, o deməkdir ki, siz təkcə şair kimi yox, həm də insan kimi, Vətəndaş kimi içinizdə Vətən odunu daşıyırsınız, ürəyinizdəki Vətən yanğısını bir an belə sönməyə qoymursunuz. Hardandır bu od, bu alov?

- Türk şairi Behcət Kamal Çağların "İstiyorum" adlı şeirində belə bir misra var: "Bir iman istiyorum uğrunda baş qoyacaq".

Təxminən 20-25 il bundan əvvəl mən şairin həmin misrasına cavab olaraq "Şeirim-imanım mənim" adlı bir şeir yazmışdım: "Şairlikmi tapmısan imanını tapmamış?" - deyə ona irad tutmuşdum. Çünki əvvəl imandır, sonra şairlik.

Müqəddəs kitabımız Qurani-Kərimdə belə bir ayə var: "Vətən sevgisi imandandır". Beləliklə, imanını, əqidəsini tapmayan adam nə şair ola bilər, nə də adi vətəndaş. Mənim şairliyim əqidəmdən, imanımdan doğmuşdur. Dediyiniz o od-alov da həmin əqidənin, imanın bəhrəsidir. Eləcə də götürək bizim böyük Sabiri. Onun "Hophopnamə"si Vətəninə və millətinə olan böyük sevgisinin, böyük imanının əqidəsinin işarələridir.

- Hər bir ot, ağac torpaqda göyərdiyi kimi vətəndaş da Vətəndə boy atıb ərsəyə çatır. Lakin o da həqiqətdir ki, doğma torpağından üz çevirən, Vətənə dönük çıxan adamlar da var. Belələrinə öz poeziyanızda ayırdığınız yer bir damğadır, yoxsa izsiz-nişansız ölüm?

- Sizin nəyə işarə etdiyinizi başa düşürəm. İndi son zamanlar bir parça çörək üçün qürbətə gedən, xarici ölkələrdə özünə sığınacaq tapan vətəndaşlarımız çoxdur. Onları qınamaq olmaz. Ümumiyyətlə, bizim xalqımız torpağına, el-obasına bağlı xalqdır. İndi zavallılar neyləsin ki, Vətəndə iş tapa bilmir, məcburiyyət qarşısında Vətəni tərk edir və qürbətdə çox böyük çətinliklərlə üzləşir, təhqirlərə məruz qalırlar. Ancaq Vətənə dönük çıxanlar, xoşbəxtliyi Vətəndə deyil, harınlıqdan kənarda axtaranlar da var. Əlbəttə, belələri dönükdür, satqındır və onlara haqq qazandırmaq olmaz. Mən bu barədə "İki mühacir" adlı şeir də

yazmışam. Qürbətdə yaşamasına baxmayaraq, Vətən havası ilə tənəffüs edənlərlə bərabər, Vətəndə yaşayıb Vətənə, onun dilinə, onun tarixinə biganə olanlar da var:

Vətəndən kənarda yaşayanlara
Mühacir demişik...
lap doğru, lap düz!
Vətənin içində yaşayıb, ancaq
Özünü Vətənə yad sayanlara,
Özgə məbədinə baş qoyanlara
Nə ad verək biz?

- Bəxtiyar poeziyası əzabkeş fikrin, Vətən və millət haqqında düşüncələrin, dünya, insan və sevgi haqqında çırpıntıların poeziyasıdır. Amma o da var ki, Vahabzadənin məhəbbət lirikası, sevgi şeirləri nə zamana sığır, nə də məkana. Bu poeziya hər bir insanın mənəvi əzabları, daxili iztirabları, könül çırpıntıları, ürək yanğısı, qəlb sızıltısıdır. Dediklərimlə şəriksinizmi?

- Haqlısınız. Mənim şeirlərimdəki fəlsəfi düşüncəni əsasən sevgi lirikamda axtarmaq lazımdır.

S*evgi yaş tanımır... Qəlbini yandır!*
Yanaraq yaşasan yaş düşməz yada.
Sevən doxsanında hələ cavandır,
*Sevməyən qocadır otuzun*da da.

- Düz 20 il əvvəl yazdığınız bu misralardakı sevgi odu bu gün də ürəyinizdə yanırmı?

- Əlbəttə! Ancaq burada bir balaca izah lazımdır: əsl böyük sevgi ömrün sonuna qədər davam edir, lakin təzahür formasını dəyişir. İyul ayında Şəkidə yazdığım "Nağılım gəlsin" adlı şeirimdə bu məsələyə belə toxunmuşam:

Sevgidən savayı hər şey ağ yalan,
Onu itirdinsə, dünyan dağıldı.
Məhəbbət həmişə təptəzə qalan
Köhnə rəvayətdi, köhnə nağıldı.

Həyat cəhənnəmə dönər ürəksiz,
Yaşayıb sevməsə insan insanı.
Hamımız olmuşuq, oluruq şəksiz,
Bu köhnə nağılın baş qəhrəmanı.

Sevgi nağılının baş qəhrəmanı olan adamların bu böyük hissə münasibəti başqa-başqa olduğu üçün onu hər kəs öz ölçüsü ilə ölçür. Axı, hər kəs özü kimi sevir. Füzuli isə bu hissə tamam başqa pəncərədən baxır:

Xəyal ilə təsəllidir, könül meyli vüsal etməz,
Könüldən dişrə bir yar olduğun aşiq xəyal etməz.

Şair demək itstəyir ki, sevgili həmişə ürəkdədir. Onunla cismani yaxınlığın elə bir önəmi yoxdur. Başqa bir şeirində Füzuli bu məsələyə daha dərindən yanaşaraq:

Ey Füzuli, qılmazam tərki-təriqi eşq kim,
Bu fəzilət daxili əhli-kəmal eylər məni.

- deyə, məhəbbət iztirabının insanı kamala çatdırmasından, onu kamal əhli etməsindən söhbət açır. Axı, biz dünyanı iztirabdan, əzabdan keçərək dərk edirik.

1969-cu ildə yazdığım "Qorxu" adlı şeirimdə deyirəm:

Mən oddan qorxmadım yanana qədər,
Mən qorxu bilmədim qanana qədər.
Elə ki, yandım,
Odla oynamaqdan qorxdum, dayandım.

Başlandı qorxu,
Başlandı ehtiyat,
Başlandı həyat!

Bəli, biz həyatın, o cümlədən, sevginin iztirablarını dadıb, qorxunu hiss edincə ehtiyatdan adlayıb həyatı dərk edirik.

- Bəxtiyar müəllim, ömrünüzün ötüb-keçən illərini yəqin ki, tez-tez xatırlayırsınız. Soruşmaq istəyirəm, ötənlərin ağrı-acısını nə ilə ovundurursunuz?

- Bu, çox mürəkkəb sualdır. İnsan günahlarına girovdur. İnsan ömrünü səhvlər, günahlar müşayiət edir. Gənclik illərimi xatırladıqca buraxdığım səhvlərin, elədiyim günahların öz içimdə hesabını çəkirəm. O zaman əllərim istər-istəməz göyə açılır və ulu Tanrıdan günahlarım, səhvlərimin əfv olunmasını təmənna edirəm. Elə bu münasibətlə yaxın günlərdə "Günah - tövbə" adlı şeir yazmışam. Şeir "Azərbaycan" dərgisinin gələnilki yanvar sayında dərc olunacaq.

- Sizin ədəbiyyata gəlişiniz, daha doğrusu, gənclik illəriniz İkinci Cahan müharibəsinin ağır illərinə təsadüf etmişdi. İndi də ömrünüzün bu ahıl çağında Qarabağ müharibəsinin qan-qadasına tuş gəldiniz. Siz bunu alın yazısı hesab edirsiniz, yoxsa taleyin təsadüfi zərbəsi?

- Dünyada təsadüfi heç nə yoxdur. Tale və təsadüfi bir-biri ilə uyuşmur. Romen Rollan Bethoven haqqında yazdığı kitabda Bethovenin 5-ci simfoniyasını təhlil edərkən (mənim ən çox sevdiyim simfoniyadır) bu simfoniyanı "taleyin ömür qapısını döyməsi" adlandırır. Ümumən qəzavü-qədəri hərə bir cür yozur. QuraniKərimdəki qəzavüqədər məsələsinə əks çıxan Mirzə Fətəli Axundzadə alın yazısını bir növ inkar edir. Ancaq burada bir incə mətləb var: qəzavüqədər məsələsində Qurani-Kərim həm də insanı "faili-muxtar" adlandırır. Yəni insan öz əməllərinə cavabdehdir. Bununla yanaşı, mən başımıza gələn Qarabağ müsibətlərinin səbəbini həm özümüzdə görürəm, həm də taleyin qədərqismətində.

- Siz şairsiniz. Özü də təpədən-dırnağa qədər poeziya adlı bir aləmə "bələnmiş" şair. Haçansa bu "bələkdən" çıxa biləcəyiniz haqda düşünmüsünüzmü?

- Mənim ömrüm artıq sona çatmaq üzrədir. Bundan sonra bu "bələk"dən çıxmaq mümkünmü? Heç gəncliyimdə də bu barədə düşünməmişəm. Bu, mənim ağlıma da gəlməyib və təxminən 40-45 il əvvəl yazdığım bir şeirimdə belə misralar var:

Min dəfə, milyon dəfə
Doğulsaydım yenidən,
Şeir, sənət yolunu
Götürərdim yenə mən.

Bu yol çox çətin, ağır və dolanhac yoldur. Bəzən mənə olan haqsız hücumlardan bezir, yorulur, tıncıxıram. Hərdən yalnız öz ailəsinin dərdi ilə yaşayan, müəyyən dar çərçivə içərisində düşünən, böyük dərdlərdən və iztirablardan uzaq olan adamlara qibtə ilə baxıram. Mənim bir köhnə dostum var. Keçmiş günlərimi xatırlamaq, mənəvi iztirablardan bir qədər uzaq olmaq üçün onunla görüşürəm. O mənə adi məişət söhbətləri edir, məsələn, filan xörəyin dadlı olması üçün nə etmək, qora suyunu necə hazırlamaq, qoz mürəhhəsini bişirmək üçün onu kirəcdən necə keçirmək, uşaqlarla necə rəftar etmək haqqında şirin-şirin danışır. Mən onu diqqətlə dinləyir və onun məhdud dairədəki düşüncələrinə həsəd aparıram. Onunla söhbət edərkən dincəlirəm.

- "Nekroloq" şeirinizdə yazırsınız:

Ürəkdəki arzular əməllərdən əzəldir.
Eləmək istədiyim mənim elədiyimdən
Həm çox, həm də gözəldir.
Eləysə... nekroloqa ömür tam olsun deyə
Əməllərlə bərabər ən gözəl arzular da
Niyə yazılmır, niyə?

Bu, o deməkdirmi ki, insan qarşısına qoyduğu məqsədə və bütün arzularına tam nail ola bilmir?

- Şübhəsiz! Bu şeir böyük bir müasirimizin ölümü münasibətilə yazılmışdır. Mən o böyük insanı yaxşı tanıyır, ağrı-acılarını bilirdim.

Onun haqqında yazılmış nekroloqu oxuyanda məni ağlamaq tutdu: "Filan ildə doğulmuş, filan məktəbləri bitirmiş, filan əsərləri yazmış, filan mükafatlarla təltif olunmuş və filan gündə də ölmüşdür". Çox qəribədir. Bu böyük insanın ömrünün, yaradıcılığının 40-45 illik fəaliyyətinin yekunu olan bu balaca nekroloq onu bizə tanıda bildimi? O böyük insan bu nekroloqdanmı ibarətdir? Axı, o özü ilə bərabər içində çırpınan arzuları, duyğuları da qəbir evinə apardı. Oxucu onun ürəyində çırpınan bu arzulardan, onu narahat edən duyğulardan, fikirlərdən, axı, xəbərsiz idi. "Nekroloq" şeiri bu düşüncədən doğdu. Rus şairi S.Şipaçov da "Tire" adlı şeirində bu məsələyə başqa şəkildə toxunaraq yazır ki, insanın başdaşına iki rəqəm yazılır. Doğulduğu və öldüyü illər! Bəs bu mərhumun ömrü bu başdaşında necə ifadə olunmuşdur? İki rəqəmin arasındakı tiredə.

Görürsünüzmü, eyni fikri iki şair başqa-başqa şəkildə, hərə öz üslubuna uyğun tərzdə ifadə etmişdir. Ədəbiyyatın gözəlliyi və orijinallığı nədən yazmaqda deyil, necə yazmaqdadır.

Beləliklə, böyük şairlə söhbətimi buradaca bitirdim. Bilmirəm az oldu, çox oldu. Hər halda cavabını bilmək istədiyim suallarıma xalqın şairi səmimi cavablarını verdi.

Züleyxa Nadir

P.S. ***Bəxtiyar müəllimin xeyir-duası:***

"Arena" yeni çıxır. Ona uğur arzulayıram, qoy o, adını doğrultsun, çıxdığı arenada öncül olsun.

"Arena", 24 sentyabr - 1 oktyabr, 1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



MÜXBİR SUALLARINA CAVABLAR

- Siz sovet diktatura rejiminin kiçik xalqlara qarşı yönəldilmiş siyasətinin eybəcərliklərini nə zamandan hiss eləməyə başladınız?

- Hələ uşaqlıq illərimdən. 1930-cu ildə sovet hökuməti kollektivləşmə siyasətinə keçdiyi zaman buna qarşı mənim doğulub böyüdüyüm Şəki mahalında üsyan başladı. O zaman mənim 5 yaşım var idi. Bakıdan gələn rus ordusu xalqı qanına bələyib üsyanı yatırdı. Üsyandan sonra minlərlə adam həbs edildi və güllələndi. Üsyançıların bir qismi isə dağlara çəkilib qaçaq oldular. Bundan sonra Şəki mahalında qaçaqçılığa qarşı mübarizə başlandı. Bu mübarizə 1945-ci ilə qədər davam etdi. Bunlar hamısı mənim gözlərim qarşısında baş verir və mənim ürəyimdə bu zülmə, bu haqsızlığa qarşı üsyan duyğularının cücərməsinə səbəb olurdu.

İlk etiraz şeirlərimi hələ orta məktəbdə oxuduğum zamandan yazmağa başladım.

1942-ci ildə mən Bakı Dövlət Universitetinin filoloji fakültəsinə qəbul oldum. Bu illərdən də şeirlərim mərkəzi mətbuatda çap olunmağa başladı.

- Siz quruluşa qarşı yazdığınız şeirlərinizi sovet dövründə senzuradan necə keçirə bilirdiniz?

- Mənim totalitar sovet sisteminə qarşı yazdığım əsərlər 2 qismə bölünür:

1) elə o zaman çap etdirə bildiyim;

2) çap etdirə bilmədiyim, arxivimdə saxladığım əsərlər.

Çap etdirdiyim şeir və poemalarımda senzuranı aldatmaq üçün milli dərdlərimizi ya tarixə, ya da başqa ölkələrə keçirməklə özümü sığortalayırdım. Məsələn, XX əsrin əvvələrində yaşamış böyük satirik şairimiz Sabirin haqqında yazdığım "Ağlar-güləyən" adlı poemada mən quruluşa qarşı öz etiraz fikirlərimi Sabirin dili ilə ifadə etdiyimə görə senzura buna etiraz edə bilmirdi. Yaxud 1960-cı illərin əvvəlində Əlcəzairdə fransız işğalına qarşı qalxan milli azadlıq hərəkatından bəhs edən "Yollar - oğullar" poemamda mən Əlcəzairdən bir vasitə kimi istifadə edərək öz milli dərdlərimizi dilə gətirmişdim. Mənim senzuranı aldatma üsullarıma xalq öyrəşmişdi. Oxucularım mənim nəyə işarə etdiyimi və nə demək istədiyimi anlayırdı.

- 1813-cü ildə Gülüstan müqaviləsi ilə Azərbaycanın iki yerə parçalanmasına etiraz olaraq yazdığınız "Gülüstan" poemasına görə - mətbuatdan öyrəndiyimə görə - 1962-ci ildə Sizi universitet müəllimliyindən çıxarmışdılar. Bu cəza nə ilə qurtardı?

- Tarixdən bildiyiniz kimi, 1813-cü ildə Rusiya ilə İranın arasında bağlanmış Gülüstan müqaviləsi əsasında Azərbaycan iki yerə parçalandı. Vətənimin bir hissəsinə Rusiya, bir hissəsinə isə İran hakim oldu. Bu bədnam müqaviləyə etiraz olaraq 1959-cu ildə mən "Gülüstan" poemamı yazdım. Bu əsəri mərkəzi mətbuatda çap etdirə bilmədiyimdən doğulduğum Şəkinin "Şəki fəhləsi" adlı yerli qəzetində çap etdirmişdim. Poema əlyazması halında bütün Azərbaycana yayıldı və 1962-ci ildə məni müllətçi damğası ilə universitetdəki müəllimliyimdən azad etdilər (doktorluq məzuniyyəti bəhanəsi ilə).

- Bəs "Latın dili" şeiriniz nəyə görə sensasiyaya səbəb oldu?

- Ümumiyyətlə, mənim sovet dövründə əsas mübarizəm Ana dilimizin rəsmi dövlət idarələrindən qovulmasına qarşı idi. Bildiyimiz kimi, sovet dövründə milli dillər sıxışdırılır, assimilə edilirdi. Millətin milli varlığı birinci növbədə onun dili ilə bağlıdır. Bir millətin ana dili yoxdursa, onun özü də yoxdur. Dilimizin rus dili ilə əvəz olunması ömrüm boyu məni ağrıtmış və mən o zamanlar həm məqalələrimdə, həm də şeirlərimdə millətin varlığının birinci göstəricisi olan Ana dilinin

müdafiəsinə qalxırdım.

1967-ci ildə mən Kasablankaya getmişdim. Gördüm ki, orada da vəziyyət bizimki kimidir. Yəni, ərəb dili dövlət idarələrində işlənmir. Ərəblərin bu vəziyyəti mənim əlimə girəvə verdi. Və bu münasibətlə "Latın dili" şeirini yazdım. Şeirdə deyilir ki, indi Yer üzündə latın xalqı yoxdur, lakin bu dil bütün elmlərdə termin kimi işlənir. Ona görə də bu dilə "ölü dil" demək olmaz. Dünyada elə xalqlar var ki, özü yaşayır, amma dilini öldürüblər. Buna görə də ölü dil latın dili deyil, rəsmi dairələrdə işlənməyən dillər ölüdür.

Senzuranı yayındırmaq üçün şeirin altında Kasablanka sözünü yazmışdım. Amma rəsmi dairələr mənim bu üsulumu anlamışdılar: ona görə də bu şeirin üstündə başım ağrı çəkdi. Amma KQB şeirin altında yazdığım Kasablanka sözünə görə bu şeirdə qaldırdığım məsələnin Azərbaycana aid olduğunu sübuta yetirə bilmədi. Dedim, mən ərəbləri nəzərdə tutmuşam. O zamanlar yazıb arxivimdə saxladığım "Başqasının yasında" adlı şeirimdə mövcud quruluşu hansı yollarla ifşa etdiyimi bu cür izah etmişəm:

İçimi göstərmədim cəllad tutan güzgüyə,
Üzdə gülüb, içimdə müşkülümə ağladım.
Millətimin dərdini ünvanlayıb özgəyə,
Başqasının yasında öz ölümə ağladım.

1999.
"Ədəbi düşüncələr", Bakı, 2000.



RUS GENERALI İLƏ ÜZLƏŞMƏ

Düz on il öncə rus ordusu Bakıya girdi. Qan tökdü. Rus əsgəri hara girirsə, orada qan var, ölüm var. Tarixdə bunun çoxlu örnəkləri mövcuddur. İmperiya canilərinin daha bir xüsusiyyəti də ondan ibarətdir ki, həmişə törətdikləri vəhşəti gizlətmək istəyirlər. Guya xalqlara azadlıq gətiriblər. Bizdə də belə oldu. Televiziyada təxribat törədildi. Əhali informasiya blokadasına alındı. Ümid yalnız radio-ya qalmışdı - xarici radiolara. Bakıda nələr baş verdiyindən yalnız Berlindən yayınlanan "Azadlıq" radiosu vasitəsilə xəbər tuturduq. Birdən xalq şairi Bəxtiyar Vahabzadənin səsi eşidildi. Paytaxtda baş verənlərdən yana-yana danışdı və bütün deputatlardan təcili sessiya-ya gəlmələrini xahiş etdi...

On il bundan öncə xalqın ümid yeri kimi baxdığı səsin sahibi Bəxtiyar Vahabzadə ilə görüşüb, o məsum gecəni xatırladıq.

- Yanvarın 15-i, ya 16-sı idi, dəqiq xatırlamıram. Mərdəkanda işim vardı. Mərdəkan yolunda Leninin heykəli olan yerdə - dörd yolun ayrıcında bizi saxladılar. Yolu "Moskviç" və digər yüngül maşınlarla bağlamışdılar. Məni tanıdılar. Soruşdum ki, ay oğul, bu nədir belə? Dedilər ki, bilmirsiniz, ruslar hücum edəcəklər, biz də onların qabağını kəsirik. Güldüm və dedim ki, tankın qabağında "Moskviç" nə edəcək? Bu, mübarizə vasitəsi deyil. Dedim, bunu etməyin. Fikir vermədilər. Şəhərə qayıdanda İsmayıl Şıxlıya, professor Nurəddin Rzayevə və

Şeyx A.Paşazadəyə zəng edib Vəzirovun yanına getməyi təklif etdim. Görüşün vaxtını razılaşdıq. Bir də Həsən Həsənova zəng etdim. O da bizimlə getdi. Vəzirovun otağına girəndə gördük ki, üç nəfər rus - Girenko, Primakov və Mixaylov əyləşiblər. Soruşduq ki, niyə gəlmisiniz, məqsədiniz nədir? Primakovun üstünə yeridim, Vəzirov məni qucaqladı. Dedi ki, qorxulu bir şey yoxdur. O, məni sakitləşdirəndə bu dəfə Şeyx Primakova hücum etdi (Mən bilməzdim ki, Allahşükür Paşazadə rusca bu qədər gözəl bilir). Şeyx hücum edəndə Primakov dedi ki, bizim münasibətlərimiz yaxşı olub, sən həmişə mənə hörmət edən adam olmusan. Şeyx də cavabında dedi ki, dur gedək bizə, nə hörmət deyirsən edim sənə. Amma bu gün hiss edirəm ki, siz mənim millətimi qırmağa gəlmisiniz. Mən millətin din xadimiyəm. Tələb edirəm: deyin görüm, qırğın olacaq, ya yox? Şeyxi saxlamaq olmurdu. Titimtitim titrəyirdi. Vəzirov Şeyxi də sakitləşdirdi.

Primakov bizə izah etdi ki, narahat olmayın, qırğın olmayacaq.

H.Həsənov da bizim səsimizə səs verdi. Dedi ki, biz burada qan iyi görürük. Onlar isə bizi sakitləşdirməyə çalışırdılar. Vəzirovun otağından çıxan kimi Şeyx məndən soruşdu ki, nə başa düşdün? Dedim ki, məni inandırmadılar. O da sözlərimi təsdiqlədi. Soruşdum nə edək? Xalq cəbhəsinə getməyimizi təklif etdi. Dedi, görək onlar nə deyirlər. H.Həsənovdan savayı dördümüz də AXC-yə gəldik. Orda rəhmətlik Nəcəf Nəcəfovu və bir neçə başqa cavanları gördük. Şeyx dedi ki, ay Nəcəf, biz qorxuruq, bəlkə, o barrikadaları söküb atasınız. O da dedi ki, qorxmayın. Oradan çıxanda Nəcəf mənə yaxınlaşıb bildirdi ki, keçən ilin aprelində 8-9 gürcünü öldürdüklərinə görə bütün dünya rusları qınadı, onlar bir daha bu addımı atmazlar. Bu fikir ağlıma batdı və nisbətən sakitləşdim.

Lakin gördüm ki, proses gedir. Və... həmin gecə o hadisə baş verdi... Qırmızı güllələr yağış kimi yağırdı. Səhərə qədər yata bilmədik. Bir-birimizlə telefonla əlaqə saxlayırdıq. Hamımız ağlaşırdıq. O zaman Hüsü Hacıyev küçəsindəki evimdə yaşayırdım. Eyvana çıxanda gördüm ki, evimizin qabağından rus tankları gedir. Gecəylə Mirzə Xəzərə məlumat verdim. Səhər tezdən Mərkəzi Komitəyə, Vəzirovun yanına

getmək istədim. Nə biləydim ki, o çoxdan qaçıb. Mərkəzi Komitənin qarşısında əlli mindən çox adam toplaşmışdı. Xəlil Rza rəhmətlik çıxış edirdi. Götürüb, partbiletini vızıldatdı ağzı aşağı. Mən də çıxış edib elə oradaca partbiletimi cırıb atdım. Çıxış edib enəndə bir nəfər yaşlı adam mənə yaxınlaşıb dedi ki, Bəxtiyar müəllim, mütləq sessiya çağırmaq lazımdır. Birdən ayıldım. Elə oradanca birbaşa telestudiyaya gəldim. Gördüm ki, həyətdə çarhovuzun yanında xeyli adam durub. İsmayıl Şıxlı, Qabil, rejissor Nazim Abbasov orada idilər. İ.Şıxlı məndən soruşdu ki, niyə gəlmisən? Televiziyada çıxış etmək istəyində olduğumu bildirdim. İ.Şıxlı acı-acı gülüb dedi ki, enerji blokunu dağıdıblar. Əsəbi vəziyyətimdə bir az da əsəbiləşdim. Rus generalı Ovçinnikova hücum çəkdim. O, donub mənə baxırdı. Birdən necə bunun üzünə tüpürdümsə, tapançıya əl atdı. Nazim cəld onu arxadan qucaqlayıb qulağına nəsə dedi. Rus əsgərləri mənə tərəf yaxınlaşanda general onlara "çəkilin" əmri verdi. İsmayıl Şıxlı ilə Qabil məni qucaqlayıb maşına basdılar. Ağlıma gəldi ki, heç olmasa radio ilə çıxış edib xalqa müraciət edim. Televiziyada hər saatdan bir çıxışımı verdilər. Sonra isə yenə də Mirzə Xəzərə zəng edib bütün olanlar barədə ona məlumat verdim.

- ***Deputatların hamısı gəlib çıxmışdımı?***

- Hökumət üzvlərindən yalnız H.Həsənov gəlmişdi. Şeyxin bəyanatı çox güclü idi. O, rusları biabır etdi. Elmira Qafarovanın da bəyanatı tutarlı idi. Özü yazmamışdı. Eşitdiyimə görə Xəlil Rza ilə Tofiq Bağırov onu məcbur etmişdilər. Lakin bəyanatdan sonra Elmira Qafarova sessiyanı aparmaqdan imtina etdi. Dedi ki, sessiyanı mən çağırmamışam, mən də aparmayacağam. Kim çağırıb, o da aparsın. Hamı iclası aparmaq üçün məni tələb etdi. Bir saata yaxın apardım. Sonra gördüm ki, iclası idarə edə bilmirəm. Sədrliyə İsmayıl Şıxlını dəvət etdim. İclas zamanı AXC üzvü olan bir cavan oğlan mənə yaxınlaşıb dedi ki, deputatlar bir-bir əkilir. Lakin H.Həsənov əvvəldən axıra kimi bizimlə oturdu. Dedim qapıları bağlayın. Dedi ki, gücüm çatmır. Özüm aşağıya düşdüm. İki qapının ikisini də bağladıb, açarları da həmin cavan oğlana verdim.

Yenə cavan bir adam çıxış edib rus ordusunun 24 saat ərzində

Azərbaycanı tərk etməyəcəyi təqdirdə, ittifaqın tərkibindən çıxmaq barədə qərar qəbul olunmasını istədi. Professor Nurəddin Rzayevdən mənə kağız gəldi ki, indiki vəziyyətdə belə etmək olmaz, bunu bəhanə edib ruslar təxribata keçə bilər. Məsələyə siyasi qiymət verilməsi və qoşunun Azərbaycana girməsinə qərar verən adamların cəzalandırılması barədə qərar qəbul etdik.

- Eşitdiyimizə görə, həmin vaxt türk dünyasının bir neçə yazarına da müraciət etmisiniz.

- Gecə saat ikidə sessiyada fasilə elan etdik. Hamımız ac-susuz idik. Birdən ağlıma gəldi ki, Çingiz Aytmatova zəng edim. Tofiq Elmira Qafarovanın otağından Çingiz Aytmatovun və Oljas Süleymenovun telefon nömrələrini yığdı. Çingizi yuxudan oyatdım. Dedim ki, sənin nüfuzun böyükdür, buraya gəlməlisən. Cavab verdi ki, Bəxtiyar, məni bu işlərə qatma. Mən gələ bilməyəcəyəm.

- Niyə?

- Bunun çox səbəbi var idi. Bir-birimizin evində olmuşuq. O, türk millətini sevən böyük şəxsiyyətdir. Lakin ehtiyatlı adamdır. Bu, onun öz işidir. Oljasa zəng etdim. Dedi ki, xəstəyəm, indi gələ bilmərəm, iki gündən sonra gələcəm. Doğrudan da gəldi. Hərarəti 38 idi, "Azərbaycan" mehmanxanasında bir gün dincəldikdən sonra bütün dağılan yerləri ona göstərdik. Gedib Moskvada çıxış etdi. Rus ordusunun Azərbaycana basqınını pislədi.

Səhər saat 8-9-da istədiyimizə heç olmasa 90 faiz nail olduq. Materialları qəzetlərə verdik. Sessiya gedən zaman xəbər gəldi ki, zirzəmidə rus əsgərləri var. Ətrafda da vardı. Partokrat deputatlardan 3-4 nəfəri qaçıb getdi. Digərləri bir nəfər kimi yerindən tərpənmədilər.

- Qaçanlar kimlər idi?

- Doğrusu, adlarını xatırlamıram. Səhər hamımız oradan çıxdıq. Saat 11-də dəfn olacaqdı. Birbaşa dəfnə getdik. Bir milyon insan axını, çiyinlərdə qırmızı tabutlar... Dəhşətli mənzərəydi...

- Bəxtiyar müəllim, 20 Yanvarın üstündən on il keçsə də, hadisədə günahkarlar məlum olsa da, indi iqtidarlı - müxalifətli hamı bir-birinə qarşı müxtəlif ittihamlar irəli sürür. Sizcə, bunlara lüzum varmı?

- Əlbəttə, kimlərinsə günahı var. O zaman rəhbərlikdə olan şəxslər məsələni öncədən bilməsəydilər, buraya qoşun girə bilməzdi. Burada şübhəsiz ki, günahkar var. Amma gəlin, içimizdə günahkar axtarmayaq. Mən belə düşünürəm. Davanı kürsü davasından çıxarıb, vətən davasına çevirmək lazımdır. İstiqlalımızı qazanmışıq, onu da qoruyaq. Bu gün, sabah yuxarıda kimin oturmasından asılı olmayaraq, biz istiqlal davamızı aparmalıyıq. Şəxsi ambisiyalarımızı bir tərəfə qoyaq. Müxalifət üzvlərindən heç biri demir ki, ikinci olum. Hamısı birinci olmağı arzulayır. Yalnız xalqın gələcəyini düşünmək lazımdır. Hadisələri faciəyə aparan məcranı görmək və dəyişmək ümummilli borcdur - müqəddəs vəzifədir.

Sevda Nəsibli

"Yeni müsavat", 20-21 yanvar, 2000.
"Ədəbi düşüncələr", Bakı, 2000.



ÖZÜNDƏN
NARAZILIQ

"Ədalət" qəzetinə rəğbətim Aqil Abbasa sayğılarımdan başlayıb. Çünki nəşriyyata gəlişim də elə Aqil bəylə ilk görüşdən başlayıb və bunu unutmamağa çalışıram. Ona görə də onun hər hansı xahişini, tövsiyəsini və hətta tələbini belə, mahiyyətinə vararaq, məmnunluqla qəbul etməyə bilmirəm.

Bir gün nəşriyyatda qarşımı kəsib dedi ki, Bəxtiyar müəllimdən bir müsahibə götür. Hərçənd böyük şairimizin çox qayğılı olduğunu bilirdim, lakin Aqil Abbasın sözünü yerə salmağı ağlıma da gətirmədən, Bəxtiyar Vahabzadəgilə yollandım. Arayış üçün onu da deyim ki, sözdən "söz" çıxaranları öncədən nəzərə alıb, sualları "nə şiş yansın, nə kabab" prinsipi üstündə kökləmişdim...

- Bəxtiyar müəllim, yaradıcılığınızı qavrayanlar Sizi düşüncə və ruhi əzablar çəkən, bəşəri arzular, ideyalar şairi, böyük filosof kimi tanıyırlar. Nəzərinizcə, şeir nədir, bəşəriliklə şairliyin bağlılığı necədir?

- "Şeir nədir?" sualına dünyanın bir çox qələm sahibləri, psixoloqları, alimləri müxtəlif cavablar vermişlər. Demək istəyirəm ki, bu sualın konkret cavabı yoxdur. Şəxsən mənə görə, şeir - ürək ağrısı, könül fəryadı, duyğular fışqırtısıdır. Sualın ikinci tərəfinə gəlincə, bəşəriliyə gedən yol millilikdən keçir. Dünyanın Füzuli, Puşkin, Bayron, Şiller, Höte, Şekspir kimi bəşəri dühaları o mərtəbəyə millilikdən keçib gəliblər.

- Çox tarixçilərin ağzına su aldığı sovetlər birliyinin sərt yasaqları dövründə vicdanınız həqiqətə görə fitva verdi. Cənub dərdi bir çox şairlərimizin yaradıcılığında nisgilli bir mövzu kimi arasıra anılsa da, məhz Siz bu mövzunu "Gülüstan" poemanızda iki imperiyaya qarşı ittiham hökmünə çevirərək, xalqımızın ən böyük dərdini ortaya qoydunuz. Hansısa şair deyir ki, "Əyil, Kürüm, əyil keç. Dövran sənin deyil, keç". Sizin misralarınız isə belədir: "Qorxu, qorxu sən nəsən? Əyilməyən başları əyən gizli qüvvəsən!" Nə dövrana əyildiniz, nə də qorxuya. Necə oldu ki, "Gülüstan"ı yazdınız və onu yazmaya bilərdinizmi?

- Güney Azərbaycan mövzusunda yazmaq mənim üçün zərurət idi. Mən "Gülüstan"ı yazmaya bilməzdim.

- Gerçək dərdlərimiz, ağrılarımız önündə say-seçmə şairlərin yaradıcılığı istisna, çağdaş şeirimizdə romantizm, xülyaçılıq, illüziya, azdırmalar sezilir. Düşkün duyğular, küskünlük aşılayan inilti ruhu da xeylidir. Amma böyük Sabir deyir: "Ağladıqca, kişi qeyrətsiz olur. Necə ki ağladı, İran oldu..." Sizcə, poeziyada ağlartılardan, iniltilərdən mübarizə ovqatına, "gül-çiçək" tərənnümündən böyük Azərbaycan amallarının təbliğinə keçilməsi şeirimizə uğur gətirməzdimi? Bu uyğunsuzluğa necə baxırsınız ki, ilin-günün bu vaxtında əksəriyyət müğənnilərimizin repertuarında yar sevgisinə Vətən sevgisindən daha çox yer verilir?

- Hələ keçən əsrdə böyük maarifçi Həsən bəy Zərdabi "Əkinçi"də yazırdı ki, "Şairlərimiz gül-bülbülü mədh, bir-birinisə həcv eləməklə məşğuldur". Bu söz bu gün nə qədər müasir səslənir (xüsusilə nəğmələrdə). Son bir neçə ildə yaranan əksər nəğmələrin sözləri bayağı, ("öldüm", "yandım", "gözlədim, gəlmədi", "gəl, ey yar") musiqisi isə melodiyasız taktdan, ritmdən ibarətdir. Bu "nəğmələr" oyun havalarından seçilmir. Buna görə də müğənnilər oxuduqları zaman tullanıb düşür, rəqs edir. Adama elə gəlir ki, ifaçılar müğənni deyil, rəqqasdır. Düşündürücü mahnılar az yaranır. Məncə, yeni yaranan nəğmələri qəbul edən əlaqədar idarələr bu barədə düşünməlidir.

- Mətbuatda bəzən belə bir fikrə rast gəlinir ki, guya böyük əsərlər müharibədən sonra yaranacaq. Fikrimcə, bu qənaət, müəyyən həqiqətlə, həm də zamandan ləngiməyi aşılayan aldadıcı təsəllidir. Necə baxır-

sınız, qələm zamanın - müharibənin önündə getməlidir, ya arxasında sürünməlidir?

- Bu barədə mətbuatda söylənilən fikirlərdə müəyyən həqiqət var. Müharibə mövzusunda monumental əsərlər zaman keçəndən sonra yaranır. Əbülhəsənin "Müharibə" romanı da müharibədən xeyli sonra yarandı. Amma bu mövzuda az-çox kiçikhəcmli əsərlərin yarandığını bilirik. Əlbəttə, bu, kafi deyil.

- Misralarınızda deyirsiniz ki, "...Bircə ondan razıyam ki, özümdən narazıyam". Xalqımızın adınıza bəslədiyi sevgilər-sayğılar Sizdən razılığın ifadəsi olduğu halda, Sizi özünüzdən narazı edən səbəb nədir?

- Sənətin zirvəsi yoxdur. Rus şairəsi N.Matveya deyir ki, "Allah məni kamillik zirvəsindən saxlasın". Əgər sənətkar çatdığı pilləni zirvə hesab edirsə, vay onun halına! Elə oradaca inkişaf dayanır.

Özündən razılıq sənətkar üçün faciədir. Məndən misal gətirdiyiniz misra da qələm əhli kimi özümdən narazılığın ifadəsidir.

Nizami

"Ədalət" qəzeti, 15 aprel, 1998.
"Ədəbi düşüncələr", Bakı, 2000.



DAMARLARINDA TÜRK QANI AXAN HƏR BİR KƏSİN QƏLBİNDƏ GÜNEY AZƏRBAYCAN DƏRDİ VAR

S u a l : - Bütöv Azərbaycan ideyasının gerçəkləşməsini zamanı çatmış problem hesab edirsinizmi?

C a v a b : - Bu mənim ən böyük arzumdur! Cavanlığımdan bu günə qədər həmişə məni göynədən arzum! Damarlarından türk qanı axan elə bir adam təsəvvür edə bilmirəm ki, onun qəlbində Güney Azərbaycan dərdi olmasın. Amma mənə elə gəlir ki, məsələnin indi bu şəkildə ortaya atılması düz deyil. Biz bu saat elə bir vəziyyətdəyik ki, ayağımızı yorğanımızdan çölə çıxaranda çox ehtiyatlı olmalıyıq. Bizim bu saat qarşımızda duran birinci məsələ Qarabağ məsələsidir. İndi vahid Azərbaycan məsələsini bura qatanda biz ondan da avara oluruq, bundan da. Yəni düşmənlərimiz çoxalır. Kim nə deyir desin, məncə, Azərbaycan türkünün rusdan əvvəl birinci düşməni farsdır. Buna görə də ideyanın indi ortaya atılmasından mən bir vətəndaş kimi ehtiyat eləyirəm.

S u a l : - Azərbaycan - İran münasibətlərinin belə siyasi müstəvidə inkişafı Sizi qane edirmi?

C a v a b : - Biz, əlbəttə, istərdik ki, İranla aramızda olan güney məsələsinə görə ehtiyatlı olaq. Amma heç zaman İran bizimlə barışmayacaq. Çünki İrana sərf eləmir ki, Azərbaycanın quzeyində müstəqil Azərbaycan dövləti yaransın. Ona görə də İranın ən böyük düşməni

bizik. İran gecə-gündüz çalışır ki, Quzey Azərbaycan dövləti məhv olsun.

S u a l: - İran - Ermənistan münasibətlərinin inkişafı Azərbaycanı yaxın gələcəkdə hansı cavab addımına sövq edə bilər?

C a v a b: - İranın Ermənistanla yaxın əlaqələrinin əsas səbəbi yenə bizik. Yeni quzeydə müstəqil Azərbaycanın olması. "Düşmənimin düşməni mənim dostumdur" prinsipini yadınıza salın. Buna görə də İran çalışır ki, Quzey Azərbaycanda dövləti ayaq üstdə dura bilməsin. O, çox istər ki, biz yenə rusların müstəmləkəsi olaq. Ona görə də ermənilərə kömək eləyir. Amma ermənilərə İranın yardımının səbəbi yalnız bu deyil. Tarixin köklərinə getsək elə erməni də, fars da eyni kökdəndir. Necə ki, biz macarlarla eyni kökdənik. Mən hələ ən yaxın qardaşlarımızı demirəm. İran həmişə çalışacaq ki, Ermənistanın əli ilə bizi məhv etsin. Bu nöqtədə rusun mənafeyi birləşir.

S u a l: - Xaricdəki Azərbaycan diasporu Güney Azərbaycana hansı yardımı göstərə bilər?

C a v a b: - Çox şey göstərə bilər. Amma qardaş, gəl açıq danışaq. Bir millətin iki oğluyuq. Mən getdim Təbrizə, Güney Azərbaycanda iki dəfə oldum. Cənublu qardaşlarımın qəlbinə girməyə çalışdım. Danimarkaya, İsveçə getdim. Məqsədim o idi ki, orada yaşayan azərbaycanlılarda milli hiss oyadım və bir Vahid Azərbaycan Cəmiyyəti yaradam. Orada beş-altı Azərbaycan cəmiyyəti var. Mən istədiyimə nail ola bilmədim. Çünki Cənubi Azərbaycanda, güneyli qardaşlarımızda - təəssüflər olsun - bunu ürək ağrısı ilə deyirəm, milli hiss, milli şüur istədiyimiz səviyyədə deyil. Ona görə də mən onlardan çox şey ummuram. Onlarda milli şüur olsa idi, Avropada ermənilərin anasını ağladardılar. Amma bunu eləmirlər. Ermənilər Avropada elmi işlərdə, vəzifələrdə, amma bizimkilər sürücüdü, fəhlədi, heç irəli gedə bilmirlər. Eybi yox, qoy elə olsun. Əsas milli şüurdu, o da yoxdur. İstanbulda maşınla gedirəm, sürücüdən də heç nə soruşmuram. Mən maşına minəndə sürücü soruşdu ki, Azəri türküsünüz? Dedim - əvət. Yol getdikcə bu mənə deyir: "Hə, bu quru qüvvələri komutanlığı, bu hava qüvvələri komutanlığı, burası

bizim Böyük Millət Məclisi". Allah, bu adam necə ürəklə danışır?! İftixarla, sanki mənə deyir, "mən qüdrətliyəm ha, bunu bil"! İnan Allaha, dözə bilmədim. Yaşlı adam idi, əyilib onu qucaqladım. Dedim: "Sənə qurban olum, bu qan ki, səndə var". Dedi: "Başqa cür necə ola bilər? Mənim evimin balkonundan mütəmadi bayraq asılır. Bayraq mənim varlığımdır". Adamın ürəyi dağa dönür. Bunu sən hansı güneylidə görə bilərsən? Heç quzeydə də görə bilməzsən! Şimalda da vətən üçün yananlar azdır. Barmaqla sayılacaq qədər "Millət" deyən oğullar tapılar. Mənim uzaq bir qohumum var. Əvvəllər, birdən gedirdim onlara, görürdüm uşaqları ilə rusca danışır. Mən bu anlamazı başa sala bilmirdim ki, adam öz evində ana dilində danışar. Bunu mən öz millətimə başa sala bilmirəm. Çıx Bakıya, bir dənə Azərbaycan dilində elan görməzsən, reklam görməzsən. İngilisdi, rusdu, farsca da gözə dəyir. Yaralı yerimdir. Mən bu uğurda 50 il çalışdım, buna nail ola bilmədim. Mən onlardan heç nə ummuram, heç nə gözləmirəm!

Sual: - Bütöv Azərbaycan ideyası reallaşarsa, hansı mövcud problemlər önə çəkilə bilər?

Cavab: - Çox böyük problemlər ortaya çıxa bilər. Məsələn, Almaniya 40 il ayrı qaldı, hələ də tam birləşə bilmir! 200 il ayrı qalmış xalqı özünüz düşünün. Onlar başqa-başqa şüurun adamlarıdır. Təbrizdə soruşuram: "Qardaş, milliyyətin nədir? Deyir: "Şükür əlhəmdülillah müsəlmanam". Deyirəm, qardaş, mən səndən dinini xəbər almadım, səndən milliyyətini xəbər aldım. Deyir: "şiə". Deyirəm, a kişi, şiəlik sənin məzhəbindir, milliyyətin nədir?! Deyir: "əhli-İranam da!" Mən milliyyətlə dinin ayrı olduğunu bu adama başa sala bilmədim. Mən bu birləşməni ürəkdən, candan arzu edirəm. Ancaq istək bir şeydir, gerçəklik başqa şeydir. Güneydəki soydaşlarımızın bir qismi Türk dilində danışa bilmir. Məsələn, deyir ki, "Biz eliyə bilərux ki, sizi evimizə qonaq çağıraq". Bu bizim dil deyil, farscadan tərcümədir. Birinə kitab bağışlamışam, deyir ki, "mən sizdən təşəkkür edirəm". Bu adam farsca düşünüb sonra öz dilinə tərcümə edir: "Mən əz şoma təşəkkor mikonəm".

Sual: - Güney Azərbaycanda siyasi şəxsiyyətlərin rolunu necə

qiymətləndirirsiniz?

C a v a b : - Çox yüksək. Məsələn, Pişəvəri haqqında müxtəlif sözlər deyilir. Amma Pişəvəri elə bilirdi ki, o yolla Azərbaycanı birləşdirə bilər. Yaxud Səttarxan, Şeyx Məhəmməd Xiyabani. Böyük şəxsiyyətlər idilər, intəhası əllərindən nə gəldi? Heç bir şey.

S u a l : - Siz Güney Azərbaycanın tam müstəqilliyini, yoxsa İran tərkibində mədəni muxtariyyatla kifayətlənməsini məqsədəuyğun sayırsınız?

C a v a b : - Burada iki məsələ var. Mən, əlbəttə, arzu eliyərdim ki, Azərbaycan İrandan qopub bizimlə birləşsin. Amma real baxanda indi bu mümkün deyil! Məsələyə real baxsaq, mən ilk addımda Güneyə mədəni muxtariyyat arzu edərdim, sonrasına baxarıq.

S u a l : - Güneylilərlə quzeylilərin ailə həyatı qurması, sizcə, əlaqələrin daha davamlı şəkil almasına nə kimi təsir göstərə bilər?

C a v a b : - Mən istərdim ki, gənclərimiz nəinki cənublularla, türkdilli xalqlarla da ailə qursunlar. Bəlkə biz qaynayıb qarışa bilək.

S u a l : - Sizcə, Azərbaycan dövləti niyə bütün Azərbaycan türklərinə ölkə vətəndaşlığı verməkdən çəkinir?

C a v a b : - Onu deyə bilmərəm. Amma Azərbaycan vətəndaşlığı alan cənublular var. Mənə bu barədə çox müraciətlər eləyirlər. Amma bunun qabağı niyə saxlanılır, niyə kütləvi olmur, onu deyə bilmərəm.

S u a l : - İran - Türkiyə münasibətləri gələcəkdə necə inkişaf edəcək?

C a v a b : - Necə olacağını bilmirəm, amma bircə şeyi bilirəm. Cənublu qardaşlarımızda türklərə qarşı amansız bir nifrət var. Hər dəfə Avropadan mənim evimə güneyli gələndə mən onlara deyirəm ki, ay qardaş, siz bu türklərdən nə istəyirsiniz? Onlar da sizin qardaşlarınızdır. Üç gün bundan əvvəl Frankfurtdan bir cənublu gəlmişdi, mənimlə müsahibə apardı. Ona da fikrimi dedim, deyir,

"Bəxtiyar müəllim, siz onları yaxşı tanımırsınız".

Deyirəm,

"Ay oğul, sən də türksən, o da türkdür. Niyə özünə düşmən

kəsilmisən? O da sənin qardaşın deyil?”

Bax, bu münasibəti mən başa düşə bilmirəm.

S u a l : - Güney Azərbaycandakı siyasi durum Sizi qane edirmi?

C a v a b : - İndiki halda, məncə, pis deyil. Son zamanlar bir oyanış başlayıb.

İshaq Ozanoğlu

“Tanıtım”, 1925 noyabr, 1998.
“Ədəbi düşüncələr”, Bakı, 2000.



BU VƏTƏN HAMIMIZIN ANASIDIR

(Bəxtiyar Vahabzadə soydaşlarını milli birliyə çağırır)

Ağsaqqal şairimiz B.Vahabzadə öncə "Yeni Müsavat" a verdiyi 2 müsahibədən heç birinin çap olunmasına razılıq verməmişdi: "Sussam da bostanıma daş atanlar çoxalıb. Gör, indi danışsam nə həngamə qopacaq, - demişdi. - Dünənə kimi ustad, müəllim deyənlərin bu gün məni az qala düşmən kimi qələmə verməsi ürəyimi ağrıdır. Dava-dərman ümidinə qalmışam".

Bakıdakı mənzilində mizin üstündə sıralanmış çeşidli dərman preparatlarını görəndə millətinin əzablarına köklənmiş şairə həsr olunmuş bir misranı xatırlamışdım: "Bəxtiyarı saxla barı, axırı puç olan dünya"...

...B.Vahabzadədən yenidən müsahibə götürmək üçün Şəkiyə getdim. Əmin idim ki, dədə-baba yurdunda istirahat edən şair bu dəfə "yox" deyə bilməyəcək. Atalar nahaq yerə üçdən deməyib ki... Üçüncü cəhdin nəticəsi olan müsahibəni diqqətinizə çatdırırıq.

Ad günüm faciəli bir günə təsadüf etdi

- Bəxtiyar müəllim, geciksək də Sizi ad gününüz münasibətilə təbrik edir, Sizə yaradıcılıq uğurları arzulayırıq.

- Çox sağ olun. Amma mənim builki ad günüm bütün dünya türkləri

üçün faciəli bir günə təsadüf etdi. Türkiyədəki zəlzələ bizi sarsıtdı.

- Elədir. Bakıda Türkiyəyə yardım kampaniyası başlayıb.

- Bu gün eşitdim ki, öz vəziyyətləri nə qədər ağır olsa da, yerli camaat burda da İcra aparatına gəliAr, Türkiyə üçün könüllü yardım təklif edirlər. Bu məni çox sevindirdi.

Dədə-baba yurdumuzu uşaq bağçasına verdik

- Bəxtiyar müəllim, bu gün səhərdən Şəkini bir qədər gəzdim. Deyilənə görə, Şəkidə müxtəlif adda məhəllələr olduğu kimi, hər nəslin də öz ayaması, öz ləqəbi olur. Sizin doğulduğunuz məhəllənin adını və nəslinizin ləqəbini deyə bilərsinizmi?

- Əvvəla, indi gördüyünüz bu bina mənim dədə-baba yurdum deyil. Bu binanı mən 1973-cü ildə tikdirmişəm. İndi yaşadığım bu məhəllənin adı "Çay qırağı" məhəlləsidir. Mənim evimdən təxminən 100 metr o tərəfdən Kiş çayı axır. Ona görə də bu məhəllə "Çay qırağı" adlanır.

1970-ci ildə indi Bakıda yaşayan əmiuşaqlarımla məsləhətləşib dədə-baba yurdumuzu uşaq bağçasına verdik. O yurd indi də uşaq bağçasıdır. Dədə-babamızın yaşadığı məhəllə isə "yuxarı baş" adlanır. Çünki o məhəllə Şəkinin dağa dirənən yuxarı hissəsindədir. Bu məhəllənin sakinləri əsasən dağçılıqla, odunçuluqla məşğuldur. Mənim babam, atam, əmilərim də o cümlədən.

- Bəs sizin nəslin ləqəbi nə olmuşdur?

- Bizə "Ətəyinə daş yığanlar" deyərlər. Rəvayətə görə, ulu babam Vahab kişi o qədər arıq olmuş ki, bərk külək əsəndə külək onu aparmasın deyə ətəyinə daş yığarmış. Mən bu əhvalatı bir gün Süleyman Rəhimova danışdım. O, bu barədə "Məkkə daşı" adlı çox məzəli bir hekayə də yazmışdı. Ümumiyyətlə, Şəkidə ayamasız, ləqəbsiz nəsil yoxdur. Məhəllələrin adları da çox qəribədir. Məsələn: Gilehli, Sarıtorpaq, Ağvanlar, Ayaqyalınlar, Gəncəli məhəlləsi və s.

Söhbətin şirin yerində mənim nəzərimi binanın üst tərəfində daşın üstünə yazılmış yazı cəlb etdi: "1973-cü il, Usta Niyazi". Bu yazı latın hərfləri ilə yazıldığına görə təəccübləndim.

- Bəxtiyar müəllim, bu bina 73cü ildə tikilmişdir. Axı, o zaman kiril əlifbası işlənirdi, latın yox.

- Doğrudur. Amma mən orta məktəbdə oxuyanda latın əlifbası işlənirdi. 1939-cu ildən sonra bizi kiril əlifbasına keçirtdilər. Amma mən inanırdım ki, gec-tez biz yenə də latın əlifbasına qaydacağıq. Mən hələ 1956-cı ildə rəhmətə gedən atamın və 1963-cü ildə rəhmətə gedən anamın da başdaşını latın əlifbası ilə yazdırmışdım.

- Bəxtiyar müəllim, Şəki öz şirin lətifələri ilə məşhurdur. Yəqin sizin yanınıza gələn ağsaqqallar, cavanlar sizə o şirin lətifələrdən danışırlar. Onlardan bir neçəsini deyə bilərsinizmi?

- Əvvəla, onu deyim ki, yanıma gələnlərin əksəriyyəti şikayətə və xahişə gəlir. Çünki əhalinin əksəriyyəti işsizdir. Şəkidə şəhər əhli qədim zamanlardan ipəkçiliklə dolanmışdı. İndi şəhərdə olan ipək fabrikləri və altı min fəhləsi olan ipək kombinatı dayanmışdır. Camaat ehtiyac içində yaşayır. Keçən il Şəkiyə təyin olunmuş icra başçısı Əşrəf Məmmədov bu fabrikləri işə salmaq, camaatın güzəranını heç olmasa nisbətən yaxşılaşdırmaq üçün çox çalışır. İndi camaatın ən böyük arzusu bu məsələnin həll olunmasıdır. O ki qaldı lətifələrə, Sizə təzə bir Şəki lətifəsi danışım:

Bazarda polis mütəmadi alverlə məşğul olan bir kişi və bir qadını tutur. Akt bağlamaq üçün qadından adını soruşur. Qadın "Fatma" deyincə polis qələmi bir kənara atıb: "Mənim yeganə bir qızım var, onun da adı Fatmadır. Qızımın xətrinə səni buraxdım. Get." - deyir.

Polis kişidən xəbər alır: "Sənin adın nədir?" Kişi cavab verir: "Vallah, Tahir olmağına Tahirdir, amma evdə və məhəllədə mənə Fatma deyirlər".

- Deyilənə görə, siz məşhur komik aktyorumuz Lütfəli Abdullayevlə dost olmusunuz. Onunla əlaqədar Şəkidə lətifələr varmı?

- Lütfəlinin Bakıda yaşayan, əslən Şəkidən olan Nurəhməd Əfəndiyev adlı bir həkim dostu var idi. Lütfəli ilə həmişə zarafatlaşardılar. Nurəhməd həkim bir gün mənə zəng edib Lütfəlinin xəstəxanada yatdığını deyib xahiş elədi ki, onun görüşünə gedək. Razılaşdım. Mən aşağı düşdüyüm zaman gördüm ki, Nurəhmədin yanında bir nəfər də

var. Üçümüz Lütfəlinin yanına gəldik. Palataya girən kimi Nurəhməd bizimlə bərabər gələn kişini göstərib "bu kişi mal həkimidir", - deyincə Lütfəli Nurəhmədin nə demək istədiyini başa düşüb dərhal onun sözünü kəsib: "Hansınızın həkimidir?" - deyə xəbər aldı.

Bir gün mən Lütfəlidən soruşdum ki, sən ki, belə hazırcavabsan, de görək, səni söz güləşməsində bağlayan olubmu? "İki dəfə olub, özü də Şəkidə", - deyə cavab verdi.

Səkinin girəcəyində bir Qışlaq kəndi var. Bu kəndin camaatı ilə Şəki camaatı arasında ənənəvi zarafatlaşma olduğunu Şəkidə hamı bilir. Lütfəli dedi ki, bir gün Qışlaqda təsərrüfat malları dükanına girib satıcıdan xəbər aldım: "Sizdə quşqun olarmı?" (Uzunqulağın boynuna və qarnının altına keçirilən qayışa quşqun deyilir). Satıcı dərhal cavab verdi: "Lütfəli, quşqunumuz var, amma sənin razmerin yoxdur".

Lütfəli pərt olur. Dükandan çıxanda uzunqulağın üstündə gedən bir qocaya rast gəlir. Pərtliyini unutmaq üçün qocadan xəbər alır: "Əmi, haralısan?" Qoca cavab verir: "Mən qışlaqlıyam, amma altımdakı şəkilidir".

Hamı hamıda nöqsan axtarır

- Bəxtiyar müəllim, bu məzəli söhbətlərdən sonra bizim hamımızı düşündürən bir məsələ barəsində fikirlərinizi bilmək istərdim. Siz bizim xilasımızı nədə görürsünüz?

- Birlik, birlik, yenə də birlikdə. Bu gün mənim üçün ən ağrılı məsələlərdən biri və bəlkə də birinci milli birlik məsələsidir. İndi hamı hamıda nöqsan axtarır. Heç kəs başqasının yaxşı və müsbət cəhətlərini görmək istəmir. Əlbəttə, heç kəs qüsursuz olmadığı kimi, heç kəs də tam qüsurlu deyil. Yaxşı insanlar ilk növbədə başqasındakı yaxşı əlamətləri görməyi bacaranlardır.

İqtidarla müxalifətin çəkişməsini hələlik qoyaq bir tərəfə. Götürək, yazıçı, bəstəçi və rəssamları. Bunların da bir-birləri arasında çəkişmələr mövcuddur. Əlbəttə, yaradıcılar arasındakı "ixtilaf" əsasən üslub ayrılığından doğur. Mən əgər fikrimi açıq-aydın, ənənəvi üslubda yazıramsa,

sərbəst vəznlə, ənənəvi üslubda yazmayan şairi inkar etməyə haqqım yoxdur. Gələcəkdə xalq tərəfindən kimin qəbul olunacağı isə gələcəyin işidir. Bu gün bu işə bizim müdaxilə etməyimiz və bu barədə mühakimə yürütməyimiz gülüncdür.

Siyasi partiyalara gəlincə, burda məsələ başqa cürdür. Götürək iqtidarla müxalifəti... Hər ikisi Vətən və millət adından danışır, onun gələcək xoşbəxtliyinə çalışdıqlarını bildirir. Əlbəttə, bunu təbii hal hesab edirik. Sivil, müasir hüquqi Dövlət yaratmaq istəyən məmləkətlərdə bu, belə də olmalıdır. Çünki müxalifət iqtidarın aynası hesab olunur. Bunu bütün dünya düşmənçilik deyil, rəqabət hesab edir. Lakin bizdə isə bu, rəqabətdən çıxıb düşmənçiliyə çevrilir. Bəs iqtidar və müxalifət partiyaları öz daxillərində bir-birlərilə yola gedirlərmi? Axı, bir ideya ətrafında birləşənlər bir-birinə düşmən olmamalıdır. Amma bizdə əksinədir. Həm iqtidar, həm də müxalifət partiyaları özləri öz aralarında bir-biri ilə əlbəyaxadır. Niyə belədir? Məncə, ona görə ki, nə müxalifətin, nə də iqtidarın üzvlərini böyük ideya birləşdirmir. Mən həm iqtidar və həm də müxalif partiyaların proqramlarını oxumuşam. Demək olar ki, hamısı eyni sözü deyir. Bəs eləysə, öz içlərin dəki bu çəkişmə nədir?

Mən hələ 1992-ci ildə yazdığım və sevimli bəstəkarımız Cavanşir Quliyevin bəstələdiyi "Haqqı yox" şeirində yazmışdım:

Tarix bizi imtahana çəkirkən
İmdad umur hamımızdan bu Vətən.
Dünya da haqq səsimizə kar ikən
Türkün türklə ədavətə haqqı yox.

Sındırıldı dəyirmanda pərimiz
Əsir oldu divə bizim Pərimiz.
Dağılarkən ocağımız, pirimiz
Türkün türklə ədavətə haqqı yox.

Nə çox imiş bu torpağa göz dikən
Baxa-baxa gözümüzə mil çəkən.

Düşmənimiz dostumuzdan çox ikən
Türkün türklə ədavətə haqqı yox.

Bu çəkişmələrdən və didişmələrdən əzab çəkən isə xalqdır. Mən, əlbəttə, siyasətdə sadəlövhəm. Bu mənim gəldiyim qənaətdir. Başqası bu vəziyyəti başqa cür də izah edə bilər. Mən başqa cür düşünənlə dava deyil, yalnız mübahisə edə bilərəm.

Böyük M.Ə.Rəsulzadənin gözəl bir sözü var: "Ana xəstə olanda onun başı üstündə övladlarının bir-biri ilə çəkişməyə haqqı yoxdur".

Mən arzu edərdim ki, müxtəlif yönlü partiyalar bir masa arxasında oturub bir ananın övladları kimi, vəzifə (YAP) və kreslo (müxaliflər) iddialarını kənara qoyub Anamızın müalicəsi və bu nanın bir şaqqası olan itirilmiş Qarabağ məsələsinin həlli yollarını düşünsünlər.

Həm iqtidarda, həm də müxalifətdə olanların bir çoxu ilə tanışam, dostam. Hətta bir qismi mənim tələbəm olub. Ömrüm boyu yerliçiliyə düşmən olmuşam. Tələbələrim çox yaxşı bilir ki, mühazirlərimdə bu məsələyə dolayı yolla toxunardım. 70-ci illərdə filoloji fakültənin son kursunda oxuyan çox mərifətli və savadlı bir bakılı qızını bir rayonlu oğlu istəyirdi. Amma qızın atası "Mən rayona qız vermərəm", - deyə elçiləri rədd etmişdi. Oğlanın dostları mənə müraciət etdilər. Mən oğlanın atası ilə birlikdə onlara elçiliyə getdim.

Məlum oldu ki, bu qız ata-ananın yeganə qızıdır və buna görə də övladlarını gözlərindən kənara buraxmaq istəmirlər. Amma buna baxmayaraq, biz valideynləri razı sala bildik. Burda mən bir məsələni xüsusi qeyd etmək istəyirəm. Bakılı ata oğlanın rayonlu olmasına görə deyil, övladı gözündən kənara buraxmamaq üçün qızı vermək istəmirmiş.

Yubiley keçirmək fikrində deyiləm

O zamanlar rayonlu, bakılı, şəkili, naxçıvanlı və s. söhbəti yox idi. Bəs bu gün bizim hamımızı pərişan edən bu bölgüçülük hardan meydana çıxıb? İndi isə gözümüzün qarşısında partiyalar da regionçuluq əsasında yaranır. Bu minvalla biz hara gedirik? Allah imdadımıza çat-

sın!

- Bəxtiyar müəllim, Siz bayaq dediniz ki, siyasətçilərimiz bir məxrəcə gələ bilmir. Siz bu məsələni həll etmək üçün bir təşəbbüs göstərmək istəməzsinizmi?

- Mən keçən il seçki ərəfəsində Şəkidə olanda Azərbaycan televiziyasından gəlib məndən müsahibə istədilər. Bu o zaman idi ki, "Beşlər" seçkini boykot etmək qərarına gəlmişdilər. Mən çıxışımda üzümü "Beşlər"ə tutub dedim: "İçinizdən bir nəfəri seçib namizədliyini irəli sürün". Məni dinləmədilər. Amma o ki var tənqid atəşinə tutuldum. Bundan çıxan nəticə odur ki, dava ideya davası deyil, yorğan davasıdır. Bu "Beşlər"dən biri də geri çəkilmədi. Çünki hamısı prezidentlik iddiasında idi. Bu iddia bu gün də davam edir.

Mənə görə, ümumən iddia, şəxsi mənafeyin vətən və xalq mənafeyindən üstün tutulmasından pöhrələnir. Bir misal da çəkmək istəyirəm. Səhv etmirəmsə, 1989-cu ildə yazıçı Elçinlə mən Danimarka və İsveçrəyə getmişdik ki, orada yaşayan on minlərlə azəri türkünü bir qurumda birləşdirək. İstəyirdik ki, Avropa ölkələrində bizim də öz diasporumuz olsun. Bu ölkələrin hər birində 5-10 Azərbaycan dərnəyi var idi. Hamısını bir yerə toplayıb məqsədimizi açıqladıq. Bildirdik ki, hər ölkədə bir qüvvətli Azərbaycan diasporu yaransın. Razılaşdılar. Amma bu qurumlara rəhbər seçmək məsələsi ortaya gələndə hərəsi bir tərəfə çəkdi. Biz məqsədimizə nail ola bilmədik.

Sözümün əvvəlinə qayıdıb demək istəyirəm ki, şəxsi mənafe istəymiz bizi birləşməyə qoymur. Bu günlərdə yazdığım "Sualın cavabı" şeirimdə bu ağrını ifadə edərək deyirəm:

Qohum qohuma düşmən, qardaş qardaşa düşmən.
Bu fikir o fikirə, bu baş o başa düşmən.
Millət ki, bax beləcə, neçə yerə bölünmüş,
Bir-birinə top atan cəbhələrə bölünmüş,
Bizim gözlədiyimiz o birlik olmayacaq.
O birlik olmayınca, dirilik olmayacaq.
...Bəs neyləyək indi biz?

Milləti çaşdırıblar.
Gerçəyi ölçən ipi elə dolaşdırıblar
Millət ayıra bilmir əyrisi nə, düzü nə?
İtirib haqq-hesabı.
Bu millət yumruq kimi birləşib, öz-özünə
Verəndə bu sualı, tapılacaq cavabı.

Hələ sovet hakimiyyəti dövründə mənim Milli Məclisdəki çıxışlarım, yəqin ki, çoxlarının yadındadır. O zaman qabaqcıl qurum hesab olunan AXC-dən millət vəkili yox idi. Buna görə də AXC-nin hüquqlarını və tələblərini mərhum yazıçımız İsmayıl Şıxlı ilə mən müdafiə edirdik. AXC-nin rəsmi qəbulu məsələsində Vəzirovla İsmayıl Şıxlının döş-döşə gəlməsini heç vaxt unutmaram. Sizin sualınızın əsas məğzinə gəlincə, siyasətçilərimizi bir məramda birləşdirmək mənim əsas işim olmuşdur. Bu məsələnin həllində əlimdən gələni əsirgəmərəm. Amma, nədənsə, liderlər bizdən kənar qaçır. Filosoflardan biri çox gözəl demişdir: "Qocaların ağlı və səbri cavanların emosiyası ilə birləşəndə gözəl nəticə alınar".

- Bəxtiyar müəllim, Siz hər il yay ayları Şəkidə olursunuz. Burda məşğuliyyətiniz nədən ibarətdir?

- Oxumaq və yazmaq! Bu yay mən bir telepyes və bir sil-silə şeirlər yazmışam. Bununla yanaşı, Cavad Heyətin Türkiyədə nəşr edilən "Türklərin tarix və kültürünə bir baxış", Osman Nuru Topbaşın "Osmanlı" və Çingiz Aytmatovun "Kassandra damğası" kitablarını oxudum. Mənim fikrimcə, Çingiz Aytmatovun bu romanı möhtəşəm əsərdir. Bu əsər onun heç bir romanına bənzəmir. Bu romanında Aytmatov o biri romanlarından fərqli olaraq, milli çərçivədən çıxmış, anamız Yer kürəsinə kosmosdan baxmışdır. Roman hamilə qadınların alnında özünü göstərən adi ləkənin üzərində qurulmuşdur. Bu ləkə, heç demə, hamilə qadının bətnində olan "Tavro-Kassandra" adlandırdığı embrionun anaya verdiyi "Mən bu dünyaya gəlmək istəmirəm" - işarəsi imiş. Roman yarı fantastik, yarı real həyatdan bəhs edir. Mən hamıya bu romanı oxumağı tövsiyə edərdim.

- Bəxtiyar müəllim, mən söhbətimizin əvvəlinə qayıtmaq istəyirəm. Bizim birləşə bilməməyimizin səbəbi milli mentalitetimizdən gəlmirmi?

- Bu sualın cavabı çox çətindir. Ona görə ki, mən millətimizin özünəməxsus olan elə gözəl keyfiyyətlərinin şahidi olmuşam ki, birliyə gələ bilməməyimizi mentalitetlə bağlamaq istəməzdim. Bildiyimiz kimi, Mirzə Cəlil yaradıcılığı boyu millətimizin çatışmayan cəhətlərini tənqid etmişdir. Yusif Vəzir Çəmənzəminli Mirzə Cəlildən soruşmuş: "Sən bu millətdə heç bir yaxşı cəhət görmüsənmi?" Mirzə Cəlil demiş: "Varsa, de". Yusif Vəzir ona belə bir misal çəkmişdir: "Bizim kəndlərimizin küçələrində at belində gedən cavan bir adam görə bilməzsən. Çünki o, qarşısına çıxan ağsaqqal adama at belindən "Salam əleyküm" deyə bilməz. Bu qocaya hörmətsizlik olar. Cavan adam kənddən bir xeyli aralanandan sonra ata minər".

Xalqın bu gözəl keyfiyyətini görən Yusif Vəzir haqlı idi. Amma bu o demək deyil ki, Mirzə Cəlil öz millətini Yusif Vəzirdən az istəyirdi. Sadəcə olaraq, Yusif Vəzir bir qədər romantik, Mirzə Cəlil isə sırf realist yazıçı idi.

Mən bu misalı ona görə çəkdim ki, məsələ baxışdan asılıdır. Amma sizinlə bir məsələdə şərikəm: Xalqın milli xüsusiyyətlərini, milli mentalitetini öyrənməyin vaxtı çoxdan çatmışdır. Mərhum dostum Xudu Məmmədov və professor Nurəddin Rzayevlə hələ 20-25 il bundan əvvəl bu barədə düşünərdik. Çünki xalqın milli xüsusiyyətlərini - onun zəif və qüvvətli tərəflərini mükəmməl öyrənmədən ziyalı milləti öz arxasınca apara bilməz. Burada məşhur hind filosofu və dövlət xadimi Mahatma Qandinin məşhur "Hindistanın kəşfi" əsəri yada düşür. M.Qandi uzun illər pay-piyada bütün Hindistanı kənd-kənd, oba-oba gəzmiş, millətinin zəif və qüvvətli tərəflərini öyrənmiş və bir sözlə, vətənini özü üçün "kəşf etmiş", yalnız bundan sonra "bəyaz inqilab" başlamış və ingilis işğalçılarını bir damla qan axıtmadan Hindistandan çıxarmışdır.

- Bu vaxta qədər neçə kitabınız nəşr olunmuşdur?

- Ana dilində 50-yə qədər, rus dilində 15, Türkiyə türkcəsində də təxminən o qədər, ingilis dilində 2, alman dilində 3, türkmən və

özbək dillərində də 3 və s. Amma əsas məsələ kəmiyyətdə deyil. Onun keyfiyyətini isə zaman müəyyən edəcək.

- İndi çap olunan kitablarınızdan qonorar alırsınızmı?

- Yox, əksinə, müəllif özü kitabın xərcini ödəməlidir.

- Bəs başqa ölkələrdə çap olunan kitablarınız üçün qonorar alırsınızmı?

- Məsələn, Türkiyədə Kültür Bakanlığının nəşr etdiyi kitablarıma təlif haqqı alıram. Amma özəl nəşriyyatlar vermir. Yalnız "Ötükən" nəşriyyatından almışam. 70 illiyimlə bağlı ABŞ-da nəşr olunan 2 kitabımın (şeirlər və məqalələr) xərcini Azərbaycan Dövləti ödədi. Almaniyada nəşr olunan kitablarıma isə qonorar almamışam. Xərcini alman dostum və tərcüməçim H.P.Əhməd Şmide ödəmişdir. Türkiyədə müxtəlif müəlliflər mənim sözlərimə yazılmış mahnıları oxuyurlar. Buraxılan kasetlərin üstündə sözləri "anonim" deyə yazırlar. Buna görə də mahnı mətnlərim üçün qonorar ala bilmirəm. Türkiyədə oynanan pyesim üçün isə qonorar almamışam.

- Bəxtiyar müəllim, mən "Türkə xəyanət şöhrət gətirir" mövzusunda bir yazı yazmışdım. Milli Məclisdə bir nəfər adımı çəkməsə də, mənim fikrimə hücum çəkdi.

- Elbəyi, oğlum, bu, sovet imperiyasından qalmış bir tendensiyanın qalığıdır. Buna görə də mən Sizin qəzetinizdə Kamil Vəlinin fikrinə dəstək verdim. Məsələ bundadır ki, bizim prezidentimizin özü Türkiyə ilə bizi "Bir millət, iki dövlət" adlandırır. İqrar Əliyev isə bu gün də bizim türk olmadığımızı iddia edərək 40 il əvvəlki "çastuşka"sını oxuyub, bayatıya keçə bilmir. Onun dediyi kimi, əgər biz türk deyiliksə, özünü türk sayıb türk dilində yazan Nəsimi, Füzuli, Vaqif, M.F.Axundzadə, Mirzə Cəlil, H.B.Zərdabi, Sabir, Ə.Hüseynzadə, Əhməd bəy Ağaoğlu, H.Cavid kimi dahilərimizi ədəbiyyat və fikir tariximizdən çıxartmalıyıq. Çox maraqlıdır, bəlkə, İqrar Əliyev millətimizi türk hesab edən bu böyük dahilərdən çox bilir?

Atatürk deyir ki, "Tarixi biz yaratdıq, amma bizim tariximizi başqa millətlər yazdı". Bu yaxınlarda M.Ə.Rəsulzadənin də buna bənzər bir fikrinə rast gəldim. O deyir. "Bizim tariximizi yazan əcnəbilər bizim

şücaət və qəhrəmanlığımızı vəhşilik, özlərinin vəhşiliyini isə şücaət və qəhrəmanlıq kimi qələmə verdilər".

- Gələn il Sizin 75 yaşınız tamam olur. Bu il avqustun 16-da Sizin 74 yaşınızı kimlər təbrik etdi?

- 1995-ci ildə mənim 70 illik yubileyim dövlət səviyyəsində keçirildi. Sağ olsunlar. Dediyiniz kimi, gələn il 75 yaşım tamam olur. Amma gələn il yubiley keçirmək fikrində deyiləm. O vaxta kimi əgər xalqımızın güzəranı, heç olmasa, bir qədər düzələrsə və Qarabağ yaramız sağalarsa, mən də ürəklə yubileyimi keçirə bilərəm. Bunu isə Allah bilir. Mənim ad günümü Prezident aparatından bəzi yoldaşlar, İsa Qəmbər, Əbülfəz Elçibəy, Sabir Rüstəmxanlı, Rauf Arifoğlu, Məmməd Araz, Pənah Hüseynov, A.Mərzili, sizin qəzetiniz, universitetdəki müəllim yoldaşlarım, dostum Nurəddin Rzayev və başqaları təbrik etdilər. Ümumiyyətlə, otuza qədər teleqram aldım.

Əyilib, qorxa-qorxa kibrit qutusunu qaldırdım

- Burda iş rejiminiz necədir? Mənə dedilər ki, siz günorta saat 12-yə qədər yatırsınız. Niyə belə?

- Gündüzlər heç vaxt işləyə bilmirəm. Yalnız oxuyuram. Gecə saat 12-dən sonra masamın arxasına keçir, səhər saat 4-5-ə qədər işləyirəm. Gündüzlər xahişə gəlib-gedənlər, telefon zəngləri işə mane olur.

- Bəxtiyar müəllim, son 10 ildə ədəbiyyatımızda hadisə ola biləcək bir əsər yaranmışmı?

- Bu sualı mənə çoxları verir. Sizin nəzərinizə bir məsələni çatdırmaq istəyirəm. Ədəbiyyatda və sənətdə yarandığı dövrdə hadisə kimi qəbul edilən əsərlər çox az olmuşdur. Mən yalnız öz yaşımda hadisə kimi səslənən iki əsərin şahidi olmuşam. Bir Üzeyir bəyin "Koroğlu"su, bir də Səməd Vurğunun "Vaqif"i. Lakin zaman keçəndən sonra elə həmin dövrlərdə yaranan əsərlərin sonradan hadisə kimi qəbul edilməsinin şahidi olmuşuq. Məsələn, dünya sənət tarixində Bethovenin bəzi əsərlərinin yaxşı qəbul edilmədiyini bilirik. Belə misallardan çox çəkmək olar. Amma bugünkü mətbuatımızda tez-tez bir fikrə

rast gəlirik: “İndi ədəbiyyatda və sənətdə böyük susğunluq var”. Mən bu fikirlə razı deyiləm. Yaşlı yazıçılarımızı qoyaq bir tərəfə. “525-ci qəzet”də, “Ədəbiyyat qəzeti”ndə, elə sizin qəzetinizdə cavan şairlərin elə gözəl əsərlərinə rast gəlirəm ki, heyrətlənirəm. Məsələn, bu yaxınlarda Qarabağ itkisi haqqında Famil Mehdinin gözəl bir şeirini oxudum. Yenə bu yaxınlarda Musa Yaqubun bir silsilə şeirləri çox xoşuma gəldi. Anarın “Otel odası”, Nəbi Xəzri, Sabir Rüstəmxanlı, Qabil, Məmməd Araz, Fikrət Qoca, Fikrət Sadıq, Şahmar Əkbərzadə, Behrudi və Zəlimxan Yaqubun yeni şeirləri gözəl ədəbi nümunələrdir. “Azərbaycan” dərgisində çox gözəl nəsr əsərləri və şeirlər çap olunur. Onu da deyim ki, xoşbəxtlikdən cavan qələm sahibləri özlərindən əvvəlki ədəbi nəsli təkrar etmir, tamam yeni üslubda yazırlar. Amma bunların əsərlərinin kitab halında çap olunması çox çətindir. Cavan şair və ya yazıçılar sponsor tapmalıdır.

Sevmədiyimiz və dağılmasını arzu etdiyimiz sovet hakimiyyəti illərində sənətə və ədəbiyyata dövlət qayğısı var idi. Əlbəttə, bu qayğı məqsədsiz deyildi. Dövlət bu qayğını onun şəninə tərifl ər demək üçün göstərdi. Sovet rejiminə qarşı olan qələm sahibləri özlərini sığortalamaq üçün sovet ideologiyasını tərənnüm edən əsərlər yazmağa məcbur idilər. Lakin bununla yanaşı müxtəlif ədəbi üsullardan istifadə edərək ürəklərini deşən duyğu və fikirlərini də qələmə alırdılar. Məsələn, İsmayıl Şıxlı “Ayrılan yollar” romanı ilə yanaşı monumental “Dəli Kür”, Rəsul Rza “Lenin” poeması ilə yanaşı “Qızıl gül olmayaydı”, Xəlil Rza “Krasnodon qəhrəmanları” ilə yanaşı “Afrikanın səsi” şeirini, Sabir Əhməd “Qanköçürmə stansiyası”, Sabir Azəri “Duman çəkilir”, İsa Hüseynov “Kollu Koxa”, “Yanar ürək”, “Tütək səsi”, Anar “Anlamaq dərdi”, “Yalançı padşahın nağılı”, M.Süleymanlı “Köç”, Elçin “Ölüm hökmü” kimi sovet rejiminin qüsurlarını göstərən, milli ruhumuzu dilə gətirən dəyərli əsərlərini yaratmadılarmı? Axı, bunları inkar etmək olmaz. Bəzi hallarda eşidirik ki, 70 illik sovet ədəbiyyatı heç nədir. Bu fikir çox yanlış fikirdir. Unutmaq lazım deyil ki, bir var sovet ədəbiyyatı, bir də var sovet dövründə yaranan ədəbiyyat. Süleyman Rüstəmin Leninı, Stalini, partiyanı tərənnüm edən şeirləri ilə yanaşı, “Cənub şeirləri”

silsiləsinə “heç nə” demək olarmı? Səməd Vurğunun partiyaya, partiya rəhbərlərinə həsr etdiyi şeirləri ilə yanaşı, “Vaqif”, “İnsan”, “Fərhad və Şirin” kimi pyeslərini, “Aslan qayası”, “Ayın əfsanəsi”, “Aygün” kimi poemalarını, “Azərbaycan”, “Şair, nə tez qocaldın sən”, “Mən tələsmirəm”, “Unudulmuş tək məzar” kimi şeirlərini inkar etmək olarmı? Əmhəd Cəmilin “Can nənə, bir nağıl de”, “Kənddə bahar axşamı”, Osman Sarıvəllinin “Sənin ad günün”, “Bu yer onun yeridir” kimi şeirləri, “Gətir, oğlum, gətir” poeması, N.Xəzrinin “Kiçik təpə”, Qabilin “Nəsimi” poemaları, S.Rüstəmxanlının “Ana dili” şeiri, nəhayət, Əli Kərimin “Qayıt”, “Qaytar ana borcunu”, “İki sevgi” şeirləri məgər sovet ideologiyasını tərənnüm edir? Süleyman Rəhimovun “Saçlı” və “Ağbulaq dağlarında” romanlarını, “Ötən günlər dəftərindən” başlığı altında yazdığı hekayələrini, M.İbrahimovun “Gələcək gün” romanını, Mir Cəlalın Sabirə həsr etdiyi “Yolumuz hayanadır” povestini, “İclas qurusu”, “Qaymaq”, “Bostan oğrusu”, “Anketov” kimi satirik hekayələrini, Mehdi Hüseynin “Yeraltı çaylar dənizə axır” romanını, İlyas Əfəndiyevin pyeslərini ədəbiyyat tariximizdən çıxartmaq olarmı?

Bir sözlə, 70 illik sovet dövründə yaranmış əsərləri eyni damğa ilə damğalamaq olmaz. İndi mən çox təəssüf ki, unudulmaqda olan gözəl təbiət şairimiz Hüseyn Arifdən bir misal gətirmək istəyirəm. Şeirdə belə bir əhvalat təsvir olunur: bağa çəpər çəkmək üçün payalar basdırılır. Bu payaların biri göyərir və çəpəri dağıdır. Bu, həyatın verdiyi faktdır. Amma bu faktı görün şair necə ümumiləşdirib, ondan fəlsəfi nəticə çıxarır:

Ağac tək ucalmaq istəyənləri
Paya tək çəpərdə saxlamaq olmaz.

Fikir nə qədər dəqiq, nə qədər aydın və nə qədər tutarlıdır. Bəli, bu şeir də sovet dövründə yaranıb. Lakin bunun hansı dövrdə yaranmasının bir önəmi varmı?

- Bayaq siz Xəlil Rzanın “Afrikanın səsi” şeirinin adını çəkdiniz. O şeir Afrikadanmı bəhs edir?

- Xeyr, o şeirdə bizim dərdimiz dilə gətirilib. Amma Afrikadan qalxan kimi istifadə edilib.

İstəmirəm azadlığı zərrə-zərrə, qram-qram.
İstəyirəm qolumdakı zəncirləri qıram, qıram.

Müəllif o zaman senzuranın fikrini yayındırmaq üçün, sadəcə olaraq, şeirinin adını "Afrikanın səsi" qoymuşdur. Lakin burda şair öz qollarına vurulmuş zəncirləri qırmaq arzusunu ifadə edirdi. Xəlil Rzadan başqa bir misal çəkmək istəyirəm. Təxminən, 70ci illər olardı. O, Cənubi Azərbaycana həsr etdiyi "Tikanlı məftillərlə sarılan yaralar" adlı bir poema yazmışdı. Poemanın sonluğu bu sözlərlə bitirdi:

Həyat belə qala bilməz
O sahildə, bu sahildə.

Bu parça yuxarıların etirazına səbəb olmuşdu. Ona görə də Mərkəzi Komitənin nümayəndəsinin iştirakı ilə bu məsələ Yazıçılar İttifaqında müzakirə edilirdi. Bir çox yazıçılar, o cümlədən də mən poemanın Güney Azərbaycana həsr olunduğunu və burda pis niyyət olmadığını sübuta çalışdıq. Lakin MK-nın nümayəndəsi yuxarıda misal gətirilən iki misradan yapışıb deyirdi ki, "həyat bu sahildə belə qala bilməz" fikri yanlışdır. Çünki o sahildə kapitalizm hökm sürür. Bu sahildə isə azad və xoşbəxt güzəran keçiririk. Şair nəyə görə bu sahildə də həyatın balə qalmayacağını iddia edir? Bu zaman Rəsul Rza hövlnak ayağa qalxıb dedi: "Bəli, şair düz deyir. Həyat bu sahildə də belə qalmayacaq. O sahildə kapitalizm sosializmə keçəcək, bu sahildə də sosializm kommunizmlə əvəz olunacaq".

Xəlil Rza mənim tələbəm olmuşdur. Sonralar isə tələbəm mənim məsləkdaşıma, fikirdaşıma çevrildi. Tez-tez görüşərdik. Şeirlərimizi bir-birimizə oxuyardıq. Xəlil Rzanı tanıyanlar bilir ki, o, əvvəllər qələmlə, sonralar isə partativ yazı makinası ilə, görüşdüyü adamlarla elədiyi söhbətləri yazardı. Bu yaxınlarda mərhum şairimizin ömür-gün

yoldaşı Firəngiz xanım mənə telefon açıb dedi ki, Xəlil Rzanın arxivi ilə məşğul oluram. Burdakı yazıların içində Xəlil Rzanın sizin haqqınızda olan xeyli xatirələri və ayrı-ayrı əsərləriniz haqqında məqalələrini toplamışam. Mən istəyirəm ki, bu yazılar çap olunsun.

Mən "Azərbaycan" nəşriyyatının direktoru Nazim İbrahimovla danışdım, əsər redaktə üçün Azər Bağırova verildi. Redaktor Firəngiz xanımla birlikdə kitabı redaktə elədilər və həmin kitab bu günlərdə çapdan çıxmışdır.

Bəli, qardaşım Elbəyi, biz bu dəhşətli rejimdən keçib gəlmişik.

- Mən eşitdiyimə görə sizin şair Qasım Qasımzadə ilə bir kibrit qutusu əhvalatı olmuşdur. Onu bizim oxuculara danışa bilərsinizmi?

- Rəhmətlik Qasım Qasımzadə ilə çox möhkəm dost idik. Bərabər oxuyurduq. Qasım çox vətənpərvər və sözün həqiqi mənasında türkçü idi. O zaman universitet indiki İqtisadiyyat Universitetinin binasında yerləşirdi. Dərsdən çıxıb Akademiyaya tərəf gedirdik. Söhbət rejimin törətdiyi cinayətlərdən gedirdi. Mən əsəbi vəziyyətdə Qasımdan soruşdum: "Bu işlərin axırı nə olacaq?" Qasım heç tərəddüd etmədən "Sən öl, vallah, billah, bu rejim dağılacaq"., Əlbəttə, mən də bu rejimin yaşamaq haqqı olmadığına və gec-tez dağılacağına inanırdım. Amma mən inamımı daha da möhkəmləndirmək üçün Qasıma dedim ki, "Sənin bu sözün əfsanəyə bənzəyir". Mən bu sözü dediyim zaman artıq Akademiyanın qapısı ağzındaydıq. Bir də baxdım ki, Akademiyanın qabağında yerdə bir kibrit qutusu var. Dedim: "Qasım, mən o kibrit qutusunu götürəcəyəm. Əgər onun içində bircə dənə də olsa yanmamış kibrit tapsaq, sənin dediyin həqiqət olacaq".

Əyilib, qorxa-qorxa kibrit qutusunu qaldırdım. Hiss etdim ki, qutu doludur. Qutunu açdıq. Qutudakı bütün çöplər yanmamış çöplər idi. Onda mən Qasıma dedim ki, sən papiros çəkən deyilsən. Gəl, əhd edək, sən dediyin gün gələndə mən sənə bir papiros verəcəyəm və həmin qutudakı çöpün biri ilə sənin papirosunu yandıracağam. Mən həmin qutunu 1991-ci ilə qədər saxladım və istiqlalımız elan olunan gün dediyimizi elədik. O gün Qasım ilk və son dəfə siqar çəkdi.

Donos yazan şair yoldaşım idi

- Siz ilk gənclik illərinizdən başlayaraq müxtəlif ədəbi üsullardan istifadə ilə sovet imperiyasına qarşı yazmısınız. Rejimə qarşı sizdəki bu antipatiya haradan cücərmişdir?

- Ailə tərbiyəsindən. Mənim atam, babam və əmilərim hamısı savadsız idi. Amma babam hər dəfə namaz üstündə bir sözü təkrar edərdi: "Ya rəbbim, sən bizi bu zülmdən xilas elə". Eyni sözləri nənəm, anam və əmilərimin arvadları da təkrar edərdi. Bildiyiniz kimi, 1930-cu ildə Şəkidə kollektivləşmə siyasətinə qarşı böyük üsyan oldu. O zaman mənim 5 yaşım var idi. Amma hər şey yadımdadır. Üsyançılar şəhəri 4-5 gün əllərində saxladılar. Bakıdan ordu gəldi. Üsyanı dağıtdı. Üsyançıların bir qismini qırdılar, bir qismi isə dağlara çəkildi. Bizim evimiz dağın ətəyində, meşənin girəcəyində yerləşir. Rus əsgərləri bizim evimizin yanından keçib, qaçaqların gizləndiyi meşələrə gedərdilər. Atışma səsləri indi də qulağımdadır. Öldürdükləri qaçaqları

dağaşarı sürüyürdülər. Bu dəhşətli faciəni görən babamın hönkür-hönkür ağladığı yadımdadır. Onun dediyi bir söz indi də qulağımda cingildəyir: "İlahi, sən bu zülmü götürmə". Mən bunların şahidi olduğumdan, hələ körpəliyimdən o rejimə qəlbimin dərinliyində böyük nifrət yaranmışdı.

- Bəxtiyar müəllim, AXC vaxtında Milli Məclisdə familiyalarımızın sonundakı rus sonluğundan imtina məsələsi qoyulmuşdu. Bu barədə Sizin fikriniz nədir?

- "Ov" və "yev"-dən imtina eləmək. "Onu "lı, li" ilə əvəz etməyi məsləhət bilərdim.

- Məmməd Araz deyir: "Bu da belə bir ömürdü, yaşadıq". Siz necə yaşadınız bu ömrü? Günahlarınız, qəbahətləriniz oldumu?

- Günahsız adam olar? Mənim də günahlarım və qəbahətlərim olub. Və bu barədə mənim xeyli şeirlərim var. Ancaq bircə şeyi deyə bilərəm ki, Vətənin və millətin qarşısında heç bir günahım olmayıb. Çox qəribədir. İmperiyanın qılıncı başımın üstündə olanda mən nə imperiyadan, nə də onun KQB-sindən qorxmamışam. İmkan daxilində sözü-

mü deyə bilmişəm. (Bu yerdə Bəxtiyar müəllim mənə masanın üstündə cərgə ilə düzülmüş dərman şüşələrini göstərir). İndi ölüm-zülüm yaşayıram, dərmanların köməyi ilə. Ona görə də indi əvvəlki ötkəmliyim, elə bil, məndən üz döndərib.

- Səhv eləmirəmsə, 2 il bundan əvvəl prezident Heydər Əliyev KQB işçilərinin yubileyində dedi ki, 60-cı illərdə Bəxtiyar Vahabzadənin həbs olunmasına imza atılmışdı. Onu mən qoymadım. Bu barədə Siz nə deyə bilərsiniz?

- Onu mən də eşitdim. Qəzetlərdə də yazılmışdı. Bu il yazıçı Rüstəm İbrahimbəyovun 60 illik yubileyində də prezident bu barədə danışdı. O, dedi ki, 60-cı illərdə Bəxtiyar dissident kimi tanınırdı. Biz onu çox çətinliklə həbs bəlasından xilas etdik. Bunu mən də o zaman hiss edirdim. Tutulacağımı hər gün gözləyirdim. Amma nədənsə qətiyyən qorxmurdum. Atam müsavat dövründə əsgərlik etmiş, o zaman əsgərlikdə müsavat partiyasına daxil olubmuş. Amma bunu hamıdan gizlədirdi. Atamın Nuru Həsənoğlu adlı əsgərlik yoldaşı vardı. O, KQB-də böyük vəzifədə çalışırdı. O zaman hamı ona Nuru Qazanoviç deyərdi. Atam isə savadsız bir fəhlə idi. Buna görə də əlaqələri yox idi. Amma həmişə mənə deyərdi ki, dəniz qırağında (o zaman KQB-yə

"dəniz qırağı" deyərdilər) Nuru adında mənim bir əsgərlik yoldaşım var idi. Həmin Nuru Həsənoğlu sonralar "İnturist" otelinin direktoru oldu. Bir gün o, məni yanına çağırıb (o zaman atam çoxdan ölmüşdü) mənə atamla əsgərlik yoldaşı olduğunu dedi və mənə xeyli öyüd-nəsihət verdi. Və məni bəzi şeirlərimə və xüsusən "Gülüstan"a görə xeyli danladı. Heç demə, o da mənim tutulmaq təhlükəsi qarşısında olduğumu bilirmiş.

- Sizin "İki qorxu" poemanız şair təxəyyülündən doğmuş, yoxsa, olmuş hadisədir?

Əslində, mən olan hadisəni qələmə almışam. Bununla yanaşı, sənətin öz tələbləri də var.

- Siz olmuş hadisəni danışa bilərsinizmi?

- 1946-1947-ci illərdə məşhur "Cücələrim" mahnısının müəllifi Qəmbər Hüseynli ilə yaradıcılıq əlaqələrimiz var idi. Qəmbəri mənimlə

şəxsiyyətinə və əqidəsinə dərin hörmət bəslədiyim yazıçı dostum H.Abbaszadə tanış etmişdi. Qəmbər Hüseynli Mirzağa Əliyev küçəsində bir zirzəmidə yaşayırdı. Bir gün eşitdim ki, Qəmbər Hüseynlini tutublar. 3 ildən sonra onu buraxdılar. Onunla yenidən yaradıcılıq əlaqələrinə başladıq. Mən onun nə üstə həbs olunduğunu bilirdim. O, kiminləsə elədiyi söhbətdə Stalini söymüş, həmsöhbəti də onu satmışdı. Mən bunu bildiyim halda bu barədə susur, ondan heç nə soruşmurdum.

Bir gün yaradıcılıq söhbətimizi qurtarandan sonra Qəmbər güzərandan şikayətə başladı. Bu məqamda mən ondan nə üstə həbs olunduğunu xəbər aldım. O, elə bil bir-dənbirə bomba kimi partlayıb "o yaramaz despot Bığıbəyi söymüşdüm" - dedi. *(O zaman Stalinə gizli söhbətlərdə "Bığıbəy" deyərdilər).* Bu söz onun ağzından qəflətən çıxdı. Başa düşdüm ki, dediyinə peşman olmuşdur. Rəngi ağappaq ağardı, əlləri əsməyə başladı. Mən onu bu vəziyyətdən xilas etmək üçün onun sözünü dəstəkləyib, günahsız Cavidlərin, Müşfiqlərin məhv edilməsində məhz Stalinin günahkar olduğunu dedim.

Bu söhbət axşam 9-10 radələrində olmuşdu. Mənim ona dəstək verməyimə baxmayaraq o, özünə gələ bilmir, dili topuq çalırdı.

Mən evə gəldim. Birdən içimdə bir səs baş qaldırdı: "Mən niyə qəlbimdəkiləri Qəmbərə dedim? Mən hardan bilirəm ki, o, məndən söz almaq üçün qəsdən Stalin haqqında o sözləri deməmişdir? Axı, KQB tərəfindən tutulan siyasi məhbuslar həbsdən elə-belə azad ola bilmirlər. Onları "verbovat" etmədən buraxmırlar". Bu fikirlər içində çırpınır, gecəni yata bilmirdim. Saata baxdım, artıq gecə saat 1-dən keçib. Bizim qapının ağzında bir maşın dayandığını eşitdim. Qonşunun qapısı döyüldü. Kimsə adres soruşurdu.

Mən onu bilirdim ki, KQB adamları gecələr həbs edir. Dərhal düşündüm ki, bəlkə məni elə bu gecə həbs edəcəklər. Sonra ağlıma gəldi ki, Qəmbərlə söhbətimiz axşam saat 9-10 radələrində olmuşdur. O məni yalnız səhər sata bilər. Və dərhal o qərara gəldim ki, səhərin açılmasını gözləyim. O, yuxudan oyanmamış onlara gedim və ondan xahiş edim ki, məni satmasın.

Anamın bir qıçı tramvay altında qalıb kəsilmişdi. Ona görə protez

geyirdi. Anam mənim antisovet ruhda yazdığım şeirləri protezinin sarığında gizlədərdi. Dərhal qalxıb protezin içindəki şeirləri çıxardıb yandırdım. Səhər saat 7-00 olunca qalxıb geyindim, evdən çıxmaq istəyirdim ki, qapının zəngi çalındı. "Kimsən" - deyə sorduqda Qəmbərin xırıltılı səsini eşitdim: "Mənəm". Qapını açınca Qəmbər boynuma sarılıb: "Bəxtiyar, mən Stalin haqqındakı o sözləri zarafatca demişəm, Stalin bizim atamız, dahi rəhbərimizdir, qurban olum, məni satma", - dedi. Mən də eyni sözləri təkrar edib Qəmbərin boynuna sarıldım: "Stalin bizim atamız, dahi rəhbərimizdir, mən də o sözləri elə-belə dedim", - deyə-deyə hər ikimiz hönkürürdük. Heç demə, Qəmbər də mənim kimi bütün gecəni yata bilməmiş, sübh tezdən yanıma gəlmişdir.

Bu, zamanın faciəsi idi. Biz bu dəhşətli günlərdən keçib gəldik. Və mən bu faciəni "İki qorxu" poemamda qələmə aldım.

- Mən eşitmişəm ki, "Yollar - oğullar" poemasının üstündə də başınız bəla çəkib.

- Elədir. Amma o poema haqqında donos yazan şair yoldaşım idi. Adını çəkməyəcəyəm. O indi dünyasını dəyişib. Övladları var. Onun ruhunu incitmək, ailəsinin isə ovqatına soğan doğramaq istəmirəm.

1950-ci illərin sonu 60-cı illərin əvvəlində əlcəzairlilərlə fransız işğalçıları arasında müharibə gedirdi. 8 illik bu müharibə əlcəzairlilərin qələbəsi ilə bitdi. Fransız işğalçıları ölkədən qovuldu. O zaman mən qəzetlərdən oxudum ki, müharibədə iki qolunu itirmiş bir mücahidi müstəqil Əlcəzairin başçıları özləri ilə bərabər BMT-yə aparmış və binanın qarşısında dalğalanan müstəqil ölkələrin bayraqlarının yanında Əlcəzairin milli bayrağını qaldırmağı həmin mücahidə tapşırmışlar. İki qolundan mərhum olmuş həmin mücahid uğrunda mübarizə apardığı müstəqil dövlətin bayrağını dişləriylə qaldırıbmış. Mən bu xəbəri oxuyunca hönkür-hönkür ağladım və dilimdən bir nida çıxdı: "İlahi, bu gündən bizə də qismət elə".

Bundan sonra mən Əlcəzairin tarixini, 130 il əvvəl Əlcəzairin istiqlalı uğrunda mübarizə aparan Hacı Əbdül Qadirin və o, məğlub olandan sonra nəvəsi Zeynəbin yenə də yeni mübarizəni davam etdirməsi haqqında xeyli kitab oxudum və nəhayət, "Yollar - oğullar" poeması

yarandı. Mən bu poemada müstəmləkə zülmünə məruz qalmış xalqların istiqlal arzusunu və millətlər üçün istiqlalın nə qədər zəruri olduğunu qələmə almışdım. Poemanı 1964-cü ildə tamamlayıb "Azərbaycan" dərgisinin redaksiyasına verdim. O zaman həmən redaksiyada çalışan donosçu şair poemada mənim nə demək istədiyimi anlamış və bir üzü MK-ya, bir üzü KQB-yə, bir üzü də o zamanlar Yazıçılar İttifaqının sədri olan Mehdi Hüseynə vermişdi. Onun KQB-nin ştatdankənar işçisi olduğunu onsuz da biz bilirdik. Amma üzünə vurmurduq, vura da bilməzdik.

Poemanı oxuyan rəhmətlik Mehdi Hüseyn məni müdafiyəyə qalxmış və poemanın üstünə bu sözləri yazmışdı: "Müstəmləkə xalqlarının öz azadlığı uğrunda apardığı mübarizə nə zamandan yasaq edilmişdir? Poema çapa gedə bilər".

Bu məsələ o zaman I katib işləyən V.Axundova qədər gedib çıxdı. V.Axundovun Mehdi Hüseynlə möhkəm dost olduğunu bilirdim. Mehdi Hüseyni eşidən V.Axundov da "bu məsələni Yazıçılar İttifaqının rəhbərləri həll etməlidir", - deyə bizə dəstək verdi.

Böhranlı vəziyyət keçəndən sonra Mehdi Hüseyn məni evlərinə çağırdı. Məni qucaqlayıb əsərimi təqdir etdi və onun "bizim edə bilmədiyimizi sən etdin" sözləri indi də qulağımda səslənir.

Mehdi Hüseyn sevdiyi məşhur kəlamları və şeir parçalarını cib dəftərçəsinə yazardı. O, əlini çibinə salıb həmin dəftərçəni çıxartdı və "Yollar - oğullar" poemasından aşağıdakı parçanı oxudu:

Dağ olub üstümə qat-qat qalınca
Məndən uca dağlar kölgə salınca,
Daş olub dağlardan uzaq olaydım.
Ay olub nurumu gündən alınca,
Bir evi nurladan çıraq olaydım.

"Bəli, bu, bizim dərdimizdir", - dedi.

Söhbətimizi Türkiyədə baş verən zəlzələ ilə başladıq, mən istəyirəm ki, elə bu mövzu ilə də bitirək. Söhbəti Şəkidə başladıq, Bakıda qurta-

raq. Bakıya gəldim. Ertəsi günü Türkiyənin Bakıdakı səfirliyinə getdim. Türkiyənin cümhur başkanı Süleyman Dəmirələ başsağlığı teleqramı göndərdim. Səfirin özünə də başsağlığı verib və öz vicdanı borcumu ödəmək üçün ordan birbaşa "Azər - Türkbank"a gəldim. "Yeni Müsavat" qəzetinin 22-23 avqust tarixli sayında mən xalqıma müraciət edərək millətimizi Türkiyəyə yardıma çağırmışdım. Axı, onlar hər zaman bizim arxamız, dərdimizin ortağı olmuşlar.

Mən bankda gözəl bir mənzərənin şahidi oldum. Camaat yardım üçün növbəyə durmuşdu. Bu fəxredici haldır. Hər kəs öz bacardığı qədər Türkiyəyə yardım etmək istəyirdi. Yardımın çoxu-azı olmaz. Bu yardım vicdanımızın səsi, Türkiyəyə olan böyük məhəbbətimizin ifadəsidir.

Orada mən Əhmədlidən gələn təqaüdçü bir qoca ilə rastlaşdım. O, 50.000 manat təqaüd alır, amma bu təqaüddən 10.000 manatını yardım üçün gətirmişdi. Mən bir daha millətimizi Türkiyədəki qardaş və bacılarımıza yardıma çağırıram.

Evə gəlib bəstəkar F.Sücaəddinə və Eldar Mənsurova zəng etdim. Belə qərara gəldim ki, Türk qardaşlarımızın faciəsinə şərik olduğumuzu bildirmək üçün bir mahnı yazaq. Yazdığım mahnının mətnindən bir neçə bəndi oxucularıma təqdim etməklə müsahibəni bitirmək istəyirəm.

...Dostunuza dost olmuşuq,
Yağınıza biz yağıyıq.
Dərdimizin ortaqları,
Dərdinizin ortağıyıq.

Sizin hər ağrı-acınız,
Mənim ağrı-acılarım.
Allah olsun yardımçınız,
Əziz qardaş-bacılarım.

Dərdinizdə, nəşənizdə,
Biz sizinlə daim birik.

Ölənlərə rəhmət olsun,
Qalanlara səbr istərik.

Xoşbəxtliklə bitər daim,
Hər bəlanın, dərdin sonu.
Qəbul edin qəlbimizin,
“Keçmiş olsun”, - arzusunu.

Müsahibəni apardı: Elbəy Həsənli

“Yeni müsavat”, 27, 28, 29-30, 31 avqust 1999
“Ədəbi düşüncələr”, Bakı 2000



MÜSAHİBƏ*

“Məni şair edən millətimin dərdidir”

Azərbaycanın iftixarı olan böyük şair Bəxtiyar Vahabzadə ilə Bakıdakı evində jurnalist dostum Yılmaz Polad ilə Qurban bayramının dördüncü günü görüşməli olduq. Həmişə baxışları qəmli olan Vahabzadənin gözləri gülürdü. Görüşümüzdən son dərəcə razı qaldığını hiss etdik. Bu günləri ona bəxş edən Allaha şükür edirdi. O, bu günü - millətinin istiqlalını, uzun illər Türkiyədən gələcək qardaşlarını böyük həyacanla gözləmişdir. Babası son dəqiqələrini yaşadığı anlarda Bəxtiyarın atasına və əmilərinə: “Övladlarım, ümidinizi itirməyim, türklər mütləq gələcək, bizə dinimizi və əslimizi tanıdacaqlar!” - deyərək dünyasını dəyişmişdi. Bu söz balaca Bəxtiyara çox təsir etmişdi. O, Allahın adının çəkilməsi belə qadağan edildiyi; insanı insan kimi, millətin millət kimi qiymətləndirilmədiyi, qanlı diktaturanın hakim kəsildiyi bir ölkədə boyabaşa çatmışdır.

_Özü başda olmaqla, xanımı və nəvələri bizlərə xidmət etmək üçün pərvanə kimi başımıza fırlanırdılar. Bizə əvəzsiz qonaqpərvərlik göstərirdilər. Şairin şeirlərində təkcə zamanın yox, dilimiz, dinimiz,

*Mənimlə müsahibə aparan müxbir bu müsahibədə bəzi xətalara yol vermiş, məni prezidentin “baş danışmanı” adlandırmış, eyni mətləbi bir neçə dəfə təkrar etmiş, bir neçə yerdə də mənim demədiklərimi yazmışdır. Buna görə də mən həmin xətaları düzəltməyə, redaktə və ixtisar etməyə məcbur oldum. – *(Red.)*.

tariximiz, adət və ənənələrimiz, dünyagörüşümüz, incəsənətimiz, bir sözlə, bizi özümüzə tanıtdıran, güz illərdən bəri yaşadan, yıxılmaqdan və məhv olmaqdan qurtaran keyfiyyətlər öz əksini tapmışdır. Türk ədəbiyyatı haqqında qələmə aldığı çox qiymətli tədqiqat və axtarışları ilə seçilən professor, doktor Mehmet Kaplanın nöqteyi-nəzərincə Vahabzadənin şeirləri brilyanta bənzər şeirlərdir. Bu şeirlərdə musiqi ahənginin qorunması, qafiyələrin yeniliyi, orijinallığı, dili səhər mehi kimi təravətli, düzgün, məna dərinliyi ilə seçilməkdədir. Anadolu türkləri brilyanta bənzər soydaşlarından yüz illərlə məhrum edilmiş, aranı keçilməz, xəcalət doğuran hasarlar, dəmir pərdələr ayırmışdır.

Şair, yazıçı, millət vəkili Vahabzadə göz yaşlarını silmədən "Məni şair edən günahsız və böyük xalqımın dərdidir", - deyirdi.

Şairin evinə axşam saat 9-da getdik. Onlardan ayrılanda gecə saat 3-ün yarısı idi. Yəni, şairlə beş saat yarım söhbət etməli olduq. Bizim bütün suallarımıza cavab verdi. Söhbətimiz şeir, şair, mədəniyyət, incəsənət, ədəbiyyat və Türkiyə Azərbaycan münasibətlərindən getdiyi zaman xalqının başına gətirilən müsibətləri tarixin süzgəcindən keçirir və yeri gəldikcə, qarşıda duran vəzifələri də izah edirdi.

Türkiyədə Bəxtiyar Vahabzadə ilə belə geniş və uzun söhbət, zənnimcə, türk mətbuatında ilk dəfə "Egitim-bilim" jurnalında veriləcəkdir. Bu gözəl insan ilə apardığımız müsahibəni sizin də diqqətinizə çatdırmaq istəyirik.

- Hörmətli şair, Türkiyə mətbuatında nəşr edilən "Gün var min aya dəyər" adlı şeir kitabınız böyük marağa səbəb olmuşdur. Bundan sonra lentə yazılan şeir kasetiniz və çap edilən başqa kitablarınız oxucular tərəfindən böyük rəğbətlə qarşılandı. Bəxtiyar Vahabzadə öz sözü ilə bizə bir tanışlıq verə bilərmi?

- Deməli, mənim tərcümeyi-halımı bilmək istəyirsiniz?

- Bəli, cənab şair!

- Mən 1925-ci ildə Azərbaycanın quzeyində yerləşən Şəkidə anadan olmuşam. Ailəmiz - atam, əmilərim, babam, babamın babası odunçu olmuşdur. Mənim anadan olduğum məhəllə meşənin girəcəyində yerləşir. Bizim nəslimizi "oduncu" kimi tanıyırdılar. 1930-cu ildə Şəkidə rejimə

qarşı böyük bir üsyan baş verdi. Xalq ayağa qalxdı. Ancaq Bakıdan göndərilən rus ordusu üsyanı qanla yatırtdı. Xalq dağlara, meşələrə və başqa şəhərlərə qaçdı. Düz on il bizim rayonumuzdan olan adamların bir qismi meşələrdə qaçaq kimi yaşamaq məcburiyyətində qaldı. Rus əsgərlərinin ardı-arası kəsilməyən hücumları nəticəsində qaçaqları və onlara yardım edənləri tutub öldürürdülər. Bu hadisələrdə mənim ailəm də böyük çətinliklərlə qarşılaşdı.

1934-cü ildə atam çətinliklərə dözməyərək Bakıya köçmək məcburiyyətində qaldı. Əmilərimin bəziləri Orta Asiyaya köçdü. Çünki olduqca böyük təqiblər və zülmlər bitmək bilmirdi. Buna baxmayaraq, babam Şəkidə qaldı. Babam deyirdi: "Ölsəm də, Şəkidən getməyəcəyəm!" Babam 80 yaşında qoca bir kişi idi. Mən üçüncü sinfi Şəkidə qurtarıb, dördüncü sinfi Bakıda davam etdirdim. 1942-ci ildə qəbul olduğum Bakı Dövlət Universitetinin filologiya fakültəsini 1947-ci ildə başa vurdum.

Ustadım olan görkəmli şair Səməd Vurğun haqqında doktorluq dissertasiyasını yazdım. Sonrakı illərdə dosent oldum, sonra professor adını aldım. 1950-ci ildən 1990-cı ilə kimi eyni fakültədə müəllimlik etdim. 1990-cı ildən təqaüdə çıxdım. İşdən təqaüdçü olmaq olar, ancaq şairlikdən yox.

Hal-hazırda şeir, səhnə əsərləri və məqalələr yazıram. Eyni zamanda da millət vəkiliyəm. Artıq qocalıq dövrümü yaşayıram. Bundan sonra Allahın mənə bəxş etdiyi ömür yaşamalıyam. Nə qədər sürəcəyini isə Allah bilir.

- Sizə xoş ovqat arzu edirik. Əgər icazə versəniz, şairlik fəaliyyətiniz barədə söhbətimizi davam etdirək. İlk dəfə şeir yazmağa nə vaxt və necə başlamısınız? Sizi şair Vahabzadə edən hansı hisslərdir? şeirə marağınız necə başladı və necə inkişaf etdi?

Hələ orta məktəbdə oxuyarkən məndə şeir yazmağa həvəs oyandı. İlk şeirlərimi də bu illərdə yazdım. Ədəbiyyata və şeirə münasibətim əsasən belədir: "Ürəkdə böyük dərd, ağılda böyük düşüncə, fikir və əqidə olmasa, böyük əsərlər yaratmaq mümkün deyil. Sənət, şeir can yanğısı, ürəyin sızıltısıdır. Sovet dövründə xalqımız sovet zülmündə

məhkum idi. Ana dilimiz rəsmi idarələrdən qovulmuşdu. Bu zülmə bir şair kimi dözmədiyim üçün üsyankar idim. Nəinki dərdimizi yazmaq, fikrimizi açıq söyləmək mümkün deyildi. Ancaq ev şəraitində ana dilində danışırdıq. Bütün dövlət idarələrində rəsmi sənədlər yalnız rus dilində aparılırdı. Mən 1954-cü ildə bu məsələyə qarşı üsyan qaldırdım. Bu illərdə "Ana dili" adlı bir şeir yazmışdım. Bunun nəticəsində də başım bəlalar çəkdi. Ana dili, bir millətin milli varlığı, milli kimliyidir. Əgər bir millətin ana dili yoxdursa, demək millətin özü də yoxdur. Allah Ayxan Sonqara rəhmət eləsin! O: "Dil və düşüncə" adlı əsərində bu məsələni çox gözəl yazmışdır: "Dil millətin varlığıdır!" Ana dilinin ölümə məhkum edilməsi, demək, millətin özünün məhkum edilməsidir.

Mən "Ana dili" adlı şeirimdə deyirdim:

Siz ey doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən,
Fasonlu ədabazlar!
Ruhunuzu oxşamaz qoşmalar, telli sazlar!
Bunlar qoy mənim olsun.
Ancaq Vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun!

Bunları yazırdım, ancaq çap edilməsi üçün bir neçə dəfə senzuradan keçməli idi. Yazdıqlarımızın hamısı senzuradan keçdiyi üçün bəzi şeirlərim əldən-ələ keçir və hər adam bu şeirin üzünü çıxararaq sayını artırır, başqalarına yayırdılar. Sovet İttifaqı dövründə milli əqidəyə sahib olan insanlar ardı-arası kəsilmədən təqib olunurdu. Daima nəzarət altında idilər.

Millətimizin əksəriyyəti *(20-25 milyon)* İran Azərbaycanında yaşayır. Bizi bir-birimizdən ayırmışdılar. Bunu mən qəbul edə bilmirdim. Biz farslarla rusların pəncəsində qalmışdıq. Yazar Çəmənzəminlinin "Biz həmişə iki od arasında qalmışıq" deməsi tam həqiqət idi. Buna

etiraz olaraq yazdığım “Gülüstan” adlı poemamı Şəkidə çap etdirdim. Bu şeirim də əllərdə gəzdi. Hətta İran Azərbaycanına da gedib çıxdı. Çox böyük marağa səbəb oldu. Bunun üçün də rəsmi dairələrin təqibinə məruz qaldım.

“Gülüstan” poemama görə məni bir bəhanə ilə universitetindən kənar etdilər (1962). İki il işsiz qalmalı oldum. Məni heç yerdə işə qəbul etmir, kitablarım çap edilmirdi. Bu zamanlar kitabı nəşr edilən şair və yazıçılar dövlətdən külli miqdarda qonorar alırdılar. Kitabı nəşr olunmayan şair və yazıçılar, adətən, aclıq çəkirdilər. Mən o vaxtlar nəşr olunmuş kitablarım üçün xeyli pul alırdım. Olduqca ağır vəziyyətdə idim. Uzun əziyyətdən sonra, yəni iki il sonra məni yenidən universitetə qaytardılar. Amma həmişəlik olaraq nəzarət altında idim.

Elə bil, gizli bir əl məni qoruyurdu. Vaxtilə universitetdə dərs dediyim tələbələrim bəziləri senzurada işləyirdilər. Onlar mənim gizli eyhamlarımı anlasalar da, buna göz yumurdular. Yazılarımı senzur edənlər məni başa düşür, amma özlərini elə aparırdılar ki, guya başa düşmürlər.

Mənim Moskvada nəşr edilən kitablarımdakı şeirlərdə milli problemlərimiz az olsa da, yenə millətçi fikirlərim duyulurdu. 1969-cu ildən sonra Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev müəyyən məqamlarda məni müdafiə edirdi. Hətta o, 1982-ci ildə mənim millət vəkili olmağımı dəstəklədi. O zamanlar Mərkəzi Komitədə böyük vəzifədə çalışan H.Həsənov kimi milli hissə malik olan adamlar gizli yolla milli ruhlu ziyalıları müdafiə edirdilər. Sovet dövründə də yaxşı insanlar az deyildi və onlar bizim kimiləri qanadları altına almışdılar. Bəzi şeirlərimdə əhvalatı xarici ölkələrə keçirir, bu üsuldan istifadə edərək millətimin dərdlərini yazırdım. Məsələn, “Latın dili” şeirimdə yazırdım: Latın xalqı yoxdur, amma onun dili yaşayır. Elə millətlər də var ki, özləri yaşayır, ancaq dilini öldürmüşlər”. Mən burda Azərbaycanı nəzərdə tuturdum. Ancaq Azərbaycanın adını çəkmirdim. Hadisənin olduğu ölkə kimi Mərakeşi göstərmişdim. Çünki Mərakeşdə olduğum zaman ərəblərin ərəb dili əvəzinə fransızca danışdıqlarının şahidi olmuşam.

Şair xalqının dərdinə şərik olmalıdır. Xalqın dərdini qələmə alan şair və yazıçının əsərləri mütləq oxunmalıdır. Əgər oxunmursa, günah yazarın özündədir.

İndi fabrik və zavodlarımız işləmir. İşsizlik son həddindədir. Dərdlərimiz, problemlərimiz çoxdur. Hər şeyin sonu olduğu kimi, bunun da sonu olmağına əminəm.

- Türkiyənin hesablamalarına görə dünyada ən çox kitabları oxunan tanınmış şairlərdən birisiniz. Sizi şair edən daha hansı xüsusiyyətlərdir?

- Yuxarıda dediyim kimi, ən əvvəl məni şair edən xalqımın, millətimin dərdidir. İkincisi isə ulu dədələrimizdən bizə miras qalan milli dəyərlərimizin, gözəl adət və ənənələrimizin və xüsusən dinimizin yasaq edilməsi məni çox narahat edir və bunlara dözmürdüm. 1931-1932-ci ilə qədər dinimizə və milli dəyərlərimizə o qədər də toxunmurdular. Mənim gözlərimin qarşısında nənəm Quran oxuyar, namaz qılar, atam, anam və əmilərim də dinimizin tələb etdiyi bütün qaydalara əməl edərdilər. Evimizin yaxınlığındakı məsciddən azan səslərini eşidər və bu ruhda tərbiyə olunardım. 1930-cu ildə Şəkidə baş verən üsyandan sonra Şəki mahalından minlərlə adamı güllələdilər. Beləliklə, sovet quruluşuna qarşı nifrətim hələ uşaqlıqdan formalaşdı.

1977-ci ildə mən İstanbula gəlmişdim. Oteldə ikən azan səsinə oyandım. Mən bu ilahi səsi yalnız cocuqluğumda eşitmişdim. Tüklərim biz-biz oldu. Yata bilmədim və "Allahu-Əkbər" şeirimi yazdım:

Allaha ucalan ulu bir yolun,
İlkin pilləsidir Allahu-Əkbər!
Haqqı dananların üzünə dəymiş
Haqqın silləsidir Allahu-Əkbər!

Göylərin nidası ucalıb yerdən,
Daim xilas edər xeyiri şərdən...
Qüdrətikamilin minarələrdən,
Gələn nəğməsidir Allahu-Əkbər!

Məkana, zamana, dövrə o soltan!
Odur həqiqətə qapılar açan.
Möminlik yolunda qəlbə nur saçan
İman şöləsidir Allahu-Əkbər!

Yeri gəlmişkən, babamla bağlı maraqlı bir xatirəmdən bəhs etmək istərdim. Çünki mənim tərbiyəmə babamın böyük təsiri olmuşdur.

Babam son dəqiqələrində, canını tapşırdığı vaxt atamı və bütün ailə üzvlərini yanına çağıraraq uşaqlarına belə bir vəsiyyət etdi: "Türklər gələcək, heç ümidsiz olmayın!"

Ailəmizdə babamın vəsiyyəti həmişə yada düşür və bu qayda ilə böyüyürdük. Ancaq bunu nə məktəbdə, nə də küçədə danışmazdıq. Müsəlmanlığa və türklüyə bəslədiyimiz məhəbbəti babam bizə aşılamışdı. Babam namazının vaxtını heç ötürməzdi. Atam da onun kimi dindar bir adam idi. Amma anam namaz qılanda əlini yuxarı qaldıraraq bu duanı oxuyardı: "Ya rəbbim, bizi xilas eylə! Ya rəbbim, dinimizi, imanımızı pis niyətlərdən, əməllərdən qoru!".

Mənim böyük qardaşım İsfəndiyar İkinci dünya müharibəsində cəbhədə həlak olmuşdu. Anam onun üçün belə dua edərdi: "Ya rəbbim, otları yerdən necə göyərdirsənsə, mənim balamı de eləcə göyərt və mənə göndər!"

İndi mən də bu gün millətimin bu ağır güzərandan qurtarması üçün dua edirəm. Namaz qılmıram. Çünki yaddaşım korlanmışdır. Surələri əzbərləyə bilmirəm. Amma anamın duasını hər gün təkrar edirəm: "Ya rəbbim, sən millətimi düşdüyü bu bəlalardan xilas eylə! Milləti bir tikə çörəyə möhtac etmə!"

Mən bu gün də övladlarıma və nəvələrimə bəzi şeirləri başa salmağa çalışıram: "Sən kimsən, hardan gəlib, hara gedirsən, sənin millətin və dinin hansıdır?"

Dörd yaşında olan nəvəm Dilarəyə deyirəm: "Dilarə, qızım, sən kimsən, dinin hansı dindir?"

Nəvəm Dilarə isə cavab verir: "Baba, mənim dinim İslam dinidir.

Özüm də türkəm!”

Nəvələrimi başa salır və onlardan öyrətdiyim cavabı aldıqda sevinirəm. Uşaq əsil-nəcabətini tanımasa, haradan gəldiyini bilməsə, haraya gedəcəyini də bilməz. Mən ulu babalarımın şəkillərini otağımda divardan asmışam. Onları nəvələrimə göstərirəm ki, öz köklərini unutmasınlar.

Dinsiz bir millət yoxdur. Dinsiz yaşamaq qeyri-mümkündür. Sovet hakimiyyəti dövründə bizə hansı millətdən olduğumuzu və hansı dinə məxsus olduğumuzu məqsədli şəkildə unutdurmağa çalışırdılar. Bizdə olan milli şüur hissini qopartmağa və imperialist mədəniyyəti bizə sırımaq üçün bütün qüvvələrini səfərbər edirdilər. Millətin məhvə doğru getməsində bu mədəniyyətin rolu az olmamışdır.

Biz ardıcıl olaraq həmişə Türkiyə havası ilə nəfəs almış və alırıq. “Türkiyəm mənim” adlı şeirimdə yazıram:

Ruhumu, eşqimi sənə bağladım;
Mənim taleyimin öz bəxti sənsən.
Təkcə mənim deyil, ey ata yurdum,
Türklük dünyasının paytaxtı sənsən.

İmzalar içində imzam yox ikən:
Səni varlığıma isbat sanmışam.
Mənim sevincim də, güvəncim də sən;
Hər zaman mən sənə arxalanmışam.

Durur ürəyimdə iki dağ kimi,
Ana Vətənimlə Ata Vətənim.
Sənin dırnağına bir daş dəydimi,
Bakıda ürəyim qanayar mənim.

Türkiyənin başı üstünü alan PKK bəlasının tezliklə qaldırılması üçün də Allaha dua edirəm. PKK gülləsi ilə öldürülən gənclər mənim də balalarımdır. Vəhşicəsinə öldürülənləri ekranda gördükcə ürəyim

qana dönür.

İndi dünyada altı türk dövləti var. Bir barmağı sındırmaq olar. Ancaq altı barmağın hamısını birdən sındırmaq olmaz. Bu altı barmaq bir ağacın budaqlarına bənzəyir. Bir budağı kəsə bilərsən, amma ağacı kəsmək çətindir. Bunun üçün də bu gün bizə birləşmək lazımdır. Bu birləşmədə isə Türkiyənin öz yeri və payı olduqca böyükdür. Türkiyə bütün türk və İslam dünyasının mərkəzi olmalıdır.

- İndi də ermənilərin işğal etdikləri Qarabağ problemi barədə fikrinizi bilmək istəyirəm.

- Qarabağ münaqişəsi başlayan gündən əlimə qələm alan kimi bütün bədənim lərzəyə gəlir. Daxilimdəki tələtümü və etirazı istədiyim kimi varaqlara köçürməyə gücüm çatmır.

Hiddətim və qəzəbim fikirlərimi aydın bir şəkildə, bütün dəqiqliyi ilə ifadə etməyə mane olur. Çünki xalqıma açıqaşkar edilən zülm o qədər böyük və dəhşətlidir ki, bunları insanın ağlı qavramır. Şahidi olduğum bu bəlalar bir dilin qrammatika qaydalarına sığışmır. Burada ancaq qışqırmaq və haqqı danan dünyanı lənətləmək gərəkdir. Erməni mafiyası o qədər güclüdür ki, yalan və iftiraları ilə bizim həqiqətlərimizi kölgədə qoymuşdur. Biz isə nə edəcəyimizi bilmirik. Biz meydanda tək qalmışıq, Türkiyədən başqa səsimizə səs verən yoxdur.

Keçən əsrdən bu yana davam edən erməni təbliğatı nəticəsində Yer kürəsində yaşayan bütün türkləri "mədəniyyətsiz" və "vəhşi" millət kimi, erməniləri isə dünyanın ən zavallı, yazıq, bununla belə mədəni milləti kimi qələmə vermişlər.

Sovet dövründə Stalin sadəcə olaraq türklərin əlifbasını dəyişmişdir. Bəs nə üçün gürcü və erməni əlifbasına toxunmadı? Stalin təkcə türk xalqlarını sürgün etdirmişdir. Bu gün Moskvanın bütün nazirliklərində, mətbuat orqanlarında, elmi mərkəzlərində ən azı bir neçə erməni yüksək vəzifələrdə çalışır.

Biz isə uzun illərdir ki, bir-birimizə quyu qazmaqla məşğul olmuşuq. Ermənilər kadrlar hazırlayanda, bizim liderlərimiz, rəhbərlərimiz şüurlu vətənpərvər insanları partiyadan xaric edirdilər. 1960-cı ildə Yerevan universitetinin prorektoru açıq şəkildə, heç utanmadan Naxçıvan və Dağlıq Qarabağın onlara verilməsini tələb edərkən bizim rəhbərlərimiz

susaraq cavab vermədilər. Yeganə cavab verən Abbas Zamanovu isə partiyadan çıxartdılar. Mən də buna cavab olaraq "Torpaqdan pay olmaz!" adlı şeirimi bir məclisdə oxudum. Bunun nəticəsində KQB məni mühakimə etdi. Uzun müddət radio və televiziyadan kənar edildim. Bizim verdiyimiz cavabların qarşısında rəhbərlərimiz susmasaydılar, bizə arxa olsaydılar, o zaman ermənilər yeni xülyalara düşməzdilər. Bizim millət vəkillərimiz Çar dövründən susmağa üstünlük vermişdilər. Buna cavab olaraq "Xalq deputatlarına açıq məktub" adlı şeirimi yazdım:

Sənə səs verdim ki, yoldaş deputat,
O yüksək kürsüdə səsin gur olsun!
Sənə öz səsimi vermədim ki, mən,
Qulağın kar olsun, gözün kor olsun!

Sənə səs verdim ki, hər qarış yerin
"Əzəli sahibi mənəm" deyəsən.
Sənin torpağına göz dikənlərin
Dərsini verməkdən çəkinməyəsən!

Biz öz borcumuzu bilmədik yenə,
Heç demə, millətin vəkilliyinə
"Aşkarlıq" dövründə lal-kar gərəkmiş,
Bizə aşkarlığı inkar gərəkmiş!

Ukrayna şairi Oleynikin qeyd etdiyi kimi, "özünü ucaltmaq xatirinə başqasını gözdən salmağın özü ən böyük alçaqlıqdır". 20 Yanvar 1990-cı ildə rusların Bakıya soxularaq günahsız xalqı qətlə yetirdikləri o dəhşəili günün sarsıntılarını aşağıdakı misralarda qələmə aldım:

Qatil güllәsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər!
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər!

Onlar susdurulan haqqı dindilər,
Qaraca torpağı qiymətləndirər,
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi şəhidlər!

İnsan insan olur öz hünərilə,
Millət millət olur xeyri, şərilə.
Torpağın bağrına cəsədlərinə
Azadlıq toxumu əkdi şəhidlər!

- Azərbaycan ilə Türkiyə arasında mədəni əlaqələrə münasibətiniz necədir?

- Çox lazımlı bir məsələyə toxundunuz. Məni ən çox narahat edən də bu vəziyyətdir. Türkiyə Azərbaycanı ilk tanıyan ölkədir. Bu, belə də olmalı idi. Lakin iki ölkə arasında mövcud olan bugünkü əlaqələr mənim istədiyim səviyyədə deyildir. Hər iki ölkədə diqqətsizlik vardır. Ancaq 70 milyon əhalisi olan Türkiyənin böyük dövlət olduğunu xüsusi qeyd etmək istəyirəm. Bizim əslimiz, kökümüz birdir. Ortaq babalarımız olan Göytürklər haqqında bir pyes yazmışam. Türkiyənin bu əsərdən dörd əllə yapışacağını gözləyirdim. Bu əsər Azərbaycanda bir neçə ay ərzində 50 dəfə oynanmışdır. Hər dəfəsində də bütün zal dolu olur. Bakıda çalışan türkiyəli iş adamları, tələbələr, həbçilər və dostum Namik Kamal Zeybək bu pyesə tamaşa etdilər. Nazirlər də gəlmişdilər. Onlar da həyacanlı idilər. Yavuz Büləndi Bakilər çox sağ olsun, "Özümüzü kəsən qılınc" adı ilə Türkiyə türkcəsinə çevirdi və kitab halında çap edildi.

Türkiyə teatrolarına müraciət etdim ki, bu əsəri Türkiyədə də oynasınlar. Lakin Türkiyənin heç bir teatrosu bu əsərə sahib çıxmadı. Bakı Dövlət Milli Teatrosunu Türkiyəyə apardıq.

Kayseridə göstərilən bu tamaşa çoxtəmtəraqlı keçdi.

Əsərimi mərkəzi şəhərlərdə göstərmədilər, bir-iki əyalət şəhərlərində göstərdilər. Bir dəfə Ankarada - kiçik bir zalda göstərildi. Zal bomboş idi. Çünki Türkiyənin kültür bakanı bu tamaşaya heç kəsi dəvət

etməmişdi. Zalda yalnız şəxsən mənim dəvət etdiyim 30-40 adam var idi. Olduqca pərt oldum. Mənə çox pis təsir bağışladı.

Mədəniyyət naziri İstəmixan Talaya dedim ki, "Sənin adın böyük türk xaqanının - İstemi xanın adından götürülüb. Heç olmasa adına hörmət edib Göytürk xaqanlığından bəhs edən bu əsərə tamaşaçıların gəlməsini təşkil edəydin. Budurmu bizim qardaşlığımız? Bir-birimizə hörmətimiz?"

Namik Kamal Zeybəkin köməkliyi sayəsində bu əsər Qazaxıstanda tamaşaya qoyulacaqdır.

Türkiyədə bəzi adamlarla söhbət edəndə onları başa düşmürəm. Elə bir heç türk deyillər. Mən onların müsəlmanlığına və türklüyünə şübhə ilə yanaşıram. Onları seyr etdikcə, ölkəmizdəki bəzi üzdəniraq rus qafalı insanlar gəlir gözümün qabağına. Sovet vaxtı bizim səhnəmizdə yalnız kommunist əqidəli türk yazıçılarının əsərləri tamaşaya qoyulardı. Məsələn, Nazim Hikmət, Əziz Nesin kimi ədiblərin əsərləri. İndi isə məsələ başqa cürdür. Buna baxmayaraq əlaqələr və münasibətlər çox zəif inkişaf edir. Xüsusilə də alimlərimizin əməkdaşlığı olduqca məhduddur. Şəxsən mən mədəni münasibətlər sahəsində Türkiyədən çox şeylər gözləyirdim. Özümə təskinlik verərək, qarşıdakı illərdə bu münasibətlərin düzələcəyinə ümid bəsləyirəm.

Mən hörmətli prezident Süleyman Dəmirələ bu ölkədə Türk Dünyası Akademiyasının yaradılmasını və çox ciddi elmi-tədqiqatların birlikdə aparılmasını təklif etdim. İndi elmsiz heç bir iş görə bilmərik. Münasibətlərimizi xırdalıqlardan kənar edib reallaşdırmalıyıq. Gənclərimizin Türkiyədən öyrənəcəkləri çox şeylər vardır. Bizim də Türkiyəyə verəcəyimiz xeyli şeylər var. Ölkəmizdə elm, ədəbiyyat, incəsənət olduqca inkişaf etmişdir. Lakin müasir texnologiyamız yoxdur.

Türkiyə ilə Azərbaycan arasında, demək olar ki, dil problemi yoxdur. Ancaq özbək, qazax, qırğızlarla aramızda dil nöqteyi-nəzərindən xeyli fərqlər var. Məgər bunları ortaq bir müstəviyə gətirmək vaxtı deyilmi? Altı türk dövləti üçün qarşılıqlı bir lüğət hazırlasaq necə? Əfsus ki, bu dövlətlər arasında elmi və ədəbi əlaqələr çox zəifdir. Biz bütün

elmlərə dair terminologiya hazırlamalıyıq. Məqalələrimdə bu mövzuya aid təkliflər irəli sürürəm. Biz bunları vaxtında etməliyik ki, gələcək nəsillərimizin xeyrinə olsun. Türk Dünyası Akademiyasının mərkəzi Türkiyənin rəhbərliyi ilə yubanmadan yaradılmalıdır. Bu sahədə vaxt itirmək olmaz.

- Əziz Nesin, Nazim Hikmət... Kimdir bunlar?

- Nazim Hikmət böyük şairdir. Onun ideologiyası kommunist ideologiyası idi. Ancaq bu ideologiya iflasa uğradı. Nazim Hikmət ömrünün sonlarında kommunist ideologiyasının çürüklüyünü başa düşmüşdü. Nazim Hikmətlə bir neçə dəfə görüşmüşəm. Onunla tanış olanda çox gənc idim. Bizim şairimiz Rəsul Rza ilə bərabər Moskvaya gedəndə Nazim Hikmətin görüşünə gedərdik. Olduqca maraqlı söhbətlərimiz olardı. Bəzən mən də söhbətə qarışıb suallar verərdim. Həyatının son günlərində Nazim Hikmət kommunist ideologiyasının artıq mənasız və çürük olduğunu anlamışdı.

Əziz Nesinlə də Bakıda bir neçə dəfə görüşmüş, əsərlərini oxumuşam. O, həqiqətən çox uğurlu bir yazıçı idi. Onun hekayələri dünyaya yayılmışdır. Ancaq qəlbimin dərinliklərində ona qarşı bir inciklik var.

- Bəs Məhmət Akifi necə qiymətləndirirsiniz?

- Məhmət Akif XX əsrin tanınmış ən böyük türk şairidir. Hər Türkiyəyə səfərimdə bizim ilk cümhur başqanımız olan Məhmət Əmin Rəsulzadə və Akifin qəbrini ziyarət edirəm. Mən bir vaxt Azərbaycanın milli marşını yazmaq fikrinə gəldim. Buna görə də rus marşları ilə bərabər dünyanın nə qədər marşı vardırsa, hamısını diqqətlə oxudum, təhlil etdim. Belə qərara gəldim ki, Akifin yazdığı milli marşa tay olacaq bir marş, demək olar ki, yoxdur. Onu əvəz edəcək ikinci bir marş çətin ki, tapılsın. Bu, olduqca güclü bir əsərdir. Akif fenomendir. Hələ onun "Çanaqqala şəhidləri" adlı şeirini demirəm. Dünyaya şəhidi ondan gözəl təsvir edən ikinci şair gəlməmişdir. Bu mövzuda ondan daha böyük bir şeir təsəvvür edə bilmirəm. Bu cür qüvvətli söz söyləmək qeyri-mümkündür. Mən Akifin qarşısında baş əyir və ona sitayiş edirəm. Allah ona rəhmət eləsin! Onun şairliyi əqidə və əməlindən yaranmışdır. "Safahat" mənim stolüstü kitabımdır. O, 70 milyon xalqın qəlbində ya-

şayır. Onun fikirlərini yaşatmalıyıq. Türk xalqları onu dərindən tanımalı və öyrənməlidir. O yaşadığımız əsrin poeziyasının bayraqdarlarından biridir.

- Nəcib Fazıl Kısakürək haqqında nə deyə bilərsiniz?

O, xarici görünüşünə görə sizə oxşayır. Sizə baxanda onu xatırlayıram. Onun şeirlərini oxumusunuzmu?

- Nəcib Fazılı şəxsən tanımıram. 30 ildir ki, Türkiyəyə gedib-gəlirəm. 35 il bundan qabaq Bakıda Ertan Yüləklə tanış oldum. O, Londonda oxuduğu vaxt Moskvaya gəlmişdi. Orada onunla tanış oldum. O, mənə dedi ki, siz Nəcib Fazıla oxşayırsınız. Çoxları da bunu təsdiq edir. Bundan sonra mən onun "Çilə" kitabını oxudum. Hiss etdim ki, mən ona təkcə xarici görkəmlə deyil, ruhən də yaxınam. O da bizim böyük şairlərimizdən biridir.

- Siz həm də millət vəkilisiniz. Yəni, həm də siyasətçisiniz. Ölkəniz kommunist rejimindən xilas olub demokratiyaya doğru keçid dövrünü yaşayır. Azərbaycan artıq 8 ildir ki, azad bir ölkədir. O dövrlə indiki dövr arasında hansı dəyişikliklər olmuşdur? Azərbaycan istiqlalı ilə bağlı nələr söyləyə bilərsiniz?

- Xalq arasında belə bir söz işlədilir: "İki sevinc bir yerə sığmaz". Sovet İttifaqı dövründə qarnımız tox idi. Ac adam yox idi. Ancaq istismar var idi. Azadlığımız isə yox idi. Ancaq millət gözütox yaşayırdı. Azadlığımız bizi çox sevindirmədi. Torpaqlarımızın bir hissəsi ermənilər tərəfindən işğal edildi. Ölkədə işsizlik var. Olduqca çətin vəziyyətdəyik. Fabrik və zavodlarımız dayanmışdır. Sovet İttifaqından qalan texnologiya yeniləri ilə əvəz olunmalıdır. Millətin əksəriyyəti çətin vəziyyətdədir. Əlbəttə, bunlar müvəqqətidir.

Mən sovet zamanı ölkəmin istiqlalını arzulayırdımsa, indi millətin rifahını arzulayıram. Ədəbiyyat həyatın aynasıdır. Əgər bir yazıçı yaşadığı zamanının dərdlərini əsərlərində əks etdirmirsə, onda o, ədəbiyyat deyildir. Sənət sənət üçün yox, xalq üçündür. Sovet İttifaqı dövründə kitablarımız yeddi milyon nəfər üçün 40-50 min tirajla çap edilirdi. Hal-hazırda isə kitablarımız ikiüç min tirajla çap edilir.

- 74 yaşınıza baxmayaraq, Sizi olduqca çevik görürəm. Bu çeviklik

Sizdə hardandır? Məsələn, gündə neçə saat işləyirsiniz?

- Gecə saat 12-dən mənim işim başlayır. Gün işığında yaza bilmirəm. Bu hal məndə gənc yaşlarımdan adətə çevrilib. Səhər saat 6-da iştahla yemək yedikdən sonra 630-da yatıram və gündüz saat 12-də, ya da 1-də qalxıram. Fikrimi ancaq gecələr cəmləşdirə bilirəm. Və deyirəm ki:

Əgər olmasaydı dünyaca dərdim,
Dərdin yoxluğunu mən dərd edərdim.

Biz şairləri dilləndirən dərddir. Akifi dilləndirən də elə dərd olmuşdur.

Mən Azərbaycan və Türkiyədəki partiyalar arasındakı mübahisə və didişmələri heç cür başa düşə bilmirəm. Nə üçün belə edirlər? Partiyaların mübahisələrinə baxarkən qəlbim sıxılır. Yeddi milyon əhalisi olan Azərbaycanda 30-dan çox partiya var. Bu kimə lazımdır? Anası xəstə olan övladların savaşmağa, didişməyə haqqı yoxdur!

- Əfəndim, bu gözəl müsahibəniz üçün sizə təşəkkür edirəm.

Mən də təşəkkür edirəm. Türkiyəli bütün qardaşlarıma ən səmimi salamlarımı yetirin.

“Egitim-bilim”, may, 1999.



DİNİMİZİ SEVƏK,
SEVDİRƏK,
YAŞADAQ

İslam dini şairlərin düşmənidir. Amma bütün şairlərin yox!

Quran şairləri lənətləyir. Amma bütün şairləri yox.

Peyğəmbərimiz şairlərin dostu, həbibi olub. O, Allahı insanlara sevdirən, qəlblərdə iman sevgisini alovlandıran şairlərin dostu, həbibi idi.

Böyük türk şairi Nazim Hikmət üzünü ölkəsinin iqtisadçılarına tutaraq demişdi:

"Əgər siz Türkiyənin sabahının necə olacağını bilmək istəyirsinizsə, iqtisadi-riyazi hesablamalar aparıb özünüzü yormayın, siz bunu, sadəcə, şairlərdən soruşun".

Bilirsinizmi niyə?

Çünki bizim kimi adi, öləri insanlarla müqayisədə şairlər Allaha bir köynək, bir mərtəbə daha yaxın olurlar. Allahdan gələn hissiyyat, Allahdan gələn işıq şairlərə ən doğrunu söyləməyə imkan verir.

Amma bu, hər bir şairə aid deyil. Bu, yalnız Allahın dostu olan şairlərin nəsibidir.

Biz bu gün lənətlənmiş şairlərdən danışmaq fikrindən uzağıq. Əksinə, Allahın dostlarını aramaq niyyətimiz var. Arayışlarımız-axtarışlarımız bizi şeiriyyət dünyasının ən BƏXTİYAR ADAMININ məskun olduğu ünvana gətirib. "Mən Bəxtiyaram ki..." deyən şairə "siz, doğrudanmı,

bəxtiyarsınız?" sualını vermək qərarımız-qətiyyətimiz var. Çoxlu mükafatlara layiq görüldüyü üçün yox. Kitablarının yüz minlərlə nüsxə ilə tirajlanmağına görə yox. Türk dünyasının hər yanında tanınmağına görə də yox.

Allahın varlığına iman gətirdiyinə görə, Allahı sevdiyinə görə və şeirlərində Allahı sevdirdiyinə görə "Siz BƏXTİYARSINIZMI?" sualını vermək istəyirik.

Cavabı təqdirəlayiqdir: "Allahı şəksiz-şübhəsiz qəbul edən adam dünyanın ən xoşbəxt, ən dərdsiz-qəmsiz adamıdır".

Allahım! Nə yaxşı ki, ölkəmdə Səni tamamilə unudan, Sənə üsyan edən şairlərlə bərabər, Sənin nurunla nurlanmış, Səni qələmi ilə bizə sevdirən BƏXTİYAR ŞAİRİMİZ də var.

Şükürlər olsun!

Bu, mənim onunla sayca dördüncü söhbətimdir. O isə uzun ömrünün zirvə çağında ilk dəfədir ki, bir Azərbaycan qəzetinə Uca Yaradan haqqında və dinimiz haqqında müsahibə verir.

"Sabah-Nyus" qəzeti ədəbiyyatımızın patriarxını sizinlə baş-başa buraxır, dəyərli oxucular. İnanırıq ki, onun cavablarındakı səmimiyyət sizləri də şoka salacaq. Əgər nəzərə alsaq ki, səmimilik bu gün bu cəmiyyətdə ən gıt şeylərdən biridir!..

"Sabah-Nyus" qəzeti, 2 oktyabr, 2005.



TÜRKÜN ÖZÜ VƏ SÖZÜ

Millətin imanlı şairi Bəxtiyar Vahabzadə

- Bəxtiyar müəllim, inşallah, bu yaxın günlərdə Allahımızın bizə ərməğan etdiyi ən gözəl aylardan birini – Ramazanı qarşılayacağıq. Mübarək Ramazanı. Dini və milli bayramlarımız arasında Ramazanın xüsusi yeri var. Və biz çox istərdik ki, millətimizin həyatında Ramazanın yeri barədə sizinlə söhbət aparaq və oxucuları millətimizin və ədəbiyyatımızın ağsaqqalının Ramazan haqqında, bütövlükdə, dinimiz haqqında düşüncələri ilə tanış edək. Bu Ramazana necə hazırlaşırsınız?

- Vallah, mən sizə deyim ki, ilk növbədə, əlbəttə, uşaqlığım yadıma düşür bu barədə söhbət edərkən. Mənim yadıma gəlir, Şəkidə olduğum vaxt, yəni uşaq ikən, obaşdanlığa durmaq deyilən bir şey vardı. O, bir mərasim idi, o, bir təntənə idi. Ona hər səhər yalnız uşaqlar yox, böyüklər də hazırlaşırdı. Bu, doğrudan da, çox böyük bir təntənə idi - obaşdannan durmaq, böyüklərlə bərabər dualar etmək, sonra onların namazlarına tamaşa etmək və orucun necə başlanmasını görmək - bütün bunlar biz uşaqlar üçün sirli-sehirli bir aləm idi. Günün sonunda dədələrin, nənələrin bir yerə yığışıb, mehribanlıqla, təbəssümlə iftar açmaları, bizləri əzizləmələri, bax, bunlar hamısı bizimçün böyük bir səadət idi.

Lakin sonralar biz Bakıya gəldik. Mən uzun müddətə həmin o mühitdən ayrıldım. Amma atam da, anam da əvvəlki kimi namaz qılırdılar. Mən, ümumiyyətlə, dindar ailədə doğulmuşam, dindar ailədə böyümüşəm. Ona görə də hər şey və hər kəs, namaz qılan hər kəs bu gün də gözümün qabağındadır: babam, atam, əmilərim. Onların namaz qılmaları, oruc tutmaları hamısı, bütün xırdalıqları ilə yadımdadır. Qurban bayramına hazırlıq, Orucluğa hazırlıq bir təntənə idi, böyük bir mərasim idi, sevimli günlər idi onlar (səsində həsrət və nisgil notları açıqaşkar hiss olunur. Ah çəkir). Və səhərlər Əzan səsinə oyanmaq. Bu da bir dünya idi və böyüklərlə bərabər yataqdan qalxmaq, yuyunmaq, onların pıçıltılı duaları – bunlar hamısı mənim gözümün qabağındadır.

Amma 11-12 yaşımdan sonra hər şey dəyişdi. Həm Bakıya gəldik, həm də dinə qadağalar qoyuldu. Artıq ibadət etmək, dininə bağlı şəkildə yaşamaq qadağan idi. Atam da, anam da, əvvəlkindən fərqli olaraq, namazı gizlicə qılırdılar ki, qonşu görməsin. Ailələrin çoxunda namaz gizli şəkildə qılınırdı. Amma hətta bu tərzlə belə qoruyub-saxlaya bildilər dinimizi. O gözəlliyi saxladılar. İndi bu gün mən onlara minnətdaram ki, islamı yaşadıblar. Və mənim övladlarım da onu gördülər - babalarının, nənələrinin necə ibadət etmələrini. Namaz qılma mərasimlərini təkcə mən yox, mənim övladlarım da gördülər.

Demək istəyirəm ki, o xatirələr mənimçün çox əzizdir, çox şirindir. Ramazan bayramı ilə bağlı xatirələr xüsusilə əvəzsiz dərəcədə şirindir. Təsəvvür edin ki, bayram gününə xüsusi hazırlıq görülərdi. Nənələrimiz fətir bişirərdi, çildab bişirilərdi və s. Hamı bayrama məxsusi hazırlaşardı. Təkcə biz yox, bütün ətraf: qohumlar, qonşular hamısı bu günə sevə-sevə hazırlaşardı. Amma təəssüf ki, bu şirinlik, bu gözəllik getdi (yenə ah çəkir). İndi Allaha min dəfə şükür eləyək ki, dinimizimanımız yenidən özümüzə qayıtdı. O şeylər yenə də davam eləyir, mən bunu görürəm. Cavan uşaqlar namaz qılır, oruc tuturlar. Mən qeyd eləyim ki, mənim övladlarım da inanclıdırlar, nəvələrimin içərisində namaz qılanları da var, oruc tutanları da var. Bu ənənənin davam eləməsi mənim xoşuma gəlir, mənə ləzzət eləyir. Nəyə görə? Sovet dövründə dindən danışmaq, bilirsiniz ki, yasaq idi. İndi Allaha şükür, yasaqlar götürü-

lüb.

Axı, bu din nədir? Din hər şeydən öncə əxlaqdır, təmizlikdir, yüksəklikdir, ucalıqdır. Biz bundan niyə qorxmalıyıq ki? Din nə deyir bizə? Quran nə deyir bizə?

Oğurluq eləmə, əyrilik eləmə, nadandıq eləmə, qeybət eləmə, pis sözlər danışma, tərbiyəli ol, əxlaqlı ol və s. Dinin bütün mahiyyəti bundan ibarətdir. Quranın mahiyyəti budur, əgər lap xırdalığınacan çözələsək. Allahın varlığını qəbul eləmək böyük nemətdir, xoşbəxtlikdir. Mən hesab edirəm ki, Allahı şəksiz-şübhəsiz qəbul edən adam dünyanın ən xoşbəxt, ən dərdsiz-qəmsiz adamıdır. Çünki o, bu dünya ilə bərabər, o biri dünyanın da varlığına inanır. Və ona görə də özünü bu dünyada tərbiyəli aparır ki, o dünyası əlindən getməsin. Bu, gözəl şeydir, gözəl nemətdir.

Avropa filosoflarından biri çox gözəl bir söz deyib: Əgər Allah olmasaydı belə, Onu yaratmaq lazım idi, insanların tərbiyəsi üçün, əxlaqı üçün. Yəni, bil ki, o dünyada haqq-hesab var. Özünü yaxşı apar, sən cavab verməli olacaqsan əməllərinə görə. Bu, çox gözəl şeydir. Bunu başqa hansı yolnan eləmək olar? Məktəbin, qəzetin, jurnalın buna gücü çatmaz. Allahın varlığı, dinin mövcudluğu bizi əxlaqa çağırır, təmizliyə çağırır. Əgər adam imanlıdırsa, bir adama ağır, köntöy bir söz deyəndə, az sonra özünə yer tapa bilmir, düşünür ki, vay, mən neynədim, qəlb sındırdım, qəlb sındırmaqsa çox günahdır. Günahı, savabı bilməyən adam, adam deyil (əlini qarşımızdakı kiçik masa üstündəki diktafona uzadaraq), bu sənindir, mən bunu götürüb qoydum cibimə, sən isə bunu görmədin, amma Allah bunu gördü, axı!!! (bu sözləri xüsusi intonasiya ilə vurğulayır. Pauza). Gör, Allah insanı harda və necə nəzarətdə saxlayır. Ona görə də insan həmişə özünə kənardan baxır və tez-tez özüylə daxilən söhbət edir, götür-qoy aparır: bax, mən bu işi tutmamalıyam, amma filankəsə filan xeyirxahlığı mütləq eləməliyəm. Yəni, insan, imanlı insan, hər an öz üzərində Allahın gözünü hiss edir. Bu, yaxşı haldır. Deməli, insan hər an vicdanı ilə baş-başa qalır və vicdanı, imanı onu yanlış qərarlardan, günah əməllərdən qoruyur.

Mən sizin bu təşəbbüsünüzü alqışlayıram və mənimlə məhz bu



mövzularda söhbət etdiyinizə görə sizə öz minnətdarlığımı bildirirəm. Mətbuatın gücü çox böyükdür. Bu gücdən istifadə eləyib, Allahı, Onun dinini təbliğ eləmək lazımdır. İnsanları maarifləndirmək lazımdır, paklığa çağırmaq lazımdır insanları. İnsanlarımız bilməlidir ki, savab nədir, günah nədir? Bu iş günahdır, o isə savabdır. Savabın dalınca get, günahın dalınca getmə.

- Bugünkü insanlarımız daha çox nəyin dalınca gedirlər: savabınmı, yoxsa, günahın?

- Mən elə hesab eləyirəm ki, o, hər bir insanın özündən asılıdır. Tərəziyə qoyub ölçmək olmaz ki, hansı çoxdur. Onu yalnız Allah bilir. Hər halda, bizim borcumuz, sizin borcunuz savabı təbliğ eləməkdir ki, ey insan, çalış, çalış ki, savab qazanasan!

- Bəxtiyar müəllim, uşaqlıq çağlarınızda dədələriniz, nənələriniz, əmiləriniz əlinizdən tutub da Ramazan mərasimlərinə aparıblar. Bəs, siz necə, siz də... (sualımı yarımçıq kəsir).

- Bayramlaşmağa gedərdik qohum-qardaşnan. Təzə paltar geyib gedirdik qohumlara, qonşulara. Hamıyla bayramlaşırdıq. Evlərdə bayram süfrələri açılırdı. Bayram sevinci ilə, gülər üzlə bizi qarşılayırdılar....

- Təbriklər olurdu...

- Bəli, bəli, bəli.

- İndi siz də öz nəvələrinizlə bayramlara, bax, o şəkildə hazırlaşırsınızmı? Ümumiyyətlə, bugünkü babalar nəvələrinə bu gözəllikləri yaşatmağın fərqindədirlərmi?

- Yox! Yox! Çox heyif (pauza). Düzdür, bayramlaşırıq, uzaq qohumları telefonla təbrik eləyirik, bunlar olur, amma əvvəlki o təmtəraq, o şirinlik artıq yoxdur... Heyif!

- Nəyə görə?

- Mənə elə gəlir ki, bu şeyləri mətbuatda, televiziyada təbliğ eləmək lazımdır. Və, və, və... birinci növbədə, təbliğ eləyənin özü bu şeylərə əməl eləməlidir. Siz də, mən də, onlar da. Bax, birinci növbədə, özümüz əməl eləməliyik.

- Necə baxırsınız, Bəxtiyar müəllim, bəlkə də, Ramazan bir son fürsətdir - biz insanların təmizlənməyi üçün, Allah qarşısında qorxu

və sevgi hissi ilə hazır olmaq üçün, nöqsanlarımızdan əl çəkmək üçün, insanlara və həyata, millətimizə bir ayrı gözlə baxmaq üçün. Sizcə, bugünkü Azərbaycan insanı bu ilahi fürsətdən yetərincə istifadə edəcəkmi, edə bilirmi?

- Kafi deyil. Yox. Məni qane eləmir.

- Bu nədən irəli gəlir? Bəlkə də, insanlar bilgisiz olduqları, xəbərsiz olduqları üçün Ramazanı coşqu ilə yaşaya bilmirlər?

- Yaşlılar, o cümlədən mən də bu şeyləri bilirik. Çünki ən azı uşaqlıq çağlarımızda bu şeyləri görmüşük, yaşamışıq. Amma orta nəsil və yeni nəsil bu gözəlliklərdən xəbərsizdirlər.

- Yəqin ki, bu işdə təqsirin mühüm bir hissəsi həm də bizim din xadimlərimizdədir.

- Bəli, bəli, bəli. Din adamlarımızın, məscidin, təbliğçilərin günahıdır. Dini təbliğ eləyən adam gərək o qədər saf ola ki, onun dediklərini mən qanun kimi qəbul edəm. Amma mən görəndə ki, o cüvəllağılıqla məşğuldur, onda onun dediklərinin mənə nə aidiyyəti var. Din adamı özü birinci növbədə hər kəsə nümunə olmalıdır.

- Siz kiməsə, din xadimlərindən hansınasa müraciət etmisinizmi ki, niyə bayramlarınızın bayram kimi yaşanması üçün üzərinizə düşən işləri görmürsünüz? Niyə fəaliyyətsizsiniz?

- Yox, yox, düzü, olmayıb. Müraciət etməmişəm.

- Amma, tutaq ki, belə bir niyyətiniz olsa, kimə müraciət edərdiniz ki, axı, siz məsulsunuz bu işə.

- Birinci növbədə, ərk elədiyim adamlara. Bütövlükdə isə, hər kəsə. Çünki bayramı bayram kimi yaşamağımız, ilk növbədə, bizim özümüzdən, hər birimizdən asılıdır. Biz insan lar, nədənsə, son vaxtlar hər şeyə biganə olmuşuq.

- Bəxtiyar müəllim, tutaq ki, belə bir qərara gəldiniz ki, mən - Bəxtiyar Vahabzadə növbəti əsərimi, təbii ki, irihəcmli əsərimi, məhz ilahi məqamlarla bağlı olaraq yazacam. İslama bağlı olaraq yazacam və ideal bir müsəlman obrazı yaradacam. Belə bir niyyət, belə bir qərar ola bilər?

- Olmayıb. Amma əsərlərimə baxasınız, hamısında Allah, savab,

halal, günah məqamlarını görərsiniz.

- Doğrudur, amma mən planlı şəkildə, sistemli şəkildə, çox konkret olaraq İslamdan bəhs edən və ideal müsəlman obrazını canlandıran bir əsərdən danışıram.

- Əlbəttə ki, xeyli gözəl olardı. Çox ağıllı fikirdir, ağıllı təklifdir. Çox gözəl olar: bir nümunəvi mömin obrazı yaratmaq!

Mən sizə bəzi şeyləri demək istəyirəm. Biz bu gün İslamdan danışırıq. Mənim dinlərin hamısına böyük hörmətim var. Heç vaxt bir dini o biri dinə qarşı qoymaq olmaz. Xristian dininin də üstünlükləri var, iudaizmin də üstünlükləri var, İslamın da. Mən hamısını oxumuşam. Amma obyektiv oxumuşam. Yəni, mən müsəlman olduğuma görə olmasın. Və İslam haqqında müsəlman olmayan şəxslərin, alimlərin fikirlərini də oxumuşam. Yenə deyirəm, mən müsəlman olduğuma görə yox. Obyektiv reallığın da təsdiqlədiyi kimi, İslamda yüksək dəyərlər var. Bunlar başqa dinlərdə və o dinlərin kitablarında yoxdur. Ən böyük şey Halal və Haram məsələsidir, Savab və Günah məsələsidir. Bu məsələ, əlbəttə, o biri dinlərdə də var, amma bizdə, İslamda o, daha mükəmməl bir şəkildədir. Çünki Quran bu şeylərin proqramını verib, həyatı gözəl bir şəkildə yaşamağın proqramını verib. Bu yaxınlarda mən bir gənclə tanış oldum. Azərbaycanlıdır, amma rusdillidir. O, Quranı oxuyub tanış olub və valeh olub. Ondan sonra başlayıb ərəb dilini öyrənməyə. Müəllim tutub, ərəb dilini mükəmməl öyrənib. Ərəbi öyrənəndən sonra başlayıb Quranı tərcümə etməyə rus dilinə. Çünki Azərbaycan dilini yaxşı bilmir. Və onun tərcüməsi Quranın rus dilinə tərcümələri içərisində ən mükəmməli hesab olunur. Hətta ərəb ölkələri də bu həqiqəti təsdiqləyiblər. İndiyə qədər ən gözəl tərcümə Valeriya Poroxovanın tərcüməsi hesab olunurdu. Amma bunun tərcüməsi ondan da üstün oldu. Çox mükəmməldir. Mənim ürəyim dağa döndü onunla söhbət eləyəndə. Çox cavandır. 20 yaşı ola-olmaya.

- Yəni, yeni bir nəsil yetişir...

- Yeni nəsil yetişir, bəli! O nəsil artıq tamam başqa cür olacaq.

- Bəs, indiki nəsil dinimizə bağlılıq baxımından, sayğı və sevgi baxımından sizi tam qane eləyir?

- Vallah, o qədər təmasım yoxdur. Çünki artıq uzun müddətdir ki, universitetdə dərs demirəm. Universitetdə cavanlarla ünsiyyətim çox olurdu. İndikilərin arasında, məncə, ortababları da var, yaxşıları da var, amma tam mükəmməlləri hələ azdır. Amma var, yetişir. Yeni nəsil yetişir.

- Bəxtiyar müəllim, seçki kampaniyasının gedişatı ilə maraqlanırsınızmı?

- Yox!

- Amma istəsəniz də, istəməsəniz də, televizorun düyməsini basdıqda kanalların hansındasa bu və ya digər deputatlığa namizədin çıxışını seyr etməli olur və ya platformasını oxuyursunuz.

- Bəli, bəli.

- Siz heç rast gəlmisinizmi ki, hansısa bir namizəd cəmiyyətdəki bu və ya digər problemləri qabartmaqla bərabər, dini məsələlərə də toxunmuş olsun?

- Yox, rast gəlməmişəm.

- Bu nədən irəli gəlir? Namizədlərin dini məsələlərə biganəliyinin səbəbi nədir? Məgər din bizim gündəlik yaşamımızda yer tutmamalıdırmı?

- Yox, yox, siz nə danışırsınız. Əlbəttə ki, olmalıdır. Amma neynəyək, yoxdur da. Çünki şüurlar hələ o səviyyəyə qalxmayıbdır. Din hələ məişətimizə girməyib. Bu, o vaxt var idi. Din bizim həyatımızın bir hissəsi idi. Bu gün isə biz dinimizə qovuşub yaşamırıq. Baxın, indi mən, dinini bu qədər sevən, İslamı sevən adam, soruş məndən ki, mən namaz qılırammı?

“Sabah-Nyus” qəzeti, 9 oktyabr, 2005.



MƏN HEÇ BİR MƏZHƏBİN ŞAİRİ OLMAQ İSTƏMİRƏM!

Mən kimin şairi olacağam?!

- Namaz qılırsınızmı?

- Yoox... Yox! (Üz-gözündən təəssüf hissləri yağır)

- Nədən?

- Nədənsə, vərdiş eləyə bilmədim. Olmadı. Sevməyimə, İslama aludə olmağıma baxmayaraq, namaz qılmaq mənə hələ də nəsib olmayıb.

- Siz heç cəhd eləmisinizmi buna?

- Cəhd eləmişəm, ay oğul! Amma faydasız. Çünki hafizəm çox zəifləyib. Surələri əzbərləyirəm, amma yadda qalmır. Namaz qılmaq üçün surələr, ayələr hər zaman masanın üstündədir. Amma heyif ki, yadımda qalmır. Daha doğrusu, on dəqiqə qalır, sonra çıxır yadımdan. Çətindir... (heyfsilənərək) bu yaşdan sonra çox çətindir...

- Amma buna baxmayaraq, məncə, siz özünüzü daima namaz abhavasına kökləmisiniz.

- Əlbəttə, əlbəttə. Mən sənə onu da deyim ki, yoldaşım namaz qılır. Mən onun namaz qılmağına kənardan durub baxıram, mənə ləzzət eləyir. Deyirəm, halal olsun, qıl. Allah qəbul eləsin, qıl.

- Allah sizə də nəsib eyləsin, Bəxtiyar müəllim. Kim bilir, bəlkə də, elə bugünkü söhbətimizdən sonra sizdə tamamilə köklü bir dəyişiklik

baş verəcək.

- Ola bilər... ola bilər... Mənim nəvəm var - qızımın qızı, namaz qılır, oruc tutur.

- Bəxtiyar müəllim, bu gün çox əlverişli bir məqamdır millət vəkili olmaq istəyənlərə ismarıc göndərmək üçün ki, ay cənablar, bax, televiziya ilə çıxışlarınızda hər şeydən danışırsınız, bəlkə, iman məsələsinə də bir qədər yer ayırasınız.

- Xeyri yoxdur. İman hər kəsin içindən gəlməsə, mümkün deyil. İmanı olmayanın qəlbinə, əqlinə mən nə təhər iman duyğusu yerləşdirim? Bu mümkün deyil. İman, bax, burdan (əlini ürəyinin üstünə qoyur) gəlməlidir.

- Ustad, Allahın nəsibi ilə, tarixin yazısı ilə iş belə gətirib ki, Azərbaycan cəmiyyəti iki məzhəbin - şiələrin və sünnilərin ardıcıllarından təşəkkül tapıb. Və hər iki məzhəbin nümayəndələri tarixən eyni bir məkanda qardaş kimi yaşayıblar və bir olan Allaha xidmət ediblər. Amma indi bu iki icmanın birliyinə, bir-birilə sülh və qardaşlıq şəraitində yaşamalarına təhlükə yaranıb: vəhhabilər deyilən xüsusi bir təbəqə tərəfindən. Bu məsələ cəmiyyətin öncüllərindən biri kimi sizi narahat edirmi?

- Çox təhlükəli məsələdir. Doğrudan da, bu, olduqca təhlükəli məsələdir. Mən hesab edirəm ki, bizim din xadimlərimiz bu məsələ barəsində mütləq düşünməlidirlər. Və hər bir məclisdə gərək bu məsələyə toxunalar və münasibət bildirələr ki, bu, həqiqətən də, xatalı məsələdir, qorxulu şeydir. Mən vəhhabilər haqqında eşitmişəm. Bu, Azərbaycana fəlakət gətirəcək. Və yaxud, götürək, sünni-şiə məsələsini. Bu da təhlükəli şeydir. Bunu heç dilə gətirmək də lazım deyil. Qətiyyən lazım deyil. Həzrəti Əli kimdir, Ömər kimdir? Hamısı

bir kökdən deyilmi?

Məncə, şüurlu adamlar yaxşı dərk edirlər ki, məzhəb məsələsini qabartmaq bu millətə qarşı cinayətdir. Biz yeni müsəlmanlar deyilik. Və kimsə bizim beyinlərimizi yuyub, ora məzhəbçilik toxumlarını əkə bilməz. Məzhəbçilər, fərqi yoxdur, sünni olsun, şiə olsun və ya bu iki

məzhəbi bir-birinə qarşı qoymaq istəyən vəhhabi olsun, fərqi yoxdur, bu millətin düşmənidir.

Şəxsən mənim qəlbim hər iki məzhəbə, hər iki məzhəbin ardıcıllarına sevgi ilə doludur. Bizimçün hamısı əziz adamlardır: Həzrəti Əli də, Həzrəti Ömər də əzizdir. Hamısı eyni kökün budaqlarıdır. Bu gün məzhəblər arasında ayrılıq yaratmaq istəyi cinayətdir. Mən bunu cinayət hesab edirəm. Böyük cinayətdir.

İndi mən səndəq soruşuram, ay oğul: tutaq ki, bizi böldülər, bu milləti şikəst etdilər və tutaq ki, birbirimizə düşmən kimi baxmağa başladıq, de görüm, o halda mən kimin şairi olacağam? Hansı məzhəbin şairi olacağam?... (üzünün cizgiləri gərilir).

Mən heç bir məzhəbin şairi olmaq istəmirəm. Və hər kəsə bəyan edirəm: heç kəs məzhəb məsələsini bu millətin bəlasına çevirməyə cəhd etməsin. Buna cəhd göstərənlər Allahın da, bizim də hər birimizin lənətinə layiqdir!

- Bugünkü dini mühitimiz sağlamdırmı? Mühit sizi qane edir?

- Yox, sağlam deyil. Amma bunu da bilirəm ki, problemsiz cəmiyyət yoxdur. Əlbəttə ki, ən böyük xoşbəxtliyimiz ondadır ki, biz artıq millət olaraq müstəqilik, bizim başımızın üstündə himayədarımız yoxdur artıq. Təbii ki, bu gün bir çox nöqsanlarımız var. Həlli isə bizim özümüzdən asılıdır. Hər birimizdən asılıdır. Sizdən asılıdır, məndən asılıdır, bu millətin hər bir fərdindən asılıdır. Millətimizin hürr yaşamasını istəyiriksə, artıq hamımız bir araya gəlməliyik. Mən iqtidarımızı və müxalifətimizi ayrı-ayrı barrikadalarda görmək istəmirəm. Əgər milləti sevirsənsə - buyur, barış. Bir araya gəl. İnsanlara yapçı və ya musavatçı gözü ilə baxmaq xəstəlikdir. Biz hansı əsrdə yaşayırıq?!

Azərbaycanı bir-birinə nifrətlə deyil, sevgi ilə yanaşa bilən insanlar yaşadacaqlar!

Lazım deyil, bu gün məzhəb məsələsini, siyasi mənsubiyyət məsələsini qabartmaq!

Bununçün bu gün hər birimiz təbliğatçı olmalıyıq, hər birimiz!

- Amma burda bir xüsusi məqam var. Siz yazar kimi, bizlər jurna-

list qələmiynən, bir başqası əlində olan digər vasitələrlə sizin dediyiniz o gözəl mənəvi dəyəri, o Vətən sevgisini təbliğ etmək imkanındadırlar və bunu edirlər, edirik. Amma bir sıra insanlar da var ki, üzərlərinə düşəni etmirlər (B.Vahabzadə bu yerdə sözümü "əlbəttə" replikası ilə təsdiqləyir). Məsələn, Siz yəqin ki, mətbuatı izləyirsiniz, bilirsiniz ki, Dini Qurumlarda İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi bu ölkədə sağlam dini mühitin formalaşması üçün, ilk növbədə, bilavasitə məsuliyyət daşıyırlar ("Doğrudur" replikası ilə yenə də fikrimi təsdiqləyir). Amma bunlar bu ən əsas vəzifəni yerinə yetirmək əvəzinə, biz sıravi müsəlmanları doğru yola yönəltmək əvəzinə, birbiriləri ilə cihad edirlər. Siz onlara nə deyirsiniz?

- Vallahi, mənim xəbərim yoxdur. Mənim Şeyxə də böyük hörmətim var, Rafiq Əliyevə də. Əlbəttə ki, aydın məsələdir. Yaraşarmı onlara? Nə Rafiq Əliyevə yaraşar, nə Şeyxə yaraşar! İkisi də ağıllı adamlardır. Mən onlara ancaq onu deyə bilərəm ki, aman günüdür, aman günü! Bu işi etməyin! Əl-ələ verin!

O da, bu da ancaq dinimizin təbliği ilə məşğul olmalıdır, dinimizin gözəlliklərini yaymalıdırlar, dinimizin üstünlüklərini camaata çatdırmalıdırlar.

Bu yaraşarmı, savaşmaq yaraşarmı onlara?!

Adi müsəlmana yaraşmaz bu, o ki qaldı din başçılarına yaraşarmı belə şey? Yox...

Mən eşitməmişəm bu barədə, bilmirəm, xəbərim yoxdur. Amma belə şey varsa, Allah eləməsin, Allah bundan saxlasın bizi.

Amin! Amin!

- Bəxtiyar müəllim, bu gün gənclərdə İslama xüsusi bir maraq var, sevgi var. Və bu gənclər arasında xüsusi bir təbəqə də var ki, daxilən hansısa problemləri yaşayırlar - ya ailə şəraitində, ya iş mühitində, ya ayrı bir məkanda, ya dostlarıyla münasibətlərində, sevdikləri ilə münasibətlərində hansısa problemlər yaranır və bu üzdən daxili böhran, stress keçirirlər. Və bundan sonra yaranan boşluğu doldurmaq üçün, fərqli bir həyata başlamaq üçün dinlə, Allahla maraqlanmağa başlayırlar

və İslamı daha yaxından tanımaq istəyirlər. Amma hardan öyrənəcəklər və ödəyəcəklər ehtiyaclarını?

- Kitablardan. Amma faydalı kitablar azdır. Doğru yazılmış kitablar azdır.

- Və üstəgəl xaricdən çoxlu ziyanlı kitablar daxil olur Azərbaycanın kitab bazarına. Gənclərimizi cəbhələrə bölən, məzhəb təəssübkeşinə çevirən kitablar bu gün ölkədə çox asanlıqla yayılır. Sizcə, kim yazmalıdır doğru kitabları? Məsələn, mənim kimi sıravi bir müsəlman üçün qaneedici kitabları, meyilsiz-tərəfsiz kitabları kim yazmalıdır?

- ...

- Bəxtiyar müəllim, siz ədəbiyyata öz möhürünüzü vurmuş insansınız. Sizin kimi qələm ustasının ideal mömin obrazını yaratması gənclərimiz üçün faydalı olmazmı?

- Ağıllı bir təklif elədin. Mənim beynimə batdı. Bir mömin obrazı yaratmaq olar. Mömin amma müasir insan obrazı... Müasir elmlərlə silahlanmış, ağıllı və müdrik müsəlman obrazı... Musiqini də başa düşür, ədəbiyyatı-fəlsəfəni də başa düşür, siyasəti də düzgün təhlil edir, atom fizikasından da xəbəri var...

- Həqiqətdə, əsl müsəlman elə sizin dediyiniz kimidir. Amma bu gün istər ölkə daxilində, istərsə dünyada müsəlman obrazı siz dediyiniz kimi deyil, axı. Xüsusən də 11 sentyabr hadisələrindən sonra dünyada bir müsəlman xofu yaranıb. Müsəlmana qorxunc bir varlıq kimi yanaşırlar. Bax, müsəlmanlar haqqında bu cür yanlış təsəvvürləri dəyişmək üçün, müsəlmanın müsbət obrazını yaratmaq üçün nə etməliyik? Azərbaycanın payı ola bilərmi bu istiqamətdə? Bütün dünya miqyasında tanıtsın, izah etsin ki, müsəlman heç də sizin anladığınız kimi deyil, müsəlman, bax, budur. Azərbaycanın hansısa bir qələm sahibi, bir yazarı bu işi, sizcə, yerinə yetirə bilərmi?

- Nə deyim, vallah. Yəqin ki, var elə adamlar Azərbaycanda.

- Məsələn, Çingiz Abdullayev detektiv romanlar yazmağı buraxıb da belə bir obrazın, belə bir qəhrəmanın olduğu bir kitab yazsa, roman yazsa, effekti ola bilərmi?

- Belə bir obrazı yaratmaq üçün əvvəlcə İslam haqqında mükəmməl biliklərə sahib olmaq lazımdır, ayrıca götürülmüş müsəlmanın müsəlman fərdlərinin psixologiyasına, müsəlmanların tarixən həyat tərzinə yaxşıca bələd olmaq lazımdır.

- Bir Nəsimi var idi. İmadəddin Nəsimi. Füzuli var idi. Məhəmməd Füzuli. Bunlar ədəbiyyatın və əxlaqın şeyxləri idilər.

- Elə Nizami də.

- Bəli, Nizami də həmçinin. Hardasa Seyid Əzim Şirvani də. Bunlar Allaha kifayət qədər yaxın insanlar olublar. Allahın dostları olan övliyalar kimi. Amma bu gün bu ənənə qırılıb. Ədəbiyyatda Allahdan yazanlar, ideal insanlardan yazanlar demək olar ki, yoxdur. Görəsən, kim yaradacaq bu ənənəni?

Bu gün postmodernistlər deyilən xüsusi bir yazarlar təbəqəsi var. Onların Allah haqqında yazdıqları bəzən az qala cinayət səviyyəsində ifadələrdən ibarət olur. Və yaxud, biri çıxır, postmodernist səpkidə bir roman yazır, təsəvvürlərimizdəki Dədə Qorqud və Şah İsmayıl obrazlarını alt-üst edir.

Bütün bunlara necə baxırsınız?

- Ağıllı adam elə şeyə tüpürər, oxumaz!

- Ustad, nəvənizin əlindən tutub məscidə gedirsinizmi?

- Əlbəttə ki...

Məsciddə olarkən hansı hissləri keçirirsiniz?

- Dinimə qovuşuram. Allahın hüzurunda oluram. Allahın evində olmaq qeyri-adi bir şeydir. Quranımız da qeyri-adi bir kitabdır. Müsəlman onun mənasına da vurğundur, avazına da. Biz türklər məlum səbəblərdən Quranın mənasını tamam başa düşməsək də, o avaz bizi dəli eləyir, o avaz bizi heyrətləndirir.

- Uşaqlıq çağlarınızda yəqin ki, qarələrimizi dinləmisiniz də. Quran qarələrini.

- Bəli, bəli... Səhərlər mən xüsusi ilə Quran avazına, Əzan səsinə ayılardım. Dəhşət idi. Mən onu izah eləyə bilmərəm. O, nə qədər böyük bir həzz idi (bu anları vəcdlə danışır). Dan yeri ağarır... Əzan səsi

(gözləri uzaq sonsuzluğa zillənir). Misilsiz dərəcədə böyük təsiri var onun insana. Kaş ki, hər kəs bu anları, bu hissləri yaşaya biləydi...

- Millətin ağsaqqalı kimi millətə, onun ayrı-ayrı üzvlərinə, o cümlədən imanlı insanlarımıza, hicablı xanımlarımıza Ramazan arzularınız və ümumiyyətlə, hər hansı başqa diləkləriniz varmı?

- Var. Dinimizə sarılın. Dinimizlə silahlanın. İnsanlığımızı itirmək istəmiriksə, Allahın qanunları ilə yaşamalıyıq. Müsəlman ilahi qanunlarla yaşadıqca güclü və gözəl olur.

“Sabah-Nyus” qəzeti, 16 oktyabr, 2005.



SON YAZILARI

I

Mən güzarandan şikayətlənən yoxsul bir ailədən böyümüşəm. Babam Zəkəriyyə meşənin girəcəyində yerlşən dağ ətəyi "Yuxarıbaş" məhləsinin mötəbər ağsaqqallarından idi. Mən 5 yaşında ikən (1930) Şəkidə Göynüklü Molla Mustafanın və Bəhram bəyin rəhbərliyi ilə kollektivləşmə əlehinə üsyan baş verdi.

Üsyan yatırılandan sonra dağlara çəkilmiş qaçaqlara qarşı mübarizə başladı.

Gördüklərinə görə bilməyən babamın pəncərə qarçısında oturub ağladığının dəfələrlə şahidi oldum.

1933-cü ildə atamı v əmilərm "Qaçaqlara yardım etdiklərinə görə" həbs etdilər. O zaman Şəkinin milis rəisi anamın yaxın qohumu Yaqub Çovuşun işə müdaxiləsi ilə atamı və əmilərimi zaminə buraxdılar.

Bir müddətdən sonra artıq Şəkidə yaşamağın mümkün olmadığını bilən atam və əmilərim Bakıya köçməli oldular. Beləliklə hələ uşaq yaşlarımdan həyatın dəhşətlərini öz gözlərimlə görüb ağlımla dərk etdim. Hələ iptidai təhsil illərimdə məndə gördüklərimi qələmə almaq arzusu oyanmışdı. Bu gizli arzu ali məktəbdəki təhsil illərimdə getdikcə dərinləşir və məni yazmağa təhrik edirdi.

Tələbəlik illərindən bu günə qədər mənim içimdə etirazım, üsyanım ana dilimizin qapılar arxasında qalması olub. Bu etiraz getdikcə dərinləşsə də,içimdəki etiraz və üsyan səsini reallaşdırmağa yollar

axtarmışdım.Universitetdə oxuduğum müharibə illərində cəsarət edib əlimə qələm götürdüm.1942-1953 cü illər arasında yazdığım şeirlərin (onlara şeir demək mümkün isə) böyük bir qismini 1988 ci ildə yazdığım ”İki qorxu” poemamda dilə gətirdiyim kimi yazmışdım. Yazdırdığım bu yazılardan birinin bir bəndi xatirimdədir:

Bir vaxtlar şax-şax axardı
Bu gün dondurulduq dilim
Taptalandı ayaq altda
Gör necə xar oldu dilim

Bu duyğumun təbii davamı olaraq 1954 cü ildə yazdığım sonralar məşhur olan “Ana dili” şeirimin elə o zamanlar sevilməsi məni tutduğum yolda uğur qazana biləcəyimə inandırdı.

Həmən il (1984) Moskvada Sovet yazıçılarının II qurultayı günlərində şeiri oxumağa məcbur oldum.Yusif Səmədoğlunun ad günü münasibətiləS.Vurğun bir neçə cavan şairlərin iştirakı ilə qonaqlıq verdi. Qonaqlıqda Yusif mənim yenicə yazdığım “Ana dili” şeirimi atasına oxudu.Şeir S.Vurğunun xoşuna gəldi və bizi əmin elədiki şeiri çap etdirəcək.

16 yanvar 2008



II

Sovet hakimiyyəti dövründə Azərbaycan MK-nın İdealogiya üzrə katibi işləyən Həsən Həsənovun o zaman açıqfikirli ziyalıları müxtəlif bədii üsullardan isdifadə edərək Sovet diktaturasına qarşı çıxan qələm sahiblərini o cümlədən də məni rejimə qulluq göstərən hökm sahiblərinin hücumlarından müdafiə etməsinin dəfələrlə şahidi olmuşam. Bizim bir birimizin isə tarixi bundan çox əvvəllərdən başlamışdı. Bu rəğbətin ayrıca tarixi və səbəbi var:

1975-ci ilin yay aylarında MK-nın inşaat üzrə bölmə müdiri işləyən H.Həsənov Şəkiyə ezamiyyətə gəlmişdi. O zaman raykomun birinci katibi Sadıq Murtuzayev məni Marxalda axşam yeməyinə dəvət etdi.

Mən başda H.Həsənovla tanış oldum. Söhbət əsnasında o, Orxan Yenisey yazılarından söz açdı.

Dövlət məmurlarından xüsusulə də MK işçilərindən heç zaman milli varlığımza, ana dilimizə, tariximizə dair bir söhbət, yaxud adi bir fikir eşitmədiyimizdən bu cavan oğlanın _____-Bilgə xaqandan, Güntəkin abidələrindən böyük rəğbətlə və həyacanla söhbət açması məni təəccübləndirdi. Mənim onu diqqətlə dinləməyimdən xoş hal olan Həsən müəllimə "Bunları hardan bilirsən?" - deyə söhbətdən çox məmnun olduğumu bilincə o, bir qədər də açıldı. Hun və Göytürk imperatorluğu tarixindən bu imeratorluğun böyük tarixindən, zəfərlərindən. Çinlə müharibəsindən dəqiq faktlar əsasında danışmağa başladı. Elə o gündən bizim dostluğumuz, fikir yoldaşlığımız başladı.

Bu günlər qonşu olduğumuzdan tez-tezgörüşür, və fikirlərimizi bö-

lüşürük.

Belə söhbtlərin birində mənə aydın oldu ki, Həsən müəllim mənim əsərlərimə dərindən bələddir. O, bir gün mənə dedi ki, fikir azadlığı və istiqlal eşqi sənin bütün yaradıcılığından qırmızı xətt kimi keçir. Olmazmı ki, sən bu mövzuda yazdığın əsərləri bir kitabda toplayasan?


17 yanvar 2008



SƏFƏR TƏƏSSÜRATLARI, GÖRÜŞLƏR



Nottinhem şəhərinin on-on beş kil*ometrliyində böyük ingilis şairi Bayronun qəsri yerləşir. Qəsr meşənin içində balaca bir gölün kənarındadır. Bura əvvəllər monastr olub. Bayronun babası birinci Lord Bayron bu qəsrin sahibi imiş. Bayron sonralar bu malikanəni bir polkovnikə satıb. Qəsr, Bayron nəslinin muzeyinə çevrilmişdir, əlbəttə, şair Bayrona görə.*



İKİ HƏFTƏ

1966-cı ildə Qərbi Berlindən bir məktub aldım. Məktubu Hans Peter Əhməd Şmide adlı bir alman yazırdı. Təmiz Azərbaycan dilində. Şmide bizim mətbuatımıza abunə olduğunu, mənim şeirlərimi oxuduğunu və bunlardan bəzilərini alman dilinə tərcümə etmək istədiyini bildirirdi. Bundan sonra aramızda məktublaşma başlandı. Nəhayət, 1970-ci ilin dekabr, 1972-ci ilin mart aylarında dəvətimizlə Bakıya gəldi, bizim xalqımız, ədəbiyyat və mədəniyyətimizlə yaxından tanış oldu.

1972-ci ilin avqust ayında o, məni yoldaşımla bərabər Qərbi Berlinə dəvət etdi. Avqust ayının 10-u ilə 24-ü arasında biz onun qonağı olduq.

Biz alman tarixi, mədəniyyəti və ədəbiyyatı ilə çoxdan tanışıq. İlk gəncliyimizdən alman fəlsəfəsi - Marks, Engels, Hegel, Feyerbax, Fixte, Kant, Hartman, Şopenhauer kimi mütəfəkkirlərin, Bethoven, Bax, Vaqner, Ştraus, Haydn kimi bəstəkarların, Şiller, Göte, Brext kimi yazıçıların əsərləri ilə tanış olmuşuq.

Mən yola düşərkən alman xalqının yetirdiyi dühalar fikrimdə sıralanır, onların əsərlərində sevdiyim obrazlar gözlərim önündə canlanırdı. Mən getməmişdən əvvəl də Berlini tanıyırdım; onun küçələrini, parklarını, bağlarını, saraylarını, məşhur binalarını kitablardan öyrənmişdim. İki il əvvəl tamamladığım "416" poemasını yazarkən Berlinin xəritəsi göz önümdə idi.

416-cı Taqanroq diviziyası! Azərbaycan oğullarından təşkil olunmuş bu diviziya Mozdokdan Berlinə qədər şərəfli bir döyüş yolu keçmiş, nəhayət, Berlində küçə döyüşlərində iştirak etmişdi. Bu diviziya Şpree çayının üstündən kəndir körpülərlə o taya adlamış, Kayzer sarayını tutmuş, Unter-Linden küçəsində böyük qəhrəmanlıqlar göstərmiş, nəhayət, Brandenburq darvazasına bayraq sancmışdı. Mənim qardaşım İsfəndiyar bu şərəfli döyüş yolunu gedənlərdən və bu yollarda həlak olanlardan biri idi.

1944-45-ci illərdə qardaşım bu yolları sinəsilə aça-aça getmişdisə, bu gün mən həmin yolları yumşaq qatarda keçirdim. Mən qardaşımın və minlərlə qardaşlarımın vaxtsız ölümünə səbəb olmuş bir məmləkətə gedirdim. Zamanın nə qəribə oyunları varmış! İçimdə bir-birinə zidd olan qəribə duyğular baş-başa gəlmişdi. Vaxtilə adı çəkiləndə dəhşətə gəldiyim və düşmən sandığım bir məmləkətə dost kimi ayaq basırdım.

1. Qərbi Berlin

Şmide arvadı ilə bərabər bizi Berlində qarşıladı. Biz dost kimi qucaqlaşıb görüşdük. Berlin vaxtilə axşam saat on idi. O, bizi Qərbi Berlindəki "Mərhaba" restoranına gətirdi. Restoranın sahibi otuz beşqırx yaşlarında Aras Örən adlı bir türkdü. Beş il əvvəl Aras, İstanbuldan Qərbi Berlinə gəlmiş, fəhləlik eləmiş, üç-dörd ay bundan əvvəl isə fəhlə dostlarının köməyi ilə həmin restoranı açmışdı. Restoran türk qaydasında bəzənmişdi. Yeməklər də milli türk xörəkləridi. Restorandakı xidmətçilər də türklərdi. Maqnitofonda türk mahnıları çalınırdı. Burada bizi Rəhmi Saltuk adlı cavan bir ozan (aşıq) qarşıladı. O, türk aşıq ədəbiyyatının klassiklərindən Yunus İmrə və PirSultanın mahnılarını oxudu. Mahnılar çox, həzin idi. Mahnılar bizə Türkiyənin keçmişindən çox bu günündən şikayətlənirdi.

Gecə yarısı dostumun evinə gəldik. Şmidenin evi şəhər kənarında, kənd kimi bir yerdədir. O, nəhəng şəhərin gurultusundan qaçmış, sakit bir yerdə, meşənin içində özünə məskən salmışdır.

İlk növbədə, evinə qonaq gəldiyim Əhməd bəyi sizə təqdim etmək istəyirəm. Milliyyəti etibarilə alman olan bu adamın əsl adı Hans Peter, familyası Şmidedir. Gəncliyində türk dili ilə çox maraqlanmış, bu dili öyrənmiş və onun vasitəsilə bu dilə qohum olan türkmən, özbək, tatar, qırğız, qazax, başqırd və Azərbaycan dillərinə də maraq göstərmişdir. Zaman keçdikcə dinlərlə də çox maraqlanmış, din tarixlərini dərindən öyrənmiş və onda alman xalqının mənsub olduğu xristian dininə bir şübhə oyanmışdır. Dediyinə görə, atası da xristian dininə, kilsəyə rəğbət göstərməmişdir. Hans Peter uşaq ikən atası onu kilsəyə aparmaq istədiyini bildirmiş, lakin kilsə əvəzinə onu meşəyə gətirmişdir. Uşaq təəccüblənmiş və atasından soruşmuşdur:

- Bəs, axı, biz kilsəyə gedəcəkdik?

Atası cavab vermişdir:

- Mənim kilsəm buradır, oğul. Mənim üçün meşə ən böyük məbəd, quşların mahnısı isə keşiş duasıdır.

Atasının bu eyhamlı sözləri uşağın qəlbində dərin izlər buraxmış və hələ o zaman bu barədə çox düşünmüşdür. Nəhayət, dünyada mövcud olan dinlərin kökünü, məqsəd və vəzifələrini, müqəddəs şəxsiyyətlərin tərcümeyi-halını və irəli sürdüyü fikirləri dərindən öyrəndikdən sonra bu adam islam dinini dinlərin hamısından üstün sanmış və təxminən otuz yaşında ikən müsəlmanlığı qəbul etmişdir. Onun dediyinə görə, xüsusilə, İkinci dünya müharibəsindən sonra almanlar içərisində islam dininə rəğbət göstərənlərin sayı çoxalmış və bir çoxu bu dini qəbul etmişdir. Əlbəttə, din, məslək hər kəsin öz şəxsi işidir, ona görə də xristian dininə mənsub olan almanlar bu məsələyə çox laqeyddirlər. Onu da deyim ki, Qərbi Berlində kilsələrlə bərabər, məscid və hətta Budda məbədi də vardır. Almanlar içərisində Buddaya sitayiş edənlər də az deyil.

Hans Peter islam dinini qəbul edəndən sonra adının yanına Əhməd ismini əlavə etmiş, qadını da Hənifə adını götürmüş, uşaqlarının adını da Həsən və Hüseyn qoymuşlar.

O, çoxdan bəri Azərbaycan mətbuatını müntəzəm olaraq alır.

“Azərbaycan” jurnalını, “Ədəbiyyat və incəsənət” qəzetini mütaliə edir. Dinə inanmasına baxmayaraq sosialist ideyalarına da dərindən rəğbət göstərir və özünü sosialist hesab edir. Bizim klassik ədəbiyyatı, Nəsimi və Füzulini, Axundzadəni və Cəlil Məmmədquluzadəni, Sabiri və C.Cabbarlını, bəstəkarlarımızdan Üzeyir bəyi və Fikrət Əmirovu çox bəyənir, sevir. Müasir yazıçılarımızın, demək olar ki, hamısını oxumuşdur. Bizim folklorumuza - nağıl və dastanlarımıza, bayatı və qoşmalarımıza bələddir desək, azdır, vurğundur. Bizim Nizami muzeyi ilə uzun müddətdən bəri yazışmış, kitab mübadiləsi etmiş, tariximizi və bu günümüzü sevə-sevə öyrənmiş, ədəbi irsimizin bir sıra örnəklərini alman dilinə tərcümə etmişdir. Nağıllarımızı və “Koroğlu” dastanını, C.Məmmədquluzadənin bir sıra hekayələrini, Əkrəm Əylisli, Cəlal Bərgüşad və İntiqam Mehdiyev kimi gənc yazıçıların bir sıra əsərlərini, bu qeydlərin müəllifinin “İkinci səs” pyesini və bir sıra şeirlərini, Abbas Zamanovun Vaqif və Mirzə İbrahimov haqqındakı məqalələrini alman dilinə tərcümə etmişdir. O özü belə hesab edir ki, Azərbaycan ədəbiyyatından başladığı bu tərcümə işi onun gələcək fəaliyyətinin müqəddiməsidir. Gələcəkdə bu işi davam etdirəcək, alman oxucularını Azərbaycan xalqı və ədəbiyyatı ilə tanış edəcəkdir.

Əhməd bəy Qərbi Berlinin fabrik və zavodlarında çalışan türk fəhlələrinin yanında uzun müddət dilmanclıq vəzifəsini aparmışdır. Son zamanlar həmin vəzifədən istefa vermiş, indi isə məhkəmələrdə yəminli *(andlı)* tərcüməçi vəzifəsində çalışır.

Qərbi Berlinə gəlişimizin səhəri, Berlindəki Sovet səfarət xanasına gəldik. Qərbi Berlin xüsusi Beynəlxalq statusa malikdir. Şəhəri ikiyə bölən hasardan - bu hasarın yanındakı gözətçi postundan keçmək lazım idi. Özümüzü gözətçilərə təqdim etdik. Pasportların yoxlanması və icazə vərəqəsinin alınması bir saatdan çox çəkdi. Burada yüzlərlə səyyah növbəyə durmuşdu. Mən yoldaşımla idim. Əhməd bəy Berlinə ayrı postdan keçməli idi. *(Yerli əhalinin keçid yolu ayrı tərəfdəndir)*. O, müəyyən olunmuş yerdən keçib səyyahlara məxsus postun qarşısında bizi gözləməli idi. Keşikçi anket doldurmağımızı tələb etdi. Mən an-

keti rus dilində doldurdum. Keşikçi məndən alman dilində nə isə xəbər aldı. Cavab verə bilmədim. Əl hərəkəti ilə o, mənə nə isə deyirdi. Mən çətinliklə başa düşdüm ki, keşikçi nə vaxt qayıdacağımızı xəbər alır. Mən bunu yoldaşıma Azərbaycan dilində izah edərkən yanımızda dayanmış bir nəfər qarayanız oğlan:

- Azərbaycanlısınızmı? - deyə məndən xəbər aldı.

Mən:

- Bəli, - deyə cavab verirkən o:

- Qardaş, mən də azərbaycanlıyam, - dedi.

Görüşdük. Tanış olduq. Əhməd Mehribani adlı bu gənc Təbrizdəndir. Berlində biologiya fakültəsini bitirmiş, indi də burada aspirantdır. Elmi-tədqiqat institutunda çalışır. Bu yaxınlarda müdafiə edəcək. Tətil zamanı Təbrizə getmiş, evlənmiş və arvadını da özü ilə gətirmişdir. Mənə telefon nömrəsini verdi, evinə də dəvət etdi. Yarım saata qədər onunla söhbət etdik. Məlum oldu ki, Berlində İran Azərbaycanından gələn azərbaycanlılar çoxdur. Bunların əksəriyyəti elmi idarələrdə çalışır. Çoxlarının adını çəkdi. Birinin vizit kartoçkasını mənə bağışladı. Əli Fəhmi adlı bu azərbaycanlı Qərbi Berlində böyük bir klinikanın rəhbəridir. Tibb professorudur. Cərrahdır. Berlinin təbabət aləmin də böyük nüfuzu var.

Əhməd Mehribani ilə dostcasına ayrıldıq.

Qəribə hallar keçirirdim. Necə oldu ki, mən bir şəhəri ikiyə bölən bu hasarın yanında qardaşıma rast gəldim? Dörd milyonluq bu nəhəng şəhərdə hansı təsadüf məni onunla rastlaşdırdı? Bu nədir? Taleyin hökmümü, təsadüfmü?

İki adam boyu qalxmış hasarın yanında dayanıb düşünürdüm. Bir şəhərdə iki dünya, iki aləm, iki fikir! Ortada daş hasar!

14 gün ərzində Qərbi Berlində tanış olduğum hər kəs - Əhməd bəydən tutmuş onun qonşularına qədər, Aras Örəndən tutmuş Əhməd Mehribaniyə qədər hamı bu haqda düşünür. Gəlişimdən bir neçə gün sonra Əhməd bəyin evində olan ziyafətdə bu ailənin yaxını olan bir dəmiryolçu mənə bəzi şeyləri anlatmağa çalışdı. O, xeyli danışdı. Yana-

yana danışdı. Əhməd bəy onun dediklərini mənə cümlə-cümlə tərcümə edirdi. O deyirdi ki, yeməyə hər kəs bir şey tapır. O tayda da, bu tayda da. Ancaq məsələ bunda deyil. Biz çörək acı deyilik, fikir acıyıq, mənəviyyat acıyıq. Cəmiyyət fikir böhranı keçirir. Biz hansı ideyanın arxasınca getməyi və nəyə tapınmağı hələ bilmirik...

Əhməd bəyin dostu dəmiryolçunun 70-ə yaxın yaşı olardı. Onun yeganə oğlu müharibədə, Kiyev ərtafında ölmüşdü. O, öz oğlu haqqında acı-acı danışır və mənə onun hərbi paltardakı şəkillərini göstərirdi. Bu gənc, eynən mənim qardaşım yaşında idi. Onların hər ikisi eyni müharibənin qurbanı idi. Lakin o nə üçün, bu nə üçün? Qoca danışırdı. O deyirdi ki: "Hitler bizi güdaza verdi. Onun ideyası boş bir əfsanə idi. Hitlerin "Mayn kampf"ına görə alman xalqı öz səadətini başqa xalqların bədbəxtliyi üzərində qurmalı idi.

Səfarətxanaya getdim. Yoldaşlarla görüşüb qayıtdım. Əhməd bəyin maşını ilə Qərbi Berlini gəzdik, dolandıq. Lakin məni maraqlandıran şəhərin küçələri, parkları, bağları, muzeyləri deyildi. Bu nəhəng şəhərdə yaşayan insanlar, onların psixolojisi, həyata və hadisələrə münasibətləri, duyğu və düşüncələri idi. Mən Qərbi Berlində yaşayanların geyim-kecimlərindən, hərəkət və davranışlarından, ciddi sifətlərindən onların qəlbini oxumaq istəyirdim. Gənc oğlanların, demək olar ki, hamısı çiyinlərinə qədər saç uzatmış, "cins" şalvar geymiş, müxtəlif firmaların emblemlərini şalvarın arxa hissəsindəki kəmərə, yaxud da köynəyin qoluna yapışdırmış, çiyinlərindən maqnitofon asmışlar. Gənc qızların da əksəriyyəti ya şalvarlı kostyum (eynən oğlanlar kimi), ya da dizdən çox yuxarı don, yaxud yubka geymişdi. Kənardan baxanda qızla oğlan birbirindən seçilmir. Əlbəttə, bu məsələnin zahiri tərəfidir. Qərbi Almaniyada olduğum müddətdə xeyli gənclə görüşdüm, söhbət etdim. Bütün bu görüşlərdən və söhbətlərdən aldığım təəssürat bu oldu ki, Federativ Almaniyada və Qərbi Berlində, ümumiyyətlə, kitab çox az oxunur. Bunu ADR-in ən böyük nəşriyyatı olan "Volf und Welt" nəşriyyatının SSRİ xalqları ədəbiyyatı şöbəsinin müdiri Koşut da ürək ağrısı ilə dedi. O dedi ki: "Qərbi Almaniyada ən çox macəra kitabları oxunur. Ciddi

ədəbiyyata (istər siyasi, istərsə də bədii) meyl çox azdır. Şeirə isə həvəs göstərən lap azdır. Buna görə də Qərbi Almaniyadakı nəşriyyatlar, ümumiyyətlə, şeir kitablarını təsadüfdən təsadüfə nəşr edir. Şeir kitablarının tirajına gəlincə 1500-2000 ən yüksək tiraj hesab olunur".

Mən bizim şeir kitablarının yüksək tirajla çap olunduğunu dediyim zaman o gülümsündü. (Koşut rus dilini çox gözəl bilir. Ona görə də biz onunla asanlıqla danışırdıq). O, Azərbaycanın əhalisinin sayını xəbər aldı. Mən beş milyon dediyim zaman o, təəccüblə çiyinlərini çəkib: - 5 milyon əhaliyə 10 min şeir kitabı çoxdur, - deyə gülümsündü. Mən hiss etdim ki, o, dediyim tiraja inanmır. O zaman "Bir baharın qaran quşu" adlı sonuncu kitabımı ona təqdim etdim və tirajını göstərdim.

- 25 min!

Koşut dəhşətə gəldi və etiraf etdi ki, bayaq mənim sözümə inanmırmış.

Ciddi ədəbiyyata biganəlik, yüngül əyləncə ədəbiyyatına meyl yalnız Qərbi Almaniya üçün deyil, bütün Qərb ölkələrinə xasdır. Əylənmək, nəşələnmək! Bacardıqca dünyadan çox şey götürmək! Həyatın şirəsini çəkmək! Budur həmin ölkələrdə adamların baş şüarı! XX əsr ağıl, düşüncə və böyük ixtiralar əsridir. Ağıl əsrində insanın ağıl və düşüncədən qaçmasını, yüngül əyləncələrə, mənasız dəblərə uymasını nə ilə izah etmək olar?

Nədir bu əyləncələr?
Dərk edə bilmirəm mən.
Adamlar usanıbmı
Dərin düşüncələrdən?

Deyirlər, Amerikada
Alimlər baş sındırıb,
İnsan üçün
cürbəcür

Kakainlər,
Tiryəklər,
Əyləncələr düşünür.
Neçin?
İnsan fikirdən,
Qayğıdan,
Düşüncədən
Bir az ayrılsın deyə.
Bu dünyadan üzülüb
Özünə dalsın deyə.
Dərdə bax!
Əl götürür
Düşüncədən, ağıldan
Ağıl əsrində insan!..

Fikirsiz və ideyasız yaşayan hər kəs, insanlıqdan çıxıb fizioloji varlığa çevrilir. Fikirsiz insan bir parça ət, sümük və qan damalarından ibarətdir. Belə bir insan yalnız biologiyanın materialı ola bilər, ədəbiyyat və fəlsəfə üçün o, heç bir material verə bilməz. İnsan, ağlı, düşüncəsi, duyğusu və dünyagörüşü ilə insandır. Axı, insanı idarə edən də onun fikri, düşüncəsidir. Fikir işıqdır. O, insanın ömür yollarını işıqlandırır, insan zəkasının işığı, fikrinin qığılcımları ilə gələcəyə baxır. Haradan başlayıb hara getdiyini və ən mühümü də nə üçün getdiyini bilir. Əgər belədirsə, fikirsiz, idealsız yaşamaq yaşamaqdırmı? Bu, hər bir kəs üçün belədir. Bəs bütöv bir xalqın idealsız yaşamağını nə ilə izah etmək olar? Mən bununla heç də vaxtilə dünyaya böyük fikir bahadırları vermiş alman xalqının indi fikirsiz, idealsız olduğunu demək istəmirəm. Hər xalqın özünə görə fikri, dünyabaxışı və idealı var. Lakin söhbət tək-tək adamların fikrindən getmir. Söhbət bütöv bir məmləkəti birləşdirən vahid bir ideyadan, vahid bir məsləkdən gedir. Özü də bu vahid ideyanın və məsləkin bir xalqın deyil, bütün bəşəriyyətin səadətinə yönəldilməsindən gedir. Böyük bir xalqı və məmləkəti yalnız gözəl və

mütərəqqi ideyalar və fikirlər vahidə döndərə bilər.

Federativ Almaniya texniki cəhətdən çox inkişaf etmiş ölkədir. Bu ölkədə hər şey avtomatlaşıb. İdarələrin, aerodromların qapılarından tutmuş paltaryuyan maşına qədər, hər şey elektrikin köməyi ilə avtomatlaşdırılmışdır. Bunun üçün bir neçə misal çəkmək istəyirəm. Aerovağzalların qapıları adamın uzaqdan gəlişini "hiss edincə" öz-özünə taybatay açılır, adam keçəndən sonra öz-özünə bağlanır. Təyyarəyə qalxmaq və düşmək üçün pilləkən lazım olmur. Vağzaldan dördküncülü bir boru xortum kimi açılıb təyyarənin qapısına dirənir. Adamlar rahat qalxıb düşürlər. Təyyarə vağzallarındakı səkilər öz-özünə hərəkət edir, sərnişinləri istədiyi yerə aparıb-gətirir və s...

İndi keçək məişətə. Çağanın bələyi islandığı zaman dürməcdəki zəng səslənir, anaya xəbər verir ki, əsgiləri dəyişmək lazımdır. Yaxud, evdə hazırlanan yeməklərin əksəriyyəti yarımfabrikatdır. Məsələn, kartofun tozu, yumurtanın tozu və s. Evdə paltarlar avtomatik yuyulur, qurudulur və ütülənir. Bunlar hamısı qadınların işini yüngülləşdirmək üçün çox əlverişlidir və gözəldir. İlk baxışda bunlar adamda bir heyrət doğurur. Sonra fikirləşirsən ki, bunlar vahid və böyük bir məsləkin, fikrin və əqidənin məhsulu deyil, fərdi qazanc ehtirasının məhsuludur. Bütün bunların insan zəhmətini yüngülləşdirdiyinə şübhə ola bilməz. Lakin bunlar insan həyatını gözəlləşdirə bilirmi? Həyatı məna ilə doldura bilirmi? Mən deyərdim, əksinə! İnsan hər şeyə idrakla nail ola bilər. Öz-özünə açılan qapılar, paltaryuyan, qurudan, ütüləyən maşınlar bu günün nailiyyətləridir. Sabah bunlardan da möcüzəli şeylər çıxacaq. Əsas məsələ insan həyatını gözəlləşdirməkdə və mənalandırmaqdadır. Mən öz-özünə açılan aerodrom qapılarının əleyhinə deyiləm. Lakin istəyirəm ki, insanların könül qapıları bir-birinin üzünə açılsın.

Əhməd bəy danışır ki, bir binada yaşayanlar, əksərən, bir-birini tanımır. Bir-birlərinə gedib-gəlmir. Burada adamlar arasında ünsiyyət yox dərəcəsindədir. Hamı qapalıdır. Deyir, bacımgilin qonşuluğunda tək bir qoca yaşayırmış. Qoca keçən qış xəstələnib ölür, kimsə bundan xəbər tutmur. Yay gəlir. Meyit iylənir. Qoxu ətrafı bürüyür. Yalnız o

zaman binada kiminsə öldüyündən xəbər tuturlar.

Burada ölü basdırmaq adəti də qəribədir. Meyiti ölü maşınında ailə üzvləri dəfn edir. Küçə hərəkəti qaydaları pozulmasın deyə cənazənin arxasınca izdiham getmir.

Qanun gözəl şeydir. Bəs borc? İnsanın insanlıq dərəcəsi onun başqaları qarşısındakı borcunu ödəməsi ilə də ölçülür. Aylarla, illərlə bir yerdə işlədiyin, yaxud yaşadığın, sevincini, kədərini bildiyin, dərdlərini bölüşdüyün bir adamı son mənzilə ötürərkən küçə hərəkəti qaydalarının pozulması ən böyük cinayətmiş?

2. Qərbi Almaniyada Türkiyə

Mən bir məmləkətə gəlib iki məmləkətlə tanış oldum. On minlərlə türk fəhləsi Qərbi Berlində çalışır, Federativ Almaniyada yarım milyona yaxın türk fəhləsi çalışır. Bütün dünyada isə onların sayı bir milyona çatır (Belçika, Hollandiya və İngiltərədə). Hazırda Türkiyədə bir milyona yaxın işsiz fəhlə xarici ölkələrə getmək üçün növbəyə dayanmışdır. Əlbəttə, bu bir ölkə üçün faciədir. Ölkəyə xarici valyutanın axması, əlbəttə, o ölkənin dövlət büdcəsi üçün faydalıdır. Lakin ölkəyə axan məbləğ kapitalist inhisarının müxtəlif oyunları nəticəsində müxtəlif yollarla da ölkədən çıxır.

Qərbi Berlində addımbaşı türk dükanlarına, restoran və kafelərinə, türk fəhlələrinə rast gəlirdik. Alman qəzetləri yazır ki, hazırda Qərbi Almaniyada doğulan 4 uşaqdan biri türkdür və bir qəzet yarızarafat, yarıdoğru yazmışdı ki, Osmanlı imperiyası zamanı türk sultanları Almaniyanı işğal etməyə çox can atdılar, mümkün olmadı. Lakin, indi türklər Qərbi Almaniyanı "işğal etdi".

Yuxarıda dediyimiz kimi, Əhməd bəy Qərbi Berlində tərcüməçi işləyir. Buna görə də o, bir parça çörək üçün öz vətənin dən didərgin düşən türk fəhlələrinin vəziyyətini çox yaxşı bilir. Qərbi Berlin qaydalarına, həyat tərzi və həyat şəraitinə uyğunlaşa bilməyən türklər tez-tez məhkəmələrə düşür, yerli cinayət məcəlləsinə görə mühakimə olunur-

lar. Buradakı türklər öz köklərindən və torpaqlarından ayrılmış ağaclara bənzəyir. Buradakı hava, iqlim, şərait, mühit onları isitmir. Alman dəqiqliyinə və qaydalarına uyuşa bilmirlər. Gənclər bəzən alman qızları ilə evlənir. Amma zövq, dünyaya baxış, əxlaq normaları müxtəlif olduğundan yola getmirlər, dalaşırlar. Türklər qısqanır, qadınlarını öldürür, məhkəməyə düşür, cəza alırlar. Beləliklə, bığ dalınca gələn bu bədbəxtlər saqqalı da qoyub qayıdırlar.

Qərbi Almaniyada yaşayan türk fəhlələrindən birinin başına gələn əhvalatı nəql etmək istəyirəm. Radio zavodunda işləyən M. adlı bu gənc Elen adlı bir dul qadınla tanış olur, uzun müddət gəzib dolanırlar. O, Elenin birinci ərindən olan uşağına hədiyyələr alır, onu öz balası kimi sevib oxşayırmış, Elenin anası gəncin bu hərəkətini bəyənir və ona çox hörmət qoyurmuş. M.Eleni qəlbən sevmiş və evlənmək qərarına gəlmişdir. Bu qərarını söylədikdə qız rədd etmiş, onunla yalnız yoldaşlıq elədiyini, ailə qurmaq fikrində olmadığını bildirmiş, oğlana bundan sonra onlara gəlməsini qadağan etmişdir.

Bu xəbərdarlığa baxmayaraq, o, sevgilisigildən ayağını üzməmiş, yenə gedib-gəlmişdir. Bir gün qız ona başqa birisilə evlənmək istədiyini bildirmiş və onu evdən qovmuşdur. Bir daha evə gələ bilməyən M. Eleni küçədə gözləyir, onun iş yerinə gedir, qızı rahat buraxmırmış. Qısqanclıq elə bir dərəcəyə gəlib çatır ki, nəhayət, o, Eleni bıçaqlayıb öldürür. İş məhkəməyə düzür. Məhkəmədə qızın anası və qardaşı Eleni təqsirləndirir və M.in çox yaxşı adam olduğunu və bu xatanı məhəbbətdən törətdiyini göstərirlər. Buna baxmayaraq, cinayət cinayətdir. M.Türkiyədəki üç bacısını və anasını ağlar qoyur. O, bu yad məmləkətə ailəsi üçün çörək qazanmağa gəlmişdi. Onlara pul əvəzinə dərd göndərdi.

Belə hadisələr yüzlərlədir. Türklər AFR-ə bir məqsəd üçün gəlirlər: nə yolla olur-olsun, bacardıqca çoxlu pul qazanmaq. Vətəndə qoyub gəldikləri anabacılarına pul çatdırmaq! Lakin AFR-də həyat tərzi elədir ki, onlar məqsədlərinə nail ola bilmir. Qazandıqları, gündəlik xərclərini zorla ödəyir. Türklər Qərbi Berlinin ən yoxsul məhəllələrində heç bir

yaşayış şəraiti olmayan zirzəmilərdə yaşayır. Qazanclarının üçdə birini ev kirayəsinə, işıq puluna verirlər. Türk fəhlələrinin acınacaqlı halını onların şairləri Aras Ören "Qürbətdə şeir" adlı əsərində, görün, nə gözəl ifadə etmişdir:

Uç, durnam, uç,
Yarım uzaqda qaldı.
Meyvəsini dərdilər,
Əlim budaqda qaldı.
...Yar dediyim:
Fəratın köpüklü suyudur,
Traxomalı uşaqdır.
Ana bətnində ölən,
İlk beşiyinə kömülən
Yumuq gözlü bir bəbədir.

İşsiz - işçidir,
Sürüsüz çobandır.
Harın bir bəyin
Evindəki dəbdəbədir.
Həsrətli ürəkdir,
Vətəndən qaçaq düşən
Bir parçacıq çörəkdir.
...Yar dediyim:
Mənim satılmış qeyrətimdir.
Bədbəxt məmləkətimdir.
Göylərin ən gözəli,
Dənizlərin ən mavisi,
Acların ən acı,
Zənginlərin ən haqsızı,
Ondadır.
Gəlmənin minnəti

Zəncir kimi
həmişə boynundadır.

Türk fəhlələri fabrik və zavod sahibkarları üçün çox sərfəlidir. Çünki onlar başqa mənəvi tələblər üçün deyil, bir parçacıq çörək üçün uzaq yollar aşıb gəlmişlər. Onlar acdır, bütün ağır şərtlərə, ağır şəraitə dözür, qovulmamaq üçün ən ağır işlərdə belə can-başla çalışırlar. Çünki onlar bunu da özləri üçün səadət hesab edirlər. Axı, Türkiyədə bir milyon adam xarici ölkələrə getmək üçün növbəyə dayanmışdır. Növbəsinin gec çatacağını bilənlərin bir çoxu icazə kağızı və viza almadan vətənindən baş götürüb qaçır. Dövlət müəssisələrində deyil, şəxsi şirkətlərdə güc-bəla iş tapıb başını dolandırır. Lakin belələrinin çoxu tutulur, məhkəməyə verilir. Yerli qanun məcəlləsinə görə icazəsiz gəldikləri üçün cəzalanırlar. Səlim adlı birisi Anadolunun uzaq kəndlərindəndir. Altı balasını kənddə qoyub iş üçün İstanbula gəlmiş. Tapmamışdır. Xaricə getmək üçün növbəyə durmuş, növbəsinin iki ildən sonra çatacağını bilincə vaxtilə Qərbi Almaniyada çalışmış mərhum əmisinin pasportu ilə Qərbi Berlinə gəlmiş, burda maşın hissələri satan şirkətdə çətinliklə işə düzəlmiş, bir aydan sonra pasportunun saxta olduğu bilinmişdir. İndi o, məhkəmə qarşısındadır. Kənd ibtidai məktəbini bitirmiş bu adamın məhkəmədəki son sözü dünyadakı bütün haqsızlıqlara qarşı bir üsyandır, bir nalədir. O, üzünü hakimə tutub qışqırmışdır:

- Nədir mənim günahım? Balalarımı dolandırmaq üçün vətənimdən ayrı düşməyimmi? Bir loxma çörək üçün bu yad ölkədə ağır şərtlərə dözüb işləməyimmi? Sahibkarın ən ağır təhqirlərinə, danlaq və töhmətlərinə dözməyimmi? Nəm zirzəmilərdə yaşamağımmı? Dünyaya gətirdiyim balalarımı yaşatmaq üçün dözdüyüm bu əziyyətlər mənim günahımdırmı?

Hakim ona cavab vermiş ki:

- Sənin günahın odur ki, xarici ölkəyə saxta pasportla gəlmisən.

Bu yerdə Səlim qəhqəhə çəkib gülmüş və demişdir:

- Doğrudan, saxtakarlıq pis şeydir. Siz məndən düzlük tələb edirsi-

niz. Bəs atanın gözləri baxa-baxa balalarının acından ölməsi düzlükdürmü? Siz hansı düzlükdən danışırsınız? Ac insandan düzlük tələb etmək düzlükdürmü? Səlimin bu düz və həqiqət tələb edən mühakimələrinə və ittihamlarına baxmayaraq, onu vətənə dönməyə məcbur etmişlər. Səlimin bundan sonrakı taleyi necə olacaq? Vətəndə onu nə gözləyir? - Bütün bunları düşündükcə adam dəhşətə gəlir.

Avropada yaşayan türk fəhlələri Türkiyədə çıxan bir çox qəzetləri alır, radionu dinləyir. Türkiyədə baş verən bütün hadisələri izləyirlər. Üç-dörd ay bundan əvvəl Türkiyədə yaşı 20 ilə 27 arasında olan 18 nəfər vətənpərvəri həbs etmiş, onlardan üçünü öldürmüşlər. Yusif Aslan, Dəniz Gəzmiş və Hüseyn İnanın edamı və qalanlarının həbsi Avropadakı türkləri təlatümə gətirmiş, onlar bu faciəni əks etdirən plakatlar və qəzet nömrələri buraxmışlar.

- "Demokratik – hürr-Türkiyə cəbhəsi"nin buraxdığı plakatda 18 dustağın şəkli verilmiş və yazılmışdır: "Faşistlər ölüm saçıyor. Böyük mitinqə qatılalım, 18 yurdsevəri qurtaralım". Bu münasibətlə onlar iyunun 30-da Berlindəki Nollendorf meydançasında böyük mitinq keçirmişlər.

Avqustun on birində axşam "Avropa Türk Toplumçular Federasionu"nun üzvlərindən şair Aras Ören məni restoranına dəvət etdi. Mənə xeyli suallar verdilər. Avqustun 12-də saat 2-də "Türk Toplumçular Ocağı"nda onların görüşünə gedəcəyimə söz verdim. Ertəsi dediyimiz vaxtda görüşdük. Mən onlara şeirlərimdən oxudum. Onlar mənə Türkiyədə baş verən sonuncu hadisələrin fotoşəkillərini göstərdilər. Mən onlara Azərbaycanın foto-albomunu və öz kitablarımı bağışladım. Onlar mənim universitetdə ana dilində dərs dediyimi bilincə təəccüb etdilər. Türkiyədə Amerika təbliğatı çox güclüdür. Bu təbliğatın sayəsində onlar elə güman edirmiş ki, Azərbaycanda ana dili yoxdur və gənclər öz ana dilində təhsil almır.

Əqidəli gənclərlə bərabər Qərbi Almaniyaya geyinib-kecinmək, əylənmək, yeni çıxan dəbləri gətirmək məqsədilə gələnlər də var. Belələri alman gənclərini məzmunca deyil, formaca təqlid edir, saç uza-

dır, “cinsi” geyir, mənasız əyləncələrə uyur. Lakin alman dəqiqliyinə və düzlüyünə uyuşa bilmirlər. Belələrindən biri ilə söhbət edirdim. O, mühəndisdir. Fəhlələrə nisbətən yaxşı aylıq alır. Qazancını restoranlarda xərcləyir, gecə barlarında əylənir. Mən ondan soruşdum ki, bəs vətən yadına düşürmü? Dedi: - Yox! Dedim: - Nə vaxta qədər qürbətdə qalacaqsan? Dedi: - Həmişə. Dedim: - Bəs öz biliyini vətənə vermək istəmirsənmi? Dedi: - Qarnım harda toxdur, ora da mənə vətəndir. Dəhşət məni götürdü. Vətəni qarınla eyniləşdirən belə qanqalların necə və harda yetişdiyinə təəccüb edirəm...

İdeyanı cəmdəyə, mənəviyyatı qarına qurban vermək dünyaya ağlın, ürəyin gözləri ilə deyil, mədənin gözləri ilə baxmaq insanı nə qədər kiçildir! Demək, bu gənc üçün müqəddəs heç bir şey yoxdur. Belələri haqqında böyük Nizami çox gözəl demişdir:

Yeməyi, içməyi bu dünyada sən
Eşşək, öküzdə də görə bilərsən.

İnsan yalnız yemək, dünyanın nemətlərini sormaq, dünyanın ləzzətlərini dadmaq üçünmü yaşayır? Bəs məqsəd? Bəs ideal? İnsan qarnının böyük-kiçikliyi ilə deyil, fikrinin, məqsədinin, məsləkinin böyük-kiçikliyi ilə başqalarından seçilir. Xüsusilə də bizim çağımızda. İnsanın insanlıq dərəcəsi ağıl və mənəvi səviyyəsi ilə ölçülmürmü?

Hayıf ki, belələrinə hər ölkədə rast gəlmək olur. Öz fikri, öz düşüncəsi dünyaya şəxsi baxışı olmayanlar söyüd ağacı kimi hər küləyə başını əyir, meymun kimi özgələrini yamsılayır. Torpağın şirəsini çəkir, amma meyvə verə bilmir. Meyvə vermək haqqında heç düşünmür də. Onların bir idealı var: bacardıqca çox sormaq, bacardıqca dünyadan çox şey qoparmaq, amma heç nə verməmək! Öz ağılları olmadığı üçün qoyma ağılla yaşayır, özgəni təqlid edir və bunu müasirlik sanırlar. Çiyinlərinə qədər saç uzatmış, yıpranmış, rəngi belə getmiş, təlis şalvar geyən, nisbətən imkanlı atasının hesabına Qərbi Berlində tibb fakültəsində oxuyan bir gənclə söhbət edirdim. O, keçən ilki yay tətilini

Amerikada keçirmiş və o vaxtdan Amerika havası ilə yaşayır. O, çox böyük həyəcanla Amerikadakı "hippi"lərdən, onların həyat tərzindən və "fəlsəfəsindən" danışırdı. O, iddia edir ki, dünyanı dərindən dərk edənlər "hippi" olmalıdır.

Mən Amerikadakı "hippi"lərin və Fransadakı "kloşar"ların həyat tərzi və fikirləri ilə (buna fikir demək olarsa) tanışam. Bunlar, əsasən, milyonçu balalarıdır. Onlar atalarının yolu ilə getmək istəmir. Atalarının tox həyat tərzinə üsyan məqsədilə onlar adi yaşamaq, toxluğun, meşşanlığın bütün əlamətlərini özlərindən rədd eləmək üçün aylarla çimmir, üz və başlarını qırxmırlar. Keçədən və təlisdən, ucuz və adi paltarlar geyir, küçədə, yaxud çardaqlarda yatır, icma şəklində yaşayırlar. Bu, varlı ataların qudurğan, meşşan həyat tərzinə, özlərinin başqalarından üstün tutmaq həvəslərinə, bir növ, etirazdır, bir növ, tərki-dünyalıqdır. Bununla onlar insanlığın yarım vəhşi dövrünə qayıtmaq, onlar kimi yaşamaq, onlar kimi təbiətə yaxın olmaq istəyirlər. Onlar icma halında qrup-qrup yaşayır, bir yerdə yatır, bir yerdə gəzir, birlikdə əylənirlər. Onlar üçün ailə yoxdur. Doğulan uşaqların kimə mənsub olduğu da bilinmir.

Əlbəttə, bu hal uzun davam etmir, yenidən cəmiyyətə qayıdırlar. Amerikada bunun özü də tox adamlar üçün, bir növ, əyləncədir. "Hippi"lər Amerika mühitindən, "kloşar"lar da Fransa mühitinin özündən doğmuşdur. Hər şey mövcud cəmiyyətin, quruluşun, mühitin və zamanın məhsuludur. Deyək ki, bu hal Amerikanın milyonçu balaları üçün təbiidir. Bəs, ac türk balası üçün necə? Xirtdəyə qədər borc içində boğulan bir məmləkət üçün "hippi fəlsəfəsi" nə dərəcəyə qədər uyğundur? Əgər toxsansa, sənin fəlsəfən özünü aclara bənzətmək yox, acları doydurmaq olmalıdır. Sənin də qayən öz məmləkətinin dərdlərindən doğmalıdır. Sən vətənini düşdüyü bu vəziyyətdən xilas etmək haqqında düşünməlisən! Meymun insanı təqlid edir, amma gülünc vəziyyətdə qalır. Təqlid həmişə gülüş doğurur. Unutma ki, ördək qaz yerişi yerimək istədi, qılçaları aralı qaldı. Sən amerikalının ayaqqabılarını geyə bilərsən, amma yerişini yeriyə bilməzsən. Kökündən qopan budaq quruyar, ot kökü üstə bitməsə, saralar. Beləliklə öz kökünü

inkar edib, gəlmə kök üstündə boy atmaq istəyir, amma bu calaq, süni calaqdır, baş tutmaz!

Maraqlı burasıdır ki, mən bu cəhəti Qərbi Almaniyada tanış olduğum bir sıra türk ziyalılarında da gördüm. Oxuduğum bir sıra türk jurnallarında ziyalılar öz atalarına qarşı çıxır, onları inkar dərəcəsinə qədər alçaldırlar.

Yenə də yollarda...

Avqustun 12-də indi muzey olmuş Reyxstaq binasına baxdıq. Binanın çölündəki sütunlar güllə yaraları ilə çopur-çopurdur. Nə qədər yamaq salıblarsa da yenə güllə yerləri bilinir.

Reyxstaq binası indi alman tarix muzeyidir. Binanın içərisindəki mərmər pillələrlə yuxarı qalxırıq. Mən həmin bu pilləkənlərdə 1945-ci il, mayın 3-də əlində qızıl bayraq tutmuş eloğlum Məmmədovu xatırlayıram. O, faşizmə qarşı ədalətli müharibənin qurbanı oldu.

Reyxstaqın qarşısında uzanan Unter-Linden küçəsi ilə Brandenburq darvazasına tərəf gedirik. Vaxtilə Hitlerin parad qəbul elədiyi bu küçə, tağının üstündə Zəfər Allahının arabası həkk olunmuş Brandenburq qapıları, elə bil, dil açıb başından gəlib keçənləri danışır. İndi onun üstündə qızıl bayraq dalğalanır. Həmən bayrağı 1945-ci il, may ayının 2-də 416-cı Taqanroq diviziyasının mərd oğulları asmışdır. Sinəm iftixarla qabarır. Mən Azərbaycan oğullarının öz sinəsi ilə açdığı bu yollardan, küçələrdən keçdikcə özümə, öz varlığıma inanır və gələcəyə daha artıq inam gözüylə baxırdım.

Avqustun 13-də televizorda məşhur alman dramaturqu Hauptmanın "Siçovullar" pyesinin tamaşasına, avqustun 16-da isə Şiller teatrında "Məkr və məhəbbət"ə baxdıq. Hər iki tamaşada rejissor həlli və aktyor oyunu realist plandadır. Maraqlı burasıdır ki, mən bu tamaşalarda absurd teatrının əlamətlərinə, şərtiliyə və abstraksionizmə rast gəlmədim. Dekorasiyalardan tutmuş mizanlara qədər, mizanlardan tutmuş oyuna qədər hər şey realistcəsinə həll olunmuşdur. "Məkr və məhəbbət"də

bir tapıntı daha çox xoşuma gəldi. Pərdə açılarkən səhnədə rəsmi geyimli, paqonlu, ordenli, yüksək dərəcəli dövlət adamının az qala bütün səhnəni tutacaq nəhəng heykəli görünür. Heykəl o qədər ucadır ki, başı görünmür. O, kresloda əyləşmişdir. Tamaşada cərəyan edən bütün hadisələr bu heykəlin fonunda göstərilir. Obrazlar heykəlin ayaqlarının dövrəsində balaca kuklalar kimi hərəkət edir. Rejissor demək istəyir ki, kapitalist dünyasında dövlət aparatı insanları xırpalayır, bir oyuncağa döndərir və bu əsərdəki faciənin əsas səbəbkarı burdakı mənfi obrazlar deyil, hamını əzən, öz təzyiqi ilə insanları oyuncağa döndərən mövcud quruluş və bu quruluşun başında duranlardır. Həyatdakı pisliklərə gəlincə, o da mövcud quruluşun məhsuludur.

Avqustun 14-də heyvanat parkına getdik. Bu parkda dünyada mövcud olan bütün heyvanlar nümayiş etdirilir. Balıqların bütün növlərindən tutmuş, quruda yaşayan heyvanların bütün növlərinə qədər! Ən maraqlısı isə delfinlər idi. Sirkə bənzər dairəvi tamaşa zalının ortasında dərin bir göl var. Göldə 2 delfin üzür *(erkək və dişi)* məşqçinin komandası ilə delfinlər müxtəlif hərəkətlər göstərir. Burunları ilə top-top oynayır, ayaq üstə dururlar. Nəhayət, "mahnı oxuyurlar" hətta, çalınan havaya uyğun hərəkətlər göstərir, rəqs edirlər. Göstərdikləri hər hərəkətdən sonra dönüb tamaşaçılara baxırlar. Məşqçi dedi ki, onlar sizdən alqış gözləyir. Çünki onlar alqışlanmağı çox sevirlər. Bu xəbərdarlıqdan sonra onların hər hərəkətindən sonra gurultulu alqış qopurdu. Bu, onları "oyuna" daha da həvəsləndirir, daha yaxşı hərəkətlər göstərməyə çalışırdılar. Maraqlı burasıdır ki, hər hərəkətdən sonra delfinlər üzə-üzə məşqçinin yanına gəlir və paylarını istəyirlər. Məşqçi də onların ağzına nə isə atır. Oyunun sirri bunda imiş.

Avqustun 15-də qayıtmaq üçün bilet sifariş verməyə getdik. Dəmiryol kassasında on gün sonra üçün biletlərin satıldığını dedilər. Berlinə keçməli olduq. Sərhəddə yenə eyni yoxlanışlar başladı. Pasportların qeydə alınması, anket doldurulması və s. Berlində "İnturist" vasitəsilə bilet məsələsi düzəldi. Mağazalara baxırdıq. Bir mağazada eynəyimi piştaxtanın üstündə qoyub çıxmışammış. Qərbi Berlindəki

mənzilimizə qayıtdıq. Evdə eynəyimi mağazada qoyub çıxdığım yadıma düşdü. Ertəsi günü - 16 avqustda bir də Berlinə qayıtmalı olduq. Biz dükana girən kimi satıcı dərhal məni tanıdı. Sözsüz-sorğusuz eynəyi mənə qaytardı.

Həmin gün Berlindəki "Alman-Sovet Dostluğu" cəmiyyətində görüş oldu. Cəmiyyətin sədri R. Enias bizi qarşıladı. Həmin cəmiyyətin orqanı olan "Jurnal" məcmuəsinin redaktoru Frans Rump da burada idi. Frans Rump bir neçə il bundan əvvəl Azərbaycanda olmuş, bir sıra rayonları gəzibmiş.

"Jurnal"ın redaktoru mənə iki məqalə sifariş verdi. Biri Azərbaycan Respublikası haqqında, ikincisi isə səfər təəssüratım haqqında. Hər iki məqaləni yazıb göndərəcəyimə söz verdim. Onu da deyim ki, həmin jurnal Azərbaycan neftçiləri və incəsənət xadimləri haqqında bir sıra məqalələr dərc etmişdir. Mən orda olduğum zaman jurnalın sonuncu nömrəsində müğənnimiz M.Maqomayev haqqında geniş bir məqalə çap olunmuşdu.

Avqustun 16-da gündüz saat 11-də "Volf un Velt" nəşriyyatında olmalıydıq. Biz təyin olunmuş vaxta 15 dəqiqə qalmış binanın qabağında idik. Lakin içəri girməyi Əhməd bəy məsləhət bilmədi. 15 dəqiqə maşının içində söhbət etdik. Düz 11 tamamda nəşriyyata qalxdıq. Bizi gözləyirdilər. SSRİ xalqları ədəbiyyatı şöbəsinin müdiri Koşut qapının ağzında bizi qarşıladı. "Volf und Velt" ADR-in ən böyük nəşriyyatıdır. Bu nəşriyyat bir çox sovet yazıçı və şairlərinin əsərlərini nəşr etmişdir. Onlardan Yevtuşenko, Mikola Bajan, K.Simonov, R.Həmzətov və Ç.Aytmatovun kitablarını göstərmək olar. Tacik, özbək, Ukrayna, eston, qırğız nağıllarını ayrıca kitab halında çox nəfis halda çap etmişlər. Əhməd bəyin tərcüməsi ilə indi Azərbaycan nağılları çapa hazırlanır. 1974-cü ilin nəşriyyat planına C.Məmmədquluzadənin "Hekayətlər" kitabını salmışlar. *(Yenə Əhməd bəyin tərcüməsi ilə)*. Nəşriyyat bizim müasir ədəbiyyatımıza çox böyük həvəs göstərir. Onları maraqlandıran Azərbaycanın müasir həyatı və bu həyatın ədəbiyyatımızda necə əks olunmasıdır.

Avqustun 17-də səhər tezdən təyyarə ilə Berlinin 450 kilometrliyində yerləşən Frankfurt-Mayn şəhərinə yola düşdük. Təyyarə meydanında bizi aspirantı ilə bərabər professor Horst Vilfrid Brands qarşıladı. Professor Brands Frankfurt universitetində türk dilləri və ədəbiyyatı kafedrasının müdiridir. O, bizi öz maşınında universitetə gətirdi.

Kafedranın otaqlarını gəzirik. Bu otaqlarda türk dillərində çıxan bütün qəzet və jurnallar səliqə ilə saxlanılır. Mən burada tatar, özbək, qırğız, qazax, türkmən, başqırd, türk və Azərbaycan dillərində çıxan elmi və bədii jurnalların bir çoxunu gördüm. Professorun aspirantlarından biri – Nadya Bednarova adlı çex qızıdır. O, "Qaçaq Nəbi" dastanı mövzusunda dissertasiya işi üzərində çalışır.

Söhbət bizim müasir ədəbiyyatımızdan düşdü. Mən gördüm ki, kafedranın əməkdaşları bizim nəinki klassik, həm də müasir ədəbiyyatımızı da gözəl bilirlər. S.Rəhimov, M.İbrahimov, Ə.Əbülhəsən, M.Hüseyn, Ə.Vəliyev, İ.Əfəndiyev, İ.Hüseynovun əsərlərində qaldırılan problemləri, bu əsərlər haqqında yazılan məqalələri və mübahisələri təhlil edir, öz şəxsi mülahizələrini də söyləyirdilər. S.Vurğun, R.Rza, S.Rüstəmin özlərinə məxsus yaradıcılıq üslublarından danışır, şeirdə novatorluğa dair qaldırılan mübahisələri təhlil edirdilər. Professor S.Vurğun şeirindəki sadəliyi və xəlqiliyi çox yüksək qiymətləndirdi. O, "Komsomol poeması"nı böyük əsər adlandırdı və əlavə etdi ki, bu dastanla biz Azərbaycan xalqını tanıdıq... Söhbət İran Azərbaycanı şairlərindən düşdü. Şəhriyarın, Səhəndin, Sahirin şeirlərindəki hıçqırıq və fəryaddan danışdılar. İki yerə parçalanmış Azərbaycanın həm o tayından, həm bu tayından olan şairlərin əsərləri xatırlandı. S.Rüstəmin, B.Azəroğlunun, O.Sarıvəllinin, M.Gülgünün bu mövzuda yazdıqları şeirlərdən parçalar oxundu.

Söhbətin şirin yerində Qərbi Almaniyada qonaq olan türk yazıçısı Behcət Nicatigil gəldi. O, öz kitablarını mənə hədiyyə gətirmişdi. Suallar və mübahisə davam edirdi. Mübahisənin başlıca mövzusu klassiklərə hörmət məsələsi idi.

Professor məndən xahiş etdi ki, Azərbaycan dilini öyrənən alman

tələbələri üçün maqnitofona bir neçə şeir oxuyum. Oxudum.

Nahar üçün yunan restoranına getdik. Yunan mətbəxi çox xoşuma gəldi. Nahardan sonra şəhər kitabxanasına getdik. Kitabxana son dərəcə gözəl, səliqəli və çox sahmanlıdır. Kitabxananın Azərbaycan bölməsinə baxdıq. "Azərnəşr"in, "Gənclik"in, Akademiyanın və Universitetin buraxdığı bir çox kitablara rast gəldim. Ədəbi jurnallar səliqə ilə cildlənmişdir.

Alman milli kitabxanasına baxdıq. Alman dili, ədəbiyyatı və tarixinə, ümumən, Almaniyaya aid dünyanın hansı ölkəsində nə çap olunubsa, hamısı bu kitabxanada vardır. Kitabxana müdirinin kabinetində "Azərnəşr"in buraxdığı "Faust"u gördüm. Kitab bugünkü poçtla gəlmişdi. Söhbət Əhməd Cəmildən düşdü. Professor "Faust"un Azərbaycan dilində nəşr olunmasına çox sevindi. Dedi ki, bu bizim tələbələrimiz üçün yaxşı vəsaitdir.

Böyük alman şairi Götenin ev-muzeyinə getdik. Göte bu evdə doğulmuş, ilk gəncliyini də burada keçirmişdir. Dördmərtəbəli bu binada hər otağın, hər salonun öz mənası və təyinatı vardır. Şairin kabineti çox maraqlıdır. Kabinetdə stol əvəzinə müasir kafedralara bənzəyən uca bir kürsü qoyulmuşdur. Göte "Gənc Verterin iztirabları" romanını ayaq üstündə həmin kürsüdə yazmışdır. Adi bir kürsüdə dünya sənətinin misilsiz əsərlərindən birinin yarandığına inana bilmirsən. Bu kürsü "Verterin iztirabları"nın şahidi olmuş, onun naləsini dinləmişdir. Bu kürsünü Götenin evində deyil, başqa bir evdə görsək, ona məna gözü ilə baxa bilməzdik. Şeylərin dəyəri özlüyündə deyil, mənasındadır. Biz hər şeyi dəyərinə görə yox, mənasına görə qiymətləndirməyi bacarmalıyıq! Yəqin ki, bir tacir, dəyər baxımından bu kürsüyə 5 markadan artıq verməzdi. Lakin sənətkar zəhmətinin qiymətini bilən adam üçün bu masanın qiyməti heç bir qiymət ölçüsünə sığmır. Bu kürsüyə kim ölçü, dəyər, qiymət qoya bilər?

Otaqların hamısı çox zəngin döşənmişdir. Götenin məktəb yazılarından tutmuş böyük əsərlərinin əlyazmalarına qədər hamısı burada qiymətli eksponatlar kimi saxlanılır.

Axşam təyyarəsi ilə Qərbi Berlinə döndük.

18 avqust. Böyük tatar şairi Musa Cəlilin edam yerinə baxdıq. Bura iki böyük otaqdan ibarətdir. Otağın birində gilyotin, ikincisində isə tavandan halqalar açılmışdır. Demək, birincisində adamların başını kəsirlərmiş, ikincisində dar ağacından asırlarmış. Dünyanın hər yerindən gələn səyyahlar faşizmin törətdiyi cinayətlərə baxır, insan əzablarının şahidi olan bu birmərtəbəli bina qarşısında həyəcanla titrəyirdilər.

Qərbi Berlinin mütərəqqi adamları dəfələrlə rəsmi dairələrə müraciət etmiş, Musa Cəlilin adına Berlində bir küçə qoyulmasını xahiş etmişlərsə də, bu, nəticəsiz qalmışdır.

Musa Cəlilin yatdığı Moabit həbsxanasında nə qədər insan arzuları məhv edilmişdir! Lakin burada daş hasarlar içərisinə alınmış arzular hasarlardan çölə çıxmış, nəğməyə dönüb, bütün dünyanı gəzib dolanmışdır. İndi bütün dünya Moabiti tanıyır. Çünki burada vaxtilə böyük arzularla çırpınan böyük bir insanın ürəyi döyünmüşdür. Hitler kimi bir cəlladın arzularını güldürmək üçün salınmış bu həbsxana, Musa Cəlilin adı ilə bütün dünyada şöhrət tapdı. Arzuları daş hasara salmaq olar, lakin onu boğmaq olmaz!

19 avqust. Prussiya dövlət muzeyinə baxırıq. Muzey bir neçə hissədən ibarətdir: 1. Hindistan sənət muzeyi. 2. Qərbi Asiya sənəti muzeyi. 3. İslam sənətləri muzeyi. 4. Etnoqrafik muzey. 5. Amerika qitəsindəki Mayya xalqının mədəniyyət abidələri muzeyi və s.

Eksponatlar saxlanılan salonlarda gün işığı yoxdur. Temperatur bütün salonlarda, bütün vaxtlarda eyni dərəcəni göstərir. İstilik xüsusi cihazlarla tənzim edilir. Eksponatların hər birinin üstünə ayrıca zəif işıq düşür. Hər salonda bir nəfər nəzarətçi var, lazım gəldikdə izahat verir. Muzeyin girəcəyində salonların mərmərdən xəritəsi qoyulmuşdur. Lazım olan şöbənin düyməsini basırsan, xəritədə həmin şöbənin yönünü və təyinatını göstərən işıq yanır. Eksponatların qarşısında tamaşaçı olmadığı zaman o görünmür. Tamaşaçı yaxınlaşarkən avtomatik olaraq

işıq yanır. Tamaşaçı çəkilirkən işıq sönür. Burda da alman qənaətcilliyi və dəqiqliyi özünü göstərir.

Hər salon qədim bir xalqın mədəniyyətini təmsil edir. Sən muzeyə daxil olurkən salonda çox astadan həmin xalqın mahnısı çalınır. Musiqinin təsiri altında eksponatlar daha da canlanır. Sən həmin xalqın məişət mədəniyyətini, ruhunu və mənəviyyatını daha əyani görürsən. Burada xalça qırığından tutmuş, qədim musiqi alətlərinə qədər, ev alətlərindən tutmuş, qədim silahlara qədər hər şey xalqların mədəniyyətini, dünyabaxışını əks etdirir. Eksponatların milyon markalarla qiyməti var. Burada alman alimlərinin, tədqiqatçı və səyyahlarının fədakarlığına heyran olmamaq mümkün deyil. Şübhəsiz, eksponatlar bu muzeyə öz ayaqları ilə gəlib çıxmamış, bunlar səbir və həvəslə, böyük məhəbbət və ehtirasla toplanmışdır.

Mayya xalqının mədəniyyət abidələrinə baxırıq. Bu abidələrin hər biri bu xalqın nə qədər dərin zövqə və mədəniyyətə malik olduğunu göstərir. Məişətdə işlənən alətlərin heç birisi naxışsız, bəzəksiz deyildir. Muzeyin salonunda qoyulmuş qayığın üstündəki naxışlar adamı heyran qoyur. Bu gün amerikalılar tərəfindən qoruqlar içərisində ölümə məhkum edilmiş bir xalqın nə qədər zəngin və şairanə mədəniyyəti varmış!

Amerika qitəsinin ağların istilasına məruz qalmasından əvvəlki zamanlarda yerli əhali olan qızıl dərililər, həm Şimali, həm də Cənubi Amerikada yüksək bir mədəniyyət yaradıblar. Bugünkü Peruda İnk dövləti, Meksikada Astek imperatorluğu, Şimali Amerikada Delaver dövləti yaradılmışdır. Qızıl dərili xalqların yaratdığı yüksək mədəniyyət əsrlərdən bəri alimlərin tədqiqat materialı olmuşdur. Onlar əslən asiyalı olub insanlığın beşiyi sayılan bu qitədən on beş min il əvvəl Berinq körfəzi vasitəsilə Amerikaya keçmişlər.

Amerika qitəsinin X.Kolumb tərəfindən təsadüfi kəşfi, bu xalqlara qorxunc aqibət hazırladı. Amerikaya sonradan gələnlər yerli əhalini sıxışdırmağa, məhv etməyə başladı. Uzun müddət təyyarələrdən bomba atıb bu xalqları tayfa-tayfa, qəbilə-qəbilə məhv etdilər. Qaraca

qəbiləsinin başına elə müsibət açdılar ki, indi onlardan yalnız yeddi yüz nəfər qalmışdır:

"Azadlıq ölkəsi!" Azadlıqmı bu?
Vətəndaş dustaqdır öz vətənində.
Azadlıq, ədalət yerinə Hindu
Alır qucaq-qucaq söz vətənində.
Ədalət naminə zülmün, zillətin
Sazını çaldın.
Gettolar içində sən bir milləti
Qoyun sürüsü tək hasara saldın.
Cəllad, söylə sənin damarlarından
Axan buzlu sumu, yoxsa, qanmıdır?
Quşların nəslini qoruyur insan
Xalqları əritmək insafdanmıdır?

Avqustun 21-də Aras Örənlə bərabər Qərbi Berlindəki türk məhəllələrini gəzirik. Bu məhəllələrdəki dükanların da əksəriyyəti türklərindir. Həmin dükanlarda satılan ərzaq malları da Türkiyədən gətirilmişdir. Balaca türk uşaqları ayaqyalın, başıaçıq küçələrdə oynaşır, maşınlara dayanacaq göstərir. Uşaqlar da bu yolla "pul qazanırlar". Həmin məhəllələrdə söz-söhbət, ancaq türk dilindədir. Evlərin pəncərələrindən də türk mahnıları ucalır. Zeki Mürən uca səslə oxuyurdu:

"Həbsxanalara günəş doğmur!.."

Aras Örənin evinə getdik. Qadını almandır. Plakat rəssamıdır. İki otağı var. Otaqların divarları qadının çəkdiyi rəsm əsərləri ilə bəzənmişdir. Aras Örənin qəlbi yazıb-yaratmaq eşqilə çırpınır. Şeirləri öz vətənində deyil, Qərbi Almaniyada türk və alman dillərində dərc olunur. Aras da başqa türk şairləri kimi "Abstraksionizm" üsulunda yazır. Lakin onun

şeirlərində bir aydınlıq və səmimiyyət var. Mənə evində oxuduğu bir neçə şeirindən birini sizə təqdim etmək istəyirəm:

Biz burada yarıgülər,
Yarıağlar kimiyik.
Biz burada iş başında
Bərəkətli torpaqlar kimiyik.
Bizi əkərlər, becərərlər,
Qanımızı içərlər.
Bizim halımıza dünya gülər.
İşimizin dəyəri,
Dəyərimizlə deyil,
Dəyərsizliyimizlə ölçülər. -

Göründüyü kimi, Arasın şeirlərində burada çalışan bacı və qardaşlarının dərdi dil açıb danışır.

Biz onunla Türkiyənin gələcəyi, bu işdə sənətin vəzifəsi və ümumiyyətlə, şeir, sənət haqqında xeyli söhbət etdik... Aras Örənin bir dostunun arvadı - Şirin Cəngərə Qərbi Berlindəki türk məktəbində dərs deyir. O mənə dedi ki, arzu etsəniz sizi məktəbə apararam. (Orada dərslər avqustun 21-də başlayır). Məktəbə gəldik. Bir neçə alman məktəbinin nəzdində bir-iki türk qrupu açılmışdır. İcazə aldıq. İkinci sinifdə, Şirin xanımın dərsinə qulaq asdıq. Uşaqlar "Dərədəki ördək" mövzusunda imla yazırdılar. Maraqlı burasıdır ki, müəllim "Dərədəki ördək" adlı şeiri əvvəlcə özü, sonra uşaqlar mahnı kimi oxudular. İkinci sinif dərsliyinə baxdım. Kitabda verilən şeirlərin heç biri müasir türk şairlərinin şeirlərinə bənzəmirdi. Hamısı qafiyəli, vəznli və aydın şeirlər idi.

Məktəbdə cavan bir türk müəllimi ilə tanış olduq. Bu müəllim siyasi çıxışlarına görə Türkiyədən qaçmışdır. Dərin mütaliəsi var. Mühakimələri də özünəməxsusdur.

"Mərhaba" restoranına qayıtdıq. Burada birinci gün tanış olduğu-

muz aşıq - Rəhim Saltuk sazını döşünə basıb məlahətli və gur səslə mahnılar oxudu.

22 avqust. Prussiya kralı Fridrixin sarayına getdik. Sarayın həyətində kralın at belində nəhəng heykəli ucalır. Fridrix Almaniya dövlətinin inkişafı üçün böyük işlər görmüşdür. Deyilənə görə, kral tez-tez bazarlara gedər, burada boş-bekar oturan adamlara cəza verdirərmiş. Onun əmrinə görə satıcılar belə müştəri olmayanda boş oturmamalı, qadınlar corab, kişilər səbət, yaxud kəndir hörməlidir. Kral Fridrixin zəmanəsində işsiz əyləşmək, vaxtı hədər keçirmək ən böyük cinayət hesab olunurmuş.

"Volf und Velt" nəşriyyatına getdik. Burada alman şairi Helmut Praislerlə görüşdük. O mənə lirik şeirlər məcmuəsini bağışladı. Həmin kitabdan bir neçə şeirini oxudu. Əhməd bəy tərcümə etdi. Şeirlər çox xoşuma gəldi. Şeirlər olduqca aydın və mənalıdır. Helmutun fikrincə, indi Qərbi Almaniyada şeir kitablarının oxunmamasının əsas səbəbkarı şairlərin özü olmuşdur. Bir vaxt şairlər elə mürəkkəb, qəliz və anlaşılmaz şeirlər yazmışlar ki, camaat bu tapmaca şeirlərdən heç nə başa düşə bilməmiş və ümumiyyətlə, poeziyadan ikrah etmişdir. Helmutun dediyinə görə, axır vaxtlar şairlər tapmaca şeirlərdən uzaqlaşmağa başlamış və bunun nəticəsində şeirə münasibət bir qədər dəyişmişdir. Məsələn, Helmutun son kitabları iki min tirajla bir neçə dəfə dərc olunmuşdur.

Helmut mənim bəzi şeirlərimi dinlədi, ruhən yaxın olduğumuzu hiss etdik. Bir-birimizi tərcümə etmək arzusu ilə ayrıldıq.

23 avqust. Balaca bir gəmi ilə Hafel çayında səyahətə çıxdıq. Hafel Berlinin kənarından axır. O qədər enlidir ki, bəzi yerlərində durğun gölə oxşayır. Gölə bənzər yerlərdə kiçik adalar var. Bu adalar berlinlilərin istirahət yeridir. Bu adalarda çox yaraşıqlı villalar tikilmiş, çadırlar qurulmuşdur. Adalar yamyaşıldır. Evlər ağacların içində itmişdir. Qərbi Berlinin bir hissəsi olan Şpandau şəhərinə yan adıq. Bu şəhər,

əsasən, istirahət şəhəridir. Şəhər başdan-ayağa yaşıllıq və gül-çiçək içərisindədir. Evlər hamısı bir, ya iki mərtəbəlidir. Gəzintidən gözəl bir əhvalla qayıtdıq.

Səfərdən Vətənimə qəribə hisslərlə dönürəm. Gecə saat 11-dir. Berlin-Moskva qatarını gözləyirik. Gəzmək, görmək gözəl şeydir. Lakin Vətən daha gözəldir. Xalqımız çox gözəl deyib:

Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı!

Doğma torpağın həsrəti dünyada bütün hisslərdən qüvvətli və müqəddəsdir.

Qatardayam. On dörd gün ərzində gördüklərim bir-bir yadıma düşür. Alman xalqı işgüzar, dəqiq, əməksevər xalqdır. Lakin onların içində qisas hissi ilə yaşayanlar, ədavət qızışdıranlar, köhnə xətanı yenidən təkrar etmək istəyənlər də var. Dünya mədəniyyətinə və elminə böyük zəkalar bəxş etmiş bu xalq yenə də əminamanlıq və sülhlə böyük möcüzələr yaratmağa qadirdir. Böyük Götenin "Faust" əsərinin adı ilə adlandırılan "Panser faust" qumbarasına Hitler və göbbelslər vaxtilə böyük ümid bəsləyirdilər. Lakin bu qumbara onların ümidini doğrulda bilmədi. Dünyada heç bir qumbara, raket və bomba haqsız işə yol açа bilməmişdir və bilməyəcək də!

Qatar Berlindən uzaqlaşdıqca Böyük Vətən müharibəsi illərindən bəhs edən "416" adlı poemadan bir parça yadıma düşdü:

Almaniya,
İtirilmiş şöhrətinə,
qüdrətinə,
Yas tutma, gəl,
Tarixindən götürdüyün
Böyük ibrət dərslərini
unutma, gəl.

Yox, sən yenə silahlanır,
*Keçmişinə can atırsan,**
Təzə növlü - "Panser faust"
yaradırsan.
Panserlərlə bir kəndi də
İşğal edə bilməmisən.
"Faust"unla fəth etmisən
Dünyanı sən.
Almaniya, Almaniya,
Qüdrətlisən, qüvvətlisən

Sən sözünlə,
Sən nəğmənlə,
hikmətinlə...
Çox kiçiksən, çox acizsən
Silahınla,
nifrətinlə!..
Almaniya, Almaniya!
Sən özünü yaxşı tanı.
Sən nəğmənlə, sən sözünlə
"İşğal elə" bu dünyanı.

1973.

"Sənətkar və zaman", Bakı, 1976.

*Adenauerin iş başında olduğu vaxta işarədir.





FÜZULİNİ ZİYARƏT EDƏRKƏN

İstər yazılı, istərsə də şifahi ədəbiyyatımızda Bəsrə və Bağdad şəhərlərinin adlarına tez-tez rast gəlirik. Nizami və Xaqanidən başlamış Vaqif və Vidadiyə qədər bir çox şairlərimizin əsərlərində Bağdad həyatı, Bağdadın gözəl təbii mənzərələri, Dəclə - Fərət çayları haqqında gözəl əfsanələr və maraqlı əhvalatlar oxumuşuq. Nəhayət, dünyanın ən böyük qəlb şairlərindən Məhəmməd Füzulinin Bağdadda yaşadığı və Bağdadda yazıb yaratdığı da bizə məlumdur. Hələ uşaq ikən eşitdiyimiz "Min bir gecə" nağılları da Bağdaddan, bu əfsanələr şəhərinin füsunkar gözəlliklərindən danışır.

Bütün bu eşitdiyim nağıllarda və oxuduğum şeirlərdə mən həmişə Bağdadı nəzərimdə əfsanəvi bir şəhər kimi canlandırar və bu şəhəri görmək həvəsi ilə yaşardım.

1959-cu ilin dekabr ayında şair Rəsul Rza, Qasım Qasımzadə, akademik Əbdülkərim Əlizadə, professor Firudin Hüseynov, ümumiyyətlə, səkkiz yoldaşla bərabər İraqa getmək mənə nəsib oldu. Dekabr ayının 15-də səhər saat 10-da "TU-104" təyyarəsilə Moskvadan uçduq. Saat 1-də Albaniya Respublikasının paytaxtı Tiranaya, 5-də isə Misirin paytaxtı, ehramlar şəhəri Qahirəyə çatdıq. Moskvada 15-18 dərəcə şaxtadan çıxıb 6-7 saatdan sonra 20-25 dərəcə istiyə düşdük. Paltoları çıxartmalı olduq. Adicə kostyumda gəzirdik. Qahirədə bir gecə "Kontinental" mehmanxanasında qaldıq. Səhəri Qahirəni gəzdik. Qahirə

çox boyük şəhərdir. Burada diqqəti cəlb edən mühüm cəhət binaların bir-birinə bənzəməyən memarlıq üslubudur. Dekabrın 16-da səhər saat 11-də Livanın mərkəzi Beyruta uçduq. Beyrutda bir saat dincəldikdən sonra yolumuza davam etdik. Həmin gün saat 5-də sülh şəhəri adlanan Bağdada çatdıq. Bağdadda bizi çox böyük səmimiyyətlə qarşıladılar. Düşdüyümüz mehmanxana məşhur xəlifə Harun əl-Rəşidin adını daşıyan küçədə yerləşirdi. Küçəyə çıxdığımız zaman ərəblər "Sovyet", "Sovyet", deyə bizi alqışlayırdılar.

Məlum olduğu kimi, Bağdad zəngin tarixə malik olan çox qədim bir şəhərdir. Xüsusən Xilafət dövründə Bağdad bütün müsəlman aləminin dini mərkəzi olmuşdur. Burada binalar əsasən Şərq üslübunda tikilmiş, Şərq ornamentləri ilə bəzənmişdir. Şəhəri uca qülləli minarələr, firuzəyi günbəzlər bəzəyir. Ümumən, İraqda tarixi abidələr, itib-batmış qədim şəhərlərin qalıqları, qədim qalalar, bürclər və qəsrlər, müxtəlif simvollar ifadə edən qədim heykəllər istənilən qədərdir. Bunlardan bir neçəsi haqqında müxtəsər də olsa danışaq. Dualar qələsi, 1221-ci ildə xəlifə Ən-Nasir tərəfindən yenidən bərpa edilmişdir. 1180-ci ildə tikilmiş Qəsr Abbasi muzeyi də səyyahların diqqətini cəlb edir. Bu tarixi abidə daş şəbəkələrdən hörülmüşdür. Bir neçə qapısı fil sümüyündən və gümüşdən qayrılmışdır. Bu qəsrdə maraqlı cəhətlərdən biri də budur ki, otaqlarından birinin divarında 8 misradan ibarət azərbaycanca bir şeir yazılmışdır. şeirin bütün misraları oxunmur. Oxuna bilən misralar belədir:

Bu yadigaridən qərəzim bir nişanədir,
Bir məhliqadən olmadı xali zamanə də.
Əskik deyil çirağı, əcəb asitanədir.
...Fərhadın etdiyi buna nisbət zəbanədir.
Hadi, cahanda qeyri tamam bir bəhanədir.

Bağdadın qərb hissəsində eramızdan əvvəl 815-ci ildə tikilmiş Şaiq Məruf əl-Kahin məqbərəsinə də baxdıq. Eramızın 1215-ci ilində həmin məqbərənin yanında bir məscid də tikilmişdir.

Xəlifə Harun əlRəşidin arvadı məşhur Zübeydə xatun məqbərəsi, "Böyük xəlifələr" məscidi, eramızdan əvvəl 1358-ci ildə əsası qoyulmuş Xan Məryan qəsri gözəl memarlıq əsərləridir.

Dekabrın 17-də biz pedaqoji kollecə getdik. Bu kollec orta məktəb müəllimi hazırlayır. Bizi məktəbin müdiri qarşıladı. O, kollec haqqında məlumat verdi. Kollecin texniki və humanitar elmlər üzrə 9 fakültəsi vardır. Burada 2 minə yaxın tələbə oxuyur. Bizi maraqlandıran cəhətlərdən biri də bu oldu ki, kollecdə türkman adı ilə tanınan 61 nəfər türkman tələbə oxuyur. Yeri gəlmişkən, bunu da demək lazımdır ki, İraqın Kərkük, Ərbil və Mosul şəhərlərində yarım milyondan artıq azərbaycanlı yaşayır. Bunların dili, demək olar ki, bizim dilimizdir, hətta ifadə tərzləri belə bizim ifadə tərzlərimizə çox yaxındır. Biz buradakı azərbaycanlı tələbələrdən kimya və riyaziyyat fakültəsində oxuyan Haşım, İbrahim, Hicran, Səmayə, Əməl, Vahab, Kamal, Xalid, Məhəmməd Səid və başqaları ilə tanış olduq. Bir xeyli söhbət etdik. Biz həmin tələbələrə və kollecin kitabxanasına Füzulinin divanını və "Leyli və Məcnun" əsərini hədiyyə verdik. Onlar da bizə döş nişanları bağışladılar. Tələbələr bizi tələbə təşkilatının düzəltdiyi çay məclisinə dəvət etdilər. Burada kollecin müdiri və tələbələr çıxış edib Sovet-İraq dostluğu haqqında ürək sözlərini söylədilər.

Məlum olduğu kimi, İraqın çox zəngin bir tarixi vardır. Hələ eramızdan çox-çox əvvəl burada Babilistan dövləti olmuş, indi də qədim Babil dövlətinin xərabələri qorunub saxlanmaqdadır. Biz dekabrın 18-də Bağdadın 100 kilometrliyində yerləşən qədim Babil şəhərinin xərabələrinə getdik. Qədim şəhərin gözəlliyini indi də mühafizə edib saxlayan uçuq qəsrlər və enli küçələr, binaların divarlarına həkk edilmiş müxtəlif heyvan şəkilləri bizi valeh etdi. Hazırkı İraq hökumətinin xüsusi tapşırığı ilə bu şəhər yenidən bərpa edilir.

Dekabrın 19-da azərbaycanlılar yaşayan Kərkük şəhərinə getdik. Şəhərin əhalisi bizi yenicə açılmış qızılgüllərlə qarşıladı. Burada Məhəmməd Xurşid və Həsən Əfəndi adlı ədəbiyyat müəllimləri ilə tanış olduq. Bu müəllimlər bizə yerli folklorşünaslardan olan Ata Tərzibaşinin topladığı Kərkük bayatılarını hədiyyə verdilər. Yeri gəlmişkən, demək

lazımdır ki, kərküklülər bayatıya “hoyrat” deyirlər. Bu hayatılar öz incəliyi və gözəlliyi ilə bizi heyran etdi. Həmin bayatıların bir qismi bizim xalq ədəbiyyatımızda da vardır. Budur, o bayatılardan bir neçəsi:

Necə gözlər,
Necə qaş, necə gözlər.
Bir göz ki, kirpik çala,
Yar yolun necə gözlər?

Məndə var
Sən qəssəb ol, mən davar.
Sinəm əttar dükanı,
Hər nə desən məndə var.

Apardı boyat məni,
Bir zülfi səyyad məni.
Aparırsan sən apar,
Aparmasın yad məni.

Axşam arada qaldı,
Xəncər yarada qaldı.
Mənim vəfasız yarım,
Bilməm, harada qaldı.

Zaman qalır,
Ah qalır, aman qalır.
Yıxılır uca dağlar,
Tozu bir zaman qalır.

Gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olar
Sənə qurban gündə mən.

Daldasına,
Dal bitir daldasına.
Namərd aslan olarsa,
Sığınma daldasına.

Oxu yana,
Yayınmaz oxu yana.
Yap sinəmə ox atdı,
Qorxuram oxu yana.

Bu könül titrədən bayatılar bizə istər-istəməz, Füzuli şeirindəki incəliyi və dərin mənanı xatırladır. Demək, bizim böyük Füzulimiz bu gözəl və incə bayatıların zəminində yetişmişdir. Bunu da demək lazımdır ki, Azərbaycanda "Bayat" kəndləri olduğu kimi, burada da bir neçə "Bayat" adlı kənd vardır. Burada Füzuliyə dədə Füzuli deyirlər. Bizə elə gəlir ki, bu "dədə" sözü "Dədə Qorqudda" işlənən müqəddəslik mənasındadır. Kərküklülər hörmət etdikləri adamları "dədə" deyə çağırırlar. Hazırda Kərkükdə yaşayan yerli bir şairin adı Hicri Dədədir. Bütün bu məsələlər böyük tədqiqata ehtiyacı olan ciddi, elmi məsələlərdir.

Biz bir gecə Kərkükdə qalıb səhəri İraqın böyük neft şəhəri olan Mosula getdik. Mosulda da çox böyük abidələr saxlanmaqdadır. Burada Molsul milli muzeyinə və Assuriyə şahlığının paytaxtı olan Ninəva xərabələrinə, V əsrdə tikilmiş Ninəva şahlığı qəsrinə və Nəbi Yunis məscidinə getdik. Ninəva şəhərinin divarlarına çox qəribə heykəllər həkk edilmişdir. "Poeziya ilahəsi"nin heykəli daha maraqlıdır.

Bütün bu abidələr dövlət tərəfindən qorunur və yenidən bərpa olunur.

Dekabrın 23-də səhər böyük Füzulinin qəbrini ziyarət məqsədilə Kərbəlaya gəldik. Kərbəlanın ətrafı xurma, portağal və naringi ağacları ilə əhatə olunmuşdur. Portağallar ağaclardan qızıl çıraqlar kimi sallanır. Hər tərəf yamyaşıldır. Burada nəqliyyat vasitəsi, əsasən, faytonlardır. Biz Füzulinin qəbri üstündə şəkillər çəkdirdik.

Füzulinin qəbri Kərbəlada ən məşhur məscidlərdən birinin qarşı

tərəfində boyu təxminən 2 metr yarım olan bir daş günbəzin içərisindədir. Günbəz Şərq üslubunda tikilmiş, daşları Şərq ornamentləri əsasında yonulmuşdur. Qarşı tərəfdən açıq olan günbəzin sağ və sol tərəfindən çölə kiçik pəncərələr açılır.

Kərbəlada islamiyyətin ilk illərində tikilmiş bir neçə məscidə baxdıq.

Dekabrın 24-də Sasanilər sülaləsinin mərkəzi şəhəri olan Mədainə gəldik. Burada bizə VII əsrdə tikilmiş Ənuşirəvan Kəsra sarayının xərabələrini göstərdilər. Biz burada böyük şairimiz Xaqaninin "Mədain xərabələri" poemasını xatırladıq. Xaqani də bura gəlmiş, Sasanilərin mərkəzi olan qədim Mədain şəhərinin XII əsrdəki vəziyyətini qələmə almışdır. Şair dağılmış sarayın dili ilə deyir:

Bir ədl sərayikən zülm ilə xərab oldu,
Zalimlər olan qəsrə, gör, neynəyəcək dövran.
Sarsıtdı kim əflakə qalxan belə eyvanı,
Göylərdəki qüvvətmi etdi, ya fələk viran?
Sordum hara getmişlər indi o böyük şahlar?
Bir hamilədir torpaq, çox udmuş o şah, xaqan.

Bu qəsr hazırda bərpa olunur. Qəsrin hər bir divarının qalınlığı 4 metr, baş salonun uzunluğu 50, tağın hündürlüyü 75, eni 30 metrdir.

Ayın 26-da Bəsrədə olduq. Xurma fabrikinə getdik. Bəsrədə Sovet-İraq dostluğu cəmiyyəti bizi ziyafətə dəvət etdi. Burada cəmiyyətin sədri Ərəb və Sovet xalqlarının dostluğu şərəfinə nitq söylədi. Rəsul Rza sədrin nitqinə cavab verdi.


Bağdadda olduğumuz müddətdə İraq neft mədənlərində və xəstəxanalarda işləyən sovet mütəxxəsisləri ilə görüşdük. 18 nəfərdən ibarət olan azərbaycanlı neftçilər 150 nəfər işgilis mütəxəssisini əvəz edir. Azərbaycanlı mütəxəssislər onlarca ərəb gəncinə neftçıxarma işini öyrədir.

Dekabrın 30-da Vətənə qayıtmaq üçün Qahirəyə gəldik. Qahirədə 4 gün qaldıq. Bu müddətdə biz ehramlara baxdıq.

Doğrusu, bizim İraq torpağına etdiyimiz bir neçə günlük səfərdən alınan xatirələr ömür dəftərimə çox möhkəm həkk olunmuşdur. İndiyədək İraqın adı çəkilərkən Füzulini andığım kimi, bundan sonra da Füzulinin adını çəkilərkən gözəl İraq torpağı, onun mehriban, qonaqpərəst, yaradıcı xalqı xəyalımda canlanacaqdır. Mənim İraq torpağından gətirdiyim ən böyük töhfə budur.

1960.
"Sadəlikdə böyüklük", Bakı, 1978.





AXTARAN TAPAR

Ankara şəhəri bələdiyyə idarəsinin sədri Vidat bəy Dalokay 1976-cı ildə Bakıda olmuş, ölkəmizdən çox böyük təəssüratla qayıtmışdı. Bir müddət sonra o, öz növbəsində, Bakı Sovetinin sədrini Türkiyəyə dəvət etdi. Bu dəvətlə əlaqədar Bakı Şəhər Sovetinin sədri Aydın Məmmədov, BK katibi Elmira Qafarova və mən iyul ayının 15-də Ankaraya yola düşdük. Şəhərin təyyarə meydanında bizi ölkəmizin Türkiyədəki səfiri başda olmaqla, səfirliyin işçiləri, şəhər bələdiyyə idarəsinin sədri V.Dalokay başda olmaqla, bələdiyyənin əməkdaşları və yerli qəzetlərin müxbirləri qarşıladılar.

İndi türklərin yaşadığı Anadolu yarımadası çox qədim və zəngin tarixə malikdir. Bu torpaq türklərdən başqa hett, Şumer, yunan, Roma, Bizans və b. xalqların tarixi izlərinin canlı xəritəsidir. Buna görə də bu ölkədə iki tarixi bir-birinə qarışdırmaq olmaz. 1) Məmləkətin tarixi. 2) Türk xalqının tarixi.

Bu mənada gəzdiyimiz Ankara, İzmir, Efes və İstanbul şəhərlərində bu iki tarixin eyni qayğı ilə qorunub saxlanması gözəl haldır. Xalqların tarixindən bildiyimiz kimi, dinlər və təriqətlər, çox hallarda tarixi gerçəklikləri ört-basdır etmiş, həqiqəti gizlətməyə çalışmışdır. Yaxşı haldır ki, İslam dininə mənsub olan türklər özlərindən əvvəl və sonra bu torpaqda yaşamış xalqların, o cümlədən xristian dininə mənsub olan bizansların, romalıların, yunanların mədəniyyət abidələrini, kilsələri və erada yaranan sənət örnəklərini, eradan əvvəlki şəhərlərin

qalıqlarını qoruyub saxlamaqdadırlar. Bu cəhətdən İzmir şəhərinin 110 kilometrliyində olan qədim Efes şəhərinin xarabalıqlarının üzə çıxarılıb qorunması alqışlanmalıdır. Efes şəhərinin yaxıqlığında Səlcuq deyilən balaca qəsəbədə yerləşən muzey nadir tapıntıları ilə dünyanın ən zəngin muzeylərindən sayılır. Muzeyin əməkdaşı Duyğu xanımın izahatından məlum oldu ki, muzey qədim Efesin tapıntılarını mühafizə edir. Burada dəmir, tunc və mərmər heykəllər yunan mədəniyyətinin və sənətinin nadir örnəkləridir. Qədim Efes şəhərinin emblemi - çalışqanlıq, zəhmətsevərlik rəmzi kimi, arı olduğundan zəhmət ilahəsinin heykəli başdan-başa arı pətəkləri ilə süslənmişdir. Muzeydəki ən maraqlı eksponatlardan biri də yunan filosofu Sokratın başının təsviridir. Mozaikadan düzəldilmiş bu təsvirin üstündə yunanca "SOKRAT" yazılmışdır. Bu eksponatlar, əsasən, eramızın II əsrinə aiddir.

Rəvayətə görə, xristianlığı yaymaq istərkən Məryəm ananı izləyirlər. O, Efesdə uca bir dağın zirvəsinə sığınır, ömrünün son illərini orada yaşayır. Hazırda həmin dağda xristianlar monastır tikmiş, Məryəm ananın xatirəsini əbədiləşdirmək üçün onun sığındığı dağı müqəddəs məbəd elan etmişlər.

Efes şəhərinin özünə gəlincə, bu bir möcüzədir. Bu şəhər eradan əvvəl II əsrdə tikilmiş, Ellin mədəniyyətinin ən gözəl nümunəsidir. Şəhər bir-birilə əlaqəsi olan 3 böyük küçədən ibarətdir. Küçələrin üçü də enli və qalın mərmər daşlarla örtülmüşdür. Daşların altından gedən kanalizasiyanı və saxsı su borularını təmir etmək işini asanlaşdırmaqdan ötrü müəyyən məsafələrdə daşları qaldırmaq üçün əl yerləri qoyulmuşdur. Baş küçənin sağ tərəfindən inzibati binalar - bələdiyyə idarəsi, 4500 adam tutan iclas salonu, şəhərin aşağı hissəsində isə 24000 adamlıq teatr yerləşir *(açıq havada)*. Bu qədim şəhərdə ən maraqlı bina uca mərmər sütunları, əzəmətli anfası ilə gözü oxşayan nəhəng kitabxana binasıdır.

Türklərin Anadoluya son gəlişindən sonrakı dövrlərin mədəniyyətini - yəni xalis türk mədəniyyətini əks etdirən muzeylər də dünyanın ən zəngin muzeyləri ilə yarışa bilər. Bu cəhətdən "Anadolu mədəniyyətləri muzeyi" diqqətəlayiqdir. Bu muzeydə həm yunan, həm də türk mədəniyyətinin örnəkləri saxlanır.

“Topqapı” sarayında qədim çini qablar sərgisi həm qədimliyi, həm də bu qədimliyə baxmayaraq, rəngini və gözəlliyini saxlaması baxımından dünyada ən zəngin sərgidir. XIII-XIV əsr Çin və yapon ustalarının yaratdığı mavi servislər, elə bil, bu gün dükandan alınmışdır.

Dünyanın ən böyük almaz daşlarından biri *(8 qram ağırlığında, 86 karat)* bu saraydadır. Almaz qaşlı qızıl şamdanlar, sultanların üstü brilyantlı qızıl taxtları, büllur çilçıraqlar, sultan arvadlarının qızıl suyuna çəkilmiş çarpayıları sarayın qiymətli eksponatlarındandır.

Sultan Səlim xəlifəni məğlub edəndən sonra Məhəmməd peyğəmbərin əlbəsə sandığını, ox və yayını, qılıncını, həzrət Əlinin, Osmanın, Ömərin, və Əbu-bəkrin qılıncını, həzrət Osmanın öldürüldüyü zaman oxuduğu dəri quranı qənimət olaraq İstanbula gətirmiş, bu müqəddəs əşyalar “Topqapı” sarayında xüsusi otaqda saxlanılır. Mütaliəni sevən Sultan Mehmet Fateh sarayda zəngin bir kitabxana yaratmışdır.

Saraydakı maraqlı eksponatlar içərisində müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə buraxılan saat və silah kolleksiyaları da çox maraqlıdır.

Sultan Məcidin 1839-1853-cü illərdə Avropa üslubunda tikdirdiyi Dolmabağça sarayının özü bir muzeydir. Bu sarayın quruluşunda simmetriya əsas götürülmüşdür. Sarayın içindəki pilləkənlərdən tutmuş, otaqların və salonların düzülüşünə qədər, salonlardakı qızıl şamdanlardan tutmuş, güldanlara qədər hamısında simmetriya gözlənilmişdir. Saray 2 bölümdən, 26 salondan və 360 otaqdan ibarətdir. Birinci bölüm rəsmi, inzibati dairə, ikinci bölüm isə xüsusi dairədir. Sarayın zinət şeylərinə 14 ton yarım qızıl işlənmişdir. Sultan Məcid incə zövqlü bir adammış. O, Avropadan rəssamlar dəvət etmiş, saray üçün rəsmlər çəkdirmişdir. Böyük rus rəssamı Ayvazovski uzun illər bu sarayda yaşamış, sultanın tapşırığı ilə gözəl şəkillər çəkmişdir. Ayvazovskinin bir çox şəkillərinin orijinalı indi də bu saraydadır. Sultan Məcid özü də rəssam olmuşdur. Onun çəkdiyi şəkillər içərisində zülmət fonunda ağ at folklordan gəlmə arzu-murad mənasını daşıyır.

Sultanın bu sarayda verdiyi fərmanlar, hökmlər unudulmuş, ondan bir at şəkli qalmışdır. Görünür, insan ürəyindən xəbərsiz verilən soyuq

fərmanların ömrü ürəyin odu ilə yaranan bir atın ömründən az olurmuş!.. Vaxtilə bu sarayda yaşayan rəssamlar sultanın qarşısında baş əyər, onları dolandırdığına görə özlərini sultana borclu sayardılar, indi isə sultan xatırlandığına görə rəssamlara borcludur. Şah, sənətkarlar kölgəsində, xatirələrdə şahlıq edir.

Atatürk ömrünün son illərini bu sarayda yaşamışdır. Öldüyü anda saat dayandırılmışdır: 1938 il, 10 qasim, saat 95 dəqiqə.

Muzeylərdə və saraylarda gördüyümüz bütün bu zənginliklər - qızıl işləmələr, almaz daş-qaşlar - Türkiyənin keçmişinə aiddir. Bəs bu gün? Vaxtilə Osmanlı imperiyası yaratmış, Avropaya meydan oxumuş bu ölkə indi nə vəziyyətdədir? Oxucunun bu haqlı sualına "Günaydın" qəzetinin 21 iyun, 1977-ci il nömrəsində çəkilmiş bir karikatura ilə cavab verməк istəyirəm. Karikaturada bir vəzifə kreslosu çəkilmiş, ölkənin 2 ən böyük partiyasının liderləri hərəsi kreslonun bir qoltuğundan yapışmış, vəzifəni biri digərinə güzəşt eləmək istəmir. Liderlərin biri o birisinə deyir: "Bu, mənim haqqımdır, burax", o birisi də, öz növbəsində: "Xeyr, bu, mənim haqqımdır, sən burax" deyə o birisinin üstünə qışqırır. Kənarda dayanmış türk fəhləsi də onların üstünə qışqırıb deyir: "Haydı, artıq bu vəzifə davasını buraxın, mənim dərdimə bir çarə tapın". Şəklin altından bu sözlər yazılmışdır: "Sual - Liderlərimizin dərdini anladıq, bəs vətəndaşın dərdi nədir? Cavab: - Nə olacaq, partiyalarımız o qədər vəzifə davasına girişdilər ki, axırda bütün işlərimiz alt-üst oldu".

Bütün bunların da nəticəsində işsizlik bu ölkənin sifətinə, xüsusiyyətinə çevrilmişdir. Bir milyondan artıq türk fəhləsinin xarici ölkələrdə çalışması, işçi qüvvəsinin bir parça çörək üçün ölkədən didərgin düşməsi barədə kim düşünməlidir? Baş nazirlik vəzifəsini hər kəs öz qanuni haqqı hesab edir. Bəs, əməkçinin qanuni haqqı nədir? Onu kim düşünəcək və nə zaman düşünəcək?

1972-ci ildə Federativ Almaniyada olduğum zaman bir parça çörək üçün Vətənindən didərgin düşüb bu ölkədə çalışan türk fəhlələrinin acınacaqlı həyatını müşahidə etdim. O zaman Qərbi Berlində yazdığım "Çörək - səadət" şeirində bu məsələyə toxunmuşdum:

Anadolu kəndlisi gəzdi bütün ölkəni
Xeyir axtardı,
Gördü,
Qismətinə şər düşüb
Vətənin övladları özgə qapılarında
Necə dərbədər düşüb.
...Qürbətdə əllərinə
Əgər çörək gəldisə,
Səadəti gəlmədi.
Anadolu kəndlisi bircə şeyi bilmədi
Hər xalqın,
hər millətin
Vətənindən uzaqda tapılan "səadətin"
Adı səadət olur,
Özü fəlakət olur.

Gəlirlə-çıxarın uyğunsuzluğu nəticəsində ölkədə tez-tez tətillər baş verir. Fəhlələr aylıqlarının artırılması uğrunda mübarizə aparırlar. Bu məsələ ilə əlaqədar bizə çox maraqlı və lətifəvarı bir əhvalat nəql elədilər. Ölkənin böyük şəhərlərindən birində süpürgəçilər tətil elan edir. Şəhərin meri süpürgəçilərin tələblərini bilmək üçün onların yanına gəlir. Görür ki, şəhərin bütün süpürgəçiləri küçədəcə əyləşib nərd oynayırlar. Mer oynamaqda olan tətil başçısına zarafatla belə bir təklif edir.

- Gəl, sənlə nərd oynayaq. Əgər mən udsam, tətili dayandırın. Sən udsan, uşaqlarının hərəsinə bir cüt ayaqqabı alaram.

Tətil başçısı razılaşır, oyun başlanır. Birdən mer başçıdan xəbər alır:

- Neçə uşağın var?

- Doqquz!

Bunu eşidən mer nərdi qapayıb deyir:

- Mənim doqquz cüt ayaqqabı almağa imkanım yoxdur. Tətilini davam elətdir.

Türk ziyalılarının da vəziyyəti təxminən eyni haldadır. Ankara, İzmir və İstanbul şəhərlərində görüşdüyüm yazıçılar, jurnalistlər

ölkənin indiki vəziyyətilə barışmır və bu vəziyyətdən xilas olmaq üçün yollar düşünürlər. Biz, Türkiyədə seçkilərin, partiyalar arasındakı mübarizələrin ən qızğın dövrünə təsadüf etmişdik. Ölkədə adi restoran xidmətçisindən tutmuş, ziyalıya, fəhlədən tutmuş, kəndliyə qədər bütün xalq seçkinin nəticəsini izləyir və yeni seçiləcək hökumət başçısından dərdlərinə əlac gözləyir. Ölkədə xalq siyasi hadisələrdən kənarda deyil, dünyanın irili-xırdalı bütün hadisələrinin içində qaynayıb-qarışır, hamının qulağı səsdə, gözləri qəzetlərdədir. Hamı vəziyyətdən xilas yolu arayır. Laqeydlik, etinasızlıq onlardan uzaqdır.

Azərbaycandan nümayəndələr gəldiyini qəzetlərdən bilən adamlar bizimlə məmnuniyyətlə görüşmək, ölkəmiz haqqında düzgün məlumat bilmək istəyirdilər. İstanbulda "Qapalı carçı" deyilən məşhur bazarda Azərbaycandan gəldiyimizi bilincə bizi sorğu-suala tutur, hər şeyi təfsilatı ilə bilməyincə əl çəkmirdilər. Bu cəhətdən Ankaranın kənarında, təpələrin üstündə salınmış "gecəqondular"da camaatla görüşümüz çox maraqlı oldu.

"Gecəqondu" nədir?

Evsiz-eşiksiz fəhlələrin İstanbulun və Ankaranın kənarında hökumətdən icazəsiz özləri üçün tikdikləri evlərə "gecə qondular" deyilir. Əlbəttə, bu evlərdə adi kommunal şərait olmur. Bu evlər o qədər çoxdur ki, hökumət onlara toxuna bilmir. Əvvəllər hökumət bir neçə dəfə qaydasız və nizamsız tikilən bu evləri polisin köməyi ilə uçurtmaq istəmiş, bu təşəbbüs xalqın polislə üzləşməsi ilə nəticələndiyindən bu işdən vaz keçmişlər. Buna görə də son zamanlarda Ankara bələdiyyəsi həmin evlərin ətrafında asfalt yollar salmağa, elektrik xətləri, kanalizasiya çəkməyə məcbur olmuşdur. Ankaraya gəlişimizin ertəsi günü şəhər bələdiyyə idarəsinin sədri V.Dalokay bizi "gecə qondular" məhəlləsinə apardı. İstirahət günü olduğundan məhəllənin camaatı evlərində idi. Onlar bizi gül-çiçəklə, səmimi alqışlarla qarşılayıb, öz əlləri ilə tikdikləri iclas salonuna apardılar. Toplanışı Vidat bəy açdı, bizi fəhlələrə təqdim etdi. Fəhlələr ölkəmiz haqqında bizə suallar verdilər. Aydın Məmmədov suallara yığcam və dəlilli-sübutlu cavablar verdi. Suallardan bizə məlum oldu ki, uzun illər aparılan təbliğat nəticəsində bu adamların bizim ölkə haqqındakı təsəvvürləri tamamilə yanlışdır. Adi bir misal

çəkmək istəyirəm:

Azərbaycan Respublikasının başqa bir ölkəyə göndərdiyi nümayəndə heyətinin tərkibində adi bir şairin də iştirak etməsi nəinki yuxarı dairələrdə, hətta aşağı dairələrdə də təəccüb doğururdu. Buna görə də İzmir şəhərinin bələdiyyə idarəsinin sədri Ehsan Alyanaq mənim həqiqətən şair olduğuma şübhə ilə yanaşdı və kabinetində məndən xahiş etdi ki, öz şeirlərimdən misallar deyim. Mən, əvvəlcə, türk şairlərindən bir neçə şeir dedim, sonra öz şeirlərimdən bir neçəsini oxudum. Şübhə yeri qalmasın deyə elə bu il Ankarada türk dilində çap olunan kitabımı ona göstərdim.

Yeri gəlmişkən, onu da deyim ki, bu ölkənin yuxarı dairələrində ədəbiyyata, sənətə, xüsusilə şeirə, onun yaradıcılarına münasibət çox soyuqdur. Burada ədəbiyyat və sənət bizdə olduğu kimi dövlət işi hesab olunmur. Onlarda ədəbiyyat və sənət xalqdan, dövlətdən ayrı, özbaşına axınla gedir. Bunun nəticəsidir ki, Türkiyədə sənətlə xalq arasında böyük uçurum vardır. Burada xalq şeiri başa düşə bilmədiyi kimi, şeir də çox hallarda xalqın duyğu və düşüncələrindən kənarda qalır.

"Gecəqondular"da mən əli qabarlı savadsız fəhlələrə şeir oxuduğum zaman onlar yer-yerdən qışqırırdılar:

- Bu şeirləri anladıq. Lakin bizim şairlər tapmaca yazır. Biz onları başa düşə bilmirik.

Mən deyəndə ki, bizim ölkədə şairlər tez-tez kəndlərə gedir, xalqın qarşısında çıxışlar edir, yeni yazdıqları şeirləri onlara oxuyur, xalq bizi alqışlarla, gül-çiçəklə qarşılayır, fəhlələrdən biri çox haqlı olaraq dedi:

- Biz anlamadığımızın nəyini alqışlayaq?

Həqiqətən də, müasir türk şeiri, əsasən, tapmaca şeiridir. Bu şeirin xalqla heç bir əlaqəsi yoxdur.

Mən, ümumiyyətlə, türk ədəbiyyatı ilə az-çox tanışam. Türk xalqının Ə.Hamid, T.Fikrət, M.Akif, O.Seyfi, F.Nafiz, Y.Kamal kimi qüdrətli şairləri, həmişə vətən və xalq duyğuları ilə yaşamış, əsərlərində xalqın istək və arzularını əks etdirmişlər.

Ölürsəm, görmədən millətdə ümmid etdiyim feyzi,
Yazılsın səngi - qəbrimdə Vətən mehzun, mən mehzun!

- deyən Namiq Kamal öz zəmanəsində xalqı üçün gözəl günlər arzusu ilə çırpınırdı.

Yaxud Y.Kamal:

Ölmək deyildir ömrümüzçün ən fecih işi,
Müşgül budur ki, ölmədən əvvəl ölür kişi.

- beyti ilə həyatın mənasını ölməzdən əvvəl ölməməkdə - yəni xalq işi uğrunda mübarizədə görürdü. Yaxud Mehmet Akifin məşhur "Çanakqala şehidinə" adlı şeirində Vətən torpağının azadlığı yolunda canını qurban vermiş əsgərin haqq işini:

Senə dar gəlməyəcək məqbəri kimlər qazsın?
"Köməlim, gəl, səni tarixə" - desəm, sıqmazsın.

- deyə tərənnüm etməsi nə qədər ictimai və nə qədər şairanədir. Vətən uğrunda ölən əsgər o qədər böyükdür, əməli o qədər şanlıdır ki, onu tarixə dəfn etsək, ora da sığa bilməz!..

Türk şeirinin xalq həyatı və xalq mənəviyyatı ilə birgə nəfəs alan bu ictimailik ənənəsi bu gün öz yerini dumanlı kədər və qəm motivlərinə, anlaşılmaz simvollara vermişdir.

Yeri gəlmişkən, onu da deyim ki, bu cəhətdən müasir türk nəsri və dramaturgiyası çox irəlidir. Müasir türk nəsrinin və dramaturgiyasının Ə.Nesin, O.Akbal, Kamal Tahir, O.Xəncərlioğlu, Yaşar Kamal, M.Səpətçi oğlu, Behcət Naçatigil, S.Çokum, K.Bayram, S.Qüdrət Aksal, Nazim Qurşunlu kimi qüdrətli nümayəndələri vardır.

Oktay Akbal 1967-ci ildə ölkəmizdə olmuş və bu münasibətlə "Orta Asiyadan Baltik sahilinədək" adlı maraqlı bir kitab yazmışdır. Yeri gəlmişkən, O.Akbalın "Yaşasın ədəbiyyat" kitabından bir misal çəkmək istəyirəm. Həmin kitabda "Nobel mükafatı" adlı bir məqalədə ABŞ-ın keçmiş xarici işlər naziri Kissincerin Nobel adına sülh mükafatı almasından bəhs olunur. O.Akbal yazır: "Vyetnamı qana bulamış bir dövlətin xarici işlər naziri necə olur ki, sülh mükafatı alır?"

Gözəl və məntiqi sualdır. Nəsri bu yolla gedən bir xalqın şeirindən

də biz eyni aydınlığı və eyni kəsəri gözləməkdə haqlıyıq. Lakin...

Görkəmli türk nasiri Əziz Nesinin dediyi kimi: "Bizdə şeir dediyin şey çox qarmaqarışıqdır. Ondan baş açmaq çətindir. Yeni şeirlər tapmaca kimi olduğundan onu nə yazan başa düşür, nə də oxuyan".

Yazıçı tamamilə haqlıdır. Yəqin ki, bu şeirlərin müəllifləri özləri də nə dediklərini başa düşmür.

Mübaliğəsiz demək olar ki, müasir türk şeirinin doxsan faizi başdan-ayağa tapmacadır. Elə buna görədir ki, qırx milyondan artıq xalq üçün buraxılan şeir kitablarının tirajı 1000-2000 nüsxədən artıq olmur.

Türkiyədə görüşdüyümüz yazıçılar və jurnalistlərlə bu barədə mübahisə etdik. Lakin, nədənsə, onlar sənətdə aydınlıqla barışmaq istəmir. Xüsusilə şeir üçün dumanlılığı, qeyri-müəyyənliyi və çoxmənalılığı *(bəlkə də, mənasızlığı)* vacib sayırlar. Onların fikrincə, müasir modern şeir elə olmalıdır ki, onu hər oxucu istədiyi mənaya yoza bilsin. Maraqlı burasıdır ki, mütərəqqi yazıçıların da bir qismi bu fikri müdafiə edir. Bu fikirdə olan qabaqcıl yazıçılardan Oktay Akballa bu məsələ barəsində ikinci dəfə ciddi mübahisəmiz oldu. O.Akballa ilk dəfə mən 1968-ci ildə Daşkənddə keçirilən Asiya-Afrika yazıçılarının konqresində tanış olmuşdum. O zaman o, həmən konqresə şair Rifət Yılqazla gəlmişdi. Biz Azərbaycan yazıçıları - M.İbrahimov, M.Dilbazi, B.Azəroğlu ilə birlikdə onlarla görüşüb müasir ədəbiyyat problemləri barədə xeyli söhbət etmişdik. "Orta Asiyadan Baltik sahilinədək" adlı böyük həcmli məqaləsində O.Akbal Daşkənddəki mübahisələrimiz barədə yazmış və ələlxüsus mənim "Şeir, sənət anlaşıqlı olmalı, ənənəvi şeir formalarında da əsrin fikirlərini demək mümkündür" fikrimə qarşı çıxmışdır. O yazır: "Vahabzadə şeirdə ənənəvi formalardan ayrılmağı sevmir. ...Yeni mənalar köhnə formalarda verilə bilməz deyincə "verilər, biz veririk" deyir. Əcəba necə verirlər? Türk şeirində modern axımların, dumanlı bir ədəbiyyatın, kökdən qaçışın təhlükəli olduğunu söyləyir" *("Xirosimalar olmasın", İstanbul, 1976, s. 85).*

O.Akballa Daşkənddə başlanan mübahisəmiz İstanbulda da davam etdi. Mən ona belə bir sual verdim:

- Biz kim üçün, nə üçün yazırıq?

Cavab aydındır: - Xalq üçün!

Bir halda ki, xalq üçün yaradırıq, bəs onda fikrimizi, demək istədiyimiz mətləbi qəsdən dolaşdırıb oxucunu çıxılmaz vəziyyətdə qoymaq nə üçündür?

Bakıya qayıdandan sonra Oktay Akbalın İstanbulda mənə bağışladığı "Yaşasın ədəbiyyat" adlı kitabını oxudum. Bu kitabda "Ey kəsik baş" adlı bir məqalə var. Həmin məqalədə müəllif Salah Birsel adlı müasir bir türk şairinin "Quzunamə" şeirini professor Mehmet Kaplanın düzgün təhlil edə bilmədiyindən danışır. Şeir belədir:

Telefonlar çalacaq,
Sokak (küçə) başlarında ölümə qoşud.
Bu bir sevincin durdurulmasıdır
Az, biz az və qaranlıqda...

Mehmet Kaplan bu yazını belə yozmuşdur: "Küçədə bir anarxist görünmüşdür, arxasında Amerika dayanmış polisə bunu xəbər vermişlər, o, anarxisti naqanla öldürmüş, öldürülən adam, əslində, anarxist deyil, məsum bir quzu imiş..."

Oktay Akbal, Kaplanın bu yozdurması ilə razılaşmayaraq yazır:

"Anarxist bu şeirin harasındadır, Amerika harda, polis harda, bütün bunlar harda? Başqa birisi çıxar, bu, eşq üzündən işlənmiş bir cinayəti anladır desə, necə olar? Buna bənzər başqa yozumlar da ola bilər. Bu qəzet xəbəri deyil ki, birmənalı olsun. "Məna şairin qarnındadır" - deyən professor Kaplan girmiş şairin qarnının içinə". ("Yaşasın ədəbiyyat", İstanbul, 1977 s. 48).

Oktay Akbal düz deyir, şairdən misal gətirdiyimiz parçada nə anarxist var, nə polis. Bəs, şeiri təhlil edən professor bunları haradan çıxarmışdır? Ançaq burada yazıq professorun nə günahı? Şairlər demək istədikləri fikrin mənasını qarınlarında gizlədirkən professor o mənanı şairin qarnından necə çıxara bilər? Mətləbi qarnında gizlədən şairi günahlandırmaq əvəzinə, O.Akbalın bu mənasız tapmacanı açmağa çalışan alimi günahlandırması təəccüb doğurur...

"Yaşasın ədəbiyyat" kitabında gedən başqa bir məqaləsində ("Şeirdən, şairdən") Oktay Akbal, Salah Birseli "Aydınlıqdan, açıqlıq-

dan, yalınlıqdan uzaq bir sənətçi" adlandırır və bu cəhəti onun üçün keyfiyyət sayır.

Mən sənət üçün aydınlığın, açıqlığın nöqsan sayıldığını birinci dəfə eşidirəm. Aydınlıq və sadəlik başqa şeydir, bəsitlik başqa şey. Əgər Akbal şair üçün bəsitliyi qüsur tutursa, burada haqlıdır. Lakin aydınlıq və açıqlıq şair üçün nöqsan deyil, məziyyət sayılmalıdır. Bu cəhət bütün xalqların klassik ədəbiyyatında üstünlük sayılır. Türklərin ən ustad şairləri - Ə.Hamid, T.Fikrət, M.Akif, N.Kamal və Orxan Şaiq Gökyay, B.Çağlar, C.S.Tarançı kimi müasir şairlər də bu yolla getmiş, sözlərini açıq-aydın deyib xalqı öz arxalarınca apara bilmişlər.

Sənətdə dumanlılıq və aydınlığa hücum müasir professional türk musiqisində və rəssamlığında da hakimdir.

Bunun səbəbi nədir?

Əlbəttə, bu cəhət insanları fikir dolaşıqlığına salan, fikri azdıran, xalqa doğru sözü demək istəməyən, realizmdən qaçan, həqiqəti pərdələyən Avropa, Amerika burjua sənətinin xüsusiyyətidir.

Türk sənətçilərinin bir çoxu novatorluq pərdəsi altında Avropanın çoxdan köhnəlmiş sənət yolunu tutur, babalarının yolu ilə getməyi təqlid, avropanın dekadent sənət yolu ilə getməyi isə yenilik sayırlar. Hər kəsin gözəlliyi onun özlüyündə olduğu kimi, hər ölkənin, hər xalqın gözəlliyi də onun öz sifətində, öz xüsusiyyətində, bir sözlə, onun özlüyündədir.

Bu mənada sənətdə və ədəbiyyatda təqlid sənət əsərlərini kökdən ayırır, simasızlaşdırır, dadını-duzunu qaçırır, standartlaşdırır.

Böyük C.Cabbarlının bir sözünü xatırlamaq istəyirəm: o, Cavidin "İblis"i ilə, Üzeyir bəyin "Arşın mal alan"ını müqayisə edir, milliliyinə və koloritinə görə ikinciyə üstünlük verir. Əlavə edir ki, "Arşın mal alan" dünyanın hansı ölkəsində oynansa, hamı deyər, bax, bu bəylər Azərbaycan bəyləridir, bu xala da Azərbaycan xalasıdır. Bədii əsərin xəlqiliyi, koloriti onun canıdır, nəfəsidir, ürəyidir. Bunlardan məhrum olan, hansı bir xalqınsa ədəbiyyatını təqliddən doğan əsərlərdən torpaq ətri, xalq nəfəsi gələ bilməz. Belə əsərlər sxemdən başqa bir şey deyil.

Təqlid türklərin düşüncə tərzinə və məişətinə də keçmişdir. Koka-koladan tutmuş, viskiyə qədər, insanı düşkünlüyə aparan seks

musiqisindən tutmuş, gecə klublarına qədər hamısı təqliddir, yamsılamadır.

Gecə klublarındakı eybəcərlik, açıq-saçıqlıq və mən deyərdim ki, ədəbsizlik insanda yalnız ikrah hissi oyadır. Gecə saat birdən sonra ölkənin böyük şəhərlərində ikinci həyat başlanır. Yarıqaranlıq salonda əyləşmiş kişilər çərəz yeyə-yeyə, raki içə-içə seks musiqisi altında səhnədə striptiz oynayan lüt qıza baxır, bədənini nümayiş etdirib özünə müştəri axtaran bu bədbəxt insanın bədən gözəlliyindən guya "həzz" alırlar. Türkiyənin qabaqcıl yazıçısı Əziz Nesin "Dəlilər qaçdı" adlı hekayəsində bu məsələni ciddi satira atəşinə tutaraq yazır:

"Dəlilərdən biri bir gecə klubuna getdi. Klubda bir artist qadın musiqi ilə tans edərək soyunurdu. Dəli tamaşaçılara:

- Nə seyr edirsiniz? - deyə sordu.

- Çılpaq qadın vücudunu.

- Buraya bunun üçünmü gəldiniz?

- Bəli.

- Nə qədər verdiniz?

Kimi əlli, kimi yüz, kimi də beş yüz lirə vermişdi.

- Bu qədər pulu bu qadını çılpaq görmək üçünmü verdiniz?

- Bəli.

- Bu qadının vücudunda başqa qadınlarda olmayan bir şeymi var?

- Xeyr.

- Bəs tutduğunuz bu iş ayıb deyil?

Tamaşaçılardan ən ağıllısı, ən biliklisi məruzəyə başladı:

- Aman, əfəndim, niyə ayıb olsun? Biz o qadına pis niyyətlə baxmırıq ki... Çılpaq vücud insana estetik həyəcan verir, bədii zövq verir.

Dəli:

- Anlayıram, - dedi, - haqlısınız. Mən yanılmışam. Madam ki, çılpaq qadın vücudu bədii zövq verir, estetik həyəcan verir, eylə isə hamınızın arvadları, qızları qoyun gəlsinlər, musiqi ilə oynaya-oynaya soyunsunlar, həyəcanınızı artırsınlar".

Çox gözəl kinayədir.

İzmirdən Ankaraya uçuruq. Stüardessa "kəmərlərinizi bağlayın" deyə sərnişinləri xəbərdar edir. Qəribədir, təyyarə uçmağa hazırlaşarkən

bu ifadəni hər ölkənin stüardessası öz dilində deyir. Ölkələr, xalqlar, dillər, ictimai baxışlar nə qədər müxtəlif olsa da, ölkələri, xalqları və taleləri birləşdirən, bir-birinə yaxınlaşdıran cəhətlər də var. Sürətlə uçan təyyarələr əsrimizin nailiyyətlərindəndir. Təyyarədə uçan hər kəs milliyyətindən, dilindən və baxışlarından asılı olmayaraq, çox zaman eyni həyəcanı keçirir, eyni hissləri yaşayır. Biz xarici məmləkətin üstündən uçuruq. Lakin stüardessanın "kəmərlərinizi bağlayın" xəbərdarlığı hansı dildə deyilirsə deyilsin, bütün sərnişinlərə eyni dərəcədə aydındır.

İstanbul, həqiqətən, dünyanın ən gözəl şəhərlərindən biri sayılır. 4 milyondan artıq əhalisi olan bu şəhərin ucu-bucağı bilinmir. Yeddi təpənin üstündə yerləşən İstanbul iki hissədən ibarətdir: 1) Üsküdar-Asiya, 2) Bəyotlu-Avropa. Şəhərin Asiya hissəsi ilə Avropa hissəsini bir kilometr yarım uzunluğunda salınmış nəhəng asma körpü birləşdirir. Körpünün üstü ilə müxtəlif markalı maşın seli daim axır. Türkiyə turist ölkəsi olduğundan və körpüdən keçən maşınlar gömrük haqqı verdiyindən körpüyə çəkilən xərc bir neçə ayda ödənmişdir. Bosfor boğazının hər iki tayında tikilmiş yaraşıqlı binaların və xüsusən minarələrin əksi suda nağılvarı bir gözəllik yaradır.

İstanbulun ətrafında salınmış Belqrad parkı şəhərin ən gəzməli yerlərindəndir. Sultan Murad Belqrad səfərindən qələbə ilə qayıdandan sonra bu təpədə həmin parkı saldırmışdır. Park, bir növ, qoruqdur. Burada dünyanın ən nadir ağacları, çiçəkləri quşları (tovuz quşu, qırqovul, kəklik, hind toyuğu), vəhşi heyvanlar (çöl donuzu, ceyran, cüyür) saxlanır, parkın içində qaynama sulardan süni göllər, şəlalələr yaradılmışdır.

Bura istirahət günləri istanbulluların gəzinti yeridir.

Böyük türk şairi Tofiq Fikrətin yaşadığı ev "Aşiyan" adlanır. İstanbula gəlib onun evini ziyarət etməməyi özümə günah sayardım. Çünki bu şair zəmanəsinin ən böyük, ən mütərəqqi şairlərindən biri olmuşdur. O, türk xalqını istibdada, zülmə qarşı qaldıran, şeirlərində beynəlmiləlçilik təbliğ edən bir şairdir. Bizim Sabir, M.Hadi kimi şairlərimiz bir çox əsərlərində onu yad etmiş, onun sətirlərindən epiqraflar gətirmişlər. T.Fikrətin "Yüksəlməli" şeirinə cavab olaraq M.Hadi:

Yüksəlməli! Fəqət nə ilə, ey böyük ədib?
Ey bağını xəzan görərək, susmuş əndəlib!

- deyə o zaman bütün Şərq xalqlarının dözülməz halına için-için ağlamışdır. T.Fikrət həmişə istibdaddan azad yeni və müstəqil Türkiyə xəyalı ilə yaşamış, onun uğrunda çarpışmışdır.

"Aşiyan" İstanbulun kənarında, boğazın sağ sahilində uca bir təpədə, mənzərəli bir güşədə yerləşir. Şairin evi indi muzeydir. Bu muzeydə şairin şəkilləri, öz əli ilə çəkdiyi rəsmlər, əlyazmaları, məktubları, geyim şeyləri saxlanılır. Muzeyin eksponatları, əlbəttə, Fikrət kimi bir şairə layiq deyil. Türklərin dillərinin saflaşması naminə "inqilab" eləmək təşəbbüslərinin nəticəsində bu gün Fikrət də başqa klassiklər kimi az anlaşılır, az oxunur. Bu ölkədə, ümumən, klassiklərə olan biganəlik, soyuqluq təəssüf ki, Fikrətə də aiddir. Əlbəttə, İstanbulda bu böyük inqilabçı şairin heykəlini görmək istərdik.

Şairin məzarı muzeyin həyətində uca bir ağacın altındadır. Fikrət ölərkən burada dəfn olunmamışdır. Fikrət sənətinin pərəstişkarları ev muzeyi yaradılandan sonra məzarı bura köçürmüşlər.

Qəbir daşına T.Fikrətin beş sətirdən ibarət bir qitəsi yazılmışdır:

Sükuti-xab əzəli ehtiyaci-faniyyət,
Bu ehtiyaci-fənanın şu daş nişanəsidir.
Nuviştə cəbheyi-hüznündə bir hüvəl baqa,
Şu sərvlər mütəhaşi birər tələqabla
Oxur keçənlərə aid mənaqibi-ibrət.

Olduğumuz üç şəhərin bələdiyyə idarəsinin sədrləri şərəfimizə verdikləri rəsmi ziyafətlərdə şəhərlərimiz arasındakı qardaşlıqdan və gələcəkdə bu əlaqələrin genişlənməsindən, təcrübə mübadiləsindən danışırdılar. Məsələn, İstanbul bələdiyyəsinin gələcəkdə İstanbulda metro tikmək fikrində olduğu və bu işdə Bakının təcrübəsindən istifadə edə biləcəklərindən söz saldılar. Ankara bələdiyyəsinin sədri Vidad bəy Dalokayın ziyafətdəki bir çıxışını heç vaxt unutmayacağam. O dedi: "Təbiət bizi - iki ölkəni qonşu yaratmışdır. Biz öz ölkələrimizi

çiçəkləndirmək üçün bir-birimizə arxa və kömək olmalıyıq. Bu, hər iki ölkənin xeyrinədir. Bizim bundan başqa yolumuz yoxdur. Ona görə ki, dənizimiz bir, dağlarımız bir, torpağımız da bir-birinə söykənir. Bizdən axan çay sizdə bitir, sizdən əsən külək bizdə dayanır. Dağlarımız bir-birinə arxa olduğu kimi, biz də bir-birimizə arxa olmalıyıq".

Türkiyənin əsas əhalisi, zəhmətkeş xalq da bu fikirdədir.

İzmir bələdiyyəsinin sədri Ehsan bəy Alyanağın bağda - açıq havada verdiyi ziyafətdə məndən xahiş etdilər ki, bir şeir oxuyum. Mən "Təklik" şeirimi oxuyub V.Dalokaya isnad edərək əlavə etdim ki, "Tək əldən səs çıxmaz, qonşular həmişə bir-birinə arxa olmalıdırlar". Elə bu zaman əlində kitab tutan bir cavan özünü məclisin ortasına atıb:

- Mən də şeir oxumaq istəyirəm, - deyə bərkdən qışqırdı.

Ehsan bəyin işarəsi ilə polis dərhal onu məclisdən uzaqlaşdırdı. Bir qədərdən sonra polis əlində bir kitab Ehsan bəyə yaxınlaşdı. Bu, N.Xəzrinin Türkiyədə çap olunmuş kitabı idi. Cavan bu kitabdan şeir oxumaq istəyirmiş. Heç demə, Azərbaycandan gəlmiş qonaqlara bu bağda ziyafət verildiyini bilən camaat uzaqdan bizi seyr edirmiş. Bu bizə, bizim ölkəmizə və ədəbiyyatımıza türk xalqının böyük sevgisinin bir təzahürü idi. Yeri gəlmişkən, onu da deyim ki, son dörd-beş ildə Əhməd bəy Kabaklının redaktorluğu ilə İstanbulda nəşr olunan "Türk ədəbiyyatı" məcmuəsi Azərbaycan ədəbiyyatına sıx-sıx yer verir. Bu məcmuədə S.Vurğunun, S.Rüstəmin, M.Dilbazinin, H.Hüseynzadənin, N.Xəzrinin və mənim bir sıra şeir və məqalələrimiz dərc olunmuşdur. Bu münasibətlə jurnalın redaktoruna və əməkdaşlarına qələm yoldaşlarım və öz adımdan təşəkkürümüzü bildirirəm.

Türk xalqının öz böyük rəhbəri Atatürkə olan sonsuz sevgiləri bizi sevindirdi. Gəlişimizin ertəsi günü Atatürk məqbərəsinə əklil qoymağa getdik. Türk memarları tərəfindən tikilmiş bu böyük məqbərənin hər addımı - məqbərəyə gedən geniş mərmər yoldan tutmuş, kənarlarındakı şir heykəllərinə qədər, geniş meydançada ağlayan üç kişi, üç qadın heykəlindən tutmuş, fəxri qarovulda dayanmış əsgərlərə qədər hər şey türk xalqının öz atasına olan dərin və sonsuz sevgisini əks etdirir. Məqbərənin arxasında iki qəbir də var. Bunlardan biri Mustafa Kamalın silahdaşı İsmət İnönünün, digəri isə 1960-cı il çevrilişinin təşkilatçısı

general Gürselin qəbridir. Demək, Atatürk məqbərəsi get-gedə Türkiyə dövlət xadimlərinin panteonuna çevrilir.

Vaxtilə Türkiyədə səfir olmuş Əbilova, Atatürk öz avtoqrafı ilə şəklini bağışlamışdır. Biz məqbərənin nəzdində düzəldilmiş Atatürk muzeyinə həmin şəklin foto surətini bağışladıq. Bu, muzey işçilərinin çox xoşuna gəldi. Atatürkün öz şəxsi ev şeylərindən – geyim-keçimi, yazı ləvazimatı, silahları, xarici ölkələrin başçıları ilə çəkdirdiyi şəkillər və ona göndərilən hədiyyələrdən təşkil olunmuş muzey çox zəngindir.

Ankarının gənclik parkında verilən konsertdə xalqın bizə olan böyük rəğbətini daha yaxşı hiss etdik. İki min nəfər tutan yay konsert salonu ağzına qədər dolu idi. Biz salona daxil olanda türk xalqının sevimli müğənnisi Qaraböcək oxuyurdu. O, gəlişimizi görən kimi bizi tamaşaçılara təqdim etdi. Bu, gurultulu alqışlara səbəb oldu, yerlərdən "Eşq olsun!" "Azərbaycana salam!" sədaları ucaldı.

Onu da deyim ki, türklərin konsert salonları, bir növ, restoranı xatırladır. Salonda stollar, ətrafında da üç-dörd stul qoyulmuş, hər ailə bir stolu tutur, çərəz yeyə-yeyə, meyvə suyu, yaxud da spirtli içki içə-içə konsertə qulaq asırlar.

Müğənni səhnədən salona doğru uzanan ensiz kürsüyolla salonun axırına qədər gəlir, mahnının nəqəratını tamaşaçılara oxutdurur. Beləliklə, konsert, bir növ, xora çevrilir. Tamaşaçılar mahnının ritminə uyğun əl çalır, müğənni ilə bərabər oxuyur, həyəcanlanırlar.

Gözəl və gur səslə oxuyan Qaraböçək mahnının içində, elə bil, əriyir, bütün qəlbi və varlığı ilə özünü mahnıya təslim edir:

Mənim taleyim çox acı,
Dərdli-dərdli çal, kamançı.

Yaxud:

Söylə, söylə, fani dünya,
Qəm yükümüsən?

Sonra teatr aktyoru Əli Poyroz çıxış edir. O, milli səlamət partiya-

sının lideri Nəcməddin Ərbakanı təqlid edir. Onun səsini, yerişini və hərəkətlərini yamsılayır. Tamaşaçılar qəhqəhə çəkib gülürlər. Əlbəttə, Ərbakanı tanımadığımıza görə bu yamsılama bizim üçün maraqsız olur. Aktyor Ədalət partiyasının lideri ilə xalq cümhuriyyət partiyasının lideri arasında gedən çəkişmələri lağa qoyur. Xalq partiyalar arasında gedən bu mübarizələrdən kənarda olmadığı və bunu saatbasaat izlədiyinə görə aktyorun hər sözü tamaşaçıların ürəyindən xəbər verir, qəşş edib gülürlər.

Həqiqətdə də, siyasi çarpışmalar içərisində türk xalqı haqq yolunu axtarır, biz onun öz doğru, düzgün yolunu tapacağına əminik. Ona görə ki, o yatmır, o axtarır. Axtarışın həmişə insanı həqiqətə gətirib çıxaracağına şəkk etmək həqiqətə, ədalətə şəkk etmək deməkdir. Biz bu yolda istedadlı və hünərvər, qabil və zəhmətkeş türk xalqına uğurlar diləyirik.

1978
"Sadəlikdə bütövlük", Bakı 1978





ŞEKSPİRİN VƏTƏNİNDƏ

... Şotlandiyanın Mothorvel şəhərciyində Azərbaycan artistləri konsert verir. Salon ağzına qədər adamla doludur. Sevimli müğənnimiz Rəşid Behbudov səhnədə "Azərbaycan" mahnısını oxuyur. O, hər zənguləsində dağlarımızdan süzülən bulaqların, bağlarımızda cəh-cəh vuran quşların nəğməsini bu qürbət diyarda səsləndirir, gözlərimizin önündə canlandırır:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!

"Azərbaycan" kəlməsi salonu titrədir. Qürbətdə Vətənin adı necə əzəmətlə səslənər, Vətən oğullarının qəlbini necə iftixar hissi ilə döyündürərmiş! 1978-ci il, oktyabrın 21-də bu hissi bütün dərinliyi ilə yaşadım. Biz bir dəstə elm və mədəniyyət xadimi Şotlandiya və İngiltərədə Azərbaycan mədəniyyəti günləri keçirirdik.

Qoca Britaniya! Nyuton, Faradey, Darvin, Harvey, Maksvell, Ceyms Uaytt, Rezerford kimi böyük alim və ixtiraçıların Şekspir, Bay-

ron, C.Svift, Kiplinq, Dikkens, B.Şou, V.Skott, Tekkerey, Stivenson kimi nəhəng yazıçıların vətəni! Bu qədim ölkəni biz yuxarıda adlarını çəkdiyimiz o böyük şəxsiyyətlərin adları, xeyirxah əməlləri ilə və bir də əsrlərlə başqa ölkələr üzərindəki hökmranlığı ilə tanımış, birincilərə görə bu ölkəyə minnətdar olmuşuq, ikinciyə görə isə ikrah hissi duymuşuq. Vaxtilə dünyanın ən qatı imperialist ölkəsi olan İngiltərə əsrlərlə Hindistan, Misir, Yeni Zelandiya, Cənubi Afrika, Kanada, Kipr, İraq kimi ölkələri soyub-talamış, başqa xalqların qanı bahasına öz məmləkətini çiçəkləndirmişdir.

Böyük Britaniyanın Qlazqo, Edinburq, Mançestr, Nottinhem, Oksford, London şəhərlərində və bir neçə kəndində, qəsəbəsində olduq. Gəzdiyimiz bütün şəhərlər və qəsəbələr səliqəli və abaddır. Bütün bu səliqə-sahman və abadlıq bir tərəfdən ingilis xalqının mədəniyyətinə dəlalət edirsə, ikinci tərəfdən ingilis imperializminin qəsbkarlıq siyasətinin nəticəsidir. İstər qədim, istərsə də müasir binaların əksəriyyəti nəhəng və əzəmətlidir. Mərmər sütunlar, geniş dəhlizlər, xalçalı salonlar, nəhəng çilçıraqlar, arxasında şəhərin gerbi vurulan dəbdəbəli kreslolar bu ölkənin keçmiş imperialist qürurundan, hakimlik iddiasından xəbər verir. Biz bu əzəmətin və qürurun arxasında məzlum xalqların tapdanmış hüququnu, bədbəxt millətlərin göz yaşlarını görür, indi tarixə keçmiş ahını, harayını eşidirdik. Bu yerdə vaxtilə Londonda lordlar məclisindəki ziyafətdə iştirak edən S.Vurğunun:

Mərmər döşəmələr üstə xalılar -
Bəzisi Hinddəndir, bəzisi Çindən.

Yaxud:

Xörəklər müxtəlif, xörəklər rəngrəng,
Zəncinin, həbəşin qanıdır onlar -

misraları yada düşür.

Tauerdə (London) "Afrika ulduzu" adlanan 530 karatlıq dünyanın

ən böyük brilyantı, kralların daş-qaşlı tacları saxlanan möcüzəli kral sarayı Böyük Britaniyanın əsrlər boyu apardığı talançılıq siyasətinin aynasıdır.

İkinci cahan müharibəsindən sonra, demək olar ki, İngiltərənin bütün müstəmləkələri əlindən çıxdı. Britaniya adalarından Çinə qədər uzanan əl kəsildi. İndi İrlandiya və Şotlandiya da İngiltərədən ayrılmaq, müstəqil dövlət olmaq eşqi ilə çarpışır. İndi tarixin təkəri müstəmləkəçilərin əksinə, xırda xalqların xeyrinə fırlanır.

Şotlandiyanın 77 min kvadratkilometr sahəsi, 5 milyon əhalisi var. Vaxtilə onların öz dilləri olmuş, sonra ingilis dilinin təsiri ilə əriyib yox olmuşdur. Lakin dağ kəndlərinin əhalisi öz ləhcə və folklorunu indi də qoruyub saxlamaqdadır. Bu işdə şotlandlar həm də xalq əfsanələri və nəğmələri ruhunda əsərlər yaratmış böyük milli şairləri Robert Börnsə (nədənsə, bizim mətbuatda Börns əvəzinə Berns yazılır) minnətdardır. İndi Börnsin şeirlərini əzbər deyən, onun arzu və xəyalları ilə yaşayan hər bir şotland bu şeirin qanadları üstündə öz əslinə, öz kökünə qayıdır. Şotlandlar tarixi keçmişləri ilə daha çox öyünür, ingilislərə qarşı mübarizə aparan milli qəhrəmanlarına və istiqlaliyyət naminə yazıb-yaradan böyük sənətkarlarına şəhər və kəndlərində heykəllər ucaltmaqla təskinlik tapır.

Qlazqodan Edinburqa getdiyimiz zaman yolda Aberfold, Kalandor, Dunn, Sterlinq və s. kənd və qəsəbələrdən keçdikcə milli-azadlıq uğrunda mübarizə aparan U.Uelles (XIII əsr); Robert Bryus (XIV əsr) və stüartlar sülaləsi üçün qoyulan heykəllərə və abidələrə rast gəldik. Şotlandlar ingilislərə qarşı mübarizə bayrağı qaldıran milli qəhrəmanlarını çox sevir, onların barəsində ağızdolusu danışırlar.

Era şəhərciyi... Börnsin doğulduğu ikiotaqlı kiçik ev. Otaqların hər birində çox balaca bir pəncərə (eni 40 sm, uzunu 60 sm.). Bələdçinin izahından belə məlum oldu ki, o zaman pəncərələrin həcminə görə vergi alınırmış. Pəncərə nə qədər böyük olarsa, vergi o qədər çox qoyulur, - deyə şairin atası hər otağa bir, həm də çox kiçik pəncərə qoydurmuşdur.

Ev-muzeyində Ə.Kürçaylı Börnsdən elədiyi bir tərcüməni oxudu.

O, oxuduqca ürəyimdən qəribə duyğular ötürdü: yəqin ki, bu evin divarları mənim ana dilimi birinci dəfə eşidirdi. Kürçaylının oxuduğu bu şeiri Börns yazarkən xəyalına gələ bilərdimi ki, 250 il sonra onun sözləri başqa dildə bu mənzilə yenidən dönəcəkdir!..

Olduğumuz şəhərlərin bələdiyyə idarəsinin rəisləri bizim nümayəndə heyətini qəbul edirdi. Qəbullar xüsusi qəbul otaqlarında, yüz illərdən bəri davam edən mərasimlərə əsasən keçirilirdi. Mer, yanında qadını, hər ikisinin boynundan şəhərin brilyant qaşlı emblemi asılı vəziyyətdə nümayəndə heyətini qarşılayır və rəsmi tanışlıq nitqi söyləyir. Bu nitqdə mer şəhərin tarixi haqqında qısaca məlumat verir və gerbin mənasını izah edir. Bizim nümayəndə heyətinin başçısı Ənvər Cəbrayılov heyətin üzvlərini merə təqdim edir və gəlişimizin məqsədini deyirdi. Bu 40-45 dəqiqəlik qəbullarda bizə əsas bir məsələ aydın oldu: İngiltərənin və Şotlandiyanın istər rəsmi və istərsə qeyri-rəsmi dairələri bizim ölkəyə, onun adamlarına, xüsusilə elm və mədəniyyət xadimlərinin yaradıcılığına dərin maraq göstərirlər.

Əlbəttə, merlər qəbuldan əvvəl bizim respublikamız barədə kiçik kitabçalar oxuyur, tariximiz, bu günümüz haqqında ötəri məlumata malik olurlar. Məsələn, Edinburq şəhərinin meri Azərbaycan dilinin türk sistemli dillər qrupuna aid olduğunu dedi. Lakin biz onların mədəniyyət, tarix və ədəbiyyatı barədə ətraflı danışdığımız zaman onlar etiraf edirdilər ki, siz bizi, bizdən yaxşı tanıyırsınız.

Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru, professor A.Aslanov Şekspirin, Bayronun, V.Skottun, B.Şounun, Börnsin əsərlərinin Azərbaycan dilinə tərcüməsindən danışıb özünü, Ə.Kürçaylını və məni həmin şair və yazıçıların tərcüməçisi kimi təqdim etdiyi zaman mer gülümsünüb etiraf etdi ki, indi bizdə bədii kitab çox az oxunur.

Qəbullardan sonra, bir qayda olaraq, merin köməkçiləri bizi bələdiyyənin iclas salonları ilə tanış edirdi. Bu salonlarda nəzərə çarpan ilk cəhət oradakı qayda, nizam və bu qayda - nizamın gətirdiyi ciddilik və əzəmətdir. Dairəvi salonun baş tərəfində sədrin əzəmətli kreslosu, sağ və sol tərəflərində isə müavinlərinin kürsüsü... Sədr kreslosunun

söykənəcəyinə şəhərin gerbi həkk olunmuşdur. Salondakı kürsülər üç bölümə ayrılmışdır. Sağ bölümdə mühafizəkarlar, sol bölümdə leyboristlər partiyasının üzvləri, orta bölümdə başqa kiçik partiyalara mənsub olanlar, salonun eyvanında isə qonaqlar əyləşir. Bu, həm üzvlərdə, həm də qonaqlarda məsuliyyət hissi oyadır, onları ciddiliyə çağırır.

Muzeylərdə, universitetlərdə, kitabxanalarda işçilər öz qədim formalarını geyinir və bu formalar onlara vəzifə başında olduqlarını xatırladır.

Kraliça II Yelizavetanın qəsri Londanda böyük bir bağın

içində yerləşir. Hər gün saat 11.30-la 12 arasında Kraliçanın şəxsi mühafizə dəstəsinin dəyişilməsi mərasimi keçirilir. Bu mərasim zamanı camaat sarayın qarşısına toplaşır, köhnə ənənəvi hərbi forma geyinmiş iki dəstə əsgər at belində mahnı oxuya-oxuya mühafizəni bir-birindən təhvil alır. Bu qədim ənənə bu gün də olduğu kimi davam etdirilir.

Bütün bunlarla əlaqədar demək lazımdır ki, şotlandlar və ingilislər çox qədim adətlərinə - geyimlərindən tutmuş vərdişlərinə, mərasimlərinə qədər hər şeyi qoruyub saxlayırlar. Bir sözlə, onlar üçün dədə-babadan qalma nə varsa müqəddəsdir. Bununla belə, bu mühafizəkarlıq onların bir xalq kimi inkişafına əngəl törətməmiş, zamanın tələblərinə daxilən uyğunlaşa bilmiş, müasir bir millət olaraq yetişmişlər. Onlar modernizmi zahirən deyil, daxilən qəbul edirlər. Məsələn, Londonda və Mançestrdə, az da olsa, uca binalar, göydələnlər var. Lakin onlar bu cür binaları qəbul etmək istəmir. Bələdiyyələr belə binalardan qəti surətdə imtina edir, torpağa yaxın, qarşısı gül-çiçəkli birmərtəbəli kiçik binalara daha çox həvəs göstərirlər.

Bəs vaxtilə köhnə üslubda tikilmiş monumental binalar nə olsun? Çox qəribədir ki, zahirən həmin binaların üslubunu saxlayır, içində bərpa işləri aparır, binanı modernləşdirirlər.

Mothorvel şəhərciyindəki konsertə qayıdıram. Bizim artistlər birbirinin ardınca çıxış edir, gurultulu alqışlarla qarşılanırdılar. Nəzakət Məmmədovanın və Habil Əliyevin çıxışı mənim üçün çox maraqlı idi. Bilmək istəyirdim ki, dünyanın inkişaf etmiş mədəni xalqlarından biri

olan ingilislər bizim folklor musiqimizi necə qarşılayacaqlar?

Habilin "Segah"ı salonu titrətdi. Bizim Şərq ruhumuzdan göyərən, mənəvi dünyamızı ifadə edən bu musiqi, əlbəttə, başqa xalqa bizim qədər çata bilməz. Lakin xalqlar həmişə bir-birini yaxşı başa düşür. Xalqları bir-birindən ayıran, onları bir-birinə düşmən edən həmişə hakim təbəqələrin acgözlük, tamahkarlıq siyasəti olmuşdur. Həqiqi və humanist sənət heç bir diplomatiya tanımır. Əsl sənət hər yerdə sənətdir!

Bütün xalqların folklorunda nə isə bir-birinə oxşar cəhətlər olur. Çünki xalqlar hamısı eyni kökdən, eyni anadan, yəni torpaqdan boy atır, sonra bu kökdən budaqlar ayrılır. Dünya musiqi tarixində nə qədər qollar, yollar, cərəyanlar olmuşdur. Əlbəttə, sənətdə yerində saymamaq üçün axtarışlar lazımdır. Lakin... bu axtarışların bir qismi musiqini həyatdan, torpaqdan, təbiətdən ayırdı, onu melodiyadan məhrum etdi, qarışıq səslər yığımına çevirdi. Getdikcə dünya musiqisində bir melodiya aclığı hiss olunurdu... Deyəsən, yenidən melodiyaya qayıtma - torpağa, kökə, folklora enmə başlanır.

Habil sənətinin gücü! Habil kamanı çalmır, insan kimi oxudur, danışdırır. Habili dinlərkən adam düşünməli olur. Fikirləşirsən: "Bu səslər, bu hıçqırıqlar nəsə deyir... Axı, nə deyir? Bax, bundadır sənətin gücü!.."

Habil çalarkən yaşayır və bizi öz hisslərinin oduna qalayır, bizi də özü kimi yaşamağa, yanmağa çağırır. Salonda milçək uçsa eşidilər... Bu zaman arxadan Azərbaycan dilində bir "sağ ol" səsi eşitdik... Bu, kim ola bilərdi?

Habil qurtarınca səhnəyə, əlində gül dəstələri tutmuş iki nəfər qarayanız oğlan çıxdı. Gül dəstələrini verib Habili qucaqladılar. Yenidən alqış qopdu.

Fasilə zamanı dəhlizdə gəzə-gəzə bir-birimizdən soruşurduq: "Habilə gül verən oğlanlar və arxadan "sağ ol" deyənlər kim imiş, görəsən?"

Bu zaman üç-dörd yaşlarında bir uşaq dəhliz boyu qaçmağa başladı. Gənc bir qadın "Araz, qaçma" - deyə onun arxasınca yüyürdü. Qadına diqqətlə baxıb: "Siz kimsiniz?" - deyə xəbər alınca: "Mən

azərbaycanlıyam", - deyib üstümüzə gəldi... Onun arxasınca cavan oğlanlar və qızlar bizi dövrəyə aldı.

Məlum oldu ki, bu gənclər İran Azərbaycanından İngiltərəyə gəlmiş tələbələrdir. Onların bir qismi Londonda, bir qismi Qlazqoda, bir qismi də Mançestrdə təhsil alır. Azərbaycandan mədəniyyət xadimlərinin gəldiyini və Mothorveldə konsert verəcəklərini eşitmiş və bizimlə görüşə gəlmişlər.

Axşam Şotlandiya bələdiyyəsinin verdiyi ziyafətdə Habil azərbaycanlı tələbələrin ona verdiyi gül dəstəsinin içindən tapdığı bir kağızı bizə göstərdi. Bu kağızda bir bənd şeir vardı:

"Ulduzları saya-saya
Ayaq basır insan Aya.
Mənim bu taydan o taya
Əlim çatmır sənə, qardaş.

Hörmətlə, azərbaycanlılar".

Azərbaycanlı tələbələr Londonda İngiltərə - Sovet Dostluq Cəmiyyətindəki görüşə də gəldilər. Onlar bizim təhsil sistemi, ədəbiyyat, sənət və mədəniyyətimizə dair maraqlı suallar verir, ölkəmizi daha dərindən tanımaq istəyirdilər. Suallarından nə qədər böyük duyğular və arzularla yaşadıqlarını hiss etdik. Tələbələr müasir Azərbaycan ədəbiyyatını bilir, şair və yazıçılarımızı tanıyırlar. Mənim universitetdə ana dilində dərs dediyimi bilincə, İlham adlı bir gənc:

- Dünyada bir xalq üçün ana dilində təhsil ala bilmək hüququndan böyük səadət tanımıram, - deyə köks ötürdü.

İlham haqlı idi. Əgər belə olmasaydı, o və onun kimi minlərlə azərbaycanlı gənclər təhsil üçün dünyanın bu başına gələrdimi?

Şekspir, Bayron, V.Hüqo, Balzak, Puşkin, Tolstoy, Şiller, Höte kimi cahanşümul dahiləri Arazın bu tayında öz ana dilində oxuya bilən mənim tələbələrimlə dünya klassikləri bir yana, öz klassiklərini belə anasının dilində oxumaq hüququndan məhrum edilən bu gənclərin

müqayisəsində tarixin ədalətsizliyi barədə düşünməmək mümkünmü? İnsan mənfinin acısını, müsbətin fonunda daha yaxşı hiss edir...

Azərbaycanlı gənclər bizim sənət ustalarımızın Qlazqoda və Londonda verdiyi konsertləri dönə-dönə dinləmiş, R.Behbudovun, N.Məmmədovanın və H.Əliyevin çıxışlarına heyran qalmışlar. Onlardan biri əlavə etdi:

Cəmiyyət sənətin inkişafı üçün şərait yaradanda xalq öz istedadını göstərə bilir. Nəzakət xanımın "Segah"ı gözlərimi yaşartdı. Habilin kamanı qəlbimi göynətdi. Rəqqasların oyunu mənə Koroğlunun dəlilərini xatırlatdı. Bu konsertdə xalqımın nələrə qadir olduğuna tam inandım. Mənə bu inamı verdiyinizə görə sizə minnətdaram...

Şotlandiyanın qədim mədəniyyət mərkəzlərindən Edinburq şəhərində universitet (XVI əsr), tibb kollecləri, coğrafiya cəmiyyəti, rəsədxana, zəngin kitabxanalar və sərgi salonları vardır. Bu şəhərdə hər il nəğmə və dram festivalları keçirilir.

Şəhərin köhnə hissəsində qədim binalar adamı xəyalən orta əsrlərə aparır. Uca bir təpənin üstündəki qəsr görkəmindəki sərtliyi və qorxuncluğu ilə mütləqiyyət dövrünü, bu dövrdə günahsız tökülən qanları, zülmü, istibdadı yada salır. Holirud-haus sarayı insanda gözəllik duyğusu əvəzinə ikrah və qorxu hissi oyadır. Saray indi də qədim şotland forması geymiş yubkalı əsgərlərin mühafizə dəstəsi ilə əhatə olunmuşdur.

Kral sarayında şotland krallarının tacları, qızıl açarları, müxtəlif silahları saxlanır. Kraliça II Yelizaveta keçən il "gümüş toy"unu bu sarayda keçirmişdir. O, ümumiyyətlə, ildə on gün bu sarayda yaşayır.

Oktyabrın 23-də Edinburqun bələdiyyə rəisi bizi qəbul etdi. Ertəsi gün təyyarə ilə ölkənin əsas sənaye mərkəzi olan Mançestrə gəldik. Bu şəhərin memarlığında monumentallıq əsasdır. Üç milyon əhalisi olan Mançestr müasir incəsənət muzeyi, konservatoriya, universitet şəhərciyi, zəngin kitabxana və müxtəlif sənaye ocaqları ilə tanınır. İncəsənət muzeyində Azərbaycan xalçalarından örnəklər gördük. Burada toplanan rəsm və heykəltəraşlıq əsərləri əsasən abstraksionizm nümunələridir.

Mançestrin simfonik orkestri London simfonik orkestrlərindən son-

ra Britaniyada ikinci yer tutur. F.Engels uzun müddət bu şəhərdə yaşamışdır.

İngiltərədə müəyyən təhsil üsulu yoxdur. Hər orta məktəb öz üsulu ilə dərs keçir. Ölkədə demək olar ki, uşaq bağçaları da yoxdur. Uşaqlar beş yaşından məktəbə gedir. Ali məktəblərə qəbul imtahanı (Oksford və Kembric universitetləri istisna olmaqla) keçirilmir. Orta məktəbin buraxılış imtahanı ali məktəblərə qəbul imtahanını əvəz edir. Buraxılış imtahanı şagirdin ali məktəbdə oxuya bilib-bilməyəcəyini müəyyənləşdirir.

Orta məktəblərdə xüsusi evdarlıq fənni keçirilir. Evdarlığı qızlarla bərabər oğlanlar da bilməlidir. Sinif rəhbərinin nəzarəti altında il boyu şagirdlər xarici ölkələrə səfər üçün pul yığır. Nəhayət, müəllimlə birlikdə arzu etdikləri ölkəyə gedir, həmin ölkəni dərindən öyrənirlər. Bəzən müəllimlə şagirdlər on-on beş günlüyə müəyyən bir kənddə olur, bir yerdə yaşayır, bir-birlərinə isnişirlər. Təhsil müddətində müəllim şagirdlərini öz övladı kimi tanıyır və onların hər biri haqqında ayrıca xasiyyətnamə yazır. Təhsil pulsuzdur. Dərslikləri məktəb verir.

Şəxsi adamların pullu məktəblərində təhsil daha dərin və daha səviyyəlidir.

Biz Oksford universitetində olduq. Burada da təhsil qaydası maraqlı qurulmuşdur. Tələbələrin 70-80 faizi atalarının gəlirinə görə təqaüd alır.

Oksford universitetinin əsası IX əsrdə qoyulub. XII əsrdə kollec şəklini alıb. İndi universitet 34 kollecdən ibarətdir. Özü isə yalnız inzibati təşkilatdır. Universitetin 3 milyon kitabdan ibarət zəngin kitabxanası var. Neçə yüz il bundan əvvəl kral belə bir fərman verib ki, bu kitabxanadan evə kitab verilməsin.

Ən böyük kollec kvadrat şəklində birbirinə bitişmiş dörd binadan ibarətdir. Bu kollecin 400 tələbəsi var. Əsas binanın üstündəki qüllədən iri zəng asılmışdır. Hər gün axşam saat 9-da həmin zəng 101 dəfə çalınır. Çünki bu kollec açılan il onun 101 tələbəsi olmuşdur.

Oksford və Kembric universitetlərində tələbələr müəllimlərlə bir binada yaşayır. Hər müəllimə beş-altı tələbə təhkim olunur. Müəllim həftədə bir, ya iki dəfə təhkim olunduğu tələbələrlə görüşür, onlara tap-

şırıqlar verir və yoxlayır. Tələbələrin mühazirələrə gəlib-gəlməməsi vacib deyil, proqram həcmində fənni mənimsəmələri əsas şərtdir. Bu üsul tələbənin müstəqil hazırlaşmasına və müstəqil düşünməsinə imkan yaradır.

Tələbənin universitet formasını həmişə geyməsi də şərt deyil. Lakin imtahana mütləq həmin formada gəlməlidir.

Buraxılış imtahanlarına az qalmış fermerlər və biznesmenlər Oksford və Kembric universitetlərinə öz nümayəndələrini göndərir, özlərinə işçi seçirlər.

Londondakı Madam Tusso adına mum fiqurlar muzeyi bir möcüzədir. Bu muzeydə İngiltərənin və dünyanın tarixi şəxsiyyətlərinin mumdan qayrılmış fiqurları saxlanır. Bu geyimli-keçimli fiqurlar canlı insandan seçilmir. Burada məşhur boksçu Məhəmməd Əlinin, aktrisa Merilin Monronun, Fransanın dövlət xadimi De Qollun, Amerikanın hökumət başçıları Ruzvelt, Eyzenhauer, Kennedi və Karterin, İngiltərənin böyük yazıçılarından Şekspir, V. Skott və Dikkensin fiqurları görkəmli yerlərdə qoyulmuşdur.

Nottinhem şəhərinin on-on beş kilometrliyində böyük ingilis şairi Bayronun qəsri yerləşir. Qəsr meşənin içində balaca bir gölün kənarındadır. Bura əvvəllər monastr olub. Bayronun babası birinci Lord Bayron bu qəsrin sahibi imiş. Bayron sonralar bu malikanəni bir polkovnikə satıb. Qəsr, Bayron nəslinin muzeyinə çevrilmişdir, əlbəttə, şair Bayrona görə.

Eksponatların əksəriyyəti şair Bayronundur - onun yazı masası, güzgüsü, qılıncı, son ayaqqabıları, paltarları və s.

Nottinhem şəhərindən Londona gələrkən yolda böyük dramaturq Şekspirin vətəni Stratford şəhərində dayandıq. 65 min əhalisi olan bu şəhərdə küçələrdən tutmuş binalara və parklara qədər hər şey böyük şair və dramaturqun adı və həyatı ilə bağlıdır. Kiçik bir parkın içində Şekspirin heykəltəraş Qauer tərəfindən yaradılmış heykəli, onun ətrafında isə dramaturqun dörd obrazının heykəli ucaldılmışdır. Hamlet, Makbet, Otello və Lir! Bu heykəllər içərisində Hamlet düşüncə simvolu kimi daha çox nəzəri cəlb edir. O, ətraf mühitdən üzülmüş, əlləri ilə başını

qucaqlayıb, dünyanın ağır yükü çiyinlərində, dərindərin düşünür. Elə bil, bu saat o öz-özünə "Ölüm, ya olum!" monoloqunu pıçıldayır.

Şekspirin doğulduğu ikimərtəbəli ev. Həyətdə şairin öz əlilə əkdiyi qurumuş tut ağacı...

XVIII əsrdə bu ev bir qəssaba satılmış, 1948-ci ildən Şekspir fondunun əlinə keçmişdir. Böyük yazıçı Dikkens bu fonda xeyli pul vermiş, ondan sonra ev-muzeyə çevrilmişdir.

Evin ikinci mərtəbəsinin pəncərə şüşəsinə V.Skott öz əlilə qol çəkmişdir.

Muzeydəki mebellər - stul, stol, eləcə də beşik, qab-qacaq dramaturqun ailəsinə məxsus əşyalardır.

Şekspir müqəddəs Troitsk kilsəsində dəfn edilmişdir. Sol tərəfində arvadı Anna, qızı Susanna və qızının ərinin qəbirləri...

Qəbirlərin baş ucunda, taxçada Şekspirin kiçik büstü qoyulmuşdur. Hər il şairin doğulduğu gün ingilis aktyorları bu kilsəyə gəlir, büstün əlindəki lələyi dəyişdirirlər. Sinə daşı üstündə şairin bu sözləri yazılmışdır. "Mənim məzarımı qoruyana eşq, sümüklərimi tərpədənə lənət olsun!"

Dörd yüz il dünyanın bütün teatrlarında əsərləri oynanan, dörd yüz il bəşəriyyəti güldürüb, ağladan, düşündürən bu böyük insanın məzarı başında donmuşduq, ona bu qədər yaxın olduğumuza inana bilmirdik... Sonetlərindən tutmuş, dramlarına qədər bütün əsərləri bizi həmişə heyrətləndirmiş Şekspirin əməlləri timsalında insan idrakının nələrə qadir olduğunu anlamışıq. "İngilis xalqı" dediyim zaman, ilk növbədə, Şekspiri düşünmüş, insan duyğularının dərinliyinə bu qədər vara bilən bir şairin bizim kimi adi bir insan olduğuna inana bilməmişəm. İndi həmin insanın məzarı başında öz sualları ilə ona müraciət etmək, minmin illərdən bəri düşünən başları, duyan, sevən, çırpınan ürəkləri kamına çəkmiş torpağın sirlərini, elə bil, onun özündən öyrənmək istəyirdim...

XVIII əsrdə əsası qoyulan Britaniya milli muzeyi (London) dünyanın ən zəngin muzeylərindən hesab olunur. Kotton, Harli və Sloon adlı şəxslərin fərdi kolleksiyaları əsasında yaradılan bu muzey üçün 1925-ci ildə ayrıca bina tikilmişdir. Muzeyin bir hissəsi kitabxanadır.

Kitabxanada müxtəlif xalqların ən qədim əlyazmaları da saxlanılır. O cümlədən, biz burda Nəvainin, Hafizin, Bakuvinin divanlarını, Nizaminin "Xosrov və Şirin", Füzulinin "Hədiqət üs-süəda" əsərlərinin qədim əlyazmalarını gördük. Bu kitabxanada 9 milyon yarım kitab və 200 min əlyazması var. Oxu zalından eyni vaxtda 1.500 adam istifadə edə bilər.

Burada Yunanıstan, Türkiyə, Misir, Roma mədəniyyətlərinin ən qədim nümunələri qorunub saxlanır. Bu ölkələrin xalqları qədim mədəniyyətlərini bu muzey vasitəsilə öyrənə bilir. Hər salon bir ölkənin bir dövrünə aiddir. Yunan və Roma tarixi şöbəsində yunan incəsənətinin nadir inciləri, xüsusilə heykəltəraşlıq nümunələri (Akropol və Parfenon) vardır.

Dünya xalqlarının mədəniyyət tarixini əks etdirən Britaniya muzeyi İngiltərənin ən böyük milli xəzinəsidir.

Böyük Britaniyadan böyük təəssüratla - xalqımıza və Vətənimizə böyük inam və daha böyük sevgi hissilə qayıtdıq...

"Vətən ocağının istisi", Bakı 1982





AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV XƏSTƏXANADA XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR*

Heydər Əliyev: Biz səni Türkiyəyə müalicəyə göndərdik ki, sağalıb gələsən. Gələndən sonra dedin ki, hər şey yaxşıdır. İndi necə oldu ki, yenə də xəstələndin?

Bəxtiyar Vahabzadə: - Siz məni Türkiyəyə göndərdiniz. Məni Ankaranın "Nümunə" xəstəxanasında çox yaxşı qarşıladılar. Mən orada Cümhur Başkanı S.Dəmirəlin, burada da Sizin qayğı və nəzarətiniz altında müalicə olunuram. İki ölkənin prezidentlərinin qayğısı ilə əhatə olunan bir şairin daha çox iztirab çəkməsini mən də heç cürə anlaya bilmirəm (Gülüşmə).

Türkiyədə həkim prostat vəzini kəsib, azca hissəsi qalıbmış, o da əngəl yaradıb. Mən Türkiyədən Bakıya qayıdandan sonra Sizə də zəng etdim. Bir müddətdən sonra Türkiyədə məni müalicə edən həkimlə telefonla əlaqə saxladım. O dedi ki, düzələcək.

Sonra gördüm ki, düzəlmir. Sonra Azərbaycan Milli Məclisinin üzvü, professor Südeif İmamverdiyevə müraciət etdim. Baxan kimi dedi ki, yenidən əməliyyat keçirmək lazımdır. O, əməliyyat keçirdi, prostat vəzinin qalan hissəsini kəsib götürdü. İndi 2-3 gündür özümü

*1997-ci il yanvarın 19-da Prezident Heydər Əliyev Xəzər hövzəsi xəstəxanasında yatan şairi görməyə gəlmişdir.

yaxşı hiss edirəm.

Heydər Əliyev: - Yaxşı, qoy, həkim gəlib məlumat versin, görək, vəziyyət necədir?

Südeif İmamverdiyev: - Cənab Prezident, ikinci gün əməliyyat keçirmişik. Əməliyyat hər cəhətdən çox yaxşı keçdi. Türkiyədə prostat vəzini aparatla götürmək çətin olub. Yəni, texnika elə nahiyədə yerləşən vəzini tam təmizləyə bilmir. Vəzinin qalmış hissəsi qapama yaradırdı, bu isə narahatlığa səbəb olurdu. Bəxtiyar müəllimin vəziyyəti də ona görə gündən-günə pisləşirdi.

Bu əməliyyatı elə-belə keçirmədik. Əvvəlcə, yaxşıca yoxladıq, aparatla baxdıq. Gördük ki, maneə var və əməliyyat keçirib həmin artıq hissəni götürdük.

İndi Bəxtiyar müəllimin vəziyyəti gündən-günə yaxşılaşır. Biz düşünürük ki, bu vəziyyət get-gedə daha da yaxşılaşacaq. Müalicə yüksək keyfiyyətlə, düşünülmüş qaydada aparılır. Bəxtiyar müəllim özü də razıdır ki, vəziyyəti gündən-günə yaxşılaşır. İnşallah, hər şey yaxşı olacaq.

Bəxtiyar Vahabzadə: - Heydər müəllim, Allah Sizdən razı olsun. Mən Sizə minnətdaram. Yaşar Əliyev mənimlə burada müalicə olunur. Onun da üzərində əməliyyat keçirilib. Sizin Azərbaycanda əvvəlki rəhbərliyiniz dövründə Gəncədə xalq hakimi işləyib. İndi də hüquq-mühafizə orqanlarında çalışır. İcazə verin, Yaşar müəllim mənim "Respublika" qəzetində dərc olunmuş müsahibəmi sizə oxusun.

Yaşar Əliyev: - Cənab Prezident, biz Bəxtiyar Vahabzadə ilə dostuq. Xəstəliyimiz bir vaxta düşüb. Mənim də üzərimdə əməliyyat keçirilib. "Respublika" qəzetində dərc olunmuş bu müsahibənin sərlövhəsi belədir: "Xalq şairi Bəxtiyar Vahabzadə: "Sessiyanı çağırmaq şəxsi təşəbbüsüm idi".

Müxbir 1990-cı ilin yanvar hadisələri ilə əlaqədar belə bir sual verir: Bəxtiyar müəllim, Sizcə, o vaxt Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, bu qırğın törəyərdimi?

Bəxtiyar müəllim bu suala belə cavab verib:

- Mən belə hesab edirəm ki, yox. Bilirsən, ay oğul, milli qanı olan,

qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı. Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha da fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycana rəhbərlik etsəydi, bu qırğın olmazdı. Heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisədən xəbərim yox idi. Süleyman Dəmirəldən bu barədə soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, çevikliklə, cəsarətlə diplomatik gedişlər edərək, 52 dövlətin dəstəyini almağa necə nail olmasından danışaraq dedi ki, "Heydər Əliyevin qədrini bilin".

Cənab Prezident, Süleyman Dəmirəl ilə görüşümdə o mənə dedi ki, mənim Azərbaycan ziyalılarından bir təvəqqəm var, Heydər Əliyevi tək qoymayın, ona yardımçı olun.

Heydər Əliyev: - Sağ olun. O da sağ olsun. Siz də sağ olun. Amma kimin dəstək verib-verməməsi əhəmiyyətli deyil, mən öz işimi aparıram.

Bəxtiyar Vahabzadə: - Heydər müəllim, Fransa səfəriniz necə keçdi?

Heydər Əliyev: - Fransaya səfərim çox yüksək səviyyədə keçdi. Fransa-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox yaxşı danışıqlarımız oldu. Fransanın prezidenti Jak Şirakla çox maraqlı söhbətlərimiz oldu. Xarici işlər naziri ilə və digər nazirlərlə, senatın, parlamentin sədrləri ilə, Fransanın ən yüksək vəzifəli adamlarının hamısı ilə görüşlərimiz, danışıqlarımız oldu. Biz orada Yelisey Sarayında Jak Şirakın və mənim iştirakımla beşinci neft müqaviləsini imzaladıq.

Bəxtiyar Vahabzadə: - Fransanın Minsk qrupuna həmsədrliyi məsələsi də müzakirə olundumu?

Heydər Əliyev: - Bu məsələ ilə əlaqədar mürəkkəb danışıqlar oldu. Ancaq bu danışıqlar hələ davam edəcək. Görək, sonra necə olacaq.

Bəxtiyar Vahabzadə: - Allah yaxşı eləsin.

Heydər Əliyev: - Bilirsiniz, Azərbaycanın səhiyyəsi, həkimləri yüksək səviyyədədir. Adam bəzən özününkünün qədrini bilmir. Mən hələ 70-ci illərdə də respublikaya rəhbərlik edərkən görürdüm ki, bizim tanınmış müxtəlif adamlar belə bir xəstəlik haqqında tez-tez şikayətlənirdilər. Mən də kömək edirdim, respublikamızın cərrahları belə əməliyyatlar keçirirdilər və çox yaxşı nəticələr də əldə edirdilər. Haqqına demək lazımdır, o vaxt Moskvada da çox yüksək səviyyəli mütəxəssislər var idi.

Bəxtiyar Vahabzadə: - Mütəxəssislərin hamısı orada yetişirdi.

Heydər Əliyev: - Bəli, hamısı orada yetişirdi. Südeif İmamverdiyev də, orada yetişib. Azərbaycanın ən böyük uroloqu Cavadzadə də, İmamverdiyev də, başqaları da Moskvada təcrübə keçiblər. O vaxt respublikamız üçün ən yüksək səviyyə ora idi. İndi həqiqəti demək lazımdır ki, səhiyyənin təşkili və tibb yardımı sahəsində yaranmış sistem çox gözəl sistemdir. Heyif ki, o dağılır.

Bəxtiyar Vahabzadə: - Elə təhsil sistemi də belə idi. Bizim təhsil sisteminin dünyada əvəzi yox idi.

Heydər Əliyev: - Rus, sovet təhsil sisteminin əvəzi yoxdur. Dünyada Moskva Universitetinə bərabər universitet yoxdur. Mənim oğlum İlham Moskvada Beynəlxalq Münasibətlər Universitetini bitiribdir. Bu, dünyada ən məşhur universitetdir. Dünyanın ən böyük diplomatlarının çoxu orada təhsil alıbdır. Dünyada elə bir ikinci universitet yoxdur. Amma biz vaxtilə bunların qədrini bilməmişik. Biz elə bilirdik ki, hardasa bundan da yaxşısı var.

İndi bir tərəfdən yaxşı oldu ki, dünya dəyişdi, hər şey açıldı, biz harada nəyin olub-olmadığını bildik. Mənim Türkiyəyə də, Fransaya, İngiltərəyə, Amerikaya da - hamısına böyük hörmətim var. Hər bir ölkədə çox yüksək səviyyəli mütəxəssislər var. Ancaq, axı, Azərbaycan da böyük mütəxəssislər, kadrlar yetişdirib. Elm, səhiyyə, tibb, təhsil, tibb xidməti sahəsində biz nə qədər yüksək səviyyəli adamlar yetişdirmişik, bunların qədrini bilmək lazımdır. Mən dəfələrlə demişəm ki, bəziləri, dünyanı anlamayan, burnunun ucundan o tərəfi görməyən

adamlar indi hər şeyi pisləyirlər. Elə deyil. Təsəvvür edin, Azərbaycanda olan mədəniyyət xidmətləri harada var?

Bəxtiyar Vahabzadə: - Üzeyir bəy, Qara Qarayev, Fikrət Əmirov...

Heydər Əliyev: - Belə şəxsiyyətlər harada var? Yoxdur. Azərbaycanda olan şairlər harada var? Azərbaycanda şairə, bəstəkara, aktyora, rəssama olan hörmət harada var? Xarici ölkədə rəssam şəkil çəkir, aparıb küçədə qoyur ki, görsün, onu sata bilir, yoxsa, yox. Amma bizdə rəssam bir şəkil çəkir, gətirib sərgiyə qoyuruq, onu tərifləyirik, hörmətini qaldırırıq. Xaricdə şair şeir yazır, haradasa dərc olunur, ya da heç olunmur və tanınmır.

Bəxtiyar Vahabzadə: - Heydər müəllim, ən mühümü teatr sənətidir. İnanın ki, keçmiş SSRİ-də olan rejissorluq məktəbi dünyanın heç yerində yoxdur. Moskvadakı 10-15 dram teatrının hər birinin öz yolu var. Efrosun, Stanislavskinin, Yefremovun teatrları, rejissurası bir-birindən tamamilə fərqlənir. Orada məktəblər var ki, adamı dəhşətə gətirir. Respublikamızdakı rejissorlar da orada təhsil alıb gəliblər. Ona görə də, hətta 5-6 ildir teatrımız təmirə dayansa da respublikamızda teatr da, aktyorlarımız da, yüksək səviyyədədir. Gərək ki, Sizə demişdim. Mən göytürklər haqqında, yəni 1500 il bundan əvvəlki tariximiz haqqında bir pyes yazmışam. Bizim teatr indi onu hazırlayır. Mən onu aparıb həm də Türkiyə teatrlarına təklif etdim. Birinci pyesimdir ki, onlara verirəm. Yaxın duran olmadı. Çünki pyesi mən istədiyim şəkildə qoymağa cəsarət etmədilər. Təəssüf ki, orda müasir səviyyəli rejissura yoxdur.

Heydər müəllim, Siz çox yaxşı bilirsiniz ki, mən ömrüm boyu Azərbaycanın müstəqilliyini arzulamış və Türkiyəni özümüzə ən böyük və ən etibarlı arxa bilmişəm. Şükür Allaha, indi biz müstəqilliyimizi qazandıq. Türkiyə də həmişə arxamızdadır. Bunlarla belə, biz elm və mədəniyyət sahəsində öz qınımızda qala bilmərik. Hələ bizim başqalarından öyrənəsi çox işlərimiz var.

Heydər Əliyev: - Tamamilə doğrudur.

Bəxtiyar Vahabzadə: - Fikrət Əmirov, Qara Qarayev ya-

radıcılığı başqa-başqa üslublardır. Amma hərəsinin öz böyüklüyü, öz üstünlüyü var. Üzeyir bəy tamam başqa zirvədir. Rəssamlığımızı götürək. Səttar Bəhlulzadə başqa bir dünyadır, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev başqa-başqa məktəblərdir.

Ədəbiyyatımız da belədir. Götürək, Süleyman Rəhimovu. O diapazonda, o genişlikdə, o nəfəsdə dünya ədəbiyyatında çox nadir yazıçılar var. Onu ancaq Aleksey Tolstoyla, Lev Tolstoyla müqayisə etmək olar. Onlar böyük nəfəslərdir. Biz dünya və rus mədəniyyəti bulağından su içmişik. Bu ənənəni davam etdirməliyik. Əgər müstəqilliyimizi qoruyub saxlaya bilsək, mən ölkəmizin gələcəyinə inanıram.

Heydər Əliyev: - Bilmirəm, burada televizor var, yoxsa, yox. Mənim Fransadakı çıxışımı dünən də, srağagün də verirdilər. Fransada Beynəlxalq Əlaqələr İnstitutu var. Mən 1993-cü ildə də, bu dəfə də Fransaya gedəndə orada çıxış etdim. Fransaya səfərə gələn dünya ölkələri başçılarının hamısı orada mütləq çıxış edirlər. Klinton da, Kol da, Mitteran da – hamısı orada çıxış ediblər.

Böyük mütəxəssislər, Fransada olan səfirlər oraya toplaşmışdılar. Salon ağzınadək dolu idi. Mən orada çıxış etdim. Suallar da verdilər. Mən təkcə orada yox, hər yerdə demişəm ki, respublikamızın müstəqilliyi tarixi nailiyyətimizdir, müstəqilliyimiz sarsılmazdır, dönməzdir və biz onu heç vaxt əlimizdən verə bilmərik. Buna arxayın ola bilərsiniz. Dünyada da bilirlər ki, Azərbaycan nəinki müstəqilliyə nail olub, respublikamızın hazırki dövləti həqiqi müstəqillik siyasəti aparır. Mən orada çoxlu suallara cavab verdim. Bu, sirr deyil. Bu görüş televiziya vasitəsilə verilib.

Məsələn, mənə belə bir sualla müraciət etdilər ki, niyə siz Müstəqil Dövlətlər Birliyində bir çox sənədlərə imza atmırsınız və hər şeylə razı deyilsiniz? Cavab verdim ki, bu da bizim müstəqilliyimizi göstərir. Biz bu təşkilata daxil olmuşuq, o, bizə lazımdır. Amma bu təşkilatın hansı qərarları respublikamızın müstəqilliyinə cüzi qədər də toxunursa, biz onu imzalamırıq, qəbul etmirik. Bu da təbiidir. Bir ölkə tamam qəbul edir özü bilər, başqa bir ölkə də qəbul etmir. Görürsünüz, bu məsələləri Qərb ölkələrində bilirlər və mənə belə suallar verirlər. Yəni,

müstəqilliyimizi gündən-günə möhkəmləndirmək, onu müdafiə etmək sahəsində həyata keçirdiyimiz tədbirləri Qərb ölkələrində bilirlər. Fransada da məndən bu barədə soruşurdular.

Müstəqilliyimiz haqqında narahat olmayın. Bu gün yanvarın 19-u, sabah 20-sidir. Bu günlər biz 20 Yanvar hadisəsinin yeddinci ildönümünü qeyd edirik. Yeddi il bundan əvvəl şəhidlər vermişik. Mən Fransaya səfərimdə də bu barədə danışdım. Dedim ki, mənim buraya səfərim Azərbaycana qarşı olmuş hərbi təcavüzün, bizim o faciəmizin, şəhidlərimizin yeddinci ildönümünə təsadüf edir.

Azərbaycana nə üçün belə hərbi təcavüz etdilər? Azərbaycanda ayağa qalxmış xalqın azadlıq hərəkatını boğmaq üçün bunu etdilər. Biz şəhidlər verdik, insanlarımız qırıldı. Azərbaycanın başına gələn bu bəla o vaxt heç bir respublikada baş verməmişdi. Xalq da, siz də arxayın ola bilərsiniz ki, ölkəmizin müstəqilliyi sarsılmazdır. Doğrudur, bu, asan deyil, çox çətindir. Amma nə qədər çətin olsa da, bəlkə də, başqa məsələlərdə biz nəyi isə itirə bilərik, ancaq müstəqillik məsələlərində heç bir şeyi itirə bilmərik.

Fürsətdən istifadə edərək, Yanvar faciəsinin yeddinci ildönümü münasibətilə demək istəyirəm ki, Bəxtiyar müəllim, biz Sizin bu sahədəki xidmətlərinizi həmişə qeyd etmişik və bu gün də mən bunu bildirirəm. Bilirsiniz ki, biz Yanvar faciəsinə siyasi qiymət verilməsi ilə əlaqədar 1994-cü ildə qərar qəbul etmişik. Yadımdadır, 1990-cı il yanvarın 21-də Sizin sədrliyinizlə sessiya keçirildi. Təsəvvür edin, respublikanı, hökuməti idarə edən adamlar qaçdılar, sessiyaya Bəxtiyar Vahabzadə sədrlik etdi. Əgər sən dünənədək bu hökumətə, xalqa, dövlətə, respublikaya rəhbərlik edirdinsə, onun ağır günündə də gəl, xalqla bir yerdə ol. Sən qaçıb evdə gizlənmisən. Bəxtiyar Vahabzadə isə özünü burada fəda, necə deyərlər, şəhid edir. Yəni, Bəxtiyar Vahabzadə burada bu qərarı qəbul edir, amma sən gedib dörd gündən sonra özünü Azərbaycana hakim təyin etdirirsən və bu faciənin üstünü örtməyə, basdırmağa çalışırsan.

Onlar bu faciənin üstünü basdırdılar, sizin qəbul etdiyiniz qərar isə qərar kimi qaldı. Yanvarın 22-nə keçən gecə sessiyada siz qərar qəbul

etdiniz ki, əgər Sovet Ordusunun qoşunları buradan tezliklə çıxmasa, Azərbaycan Sovet İttifaqının tərkibindən çıxacaqdır. Amma Sovet Ordusunun qoşunları Azərbaycandan çıxmadı. Bir neçə gün ondan sonra Azərbaycana təyin edilmiş rəhbərlər də sizin qəbul etdiyiniz qərarı yerinə yetirmədilər, Rusiyanın qoşunlarını buradan çıxarmadılar.

Sovet Ordusunun qoşunlarını nəinki buradan çıxarmadılar, Bakı 1990-cı ili tamamilə fövqəladə vəziyyətdə, əsgərlərin avtomatı altında yaşadı. Qoşunları yalnız 1991-ci ilin sonunda Bakıdan çıxardılar. Bu da o vaxt baş verdi ki, artıq Moskvada qiyam olmuşdu. Sovet İttifaqı dağılırdı. Qoşunları da Bakıdan məhz bu vaxt çıxardılar.

Bəxtiyar Vahabzadə: - Cənab Prezident, o vaxt onlar qiyamçıları dəstəklədilər, onlara səs verdilər.

Heydər Əliyev: - Bəli, onlar qiyamçılara səs verdilər, amma bundan da bir şey çıxmadı.

Bəxtiyar Vahabzadə: - Cənab Prezident, o vaxtkı sessiyada hökumət adamlarından yalnız Həsən Həsənov iştirak edirdi.

Heydər Əliyev: - Onlar nə sessiyada iştirak etdilər, nə də şəhidlərin matəm, dəfn mərasiminə gəldilər.

Bəxtiyar Vahabzadə: - Ondan 5-6 gün sonra qəzetdə elan etdilər ki, bu sessiya qeyri-qanunidir və onun heç bir hüquqi əsası yoxdur.

Heydər Əliyev: - Bəli, bax, satqınlıq, milləti satmaq budur. Şübhəsiz ki, belə adamlar nə millətin qayğısına qala, nə də respublikamızın müstəqilliyini qoruya bilərdilər.

20 yanvar hadisəsi faciəli olsa da o, xalqımızın müstəqilliyinə nə qədər meylli olduğunu, bu arzu ilə yaşadığını göstərdi və onu nümayiş etdirdi. Qan töküldü, faciə oldu, şəhidlər verdik, amma xalqımızın iradəsini dünyaya sübut etdik. Bunun da böyük əhəmiyyəti var. Ona görə də mən bu faciə haqqında danışanda deyirəm ki, əlbəttə, biz itkilər verdik, günahsız insanlar qırıldı, amma digər tərəfdən, Sovet İttifaqının o vaxtkı rəhbərliyinin irticaçı, təcavüzkar siyasəti büruzə verildi və Azərbaycan xalqının milli azadlıq mübarizəsi ən yüksək zirvəyə qalxdı.

Bəxtiyar Vahabzadə: - Heydər müəllim, o vaxt Siz Moskvada çıxış edib, qırğına etirazınızı bildirdiniz.

Heydər Əliyev: - Bəli, yanvarın 21-də Moskvada çıxış etdim. İndi bunu demək istəmirəm, o vaxt mən Moskvada təcrid edilmiş, cəmiyyətdən tamamilə uzaqlaşdırılmış və təqib altında olan bir adam idim. Məni daim təqib edirdilər, hətta hazırlaşırdılar ki, orada həbs etsinlər.

Sizə danışmışam, o vaxt mən Moskvada deyildim. Xəstə idim. Moskvadan kənarda, sanatoriyada müalicə olunurdum. Amma bu hadisəni eşitdim, gecə ikən Moskvaya gəldim. Uşaqlarım - oğlum İlham, qızım Sevil, qızımın əri Mahmud evdə idilər. Onlara dedim ki, mən oraya gedirəm. Bildirdilər ki, axı, bu təhlükəlidir. Onlar mənim ətrafımda olan vəziyyəti bilirdilər. Onların üçü də ayağa durdu və dedilər ki, ata, biz də sizinlə gedirik. Dedim ki, siz getməyin. Bəlkə, təkcə Mahmud mənimlə getsin, siz getməyin. Çünki orada cürbəcür hadisələr ola bilərdi. Nə olursa, qoy mənimlə olsun, heç olmasa, sizinlə olmasın. Oğlum dedi ki, yox, mən də gedirəm. Hətta qızım uşaqlarını evdə qoyub dedi ki, mən də gedirəm. Yaxşı ki, o vaxt kimsə lentə alıb - oğlumla, qızımla, qızımın əri ilə birlikdə oraya gəldik. Necə deyərlər, sözümü də dedim, münasibətimi də bildirdim. Mən - vəzifədə olmayan bir adam, orada münasibətimi bildirdim, amma vəzifədə olan adamların heç biri bu faciəyə münasibətini bildirmədi, bəyanat vermədi.

Eybi yoxdur, yeddi il keçdi. Şəhidlərin ruhu, əlbəttə ki, qəlbimizdə yaşayır və daim yaşayacaqdır. Biz bu günü heç vaxt unutmayacayıq. Ona görə də mən Yanvar faciəsinin yeddinci ildönümünün qeyd edilməsi ilə əlaqədar sərəncam verdim ki, xalqımız o günləri bir daha yad etsin. Mən buraya gələrkən gördüm ki, camaat indidən Şəhidlər Xiyabanına axışır. Respublika Sarayında sabah böyük bir mərasim olacaqdır, mən də orada iştirak edəcəyəm.

Bu söhbəti sən saldın, mən də bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Bəxtiyar Vahabzadənin xidmətləri böyükdür. Ölkəmizin xüsusən o çox gərgin vəziyyətində Siz vətəndaşlıq, ziyalılıq cəsarəti göstərmisiniz. Ona görə də nə mən, nə də xalqımız

bunu unuda bilmərik və onu yüksək qiymətləndiririk.

Təhsil, teatr barədə sizin fikrinizlə mən tamamilə razıyam. Məsələn, siz Süleyman Rəhimov haqqında söz açdınız. Mənim xatirimdədir, o vaxt mən işləyəndə ilk dəfə Süleyman Rəhimov və sonra yazıçılarımızdan, şairlərimizdən bir çoxları Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Bu, o vaxt dövlətimizin ən yüksək mükafatı idi. Bunları bu gün, heç vaxt təhlil etmək lazım deyil. Kim hansı dövrdə, hansı dövlətdən hansı mükafatı alıbsa, o, yüksək bir nişanədir. O vaxt mən yazıçılarımızdan ilk dəfə Süleyman Rəhimovun belə yüksək mükafata layiq görülməsi barədə təklif verdim və ona da nail olduq. Süleyman Rəhimova Sosialist Əməyi Qəhrəmanı adı verildi.

Bilirsiniz ki, insanlar arasında paxıllıq da, rəqabət də var. Bəziləri dedilər ki, niyə Süleyman Rəhimova belə yüksək ad verdilər? Süleyman Rəhimov haqqında sizin dediyiniz bu fikirlərlə razıyam. Çünki mən Süleyman Rəhimov haqqında hələ o vaxt belə düşünürdüm. Düşünürdüm ki, Süleyman Rəhimov ədəbiyyatımızda, həqiqətən, özünəməxsus yer tutub.

Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir. Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə də belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur. O, başqasına bənzəmir və onu heç kəs əvəz edə bilməz. Sabah başqa bir şəxs yaranacaqdır, onun, bəlkə də, başqa xüsusiyyətləri olacaqdır.

Bəli, xalqımız elə xalqdır ki, tarixin hər bir mərhələsində böyük, dahi insanlar yetişdirir və biz bununla fəxr etməliyik. Biz kasıb xalq deyilik. Yəni, biz intellekt cəhətdən kasıb deyilik. Bəli, xalqımızın zəkası çox zəngindir.

Bəxtiyar Vahabzadə: - Cənab Prezident, indi cavanlarımız yetişir. Bizə tamamilə bənzəməyən, yaxın gəlməyən, təzə bir yolla

gedən cavan şairlərimiz yetişirlər. Dünən "Ata şapalağı" adlı bir şeir oxudum, o, nə gözəl yazır. Atası rəhmətə gedib, şair deyir ki, mənim ata şapalağına ehtiyacım var. Deyir ki, ata, qalx, mənə bir şapalaq vur - mən bu dünyanı dərk edə bilmirəm, bəlkə, sənin şapalağın məni ayıltdı, bu dünyanı dərk edə bildim. Bizim ata nəsihətinə, ata öyüdünə həmişə ehtiyacımız var.

Bu, təzə yoldur. Mənim yolum isə başqadır.

Heydər Əliyev: - Sənin öz yolun var, bu yolu dəyişdirə bilməzsən. Amma onun da öz yolu var.

Bəxtiyar Vahabzadə: - Bəli, onun da öz yolu var. Onu təqdir etmək lazımdır. Onun qolundan tutub, irəli aparmaq lazımdır.

Heydər Əliyev: - Düz deyirsən. Mən Anarla danışmışam, sizə də deyirəm, vaxt axtarıram, istəyirəm ki, bu yaxınlarda yazıçıların hamısı ilə, eyni zamanda, ya bir yerdə, ya da ayrıca gənc nəsillə görüşək. Çünki biz vaxtilə bunu edirdik. Məsələn, Anar, Elçin, Yusif Səmədoğlu - xatirimdədir, 25 il bundan əvvəl biz onlarla cavanlar kimi görüşürdük. İndi onlar yaşlaşıblar. Amma gərək bugünkü gənclərlə də görüşək. Belə cavanlarımız var və olacaqdır.

Bilirsiniz, bəzən mən çox görkəmli şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, müğənnilərimiz haqqında düşünəndə deyirdim ki, görəsən, bu gedəndən sonra onu kim əvəz edəcək? Amma sonra fikirləşib gördüm ki, yer boş qalmır. Gedən gedir, amma yenisi də başqa ruhda yaranır. Bəlkə də, Bülbül kimisi olmayacaq, amma Bülbülün yerini verənlər olacaq.

Bəxtiyar Vahabzadə: - Azər Zeynalov adlı bir cavan müğənni yetişib. İlahi, o nə gözəl, şirin oxuyur.

Heydər Əliyev: - Bəli, Azər Zeynalov. Mən Rəşid Behbudovu çox sevirdim. Rəşid Behbudov yaşlaşdıqca mən daim narahat olurdum ki, onun yerini kim tutacaq. İndi baxıram, Azər Zeynalov gözəl oxuyur.

Fəxr etməliyik ki, bizim Rəşid Behbudov kimi böyük bir müğənnimiz olubdur. Bu yaxınlarda Moskvada onun çox böyük yubileyini keçirdik. Moskvadan gələn böyük-böyük adamlar mənə deyirdilər ki, son

illər Moskvada belə bir şey olmamışdır. Oradakı "Rossiya" salonunda Moskvanın bütün elitası, ziyalıları toplaşmışdılar. Bunun mənası nədir? Biz, birincisi, Rəşid Behbudovu xatırladıq, onu yada saldıq. İkincisi, Azərbaycanın musiqisini, mədəniyyətini göstərdik. Üçüncüsü, Rusiya və Azərbaycan mədəniyyətini bir-birinə yaxınlaşdırdıq. Görürsünüz, bir tədbirlə nə qədər məsələ həll olundu.

Bəxtiyar Vahabzadə: - Cənab Prezident, Füzulinin yubileyi bir möcüzə idi. Yadınıza gəlir, İhsan Doğramacının köməyi ilə Türkiyədə Füzulinin yubileyi qeyd olundu. Pis deyildi. Amma respublikamızda keçirilən yubiley bir möcüzə idi.

Heydər Əliyev: - Bəli, xalqımızı tanıtmaq lazımdır. Mən neçə ildir çalışıram, işləyirəm, bir məqsədim var: xalqımızı tanıtmaq!

Siz indi Fransaya səfərim haqqında soruşdunuz. Mən Fransada üç gün oldum. Mən buradan təyyarə ilə saat 8-də uçdum. Otelə çatandan yarım saat sonra biz Fransa Prezidenti ilə görüşə başladıq. Həmin gün gecə saat 1-dək görüşlər davam etdi. O birisi gün də bütün gün görüşlər oldu. Üçüncü gün mən Fransada işlərimi qurtardım, saat 4-də oradan çıxdım. Həddindən çox görüşlər, böyük auditoriyalar oldu. Bunlar bir çox məqsəd daşıyır. Amma bunun ən böyük məqsədi Azərbaycanı tanıtmaqdan, ölkəmizin bu gün nə olduğunu göstərməkdən ibarətdir. Biz buna nail olduq.

Füzulinin yubileyi də, həm Füzulinin yubileyinə, xatirəsinə hörmət idi, həm də Füzulini və xalqımızı dünyada tanıtmaq məqsədi daşıyırdı. Bax, xalqımız belə xalqdır ki, 500 il bundan əvvəl onun dahi bir şairi olubdur və onun əsərləri 500 ildir ki, yaşayır.

Bəxtiyar müəllim, daha Sizin vaxtınızı almaq istəmirəm, xəstəsiniz. Allah şəfa versin. Mən inanıram ki, bu, son əməliyyatdır, daha belə əməliyyat olmayacaq, çıxacaqsınız, möhkəm işləyəcəksiniz və öz yerinizdə möhkəm dayanacaqsınız.

Bəxtiyar Vahabzadə: - Allah Sizdən razı olsun. Çox sağ olun.

Heydər Əliyev: - Mən Sizə hörmət və ehtiramımı bildirirəm. Təşəkkür edirəm ki, cərrahınız belə yaxşı əməliyyat aparıbdır. O, Yeni


Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Bax, Milli Məclisdə belə cərrahlarımız var. Biz bununla da fəxr etməliyik. Fəxr etməliyik ki, Milli Məclisimizdə bu cür mütəxəssislər, ziyalı adamlar var. İndi Milli Məclisimiz keçmiş Milli Məclisdə olan bazarkomlardan ibarət deyil. Xalqı təmsil edən belə ziyalılardır, Sizsiniz, elm adamları, bilikli adamlardır. Mən çox məmnunam. Sağ olun.

Bəxtiyar Vahabzadə: - Çox sağ olun. Allah Sizdən razı olsun. Allah ömrünüzü uzun eləsin.

"Respublika" qəzeti, 25 yanvar 1997
"Ləyaqət", Bakı 1998

"Xalq qəzeti", 4 yanvar 1997
"Ləyaqət", Bakı 1998





SÜLEYMAN DƏMİRƏL: “SİZ TÜRK DÜNYASININ YAŞAYAN ƏN BÖYÜK ŞAİRİSİNİZ”

Bu yazımızda xalqın tarixi yaddaşına əbədi hopmuş şair, professor, müəllim və nəhayət, millət vəkili kimi Bəxtiyar Vahabzadədən söz açmaq fikrindən uzağıq. Onsuz da Bəxtiyar müəllimi tanıyanlar, qəbul edənlər və etməyənlərin hər biri müxtəlif fikirdədir. Biz bu gün onun xəstəliyi ilə bağlı Türkiyə səfərindən danışmağı, bu səfərdə onu müşayiət edən dostu, professor Nurəddin Rzayevin təəssüratını, onun ürək sözlərini oxuculara çatdırmağı vacib və lazım bildik.

Hüsü Hacıyev küçəsi 19, mənzil 18. Qapını üzümə qızı Gülzar xanım açdı. Həyat yoldaşı Dilarə xanıma özümü təqdim edib, gəlişimin məqsədini bildirdim. Və dəhlizdə Bəxtiyar müəllimin solğun sifətli uca boyu göründü.

- Xoş gəlmisən, qızım!

- Sağ olun. Siz də xoş gəlmisiniz, evinizə, Azərbaycana. Necəsiniz?

- Buyur otağa. Necəliyimi söhbətləşərik.

SƏFƏR ASTANASINDA

... Çay süfrəsi arxasında üç nəfərik. Bəxtiyar müəllim, onun yaxın dostu Nurəddin Rzayev və mən. Nədən və necə başlayacağımı fikirləşmədən birbaşa mətləbə keçirəm.

- Bəxtiyar müəllim, necə oldu ki, müalicə üçün Türkiyəni seçdiniz?

- Mən seçmədim, qızım. Qoy, bir az əvvəldən başlayım. Elə xəstəliklər var ki, onu açıb-ağartmaq olmur. Bilirsiniz ki, mən parlament iclaslarına az-az gedirdim. İclas vaxtı hər 10-20 dəqiqədən bir zalı tərk etmək etikaya sığışan şey deyil, axı. İclaslarda belə iştirakım narahatlıq doğururdu. Noyabrın axırlarında Prezidentimiz məni yanına dəvət etdi və mən hər şeyi olduğu kimi açıqladım. Təklif etdi ki, məni dövlət hesabına Türkiyəyə müalicəyə göndərsinlər. Razılaşdım. Cəmi üç gün sonra Türkiyənin respublikamızdakı səfiri Faruq bəy mənə zəng vurdu. Bildirdi ki, Ankarada "Nümunə" xəstəxanasında sizin üçün yer ayrılıb. Mən bu səfərə tək gedə bilməyəcəyimi demişdim. Aydın oldu ki, müalicə müddətində Nurəddinin mənimlə orada qalması da nəzərə alınıb. Hər ikimiz üçün yer ayrılıb. Artıq səfərim reallaşmışdı. Mən bir şeyi qeyd edim. Bayaq dedim ki, müalicə üçün Türkiyəni mən seçmədim. Bu, taleyin qismətidir, qızım. Hələ uşaqlıqdan məndə Türkiyəyə böyük maraq olub. Türkiyəni özümüzə həmişə arxa bilmişəm. Nə isə, dekabrın 2-də yola düşdük.

- Bəxtiyar müəllim, təbii ki, türk xalqı sizi tanıyır və sevir. Orada şübhəsiz, dostlarınız da az deyil. Sizə olan sevginin şahidi olmaq, bunu duymaq, yəqin çox xoş oldu. Bu duyğularınızı bizimlə bölüşərsinizmi?

- Qızım, bilirdim ki, orada məni tanıyanlar, sevənlər var. Qarşılıqlı münasibətlərin yaxşı olacağını da bilirdim. Amma bu cür qarşılanmanı, nəvazişi, qayğını ağlıma gətirmirdim və gözləmirdim. Mən nə deyim? Bəlkə, Nurəddin müəllim danışsın?..

TÜRKİYƏDƏN NƏ DEYİM?

- Nədən başlayım ki, Bəxtiyara olan o hörmət, izzətin bir hissəsini sizə çatdırım, - deyə Nurəddin müəllim üzünü mənə tutur. Mən elə Türkiyəyə qədəm basdıqları dəqiqədən, yəni qarşılanmadan tutmuş, yola salınana qədər yadda qalan maraqlı anları və əsas xəstəliklə bağlı söhbətləri açıqlamağı xahiş edirəm.

- Yaddaqalan deyəndə ki, qızım, Türkiyədən nə deyim, orada keçirdi-

yimiz günlərin heç biri unudulan deyil. Bəxtiyar danışmağa təvazökarlıq edir. Türkiyədə təyyarədən enəndə bizi ilk qarşılayan səfirimiz Məmməd Novruzoğlu oldu. O, səfirliyin nümayəndələri ilə gəlmişdi. Yenicə görüşüb, hal-əhval tutmuşduq ki, bir nəfər bizə yaxınlaşıb özünü təqdim etdi. Süleyman Dəmirəlin sürücüsü idi. Dedi ki, bəs, mən sizi qarşılamağa gəlmişəm. Cümhur Başqanı Lissabondadır. Gedəndə sizi qarşılayıb xəstəxanaya aparmağı tapşırıb. Düzü, bunu gözləmirdik. Gəldik xəstəxanaya. Bir şeyi qeyd edim ki, Bəxtiyar müəllim bu xəstəlikdən uzun müddətdi ki, əziyyət çəkirdi. Artıq üzülüşmək vaxtı çatmışdı. Sağ olsun prezidentimiz Heydər Əliyev cənablarını ki, onun təklifi, təkidi ilə bu iş baş tutdu.

XƏSTƏXANADA

Gəldik xəstəxanaya. Baş həkim Osman bəy Müftüoğlu *(o, həm də Süleyman Dəmirəlin şəxsi həkimidir)* yox idi. O, Lissabonda prezidenti müşayiət edirdi. Bizi baş həkimin müavini Həsən bəy Maraş qəbul etdi. Əvvəlcədən ayrılmış otaqları göstərdi: Bəxtiyar üçün iki otaqlı lüks palata *(qəbul və yataq otaqları)*, onun yanında da mənim üçün bir otaq. Xəstəxanaya nahaqdan "Nümunə" adı verməyiblər. Buradakı qəbul, qulluq, nəzakət, qayğı mən deyərdim ki, ən yüksək səviyyədə idi. Ən yaxşı aparatlarla təmin olunmuş bu xəstəxananın ən çətin, ağır xəstələrə şəfa vermək imkanı var.

Bəxtiyarın müayinəsi uzun çəkmədi. Bir günün içində bütün orqanların fəaliyyəti öyrənildi. Qan təzyiqinin, əsasən, əsəblə bağlı olduğu məni sevindirdi. O biri xəstəliklə bağlı isə mütləq əməliyyat aparılmalı idi.

GÖRÜŞÜNƏ GƏLMİŞƏM, ŞAİR!

Bir şeyi qeyd etmək yerinə düşər ki, Bəxtiyarın xəstə kimi Türkiyədə müalicə alması ictimai hadisəyə çevrildi. Bütün qəzetlər, televiziya dəfələrlə bu barədə məlumatlar verdi.

Lissabondan qayıdan Süleyman Dəmirəl, öncə, Bəxtiyarın görüşünə

gəldi. Altmış beş milyon əhalisi olan bir ölkənin prezidentinin Bəxtiyarın yanına gəlməsini gözləmirdik. Hər ikimiz sevindik. Süleyman Dəmirəl xəstəliklə bağlı xeyli söhbətdən sonra dedi:

- Heç elə şey olarmı ki, siz burada Azərbaycan dövlətinin hesabına müalicə olunasınız. Siz təkcə Azərbaycanın şairi deyilsiniz. Siz türk dünyasının yaşayan ən böyük şairisiniz. Buna görə də sizin müalicəniz Türkiyə dövlətinin hesabına olacaq. Sizə nə lazımdı edəcəyik. Baş həkim də gəlib, buradadı. Səhhətinizlə bağlı arxayın ola bilərsiniz.

Bəxtiyar bir söz demədi. Bu, dövlətlərarası həll olunmalı işi biz həll edəsi deyildik ki! Qızım, bir şey Bəxtiyarı çox kövrəltdi. Çox incə mətləbdi. Prezident onun yanından çıxandan sonra həmin mərtəbədəki bütün palataları gəzdi, xəstələrə baş çəkdi, halını, əhvalını soruşdu. Bu, onun nəcibliyini, insanlığını sübut edən böyük hadisə idi.

ƏRBAKAN DƏMİRƏLDƏN GERİ OLMAQ İSTƏMƏDİ

Süleyman Dəmirəl gedəndən sonra qəzetlər, televiziya onun xəstəxanaya gəlişini işıqlandırdılar. (Bizim televiziyanın oradakı müxbiri İbrahim Nəbioğlu mütəmadi görüşə gəlirdi).

Prezidentin gəlişindən iki gün keçmişdi ki, baş nazir Nəcməddin Ərbakan xəstəxanaya gəldi. Çox mehriban adamdır. Yarım saat oturdu. Xeyli söhbət etdi. O da Bəxtiyara öz sevgisini bildirib dedi:

- Siz Azərbaycanın deyil, türk dünyasının deyil, bütün islam dünyasının böyük şairisiniz.

Bu, orada bir az narazılığa səbəb oldu. Belə ki, islamçılar dedilər: Bəxtiyar haçandan islamı tərənnüm edir? Bəxtiyar, öz növbəsində, məcbur oldu, aydınlıq verməyə ki, Ərbakan islam dünyasının deyəndə, islamçılığı təbliğ etmək mənasında yox, islam dünyasında tanınmağı nəzərdə tutub.

Haşiyə: İstər Süleyman Dəmirəlin, istərsə də Nəcməddin Ərbakanın Bəxtiyar Vahabzadənin görüşünə gəlməsini, ona belə yüksək qiymət verməsini, onların təkcə Azərbaycan ədəbiyyatını bilib, onun böyük şairinə verdikləri qiymət kimi dəyərləndirmək düzgün olmaz. Bu,

ümumiyyətlə, Azərbaycan xalqına, Azərbaycan dövlətinə və ən başlıcası, Azərbaycan Prezidentinə olan böyük hörmətdən doğan ehtiram idi. Nə qədər teleqramlar var, ilahi! Gələ bilməyənlər, imkan tapmayanlar "keçmiş olsun" diləyini teleqrama köçürüb, "Nümunə" xəstəxanasına ünvanlayıblar. Teleqramlar arasında tanış ad gözümə dəydi. Olduğu kimi oxuculara çatdırıram:

Halən yurd dışında bulunduğumdan ziyarətinizə gələmiyorum. Sizə keçmiş olsun der, acil şəfalar dilərim. Professor doktor Tansu Çillər. Dış işləri bakanı və başbakan yardımçısı".

Moskvadan ünvanlanmış bu teleqram böyük çiçək buketi ilə göndərilmişdi. Bəxtiyar müəllim deyir ki, düzü, belə şeyləri demək, bir az düzgün çıxmır. Amma deməmək də mümkün deyil. Hörmətli Prezidentimiz Heydər Əliyevin Süleyman Dəmirəllə telefon söhbətində Bəxtiyardan söz açması, xarici işlər naziri Həsən Həsənovun Türkiyəyə zəng vurması - bunlar hamısı insanı riqqətə gətirən şeylərdir. Türkiyənin dövlət nazirlərinin yarısı onu yoxlamağa gəldi. Gələ bilməyənlər üstündə vizit kartı olan çiçək buketi göndərirdilər. Mən xüsusilə Göydəmirlinin və Namiq Kamal Zeybəkin adını çəkmək istəyirəm. Dövlət naziri Namiq Kamal Zeybək iki-üç dəfə xəstənin yanına gəldi. Bir dəfə də həyat yoldaşıyla gəlmişdi. Sonra Bilkəndi* tikən məşhur alim və xeyriyyəçi İhsan bəy Doğramacı, - kimləri deyim?

*Ankaranın yaxınlığında salınmış universitet şəhərciyi.





KİM DEYİR Kİ, QORXMURAM, YALAN DEYİR

- Bütün insanların təbiətində qorxu var. İntəhası, bunu gizlədə bilənlər var, gizlətməyənlər var. Əvvəla, bizi gedəndən son dərəcədə yüksək səviyyədə qarşıladılar. Hər cür müayinədən sonra əməliyyatın günü təyin olunmuşdu. Bu Bəxtiyar ki var, bu da qorxunu gizlədə bilməyən lərdəndir. Məndən xahiş etdi ki, mənə əməliyyatın gününü bildirməyin. Narkozu adi iynə kimi vurun, mən bilməyim. Razılaşmışdıq. Baş həkim bilirdi. Əməliyyatdan bir gün əvvəl növbətçi həkim gözlənilmədən otağa girdi və elan etdi: Bəxtiyar Vahabzadə, sabah əməliyyata! İşarə etməyə gecikdim. Bir də gördüm kişinin rəngi qaçdı, təzyiqi qalxdı. Dedi, bu nədir, bəs mənə söz vermişdiniz?

Getdim baş həkimlə danışdım, əməliyyatın gününü dəyişdik. Dekabrın 11-i əməliyyat günü təyin edildi. Bütün həkimlərə tapşırıq verildi ki, bu, məxfi saxlanılsın.

Televiziyada, "Ana xəbərlər"ə baxırdıq, bir də gördük ki, doktor elan edir: "Sabah Azərbaycanın ünlü şairi Bəxtiyar Vahabzadə əməliyyat ediləcək". Bəxtiyarın yenə rəngi qaçdı, dedi, bu nədi, bütün Türkiyə bilir, məndən başqa. Dedim, qardaş, həkimlərin ağzını yummağı bacardıq. Bu müxbirlərlə bacarmaq olmur, axı. Nə isə, Bir az keçmiş Bakıdan Dilarə xanım zəng vurdu. "Ay həkim, bəs bizə niyə xəbər verməmisən? Televizorda eşitdik". Onları sakitləşdirmək üçün dedim ki, "əməliyyat"

bunların ləhcəsində müayinə deməkdir. Sabah müayinə başlayır.

Əməliyyatı Almaniyada təhsil almış Məsud Çətinqaya etdi. Mən bu həkimlə 1989-cu ildən tanış idim. Bu uroloq cərrahla konfransda iştirak etmişdim. Əməliyyat otuz beş dəqiqə, bıçaqsız, yarmadan, özümün iştirakımla, çox yüksək səviyyədə oldu. Üç gündən sonra Bəxtiyar ayağa qalxdı.





ZİYARƏTÇİLƏRİN ARDI-ARASI KƏSİLMİRDİ

Bu şəhərdə mənim üzərimə çox böyük məsuliyyət düşürdü. Mən Bəxtiyarla həkimlər arasında araçılıq edirdim. Bəxtiyarın dediklərini və demədiklərini həkimlərə çatdırmaq, həkimlərin dediklərinin bir hissəsini ona çatdırmaq və bir hissəsini çatdırmamaq mənim öhdəmə düşmüşdü. Bunlar azmış kimi, gələn ziyarətçiləri nizamlamaq, içəridəkilərin çölə çıxmasını gözləmək, çöldən içəri neçə nəfəri dəfət etmək çox çətin idi. Gələnlərin isə ardı-arası kəsilmirdi. Dövlət rəhbərlərindən sonra Milli Hərəkat Partiyasının lideri Alparslan Türkeş və bütün siyasi partiyaların liderləri gəldilər. Bütün naşirlər, müəllimlər, ədəbiyyatçılar Konyadan, Bursadan, İqdırdan, Urfadan, Amasiyadan maşın-maşın gəlirdilər. Ailəliklə, uşaqlarını da maşınlara yığıb gəlirdilər. Torbalarında Bəxtiyarın kitablarını gətirirdilər ki, şair imza atsın. "Biz Bəxtiyar xocamızın əlini öpməyə gəlmişik" - diləyində gələnlərin Bəxtiyarla görüşünü təşkil etmək çox çətin idi. Bəzən deyirdim ki, şair yatır, saatlarla gözləyirdilər. Bəziləri kitab istəyirdilər. Bunları imzalamaq isə asan deyildi. Rahat kreslolarda, vestibüllərdə, dəhlizlərdə oturub, mənim onları içəri dəvət edəcəyimi gözləyirdilər. Bu qədər xalq məhəbbətinin belə miqyasda olmasını heç birimiz gözləmirdik. Təsəvvür edin ki, Konyadan bir müəllim öz ailəsi, uşaqları ilə görüşə gəlmişdi. Hələ həkimlərin münasibəti nəyə desən dəyərdi. Düzü, arada mən göz qoyurdum ki, görüm, o biri xəstələrə münasibət necədir. Heç bir fərq görmürdüm.

Bir sözlə, mən bir həkim kimi, dost, qohum kimi bu müayinədən, müalicədən çox razı qaldım. Həkimlərdən Həsən bəy Maraşın, baş həkim Osman Müftüoğlunun, Məsud bəy Çətinqayanın, terapevt Səmra xanımın göstərdiyi nəzakətin, nəvazişin yerini heç nə verməz.

“Xalq qəzeti”, 4 yanvar 1997
“Ləyaqət”, Bakı 1998





SÜLEYMAN DƏMİRƏLLƏ
İKİNCİ GÖRÜŞ

B.Vahabzadə:

Ayın 15-də xəbər gəldi ki, Prezident Qazaxıstandadır, gələn kimi Bəxtiyarla yenidən görüşmək istəyir. Onu gözləsin. Ayın 16-a aldığımız bileti qaytardıq. Deyilən gün və deyilən vaxtda, dekabrın 17-də saat yeddinin yarısında maşın gəldi. Mən Prezident iqamətgahına gəldim. Saat yarım söhbət etdik. O şeylər ki, Vətənlə bağlı məni maraqlandırırdı, narahat edirdi, xüsusilə Lissabon sammiti barədə bilmək istəyirdim. S.Dəmirəl dedi ki, ermənilər hay-küy salıblar ki, guya qələbə bizimdi, tam yalandı. Bu, Azərbaycanın xeyrinə oldu. O, bu barədə də nikbin danışırdı. Çünki Prezidentimizə, onun qüdrətinə çox inanır. Bundan başqa, ortaq dil məsələsi ilə bağlı mən öz təkliflərimi dedim. Türk xalqları arasında ünsiyyət dilinin vacibliyindən söz açdım. Elə bir dil olsun ki, məsələn, qazaxla türkmən öz aralarında ortaq bir türk dili ilə danışa bilsinlər. Bu, Türksoy təşkilatının yaradıcılarından biri Namiq Kamal Zeybəkin və Dil kurumunun sədri Ə.Bican Ercilasunun fikridir. Mən bu fikirləri Süleyman Dəmirəl cənablarına bildirdim. Türk xalqlarının ortaq akademiyasını yaratmağın vacibliyini qeyd etdim. Çox mehriban söhbətimiz oldu. Bir şeyi qeyd edim ki, onların bizə bu münasibəti Azərbaycan xalqına münasibət idi. Mənə o qədər qayğı, nəvaziş göstərilirdi ki!..

- Adam təzədən xəstələnmək istəyir, eləmi?

Nurəddin müəllim sualıma gülüb söhbətə qoşulur.

- Mənim rəhmətlik Xudu Məmmədovla bağlı kitabımda belə bir yer var. Habil Kaman deyir ki, bu ölənlərin haqqında elə yaxşı sözlər deyirlər ki, adam ölmək istəyir (Gülüşürük).

- Bəs millət vəkili Bəxtiyar Vahabzadəni tezliklə iclaslarda görə biləcəyikmi?

- Yaxın bir ay ərzində yox.

- Məndən olsa, hələ iki-üç ay istirahət etsə, yaxşı olar. Bu əməliyyatdan sonra əsəblərin sakitləşməsi üçün xeyli vaxt tələb olunur, - deyə Nurəddin müəllim əlavə edir.

Bəxtiyar müəllim sözünün sonunda dedi:

- Hər iki respublikanın dövlət başçıları H.Əliyev, S.Dəmirəl cənablarına mənə göstərdikləri böyük qayğı üçün dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

- Bəxtiyar müəllim, Nurəddin müəllim, maraqlı söhbətə görə çox sağ olun. Xəstəliklə bağlı müəyyən hisslərinizi tərpətdimsə, bağışlayın. Amma, Bəxtiyar müəllim, nə qədər xoş münasibət görsəniz də, mən sizə yenidən heç bir xəstəxana həyatı arzulamıram.

- Sağ ol, qızım! Mən də yeni ildə "Xalq qəzeti"nin kollektivinə iti qələm, operativlik, həqiqəti anlamaq və yazmaq bacarığı arzulayıram.

Bəxtiyar Vahabzadənin qonağı oldu Zərifə Bəşirqızı

"Xalq qəzeti", 4 yanvar 1997
"Ləyaqət", Bakı 1998





TÜRKİYƏYƏ İLK SƏYAHƏT

Türkiyə ilə mənim ilk tanışlığım 1961-ci ilin fevral ayında olmuşdur. O zaman mən Azərbaycan yazıçıları – Osman Sarıvəlli, Məmməd Rahim və Yusif Səmədoğlu ilə bərabər Afrika boyu 40 günlük turist səyahətinə çıxmışdıq. Bu səhyahət onlar üçün adi bir turist marağı idi. Amma mən içimdəki duyğularımı səyahət yoldaşlarıma bildirmədən qəlbən uçurdum. Çünki bu, yalnız mənim deyil, atalarımın arzusu idi. Babamın, atamın və əmilərimin dilindən Türkiyə kəlməsi düşməzdi. Mən indi soyumdan gələn arzularımın, xəyallarımın məmləkətinə gedirdim.

"Estoniya" adlı gəmidə Odessadan İstanbula üzürük. Səhət saat 6-da yataqdan qalxıb üzümü qırxıram. Gecəni sevincimdən yata bilməmişəm... Axı, səhər tezdən İstanbulda olacağam... Arzularımın, ideallarımın şəhərində. Dünyadakı bütün türk xalqlarının gözünü dikdiyi bir şəhərdə. Türk dünyasının qibləgahı olan İstanbul! 35 illik ömrüm boyu həsrəti ilə yaşadığım adını çəkdiyim zaman bütün bədənimi lərzəyə salan, qoluma qüvvət, bədənimə taqət, gözlərimə işıq verən bir şəhərə gedirəm. Ümidgahım, səcdəgahım, zorla əlindən alınmış adımın sahibi, namusumun, izzət və şərəfimin qoruyucusu, görən gözüm, vuran qolum, düşünən beynim, arxam, köməyim, dayağım, tarixim, bayrağım! Mənim itirdiklərim - tarixim, keçmişim, ana dilim, şərəfim - hamısı səndədir.

Kayutun pəncərəsindən baxıram. Uzaqda mayak yanıb-sönür...

Allah! Həyatımda ilk dəfə türk işığı görürəm. O işıqda mənim arzularım yanır. Ey mayak, sən tarix boyu sənə düşmən olan bir imperiyanın gəmisinə yol göstərirsən. O gəminin içində isə bir nəfər canını sənə qurban verməyə hazır olan qardaşın gəlir. Bosforu keçirik. Uzaqda sahil işıqları göz qırpır. Maşınlar o yan-bu yana gedir. Böyük gəmi-tramvay bu taydan o taya adam daşıyır... Yavaş-yavaş dan yeri ağarır. Hər iki sahildə qəribə, yaraşıqlı binalar görünür. Sahil çox mənzərəlidir. Uzaqdan görünən balaca türk gəmisi "Estoniya" ya yaxınlaşır. İşarə ilə ona dayanmaq əmri verir. "Estoniya" dayanır, lövbər atır. Mən necə sevinirəm. Çünki əmri verən mənim dövlətimdir. İcra edən isə mənim düşmənim. İlahi, mən nə xoşbəxtəm! Mənim də əmr edən dövlətim var. Mən bu şirin düşüncələr içərisində olduğum zaman balaca türk gəmisindən iki polis və bir nəfər də liliputa bənzər eybəcər kişi gəmiyə qalxır. Ömrüm boyu həsrətində olduğum türklərdən gördüyüm ilk adam bu balaca liliput oldu. Sərnişinlər ona baxıb gülür. "Estoniya"nın kapitanı nəhəng rus istehzalı nəzərlərlə liliputu süzür. Liliput polislərlə kapitanın otağına keçir. Mən onları gözlərimlə yemək istəyirəm. Ancaq onlar mənim yanımdan etinasız ötürlər.

Heç demə, liliput həkim imiş. Turistlərin iynə vurub-vurmadığını yoxlamağa gəlibmiş. Polislər isə pasportları yoxlayacaq və bizə şəhərə düşmək vəsiqəsi verəcəklər.

Bunlar çox gözəl. Ancaq məni yandıran odur ki, Türkiyə hökuməti bu boyda Türkiyədə bir gözəgəlimli həkim tapa bilmirdi ki, bizi yoxlamağa liliput göndərib? Axı, bu liliput Türkiyəni təmsil edir.

Polislər gəminin getməsinə icazə verir. Burda sevinirəm. İcazəni türklər verir. Ürəyim dağa dönür. Mənim də dövlətim, hökmüm var. Bizə şəhərə getmək icazəsi verirlər. Vəsiqə mənim dilimdə yazılmışdır. Möhürün üstünü oxuyuram: "Türkiyə cümhuriyyəti". Mən sənə qurban olum, ay mənim cümhuriyyətim, ay mənim məndən uzaq vətənim! Məndən ötrü yanan, amma mənə kömək əlini uzada bilməyən vətənim! Mən vəsiqənin üstündəki möhürü dönə-dönə öpürəm. 35 illik ömrümdə bütün vəsiqələrim rus dilində yazılmışdır. Ömrümdə onca saat mənim şəxsiyyətimi bildirən vəsiqəm öz dilimdədir. Mən yalnız indi mənəm! Sonralar bu vəsiqə barədə bir əsər də yazdım.

Gəmi İstanbula tərəf hərəkət edir. Sahili seyr edirəm. Sahildə uca binalar, qədim qalaların uçuq hasarları, ucu iynə kimi şiş minarələr, məscidlər görünür. Sahildən "Estoniya"ya laqeyd nəzərlərlə baxan türkləri görürəm və təəccüb edirəm, niyə onlar bilmir ki, bu gəmidə ürəyini onlara verməyə hazır olan qardaşları var. Gəmi İstanbula yan alır. Mənim başımdakı buxara papaq da onların nəzərini cəlb etmir. Onlar bilmir ki, mən onların özüyəm. Mən gavur deyiləm. Mən ömrüm boyu onların yolunu gözlədim, gəlmədilər. Budur, indi özüm gəlmişəm. Bəs onlar niyə mənə bu qədər laqeyddirlər?

Nəhayət, İstanbul torpağına ayağım dəydi. Bu müqəddəs torpağı əyilib öpmək istədim. Amma yol boyu məni izləyən casuslardan qorxdum. Belə də dərd olar? Yan, amma elə yan ki, alovun görünməsin?

Vur-tut 10 saat İstanbulda qaldıq. Şəhəri gəzdik. Küçələr dilənçilərlə doluydu. Dükanlarda satıcılar boş-boş oturmuş, müştəri gözləyirdi. Satan çox, alan yoxdu. Qiymətlər çox yüksəkdir.

Muzeylərin tərtibatı o qədər də ürəkaçan deyil. İnsanlarla səmimi danışmaq, onların qəlbinə yol tapmaq istəyirdim. Ancaq onlar buna heç meyli deyildilər. Şivəmdən Anadolu türkü olmadığımı anlasalar da, hardan gəldiyim və kim olduğum onları maraqlandırmırdı. Türk olduğumu və Azərbaycandan gəldiyimi deməyimə baxmayaraq, üzlərdə heç bir maraq əlaməti görmürdüm.

Gəmi həmin gecə Afinaya yol aldı. Səyahət dostlarım Akropol haqqında kitablardan oxuduqlarını bir-birinə anladır və boyük tarixə sahib olan köhnə Afinanı - filosoflar və şairlər diyarını öz gözləri ilə görəcəklərinə sevinirdirlər. Mən isə öz ağırlığımca dərd yükü altında əzilir, susur və onların nə dediklərinin fərqində belə deyildim.

Ağlımda bircə şey vardı: böyük imperatorluqlar quran, dünyanın 3 qitəsinə hakim olan Osmanlı dövlətinin varisləri bu gün neçin bu hala gəlmiş? Neçin köhnə əzəmətini və qüdrətini itirmişdir?

O gecə gəmidə yata bilmədim. Dünən gecə də yata bilməmişdim. Amma dünən gecə İstanbulu görmək arzusu ilə sevincimdən, bu gecə isə umduqlarımı görə bilmədiyimdən və xəyallarımın yıxıldığından yata bilmədim.

Rus qəzetlərində Türkiyənin ağır və acınacaqlı durumundan bəhs

edən məqalələri oxuduğum zaman inanmaz, hər şeyi tərsinə yozar və özümə təsəlli verərdim. İndi gözlərimlə gördüklərimə necə inanmayım? Gecədən xeyli keçmişdi. Yatağımdan qalxıb gəminin göyərtəsinə çıxdım. Əllərimi göyə açaraq Allaha üz çevirdim: "Ya rəbbim, sən yardım et! Türkiyənin keçmişini, onun əzəmətini və qüdrətini özünə qaytar".

Vətənə qəlb ağrısıyla döndüm. Bu səyahət haqqındakı düşüncələrim "İstanbul" şeirini yazmama səbəb oldu:

Boğaz içi
İki qitə
Dayanmış baş-başa
Ortasında bu yolun.
Bir tərəfi Avropadır,
Bir tərəfi Asiya
İstanbulun.
Türk oğlu durub ortada
Seyr edir
Sağını,
Solunu.
Bir şəhərdə birləşir
İki qitə.
Birinin başlanğıcıdır,
Birinin sonu...

Fevral, 1961.
"Ömürdən səhifələr" kitabı, "Ötükən" 2000.






ƏYİLMƏZ BİR SƏNƏTKAR

(MÜASİRLƏRİ BƏXTİYAR VAHABZADƏ HAQQINDA)





DÜŞÜNDÜRƏN POEZIYA

Fəal narahatlıq, zaman qarşısında mənəvi cavab¬dehlik bütün dövrlərdə ciddi poeziyanın əlaməti olmuşdur. Bu keyfiyyət Bəxtiyar Vahabzadə şerində güclüdür. Yazıçı Mehdi Hüseyn vaxtilə onun haqqında yazdığı məqalələrdən birini heç də təsadüfi olmayaraq belə adlandırmışdı: «Narahat şair»

Özü də narahatlıq – bu poeziyanın yalnız əlaməti deyil, həm də bilavasitə predmetidir: şair bir neçə şerində «narahatlığı» işıq, hərəkət, həyat və dirilik təcəssümü kimi tərənnüm edir:

Dünyada yaşamayan dünyadan dinclik umar.
Yanmağında tapmalı dincliyini sənətkar!

Aşağıdakı misraları isə bütünlükdə Bəxtiyar şeri¬nin estetik və əxlaqi devizi kimi qəbul etmək olar:

Yaşamaq yanmaqdır,
yanasan gərək.
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək
Onun da həyatı yanmağındadır.

Əsrlə üzbəüz, təkbətək söhbət, zamanla həmdərd və həmdəm bir şairin daxili duyğu və düşüncələri – bu narahatlığın bədii ifadəsinin

üsul və formasıdır.

Adı «XX əsr» olan zamanın obrazına şairin yaradıcılığında tez-tez rast gəlirik. Lakin Bəxtiyar poeziyasında «zaman» anlayışı dəqiq sərhədlərə sığdırılan konkret-tarixi bir dövrün – müasirliyin hüdudlarından çox-çox kənara çıxır. Zamanla ünsiyyət burada həm də tarix və əbədiyyətlə, gələcəklə müsahibə deməkdir; dərin bəşəri düşüncələrə dalan, dünyanın taleyi üçün həyəcan keçirən şairin daxili nitqi, öz mənəvi vicdanı ilə müsahibəsi deməkdir. Geniş fəlsəfi mənada zaman və düşünən, lirik şair «mən» - Bəxti¬yar şerində poetik dialoqun iki dəyiş¬məz, iki daimi qütbüdür.

Lakin fəlsəfi «Zaman» obrazı bu poeziyada heç də hər cür konkretlik fövqündə durmur, sərhədsiz, mücərrəd simvol təsiri də bağışlamır; əksinə, şairin milli, ictimai və estetik idealı ilə bilavasitə əlaqələnir.

Bəxtiyar şeirində zamana maraq - xalqın mənəvi əbədiy-yətinə, mənəvi «indi»sinə və keçmişinə olan maraq deməkdir. Zaman onu yalnız xalqın tarixi taleyi ilə, xalqın mənəvi və əxlaqi həyat təcrübəsi ilə bağlılığı baxımından düşündürür və narahat edir. Keçmişi də, gələcəyi də şair məhz «Vətən tarixinin» səhifələri kimi varaqlayır.

Bəxtiyar poeziyasında «saf» halda təbiət təsviri, demək olar ki, yoxdur. Azərbaycan burada heç yerdə xalis «peyzaj» şəklində deyildir. Hətta Vətən də şair üçün, hər şeydən əvvəl, Zamanı təmsil edən surət və simvol – ədəbi-əxlaqi yaddaş və mənəvi-tarixi bir vicdandır. Şair üçün müqəddəs olan hər şey məhz «Ana Azərbaycanın» yaddaşında əbədiləşir və qorunur. Çünki bu «yaddaş» keçici və ötəri yox, həqiqi və milli olan əbədi ruhu, mənəvi fərdiliyi və müstəqilliyi yaşadır. Odur ki, şair gələcəyi də, keçmişi də məhz xalqın «hafizəsində» oxuyur, yoxlayıb, sınayıb qiymətləndirir.

Elə buna görədir ki, Bəxtiyar Vahabzadə üçün ayrıca bir «tarixilik» anlayışı yoxdur; ayrıca bir ənənəvi «milli xarakter», ayrıca bir müasir «intellektual qəhrə¬man» yoxdur. Onun üçün yalnız eyni, vahid, yekparə varlıq – müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi, həm mənşə, həm də gələcək kimi, beşik, ocaq, yuva və ana kimi tərənnüm olunur. Belə bir Vətən rəmzi xalqın

mənəvi tamlığını və böyüklüyünü daha dərindən duymaqda, dünyaya tanıtmaq¬da şairə kömək edir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında zaman və Vətən anlayışı bir də işıq anlayışı ilə bağlıdır. Od, işıq – bizim poetik ənənəmiz üçün bəlkə də ən qədim, ən davamlı bir obrazdır. İşıq – ümid və vətən rəmzi kimi məlumdur. Bəxtiyar bu obraza yeni məna çalarlığı əlavə edir. Hər şeyi zamanla ölçən şair zamanın da «ömrünü» işıqla, «işığın ömrü» ilə əlaqələndirməyə çağırır:

Söndürmə çırağı!
Çıraq yananda
Elə bilirəm ki, gün qurtarmayıb.
Söndürmə çırağı,
Söndürmə yansın,
Qoy günüm uzansın, nəşəm uzansın!

İşıq – sürət timsalı, işıq – tərəqqi, hərəkət və mənəvi yanğı timsalıdır:

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od –
Mən oddan yaranmışam!..

Şairə görə ürək alışmasa, Vətən də işıqsız qalar, içəridən «alışıb yanmasa» hətta təyyarələr də qütbləri birləşdirə bilməz.

İşıq həm də ona görə gözəldir ki, o, ən yüksək sürət ölçüsüdür. Zaman və məkan qütblərini yalnız işıq sürəti birləşdirə bilir. Ən böyük tamlığı, bütövlüyü və vəhdəti işıq sürəti mümkün edir.

Fəlsəfi zaman, məkan və işıq anlayışları varlıqla, dünya ilə ünsiyyətinin üfiqlərini böyütməkdə, öz düşüncələrinə vüsət və qanad verməkdə şairə kömək edir. Vəhdətə və tamlığa, ölçüsüzlüyə və

nəhayətsizliyə əbədi, doyumsuz bir təşnəlik ruhu Bəxtiyar poeziyasının «narahatlıq» keyfiyyətinin əsas məzmununu təşkil eləyir.

Şair sərhədsiz dünya və ömür haqqında fikirləşir. İnsan kamalı yeni hüdudlar fəth etdikcə sürət çoxalır, zaman ləngiyir, kainat böyüyür və genişlənir. Bəxtiyar şeirinin ümid və inam pafosu bu yüksək fəlsəfi nikbinlikdən doğur. Sərhədsiz dünya yaradan insana şair sərhədsiz də ömür və əməl arzulayır:

Mən sahili olmayan dənizlər istəyirəm,
Mən axşamı olmayan gündüzlər istəyirəm!..

yaxud:

Sonu olan ömrü istəmirəm mən,
*Çıxaydım zaman*ın çərçivəsindən.

Ümumiyyətlə, hər cür sərhəd şairi məyus edir, sükut onu həyəcana gətirir, təklik darıxdırır.

O, dibçək çiçəklərini sevmir, qəfəs qartallarına acıyır, bütün ömrü qutuya – maşina, mənzilə və kabinəyə sığışan meşşan həyatına lənətlər yağdırır.

Baharı da, meşəni də, üfüqləri də çərçivələrə sığdıran rəssamlara şair meydan oxuyur, dənizi sahillərsiz, səmanı üfüqlərsiz, uzaq yolları isə mənzillərsiz görmək istəyir:

Rəssam, çəkdiyin yol dönsün, burulsun
Dağların dalında itib yox olsun!
Məchul bir aləmə uzat sən onu,
Görmək istəmirəm yolun sonunu...

Şairin hər cür sərhədlərə romantik etirazı yeri gəldikcə konkret ictimai məzmun kəsb edir. Bir şerində o, öz üsyanını dünyanın sinəsini cadar-cadar eləyən sərhəd direklərinə, xəritələrdəki rəng və çərçivələrə

qarşı çevirir:

Hər yerdə torpağın rəngi bir ikən,
Niyə biz ayırdıq onu yüz yerə?!

Sərhədlərə üsyan edən şair zaman, il, ay və saat vahidlərinə də sığışmır.

Dostlar, anın sürətini qabaqlayıb biz
Zaman üçün təzə ölçü yaradaq gərək!

Zamanı təqvimlərə, səmanı və torpağı sərhədlərə, xəritələri rənglərə bölməyə etiraz ruhu Bəxtiyar poeziyasının pafosuna hakimdir. Ümumiyyətlə, bu şerləri zaman, xəyal və arzu haqqında düşüncələr adlandırmaq olar.

Şairi zaman və gənclik, zaman və uşaqlıq motivi də maraqlandırır: o, məktəb və ali təhsil illərinin xronikasını əks edən təbii, səmimi şerlər silsiləsi yaradır.

Şairi zaman və müasir insan problemi düşündürür. O, «İnsan və zaman» başlığı altında hələ bitməmiş şerlər silsiləsini davam etdirir.

Nəhayət, şairi zaman və yoxluq, zaman və ölüm səltənəti arasında əlaqə və təzadlar mövzusu narahat edir *(«Nekroloq», «Baş daşı»)*. Maraqlıdır: qəbiristanlıq, adətən, zamansızlıq assosiyasiyası doğurur. Çünki ölülər üçün vaxt anlayışı yoxdur. Ölən üçün saat və ürək eyni vaxtda dayanır. Lakin zamanın bu yoxluq səltənətində də şair mənalı zaman vahidləri və ölçüləri tapır: burada zaman vahidi – məzarlardır! Qəbiristanda məzar-məzar addımlayan zamanın hərəkətini şair cismləşdirmiş və əyaniləşdirmişdir. Şairə görə, zamanın başqa bir qəribə vahidi və vardır – Nekroloq! Ona ömrün sərhədlərini göstərən rəqəmlər həkk edilir. Lakin şair nekroloqda rəqəmlərin yox, əməllərin, arzuların ifadəsini görmək istəyir.

Bəxtiyar Vahabzadəni ən çox cəlb edən mövzular sırasına bir də zaman və sürət, zaman və kosmos haqqında düşüncələrini daxil etmək

olar. O, qitələri və planetləri birləşdirən, ömrü gələcəyə yaxınlaşdıran sürəti tərənnüm edir. Çox vaxt yanaşı, qoşa işlətdiyi sürət və zaman anlayışlarına, onlar arasında vəhdət və əlaqələrə şairin verdiyi poetik mənalarda zamanı ləngitmək, anın də ömrünü uzatmaq haqqında hələ Faustin elan etdiyi poetik çağırışın davamını görürük.

Zamanı ləngitmək, saatı, anı saxlamaq – bu ən qədim Faust arzusu məhz bizim günlərdə də insanın böyük arzusu olaraq qalır və təmamilə müasir səslənir. Çünki ləngiyən hər bir an duyulan daha böyük gözəllik, uzanan daha böyük gənclik və bahar ömrü deməkdir. Zaman üzərində qələbə məhz zamanı ləngitmək faktında əks olunmurmu? Əgər nə vaxtsa insan zamana hakim kəsilsə idi, ona «Tələs» yox, «Saxlan» hökmünü verərdi. Şairin tərənnüm etdiyi işıq və fikir sürəti də məhz zamanı ləngitmək üsulu və vasitəsi kimi romantik və şairanə səslənir.

Qüvvətli ictimai mündəricə, mübariz siyasi ruh Bəxtiyarın «Səyahət» başlığı altında davam etdirilən şeirilərini, səyahət janrında yazılan ənənəvi xatirə şeirlərindən fərqləndirir. «Səyahət» şerləri Bəxtiyarın ən yaxşı vətənpərvərlik şeirləri ruhundadır. Xüsusən «Yollar – oğullar» poemasında ərəb xalqının milli azadlıq hərəkatına şairin ehtiram və rəğbəti aydın hiss olunur. Bəxtiyar öz «səyahət» dəftərini planetlərarası fəzaya, Aya, kosmosa səfər yollarında da davam etdirir.

Bəxtiyarın kosmos şeirləri çoxdur. Həm də o, kosmosdan yalnız mövzu götürmür, bəlkə kosmosun bir sıra göstəricilərində, onun sürət, əzəmət, sonsuzluq və intəhasızlıq ölçülərində öz arzularının və duyğularının ölçülərini axtarır. İndi bəşər təfəkkürünün zirvəsini məhz kosmos haqqında elmi fikir təşkil edir. Kosmosa xitab edən bədii fikir, əgər səthi görünmək, sadəcə illustrasiya olub qalmaq istəmirsə, elmi idraka paralel bir bədii idraka çevrilməyi bacarmalıdır. Bəxtiyar poyeziyası öz ən yaxşı nümunələ¬rinin timsalında bu şərtə sadiq qalır və cavab verir.

Çox yaxşıdır ki, şair kosmosun dərinliklərinə aludə olurkən belə, insan qəlbinin dərinliklərini yaddan çıxarmır. Daha doğrusu, o, iki kosmosla həmişə eyni vaxtda maraqlanır. İkinci – mənəvi kosmos şairin ruhuna daha doğma lirikaya, psixoloji mövzu və motivlərə geniş meydan verir. Əgər birinci halda onu ən çox düşündürən zaman və sürətdirsə,

ikinci də – iztirab və etiraf məfhumlarıdır. Ümumiyyətlə, Bəxtiyar həmişə toxunduğu məsələnin fəlsəfi dərinliyinə, onun mahiyyətinə varmağı, adi həyat hadisələrini poetikləşdirib, mənalandırmağı sevən şairdir.

Daxili-mənəvi aləm, ürək və vicdan dünyası da kosmosdakı amansızlıq və çəkisizlik dünyasına bənzər: burada da hər şey özgə təsir və cazibələrdən kənarda – büllur vicdan güzgüsü üzərində əks olunur. Şairə görə, ağlın qələbəsi sürətdirsə, qəlbin qələbəsi etirafdır. Mütləq günahsızlıq qeyri-mümkündür. Lakin «etiraf» artıq bağışlanan, bəraət alan günah deməkdir, ürəyin mənəvi təmizlənməyə haqqı və hüququdur.

Şair haqlı olaraq kamal və əxlaqdan vəhdətdə bəhs edir. Qalileyin vicdan və əxlaq qəhrəmanlığını onun elmi xidmətindən üstün tutur. Bu şer belə bir doğru fikrin poetik təsdiqidir ki, əxlaqın qələbələri bəşərin əxlaqi taleyinə ağlın qələbələrindən daha çox təsir göstərir. Çünki əxlaq olmayan yerdə kosmos və atom da, ağlın silahları da qəbilə, tayfa dövründən qalan instinktlərin silahına çevrilir. Odur ki, şair göylərin fəthi dövründə də hələ mövcud olan hüquq məhkəmələrinə təsadüf edir, bütün inzibati məhkəmələri ürək və vicdan məhkəmələri ilə əvəz etməyə çağırır. Qoy, bütün hökmlərə ürək qərar versin. Çünki ağıl çox şey götürür, çox şeyi qəbul edir, amma ürək yox:

Ürəyim ağrayır, ürəyim – dedim,
Heç «beynim ağrıyır» deyən görmədim.

Bəxtiyar Vahabzadənin bütün şeirlərini bir «mən»in düşüncələri hesab etmək olar. Onların əsasında həmişə ömrün dolaylarında özünü, qəlbini gəzən bir şairin axtarışları durur. Hər şey – təbiət də, dünya da burada şair xəyalının güzgüsündə görünür. Özü də «mən»in dərki burada kainatın dərkindən daha çətin elan edilir:

Bilək bu dünyada dünya yaradan
Ömürlər dünyanı niyə tərk edir?

Göyləri, yerləri dərk edən insan
Bəs niyə özünü çətin dərk edir?

Şair bu şeirlərini düşüncələr axını, təfəkkürün gürşad axarı üsulunda yazır. «Alışıb, od tutmaq», mənəvi yanğı keyfiyyəti və temperament onun ən yaxşı şeirlərində həqiqi şeir enerjisinə çevrilə bilir: Bəxtiyar poe¬ziyasının gücünü də məhz emosional və əqli ünsürlərin vəhdət tapa bildiyi şerlər təşkil edir. Bu poeziyaya məxsus ilıq və intim bir nəfəs istiliyi, təbii, səmimi lirika məhz bu ahəngdən və harmoniyadan qüvvət alır.

Bəxtiyar, şəxsiyyəti yaradıcılığında qabarıq təzahür edən şairlərdəndir. Onun poetik «mən»i, fərdi üslubu, lirik qəhrəmanı poeziyamızın mənzərəsində aydın cizgiləri ilə seçilir. Şairin əksər əsərləri arasında bədii-fəlsəfi cəhətdən dərindən qavranılan daxili poetik vəhdət duyulmaqdadır. Bu vəhdətin ahəngi və aydınlığı həmin əsərlərə tamlıq və bütövlük, ideya, mövzu və məqsəd ümumiliyi, vahid proqram istiqaməti və məqsədəuyğunluğu verir.

Bəxtiyar poeziyasının bədii forma xüsusiyyəti də onun ideya-fikir istiqaməti ilə şərtlənmişdir. Bu poeziyanın həm bədii-estetik, həm də ideya-fikir sərvəti məhz xalqın milli-mənəvi və etik-əxlaqi sərvətlər çeşməsindən su içir. Bu şeirləri belə geniş miqyasda sevdirən və yayan da ənənəvi Şərq müdrikliyinə şairin qoruyub saxladığı daimi sədaqət, xəlqilik, sadəlik və səmimilik keyfiyyətləridir. Bədii formanın mürəkkəbliyi və qeyri adiliyi yox, məhz müasir poetik intellektin, müasir təfəkkür tərzinin yeniliyi bu şeirə spesefik bədii əda, poetik novatorluq gətirir. Əxlaqi və həyati problemləri şair həmişə vəhdətdə təqdim etməyə çalışır, ən qədim və əbədi məsələlərdən bəhs edəndə də onun şeiri müasir səslənir.


Yeni, müasir mənada fikir poeziyasına qüvvətli meyl indi ədəbi prosesə bütünlükdə xas olan ümumi bir istiqamətdir. Yaradıcılıq üslublarının bugünkü şegrimizə məxsus zənginliyi və fəallığı şəraitində biz bu ümumi istiqamətin bir çox fərdi təzahür formalarına rast gəlirik. Bu fərdi təzahür formalarından, fəlsəfi və intellektual keyfiyyət dəyişikliyinə


doğru yolda şerimizin keçirdiyi orjinal mərhələlərdən biri, şübhəsiz, şair Bəxtiyar Vahabzadənin yaradıcılığı ilə ifadə və təmsil olunur.

Artıq qeyd etdiyimiz kimi, Bəxtiyar sərhədlərə və çərçivələrə meydan oxuyan bir şairdir. Biz şair ürəyinin fırtınasına, hər cür məhdud çərçivələrə qarşı üsyanına haqq veririk və təsdiq edirik ki, belə bir şair üçün gənclik və ömür sərhədi də yoxdur: sənət dünyasında zaman və fəsil bölgüsü, «çərçivə» təsnifatı özünü doğrultmur...

Yaşar Qarayev

1974.





ŞAİRİN VƏ ŞEİRİN MİLLİLİYİ

Vətənin və şairin taleyi həmişə qovuşur və kəsişir. Millət pərən-pərən düşüb, torpaq şəhid olanda, torpağın şeir qatı, poeziya örtüyü də əsir düşür və şəhid olur. Necə ki, neçə ildir Şuşada durna qatarının səfi dağılıb və Füzulidə Füzuli qəzəlinin sətrinin sapı, nizamı, sahmanı pozulub, Qarabağda atılan mərmilər səmadan, torpaqdan əvvəl poeziyaya dəyib. Kim isə deyib ki, Osventsimdən son¬ra daha lirika yazmaq olmaz. Baqanis-Ayrımdan, Ağdabandan, Göyçədən, Xocalıdan, Şuşadan… sonra poeziya yaratmaq – ondan da qat-qat çətin işə, çətin sınağa, çətin müşkülə çevrildi. «Zamanın bağları» yenə gərildi və qaytan bu dəfə Qarabağda qırıldı. Dünya bizim üçün Şuşada məhvərdən çıxdı. «Ümumbəşəri əxlaqa xəyanət» Danimarkada, Hamletin sarayında yox…, Qafqazda, Pənah xanın Qalasında baş verdi! Nəinki Vaqifin, Nəvvabın, Üzeyirin, hətta Vurğunun da qələmi ilk dəfə Şuşada sındı: «Könül candan» - Şuşa Azərbaycandan ayrı düşdü! Tanrı bizdən üz döndərdi, qələm dildən, dil könüldən, könül eldən ayrı düşdü. Xarıbülbül Əlyetməzdən, Qırat çənli Çənlibeldən, Babək Bəzzdən, qartal düzdən, şair sözdən uzaq düşdü. Bütün bunlar hamısı isə ona görə baş verdi ki, «körpü çaydan uzaq düşdü»!.. Və şair taleyin bu alın yazısını millətin faciəsi kimi, zamanın və dövranın ibrət dərsləri kimi, şeirinin ünvanına çevirərək böyük poe¬ziyanı bir daha xalqın yadına saldı. Və inandırdı ki, sən demə, ürəkdə, ruhda, içimizdə lap dərində, hansısa ucqar bir hücrədə hələ də mənəvi işığa – poeziyaya yer qalıbmış!.. Torpaq dərdindən, qaçqın müsibətindən, güzəran və bazar qayğısından,

qeyrət və şərəflə alverdən, rəyasət davasından, xəyanətdən, haramdan, rüşvətdən başqa da, əlavə daha nəyə isə boş məkan qalıbmış!.. Bu «boş məkan»ı yalnız həqiqi şeirlə, əsl poeziya ilə doldurmaq olar. Bəxtiyar Vahabzadə ünvanlı məhvərdə dövrün, zamanın məhz böyük hərfli, böyük ənənəli Poeziyası fırlanır. Əgər o, yenə də ürəyi, yenə də efiri, yenə də Meydanı aşana-daşana qədər doldurursa və bu qədər pərəstişkarı öz işığına toplayırsa, deməli, Azərbaycanda şeir hələ də yaşayır, döyüşür, səfərbər edir və Vətən, xalq qarşısında öz böyük tarixi, milli vəzifəsini yerinə yetirir…

Bəxtiyar çağdaş şeirin tarixinə müharibədən sonrakı nəslin nümayəndəsi kimi daxil olub. Aprel çevrilişinin, «37» deyilən dövrün, dünya müharibəsinin imtahanından çıxan milli şeiri daha sonrakı «dinc illər»in, əxlaqi axtarışlar, texniki inqilab, «yenidənqurma», azadlıq hərəkatı və suverenlik deyilən dövrlərin sınağında qoruyub saxlamaq bu nəslin öhdəsinə düşüb. Nəslinin uğurlarını daha qabarıq ifadə etmək isə bir şair kimi Bəxtiyara nəsib oldu. Məhz nəslinə, xalqına, kökünə bağlılıq, təkrarsız, fərdi, milli çalar Bəxtiyar şeirini çağdaş Azərbaycan poeziyasının tarixi-bədii faktına və hadisəsinə çevirib, ondan müasir Şərq və dünya şeir prosesinin məcrasında danışmağa əsas və haqq verib.

Bu şeiri dərindən açan iki-üç ən səciyyəvi xüsusiyyət haqqında düşünərkən, mənim yadıma, hər şeydən əvvəl, «millilik» sözü düşür. Niyə «milli şeir»? Kimdir «milli şair»? Məncə, yalnız millətin adından danışmaq haqqını qazanan şair «milli şair» olur. Xalqın dərd-sərini xalqla bölməyən, Vətən parçalananda ürəyi parçalanmayan şairə necə «milli şair» demək olar?! Bəxtiyar Vahabzadə bu haqqı hələ əllinci illərdən – «Gülüstan» poemasını yazdığı vaxtdan qazanıb. Vətənin iki yerə bölünməsinin tarixi «Gülüstan» müqaviləsi ilə başladığı kimi, onun – ürəyi parçalanan şairin də ağrısı və hayqırtısı «Gülüstan» poeması ilə başlayıb:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə «ver!» dedi.

Lap yaxşı eyləyib doğrudan bizə,
Biri «baran» dedi, biri «xər» dedi.

Bütövlükdə, o illərin poeziyasında «Gülüstan» təzə bir hadisə idi və tamamilə yeni səpkili bir şairin sənət meydanına qədəm qoyduğunu xəbər verirdi: sadəcə olaraq, mövcud poetik adlar siyahısına növbəti bir ad, imzalar içinə təzə imza əlavə olunmurdu, yox, poeziyaya milli narahatlığın tərcümanı, xalqın «dərdinin dəlisi», azadlıq, istiqlal uğrunda mübarizənin əsgəri, «vəkil»i daxil olurdu:

Bilmirəm bu millətə
Vəkil etdi kim məni?!.

Bu sözlər altmışıncı illərdə yazılmışdı və şairin rəsmən millət vəkili olmasına onda hələ çox qalırdı. Lakin o zamandan Bəxtiyar Vahabzadə özünü sənət mehrabında eşq, gözəllik aşiqi kimi yox, savaş meydanında istiqlal və azadlıq əsgəri hesab edir. Və poeziya da ona yalnız «İstiqlal» adlı ünvana, mənzil başına aparan cığır, yol kimi lazım olur. Daha doğrusu, millətin azadlığını milli poeziyanın böyük idealına o illərdə hamıdan çox Bəxtiyar Vahabzadə çevirir.

Bu şeiri ən dərindən səciyyələndirən ikinci bənzətmə, obraz, ifadə axtaranda yadıma «ağrı» sözü düşür. Bu şeir lap ilk gündən Bəxtiyara ən doğma və məhrəm obrazdan – əriyən, şəhid olan şamdakı əzabdan və ağrıdan başlayır. Məhz Bəxtiyar müasir şeirin də şamını Füzuli ahının odundan yandırır:

Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.

Əlbəttə, «ağrı poeziyası»nın tarixi qədimdir, hətta Füzulidən, Bayrondan, Dostoyevskidən də qədimdir. Lakin şeir də, lirika da Xirosima və Naqasakinin külü altında qalandan sonra, Buhenvalddakı və Sibirdəki ölüm düşər¬gələrindən, Osventsimdən, Xatından, Xocalıdan sonra po-

eziyada ağrının mənası və ona həssaslığın miqyası dəyişmişdir. Ağrıya həssaslığın – Xatın fəryadının heç kəsə bənzəməyən böyük lirikasında Azərbaycanı Bəxtiyar Vahabzadənin şeiri ləyaqətlə təmsil edir. Adətən, həkim ağrını korşaldır, əsəbi öldürür və ağrıyan dişi ağrısız daşa çevirir. Əsl şeir isə, əksinə, hər cür eroziyanı, pas örtüyünü, piy qatını əxlaqa, vicdana həssaslığın əsəbi üzərindən götürür, hətta küt dişi də əsəbi açılan, yandırıb – qovuran dişə çevirir. Məhz elə buna görədir ki, müasir şairlərdən biri Bəxtiyar Vahabzadə haqqında yazır ki, o öz sinəsində hər zərbəyə açıq, «dərisi soyulmuş ürək» gəzdirir. Və yenə də bəlkə elə buna görədir ki, məhz dərisi soyulmuş şairi – Nəsimini Bəxtiyar Vahabzadənin lirikasının da, dramaturgiyasının da əsas qəhrəmanı kimi görürük.

«Pələng dərisi geymiş pəhləvan»ı gürcü poeziyasının simvolu hesab edirlər. «Dərisi soyulmuş Nəsimi»ni həm Bəxtiyarın, həm də bütövlükdə Azərbaycan şeirinin rəmzi saymaq olar.

Bu isə çox mənalı və ibrətlidir. Alimlər hətta sivilizasiyanın və ekologiyanın səviyyəsini ağrıya həssaslığın səviyyəsi ilə ölçürlər və hesablayırlar. Qədimdə ağrıya küt nəhənglər – dinozavrlar yaşayıb: başqaları gəlib, onu sinəsinə qədər yeyib, amma yenə vücudunun yarıya qədər yeyilməsindən xəbəri olmayıb. Elə ona görə də nəsli kəsilib. Həmin dinozavrlara bənzəyən, ağrıya həssaslıqda skleroz olan xalqlar, millətlər də var: yarısına qədər yeyirlər, xəbəri olmur. Böyük poeziya, milli poeziya milləti məhz belə sklerozdan qoruyur!..

Nəhayət, bu poeziyanı vəhdətdə səciyyələndirən üçüncü xüsusiyyəti də qeyd etməyə bilmirəm.

Bəxtiyar şeiri oxunanda yox, dinlənəndə daha sehrlidir. Burada səsin təsiri sözün cazibəsindən güclüdür.

Maraqlıdır ki, hayqırtı, səs, haray, fəryad... özü Bəxtiyar şeirində ayrıca obrazdır, hətta addır, sərlövhədir. Onun pyeslərində bir sıra obrazların ancaq səsi eşidilir, özü görünmür («İkinci səs», «Dar ağacı», «Yağışdan sonra», «Fəryad»). Ümumiyyətlə, bu poeziya Şəkidə, ucqar kənd məhəllələrindən birində çalınan məktəb zəngi ilə başlayır, sonuncu kitabının üzərində yazılan «Fəryad» sözündəki harayla öz

zirvə və yekun məqamına gəlib çatır. Artıq bir kənddə çalınan məktəb zəngi kimi yox… planetə səs salan həyəcan zəngi kimi, Nəsiminin və Babəkin, Cordano Bruno və Qalileyin, Buhenvald harayının, Xatının, Xocalının, Şuşanın fəryadının ağrısı, əcdadın, keçmişin yaddaş zəngi kimi səslənməyə başlayır. Və onda artıq təkcə məktəb və uşaqlar üçün yox, dünya və bəşər üçün qayğıların miqyası və vüsəti görünür.

Canlını cansızdan ayıran ilk əlamət – məhz Səsdir. Birini çoxdan görməyəndə «səsin-sorağın gəlmir» - deyirik, hətta qeybdən də yalnız «səs gəlir», görüntü enmir. Şam yalnız yananda işıq verdiyi kimi, su da yalnız axanda, külək də yalnız əsəndə (yəni, yaşayanda) səs verir. Musiqini və musiqi alətini ilk dəfə kəşf edən Qorqud düz iyirmi səkkiz il fasiləsiz qopuz çalır və bu müddətdə məhz qopuzun səsi ölümü ona yaxın gəlməyə qoymur: iyirmi səkkiz ildən sonra birinci dəfə qopuzu yerə qoyub (susub!) bir anlığa mürgü vuranda isə ölüm ilan cildinə girib onu çalır. Məgər Şəhrzad ölümü, zərbəni, zədəni özündən uzaqlaşdırmaq, ömrü uzatmaq üçün düz min gün, min gecə nağıl danışmırmı?! Məhz öz milli şairinin, rəssamının, bəstəkarının… səsi, sözü, harayı həmişə fasiləsiz, həmişə ucadan eşidilən millətə, xalqa da zaval yoxdur. Bəxtiyar bir də məhz bu mənada səsin hikmətini vaxtında və dərindən duyan, müqəddəs, uca tutan şair və sənətkardır.

Özü də biz bu şeirdə səsi yalnız haray və gurultu şəklində görmürük, həm də daxili səs və xəfif pıçıltı şəklində görürük. Ömrü boyu ətrafla, hamı ilə cəng-cidalda, özü ilə isə əmniyyət və sülh şəraitində yaşayanlar var. Və, əksinə, ömrü boyu ətrafla, dünya ilə mehriban sülh, təkcə öz daxili ilə amansız cəng və savaş içində yaşayanlar var. Bəxtiyar ikincilərdəndir və xoşbəxtlərdəndir. Çünki məlumdur ki, ətrafla cəng-cidaldan demaqoqluq doğulur, daxillə, «mən»lə savaşdan isə lirika! Şair ömrü boyu həmişə özü ilə savaşda olub:

Bir yandan özümün ittihamçısı,
Bir yandan özümə vəkil olmuşam…

Və bunun da nəticəsi həmişə o olub ki, « Bircə ondan razıyam ki,

özümdən narazıyam».

«Narazılıq», milli mənafe və qeyrətlə təzad təşkil edən hər şeyə müxaliflik bu poeziyada diriliyin, kamilliyə doğru daimi, fasiləsiz hərəkətin əsas təkanvericisidir.

Əlbəttə, «narazılıq» yalnız şairlə öz «daxili» arasında deyil, şairlə rəsmi ictimai gerçəklik arasında da olub. Xüsusilə, «Gülüstan», «Latın dili», «Yollar-oğullar», «Dan yeri», «Qara qutu», «Amerika gözəli», «Mərziyə» əsərləri dəfələrlə şairlə müvafiq rəsmi dairələr arasında təhlükəli «görüşlər»ə gətirib-çıxarıb. Qorxu kabusu həmişə şairin başı üstündə firlanıb və elə vaxt olub ki, şübhəli şeirlərini o, hətta Gülzar ananın ayaq protezində gizlətməli olub.

Nə yaxşı ki, Ruha, Mənəviyyata protez qoymaq mümkün deyil. Poeziyada yalnız axıra qədər yanmaq, sona qədər əriyib yox olmaq olar. Bu yolda şairin üzləşdiyi bir məqamı da xatırlatmaq istəyirəm.


Hətta «Leninlə söhbət» kimi fəal siyasi mövqe ifadə edən bir sərlövhə də şairi növbəti qəsddən xilas edə bilmədi. Rəhbər ədiblərdən biri «yuxarı»ya raport yazdı. Lakin həmin poemanın fəsillərinin əvvəlində Lenindən epiqraf kimi gətirilən məqsədəuyğun tutarlı misallar şairi labüd repressiyadan xilas edən qalxan rolunu oynadı. Bununla bərabər, mən çox yaxşı bilirdim ki, onun elə şeirləri də var ki, onları üzə çıxarmır, arxivində qoru¬yub saxlayır. Və bu şeirlər, ilk dəfə, şairin 1991-ci ildə nəşr etdirdiyi «Nağıl-həyat» kitabında işıq üzü görmüşdür.


Daha sonrakı on illərin suverenlik ideologiyasını da məhz altmış-yetmişinci illər, bu dövrün böyük nəsri və şeiri hazırlamadımı?! Xüsusilə milli renessansı məhz hərarətli, romantik şairlərin istiqlal çağırışı hazırlamadımı?! Ümumiyyətlə, dünyanın ən romantik və tragik istiqlalı Azərbaycan istiqlalı olub və dünyada istiqlalın ən romantik şeirini də həmişə türk şairləri yaradıblar: Mehmet Akif Ərsoy, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, Nazim Hikmət, Səməd Vurğun, Rəsul Rza… İstiqlal rəmzini həm şeirində, həm də sinəsində gəzdirən çağdaş şairlər – Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza da bu ənənənin davamıdır.

Mən sözlərimi son müşahidəmlə və müqayisəmlə bitirmək istəyirəm.

Adətən, poeziyanı çörəklə müqayisə edirlər. «Çörək olsa, mahnı da olar, şeir də olar», - deyirlər. Mən bu qanadlı kəlamı bizim ağır və böhranlı günlərin real gerçəkliyində sınamaq istədim və Şəkidə Bəxtiyar Vahabzadənin yetmiş illiyi günlərində yubiley mərasimindən əvvəl çörək dükanına getdim. Burada mənə balaca bir şagird dəftəri göstərdilər. Yan-yana düzülmüş sahmanlı, nizamlı sətirlərin sırası mənə şeir misralarını xatırlatdı və mən elə bildim ki, o, şeir dəftəridir. Sən demə, bu dəftər neçə gündən bəri Şəkidə həmin dükandan nisyə çörək alanların adlarının siyahısı imiş! Bəli, bəli, bəlkə də Şəki yeganə şəhərdir ki, hələ də orada siyahıya, etibara, nisyəyə çörək verirlər. Doğrudur, səhəri gün mən kitab dükanına getdim və burada… nisyə kitab alanların siyahısına (dəftərinə) rast gəlmədim. Amma əvəzində başımı qaldırıb kitab rəfinə baxdım və həmin rəfin artıq seyrələn kitabları arasında Bəxtiyar Vahabzadənin təzəcə çapdan çıxan və Şəkiyə gətirilən son şeir toplularından heç birini görmədim. Ürək ağrısı və ürək dolusu fərəh hissi ilə inandım ki, yarı ac, yarı tox şəkili ziyalı (bəlkə də «nisyə çörək» siyahısında adları olanlardan biri!) son tikəsini boğazından kəsmiş və son manatını Bəxtiyar Vahabzadənin «Fəryad» (!!!) kitabına vermişdir. Daha fəryadlı sözlər, bizim ən böyük milli şairin – Sabirin tarixi sözləri yadıma düşdü: «Sabir çörəksiz yaşar, Nizamisiz yox!». Eşq olsun, bu xalq yenə elə həmin xalqdır – çörəksiz yaşayır, Bəxtiyarsız yox!..

Yaşar Qarayev





NƏFƏSİN, SƏSİN İSTİQLAL HARAYI VƏ ENERJİSİ...

Adətən, cəmiyyətdə baş verən qlobal sosial və ideoloji hadisələr miqyasca ona tay, bərabər ədəbi təlatüm və dalğada ətrafa əks-səda salır. Poeziyanın fırtına gücü və enerjisi o zaman birə iki qat artır ki, inqilab nəhrində şair sözün təkcə məcazi yox, üstəlik, həm də hərfi mənasında dalğaya və təlatümə çevrilir.

Bakıda düz üç həftə səngiməyən istiqlal və inqilab nəhrindən bir səhnə indi də gözümün önündədir: Dalğa dənizdə təlatümə gəldiyi kimi, xalqın da ehtirası, sinir və əsəb enerjisi sahildə hərəkətə gəlmişdi. 1988-ci il, 18 may. Çağlayan meydan, elə bil, sahilin fırtınadan doldurduğu və əlində tutduğu qəzəb piyaləsi idi, hələ dünənə qədər susan, təmkin, dözüm göstərən kütlənin artıq səbr kasası dolub daşmışdı. Meydanda bir xalqın ağrısı, əsəbi kükrəyirdi və bu fırtına axtaran" nəhrin "üsyankar qayığı" - şair idi!...

Tənha yelkəni milyon nəfəsin küləyi doldurdu, izdihamın milyon əli və qolu Bəxtiyarı xiyabanın başı üstünə qaldırdı və ta xitabət kürsüsünə qədər şair insan dənizinin dalğasında üzdü. Onu tribunaya aparan yol hələ heç zaman bu qədər kəsə və bu qədər uca olmamışdı. Xalq ilə, el ilə ürək və can birliyini o, hələ heç vaxt bu qədər yaxından hiss etməmişdi. Gözündə və yanağında yaş gilələndi. Şeirin, poeziyanın göz yaşı izdihamın dənizinə, dalğasına axdı...

O zaman xitabət kürsüsündə şairin bir tərəfində yaxın dostu, böyük kristalloqraf alim Xudu Məmmədov, bir tərəfindən isə könül sirdaşı, tibb professoru Nurəddin Rzayev dayanmışdı. Şairin göz yaşlarına dözməyən N. Rzayev onu bağrına basıb "bu gün sənin ağlayan günün de-

yil, əksinə, güləsi günündür. Səni öz çiynində xitabət kürsüsünə gətirən bu insan dalğası isə sənin 40 il əvvəldən bu günə qədər səpdiyin istiqlal toxumlarının cücərtiləridir" - dedi. Yerində deyilmiş bu söz Xudunu da kövrəltmişdi.

Deyirlər ki, dünyada ən əvvəl söz olub. Yox, ilk səs-söz olmayıb. İlk səs hayqırtı olub. Yaralı qurdun hayqırtısı kimi, ürəyi, torpağı parçalanmış şairin hayqırtısı kimi!... Maraqlıdır ki, söz, səs, haray, fəryad... özü Bəxtiyar şeirində ayrıca obrazdır, "İkinci səs", "Fəryad" pyeslərində isə hətta addır, sərlövhədir. Burada səs - təbiətin səsi, özlüyündə insanın, yerin, göyün, fəryadın səsi deyil, millətin, xalqın istiqlal harayının səsidir. Səs, alqış, fəryad, haray - Bəxtiyar şeirində həmişə var, ya pıçıltı, ya da göy gurultusu şəklində! İstiqlal şairi¬nin istiqlal harayı şəklində!...

Bəxtiyar Vahabzadənin publisistikasında bu harayı biz məhz hayqırtı və "göy gurultusu" şəklində görürük. Çünki bu publisistika sakit masa arxasında yazılmamışdır, məmurun və bürokratın kabinet idilliyasında ərsəyə gəlməmişdir. Rəqiblə, yağı ilə üzbəüz, təkbətək savaşdan, yad general sifətinə vurulan beqafil sillədən, efirə, radionun dalğasına qarışan göz yaşından, xalqla dialoqdan, ya da səngərdən, tribunadan söylənən monoloqdan yaranmışdır.

Bu monoloqun əvvəli 1988-ci il hadisələrindən hələ çox-çox qadağa, əllinci illərə, sosialistcəsinə kult və kazarma dövrünə gedib çıxır.

Məsələ ondadır ki, "dissident" fəaliyyəti ilə Bəxtiyar hələ 1959-cu ildə yazdığı və Füzuliyə həsr etdiyi "Şəbi-hicran" poemasından başlamışdı. Yadınızdadırmı:

Sərvət getsə, qəm yemə, sərvət gələr yenə də.
Bu qəmdir ki, bir xalqın ruhuna, eşqinə də
Qəsd edələr... ay aman!
Ələmlərin, dərdlərin hamısından bu yaman!

"Gülüstan", "Yollar-oğullar", "Mərziyə", "Ağlar-güləyən", "Təzadlar" adlı poemaları, "Neo", "Latın dili", "Dan yeri", "Şan-yan deyir" şeirləri və onlarca başqa əsərlər, əslində, "iki mətnli" çox qatlı bədii

nümunələr idi.

Təsadüfi deyil ki, əməl, hərəkət vaxtı gələndə Bəxtiyar yazı masasına dərhal mübarizə səngərini də əlavə etdi. Bu da bizim istiqlal poeziyasının qədim ənənələrindən idi. Mən hələ milli şairlərin əsgər şineli geymiş S.Vurğun, S. Rüstəm, R.Rza... nəslini demirəm, vaxtilə Məhəmməd Hadi Balkanlara gedib, əlində silah Birinci dünya hərbində vuruşmamışdımı?

Yaxud, Əhməd Cavad türklərlə bir yerdə Balkanlarda və Birinci dünya hərbində Şərq cəbhəsində cəng eləməmişdimi?

Şairin əməldə, işdə müharibəsinin də müxtəlif üsulları var. 1990-cı il yanvarın 21-də partiyadan çıxması barədə Qorbaçova ilk teleqramı kim göndərir və elə həmin gün Bakıda mitinqdə bunu xalqa kim elan edir, şəxsi nümunə göstərir?

Yoxsa, xalqı cəzalandıran və televiziyanın enerji blokunu partladan rus generalı Ovçinnikovun üzünə tüpürən, "Siz faşistsiniz!" - deyən, bəlkə, polis və əsgərlərdən biri olub? O vaxtkı partiya və dövlət rəhbərlərindən biri olub?! Yox, təkcə Bəxtiyar Vahabzadənin cəsarəti onda generalın tapançasından qorxmayıb və o, xain niyyətlə gələn əcnəbi zabitə öz şair sözünü deyib.

Bu da azdır.

20 yanvar günü səhər fövqəladə sessiyanın çağırılmasını radioda məhz Bəxtiyar Vahabzadə elan edib və səhv etmirəmsə, bu elan həmin gün *(20 yanvar)* 10-15 dəfə təkrar oxunub.

Nəhayət, özü çağırdığı sessiyanı Bəxtiyar özü də aparıb.

Millət vəkillərinin bir çoxu gəlməmişdi, gələnlərin də çoxu uzaq rayon və şəhərlərdən idi. Bəs, MK katibləri harada idi? (Həsən Həsənovdan başqa). Rayon partiya katibləri, nazirlər, rütbəli, titullu partiya məmurları harda idi?

Bəxtiyar Vahabzadə iclası aparmaq üçün köməkçi seçərkən də yenə məmurlardan birini yox, öz həmkarını - İsmayıl Şıxlını Rəyasət Heyətinə çağırır. 21 yanvar sessiyasını Bakıda bir şair və bir də bir nasir aparır!... Dünya siyasət teatrında görünməmiş bir hadisədir! Məhz budur ədəbiyyatın milli və siyasi həyatda iştirakının bariz nümunəsi!...

Əsgər Vətən qarşısında borcunu torpağa qarışan qanı ilə ödədiyi

kimi, şair də Vətən borcunu poeziyaya qarışan, şeirə dönən, sözə, əmələ çevrilən qanı ilə ödəyir!... Necə ki, Bəxtiyar şeirini də, publisist sözünü də ürəyinin qanı ilə yazır...

Uzaq qazax elindən doğma Bakının harayına ilkin gələn yazıçını - Oljas Süleymenovu da Azərbaycana məhz şairin həyəcan zəngi və təbili çağırmışdı.

Şairin publisistikasında öz əksini tapan, onun əsasını təşkil edən konkret həyati epizodlardan birini də xatırlayıram. Respublikaya 13 ildən artıq rəhbərlik etmiş milli rəhbərə və öndərə öz əli ilə tikdiyi binada, Ali Sovetdə gedən iclasın tribunasında söz deməyə imkan vermədilər. Salonda nə qədər keçmiş rəhbərin özünün yetirdiyi partokrat məmurlar var idi, amma vicdanın, milli-insani şərəfin, həqiqətin sözünü o iclasda da yalnız Bəxtiyar Vahabzadə dedi... Nəhayət, Ceyms Beykerə, Riçard Kozlariçə də üsyan və etiraz dolu məktubları yenə şair Bəxtiyar Vahabzadə yazdı. Kitab, bütünlüklə, arxasında əməllər dayanan yazılardan tərtib edilmişdir. Onun unikal cəhəti də elə budur. Əslində, kitabda oxucuya təqdim olunan digər yazılar da konkret ünvanlara, hər birimizə ünvanlanmış şair və vətəndaş harayıdır. "Şənbə gecəsinə gedən yol" - bu lakonik publisist-fəlsəfi esseni yalnız dünənin, keçmişin faciəli şənbəsinə gedən yol yox, həm də gələcəyin səhərinə, gəncliyə, sabahkı nəslə ünvanlanan vəsiyyət və nəsihət hesab etmək olar.

Bəxtiyarın publisistikası yalnız günün, saatın ehtiyacına reaksiya kimi yaranan ədəbi-estetik sənədlərdə deyil. Şair – ideoloqu həmin hadisələrə gətirib çıxaran təbii, milli və mənəvi ekologiya (təbiət və tarix!), xalqda mentalitet tərbiyəsi, Qarabağ hadisələrini şərtləndirən xarici, qlobal geosiyasi maraqlar, həmçinin, daxili xəyanət və təxribatlara gətirib-çıxarmış əxlaqın və tərbiyənin mənəvi-milli səbəbləri və kökləri düşündürür. Onların hamısının əsasında üç sabit, dəyişməz müəllif mövzusu durur: torpaq, təbiət, zaman, tarix və dil haqqında düşüncələr...

Qarabağı şair Azərbaycanın yalnız ərazisinin yox, mənəviyyatının, mənəvi "mən"inin bir parçası hesab edir və xalqın məhz qeyrəti, şərəfi səviyyəsində onun isməti keşiyində durmağı, əsir düşmüş gözəlin - Şuşanın qurbanı, əzabkeşi, şəhidi olmağı şairin və şeirin, xalqın və ayrılıq-

da hər vətəndaşın vəzifəsi hesab edir *(“Şənbə gecəsinə gedən yol”, “Ləyaqət” məqalələri)*.

Ana südü kimi, ana Vətən və ana torpaq kimi, ana dili də doğulduğu gündən hər bir xalqın mənəvi sərvətinə çevrilir. Məhz dil sərvətini itirənlər sonradan torpağı da itirməyə məcbur olurlar. Vətənə məhəbbət tərbiyəsini dilə məhəbbət dərslərindən başlamağı şair müqəddəs və vacib bilir *(“Ana dilim, ana köküm”, “Ana dili”, “Vətən ocağının istisi” və s. məqalələr)*.


Təkrarsız milli-mənəvi sərvətimiz torpaqla və dillə yanaşı, həm də tarixdir. O, keçmişə yox, bizə məxsusdur. Xalqı tarixlə də tərbiyə etməyəndə, əcdadı, kökü unudanda tarix “ölür”. Tarixindən istifadə etməyən xalq isə yeraltı sərvətindən, təbii enerji ehtiyatlarından istifadə etməyən xalq kimi köməksiz və yoxsuldur. Yalnız yaddaşını itirən millət torpağını, dilini və “mən”ini də itirə bilər. Yəqin, bir də buna görədir ki, şairin bu kitabda publisistikaya çevrilən poeziyasında kökdən, ənənədən bu qədər çox danışılır...


Əgər dünyada başdan-ayağa romantik istiqlal varsa, o da Azərbaycan istiqlalıdır. Dünyanın ən romantik istiqlal şairləri də türk şairləridir: Mehmet Akif Ərsoy, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad, Nazim Hikmət, Şəhriyar, Səməd Vurğun, Rəsul Rza... Xəlil Rza, Məmməd Araz...

Bəxtiyar Vahabzadə həm poeziyası, həm də publisistikası ilə onların sırasında təkrarsız yer tutur.

Yaşar Qarayev

Şairin 1998-ci ildə “Azərbaycan” nəşriyyatında buraxılan “Ləyaqət” publisistik toplsuna ön söz.





ÖZÜNDƏN NARAZILIQ

“Ədalət” qəzetinə rəğbətim Aqil Abbasa sayğılarımdan başlayıb. Çünki nəşriyyata gəlişim də elə Aqil bəylə ilk görüşdən başlayıb və bunu unutmamağa çalışıram. Ona görə də onun hər hansı xahişini, tövsiyəsini və hətta tələbini belə, mahiyyətinə vararaq, məmnunluqla qəbul etməyə bilmirəm.

Bir gün nəşriyyatda qarşımı kəsib dedi ki, Bəxtiyar müəllimdən bir müsahibə götür. Hərçənd böyük şairimizin çox qayğılı olduğunu bilirdim, lakin Aqil Abbasın sözünü yerə salmağı ağlıma da gətirmədən, Bəxtiyar Vahabzadəgilə yollandım. Arayış üçün onu da deyim ki, sözdən “söz” çıxaranları öncədən nəzərə alıb, sualları “nə şiş yansın, nə kabab” prinsipi üstündə kökləmişdim...

Bəxtiyar müəllim, yaradıcılığınızı qavrayanlar Sizi düşüncə və ruhi əzablar çəkən, bəşəri arzular, ideyalar şairi, böyük filosof kimi tanıyırlar. Nəzərinizcə, şeir nədir, bəşəriliklə şairliyin bağlılığı necədir?

“Şeir nədir?” sualına dünyanın bir çox qələm sahibləri, psixoloqları, alimləri müxtəlif cavablar vermişlər. Demək istəyirəm ki, bu sualın konkret cavabı yoxdur. Şəxsən mənə görə, şeir ürək ağrısı, könül fəryadı, duyğular fışqırtısıdır. Sualın ikinci tərəfinə gəlincə, bəşəriliyə gedən yol millilik dən keçir. Dünyanın Füzuli, Puşkin, Bayron, Şiller, Höte, Şekspir kimi bəşəri dühaları o mərtəbəyə millilikdən keçib gəliblər.

Çox tarixçilərin ağzına su aldığı sovetlər birliyinin sərt yasaqları dövründə vicdanınız həqiqətə görə fitva verdi. Cənub dərdi bir çox şairlərimizin yaradıcılığında nisgilli bir mövzu kimi arasıra anılsa da,

məhz Siz bu mövzunu "Gülüstan" poemanızda iki imperiyaya qarşı ittiham hökmünə çevirərək, xalqımızın ən böyük dərdini ortaya qoydunuz. Hansısa şair deyir ki, "Əyil, Kürüm, əyil keç.

Dövran sənin deyil, keç". Sizin misralarınız isə belədir: "Qorxu, qorxu sən nəsən? Əyilməyən başları əyən gizli qüvvəsən!" Nə dövrana əyildiniz, nə də qorxuya. Necə oldu ki, "Gülüstan"ı yazdınız və onu yazmaya bilərdinizmi?

Güney Azərbaycan mövzusunda yazmaq mənim üçün zərurət idi. Mən "Gülüstan"ı yazmaya bilməzdim.

Gerçək dərdlərimiz, ağrılarımız önündə sayseçmə şairlərin yaradıcılığı istisna, çağdaş şeirimizdə romantizm, xülyaçılıq, illüziya, azdırmalar sezilir. Düşkün duyğular, küskünlük aşılayan inilti ruhu da xeylidir. Amma böyük Sabir deyir: "Ağladıqca, kişi qeyrətsiz olur. Necə ki ağladı, İran oldu..." Sizcə, poeziyada ağlartılardan, iniltilərdən mübarizə ovqatına, "gülçiçək" tərənnümündən böyük Azərbaycan amallarının təbliğinə keçilməsi şeirimizə uğur gətirməzdimi? Bu uyğunsuzluğa necə baxırsınız ki, ilin-günün bu vaxtında əksəriyyət müğənnilərimizin repertuarında yar sevgisinə Vətən sevgisindən daha çox yer verilir?

Hələ keçən əsrdə böyük maarifçi Həsən bəy Zərdabi "Əkinçi"də yazırdı ki, "Şairlərimiz gülbülbülü mədh, birbiriniə həcv eləməklə məşğuldur". Bu söz bu gün nə qədər müasir səslənir (xüsusilə nəğmələrdə). Son bir neçə ildə yaranan əksər nəğmələrin sözləri bayağı, ("öldüm", "yandım", "gözlədim, gəlmədi", "gəl, ey yar") musiqisi isə melodiyasız taktdan, ritmdən ibarətdir. Bu "nəğmələr" oyun havalarından seçilmir. Buna görə də müğənnilər oxuduqları zaman tullanıb düşür, rəqs edir. Adama elə gəlir ki, ifaçılar müğənni deyil, rəqqasdır. Düşündürücü mahnılar az yaranır. Məncə, yeni yaranan nəğmələri qəbul edən əlaqədar idarələr bu barədə düşünməlidir.

Mətbuatda bəzən belə bir fikrə rast gəlinir ki, guya böyük əsərlər müharibədən sonra yaranacaq. Fikrimcə, bu qənaət, müəyyən həqiqətlə, həm də zamandan ləngiməyi aşılayan aldadıcı təsəllidir. Necə baxırsınız, qələm zamanın müharibənin önündə getməlidir, ya arxasında sürünməlidir?


Bu barədə mətbuatda söylənilən fikirlərdə müəyyən həqiqət var. Müharibə mövzusunda monumental əsərlər zaman keçəndən sonra yaranır. Əbülhəsənin "Müharibə" romanı da müharibədən xeyli sonra yarandı. Amma bu mövzuda azçox kiçikhəcmli əsərlərin yarandığını bilirik. Əlbəttə, bu, kafi deyil.


Misralarınızda deyirsiniz ki, "...Bircə ondan razıyam ki, özümdən narazıyam". Xalqımızın adınıza bəslədiyi sevgilərsay ğılar Sizdən razılığın ifadəsi olduğu halda, Sizi özünüz dən narazı edən səbəb nədir?

Sənətin zirvəsi yoxdur. Rus şairəsi N.Matveya deyir ki, "Allah məni kamillik zirvəsindən saxlasın". Əgər sənətkar çatdığı pilləni zirvə hesab edirsə, vay onun halına! Elə oradaca inkişaf dayanır. Özündən razılıq sənətkar üçün faciədir. Məndən misal gətir diyiniz misra da qələm əhli kimi özümdən narazılığın ifadəsidir.

Nizami Cəfərov

"Ədalət" qəzeti, 15 aprel, 1998.





...ƏN HƏK... ...ÜLSAYDI, MƏNDƏ...

Vətən, millət, dil sevdalı sair Bəxtiyar Vahabzadə bu sevdadan heç usanmadı...

XX əsrin 30-cu illərində Azərbaycanımızın Qabrovası Şəkidə camaatın xaricdə təhsil aldığına, çoxbilmişliyinə görə molla ayaması qoşduğu Molla Mustafanın və Bəhram bəyin başçılığı ilə çox ciddi bir hadisə - kolxoz quruluşu əleyhinə üsyan baş verir. Kollektivləşməyə qarşı çıxan Şəki əhalisinin yüzlərlə üsyançısı Sovet quruluşunun qoruyucusu "Qızıl Ordu"nun əsgərləri tərəfindən güllələnir. Salamat qalan bir neçə yüz nəfər dağlara çəkilərək bu ədalətsizliyə qarşı ölümdirim mübarizəsinə qalxır. Qaçaqlara elin mərdi, ölümün gözünə dik baxan igid - Qaçaq Abbas başçılıq edir. Gecə-gündüz dağlarda yaşayan qaçaqları 5-6 ailə saxlayır, onların yemək tədarükünü görür. Bu ailələr növbə ilə yemək hazırlayıb küpələrdə həyətə qoyur, qapıları açıq saxlayırlar. Gecə yarısı qaçaqlar gəlib yeməyi aparandan sonra həyət qapısını bağlayır, rahatlanırdılar. Qaçaqlara kömək edənlərdən biri Zəkəriyyə Vahabzadənin ailəsi idi. Quruluşu ellərə sülh, azadlıq bəxş edən humanist bir rejim kimi təbliğ etsələr də, əlinin zəhmətilə dolanan odunçu Zəkəriyyəni buna inandırmaq çətin idi. Əslinə-kökünə bağlı, əqidəsində dönməz, dünyagörmüş el ağsaqqalı 1946-cı ildə dünyadan köçünü çəkəndə də son sözü, dilinin son nidası "Vətən" kəlməsi olub. Bu ailədə, halal çörəkli ocaqda babanın sevimli nəvəsi, kiçik Bəxtiyar böyüyürdü və hadisələrin baş verdiyi donamda 5 yaşı vardı. 5 yaşlı körpə baş verənləri uşaq fəhmilə müşahidə edirdi. Zaman keçdikcə bü-

tün gördükləri, eşitdikləri bir kino lenti kimi daim gözləri qarşısında canlanır, qulaqlarında əqidə sahibi babasının müdrik fikirləri, son kəs dediyi "Vətən" sözü çınlayırdı.

İllər ötdü. Sovet quruluşuna qarşı çıxan qaçaqlar, onlara yardım edənlər tutularaq cəzalandınlır, bir çoxu güllələnir, bəziləri Sibirə sürgün olunur, qalanları ciddi təqib edilir. Amansız təqiblərdən yaxa qurtarmaq üçün Vahabzadə ailəsi də Bakıya köçür. Bakıdakı 136 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiiyyat fənlərini Türkiyənin İstanbul şəhərində təhsil alan, ədəbi-estetik görüşləri "Sərvəti-fünun" şairlərinin, "Ədəbiyyati-Cədidə" yazarlarının, "İttihad və Tərəqqi" tərəfdarlarının aurasında formalaşmış İbrahim Cəfərin tədris etməsi Zəkəriyyə babasının təfəkküründə səpdiyi vətənpərvərlik toxumlarının cücərib boy verməsinə vəsilə olur. Tanınmış əruzşünas Əkrəm Cəfərin qardaşı İbrahim Cəfər yeniyetmə Bəxtiyarın türk dili, ədəbiyyatı və tarixinə marağını dərinləşdirir, bu marağın üfüqlərini genişləndirir. Bir dəfə millətinin tərəqqi etmiş ölkələrlə bir sırada, imzasını imzalar içində görmək kimi müqəddəs arzularla yaşamış nakam şair Məhəmməd Hadidən danışan İbrahim müəllimin riqqətdən, həyəcandan pörtdüyü, kövrələrək göz yaşları tökdüyü hafizısını əbədi həkk olur. Göz yaşlarını uşaqların görməsindən ehtiyatlanan İbrahim müəllim sinifdən çıxdıqda sevimli şagirdi kimi arxasınca qoşan Bəxtiyar onun üzü pəncərəyə hıçqıra-hıçqıra ağladığını görür. Və təbii ki, ondan nə olduğunu soruşur. Müəllim yaşlı gözlərlə şagirdinə baxaraq: "Axı sən nə anlayırsan, nə deyim sənə, get sinfə", - deyir. Dərd, ələm dünyasından onu uzaqlaşdırmaq istəyən müəllimi, əksinə, şagirdinin körpəcə ürəyində dərd ocağı, odu heç son nəfəsinədək öləziməyən, illər bir-birini qovaladıqca daha da şölənənən ələm ocağı çatır. Hadi bu ocağın ilk közlərindəndi... Bu köz - Hadi dağı onu 60-cı illərədək yandırır və həmin yanğıyla qələmə aldığı "Nakam" mənzum dramı ilə sanki su çiləyir. Vətənpərvərlik ruhunda köklənən gənc Bəxtiyar tarixi aspektdə yazılmış əsərləri mütaliə edərək, Azərbaycan və dünya ədəbiyyatını, Ç.Aytmatovu, Tolstoyu və dahi Füzulini, Sabiri daha çox oxuyaraq təpədən dırnağa sözün sehrinə düşür və söz adlı sevgiliyə könül verir. Və bu sevdanın yolu əbədiyyətə

doğru uzandıqca uzandı... Əbədiyyətədək uzanan yol boyunca könül həmdəmi, məlhəmi, yol yoldaşı isə Vətən, millət, Ana dili oldu və o qutsal məlhəm bütün könül dünyasını, ürəyini, qəlbini, varlığını süslədi, ruhunu qapsadı. Həyat amali, ideali onu yurddaş edən yurdun ağrı-acılarını və taleyini yaşamaq, ona olan dibsiz sevgisini dünyaya hayqırmaq, xalqının üzünün güldüyünü, türk ellərinin birliyini, Qarabağın düşməndən azad edildiyini, Azərbaycanın bir bütöv kimi varlığını görmək oldu. O, qutsal diləklərini ədalətlə cilalanan, həqiqətdən qüvvət alan, dodaqlarda çiçək açan qadir sözün, əlahəzrət sevgilinin qüdrətilə Alpər Tonqanın ruhuna tapınaraq Altaylardan Anadoluyadək hayqırdı. Çünki ömrü boyunca amin olub ki:

Söz - həmişə
Ədalətin düşmənilə vuruşacaq!
Söz - yerlərdə sürünməmiş,
Dodaqlarda çiçək açmış.
Doğru sözün qabağında
Yalan sözün rəngi qaçmış.
Söz - nəbzidir,
Haqq səsidir zəmanənin
aynasıdır zəmanənin.

Söz-söz, kəlmə-kəlmə zəmanəsinin aynasını yaratdı. Bu aynanın hissəcikləri bir sevgilidən başlayaraq Vətənlə, millətlə, Ana dililə, nəhayət, Azərbaycana sevgi ilə bütünləşən ilahi mə-həbbətdən yoğrudub. Və həmin aynada səmimi, cana yaxın, təbii bir Bəxtiyar dünyası da yansıyır. Bu dünyanın əfsununa bələnənlər, Bəxtiyar sözünə aşiq və vaqif olanlar yüzlər, minlər deyil, milyonlarcadır. Milyonların könül taxtında əyləşən o müqtədir şair - söz bahadırı, məhz bu dibsiz sevgiyə görə Bəxtiyar olmuş Bəxtiyar Vahabzadə kimdir?

Bu suali o qədər cavablandıranlar olub ki!... Məşhur qırğız yazarı Çingiz Aytmatov: "Bəxtiyar Vahabzade esrin şairidir", - deyib.

Istedadlı cərrah Nurəddin Rzayevin yanaşması fərdi, özünəməxsusdur:

“Bəxtiyarın çox gözel dəst-xətti var. O heç kimə bənzəmir. Onun “Gülüstan”, “Şəbi-hicran”, “Etiraf” əsərlərini oxuduqca insan yenidən oxumaq istəyir. O, çox gözəl, səmimi, sadiq, müsbət keyfiyyətlərini sadalamaqla tükənməyən dostdur”. Şairi XX esrin II yarısında Azərbaycan ədəbiyyatının, mədəniyyətinin simvolu sayan professor Kamil Vəli Nərimanoğlu isə Bəx-tiyar Vahabzadənin simasında Azərbaycanın ağır taleyinin yazıldığını oxuyur: “Zahirən-simaca Azərbaycana oxşayan üç adam tanıyıram: Bəxtiyar Vahabzadə, Niyazi, Şəhriyar. Allah-təala elə bil bu adamların üzünə-gözünə Azərbaycanın taleyini yazıb. Bu ağır taleyin bölünmə, parçalanma, sömrülmə qismətinin gizli və həzin möhnətini...”

Və bu qırışlarla süslü üz, dərdli gözlər çox sevdiyimiz, Türkiyədə Azərbaycanımızın səsi və çarpan qəlbi Yavuz Büləndə Bakilərə görə, “Bütün türk dünyasının ortaq səsi, sevən ürəyi, aydın üzü və gözəllik çizgisi, rəmzidir”.

* * *

O, 80-ci illərdə mənim müəllimim idi və Bakı Dövlet Üniversitelinin auditoriyasında mühazirələrini dinləmek səadətini yaşayırdım. Füzulidən, C.Cabbarlıdan, Hadidən və Sabirdən çox danışırdı. 90 dəqiqəlik mühazirə saatında heç oturmurdu və sanki ona qulaq kəsilən, nəfəs belə dərmədən dinləyən 5-10 nəfər tələbəyə deyirdi söylədiklərini. Kədərli baxışlarını üzümüzə və bir də pəncərədən Doğaya – təbiətin bir parçası olan Akademiya şəhərciyinə baxaraq danışırdı. Hər sözündə səmimi, hər kəlməsində özü idi Bəxtiyar müəllim. İllər keçib o zamandan... Bu gün isə onunla daha yaxından təmasın, isti münasibətin və sıxsıx görüşlərin səadətini yaşayıram. “Qızım, düşünürəm ki, indi məni sən hər kəsdən daha yaxşı tanıyır, duyarsan, hardan qaynaqlanır səndəki bu vətənseverlik ruhu?” sözlərini isə tələbə ikən öyrəndiklərimizi soruşmadan qiymət kitabçamıza yazdığı “əla”nı həyatda həqiqətən aldığımı zenn edirəm və sevinc hissi duyuram. Üzüldüyümsə onun göz yaşlarıdı. Tutamadığı göz yaşları. Millətinin, xalqının taleyüklü məsələləri poetik

ifadəsini tapmış şeirlərini oxuduqda çiyni atıla-atıla hönkürməsidi dözə bilmədiyim. İlk görüşlərimizdə Turanın Qoca türkü, dahi İsmayıl bəy Qaspıralının "Tərcüman" qəzetinin davamçısı olacağımızı düşünərək (bağışlayın, müqəddəs ruhlar) nəşrinə nail olduğum "Yeni Tercüman" qəzetinin ilk saylarını təqdim edərkən ürək parçalayan hıçqırıqlarının şahidi oldum və heyrətlə düşündüm: Allahım, İnsan necə böyük Ruhun daşıyıcısı olarmış! Söz sarrafı, tepədən dırnağacan milli şair kimi boy verərmiş. Və heç vaxt izharından çəkinmədiyi etiraflar bu qədər səmimiyyətlə, ali təbiiliklə dodaqlarında çiçək açarmış! Vətən, millət, xalq sevgisi insanın sevgilisinə, havasına, suyuna çevrilərmiş...

Sevə bilirəmsə əgər ürəkdən
Dünyanın ən gözəl adamıyam mən

- deyen, Məcnuntək sevə bilməyi səadət, əzablı, iztirablı sevgini bəxtəvərlik, sevməyi bacarmağı mərdlik, şücaət sayan Bəxtiyar müəllimin səmimiliyinə zərrəcə şübhə etmirsən. Vətəni sevənlər, millətini, doğulduğu torpağı, ata yurdunu dəlicə sevənlər onun uğrunda canını fəda edər, şəhidlik məqamına yüksələrlər. Məni qınamayın etirafıma görə, onu dinlədikçə, yaşantılarını müşahidə etdikcə düşünürdüm ki, Bəxtiyar müəllim diri ikən şəhiddir. Azərbaycançılıq, türkçülük ideologiyasının, Gülüstanın, Qarabağın, Dərbəndin, İrəvanın, düşmən tapdağında inləyən əsir torpaqlarımızın şəhidi... "Qapılar dalında qalan ana dili"nin, birinin "baran", diğərinin "xər" (eşşək), başqa bir hegemonluq iddiasında olan dövlət alverçilərinin "vəhşi" dediyi başıbəlalı millətinin şəhidi...

Yavuz Büləndin uca Tanrıya xitabən dilədiyi "Allahım! Bana ağlamasını bilən bir cift göz ver", - arzusunu Bəxtiyar Vahabzadənin gerçəkləşdirdiyi çılpaq bir həqiqətdir.

Min ləkə vurdular şərəflmizə,
Verdik, sahibimiz yenə "ver" dedi.
Qanımızı sorub, üstəlik, bizə

Biri "baran" dedi, biri "xər" dedi.
Bizi həm yedilər, həm də mindilər.
Sonra arxamızca gileyləndilər.

Beləcə hamının görə bilmədiyini görə-görə, hər kəsin yaza bilmədiyini təxəyyülün, xəyalın əfsanəvi qanadlarından alaraq çəkici bədii sözə çevirib yaza-yaza, əsasən İnsan adlı bəşər övladının daxili mükalimələrini, özünüdərk yollarında çəkdiyi iztirablarını, iç dünyasının cəngi-cidalını, bu iztirablı, məşəqqətli yollarda, mənəvi təmizlənmə prosesində qüsurlarını dərk etməsini duya-duya, görə-görə, nənəsinin danışdığı nağılları, babasının əməksevərliyini xatırlaya-xatırlaya, dünyanın əvvəlinin hardan baslanıb, harada sona yetəcəyini çözələyə-çözələyə bu günkü Bəxtiyar Vahabzadə oldu. 0, qələmə aldığı mövzunu, hadisəni sadəcə müşahidə etməyib, onları yaşayıb, iştirakçisi olub, özündən heç nə uydurmağa çalışmayıb, duyduğunu yazıb.

Bir insan, hər birimiz kimi yaşadığı hisslərin, duyguların həssas ürəkli bir şair kimi səmimi ifadəçisi olmağı bacarıb, nəticədə sözlər sinəsindən bulaq kimi qaynayıb daşıb, alovlanıb, odu özünü də, oxucusunu da yandırıb-yaxıb.

Duyub hiss etdiklərini yazan Bəxtivar Vahabzadə yanıqlı Ana laylası ilə kökləndiyi böyük ruha sadiq qalıb. Daim o düşüncədə olub ki, Muğam üstündə həzin-həzin söylənən laylaların ecazkar ahəngi körpəni min illərin o üzündən süzülüb gələn doğma ruha - milli varlığımıza, özümüzə, soy-kökümüzə bağlayır. Bu məsələnin önəmliliyini "Beşik" şeirində göstərib və tərbiyənin, insanın hansı ruhda formalaşmasının, kimliyini dərk etməsinin məhz beşikdən, ananın südü ilə, pıçıldadığı mətləblərlə söylədiyi layla, oxşama, bayatıların şirin ahəngi ilə başlandığını diqqətə çatdırıb:

Laylanın hər xalı bir ümid, güman,
Onun ahəngilə qaynadı qanım.
Anamın yanıqlı laylalarından.
Süzüldü ruhuma Azərbaycanım....

Şair insan qəlbində yangının, doğma dilə, doğulduğu torpağa, bağrından qopduğu xalqa, Vətənə yangının - əbədi şölə saçan sevginin laylalardan qaynaqlandığını əsərlərində önə çəkir. Onun üçün Vətən gözəlliklər məskəni, gözlə görülən, əllə götürülə bilən maddiyyat deyil. Bəxtiyar müəllim üçün Vətən ilk öncə, onun torpağı üstündə, sinəsində gəzən insanların tarixi, dili, dini, mədəniyyəti, ədəbiyyatı, adət-ənənələri, törələri, musiqisi, ruhani dünyası - mənəviyyatıdır. Və şair yaradıcılığında bu mənəviyyatın qədrini bilən müqəddəs keşikçilərini, əbədi yasadan qələm sahiblərini kəfəni boynunda mübarizə meydanına atılan, millətinin tarixini yaradan və yazan, tarixin özü qədər dəyərli və böyük olan ərənlərimizi, şəhidlərimizi vəsf edir.

"Şəbi-hicran"da dahi Füzulinin, "Ağlar-güləyən"də ölməz Sabirin, "Zindanda şeir"də qüdrətli H.Cavidin, "Nakam"da dərdli M.Hadinin, "Istiqlal" və "Şəhidlər"də müqəddəs şəhidlərimizin obrazlarını yaradan Bəxtiyar Vahabzadə onlara ədəbi heykəl qoymaqla bərabər, qədirdanlığını da yansıdır. Şair yazdı və yazdıqlarına inandı ki:

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir-şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq toxumu səpdi şəhidlər.

1990-cı ildən səpilən azadlıq toxumları öz bəhrəsini verdi, Azərbaycan tarixi müstəqilliyinə qovuşdu, milyonlarla soydaşlarımız kimi, Bəxtiyar Vahabzadə də sandı ki, Bəxtiyarlığına qovuşdu. Müstəqillik adlı əvəzsiz nemətin qorunması, əldən verilməməsi üçün yenidən mücadiləyə qoşuldu. Lakin ömrü boyunca olduğu kimi, yenə də millətinin uğuruna, sevincinə sevindi, nöqsanlarına, çatışmazlıqlarına, dərdlərinə kədərləndi. İmperiya buxovlarından qurtulan Azərbaycanın yeni savaşa, Qarabağ uğrunda işğalçı Ermənistanla ədalətsiz müharibəyə sürüklənməsi sinəsinə dağ çəkdi. Qarabağ dərdi dözülməz ağrıya çevrildi ürəyində... İtirilən torpaqlarımızın, şəhid ruhların fəryadından qıtlaqları tutuldu. Olkəni bürüyən çadır şəhərciklərinin, döyməyə belə

qapısı olmayan bu çadırlarla kəskin təzad təşkil edən rüşvətxor, harın vəzifə sahiblərinin, qoluzorlu məmurların ucaltdığı villaların, erməni tapdağında inləyən əsir torpaqlarımızın adlarının restoran, şadlıq evləri və kafelərə verərək yaşatmağa çalışan vətən övladlarının qeyrət damarının bu dərəcədə boşalmasının dərdini çəkir. "Yanıq Kərəm"iyə şıdırğı oynayan cavanların zövqsüzlüyünün, ana dilində danışmağı əksiklik sayan ədabazların əqidəsizliyinin, həyata mədəsinin gözü ilə baxan məsləksizlərin dərdi şairin yuxusunu ərşə çəkir, daim öz-özü ilə cəngicidalda olan, narahat ömür yaşayan, hər axşam özünü, "məni yurddaş edən bu el-oba üçün bu gün nə etdim? - deyib sorğulayan Vətən oğlu kimi, xalqının heç olmasa ümummilli məsələlərdə cəbhələrə bölünməyərək bir araya gəlməsi, böyük Vətən naminə, xoşbəxt gələcək, bütün dərdlərdən azad Azerbaycan naminə əl-ələ verməyi vacibdən vacib sayan Bəxtiyar Vahabzadə bu birlik olmayınca diriliyin taleyimizdən qaçaq düşəcəyinin ağrısını yaşayır:

Verib yurdumuzu çirkin əllərə,
Bir ovuc vətəni məhəllələrə
Böliib, kiçiltməyi tərgitməyincə,
Köhnə vərdişləri tərk etməyincə,
Ucalıq taxtından enən millətin,
Bu gün dilənçiyə dönən millətin,
Şərəfi, şöhrəti. ulu mənliyi,
Kimliyi, qüruru, bəy ərənliyi
Yenidən özünə qayıtmayınca,
Dilindən, dinindən, özündən dönən,
Əhdə vəfasından, sözündən dönən
Yaltaq tüfeylilər faş olmayınca,
Zibil qutusuna atılmayınca,
Vallahi, dünyamız düzələn deyil.
Arzu etdiyimiz gün gələn deyil.

Dollar qabağında diz çökənlərin,
Qaçqının payına göz dikənlərin

O həris gözləri ovulmayınca.
Yalanlar gerçəyə ov olmayınca,
Yalnız özümüzə güvənməyincə,
Dostun xoş gününə scvinməyincə,
Lap yeri gələrsə min bir hiyləni
Tülkü ermənidən öyrənməyincə,
Özünü danandan iyrənməyincə,
Bizə tor atana tor atmayınca,
Dirçəldib təzədən yaratmayınca
Əsrin əjdahası udacaq bizi,
Heçə döndərəcək mənliyimizi.

2000-ci ildə qələmə alıb bu şeiri döyüşkən ruhlu şairimiz... Bəzən onu mövqeyində yumşalmalara görə bica yerə qınayanlar, bəzi məsələlərin üstündən 70-ci illərin ehtiyatlılığı ilə adladığını söyləyənlər də tapılır. Qəribə xalqıq biz... Yazdıqlarını, illərdən bəri qələmə aldıqlarını saf-çürük etmədən qərar verməyə tələsirik həmişə. "Məni siyasətdə deyil, şeirlərimdə axtarın" - deyen şairin axı bu üsyankar, döyüşkən poeziyasının hər misrasında onun yaralı, dərdli ürəyi çırpınır. Siyasi arenada bir qürub ulduzu tək yanıb sönməsini səmimiyyətlə etiraf edən şair "Mən siyasat adamı deyiləm. Siyasət demək istədiyini yox, məqamında lazım olanı demək, vəziyyətdən ustalıqla, soyuq başla çıxmağı bacarmaq imiş. Mənim kimi sadəlövh, sadəqəlb, daha çox ağılla deyil, hisslə düşünən şair bunları haradan bilsin? Və mən qərara gəldim ki, söz adamı siyasətlə məşğul olmamalı, sözünü kursulərdən deyil, bədii yaradıcılığı ilə deməlidir", - etirafında bulunaraq xalqın, Azərbaycanın taleyüklü məsələlərinə həssaslıqla yanaşaraq bütün dövrlərdə poetik münasibətini bildirməkdən əsla çəkinməyib.

Biri-birimizə uyuşan deyil,
Biri-birimizə tərs düşən olduq.
Biz vətən uğrunda döyüşən deyil,
Vəzifə uğrunda döyüşən olduq.

Yaxud:

Azadlıq! Nəhayət, qovuşduq sənə,
Amma deyəmmədik: "Şükür Allaha!"
...Elə bir gündəyik qollarımızda
Qandala çevrilib azadlığımız...
Vəzifə eşqinə, mənsəb eşqinə,
Qardaş-qardaşına güllə atırsa,
Düşmən əsgərinə, yad əsgərinə
Halal torpağını əgər satırsa,
Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən!

- deyib yazan şairin hansısa məsələnin üstündən ehtiyatla adladığını düşünmək olarmı?

Düşündüklərini, yaşadıqlarını cəsarətlə qələmə alan B.Vahabzadə milli və dini anlayışları vəhdətdə görür və bütöv torpağı, azad Vətəni, müstəqil dövləti olan bir millətin, xalqın dini mənəviyyatının və mədəniyyətinin ölməzliyinə, əbədi yaşayacağına inanır. Vahid Allaha, Qıırani-Kərimə, Peyğəmbərə (s.), onun şəriətinə sidq-ürəkdən inanan, son illər dini ədəbiyyatı daha çox mütaliə edən Bəxtiyar müəllimin qənaətinə görə, İslam bütün tə-riqətlərin, məzhəb və parüyaların fövqündə durur. Düşünür ki, məişət çərçivəsində qapanıb qalan bəsit şüur ilə dünyanın gərdişini, həyatın mənasını, Allah-təalanın qüdrətini, əzəməti idraki, elmi fəlsəfi əsaslarında olan İslamı anlamaq olmaz, insan dünyaya ıı ə üçün gəlir, nə istəyir, hara gedir, mənşəyimiz nədir, son dönüşümüz haradadır? - suallarına cavab axtararkən elmə, id-raka, fəlsəfəyə arxalanmadan keçinmək olmaz. Bütün bunları insan Allahın köməkliyi, elmin gücü ilə özü araşdırıb dərk etməli, həyat yolunu seçməli, gələcəyinə çıraq tutmalıdır, çünki ən elmi din İslamdır. Dini əxlaq, təmizlik, ülviyyətə uçuş adlandıran Bəxtiyar müəllim, dini fəzilətlərə sahib olan insanın mütləq mərhəmət sahibi olduğuna əmindir. Ona da əmindir ki, insana, ölkəyə və dövlətə nə bəla gəlsə, o,

mərhəmətsizlikdən, vicdansızlıqdan, allahsızlıqdan törəyir.

Müdriktik çağını yaşayan şair israrlıdır ki, uşaqlarımız orta məktəbdən bilməlidirlər ki, hansı dinə mənsubdurlar. Onlara dinin əsasları, şəriətin ilkin qaynaqları tədris olunmalı, ali məktəblərdə isə dinin fəlsəfəsi öyrədilməlidir. Bütün fakültələrdə islam dini tədris olunmalıdır, ancaq fanatizmə uymamaq şərti ilə. Dində fanatizmə getməksə çox təhlükəli, dəhşətlidir.

Uşaqlarımızın tərbiyəli, yurdsevər vətəndaşı kimi formalaşmasında müəllimlərin rolunu da əvəzsiz sayır. Ustad şairimiz şərəfli, məsuliyyətli, nəcib peşə sahiblərini - dünyanın ən qiy-mətli kapitali olan insanla işləyən, onun taleyini müəyyənləşdirən böyük qüvvə kimi dəyərləndirir. Və bu böyük qüvvə - müəllim mənən təmiz, pak olmalı, sinəsində böyük vətəndaş ürəyi gəzdirməlidir. Müəllim Vətəni, onun tarixini, dilini, mədəniyyətini, ədəbiyyatını bilməli, sevməli və şagirdlərinə də sevdirməli, onları məhz Vətənə namusla xidmət etməyə hazırlamalıdır. Bəxtiyar poeziyası fəlsəfi, əxlaqi-didaktik, Vətənpərvərlik ruhu aşılayan mübariz poeziyadır. Bəxtiyar poeziyası, həm də sevgi, məhəbbət, dünyəvi və ilahi eşq poeziyasıdır. Könül çırpıntıları, qəlb ağrıları, fəlsəfi düşüncəsini qapsayan sevgi lirikasında daha aydın duyulur. Qəlbinin yanğısı, eşqə təşnə ürəyinin sızıntıları nə qədər çox olsa da, aşiq şairə sanki bu yanğı səadət, özündənkeçmə xoşbəxtliyi gətirir. Bəxtiyar Vahabzadə dünyada var olan hər şeyə məhəbhətlə, sevginin gözü ilə baxır. Şairə görə ana təbiəti də məhz sevgi yaşadır və çiçəklər, güllər, böcəklər, quşlar məhəbbətin dili ilə danışır. Eşqsiz ürəyi soyuq bir daş parçası sanan aşiq Bəxtiyar sevənləri dünyanın ən yaxşı, ən bəxtiyar insanı sayır. Onun düşüncəsinə görə, insan nə üçün sevdiyini bilməz və yalnız könlünün səsini dinlər:

Neçün sevdiyini bilmədən, mən də,
Sevirəm, sevirəm, İnsan sevəndə.
Yalnız öz könlünün səisini dinlər,
Neçün sevdiyini bilməz sevənlər.

Və insanı sevən, dərdlərini bölüşən, tənhalığına meydan oxuyan, könlünə həmdəm olmağı bacaran qüdrət sahibi, dostu, arxası, köməyi - sevgilisi varsa, qəm eləməyə dəyməz, yaşamağa dəyər...

Bir günəş bəs edər, pərişan olma,
Sənin yüz Kür qədər göz yaşın olsa,
Min dərd hücum etsə, könül, sıxılma,
Bir nəfər dərd bilən sirdaşın olsa.


Bəlkə də ahıllıq çağını yaşayan şairin artıq kamilləşməkdə olan imanından doğurdu - poeziya dünyasına on ikinci pəncərəni açmaqda israrı, inadı.


Əminik ki:

Bülbül nalə çəkər vüsal dəmində,
Gülün ləçəkləri solar çəməndə.
Təbiətin hökmü olsaydı məndə,
Qanqalın ömrünü gülə vcrərdim,

- deyən Bəxtiyar Vahabzadənin həqiqətən hökmfərmanlıq əlində olsaydı və daha bir şair ömrü yaşasaydı, yenə də yorulub-usanmadan sevgi dolu şeirlər yazar, oxucularının ruhunu oxşayar, qəlbini fərəh hissi ilə doldurar və hər birini bu Vətənin milli-mənəvi sərvətlərinə, mədəni irsinə, tarixinə sahib çıxmağa səsləyərdi...

Esmira Fuad





...Xalqımızın söz sənətini yaradanları və onların yüz minlərlə pərəstişkarlarını sevindirən şad xəbər gəldi: Ədəbiyyat və incəsənət sahəsində Sovet İttifaqının Dövlət mükafatına layiq görülənlər sırasında müasir Azərbaycan şeirinin yüksəliş və şərəf bayrağını ucalara qaldıran ən istedadlı şairlərimizdən biri Bəxtiyar Vahabzadə də vardır.

Bəxtiyar Vahabzadəni poetik təfəkkürün bir zirvəsindən o birinə qaldıran, söz yox ki, hər şeydən əvvəl, onun parlaq istedadıdır. O istedad ki, qırx ilə yaxın bir müddətdə gərgin, ilhamlı əmək arası kəsilmədən onu müşayiət edir; onunla qaynayıb qarışmışdır, onun üzvi bir hissəsidir. Əslinə baxanda, əməyi yaxşı təşkil etmək, əməyi sevmək, əmək çəkməyi bacarmaq, bir sözlə, əmək özü böyük istedaddır. Bədii yaradıcılıqda bu istedad o zaman parlayır, xoş ətirli meyvələr, güllər verir ki, o, yaradıcı ürəyin dərinliyində qaynayıb yetişsin, qana qarışsın, qanda yoğrulub ehtirasa çevrilsin. Bəxtiyar Vahabzadənin ildən-ilə artan, kamilləşən, xüsusi gözəllik, dərin fəlsə-fi məzmunla parlayan, genişlənən, yeni çalarlar, yeni məna dolğunluğu, bədii forma rəngarəngliyi kəsb edən yaradıcılığı belə əmək və istedadın rəmzidir.

Lakin bədii yaradıcılıqda yüksəkliyə qalxmaq, doğrudan da həqiqi sənət nümunələri yaratmaq üçün bu da azdır. Əmyin məhsuldar olması, istedadın parlaması və kəsərli, siqlətli əsərlər yaratması üçün hər bir yaradıcının, xüsusən insan ehtiraslarını, insanın psixoloji aləmini yığcam, aforistik obrazlarda, metaforalarda canlandırmaq üçun yaranmış şair fikrinin, şair xəyalının dərin və uca mənalar aləmində yaşaması lazım-

dır. Bu mənalar aləmi, əlbəttə, insanların real və mürəkkəb həyatında formalaşır, ancaq bu real varlığın, canlı həyatın içində yaşayan, onun çətin və murəkkəb problemlərini, sevinc və kədərini duyan, düşünən, onları özünün həyat məsələsi kimi yaşayan şair mənalar aləminin həqiqi mənzərəsini. yarada bilər.

Bəxtiyar Vahabzadə özü belə şairdir. Onun əsərlərində xalqımızın həyatı, idealları, onları düşündürən və doğru cavabını tələb edən çətin, iztirablı məsələlər əks olunur. Onun lirik və epik surətləri namuslu, hünərli əməyi ilə, vətənpərvərliyi, doğru, saf təbiəti ilə həyatı, həyat hadisələrini, insanın daxili aləmini bütün ziddiyyətləri ilə dərk etməyə çalışan, bununla yanaşı, həqiqət duyğusunu qoruyan, həqiqəti aydın dərk edən cəsarətli qəhrəmanlardır. Bir sözlə, Bəxtiyarın özü kimi ehtirasla yaşayan, düşünən, mərd, yaradıcı, qeyrətli vətəndaşdır.

Bu sətirləri yazıram və vaxtilə müasir ədəbi yaradıcılığı dərindən başa düşən, ədəbi prosesləri diqqətlə izləyən, həmişə fəal surətdə açıq-açığına öz fikirlərini söyləyən Mehdi Hüseynin neçə il əvvəl söylədiyi bir söz yadıma düşür: O deyirdi:

"Bəxtiyar Vahabzadənin qəhrəmanı ilə özü arasında ziddiyyət yoxdur"*.

Çox doğru müşahidə olunmuş keyfiyyətdir!

Avropalılarda Muza adlanan şeir pərisi son dərəcə qısqanc bir xanımdır. O, şairin bütün varlığını, qəlbinin bütün hərarətini ona verməyi tələb edir. Eşqi yarımçıq, inamı yarımçıq, ehtirasları sönük şairdən o, birdəfəlik üz döndərir. O, ancaq dağ çayı kimi həmişə axan,. təzələnən, gah həzin, ahəngdar, gah çılğın və gurultulu mahnılarla ətrafa səs salan, yatanları oyadan, eşqində, inamında dönməz, od ürəkli, narahat şairlərə vurğundur; onların daimi ilhamçısıdır, xanəsini isidən, ürəyinə sevinc paylayandır.

Bəxtiyar Vahabzadənin ilham pərisi öz vəfalı, sədaqətli sevgilisi-

ni yaxşı tapıb. Bu şair bir an rahatlıq bilmir. Onun xəyalı, onun fikri bir an şeirdən, sənətdən ayrılmır. Bütün varlığı ilə şeirə, sənətə bağlıdır, həyatda hər şeyə o, şair gözü ilə baxır. hər şeyi obrazlı təfəkkürlə qavrayır. Təsadüfi deyildir ki, Bəxtiyar Vahabzadə müasir şeirimizdə Azərbaycan dilinin söz oynaqlığını, söz gözəlliyini, dolğunluğunu, şirinliyini saxlayan xalq ədəbiyyatımızın incə, zərif, yaraşıqlı, məlahətli söz qurumundan zövqlə, ləyaqətlə, mizan duyğusu ilə istifadə edən və bu keyfiyyətləri müasir həyatın, müasir təfəkkürün səviyyəsinə uyğun inkişaf etdirən, zənginləşdirən şairlərimizdəndir.

Könül, dolan çöl-obanı,
O dağda gəz, bu daqda gəz;
Leylək olub yer eşincə,
Sən bülbül ol, budaqda gəz.

Hər atəşə, oda yanma,
Sözün haqsa, onu danma;
Manat olub xırdalanma,
Yaqut kimi barmaqda gəz.

Əskik olma xeyir-şərdə,
Güntək görün sən hər yerdə.
Duyğu kimi ürəklərdə,
Nəğmə kimi dodaqda gəz.

Bəxtiyar Vahabzadə şeirimizin Füzuli, Vaqif, Sabir, Səməd Vurğun, Aşıq Ələsgkər, Şəhriyar bulağından su içmişdir. O, sözü elə gözəl oynadır, elə parlaq təzadlar yaradır, fikri gözlənilmədən elə döndərir, elə dərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə elə qaldırır ki, oxuyanda valeh olursan, hədsiz sevinc və mənəvi-estetik ləzzət duyursan. Lakin bu, sadəcə, adi sevinc və ləzzət deyil, fikir və məna ilə doludur, insanı mütləq düşündürür. Budur, ölməz Sabirə həsr olunmuş

«Ağlar - güləyən» poemasından bir parça:

Yarım bu tayda qaldı,
Yarım o tayda qaldı;
Toyum burda çalındı,
Yarım o tayda qaldı.

Daha bu əzablara,
Canımda bir tabım yox.
Mən təpədən-dırnağa
Sualam... cavabım yox!

Zaman keçdikcə, ildən-ilə Bəxtiyar Vahabzadənin yaradıçılıq üfüqləri, şeirlərinin fikri-fəlsəfi əhatə dairəsi, janrı və forması genişlənir. Bugünkü həyəcanlı zamanımızda bəşəriyyətin başının üstünü almış atom fəlakəti təhlükəsi artdığı bir dövrdə onun şeirlərində dramatik notlar ucalır. Bu şeirlərdə insanlarda vəhşi hisslər oyatmağa çalışanlara nifrət var, azad və müstəqil xalqlara, mütərəqqi ideallara məhəbbət var...

Bəxtiyarın son illərdə yazdığı bir sıra əsərlər bütün dünyada yaranmış siyasi ab-hava ilə dərin tellərlə bağlıdır. Bu ab-hava çox təzadlıdır. Bir yandan insan ağlının misilsiz, ecazkar elmi-texniki kəşfləri fərəh oyadırsa, o biri yandan bütün bəşəriyyəti təhdid edən, yer üzündə diri, canlı hər şeyi məhv etmək qorxusu yaradan kütləvi qırğın vasitələri nifrət doğurur. Bu ziddiyyətli vəziyyətlərlə əlaqədar olaraq şair şəxsiyyətin mənəvi aləmini bədii tədqiqat obyektinə çevi-rir. Bu tədqiqatın Azərbaycan şairinə xas xüsusiyyəti ondan ibarətdir ki, şairin əsərlərində insana, insan idrakına, onun son qələbəsinə sarsılmaz inamı əks olunmuşdur.

Şairin bədii təfəkkürü həmişə fəlsəfi ümumiləşdirmələrə meyl edir. O, bir çox əsərlərində bütün bəşəriyyəti düşündürmüş və düşündürən böyük fəlsəfi məsələlərin poetik ifadəsini yaradır. Məlumdur ki, insan

tarixinin böhranlı dövrlərində bir sıra ölkələrdə dini fanatizm güclənir. İndi bunu biz həm xristianlığın, həm islamın, həm də başqa dinlərin hakim olduğu ölkələrdə müşahidə edirik... Bəxtiyar Vahabzadə yeni şeirlərində orta əsr fanatizmini diriltmək istəyənlərin bu «fəlsəfəsini» puç edir.

Məsələn, dahi şairimiz, fikir və əqidə azadlığı uğrunda mübariz qəhrəman Nəsimiyə həsr olunmuş «Fəryad» dramı belə əsərlərdəndir. O, zamanəmizdəki mübarizələrlə səsləşir, insan şəxsiyyətinin əzəmət və ucalığını tərənnüm edir, onun şüurunu mövhumi uydurmalara qarşı qoyur. «Fəryad» şeirlə yazılmış gözəl fəlsəfi əsərdir. Burada Hüseyn Cavid poeziyasındakı məna dolğunluğunu, fəlsəfi dərinliyi xatırladan səhnələrdən biri iki Nəsiminin dialoqudur ki, əslində, onu Nəsiminin daxili monoloqu adlandırmaq olar. Görün, bu siqlətli epizodda insan çox oynaq və axıcı şeirlə necə ucalara qaldırılır:

Allah! Bilirik, cism deyil, bəs nədir allah?
Ən yüksək olan haqda, həqiqətdədir allah!
Dondunsa təkamül ,və gözəllik qabağında,
Dərk et, bu təəççübdə, bu heyrətdədir allah!

İnsan nə imiş? Gizlidir insandakı qüdrət,
Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.
İnsanın əzəl borçudur insanlığa hörmət,
İnsanlığa hörmətdə, ləyaqətdədir allah!

Bəxtiyar Vahabzadə yaradıcılığının püxtələşmiş,. fəal dövrünü yaşayır. İnanırıq ki, o, ədəbiyyatımıza hələ çox qiymətli əsərlər bəxş edəcəkdir. Buna zəmanət verən onun uca hisslərlə döyünən coşğun ürəyi və yazdıqları ilə heç zaman arxayınlaşmayan sənətkar təbiətinin daim yeniliyə, yeni şairanə kəşflərə meyl edən narahat poetik təfəkkürüdür...


Ümidimizi artıran bir həqiqəti də qeyd etməklə, Bəxtiyarı ürəkdən


təbrik edib, sözümü qurtarmaq istəyirəm: əsl qüdrətli sənətkarlar nə qədər yaratsalar da, ən gözəl əsərlərini oxucuya verdikdə də elə düşünüblər ki, hələ ürəklərini tamam boşaltmayıblar, hələ istədiklərinin hamısını yaratmayıblar. Bu fikri onlara dedirdən dağ çeşməsi kimi tükənməz, qurumaz incilər xəzinəsi olan hərarətli ürəkləridir, coşğun təbiətləridir.

Belə bir ürəklə yazıb-yaradan Bəxtiyarımıza yeni uğurlar arzulayırıq.

Mirzə İbrahimov

«Ədəbiyyat və incəsənət», 1984, 16 noyabr.





VAHABZADƏ

Şairlərdən danışarkən çox vaxt onları yaşa görə - yaşlı, orta və gənc - nəsillərə bölərək, bununla müəyyən mənada onların yaradıcılıq ləyaqətlərini təyin edirlər. Məncə, bu bölgü sırf şərtidir. Mənə etiraz edib deyə bilərlər ki, sənətkarlığın yolu uzun illərin gərgin əməyindən keçir. Bu, şəksizdir, lakin o da şəksizdir ki, yaradıcı insanın gərgin əməyi yalnız o vaxt uğur qazana bilər ki, bu əməyin mayasında istedad və şairanə xislət dursun. «Şair» sözünün yanındakı «istedadlı» sözü qəribə görünür. Axı, istedadsız şair ola bilməz. Və əgər biz şair olmaq həvəsinə düşən bu və ya başqasını yalnız qafiyə düzməyi və hecaları müəyyən ölçüyə salmağı bacardığına görə şair adlandırırdıqsa, bu, poeziyanın deyil, bizim günahımızdır. Şair ançaq istedadlı ola bilər. İstedadın dərəcəsi isə başqa məsələdir.

Bəxtiyar Vahabzadə sözün əsl mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. Vahabzadənin poeziyası - düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərin bir qis-mində ayrı-ayrı motivlər - məsələn, yaxınlaşmaqda olan qocalığın kədərli müjdəçisi olan ağaran saçlar motivi - təkrar olunsa da, ümumiyyətlə, Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir. Şair ən yaxşı şeirlərində oxuçuları ilə məhrəmanə söhbət edir. Adama elə gəlir ki, o, daha bir şeir yazmaq istəməmiş, öz dəruni fikirlərini ən yaxın dostları - oxucuları ilə bölüşməyi arzulamışdır. Şairin ovqatı qeyri-ixtiyari olaraq sizə sirayət edir, sizi sevinc, kədər bürüyür. Siz

əvvəllər, bəlkə də qəlbinizdə bu cür emosiyalar doğurmayan şeylərin, hadisələrin mənası haqqında düşünməyə başlayırsınız. İndi isə həmin şeylər, hadisələr dəqiq tapılmış şairanə sözlərin gücü ilə qat-qat mühüm əhəmiyyət kəsb edir. Onlar sizi fəaliyyətə, məhəbbətə, nifrətə çağırır.

Yadıma Ordubad şəhərində baş vermiş bir epizod düşür. Mədəniyyət sarayı şeir gecəsinə toplaşmış ədəbiyyat həvəskarlarını tutmurdu. Onlar adları ölkəmizdə geniş tanınan şairləri coşğunluqla qarşılayır, adları oxucular arasında hələ kifayət qədər populyarlaşmamış şairləri isə hərarətli alqışlarla yola salırdılar. Bəxtiyar Vahabzadə özünəməxsus bu yarışda daha böyük uğur qazandı. Zal onu nəfəs çəkmədən dinləyirdi. Nəinki hər şeirdən sonra, hətta, bəndlər arasındakı pauzada da güclü alqış sədaları qopurdu. Adətən, ilk sıraları tutan gənclərin gözləri məftunluqla parıldayırdı. Bəzən zalın dərin sükutunda şairin şeirindəki misraların doğurduğu, xəfif mehdən pıçıldaşan yarpaqların xışıltısına bənzər bir ah nidası eşidilirdi.

Bənizi bir qədər qaçmış, göz qapaqları aşağı dikilmiş şair tribunanın yanında dayanmışdır. O, şeirləri səsini qaldırmadan, lüzumsuz əl hərəkətlərinə yol vermədən elə oxuyur ki, sanki əvvəlcədən yazılmış şeirləri oxumur, onları elə buradaca qoşur, öz sevinc və kədərlərini zalda toplaşan adamlarla bölüşür. Bu, daha çox, öz düşüncələrini ucadan danışmağa bənzəyirdi. Mən fikirləşdim ki, Vahabzadə yüzlərlə qəlbə nə ilə hakim kəsilmişdir. O, oxuduğu ilk şeirin ilk misralarından auditoriyanı necə ələ ala bilib? Bu şeirlərin qarşısıalınmaz gücü və cazibəsi, parlaq obraz və sözlərlə ifadə edilmiş sadə insani hisslər zalı tamamilə fəth etmişdi. Mən fikirləşdim ki, nə qədər paradoksal səslənsə də, Vahabzadə poeziyasının gücü və zərifliyi, bütün başqa komponentləri ilə yanaşı, onun sadəliyindədir. Bəli, uzun axtarışlar nəticəsində əldə edilmiş həqiqi sadəlik incəsənət əsərini həm müdrik, həm anlaşıqlı, həm də çazibədar və ciddi edir. Bu sadəlik çox hallarda asanlıqla başa gəlmir. O, süni, saxta olub, incəsənətin idealından uzaq tez və yüngül populyarlıq qazanmaq məqsədi güdəndə isə əsəri bəsitləşdirir, nə ağla, nə də qəlbə az-çox dəyərli heç nə verməyən ibtidai hala salır.


Vahabzadənin, məncə, məhz gərgin zəhmətin bəhrəsi olan həmin


həqiqi sadəliyi ilə ürəkləri fəth edən şeirləri çoxdur. O, oxucunu öz düşüncələrinə cəlb edən və onu müəyyən nəticələrə gətirib çıxara bilən sözlər axtarıb tapır. Onun «Mənim yolum», «Həyat», «İllər», «Təqvimin vərəqləri» şeirləri belələrindəndir. Məncə, Bəxtiyar Vahabzadənin bir şeiri onun poetik dəstxəttini daha yaxşı səciyyələndirir. Bu, «Gəlir» adlı şeirdir. O, insan, baharın gəlişini torpaqdan, göy otdan tez duyan insan qəlbinin gözəlliyi haqqındadır. Bu şeirdə o qədər ürək hərarəti, poetik cazibə var ki, onu dərin həyəcan keçirmədən oxumaq mümkün deyil. Mən hər dəfə bu ki-çik poetik xilqəti dinləyəndə, yaxud oxuyanda həmkarımın əllərini dönə-dönə sıxıb təkrar etmək istəyirəm: dostum, sağ ol ki, öz sözünlə ürəkdə belə zərif, nəcib hisslər axını, belə işıqlı kədər və sevinc oyada bilirsən.

Məqalə və müqəddimələrdə nöqsan və qüsurları göstərmək, məsləhət və tövsiyələr vermək dəbdir. Mən bu trafareti təkrar etməyəcəyəm. Mən ürəyimi sevindirən şeydən yazıram. Mənə elə gəlir ki, şair öz yaradıcılığının zəif cəhətlərini məndən pis bilmir. Bir də ki, ayıq-sayıq tənqidçilər var - onlar nöqsanları məndən daha yaxşı və həvəslə göstərərlər. Bu kitab şair haqqında özü danışacaq. Lakin bu söhbət tam olmayacaq, çünki burada Vahabzadənin 15 il ərzində yaratdıqlarının yalnız kiçik bir hissəsi tollanmışdır. Mən ancaq onu demək istəyirəm ki, Vahabzadə geniş imkanlara malik həssas qəlbli şairdir. Onun poetik duyumu insan qəlbinin incə tərpənişlərini tutur və şair əksər hallarda onları öz ürəyinin hərarəti və işığı ilə zənginləşdirərək təqdim etməyi bacarır.

Rəsul Rza

«Razdumya» (Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1959) kitabına ön söz.






Onun adını Bəxtiyar qoydular. Bu bir arzu, bir ümid, bir xoş niyyət idi. Bir insan üçün bəxtiyarlıq nədir? Mal, dövlət, sağlamlıq! - deyərsiniz. Bəlkə də, bu nemətlər insanı müəyyən mənada, müəyyən bir zaman möhlətində bəxtiyar edə bilər, lakin bu köçəri bəxtiyarlıq bu sözün böyük mənasında bəxtiyarlıq olarmı?

Mən belə mümkün bir sual üstündə düşünərkən öz-özümə deyirəm: yox! Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləçək dərəcədə böyük olan poetik istedadıdır. Bu yaradıcılıq istedadı ona dərin xalq məhəbbəti qazandırmışdır. Onu vətənin sevimli şairi etmişdir.Belə bir tale səadətdir. Belə bir insan həqiqətən bəxtiyardır. Onun ilhamlı ürək döyüntüsü ilə keçən yuxusuz gecələri; onun xalqını, Vətənini əsrin çətin yüksəliş yollarında, yürüşdə ilk sıralarda görmək arzusu ilə keçirdiyi nigaranlıq, duyduğu sevinc, keçirdiyi incikli günlər hər kəsə nəsib olmayan bəxtiyarlıqdır.

Qəlbindən qopan duyumlarda, incə deyimlərdə canlanan həqiqi poetik fikirlər minlərlə insanın, müasirlərinin mənəvi aləmini zənginləşdirir - bu, həqiqi bəxtiyarlıq deyilmi? Bu bəxtiyarlıq bir insan, bir vətəndaş, bir nəğməkarın bəxtiyarlığıdır. Mən Bəxtiyarı belə tanımışam, belə duymuşam, belə sevmişəm. İnanıram ki, o, doğma xalqının poetik illərliyində belə qalacaqdır. Bizi yeni-yeni şeirləri ilə sevindiracəkdir.

Rəsul Rza

«Ədəbiyyat və incəsənət», 1975, 23 avqust.



Bədii sənət aləminə ayaq basdığı ilk gunlərdən xalqın məhəbbətini qazanmaq hər yazıçıya müyəssər olan bir səadət deyildir. Bu məcmuənin müəllifi Bəxtiyar Vahabzadə özünün fitri şairlik istedadı sayəsində hələ gənc yaşlarından oxucuların sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi xoşbəxt sənətkarlardandır. Mən onun məclislərdə, oxucu konfranslarında, ədəbi gecələrdə gurultulu alqışlarla qarşılandığını, təkrar yeni-yeni şeirlər oxumağa məcbur edildiyini çox görmüşəm. Onun lirik əsərlərini, poemalarını əzbərləyən və ağız dolusu tərifləyən oxuculara da az rast gəlmə-mişəm. Təbii ki, bunlar şairin posziyada daimi yer tuta bilməsi üçun hələ kafi deyildir. Vahabzadə bunu layiqincə dərk eləyən şairlərimizdəndir. Bu səbəbdən də o, həmişə qızğın axtarışlarla məşğuldur, öz şeirlərini yeni-yeni üslub xüsusiyyətlərilə zənginləşdirir, hər bir əsərində əzəmi dərəcədə muasir və dolğun fikir ifadə etməyə meyl göstərir, ən çox da muasir həyatımızdan doğan vaçib və çətin suallara cavab verməyə çalışır. Vahabzadə bu sözün ən yaxşı mənasında narahat şairdir. Elə bil onun yazmaq və yaratmaq eşqi bir dəqiqə belə soyumur. O, həmişə özündən narazıdır, yazdığı və yaratdığı əsərlər onu heç bir zaman kifayətləndirmir. Lakin bu, heç də onun öz istedadına inanmamağının nəticəsi deyildir. Mənə elə gəlir ki, bu çox nəcib xüsusiyyətdir. Onun fikrincə, ən qorxulu duşmən öz-özünə vurulmaqdır. O, dostlarına müraciətlə deyir:

Danışın, qoymayın ki,
Mən özümə vurulum.

Ən qorxulu düşmənin gələrəm öhdəsindən;
Ancaq özüm özümlə
Bacara bilmirəm mən!
Özüm öz əllərimlə
Bir gün bal içirəmsə,
Bir gün zəhər içirəm.
Mən həyat yollarından
Ayaqlarımla deyil,
Əqidəmlə keçirəm!

Bu sözlərin dərin səmimiyyətinə inanmamaq çətindir. Vahabzadə eyni fikri - öz-özündən narazılığını - başqa bir şeirində (Bethovenə həsr olunmuş «Bircə nəfər» adlı şeirində) təkrar edir:

İlhamın qapısını
Geçə, gündüz o döydü.
Bethoveni bəyənməyən
Bethovenin özüydü.

və yaxud:

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

Bu misralar da, burdakı fikirlər də mənim xoşuma gəlir. Bizdə çox vaxt hissi şeirlərə üstünlük verirlər və belə deyirlər ki, guya çoxlu fikir şeirə pis mənada rasionalizm gətirir. Mən bu iddianın tamam əleyhinəyəm. Şairin daxili inamla söylədiyi dəyərli fikirdən və ya hikmətli sözdən əsərə heç vaxt ziyan gəlməz və ümumiyyətlə, tutarlı deyilən hər sözü və ya hər aforizmi o dəqiqə rasionalizm adlandır-

maq və poeziyadan kənara atmaq, bədii ədəbiyyatdan tələb olunan rəngarəngliyə zidd getmək deməkdir. Biz həm nəsrdə, həm də şeirdə nəsihət və moizə səciyyəsi daşıyan didaktizmin əleyhinə olsaq da, insanlarla və hadisələrlə bağlı müəyyən bir nəticə və ümumiləşmə kimi səslənən mənalı fikirlərin əleyhinə ola bilmərik. Belə fikirlər şeirin təsir gücünü yalnız artıra bilər və fikrə müəyyən dərəcədə üstünlük vermək, heç də hissdən məhrum olmaq deyildir.

Vahabzadənin milli şeir dühamız Füzuliyə həsr olunmuş «Şəbi-hiçran» poemasından aşağıdakı misraları yada salmaq istərdim:

Ağladın, yayıldı səsin hər yana,
Bülbül bağçalarda ötdü, dedilər.
Gələndə Məhəmməd gəldin cahana,
Gedəndə Füzuli getdi, dedilər.

Buradakı sözaltı məna aydındır. Əgər həqiqi sənət eşqilə yaratmağa başlamısansa, öz istedadın və gərgin zəhmətin sayəsində əbədi şöhrət qazanmalısan. Bu, görünür, Vahabzadənin də bir şair kimi həyat devizidir. İnsan fikrinin və insan zəhmətinin nələrə qadir olduğunu ,da o, çox gözəl bilir:

Allah deyə-deyə min il, milyon il,
Dikildi insanın gözü göylərə.
Əvvəlcə xəyalı gəzdi səmanı,
Hələ getməsə də özü göylərə

Yazdı zəkasının təntənəsini
İnsan ayağının izi göylərə.
Demə, allahımız zəhmətimizmiş,
Uçaltdı torpaqdan bizi göylərə.

İnsan, onun zəka və qüdrətinə sonsuz inam, ümumiyyətlə, bizim ədəbiyyatımızın ən gözəl xüsusiyyətidir.

Mən Vahabzadənin bütün əsərlərində, o cümlədən bu məcmuəsində toplanmış şeirlərində bu mühüm tələblərə eyni dərəcədə yaxşı cavab verdiyini deyə bilmərəm. Amma bir həqiqət də var ki, onun lirik qəhrəmanı həm sadə, həm də böyük müasirimizdir. Vahabzadənin bu qəhrəmanı bəzən son dərəcə adi həyat məsələlərilə məşğul olur, təbiətin seyrindən zövq alır, sevir, həyəcan keçirir, iztirab çəkir. məyus olur. həyatda müvəffəqiyyət qazananda isə sevinməyi və qürur hissi duymağı bacarır. Bu Vahabzadənin qəhrəmanı ilə özü arasında ziddiyyət yoxdur. O, həmin qəhrəmanı məhəbbətl tərənnüm eləyir. Onun işinə, zəhmətinə və rəşadətinə ilhamlı nəğmələr qoşur. Bu şeirlərdəki bədii ümumiləşdirmə bizi sevindirir. Vahabzadənin ilk kosmonavt Yuri Qaqarinə həsr olunmuş şeirini oxuyanda, elə bil tək bir şəxsin yox, ümumiyyətlə, insanın rəşadətindən, insanın gözəlliyindən və böyüklüyündən söhbət gedir... Vahabzadədə humanizm duyğuları ilə vətənpərvərlik qüruru birləşir, həm də çox təbii və səmimi birləşir.

Şairin başqa xalqlara həsr olunmuş şeirlərində də, poemalarında da eyni humanizm duyğularının tərənnümünü görürük.

Bu məcmuədəki «Yollar-oğullar» poeması qəhrəman əlcəzairlilərin azadlıq vuruşmalarına həsr olunmuşdur. Gərgin dramatik səciyyə daşıyan bu əsərdə vətənini sevən, imperializmə nifrət bəsləyən nəcib bir xalqı görürük. Şairin həm əsas hadisələrin təsvirində, həm də lirik ricətlərində Əlcəzair xalqına bəslədiyi məhəbbət çox gözəl ifadə olunmuşdur.

Mən Vahabzadənin ədəbi portretini yazmıram, məqsədim onun poeziyasına təhlil vermək də deyildir.


Mən yalnız onu demək istəyirəm ki, B. Vahabzadə son dərəcə sürətlə artan, yaradıçılığının həm mövzu dairəsini genişləndirməyə, həm də müstəqil bədii üslubunu yaratmağa inadla çalışan və bunun üçün də get-gedə oxucuların daha da rəğbətini qazanan görkəmli bir şairdir.


Tənqidçilər, adətən, lirik və epik əsərlər yaradan şairin bu janrlardan hansında daha artıq müvəffəqiyyət qazandıqını təyin eləməyə meyl göstərirlər. Vahabzadə hər iki janrda eyni dərəcədə tələbkardır. Onun yaradıcılığı və fikri-bədii istiqaməti etibarilə müasir şeirimizin

baş xəttinə sadiqdir və bu yolda şairi daha böyük nailiyyətlər gözləyir. Mənim buna heç bir şübhəm yoxdur.

Mehdi Hüseyn

«İnsan və zaman» (Azərnəşr, 1964) kitabına ön söz.





BƏXTİYAR

Bizim müdrik, ağsaçlı ədəbiyyatımız, həyəcanlı, coşqun, son dərəcə lirik gərginliyə malik gözəl musiqimiz kimi, öz bədii dərinliyi, əqidə və estetik meyarı ilə həmişə Bətənə bağlı olmuş, onunla yaşamış, onun amalı uğrunda çarpışmışdır. Onun iqtidardan qaldığı vaxtları da olmuşdur, lakin hər dəfə yenidən həyatverici qüvvə toplamış, inkişaf etmiş, gücünü, qüvvətini ana yurdun ətrindən alaraq qürurla mavi göylərə pərvazlanmış, müzəffər - ölməz mahnıları ilə xalqını mədh etmişdir.

Buna görə də təəccublü deyil ki, poeziyamız heyrət doğuran bir qüvvətlə, əzəmətli çay kimi çiçəkli dərələrdən və çəmənlərdən keçmiş, Yer üzünün sadə, qədirbilən övladlarının qəlbinə yol tapmışdır.

Bu şöhrətə görə biz klassik poeziyamıza borcluyuq. Onun qaynağında isə nəhəng, dünya şöhrətli, söz rübabının ustaları Qotran Təbrizi, Nizami Gəncəvi, Xaqani və ülvi, insanpərvər ideyaların yenilməz carçıları - Nəsimi, Füzuli, Xətai, Vaqif dururlar. Biz Zakirin, Vazehin, Axundovun, Natəvanın, Seyid Əzim Şirvaninin, Sabirin füsunkar yaradıcılığına borcluyuq. Biz çağdaş Azərbaycan ədəbiyyatının cəngavərlərinə - C.Cabbarlıya, S.Vurğuna, M.Müşfiqə, S.Rüstəmə, R.Rzaya borcluyuq. Biz istedadlı müasir söz sənətkarlarımıza çox borcluyuq. Onların cərgəsində parlaq istedada malik dostum Bəxtiyar da vardır.

Bəxtiyarın qəlbindən axıb gələn poeziya mübariz humanizmi tərənnüm edir.

Bəxtiyar poeziyası mənəvi paklığa malik şöhrətli, əxlaqı saf, mətin və ictimai təkamülə müvəffəq olmuş Vətən oğullarımızın poeziyasıdır.

Bəxtiyar ilhamlı bir aşiqdir.

O, şirin sözlü rubabını coşğun sinəsinə basıb «416»-dakı misilsiz şücaətlərdən bəhs edir, əbədi Odlar yurdunun oğul-qızlarının alovlu hisslərindən söhbət açır, onların pak məhəbbətinin qüdrətini tərənnüm edir. Bəxtiyar gözəl, xeyirxah məhəbbətin fədaisidir.


Bəxtiyar poeziyası döyüşdür - o, ictimai haqsızlıqla, biganələrlə, şöhrətpərəstlərlə, ikiüzlülərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyarın zəkalı, tutarlı, qaynar, xoşsözlü şeiri gözümüzün qarşısında doğma lövhələr yaradır; başı qarlı Kəpəz, Şahdağı, Savalan, Kürün, Arazın uğultulu qıjovları, Muğanın, Şirvanın il boyu yaşıl donlu, ucsuz-bucaqsız vadiləri vəsf olunur; onun şeirində coşğun Xəzər, mavi, zümrüd səma, mehriban cənub günəşimiz canlanır.


Bəxtiyar ona görə bəxtiyardır ki, onu xalq sevir; xalqı da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var. Vətənimizin ona verdiyi yüksək mükafat Azərbaycan şeirinin nailiyyətlərini təsdiq eləyən dəlildir. Bu, Vətəndaş şairə, mütəfəkkir alimə poeziyamızı öz yaradıcılığı ilə zənginləşdirdiyinə görə, istedadına görə verilən qiymətdir.

Bədii sözümüzün bütün qədirbilən oxucularının bayramı günündə mən sənət dostum, əziz Bəxtiyara rübab sənətimizin təbrikini yetirirəm.

Niyazi

«Azərbaycan» jurnalı, 1975, № 10.





Bəxtiyar Vahabzadənin 50 yaşı tamam olur. Ançaq sən ona qırxdan artıq yaş verməzsən. Şairin öz yaşından bunca az görünməyi onun çevik tərpənişi, «qayışbaldır» nəslinə mənsub olmağından xəbər verir. Bəxtiyar sözarası zarafatla mənə deyib ki, Şəkidə onlara «ətəyinə daş yığanlar» deyərlər. Yəni, nagahani külək bunların nəslindən bir qovazağını qaldırıb aparmasın deyə ehtiyatlı tərpənərlər, çəkilərini ağırlaşdırmaq üçün ətəklərinə yumru-yumru çaylaq daşı yığıb küləyin qorxusundan qurtararlar. Bu söhbət məni tutmuşdu. Mən gülmüşdüm. Bu söhbəti əfsanələrimin birisinə çevirmişdim, «Məkkə daşı» - deyə bir əfsanə yazmışdım. Yadımdadır, mən bu əfsanəni Bəxtiyarın özünə oxudum. O güldü, uğunub getdi.

- Xahiş edirəm, çapa verin, - dedi.

Mən isə tərəddüd etdim, dedim:

- Bəxtiyar, mən sən çəkidə-vəzndə olan şəxsiyyəti qo-vazaqlaşdırmaq istəmirəm. Səhv etmirəmsə, «Məkkə daşı» iki variantda yazılıbdır. Mənim səliqəsizliyimdən yana, hələ də çap olunmayan əfsanələrimin arasına düşüb qalıbdır. Bu əfsanənin muxtəsər məzmunu belədir: «Dulusçu baba saxsı karxanasına gedəndə öz ətəyinə həmişə yumru-yumru çaylaq daşı yığıb gəlir... İşdən sonra yenə də öz girdə-girdə çaylaq daşlarını ətəyinə yığıb qayıdır; baba kü-ləkdən amanda olur. O, öz «daş ehtiyatı»nı əldən qoymur. Bir kün yer-yurd, göy buza çevrilib donan zamanda Dulusçu baba özünə qürrələnir, cüssəli-cəsim bir pəhləvan kimi evindən çıxır və dulusçuxanaya yol alır. Nagahani külək burulğanı başlayır. Babanın ətəyində heç bir «daş ehtiyatı» olmadığından və yer-yurdda olan hər bir daş donüb buza bitişdiyindən babanın əli boşda

qalır. Külək baba-nı yerdən uzüb, götürub gedir. Şəki çamaatı qənşərə çıxır. Əllər gözlərin üstünə gəlir, qışqırışma başlayır:

- Ha, babamızı külək apardı, ha!..

- Ha, babanızı burulğan vurub getdi, ha!..

- Ha, babasız, yetim qaldınız, ha!

Təəssüf, kədər əvəzinə gülüşmə qəsəbəni başına götürür, güncdə-bucaqda qalak qarı-qoca da hərtlərə tökülüşürlər. Kimi uydurur, kimi də görürmü, görmürmü yenə də ayaqlarını yerə döyə-döyə qışqırır:

- «Ətəyinə daş yıranların» ulu babası bir yolluq getdi. Bu vaxt «ətəyinə daş yığanların» hər bir nəfəri öz həyətlərindən ətəklərinə daş doldurub meydana çıxır. Onlar döş-döşə dururlar.

- Bizim babamız «uruc»elədi!».

- Haraya, hayana, ha?..

- O, Məkkəyə yön aldı!

- Nəyə görə Məkkəyə yol aldı, ay ətəyinə daş yığanlar?

- O, Məkkə daşını Şəkiyə gətirməyə getdi!

- Mənası nə olsun, indi bu sözün?

-Mənası budur ki, adambaşına bir cüzi pul verib ucuz qiymətə «Hacı» adı alarsınız, daha ətək-ətək pul töküb altı aylıq yolda tökülüb qalmazsınız!»

Bu əfsanəvi söhbət necə meydana gəldi? Yadımdadır, mən 1954-1958-ci illər arasında bizim yazıçılar ittifaqında sədr olduğum zaman cavanlardan bir biləndər şairi bizim rəyasət heyətinə seçirdik.

Rəyasət heyəti öz sırasına o zaman təqribən 28-30 yaşlı Bəxtiyar Vahabzadəni daxil etməyi məsləhət gördü. Elə o günlərdən də şair mənim ürəyimə yatıbdır. Arada olan yaş fərqinə baxmayaraq biz dost olduq. Düzünü deyim ki, rəyasət heyətimizə bu cavan, «qayışbaldır» şairin bir səslə üzvlüyə təsdiq olunması çoxumuzu sevindirdi.

Bir dəfə söhbət vaxtı mən Bəxtiyara dedim:

- Bəli, mən sənin kimi cavanların cərgələrimizə gəlməyini, rəyasət heyətində olmağını, ədəbi yaradıcılığın mühüm, işgüzar məsələlərindən hesab edirəm. Mən istəyirəm ki, Səməd Vurğunun yanında ona oxşayan, zahirən ona bənzəyən, daxilən Səməd Vurğun poeziyasını təcəssüm etdirən bir bala Səməd Vurğun görüm!

- Çox sağ olun, Süleyman müəllim! - Məsələ «sağ ol»da deyil.

Məsələ istedadları vaxtında üzə çıxarmaqda, gənclərimizin qolundan tutub qaldırmaqdadır.

Bu söhbətin üstündən xeyli ötdü. Bəxtiyar Vahabzadə get-gedə şeir dünyasında şöhrətlənib şahpər açmağa başladı. İndi mən o söhbətin üstündən iyirmi il ötəndən sonra adlı-sanlı, şöhrətli şair Vahabzadəni görüncə ürəkdən fərəhlənirəm, çox şad oluram. Şad oluram ki, biz nə yaxşı öz vaxtında bu çəlimsiz oğlanı - cavan şairi, ağsaqqallar cərgəsinə gətirdik.

O, Səməd Vurğunu daha yaxından, daha tez-tez gördü. Onun şeir haqqında mülahizə və söhbətlərini eşitdi, birbaşa ondan öyrəndi, onun şagirdi olmağa çalışdı, sonra da Səməd Vurğun yaradıcılığından yaza-yaza elmlər doktoru dərəcəsinə çatıb professor oldu. Ancaq mən Bəxtiyarı həmişə şair kimi görmüşəm və görürəm. Nədən ki, Bəxtiyarın bütün fəaliyyətində onun şairliyi birincidir, başdır. Onu alimliyə, dramaturqluğa, nəzəriyyəçiliyə gətirən şairliyi olubdur. Şairliyin qartal qanadı ona «dulusçu baba»sından xeyli uzaqlara uçmağa ruh veribdir, mənəvi inam veribdir. Deyibdir, uç, bu əfsanəni həqiqətə çevir! Uç, ətəyinə yumru-yumru çaylaq daşı qoymadan uç, səmaya qalx, buludları yar, uç, «şeirin meracı»na get! Ulu baban merac «yolunu» tutub qeybə çəkilsə də, hələ də «Məkkə daşı»nı Şəkiyə gətirib ziyarət mərasimini ucuzlaşdıra bilməsə də, sən şeirin ləl-çəvahiratını, daş-qaşını həm öz Şəkinə, həm də bütün Azərbaycana gətirmisən. Sən şeirdə ecazsan, öz ustadın Səməd Vurğun nəfəslisən, sən bizim Səmədimizin ən ləyaqətli şagirdisən.

Məncə, bu kün əlli illiyini bayram etdiyimiz şair Bəxtiyar Vahabzadə, çağdaş Azərbayçan poeziyasının zirvələrində duranlardan biridir. Yenə də öz «qayışbaldırlığı» ilə şeir səmalarını fəth edənlərdən birisidir.

Bəxtiyar şeiri onun öz ürəyindən axıb gəlir. Burada təqlid görunmür. Şair ağarmağa başlayan qıvrımlarını qarışdırmır, öz alnını yumruqlayıb durmur, şeiri bulaq kimi axıb tökülür. Düzdur, o, «yaradıcılıq əzabları»nı çəkir, ançaq bu əzab fərəhlidir! Görəsən, dünyada «yaradıçı əzab»dan da şirin və bəhrəli nə var?

İnanırsan ki, Bəxtiyar şeirinin bulaqları bolluqdadır, bu çeşmələr axa-axa, birləşə-birləşə bütün bir çaya çevrilməkdədir. Bəxtiyar şeiri xalqımızın şeiriyyət çeşmələrindən bəhərlənməkdədir. Bu şeir hələ

daha da gur şəlalə kimi çağlayacaqdır. Vaxtilə «çəlimsiz oğlan» kimi görünən bu şair şeir dünyasında çox qüdrətli, bir sel olmuşdur. Nə Bəxtiyar, nə də Bəxtiyar şeiri mövsümi əlbəsə kimi dəyişməyəcəkdir, onun addımları əbədiləşəcəkdir. O, Azərbaycan şeirində abidə kimi qalacaqdır. Şair Bəxtiyar bir şeir bəxtiyarı kimi bu gün də bəxtiyardır, sabahına - gələçəyinə öz əlidoluluğu, alnıaçıqlığı ilə bəxtiyardır. Bu gün Bəxtiyarın şeirləri, şeir kitabları dil-dil, əl-əl gəzir.

Bəxtiyarın kitabları çapdan çıxar-çıxmaz alınır. Hər bir oxucu Bəxtiyarı oxumaq istəyir və oxuyur. Oxuyub stol üstündən qırağa qoymur, dönə-dönə oxuyur, əzbərləyir. Məçlislərdə Bəxtiyarı oxucular əzbərdən oxuyurlar. Emin Sabitoğlunun bəstələdiyi «Kəpənək»də nəqədər həzin, mənalı şeiriyyət vardır. Mərhum dostumuz Sabitin istedadlı oğlu Emin Sabitoğlunun musiqisində «Bəxtiyar kəpənəyi» ilə Bəxtiyar şeiri üzvləşib-doğmalaşıbdır.


Bəli, baxın görün, «ətəyinə daş yığanlar» nə yaxşı bir oğlan veriblər! O, «saxsıçı, dulusçu» göyə getdi. O qovazaq qocanı küləklər apardı, o, «uruc elədi». Ancaq o, yer üzündə bir nəsil qoydu-bəxtiyarilər nəsli, şair nəsli, dramaturq, alim, müəllim nəsli. Bu nəsil əsərləri saymaqla bitib qurtarmayan şair sülaləsidir. Bu şairlərin, o cümlədən Bəxtiyarın mənə hədiyyə verdiyi şeir kitabları mənim ev kitabxanamın bəzəyidir.


Mən şeiri, əsl şeiri, xalis şeiri oxuyuram, düzünü deyim, oxumaqdan da artıq susuzluq çəkəp kimi içirəm. Mən şair olmasam da, şeiriyyəti, poeziyanı bəşərin musiqi çeşməsi, səadət bulağı, səadət çayı, dənizi, dəryası sayıram!

Qoy Bəxtiyar Vahabzadə öz şair qələmini daha sərrastlatsın, onun ürəyi daim şeir çırpıntıları ilə çırpınsın. Onun şahin şahpərli, qartal qanadlı şeiri Yer kürəsinin hər tərəfinə yayılsın.

Süleyman Rəhimov

an» jurnalı, 1975, № 10.





Bizim gözəl şairimiz Bəxtiyar Vahabzadənin 60 illiyi ilə əlaqədar yazı yazmaq istərkən 1937-38-ci illəri xatırladım. Onda mən Azərbaycan Dövlət Akademik Dram Teatrının direktoru işləyirdim. Bir gün yanıma yeniyetmə bir oğlan gəldi. Görüşüb tanış olandan sonra qalın şagird dəftərini mənə təqdim etdi. Ehmalca vərəqlədim. Hamısı şeir idi, bir neçəsini oxudum. Özü, imzası mənə tanış olmasa da, gördum şeirləri yaxşıdır. İndi həmin adam şeirlərini hamımızın sevə-sevə oxuduğu SSRİ Dövlət mükafatı laureatı, Azərbayçanın xalq şairi Bəxtiyar Vahabzadədir. O vaxtdan mən Bəxtiyarın imzasını izlə-yir və uğurlarına sevinirəm.

Bəxtiyar Vahabzadə ədəbiyyata müharibə illərində gəlmişdir. İlk şeirlər kitabı isə 1949-cu ildə çapdan çıxmışdır. Oxucularla ilk görüşü - «Mənim dostlarım» kitabı ədəbi tənqidimiz tərəfindən də müsbət qarşılanmışdı. O vaxtdan Bəxtiyar böyük poeziyamızın çətin yol-larında məhsuldar işləyir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verərəm: ilk növbədə vətəndaşlıq, azərbaycanlılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarlarda çap olunan şeirlərində imzasının yanında «Azərbaycan» sözunu yazmamaq da olar. Sanki onun bütün yaradıçılığına «Azərbaycan» möhürü vurulmuşdur. «Vətəndaş» şeiri buna yaxşı sübutdur:

Vətən əbədidir,
Gedəriyik biz.

İnsan qüvvətlidir öz vətənində.
Bilirik, dünyaya biz niyə gəldik.
O bizi yaradan,
Biz ona bəndə,
Yaradan uğrunda ölməyə gəldik.

Vətən, vətəndaşlıq haqqında çox şeir yazılıb və bundan sonra da yazılacaq. Mən cəsarətlə deyə bilərəm ki, Bəxtiyarın bu şeiri o şeirlər içərisində əbədi yaşamağa haqqı .olan əsərdir. O özü heç bir şairə bənzəmədiyi kimi, şeirləri də öz təzəliyi, fəlsəfi tutumu ilə seçilir.

Azərbaycan şairləri içərisində poema janrına ən çox müraciət edən və hamısında da müvəffəqiyyət qazanan şairlərdən biri yox, mən deyərdim ki, öndə gedəni Bəxtiyar Vahabzadədir. Onun «Yollar-oğullar», «Etiraf», «Şəbi-hicran», «Ağlar - güləyən», «Atılmışlar» və s. poemaları çağdaş Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur.

Bəxtiyar Vahabzadə narahat şairdir. Biz ondan razı qalsaq da, əsərləri yüzlərlə, minlərlə oxucunun stolüstü kitabı olsa da, o, bir şair kimi, vətəndaş kimi həmişə özündən narazıdır. Ona görə də onun sənət devizi və meyarı belədir:

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə bundan razıyam ki,
Özümdən narazıyam.

Xoşbəxtdir o sənətkar, o şair ki, özündən narazıdır, dünən yazdıqlarına bu gün «azdır» deyir. Yazdıqları ilə kifayətlənmədiyi üçündur ki, Bəxtiyar gündən-günə inkişaf edir, oxucularının görüşünə bir-birindən sanballı şeir, poema və dramları ilə gəlir.

B.Vahabzadənin şeir və poemaları içərisində mənim diqqətimi cəlb edən bir şeir vardır. Bu onun «Mən haradayam?» şeiridir. Şair bu şeirdə öz yerini çox dəqiq və aydın şəkildə müəyyənləşdirərək «mən haradayam!?» sualına belə cavab verir: «İstəyimin göz dağında, oxucunun do-

dağında, bir misranın sorarında». Doğrudan da, əsl şair üçün bir sözün, bir misranın sorağında olmaq böyük səadətdir. O söz, o misra tapılanda isə sanki evdə toy-bayramdır. Daha sonra Bəxtiyar öz yerini «Ürəyimin ağrısında, hisslərimin harayında, çağrışında... bir də, bir də... harda yerim görünürsə...» orada görür.

Şairin yeri isə oxucuların qəlbindədir. Şair təkcə ata-anasının, bir nəslin oğlu, övladı deyil və o, tək özü, ailəsi, tayfası, kəndi, şəhəri üçün yaşamır. Şairin böyüklük, ucalıq sərhədi Vətənin sərhədi qədər ucsuz-bucaqsızdır. Əsl şair elinin xalqının, torpağının oğlu və elçisi, cavabdehi, cəfakeşidir və hər şey üçün də məsuliyyət daşıyır-həm bugünkü nəsil, həm də gələcək nəsil qarşısında. Yalnız bu əqidə ilə, bu məsləklə yaşayan şairin belə deməyə haqqı çatır:

Şair-od qaynağı, şeir-güllədir,
Barıtsız şeirə şeir deyilməz.
Şairi olmayan bip xalq kütlədir.
Amalsız bir kütlə xalq ola bilməz.

«Qeyrət» şeirində bu amal, bu vətəndaşlıq daha da cəsarətlənir, necə deyərlər, qeyrətə gəlir. B.Vahabzadəyə görə əqidəsizlərin, məsləksizlərin, qeyrətsizlərin yalançı vətəndaşlığı, onların heç nədən coşüb-daşması ancaq və ancaq boşboğazlıqdır, gözə kül üfürməkdir. «Qeyrət - paltar deyil geyəsən onu, qeyrət qeyrətlinin əməlindədir», - deyən şair elmin, texnikanın belə yüksək səviyyədə inkişaf etdiyi bir dövrdə insanın qeyrətini ölçə biləcək bir cihazın olmamasına təəssüflənir. Əgər belə bir cihaz olsaydı...

Onda şərəfsizlər rütbəyə minməz.
...Onda öz yerini tutardı hər kəs,
Qapılar dalında qalmazdı qeyrət.

Mən yaxşı mənada Bəxtiyara qibtə edirəm. Qibtə edirəm ki, o, yazmaq xatirinə yazmır. Nə vaxt ki, mövzu, şeir onu məcbur edir, o da


yazır. Yazanda da elə yazır ki...


Son illər şair Bəxtiyar Vahabzadənin imzası yanına bir ad da əlavə olunub - dramaturq. «Fəryad» pyesinə baxanlar bu adın nə dərəcədə doğru-düzgün olduğunu təsdiq edə bilərlər. Bir tamaşaçı kimi mənim fikrim belədir: Səməd Vurğunun «Vaqif» dramından sonra «Fəryad» pyesi dramaturgiyamızda olan böyük bir boşlüğü doldurdu. Mən təsadüfən «Fəryad»ı, «Vaqif»lə müqayisə eləmədim. Düzdür, ötən illər ərzində Azərbaycan səhnəsinə xeyli sanballı əsər gəlmişdir. Nəzmlə yazılmış dram əsəri isə demək olar ki, yox idi. Bu baxımdan B.Vahabzadə böyük iş görmüş, Azərbaycan səhnəsinə yeni səs, yeni nəfəs gətirmişdir.

60 yaşını, yaradıcılıq fəaliyyətinin 40 illiyini fərəhlə qeyd etdiyimiz Bəxtiyar Vahabzadə ötən illər ərzində bir çox mükafata və fəxri adlara layiq görülmüşdür. Bu fəxri adlar arasında isə bir ad daha ucadan səslənir-Azərbaycanın xalq şairi. Qələm dostumu, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadəni 60 illik (yubileyi müna-sibətilə ürəkdən təbrik edir, ona daha böyük yaradıcılıq nailiyyətləri arzulayıram.

Süleyman Rüstəm

«Bakı» qəzeti, 1985, 15 avqust.





ŞEİRLƏRİ

Bəxtiyar Vahabzadənin 1947-ci və 48-ci illərdə yazdığı «Qızıl medal», «Məktəb yolları», «İlk cığır», «Mən də onun meyvəsiyəm» kimi şeirləri oxucuların diqqətini cəlb etmişdir. Bu şeirlərin mövzusu məktəb həyatından alınmışdır.

«Məktəb yolları» həcmcə kiçik bir şeirdir. Bəxtiyar bu şeirinin bir yerində uşaqlıq günlərini xatırlayaraq deyir:

A məktəb yolları, məktəb yolları,
İndi xəyalımda keçirəm sizdən.
Hər gün həyəcanla anıram sizi
Özüm keçməsəm da gen sinənizdən.

Məktzbli günlərim arxada qalmış,
İndi iş yolunun yolçusuyam mən.
Könlüm bir həsrətlə titrəyir, əsir,
Yolum təsadüfən düşəndə sizdən.

Şeirin sonunda:

İndi nə dərdim var, nə də bir qəmim,
Açılıb ömrümün qızıl baharı;
Məni səadətə siz apardınız
A məktəb yolları, məktəb yolları...

Gənc şairin heç bir dərdi yoxdur, indi onun ömrünün çiçəkli baharıdır. Onu bu mərtəbəyə gətirib çıxaran hər gün gəlib getdiyi məktəb yolları, müqəddəs məktəb və istəkli müəllimləri olmuşdur. Ona görə də öz tərbiyə beşiyi olan məktəbi ürəkdən sevir. Onun şair qəlbində məktəb həyatının şirin xatirələri və pak hissləri yaşayır. O, bu pak və müqəddəs hissləri əziz uşaqlara - məktəblilərə aşılamağa çalışır.

«Qızıl medal», «Mən də onun meyvəsiyəm» şeirləri tamamilə ayrıca və müstəqil şeirlər olsalar da, elə bil ki, «Məktəb yolları» şeirində qoyulmuş fikirləri tamamlayır.

«Qızıl medal» orta məktəbləri qızıl medallarla bitirən istedadlı və çalışqan gənclərimizə ithaf edilmişdir. Bu şeir həcm etibarilə cəmi 12 misradan ibarətdir. Bununla belə, gənc müəllif, qızıl medal almağın asan olmadığını, adamdan çox ciddi zəhmət və mətanət tələb etdiyini bu kiçik və yığcam şeirində deyə bilmiş və «Qızıl medal»ı tələbələrin gözündə daha da mənalandırmışdır.

Haqqın var əzizim, haqqın var öyün,
Kamalın çiçəklər açan bu gündə!
İllərlə kitablar üstə tökdüyün
Gözüyün nurudur yanır döşündə.

«Mən də onun meyvəsiyəm» şeirində biz görürük: gənç şair hər dəfə əzəmətli bir binanın qarşısından keçdikdə onda gizli bir hal doğur, dayanıb böyük binaya diqqətlə baxır. Çünki o binanın hər bir daşında və kərpicində gənc şairin xatirəsi vardır. O binaya baxdıqda, səhərlər əlində kitab çantası məktəbə gedən bir şakird (özünün uşaqlıq günləri) gəlib gözlərinin qabağında durur. Budur, binanın pəncərələrindən biri açılır. Ağ saçlı bir qadın müəllifin nəzərlərini özünə cəlb edir. Bəxtiyarın təsvir etdiyi əzəmətli bina onun vaxtilə oxuduru doğma məktəb, ağ saçlı qadın da ömrünü uşaqların tərbiyə və təhsilinə həsr edərək, gənc şairin zəhmətini çəkmiş hörmətli müəllimədir.

Bəxtiyar bu şeirə «Mən də onun meyvəsiyəm» - deyə təsadüfi bir

sərlövhə qoymamışdır. Gəncliyimizin tərbiyəsi üçün, xalq maarifi üçün qara saçlarını ağardan bu fədakar müəlliməyə bir az dinçəl deyəndə:

Hər bağbanın öz əkdiyi ağacından yediyi bar,
Ona bütün zəhmətinin acısını unutdurar.

- deyə cavab verir. Bu fədakar müəllimənin yetirmələrindən biri olan gənc şair təvazökarlıqla deyir:

Əziz dostlar! Mən nə qədər şad olardım, onun tamam
Zəhmətinin acısını unutduran bir bar olsam.

Yuxarıda adlarını çəkdiyim şeirlərə görə tərəddüdsüz demək olar ki, gənc şair əmək itirməmiş, hörmətli müəllimənin hər halda yaxşı yetirmələrindən biri olmuşdur.

«İlk cığır» şeiri də kiçik şeirdir. Onun məzmunu belədir: səhərin açılması ilə bərabər evlərin darvazaları da açılır. İş adamları durub, axşamdan yağmış qarı tapdayaraq işə-gücə gedirlər. Bir az keçir, onların ardınca qayğıbilməz alyanaqlı körpələr açılmış cığırlarla mək-təblərə gedirlər. Bu şeirdə körpələrə müraciətən şair deyir:

- Get ey quzum! Get ki, sən çəkməyəsən sonda ah
İradəni, qəlbini eşqə, səbrə sən çağır.
Açılmış cığırlarla bugün gedirsən... sabah
Sənin ayaqlarınla açılacaq ilk çığır.

Bu şeiri gənc şair məktəblilər üçün yazmış və «Pioner» məcmuəsində çap etdirmişdir. Lakin, əslində, bu şeirin mənasını «qayğıbilməz, nəşəli, alyanaqlı körpələr» başa düşə bilməzlər. Hətta məktəbli uşaqlarımızın əksəriyyəti də bu şeiri izahsız başa düşə bilməzlər. Çünki sadə görünsə də, bu şeirin həm məzmunu, həm də yazılış tərzi onların səviyyəsindən yüksəkdə durur. Burada «qayğıbilməz körpələrə» deyilir: Əgər siz bu gün atalarınızın açdıq-ları hazır cığırlarla gedirsinizsə, sabah sizin hər biriniz gələcəyin böyük adamları olacaqsınız. Özünüz yeni çığırlar açacaq, kəşflər, ixtiralar edəcəksiniz; yeni sözlər, yeni fikirlər deyəcəksiniz.

Ona görə də indidən iradənizi toplayın, yaxşı-yaxşı oxuyun, öyrənin!..

Hər birinin ayrılıqda müstəqil mənası və özünəməxsus forması olan bu kiçik və maraqlı şeirlərin əslində elə bil ki, hamısı bir fikri ifadə edir və bir-birlərini tamamlayırlar. Bu şeirlər bizim sağlam gəncliyimizdə məktəblərimizə həvəs, müəllimlərimizə hörmət hissi aşılayır. Uşaqlarımızı oxumağa, öyrənməyə çağırır. Ona görə də bu şeirlərin tərbiyəvi əhəmiyyəti vardır.

Müharibənin son illərində yazılmış, oxucuların hörmətini qazanmış «Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay» şeiri, bəzi kiçik ifadə nöqsanlarına baxmayaraq Bəxtiyar Vahabzadənin bu gün də ən yaxşı şeiri olaraq qalır.

Müharibədən qayıtmış əskər güllü bağçada, kölgəlikdə öz istəkli qardaşı ilə şad və xürrəm oturub məxməri çay içir. Əsgər birdən-birə mükəddər olur. Qardaşı bunun səbəbini soruşur. Məlum olur ki, əsgər bu mənzərəni gözdən keçirdiyi zaman cəbhədə itirdiyi əziz bir dostunun sözlərini xatırlamışdır:

Bir gün dostum dedi: «Bir də bağçamızda mən,
Çiçəklərin arasından keçəcəyəmmi?
Kölgəlikdə otlar üstə oturub həmən
Vətənimin tünd çayından içəcəyəmmi?»

Bu şeiri bizə sevdirən nədir? Hər şeydən qabaq bu şeirdəki həyatilik və inandırıcılıqdır. Burada gurultulu, təmtəraqlı sözlər yox, həyat səhnəsi vardır. Buradakı sevinc də, hüzn də hadisənin özündən doğur, ona görə də təbiidir. Lakin, yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu həyatilik neqteyi-nəzərindən Bəxtiyarın bir sıra şeirləri nöqsansız deyildir.

Gənc şair yazıb yaratdığı şeirlə «əbədiyyət sarayı» qurduğu zaman bayırdan qulağına bir bayatı səsi gəlir.

...Gündə bir kərpic düşur,
Ömrümün sayından.

Bu sözlər, keçmişdə kölə halında yaşayan, itirdiyi ömrünu insanlıq üçün faydalı bir işə həsr edə bilməyən, gündə ömrünün sarayından düşən kərpiclərə yanan ata-babalarımızın fəryadıdır.

Gənc şair haqlı olaraq keçən günləri indi «ömür sarayından» düşən kərpic hesab etməyir, əksinə, o, ötüb keçən günlərlə - «düşən kərpiclərlə əbədiyyət sarayı» qurduğunu söyləyir.

Bəs ömrümün sarayından düşən o kərpiçləri
Söylə-söylə atırsanmı? Atsan sonu qaranlıq.
Mən yazıram misraları axıdaraq könüldən,
Bir quluyam bu ilahi, gözəl etiqadımın.
O ömrümün sarayından düşən kərpiclərlə mən
Əbədiyyət sarayını qururam öz adımın.


Əsasən bəyəndiyimiz bu şeirin bir qüsurlu cəhətini qeyd etmək istəyirik. Əvvəla «əbədiyyət sarayı» qurmaq iddiasında olmağımız hələ bir qədər tezdir. ...Bundan başqa, «ömur sarayı», «əbədiyyət sarayı» və ilaxır kimi məfhumlar həyatdan, böyük quruculuq xarüqələrindən yox, indiyə kimi deyilmişlərdən və yazılmışlardan gəlir. Bəxtiyar Vahabzadə maraqlı şeirlər yaratmağa çalışır. O, bu cə-hətdən öz tay-tuşlarının çoxundan ustadır. Lakin, yaradıcılığın əsasında «qondarma hadisələr», «ustalıq» yox, həyat özü durmalıdır. Ustalıq və məharət mövzunun işlənməsinə (əsərin yaranmasına), gözəlləşməsinə, eləcə də bədiiliyinə xidmət etməlidir. Bu cəhətdən Vahabzadənin yaradıcılığı qüsursuz deyildir. «Mirvarı», «Könül baharı», «Böyük sənət» şeirlərinin bünövrəsində həyatdan çox, qonda-rılmış hadisələr, fikirlər durur. Ona görə də bunlar oxuçulara o qədər də yapışmır. Bəxtiyar bundan qaçmalıdır.


Hər hansı yaxşı əsər öz mayasını həyatdan alır. Onu böyük «əbədiyyət sarayı» edən yaradıcının işə məhəbbətlə yanaşması və inadlı zəhmətidir. Belə görünür ki, bu həqiqəti gənç şair özü indi artıq başa düşmüşdür. Biz zənn edirik ki, o, bundan sonra həyatımızla daha sıx bağlanacaq və daha inadla işləyəcəkdir. Bəxtiyar «Bir məhəbbət, bir əmək» adlı şeirində babasının dilindən belə deyir:

Cocuqluğun boş zövqünə, sevdasına düşərək
Könül vermə hər faydasız əyləncəli niyyətə,
Unutma ki, körpə nəvəm bir məhəbbət, bir əmək
Təməl olmuş əzəl gündən böyük əbədiyyətə.

Osman Sarıvəlli

«Ədəbiyyat qəzeti», 1948, 22 iyun.





LİRASI

Ədəbiyyatımızdakı şeir axını haqqında söz-söhbət düşəndə mən fikirləşirəm ki, axı, nə üçün son dövrlərdə, xüsusən ədəbi tənqiddə nəzm sözü şeir sözü ilə əvəz olunub? Nə üçün vəzn, qafiyə ilə yazılan bütün nəzmlər selləmə şeir adlanır? Nə üçün nəzm ilə şeir arasındakı təbii hüdud süni surətdə ortadan götürülüb?

Mən, «süni surətdə» deyirəm, çünki bu hüdud o qədər təbii, o qədər aydındır ki, ondan sərf-nəzər etmək mümkün deyil. Nəzmi dünyanın ən tərifli sözləri ilə də tərifləsən, yenə nəzm olaraq qalacaq.

Məlumdur ki, son altmış ildə bizim ədəbiyyatımızda həqiqi poeziya ilə bərabər, saysız-hesabsız nəzm əsərləri də yazılmışdır ki, onlar çoxdan, hətta öz müəlliflərindən də qabaq unudulub getmişdir. Çünki onlarda həyatın zahiri hadisələri, bəzən hətta mühüm ictimai problemlər hissiz, zövqsüz, quru bir dillə, olsa-olsa sadəlövh bir hey-ranlıqla nəzmə çəkilmişdir.

Həqiqi sənət əsəri, həqiqi sənətkar zahiri hay-küyçülükdən, sadəlövh heyranlıqdan, mədhiyyəçilikdən uzaqdır. Həqiqi sənətkarın qarşısında onun mənsub olduğu xalqın həyatı bir dərya kimi dayanmışdır. O, bu həyatın dərinliklərinə nüfuz etməyə, onun dərdini-sərini duyub dərk etməyə can atır. O, bəzən od tutub yanır, bəzən Pro-metey kimi üsyankar, bəzən məsum uşaq kimi kövrək olur və bu zamanlar da onun Lirası insanın qəlbini sarsıdan, ruhi aləmini təlatümə gətirən ülvi bir avazla səslənir. Və biz ona Şair deyirik.

Bəxtiyar Vahabzadə belə sənətkarlardandır.

O, bəlkə də, heç özündən asılı olmayaraq bu böyük dünyanın böyük dərdinə biganə qala bilmir. O, dünyanı bürümüş atom təhlükəsinin insan mənəviyyatındakı təhtəlşüur dəhşətini də, məhəbbətin, hicranın dərin iztirablarını da, xalqının mərdanəliyini də bir sənətkar kimi duyur və onun Lirası həmin ülvi avazla səslənir. «Vahabzadə poeziyası əzabkeş fikrin, dünya, insan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyasıdır». Bu sözləri yazan istedadlı tənqidçi Aydın Vahabzadə noeziyasının bir küll halında, xarakterini, xüsusiyyətini çox düzgün təyin etmişdir.

Vahabzadə poeziyasındakı iztirabların, çırpıntıların təhtəlşüur əsasını isə, şübhəsiz, vətən, xalq məhəbbəti təşkil edir.

Həqiqi sənətkar birinci növbədə özünü və mənsub olduğu xalqı ifadə edir. Ona görə də xalq onu sevir və yaşadır. Dünyada böyük ədəbiyyatlar da, böyük sənətkarlar da çoxdur. Lakin hər bir həqiqi sənətkarı yaşadan birinci növbədə onun əsərləri və xalqıdır. Xalq onun qəlbinin, iztirablarının, böyük arzularının tərcümanı olan sənətkarı sevir və heç bir zaman unutmur. Belə sənətkarın mükafatlandırılması da xalqın ürəyindən olur. Xalq ürəyi çox həssasdır. O, saxta hissləri, saxta məhəbbəti, saxta yapmaları dərhal duyur.

Bəxtiyar hər nə yazırsa, ürəkdən yazır, təbii yazır, təmənnasız yazır. Biz onun lirikasının avazında saxta notlar hiss etmirik.

Bəxtiyarın sənətkar kimi təqdirəlayiq cəhətlərindən biri də onun şeir dili və doğma Azərbaycan dilinə münasibətidir. Onun poeziyasında doğma ana dilinə dərin bir məhəbbət duyulur. Doğma ana dilinə münasibət, bu dildə yazıb-yaratmaq dünya mədəniyyətinin, dünya ədəbiyyaqının böyük ənənələrindəndir. Hər xalqın ədəbiyyatı həmişə onun doğma ana dilində yaranmışdır.

Fransız dilini ana dili kimi bilən Puşkin öz əsərlərilə doğma rus ədəbi dilini yeni yüksəkliyə qaldırdı.


Təhsilləri başqa dillərdə olmuş Füzuli, Nəsimi, Vaqif, Mirzə Fətəli, Sabir, Mirzə Cəlil, Haqverdiyev əsərlərini doğma Azərbaycan dilində yazaraq bizim ədəbiyyatımızı yaratmışlar.


İstedadlı, gözəl şair olan Vahabzadənin doğma Azərbaycan dilinə məhəbbəti təbiidir.

Mən qələm dostumu aldığı mükafatla təbrik edir, ona yeni-yeni bədii zirvələr arzu edirəm.

İlyas Əfəndiyev

«Ədəbiyyat və inçəsənət», 1984, 16 noyabr.





BƏXTİYARI DÜŞÜNÜRƏM...

Doğma ədəbiyyatımız gözümüzün önündən gəlib-keçir, öz-özümə deyirəm: ədəbiyyatımızı yaxından və hərarətlə sevən rəssamlardan biri də mənəm. Təəssüflənirəm ki, ürəyim istəyən qədər mütaliə edə bilmirəm. Səbəbi: ədalətsizlik! Zəif görürəm. Belə ki, hələ qırx il bundan əvvəl müəyyən edilmişdir ki, mənim cəmi otuz üç faiz görmə qabiliyyətim var. heç cür çeşmək də imdadıma çatmır. Hesablaşmıram. Çünki bir gün oxumayanda elə bil nəyi isə itirmişəm. Nə isə...

Bəxtiyarı düşünürəm... Əsl istedad sahibi, gözəl şairimizin ilk şeirlərindən başlayaraq onun bütün yaradıcılıq yolu gəlib gözümün önündə durur. Dərin məna, gözəl məntiq, ürək çırpınqılarıyla dolu bədii-fəlsəfi ümumiləşdirmələr Bəxtiyar şeirinin özülüdür. Ritorikadan uzaq lirik şeirlər... Onun hər yeni şeirini səbirsizliklə gözləyənlərdən biriyəm. Açığını deyim, şair Bəxtiyar mənə məharətlə mövzu seçən ustad bir rəssamı xatırladır.

Bəxtiyarı düşünürəm... «Etiraf» gözümün önündə gəlib durur. Bahadırı görürəm, hələ on altı il bundan əvvəl bu şəxsin etirafı ilə mən də az-çox məşğul olmuşam. Poemanın proloq və epiloqundan onun obrazını yaratmağa cəhd etmişəm və qərara gəlmişəm ki, hər məqamda Bahadırın çöhrəsini oxucuya göstərmək lazım deyil. Ləyaqətinə görə yox. İstəmişəm oxucunun şəxsi təsəvvürünə mane olmadan ona kömək edim.


Bəxtiyarı düşünürəm... «Şəbi-hicran» gəlib gözümün önündə durur. «Sinəsində qəmdən lalələr açılan, əməllər, arzular şairi» dahi Füzuli bir


daha xəyalımda çanlanır. Xatırlayıram ki, «Leyli və Məcnun» poemasının bədii tərtibatını elə təzə qurtarmışdım ki, məmnuniyyətlə Bəxtiyarın «Şəbi-hicran»ı ilə məşğul oldum. Əvvəllər bir-birimizi uzaqdan tanıyırdıqsa, böyük Füzulimiz bizi əbədi dost etdi. Bu gün dostum Bəxtiyarı-Füzuli yadigarını, nəcib istedad sahibi alim-şairi səmimiyyətlə təbrik edirəm, artıq o, yarıməsrlik bir ömrü başa çatdırmışdır.

Bəxtiyarı düşünürəm... Əminəm ki o, hələ bundan sonra da qədirbilən doğma xalqını dəfələrlə sevindirəçəkdir Bəxtiyarı düşünürəm...

Mikayıl Abdullayev

«Azərbaycan» jurnalı, 1975, № 10.





Şeirlor, poemalar, radio-pyeslər...

On ildən artıqdır ki, radioda Bəxtiyar Vahabzadənin şeirlərinin, poemalarının, radio-pyeslərinin ifaçısı olmuşam. İndi də radionun qızıl fondunda olan həmin lent yazıları səslənəndə bu əsərləri maraqla dinləməyə məcbur olursan. Çünki bunlar, eyni zamanda ifaçını da düşündürür, hisslərini coşdurur, gözəlliyə, təmizliyə çağırır.

Bəxtiyarın dram əsərlərində iştirak etmək mənə də nəsib olmuşdur.

Yadımdadır: «Yağışdan sonra» əsərinin rol bölgüsündə mənə Qədimbəy surəti tapşırılmışdı. Mən nədənsə ilk məşqlər zamanı özümü bu rolda tapa bilmirdim. Bir aktyor kimi romantik obrazlar məni daha çox maraqlandırırdı.


Lakin iş zamanı aydın oldu ki, məhz Qədimbəy də yaşına, təcrübəsinə, sərt xasiyyətinə baxmayaraq, son dərəçə romantikdir. Yəni, başqa cür də ola bilməzdi. Bəxtiyarın dram əsərləri də bir növ, mən deyərdim, lirik poemadır.

Xalqımızın gözəl, qədim ənənələri Bəxtiyar pyeslərində daha da inkişaf etdirilib bu gün müasir tələblər səviyyəsinə qaldırılmışdır. Məhz buna görə Qədimbəy surətinin səhnə təcəssümü müasir gənclərimizin sevimli bir idealına çevrilmiş, bir örnək olmuşdur.

50 il-sənətkarın çiçəklənən dövrüdur. Mən arzu edirəm sevimli şair-dramaturqumuz Qədimbəylər kimi əsərlərlə yaşayıb yaratsın, səhnəmizi şair qəlbli qəhrəmanlarla daha da zənginləşdirsin.

Əli Zeynalov

«Azərbaycan» jurnalı, 1975, № 10.



Bəxtiyar Vahabzadə müasir Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi olan, yaradıçılıq əməlləri, şairanə ilhamı, yazı manerasının fərdiliyi ilə fərqlənən şairimizdir.

Onun lirasında, bədii düşüncələrində özünüdərk və mühakimə etmək, başqa sözlə, cəmiyyət, xalq, vətən, insanlıq qarşısında vəzifələrini, şair-vətəndaş, sənətkar vəzifəsini dərk etməyə meyl, tələş səciyyəvi bədii keyfiyyətlərdəndir.

Diqqətəlayiq də budur ki, bu özünüdərk və mühakiməetmə onun əsərlərində bir nəfərin, yəni, təkcə şairin deyil, mənsub olduqu xalqın özünün vətəndaşlıq, insanlıq vəzifələrini, intibahını, intellektual kamilliyini dərk etməsidir.

Şairin tez-tez və fəxrlə, bəzən də narahatlıq, özündən narazılıqla - keçdiyi yaradıcılıq yolunda vətənə göstərdiyi xidmətdən hələ kifayətlənmədən - nəzər salması öz sözü ilə «öz dünyası», «qəlb aləmi», onun işə, xalqa, vətənə can yandıran bütün şüurlu vətəndaşların mənəvi dünyası, mənəvi ehtiyacı kimi səslənib, böyük məna kəsb edir.

«Nə gözəldir öz-özünə səyahət», - deyəndə də şairin sözü-söhbəti, sual-cavabı vətəndaşları ilədir. Özunə xitab ümumə xitabdır, özünə tələb ümumə tələbdir. Özünün yaradıcılığından, sənətdə ən uca zirvələri fəth etmək arzusundan danışanda da, ürəkdə bəsləyib əzizlədiyi arzular hər işdə, hər əməldə, yaradıcılıqda, quruculuqda ümumin, xalqın, kütlənin daha uca zirvələrə qalxması arzusu və səyinin ifadəsidir; mədəniyyətimizin daha da çiçəklənməsi. respublikamızın daha da şöhrətlənməsi naminə birkə fədakarlığa çağırışdır:

Mən sənə arxayam,
sən mənə kömək.
Gücsüz, bir heçik.
sən də, mən də tək.

Eləcə də, şairin ümumxalq işinə laqeyd qalanlara «təkçə özünü düşünənlərə», ancaq «özünə xidmət edənlərə», xalq üçün heç bir xeyirli iş görmədən özünü xalqa borclu bilməkdənsə, «xalqı özünə borclu hesab edənlərə», yabancı zövq təqlidçilərinə, xalqın mədəniyyətindən, irsindən, dilindən, əməlindən xəbərsiz olanlara qarşı nifrəti də onun hər şeyi aydın görən, «itigözlü» vətəndaşlığının nifrə-tidir.

Hikmətli-fəlsəfi fikirlə zəngin klassik şeir və siyasi kəskinliyi ilə fərqlənən yeni məzmunlu şeir mədəniyyəti Bəxtiyar şeirinin bünövrəsidir. Əqidəsizliyi, mənəvi yoxsulluğu qəzəblə töhmətləyən əsərlərində vaxtilə dinlə alver edən, tərki-dünyalığı, asketizmi, insanı, şəxsiyyəti alçaldan «köləlik dinini», «fəlsəfəsini» təbliğ edən zahidliyi amansızcasına ifşa edən Nəsimi cəsarəti, düşüncələrini hikmətli sözlərlə qüvvətləndirməyə xüsusi meyl göstərməsində, «könül ol talibi-hikmət, o hikmət kim, həqiqətdir» - deyən Füzuli ruhu, xalqların milli azadlıq uğrunda, imperialist əsarətinə və fitnəkarlığına qarşı qalibiyyətli mübarizəni əks etdirən «Təzadlar» kimi əsərlərində «Zəncinin arzuları», «Yandırılan kitablar» müəllifn Səməd Vurğun şeirinin ruhu çox aydın duyulur.

İrsə münasibətdə bir alim-tədqiqatçı, ədəbiyyatşünas kimi, «keçmişin işi-əməli bu günün, bu günün işi-əməli sabahın körpüsüdür», - gəldiyi nəticə Bəxtiyarın şeirini, bədii yaradıcılığını, estetik görüşlərini zənginləşdirən körpudür. Bəxtiyar mənsub oldüğu xalqın tarixi keçmişini, bu şərəfli keçmişin mədəniyyət, dil, sənət tarixini, qəhrəmanlıq ənənələrini, keşməkeşli siyasi həyatını, həm də ötüb keçən qərinələrin faciəli anlarını «göylərə sığmayan ağır zamanlarını», tarixi ibrət dərslərini vərəqləməyi və bu fəryad edən ziddiyyətlərlə dolu keçmişi arzulardakı həyatla təzadda göstərməyi - qaranlıqdan işığa, asılılıqdan

sərbəstliyə, köləlikdən azadlığa gedən bir yol kimi göstərməyi ustalıqla bacarır.


Bu çətin, lakin qalibiyyətli yolu şair müasir dünya hadisələri, xüsusən hələ azadlıq uğrunda vuruşan və ya az-çox azadlıq, istiqlaliyyət qazanmış, ancaq bu sərbəstliyi, müstəqilliyi qorumaq yolunda bir tərəfdən imperialist dövlətlərinin təzyiqinə, müdaxiləsinə, fitnəkarlığına, ikinci tərəfdən yerli hakim siniflərin və xalqdan ayrılıb, özgələşmiş «oxumuşların» xəyanətinə məruz qalan xalqların taleyindən bəhs edən əsərlərində də bir nümunə, bir tarixi ibrət dərsi kimi azad görmək istədiyi millətlərə çatdırmaq istəyir.

Şair Yaxın Şərqdə ilk olaraq milli azadlıq, istiqlaliyyət uğrunda müstəmləkə zülmünə qarşı mübarizəyə qalxan və yarım əsrdən artıqdır ki, bu yolda saya-sana sığmayan qurbanlar verən, cənublu qardaşbacılarının taleyi haqqında düşündüyü zaman o, niskilli olduğu qədər, eyni böyük amal uğrunda mübarizə aparan xalqların taleyi haqqında da qayğılanır. Bu qayğı da onun mənsub olduğu xalqın qayğısıdır, xalq humanizmi, beynəlmiləlçiliyinin ifadəsidir.

Bəxtiyarın müxtəlif millətlərdən olan oxucuları, həmkarları onun son dərəcə milli və beynəlmiləlçi şair olduğunu ayrıca qeyd və təsdiq etmişlər. Bu millilik və beynəlmiləlçiliyin vəhdəti onun beynəlxalq mövzuda yazdığı əsərlərində və ümumiyyətlə, siyasi lirikasında çox parlaq ifadəsini tapmışdır.


Günümüzün qabaqcıl şairlərindən biri sayılan Azərbaycan şairinin SSRİ Dövlət mükafatına layiq görulməsi, ümumiyyətlə, ədəbiyyatımızın ideya-bədii nailiyyətlərinin layiqincə qiymətləndirilməsi deməkdir.

Bəxtiyar «hər işdə, hər əməldə yüksək zirvələrə çatmaq» arzusundan çox yazır. Onu öz yaradıcılığında da daha yüksək zirvələrdə görək.



Məmməd Cəfər

əsənət», 1984, 16 oktyabr.



...MMANDIRSA...

Azərbaycan poeziyası bəşər tarixində ən qədim, ən cavan poeziyadır. Ondakı fikir zənginliyi və müdrikliyi, ondakı təravət və hərarət, ondakı coşğunluq və səmimiyyət bütün dünyada məşhurdur. O, uzaq əsrlər arxasından uzaq sabaha gedən poeziyadır. Çünki insani mehribanlıqdan, nəcabətdən doğan poeziya həmişə bəşəri poeziya olmuşdur.

Belə bir sənət tarixində şair olmaq böyük şərəfdir. Xalq şairi çarırılmaq isə ikiqat şərəfdir.

Bəxtiyar Vahabzadə belə sənətkarlarımızdandır. O, hələ rəsmi xalq şairi adı almamışdan da xalqının əziz, sevimli şairi idi. Bəxtiyar Vahabzadəni təbiət şair yaradıb. Poeziya elə bil onunçün, o da poeziya üçün doğulub.

Mən heç çür təsəvvür edə bilmirəm ki, əgər yer üzündə şairlik sənəti olmasaydı, Bəxtiyar hansı sənəqi seçərdi. Mənə elə gəlir ki, hətta şairlik sənəti olmasaydı da, o, yenə şeir yazacaqdı, bayatı deyəcəkdi, nəğmə qoşacaqdı. Çunki şeir onun daxili aləminin təlatümlü əks-sədası və səmimi inikasıdır.

Həyat hadisələri elə cərəyan edir ki, istədiyin adamla hər gün üz-üzə gələ bilmirsən. Lakin onunla hər gün görüşürsən. Onun təbəssümünü görürsən, səsini, ürək döyüntülərini eşidirsən. O, sənə ən dəruni hisslərini pıçıldayaraq deyir:

Əgər sevirsənsə, ayaq səsimdən
Kərək biləsən ki, Bəxtiyar gəlir.

O, sənə həyatın kəşməkeşlərindən keçərək cilalanmış Fəlsəfi fikirlərini dönə-dönə yada salır. Sən onun ürək və tale həqiqətini öz doğma həqiqətin kimi qəbul edirsən.

Birçə ondan razıyam ki,
Özümdən narazıyam.


Əgər doğma poeziyamız gur bir ümmandırsa, onun coşğun, çağlar bir damlası Bəxtiyar Vahabzadənin aşıb-daşan ürək döyüntüsü və ilhamıdır.


Əgər doğma poeziyamız əzəmətli bir durna qatarıdırsa, o qatarın xoş. müqəddəs nəğməsində B.Vahabzadə könlünün çırpıntıları qüdrətlə səslənir.

O durna qatarı üfüqdən-üfüqə, nəsildən-nəslə qanad açdıqca Bəxtiyar ilhamının xalq və vətən tərənnümlərini də özüylə aparacaq, ürəklərdən-ürəklərə səpəcəkdir.

Nəbi Xəzri

«Ədəbiyyat və incəsənət», 1935, 23 avqust.





BƏXTİYAR

Eşidəndə ki, 60 yaşın tamam olur, çoxdan bəri qəlbimdə yığılıb qalan hisslərimin bir qismini bu məktub vasitəsilə sənin oxucularına çatdırmaq istədim. Kitabların və dövri mətbuatda çap olunan əsərlərin haqqında imkan tapdıqca fikirlərimi şifahi olaraq özünə demişəm və necə iftixar hissi keçirməyimdən də xəbərin var. Çünki indi sənin də yaradıcılığın, bir neçə şair və yazıçı dostlarımız kimi, Azərbaycan ədəbiyyatında elə bir mövqedədir ki, yazdığın hər müvəffəqiyyətli əsər yalnız Bəxtiyarın deyil, bütünlükdə ədəbiyyatımızın nailiyyətidir. Bütünlükdə Azərbaycan ədəbiyyatı deyəndə mən Arazın hər iki tayında yaranan vahid ədəbiyyatımızı nəzərdə tuturam. Bu bir həqiqətdir ki, Bəxtiyarı, onun yaradıcılığını Cənubda heç də Cənubi Azərbaycan şairlərindən az sevmirlər.

Biz 1979-çu ildə İranda şahlıq diktaturası devriləndən sonra dərc olunan dövri mətbuatda bunun şahidi olduq.

Qardaşım Bəxtiyar! Sənin şeirlərinin səsi-sorağı hələ Böyük Vətən müharibəsi illərində gəlib Cənuba çatmışdı. Doğrudur, o zaman şeirlərin yenicə ayaq tutub yerimək istəyən körpəyə bənzəyirdi. Hələ özün də bilmirdin ki, bu körpə necə böyüyəcək, sənət aləmində necə addımlayacaq. S.Vurğun, S.Rüstəm, R.Rza, M.Dilbazi, N.Rəfibəyli, O.Sarıvəlli, Ə.Cəmil və başqa şairlərin ardınca ədəbiyyat aləminə gələn Bəxtiyar və onun qələm yaşıdlarının bu çətin yoldan necə keçəcəklərinə o zaman zəmanət vermək çətin idi. O illərdə mən Cənubi Azərbaycanın Ərdəbil şəhərində yaşayırdım. Arabir yolum Təbrizə düşəndə ya «Vətən yolun-

da» adlı qızıl əsgər qəzetinin redaksiyasında, ya da Təbrizin Gülüstan bağında yerləşən mədəni əlaqələr cəmiyyətinin kitabxanasında Bakıdan gələn mətbuatı oxuyardım. Sənin şeirlərinə və imzana ilk dəfə o zaman rast gəlmişəm. Lakin heç ağlıma da gəlmirdi ki, həyatın gedişi məni Bakıya gətirib çıxaraçaq. Səninlə yaxından tanış olacaq, ildən-ilə inkişaf edən sənətin məni özünə daha möhkəm bağlayacaq, ən yaxşı oxucularından birinə çevriləcəyəm.

Əziz qardaşım! Poeziyanın çətin yolunda təqribən yarım əsr təmkinlə, inamla, özü də üzü zirvəyə doğru addımlamağa, məlumdur ki, hər kəsin nəfəsi çatmır. Bu yüksəlişdə yaradıcıya istedad, zəhmət, bir də bədii təfəkkür kömək etməlidir. Şeirin hiss ilə təfəkkürün məhsulu olduğu məlum məsələdir. Bu iki keyfiyyəti özündə daşıyan şair oxucularının rəğbətini qazana bilir. Əlbəttə, bunlardan birinin nisbətən üstünlüyü ilə biz sənətkarlarımızı «lirik» və ya «mütəfəkkir» şair adlandırırıq. İstər qələm yoldaşların, istərsə də oxucuların səni mütəfəkkir şair kimi tanıyır. Bu tanınmağın da mayası öz şeirlərindir. Çünki sənin şeirlərində təsvir olunan hadisələrin mahiyyətinə daha dərindən nüfuz etmək, sənətin işığında onu aydınlaşdırıb oxucuya təqdim etmək, oxucunun hissləri ilə yanaşı, şüuruna təsir etmək meyli çox güçlüdür. Bu da həqiqətdir ki, şüurlara hopmuş sənətin də ömrü uzun olur.

Mənim fikrimçə, Bəxtiyarı xalqa və oxucularına sevdirən cəhətlərdən ən başlıcası şeirlərindəki vətəndaşlıq hissinin güclü olmasıdır. Sən dünyamızda baş verən hadisələri həssaslıqla izləyən şairlərimizdənsən. Həyatda baş verən müsbət hadisələri ürək açıqlığı, ilhamla tərənnüm etdiyin kimi, mənfi hallara, onları törədən dönüklərə, elinə, obasına arxa çevirənlərə, dilini, millətini, vətənini ağalarına xidmət müqabilində dananlara qəzəbini gizlədə bilmirsən. Belə hallarda Bəxtiyarın səsi daha da gur eşidilir.

Mən bu məktubda sənin haqqında, yaradıçılırının xüsusiyyətləri haqqında danışmaq fikrində deyiləm və bu, əslində, bir məktubda mümkün deyil, bəlkə bir neçə məqalənin mövzusudur.


Bəxtiyar xalqının, vətəninin sevgisini, qayğısını qazanmış bir şairdir. Bu isə yaradıcı insan üçün ən böyük bir səadətdir.


Mən neçə il əvvəl sənə həsr etdiyim «Mən səadət axtarıram» şeirimdə bir həqiqəti - «sən səadəti tapmısan» demişdim. İndi də üzumü 60 yaşlı Bəxtiyara tutub deyirəm:

- Bəxtiyar! Sən bu səadəti istedadın və bütün varlığınla, bir də yaratdığın yüksək sənətinlə, xalqa, vətənə və əqidənə bağlılığınla tapmısan. Halal olsun bu bəxtiyarlıq, mübarək olsun altmış yaşın!

Qardaş məhəbbətilə, Balaş Azəröğlu

«Ədəbiyyat və inçəsənət», 1985, 23 avqust.





ŞEİRLƏR

Xalq şairi Bəxtiyar Vahabzadənin zəngin poeziyası neçə-neçə bəstəkar ilhamına qol-qanad vermiş, bütöv bir «mahnı çələngi»nin yaranmasına səbəb olmuşdur. Bəxtiyarın sözlərinə bəstələdiyim xeyli mahnının uğurlu çıxmasının səbəbini mən şairin musiqiyə yatımlı, lirik, fəlsəfi poeziyasında görürəm. Məlumdur ki, şeirin məzmu-nundan və xarakterindən doğan musiqi əsəri uzunömürlü olur. Başqa sözlə, yaxşı musiqini yaxşı şeir özü gətirir. Bəxtiyarın şeirlərinə yazılmış mahnılar da məhz belədir.

Şairin gözəl musiqi zövqü, mahnıların lad əsasını - muğamları dərindən duymaq qabiliyyəti, musiqi haqqında ətraflı təsəvvürü var. O, yaxşını pisdən dərhal ayırmağı bacarır. Bəlkə də, buna görədir ki, onunla yaradıcılıq ünsiyyəti bağlamaq bəstəkarlar üçün faydalıdır. Otuz ilə yaxındır ki, Bəxtiyarla yaradıcılıq əməkdaşlığı edirəm. Bu əməkdaşlığın bəhrələri dinləyici qəlbində əks-səda tapıb, birgə yaratdığımız mahnılar sevilib, geniş yayılıb, uzun müddət repertuarda özünə yer tutub və tutmaqdadır.

Mən Bəxtiyarın sağlam musiqi zövqünə inanıram. Şair mənim mahnılarımın ilk dinləyicilərindəndir. Şeirinə bəstələdiyim melodiyanı çalıb ona göstərəndə əgər bir yerinə irad tutursa, onu əsər üzərində yenidən işlərkən mütləq nəzərə alıram. Yaxşı bilirəm ki, Bəxtiyar yersiz irad tutanlardan deyil. Bəzən belə də olur: əgər melodiya xoşuna gəlmirsə və yaxud qəlbindən xəbər vermirsə, onda fikrini də gizlətmir, açıq-aydın deyir ki, «Yox, Şəfiqə xanım, bu, sən deyilsən!»

Məndə Bəxtiyar Vahabzadənin yaradıcılığına məhəbbət oyadan onun şeirinin vətənpərvər ruhudur, şairin vətəndaş mövqeyi - fəal həyat mövqeyidir. Mətninə musiqi bəstələdiyim «Bu torpağa borcluyam», «Vətən torpağı», «Vətənim», «Vətən qədər uçalar», «Yaradan əllər», «Həyat, sən nə şirinsən» və s. mahnılarımda olduğu kimi.

Şairin şeirləri musiqi qədər ahəngdardır. Mən bu poeziyanı musiqili poeziya adlandırardım. Belə poetik nümunələrə melodiya bəstələmək asan olduğu qədər də çətindir. Asandır ona görə ki, şeirin təbiəti musiqilidir, çətindir ona görə ki, mətni elə bəstələməlisən ki, şeirdə ifadəsini tapmış fikirlər dinləyiciyə duzgün çatsın. Təsadüfi deyil ki, şair burada da bəstəkarın köməyinə gəlir - mahnı üçün xüsusi mətn yazmağı üstün tutur. «Sənsiz-sənlə», «Uzaqdayam», «Unudam gərək», «Sirlə dolu nəğmə» və bir çox başqa mahnılarım belə meydana gəlmişdir.

Sevinirəm ki, şair-dramaturqun Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulmuş «Vicdan» pyesinə, «Etiraf» və «Zirvə» poemalarının səhnələşdirilmiş radiokompozisiyasına bəstələdiyim musiqi bu əsərlərin bədii qayəsinin tamaşaçı və dinləyicilərə çatmasında az-çox rol oynayıb.


Görkəmli sənətkarımızın yubileyinə onun sözlərinə bəstələdiyim mahnı töhfələri ilə gəlirəm...

Bəxtiyar poeziyasının pərəstişkarlarından biri kimi təkcə onun üçün deyil, şairin ilhamlı yaradıcı zəhmətini layiqincə qiymətləndirənlər üçün də əlaməqdar olan belə gündə - anadan olmasının 60 illiyi qeyd olunduğu gündə ona yeni-yeni uğurlar, bəstəkarlarla daha sıx yaradıcılıq əlaqəsi arzulayıram. Qoy, Bəxtiyarın həyaqımızdan, yurdumuzun gözəlliklərindən, zəhmət adamlarının qurub-yaratmaq əzmindən güc alan əlvan, mənalı, müdrik poeziyası dinləyicilərə bundan sonra da şeirlə musiqinin vəhdətindən yaranmış əsl sevinc bəxş etsin.



Şəfiqə Axundova

«Ədəbiyyat və incəsənət», 1985, 23 anqust.



...AQƏTİ, ŞAİR SEVGİSİ

Bəxtiyar Vahabzadə sevilən şairdir. Fəqət sevilə bilmək üçün sevməyi bacarmaq lazımdır. Sevə bilmək isə istedadlı olmağın bariz xüsusiyyətidir.

Bəxtiyarın yaradıcılıq həyatı barədə düşünərkən, onun intixab etdiyi sənətkarlıq amalını, daim sadiq qaldığı şairlik əqidəsini və istinad etdiyi məslək-fikir qaynaqlarını qızğın bir məhəbbətlə sevdiyinin şahidi oluruq.

Bədii yaradıcılıq, ümdəsi də poeziya, möcüzəsi və hikməti tükənmək bilməyən elə bir sehrli aləmdir ki, onun qanun və tələbləri səviyyəsindən düşüncə və hisslərə təsir göstərmək iqtidarına yiyələnə bildikdə belə, bəlli olur ki, sənətkara təkcə istedad kifayət deyildir. Əsas məsələ - istedadı nə kimi aydın bir məqsədin, konkret əməlin və əqidənin xidmətinə istiqamətləndirməkdən ibarəqdir. Bu baxımdan Bəxtiyarın yaradıcılığı xalqı, cəmiyyəti və müasirlərini dərindən düşündürən və həyəcanlandıran kəskin, ciddi və böyük fikirlərin, əhəmiyyətli və gərəkli ictimai problemlərin həllinə yönəlmişdir. Özünün təsir qüvvəsini xalqın və cəmiyyətin həyati mənafeyinə, müasir dövrün və zamanın həlledici, vacib məsələlərinə nə dərəcədə xidmət etməsi ilə ölçən şairin bu misraları nə qədər də ibrətlidir:

Can vermə hər ötərki dərd-qəmə, şeirim mənim,
Əzmə-büzmə gözələ bənzəmə, şeirim mənim.
Sən atəş ol, sən od ol,

yandır da sən, yax da sən,
İldırım ol, çax da sən.
Göstər öz işığında bu dünyaya ozünü.
Bir an yumma gözünü,
Həm gör sən, həm də göstər!
Fərəhləri fərəhdə, qəmi də
qəmdə göstər.
Demirəm ki, zərrəni keçiş kürrədə göstər,
Qüdrətin varsa sənin
Sən bu boyda kürrəni kiçik
zərrədə göstər.

Sən duşün dərin-dərin, düşündür
dərin-dərin,
Vətənini, elini danan
tüfeylilərin
Vətənçin yox,
manatçın yanan tüfeylilərin
yumruğa dön başında.
Keşikçi ol bu yurdun
torpağında, daşında.

Vətəndaşlıq pafosu, Bəxtiyarın şeirlərində çox qüvvətlidir. Müasir cəmiyyətin, xalqın işıqlı və təmiz ideallarının təsdiqi mövqeyindən içtimai yaramazlığın, mənəvi rəzalət və fənalığın inkarı - həmin vətəndaşlıq pafosunun başlıca məfkurəvi-estetik əlaməti olaraq meydana çıxmışdır. Şeir cəmiyyətin həyatı, xalqın taleyi və müqəddəratı ilə kökündən bağlı amillərə və müasir insanın mənəvi aləminə yabançı olan hər növ saxtalığa qarşı amansızdır. Ümumən, Azərbaycan şeirinin bu istiqamətdəki ənənələrinin Bəxtiyar şeirinə yaxşı mənada təsirini və xüsusi bir ustalıqla davam etdirildiyini aydın görürük.

Ənənəyə bağlılıq heç də ənənəni yamsılamaq, təkrarlamaq deyildir; bu mənada fikirlə hissin ahəngdarlığının və vəhdətinin təzahürü

Bəxtiyarın şeirlərində orijinal xüsusiyyət kimi diqqəti cəlb edir. İnsan cəmiyyətə o zaman fayda verə bilər ki, «özü üçün yaşamaq» kimi zərərli bir mövhumatı mənliyinə sığışdırmasın. «Özü üçün yaşamaq» miskinlikdir. Özünü cəmiyyətə fəda etmək, böyük və nurlu ideallar naminə özünə qarşı amansız olmaq isə məğrurluqdur. Təkəbbürlə qürur və xudbinliklə şücaəti fərqləndirən əsas amil - xalq işinə, həqiqətə və doğruluğa sədaqət naminə xırda və məhdud hisslərə qələbə çalmağı bacarmaqdır. Şair, müasir insanın əməli vətəndaşlıq vəzifəsini, fəaliyyət yolunu və mənəvi ləyaqətini bu amillərə istinadən müəyyənləşdirir. Çox halda adi görünən bir cizgidə, zahirən kiçik predmetdə və ötəri təfərrüatda belə, müəllif özünün düşündürücü-sərrast fikirlərini incələşdirməyi bacarır.

Bəxtiyar Vahabzadənin poeziya yaradıcılığına vurğun olanlar, şairin «yanmaq» ifadəsini tez-tez işlətdiyini, həm də bu ifadənin şərhi üzərinə dönə-dönə qayıtdığını yəqin ki, bilməmiş deyillər. Şair həmin ifadənin sözaltı məzmununa müxtəlif qütblərdən diqqət yetirir.

Bu qütblərdən birini belə mənalandırmaq olar ki, yaradıcı şəxsiyyət kimi sənətkar, dərin və çoxcəhətli fikir təlatümü keçirməlidir. Xalqı və cəmiyyəti düşündürən, cəlb edən məsələlər, ciddi və böyük həqiqəqlər sənətkarın mənəvi-fikir dünyasında dəruni bir intibah, əks-səda yaratmayıbsa, demək, yaradıcı şəxsiyyətin yaşamasına da lüzum yoxdur. Şair - söz sənətkarı, öz zəmanəsinə, içərisində yaşadığı cəmiyyətin həyatına və müasiri olduru varlığa laqeyd qala bilməz. Laqeydlik sənətin, bədii yaradıçılığın ölümü olduru kimi, etinasızlıq da şairin - sənətkarın süqutudur. Əgər, doğrudan da, şair öz zəmanəsinin haqq sədası, xalqın azadlıq və ədalət səsidirsə, o, yanmaya bilməz. Yanmaq, alovlanmaq və tüğyan etmək - həqiqət naminə! Sarsılmaq, iztirab keçirmək və böhrana uqramaq - ədalət naminə! Təsdiq etmək, rədd etmək və yandırmaq - gözəllik naminə! Budur, yüksək ideyalı sənətin amalı və böyük, şərəfli ədəbiyyatın yolu!

«Şəbi-hicran» və «Aqlar-güləyən» poemalarının, eləcə də «Özümdən narazıyam», «Şeir və mən», «Habil segahı». «Qaliley», «Bethoven haqqında», «Şəhriyara», «Şairlər» və «Füzuliyə» şeirlərinin

əsası bu qəbildən olan maraqlı və əhəmiyyətli fikirlərin, ədəbi-estetik mülahizələrin poetik şərhi ilə bağlıdır.

«Yanmaq» ifadəsinin digər qütbdən izahı - şəxsiyyətlə, xalqla və vətəndaşla cəmiyyət arasındakı müqabil əlaqələrin və münasibətlərin təhlili səpkisində mənalandırılmışdır.

İnsanın yaşamaq hüququ - onun mənsub olduğu xalq və çəmiyyət üçün nə dərəcədə gərəkli olması meyarı ilə ölçülməlidir. Həyata bu meyarla yanaşmağı həyatın özü müəyyənləşdirmişdir. Mübarizə və münaqişələrdən təcrid olunmuş passiv, sükunətli bir aləm əslində yoxdur.

Ömür bizə verilmir -
Ancaq yaşamaq üçün;
Ömür bizə verilir -
Dünyanın da dərdini,
Qəmini çiynimizdə
Çəkmək, daşımaq üçün.
Ömür - qəlbin, zəkanın
Min eşqi, min əməli,
Ömür, ömürdən sonra
Yaşamağın təməli!

İnsan mənəvi ləyaqətin rəmzidir və bu ləyaqəti qiymətləndirən həlledici qayə - Vətənə, xalqa və ümumən, bəşəriyyətə insanın nə dərəcədə və nəyə görə gərəkli olmasıdır. İnsan öz-özünə lazım olmalıdır ki, cəmiyyət ondan faydalansın. Yox, əgər insan yalnız özünə lazımdırsa, bax, bu, doğrudan da, müdhiş faciədir. Şairin yandırıcı və qəzəbli bir dillə Vətənin karına gəlməyən miskin, yaramaz insanları yerində lənətləndirməsi də, bu cəhətdən diqqətəlayiqdir.

Sərçə uçdu budağından,
Budağını bəyənmədi.
Bağa çıxdı çanağından.

Çanağını bəyənmədi.

Bu torpaqdan yaranmış can,
Bu torpağa ola qurban.
Yad oçaqda əl qızdıran
İsinmişəm deyəmmədi.

Tərəqqi, təkamül və fikri yetkinlik etibarı ilə kamilləşdikdə belə, yenə də insan vətəndaşlıq səviyyəsin, bütövlükdə yüksələ bilmir. Bəs tamlıq, bütövlük içərisində çatışmayan nədir? Son dərəcədə incə və hassas bir amil - qəlbin «maariflənməsinə» və könül şafqətlənməsinə rəvac verən sarsılmaz bir duyğu – səmimi insanpərvərlik! Əməlpərvər cəmiyyətçi və mübariz vətəndaş olaraq insan bu təbii hərarətli duyğunu köksündə, ürək çırpıntılarında yaşatmağa qadir deyildirsə, deməli, mənəvi bütövlükdən mərhumdur.

İnsan vətəndaş kimi alovlanmalıdır - başqalarını səadətə çatdırmaq üçün! İnsan cəmiyyət xadimi olaraq yanmalıdır-idealları reallığa çevirmək və reallığı ideal dərəcəsinə ucaltmaq üçün! İnsan qəzəblənməlidir-insanlar arasında yaradılmış soyuq laqeydliyi və miskin etinasızlığı yox etmək üçün!

Vətandaşlıq əzminə yiyələnmiş kamil insan, ləyaqət və şəxsiyyətinə hörmət bəsləmək iqtidarındadırsa, o, şərəfli olmaya bilməz. Damarlarında qeyrət qanı qaynayan mükəmməl şəxsiyyətin, vətəndaşın yaşamaq amalı isə təmənnasız surətdə, haqq və ədalət uğrunda yanmasından ibarətdir:

Könül, dolan el-obanı,
O dağda gəz, bu dağda gəz.
Leylək olub yer eşinçə,
Sən bülbül ol, budaqda gəz.

Hər atəşə, oda yanma.
Sözün haqsa - onu danma.

Manat olub xırdalanma,
Yaqut kimi barmaqda gəz.

Əskik olma xeyir-şərdə,
Güntək görün sən hər yerdə.
Duyğu kimi ürəklərdə.
Nəğmə kimi dodaqda gəz.

Şairin «İztirabın sonu», «Yollar-oğullar» və «Etiraf» poemaları, həmçinin «Meşin qapılar», «Nekroloq». «Həyatı yaşa», «Qorxu», «Səadət nədir». «Ucalıq», «Borc». «Bir gün ilə yaz açılmaz», «Ürək», «Dağda şəlalə kimi» və «Ağrılar»* şeirləri vacib ictimai-əxlaqi problemləri bədii-poetik sözün inçəliyi ilə rəsm etmək baxımından çox əhəmiyyətlidir.

Bəxtiyar müdrik şairdir və müdrik olmaq heç də onun şeirlərində emosiyanın zəifləməsi, yaxud da təbii hiss və həyəcanların kor-koranə mühakiməyə tabe edilməsi demək deyidir. Bəxtiyar şeirinin ana xəttini hissin müdrikliyi təşkil edir. Həyat hadisələrinin saysız təzahür-lərindən və kiçicik zərrələrindən başlamış, müasir dünyanın vüsətli ictimai - fəlsəfi problenlərinə qədər şairin toxunduğu və qələmə aldığı mövzuların əksəriyyətində fikirlə hissin yüksək vəhdətini görmək mümkündür. Şair, duyduğu və daxilən yaşadığı həqiqət və hadisələri canlandırır. Eyni halda, hissdən təfəkkürə, emosiyadan idraka «keçid prosesində» şairanə fikrin genişliyi və poetik idrakın zənginliyi səciyyəvi bir xüsusiyyət olaraq meydana çıxır.

Müəllifin son illərdə yazdığı «Təzadlar», «Baş», «Zərrə - dünya», «Siqnallar», «Kor», «Uzaqlarda, yaxınlarda», «Ölüm-həyat» şeirlərində yaşadığımız əsrin, mürəkkəb və ziddiyyətli məsələlərini, düyümlüanlaşılmaz hikmətli və hələ də dərkedilməz bir planet olan insanın mənəvi-fikir aləmini müasir, ayıq va düşüncəli vətəndaşın nəzərləri baxımından araşdırmaq meyli xeyli qüvvətlidir.


Bu istiqamətdə aparılan fikri araşdırmalarda şair saysız-hesabsiz suallarla üzləşir. Bir qisminə çavab tapırsa da, əksəriyyəti üzərində


dərindən-dərinə düşünməli olur. Lakin fərəhləndirici odur ki, insanın zəkası üçün qaranlıq qalan, hələ də cavabı tapılmayan bu heyrətli suallar şairi qorxutmur. O, qət edir ki, axtarıcı, ayıq və iti insan təfəkkürü tərəqqiyə doğru üz tutmuşdur. Mənəvi təkamülün və fikri tərəqqinin qarşısında dayanan ehkamlar titrəyir, uçub dağılır...

Şair hünər üçün yaranmışdır. Minlərin və milyonların könül diləklərini, çoşğun həyat arzularını bir şəxsin dilindən bildirmək hünərdir. Bəxtiyar... mənsub olduğu xalqın, içərisində yaşadığı cəmiyyətin yüksələn bir səsidir. Onu sevirlər və o, sevilməyə layiqdir. O da sevir və sevə bildiyi üçün hünərlidir. Şair həyatının və bədii yaradıcılığının kamil dövrünü yaşayır. Biz yaxşı bilirik ki, o yazacaq, yaradacaq və yenə da oxucularını sevindirəcəkdir.

Məsud Əlioğlu

«Ədəbiyyat və incəsənət» 1972, 26 fevral.





QƏLƏBƏSİ

Poeziya həyatdır, canlı varlıqdır, xalqın, bütün ölkənin arzu və istəklərinin ifadəsidir. Bədii fikrimizin keçmişi də, bu günü də, sabahı da poeziyanın aydın və parlaq güzgüsündə cilvələnir, xalqın düşüncəsi, ictimai şüur, Vətən eşqi, vətəndaşlıq duyğuları poeziyanı ardıcıl qidalandırır.

Azərbaycan poeziyasının çoxəsrlik tarixinin bütün mərhələlərində şair və şeir, söz və saz xalqın taleyi ilə birgə yaşayıb boy atmışdır, xalqla birlikdə addımlayaraq irəliləmişdir, ana vətənin taleyini, zəhmətkeş insanın duyğularını öz taleyi, öz duyğuları hesab etmişdir. Poeziyamızın ən gözəl və mütərəqqi ənənələri də məhz bu bünövrə üzərində yaranmış və yaşamışdır.

Çağdaş Azərbaycan poeziyası, onun görkəmli şəxsiyyətləri, istedadlı nümayəndələri vətənpərvərlik, xalqla bağlılıq, səmimiyyət, dostluq və humanizm ənənələrini, onun vətəndaşlıq pafosunu yaşadır, davam və inkişaf etdirirlər. Müasir poeziyamızın inkişafında və xalqımızın ümumi məhəbbət və rəğbətini qazanmasında həm yaşlı nəsildən olan şairlərimizin, həm də orta və gənc nəslə mənsub şairlərin böyük xidməti və yaradıcılıq əməyi vardır. Görkəmli şair Bəxtiyar Vahabzadə poeziyamızın bu qüdrətli şairlər dəstəsində ən layiqli yerlərdən birini tutur. Onun yaradıcılığı öz xüsusiyyətləri ilə Azərbaycan poeziyasının inkişafında seçilən, diqqəti cəlb edən yeni bir hadisədir.

Təxminən Böyuk Vətən müharibəsi illərində başlanan və sonra-

kı onilliklərdə daha çox parlayan öz nuru ilə xeyli uzaqlara işıq saçan bu yaradıcılıq B.Vahabzadə poeziyasının pərəstişkarlarını ardıcıl olaraq sevindirmiş, oxuçular onun şeirindən nəinki təkcə şeiriyyətin ətrini və məlahətini duymuş, habelə həyatı idrakın mənasını anlamışlar, cəmiyyətdə baş verən hadisələrin incəliklərini başa düşmüş, poetik sözün canlı, təsiredici qüvvəsindən ilhama gələrək həyatı daha çox sevmiş, qurmağa, yaratmağa qanadlanmışlar.

Poeziya - həyatdır, canlı varlıqdır və bu varlıq, bu həyat həm onda əks edən canlı həyatın özündən doğur, həm də o həyatın varlığında, inkişafında, yeniləşməsində iştirak edən fəal qüvvəyə çevrilir. Hansı şairin poeziyasında bu proses güclü və sürətlidirsə, onun poetik təsiri, insanlarla dialoqu, söhbəti güclü və tutarlı olur, şairin fəal həyat mövqeyi anlayışı da buradan doğur. Çünki insanı, müasirlərimizi özünə həmdəm və sirdaş edən poeziya ürəklə bağlıdır, ilhamla bağlıdır, şair nəfəsinin eşqidir, alovudur, həmişə coşğundur, həmişə hərəkətdədir, oxucusunu da coşdurur, hərəkətə gətirir.

B.Vahabzadənin poeziyasında da belədir: onun anlayışında ürək - əqidədir, Vətəndir, həyata baxışdır, onu duymaq və duydurmaqdır, ona münasibətdir. Belə geniş mənada bəslənməyən, pərvəriş tapmayan şair ürəyi nədir və ya belə bir coşğun ürəksiz şair özü nədir?

Quruca taxtayam səndən ayrı mən,
Alışmaq istərəm, məni dərd alar.
Sən mənim odumsan, hərarətimsən,
Odsuz alışarmı quru taxtalar?!

İnsanın arzusu, eşqi, əməli
Ürəyə bağlıdır, ondadır ilham,
Güləndə ürəklə gülürəm, bəli,
Ürəklə ağlaram əgər ağlasam!
Mənə qüvvət verən, ey ana torpaq,
Nə səndən dönərəm, nə məsləkimdən.

Ürəklə yaşadım, ürəklə ançaq,
Yalnız ürəklə də öləçəyəm mən.

Ürəkdən gələn söz yadigardır, poeziyada isə ürək sözü yaşayır, gələcəyə, nəsillərə çatdırılır. Bizim müasirlərimiz, ürəkdən gələn sözə qiymət verir, onun qədrini bilir, çünki ürəkdən gələn şair sözü, poetik söz təkcə bir şəxsin qəlbinin çırpıntılarını səsləndirmir, subyektiv, məhdud deyildir, genişlikdən, xalqdan, cəmiyyətimizdən gündən-günə irəli gedən, artan, yetkinləşən ictimai mühitimizdən, xalqımızın nurlu ideallara çağırışından xəbər verir, səadətdən danışır:

Bu yaşa çatmışam... ömrüm boyu mən
Səadət yolunda qələm çalmışam.
Onu gah tarixdən, gah bu günümdən,
Gah da gələcəkdən xəbər almışam.

Əl çəkib bugünkü səadətimdən,
Daim gələcəklə yaşamışam mən.
Demişəm, gələcək, bu gündən gözəl,
Arzu həqiqətin özündən gözəl.

İnsan oldurumu biləndən bəri
Səadət yolunun yolçusuyam mən.
Səpdim bu yollara, səpdim illəri,
Əvvəl nə idimsə, yenə oyam mən!

Bu günlərin, müasir dövrün şairi keçmişi, öz kökünü, ənənəsini unutmur və unutmaq mümkün də deyildir. Ən güclü şairlər öz yoluna, mənsub olduğu xalqın yoluna, tarixinə, bu yolun haradan başlanıb haraya çatdığına heç bir zaman biganə qala bilməzlər. Böyük poetik istedad bütün bəşəriyyətin keçdiyi tarixə tez-tez baxır, müraciət edir, öz xalqının tarixi keçmişi, ənənələri ilə səsləşən məqamları dərindən

duyur. B.Vahabzadə məsələnin bu cəhətinə özünəməxsus bir duyumla yanaşaraq, belə bir poetik anlayışı əsaslandırır ki, bu dünyada, tarixdə heç nə səbəbsiz deyildir. İnkişafın təzadlarında qanunauyğunluq vardır və tarixin inkişaf məntiqinin ən böyük həqiqəti Vətəndir, onun əbədi varlığı və şöhrətidir:

Atəş öz-özündən
Birdən-birə yanmır,
Bir şey bu çahanda
İzsiz və səbəbsiz.

Bihudə yaranmır,
Vardırsa yaranmış
Mütləq yaradan var.
Varsansa... özündən
Əvvəlcə atan var.
Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.

Yüz-yüz itən olsun,
Min-min də bitən var.
Şükr eyliyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var!

B.Vahabzadə poeziyasında istər tarixə, istərsə müasir həyata münasibətdə əsas meyar vətəndaşlıq duyğusudur, bunsuz şair qələmi işləməz, Vətən və vətəndaş haqqında poetik söz deyilə bilməz, deyilsə də alayarımçıq olar.

Vətəndaş!
Nə gözəl səslənir bu söz.

Vətən əbədidir,
Gedəriyik biz,
İnsan qüdrətlidir öz Vətənində,
Bilirik, dünyaya biz niyə gəldik.

B.Vahabzadənin poeziyasında oxucunu düşündürmək, onu daim ayıq vəziyyətdə saxlamaq, hər kəlməsi, hər beyti, hər bəndi və bunun şeir silsiləsi ilə onu həyata və fəaliyyətə səsləmək keyfiyyəti vardır və bu onun poetik üslubunun məziyyətlərindən biridir. Bu keyfiyyəti B.Vahabzadənin fəlsəfi poeziyaya meyli ilə də bağlayıb izah etmək olar. Amma unutmaq olmaz ki, şair qələmindən süzülən bütün hisslər, duyğular, fikirlər, fəlsəfi düşüncələr, təsvirlər və tərənnümlər gərək, hər şeydən əvvəl, şəffaf və aydın poeziya havasına düşsün, poeziyanın ilham deyilən mayasından qidalansın, poetikləşsin, öz formasını tapsın, ahəngini yaratsın, sonra şeir şəklində, lirik və epik lövhələrdə öz yerini tutsun. Sənətkarlıq da elə budur. B.Vahabzadənin poeziyasında sənətkarlığın bu tələbi yüksək mərtəbədədir, şair onu heç bir zaman unutmur.

Buna görə də B.Vahabzadənin poeziyası bütünlükdə sevilir, yeni-yeni uğurlara çatır. Bu poeziya indi yenə də qələbə qazanmışdır: sevimli şairimiz «Bir gəminin yolçususuyuq» kitabına görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Bu, onu sevən oxucularda iftixar hissi doğurur, bu, bütün müasir Azərbaycan poeziyası üçün yüksək qiymətdir. Biz B.Vahabzadəyə yeni yaradıcılıq qələbələri arzulayırıq.


Qoy əziz şairimiz Azərbaycan şeirinin bayrağını, Azərbaycan poeziyasının şöhrətini həmişə yüksək tutsun. Necə ki, o özü demişdir:


Azərbayçan bayrağı,
Başımın üstündədir!..
Əqidəmin, eşqimin,
Qanımın rəngi, bayraq!
Bütün arzularımın

Qızıl çələngi, bayraq!
Hər şeydən bu dünyada
Şərəf uça,
Şan uça!
Zamanın yollarında
Mən ki, səni tutmuşam
Daim başımdan uça!

Əkbər Ağayev

«Bakı» qəzeti, 1984, 7 noyabr.





GÖTÜRMİŞ POEZİYA

Poeziya musiqi ilə, demək olar ki, eyni mahiyyətli, eyni səpkili tərənnüm formasıdır. Hər xalq, hər bəstəkar, hər ifaçı və nəhayət, hər alət musiqiyə öz məlahətini, öz fərdi könül çırpıntılarını əlavə edirsə, əsl poeziya nümunəsi də mənsub olduğu xalqın, dövrün, müəllifin və eləcə də saysız-hesabsız oxucuların amal, istək və duyğularını bəzən bir obrazı və ya poetik detalı maqnit sahəsində cəmləşdirməyi bacarır. Elə bu cəmləşdirmə qüdrətinə görə də əsl söz ustalarının poetik sətirləri dillənəndə hərə öz həyatını səhifələyir, öz yaşayışındakı yaxşı-pisi təzədən dadır, həmin sətirlərdə qoyulan fikri öz yaşayışının axarına uyğun şəkildə yozur və bundan da əsl şeir öz dinləyicilərinin sayı qədər açılmış, izah tapır. Əgər şeir və eləcə də bütünlükdə hər hansı poetik yaradıcılıq ilhamlı bir istedadın, təbii çılğınlığın, qüdrətli yanğının məhsuludursa, o zaman onda (yəni, şeirdə və ya poetik yaradıcılıqda) hamının görə və duya biləcəyi forma və məzmun keyfiyyətləri ilə yanaşı, təkcə bir oxucunun və ya bir tənqidçinin sezə biləcəyi xüsusi, incə məqamlar da gizlənməlidir. Poetik həssaslığa malik oxucuların sayı nə qədər çoxdursa, əsl şeirdə tutula, sezilə biləcək belə incə məqamların sayı da bir o qədər çoxalır, çünki bu incə məqamlar ayrılıqda şeirin özündə deyil, şeirlə konkret bir oxuçunun fərdi dünyasının toqquşmasından poetik ünsiyyətdən törənir: şeirdə potensial şəkildə əks olunan, şeir sətirləri və sözləri arasındakı poetik boşluqlarda gizlənən hiss və ya duyğusunun və tənqidçinin fərdi qəribliyində «sınaraq», « süzülərək» tamamilə yeni, orijinal bir «əks-səda» verir. Bəxtiyar Vahabzadənin

«Seçilmiş əsərləri»nin ikicild-liyinə yazdığım bu müqəddimə də belə bir «əks-səda»dan, əsərlərinə və şəxsiyyətinə az-çox bələd olduğum sənətkarımızın yaradıcılığı ilə yeni bir ünsiyyətdən baş qaldıran oxucu təəssüratından başqa bir şey deyildir.

Hər dəfə Bəxtiyar Vahabzadənin şeirlərini oxuyanda kənd körpələrinin yalın ayaqları gözlərim önündə canlanır. Fəsillərin isti-soyuğuna fərq qoymayan bu yalın ayaqlar eniş-yoxuşlu, dərə-təpəli Vətən torpağının hər qarışında, hər bucağında eyni məhəbbət, eyni dözüm və eyni sədaqətlə addımlayır, gəzib-dolaşdığı yerlərin daş-kəsəyindən, od-ocağından nişanə, yadigar qalan çapıq, yanıq izlərini müqəddəs bir ömür bəzəyi kimi daşıyır, onlarla öyünür, onların fərəhi ilə yaşa dolub kamilləşir. Sonralar təhsil, iş, çox görüb çox da götürmək arzusu ilə gəzdiyi iri şəhərlərin asfalt küçələrində yeriyəndə, üzünə açılan səadət və ya əziyyət qapılarından keçəndə, xidmət pilləkənləri ilə yuxarı-aşağı diyirlənəndə, bir sözlə, ömür, həyat, yaşayış deyilən təbii özünüsərfetmənin bütün mərhələlərində körpə ayaqlarının torpaqdan öyrəndiyi bu dözüm, bu sədaqət vətəndaşlıq qürurunun qranit özülünə, insan mənəviyyatının əbədi tənzimləyicisinə çevrilir. Bəxtiyar Vahabzadənin əsərləri də körpə ayaqları kimi özünün ilk təpərini, ilk dözümünü Vətən torpağından, el sinəsindən almışdır!

Atəş öz-özündən
Birdən-birə yanmır,
Bir şey bu çahanda
İzsiz və səbəbsiz.
Bihudə yaranmır,
Vardırsa yaranmış
Mütləq yaradan var.
Varsansa... özündən
Əvvəlcə atan var.
Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,

Min-min də bitən var.
Şükr eyliyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var!

N.V.Qoqol belə bir fikir deyir: «Həqiqətlər nə qədər alidirsə, onlarla o qədər də ehtiyatlı olmaq lazımdır, çünki birdən-birə ümumi şeylərə çevrilə bilərlər: ümumi şeylərə isə inanmırlar». Poeziyanın vəzifəsi nəyin ali, nəyin naqis olduğunu qeydə almaqla, alini əlvan epitetlərlə tərənnüm, naqisləri isə tünd boyalarla inkar etməklə bitmir. Poeziya həm mənfi, həm də müsbət keyfiyyətləri konkret detallarda, əşya və hadisələrin görümlü əlaqələrində, bir sözün, bir ifadənin təlqin kücündə əks etdirməyi bacarmalı, ən başlıcası isə oxucunun fikir və emosiyalarını lazımi məcraya yönəltmək üçün böyük psixoloji inandırıcılığa malik olmalıdır. Bəxtiyar Vahabzadənin «Vətən var» şeirindən gətirdiyimiz parçaya diqqət edək: ilk baxışda o qədər də böyük poetik çəkiyə malik olmayan «Şükr eyliyəlim ki» ifadəsi mətn daxilində qəribə bir təlqin gücü qazanır, nisbətən mücərrəd səciyyə daşıyan vətənpərvərlik məfhumunu sanki göylərdən yerə endirərək. dünyanın bir parçasını, bir küncünü doğma yurd, Vətən deyib əzizləyən hər kəsin gündəlik və əbədi sevincinə, həyat enerjisinə çevirir. Şükr edirsən ki, ayağının altında Vətən torpağı, başının üstündə Vətən göyü var... Şükr edirsən ki, qədim tarixə, xoşbəxt bu günə və möhtəşəm gələcəyə malik xalqın var, «ağsaçlı babaların əqlindən, kamalından» yaranan ana dilin var («Ana dili»), «keçmişdən asta-asta söhbət açan səs muzeyin» - muğamın var («Muğam»), «eşqi xeyirxahlıq, qəsdi məhəbbət, tanrısı isə Vətən» olan vətənpərvərlərin («Çəkməçi Əli») var... Şükr edirsən ki, dünyanın heç bir çayının qismətinə düşməyən acı bir tale daşıyan Arazın var və bu Arazın Cənub adlanan o tayında dərdin və sənətin Heydərbaba zirvəsinə yüksələn Şəhriyar, Şimal adlanan bu tayında isə sinəsi Şəhriyar dağlı Bəxtiyar var:

Bizim bir kimsəyə qərəzimiz yox,

Biz iki qardaşıq, bir anamız var.
Bir böyük torpağın, iki oğluyuq,
Orda Şəhriyaram, burda Bəxtiyar.

Həçmindən, forma və mövzusundan asılı olmayaraq, Bəxtiyar Vahabzadənin bütün əsərlərinin poetik cövhərini məşhur rus şairi A.Tvardovskinin «Hər şeyə cavabdehik» kimi səciyyələndirdiyi ali vətəndaşlıq duyğusu təşkil edir. Vətən və Vətəndaş-bədən və ruh kimi bir-birini tamamlayan iki mövcudiyyət.

Vətəndaş!
Nə gözəl səslənir bu söz.
Vətən əbədidir,
Gedəriyik biz.
İnsan qüdrətlidir öz vətənində
Bilirik, dünyaya biz niyə gəldik.
O bizi yaradan,
Biz ona bəndə,
Yaradan uğrunda ölməyə gəldik.

Ot, ağac torpaqda göyərdiyi, baş qaldırdığı kimi, vətəndaş da ancaq Vətəndə boy ata, ərsəyə çata bilər. Vətən yoxdursa, vətəndaş da, onun minilliklərin dərinliklərindən süzülüb gələn qüruru da yoxdur. Öz xalqının tarixinə, adət və ənənələrinə dönük çıxanların, doğma dilindən üz çevirənlərin, yurdunun yaralarına göz yumanların aqibəti Səhl-Sumbatın («Satqınlıq»), Ben-Osmanın («Yollar - oğullar») aqibətindən o yana gedə bilməz. Kimdir Səhl-Sumbat? «Namərdliyin yol yoldaşı, kişiliyin qənimi». Kimdir Ben-Osman? Milyonlarla ərəblərdən biri; ona ərəb qadını döşlərindən süd verib, ərəb atası doğma ərəb dilində babalarından miras qalan hikmətləri çatdırıb, ərəb torpağı onun ayaqlarına gəzməyi, ərəb göyü isə nəfəs almağı, xəyala dalmağı öyrədib. Lakin Ben-Osman bütün bunları yadından çıxarmış, əsrlər boyu toplanan mədəniyyəti və mənliyi tapdanan xalqının ölüm-dirim mübarizəsinə qoşulmaq əvəzinə,

ərəb qızından olan ərəb oğluna, ərəb anasının laylalarından öyrəndiyi ərəb dilinə, ərəb yerinə və ərəb göyünə arxa çevirərək özgə qapılarının həqarət və təhqir dolu nəvazişinə qısılmışdır. «Elinə arxa çevirən öz taleyinə arxa çevirir» deyiblər. Bu məşhur xalq məsəli öz doğruluğunu bir daha təsdiq edir: vətəninə arxa çevirmiş Ben-Osmana izsiz-nişanəsiz bir ölüm, Vətən uğrunda mübarizlərə isə müstəqillik, vətəndaşlıq və azadlıq bayrağı nəsib olur:

Öz yurdumda qul olub, əsr yarım əyildim,
Mən vətəndaş deyildim!
Vuruşdum gecə-gündüz, vuruşdum səhər-axşam.
Bayraq qalxdı..,
Mən bu gün
Vətəndaşlıq almışam!

B.Vahabzadə poeziyası əzabkeş fikrin, dünya, insan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyasıdır. Bu poeziya tarixin şah damarını axtarır, bir sözün, bir obrazın maqnit sahəsində keçmişi, bu günü və gələcəyi qovuşdurur. Hər dəfə də dünyanın taleyinə bir nöqtədən-bütün mənəvi qüdrətini insanların yolunda sərf etməyə hazır olan fədakar humanizm zirvəsindən yanaşır.


B.Vahabzadənin məhəbbət lirikası zaman və məkana sığmayan, müasir insanın mənəvi əzabları, könül çırpıntıları, ürək yanğısıdır. Onun bu səpkidə olan şeirləri poeziyamızda fəlsəfi lirikanın ən gözəl nümunələri sayıla bilər. Adi fərdi sıxıntılardan («Payız düşüncələri») .baxımsızlıqdan və biganəlikdən nəsli kəsilmək təhlükəsi qarşısında qalan qarağacdan («Qarağac») tutmuş, neytron bombasına, robotlara, ürəyin köçürülməsinə qədər hər şeydə B.Vahabzadə poeziyası insan taleyini, onun gələcəyini axtarır. Bu poeziya atılmışların taleyindən od tutub alışan bir qəlbin («Atılmışlar»), haqq ilə nahaqqın ölüm-dirim mübarizəsində için-için inləyən vicdanın («Qiymət», «İztirabın sonu»), planetimizi zolaq-zolaq edən təzadlardan doğan narahatlığın («Təzadlar») və ən başlıcası ilk addımı neçə-neçə minilliklər bundan


qabaq atılmış müqəddəs bir gələcəyin poeziyası, rəngindən, dilindən və dinindən asılı olmayaraq bütün insanların can «ikinci səs»in-ədalətin poeziyasıdır:

Tutmuşam, çaxmaq yoxdur alışmağa
Qaynayıram, təpərim yox, nə coşmağa, nə daşmağa.
Ürəyimin sözlərini oba-oba danışmağa,
Dədə-Qorqud timsalında ozan ola,
Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola!

Aydın Məmmədov

«Seçilmiş əsərləri»nə (2 çilddə; Yazıçı, 1963) ön söz.





BİRİ YOXMUŞ...

Qırx ilə yaxındır ki, Bəxtiyar Vahabzadə poeziyası oxucuların yol yoldaşına, könül sirdaşına çevrilib. Çılğın və zəhmətkeş, ilhamlı və inadkar bir şairin qırx illik yaradıcılıq yolu qırx gün, qırx gecəlik şirinli-acılı xatirələrlə dolu bir nağıla bənzəyir. Bu nağılın qəhrəmanı öz arzularını həqiqətə çevirmək üçün həmişə narahat olub, gecələr yatmasın, yazıb-yaratsın deyə yuxu adlı bir əjdaha ilə döyüşmək üçün barmağını kəsib, yarasına duz basıb.

Mənə belə gəlir ki, şairin yeni kitabına «Nağıl-həyat» adı verməsi daxili zərurətdən, fəlsəfi bir tələbatdan irəli gəlmişdir. Süd qoxulu körpəlikdən, qayğısız uşaqlıqdan, dəli-dolu gənclikdən keçib gəlmiş ömür yoluna baxanda, o günlər nağıla bənzəyir, adama yuxu kimi gəlir. İstər-istəməz öz-özünə kövrək-kövrək pıçıldayırsan: Biri var idi, biri yox idi...

Şeirləri oxuyanda qarşıma belə bir sual çıxdı: nədir bu kitabı şairin əvvəlki kitablarından fərqləndirən cəhət, hansı xüsusiyyətlərdir bizi yenidən bu gözəl aləmə qovuşduran?

Hər şeirin öz yaşı olduğu kimi, hər yaşın da öz şeiri yazılır. Bəxtiyar müəllimin bu şeirləri əvvəlki şeirlərə, bu kitabı əvvəlki kitablara bənzəmir. Gəldiyim məntiqi nəticə budur ki, bu kitabda duyğuların kökü daha dərinə işləyib, fikrin içtimai-siyasi meydanı daha da genişlənib. Dərdə, sevincə, həyata, ölümə, döyüşə, mübarizəyə şair baxışı, sənətkar müdaxiləsi daha da fəallaşıb, zənginləşib. Bu kitabda çılğın, qaynar,

ehtiraslı Bəxtiyardan daha çox qayğılı, düşüncəli, ağsaqqal Bəxtiyarı görürsən.

İstər poemalarda, istər şeirlərdə bir-birini əvəz edən kövrək duyğular, zərif düşüncələr, həssas fikirlər, kəskin etirazlar oxucunun yarasına məlhəm qoyur, ürəyindən tikan çıxardır.

Bu kitaba qədər Bəxtiyar müəllim öz oxucularının üzünə otuz doquzuncu qapını açıbsa, yeni kitabda üzümüzə nağıllardakı kimi sirli-sehirli qırxıncı qapı açılır. Bu qapıdan içəri girəndə gözümüzə bir sandıq dəyir. Qulağımıza sandıqdan səslər gəlir. Bəxtiyar Vahabzadə açır sandığı, tökür pambığı.

Niyə bəy, xan babadan bir belə qullar törədi?
Niyə qartal babadan sərçə oğullar törədi? -

deyə-deyə bizi də yandırır, özü də yanır. Bu yanğı «Gülüstan» və «Türkmənçay» bağlaşmalarından baş alıb gəlir, varlığımızı, taleyimizi yandıra-yandıra, ciyərimizə dağ çəkə-çəkə, gözümüzə ağ sala-sala yanvarın iyirmisində başımıza gətirilən müsibətlərlə tamamlanır. «Şəhidlər» poeması bu dərdin, bu fəryadın, ahın, nalənin əks-sədasına çevrilir.

Zaman insanın başına nə oyunlar açarmış. Sarsıntılar, büdrəmələr, çaşqınlıqlar, tuta-tut günləri, repressiya illərinin ağır nəticələri, əvəzsiz itkilər, böyük şəxsiyyətlərin təhqir edilməsi, xalqa dost olanların «xalq düşməni» damğası, sağ ikən ölməyin, var ikən yox olmağın ağrı-acısı, daha nə bilim, nələr, nələr.., xalqı nə günə qoyar, şairi hansı mövzulara gətirib çıxararmış?!

O qədər başıma qapaz vurdular,
Gözüm kölgələndi, başım daz oldu.
Əsrin dəryasında üzmək istədim,
Hara əl atdımsa, su dayaz oldu.

Bu dərdləri bundan gözəl necə ifadə etmək olar.

Elmi-texniki tərəqqi bəşəri yolundan sapdırdı, insanları insanlıqdan uzaqlaşdırdı, əxlaqi keyfiyyətlərə, mənəvi sərvətlərə zərbə vurdu. Adət-ənənələrin, dillərin, dinlərin, təbii gözəlliklərin, ilahi bakirəliyin kökünə balta çalmağa başladı.

Təbiətin ahəngini pozdu. Həyatın ətri çəkildi, quruca yaraşığı qaldı. Su dadını, çörək tamını, insan xislətini dəyişdi. Bütün bu deyilənləri «XX əsrin adamı» şeirində şair belə mənalandırır:

Gözüm şüşə, dişim qoyma,
qıçım taxta
Arzuları vurdu şaxta.
Qanım qara, laxta-laxta.
Özüm saxta, sözüm saxta!

Mənəvi çürümə də bax belə başlandı.

Bəxtiyar Vahabzadə buna tab gətirmir. Onun poeziyası həmişə əqidənin, məsləkin keşiyində dayanıb, kişiliyin və kişilərin bayrağını qaldırıb, mütiliyə, yazıqlığa, qul olmaq psixologiyasına qarşı mübarizə aparıb və aparır.


Söz anlamaz bir naşının dilində
Nəğmə qırıq, mizrab sınıq, söz yazıq,
...Üstəlik də bizi bizdən aldılar,
Nəğmə qırıq, mizrab sınıq, söz yazıq.


Belə haqsızlığa və yazıqlığa üsyan edən, böyük azadlığın, həqiqi istiqlalın müdafiəsinə qalxan, ağır günlərimizdə xalq ilə yan-yana, çiyin-çiyinə addımlayan, bəşəri duyğulara arxalanan, sənət çarpışmalarından üzü ağ çıxan bir poeziyanın əbədi yaşamağa, nəsillərin yol yoldaşı olmağa mənəvi haqqı var.

Əziz oxucu, bu kitabı mübarək əllərinlə özün aç, özün oxu. Onda Bəxtiyar Vahabzadə poeziyasının nələrə qadir olduğunu bir daha öz gözlərinlə görüb, öz qulaqlarınla eşidəcəksən. Şeirlər sənə deyəcək ki, nələr varmış, nələr yoxmuş...

Zəlimxan Yaqub

«Naqıl-həyat» («Yazıçı», 1991) kitabına ön söz.





Bu misralar Vahabzadənindir.

Şair çağdaşın haqqında mühakimə yürütmək - o, çoxdan tanınmış məşhur söz ustası olsa belə - həmişə mürəkkəb və məsul işdir. Bir həqiqəti təsəvvür etmək çətin deyil ki, klassikləri yalnız keçmişdə axtaranlar çağdaşın barədə deyəcəyin tutarlı fikirlərə dodaq büzüb, çiyin çəkə bilərlər. Buna görə də, istər-istəməz işə ehtiyatla yanaşmağı vacib bilirsən, Xoşbəxtlikdən elə hallar da olur ki, öz çağdaşın haqqında fikrini heç nə ilə hesablaşmadan, çəkinmədən ürəkdolusu, açıqca bildirirsən ki, buna da məsələyə hamburqsayağı yanaşma deyərlər.

Bu yaxınlarda Bəxtiyar Vahabzadənin yeni şeirlər kitabını oxudum. Şeirlər rusca da böyük heyranlıqla oxunur. Həmin şeirlərdə zaman yaşayır - bizim qayğı «yükümüzə» tab gətirən, dərd-sərimizə şərik olan qoynunda yaşadığımız zaman! Şeirlərin qüdrəti də məhz bundadır. Eyni sistemə daxil olan türk mənşəli dillərimiz bir-birinə yaxın olduğuna görə azərbaycanlılar məni çox asanlıqla inandırırlar ki, indiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı orijinalda milli poetik fikrin ən böyük nailiyyətlərindən biridir. Zəngin Azərbaycan ədəbi ənənələri müqabilində bu cür nüfuz və şöhrət qazanmağın çox-çox çətin olduğunu asanca təsəvvürümə gətirirəm. Bununla belə, unutmaq olmaz ki, ənənələr yalnız və yalnız müasirliyin gərdişində, yeni yaradıcıların yeni sözündə yaşayır:

Yaşamaq yanmaqdır
Yanasan gərək.

Həyatın mənası
Yalnız ondadır.
Şam əgər yanmırsa,
Yaşamır demək,
Onun da həyatı
Yanmağındadır!

Şeir sənəti barədə mühakimə yürüdərkən, biz tez-tez «poeziyanın sehri», «poeziyanın sirri», «poeziyanın musiqisi» ifadələrini işlədir, bununla, adətən, anlaşılması asan olmayan, predmeti dəqiq müəyyənləşməyən qeyri-adi məfhumları, duyğuları açmağa çalışırıq.

Şeirlərin fövqəltəbii stixiyası ilham pərisinin qüdrətindədir və bu da gözəldir ki, hər kəs, hər bir qabiliyyətli adam onları oxuyanda həyəcanlanır, belə anlarda özünü şair hesab edir. Poeziyanın «sehrli» atributları o zaman intəhasız kamilliyə qadir olur ki, şeir yaradanın fitri istedadı, mənəvi təcrübəsi başlıca rol oynasın. Çünki, on yeddi yaşlının poetik ehtizazı və vəcdi ilə yetkin adamın fikir və hissləri arasında fərq böyükdür. Tarix «ələyi»nin dibində qalan inciləri - dünyanın poetik söz antologiyasını vunderkindlər «onların dühasını inkar etmirik» deyil, zəngin mənəvi təcrübəyə malik olan qüdrətli şəxsiyyətlər yaratmışlar. Dünyanın mədəniyyət irsinə Qərbdə Homerdən Puşkinədək, Şərqdə Füzulidən Səməd Vurğunadək neçə-neçə nəsillərin təxəyyül qüdrəti və təcrübəsi sərf olunmuşdur.

«Bizim müdrik, aqsaçlı
Qəhrəman elimiz var.
Bizim qoç Koroğlumuz,
Bizim Nəsrəddinimiz,
Bizim Füzulimiz var!»
Vallah, bunu çox dedik,
Billah, bunu çox dedik.
Keçmişin kölgəsində
Ağzımızı havaya

Açıb yatmaq istədik...
Ancaq bunu bilmədik:
Köhnə hava içində
Ürək susur, boğulur.
Kölgədə yatanların
Öz kölgəsi yox olur...

(«Bəsdir»)

Poeziyanın meyarı, hər şeydən əvvəl, sənətkarın yetkinlik meyarıdır, onun kollektiv təcrübəmizlə həmahəng olan fəlsəfi və mənəvi müdrikliyinin meyarıdır və bundan sonra şəxsiyyətin harmoniyası, epiqetlərin gözəlliyi və daha sonra dövrün əsən yellərinə istedad yelkəni ilə sinə gərmək bacarığı gəlir. Dövrlər dəyişir, ömür keçir, lakin həqiqi sənət dünyanı bizim üçün əbədi, həmişəyaşar varlığa çevirir. Əlbəttə, söhbət insandan-bütün əsrlərdə İnsan olmaq eşqi ilə yanmaqdan gedir.

Bəxtiyar Vahabzadənin «Bir gəminin yolçusuyuq» («Mı na odnom korable», «Yazıçı», 1983) kitabında toplanan əsərlərin demək olar ki, hamısında mən qüdrət, aydınlıq və müdriklik görürəm. Şairin tələtümü, inkar və təsdiqi söz oyunundan deyil, ali ehtirasdan, «əks-sədalıqdan», qəlb inamından doğur. Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən dərinə düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir. Müqəfəkkir-sənətkarın, ustad-şairin başlıca qayəsi, uğuru da bundadır. Qadın-kişi ünsiyyətindən doğan əbədi mövzu onun qələmində təzələnir, sevgilisindən küsənin niskili, qəribəlikləri və bunun əksinə, misralarda yaşayan mərdanə dözüm və vəfalılıq bizi gözlərimiz yaşarıncaya qədər kövrəldir, çünki şair hamıya doğma olan bu əzablı-işıqlı münasibətlərdə sözəgəlməyən ilahi duyğuları sehrlə «ovlaya» bilir.

Bəxtiyar Vahabzadə hamımıza xas olan bu ehtiraslardan birbaşa zaman, məkan və fəzanın abstrakt aləminə, bizim günlərin həyəcanlarına - dünyanın nüvə təhlükəsinə körpü-fikirlər, körpü-obrazlar atır, yenidən

hər birimizə, bütün nəsillərə, yenidən İnsana, öz qonşusuna, onun od-ocağına və bundan sonra bütün Kainata üz tutur. Yaradıcılığının çiçəklənmə və müdriklik dövrünə qədəm qoyan böyük şairin ölçüsüz istedadı beləcə bar verir, beləcə inkişaf edir. Zənnimcə, oxucuların çoxu bu gün özünü, öz dunyasını, öz hiss və həyəcanlarını Bəxtiyar poeziyasında tapa bilər.

Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. Milli və beynəlmiləl münasibətlər problemi günümüzün canlı mübahisələrə çevrilən məsələlərindən biridir və bu problem.., öz mütərəqqiliyini, obrazlılığını, nadir əhatəliyini və məhsuldarlığını bir daha Vahabzadə yaradıcılığında tapıb. İndiki halda sən azərbaycanlı şairi oxuyanda-dünyanı oxuyursan.

Bundan başqa mən Vahabzadənin görkəmli sənətkar şair üstünlüklərini, çox güclü cəhətlərini qeyd etmək istərdim. Lirizm və vətəndaşlıq Bəxtiyarın yaradıcılığında ayrılmaz qoşa simlərdir və bu simlər onun şəxsi və ictictimai dünyagörüşunün qüdrətliliyinə bir daha şəhadət verir. O, vətənpərvərdir, o aqildir, sözün yaxşı mənasında nəsihətverən, yolgöstərən sənətkardır. Bəxtiyar Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir. Keçmişə görə əzab çəkmək, ona bu günün gözüylə baxmaq - Bəxtiyarın mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən və zənginliyindən xəbər verir.

Sultanlar milləti
qorxuda bildi,
Doğru danışanı
asdılar dardan.
Qızıl saraylarda
fərman verildi

Tarix gəlib keçdi
ac komalardan
(«Topqapı sarayı»)

Tarix çoxdan ötüb keçib Nə haqlılar qalıb, nə haqsızlar. Adama elə gələ bilər ki, keçmiş «fəna mülkünə» qərq olubsa, əzab çəkməyə dəyməz. Lakin Bəxtiyar tarixi bu günün gözüylə mühakimə edir, bizi inandırır ki, bunun bilavasitə ona və müasirlərinə dəxli var. O bizi inandırır ki, indiki adamların, indiki zamanın taleyi keçmişdən acılıdır. Əgər tarixin təkəri geri dönsə, keçmiş hökümdarlar, sultanlar «Doğru danışanı asdılar dardan» misrasına, odlu sarkazma, qəzəb və nifrət toxumu səpdiyinə, komalarda tarix yaradanlara məhəbbət bəslədiyinə, öz xalqının, öz millətinin kökünü yaşatmaqcəhdinə görə belə şairi amansızcasına cəzalandırardılar.


...Dünyada ad çıxaran çox şairlər var. Qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda, bir neçə kəlmə ilə «həyat nədir?» sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxqiyar Vahabzadə belə şairlərdəndir.

İndi də sərlövhəyə çıxardılmış Vahabzadə misraları barədə... Məncə bu misralar şairin yaradıcılığı üçün çox simvolik və xarakterikdir. Bəxtiyar Vahabzadə öz möhtəşəm poeziya məbədini ucaltmaqdadır. O qüdrətlidir. Əlləri mahir və qadir əllərdir. Qoyduğu təməl möhkəm və gözəldir. Oxucu bu məbədi tez-tez ziyarət etməlidir.

Çingiz Aytmatov

«Dostoinstvo» («Yazıçı», 1988) kitabına ön söz.





ÇOX SÖZ

Bəzən çöhrələrdə bir-birinin ardınca gülüş əvəzinə-təbəssüm görəndə, bəzənsə küt təkəbbür fəryad qoparan əziyyət və iztirab utancaqlığını boğaraq üzə çıxanda adama elə gəlir ki, heç kim heç nəyə inanmır. Lakin bu ümumiləşdirilmiş bədbinlik, ümumiləşdirici nikbinlik kimi aldadıcıdır. Gerçəklik inamla inamsızlığın, paklıqla rəzilliyin qarşıdurmasındadır. Bəxtiyar Vahabzadənin sadə, demək olar ki, xalq deyimlərinə bənzər misraları ikibaşlı, təzadlı həyat anlayışları ilə doludur:

Biri inanır, biri inanmır,
Bu dünyanın hökmü budur...

Mən Bəxtiyarın öz şeirlərini necə oxuduğunu eşitmişəm və azərbaycanlı dinləyiciləri bunları necə heyranlıqla qəbul etdiyinin şahidi olmuşam.

Rus dinləyicisi üçün Azərbaycan dili, hətta kin-küdurətin ifadə anlarında belə, çox yumşaq səslənir. Dilin fonetikasının özülündə bir qılıq istilik, həzinlik, nəğməlilik gizlənmişdir. Bəxtiyarı dinləyəndə, dili bilməsən də, onun şeirləri adama şirin-soy gəlir. Hətta, sətri tərcüməni oxuyanda dilin gözəlliyi arxasında gizlənmiş dərin qəm və kədəri hiss edirsən. Elə bil ki, Azərbaycan narıdır: şirəsini içirsən şirindir, qabıqlı yesən, acıdır.

Uşağın gülüşünün səbəbi haqqında adamı valeh edən sətirlərlə ya-

naşı:

Çox düşünüb daldı müdrik
Bu gülüşün mənasına.
Cavab tapa bilməyəndə
O, özü də güldü buna.

Onun daha açı və daha eyhamlı sətirləri də var:

Hərdən həkimlərin məsləhətilə
Çıxırıq bulvara bir tələb kimi.
Uduruq havanı biz gilə-gilə
Aptekdən verilən sarı həb kimi.

Təbiət gözəlliklərinin ənənəvi tərənnümü isə sərt üzünə istehza ilə əvəzlənir:

Biz yenə də sözə gəldik,
Tez geyindim pencəyimi
Getmək üçün...
Donub qaldım,
Öz içimdən mən asıldım.
Guya mənim məhəbbətim
Asılıymış pencəyimdən.
Onu geysəm -
Məhəbbəti soyunaram ürəyimdən.

Keçən il Bakıda bu gözəl şairin şeirlərinin sətri tərcümələri ilə tanış olduqdan sonra mən bir həqiqəti - poeziyanın, şeiriyyətin onun qanında-canında olduğunu anladım. O, üzdən yazmır, insan hisslərinin dərin qatlarına baş vurur.

Rəssama müraciətlə yazdığı «Məndə məni çək» şeirində Vahabzadə

məhz onun özünə daha yaxın, daha doğma olan gerçəkliyin dolğun əks edilməsi üsulunu açıqlayır.

Xaricdə yazılmış şeirlərdən aşağıdakı misralara diqqət yetirək:

Harda qarnım toxdursa,
Ora vətəndir mənə.

Bu misralar Vətənin içində mənəvi mühacirət prinsipi əsasında yaşayanları hədəfə alır.

Yaxın yoldaşı və qonşusu Əliağa Kürçaylının qızının xatirəsinə həsr etdiyi gözəl şeiri nəsihətlə rekviyem - arasında incə, çox zərif bir həddə yazılmışdır, lakin o, şeirin heç bir hissəsində bu sərhəddən kənara çıxmır. Atasının ölümündən, bu ağır, bu dərin kədərdən sonra özünə qıymış, intihar etmiş qızla mübahisəyə girişmək çətindir. Amma Vahabzadə faciənin dəqiq ifadələrini tapa bilir:

Ata ölümünə dözməyib yəqin,
Atasız dünyanı sən istəmədin.
Bəlkə haqq verərdik, əgər atanı
Yaşada bilsəydi ölümün sənin.

Hər halda, «öz köklərinə nifrət edənlərlə» müqayisədə Ülkər atasına olan bu ülvi məhəbbətində qəhrəmandır: «Ülkərin qısa ömrünü uzatdı». Görünür, bu şeiri qonşusunun ölümü münasibətilə Vahabzadənin kədərinin qüvvəsi və ikincisi, onun kədərinin özü yazmışdı; şair burada bir dəfə də olsun həddən artıq bəlağətə, yaxud didaktikaya uymur. Öz sərtliyinə görə bu, nadir şeirdir!


Vahabzadənin kitabı tərcümələrin keyfiyyətinə görə cürbəcür olsa da (yeri gəlmişkən, bu, həmişə belədir), hər halda, rus dilində də yaxşı alınmışdır. Hər şeydən öncə, bir şey apaydındır ki, qarşımızdakı şair müstəsna istedada malik qeyri-adi şairdir. Bu səadət bəzən ana dilində yazanların da çoxlarına nəsib olmur. Sözümü bədahətən yazdığım bir


şeirlə qurtarmaq istəyirəm:

Narın şirin şirəsi
Acı, dərdli şeirin töhfəsidir, töhfəsi!
Bir şirinlik gizlənir hər acılıq içində,
Narın şirin şirəsi acı qabıq içində.

Yevgeni Yevtuşenko

«Ruka v ruke» (Gənclik, 1981) kitabına ön söz.





Bəxtiyarla mən az görüşmüşəm. İki dəfə Bakıda və iki dəfə Moskvada. Xatirimdə onun təbəssümü qalıb. Onun necə gülümsəməsini aydınlaşdırmaq çox çətindir - nəzakətli, utancaq, yaxud təkəbbürlü idimi bu təbəssüm? Əsla yox! Bu, daha doğrusu, kədərli təbəssüm idi. Belə təbəssümü süni yaratmaq olmaz. Belə təbəssüm, sadəcə olaraq, əhvali-ruhiyyədən, tərbiyə üsulundan gəlmir, ən çoxu xasiyyətdən, insanlarla dərin ünsiyyətin təcrübəsindən doğur bu təbəssüm. Bu təbəssüm, sadəcə olaraq, çöhrənin, əhvali-ruhiyyənin gülümsəməsi də deyildir. Bu, onun bütün təbiətinin təbəssümüdür. Qeyri-adi fəaliyyətdən doğan təbəssümdür, müəllimin, ocaq başındakı ağsaqqalın təbəssümüdür. Sonralar öyrəndim ki, Bəxtiyar elə müəllimdir. Bu sözün ən geniş və həqiqi mənasında müəllimdir. Müzllim, alim, elmlər doktoru, Azərbaycan Dövlət Universitetinin professorudur. Azərbaycan Elmlər Akademiyasının müxbir üzvüdür. Azərbaycanda bir çox müəllim onun sabiq tələbələridir. Bəxtiyarın şeirləri Azərbaycan ədəbiyyatı müntəxəbatına daxil edilmişdir. Nəticədə aydın olur ki, respublikada hər bir savadlı adam - birinci sinif şagirdindən Elmlər Akademiyasının prezidentinə və maarif nazirinədək-onun şeirlərini oxuyub öyrənmişdir.

Bəxtiyar Vahabzadə Respublika Ali Sovetinin deputatıdır. Bu da ondan irəli gəlir ki, o, xasiyyətcə, təbiətən müəllimdir, ən yüksək bir fənnin - ölkəsinin vətəndaşı və qayğıkeş işçisi olmaq hüququnun pedaqoqudur.

Bəxtiyar öz lirikasında lirik olduğu qədər də filosofdur. Onun şeirləri predmetlidir, konkretdir. Şeir nəinki oxunur və səslənir, həm də

gözlə görünür. Burada təsvirdən əsər-əlamət yoxdur. Şeirlərin hamısında şairin sinirləri hiss olunur, sözlə ünsiyyəti dərk edilir.

Bəxtiyar dərin, axtarışda olan və narahat düşüncələr şairidir. Bəşər təfəkküründün yolu onu dərindən həyəcanlandırır, o, materiyanın, kosmosun sirlərini açmış idrakın ən uca, ən ali zirvələrinə heyran qalır, amma hələ insan qəlbinin də kosmosu vardır və burada ruhun kamilliyinə, sözlə əməlin həmahəngliyinə gedən əzablı və tikanlı yollarda, ilahi, nə qədər çox «ağ ləkələr» vardır! Bax, B.Vahabzadə poeziyasının mahiyyəti də budur.

Şair hər şeyi bilən, özünə güvənən «lirik» qəhrəmanların» ruhlandırıcı üstünlüyündən həzz almaq istəmir - əsla yox, o, bizə hələ axıradək dərk olunmamış, əzablı, qeyri-adi bir sirri - bizim özümüzü xatırladır və biz onun bir az istehzalı, ayıq təbəssümünü anlayır, başa düşürük.


Rus dilində o, az nəşr edilib, mənə elə gəlir ki, bu, iki səbəbdən - onun təvazökar və məqsədyönlü adam olmasından irəli gəlir. Məqsədyönlü adamlar şəxsi adı haqqında deyil, iş barəsində, özünün söz borcu barəsində daha çox düşünürlər. İşə münasibətlərinin dərinliyi və ciddiliyi bir qayda olaraq, onlara fəal ünsiyyət saxlamağa macal vermir. Belə adamlar öz işlərini yoluna qoymağı bacarmırlar, onlar haqqında əməlləri - gördükləri işlər danışır. Belə adamları xeyirxah əməlləri insanlara yaxınlaşdırır. Onlar, adətən, öz ünvanına səslənən alqışlara gecikirlər.

Bəxtiyar Vahabzadə sözü ilə əməli bir olan adamdır. Bir insan və şair kimi xarakterinin bu keyfiyyəti təkcə onun kiçik şeirlərində deyil, epik əsərlərində, adamları vicdana, igidlik və gözəlliyə çağıran poemalarında da meydana çıxır. Bəxtiyarın kitablarından biri «Payız düşüncələri» adlanır. Köhnə mövzudur? Köhnədir. Lakin həmişəcavandır. Əbədi və daim vacib mövzudur. Və burada Bəxtiyar Vahabzadə haradasa öz sözü ilə zərbi-məsələ yaxınlaşır. Mən qəsdən aforizmə demirəm, çünki zərbi-məsəl daha hərarətli və munisdir. Aforizm isə çox ciddidir. O, mərmər və qızıl, səhnə, pyedestal tələb edir. Zərbi-məsəl isə izafi təmtərağı sevmir, o, təvazökardır, qayğıkeşdir və hətta bayramlarda bir qədər də kədərlidir. Bax beləcə, sözlə sifət, düşüncənin gedişi ilə hərəkəti bir-

birilə uyğun gəlir. Artıq xasiyyət üzə çıxır, yazının manerası, sözün üslubu, sinirləri aşkarlanır. Bu necə də Bəxtiyara bənzəyir, ondakı bu xüsusiyyət necə də xalqdan gəlir və xalqın özündədir bu xüsusiyyət. Payızdırmı? Nə olsun ki?! Payız yetkinliyin zirvəsidir, düşüncənin baharıdır.

Yeqor İsayev

«Mı na odnom korable» («Bir gəminin yolçusuyuq») kitabına (Yazıçı, 1983) ön söz.



ÜÇÜN MƏSULİYYƏT

Hər bir yaradıcı əmək özlüyündə mükafatdır. Yazıçı öz əsərlərini həyatın qaynağında da, qəlbi ilə tənha qalanda da yaradır. Bəşəriyyətə, insanlara məhəbbət yazıçıya ilham verir. Bu insanlar ona yaxın, ona doğmadırlar, yer üzündə addımlayan hər uşaq sənin uşarındır, fəlakətin yaraladığı hər bir ürək sənin cəfakeş ürəyindir. Bəxtiyar Vahabzadə üçün «başqasının ağrısı» məfhumu, demək olar ki, yoxdur. Hər ağrı onun öz ağrısıdır. Keçmiş şairlərin kədərli həyatından, Füzulidən, Nəsimidən, Nizamidən, yaxud miskin daxmalarda yaşayan, nə çörəyi, nə də gələcəyə ümidi olan adamlardan söhbət gedəndə də bütün bunları o, öz həyatı kimi qavrayır. Dünyanı ata gözləri ilə görür və mənə elə gəlir ki, böyük həyat sürmüş bu adam həqiqətən müəllimdir, özünün lap gənclik illərində də müəllim olmuşdur. Həyat üçün, hər bir həmvətəninin taleyi üçün... dünyanın müqəddəratı üçün böyük məsuliyyət hissinə görə müəllim olmuşdur.

Mənə Bəxtiyar Vahabzadənin şeirlərini tərcümə etmək, Mərdəkandakı sanatoriyada onun yeni şeirlər kitabı uzərində birlikdə işlədiyimiz vaxt tez-tez görüşmək səadəti nəsib olmuşdur. Biz, adətən, səhər yeməyi zamanı görüşərdik. Qamətli, nəzakətli, gözlərinin şəfqəti ilə qəlb isindirən Bəxtiyar mənim üçün həmişə başlanan iş gününün fərəhli akkordu idi. Səhər yeməyindən sonra, adətən, bağda gəzirdik. Addımlarımız getdikcə yeyinləşir, söhbətimiz isə getdikcə daha dolaşıq olur, tez-tez qırılırdı. Bəxtiyarın çehrəsindən görürdüm ki, bütün

varlığı ilə haradasa uzaqlarda, öz xəyalları aləmində dolaşır. O, demək olar, həmişə gözləmədiyin halda, birdən dayanır, vidalaşır və yazı masasının yanına gedirdi. Əvvəllər söhbəti birdən-birə kəsmək ədası məni təəccübləndirirdi, sonralar xatırladım ki, ağlıma bir fikir gələndə, ilhamım coşanda mən özüm də bu cür hərəkət edirəm, Bəxtiyar yaradıcı adamın bir göz qırpımında öz poetik düşüncələr aləminə daxil olmasının və sanki real həyatdan ayrılmasının ən parlaq timsalıdır.

Gəzintilərimiz zamanı qoca bağban tez-tez bizə yaxınlaşar, haradansa bir dəsmal çıxarardı. Dəsmala qocanın cızma-qara yazısı olan bir parça kağız bükülmüş olardı. O, həmin kağız parçasından nə isə oxuyar, Bəxtiyar da başını tərpədərdi.

Sən demə, Bəxtiyara baş çəkməyə gələnlər onu yerində tapmadıqda adamların bütün xahişlərini şairə çatdırmaq vəzifəsini bağban öz üzərinə götürübmüş. Bağban Bəxtiyardan xeyli yaşlı idi, lakin ona özündən yaşlı adam kimi ehtiramla yanaşırdı. Xalqın, sadə adamların Bəxtiyara bu münasibətini dəfələrlə müşahidə etmişdim. Bir dəfə bu adamlardan biri mənim Bəxtiyar Vahabzadənin şeirlərini tərcümə etdiyimi bilərək dedi ki, Rimma xanım, bizim Bəxtiyarı tərcümə edirsinizsə, yəqin, siz özünüz də yaxşı adamsınız.


Bəxtiyar son dərəcə pak, ürəyi təmiz adamdır, dərin bilikli heyrətamiz dərəcədə rəngarəng duyğular fikirlər aləmi olan adamdır, bir sözlə, əsl şairdir. İnsana xidmət şairin fəaliyyətinə istiqamət verən əsas qayədir. Onun təravətli, gözəl şeirləri oxucunu dərhal bu şeirlərdə təsvir edilən aləmlə yaşamağa məcbur edir və biz onunla birlikdə şərlə mübarizə aparır, sevir, qurub-yaratmağa can atırıq, həyatımız dəruni duyğularla zənginləşir, arzu və ümidlərimiz qanadlanır. Həm şair, həm də insan kimi mən Bəxtiyar müəllimdən çox şey öyrənmişəm. Zənnimcə, şairin poeziyası ilə təmasda olan hər kəs bu halı keçirir.


Bəxtiyar Vahabzadənin «Bir gəminin yolçusuyuq» kitabının SSRİ Dövlət mükafatına təqdim edilməsi layiqli və ədalətli bir işdir, beynəlmiləlçi şairin, zərif lirik şairin və böyük ictimai xadimik səsini

bir çox istedadlı şairlərin səsindən ayırır. Biz bu ictimai ədalət, ictimai etiraf faktına sevinirik və ürəyi bizim üçün mərdanə və şiddətlə, ehtirasla və ülviyyətlə döyünən şairə dönə-dönə səmimi-qəlbdən təşəkkür edirik.

Rimma Kazakova

«Kommunist» qəzeti, 1984, 11 oktyabr.





VAHABZADƏ - 60

Müharibə illərində Azərbaycan diviziyasının keçdiyi döyüş qəhrəmanlığı yoluna həsr olunmuş «416» poemasında belə sətirlər var:

Vurulanda biz həyata
Bənd oluruq.
Doğularkən vurulmuruq,
Vurulanda doğuluruq.

Bu sətirlərin müəllifinin 60 yaşı tamam olur. Şair ömrünün bütün ötən günləri kimi, yubiley günü, həqiqətən, onun yenidən doğuluş günü olacaqdır. Mən insanlara, həyata və incəsənətə bu şairin ürəyi qədər güclü, çılğın və utancaq, vurğun və məsum sevgiylə dolu olan başqa bir ürək tanımıram. Bəxtiyar - xoşbəxt deməkdir. Yəqin ki, şairin və onun oxucularının əsl xoşbəxtliyi də məhz Bəxtiyarın şeirinə qanad verən bu qüdrətli sevgidir.

Bu ilin yazında mənə Suriyanın Hələb şəhərində Nəsiminin türbəsini göstərdilər. Yaşadırı amansız dövrdə ictimai ədalətsizliyə qarşı etiraz səsini ucaltdığına görə şairin dərisini diri-diri soymuşlar. Xalq şairin ölümünə yas tutub, onu dəfn etdi və ona bəslədiyi böyük sevgi və minnətdarlığını qoruyub saxladı. Mən üsyankar şairin soyuq son mənzilinə baxıb onun taleyini düşündüm. Nəsiminin xatirəsi önündə baş əydiyim zaman yadıma düşən ilk adam o böyük fikir adamı ilə

qanı bir, canı bir, lakin ona daha çox ruhən yaxın, doğma olan Bəxtiyar Vahabzadə oldu. Əgər bu gün biz qələm sahibləri arasında ürəyinin dərisi soyulan bir adam varsa o, məhz B.Vahabzadədir.

O, bu vaxta qədər çox iş görüb. Əgər dostlarının başına yığıldığı yubiley ziyafətində onun çoxsaylı xidmətləri sadalansaydı, hamı razılıqla başını tərpədər yalnız bir nəfər – Bəxtiyarın özü narazı qalardı. Məclisin ən şərəfli yerində əyləşdirilən bu arıq, yaraşıqlı və ciddi şair, əlinin zəif hərəkəti ilə onun rütbələrini və xidmətlərini açıqlayan sözlərin axınını saxlamağa cəhd edər, onun qaynar şabalıdı gözləri acı məzəmmətlə parıldardı. Bir sözlə, təvazökarlıq bu adamın qanında, canındadır. Onun qəlbi yalnız yaradıcılıq ovqatı ilə köklənib. Pasternakın təbiri ilə desək, «...məğlubiyyətini qələbəndən sən özün fərqləndirməməlisən».

Bəli, B.Vahabzadə haqqında istədiyin qədər xoş və yüksək sözlər demək olardı. Axı o, özü təbiətən xeyirxahdır və bu xeyirxahlığı səxavətlə paylayır. Başqalarının dərdinə şəriklik və qayğı, insanın taleyi üçün təkcə həyat nemətləri deyil, həm də bu nemətlərin necə əldə edilməsi, insanın vicdanının və niyyətlərinin saflığı baxımından narahatlıq onun təbiətinə xas əlamətlərdir.

Mən Bəxtiyar Vahabzadəyə müəllim deyirəm, çünki onun şeirlərini oxuyanda, yaxud tərçümə edəndə ondan öyrənirdim və öyrənirəm. Onun kimi əsl müəllimdən yalnız öz sənətini cilalamağı yox, ürəyin etiqad etdiyi ciddi, vicdan qanunlarını mənimsəyirsən...

Bəxtiyar Vahabzadə - böyük vətəndaşdır. O, əmək və döyüş qəhrəmanlığını, ümumi işə xidmətin gözəlliyini, cəmiyyətin insan naminə sevməyə və işləməyə hazır olanların üzünə açıq olan harmoniyasını vəsf edir.

Şair yaşanmış illəri ürəyin döyüntüsü ilə ölçür və bu - dəqiq, düzgün ölçüdür. Bəli, biz ürək döyünəndə, ağrıyanda və hökm edəndə, nifrət edəndə və sevəndə yaşayırıq! Laqeydlik - ölümdür.

Yaşadım, bildirib vaxta həddini,
Dəli dalğaları mən yara-yara
Yaşadım,

eşq olsun vaxtın həddini
Özünə sığdıran çırpıntılara.


Öz adımdan və Bəxtiyar poeziyasını sevənlərin adından onun narahat, aramsız, dəli-dolu ürəyinə «sağ ol» demək istəyirəm!


Bəxtiyar... Mən özümü əbədi şagirdi sandığım şairi, sadəcə olaraq, adıyla çağırdım. Lakin bu hörmətsizlik deyil. Zamanın obrazını sonsuzluğun axarında sözlə həkk etdirənlərin hamısını, beləcə, sadə və möhtəşəm poeziyanın öz adı ilə çağırmışlar.

Bizim Bəxtiyar, şübhəsiz, buna layiqdir.

Rimma Kazakova

«Literaturnaya qazeta», 1985, 21 avqust.





SOHBƏTİ...

Müəllim-kitablar vardır ki, bunlara ədəb-ərkanla, hörmətlə qulaq asırsan.

İctimai xadim-natiq kitablar vardır. Çağırışının təsiri altında onların ardınca gedirsən.

Yoldaş-kitablar, həmsöhbət - kitablar da vardır. Onlar özünü səndən üstün tutmur, sənə əmr vermirlər. Onlar oxucu ilə tən adamlar kimi məhəbbət və kədər, həyat və ölüm, etimadsızlıq və gözəllik barəsində məhrəmanə və fikrini zorla yürütmədən söhbət edirlər.

Azərbaycan poeziyasının görkəmli şairlərindən biri olan Bəxtiyar Vahabzadənin yeni şeirlər kitabı da belədir. Onun yaradıcılığında istedad, mədəniyyət, lirikanın gücü və həyat təcrübəsi ahəngdar birləşir.

Dünyaya Nizami Gəncəvi, Füzuli, Vaqif, Mirzə Ələkbər Sabir və başqaları kimi parlaq ustadlar vermiş Azərbaycan poeziyası, şeir qoşmaq qabiliyyəti adi bir hal olan, musiqiyə, şeirə və onun keyfiyyətinə xüsusi diqqət verən Azərbaycan ədəbiyyatının spesifikası peşəkar şairin qarşısında çox yüksək, bir növ, müsabiqə tələblər qoyur.

Yadımdadır ki, uzaq Qarabağ kəndində kolxoz maşınının sürücüsü Əmanət Rəhimovla söhbət zamanı poeziya barəsində, sevimli şairlər haqqında ənənəvi sualıma o belə çavab verdi: «Mənim sevdiyim şair Bəxtiyar Vahabzadədir!» Və onun şeirlərini əzbər deməyə başladı.

Mən Azərbaycan dilini bilmirəm. Amma müsahibimin üzünə, otaqda oturanların gözlərinə baxır, oxunan şeirlərə necə diqqət yetirdiklərini və heyrətdən donduqlarını görür, şeirin ehtiraslı, əsəbi, həyəcanlı me-

lodiyasını mən də eşidirdim və.., vicdan haqqı, sanki hər şeyi başa düşürdüm.

İki ildən sonra Azərbaycanda səyahətdə olarkən Şuşada, mehmanxananın hollundakı televizorun önündə oturmuş və ayaq üstə dayanmış çoxlu adam diqqətimi cəlb etdi. Mənə elə gəldi ki, bütün mehmanxanadakılar buraya toplaşmışdır. Televizorda Bəxtiyar çıxış edirdi.

Respublikada onun şeirlərinin böyük tirajlarla çap edilməsi və sevilməsi faktı özlüyündə onların yüksək poetik keyfiyyətini sübut edir.

İndi budur, yeni bir görüş.

Bu kitabdakı bütün şeirlər insana müraciətlə yazılmışdır. Şeirin hər bir intonasiyasında, hər bir lirik müraciətində şair bizim «gözəl və azğın dünyamızda» könül ünsiyyətinin nə dərəcədə mümkün olmasını başa düşmək üçün müsahibi ilə öz qəlbinin dərdlərini bölüşməyə can atır:

Gözümüzdə arzumuz, könlümüzdə kamımız,
Ömür qatarlarında yol gedirik hamımız.
Önümüzə gah yaşıl, gah da al işıq çıxır,
Bu dolaylı yollardan
Kimi yuxulu çıxır, kimi də ayıq çıxır.
Ancaq neyləyəsən ki, tale yatır dərində
Kmmi düşür,
Adı da, ünvanı da bilinən
Paytaxt şəhərlərində
Kimi düşür,
Tanınmaz yarımstansılarda.

Bir çox epik əsərlərin - «Yollar-oğullar», «Şəbi-hicran», «Qiymət», «Etiraf», «Muğam» və digər poemaların müəllifi olan Bəxtiyar Vahabzadə «Seçilmiş əsərlər» (1977) kitabında öz istedadının bütün cəhətlərini aşkara çıxarmışdır. Həqiqi lirika insanidir, insanın təbii hisslərinin tərcümanıdır. Şair lirik şeirində qəlbinin ən yüksək və nəcib xüsusiyyətlərini dünyaya açır, buna görə də başqalarının hisslərini

təzələyir.

- Fikirlisən?
- Yox! - dedim.
Kədərimi gizlədir, mən qəmimi danıram.
Nədənsə öz dərdimi hamıya qısqanıram.
Kədərli anlarımda məni heç kəs görməsin.
Söndür çırağı, söndür,
Sevincim hamınınsa, kədərim özümündür.

Bəxtiyar Vahabzadənin şeirlərinə qısa giriş sözümlə yanaşı bəzi mülahizələrimi də bildirmək istərdim.


Bizim dövrümüzdə rus dilində mövcud olan tərcümə poeziyasının xüsusi çəkisi miqdarca çox böyükdür. Mərkəzi nəşriyyatlarımızda buraxılan poetik məhsulların yarısı tərcümə kitablarıdır. Yeri gəlmişkən, qeyd etmək istərdim ki. milli şairin rus dilində sadəcə yeni kitabı deyil, həmişə müəyyən dərəcədə «seçilmiş» əsərləri, doğma poeziyanın və doğma dil mühitində artıq sınaqdan çıxmış bir neçə şeir kitabının yekunu çap edilməlidir.


Xoşbəxtlikdən Bəxtiyar Vahabzadə məhz belə şairlərə mənsubdur. O, heç vaxt öz kitablarını başdansovdu tərcümədə nəşr etdirməyə tələsmir. O, yəqin bilir ki, poeziya bizim üçün ümumi olan səma altında çiçəkləməzdən əvvəl doğma torpağında köklərini bərkitməlidir.

Sözümün sonunda demək istəyirəm ki, B.Vahabzadə sözün əsl mənasında şairdir. həm də, heç kimə bənzəri olmayan bu bədii söz ustasının yaradıcılıq diapazonu olduqca genişdir.

Stanislav Kunayev

1977) kitabına ön söz.





QƏLBİN ÜLVİ DUYĞULARI

Əgər yazacaqların bir ülvi qayəyə bağlı deyilsə, elə-belə şeir yazmaq istəyirsənsə, bu mənasız iş kimin nəyinə lazım imiş? Özü də bu prosesin-yazmaq xatirinə yazanların sayı ilbəil artan çağdaş günlərdə! Yalnız Yer və Kainat, təbiət və insan haqqında ən dərin, ən ali fikirlər, ədəbiyyatdan, xüsusilə poeziyadan - şeir sənətindən bu yıpranmış meylləri sıxışdırıb çıxara bilər. Bəxtiyar Vahabzadənin özü məhz bu yolun uğurlu yolçusudur. Çünki o, yetkin bir şəxsiyyət kimi öz qüvvətli şair əqidəsinin və çox təsirli şeirlərinin köməyi ilə bunu təsdiqləyir, sübut edir. Şair təsdiq edir ki, yolların ən çətini özünüdərkə gedən yoldur. Çünki bu adi bir həqiqətdir: «sən» «onlar»dır, «onlar» isə hər şeyin açarı olan «sən»sən. Özünü dərketmə yolunda sən «Özgə dərdini özününkü eləmək elmini mənimsəməlisən». Bəxtiyar Vahabzadənin yaradıcılıq dünyasının ən ülvi qayəsi müdriklik duyğusudur. Söz sərrafı olan şairin ali ustalığının məna və mahiyyəti də məhz bunun üstündə köklənmişdir.

Şeir sənəti təkcə dünyanı dərk və izah etməklə kifayətlənmir. Həm də, onu tamamlayır, yəni, insanı zənginləşdirir-təkcə biliklə deyil, həm də və daha çox qavrayışla.

Zira, poeziyanın məhək daşında-əsasında hər bir şairin dərk etməyə çalışdığı böyük bir hiss, duyğu aləmi gizlənir. Bəxtiyar Vahabzadə: «Mən sükutun dilini, dərdini, möhnətini, həm də əbədiyyətin bir ani minnətini qavramaq istəyirəm», - deyəndə, həmin məqamda sirli-soraqlı varlığın əsrarını və qanunauyğunluğunu açmağın ülviliyinə, ilkinliyinə ucalır.

Bu cəhd şairi filosoflarla qohumlaşdırır, doğmalaşdırır. Poeziyada insanın mənəvi aləmi sanki çılpaqlaşır, o, adilikdən, ətalətdən qurtulur. Poeziya optikanı-görüm dairəsini də dəyişir: İnsan əbədiyyətlə antiliyi, ötəriliyi bir-birindən ayırd edib fərqləndirir. Baxtiyar Vahabzadənin poeziyası məhz bu key-fiyyətlərə malikdir. Mən Bəxtiyar Vahabzadənin əsərlərini oxuyarkən, ondakı şair sözünün tutumu, siqləti və dəqiqliyi barədə düşünürəm. Həqiqi poetik söz ağrıdan, iztirabdan doğulur. elə belə, üzəngi parıldatmaq xatirinə yazılmır; o, şairin enerjisi və şəxsi həyat təcrübəsinin yekunu olan yaradıcılıq məhsuludur. Hədər yerə söylənilmir, yazılmır - şair sözü min dəfə ölçülüb-biçilir, tövbə, inam, vəsiyyət, etiqad, ürək sözü olur. Çağdaş günlərimizdə etiqadsayağı təqlid, yamsılama nümunəsi olan loru sözləri poetik tapıntılar kimi qələmə verənlərin sayı; əfsus ki, çoxdur! Belə bir şəraitdə həqiqi dəyəri olan sözlə hər hansı bir görüş səadəti adama böyük sevinc bəxş edir.

Mən qəlbimə yatan, ovqatımla səsləşən fikirlərlə, obrazlarla, gözlənilməz müqayisələrlə, ibrətamiz sensasiyalarla rastlaşanda həmişə sevinirəm. Bu, həmin qəlb genişliyidir ki, heç bir uçurumun şişuclu qayasına rast gəlmədən, asudə, yalnız sənə məxsus - nişan aldığın, məqsədinə çevirdiyin yolla gedirsən: Bəxtiyar Vahabzadənin sözləri hədəfə dəqiq dəyir, fikirləri dərin və orijinaldır. Onlar çox ciddi və qətiyyətli bir söz sərrafının, həqiqi ustadın əlindən çıxdığı üçün sənə də məxsusdur. Çünki şair öz «mən»inin, suverenliyinin fövqünə qalxaraq, səni özündən kənar eləmir, əksinə, səni öz aləminə dəvət edir, özünün uzaq mənəvi üfüqlərə yol açan işıq nuruna bələmək istəyir. Onun sözlərindən inam, sənin həyatda büdrəməyəcəyinə, sözün həyatda sənin sədaqətli köməkçin olacağına, xeyrin yenilməzliyinə günəş inamı saçılır.

Yeqor İsayev bu kitaba yazdığı ön sözündə göstərir ki, Bəxtiyar Vahabzadə çağdaş Azərbaycan poeziyasında müəllim, ustad kimi tanınır və sevilir. Xeyirxahlığa, nəcibliyə çağıran adamlara ustad, müəllim adı verilir. Lakin şüurumuzda müəllim obrazı nəyə görəsə stereotipə çevrilib, həmin obraz həmişə, nədənsə, didaktika və öyüd-nəsihət anlayışlarına bənzədilir. Görünür, Şərq poeziyası ənənələrindən bəhrələnən

şairləri, əlbəttə, bu nəsihətamizlik kompleksindən kənara çıxarmaq çox da asan deyilmiş. Amma həqiqi yaradıçılığın kökü, əsası, əslində. elə məhdudiyyət qanunlarını aradan qaldırmaqdan ibarətdir.

Bəxtiyar Vahabzadə insan varlığını, insan taleyini ənənəvi motivlərlə, ən yeni poeziyanın nailiyyətləri ilə birləşdirərək, geniş imkanlar yaradır. Şairin ehtiyat tədbiri heç də nəsihət kimi deyil, «şəxsi məsuliyyət mövzusundakı monoloq» ruhunda səslənir. Bu, əslində, şəxsi təcrübəsini tətbiq etməklə, başqalarının davranışını əxlaq normalarına salmaq üçün təkbətək fikrə dalmaqdır.

Yalnız həyat hadisələrinə, ömrümüzün mahiyyətini müəyyənləşdirən gündəlik davranışımıza dərin müdaxilə nəticəsində «hər hansı məğlubiyyət qələbə elmidir» fəlsəfi yekununa gələ bilərik. Bu həqiqətən müəllim mülahizələridir və bunlardan irəli gələn əsl müəllim çağırışıdır: «Gəlin öz təcrübəmizdən öyrənək». Ancaq həqiqət dərsləri Bəxtiyar Vahabzadə yaradıcılığında həlledici rol oynamır. Böyük emosional təsir qüvvəsi olan bu dərslər ali məqsədə - insanın mənəvi cəhətdən yüksəlməsinə, saflaşmasına, bu dünyada öz təkrarolunmaz, «mən»inin dərkinə xidmət edir. Müəmmanı açmaq («Ah, məgər bilirəmmi... hardan gəlmişəm»...), müşkülü həll etmək, dərkolunmayanı anlamaq - bütün bu cəhdlər varlığın əsas məsələlərinin həll olunmasına çalışan şair, eləcə də hər bir yazar üçün «qorxunc işgəncəyə» çevrilir.

Şair hər şeirində təbiidir, çünki o, səmimidir, ürəyi açıqdır, ədəbaz deyil, sünilikdən uzaqdır. Məhz buna görə də onun sözünə inanırsan. Axı, poeziyada ən acı hiss aldanışdır. Tez inanan oxucu etiraf gözləyir, oxucu qəlbi məhz yalnız ona-səmimiliyə hay verir. Burada onu süjetlə ələ almaq, fabula ilə maraqlandırmaq olmaz. Təqdim edilən mətndə poetik iksirin, maddənin olub-olmadığını oxucu hətta bir neçə misradan səhvsiz müəyyənləşdirir. Mən də bir oxucu kimi təsdiq edirəm: Bəxtiyar Vahabzadənin «Bir gəminin yolçusuyuq» kitabında ağır və eyni zamanda çəkisiz, şəffaf və əsrarəngiz poetik iksir var.

Şübhəsiz, bu toplu şairin yaradıcılığında mərhələdir. Ona daxil edilən müxtəlif illərdə yazılmış şeirlər və poemalar altı bölmədən ibarətdir. Kitabın özünəməxsus nüvəsini «Əsr və insan», «Avtoportret»,

«Bulaq başında susuzluq» təşkil edir. Onlar nə isə bir ürəkdən gələn etirafla dolu lirik dastandan:

«Qayğılar dalğa tək aşır başımdan,
Gülə baxmağa da macalım olmur.
«Bəs bu nə ah idi, qopdu sinəmdən,
Demə, yaşayanda yaşamayıb mən
Şirincə-şirincə yuxu yozmuşam.
Bulaqlar başında mən susuzmuşam».

(«Ömür keçir bir an kimi» və s.) reportaj konkretliyinə («Sultan sarayları hasar içində») və tipik Şərq düsturuna («Dünya bir cıdır düzü», «Həyatda nə ölçü, nə də çəki var», «Aləmi çirkaba qərq etmək istər, Çirkabın içində şıllaq atanlar») çevrilir.

Söz hərəkətdədir, obraz inkişafdadır, mövzu üfüqləri daim genişləndirməkdədir, çünki şairin baxışı hüdudsuzluq təşnəsidir və buna görə də o, sadəcə olaraq, fəzada hərəkət etmir, həmişə daha yüksəklərə baş alıb gedir:


Sökün çəpəri»ri, daş hasarları,
Gözlər uzaqlara zillənsin, barı.
Könül otaqlara sığarmı təkçə?
O gərək atlana dağdan-dərədən.
Baxmaq istəyirəm göz işlədikcə,
Uzanan o geniş üfüqlərə mən.


Şairin səsi həm pıçıltı, həm etiraf, həm də fəryaddır. Şair istəyir ki, onun sözləri, sadəcə olaraq, elə-belə oxunmasın, həm də eşidilsin, duyulsun, mənimsənilsin. Dahi sələflərinin - Nizaminin, Füzulinin, Vurğunun yüksək ənənə və varislik əlaməti məhz bu keyfiyyətlərdə özünü göstərir. Onun şeirlərinin intonasiyası daim fəaldır. Çünki o, bizim XX yüzilliyin mürəkkəbliyini tam mənada qavrayır. Onu öz sözünün ahənginə salır, qəlbinin nuru ilə onu işıqlandırır.

Bəxtiyar Vahabzadə zaman obrazına müxtəlif qütblərdən nəzər yetirir: seyrçi-elegiya, reflektiv, təhtəlşüur və fəal sosial, tarixi, ekspressiv yönümlərdə onu mənalandırır. Fəza onu nə formalaşdırır, nə də səfərbər edir. Bütün bunları məhz zaman yerinə yetirir. Zaman yekparədir, bölünməzdir, əbədiyyət kateqoriyasıdır. Zamanda tarixin dəqiq nişanları vardır: İnqilab, Böyük Vətən müharibəsi. Qələbə, Xalqın Böyük Tərcümeyi-halını şairin bioqrafiyası ilə ölçən də zamandır, vaxtdır. Şair isə lüğətdəki bitərəf, neytral sözləri özünün şəxsi enerjisi ilə arasıkəsilmədən doldurmaq iqtidarında olmalıdır. Ona özünün qəlb hərarətini verməli, öz ŞAİR «möhürünü vurmalıdır.

Pablo Movçan (Ukrayna)

«Literaturnaya qazeta», 1984, 12 sentyabr, № 37.





B.VAHABZADƏ

Türkiyə türkləri B.Vahabzadəni ilk dəfə Səadət Cağatayın «Türk ləhcələri örnəkləri-II» adlı kitabından tanıdı. Müxtəlif türk şivə və ləhcələrindən örnəklərin toplandığı bu əsərdə Azəri türkcəsinə nümunə olaraq B.Vahabzadənin də üç şeiri verilmişdi: «Ana dili», «Kağızlar», «Bizə elə gəlir ki...»

«Ana dili» şeirində dil sevgisi, onun tarix və torpaqla əlaqəsi konkret misallarla yüksək bir şeiriyyətlə qələmə alınmışdır. Şair ana dilinə müraciətlə deyir:

Səndə mənim xalqımın,
qəhrəmanlıqla dolu
Tarixi varaqlanır.
Səndə neçə min illik
mənim mədəniyyətim
Şan-şöhrətim saxlanır.
Mənim adım-şanımsan,
Namusum, vicdanımsan.

Vahabzadə bizə öyrətdi ki, hər millətin ana dili o millətin namusu və vicdanıdır. O, nəsillərin bir-birinə ötürdüyü ən qiymətli mirasdır. Namusumuz üstündə necə əsiriksə, dilimiz üçün də eyni şəkildə əsməli, onu gözlərimiz kimi qorumalıyıq. Ana dilində xalqın tarixi yaşayır. Bu dil uca dağlarımızın əzəmətindən, yatağına sığmayan sel-suların

hiddətindən, çiçəklərin əlvan rəngindən və ətrindən, aşıqlarımızın yanıqlı türkülərindən yaranmışdır.

Ana dili çox-çox şairləri duyğulandırmış və çoxları bu dilə şeir həsr etmişlər. Şübhəsiz, çox dilçilər də ana dili ilə tarix arasında münasibətin olduğunu yazmışdır. Lakin dili «xalqın namusu» adlandıran şairə mən təsadüf etməmişəm. Ona görə ki, ana dilindən və milli mədəniyyətindən başqa söykənəcək yeri olmayan bir millətin oğlu məhz belə yazmalıdır. Əlbəttə, ana dilinin hər kəlməsini göz bəbəyi kimi qoruya bilməyənlərə, şübhəsiz ki, bu duyğu çox yaddır.

Vahabzadə seçdiyi ən adi mövzuya «lirizmi» tətbiq etməyi bacaran, ən adi əşyada belə şeiriyyət görən, onu şeirləşdirə bilən qüdrətli söz ustasıdır. Adiçə kaqız parçası onun şeirində «lirik» bir ünsür olur:

Kağızlar, ay kağızlar,
Nə geniş qəlbiniz var.
Nə qədər ki, ağsınız,
Körpəçə uşaqsınız.
Nə qəsdiniz var sizin,
Nə də küdurətiniz.
Ayna kimi təmizdir
Qəlbiniz, surətiniz.
Elə ki, yazıldınız,
Təzə məna kəsb edib
Yeni doğulursunuz.
Ya xeyirxah, ya da ki,
Bir cani olursunuz.

Kağızla insan ruhu arasında duyğuya, hissə söykənən bir münasibət tapmaq, kağızı insan zehninin və qəlbinin bütün təzahürlərini əks etdirən bir ayna kimi görmək ancaq Vahabzadə kimi qüdrətli sənətkara nəsib ola bilən bir hiss dərinliyidir. Kağız hamının dərdini daşıya bilən, hər dərdliyə sirdaş ola bilən qəlbi geniş, surəti ayna kimi təmiz bir varlıq imiş. Sevənlər gizli dərdlərini, öz sirlərini kağıza tökə bilirlər. Ayrılıqla

içi alışıb yanan bir aşiqin otaqında, gecənin bir çağında kağızlar günəş kimi doğarlar. Keçmiş əsrlərin neçə-neçə sirri kağızlarda gizlənibmiş, nəsillər kağızlar vasitəsilə bir-birilə söhbət edirmiş. Kağız bəzən xeyirxah bir insan, bəzən də bir cani olurmuş. Edam hökmləri də kağızlar üzərinə yazılırmış. Bu yerdə şairin üsyanı son həddinə çatır və o, kağızlara müraciətən deyir: bəs üstünüzə böhtanlar yazıldığı zaman:

Neçin ərimirsiniz.
Yoxsa, siz dəmirsiniz?

Şair bizi adi kağız parçasına bu cür baxmağa məcbur edir, çünki bu, adi insan baxışı deyil, bu, şair baxışıdır.

Səadət Cığatayın «Türk ləhcələri örnəkləri II» kitabından sonra B.Vahabzadəni «Türk ədəbiyyatı» dərgisində görürük. Şairin bu dərgidə nəşr edilən hər şeiri türk oxucusunun qəlbinə sancılır. Əhməd Şmidənin bəzən izahlı olaraq nəşr etdiyi bu şeirlər Vahabzadənin türk oxucusu tərəfindən daha çox sevilməsinə səbəb oldu. «Türk ləhcələri örnəkləri»ndə sadəcə olaraq türkoloji elm adamlarının və tələbələrin diqqətini çəkən bu Azərbaycan şairi beləcə daha geniş oxucu kütləsinə tanındı. Ümumiyyətlə, Azərbaycan şeiri, xüsusilə də Vahabzadə, türk şeiri üçün yeni bir səsdir. Şeirin hələ öz sehrini və tilsimini itirmədiyi bir ölkə olan Azərbaycan bizim üçün yenidən açıldı. Heç demə, Azərbaycan türkcəsi əsil şeir dili imiş. Bu şeirli dilin şeirli havası müşk-əmbər qoxulu səba rüzgarı kimi bizim qəlbimizə yayıldı. Şeirin əsrarungiz gözəlliyini itirmək üzrə idik ki, Vahabzadənin sirr dolu, əfsun dolu kəlmələri imdadımıza yetişdi. İllərdən bəri aradığı sevgilisini tapmaq üzrə olan bir aşiqin həyəcanı içində, sözlərin qızıl parıltıları ilə hörülü labirintin dəhlizlərində keçmişlə gələcək arasında bu gün biz Vahabzadə şeirinin qanadları ilə uçuruq.

...Vahabzadə şeirlərində zaman içində bir səyahət var. O, götürdüyü hər bir mövzunu zamanla naxışlayır və bu naxışlamanı bizim beynimizə həkk edir. 1976-cı ilin yanvar ayında yazdığı «Qocalar» şeiri öz rəng və cizgilərilə başdan-ayağa qədər bir rəssamın çəkdiyni

lövhəyə bənzəyir: iki əlini əl ağacına, çənəsini də iki əlinin üstünə qoymuş düşünən bir qoca tablosu! Fəqət, Vahabzadə bu tabloya üçüncü bir obraz əlavə edir: zaman! O, düşünən bir qocanın yaddaşından zamana yol açır. İstəyirsiniz, buna şeir deyin, istəyirsiniz, usta bir heykəltəraşın yonduğu heygəl:

Çomağın ucuna dikib gözünü,
Onlar saatlarla oturar belə.
Fikir bir gəmi ki, bilinmir yönü,
Çırpınır çıxammır ancaq sahilə.

Onlar düşündükcə dolar, boşalar.
Fikrik nə sonu var, nə də əvvəli,
Doqqazlar başında bizim qocalar
Düşüncə heykəli, fikir heykəli!

Musiqi məqamlarını coşğun bir dastan üslubu ilə dilləndirən «Muğam» poemasında da şair «zaman» içində gedib-gəlir. Buna görə də şair «Rast» muğamını düşünən bir qoca adlandırır:

Bir aqilin hikmətli nəsihətləridir rast
Tarix danışan köhnə rəvayətləridir rast
«Dilkəş» də pıçıldar bizə dünya kədərindən
İnsanın ədalətli şikayətləridir rast
Öz dərdini qışqırmaz o ahəstəcə söylər,
Lakin əzabın son dəmi sərhədləridir rast.

Məşhur münəqqil Yaşar Qarayev haqlı olaraq Vahabzadədəki «zaman» qavramının mücərrəd bir simvol olmadığını, «əksinə, şairin milli, ictimai və estetik idealı ilə bilavasitə əlaqədar olduğunu» deyir və əlavə edir: «Bəxtiyar şeirində zamana maraq, xalqın mənəvi əbədiyyətinə, mənəvi «indisi»nə və keçmişinə olan maraq deməkdir. Zaman onu yalnız xalqın tarixi taleyi ilə, xalqın mənəvi və əxlaqi həyat təcrübəsi ilə

bağlılığı baxımından düşündürür və narahat edir. Keçmişi və gələcəyi də şair məhz «Vətən tarixi»nin səhifələri kimi varaqlayır.

Yenə «Muğam» poemasından «zamanın» necə «milli və ictimai bir ideal» olaraq işləndiyinə baxaq:

Koroğlunun nərəsinə,
Haqq səsinə
Yer gurladı, göy gurladı.
Dünən onun qapısında boyun bükən
Bu gün necə oğurladı
Mərd kişinin Qır atını?
Nənəm Nigar bəlkə onda
Çağırıb ilk bayatını.

...Vahabzadənin şeirlərində zaman ilə Vətən arasında qırılmaz bağlar mövcuddur. «Ana dili» şeirində tarixlə torpağın vəhdətdə verildiyini görmüşdük. O, zamanla torpağı milli varlığın iki ünsürü kimi götürür. Bu mövzuda yenə sözü Y.Qarayevə verək: «Hətta Vətən də şair üçün hər şeydən əvvəl zamanı təmsil edən obraz və simvol, ədəbi-əxlaqi yaddaş və mənəvi tarixi bir vicdandır. Şair üçün müqəddəs olan hər şey məhz «Ana Azərbaycanın» yaddaşında əbədiləşir və görünür. Çünki bu yaddaş keçici və ötəri deyil, həqiqi və milli olan bədii ruhu, mənəvi fərdiliyi və müstəqilliyi yaşadır. Odur ki, şair gələcəyi də, keçmişi də məhz xalqın «hafizəsində» oxuyur, yoxlayıb, sınayıb qiymətləndirir. Elə buna görədir ki, B.Vahabzadə üçün ayrıca bir tarixilik anlayışı yoxdur, ayrıca bir ənənəvi «milli xarakter», ayrıca bir müasir «intellektual qəhrəmanr yoxdur. Onun üçün yalnız eyni vahid, yekparə varlıq, müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi, həm mənşə, həm də gələcək kimi, beşik, oçaq, yuva və ana kimi tərənnüm olunur. Belə bir Vətən rəmzi, xalqın mənəvi tamlığını və böyüklüyünü daha dərindən duymaqda, dünyaya tanıtmaqda şairə kömək edir».

Vahabzadə vətənə həsr etdiyi şeirləri uçün millət tərəfindən çiçək dəstələri ilə qarşılanır. Buna görə də şair yazır:

Vətənimi vəsf eyləyən şeirlərim,
Çiçək olub dəstələnir qucağımda.

Onun qucağında dəstələnən şeirlərindən biri də «Azərbaycan oğluyam» adlı şeiridir.

Köküm üstə bitmişəm,
Şöhrətim var, şanım var.
Mənim gələçəklə də
Öz əhdi-peymanım var.

Azərbaycan oğluyam,
At belində doğuldum.
Zamanın qazanında
Neçə dəfə dağ oldum.

Mənim damarlarımda,
Gur sellər çağlamışdır.
Anam çəngilər üstə
Məni qundaqlamışdır.

Onun daşa, torpağa can verən sehrli sözləri yalnız təbiətdəki varlıqlar deyil. O, insan əlindən çıxan əşyanın da ruhunu əks etdirə bilir. Şeirin mövzusu ola bilməyəcək bir sahə kimi göstərilən texnika belə Bəxtiyar qəlbinin hərarətində atəşdəki qızıl mədəni kimi əriyərək zərgər əlindən çıxmış sənət əsərləri halına gəlir. O, texnikanın yaratdığı xariqələrə, şeirin damğasımı rahatca vurur. Saat, təyyarə, antenna kimi texniki vasitələr onun şeirində maddilikdən çıxıb, mənəvi bir mövcudiyyət qazanır. Məncə, Vahabzadənin şairlik qüdrətini indiyə qədər heç bir şairin yaxınlaşa bilmədiyi bir sahədə də aydın görə bilərik. Bu fikrimizi sübut üçün «Antenna» şeiri ən yaxşı misaldır. Şeir bu sonluqla bitir:


Bizə elə gəlir ki,
Ağlımız dərindədir,
Hissimizsə dayazda.
Bilməkdən bezmədikmi,
Gəlin, duyaq bir az da.
Bal kimi röyalara
Uyaq, uyaq bir az da.
Qəlbimizin başına
Dəmirdən yox, amandır,
Duyğumuzun telindən
Bir antenna qoyaq biz.
Uzaqları bilirik,
Yaxınları duyaq biz.


Vahabzadə anadan şair doğulub. Qüdrətlidir, çoxşaxəlidir. Onun əsərləri cildlər doldurmaqdadır. Yalnız 1974-cü ildə nəşr edilən «Seçilmiş əsərləri»nin (şeirlərinin hamısı deyil, yalnız seçmələri daxil edilmişdir) 383 səhifəlik I cildində 207 şeir toplandığını qeyd etmək kifayətdir. 20-dən çox kitabın müəllifi olan bu şairin məhsuldarlığı göz qarşısındadır.

1925-ci ildə Azərbaycanın Şəki şəhərində doğulan Vahabzadə, indi Bakı universitetinin professorudur. Şairliyi ilə yanaşı, elmi yaradıcılığı, dram əsərləri və müxtəlif şairlərdən etdiyi tərcümələrlə tanınan Vahabzadə bir çox türk şivələrinə və dünya dillərinə çevrilmişdir. Təəssüflər olsun ki, onun bütün yaradıcılığını təqib etmək imkanımız yoxdur.

Əhməd Bican Ercilasun

kisi, 1979, mart, № 2.





BƏXTİYAR VAHABZADƏ

...Vahabzada şeirlərini əsasən heca, bəzən də əruzla yazır. O, klassik şeir ənənələrinə sadiq olduğuna görə bu günün şeirini dünəndən gələn ehsaslarla bəzəyən sənət anlayışına sahibdir. Onun fikrincə klassik ədəbi ənənələrlə bu günun sözünü demək lazımdır. Çünki ənənə ilə əlaqəsi olmayan şeirin xalq tərəfindən bəyənilmədiyi və bu şeirin torpaqdan doğmadığı qənaətindədir. Buna görə də klassik Azərbaycan şeirinə böyük hörmət bəsləyir. Vahabzadə klassik şeirin və xalq şeirinin, xüsusən Füzuli kimi böyük bir şairin cazibəsindən, sehrindən qurtarmadığını və qurtarmaq istəmədiyini bildirir.

Onun şeirlərində özünə xas dərin fikir və düşüncə ilə qarşılaşırıq. Şair həyati müşahidələrini, duyğularını və fikirlərini şeirin əsrarəngiz dilinə çevirməyi bacarır. Başqaları üçün, bəlkə də, şeir mövzusu olmayan mövzular, görüşlər və fikirlər onu şair nəfəsi ilə şeirə çevrilə bilir. Bir sözlə, o, şeirlə düşünən sənətkardır. Oxucusunu da qələmə aldığı mövzuda özü kimi düşünməyə vadar edə bilir.

Şairimiz şeiri insanın içində için-için yanan bir atəşə bənzədir. Onun fikrincə, əsrin nəbzi şeirin ahəngində vurmalıdır. Şeir oxucunu dərin-dərin düşündürməli, vətən və millət sevgisiylə dolub daşmalı, yumrüğa dönüb Vətənini, millətini və milli mənliyini inkar edən, yad düşüncə və həyat tərzini yamsılayan ədabazların, tüfeylilərin başını əzməlidir.

Yenə Vahabzadəyə görə şairin vücudu Vətən torparı, nəfəsi Xəzər dənizindən əsən ruzgar, qanı Kür, Araz çaylarıdır. Hər şey Vətənsiz

yaşaya bilər, amma şair vətənsiz, millətsiz yaşaya bilməz. Şairin ən böyuk vəzifəsi də vətəni sevməkdir. Şair haqq və həqiqət yolunda savaşan, cibi boş. qəlbi dolu bir insandır. Şair Vətən və millət əqidəsinin Məcnunudur.

...Vahabzadənin şeirlərində dil sevgisi də geniş yer tutur. O, ana dilinə «Vətən dili.» deyir. Öz dilini bəyənməyənlərə, onu ələ salanlara «Riyakar» adlı şeirində nifrətini dilə gətirir. Dil insanın anasından öyrəndiyi ən qiymətli sərvət, vətən və millət sevgisinin başlanğıcıdır. «Mənim anam» adlı şeirində savadsız anasının ona dil öyrətdiyini bildirərək yazır:

Bu dil ilə tapmışam,
Həm sevinci,
Həm də qəmi.
Bu dil ilə yaratmışam
Hər şeirimi,
Hər nəğməmi.
Yox, mən heçəm,
Mən yalanam.
Kitab-kitab sözlərimin
Müəllifi - mənim anam! -

deyir.

...Bəzi şeirlərində Vahabzadə məlum atalar sözləri və zərbi-məsəllərini yerinə və məqsədinə görə böyük ustalıqla dəyişdirir, ona yep-yeni bir məna verir Məsələn, «Təzadlar» poemasındakı «Dəblər» (modalar) parçasında modabazlığı, təqlidçiliyi və bunun faciəsini göstərirkən, görun, atalar sözlərindən və xalq deyimlərindən necə ustalıqla istifadə edir.

Mən bilmirəm özgənin
Qabağından qalanı
Axı, niyə gövşəyək?

Məgər yenilikmidir
Özünü bəyənməyib
Özgəni doğma tutmaq?
Geyib özgə çəkməsi
Yerişini unutmaq.


...Şairimizin ən çox bəhs etdiyi mövzulardan biri də ailədir. Ana, ata, baba, nənə, uşaqlar, nəvələr. Bunların biri-biri ilə münasibətləri. Keçmişdən ayrılmayan yaşlı adamlarla, bu günun gəncləri arasındakı çəkişmə, gəlin-qayınana davaları fəlsəfi baxışla qələmə alınır.


Ana və ana sevgisinə aid şeirlərin çoxluğu diqqəti cəlb edir. «Atılmışlar» adlı poemasında da bu mövzu müxtəlif yönlərdən qələmə alınmış, qüvvətli bir dramatizmlə işlənmişdir. «Atılmışlar» və «Muğam» poemaları Vahabzadənin ən uğurlu əsərlərindəndir.

Bu qüdrətli Azərbaycan şairi türk oxucuları üçün də əzizdir. O, Türkiyədə də sevilir və oxunur. Bu kitabla oxuculara şairimizi daha yaxından tanıma fürsəti verə bilsək, məqsədimizə çatmış olarıq.

Əli Yavuz Akpınar

B.Vahabzadə. Şeirlər. «Ötükən» nəşriyyatı, İstanbul, 1979.





BÖYÜK ARZULAR

«Payız» sözü sizə nəyi xatırladır? Bəlkə son baharı, balkə də heç bir şeyi. Heç bir şeyi xatırlatmırsa, bu kəlməni «son bahar» kimi anlamağımızdandır.

Həyata, təbiətə, insana, sevgiliyə, Vətənə, keçmişə, bu günə və gələcəyə bir başqa gözlə baxmaq yalnız son baharda mümkündür. Bu, insanın və millətlərin həqiqi varlıqlarını yaşatmaq, özündən sonra da davam etdirmək kimi təbii və haqlı ehtirasıdır. Kainatın bütün tutumu da bu deyilmidir? Ay dünyanın, bütün planetlər Günəşin ətrafında bunun üçün dolanmırmı? «Payız düşüncələri» eqoizmdən uzaq, «mən»in özünü göstərmə, qəbul etdirmə, davasız sevmə, sevilmə və özü özündə ərimə təşəbbüsü deyilmi? İnsanın kimliyi üçün ədəbiyyat arayışı, son baharda bizi bir başqa cür düşündürür.

Azərbaycan türklərinin olduqu qədər, müasir dünya türklərinin də böyük şeir ustası Bəxtiyar Vahabzadə «Payız düşüncələri» adı ilə çap etdirdiyi şeir kitabında insan oğlunu dünyanı başqa gözlə dərk etməyə çağırır. Zərgər dəqiqliyi ilə hörülmüş misraların arasında insan öz kimliyini və əbədiyyət sirrini axtarır. Şair Sabir Rüstəmxanlı deyir: «B.Vahabzadə bir şair kimi el-oba qarşısına üzüağ çıxmışdır və camaata pərdəsiz-filansız, pozasız, səmimi bir sevgi ilə müraciət etmişdir: yaradıcılığı xalqa ilahi bir inamla doludur və bu inam onun sənətkar taleyində başlıca rol oynamışdır. Yuxuda qışqıran adamlar kimi, heç kəs tərəfindən eşidilməyən. səsi heç bir əks-səda doğurmayan yazarlar

da var. Lakin B.Vahabzadənin səsinə həmişə səs veriblər. O, bir yox, bir neçə nəsil oxucunun vətəndaş kimi yoğrulub doğulmasında heç bir tərəzi ilə ölçülə bilməyən iş görüb. Ədəbiyyatımızdakı böyük xalq müəllimlərinin işini davam etdirib. Son onilliklərdə milli şüurun saflaşması və formalaşmasında, xalqın öz içində təzədən doğulmasında B.Vahabzadə yapadıcılığı əvəzsiz iş görüb. Məncə sənətkar üçün bundan böyük xoşbəxtlik ola bilməz».

Bu tərifə bizim əlavə edəcəyimiz bir neçə ünsür də var. Bu ünsürlər keçmiş, bu gün və gələçək üçbucağı içərisində sərgilənir. Vahabzadənin tərənnüm etdiyi insan bu üçbucaq içində həm öz mənəvi dünyasını hörmali, həm də mənəvi kimliyini tapmanın bəxtiyarlığı içində yaşamalıdır. Həyatın mənasını ölüm qorxusu yox etməməlidir, çünki ölum qorxusu insanı yüksəltməz. Həyatı bu qorxu ilə mənasızlaşdıranlara şairin cavabı belədir:

Ölümdən qorxmayan de kimdir, de kim?
Mənasız yaşamaq ondan qorxulu!

Vahabzada üçün ölüm qorxusu ilə yaşamaqdansa, mənalı həyatın qorxuları içində mücadilə edərək, iztirablara köks gərərək yaşamaq, insanın özünə doğru olan səadət dolu yürüşüdür. Amma bu yurüşün əzablarına dözmək yox böyük səbr və mətanət tələb edir. Bu səbr və mətanət Vahabzadənin təbliğ etdiyi insanda, vətəndaşda artıqlaması ilə vardır.

Vüqarlı bir çinar kimi dim-dik dayanan və kökü keçmişdə, özü gələcəkdə olan şairin güləş üzü onu uzaqdan seyr edənləri yanıldır. Belələri onu qəmsiz, dərdsiz bir insan sanır, amma aldandığını bilmir. Onu dərindən tanımayanlara şair belə deyir: «Sən hardan biləsən nə çəkirəm mən». Bəli, şairin son bahar düşüncələrinə əli çatmayanların sualına cavabı belədir. Onu anlamayanlara şair öz ömür yolunu bu misralarla anlatmağa çalışır:

Ömür yolum - içimdəki vuruşlarım,
Mübarizəm - tale ilə yarışlarım.
Qədərimin yazıları - alnımdakı qırışlarım.
Kaş onları pozan ola,
Təzəsini istəyimcə yazan ola.

Tutuşmuşam, çaxmaq yoxdur alışmağa,
Qaynayıram təpərim yox, nə coşmağa, nə daşmağa.
Ürəyimin sözlərini oba-oba danışmaqa
Dədə Qorqud timsalında ozan ola.
Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola.

Bəxtiyar Vahabzadənin ömür yolu yuxarıda dediyimiz kimi üçbucaq içindəki insanın üsyanlarını, təzadlarla dolu mübarizələrini, ürək çırpıntılarını, arxasınca getdiyi, amma çata bilmədiyi xəyalların yaratdığı taleyə küskünlüklərini bizə anladır.

B.Vahabzadənin ömür yolu, əslində, bizim hamımızın faciəsidir. Əgər aysberqdə olduğu kimi görünən deyil, görünməyəni görüb, ondakı gözəllikləri tuta bilsək, onun ehtişamını düşünüb dəyərləndirə bilsək və şair ucalığının idrakına çatmaqa çalışsaq, həqiqəti görə bilərik. Bu səbəbdən şairin ömür yolundakı insan və onun faciəsi misralarının dərinliyindədir. Hər kəs öz cövhərini bu dərinliklərdə arayıb tapmalıdır: Zira, dərinliklərdəki həyat sürəkli cərəyan içində, təzadların yaratdığı fırtınalı bir xaos yaşamaqdadır. İnsanın öz cövhərini bu xaos içində tapıb ortaya çıxarması, «mən buyam» deməsi asan bir iş deyil. Bunun üçün «ehtiyat» zirehinin arxasında saxlanmamaq lazımdır. Şairin bunlara səbri yoxdur. Əgər insanın könlü sükut və həyati konfortun verdiyi bir rahatlıq içində keçərsə, öz qəlbinin vurğularını eşitməz. Onda da dincliyini itirər, bu isə ölümə bərabərdir. Onun üçün insan ürəyində şimşəklər çaxmalı, fırtınalar qopmalıdır.

Tufansız ürəklər durğun göl kimi,

Suyu təzələnməz, dibi lillənər.
Narahat ürəklər daşqın sel kimi,
Hər daşın üstündə bir cür dillənər.

Bəxtiyar Vahabzadə dibi yosun bağlamış durğun suların sakit duruşundan narahatlıq duyur. O, insana «Həyat varmı?» sualını sorduracaq bütün durğunluqlara qarşıdır. Axı, zaman sürətlə axıb gedir və hər şey ona ayaq uydurma təlaşı içində insana «seyrçi qalmaq yaraşarmı?» - sualını verir. Bunun uçün də Vahabzadə bu mənasız durğunluğu üsyanla rədd edir:

İçindən oyulub qəlbim döyünsün,
Yarışa çağırsın daşqın selləri.
Təzə bir mahnıyla sel kimi hər gün
Oyatmaq istərəm yatmış çölləri.

- deyərək, həyatı necə yaşamaq istədiyini bizə başa salır. Şairin sevdiyi həyat, narahatlığın rahatlığı kimi tərif edilir. O, həyatın bu cəhətinə dəlicəsinə vurğundur:

Yaşamaq istəmirəm sürünüb dizin-dizin.
İstəyirəm ən uca zirvələrə mən qonam.
Xəfif sakitliyini, neyləyirəm dənizin,
Onun qasırğasına, dalğasına vurğunam.

Həyatın qasırğa və dalğaları içərisində yaşamaq arzusu əsl insan kimi yaşamaq deməkdir. Həyatın qasırğalalarında yaşamaq, həyat sevincidir.

Mən çıxmağa təpə yox, uca dağ istəyirəm.
Həyatı həyat kimi yaşamaq istəyirəm.

Bu, şairin həyat kredosudur.

Həyatı «ehtiyatla», qorxa-qorxa yaşayanlar haqqında isə belə deyir:

Ehtiyat güdənlər, asta gedənlər,
Heç sizi görmədim mənzil başında.
...Yolu gedə-gedə addım sayanlar,
Yolunuz yarıda niyə səhv olur?

Qorxaqlar üçün həyatın ideal mənası itirilmiş olur. Çunki onlar «ölü canlar»dır. Əsl həyat və yaşamaq haqqı cəsurlarındır. Çünki:

Cəsarət çətindir, ehtiyat asan.
Qorxudur alçaldan, vallah hər kəsi.
Cürətdən qorxmayaq, qorxaq qorxudan,
Qorxu itaətin dayaq nöqtəsi!


Ehtiyatdan, qorxudan uzaq, tufanlar içində yaşamaq istəyən şair, «Dağda şəlalə kimi» axan misraları ilə insan faciəsinin dərinliklərində saxlanılan inciləri bizə göstərməyə çalışır. Amma bu gözəllikləri görmək üçün insan özünün həqiqətlə təmasını kəsən divarları, çə-pərləri yıxmalıdır:


Tutmayaq çiçəyin, gülün yolunu;
Onların könlünü dağ-dağ etməyək.
Təbnət azaddır, gəlin biz onu
Hasarlar içində dustaq etməyək,
...O geniş, o sonsuz üfüqlər kimi
Böyüsün, ucalsın ürəklərimiz.
...Sökün çəpərləri, daş hasarları,
Gözlər uzaqlara zillənsin barı!

Bəli, «Payız düşüncələri» üstünə düşən «Böyük arzular» məni bu böyük faciəni daha bir kərə yaşamağa vadar etdi. İnsanın öz mənliyi - öz cövhəri ilə təması, kimliyi içində əriməsi bir qəribə duyğudur. Doğrusu, bunun izahı çətindir. Əslində, buna ehtiyac da yoxdur. Belə qalması bu sehrin, bu tilsimin ölümsüzlüyünü, faciənin bütünlüyünü mühafizə edər.

Dursun Yıldırım

«Milli kültür» dərgisi, çild 3, sayı 9, 1982.





Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, böyük şair Bəxtiyar Vahabzadədən bir şeir kitabı gəlib əlimə düşdü, adı «Muğam». Təsadüfən açdım və bu xaruqə qəzəllə qarşılaşdım. Öncə onu oxuyalım, sonra üzərində duralım:

Zülmətdə yanan, bərq vuran bir üzüyəm mən,
Könlümdə yatan bir kitabın ön sözüyəm mən.

Yox, açmamışam mən hələ öz könlümü aşkar,
Mən, mən deyiləm, bir ulu fikrin özüyəm mən.

Eşqim, muradım hər gözə, hər yerdə görünməz,
Qəlbimdə çatılmış ocağın tüstüsüyəm mən.

İçdin məni bağçanda gülüm, bilmədin ancaq.
Yüz-yüz bulağın dağdakı büllur gözüyəm mən.

Həsrətləri, zülmətləri fikrimdə əritdim,
Min-min gecənin gec açılan gündüzüyəm mən.

Bəxtim mənim öz yarıma yar olsa, nə dərdim,
Söylərdim o vaxt könlümün öz güzgüsüyəm mən.

Bizim müasir şairlər vəznə, qafiyəyə, ahəngə əhəmiyyət vermirlər,

amma şeir bütün dünya dillərində minillərdən bəri gəlmələrdən, səslərdən, səs tərkiblərindən istifadə edilərək yazılmışdır. İnsanların dilin ahənginə nəyə görə bu qədər dəyər və qiymət verməsi üzərində düşünmək lazımdır. Bunu yalnız ənənəyə kor-koranə bağlılıqda görmək səhvdir.

Axı, ənənə də bizə yabançı bir şey deyildir. Ənənə cəmiyyətin bel sütunudur. Ənənədən tamamilə üz döndərmək cəmiyyəti uçuruma aparar. Vəzn, qafiyə, alliterasiya və digər səs oyunlarının şeirə mənadan başqa, qaxud ona əlavə olaraq, bir gözəllik də gətirdiyinə heç şübhə yoxdur, ola da bilməz. Ustad şair vəzn və qafiyəyə söykənərək istədiyini deyə bilər. Piano və kaman böyük musiqiçilərə öz dühalarını ifadə etməkdə bir əngəl olmadığı kimi, vəzn və qafiyə də əsl şeirə heç vaxt əngəl ola bilməz. Əksinə, onu gözəlləşdirər.

Bəxtiqar Vahabzadə poeziyasında vəzn və qafiyədən çox ustalıqla istifadə olunur. Onun şeirini oxuyarkən, insan səs ahənginin necə ustalıqla dəyişdiyini hiss edir. B.Vahabzadə poeziyası şeirin məna və mündəricəsinə uyğun ucalıq duyğusu təlqin edən bir söz sehridir. Yəhya Kamalın dili qədər açıq və sadədir. Qafiyələr yeni-yeni və müstəqildir. Mən çox az şeirdə fikir və qafiyənin bu qədər çarpazlaşıb uyuşduğunu görmüşəm. Qafiyə şeirin vuran nəbzidir; misranın sonunda kəlməsi ona ayrı bir önəm və siqlət verir. Bəxtiyar Vahabzadənin poeziyasında fikirlər qafiyələrdə düyümlənir. Duyğular, fikirlər və xəyallar, adətən, qafiyəə-lərdən fışqırır.

Bütün şeirə «mən» rədifinin son səsi olan «n» hakimdir: yanan, vuran, vətən, kitabın, ün, fikrin, görün, ocağın, içdin, bilmədin... Şeir boyunca «n» səsinin cingiltisini eşidirik. Şeir fonetik baxımdan incələnərsə, ahəngi və musiqisini qüvvətləndirən «n» səsi başqa səs tərkiblərindən seçilir. Alain «şeir daha öncə içi doldurulmayan bir ritmə görə səslənir» demişdir. Həqiqətən, Bəxtiyar Vahabzadə bu şeirini yazarkən, ahəngi bir piano kimi işlətmiş, sözlərin səs tərkibini cilalamışdır.

Şeirin məzmununda və ehtiva dairəsində də ahəng kimi «mən» rədifi hakimdir. Bütün şeir şairin bir insan və bir şair kimi mənliyini, iç dünyasını ifadəetmə qayəsinə yönəlmişdir. Əski türk ədəbiyyatında,

ələlxüsus, təsəvvüf şeirində «mən» bəşəri yönləri ilə də daim gücünü ulu Tanrıdan alan bir insan, hətta onunla birləşən bir varlıq olaraq götürülür. Bu fikri Şeyx Qalib məşhur, «Tərcibənd»ində belə ifadə etmişdir:

Xoşca bax zatına kim, zübdeyi aləmsən sən,
Mərdümi-dideyi ekvan olan adəmsən sən.

Bəxtiyar Vahabzadənin bu şeiri təsəvvüfi olmaqdan ziyadə sosial bir məna və siqlət daşıyır. Fəqət

Mən, mən deyiləm, bir ulu fikrin özüyəm mən, - misrası ilə Yunus İmrənin:

Məni məndə demən, məndə degiləm,
Bir mən vardır məndə, məndən içəri.

beyti arasında bir bağlantı, bir doğmalıq duyulur. Məlumdur ki, vəhdətə tapınanlar da insanda iki «mən» olduğunu irəli sürürlər. Həqiqətən də, insanda adi, dünyəvi həyatın min bir şərtinə bağlı və ya əsir bir «mən» ilə yanaşı, ağıl, iradə, xəyal və ya ideal hədlərini aşmağa çalışan bir pünhan «mən» də vardır. Bu ikinci «mən» gizlidir. Hər kəsin qəlbinin dərinliyində saxlanır. O zahiri, xarici şərtlərin təsiri ilə və ya daha başqa səbəblərlə öz varlığını açıqca ortaya qoymaz, biruzə verməz.

Yox, açmamışam mən hələ öz könlümü aşkar, - misrası ilə Bəxtiyar Vahabzadə də eyni fikri söyləyir. Heç bir kəs özünü, öz mənliyini bütün çalarları ilə üzə çıxarmaz. Çiçəklərin açılması da çeşidli şərtlərə bağlıdır. Ancaq sevgi, dostluq, güvənc duyğusu könlümüzün pünhan sirlərini qismən biruzə verir:

Bəxtim mənim öz yarıma yar olsa, nə dərdim,
Söylərdim o vaxt, könlümün öz güzgüsüyəm mən. -

beqti bu baxımdan necə də mənalıdır... «Bəxtin öz yarına yar olması» ifadəsində bir fikir gizlənib: «iç mən zahiri mən»in və ya çevrənin qaranlıqlarıyla örtülü olduğundan o, yalnız yanıb-sönən parıltılı işarələrlə öz varlığını hərdən göstərə bilir. Şair bu ovqatını «zülmətdə yanan, bərq vuran bir üzüyə» bənzədir. Bu çox gözəl bir tapıntıdır. Türk nağıllarında üzük rəmzi, gizli bir gücü, iradəni ifadə etmirmi? (Biz burda şairin içində yaşadığı cəmiyyəti nəzərimizə gətirməsək, şeirlərindəki rəmzi işarələri anlaya bilmərik. Bu o cəmiyyətdir ki, şair ürəyindən keçənləri və onu ağrıdan dərdləri istədiyi kimi demək imkanından məhrumdur).

Birinci beytik ikinci misrasında insan ruhunun sirləri «könüldə yatan bir kitab»a bənzədilmişdir. Alman filosofu Yaspere insanın ucu-bucağı bilinməyən bir varlıq olduğunu söyləmiş və bunu «umqrenfende» adlandırmışdı. O, deyilən və yazılanı «könüldə yatan kitabın» qalnız «ön söz»ü hesab edir. Bir anlığa insanın və başlıca olaraq insanlığın zaman boyunca elədiklərini nəzərinizə gətirin. Zamanın və zaman boyunca yaradılan şeylərin sonu yoxdur. Hər gün yeni bir başlanğıcdır. Buna görə də sözü tükənməzdir.

Üçüncü beytdə ana fikir dəyişik bir şəkildə ifadə edilir. Azərbaycanda, Bakıda Bəxtiyar Vahabzadə adlı böyük bir türk şairi yaşayır. Türkiyədə neçə adam onun söylədiklərini və ya yazdıqlarını bilir, əsərlərini oxuyur? Şair daha başlanğıcda söylədiyi «zülmətdə yanan, bərq vuran bir üzük»dür. Onun şeirlərini oxuyanların gözlərində həmin üzük şöləsinin güclü, qüvvətli parıltısı keçər, sonra o, yenidən qaranlığa gömülər. Kim bilir, bu şairin içində necə əlvan duyğular və arzular yaşayır? Runu necə bilə bilərik? Biz onun içində yanan ocağın özünü deyil, yalnız «tüstüsünü» görə bilərik».

Dördüncü beytdə də gözəl bir xəyal və bu gözəl xəyal vasitəsi ilə ifadə olunan bir düşüncə vardır. Gül (buna insan, sevgili, millət də deyə bilərik) bağçada öz gözəlliyi ilə bitir və bizim nəzərimizi özünə cəlb edir. Onun nə ilə bəsləndiyi, gücünü haradan aldığı barədə heç düşünmürük. Ancaq gül də başqa varlıqlar kimi, gözə görünməz tellərlə başqa şeylərə bağlıdır. Gülü bəsləyən su uzaq dağlardakı qaynaqlardan, gözlərdən gəlir. Şair oxucusuna demək istəyir ki, sən məni öz isti yu-

vanda oxuyur, lakin oxuduqlarının (içdiyin suqun) hansı dağlardan qaynaqlandığını, yəni, mənim hansı dərdlərlə yaşadığımı bilmirsən.

İçdin məni bağçanda gülüm, bilmədin ancaq,
Yüz-yüz bulağın dağdakı billur gözüyəm mən.

Beşinci beytdə yenə xəyallar vasitəsi ilə dərin bir fikir təlqin edilir. Şair yaşadığı tənha gecələr içində bizim bilmədiyimiz həsrətlərə, iztirablara və zülmətlərə necə sinə gərdiyini bildirir və bir gün ürəyində, ruhunda yaşatdığı müjdəli sabaha yetişəcəyini gözləyir. Bu sabah minlərcə gecədən sonra doğacaqdır. Gec doğacaqdır, amma mütləq doğacaqdır. Min bir gecə onun içindəki duyğuları və özləmləri - həsrətləri yetkinləşdirmiş, genişləndirmiş, qarşısıalınmaz və dayanılmaz bir gül halına gətirmişdir.

Son beyt üzərində daha öncə durmuşdum. Buradakı «Güzgü» (ayna) sözünün ifadə etdiyi fikrə də diqqət yetirin. Ayna özünə baxan olursa, ona öz xəyalını əks etdirir. Sevən kəslər bir-birləri üçün ayna vəzifəsini yerinə yetirirlər. Sevən, qarşısındakına, özünü əks etdirən bir ayna kimi baxır.


Qövmlar, taqfalar və millətlərin də aralarında sevgi varsa, bir-biri üçün ayna vəzifəsini görə bilirlər.


Azərbaycan türkləri bizim doğma qardaşımızdır. Eyni soydan gəlirik və eyni dildə danışırıq. Anadolu ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatı bir-birinə əsrlər boyu qaynayıb qarışmışdır. Böyük şair Füzuli həm onların, həm bizim ədəbiyyatımızda ziyası sönməyən, əksilməyən bir günəşdir. Zəngin bir ənənəyə və mədəniyyətə sahib olan Azərbaycanda bu gün də böyük şairlər yetişir. Biz boynumuz çarpılmış kimi həmişə Qərbə baxırıq. Fransız, ingilis, alman, amerikan, rus və s... ədəbiyyatlarını izləyirik. Bəli, onları da oxuyaq, amma bir az da nəzərlərimizi öz doğma qardaşlarımızın ədəbiyyatlarına çevirək. Etiraf edim ki, bu məsələdə mən də başqaları qədər suçluyam. Çox şükürlər olsun ki, yeni nəsil bizdən daha çox ayıqdır. Ərzrumda bir Yavuz Akpınar təkbaşına «Qardaş ədəbiyyatlar» dərgisini çıxara bilir. Kabaklı-

nın «Ədəzbiyyat» dərgisində də qardaş ədəbiyyatlara böyük yer verilir. Bu əlaqələrin artması çox gərəklidir Zira üzərində dayandığımız qəzəl göstərir ki, onlar bizim kimi milli ənənələrindən imtina etməmişlər ona sədaqətləri əsasında, yeni və gözəl şeirlər vücuda gətirirlər. Mən elə sanıram və umuram ki, onların ədəbiyyatlarının «güzgüsü»nə baxaraq, öz dilimizə və ədəbiyyatımıza yeni bir çəki-düzən, qayda-qanun verə bilərik.

Mehmet Kaplan

«Türk ədəbiyyatı» dərgisi, yanvar, 1984, sayı 123.





Məşhur türk şairi Mehmet Əmin Yurdaqulun bir beyti mənə həmişə Bəxtiyar Vahabzadəni xatırladır:

Unutma ki, şairləri haykırmayan bir millət,
Sevənləri torpaq olmuş öksüz cocuq kimidir.

Bəxtiyar Vahabzadə fikir və sənət dünyamıza gəldiyi gündən bəri Azərbaycanın dərdlərini hayqıran soylu şairlərimizdən biri oldu.

28 may 1918-ci ildə böyük idealist Məmməd Əmin Rəsulzadə və onun məsləkdaşları müstəqil Azarbaycan Cümhuriyyətini qurduqları zaman Bəxtiyar Vahabzadə hələ doğulmamışdı. Onun elmi yaradıcılığı ilə yanaşı, sənətkar ruhu Azərbaycana aydın üfüqlər gətirdi. Azərbaycan türkləri onu həm millət vəkili, həm də Azərbaycanın xalq şairi olaraq, sənət öncülü kimi dövlət mükafatları ilə alqışladı.

Türk ədəbiyyatı üçün Mehmet Akif, Yəhya Kamal, Nəcib Fazil nə isə, Azərbaycan ədəbiyyatı üçün də Bəxtiyar Vahabzadə odur. Bu baxımdan, yeni Azərbaycan Cümhuriyyətinin yaranmasında onun hayqıran yaradıcılığının mühüm bir payı vardır.

B.Vahabzadənin bu günə qədər 10-dan artıq nəsr, publisist məqalələr və 40-dan çox şeir kitabı nəşr olunmuşdur. Bu əsərlər müxtəlif dünya dillərinə çevrilərək onun şöhrətini çox-çox uzaqlara yaymışdır. 7 milyonluq Azərbaycanda şeir kitabları 100 min tirajlarla çap olunan və bir ay ərzində satılıb qurtaran yeganə çağdaş şair Bəxtiyar Vahabzadədir.

Professor Bəxtiyar Vahabzadə Azərbaycan Cümhuriyyətinin ən qabaqcıl mütəfəkkir şairlərindən və elm adamlarından biridir. O,

Azərbaycanda olduğu kimi, Türkiyədə də sevilərək oxunan və araşdırılan güclü bir qələm sahibi kimi tanınır. Bu baxımdan çeşidli fikir və sənət jurnallarımız uzun illərdən bəri Bəxtiyar Vahabzadə imzasını zövqlə bağrına basır.

Bəxtiyar Vahabzadə bütün türk dünyasının ortaq səsi, sevən ürəyi, aydınlıq üzü və gözəllik cizgisi, rəmzidir!

Onun imzasını daşıyan qırxdan çox fikir və sənət əsəri çeşidli dünya dillərinə də tərcümə edilib. Bu əsərlərin yarıya yaxınının rusca, yarıya yaxınının da digər türk və Avropa dillərində yayılması Vahabzadənin elm və sənət dünyasındakı səviyyəsinə timsaldır, işarədir.

Eyni zamanda, bir dramnəvis olan şairimizin üç səhnə əsəri - «Haraya gedir bu dünya», «İkinci səs», «Fəryad» adlı dramları Azərbaycanda uzun zaman səhnədən düşməyərək, tamaşaçıların dərin yanğısını və rəğbətini qazanmışdır.

Bəxtiyar Vahabzadə bu tamaşalarla mənəvi dünyası inkar edilən, kökündən qoparılmaq istənən insanların dərdlərini ortaya qoyur. Hissiyyatımız qarşısına, ağlımız və vicdanımızın önəminə diqqət çəkir və bugünkü cəmiyyəti sarsıdan, yandırıb-yaxan fəlakətləri bir 14-cü əsr örtüsünə bürüyərək («Fəryad») pyesi gözlərimizin önündə canlandırır.

Beləliklə, Azərbaycanda cərəyan edən dəhşətli olayları bilənlər Vahabzadənin bu tamaşalarını ürəkdən alqışlamışlar.

Bu əsərləri sevərək oxuyacağınıza inanırıq.

Mən Bəxtiyar Vahabzadəni birinci dəfə Türkiyədə nəşr olunan şeirləri ilə tanıdım. İlk dəfə üz-üzə gəlməyimiz isə 1980-ci ildə Bakıda oldu. 1982-ci ildə Xəzər sahilində ikinci dəfə qucaqlaşdıq. Bu görüşdə xalqın B.Vahabzadəyə şahidi olduğum heyranlığını ömrüm boyu unutmayacağam. Xəzər sahilindəki park içində B.Vahabzadə ilə 10 metrlik məsafəni belə baş-başa gedə bilmədik. Xalq ona «müəllim» deyə müraciət edirdi: «Müəllim». Azərbaycan türkcəsində «xocam», «əfəndim», «möhtərəm», «böyüyüm» mənalarında işlədilir. Xəzər sahilində bir Xəzər coşğunluğu ilə gənclər Bəxtiyar Vahabzadəyə bəslədikləri məhəbbəti diləgətirmə garışına girişmişdilər. Hər 5-10 addımdan sonra, ətrafımıza yeni cavanlar toplaşırdı. Onların şairə olan

müraciətləri indi də qulaqlarımdadır:

- «Bəxtiyar müəllim, Sən bizim şərəfimizsən». - «Bəxtiyar müəllim, Sən bizim qürurumuzsan, canımızsan, qanımızsan».

- «Bəxtiyar müəllim, Sənin əsərlərini oxuduqca milli varlığımızın səbəbini daha yaxşı anlayırıq»...

- «Bəxtiyar müəllim. Səni min yaşa!»

Bir şairin öz millətinin könlündə belə taxt qurması nə qədər gözəldir!..

Bu böyük ülfət, bu böyük ünsiyyət B.Vahabzadənini öz milli mədəniyyət dəyərlərinə, kökünə sıx bağlı olmasından, zülmün qarşısında xalqın və haqqın səsi olmasından irəli gəlir.

B.Vahabzadə Azərbaycan türklərinnn fikir və sənət dünyasına bir işıq şəlaləsi kimi daxil olmuş və bu hal bu gün də davam etməkdədir.


Azərbagcan 30 avqust, 1991-ci ildə milli istiqlaliyyətini yenidən elan etdi. Bu tarix biz Anadolu türklərinin də ürəyincə deyilmi?


Azərbaycanın istiqlaliyyətini dünya dövlətləri içərisində ilk dəfə Türkiyə Cümhuriyyəti tanıdı. Bu isti münasibət, bu həssaslıq biz türkləri də sevindirmirmi?

Azərbaycan 1920-ci il əsarətindən 1991-ci il azadlığına asan yolla gəlmədi. Azərbaycan istiqlalının qazanılmasında Bəxtiyar Vahabzadə kimi mütəfəkkir şairlərin, yazıçıların müstəsna bir yeri var. Əgər Bəxtiyar Vahabzadələr Azərbaycan türklüyü üçün o əsarət illərində hayqırmasaydılar, Azərbaycan istiqlalı üçün şeirləri ilə, nəsrləri ilə, teatr əsərləri, dastanları, nağılları, hekayələri, romanları ilə... müəyyən bir zəmin hazırlamasaydılar Mehmet Əmin Yurdaqulun ifadəsi ilə desək,«sevənləri torpaq olmuş öksüz cocuqlardan» fərqli olmazdı.

Yavuz Büləndd Bakilər

18 noyabr, 1991 Ankara.





HƏYATI VƏ SƏNƏTİ HAQQINDA BİR NEÇƏ SÖZ

1925-ci ildə Azərbaycanın dilbər guşələrindən birində - Şəki şəhərində doğulmuş Bəxtiyar Vahabzadə, 1934-cü ildə ailəsilə birgə Bakıya köçdü. Orta təhsilini Bakıda aldı və sonradan Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində oxudu. Daha sonra təhsilini aspiranturada davam etdirdi, filologiya elmləri namizədi və doktoru oldu. Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü seçilən B.Vahabzadə oxuduğu universitetin həmin fakültəsinin professoru kimi indi də Azərbaycan ədəbiyyatından ixtisas fənni üzrə mühazirələr oxumaqda davam edir.

1944-cu ildən etibarən ilk şeirlərini respublika mətbuatında dərc etdirməyə başlayan B.Vahabzadə məşhur Azərbaycan şairi Səməd Vurğunun diqqətini cəlb etdi. Onun gənc şairə təşviq və tövsiyələri qısa zamanda bütün Azərbaycanda Bəxtiyar adlı qüdrətli bir şairin yetişəcəyindən xəbər verdi. Günlər bir-birini əvəz etdikcə, Bəxtiyar daha çox tanındı, ünü Azərbaycan hüdudlarını aşdı və şeirləri bir çox türk ləhcələrinə, ruscaya, fransızcaya, almancaya, farscaya və bir sıra başqa xarici dillərə tərcümə olundu, kitabları dünyanın kitabsevər oxucularının rəflərini bəzədi.

O, sadəcə şeirləri ilə deyil, dram əsərləri ilə, publisist yazıları, elmi araşdırmaları ilə, poeziya və incəsənətə dair dürlü aktual problemlərə toxunan sanballı məqalələri, monoqrafiyaları ilə də diqqəti çəkdi...

Bəxtiyar Vahabzadə poeziyasında o qədər başarılar, uğurlar var ki,

YUNESKO-nun bir araşdırmasına görə əsərləri çağdaş dünyamızda ən çox oxunan üç yazıçıdan biri olan ünlü qırğız romançısı Çingiz Aytmatov da onun şeirlərini hətta rusca çox heyranlıqla, sevə-sevə oxunduğunu söyləyir, «bu şeirlərdə zaman yaşayır», - deyə onun yaradıcılığını təqdir edir. Fəqət, Bəxtiyar Vahabzadənin şeirlərində yaşayan zaman, sadəcə olaraq zaman deyildir. Bəxtiyar şeirlərində şirin-şəkər dilimiz, pakdan-pak dinimiz, keçmişlərdən boy göstərən tariximiz, adət və ənənələrimiz, müdrik dünyagörüşümüz, qədim söz sənətimiz, bir sözlə, bizi özümüzə qaytaran, bizi yüzilliklərdən bəri yıxılmağa qoymayan, yox olmaqdan hifz edən, yatmış, uyquda olan başları qəflət yuxusundan oyadan mümtaz dəyərlər yaşayır.

O, «Allah» kəlməsinin dilə gətirilməsi gasaq olunan, insanı insan, milləti millət mərtəbəsinə yüksəldən dəyərləri bütünlüklə inkar edən qanlı diktatorluğun hökm sürdüyü bir ölkədə və dövrdə yetişmişdi. Lakin həmin şərtlər altında belə həqiqəti və gözəlliyi tərənnüm etməyi məharətlə bacara bildi. 1977-ci ildə İstanbulda olarkən sabahın yözü açılanda, yaxındakı məsciddən ucalan azan səsi onu yuxudan oyatmışdı. Böyük şair həmin dadlı səsə heyran olmuş, minarədən eşitdiyi, «Allahu-Əkbər» səsi onu bir sirli-soraqlı duyğu-düşüncə aləminə aparmışdı. Bütün bir gün bu səs onun qulaqlarında səslənmiş, o, bu səsin sehri ilə «Allahu-Əkbər» şeirini yazmışdır, bu müqəddəs sözün illər boyu ölkəsindəki pərəstişkarlarını haqq yoluna səsləmişdi:

Allaha yüksələn ulu bir yolun
İlkin pilləsidir Allahu-Əkbər.
Haqqı dananların üzünə dəymiş
Haqqın silləsidir Allahu-Əkbər.

Göylərin nidası yüksəlib yerdən
Daim xilas edər xeyiri şərdən.
Qüdrəti-Kamilin minarələrdən
Gələn nəğməsidir Allahu-Əkbər,


Məkana, zamana, dövrə o sultan
Odur həqiqətə qapılar açan.
Möminlik yolunda qəlbə nur saçan
İman şöləsidir Allahu-Əkbər.

Türk ədəbiyyatına dair elmi əsərlər, sanballı araşdırmalar müəllifi kimi tanınan professor, doktor Mehmet Kaplanın təbiri ilə desək, «B.Vahabzadənin poeziyası brilyant kimi bir şeirdir».


Bu şeirdə ahəng mükəmməl, qafiyələr yep-yeni, fikirlər orijinal, dil səhərin səba yeli qədər sehirli, dadlı, qəlbəyatımlı və füsunkar, məzmun və məna isə çox dərindir. Fəqət, Anadolu türkləri bu brilyant kimi şeirlərdən və brilyant kimi soydaşlarından illərcə məhrum qalmış, araya böyük divarlar - utanc divarları çəkilmiş, dəmir pərdələr gərilmişdir. Amma bunu heç bir zaman unutmamaq gərəkdir ki, zülmət qaranlıqlar əsla uzun sürməz. Dan yeri bir gün mütləq sökülməlidir. Dünyamız 21-ci əsrin yol-ayrıcındadır, qaranlıqlar yavaş-yavaş çəkilməyə, sökülən dan yerindən türk dünyası işıq selinə qərq olmağa başla-mışdır. Qədər-qismət də bu böyük millətin üzünə gülməyə başlamış, bəlkə də yüzillərcə islama xidmət etmələrinin mükafatı kimi onların önündəki bütün divarları qıxmış, onlara bir daha bir-birləriylə qucaqlaşmağa, iztirablara son qoymağa zəmin hazırlamışlar.

İndi Bəxtiyar Vahabzadənin əlinizdəki bu şeirlər kitabı («Gün var, min aya dəyər») həmin qucaqlaşmanın vəsilələrindən biri olacaq, «şairləri hayqıran bir millətin» illərlə, yüzilliklərlə əsarət altında yaşasa da, yox edilməyəcəyini və bu gün təkrar bütün həşmətilə öz tarixi missiyasına dönə biləcəyini xatırladacaq və sizə «Kitab var, min kitaba dəyər» dedirtdirəcəkdir.

Fatih Bağçıoğlu



n var, min aya dəyər»,
il» nəşriyyatı, İzmir 1992.



BƏXTİYAR VAHABZADƏNİN «HÖRÜMÇƏK TOR BAĞLADI» ŞEİRİ HAQQINDA

Şairlər yaşadıqları cəmiyyətlərin görən gözü, eşidən qulağıdır. Onlar zamanın nəbzini hamıdan tez tuta bilirlər. Adi insani sevinc və kədərdən tutmuş ən yüksək ideallara qədər hər şeyi onların hiss və fikir dünyasında tapmaq mümkündür. Onlar dərin müşahidələri ilə insanın ən zərif duyğularına, bəşər tarixinin dərinliklərinə nüfuz edib, oralarda heç kəsin görə bilmədiyi incilər kəşf edirlər. Bəxtiyar Vahabzadə mütəfəkkir bir sənət adamı kimi özünə və millətinə edilən zülmün danışdırdığı gur səsdir.

B.Vahabzadənin «Nil» nəşriyyatı tərəfindən buraxılan «Gün var, min aya dəyər» adlı kitabındakı «Hörümçək tor bağladı» şeiri içində yaşadığı cəmiyyətin faciələrinin, millətinin başına gətirilən müsibətlərin yüksək sənət dili ilə ifadəsidir. O, kiçik bir şeirdə böyük bir dövrun zülm panoramasını bir quşbaxışı romantizmi ilə deyil, gerçəkli obrazlarla gözümüz qarşısında canlandırmışdır. Şeirin hər bir misrası bir sancı, hər bir kəlməsi bir fəryadın təzahürüdür.

Bu şeir insan fikrini buxovlayan, hər cür azadlığa qənim kəsilən diktator rejiminə qarşı bir üsyandır. Bu şeir böyük bir millətin mədəniyyətini, tarixini, dilini məhv etməyə çalışan bir rejimin törətdiyi faciələri əks etdirir. Mən burada bu şeirin forma gözəlliklərindən daha çox, ortaya atdığı fikirlər üzərində dayanmaq istəyirəm. Heca-sərbəst vəznlə yazılmış bu şeir yalnız B.Vahabzadənin deyil, ümumtürk şeirinin ən gözəl, parlaq nümunələrindən biridir. Ancaq ondakı fikir tutumu

daha mühümdür. Çünki şairin içində yaşadığı cəmiyyətin hadisələri ilə bağlıdır. Bu şeirdə B.Vahabzadə Azərbaycanın 70 illik macəralarını anladır. Toxunduğu məsələ başdan-ayağa qədər «milli mədəniyyət dəyərlərimiz»dir. Bu da təsadüfi deyil ki, şair bu əsərində heç bir maddi sıxıntıya və maddi dəyərlərə toxunmur. Çünki millət maddi dünyası ilə millət deyil, mənəviyyatı ilə millətdir. Bir milləti məhkum etmək üçün onun mənəvi dəyərlərini, onun milli mədəniyyət abidələrini yox edirlər. Şairin qələmə aldığı 70 illik panorama budur.

B.Vahabzadəyə görə təxrib edilən mədəni dəyərlər bunlardır: 1. Tarix; 2. Dil; 3. Din (islamiyyət); 4. Həqiqət.

İndi şeirdəki sıralanmaya görə bunları təhlil edək.

Tariximiz danıldı.
Uydurma tarix ilə
Kimliyimiz anıldı.

Şair demək istəyir ki, bizi məhv etmək üçün, ilk növbədə tariximiz inkar olundu. Bununla da «öz kökünü bilməyən gözü küllü bir millət» meydana gətirildi. Bütün bunların nəticəsində «uydurma tarix» onları öz analarının qucağından alıb, yad ananın, yəni, qabançı ananın quçağına atdı. Beləliklə də, «özülümüz» yaxladı, yəni, kökümüzdən ayrıldıq. B.Vahabzadənin səbri tükənir və: «Şərəf bildik özkəyə qul olmağı», - deyib hayqırır. Bu yerdə yaltaqlıq və xəyanət meydan sulayır və cəsarət qılıncının qəbzəsində hörümçək tor bağlayır Demək, tarixi inkar və ya tarixi unutqanlıq insanda və ya cəmiyyətdə ən böyük fəlakətlərin baş verməsinə səbəb olur.

Şeirdəki ikinci məsələ, daha doğrusu, milləti millət edən ikinci amil o millətin dilidir. Axı, dil millət ola bilməyin mühüm şərtidir. Bunu aşağıdakı misralarda görürük:

Dilimiz yasaq oldu,
Ruhumuz qəlbimizdə
Əbədi dustaq oldu.

Dilin yasaq olması söz haqqının yasaq edilməsi demək deyilmi? Bəlkə də bütün azadlıqların ən önəmlisi budur. Çünki dilsiz nə tarixi öyrənə bilərik, nə də dinimizin əmrlərini. Buna görə də B.Vahabzadə dildən bəhs edərkən:

Biz beləcə yaşadıq,
Yaşamadıq, süründük.
Əməlimizdə deyil,
Sözümüzdə göründük, -

deyərək, bağrına vurulan dağlara dünyanın kar olduğunu, bu müsibətlərə biganə qaldığını deyib hayqırır. Bunun ardınca B.Vahabzadə dinin də yasaq edildiyini, buna görə də «məscid qapılarında hörümçəyin tor bağladığını» bildirməkdədir.

Tarixi, dili və dini yasaqlanan, eləcə də bu yasaqlanmaya məhəl qoymayan dünyanın ədalətinə necə inanasan? Bir insan üçün və bir millət üçün vaz keçilməsi mümkün olmayan bu üç haqq bəşəriyyətin gözü qarşısında qətlə yetirilirsə, buna necə susmaq olar?

B.Vahabzadə vicdanı olan hər kəsə üzünü tutur və həqiqətdən imdad istəyir. O, həqiqətin yalanla örtülmüş panoramasını gözümüz önündə sərgiləndirir.

Həqiqətin ustünə
Yalanlar kölgə saldı, -

desə də, yalanların həqiqəti heç vaxt örtə bilməyəcəyinə də inanır. Burada şairin ilhamı elə bir nöqtəyə çatır ki, yasaq edilmiş üç amildən daha dəhşətlisini dilə gətirir:

Savaşmadıq, barışdıq
Biz azadlıq adlanan
Bir uydurma nağılla.

Ölən düşüncələrə
Qəlbimiz yas saxladı.
Həqiqəti deməkdən
Elə qorxduq,
ağılla
Həqiqət arasında
Hörümçək tor bağladı.


Bu, şairin yuxarıda dediyi dəhşətlərin ən böyüyudur. Bir məmləkətdə ki, ağılla həqiqət arasında uçurum var, o cəmiyyət ölümə məhkumdur. Bu cəmiyyətdə insanların beyinlərini törpuləyir, onların insanlığını əllərindən alırlar. Bu şeir Sovetlər Birliyinin ən dəhşəqli illərində yazılmış, lakin şairin sandığında saxlanmışdır.


Məqaləmi şairin «Üçün» şeirindən gətirdiyim dörd misra ilə bitirmək istəyirəm:

Eşqinin göyləri kor isə, əzəldən yox isə
Neyləyim mən səni bir haqqa inandırmaq üçün.
Bəxtiyaram ki, Vətən eşqinə yandım, yanıram.
Hələ yatmışları qəflətdən oyandırmaq üçün.

M.Halistun Kukul

«Ortadoğu» dərgisi, 1993, 28 noyabr.





Bildiyiniz kimi, həm respublika, həm də İttifaq mətbuatında çağdaş poeziyanın yaradıcılıq məqalələrinə dair geniş və qızğın müzakirələr gedir. Həm şairlərimizin, həm də müasir şeirin nəzəri problemləri ilə məşğul olan ədəbiyyatçılarımızın diqqət mərkəzində başlıca bir məsələ durur: cəmiyyətimizin bugünkü inkişaf mərhələsində şeirimiz xalqın mənəvi-estetik tələblərinə necə cavab verir, əgər həqiqi mənada cavab verə bilmirsə, bunun səbəbini harada və nədə axtarmaq lazımdır? Zənnimcə, «Səməd Vurğunun yaradıcılıq yolu» monoqrafiyasını yazmış görkəmli şair və istedadlı filoloq Bəxtiyar Vahabzadəni bu ədəbi münaqişələrin fəal iştirakçılarından biri saymaq heç də yanlış olmazdı.

B.Vahabzadə, ədəbiyyat tariximizdə ən fəxri yerlərdən birini tutmuş Səməd Vurğunun zəngin ədəbi irsini tədqiq edərkən, onun bədii sənətinin dərin köklərini və qaynaqlarını araşdırarkən, müasir ədəbiyyatımızın xalq həyatı ilə... müasir ideyalarla necə bağlı olduğunu, nə kimi hallarda daha böyük nailiyyətlər qazandığını göstərməklə, təbii ki, bilavasitə bugünkü yaradıcılıq problemlərimizin həllinə yardım etmiş olur. Bu mənada Vahabzadənin əsəri aktual bir əsərdir və yəqin ki, müasir poeziyamızın, xüsusən Səməd Vurğun irsinin bütün dostları tərəfindən sevinclə qarşılanacaqdır. Bu, eyni zamanda, öz mahiyyəti etibarilə kəskin polemik bir əsərdir. Müəllifin tədqiqatçı ehtirası ədəbiyyatşünaslığı yalnız köhnəlmiş və saralıb-solmuş qədim əlyazmalarının tədqiqi üzərində qərar tutan bir elm-yəni arxiv elmi sayanların birtərəfli və məhdud təsəvvürlərinə qarşı yönəldilmişdir. B.Vahabzadə elə bil demək istəyir ki, həqiqi elm üçün tədqiqat materia-

lının mütləq köhnəlməyi, bizdən əsrlərcə uzaqlaşmağı və tamam «neytral» bir hala düşməyi heç də məcburi deyil. Mən də bu fikirdəyəm ki, həqiqi ədəbiyyat tarixçiliyi hətta ən qədim dövrlərdə belə daldalanmaq üçün sakit bir bucaq axtarmır.

Elə zənn etməyin ki, mən bu sözləri deməklə ədəbiyyat tarixçilərini və nəzəriyyəçilərini yalnız müasir ədəbiyyatla məşğul olmağa çağırmaq istəyirəm ki, belə olsaqdı, bundan bizə xeyir əvəzinə bolluca zitan dəyərdi. Bu meyl, öz dədə-babasına arxa çevirən, ədəbiyyat tarixinin yalnız onun adı ilə başlandığını güman eləyən məhdud və nadan adamlar üçün çox səciyyəvidir.

Səməd Vurğunun bu ziyanlı meylə qarşı necə inamla, həm də necə inadla ömrünün sonuna qədər vuruşduğu bizə məlumdur. O, milli klassik ədəbi irsimizin ənənələrinə həmişə böyük qürur hissi ilə yanaşmış, Nizamidən tutmuş Sabirə qədər Azərbaycan xalqının şeir dühası önündə ehtiramla baş əymişdir. Lakin bu ehtiram onun heç bir zaman cəsur bir novator kimi yazıb-yaratmağına mane olmamışdır! Səməd Vurğun, misilsiz bir istedad kimi Azərbaycan dilinin ecazkar qüdrətindən məharətlə istifadə edərək, şeirdəki novatorluğu yalnız forma «yeniliyində» görən ədəbaz «novatorların» xalqa zidd mahiyyətinə insanın və təbiətin gözəlliyindən qüvvət alan, xalq mənəviyyatının müdrik xəzinəsindən qidalanan, həmişə dəyişən və zənginləşən, ictimai varlığın ən dərin qatlarına nüfuz edən bir xalq poeziyasını qarşı qoymuşdur. Bu səbəbdən də Səməd Vurğun ətrafında bəzən mütəşəkkil və qərəzli, bəzən də, sadəcə olaraq, həsədli və çirkin şəkildə aparılan ədəbi münaqişələrdən onun qalib çıxmağı təbii və qanuni olmuşdur. S.Vurğun heç bir vaxt və heç bir yerdə yeni ədəbi məktəb yaratdığını iddia etməmiş, amma əsl həqiqətdə o, Azərbaycan şeirində yeni və qüdrətli bir məktəbin başçısı olmuşdur.

Səməd Vurğun poeziyasını gülşənə bənzətsək, bu gülşəndə Azərbaycan təbiətinin yetirə bildiyi bütün güllərdən-çiçəklərdən nümunə vardır, lakin bu güllərin, çiçəklərin hamısı onun, yəni, S.Vurğunun öz zövqünün, öz qayğı və zəhmətinin istəkli övladıdır. Bu o deməkdir ki, Vurğunun şeir sənətindəki zahiri əlamətləri əsas

götürüb onu ənənəvi bir şair sayanlar, onun novatorluğunu hər hansı şəkildə inkar edənlər tamamilə haqsızdırlar. «Novatorluq» məhfumunu zahiri-formal nişanələr yığımı kimi təsəvvür etmək özü, bədii sənətin ictimai-fəlsəfi məzmununu saxtalaşdırmaq və bədii sənətdə məzmunun istiqamətləndirici qüdrətini nəzərdən qaçırmaq deməkdir, ən ümdəsi də böyük metodoloji yanlışlığa yol vermək deməkdir. Səməd Vurğun kimi şairin zəngin ənənələrimizdən uzaqlaşmaq yolu ilə deyil, məhz bu ənənələri zənginləşdirmək yolu ilə getdiyini və bu səbəbdən də onun doğma xalqına və bu xalqın mədəniyyətinə qırılmaz tellərlə bağlı mütəfəkkir sənətkar kimi yüksəldiyini bir daha xatırlatmağa ehtiyac vardırmı?

B.Vahabzadənin monoqrafiyasında Səməd Vurğun yara-dıcılığının kökləri, məhz bu səbəbə görə, başqa bir zəmində yox, Azərbaycan xalqının klassik poeziyasının inkişafı prosesində axtarılır. Əlbəttə, bu, çox doğru prinsipdir. Eyni zamanda, müəllif, haqlı olaraq, Vurğunun milli çərçivələrdə məhdudlaşıb qalmadığını, poeziya üfüqlərini böyük bir istedad və bacarıqla fəth elədiyini də göstərir. Lakin burdaca deməliyəm ki, Bəxtiyar Vahabzadənin əsərində bu motiv kifayət qədər dərin və müfəssəl işlənməmişdir. Görünür ki, o, Səməd Vurğunun doğma xalqı ilə bağlılığını daha qabarıq göstərməyi lazım biləndə, bu ikinci, lakin heç də az mühüm olmayan cəhətə daha diqqətli nəzər salmağın nə dərəcədə zəruri olduğunu lazımınca dərk edə bilməmişdir. Əslinə baxsanız, Səməd Vurğun milli ənənələr çərçivəsində məhdudlaşmamağı da bizim xüsusən son iki əsrdə yaranmış demokratik ədəbiyyatımızın güclü təsirindən doğan bir haldır. Mirzə Fətəli Axundovun, Cəlil Məmmədquluzadənin, Haqverdiyevin və Sabirin mənsub olduğu ədəbiyyatı hər hansı milli məhdudluqda günahlandırmaq təşəbbüsü heç bir real əsası olmayan bir ittihamdır. Demək, bu cəhətdən də Səməd Vurğun ədəbiyyatımızın gözəl ənənələrinə sadiqdir. Yalnız bir fərqlə ki, onun bədii lövhələrində, dram əsərlərində, nəzəri məqalə və məruzələrində müasir Azərbaycan ədəbiyyatının humanizm, dostluq və qardaşlıq ideyalarını necə geniş bir miqyasda tərənnüm elədiyini bütün parlaqlığı ilə görmək mümkündür. Burada, şübhəsiz, Səməd Vurğun öz



sələflərindən çox irəli getmişdir. Burada onun novatorluğu böyük bir vüsət kəsb etmişdir...

Bəxtiyar Vahabzadənin monoqrafiyasında ən çox diqqətimizi çəkən bəhslər və fəsillər, doğrudan da, şair və alim istedadının üzvi vəhdətindən doğmuş və Səməd Vurğunun vətənpərvərliyinə həsr olunmuş fəsillərdir. Bunların monoqrafiyada xeyli yer tutduğunu nəzərə alsaq, B.Vahabzadənin əsərinə yüksək qiymət verməmək ədalətsizlik olardı. Həqiqi poeziya heç bir vaxt Vətən, dostluq va məhəbbət haqqında ümumi mühakimələrin, düzgün fikir və ideyaların çılpaq ifadəsi olaraq meydana çıxmır, müəyyən konkret və hissi bir şəkildə təzahür edir, şair bir rəssam kimi həyat və təbiət lövhələrinin canlı, ilhamlı və əzəmi dərəcədə mənalı rəsmini verir, bu lövhələrə öz ürəyinin bir parçasını qatmaqla şüurlara və qəlblərə təsir göstərir. Səməd Vurğunda kifayət qədər cilalanmamış ayrı-ayrı parçalar tapmaq mümkündür, lakin ürəkdən yazılmamış, boğazdan yuxarı deyilmiş bir şeir tapmaq mümkün deyildir. Bu mənada Səməd Vurğun müasirlərinin əksəriyyətindən öz sənətkarlıq səviyyəsi etibarı ilə çox fərqlənir.

Bəxtiyar Vahabzadənin əsərində, ümumiyyətlə, ədəbi tənqidimizin üslubu üçün yeni olan bir xüsusiyyət də vardır. Bu xüsusiyyət müəllifin ədəbi hadisələrə yalnız nəzəriyyəçi kimi deyil, həm də bir şair kimi yanaşmasından irəli gəlir, yəni, B.Vahabzadə Vurğun yaradıcılığına sosioloji qiymət verməklə kifayətlənməyib, onun şeirinin və dramaturkiyasının bədii sənətkarlıq məziyyətlərini də açıb göstərir, özü S.Vurğunun bədii surətlər aləminə daxil olmaqla bərabər, oxucuları da onun yaradıcılıq laboratoriyasına girməyə təşviq edir. Şairin elmi əsəri, eyni zamanda, hər növ quru akademizmdən uzaq, maraqlı və cazibədar bir kitab kimi oxunur.

«Səməd Vurğunun yaradıcılıq yolu» kitabında şəxsən mənim gördüyüm ən böyük nöqsan odur ki, Bəxtiyar Vahabzadə S.Vurğunun ədəbi mühitini demək olar ki, az işıqlandırmışdır. Mən bunun səbəbini göstərməkdə çətinlik çəkirəm. Çox mümkündür ki, o, əsərinin həcmini həddindən artıq böyütmək istəməmişdir, lakin ədəbi mühiti təsvir üçün müasir Azərbaycan ədəbiyyatı tarixinin oçerklərini verməyə ehtiyac

yox idi, bunun üçün bir və ya iki fəsil də kifayət idi, bu şərtlə ki, qısa və parlaq xülasələrdən ədəbi prosesin ümumi mənzərəsi aydın görünəydi.

Bəxtiyar Vahabzadənin ayrı-ayrı əsərlərə və ümumiyyətlə, Səməd Vurğun yaradıcılığına tənqidi yanaşmağı doğrudur, yəni o, ölməz sənətkarın ayrı-ayrı ciddi qüsurlarını bəzən hətta kəskin şəkildə deməkdən çəkinmirsə, buna müsbət bir hal kimi baxmaq lazımdır.


Soruşa bilərsiniz ki, əgər Səməd Vurğunun ayrı-ayrı qüsurları vaxtı ilə düzgün tənqid olunmuşsa, əlavə tənqidi qeydlərə nə ehtiqac var? Məncə var. Artıq o, məqalələlərin, kitabça və risalələrin yazıldığı dövrdən xeyli müddət keçmişdir. Vurğun yaradıcılığının zamanın imtahanından böyük müvəffəqiyyətlə çıxan nümunələri ilə yanaşı, köhnəlmiş və zəmanəmizlə səsləşə bilməyən nümunələri də vardır. Unutmaq lazım deyil ki Bəxtiyar Vahabzədədən əvvəl yazılmış ədəbi-tənqidi məqalələrdə müəllifin (qəni, Səməd Vurğunun) gələcək inkişafına kömək məqsədi də izlənilirdi. Həmin məqalələr bəzən bu və ya digər əsərdə o qədər də üzvi səciyyə daşımayan qüsurların düzəlməsinə müəyyən dərəcədə təkan verirdi. İndi isə vəziyyət başqadır. İndi müəllif bizim aramızda yoxdur və onun əsərlərində müəyyən təshihlər aparmaq mümkün deyildir. İndi onun haqqında söylənən ümumiləşdirici mülahizələr artıq xalq üçündür, gələcək ədəbi nəsil üçündür. Əgər bu baxımdan məsələyə yanaşılarsa, vaxtilə Səməd Vurğuna qarşı çevrilmiş qərəzli və ədalətsiz ittihamların «elmi əsaslarını» son dərəcə haqlı və inandırıcı rədd eləyən B.Vahabzadəyə bir şeyi də məsləhət görməliyik: Səməd Vurğunun ötəri və müvəqqəti motivlərə bəzən hədsiz dərəcədə uyduğunu, böyük tarixi zərurətdən doğmayan ayrı-ayrı parçalarını çapa verməyə tələsdiyini, müəyyən tarixi şəxsiyyətlərin rolunu həddindən artıq şişirtdiyini qeyd eləməkdən qorxmayın. Bu qüsurlar, Səməd Vurğunun nəhəng şəxsiyyətinin və zəngin yaradıcılığının siqlətinə xələl gətirə bilməz, geni ədəbi nəsil isə bu qüsurların hansı səbəblərdən irəli gəldiyini mütləq bilməlidir. «Komsomol poeması», «Vaqif», «Fərhad və Şirin»,... «Bəsti», «Zəncinin arzuları», «Aygün», «Azərbaycan», kimi əsərlərin və yüzlərcə lirik şeirin müəllifi onsuz da öz heykəlini tək Bakının Səməd Vurğun meydançasında deyil, bütün Azərbaycan xalqı-


nın qəlbində ucaltmışdır.

B.Vahabzadynin əsəri Səməd Vurğundan sonra gələn qüdrətli ədəbi nəslin nümayəndələrindən birinin böyük şairin xatirəsinə nə qədər ehtiramla yanaşdığını göstərən qiymətli elmi bir əsərdir.

Mehdi Hüseyn

«Ədəbiyyat və incəsənət», 1965, 30 yanvar.





Vahabzadənin əsərləri toplusunda orta əsrlər Azərbaycanında azadfikirliliyqə həsr olunmuş «Fəryad» tarixi faciəsi (s. 52-167) diqqəti cəlb edir.

1386-cı ildə Teymur yeni təriyəti təbliğ edən Fəzlullahı Şirvana sürgün etdi. Şirvan əmiri, Teymurun oğlu Miranşah mütəfəkkiri öz əlləri ilə öldürsə də, onun təlimi bütün İranda, Azərbaycanda, Türkiyədə və Suriyada yayılmaqda davam edirdi. Ərəbcə «hərf» sözünün cəmindən («hüruf») götürülən bu təriqət hürufilik adlanırdı. Belə ki, təriqətçilər ərəb əlifbasının hərflərinə mistik məna verirdilər.

Bəxtiyar Vahabzadə azad fikirli qəhrəmanlarını mütəfəkkir şair və şəhidlər, onların düşmənlərini isə doğma övladlarının belə üz döndərməyə hazır olduğu amansız, kütbeyin ehkamçılar kimi təsvir etməkdə haqlıdır. Onların davranışında xeyirxahlıq və mənəviyyat. qeyd-şərtsiz, qorxaqlıqdan və şəxsi mənafe güdmək cəhdindən daha güclüdür. Müəllif tarixi həqiqəti təhrif etməyib. Çünki qədim türklərə təmənnasızlıq, rəşadət və öz ideallarına sədaqət xas idi. Məhz bu keyfiyyətlər türklərə bəşəriyyət tarixində şərəfli yer tutmaqda kömək

---

* Azərbaycan EA Əlyazmalar İnstitutunun elmi əməkdaşı Akif Fərzəliyev B.Vahabzadənin 1988-ci ildə «Yazıçı» nəşriyyatında rus dilində çap olunmuş «Ləyaqət» («Dostoinstvo») kitabını elmi rəhbəri, məşhur türkoloq, görkəmli rus şairləri N.Qumilyov və A.Axmatovanın oğlu L.N.Qumilyova vermişdir. Alim bu kitabdakı Nəsimiyə həsr olunmuş «Fəryad» («Stenanie») pyesini oxumuş və bu barədə yazdığı rəyi A.Fərzəliyev vasitəsilə şairə göndərmişdir. Rəyin müəllif əlyazması şairin arxivində saxlanır.

etmişdir.


Müəllif təxəyyüllə tarixi-coğrafi dəqiqliyi birləşdirməyi bacarmışdır. Hürufi şair Nəsimi, həqiqətən, 1417-ci ildə Hələbdə qətlə yetirilib. Müəllif təxəyyülünə görə, onun iki müridi öz mürşidlərini xilas etməyə cəhd göstərir və vəliəhdin, alim qızının, hətta fitvanın icrasını yerinə yetirən zahidin oğlunun ciddi-cəhdlərinə baxmayaraq həlak olur. Müəyyən dolaşıqlığına baxmayaraq süjet xətti gözlənilməz sonluğa qədər oxucunu özünə cəlb edir. Orta əsr faciəsi müəllifin böyük uğurudur.


Nəsimi personaj kimi pyesdə birbaşa iştirak etməsə də, Nəsiminin üsyankar ruhu, onun məsləki hadisələrin gözə görünməyən iştirakçısına və qəhrəmanına çevrilir.

Yüksək səviyyəli dramatik təcəssümü ilə seçilən bu əsər B.Vahabzadənin böyük istedadını və sənətkarlığını təsdiq edir. Mənzum mətnin kifayət qədər peşəkarlıqla tərcümə edilməməsi istər-istəməz təəssüf doğurur. Ola bilsin, tərcüməçi Azərbaycan dilini yaxşı bilir, ancaq rus şeir sistemini mənimsəməyib, axı, belə əsər mükəmməl şeir ustalığı ilə tərcümə edilməyə layiqdir. Kitabda gedən poemalar, məsələn, «Bağışlayın, səhv olub» poeması bu cür nöqsanlardan xalidir.

Lev Qumilyov

16 mart, 1990.





Şair Bəxtiyar Vahabzadənin «Sadə adamlar» poemasında qoyulan əsas məqsəd şəhərlə kənd arasındakı mədəni əlaqəni göstərmək, kitabın insanların həyatında, inkişafında oynadığı böyük rolu sübut etmək, sadə və namuslu adamların zəhmətini tərənnüm, kəndimizə arxa çevirənləri, onu bəyənməyənləri ifşa etməkdən ibarətdir.

Poemanın əsas qəhrəmanı şairin məhəbbət və ilhamla təsvir etdiyi kitabxanaçı Ülkərdir. O, şəhərdən Çeşməli kəndinə kitabxanaçı təyin olunur. Ülkər həmişə şəhərdə yaşadığına görə «kənd yeri ona qəribə görünür». Həm də, vaxtilə tələbə yoldaşları ona kəndi çox pis, mədəniyyətsiz, geri qalmış bir yer kimi tanıtmışlar. İndi də kəndə çatmamış yağış başlamış, yollar palçıqla örtülmüş, bu şəhərli qızın qaloşu palçığa batmışdır. Ülkərin yarı canı şəhərdə qalmışdır.

Kənddən şəhərə oxumağa gedən Rizvan isə bu cəhətdən Ülkərin tamam əksinədir. Onu bir tərəfdən oxumaq arzusu şəhərə qanadlandırırsa, o biri tərəfdən kəndin gözəl, saf havasından, gəzdiyi yamaclardan, çəmənlərin otundan ayrılması kədərləndirir. Şair poemanın lap ilk səhifələrindən bizi Ülkərlə bərabər kəndin gözəl ətirli qoynuna daxil edir, yağışdan yuyulmuş kənd həyatını bizə sevdirir. Ülkərlə Rizvan bir-birinə ünvan verib ayrılırlar. Müəllif bundan sonra bütün qüvvəsini bu «şəhərli qızının» fikir və düşüncələrinin, xarakterinin açılmasına verir. Bu da çox yaxşıdır ki, Ülkərin mənəvi aləmi kənd həyatının, onun milli koloritinin canlı təsviri fondunda meydana çıxır. Şair kəndin gözəlliklərini konkret detallarda Ülkərə sevdirir: qızı görən kimi ürəyi oxlanan Rizvan dərhal «özünü bataqlığa atıb» onun yaloşunu çıxarır;

kəndə çatan kimi adamlar ayağa qalxıb bir-bir ona «xoş gəldin» deyir, evdən çölə çıxanda, qızın bir az tutulduğunu, sıxıldığını hiss edən Pəri nənə «sənə soyuq olar, qızım» deyib öz pencəyini onun çiyninə salır: Ülkər hara gedirsə, onu bu cür hörmət və məhəbbətlə qarşılayırlap. Onun fikirlərində tamam bir dəyişiklik əmələ gəlir

Nə tez bağlayırlar adamla ülfət?
Nə qədər gözəldir kənddə bu adət!

-degə Ülkər fikirləşir, «kənddə mədəniyyət, mərifət hanı» deyən adamlara nifrət edir. Ülkər belə bir nəticəyə gəlir ki, «mərifət, nəzakət olan yerdə kitab da, bilik də seviləcəkdir».

Şair Ülkərin psixolokiyasının, onun dünyagörüşünün tədriclə dəyişməsini, inkişafını kəndin sırf spesifik xüsusiyyətlərilə üzvü şəkildə daha gözəl açır, qələmə aldığı hər bir həyat lövhəsinə poetik məna verir, kənd axşamının həqiqi tablosunu çəkir.

Ülkər bütün bunları öz gözlərilə görəndən sonra dərk edir ki, doğrudan da «kitab bir aləmdir, həyat bir aləm». O, həyatın qədrini bilir, zəhmət adamlarını yüksək qiymətləndirir, ömründə bir dəfə də olsun yaradan, quran qabarlı əlləri sıxmadığı üçün özünü danlayır, onun dünyagörüşündə dəyişiklik əmələ gəlir. Ülkər «torpaqla vuruşan bu nəcib adamları» alqışlayır. Poemanın «Sevgi» bölməsinə qədər şair heç bir artıq sezə, əhvalata yol vermir, diqqətini yalnız Ülkərin xarakterinin açılmasına yönəldir. Burada hər şey gözəl və öz yerindədir. Ülkərin daxili keyfiyyətlərinin meydana çıxmasına xidmət edir və şair bunları üzvü şəkildə, çox bacarıqla bir-birilə bağlayır. Oxucu Ülkəri bir insan kimi sevir.

Lakin sonralar oxucu Ülkəri arabir kitabxanada, kolxoz sədrilə mübahisədə, oxucularla söhbətdə görür və əsərin sonuna yaxın Ülkər yaylağa ferma işçiləri üçün kitab, qəzet-jurnal aparır. Bu hadisələrin inkişafı fonunda şair, nədənsə, öz qəhrəmanı haqqında çox az bəhs edir. Xüsusilə onun sevgisi açılmır. Ülkər getdikcə bir kitab adamına çevrilir, yerli-yersiz kitabları tərifləməklə məşğul olur. Nəriman - Cəmilə,

Zöhrə - Nəriman xətlərinin əsərin əsas süjetinə daxil olması və bir sıra başqa köməkçi hadisələr Ülkəri bir qəhrəman kimi sıxışdırır, onun mənəvi aləminin bütün dolğunluğu ilə açılmasına imkan vermir.

Nəriman sadə, təmiz qəlbli bir kənd cavanıdır. O, mehtərdir və müəllimə Cəmiləni alovlu məhəbbətlə sevir. Cəmilə isə ona «məni sevməkdənsə, get atlarını sev» deyə çox nəzakətsiz cavab verir, Nərimanın peşəsinə lağ eyləyir. Nərimana elə gəlir ki, Cəmilə onun «hissi, könlü, eşqi, canıdır», onun bütün arzuları yalnız Cəmilə ilə bağlıdır. Sevgisində təhqir olunan Nərimanın bu zaman keçirdigi vəziyyəti şair çox gözəl təsvir edir.

Nərimanın fikir və həyəcanları getdikcə poemanın süjet xattində əsas yerə keçir, qol-qanad açır, şaxələnir. Əsərin əvvəlində görüşən və ayrılan Rizvanla Ülkərin baxışlarından oxunan məhəbbətin təsviri unudulur. Poemaya yeni bir köməkçi obraz - Zöhrə də daxil olur. Ülkər hadisələrdən xaricdə qalır. Nəriman - Cəmilə - Zöhrə xətti əsas obyektə çevrilir. Şair bir çox hallarda onları olduqca təbii və canlı danışdırır. Lakin bu təbii hal hər yanda eyni dərəcədə özünü göstərmir, şair bəzən obrazın danışmaq, gülmək, fikirləşmək hüququnu əlindən alır, bir növ, onların arzu və düşüncələrinin ifaçısına çevrilir. Bu zaman obraz qurulaşır, öz təbii vəziyyətindən uzaqlaşır. Bu hal Nərimanın öz sevgisi haqqında düşüncələrində daha qabarıq nəzərə çarpır. O, Cəmilənin kiçik bir tənqidindən sonra Nizaminin «Leyli və Məcnun» əsərini alıb oxuyur. Nəriman bir növ, «alimnümalıq» etməyə başlayır, öz hisslərilə mübarizəyə girişir, öz əvvəlki təbii gözəlliyindən uzaqlaşır, öz-özünə suallar yağdırır: mən nə üçun mənə nifrət edəni sevməliyəm? (Guya Cəmilə ona nifrət eləyir!) Məgər sevmək-sevilmək insanın iradəsindən asılı deyilmi? Məgər ürək iradədən üstündürmü? İnsan öz könlunü boğa bilməzmi? Zöhrəni mən nə üçün sevə bilməyim? Bütün bu suallarına Nəriman belə cavab verir:

Ürəyin qəribə aləmləri var,
Bir saat içində min dəmləri var.
Bizi sevməyəni sevirik, ancaq
Çox zaman edirik sevənə şıltaq.
Bizə xoş görünur hər şey uzaqdan,
Geydiyi paltarı bəyənmir insan.

Belədir, belədir insan dünyada
Uzaq olan zaman sevir hər şeyi.
Yaxın və asanlar xoş gəlmir bizə,
Uzaqdan duyuruq hər gözəlliyi,
Baharda çəkirik qış həsrətini,
Qışdasa xoş gəlir, yaz, bahar bizə.
Bu qədər füsunkar, gözəl görünür.
Uzaq olduğundan ulduzlar bizə.
(səh. 60)

Nəriman bu qərara gəlir ki, insan «cəfasız, zəhmətsiz qazanılanı» sevə bilmir. Mən də Zöhrəni ona görə sevə bilmirəm ki, «Sevir o məni təkcə. Mən onun önündə əyilmədikcə, - o, öz ürəyində ucaldır məni». Bu məntiqsiz və yanlış fikirlərdən sonra Nəriman belə bir söz oyuncağına başlaqır:

Mən ki, Cəmiləyəm Zöhrəyçin demək...
Mənimçin Zöhrəsə Nəriman olmuş.
Onu sevmədikcə mən Cəmilətək
Mənim tək onun da qəlbi qan olmuş.
(səh. 60-61)

Buradan belə bir məntiqsizlik alınır: mən Cəmiləni sevirəm, o isə məni sevmir, Zöhrə isə məni sevir, mən onu sevmirəm. Deməli, Cəmilə mənim üçün nədirsə, mən də Zöhrə üçün oyam.

Yaxşı ki, Nərimanın bu «alimliyi» çox davam etmir, şair onu öz əvvəlki təbii vəziyyətinə qaytarır və axıra qədər realist şəkildə təsvir edir.

B.Vahabzadənin bir sıra obrazlarının dəyişməsində bəzən kitab köməkçi bir vasitə deyil, həlledici vasitə rolunu oynayır. Doğrudur, müəllif kitabları bir bilik mənbəyi, həyat dərsliyi kimi alır, onları yüksək qiymətləndirir, sənətə, ədəbiyata adamda böyük maraq və məhəbbət oyadır. Elmin, mədəniyyətin inkişafında, insanların tərbiyəsində kitab-

ların nə qədər yüksək rol oynadığını poetik dillə oxucuya təlqin edir. Lakin obrazların çoxunun kitabla dəyişməsi, müəyyən bir əsər oxuyandan sonra düşüncələrə dalıb, bir növ, mənəvi təkmilləşmə prosesi keçirməsi poemanın bədii təsir qüvvəsinə xələl gətirmişdir. Nəriman öz sənətini bəyənmir, atçılıq haqqında mehtər Təyyarın əsərini oxuyandan sonra peşəsini ürəkdən sevir. O, Cəmiləni sevir, Nizaminin «Leyli və Məcnun»unu oxuyandan sonra özünü danlayır, onu sevən Zöhrə ilə həyat qurmaq fikrinə düşür. Surxay yarışda Zöhrəni keçərkən lovğalanır. S.Vurğunun «Muğan»ını oxuyandan sonra Sarvandan ibrət dərsi alır, özünü danlayır. Zöhrə «Yevgeni Onegin»i ikinci dəfə oxuyandan sonra, Tatyana kimi məğrur olmağı, dediyi sözün üstündə möhkəm durmağı özünə söz verir.

Bədii ədəbiyyatın insan həyatında oynadığı mühüm rolu heç kim inkar etmir. Ədəbiyyat tarixindən buna bir çox misallar gətirmək olar. Lakin Vahabzadənin bir sıra təsvirlərindən elə çıxır ki, insan taleyində həyatın özü yox, kitab həlledici rol oynayır. Əlbəttə, kitabın təsir qüvvəsini belə həyatdan üstün tutmaq olmaz. Bunu şairin özü də yaxşı bilir. Şair əsərini əsaslı şəkildə yenidən ciddi işləmişsə də, poemanın ilk variantında nəzərə çarpan bu nöqsanı aradan tamamilə qaldırmamışdır.

Bu cəhətdən Cəmilə obrazı daha çox dolğun, canlı və maraqlıdır. Bu obrazı şair yaxşı işləmiş və onun bütün hərəkətlərini əsaslandırmışdır. Cəmilənin fikir və düşüncələrini vermək üçün müəllif orijinal bədii bir forma seçir. Cəmilə güzgü qarşısında durub Bakıda dörd-beş il qabaq çəkdirdiyi şəkillə indi kənddəki vəziyyətini tutuşdurur və bütün həyat yolu gözləri önündən gəlib keçir. Nəticədə Cəmilə öz əməllərindən peşman olur, özünü danlayır. Poemanın sonunda biz onu kənd adamları ilə bir yerdə görürük. Oxucu inanır ki, o, həqiqi yola qayıtmışdır. Bu obrazın tərbiyəvi əhəmiyyəti böyükdür və şair də onu əvvəldən axıra qədər müvəffəqiyyətlə təsvir etmişdir.

Hadisələri bəzən tez qırmaq, bir məsələni hərtərəfli inkişaf etdirməmək, tez-tez ricətlərə çıxmaq da şair üçün nöqsandır. «Sadə adamlar»da elə bölmələr var ki, («Görüş», «Birinci gecə», «Güzgü qabağında düşüncələr» və s.), orada hadisələr olduqca təbii və ardıcıl inki-

şaf edir. Lakin bəzən müəllif təsvir etdiyi məsələni birdən yersiz olaraq qırıb, uzun-uzun haşiyəyə çıxır.

Bəxtiyar bir çox yerlərdə ricətlərə çox qaçır. Doğrudur, onun ricətləri bəzən mənalı və dolğundur Lakin bəzən ölçünü keçmək əsərə ziyan vurur, təsir qüvvəsini azaldır. Poemanın bir sıra yerlərində ayrı-ayrı sözlərin, ifadələrin, fikirlərin də təkrarına rast gəlmək olur. Məsələn, bir səhifədə «ürək» sözü görün necə təkrar edilir:

Ürəklər dolaşır ayaqlarına
Könüllər hər teldə bir hava çalır.
Ürəklər söyüdün altında qalır.
Qəlbinin başında ildırım çaxdı.
Bir göz neştərilə könlüm ovuldu.
Ov dalınca gedən könlüm, ov oldu.
Susan bir ürək də birdən dilləşir.
(səh. 8)
Yaxud:

Günəş opüb üfüqləri
Vidalaşır dünya ilə.

Bu iki poetik misradan sonra şair eyni fikri bu zəif beytdə belə təkrar edir.

Üfüqlərdən axıb keçir
Gün əriyib gilə-gilə.
(səh. 10)

Eyni fikri bu misralar haqqında da demək olar:


Bir çəpərin önündə
Zöhrə ayaq saxladı.
Kimsə onu haxladı


Bu çəpərin yanında.
Nə qədər oynamışlar
Bu çəpərin yanında.
(səh. 56 və s.)

Bu kimi nöqsanları gələcək nəşrlərdə düzəltmək olar və düzəldilməlidir. Çünki «Sadə adamlar» poeması Bəxtiyar Vahabzadənin yaradıcılığında və eləcə də son dövr poeziyamızda müvəffətiyyətli əsərlərdən biridir.

Qulu Xəlilov

«Ədəbiyyat və incəsənət», 1957, 13 yanvar.





«Bəxtiyar Vahabzadə sözün əsl mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır... O, həssas qələbə malik böyük imkanlar şairidir».B.Vahabzadənin rus dilində yenicə çapdan çıxmış «Düşüncələr» kitabçasına şairanə müqəddimə yazan Rəsul Rza öz gənc qələm yoldaşının poetik istedadına belə qiymət verir. Bu, yalnız öz xələfinin müvəffəqiyyəti ilə sevinən, saçlarına dən düşmüş görkəmli bir şairin etirafı deyildir. Bəxtiyarın şeirləri indi minlərlə Azərbaycan oxucusu tərəfindən təqdir edilir. Bəxtiyar Vahabzadə Azərbaycan şeirinin gənc, lakin orijinal nümayəndələrindən biridir.

«Düşüncələr» kitabçasında toplanan şeirlər şairin yaratdıqlarının az bir hissəsini təşkil etsə də, onun mövzuları, yazı üsulu, üslubu haqqında müəyyən təsəvvür oyadır. Oxucu çox asanlıqla təyin edir ki, müəllif kitabına boş yerə «Düşüncələr» adını qoymamışdır. Burada həyat haqqında, onun geniş və rəngarəng lövhələri haqqında şairin düşüncələri ifadə olunmuşdur. Şair üçün böyük, kiçik hadisə yoxdur. O, qələmə aldığı həp hadisəni, hər mövzunu dərindən duyur, onu məharətlə mənalandırıb oxucusuna çatdırır.

Bəxtiyar düşüncələr şairidir. Təqvimdən vərəq cırılır, illər, günlər bir-birini ötüb keçir, saat aramsız işləyir, saçlar ağarır, dəmiryolçu qarda, boranda öz qaşıl işıqlı fənəri ilə qatarlara yol göstərir və s. Onlarla belə, ilk baxışda çox adi görünən həyat hadisələri B.Vahabzadənin «Təqvimin vərəqləri». «Həyat», «Kəlmələr», «Dəmiryolçu», «İllər», «Saat», «Ay ağ saçlar, ağ saçlar» kimi şeirlərində mənalandırılmışdır.

Bu şeirləri oxuyandan sonra oxucu hər təqvim vərəqini qopararkən

öz əcdadının əzəmətli işlərini qəhrəmanlıq mübarizəsini xatırlamaya bilmir, namuslu insanın saçlarındakı ağ tellərin hər birində bir əmək qələbəsi görür, bütün ömrünü insanlığın xoşbəxtliyinə həsr edən, dəmiryolçu kimi kiçik vəzifələrdə çalışan əməkçi insanlara daha yüksək məhəbbət bəsləyir, ötən illərin, keçən saatların, hətta dəqiqələrin belə qədrini bilməyə can atır, vaxta qənaət edir.

Bu şeirlərdə şairin həyat hadisələrinə nikbin münasibəti dərhal oxucunun nəzərinə çarpır, həyata, əməyə, fəaliyyət göstərməqə çağırış həmin şeirlərin ümumi ideyasını təşkil edir. Bu çağırış ritorika ilə verilmir, hadisələrin, mövzunun özündən doğur.

Lakin nəzərə almaq lazımdır ki, təsvirlərdə həddindən artıq fəlsəfi ümumiləşdirmələrə meyl göstərmək - sənətdə realizmin zəifləməsinə təsir edir, onun bədiiliyinə mənfi təsir bağışlayır, mücərrədliyə, təkrara aparıb çıxarır. Şair bu cəhəti nəzərə almalıdır.

Bəxtiyarın şeirlərinin çoxunu həyəcansız oxumaq olmur. Çünki o, qələmə aldığı hadisəyə, mövzuya əsl şairlərə xas olan bir ehtirasla yanaşır. Onun üçün orta xətt yoxdur. Şairin məhəbbəti də, nifrəti də güclüdür. Şair özü yaxşı deyir:

Orta yolum yoxdur, dərindir mənim,
Bil ki, nifrətim də, məhəbbətim də.

Odur ki, oxucu şairin müsbət qəhrəmanlarına: saçlarına dən düşmüş əməkçilərə, qarda, boranda çalışan dəmiryolçuya, bütün həyatını Vətənə xidmətdə keçirən sənət adamlarına, balasına ana dilində laylay deyib «xalqın qüdrətini, dilini, ruhunu yaşadan» analara nə qədər dərin məhəbbət bəsləyirsə, həyata barmaqarası baxan, ancaq öz mənafeyini güdən qeyrətsizlərə, «öz əli ilə insanlar üçün bircə ağac da əkməyən» xudpəsəndlərə, milli mədəniyyətinə, ana dilinə xor baxan nihilistlərə bir o qədər nifrət edir. Bu cəhət Bəxtiyar lirikasının səciyyəvi keyfiyyətlərindən biridir.

«Düşüncələr» kitabçasına «Şahnaz» poeması da daxil edilmişdir. Bu poema Azərbaycan oxucularıma «İztirabın sonu» adı ilə məlumdur.


Öz sədaqətli arvadına xəyanət etmiş ərin daxili iztirabları, həyəcanları, onun yenidən ailəsinə qayıtması şair tərəfindən səmimiyyətlə qələmə alınmışdır. Bəxtiyar burada da insan qəlbinin dərinliklərinə nüfuz etmək, ən adi hissləri duya bilmək istedadına malik həssas bir şair olduğunu gstərə bilmişdir. Aydın görünü ki, poemada hər lövhə, hər sətir şair tərəfindən duyularaq yazılmışdır.


Bəzi təhriflərin olmasına baxmayaraq, tərcümələrin keyfiyyəti yaxşıdır. Bəzi hallarda tərcüməçilər ayrı-ayrı şeirlərin xeyrinə müvəffəqiyyətli dəyişikliklər də etmişlər.

B.Vahabzadə həqiqətən böyük imkanlar şairidir. Lakin böyük zəhmət və inadlı axtarışlar bu imkanların daha qiymətli sənət nümunələri yetirməsi üçün həqiqi zəmin yarada bilər.

Kamal Talıbzadə

«Kommunist» qəzeti 1959, 1 mart.





Ən gözəl, ən təmiz duyğudur şeir,
Şairin yazdığı hər söz, hər sətir,
Gərək ürəyinin bir teli olsun,
Yaşamaq yazmaqdan irəli olsun.

Şair Bəxtiyar Vaahbzadənin şeirə, sənətə dair baxışını ifadə edən bu misralardakı tələb, onun yaradıcılığında öz bədii əksini tapmasaydı, güman ki, biz həmin bəndi misal çəkməzdik. Yaşamaq yazmaqdan irəli olmalıdır, yəni, poetik ideya şairin bağrında yaranmalı, onun ruhunda - qanında bəslənməli, yalnız bundan sonra kağız üzərinə köçürülməlidir. Doğrudan da, B.Vahabzadənin əsərlərinin ən yaxşı nümunələri uzun müddət onun ürəyini alovlandırmış, coşdurmuş dərin və təmiz hisslərin, böyük fikirlərin məhsuludur. Poetik hissin dərinliyi cəhətdən B.Vahabzadə Azərbaycan poeziyasında nümunəvi şairlərdən biridir. Şeirimizdə Bəxtiyarın ən böyük xidmətlərindən biri budur ki, o, fikir və məna poeziyası yaratmaq uğrunda mübarizə aparır və əksərən istəyinə nail olur.

B.Vahabzadənin bu yaxınlarda «Şairin kitabxanası» seriyasından Azərnəşr tərəfindən buraxılmış kitabı bunu bir daha təsdiq edir.

Əsl şeir nəyi isə kur səslə təsdiq və tərənnüm edən, nəyi isə rədd edib damğalayan şeirdir. Yalnız ictimai-siyasi mövzuda deyil, həmçinin təbiətə, gözəlliyə, məhəbbətə dair yazılmış şeirlərin ən yaxşı nümunələrində belə bir məzmun, bədii dinamika və hərəkət vardır. Bu cür şeirlərdə lirpk qəhrəmanın obyektə öz baxışı, öz qəti rəyi

olur. «Dağda şəlalə kimi» şeirində xarakter və dünyagörüşcə bir-birinə tamamilə zidd olan iki surət vardır. Bunlardan biri «azacıq aşım, ağrımaz başım» deyən, «bu dünyada birtəhər baş girləmək» fəlsəfəsi ilə yaşayan, rahat və orta bir yol tutub, nə hə, nə də yox deməyə cəsarət edən qorxaq, meşşan, ikiüzlü adamları təmsil edir. İkinci surət isə, həyatın eniş-yoxuş yollarında cəsarətlə irəliləyən, ümmanları çalxalayıb inci axtaran, «ağlasan, hönkür ağla, gülsən, qəhqəhə çək gül» - deyə, həm böyük sevincə, həm də dərin kədərə malik lirik qəhrəmanın surətidir.

Qoy döqsün yaqış məni, boran məni,
qar məni,
Həyatın boranları daim yaşadar məni.
...Çağlamaq istəyirəm dağda şəlala kimi,
Səpilmək istəyirəm çöllərə lalə kimi.
Bir rəngi yox, göylərin min rəngini
sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı, həyat kimi yaşamaq istəyirəm!

B.Vahabzadənin poeziyasının ən yaxşı nümunələrində fəlsəfi zənginlik vardır. Onun «Təklik», «Kağızlar», «Qara saçlar, ağ saçlar», «Ömrün payızı», «Tələsirəm mən», «Həyat, sən nə şirinsən» və s. şeirləri, habelə «Sadə adamlar» və «İztirabın sonu» poemalarındakı bir sıra parçalar fəlsəfi şeirin gözəl nümunələridir. Fərdiyyətçiliyə qarşı yazılmış «Təklik» şeirində tək bircə bəndə nəzər salaq:

Yarpağı tez solar tək ağacın da,
Daldası yoxdursa, necə solmasın?
Meşələr sultanı, meşələr şahı
Aslanın özü də yalqız olmasın!

Bu şeir başdan-başa humanizm duyğuları ilə doludur. B.Vahabzadənin bu qəbildən olan şeirləri adamı düşünməyə, insanpərvər olmağa,

mərdliyə və mübarizəyə çağırır. Belə şeirləri oxuduqca ürəyimizdə pak və alovlu duyğular qaynayıb daşır.

«Səqahət dəftərindən» başlığı altında toplanmış şeirlər onun Avropa və Asiya ölkələrini gəzərkən ürəyində baş qaldıran bədii təəssüratın məhsuludur. «Ələddinin çırağı», «Özünə yalvarsana», «Təsbeh», «Baba - gur-gur», «Rafaelin qəbri önündə», «Açıq şəhər» şeirləri dərin məna və gözəl poetik hisslərlə doludur. Bunlarda yalnız Asiya xalqlarının azadlıq eşqi, imperializmə, müstəmləkəçiliyə nifrəti, feodalizmin acı nəticələrinə qarşı hiddəti deyil, həm də şairin oyanmış Şərqə münasibəti ifadə olunmuşdur.

Bir neçə kəlmə də kitabdakı «İztirabın sonu» poeması haqqında. «İztirabın sonu» psixoloji poemadir. Əsərin əsas qəhrəmanları olan gənc bəstəkar hatəmin, onun ömür-gün dostu gözəl Şahnazın daxili aləmini, fikir və düşüncələrini, mənəvi təkamül və sarsıntılarını şair poetik ustalıqla açıb göstərə bilmişdir. Ailənin dayağı - böyük məhəbbət, təmiz hisslər, qayğı, mehribanlıq və həssaslıqdır. Bu mühüm fikirlər bütün əsər boyu qızıl bir xətt kimi keçib gedir. Şahnazın zahiri gözəlliyinə bənd olub, onunla ailə quran, sonra istədiyi mənəvi gözəlliklərdən bəzisini onda görməyən hatəm bir müddət sarsılır. Şahnazın kifayət qədər həssas olmaması; sənəti başa düşməməsi onu soyudur. Hatəm gənc şairə Gülpəriyə meyl edir. O, qadın üçün zəruri sifətləri bu qızın simasında görür.

B.Vahabzadə hadisələri təbii yolla inknşaf etdirir, konfliktin dərinləşməsi sayəsində surətlərin mənəvi aləmi açılır. Poemanın ən güclü parçalarından biri Şahnazın ana olmasını təsvir edən yerlərdir. Ana məhəbbəti, ana duyğusu - Şahnazın ürəyində sanki yeni və qüvvətli bir işıq yandırır, onu mənəvi ucaldır və gözəlləşdirir. Onun öz körpəsinə bəslədiyi məhəbbət, Hatəmə bəslədiyi məhəbbətlə qaynayıb-qarışır. Şahnazda həssaslıq, qayğıkeşlik qüvvətlənir.

Təzə ana olmuş, ey cavan gəlin,
Canından ayrılan canın mübarək.
Çırpınır, ömründə hiss etmədiyin

Təzə hisslərlə sinəndə ürək.
Cavanca yaşında sən ana oldun.
Ey ana, bu təzə adın mübarək.
Nə tez dolanmağa başladı qəlbin
Körpənin başına bir pərvanə tək.

Körpə Sədaqət ailənin iki qütbü arasındakı körpünü daha da möhkəmləndirir. «İztirabın sonu» ailədə həssaslığı, bir-birini başa düşməyi, pak məhəbbəti təbliğ edən bir əsərdir. Poemadakı ricətlər xüsusilə qüvvətlidir. Bu ricətlərin arxasında sənət və həyat haqqında ağıllı və dərin mühakimələr yürüdən, bütün varlığı ilə milli mədəniyyətə bağlı olan geniş ürəkli, təmiz mənəviyyatlı bir lirik qəhrəman dayanır. B.Vahabzadənin poemalarından danışarkən, belə bir xüsusiyəti onun nəzərinə çatdırmağı vacib bilirik: o yerdə ki, Vahabzadə tərənnüm edir, vəsf edir, həmin yerdə qələmi çox güclüdür, bədii zərbələri sərrastdır. Tərənnümdən təsvirə keçdikdə isə (bu, poema janrında çox zəruridir) onun qələmi öz bədii kəsərini azaldır, dili nahamar və kələ-kötür təsir bağışlayır. Elə bu yaxınlarda «Azərbaycan» jurnalında dərc olunmuş «Etiraf» poemasının epiloqunda şairin etirafa dair bədii mühakimələri (11-lik vəznlə yazılmış parça) Vahabzadəyə məxsus fəlsəfi zənginliklə doludur. Bilavasitə konkret insanın, qəbr üstündən qayıdan həkimin düşüncələrini təsvir edəndə isə onun qələmi zəifləyir. nöqsandan uzaqlaşmaq üçün yalnız bircə yol var: poema hadisə deyil, hadisənin poeziyasını göstərmək, həm də ən qısa yolla getməyi bacarmaq, yəni, həyatdakı hadisələrin hamısını deyil, yalnız poeziya üçün yararlı ola biləcək momentləri göstərmək! Əhvalatı, sadəcə, nəzmə çəkmək, sxematik hadisəçilik poema janrının qəddar düşmənidir.

Bəxtiyar hadisə və predmetlərin bədii mənasını açmağı bacarır... «Sadə adamlar» poemasındakı Pəri xala surətini xatırlayaq. Pəri xala kənd məktəbində zəngçalandır. Müəllifin bu zəhmət adamına həsr etdiyi misraların sayı heç də çox deyildir. Lakin cəsarətlə demək olar ki, onun timsalında öz balaca vəzifəsini böyük məhəbbətlə sevən, ürəyi təmiz və nəcib arzularla döyünən mehriban bir ananın unudulmaz bədii

surəti yaradılmışdır.

O bilir, çaldığı zəngin səsində
Elm ilə insanın ülfəti vardır.
Yüzlərlə qönçənin yetişməsində
Onun da azacıq xidməti vardır...
O zəngi tez çalsa üçcə dəqiqə
Şakird bir misalı həll edə bilməz,
İl boyu yığılan bu dəqiqələr
Başqa bir gün ilə əvəz edilməz.

B.Vahabzadənin yaradıcılığındakı bəzn qüsurlar onun nailiyyətləri üzərinə kölgə salır. Bəxtiyarın fikir və hissləri çox vaxt dərin və yüksək olsa da, bunlar bəzən obrazın öz təbiətindən, öz şüur və qəlbindən doğmadığı üçün havadan asılı qalır, surətin dilində qeyri-təbii səslənir. Qüvvətli və realist bir poema olan «Sadə adamlar» əsərində bu qüsur müəyyən dərəcədə hiss olunur. Əvvəlcə öz sənətini sevməyən Nəriman mehtərlik haqqında bir kitabı oxuduqdan sonra «dərhal dəyişir» və Ülkərə belə deyir:

Qoy vəzifə mənə şan gətirməsin,
Namuslu əməklə keçsin günlərim.
Mənə vəzifələr zinət verməsin,
Mən öz vəzifəmə qoy zinət verim.

Nərimanın dilində bu fikirlər süni səsləndiyi halda, şairin öz dilində təbii və mənalıdır:

Vəzifə insana şan-şöhrət deyil
İnsan vəzifəyə şöhrət olmalı!

Vahabzadəyə bəzən dilinin səliqəsizliyini irad tuturlar. Bu bir həqiqətdir ki, ilhamla yazılmış əsərlərdə müəllifin dili də gözəl olur. İl-

hamsız yazılmış, şairin ürəyini alovlandırmamış əsərin dili isə, müəllifin bütün ciddi-cəhdlərinə baxmayaraq, süni və qüsurlu çıxır.


Sərhədlərdə dikələn
cansız, taxta dirəklər
Səd çəksə də torpağa
göyə, havaya, suya,
Səd çəkə bilmir ançaq
Qəlbə, hissə, duyğuya.


Yaxşı fikir ifadə edən bu parça yığcamlıq, bədii vurğu və dəqiqlik cəhətdən qüsurludur. Cümlə həddindən artıq həmcins üzvlərlə yüklənmişdir: torpağa, göyə, havaya, suya, qəlbə, hissə, duqyğuya. Bunlardan çoxu eyni mənanı ifadə edən yaxın məfhumlardır.

B.Vahabzadənin şeir və poemalarının ən yaxşı nümunələri öz xalqının tarixi mövqeyini dərindən dərk etmiş ayıq gözlü, cəsarətli, vətəndaş şair qəlzmindən çıxmışdır. B.Vahabzadə sənətin yoxuşları ilə irəliləyən bir sənətkardır. Bu yolda onun hər bir qələbəsi həm də Azərbaycan şeirinin qələbələrindəndir.

Xəlil Rza Ulutürk

«Azərbaycan gəncləri», 1962, 6 may.





...MININ
TÖLÇÜSÜYÜQ»

Düşünən və düşündürən şair... Yəqin ki, bu sözləri yalnız həqiqi şair haqqında demək olar. Bizim günlərdə bu ifadəni cəsarətlə Bəxtigar Vahabzadəyə aid etmək mümkündür.

Yaxşıdır ki, poeziyamızda üslubu, dili, ifadə tərzi bir-birindən seçilən şairlərimiz az deyildir. həmin rəngarəng mühitdə B.Vahabzadə bənzərsizliyi, özünəməxsusluğu ilə fərqlənir.

Qırx ildir ki, ömrünü ədəbiyyata bağlamış B.Vahabzadə şeir aləminə atıldığı ilk günlərdən diqqəti cəlb etmiş, oxucuları özünə çəkmişdir. O vaxtdan keçən illər ərzində şairin poetik istedadı püxtələşmiş, poeziyasının bədii nüfuzu, təsir qüvvəsi daim artmışdır.

Bəxtiyarın doğrudan da geniş oxucu kütləsi tərəfindən sevildiyini heç kəs inkar edə bilməz. Onunla görüşlər, disputlar canlı təmasda keçir, şairlə oxucu arasında dərhal qarşılıqlı anlaşma yaranır.

Ancaq iş elə gətirmişdi ki, Azərbaycanda şöhrətli bir şair kimi tanınan B.Vahabzadənin şeirləri xeyli müddət respublikadan kənarda lazımi qiymətini ala bilmirdi. Bu, əlbəttə, ilk növbədə tərcümələrin keyfiyyəti ilə bağlı idi. Sonradan hər şey qaydasına düşdü. B.Vahabzadənin şeirləri rus dilində kamil şəkildə səsləndirildi, tərcümələrdə şairin fikir aləmi ilə yanaşı, onun üslub xususiyyətləri də, əsasən, mühafizə edilib saxlandı. Nəticədə, B.Vahabzadənin poeziyası böyük bir auditoriyanı fəth etmiş oldu.

B.Vahabzadənin hazırda SSRİ Dövlət mükafatına təqdim edilmiş seçilmiş nümunələrinin tərcüməçiləri arasında Q.Yevtuşenko

və R.Kazakova, A.Kuşner, Y.Morits, N.Qrebnev, Y.Kuznetsov, A.Axundova, İ.Şklyarevski, A.Peredreyev, Vl.Qafarov ,Vl.Sıbin və M.Vəkilov kimi şairləri görürük. «Bir gəminin yolçusuyuq» («Mı na odnom korable») adlandırılmış kitaba (müqəddimənin müəllifi Y.İsayevdir) şairin müxtəlif illərdə və mövzularda yazdığı müxtəlif ruhlu lirik şeirləri, «Leninlə söhbət» (fraqment), «Qiymət», «Atılmışlar», «Qəm içində sevinc» poemaları salınmışdır. Şairin bir sənətkar kimi inkişaf dinamikasını göstərən bu kitab oxucuda B.Vahabzadənin poeziyası haqqında aydın və dolğun təsəvvür yaradır, onun çağdaş şeirdə sanballı bir mövqe tutduğunu təsdiqləyir. Görkəmli yazıçı Ç.Aytmatov kitabı oxuduqdan sonra yazmışdır: «Bəxtiyar Vahabzadənin yaradıcılığı... hal-hazırda milli poetik fikrin ən yaxşı nailiyyətlərindən biridir».

B.Vahabzadə məhsuldar və çoxşaxəli şairdir. Onun maraq dairəsi genişdir, əhatəlidir. Şairi bu günlə bərabər, tarixi keçmiş də yaxından maraqlandırır Lakin Bəxtiyar müasirlik duyğusu qüvvətli, aparıcı olan şairlərdəndir O, öz Vətənini, xalqını, ana dilini, dərin məhəbbətlə sevir, eyni zamanda başqa xalqların tarixinə, mədəniyyətinə, dilinə böyük ehtiramla yanaşır.

Dünyada baş verən hər şey üçün cavabdehlik, bəşəriyyətin taleyi üçün narahatçılıq, vətəndaşlıq və məsuliyyət hissləri Bəxtiyar şeirini səciyyələndirən başlıca cəhətlərdir. O, çox şeydən yazır, əsrimizin, dövrümüzün mürəkkəb keşməkeşlərini əks etdirməyə çalışır. İnsan, onun mənəvi aləmi, onun məziyyət və nöqsanları, psixologiyasının, qəlb çırpıntılarının sonsuz çalarları, həyatın mənası, əzəldən indiyədək açılmaz bir sirr olan və dünya durduqca sirr olaraq qalacaq, sevgi hissinin yaranması və sönməsi... - bütün bunlar şairi düşündürür, həyəcanlandırır.

Lakin şair bunları sadəcə təsvir etsə, əsərləri heç bir estetik dəyərə malik olmaz. Şair oxucu qəlbinin elə bir incə telinə toxunmalıdır ki, onu arxasınca apara bilsin, onu özünə həmsöhbət edə bilsin. Oxucu şairin hisslərinin səmimiliyinə və həqiqiliyinə inanmalıdır. Yalnız belə olduqda o, sənətkarı duyur, sənətkarla həmdəm olur. Bəxtiyar ilə oxucu arasında belə bir anlaşma yaranmışdır, çünki tanınmış şair Y.Yevtuşenkonun dediyi kimi, «o, suyun səthində üzmür - insan hisslərinin dərin qatlarına

enir».

B.Vahabzadənin lirikasında xüsusi bir aydınlıq vardır. O, başqasının qəm-qüssəsini və narahatlığını özününkü kimi qəbul edir, hətta yüz illər bundan əvzəl baş vermiş ədalətsizliyi də şəxsi dərdi kimi yaşayır, ürəkdən kədərlənir. Bunlar isə onun həm insan, həm də şair kimi həssaslığından irəli gəlir:

Dünyaya gələli bilmirəm, nədən,
Nəyə vurulduqsa, yandırdı bizi.

Şair sanki özünün hər bir kövrək xatirəsini, dərd-sərini, hər bir şübhə və tərəddüdünü oxucu ilə bölüşür:

Mən oddan qorxmadım yanana qədər.
Mən qorxu bilmədim qanana qədər.

Bəxtiyar düşündürən şairdir. Onun öz fəlsəfəsi, öz etik prinsipləri vardır...

Bəxtiyar vətəndaş şairdir, həyatda rastlaşdığı nöqsan və eyiblərə qarşı amansızdır, onu həm təbiətin korlanması, həm də xırda hisslər, qalan, haqsızlıq, riyakarlıq qəzəbləndirir.

Şair tələsiklikdə keçən ömrümüzə, çox zaman məişət qayğıları içərisində itib-batan gözəllik hissimizə dərindən təəssüf edir:

Yazı gözləyirəm, istəyirəm ki,
Bahardan doyunca həzz alım, olmur.
Qayğılar dalğatək aşır başımdan,
Gülə baxmağa da macalım olmur.

Xarici səfərlərdən aldığı təəssüratlar da B.Vahabzadə lirikasında öz maraqlı əksini tapmışdır. Bu şeirlərdə o, öz iti müşahidə qabiliyyəti ilə sosial təzadları həssaslıqla sezmiş, eyni zamanda möhtəşəm mədəniyyət abidələrindən və görkəmli sənətkarlardan heyranlıqla söhbət açmışdır.

Quran-yaradan xalqın şücaəti, əmək hünəri, böyük ideallar uğrunda mübarizə aparan şəxsiyyətlər B.Vahabzadənin həm şair, həm vətəndaş kimi diqqətini xüsusi cəlb etmişdir...

B.Vahabzadənin ifadə tərzi aydındır, lakin bəsit deyildir. Burada danışıq dilinin sadəliyi əsrlər boyu cilalanmış ədəbi dilimizin yüksəkliqi ilə sanki qovuşmuşdur.

Bəxtiyar həm lirik, həm də epik şairdir. Lakin mahiyyət etibarilə ona lirik şair desək, səhv etmərik. Çünki yalnız şeirlərində deyil, iri həcmli əsərlərində də hadisələrə, münayişələrə fərdi münasibət açıq duyulur, şair onlara kənar adam kimi yanaşmır, öz hiss-həqəcanları ilə süjetə müdaxilə edir.


Şair özünü qüdrətli ədəbiyyatımızın ən yaxşı ənənələrinin davamçısı adlandırır. Bu, doğrudan belədir. Lakin eyni zamanda deməliyik ki, indi onun özündən də öyrənirlər, həm də təkcə respublikamızda yox. Tanınmış şairə R.Kazımova yazır ki, «Vahabzadənin şeirlərini tərcümə edərkən mən ondan çox şey öyrənirdim».


«Bir gəminin yolçusuyuq» kitabı aydın şəkildə göstərir ki, B.Vahabzadənin yaradıcılığı yetkinlik dövrünə çatmışdır. Şairi yeni zirvələr gözləyir. O, özü bu barədə yaxşı demişdir:

Yaşanmış yüz illik ömürdən, gündən,
Hələ yaşanmamış bir an gözəldir.

Araz Dadaşzadə

«Kommunist» qəzeti, 1984, 29 sentyabr.





SƏSİ

Mənəvi-əxlaqi təmizlik B.Vahabzadənin bədii yaradıcılığının mayasını təşkil edir. Şeirlərində olduğu kimi, «Vicdan», «Yağışdan sonra», «İkinci səs», «Yollara iz düşür» pyeslərində də B.Vahabzadə insan mənəviyyatında gedən nsixoloji mübarizələri əməl və vicdan kontekstində həll etməyə çalışmışdır.

B.Vahabzadənin yeni quruluşda tamaşaya qoyulan «Kimdir haqlı?» («İkinci səs») pyesi də belə bir müəllif istəyindən, dramaturq məqsədindən, şairin publisist-vətəndaş mövqeyindən doğmuşdur. Dramaturq ailə-məişət mövzusuna müraciət edərək, muasirlərimizi düşündürən psixoloji həyat problemlərini bir ailənin taleyindən keçən ömur xətlərində cəmləşdirmiş, təsirli və ibrətamiz səhnə materialına çevirmişdir.

Poeziya və dramaturgiyanın qırılmaz təmasından, qarşılıqlı və heç şubhəsiz ki, ədəbiyyatımızın hər iki janrı üçün əlverişli əlaqəsindən yaranmış «Kimdir haqlı?» pyesinin səhnə həlli məsuliyyət və professnonal bacarıq tələb edir. Quruluşçu rejissor Lütfi Məmmədbəyov tamaşanı psixoloji janrda həll etmiş, əsas ideyanı lirik munasibətlərdə izləmişdir. Belə bir janr təyini tamaşanın poetik hüsnünü artırmış, publisist-dramaturq mövqeyini, onun amalını bədii şəkildə muəyyənləşdirmişdir.

L.Məmmədbəyov dramaturqla birlikdə pyesin yeni variantını yaratmışdır. Onlar ikinci Rəşad, ikinci Arzu obrazlarını hadisələrin inkişaf xəttindən çıxarmışlar və bütün psixoloji ağırlığı əsas obraz-

lara vermişlər. Bununla da dramatizm güclənmiş, personajların əməl-fəaliyyət xətti konkretləşmişdir. Belə səhnə yozumu ifaçı aktyorların potensial yaradıcılıq imkanlarını açmaq üçün də əlverişlidir.

Tamaşanın ritmi elə qurulmuşdur ki, qəhrəmanlar yavaş-yavaş, qarşısıalınmaz zəruriliklə kulminasiya zirvəsinə-ictimai rəy və vicdan səsinin mühakimə anına yaxınlaşırlar. Bu ana qədər xarakterlərdən hər biri öz dərdi, öz nisbi haqqı və həssaslığı ilə ömür sürür, tarazlığını pozduqları başqa talelər haqqında oir o qədər də düşünmür.

«Kimdir haqlı?» tamaşasının müvəffəqiyyətli alınmasını təmin edən əsas amillərdən biri də aktyor oyunudur. Xarakterlərin psixologiyasında gedən mübarizə lirik və tragik çalarların bir-birini əvəz etməsi zə tamamlaması, toxunulan problemlərin müasirliyi və doğmalığı aktyorlara bacarıqlarını üzə çıxarmaq üçün geniş imkan verir. Qeyd etmək lazımdır ki, tamaşa üçün ümumən uğurlu, xarakterlərin ruhuna uyğun aktyor heyəti seçilmişdir.

Öz qadın mənəviyyatının gözəlliyini, səbir və dözümünü ailəyə, onun rahatlığına sərf edən həyat, ürəyindəki ağır yükü hiss edir, içəridən qovrulur, lakin əri Rəşadın soyuqqanlığının səbəbini dərindən öyrənməyə can atmır. Bunun səbəbini başqa qadına olan məhəbbətdə görür, özünu heç bir şeydə təqsirləndirmir.

Səfurə İbrahimovanın ifa etdiyi həyat obrazı salondakı tamaşaçıların fikir və hiss aləminə müdaxilə edir. Aktrisanın emosional, səmimi oyunu inandırıcılığı, təbiiliyi və psixoloji dolğunluğu ilə tamaşaçını obrazın daxili təlatümlərinin həyatiliyinə inandırır. Aktrisa obrazın daxilində gedən təbəddülatların, psixoloji dəyişmələrin mahiyyətini hərəkətində, danışığında, sifət ifadələrinin mənalılığında göstərməyə nail olur. Xüsusilə, Rəşadın sevdiyi qadının kim olduğunu biləndə həyatın sinəsindən od-alov kimi püskürən qadınlıq izzəti-nəfsi və bu izzəti-nəfsin ağrısından süzülən göz yaşları Səfurə İbrahimovanın oyununun rəmzinə çevrilir.

Arzu obrazının mənəvi aləmində gedən haçalaşma, başqasının

həyatı, xoşbəxtliyi qarşısında məsuliyyətin dərki və bu məsuliyyətin yalnız özünün şəxsi faciəsi hesabına icra olunmasının mümkünlüyündən doğan psixoloji sarsıntılar aktrisa Vəfa Fətullayevanın ifasında canlı çıxmışdır. Arzu - V.Fətullayeva daha çox müdrik, ağıllı, odlu ürəklə sevən, təmiz mənəviyyatlı qadın obrazı yaradır. Rolun ikinci ifaçısı Zemfira Nərimanova isə emosional hisslərə üstünlük verir, qadın qəlbinin saflığını, məhəbbətinin böyüklüyünü lirik boyalarla bəzəyir.

Rəfael Dadaşov (Fikrət), Hamlet Qurbanov (Şükur bəy) və Sevil Xəlilova (Mələhət) obrazların mənəvi dünyasının xarakterik cizgilərinə uyğun oyun üslubu seçə bilmişlər. Fiziki cəhətdən olduqca sağlam, daxilən isə puç, mənəviyyatsız, şəxsi karyerası üçün hər kəsi alçaldan vicdan qarşısında məsuliyyət hiss etməyən Zeynəb obrazı Zərnigar Atakişiyevanın səhnə təfsirində olduqca həyati, yaddaqalan və inandırıcıdır. Sevil Abbasovanın (İradə) oyunu da öz təbiiliyi ilə diqqəti cəlb edir.


Həm pyesin özündə, həm də onun səhnə təcəssümündə əsas gərginlik və psixoloji yük Rəşad obrazının çiyninə düşür. Bir qandan obrazın daxili aləmində gedən çarpışmanın mürəkkəbliyi, dəyişkənliyi, o biri yandan da tərəfmüqabillərin emosional, dolğun oyunu Əliabbas Qədirovdan ikiqat psixoloji güc, dinamika və «özgələşmə» bacarığı tələb edir. Onu da qeyd edək ki, Ə.Qədirovda bu potensial imkanlar vardır. Lakin onun oyunu birplanlı təsir bağışlayır. Aktyor ansamblının yaratdığı ümumi psixoloji atmosferdə Rəşad (Ə.Qədirov) nisbətən yad görünür. Şübhə yoxdur ki, Ə.Qədirov get-gedə tamaşanın ümumi ruhuna, ritminə, psixoloji tələbinə uyğun oyun üslubu tapacaq, lirik-emosional duyğuların qabarıqlığına üstünlük verəcəkdir.


«Kimdir haqlı?» tamaşasında adları çəkilən obrazlardan başqa bir surət də var. Bu, həm pyesdəki iştirakçılar, həm də tamaşaçılar üçün mənəvi saflıq ölçüsü, həyat idealı, səadət və istəklərin tənzimləyicisi olan vicdandır. Vicdan kateqoriyası bu tamaşada hər şəxsin ictimai məsuliyyəti, başqalarının taleyinə yana bilmək qabiliyyəti, bəzən

özgələrinin xoşbəxtliyi naminə öz səadətindən əl çəkə bilmək qüdrətidir. Tamaşanın finalı - təskinliyini qızı İradənin varlığında tapan Rəşadın son qərarı vicdan səsinin əbədiliyini, onun sərt və amansız, lakin müqəddəs olduğunu bir daha təsdiq edir. hadisələrin son akkordu kimi səslənən vicdanın - ikinci səsin qələbəsi «Kimdir haqlı?» tamaşasının əsas ideya istiqamətinin təntənəsinə çevrilir.

Aydın Məmmədov

«Kommunist» qəzeti, 1982, 27 yanvar.





Bəxtiyar Vahabzadə güclü yaradıcılıq ehtirasına, qüvvətli təfəkkürə sahib, dərin xalq məhəbbəti qazanmış şairlərimizdəndir. Bir çox ictimai-siyasi, fəlsəfi şeirləri, poemaları onun həqiqi vətəndaş şair kimi rəğbət qazanmasına səbəb olmuşdur.

Kamillik, bütövlük, yüksək ideyalılıq, zəmanəmizin ictimai-siyasi mənzərəsini bacarıqla əks etdirmək B.Vahabzadə yaradıcılığının cövhərini təşkil edir. Bütünlukdə, şairin əsərləri doğma xalqa bağlılığın, müasirliyin ən yaxşı nümunələrindəndir. Bu keyfiyyətləri onun yaxın günlərdə Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulan «Fəryad» pyesində də görmək olar.

Əlbəttə, «Fəryad» B.Vahabzadənin ilk dram əsəri deyildir. O, bu əsərə qədər «İkinci səs», «Yağışdan sonra», «Yollara iz düşür» kimi pyeslər yazmışdır. Lakin bizə görə, B.Vahabzadə bir dramaturq kimi heç bir pyesində «Fəryad»dakı qədər yetkin, bitkin və dərin görünməmişdir.

Hadisələr çox-çox uzaq bir dövrdən-xalqımızın böyük və mütəfəkkir sənətkarı, üsyankar və qəhrəman şeir Nəsimi əsrində cərəyan edir. Nəsimi bizim bədii, ictimai-siyasi və fəlsəfi fikrimizin cəsarəti, qüdrəti, hünəri deməkdir. Nəsimi fikir və ağıl qəhrəmanıdır, rəşadət və igidlik rəmzidir, hər cür rəzalətin, ətalətin, riyakarlığın, yalanın, nadanlığın üstünə şax yeriyən həqiqət səsidir.

Fikir və şəxsiyyət azadlığı ideyası dramın mərkəzinə qoyulmuş problemdir. Buradakı «Fəryad» ifadəsi geniş və çoxşaxəlidir. Bu, hüquqsuzluğa, ədalətsizliyə, ictimai bərabərsizliyə məruz qalan, əzilən, haqqı tapdanan insanların fəryadıdır. Həmin fəryadın səsi bizdən çox-

çox uzaq əsrlərin qaranlıq daş zindanlarından eşidildiyi kimi, müasir dövrümüzün, insan hüquqlarını tapdayan, kiçik xalqları, millətləri öz pəncəsində əzən imperialist və müstəmləkəçi cəlladların qulaqlarına da gedib çatır. Ona görə də əsər müasir səslənir. Dramaturq nəsimiçiliyin ideya-fəlsəfi dərinliyini və genişliyini vermək üçün Nəsiminin özünü hədəf götürmür, daha artıq onun ideyaları, amalları uğrunda şəhid gedən adamların qəhrəmanlığını, fədakarlığını diqqət mərkəzinə çəkir.

Tarixi şəxsiyət olan Həllaci Musanın başçılığı ilə insanın azadlığı, mənəvi təkamülü və inkişafı uğrunda aparılan bu üsyankar müqaviməti qırmaq üçün bütün saray və din xadimləri ayağa qalxırlar. Nəsimini və nəsimiçiləri məhv etmək üçün hər cür cəza tədbirləri düşünülür, dar ağacları qurulur, həbsxanalar, soyuq zindanlar yaradılır. Bütün bunlar insani oyanışı, düşünən, həqiqəti dərk edən şüurları məhv etmək məqsədi güdür. Pulla, casusla, satqınlıqla, fitnə-fəsadla, sui-qəsdlə təmiz, ayıq, üsyankar adamları tora salır, ələ gətirirlər. «Yalan gerçək kimi ayaq açıb yeriyir», «Haqqın tüstüdən gözü yaşarır». Ehkamçılıq, fikirsizlik, insan idrakını, ağlını söndürmək təbliğ olunur. Dramaturq bu kimi mənfi hallara qarşı insanın insana inamını, onun məğlubedilməzliyini, qüdrətini-bütün sirləri, Kainatı dərk etmək bacarığını qoyur. Dramaturq xalqın içərisindən qopub gələn inadkar, üsyankar səsi, - «Allahu-Əkbər»i «insanu-əkbər»lə əvəz edib əsərin leytmotivinə çevirir.

«Fəryad» fəlsəfi dramdır. Burada dramatik kolliziya ən çox insanın daxilində, düşüncələrində, mühakimələrində gedir. İştirak edən müsbət surətlər saray çirkabına qarşı çox qüvvətli bir sədd yaradırlar. Onların arxasında duranlar həqiqət aşiqləridir. Bütün bu dediklərimiz həm dramaturq əməyindən, həm rejissor Hüseynağa Atakişiyevin səriştəli quruluşundan, həm də yaxşı seçilmiş aktyor ansamblının istedadlı oyunundan. Aldığımız təəssüratdır. H.Atakişiyevin quruluşu sadə və sadə olduğu qədər də ifadəlidir. O, müəllif fikrini, nəzmlə yazılmış əsərin hər misrasını, hər gəlişi, mizanı, nidanı təmkinlə açmış, təhlil etmiş, işləmişdir. Bu səbəbdən də son dərəcə bitkin bir tamaşa alınmışdır. Rejissor quruluşunun davamı, əks-sədası olaraq rəssam S.Haqverdiyeva tamaşaya Nəsimi dövru koloritini əks etdirən, əsərdəki hadisələrin in-

kişafına kömək edən və aktyor oyunu üçün geniş imkanlar yaradan bir tərtibat vermişdir...

«Fəryad» tamaşasında iki cəbhənin adamları xeyirlə-şər şəklində qarşı-qarşıya dayanırlar. Bu qarşıdurma istedadlı aktyor ifasında əsl mübarizəyə çevrilir. Müsbət cəbhədə mübarizə aparan surətlərin hərəsində nəsimiçilikdən, hürufilikdən, «ənəlhəq» tərəfdarlarından bir əlamət, xassə vardır. Tamaşada hürufiliyin ictimai-siyasi mənası, onun insana məhəbətlə dolu çalarları indiyə qədər bu barədə deyilənlərdən, yazılanlardan daha geniş mənada verilmişdir. Dramaturq və rejissor Nəsimi kimi bir dühanın fikrinin üsyankar ruhunu çəkib əsrin özünün fəryadına, faciəsinə çevirirlər.

Tamaşadakı ideyalar hansı surətlərin şəxsində canlandırılmışdır? Nəsimi ideallarının zülmə və işkəncəyə qarşı üsyan səsini hansı şəxslər təmsil edirlər? Ağıllı, səbirli, təmkinli, müdrik, məntiqi tərbiyəçiliyi, alicənablığı ilə sevilən, hərəkətlərində, davranışlarında bir təmkin və xeyirxahlıq duyulan müdrik Loğmanmı (artist R.Novruzov)? Oğlu haqsız yerə dar ağacına qaldırılan, hərəkətləri, əməlləri, geyimi, danışıq tərzi ilə rəğbət doğuran Çalpapaqmı (artist Məzahir Cəlilov)? Günahsız olaraq qaranlıq zindana atılan, ürəyi haqq və ədalət üçün çırpınan Rəhmanmı (artist Yaşar Nuriyev)? Hər an yumruğuna, gücünə güvənən Kəramətmi (artist Elxan Quliyev)? Zindan gücündə daim sızlamaqdan təngə gəlmiş Sübhanmı (artist Əlvida Cəfərov)? Bütün haqsızlıqlara, ədalətsizliklərə öz sükutu ilə üsyan edən Mərvanmı (artist Abbas Qəhrəmanov)? Həbsxana divarlarını qarış-qarış ölçənlər, yumruqları ilə döyənlərmi? Zərifliyi, ağlı, həssaslığı ilə haqq deyən adamların ruhuna bir musiqi kimi süzülüb axan Ayparamı (aktrisa Firəngiz Mütəllimova)? Qatı dindar atasının əqidəsindən, məsləkindən, yolundan dönüb həqiqət uğrunda vuruşan, hürufilərə qoşulan Dəyanətmi (artist Ramiz Məlikov)? Ziddiyyətlər içərisində çırpınan, atasının bir çox zülmlərinin, haqsızlıqlarının canlı şahidi olan, xeyirxah, işıqlı adamların təsiri ilə, nəhayət, haqqın yolunu tapan, bəzən məsum, bəzən qapalı, bəzən ciddi, nifrətini, qəzəbini, məhəbbətini, rəğbətini boğan, gizlədən, tamaşanın finalında tamam ayılıb hürufi məsləkini qəbul edən, «Niyə

sizin kimi düşünməliyəm, düşünmək istərəm mən özüm kimi» deyib, hər cür ehkamın əleyhinə çıxan, haqq istəyən adamların tərəfinə keçən və bütün bunları yadda qalan zəngin boyalarla tamaşaçıların şüuruna, ağlına həkk edən Vəliəhdmi (artist Fuad Poladov)?

Bizə elə gəlir ki, bunlardan heç biri ayrı-ayrılıqda əsərin aparıcı qəhrəmanı deyil, lakin hamısı birlikdə dramaturqun və rejissorun ideya və arzularının toplusu, mücəsəməsidir. Hətta burada çox epizodik xarakter daşıyan, bəlkə də ümumi gedişdə o qədər də çəkisi olmayan elə surətlər var ki, onların adi bir atmacası, eyhamı, istehza və şuxluğu tamaşanın təsir gücünü, hədəfə sərrast atəşini güçləndirir və yadda qalır. Quruluşçu rejissor bütün bunları çox məharətlə vahid ansamblda birləşdirir. Obrazların daxili ziddiyyətləri, həqiqətə münasibətləri çox təsirli dialoqlarda, monoloqlarda səslənə-səslənə, ucala-ucala gedir. Yalançılıq, riyakarlıq, dələduzluq, hər cür cümləpərdazlıq həqiqətin çılpaq qılıncının qarşısında geri çəkilməyə məcbur olur. Puçluq, ikiüzlülük, rüşvətxorluq və s. Həqiqətin antipodu, əksi kimi ifşa olunur.

Tamaşadakı Birinci və İkinci Nəsimi əsrin məngənəsində çırpınan və zülmət içərisinə nur yayan həqiqat mücəssəmələridir. Artistlərdən K.Xudaverdiyev və H.Xanızadə Nəsimi ideyasını-insana məhəbbəti müxtəlif vəziyyətlərdə-zindanda, Vəliəhdlə görüşdə, Loğmanla söhbətdə və xüsusilə finalda parlaq şəkildə əks etdirirlər. Əmiri qorxudan, dövrün başqa zalım hakimlərini lərzəyə salan da məhz nəsimiçiliyin getdikcə güclənib, bir növ, xalq hərəkatına çevrilməsidir. Xüsusilə zindanda nəsimiçilərin haqq deyən sözləri daha gur səslənir. Hər iki Nəsimi sübut edir ki, insan düşünə-düşünə, fikirləşə-fikirləşə həqiqəti dərk edir və heç bir zaman şər qüvvələr onun düşündüklərinin qarşısına sədd çəkə bilməzlər.

Mənfi tərəfi təmsil edən obrazların ən güclüsü din xadimi Zahiddir. Bu rolun ifaçısı Mikayıl Mirzəyev öz ecazkar, möcüzəli oyunu ilə tamaşaçıları valeh edir, ikiüzlü, qəddar dindarların ümumiləşmiş simasını məharətlə yaratmağa nail olur. Mən heç bir tamaşada M.Mirzəyevin bu qədər çevik, bu qədər ehtiraslı görməmişəm. Onun səhnədə belə məharətli, usta, hünərli ogununu ilk dəfə idi ki, görürdüm. O, Zahid

surətini tamam yenidən yaradırdı. Əvvəla, bu obraz çox mürəkkəb və ziddiyyətli xarakterə malikdir. Tamaşada mənfi qüvvələr içərisində öz ideyasının mücahidi kimi ondan qüvvətlisi yoxdur. Çünki o, həm şəriəti, islamı təmsil edən, hürufilərə qarşı mübarizənin önündə gedən din xadimidir, həm atadır, həm də 40 ildən artıq Əmirin hər cür haqsızlığına ədalət libası geyindirən bir iblisdir. M.Mirzəyev bunu beləcə də yaradır. Tamaşada təsirli səhnələrdən biri Zahidin yekanə övladı Dəyanətin atasının yoluna xəyanət edib hürufilərin cəbhəsinə keçməsidir. Bu ağır xəbərdən ata sarsılır, Əmir isə heyrətə gəlir, qəzəblənərək oğulun ancaq atasının əli ilə asılmasını əmr edir. M.Mirzəyev bu səhnələrdə bir anın içərisində neçə rəngə, bir-birinə bənzəməyən neçə şəklə, sifətə düşür.


Tamaşada əsas obrazlardan biri Əmirdir. Doğrudur, Zahid də, bütün saray adamları da ona tabedirlər, lakin Səməndər Rzayevin ifasında hiss olunur ki, Əmir son dərəcə küt, şüursuz, ətrafına yaltaqlar yığan quşbeyin, eyni zamanda zalım, qaniçən, rəhmsiz bir hakimdir.


Vəzir rolunun ifaçısı R.Əliyev, gözətçi rolunun ifaçısı E.Ağahüseynoğlu, yaltaq, məsləksiz, əqidəsiz saray məddahı qoca şair obrazının ifaçısı S.İbrahimov və başqaları da öz oyunları ilə tamaşanın bitkinliyinə az kömək etmirlər.

«Fəryəd» təkcə B.Vahabzadənin yaradıcılığında deyil, həm də akademik dram teatrımızın həyatında əhəmiyyətli yer tutur. Çünki tamaşaçı salonu tərk edərkən mənən, ruhən bir daha zənyinləşdiyini hiss edir.

Qulu Xəlilov

«Kommunist» qəzeti, 1984, 11 may.





BU DÜNYA?»

Bu gün dramaturgiya və teatr çətin dövrünü yaşayır. Belə vaxtda xalq şairi Bəxtiyar Vahabzadə «Hara gedir bu dünya?» faciəsini yazmışdır. İki hissəli bu pyesə Azərbaycan Dövlət Akademik Dram Teatrı səhnə həyatı vermişdir. Tamaşanın dekorları sadə və mənalıdır. Arxa divarda beş iri göz şəkli çəkilmişdir. Bu iri gözlər yer üzündə baş verən bütün hadisələri aydın görən, hər şeyin dərinliyinə nüfuz eləyən müəlliflərin fikrini açır.

Gözlər arasında iki iri əl təsvir olunur. Tamaşa müəllifləri sanki bəşəriyyətin inkişafındakı qorxulu yönləri görüb dəhşətə gəlir və əllərini qabağa verib tükürpədici səslə: «Dayanın!» - deyirlər.

Arxa divardakı şəkillərin sağında və solunda tünd, dördkünc metaldan hazırlanmış iki hündür gövdə qoyulmuşdur. İlk baxışda fikirləşmək olar ki, bunlar səhnə boşluğunu doldurmaq üçün verilmişdir. Lakin tamaşada konflikt yüksək vüsət aldıqca görürsən ki, metal qurğu gərgin hadisələrin baş verəcəyi meydanın sərt görkəmidir. Ümumiyyətlə, dekorlar mürəkkəb hadisələrdən - xeyirlə şərin qarşıdakı savaşından xəbər verir. Rəssam Arif Əbdürrəhmanovun tərtibata yaradıcı təxəyyüllə yanaşdığının şahidi oluruq.

...Səhnədə orta yaşlı üç kişi görünür. Dəfn mərasiminə gəlmiş bu kişilər ziyalıların orta təbəqəsinin nümayəndələridir və həmin təbəqənin səciyyəvi xüsusiyyətini əks etdirirlər. Cəmiyyətə aid çox-çox məsələləri müzakirə edir, hərəni bir qüsurda təqsirləndirir, özləri isə həyatı eybəcərliklərdən təmizləmək üçün mübarizəyə qoşulmur və

öz nöqsanlarını görmürlər. Belə ziyalılar xalq işini irəli apara bilmirlər. Bu obrazların yaradıcıları olan aktyorlar Elxan Ağahüseynoğlu, Fikrət Vəliyev və Elxan Quliyev vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Hüzr məclisindən sonrakı hadisələr personajlar tərəfindən nəql olunmur, birbaşa tamaşaçıların gözləri qarşısında cərəyan edir. Onların hər biri öz xüsusiyyəti ilə təqdim olunur. Dramaturqun, rejissorun demək istədikləri fikirlərin tamaşaçılara lazımi səviyyədə çatmasına imkan yaradır.

B.Vahabzadə ziddiyyətləri uydurmur, kəşf edir, onlara şair və filosof gözüylə baxır, saf-çürük edir. Müəllif öz kəşflərini yalnız bədii idrak prosesindən sonra əsərlərinə gətirir. Əvvəlki dramlarında olduğu kimi «Hara gedir bu dünya?» pyesindəki ziddiyyətlər həyat və cəmiyyətdəki ziddiyyətlərin obrazlı əksidir.

Həmin ziddiyyətlər ilk növbədə şair-dramaturqla dünya arasında təzahür edir. Səbəb isə çox ciddi, dərin və əsaslıdır. Belə ki, dünyanın işləri humanist ədiblərin, azadlıqsevər filosofların, ədalət uğrunda çarpışan söz və hikmət sahiblərinin, o cümlədən Bəxtiyar Vahabzadənin istəyincə qurulmayıb. Elə ona görə də haqsızlıq, zorakılıq, ədalətsizlik, zülm, məşəqqət qitələr boyu baş alıb gedir, qabağına çıxanı öz məngənəsində əzir.

«Hara gedir bu dünya?» əsərinin baş qəhrəmanı bioloq Laçın valideynlərdən övlada keçən şikəstlikləri yox etmək məqsədilə irsiyyəti dəyişmək problemi üzərində çalışır və buna nail olur. Lakin o, bu kəşfin başqa-qorxulu bir tərəfini də dərk edir: başa düşür ki, irsiyyəti dəyişməklə kütləvi şəkildə mütilər, manqurtlar, qəddarlar və zalımlar yaratmaq olar... Bu düşüncələr içərisində çırpınan Laçının yuxusuna Ulu Əcdad girir və bu qorxulu kəşfdən əl çəkməyə çağırır. Burada əsərin qəhrəmanı ikiləşir. Ulu Əcdad obraz şəklində Laçının gözlərinə görünür; onunla mübahisəyə girişir. Bu mübahisədə həyat və onun tələbləri, şöhrət hissi, cəmiyyətdə mövqe tutmaq arzusu ilə insanlıq, mərhəmət, vicdan üz-üzə gəlir. Bu, əlbəttə baş qəhrəmanın daxili faciəsidir. B.Vahabzadənin demək olar ki, bütün dram əsərlərində dramaturgiya əsasən obrazların daxili çəkişməsində, haçalanmasında özü-

nü göstərir. Bu əsərdə Ulu Əcdad-Laçının daxili səsidir.

Bəs nə etmək? Elmi tərəqqinin qarşısını almaqmı? Müəllifin mövqeyi belədir ki, insanlığa qarşı çevrilmiş tərəqqi-tənəzzüldür. Bu mənada əxlaqi normaları tapdamamaq ideyası əsərin bütün şəkillərindən qırmızı xətt kimi keçir.

Laçın Ulu Əcdadın xəbərdarlığındakı həqiqətə inanır. Mühit, xüsusən elmi kəşfindən sonra ətrafında baş verən hadisələr Ulu Əcdadın fikirlərini təsdiq eləyir. Belə ki, gənc alimin böyük uğurunu ətrafındakılar möhtəkir ehtirası ilə qarşılayırlar. Böyük vəzifə sahibi olan qaynatası Şahbaz bu uğurdan öz məkrli niyyətlərini həyata keçirmək üçün istifadə etmək istəyir. Elmi rəhbəri Vəlizadə onun kəşfinə şərik çıxmağa can atır. Bacısı Nərgiz törətdiyi çinayət işlərinə göra alacağı cəzadan yaxa qurtarmaq üçün qardaşının nüfuzuna güvənir. Arvadı isə əsl xoşbəxtliyini yalnız məişət məsələlərinin həllində görür.

Laçın mühitin ona qarşı çevrildiyini görür. Başa duşür ki, elmi nailiyyətlərini xeyirxahlıq məqsədilə həyata keçirmək üçün müvafiq mühit yoxdur. Cəmiyyət böyük kəşfləri böyük ağılla qəbul eləməyə hələ hazır deyil.

Son dövr dramaturgiyasında və teatr aləmində monoloq ya tamam yox olmuş, ya da hədsiz dərəcədə gödəlmişdir. Bu tamaşada isə güclü bir monoloq var-Laçının monoloqu! O, gözlərini əbədi yummazdan əvvəl üzünu yerə və göyə, keçmişə və gələcəyə, bütün millətlərə tutaraq, özünün son sözlərini söyləyir. Qan yaddaşıyla real gerçəklik, alim zəkasıyla siyasət arasında barışıq yarada bilməməsindən acı-acı şikayətlənir. Bəşəriyyətə beş dildə - Azərbaycan, rus, ingilis, ərəb və alman dillərində «Hara gedir bu dünya?» - deyərək çox çətin bir sual verir. Həmin sualın cavabı tamaşanın ruhundan aydın olur: müasir insan böhran vəziyyətindən çıxmaq üçün ulu əcdadıyla qəlbən və ruhən yaxınlaşmalıdır.

Müəllifin həyat və cəmiyyət hadisələrinə baxışlarının tamaşaçılara aydın şəkildə çatdırılmasında rejissor Bəhram Osmanovun zəhməti təqdir olunmalıdır. O, pyesə elə quruluş vermişdir ki, müəllifin qoyduğu problemin bədii həllindən tamaşaçının diqqəti bir an da olsa, ya-

yınmır. Onun fikir və marağı məhz dramaturqun arzu elədiyi məcrayla irəliləyir.

Respublikanın əməkdar incəsənət xadimi Adil Bəbirovun yazdığı musiqi səhnədə və həyatda baş verən hadisələrin gərginliyi ilə həmahəngdir. Bu musiqi həm səhnənin tamaşaçılara təsirini gücləndirir, həm də tamaşaçıları qarşıdakı yeni, gərgin məqamlara hazırlayır.

Laçın rolu R.Novruzovun böyük uğuru sayılmalıdır. O, əvvəlki rollarında olduğundan daha çox səhnə ustalığı göstərir. Qəhrəmanının elmi axtarışlarından doğan sevincini, zəmanənin ziddiyyətlərindən irəli gələn əzablarını, vicdan möhtəkirlərinə nifrətini təbii şəkildə göstərir.

Yüksək vəzifə sahibi, hiyləgər Şahbaz rolunun ifaçısı respublikanın xalq artisti Yaşar Nuriyev bu rolda öz yaradıcılıq imkanlarından bacarıqla istifadə eləyib. Bir misal göstərim. O, öz iş otağında vəzifə stolundan aralanıb Laçınla söhbət eləyəndə xeyli sadə, səmimi, şən görünür. Şikayətçiləri qəbul eləmək üçün stol arxasına keçəndə isə dərhal başqa görkəm alır. Qaşları dartılır, buxağı böyüyür, çiyinləri yuxarı qalxır, baxışları sərtləşir. Aktyorun oyununda təbii tapıntılar çoxdur.

Respublikanın xalq artisti Kamal Xudaverdiyev bu tamaşada da istedadı və ifa üsuluyla tamaşaçının diqqətini çəkir. O, Ulu Əcdad rolunda gah sərtləşən, gah həlimləşən qüdrətli səsiylə dramaturq fikirlərinin məna çalarlarını qabarıq göstərir. Diliylə, səsiylə demədiklərini isə baxışları, sifətinin cizgiləri və hərəkətləriylə bildirir.

Aktyorun oyunu xoş təsir bağışlayır. Amma qəhrəmanın görkəmi barədə iradımı bildirmək istəyirəm Tamaşadakı Ulu Əcdadın - Kamal Xudaverdiyevin üzü tər-təmiz qırxılmış, saçları müasir dəbdə vurulmuşdur. Əyninə köy rəngli, enli, uzun paltar geyir. O, Ulu Əcdaddan çox, bir az rahibə, bir az asiyalı kahinə, bir az da dövlət məmuru vəzifəsində işləyən qədim avropalıya bənzəyir. Güman ki, geyim rəssamı Yaşar Mahmudov gələcəkdə personajın görkəmi məsələsinə yeni gözlə baxacaq.

Əsgər Məmmədoğlu elm sahəsində istedadı olmayan, amma elmi dairələrdə mövqe tutub, vəzifə ələ keçirən əllaməçi ziyalı obrazı yarada bilmişdir.

Gənc aktrisa Laləzar Mustafayeva əri Laçını başa düşməyən, ona qarşı duran Aylanın əsəb gərginliyini inandırıcı göstərir. Respublikamızın xalq artisti Zemfira Əliyeva cinayət eləməyə məcbur olan, bunun üçün cəza alacağından qorxuya düşən Nərgizin qorxu-hürküsünü dolğun canlandırır.


Əməkdar artist Hacı İsmayılovun ifa etdiyi surətin adı Katib-Robotdur. Bu adın ikinci hissəsi, yəni, Robot sözü səhnədə deyilmir, yalnız pyesin mətnində və tamaşanın proqramında yazılır. Lakin H.İsmayılov bu kiçik rolu elə böyük ustalıqla oynayır ki, canlı insanın robota çevrilməsinə tamaşaçı tam inanır.


Aktyor Məzahir Cəlilovun tamaşaçılara təqdim elədiyi Qoca-müharibə və əmək veteranıdır; qəlbi, fikri təmizdir, uzun ömür sürsə də, çox sadəlövhdür. Şikayətə gələn Qocanı vəzifə sahibi Şahbaz rişxəndlə dinləyir, məsxərəyə qoyur, aldadır. Qoca kişi təhqir olunduğunu başa düşmür, naşı olaraq qalır. M.Cəlilov obrazın bu xüsusiyyətlərinin ifadəsinə nail ola bilir.

Tamaşa uğurludur. Respublikamızın teatr həyatı yeni uğurla zənginləşmişdir. Heyf ki, tamaşa indiyəcən cəmisi iki dəfə göstərilmişdir. Söz yox ki, Akademik Dram Teatrının binasında təmir işləri başa çatdıqdan sonra tamaşa dəfələrlə göstəriləcək, tamaşaçıların sevincinə, sosial və bədii təfəkkürünün dərinləşməsinə səbəb olacaq. Axı, əsərin mövzusu, qayəsi, məzmunu milli koloritiylə seçildiyi kimi, ümumbəşəri mahiyyətiylə də qiymətlidir. Elə buna görə də əminik ki, tamaşa respublikamızın sərhədlərini aşıb keçəcək. Akademik teatrın kollektivi tamaşanın beynəlxalq teatr orbitinə daxil olması üçün çalışmalıdır.

Şahmar Əkbərzadə

qəzeti, 1991, 19 dekabr.





SIZSIZ OLMASIN!»

Bugünkü poeziyamızın görkəmli nümayəndələrindən biri şair B.Vahabzadənin yüksək mükafat alması xəbəri. redaksiyamızda əsl bayrama çevrildi. Bu, səbəbsiz deyildi. Axı, şairin ədəbiyyata gəlişi məhz «Azərbaycan gəncləri» qəzeti ilə bağlıdır. Həm də o, vaxtı ilə qəzetimizdə işləyib.

Düzünü deyim ki, sevimli şairimizlə müsahibə aparmağa gedəndə bərk həyəcan keçirirdim. Biləndə ki, şairin dostları - tibb elmləri doktoru, professor Nurəddin Rzayev, geologiya-mineralogiya elmləri doktoru Xudu Məmmodov şairin yanındadır, ürəkləndim.

Bu da şairin iş otağı. Poeziya pərəstişkarlarının «qeyri-adi üçlük» adlandırdıqları bu dostların ikisi teleqram qalağına baxır. Təsadüfi deyil ki, ölkəmizin bir çox yerlərindən şairin ünvanına gələn məktub və teleqramların bəzilərində oxucular mükafat münasibəti ilə şairin dostlarını da təbrik edirlər. Bəxtiyar müəllim yan otaqdadır. Təbrik edənlərin aramsız telefon zənglərinə cavab verir. Hələlik fürsətdən istifadə edib, şairin dostları ilə söhbətə başlayıram.

Müxbir: Deyin görək, təbabəti, kristalloqrafiyanı və poeziyanı dostlaşdıran hansı qüvvədir?

N.Rzayev: Məncə, bizi yaxınlaşdıran hər şeydən əvvəl böyük hərflərlə yazılmağa layiq «POEZİYA» adlı bir möcüzədir. O ki, qaldı ünsiyyətimizin tutmağına, bu çox təbiidir. Uşaqlıqdan ədəbiyyatın, şeirin vurğunuyam. Bəxtiyarın şeirlərini ürəyimdəki hisslərə cavab

verdiyinə görə sevə-sevə oxumuşam, vurulmuşam. Vurğunluq tanışlığımıza səbəb olub. Tanışlığımızın dostluğa çevrilməsi isə Bəxtiyarın bir insan kimi mehribanlığı, sadəliyi, yanımcıllığı və nikbinliyi ilə əlaqədardır. Hə, Xudu, indi söz sənindir.

X.Məmmədov: Mən bu suala cavab vermirəm. Poeziyanı, şair Bəxtiyarı sevdiyimi izah edə bilmirəm. Bu barədə onun özü şeirlə gözəl deyib: «Niyə sevdiyini bilməz sevənlər».

Muxbir: Bəxtiyar müəllimin əsərlərində təbabətlə bağlı bəzi ciddi məsələlərə toxunulur. Bir mütəxəssis kimi bu barədə fikrinizi bilmək maraqlı olardı.

N.Rzaqev: Əvvəla onu deyim ki, Bəxtiyar elmin ən yeni nailiyyətlərindən xəbərdar şairdir. Bəlkə də, bu onun alimliyindən irəli gəlir.

X.Məmmədov: Yox, şairliyindən irəli gəlir. Gəlin, babamız Füzuliyə qulaq asaq: «Elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur».

N.Rzaqev: Mən razı. Ancaq suala qayıdaq. Əslində, təbabət onun şeirlərində vasitədir, məqsəd deyil. «Baş» şerində şair beyin köçürmək ümidi ilə yaşayan alimlərə «dayanın» deyir. Burada məqsəd təbabəti yox, təbiətin möcüzəsi insanın mənəviyyatını, əxlaqını qorumağa çağırışdır. «Etiraf» poemasındakı həkim obrazına gəldikdə, şair əsərdə həkimliyi yox, insanın vicdanı qarşısında cavabdehliyi problem kimi qarşıya qoyur. Söhbət etirafdan, öz-özünü mühakimə etməkdən gedir.

X.Məmmədov: Sözün düzü, burada ədəbiyyatçıların tez-tez işlətdikləri, «predmet poeziyası» termini yadıma düşdü. Bu terminə heç cür haqq qazandırmaq olmaz. Məgər «Karusel» şeirində karusel qayədirmi? Məncə, bu şeir ən ülvi, bəşəri hisslərin məhsuludur. Özgəsinin sevincindən, səadətindən həzz alan körpə uşağın böyükürəkliyinə qibtə etməmək olmaz.

Bu bəndə nəzər salaq:

O enən, o qalxan səslər, avazlar,
Yaz başı dağların selidir bəlkə?
Kamanın bağrında ağaran tozlar
Yanan arzuların külüdür bəlkə?

«Habil segahı» şeirindən gətirdiyim bu bənddə nə dağ, nə sel, nə kaman şairin məqsəd obyekti deyil. Bu predmetlər olsa-olsa vasitələrdir. Əsl qayə-arzusu ürəyində qalmış nakam babaların harayını bizə poetik dillə çatdırmaqdır.

Müxbir: Mərhum ədibimiz Mehdi Hüseyn Bəxtiyar Vahabzadəni «Narahat şair» adlandırmışdır. Doğrudan da, onun lirik «mən»i həmişə daxili həyəcan keçirir. Buna necə baxırsınız?

N.Rzayev: Çətin sualdır. Ədəbiyyatçı olmadığıma görə başa düşdüyüm kimi cavab verməyə çalışacağam: hər şeydən əvvəl bu narahatlıq Bəxtiyarın şair kimi dərin humanistliyi ilə bağlıdır. Zənnimcə, Bəxtiyar şeirlərinin bir qəhrəmanı var. O da insandır! Özü də konkret yox, ümumiləşmiş insan! Babasının ucaltdığı ehramlar önündə əcnəbi dilində «Funf pyastr», - deyə-deyə dilənən ərəbin halına yanan şair mütiliyə ittiham oxuyur. «Latın dili», «Nebo», «Riyakar», «Təsbeh» şeirləri və «Yollar-oğullar» poeması şair narahatlığına ən yaxşı nümunədir. Bu belə də olmalıdır. Axı, dünyadakı haqsızlıqlar zəlzələyə bənzədilsə, onun episentri şair ürəyi olmalıdır. Bəxtiyarın «Pablo Neruda» şeirini oxuyanda Nəsimi, Petefi, Raynis, Musa Cəlil yada düşür. Bu, Pablonun ölümünə ağı deyil, Çili xuntasına endirilən qəzəb zərbəsidir.

Bu ara B.Vahabzadə içəri girdi. Telefon zənglərinə cavab vermək dostu Nurəddin müəllimin öhdəsinə düşdü.

X.Məmmədov: Bəxtiyar, şeirə vurğunluğun nə vaxtdan başlayıb?

B.Vahabzadə: Qəribə olsa da, anamın nağılları və bayatıları ilə. «Yox, mən heçəm, mən yalanam, kitab-kitab sözlərimin müəllifimənim anam!» misralarını dilyaraşığı deməmişəm. Bu, belədir. Heyif ki, məni şair eləyən ilk şeirimə vəfasız çıxmışam. Onu yaddaşımda sax-

laya bilməmişəm.

Müxbir: Bəxtiyar müəllim, sizdə şairlik inamı nə haxt yaranıb?

B.Vahabzadə: Ustadım Səməd Vurğunun «Yaşıl çəmən, ağaç altı, bir də ki, tünd çay» şeirim barədə dediyi fikrindən sonra. Bu mənim mətbuatda çıxan on birinci şeirim idi. Həmən şeirə görə Səməd Vurğunun zəmanəti ilə 1945-ci ilin fevralında Yazıçılar İttifaqına qəbul olundum. Bundan sonra seçdiyim yolun əzab-əziyyətini dərindən anladım. Böyük şairin əlyazmalarındakı qeydlərini əziz xatirə kimi indi də saxlayıram.

Müxbir: Bir neçə kəlmə də «Azərbaycan gəncləri»ndə işlədiyiniz barədə danışmağı xahiş edirəm.

B.Vahabzadə: Mən bu qəzetə ömrüm boyu borcluyam. 1947-49-cu illər heç vaxt yadımdan çıxmaz. Şeirlə fikrimi nə qədər asan deyə bilirdimsə, yazı yazmaqda. jurnalistlikdə o qədər çətinlik çəkirdim. Qəzet, qələmimin itiləşməsində müəllimim oldu.

X.Məmmədov: Şair kimi formalaşmaqda, ədəbiyyatın məqsəd və vəzifəsini dərk etməkdə nəyi əsas götürürsən? Bu, ədəbiyyata gələn yeni nəsil üçün də maraqlı olar.

B.Vahabzadə: Şair kimi formalaşmağımda iki böyük söz bahadırına minnətdaram - Mirzə Cəlilə və Sabirə! Onların ikisi də sənət və əqidə müəllimlərimdir. Sabiri XX əsrin böyük şairi hesab edirəm. Şair yalnız intim hissləri qafiyələndirməyi bacarana demirlər. Şair birinci növbədə böyük vətəndaş olmalıdır. Məncə, Sabir öz insani hiss və duyğularını amal səviyyəsinə qaldırdığına əsrini qabaqlayıb, zamanın fövqünə yüksəlib. Mən Mirzə Cəlili dərk etməyə başlayanda türk şairi Behcət Kamal Çağların «Bir inam istəyirəm, uğrunda baş qoyası» misrasına cavab olaraq yazmışdım:

Şairin ürəyində
rənglərini dəyişir
Həyat - ölüm. Bahar – qış

Şairlikmi tapmısan,
inamını tapmamış?

X.Məmmədov: Bir az da dramaturq Bəxtiyarı dinləmək istəyərdik.

B.Vahabzadə: Elə mövzular var ki, şeirə sığmır. Son on ildə məni düşündürən bəzi mövzu və fikirləri şeir dili ilə ifadə etməkdə acizlik çəkirdim. «Bicdan», «İkinci səs», «Dar ağacı», «Məhəmməd Hadi» və s. pyeslərim belə yarandı. Dramaturgiyanın imkanları çox olduğu qədər. əzab-əziyyəti də artıqdır. Hiss edirəm ki, dramaturq doğulmamışam. Çətin yazıram. Amma əl də çəkə bilmirəm.

Muxbir: Dostluğunuzun tutması barədə sizin fikrinizi də öyrənmək pis olmazdı.

B.Vahabzadə: Bu barədə mən xoşbəxtəm Nurəddinlə, Xuduyla səyahətə çıxmaq, söhbət etmək mənim üçün mənəvi ehtiyaca çevrilib, mübahisələrimiz, təhlillərimiz çox maraqlı keçir. Təbabətdən və struktur analizdən başım çıxmasa da, dostlarım şeir və söz sərraflarıdır. Görüşlərimizin yaradıcılığıma çox təsiri olub. «Muğam» poeması söhbətlərimizin məhsuludur. Biz üçlükdə bir-birimizin qarşısında tam azad və sərbəstik. Heç kəs fikrini olduğu kimi deməkdən çəkinmir, səhv eləməkdən qorxmur. Bir-birimizə danışıqsız inamımız var. Mənim işim bir az çətindir. Dostlarımdan əsər keçirmək müşkül işdir. Burada dostluq keçmir. İlk oxucularım onlar olduğuna görə məsuliyyətim daha böyükdür.

Muxbir: Ənənəvi qəzetçi sualı: Yaradıcılıq planlarınız?


B.Vahabzadə: Oxucular böyük bir silsilə şeirlərimlə tanış olacaqlar. «Muğam»dan sonra ozan-aşıq sənətinə dair poema yazmaq fikrinə düşmüşəm. Əslində, aşıq havası bizə muğamdan da yaxın və doğmadır. Bu mövsümdə «Artıq adam» adlı pyesim oynanılacaq.


Müxbir: Söhbət elə şirin keçdi ki, az qala vacib məsələni unudacaqdım. Oxucularımız yüksək dövlət mükafatı almağınız münasibətilə sizi təbrik edir. Onlara sözünüz?

B.Vahabzadə: «Mənim bir günüm də sizsiz olmasın!» oxuculara birinci sözüm budur. İkincisi, hər il dostlarımla doğulduğum günü qeyd edəndə ömür yollarıma nəzər salıram. Gözümə ilk dəyən büdrəmələrim, uğursuz addımlarım olur. Açığını deyim ki, mən uğurlarımdan çox, uğursuzluqlarımdan öyrənmişəm. Qoy bəzən gənclərimizin qarşısına çıxan müvəffəqiyətsizliklər onları qorxutmasın. Güman edirəm ki, tələbkar və qədirbilən oxucularıma deyəcəyim əsl sözüm bundan sonra yaranacaq.

Şahmar Əkbərzadə

«Azərbaycan gəncləri», 1975, 28 avqust.





...QDAN DOYMADIM»

(Musahibə)*

1980-ci il dekabr ayının 28-də «Novı mir» jurnalının 11-ci nömrəsində «Gün var əsrə bərabər» romanını oxuyub bitirəndə kövrəkliyimin yanğısı «Çolpon-Ata, dekabr 1979-mart 1980» cümləsinə damanda ağlıma gəlməzdi ki, bu əsərin yazıldığı otaqlar gecələmək qismətim olacaq. Bu hadisədən xeyli əvvəl tanış olsaq da, bir-birimizə isnişsək də, nədənsə, Çolpon-Atadakı istirahət evinin 15 nömrəli otağında yuxum ərşə çəkilmişdi. Qulağıma Yedigeyin, Qaranərin, Nayman ananın səsi gəlirdi. Adı qırğız torpağını Ala-Too və Tyan-Şan dağlarından da çox zirvələndirən Ç.Aytmatovun planetimizi ölkə-ölkə fəth edən məşhur əsəri bu dörd divar arasında yarandığına görə sehirlənmişdim. O zaman xəyalıma haradan gələ bilərdi ki, 1985-ci il noyabr ayının 17-də Azərbaycan paytaxtındakı qonaq evinin 15 nömrəli otağında Çingiz Aytmatov Odlar diyarında sehrləndiyindən tarixi söhbətlər edəcək, üstəlik Frunzeyə ** qayıdandan sonra qəzetimizin ünvanına belə bir teleqram göndərəcək: «Teleqramma ne v sostoyanii peredat çuvstva moei blaqodarnosti azerbaydjanskoy zemle. Çinqiz Aytmatov».

Yazıçı respublikamıza ikinci dəfə gəlirdi. Onu bu dəfə Bakıya gətirən xalqımızın istəkli şairi, SSRİ Dövlət mükafatı laureatı Bəxtiyar Vahabzadənin poeziyası idi...

*İxtisarla verilir.

**Bişkekin o vaxtkı adı (red).

- İndi ki, söhbət yubileydən düşdü, deyin görək, Bəxtiyar Vahabzadənin poetik dünyagörüşündəki hansı cəhətlər diqqətinizi cəlb edir?

- Əsərləri respublikanızın hüdudlarından uzaqlarda nəşr olunan bu şairi çoxdan izləyirəm. Nə üçün onun hər kitabı oxucuların yaddaşını silkələyən, bizi yüksək amallara səsləyən hadisəyə çevrilir? Zənnimcə, bunun səbəbləri çoxdur. Əvvəla, Vahabzadə poeziyasında məni heyran edən xüsusiyyətlərdən biri şairin dünyanı, həyatı və özünü dərk etmək cəhdidir. Çoxcəhətlilik bu şairin böyük istedadından xəbər verir. Bizi Bəxtiyara bağlayan cəhətlərdən biri də odur ki, cəmiyyətimizi, dünyamızı narahat edən elə oir hadisə yoxdur ki, şairi həyəcanlandırmasın, Bəxtiyar ona hay verməsin. Bu zaman həmişə onun öz baxışı, öz mövqeyi, öz poetik qənaəti olur. Bizi əhatə edən aləmdə nə varsa, Bəxtiyarı dərindən-dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir.

Poeziyanın əzəli və əbədi mövzusu olan geniş mənada məhəbbət, onun qələmində həmişə təzə görünür. Heyran olursan ki, şair ürəyimizi tələtümə gətirən söz deməklə yanaşı, hətta bəzən adamın ağlına gəlməyən sehrli nyüansları aydın fikrə, dərin mənaya çevirə bilir. Oxucusunun gözləri önündə insan qəlbinin mürəkkəb üfüqlərini açır. Məhz belə duyğular şairin böyük. istedadı sayəsində yaddaş bayrağımıza çevrilir, hafizəmizdən silinmir.

Vahabzadə yaradıcılığında başqa bir cəhəti də qeyd etmək istərdim. Bu da onun poeziyasının, poetik nəfəsinin uzunömürlülüyüdür. Bəllidir ki, poeziya insan qəlbinin böyüklüyünü, emosional qüdrətini əks etdirən ruhdur. Bu ruh, çox vaxt yaşdan asılı vəziyyətdə olur. Ahıllıq yaşına qədər poetik gücünü saxlamaq hər kəsə müyəssər olmur. Lakin müasirimiz Bəxtiyar sübut edir ki, onun potensial poetik imkanı qüdrətlidir, ilham pərisinin cövlan etdiyi səma intəhasızdır. Bu isə təkcə onun şəxsi xoşbəxtliyi deyil, bütövlükdə ədəbiyyatımızın xoşbəxtliyidir.

- Çingiz ağa, yubiley gecəsində şairin «Fəryad» pyesinə baxdınız. Bu əsər haqqında fikrinizi bilmək istərdik.


- Bu pyes məni şairin yaradıcılıq ampluasının yeni «qatı» ilə tanış elədi. Pyes fəlsəfi mahiyyəti etibarı ilə çox ciddi, tutarlı əsərdir. Maraqlı burasıdır ki, belə bir problematik, çoxşaxəli dram əsəri şeirlə yazılıb. Özü də bizim günlərdə. Məni tutan bir də bu oldu ki, əsər azadlığa can atan və özü səhnədə iştirak etməyən bir şəxsin ideyası əsasında qurulub. Həmin ideya yavaş-yavaş ayrı-ayrı adamların, nəsillərin mübarizə amalına çevrilir. Bir şəxs tarixi sima səviyyəsinə ucalır. Əslində, tamaşada Nəsiminin özü yoxdur. Ancaq ustalıq ondadır ki, biz hər an Nəsimini görə bilirik. Dramaturqun qüdrəti də bunlardır. Əslində, Nəsimi yox, nəsimiçilərdir bizi əfsunlayan. İdeyanın özü, onun yolunda qurban getməyi şərəf bilənlərdir tamaşanı mənalandıran. Bu cür fəlsəfi mübarizləri əks etdirən pyesin istər dramaturji, istərsə də səhnə həllindən razı qaldım. İnamla deyə bilərəm ki, «Fəryad» çox güclü pyesdir və onun böyük gələcəyi var.


HAŞİYƏ: Bu məqamda zəng oldu. Çingiz ağa Frunzedəki yaxınlarından birinə tapşırdı ki, çələnglər hazırlasınlar və onları yazıçının adından qonaqlara kiçik oğlu Eldar təqdim etsin.

Məlum oldu ki, Yakutiya teatrı yazıçı üçün «Boranlı yarımdayanacağında» tamaşasını Frunzeyə töhfə gətirib. Böyük yazıçı isə böyük ürəklə öz həmkarının əsəri barədə danışırdı və hər şeyi Azərbaycana gəlməyə qurban vermişdi...

Çingiz Aytmatov

«Azərbaycan gəncləri», 1985, 21 dekabr.





Bahtiyar Vahabzade, ilk olarak 1972 yılında Varlık dergisinde Fuzuli'ye saldıran bir yazara verdiği uzun ve susturucu cevapla dikkatimizi çekmişti. "Yel kayadan ne aparır?" başlığını taşıyan bu yazı gerçekten güzeldi. Daha sonra aynı imzaya Türk Edebiyatı dergisinde sık sık rastlamaya başladık. Azerbaycanlı bir yazarın "sağ" bir dergide yazması çok şaşırtıcıydı; çünkü Sovyetler Birliği'ne bağlı Türk cumhuriyetlerinde, bırakın Türkye'de "sağcı" diye bilinen kişilerle temas etmeyi, Türk kelimesini telaffuz etmek bile son derece tehlikeliydi. Türkiye'ye gelme imkanı bulan yazarların peşlerinde ikişer üçer KGB ajanı gezindiğini biliyorduk, çünkü birkaç defa şahit olmuştuk.

Gorbaçov döneminde uygulamaya konulan glasnost ve pe-restroika politikalarının sağladığı kısmı hürriyetten yararlanarak Türkiye'ye gelip gitmeye başlayan aydınlar arasmda Vahapzade de vardı. Kendisiyle o günlerde tanıştık. Tercüman qazetesine ziyaret maksadıyla geldiğinde uzun uzun sohbet etmiş ve bu sohbetin önemli kısımlarını röportaj haline getirerek yönettiğim sayfada yayımlamıştım. Çok iyi hatırlıyorum, aynı günün akşamı beni te-lefonla buldu ve telaş dolu bir sesle söylediklerinden bazılarının kullanılmamasını rica etti. Aslında çıkarılmasını istediği sözler bizim açımızdan hiç de tehlikeli görünmüyordu. Ancak ömürleri, nefes alışlarını bile kontrol eden korkunç bir rejimin demir yumruğu altında geçenler ihtiyatlı olmak gerektiğini ve hangi sözlerinin kendileri için tehlikeli sonuçlar doğurabileceğini çok iyi biliyorlardı. Hemen gece sekreterine telefon ederek röportajda gerekli değişiklikleri yaptırtmıştım.

Binlerce aydının katledildiği, binlercesinin de Sibirya'larda süründürüldüğü Stalin dönemi, özellikle 1937 yılı, sadece Sovyetler Birliği tarihinin değil, insanlık tarihinin en karanlık dönemidir. Stalin öldükten sonra baskılar azçok hafiflerse de hiçbir zaman bütünüyle kalkmaz; düşünce her zaman tehlikelidir. En cesur şair ve yazarlar bile en masum fikirlerini ancak sembolik bir dille ifade edebilerler; çok zaman sembolik dil bile başlarının ağrımasını önleyemez. Mesela Bahtiyar Vahapzade'nin başı bir keresinde böyle bir şiiri yüzünden ciddi bir biçimde derde girmiştir. Anayasada resmi dilin Azerbaycanca olduğu hükmü yer aldığı halde devlet dairelerinde Rusça'nın kullanılmasını, Latin Dili adlı şiirinde Cezayir'in bir meselesinden söz ediyormuş gibi kapalı bir üslup kullanarak eleştiren Vahapzade, bir Cezayir seyahatı sırasında yazdığı bu şiirde özetle demiştir ki: Bugün yeryüzünde bir Latin halkı yoktur ama, Latince hala bütün canlılığıyla yaşıyor. Yani halk yok, dil var. Ancak yeryüzünde öyle halklar var ki, onların özleri yaşıyor, ama dilleri ölü. Cezayir halkı gibi. Şimdi hangisine ölü diyelim? Ülke ve halk varken tutsak olan bir dile mi? Yoksa özü kalan, dili ölen bir halka mı?

Bu şiir yayımlandıktan sonra kraldan ziyade kralcılık yaparak hala Stalin devri alışkanlıklarını devam ettiren birtakım adamlar "Sen ne demek istiyorsun?" diyerek Vahapzade'yi ağır bir biçimde eleştirmeye başlarlar. Korkudan öz babasını ihbar eden alçakların bile çıktığı Stalin devrinin korkularını henüz üzerlerinden atamayan aydınlar, "doğmaca kardaş"larına bile güvenmemektedirler. Vahabzade, bu psikolojiyi Iki Korku adlı şiirinde şoyle anlatır:

O vakt şüpheyliydi oğuldan ata,
Gelinden kaynana, atadan oğul.
O vakt susardılar hayırda, şerde,
Idraki, vicdanı ezerdi şüphe.
O zaman evlerde, idarelerde
Kara kabus gibi gezerdi şüphe.

Yaman hızlı idi şüphenin atı,
Hepimiz kul idik o beydi ancak.
Birinin birine münasebeti
Şüpheydi, şübheydi şübheydi ancak!

Öyle ki korkardık birbirimizden,
Korku saçılırdı gözlerimizden.
Gerçeği, mertliği önledi korku,
Bir eser kalmadı vekarımızdan,
Öyle canımıza işledi korku,
Aktı kan yerine damanmızdan.

Iki Korku şiirinde, bir zamanlar Sovyetler Birliği'nde korkunun nasıl kol gezdiği, insanların en yakınlarına bile nasıl şüpheyle baktıkları, kısacası, totaliter rejimlerde insan haysiyetinin nasıl acımasızca ayaklar altma alındığı anlatılır. Bu iç yakıcı poemde anlatılan hikaye şöyle özetlenebilir. Vahapzade, bestekar Kamber Hüseyinli'ye bestelemesi için şiirler yazmakta ve bu beraberlikten nefis şarkılar doğmaktadır. Ne var ki, çok az konuşan ve kendi ha-yatından pek söz etmeyen Kamber'in gözlerinde hiç silinmeyen derin bir keder vardır. Aralarında gizli bir anlaşma varmış gibi, uzun süre, ne Vahapzade bu kederin sebebini sormuş, ne de o anlatmıştır. Sohbet o tarafa kaymaya başlayınca lafı hemen değiştirip başka konuya geçen Kamber'ın yıllar önce hapis yattığını başkalarından duyan, fakat sebebini öğrenemeyen Vahapzade, birgün, dostunun halinden şikayet etmesini fırsat bilerek "Ya seni niçin hapsetmiştiler?" diye sorunca barut gibi patlayan Kamber, Stalin'e düşman dediği için başına felaketlerin geldiğini söyler ve içini döküp diktatöre lanetler yağdırır. Fakat birden aklı başına gelip susar; sararmıştır, ya içinden geçenleri söylediği şair bir muhbirse!

Vahapzade, kendisinden süphelendiğini anlayınca dostunu rahatlatmak için bütün düşüncelerine katıldığmı söyler ve Stalin'e aynı şekilde lanet okur. Ne var ki, eve dönünce onun da içine kurt düşecektir: Peki, Kamber'in muhbir olmadığı ne malum? Ya sırf kendisini söyletmek

için Stalin aleyhinde konuştuysa? "Otuz yedide hapsettirmedi mi kalem yoldaşlarını öz kalem yoldaşları? "Birden büyük bir korkuya kapılır; duvarlar sanki suçlayarak üstüne yürümektedir. Şimdi birileri gelip kapıyı çalacak ve kendisini alıp meçhul bir yere götüreceklerdir. Tam o sırada kapının önünde bir araba durunca yüreği ağzına gelir, bütün vücudunu soğuk ter basar, "ev başına dolanıp dünya bir anda kara zindana döner"; kendi kendine der ki: "Darağacından öz dilim astı beni!"

Kapının önünde duran araba biraz sonra hareket eder; Vahapzade'nin korkduğu başına gelmemiştir; ama bu gelmeyecek demek değildir. Yatarsa da uyuyamaz ve içten içe kurmaya başlar: Polis gelince elbette önce arşivini yoklayıp yazdıklarmı inceleyecektir, eyvah! Derhal yatağından fırlayıp bütün şiirlerini masanın üzerine döker ve her birine bir müfettiş gözüyle bakınca dehşete kapılır: "Bunlar ele geçse, derisine vallah saman teper o cellat!" Öyleyse hepsini yakmalı! Bu şiirlerde dile gelen şikayetleri, isyanları, arzuları, ümitleri, hayalleri... yakmalı! Ve yakmaya başlar. Ancak hepsine kıyamaz, bir kısmını ayırıp annesinin protez ayağına gizler. Ne var ki, içini kemiren bu korkuyla yaşanamayacağını çok iyi bilmektedir; onun için sabah olur olmaz Kamber'e dünkü sözlerinin yalan olduğunu söyleyerek aman dilemeye karar verir. Diyecektir ki: "Dün dediklerim baştanbaşa yalandı. O sözleri sırf seni desteklemek için söyledim. Aslında ben o dahi yol göstericiyi çok severim; bize bu güzel günleri bahşeden odur; odur bizim bu dünyada tek güvencemiz. O düşünen beynimiz, gören gözlerimizdir".

Sabaha kadar gözlerine uyku girmeyen Vahapzade, erkenden kalkıp giyinir, tam çıkacaktır ki, kapı çalınmaya başlar. Sabahın köründe kim olabilir? Demek ki, Kamber'in ihbarı KGB'ye ulaşmış! Korkudan tepeden tırnağa buz kesen şair, kapı ısrarla çalınca titreyen bir sesle "Kimsin?" diye seslenir. Dışarıdan ürkek bir ses: "Benim a kardeş!" Bu Kamber'in sesidir. Vahapzade kapıyı henüz açmıştır ki, bestekar arkadaşı kollarına atılır. Kamber büyük bir korku içindedir; hüngür hüngür ağlayarak "Vallahi, der, dün o sözleri şakayla söylemiştim. Aslında ben o dahi yol göstericıyı çok severim; bize bu güzel günleri bahşeden odur; odur bizim bu dünyada tek güvencimiz. O düşünen beynimiz, gören

gözlerimizdir".


Vahapzade'nin yaşadığı büyük korkuyu Kamber de aynı şekilde yaşamış, sabaha kadar gözlerini kırpmamıştır.


Şiir şu mısralarla sona erer.

Riyakara döndürdü vakt hem onu, hem beni,
Benim gibi yatmamış o da bütün geceni.

Beşir Ayvazoğlu

AKSİYON 18-24 mart, 2000.





ИЧЕСК
С НАМЕКОМ НА СОВРЕМЕННОСТЬ

Пьеса, насыщенная драматическими коллизиями, неожиданными сюжетными поворотами, интригующими событиями, несет в себе кровоток больших общечеловеческих, нравственных, гражданских проблем. Исторический фон стал поводом обращения автора к современникам и современности через уроки далекого прошлого.

Таков смысловой подтекст произведения, где раскрывается анатомия жажды власти и богатства, двурушничества, лжепатриотизма, краснобайства, воплощенных во многих отрицательных персонажах. Перед нами встает образ “власть держащего” Агшина с его подчеркнутой фундаментальностью, деланным величием в исполнении народного артиста К.Худавердиева. А рядом - по контрасту шутовская натура “до власти добравшегося” Ибн-Сухейля, которого играет заслуженный артист Э.Агагусейноглу. Природный юмор народного артиста Г.Исмайлова дал ему возможность создать яркий, сочный образ Ибн-Зейта, замаскировавшегося под народного благодетеля. Этот персонаж, как и другие, очень узнаваем - сходство с современными “благодетелями”, готовыми “всем жертвовать ради народа”, достаточно убедительное.

Спектакль “Виселица” режиссера, народного артиста Азербайджана Агакиши Кязимова тщательно выписан с точки зрения исторического фона. Все в нем выдержано в традициях постановочной стилистики исторических пьес: очевидная замедленность

темпо-ритма, подчеркнутая риторика в произнесении героями текста, монументальность сценографии (художник Исмаил Мамедов), в которой соблюдены вся атрибутика эпохи, знаки власти, геральдика и т.д. В этом же стиле создана и музыка композитора Джаваншира Гулиева. Внешний облик спектакля вполне убеждает нас в конкретности и времени, места событий пьесы.

Но в какие бы исторические "одежды" ни облачалось драматургическое, сценическое произведение, главным всегда остается слово, живое человеческое слово, время, от имени которого автор ведет с нами разговор. И в спектакле это, естественно, слово актера - пульс, кровь, сердце создаваемого им образа.

С этой точки зрения значителен образ Чылгын в исполнении народной артистки М.Асадовой. На фоне разглагольствования о путях служения народу других персонажей ее героиня готова действительно пойти на смерть во имя свободы и любви к Родине, и никакие уговоры не могут заставить ее отказаться от своих убеждений. Актриса очень искренне, эмоционально проводит свою роль. Живым дыханием наполнены образы Матери в исполнении народной артистки З.Атакишиевой, Тетушки - заслуженной артистки Х.Насировой.

Земными, правдивыми получились персонажи, которых воплощают заслуженные артисты И.Аскеров (Сабутай), М.Гаджибеков (Аксакал), народный артист Р.Азимов (Ибн-Та-хир).

А спектакле "Дар агаджи" прозвучала знаменательная фраза: "Государством управляют не силой оружия, а силой ума". Так называемая сила ума иных власть предержащих удачно подчеркнута режиссером спектакля изображением камуфляжа, чучел "членов придворного совета", которые, как сказать, управляют государством.


Последнее десятилетие XX веке мы пережили (и переживаем) драматические события, когда кругом развелось множество "бабеков", "кероглу".


На мой вгзляд, спектакль "Дар агаджи" словом мудрого поэта

Бахтияра Вахабзаде говорящий, казалось, о далеком прошлом, разоблачает современных предателей интересов народа, которые под видом “народных заступников” кричат на митингах о совем праве управлять народом, как “самые достойные”.

Бета Надирова

“Бакинский рабочий “. 5 июля, 2001 года.





ПОЧИТАЮТСЯ НА СВОЕЙ РОДИНЕ ЗА ПРИВЕРЖЕННОСТЬ К ТРАДИЦИЯМ

Баку, Азербайджан.

На центральной площади столицы, где 800-летняя крепость смотрит свысока на Каспийское море, есть пантеон шести древних статуй, возвышающихся под каждодневной суетой. Это не статуи искателей приключений, генералов или забытых комиссаров советской эры.

Это статуи поэтов. И стоят они как хранители традиций, веками процветающих в Азербайджане.

В Баку, так же как и в различных районах Азербайджана, память поэтов увековечивается памятниками, бюстами, мемореалами и музеями. Драма и проза-относительно новые формы творчества, а поэзия-это великое национальное искусство, язык философов и простого народа.

Поэтическое наследие Азербайджана настолько живучее, что даже смогло пережить 70-летний период советской власти, когда интеллигенция подвергалась гонениям и поэты высылались в отдаленные тюрьмы и умирали там. Возможно, что сегодня наиярчайший литературный луч светит из маленькой, но уютной квартиры в одном из районов Баку, где живет и творит Бахтияр Вахабзаде.

Вахабзаде издал более 40 книг, большинство из которых являются коллекционным достоянием поэзии. Последняя его книга вышла в свет в прошлом году в 50.000 экземплярах, а это количество

велико для столь маленькой и бедной страны. Книга была распродана в течении недели.

В один из недавних вечеров, во время нашего длинного разговора, Вахабзаде поведал о своей жизни, о том как он старался перенести все тяготы тирании.

Во время разговора его жена подала традиционное азербайджанское блюдо “пити” из баранины, гороха и слив, приготовленное в специальных глиняных горшочках.

Каждая новая затрагиваемая нами тема сопровождалась проявлением очередного блюда: жареная курица, жареный лук, лук-порей и петрушка, соленья, котлеты, разные сорта сыров, хлебов, холодных закусок и спиртных напитков.

Вахабзаде, чьи непокорные седеющие волосы сходились с аккуратно выглаженной белой сорочкой говорил, о традициях тюркской литературы, рассказал о шедевре 10-го века-книге “Деде Горгуд”, сравнимый с “Иллиадой”.

На его книжных полках разложены фотографии любимых героев - начиная от отца турецкой нации Мустафы Кемаля Ататюрка до российского поэта Евгения Евтушенко, который перевел его произведения на русский язык и произведения которого были переведены на азербайджанский.

“Предполагалось, что мы напишем поэмы о подавившей нас трагедии”, - сказал Вахабзаде. Это был ужасный период, который многие люди пережить не смогли. Я иногда не мог предвидеть заранее, когда они придут и уведут меня. Но в конце концов наша поэтическая традиция выжила. Сейчас она восстанавливается. Очень талантливы молодые поэты. Я думаю, что мир услышит о нас вновь”.

Вахабзаде привел два примера трагических судеб поэтов.

Первый: Гусейн Джавид - выдающаяся фигура в азербайджанской литературе. Он отказался от подчинения советским идеалам и в 1937 году был арестован КГБ и послан в сибирский трудовой лагерь.

Другой пример: Самед Вургун - учитель и наставник Вахабзаде, написавший несколько прекрасных поэм и восхаливший Маркса и Ленина", развернувшего флаг коммунизма и впервые внесшего в мир весну.

В поисках общего пути, прошедшего между двумя различными видами смерти, прервавшей творчество Джавида и Вургуна, Вахабзаде часто писал аллегорические поэмы. Он был удручен, к примеру, попыткой советской власти подавить азербайджанский язык и написал в этой связи поэму, восславляющую "язык, сохранившийся сквозь века (погиб народ), но язык сохранился".

Однако заглавие поэмы дается на латыни. Когда агенты КГБ, очевидно поняв истинное значение этого, вызвали его на допрос, поэт сумел неискренне сказать, что он не намеревался сделать этим какой-то политический акцент.

В 1952 году, сделав несколько личных заметок, оскорбительных по отношению к Сталину, Вахабзаде ждал, что его арестуют. Однажды, когда он услышал, что напротив его дома остановилась машина, он подумал, что настал его час расплаты. Поэт в панике сжег поэму, уничтожив тем самым улики, которые возможно, были бы использованы против него. Оказалось, что машина не была полицейской. Тем не менее, поэмы уже не стало.

Этот эпизод создал основу для нового сценария под названием "Страх", написанного азербайджанским драматургом. В настоящее время сценарий экранизируется.

Сегодня Вахабзаде является любимцем своих соотечественников не только благодаря своему творчеству. С момента обретения независимости в 1991 году, поэт является беспартийным членом парламента. Его уважает как правящая партия, так и оппозиция. Возможно, когда-нибудь в Баку ему возведут памятник, но сегодня 72-летний поэт энергичен и полон планов.

"В 1930 году в Баку проходили анти-советские мятежи", - рассказывает поэт. "Солдаты, посланные затушить мятежи, убили здесь 10.000 людей. Сейчас я работаю над этой темой," - продол-

жает он.


На несколько месяцев Вахабзаде уединяется в находящемся на севере Азербайджана районе Шеки, где нет телефона. Там он вдохновляется природой и крестьянской жизнью. Обычно он пишет по ночам, называя эту часть суток “временем, когда он находит диалог с самим собой”.


Поэт обожает классическую музыку и говорит, что не сможет жить, если каждое утро не будет слушать “Девятую симфонию” Бетховена.

Университетом Индианы опубликован том произведений Вахабзаде на английском языке, состоящий в основном из стихов, четырех рассказов и одной пьесы. Особенно примечательна поэма, написанная в 1965 году, которая была спрятана в течении нескольких лет.

Стефан Кинзер

“Нью-Йорк Тайме”, 1997.





...ОВИЕ

В этом году, 18 октября, азербайджанский народ отметил 10-ую годовщину со дня провозглашения своей национальной независимости. Эта независимость была долгожданной, желанной, ее азербайджанский народ ожидал 70 лет. Многие из верных и отважных сынов Азербайджана боролись за сохранение национального достоинства, традиций и родного языка даже тогда, когда политические условия не позволяли этого. Среди этих борцов одно из видных мест занимает великий поэт Азербайджана - Бахтияр Вахабзаде.

В настоящее время Бахтияр Вахабзаде является одним из самых выдающихся современных поэтов Азербайджана; он - национальный поэт этой страны, видный представитель не только азербайджанской литературы, но и, в целом, национальной художественной мысли XX-го века. Имя этого поэта известно не только на родине, но и далеко за ее рубежами. Он снискал широчайшее признание как вдохновенный поэт, мыслитель, драматург лирического и философского склада, талантливый ученый и публицист, смелый и пламенный общественный деятель Азербайджана. Его личные качества: искренность, простота, демократизм и душевная открытость находятся в счастливой гармонии с его творческой индивидуальностью. Произведения Бахтияра Вахабзаде - стихотворения, драмы, публицистика - были переведены на многие языки народов бывшего Советского Союза, на английский, французский, немецкий, фарсидский, турецкий, польский, венгерский, испанский язы-

ки и неизменно вызывают большой интерес, находят путь к сердцам миллионов читателей. С публикацией настоящего сборника избранных стихотворений и поэм на румынском языке любители поэзии из Румынии смогут познакомиться с частью творений этого великого поэта, смогут проникнуть в своеобразный мир культуры дружественного азербайджанского народа.

Бахтияр Махмуд оглы Вахабзаде родился в 1925 году в древнем азербайджанском городе Шеки. В 1934 году семья будущего поэта переехала в Баку. В 1942, окончив среднюю школу, он поступил на филологический факультет Бакинского Государственного Университета; через пять лет с дипломом филолога был принят в аспирантуру БДУ. В 1951 году защитил кандидатскую диссертацию на тему "Лирика Самеда Вургуна", а в 1964 году - докторскую диссертацию, посвященную жизни и творчеству Самеда Вургуна.

Литературное творчество он начал в 1944 году, во время второй мировой войны; в 1945 году Бахтияр Вахабзаде был принят в члены Союза писателей. Наряду с литературным творчеством, он свыше сорока лет преподавал в БДУ. В 1980 году был избран членом - корреспондентом Академии Наук Азербайджана. В 1990 году профессор Бахтияр Вахабзаде ушел на пенсию. Недавно, несколько месяцев тому назад, он был избран единогласно действительным членом Академии Наук Республики Азербайджан.

Б.Вахабзаде - автор более семидесяти поэтических сборников, двух монографий, одиннадцати книг публицистики, сотен статей. В Бакинском Академическом Госдрамтеатре осуществлены постановки его пьес "Совесть", "Второй голос", "После дождя", "На дорогах остаются следы", "Куда стремится этот мир?", "Меч, косящий нас самих", "Ненаказанный грех", "Эшафот". Его перу принадлежат свыше двадцати поэм на исторические и современные темы, две из которых включены и в настоящий сборник.

В 1974 году удостоен звания заслуженного деятеля искусства, в 1975 году - республиканской, а в 1984 году - Государственной премии СССР. В 1985 году ему присвоено почетное звание "на-

родный поэт Азербайджана". В 1995 году, за особые заслуги в национально-освободительном движении, он награжден одним из самых престижных орденов Республики Азербайджан - Орденом "ИСТИГЛАЛ" ("Независимость").

Стихи Б.Вахабзаде отличаются совершенством и емкостью образов, современностью и оригинальностью изобразительных средств. Для творчества в целом характерно философское мировосприятие.

Трудно назвать другого поэта, который за последние 30-40 лет снискал бы столь же широкую популярность, всенародную любовь, как Бахтияр Вахабзаде.

Б.Вахабзаде, органично сочетающий художественное и научное творчество с общественно-политической деятельностью, пять раз избирался депутатом парламента Республики Азербайджан (1980-2000).

Он был одним из лидеров национально-освободительного движения, начавшегося еще в шестидесятые годы. В поэме "Полистан" (1959 г.) он выразил и раскрыл историческую трагедию Азербайджана, разъятого надвое и влачившего кабальное существование под пятой российской и персидской империй, включился в праведную и справедливую борьбу азербайджанского народа за свободу и независимость.

За эту поэму в 1962 году поэт был отстранен от преподавательской работы в университете с идеологическим ярлыком "националиста" и восстановлена в должности лишь два года спустя.

Б.Вахабзаде выражал боль народа, чье национальное состояние попиралось советским режимом, народа, подвергавшегося всевозможной дискриминации, - художник использовал язык символов и иносказаний, различные литературные приемы, перенося в поэмах и пьесах место действия в иные исторические времена или страны. А произведения, где напрямую изобличался советский тоталитарный и диктаторский режим, увидели свет лишь после распада Советского Союза, - они изданы под названием "Голоса


из сундучка”.

Б.Вахабзаде, до сих пор известный могучий мастер слова, публицист, организатор литературного процесса, в последнее десятилетие проявляет серьезную как аксакал, в области многих судьбоносных проблем, в том числе в связи с надуманной и навязанной республике “Нагорно-Карабахской проблемой”. Он, вместе с тем, ведет неутомимую борьбу за чистому родного языка. За стихотворение “Родной язык”, в котором он выступал за полноправное участие азербайджанского языка в общественной и государственной жизни своего народа наряду с официальным языком СССР, на него обрушилось много громов и молний со стороны литературной критики, подчиненной советскому тоталитарному режиму.

Дом Вахабзаде стал своего рода “вратами надежды” для соотечественников. Из различных уголков, сел и городов страны ежедневно он получает десятки писем, принимает у себя дома многих людей, пришедших к нему со своими житейскими жалобами, невзгодами, просьбами; он стремится помочь им в меру своих сил и возможностей.

Выступая с трибуны парламента, на общественно-политических форумах, на страницах печати, по радио и телевидению, он снискал всеобщее глубокое уважение и любовь как истинный зашитник народных интересов, как настоящий патриот и трибун. Для художника - гражданина Бахтияра Вахабзаде интересны народы, братское единение людей доброй воли и духовная свобода личности составляют смысл и существо творческого и жизненного поведения.

Д-р Симеон Юрак.





KİTABIN İÇİNDƏKİLƏR

Şairin və şeirin milliliyi 3

ÇIXIŞLAR, RƏYLƏR, MƏKTUBLAR

Parlament komissiyasının yaradılması labüddür 19
Demokratiya, yoxsa totalitarizm? 24
Haqqın qələbəsi labüddür 27
Türk xalqlarının birliyi 29
Əzizim Gəray bəy! 31
Özümüzə qayıdış 33
ABŞ-ın dövlət katibi cənab Ceyms Beykerə açıq məktub 35
Hörmətli cənab səfir Riçard Kozlariç! 40
Eyni dərd, eyni düşüncələr 43
Dəyərli kitab 48
Mənim rəyim 51
Beşik dəftəri 55
Ey, qocaman Türkiyə! 60
Elisam mükafatı 68
Sona xanıma məktub 71
Mənəviyyat bayrağı 74
Hörmətli Əhməd Kabaklı bəy! 78
Siyasət və ədəbiyyat, yaxud Xoruz oğlunun pitisi 81
Aşıq Sakit Köçəriyə məktub 84
Zaman var, tarix var 86

Əzizim Fuad! 91
Mənim fikrimi təhrif etmişlər 93
Əxlaq və mənəviyyat 97
İztirablı qəlbin fəryadı 104
Əsrin ölüm siyahısı 108
Dünyanın sultanı elmdir 112
"Tənqid yarpaqları" haqqında qeydlər 117
Bu pərişan günlərin sonu olacaq 121
"Türkiyə arxamızda olmasaydı, başımıza
çox bəlalar gələrdi" 123
"Ərən" qəzetinin baş redaktoru Ramazan Qafarlıya 125
"Yağmur" dərgisinə 127
Egitim-bilim" dərgisinə 129
Əxlaq normaları 133
Əziz Muxtar bəy! 135
Sizinlə dərdləşmək istəyirəm 137
Əsarətimiz, istiqlalımız və Türkiyə 141
20 Yanvar 146
Atatürk Kültür Mərkəzinə təşəkkür 151
Əzizim Məmməd Araz! 154
"Azerros" qəzetinin əməkdaşlarına və müəlliflərinə 156
Bu məktubu ürək ağrısı və göz yaşlarımla yazdım 159
Hörmətli Alla xanım Dudayeva! 164
Egitim bakanına cavab 167
Hörmətli Pərviz Əliyev! 171
"Qafqaz" jurnalının həmtəsisçisi Cavanşir Feyziyevə 173

MÜSAHİBƏLƏR

Suallar-cavablar 177
"Ulduz" jurnalının suallarına cavab 183
"Rodonski Ustrem" (Bolqarıstan) qəzetinin əməkdaşı
Qeorgi Qrivnevlə müsahibə 185

Radionun əməkdaşı E.Baxışla müsahibə 188
“Ulduz” jurnalının əməkdaşı T.Həmidlə müsahibə 198
Azərbaycan televiziyasının əməkdaşı ilə müsahibə 207
Gənclərə həqiqəti demək lazımdır 214
İnsan inam övladıdır 227
Allah bizi dərddən, bəladan xilas eləsin! 237
Sözü cavanlara verin 239
Elə ahlar böyütdük ki 245
Üzünüzü xalqa tutun 251
Bəxtin varmı, Bəxtiyar?! 258
“Günahsız müqəssirlər” 265
Çağırır milləti imdada Vətən! 268
Demokratiyanın qələbəsi qorunmalıdır 274
Haqqın, ədalətin səsiylə yazıram 278
Qarşıdurmaya qarşıyam 287
Mən iqtidarı da, müxalifəti də ayıq olmağa çağırıram 292
İcazəli qəhrəmanlığa nə var ki 300
Ölmədim bu günü gördüm 304
Axı, biz hüquqi dövlət yaratmaq iddiasındayıq 309
Dünya beş günmü? 315
Samsun universitetinin asistanı Hüsniyyə Mayadağın suallarına cavab 323
Ziyalı sözü 332
Qırğın əvvəlcədən hazırlanmışdır 337
Sular duruldu, gördük dibindəki daşları 342
Haqq işimizə göz yumurlar 349
“Hər gecə kəlmeyi-şəhadətimi deyirəm” 353
Aydın sabahın ümidi ilə 359
Bu da bir alın yazısıydı 363
Lap yaxşı eləyib, doğrudan, bizə biri “baran” dedi, biri “xər” dedi 368
İstiqlal naminə 372
Məni siyasətdə deyil, şeirlərimdə axtarın 376

Hakimiyyət davası 379
Zaman və mən 382
Gələcəyimizə inaniram 385
“Hara gedir bu dünya?” 389
“Bilmirəm, bu millətə vəkil etdi kim məni?!” 395
Küləkli gündə müsahibə 404
“Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi” 415
“Yaradıbdır inam məni” 421
Sevən doxsanında hələ cavandır 425
Müxbir suallarına cavablar 432
Rus generalı ilə üzləşmə 435
Özündən narazılıq 440
Damarlarında türk qanı axan hər bir kəsin qəlbində Güney Azərbaycan dərdi var 443
Bu Vətən hamımızın anasıdır 448
Müsahibə 470
Dinimizi sevək, sevdirək, yaşadaq 485
Türkün özü və sözü 487
Mən heç bir məzhəbin şairi olmaq istəmirəm 494
Son yazılar 501

SƏFƏR TƏƏSSÜRATLARIRATLARI, GÖRÜŞLƏR

İki həftə 507
Füzulini ziyarət edərkən 534
Axtaran tapar 541
Şekspirin vətənində 559
Azərbaycan prezidenti Heydər Əliyev xəstəxanada xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşmüşdür 571
Süleyman Dəmirəl: “Siz türk dünyasının yaşayan ən böyük şairisiniz” 584
Kim deyir ki, qorxmuram, yalan deyir 589
Ziyarətçilərin ardı-arası kəsilmirdi 591

Süleyman Dəmirəllə ikinci görüş 593
Türkiyəyə ilk səyahət 595

ƏYİLMƏZ BİR SƏNƏTKAR
(MÜASİRLƏRİ B.VAHABZADƏ HAQQINDA)

Düşündürən poeziya *(Y.Qarayev)* 601
Şairin və şeirin milliliyi *(Y.Qarayev)* 610
Nəfəsin, səsin istiqlal harayı və enerjisi *(Y.Qarayev)* 617
Özündən narazılıq *(N.Cəfərov)* 623
Təbiətin hökmü olsaydı, məndə *(Esmira Fuad)* 626
Uca fikirlər, coşqun ehtiraslar poeziyası *(M.İbrahimov)* 638
Bəxtiyar Vahabzadə *(R.Rza)* 644
Bəxtiyarlıq *(R.Rza)* 647
Narahat şair *(M.Hüseyn)* 649
Əziz Bəxtiyar *(Niyazi)* 654
Şahin şahpərli şair *(S.Rəhimov)* 656
Azərbaycanın xalq şairi *(S.Rüstəm)* 661
Məktəb şeirləri *(O.Sarıvəlli)* 665
Şairin lirası *(İ.Əfəndiyev)* 671
Bəxtiyarı düşünürəm *(M.Abdullayev)* 674
Şair qəlbli dramaturq *(Ə.Zeynalov)* 676
Şairin səsi - xalqın səsi *(M.Cəfər)* 677
Poeziyamız bir ümmandırsa *(N.Xəzri)* 680
Qardaşım Bəxtiyar *(B.Azəroğlu)* 682
Musiqi qanadlı şeirlər *(Ş.Axundova)* 685
Şair ləyaqəti, şair sevgisi *(M.Əlioğlu)* 687
Poeziyanın qələbəsi *(Ə.Ağayev)* 694
Vətən torpağından göyərmiş poeziya *(A.Məmmədov)* 700
Biri varmış, biri yoxmuş... *(Z.Yaqub)* 706
“Yaradıbdir inam məni, mən inamın
övladıyam” *(Ç.Aytmatov)* 710
Şair haqqında bir neçə söz *(Y.Yevtuşenko)* 715

Şair sözünün sehri *(Y.İsayev)* 719
Dünyanın müqəddəratı üçün məsuliyyət *(R.Kazakova)* 722
Bəxtiyar Vahabzadə - 60 *(R.Kazakova)* 725
Ürək söhbəti... *(S.Kunayev)* 728
Qəlbin ülvi duyğuları *(P.Movçan)* 731
Bir Azəri şairi B.Vahabzadə *(Ə.B.Ercilasun)* 736
Bəxtiyar Vahabzadə *(Ə.Y.Akpınar)* 743
"Payız düşüncələri"ndə böyük arzular *(D.Yıldırım)* 746
Brilyant kimi bir şeir *(M.Kaplan)* 752
Bir neçə söz *(Y.B.Bakilər)* 758
Bəxtiyar Vahabzadənin həyatı və sənəti haqqında bir neçə söz *(F.Bağçıoğlu)* 762
Bəxtiyar Vahabzadənin "Hörümçək tor bağladı" şeiri haqqında *(M.H.Kukul)* 766
Dəyərli əsər *(M.Hüseyn)* 770
Rəy *(L.Qumilyov)* 776
"Sadə adamlar" *(Q.Xəlilov)* 778
Şairanə düşüncələr *(K.Talıbzadə)* 785
Fikir və məna şairi *(X.R.Ulutürk)* 788
"Bir gəminin yolçusuyuq" *(A.Dadaşzadə)* 794
Vicdanın səsi *(A.Məmmədov)* 798
Kalillik, bütövlük *(Q.Xəlilov)* 802
"Hara gedir bu dünya?" *(Ş.Ələkbərzadə)* 807
"Mənim bir günüm də sizsiz olmasın!" *(Ş.Ələkbərzadə)* 812
"Bu torpaqdan doymadım" *(Ç.Aytmatov)* 818
"İki korku" *(B.Ayvazoğlu)* 821
Фон - исторический, с намеком на современность *(Б.Надирова)* 826
Азербайджанские поэты почитаютсяна своей родине приверженность к традициям *(С.Кинзер)* 829
Предисловие *(С.Юрак)* 833

BƏXTİYAR VAHABZADƏ

ƏSƏRLƏRİ

On iki cilddə

XII cild

Publisistika

«Qafqaz Plus» MMC-də hazırlanmışdır.

Bədii dizayneri
Xəyyam Əliyev

Texniki redaktorları
Adilə Osmanova,
Ləman Qafarova

Çapa imzalanmış 27.01.2009. Kağız formatı 84x108 1/32.
Həcmi 32,6. Tirajı 500. Sifariş 031.
Qiyməti müqavilə ilə.

Direktor: prof. N.B.Məmmədli
Nəşrə məsul: Əziz Ələkbərli

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
E-mail: nurlan 1959@yahoo.com
Tel.: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.